ISSN 2708-955X (print)
ISSN 2709-6033 (on-line)

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

MINISTRY OF EDUCATION OF
AZERBAIJAN REPUBLIC
SUMGAYIT STATE UNIVERSITY

KONFRANS
MATERİALLARI

МАТЕРИАЛЫ КОНФЕРЕНЦИЙ
CONFERENCE PROCEEDINGS

2022 № 4

SUMQAYIT - 2022

ISSN 2708-955X (print)
ISSN 2709-6033 (on-line)

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

MINISTRY OF EDUCATION OF AZERBAIJAN REPUBLIC
SUMGAYIT STATE UNIVERSITY

KONFRANS
MATERİALLARI
МАТЕРИАЛЫ КОНФЕРЕНЦИЙ
CONFERENCE PROCEEDINGS

2022 № 4

SUMQAYIT – 2022
СУМГАИТ – 2022
SUMGAYIT – 2022

Sumqayıt Dövlət Universiteti
Konfrans materialları

REDAKSİYA HEYƏTİ

ELXAN HÜSEYNOV *prof., rektor (baş redaktor)*
RAMAZAN MƏMMƏDOV *prof., elm və innovasiyalar üzrə prorektor, (baş redaktor müavini)*
ƏKBƏR AĞAYEV *prof. (təbiət və texniki elmlər bölməsi üzrə məsul katib)*
NİGAR İSGƏNDƏROVA *prof., (sosial və humanitar elmlər bölməsi üzrə məsul katib)*

Сумгаитский государственный университет
Материалы конференций

РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ

ЭЛЬХАН ГУСЕЙНОВ *проф., ректор (главный редактор)*
РАМАЗАН МАМЕДОВ *проф., проректор по науке и инновациям (заместитель главного редактора)*
АКПЕР АГАЕВ *проф. (ответственный секретарь раздела естественных и технических наук)*
НИГЯР ИСКЕНДЕРОВА *проф., (ответственный секретарь раздела социальных и гуманитарных наук)*

Sumgayit State University
Conference proceedings

EDITORIAL BOARD

ELKHAN HUSEYNOV *prof., rector (chief editor)*
RAMAZAN MAMMADOV *prof., vice-rector for science and innovations, (deputy chief editor)*
AKBAR AGAYEV *prof. (executive secretary of the department of natural and technical sciences)*
NIGAR ISGANDAROVA *prof., (executive secretary of the department of social and humanitarian sciences)*

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ MÜƏLLİM ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASINDA PEDAQOGİKA VƏ PSİXOLOGİYA ELMLƏRİNİN YERİ VƏ ROLU

RESPUBLİKA ELMİ KONFRANSI
(28-29 aprel 2022-ci il)

МЕСТО И РОЛЬ ПЕДАГОГИКИ И ПСИХОЛОГИИ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ УЧИТЕЛЯ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

РЕСПУБЛИКАНСКАЯ НАУЧНАЯ КОНФЕРЕНЦИЯ
(28-29 апреля 2022 года)

THE PLACE AND ROLE OF THE SCIENCES OF PEDAGOGY AND PSYCHOLOGY IN THE FORMATION OF THE TEACHER'S PERSONALITY IN THE CONTEXT OF GLOBALIZATION

REPUBLICAN SCIENTIFIC CONFERENCE
(April 28-29, 2022)

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ MÜƏLLİM ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASINDA PEDAQOGİKA VƏ PSİXOLOGİYA ELMLƏRİNİN YERİ VƏ ROLU

RESPUBLİKA ELMİ KONFRANSI
(28-29 aprel 2022-ci il)

Sumqayıt – 2022

TƏŞKİLAT KOMİTƏSİ
ОРГАНИЗАЦИОННЫЙ КОМИТЕТ
ORGANIZING COMMITTEE

SƏDR

Hüseynov E.B.	Rektor, professor

SƏDR MÜAVİNİ

Məmmədov R.S.	Elm və innovasiyalar üzrə prorektor, professor

ÜZVLƏR

Talıbov N.H.	Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor, dosent
Atayev Q.N.	Beynəlxalq əlaqələr üzrə prorektor, dosent
Hacıyev N.İ.	İqtisadi məsələlər üzrə prorektor
Məmmədov Ə.A.	Ümumi işlər üzrə prorektoru
Xəlilov E.Ş.	Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor, dosent
Məmmədov A.İ.	Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri, professor
İsgəndərova N.V.	Xarici dillər kafedrasının müdiri, professor
Eminli B.İ.	Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının müdiri, dosent
Həmzəyeva S.S.	Filologiya fakültəsinin dekanı, dosent
Məmmədova A.T. ***(məsul katib)***	Pedaqogika və psixologiya kafedrasının müdiri, dosent
Orucov S.K.	Elmi hissəsinin müdiri, dosent
Xəlilov S. A.	Doktorantura və magistratura şöbəsinin müdiri, dosent
Abdullayev A.N.	Linqvistik mərkəzinin rəhbəri

PROQRAM KOMİTƏSİ
ПРОГРАММНЫЙ КОМИТЕТ
PROGRAM COMMITTEE

Fərrux Rüstəmov	professor, Azərbaycan Dövlət Pedaqoji Universiteti
Ramiz Əliyev	professor, Azərbaycan Dövlət Pedaqoji Universiteti
Rüfət Hüseynzadə	professor, Azərbaycan Dövlət Pedaqoji Universiteti
Hikmət Əlizadə	professor, Bakı Dövlət Universiteti
Afiq Əliyev	dosent, Lənkəran Dövlət Universiteti
Allahverdi Quliyev	dosent, Gəncə Dövlət Universiteti
Aytəkin Məmmədova	dosent, Sumqayıt Dövlət Universiteti
Ceyhun Məmmədov	dosent, Sumqayıt Dövlət Universiteti
Şikar Hüseynov	dosent, Sumqayıt Dövlət Universiteti
Sevər Mirzəyeva	dosent, Sumqayıt Dövlət Universiteti
Kəmalə Salamova	dosent, Sumqayıt Dövlət Universiteti
Sevinc Kərimova	dosent, Sumqayıt Dövlət Universiteti

PLENAR İCLAS

AZƏRBAYCANLI MÜƏLLİM KADRLARI HAZIRLIĞINDA İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ ROLU

Rüstəmov Fərrux Abbas oğlu
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi
farrukhrustamov@gmail.com

Açar sözlər: *Azərbaycan, İrəvan xanlığı, İrəvan Müəllimlər Seminariyası, milli dərslik, ibtidai məktəb*

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2021-ci il tarixində imzaladığı "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" [1] Sərəncam mühüm elmi-pedaqoji, siyasi-ideoloji və mədəni-mənəvi əhəmiyyət kəsb edir.

2. İrəvan mahalında dünyəvi məktəb sisteminin yaradılması Zaqafqaziya məktəblərinin ilk nizamnaməsinin (1829) qəbulu ilə bağlıdır. 1832-ci ildə İrəvan şəhərində 2 sinifli qəza məktəbi yaradılmışdır. Həmin məktəb 1839-cu ildə 3 sinifli qəza məktəbinə, 1869-cu ildə progimnaziyaya (4 sinifli), 1881-ci ildə gimnaziyaya çevrilmişdir.

3. Rusiyada 1870-ci ildə qəbul edilən "Müəllimlər seminariyası haqqında əsasnamə" və 1875-ci il təlimat xarakterli məktub əsasında Zaqafqaziyada seminariyalar təşkil edilmişdir.

4. 20 oktyabr 1880-ci ildə Rusiya Dövlət Şurası tərəfindən "Kutaisi və İrəvan quberniyalarında müəllimlər seminariyalarının təşkil edilməsi haqqında" qərar qəbul olunmuşdur. İrəvan Müəllimlər Seminariyasının illik fəaliyyəti üçün 28.350 rubl. vəsait nəzərdə tutulmuşdu.

5. İrəvan Müəllimlər Seminariyası 8 noyabr 1881-ci ildə 9 müəllim, 42 şagirdlə fəaliyyətə başlayıb. İrəvan Müəllimlər Seminariyası fəaliyyətə başladığı ilk dövrdə tədris prosesi üçün lazımi səviyyədə əlverişli şəraiti olmayan, illik icarə haqqı 5 min rubl olan birmərtəbəli binada yerləşmişdi. Binanın qapısının üzərindən kiçik bir lövhə asılmışdı. İrəvan təhsil tarixinin tanınmış tədqiqatçısı dosent C. Allahverdiyevin araşdırmalarına görə, həmin lövhənin üzərində əski ərəb əlifbası ilə bu sözlər yazılmışdı:

"Əcəb səadətə çatdıq görüb əsl səidi,
Bu zülmət içrə göründü gözə "Ziyayi-Rəşidi" [2].

6. İrəvan Müəllimlər Seminariyasının da tərkibi beynəlmiləl idi. İlk təhsil ilində seminariyaya qəbul olunan 42 şagirdin 8-i rus, 28-i erməni, 6-sı azərbaycanlı idi. İkinci tədris ilində azərbaycanlıların sayı xeyli artdı. İkinci tədris ilinin sonunda tələbələrin ümumi sayı 54 nəfər olmuşdu ki, onlardan da 7-si rus, 23-ü azərbaycanlı, 23-ü isə erməni idi. Seminariyada təhsil müddəti 3 il idi, nəzdində hazırlıq sinfi, nümunəvi ibtidai məktəb fəaliyyət göstərirdi. Seminariya 2 qrupla (böyük hazırlıq qrupu və birinci qrup) başlamışdı [3]. 1883-cü ildə üçüncü sinif təşkil olunmuşdu. 1883-1884-cü tədris ilində hazırlıq qrupunda həftəlik dərs saatlarının miqdarı 36 saat, I sinifdə 38 saat, II sinifdə 39 saat, IV sinifdə isə 40 saat olmuşdu. Sonrakı illərdə şagirdlərin və müəllimlərin sayı artmışdı.

7. Seminariyanın nəzdində nümunə məktəbi-ibtidai məktəb fəaliyyət göstərirdi. Seminaristlər ibtidai məktəbin tədbirlərində iştirak edir, şagirdlərlə müxtəlif oyunlar təşkil edir, müəllimin ən yaxın köməkçisi rolunda çıxış edirdilər. 1882-1883-cü tədris ilində ibtidai məktəbdə 61 şagird təhsil alırdı ki, onlardan da 13-ü azərbaycanlı, 38-i erməni,10-u rus millətinin nümayəndələri idi [4]. 1889-1900-cü illərdə şagirdlərin sayı 82 nəfərə çatmışdı. Nümunə məktəbinin müdiri ayrı-ayrı vaxtlarda V.A.Muxin, A.Suvorov, ilk azərbaycanlı müəllimi isə Məşədi Bağır Qazızadə olmuşdu. Aşağı hazırlıq sinfində azərbaycanlı uşaqları həftədə 5 saat rus dili, 5 saat riyaziyyat, 4 saat ilahiyyat, 2 saat tarix, 2 saat coğrafiya, 2 saat fizika, 2 saat təbiətşünaslıq, 2 saat nəğmə, 2 saat hüsnxət, 2 saat rəsm, 2 saat rəsmxət (həftədə cəmi 30 saat) öyrənirdilər. Azərbaycanlı uşaqlar rus dilini, rus adət-ənənəsini, tarixini və coğrafiyasını öyrəndikdən sonra xristian uşaqları ilə birlikdə oxuya bilərdilər. Aşağı hazırlıq sinfinə rus dilini bilməyən uşaqlar qəbul olunurdu. Azərbaycanlı şagirdlərin aşağı hazırlıq siniflərinə daxil olması və seminariyada 5 il oxuması məcburi deyildi. Siniflər komplektləşdirilərkən şagirdlərin hazırlıq səviyyələri nəzərə alınırdı. Rus dilində danışmağı bacaran, müəyyən hazırlıq səviyyəsi olan şagirdlər yuxarı hazırlıq siniflərinə, yaxud birinci sinfə qəbul edilirdi. Seminaristlər 2-ci sinifdə 4 saat, 3-cü sinifdə 8 saat ibtidai məktəbdə təcrübədə olurdular.

8. Seminariyada tədris ili 38 tədris həftəsindən, təxminən 210-215 gündən ibarət (bayram günləri istisnasız) olurdu. Seminaristlər üç il müddətində Azərbaycan dili ilə bərabər, ilahiyyat, rus dili, riyaziyyat, tarix, coğrafiya, fizika, təbiətşünaslıq, pedaqogika, nəğmə, hüsnxət, rəsmxət, rəsm, gimnastika fənlərini öyrənirdilər. Rusiyada digər tədris müəssisələri kimi, seminariyaların da tədris planları tez-tez dəyişdirilirdi. Məsələn, 1890-cı ildə təsdiq edilən müəllimlər seminariyalarının tədris planında 1 və 2-ci siniflərdə həftədə 24, 3-cü sinifdə 20 saat tədris yükü nəzərdə tutulmuşdu.

Gimnastika və əl işləri yerli dillər (Azərbaycan dili, erməni dili) kimi fakültativ məşğələlərdə öyrədilirdi. Tədris planının xeyli zəngin olmasına baxmayaraq, seminariyanı bitirənlər həmin dövrdə təhsillərini yalnız o qədər də yüksək statusu olmayan müəllimlər institutlarında davam etdirə bilərdilər.Yarandığı gündən funksiyası ibtidai məktəblər üçün müəllim hazırlamaq olan seminariyalar statusuna görə, ibtidai məktəbdən yuxarı, orta məktəbdən aşağı idi. Ona görə də hələ 1908-ci ildə dövlətin bu siyasətini kəskin tənqid edən P.Klunnıy müəllimlər institutlarının məzunlarını *"universitetlərin bağlı qapılarını döyənlər"* adlandırırdı [5]. 14 may 1917-ci ildə müəllimlər seminariyalarının və müəllimlər institutlarının statusları müzakirə edilərək hər iki təhsil müəssisəsinə orta məktəb statusu verildi. Həmin dövrdə İrəvan Müəllimlər Seminariyası Armavirdə fəaliyyət göstərirdi. Həmin dövrdə Rusiyada kənd məktəbləri üçün müəllim kadrları hazırlığında müəllimlər seminariyaları mühüm rol oynayırdı. Bu səbəbdən də müəllim seminariyalarının sayı ildən-ilə artırdı.

1917-ci ilin avqustun 3-dən 8-nə kimi Moskvada Ümumrusiya Müəllimlər Seminariyalarının Nümayəndələrinin Qurultayı keçirildi. Qurultayda Dövlət komitəsinin üzvü N.N.İordanskinin müəllimlər seminariyalarının statusunda və tədris planında dəyişiklikləri nəzərdə tutan qanun layihəsi müzakirə edilərək təsdiq olundu.

9. Seminariyada ana dili fənninin tədrisində həmin dövrdə İrəvan gimnaziyasında müəllim işləyən görkəmli Azərbaycan maarifçisi F.B.Köçərlinin yazdığı "Azərbaycan dili proqramı"ndan istifadə olunurdu. Həm seminariyanın nəzdindəki nümunə məktəbində, həm də gimnaziyada ilk vaxtlar müəllimlərin özlərinin hazırladığı materiallardan və M.Elxanovun "Vətən dili" dərsliyinin əlyazmasından istifadə edilirdi. Həmin dərsliyə Qori Müəllimlər Seminariyasının popeçiteli A.O.Çernyayevski, Sankt-Peterburq Universitetinin Şərq fakültəsinin dosenti V.Simirnov müsbət rəy versə də, təəssüf ki, həmin dərslik nəşr edilməmişdir. Amma Mirzə Elxanovun "Vətən dili" dərsliyi izsiz qalmadı. Məhz həmin dərsliyin təsiri ilə A.O.Çernyayevskinin və M.H.Rüşdiyyənin "Vətən dili" dərslikləri meydana gəldi. Sonralar həm Qori, həm də İrəvan müəllimlər seminariyalarında A.O.Çernyayevskinin "Vətən dili" dərsliyindən istifadə olunurdu.

10. İrəvan Müəllimlər Seminariyasında Azərbaycan dili müəllimi vəzifəsində Axund Məmmədbağır Qazızadə (1881-1897), Rəhim Xəlilov (1898-1903), Həmid bəy Şahtaxtinski (1904 -1917), şəriət müəllimi vəzifəsində isə Axund Məmmədbağır Qazızadə (1881-1911) və Axund Əbülhəsən Qazızadə (1912-1917) işləyiblər. İrəvan Müəllimlər Seminariyasının məzunu olan Həbib bəy Səlimov (Azərbaycan Xalq Cümhuriyyətinin generalı) az bir müddətdə seminariyada gimnastika (fiziki tərbiyə) müəllimi olub.

11. İrəvan Müəllimlər Seminariyasının ilk buraxılışı 1884-cü ildə olub. Həmin il məktəbi 5 nəfər azərbaycanlı bitirib.1885-ci ildə 9, 1886-cı ildə 14, 1887-ci ildə 6, 1888-ci ildə 10, 1889 -cu ildə 13, 1890-cı ildə 12 nəfər olub. Bu illər ərzində 69 nəfər ibtidai məktəb müəllimi adını alıb [6]. Məzunların 39 nəfəri İrəvan-Yelizavetpol, 2 nəfəri Bakı və Dağıstan, 1 nəfəri Kutaisi, 1 nəfəri Stavropol məktəblərinə göndərilmişdi. 1891-ci ildə seminariyanın 12, 1892-ci ildə 4, 1893-cü ildə 5, 1894-cü ildə 9,1895-ci ildə 14 nəfər məzunu olub [7]. 1881-1895-ci illərdə seminariyanın 12 buraxılışı olub ki, buradada 123 nəfərə ibtidai məktəb müəllimi adı verilib. Onlardan 25 nəfəri azərbaycanlı, 67 nəfəri erməni, 8 nəfəri rus, 2 nəfəri dağlı, 10 nəfəri digər millətlərin nümayəndələri olub. 1895-1915-ci illərdə İrəvan Müəllimlər Seminariyasını 38 nəfər, 1916-cı ildə 19 nəfər,1917-ci ildə 22 nəfər, 1918-ci ildə 23 nəfər azərbaycanlı bitirib [8].

12. İrəvan Müəllimlər Seminariyası şəhərdə yalnız təhsil ocağı deyil, elm və mədəniyyət mərkəzinə çevrilmişdi. Seminariyada azərbaycanlılarla yanaşı, demokratik fikirli rus, ukraynalı və erməni müəllimləri fəaliyyət göstərirdi.1881-ci ildən 1914-cü ilədək İrəvan Müəllimlər Seminariyasını 63 nəfər azərbaycanlı bitirmişdi. İrəvan Müəllimlər Seminariyasının direktoru V.V.Dobrotinin 1918-ci ildə yazdığı hesabatdan aydın olur ki, 1915-1916-cı tədris ilində seminariyanı 19 nəfər, 1916-1917-ci tədris ilində 22 nəfər, sonuncu – 1917-1918-ci tədris ilində isə 23 nəfər azərbaycanlı bitirmişdi. Ümumiyyətlə, üç il ərzində seminariyanı 316 nəfər bitirmişdi ki, onlardan 64 nəfərini azərbaycanlılar, 2 nəfərini isə türklər təşkil etmişdi.

1915-ci ildə İrəvan Müəllimlər Seminariyası Armavirə köçürüldü və 1918-ci ilə kimi orada fəaliyyət göstərdi. Həmin dövrdə seminariyaya direktor B.B.Dobrotin rəhbərlik edirdi. Seminariyada 3 ilahiyyat müəllimi, 9 fənn müəllimi və 1 həkim çalışırdı. Azərbaycan dili fənnini Mirzə Cabbar Məmmədov, şəriət fənnini isə Axund Məmmədbağır Qazızadə tədris edirdi. 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri etnik təmizləmə səbəbindən seminariya fəaliyyətini dayandırdı, müəllimlərin və tələbələrin bir qismi amansızcasına qətlə yetirildi, sağ qalanlar isə doğma yurdlarını tərk edərək Türkiyəyə və Azərbaycana pənah apardılar. Çar Rusiyasının bilavasitə dəstəyi ilə qədim Azərbaycan torpağında yaradılan İrəvan quberniyasının əsasında RSFSR-in köməyi ilə ilk erməni dövləti (Ararat) yaradıldı. Bu torpağın qədim

sakinləri - azərbaycanlılar isə öz vətənlərində azsaylı xalqlardan birinə çevrildilər. Ermənistan K(b)P MK-nın nəzdində fəaliyyət göstərən "Azsaylı xalqlar" şöbəsinin müdiri Bala Əfəndiyevin, Xalq Maarif Komissarlığının "Azlıqda qalan millətlər" bürosunun rəhbəri Mehdi Kazımovun, "Zəngi" qəzetinin məsul redaktoru Mustafa Hüseynovun, digər milli ziyalıların milli iradəsi və təkidli tələbləri sayəsində 1924-cü ilin oktyabr ayının 15-də İrəvan Müəllimlər Seminariyasının xələfi olan İrəvan Türk Pedaqoji Texnikumu açıldı. Bir il sonra İrəvan Türk Pedaqoji Texnikumuna böyük siyasətçi və dövlət xadimi N. Nərimanovun adı verildi. Məqsəd azərbaycanlıların təhsil aldığı məktəbləri ibtidai sinif müəllimləri ilə təmin etmək idi. Lakin İrəvan Müəllimlər Seminariyasının ənənələrini yaşatmaqla bölgədə əbədi-mədəni və təhsil mühitinin formalaşmasında və inkişafında mühüm rol oynayan Türk Pedaqoji Texnikumu ilk vaxtlardan böyük çətinliklərlə üz-üzə qaldı. Texnikum 1949-cu ildə azərbaycanlıların indiki Ermənistan ərazisindən kütləvi deportasiyası ilə əlaqədar olaraq Xanlar rayonuna köçürüldü. Beləliklə də, azərbaycanlıların indiki Ermənistan ərazisindən – Qərbi Azərbaycandan kütləvi deportasiyasına zəmin hazırlandı və bu hadisə 1988-ci ilin noyabr-dekabr aylarında həyata keçirildi.

Ədəbiyyat

1. "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2021-ci il tarixli Sərəncamı. "Xalq qəzeti" 29 dekabr 2021-ci il.
2. Allahverdiyev C. Cənubi Qafqazda dünyəvi təhsil verən məktəb. https: //www. yeniazerbaycan. com/Sosial_e65324_az.html
3. Rüstəmov F.A. Milli müəllim kadrları hazırlayan təhsil ocağı.I məqalə. // "Azərbaycan müəllimi" qəzeti, 7 yanvar 2022
4. Rüstəmov F.A. Milli müəllim kadrları hazırlayan təhsil ocağı.II məqalə. // "Azərbaycan müəllimi" qəzeti, 20 yanvar 2022
5. Klunnyy P. (1908). Okonchivshiye uchitelskiye instituty stuchatsya v zakrytuyu dver universiteta // Russkaya shkola. № 3. c. 116–117.
6. Ermənistan Respublikası DTA f.3.siy.3.iş 151,v.2,5.
7. Ermənistan Respublikası DTA f.3.siy.1.iş 209,v.2.
8. Ermənistan Respublikası DTA f.197.iş 5,v.9.

РЕЗЮМЕ

РОЛЬ ЕРЕВАНСКОЙ УЧИТЕЛЬСКОЙ СЕМИНАРИИ В ПОДГОТОВКЕ АЗЕРБАЙДЖАНСКИХ УЧИТЕЛЕЙ

Рустамов Ф.А.

Азербайджанский государственный педагогический университет

Важную роль в подготовке азербайджанских учителей сыграла Ереванская учительская семинария, основанная в 1881 году. Почти 40 лет семинария готовила высококвалифицированных преподавателей с современным мировоззрением и мышлением. Выпускники семинарии принимали активное участие в открытии светских школ в районах, населенных азербайджанцами, в привлечении к обучению детей школьного возраста, принесли большие жертвы в распространении образования в Ереване, Нахчыване и других районах Азербайджана. По этой причине Президент Азербайджанской Республики Ильхам Алиев подписал 29 декабря 2021 года распоряжение «О проведении 140-летия Ереванской учительской семинарии».

Ключевые слова: *Азербайджан, Иреванское ханство, Иреванская учительская семинария, национальный учебник, начальная школа*

SUMMARY

THE ROLE OF THE YEREVAN TEACHERS' SEMINARY IN THE TRAINING OF AZERBAIJANI TEACHERS

Rustamov F.A.

Azerbaijan State Pedagogical University

An important role in the training of Azerbaijani teachers was played by the Yerevan Teachers' Seminary, founded in 1881. For almost 40 years, the seminary has trained highly qualified teachers with modern worldview and thinking. Graduates of the seminary took an active part in the opening of secular schools in the districts, inhabited by Azerbaijanis, in connection with the training of children of school age, brought great sacrifices in the spread of education in the districts of Yerevan, Azerbaijan and Yerevan. For this reason, the President of the Republic of Azerbaijan Ilham Aliyev signed a decree on December 29, 2021 "On the 140th anniversary of the Yerevan Teachers' Seminary."

Keywords: *Azerbaijan, Iravan Khanate, Iravan Teachers Seminary, National Textbook, Primary School.*

MÜƏLLİMİN PORTRET CİZGİLƏRİNİN İKİ SƏHİFƏSİ

Əlizadə Hikmət Əbdül oğlu
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan, pedaqoji elmlər doktoru, professor
hikmet56@gmail.com

Açar sözlər: *sinif məkanı, müəllim-şagird münasibətləri, kommunikativ qabiliyyətlər, didaktik qabiliyyətlər, konsepsiya, pedaqoji təcrübə*

Sinfi həm kəmiyyət, həm də keyfiyyət ölçüləri ilə xarakterizə edirlər. Keyfiyyət ölçüləri ilə xarakterizə edildikdə, məlum olur ki, sinifdə əlaçı, ortabab və zəif oxuyan, zəhmətkeş, tənbəl, səmimi, sözə qulaq asan və asmayan, lider, onu dəstəkləyən və dəstəkləməyən, hamının dostluq etmək istədiyi və istəmədiyi şagirdlər, oğlanlar və qızlardan ibarət ola heterogen və yalnız oğlan və ya qızlardan ibarət olan homogen qruplar və s. var. Kəmiyyət olçüləri hər bir qrupa daxil olan şagirdlərin sayını özündə ehtiva edir.

Keyfiyyət ölçüləri ilə yanaşanda sinif məkanının mürəkkəb quruluşu üzə çıxır. Bu məkan özünəməxsus münasibətlər sistemi ilə seçilir. Hər bir şagird bu məkanda həm bilik və səriştələr əldə edir, həm də şəxsiyyət kimi sosiallaşırlar. Müəllimin şagirdlərə münasibəti sinif şəraitində bilik və səriştələrin əldə edilməsi və sosiallaşma bu prosesini şərtləndirən əsas amillərdən biridir. Buna görədə müəllim-şagird münasibətləri məktəb həyatının məhək daşı kimi dəyərləndirilir. Müəllimin portret cizgiləri bu müstəvidə yaranır.

Müəllimin portret cizgilərinin çoxlu səhifələri var. Onlardan ikisi daha önəmlidir. Birinci səhifədə müəllimin kommunikativ qabiliyyətləri dominantdır. Bu qabiliyyətlərə şagirdlər xüsusi önəm verir və müəllimi qiymətləndirəndə ilk olaraq bu meyara üstünlük verirlər.

Müəllimlərə ən düzgün qiyməti şagirdlər verirlər. Bizim mentalitetə görə şagirdlərin müəllimi qiymətləndirməsi etik prinsiplərdən kənar sayılır. Amma dünya təcrübəsində şagirdin müəllimi qiymətləndirməsinə müsbət yanaşılır. Bu qiymətləndirmə nəticəsində müəllimlər özlərinə şagirdin gözü ilə baxa bilirlər. Şagird qiymətləndirilməsinə önəm verildiyi ölkələrdə psixoloqlar "Şagirdlər müəllimlərdə hansı keyfiyyətlərə üstünlük verirlər?" sualını aydınlaşdırmaq üçün məktəblərdə maraqlı tədqiqatlar aparıblar. Bu tədqiqatlardan ikisinə diqqət yetirək:

I tədqiqat: Şagirdlərə "Müəllimin səhvi" mövzusunda inşa yazmağı təklif ediblər. Şagirdlərin yazdığı inşada müəllimlərin səhvləri konkret faktlarla göstərilmişdi. Bu səhvlərin mütləq əksəriyyəti müəllimlərin şagirdlərlə qarşılıqlı münasibətinə həsr edilmişdir.

II tədqiqat: Həm məktəbin buraxılış sinif şagirdlərinə, həm pedaqoji institutun I kurs tələbələrinə, həm də müəllimlərə "ideal müəllimin keyfiyyətlərini"qeyd etmək xahiş edilmişdi. Əldə edilən nəticələrdən məlum olmuşdu ki, şagirdlər və tələbələr müəllimlərin insani keyfiyyətlərinə, müəllimlər isə işgüzar və peşə keyfiyyətlərə üstünlük verirlər. Göründüyü kimi, şagirdlər və müəllimlər eyni problemi prizmanın müxtəlif bacaqlardan dəyərləndirmişlər.

Müəllim-şagird münasibətləri təlim-tərbiyə prosesi yaranandan etibarən həmişə önəmli sayılıb. Bütün dövrlərdə bu münasibətlərin humanistləşdirilməsinin zəruri olduğunu vurğulayıblar. Amma təlim-tərbiyə prosesində cəzalandırma metodundan imtina edilməyib. Hətta elə dövrlər olub ki, cəzalandırma əsas metod kimi dəyərləndirilib. Pedaqoji təcrübəyə əsaslanaraq şagirdlərin cəza metodlarını xoşlamadığını deyə bilərik. Hətta cəzalanan şagirdlərin daha çox neqativ hərəkətlərə yol verdiyi də məlumdur.

Şagirdin neqativ hərəkətlərinə təbii ki, reaksiya göstərilməlidir. Amma dərindən fikirləşsək, məlum olar ki, bu hərəkətlərin özülündə əksər hallarda valideynlər və müəllimlər, onların şagirdə münasibəti durur. Həm evdə, həm də məktəbdə mövcud olan münasibətlərdə şagirdlər laqeydliklə rastlaşanda, daha dəqiq desək, danlaq içində "böyüyəndə" o ağlasızmaz hərəkətlər haqqında düşünür və bu hərəkətlərə yol verirlər. "Çətin" tərbiyəolunan şagirdlərin yaranma səbəblərini, ilk növbədə, burada axtarmaq lazımdır. Hər bir şagird layeqdliklə üsləşəndə addımlarını hamı tərəfindən qəbul edilmiş normalara əsasən deyil, öz "ağlının qüdrəti" əsasında atır. Şagirdi tərbiyə etmək üçün ona sevgi ilə yanaşmaq lazımdır. Şagirdlər müəllimlərdən insani keyfiyyətlər gözləyəndə bunu nəzərdə tuturlar.

Həyatda hər bir kəsin kədərli və ağrılı günləri olur. Şagirddə öz həyatında belə hadisələrdən sığortalanmayıb. Belə hallarda o ilk nöbvədə, müəllimdən imdad gözləyir. Müəllim bu zaman öz sevgisini

ondan əsirgəməyəndə, ona qayğı ilə yanaşanda adı böyük hərflərlə yazılan müəllimə çevrilir. Şagirdin yaşadığı hiss və həyacanları müəyyən etmək çətin deyil. İnsan sevincini də, kədərini də onun sifətindən asanlıqla oxumaq olur. Sadəcə olaraq müəllimdən bir az diqqətli olmaq tələb olunur. Müəllim şagirdin yaşadığı hiss və həyacanları görüb, bir xoş sözü ilə onun bu halətini dəyişə bilər. Dediyi bu bir kəlmə söz ilə müəllim şagirdin qəlbinə yol tapa bilir. Müəllimin müdrüklüyü şagirdə göstərdiyi qayğıdan, ona dediyi bir xoş sözdən başlayır.

Pedaqoji təcrübədən bir misal: Tələbkarlığı və ciddiliyi ilə fərqlənən riyaziyyat müəlliminin dərsi idi. Həmişə ciddi görkəmi ilə fərqlənən müəllimin bu gün sinfə girəndə həmişəkindən fərqli olaraq sifəti gülürdü. Hamı ona heyrətlə baxırdı. O üzünü şagirdlərə tutub, dedi: "Bu gün bizim sevimli şagirdimiz A-nın ad günüdür". A sinifdə ən aşağı təlim nəticələrinə malik, heç nə ilə fərqlənməyən, şagirdlər arasında nüfuzu olmayan bir şagird idi. Müəllim onun haqqında xoş sözlər dedi, onu təbrik etdi, xoş arzularını bildirdi. Növbəti dərsdə o əvvəlki günlərlə müqayisədə fəallığı ilə diqqəti cəlb etdi. Bir kəlmə xoş söz şagirdin dərsə münasibətində dəyişiklik yaratmışdı.

Şagirdlər insani keyfiyyətlər deyəndə elə müəllimin onların sevinc və kədərinə şərik olmasını düşünürlər. Qabaqcıl müəllimlər, ilk növbədə, bu keyfiyyətləri ilə fərqlənirlər. Bu keyfiyyət müəllimi şagirdə sevdirir. Müəllim və şagird bir-birini sevəndə..... həm müəllimin, həm də şagirdin uğurları artmağa başlayır.

Müəllimin portret cizgilərinin ikinci səhifəsini didaktik qabiliyyətlər təşkil edir. Məzmunu etibarı ilə didaktik qabiliyyətlər təhsilin qarşısına qoyulan məqsəddən asılı olaraq dəyişir. Son əlli il ərzində bu məzmun üç dəfə dəyişmişdi. Bu gün didaktik qabiliyyətlər "yaradıcı insanlar yetişdirmək bacarığı" kimi mənalandırılır. Müasir təlim yaradıcı insanlar yetişdirmə konsepsiyasına əsaslandığı üçün dərs yaradıcı insanların yetişdirilməsinə istiqamətlənməlidir. Müəllimin dərsi bu konsepsiyaya əsaslanmırsa, dərsin keyfiyyəti haqqında danışmaq mümkün deyil.

Ədəbiyyatda konsepsiya (latınca *conceptio*-anlama sistemi) müxtəlif məzmunda (nəyinsə izahında rəhbər ideya; vahid sistem təşkil edən bir şeyə baxışlar kompleksi; hər hansı bir hadisəni başa düşmək, şərh etmək üçün müəyyən yol, əsas nöqteyi-nəzər və s.) açıqlansa da, mahiyyəti etibarı ilə fəaliyyət strategiyasını müəyyən edir. Taktika strategiya əsasında ayırd edilir. Müəllim də fəaliyyətə başlayanda öz strategiyasına (oxu: konsepsiyasına) əsaslanaraq, taktika (oxu: metodika və texnologiya) müəyyənləşdirir. Qabaqcıl müəllimlərin fəaliyyətlərindəki uğurların sirləri onların konsepsiyasının məzmunundadır.

Pedaqoji təcrübə qabaqcıl müəllimlərin pedaqoji fəaliyyətlərində rəhbər tutduqları konsepsiyalarla zəngindir. Onların bir neçəsinə diqqət edək:

1.1990-çı illərdə akademik Azad Mirzəcanzadə texniki-humanitar liseydə şagirdlərə yaradıcılığın sirlərini öyrətmək üçün özünün təhsil konsepsiyası əsasında hazırladığı «riyazi - fiziki - kimyəvi - tənqidi tə-fəkkür» kursu tədris edirdi. Kursun tədrisində əsas məqsəd şagirdlərə bilik və səriştələr aşılamaqla yanaşı tənqidi təfəkkürün formalaşması və inkişafı idi.

2.Əməkdar müəllim Asif Cahangirov Sumqayıt şəhərində müəllim işləyərkən təlim prosesində şagirdlərdə müstəqil düşünmə, təhliletmə, ümumiləşdirmə, aparıcı ideyanı müəyyən etmə və bu kimi digər bacarıq və qabiliyyətləri formalaşdırmağa üstünlük verirdi. O bu məqsədə nail olmaq üçün dərsin gedişində problem situasiya yaradır, biliyin müstəqil olaraq şagirdlər tərəfindən "kəşf" edilməsinə calışır, onları problemin həllinin müxtəlif yolları ilə üz-üzə qoyur, düzgün cavabı tapanda şagirdə "niyə" sualına cavab verməyi tələb edir, bu yolla şagirdin fikrinin dolğun olub-olmamasını yoxlayır, digər şagirdlərin bu mülahizələrə fikirlərini öyrənirdi. Asif Cahangirov pedaqoji fəaliyyətində təfəkkürün inkişafı konsepsiyasına önəm vermişdi.

3.Professor Mustafa Salahov da təfəkkür formalaşması və inkişafı konsepsiyasına üstünlük verirdi. Lakin o **e**lmlərin inteqrasiyası şəraitində təbiətşünaslıq fənlərinin, ilk növbədə, kimyanın tədrisi prosesində şagirdlərdə təfəkkürü inkişaf etdirməyin yollarını axtarırdı. Axtarışları əsasında belə qənaətə gəlmişdi ki, ümumtəhsil məktəblərində təbiətşünaslıq fənlərinin dünyanın vəhdəti baxımından öyrənilməsi yolu ilə bu məqsədə nail olmaq mümkündür. Şagirdlərdə dinamik fəza təfəkkürünün inkişafı Mustafa Salahovun konsepsiyanın ana xətti idi. Dünamik fəza təfəkkürü inkişaf edəndə təbiətşünaslıq fənlərini şagirdlər qarşılıqlı əlaqədə, proses və hadisələrin daxili əlaqələrini taparaq mənimsəyirlər.

4.Qabaqcıl müəllim Fatma Bünyadova XX yüzilliyin görkəmli psixoloqu Jan Piajenin genetik epistomologiyasını məktəb təcrübəsinə tətbiq etdi. O, pedaqoji fəaliyyətində Jan Piajenin genetik psixologiyasının uğurları axarında şagirdlərin ağlını inkişaf etdirirdi. Jan Piajenin konsepsiyasının mərkəzində psixologiya və məntiqin nisbəti probleminin həlli xüsusi yer tutur. Onun qənaətinə görə, təfəkkür prosesləri mahiyyətcə məntiqə arxalanır. Fatma Bünyadova genetik epistomologiyanın başlıca postulatlarına əsaslanaraq uşaqlarda təfəkkürün inkişafını məntiqi ölçülərlə araşdırırdı.

Qeyd olunan təcrübələrdən görünür ki, qabaqcıl müəllimlərin pedaqoji təcrübəsi özünəməxsus təlim konsepsiyaları ilə fərqlənir, onlar hətta eyni məsələni müxtəlif rakurslardan həll edirlər. Müəllim özünəməxsus təlim konsepsiyasını yarada biləndə onun dərsində rəngarənglik əmələ gəlir. Belə olduqda dərs həm müəllimin özü üçün, həm də şagird üçün maraqlı olur. Bu konsepsiyanı yarada bilməyin iki önəmli şərti var: müəllimin şagirdə olan sevgisi və bilik və bacarıq aşılama qabiliyyətləri.

Bu iki şərt öz təcəssümünü müəllimin kommunikativ və didaktik qabiliyyətlərində tapır. Kommunikativ qabiliyyətlər didaktik qabiliyyətlərlə birləşəndə sinifdə uğurlar pedaqoji möcüzələrə çevrilir.

Ədəbiyyat

1. Əlizadə Ə.Ə. Əlizadə H.Ə. Əsrin meqameylləri: psixopedaqoji problemlər. II cild, Bakı, ADPU, 2008, 527 s.
2. Блага К., Шебек М.Я. Я – твой ученик, ты – мой учитель. М.,1991,140 с.
3. Лефрансуа Г. Психология для учителя. Санкт-Петербург: Прайм-Еврознак; Москва: Олма-Пресс, 2005, 416 с.
4. Основные современные концепции творчества и одоренности /под. ред. Д.Б. Богоявленская. М., 1997, 402 с.

РЕЗЮМЕ

ДВЕ СТРАНИЦЫ О ЧЕРТАХ ПОРТРЕТА УЧИТЕЛЯ

Ализаде Х.А.

Бакинский государственный университет

В статье отмечается, что на занятиях учащиеся не только приобретают знания и умения, но и проходят личностное становление. От отношений между учителем и учеником зависит как приобретение знаний и навыков, так и социализация учащихся. В формировании отношений «учитель-ученик», портретные черты учителя являются достаточно важными. Можно считать, что оценка коммуникативных и дидактических способностей является основным проявлением портретных особенностей учителя, который разъясняет сущность каждой из них на основе своего педагогического опыта. Отмечается, что при сочетании коммуникативных способностей с дидактическими педагогическая успешность на уроках повышается.

Ключевые слова: *пространство класса, отношения учитель-ученик, коммуникативные умения, дидактические умения, концепция, педагогическая практика*

SUMMARY

TWO PAGES ON THE FEATURES OF THE TEACHER'S PORTRAIT

Alizadeh H.A.

Baku State University

The article notes that in the classroom, students not only acquire knowledge and skills, but also undergo personal development. Both the acquisition of knowledge and skills and the socialization of students depend on the relationship between teacher and student. In the formation of the "teacher-student" relationship, the portrait features of the teacher are quite important. It can be considered that the assessment of communicative and didactic abilities is the main manifestation of the portrait features of the teacher, who explains the essence of each of them on the basis of his pedagogical experience. It is noted that when communicative abilities are combined with didactic ones, pedagogical success in the classroom increases.

Keywords: *classroom space, teacher-student relationship, communication skills, didactic skills, concept, pedagogical practice*

MƏKTƏB MÜHİTİNDƏKİ BULLİNQİN YENİYETMƏ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINA TƏSİRİ

Şəfiyeva Elnarə İbrahim qızı
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan, psixologiya elmləri doktoru, professor
shafiyeva @mail.ru

Açar sözlər: *bulling, yeniyetməlik dövrü, narahatlıq, əsəbilik, aqressivlik, məktəb mühiti, emosional infantillik*

Bullinqin təzahür etməsinin yüksək riski yeniyetməlik dövründə özünü göstərir. Məlum olduğu kimi, yeniyetməlik dövrü təkcə bütün orqanizmin deyil, həm də daxili psixoloji vəziyyətin yenidən qurulması ilə xarakterizə olunur. Yeniyetmələrdə tez-tez narahatlıq, əsəbilik və aqressivlik inkişaf edir. Bu, yeniyetmənin hər şeyi ideallaşdırması, səylə hər kəsdən və hər şeydən üstün olmağa çalışması ilə bağlıdır. Eyni zamanda, onlar hələ uduzmağı öyrənməyiblər və hər bir uğursuzluğu çox kəskin və ağrılı şəkildə qəbul edirlər.

Bullinqin inkişafına ailədəki tərbiyə, uşaqlıqdan aşılanan yönəliş, təhsil müəssisəsinin mikroiqlimi təsir göstərir. Eyni zamanda, bullinqin ortaya çıxması üçün əsas amil kimi çox vaxt siniflə məhdudlaşan bir yeniyetmə kollektivi çıxış edir[1].

Məktəb mühitində bullinqin inkişafına səbəb olan bir sıra amillər xüsusi qeyd edilməlidir. Psixoloqlar aşağıdakıları fərqləndirirlər: tərbiyənin aşağı səviyyəsi, özünü qiymətləndirmənin aşağı olması, pis vərdişlərdən sui-istifadə, yeniyetmənin şəxsi aqressivliyi, zəif həmyaşıdları hesabına özünü təsdiq etmək istəyi, kollektivə uyğunlaşma ehtiyacı, zəif akademik göstəricilər, ailədaxili münaqişələr, ailə zorakılığı, yaxın mühitdə oxşar aqressiv təzahürlərin müşahidə edilməsi, ailənin aşağı sosial statusu, valideynlərin yeniyetmədən həddindən artıq tələbləri, valideynlərin hiperhimayəsi və ya əksinə biganəliyi və s. Bu amillərlə əsası qoyulan dağıdıcı qüvvə bullinq situasiyasında daha da güclənir [2].

Uşağın həmyaşıdları ilə münasibəti yeniyetməlik dövrünün ən mənalı hissəsidir. Yeniyetmə həmyaşıdları qrupunda özü üçün əlverişli mövqe tutmağa çalışır, buna görə də onun qaydalarını və normalarını tam qəbul edir, kollektivdə bərqərar olmuş davranış prinsipinə tabe olur. Bu, həmyaşıd cəmiyyəti mahiyyət etibarilə mənfi olduqda təhlükəli olur. Özünü ifadə etmək istəyi şəxsiyyətlərarası münaqişələrin yaranmasına təsir göstərir. Həmyaşıdlarla ünsiyyət ön plana çıxaraq, tədrisi, ailə ünsiyyətini ikinci plana keçirir. Eyni zamanda, həmyaşıdları ilə şəxsiyyətlərarası ünsiyyətdə hər hansı bir problem yeniyetmələr tərəfindən çox ağır yaşanılır və şəxsi dram kimi qəbul edilir.

Yeniyetməlik dövründə zorakılığın şəxsiyyətə təsiri xüsusilə güclüdür. İstənilən növ zorakılığın birbaşa və ya dolayı təsiri insanın dünyanın mənzərəsini qavramasında dərin izlər buraxır. Müəyyən bir davranış modelini, məsələn, "qurbanın" davranışını mənimsəyən bir yeniyetmə bütün sonrakı həyatı boyunca bu rola əməl edə bilər. Eyni zamanda, zorakılıq vəziyyəti həm qurban, həm də zorakılığın səbəbkarı üçün dağıdıcı nəticələrə malikdir, çünki zorakılığın icrası rolunu öz üzərinə götrüən yeniyetmə sonralar kriminal və antisosial davranış yolunu tutur.

Həmyaşıdları ilə ünsiyyət müasir yeniyetmənin həyatının böyük bir hissəsini tutur. Əgər bu ünsiyyət bullinq qurbanı olmuş yeniyetmələr üçün sadəcə bullinq situasiyası ilə məhdudlaşırsa, onda belə halların yaşanması təcrübəsi onlar üçün çox travmatik olur və bütövlükdə yeniyetmə şəxsiyyətinin formalaşmasına mənfi təsir göstərir. “Xüsusən, mənfi təsir onun mən konsepsiyasının, dəyər sisteminin, eləcə də həmyaşıdları ilə ünsiyyət tərzinin formalaşmasına təsir göstərir”

Davamlı olaraq baş verən bullinqin ən mənfi təsiri yeniyetmənin asosial (cəmiyyətdə qəbul edilmiş davranış və hərəkət qaydalarına uyğun olmayan) şəxsiyyətinin formalaşmasında özünü göstərir. Mütəmadi zorakılıq, təhqir, alçaldılma, gizli nifrət, düşmənçilik və aqressivlik hissi formalaşdırır, qisas almaq istəyi yaradır. Bullerdə qurbanını sistematik və şüurlu olaraq alçaltması nəticəsində cəzasızlıq hissi formalaşır. O,cəzasız qaldığı üçün, ya da yüngül cəzalandığı üçün öz hərəkətlərinin qanuni və qeyri-qanuni olmasını dərk edə bilmir[3].

Bullinq onun bütün iştirakçıları üçün xoşagılməz, əlverişsiz gələcəyə gətirib çıxarır. Yeniyetməlik dövründə qorxu və ümidsizlik yaşayan bullinq qurbanının nisbətən yetkin yaşda narahatlıq, həyəcan hisslərindən yaxa qurtarması, yeni tanışlıqlar qazanması, yeni kollektivə alışması çətinləşir. Daha dağıdıcı nəticələr özünə inamsızlıq, qapalılıq, insanlarla ünsiyyət qorxusu və hətta intihar düşüncələridir.

Bullinq nəticəsində təzahür edən zorakılığın yeniyetmə qurbanların şəxsiyyətinin inkişafına bütün təsirlərini aşağıdakı kimi ümumiləşdirmək olar [4].

1. Ən ciddi neqativ təsir bu yeniyetmələrin özünüdərkinə olur. Onların özünüdərki qeyri-müəyyən xarakter daşıyır, bəzən isə ziddiyyətli olur. Özlərinin qurban olması haqqında güclü, qabarıq ifadə olunmuş təsəvvürlər müşahidə edilir. Özünüqiymətləndirmə aşağı düşür, yeniyetmə davamlı olaraq günahkarlıq, utanc, qüsurluluq hiss edir.

2. Zorakılıq nəticəsində yeniyetmənin dünyagörüşü və motivasiya məna sahəsində qeyri-konstruktiv transformasiya baş verir. Əgər normal inkişaf zamanı yeniyetmələrdə yüksək idrak maraqları, həyatsevərlik, xarici aləmə açıqlıq xas olursa, zorakı əməllərdən zərər çəkmiş yeniyetmələr qorxaqlıq, qapalılıqla səciyyələnir. Bu da onda dünya haqqında müvafiq neqativ mənzərənin formalaşmasına təsir edir. O xarici aləmi maraqlı-maraqsız, gözəl- eybəcər kimi deyil təhlükəli-təhlükəsiz kimi nəzərdən keçirməyə başlayır. Məna vektorlarında qarışıqlıq yaranır. Davranışda, oyun və təlim fəaliyyətində, amotivasiya təzahür edir. Təşəbbüs aradan qalxır. Əməllərin seçimi və icrasına görə şəxsi məsuliyyət aşağı enir.

3. Zorakılıq nəticəsində yeniyetmədə formalaşan ustanovkalar çox vaxt destruktiv xarakter daşıyır. Belə ki, döyülən uşaqda belə bir inam möhkəmlənir ki, fiziki zorakılıq məqsədə çatmağın ən təsirli vasitəsi. Belə cəza forması yol verilən və hətta vacibdir.

4. Bu yeniyetmələrin davranışında başqalarının kədəri, ağrısı, iztirabı ilə bağlı situasiyalarda emosional kütlük təzahür edir. Adətən onlar digər insanların real və virtual həyatdakı iztirab səhnələrini maraqla müşahidə edir.

Psixoloqlar qeyd edir ki, emosional inkişafın belə pozuntuları digər insanın yaşadığı hissləri anlamamaq, emosional infantilliklə bağlıdır.

5. Bu yeniyetmələrin qarşılıqlı münasibətlərində və ünsiyyətində ciddi pozuntular müşahidə edilir.

Buller də insanlarla münasibətlərdə çətinliklər yaşayır, lakin fərqli baxımdan. Onun məktəb kollektivində istifadə etdiyi bütün antisosial davranış formaları böyüklər dünyasında öz fəaliyyətini dayandırır və təqibçi özünü həyatın və sosial münasibətlərin dibində tapır, sonralar daha yektin yaşda ya kriminal situasiyalarla qarşılaşır, ya da ailə mühitində diktatora çevrilir.

Ədəbiyyat

1. Бердышев И.С., Нечаев М.Г. Медико -психологические последствия жестокого обращения в детской среде. Вопросы диагностики и профилактики «Региональный цент «Семья». 2005
2. Кутузова Д. Проблема травли детей в школе. Москва, 2009
3. Макарова Ю.Л. Гендерные особенности поведения участников подростковой буллинг-структуры // Психология. Историко-китический обзор и современные исследования. 2017, Т6, № 5А, с 181-192
4. Rigby K. Consequences of bullying in schools // Canad. J. Psychiatry. 2003. N 9. V. 48. P. 583-590.

РЕЗЮМЕ

ВЛИЯНИЕ ШКОЛЬНОГО БУЛЛИНГА НА ФОРМИРОВАНИЕ ЛИЧНОСТИ ПОДРОСТКОВ

Шафиева Э.И.

Бакинский государственный университет

В статье показано, что высокий риск буллинга проявляется в подростковом возрасте. Влияние насилия на личность в подростковом возрасте особенно сильно. Прямые или косвенные последствия любого вида насилия накладывают глубокий отпечаток на мировосприятие человека. Подросток, усвоивший определенную модель поведения, например поведение «жертвы», может играть эту роль всю оставшуюся жизнь.

Буллинг ведет к неприятному, неблагоприятному будущему для всех его участников. Жертва буллинга, жившая в подростковом возрасте в страхе и отчаянии, в относительно зрелом возрасте с трудом избавляется от беспокойства, волнения, заводит новые знакомства и привыкает к новому коллективу. Более разрушительными последствиями являются незащищенность, изоляция, страх перед общением и даже суицидальные мысли.

Ключевые слова: *буллинг, подростковый возраст, тревожность, нервозность, агрессия, школьная среда, эмоциональный инфантилизм*

SUMMARY
THE EFFECT OF SCHOOL BULLING ON THE FORMATION OF TEENAGERS PERSONALITY
Shafieva E.I.
Baku State University

The article shows that the high risk of bullying manifests itself during adolescence. The effects of violence on the personality during adolescence are particularly strong. The direct or indirect effects of any kind of violence leave deep imprints on a person's perception of the world. A teenager who adopts a certain pattern of behavior, such as the "victim's" behavior, can play this role for the rest of his life.

Bulling leads to an unpleasant, unfavorable future for all its participants. The bullying victim, who lived in fear and despair during adolescence, finds it difficult to get rid of anxiety, excitement, make new acquaintances and get used to a new team at a relatively mature age. More devastating consequences are insecurity, isolation, fear of socializing, and even suicidal thoughts.

Keywords: *bulling, adolescence, anxiety, nervousness, aggression, school environment, emotional infantilism*

İNKLÜZİV SİNİFLƏRDƏ MÜƏLLİM PEŞƏKARLIĞI

Məmmədova Aytəkin Telman
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, pededaqogika üzrə fəlsəfə doktoru, dosent
telmanaytekin_82@mail.ru

Açar sözlər: *inklüziv təhsil, təlim,cəmiyyət, əlillik, huquqlar*

Təhsil insanlara bilik, bacarıq, dəyərlər verən bir proses olmaqla yanaşı, həm də həyata hazırlıq mərhələsidir. Cəmiyyətin bərabər hüquqlu üzvünə çevrilmək və hərtərəfli inkişaf etmək istəyən hər bir şəxsin təhsil alması vacibdir. Bu, eyni zamanda kimliyindən asılı olmayaraq hər bir vətəndaşın hüququdur. Hər kəs kimi əlilliyi olan şəxslər də təhsil, daha doğrusu keyfiyyətli inklüziv təhsil almaq hüququna malikdir.

İnklüziv təhsil əlilliyi olan və olmayan, zəngin və yoxsul uşaqların, eləcə də cinsi, etnik, dini və mədəni statusundan asılı olmayaraq bütün uşaqların öz icmaları daxilində onların potensialını aşkara çıxara bilən məktəblərdə təhsil almasıdır. İnklüziv təhsil uşaqların birgə təhsil almasına mane olan amillərin aradan qaldırılması və bütün uşaqların bərabər surətdə keyfiyyətli təhsil almasıdır. Keyfiyyətli inklüziv təhsilin göstəricilərindən biri uşaqların məhz yaşadıqları icmada yerləşən ümumtəhsil məktəbində təhsil almasıdır. Bunun üçün məktəblərin infrastrukturunda lazımi uyğunlaşdırma və təkmilləşdirmə işləri aparmaq, müəllimlərin peşəkarlığını artırmaq, məktəbin tədris resursunu zənginləşdirmək və əlilliyi olan uşaqlar üçün lazımi dəstək təmin etmək və digər zəruri tədbirlər görmək lazmıdr. Amma əlbəttə ki, inklüziv təhsilin keyfiyyətli olması üçün bu tədbirlər kifayət etmir. İnklüziv təhsilin yüksək səviyyədə tətbiqi məqsədilə təhsilə aid sənədlərin və təcrübənin təkmilləşməsi, eləcə də təhsil mədəniyyətinin dəyişməsi, mütərəqqi anlayışların ölkəmizin təhsil məkanında özünə yer tapması daha vacib amillərdəndir.

İnklüziv təhsil mühitində müəllim müxtəlif bacarıq və ehtiyacları olan uşaqların tələblərini qarşılamaq üçün çoxsaylı metod və resurslardan istifadə edir ki, bu da bütün uşaqların təlimdə faydalanmasına imkan yaradır. İnklüziv təhsil ancaq əlilliyi olan uşaqlar üçün deyil, inklüziv təhsil bütün uşaqlar üçündür. İnklüziv təhsil vasitəsilə cəmiyyətə uğurlu adaptasiya prosesi keçən əlilliyi olan uşaqların gələcəkdə əmək məşğulluğu imkanları artır. Belə olan halda müavinətlərdən asıllılıq azalır, rifah halı yüksəlir və iqtisadi inkişafa töhfə verilmiş olur.Təhsil uşaqlara ancaq savad vermir, həm də onların bir şəxsiyyət kimi inkişafını təmin edir, onlara həyatı bacarıqlar aşılayır. İnklüziv təhsilə cəlb olunmuş əlilliyi olan uşaqlar da öz potensiallarını reallaşdırmaq üçün bilik və bacarıq əldə etməklə yanaşı müxtəlif sosial mühitə uyğunlaşmaq, öz fikrini səlis və inamlı ifadə etmək, sərbəst ünsiyyət qurmaq kimi bacarıqlar qazanır.

Dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək:

- pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;
- təhsil müəsisəsinin nizamnaməsinin tələblərinə riayyət etmək;
- dövlət, cəmiyyət, ailə və özü qarşısında məsuliyyətini dərk etmək;
- təhsil sahəsində qanunvericiliyin tələblərinə,etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmək;

- qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələrini yerinə yetirmək.

İnklüziv təhsilin həyata keçirilməsində uşaqyönümlü pedaqogika vacibdir. Əlilliyi olan uşaqlardan ibarət yarımqrupdakı şagirdlərin eyni ehtiyaclara malik olması arqumentini dəstəkləyən heç bir fakt yoxdur. Həmçinin əlilliyi olan uşaqlar üçün ali tədris strategiyasında kəskin fərqlənən xüsusi tədris strategiyasına tələb olunmasına dair də əsaslı bir dəlil yoxdur. Müəllimlər üçün həmin siniflərdə əlilliyi olan uşaqların ehtiyaclarını dəstəkləyən amil bütün uşaqların ümumi və xüsusi ehtiyaclarına cavab vermək və uşaq yönümlü olmaqdır.

Bütün müəllimlər öz məktəblərində çox fərqli təməl bilikləri, bacarıqları, maraqları və öyrənmə ehtiyacları olan uşaqları ilə görüşəcəklər. Əlilliyi olan uşaqların tədris olunmasına dair xüsusi pedaqogika olmadığından inklüziv mühitdə müəllimlər bütün uşaqların ehtiyaclarını qarşılamaq üçün uşaqyönümlü pedaqogikadan istifadə edirlər. Daha ənənəvi mühitdə və ya daha çox müəllimyönümlü pedaqogikada müəllim bütün sinfin qarşısında durur, stolları sıra və cərgə ilə düzür, şagirdlərə bütün bilikləri verir və şagirdlərə onların cavablarının doğru və ya yalnış olmasını söyləyir. Yaxşı və göstəriş verən müəllim belə olmalıdır – bizə öyrədilən budur. Uşaqyönümlü yanaşmada səmərəlilik üçün ən vacibi müəllimin davranışıdır. Bu üsulla müəllim sinif qarşısında durur, sinifdəki resurslardan istifadə edir və bu yolla o, uşaqlarla ünsiyyət qurur və uşaqların öyrəndikləri bilikləri qiymətləndirir.

İnklüziv təhsilin tətbiq edilməsində ən çox müzakirə olunan nüanslar direktiv orqan və ya təhsil işçilərin əlilliyi olan uşaqları üçün xüsusi kurikulum hazırlanması zərurəti və əlilliyi olan uşaqların müvafiq akkomodasiyalar edilməklə eyni kurikuluma necə uyğunlaşa biləcəkdir. Həmçinin əlilliyi olan uşaqlara tədris etmək üçün müəllimlər xüsusi pedaqogikaya dair təlim keçməlidirmi və ya onlar sinifdəki digər uşaqlar üçün olan eyni pedaqogikadan istifadə etməlidirmi kimi məsələlərdə də tez-tez müzakirə mövzusu olur.

Təməl anlayışlar bunlardır: bütün uşaqlar çətinliklər ilə üzləşir və ya müəyyən məqamda təlim ehtiyacları var və şərt deyil ki, eyni əlilliyə malik olan uşaqlar eyni təlim ehtiyaclarını bölüşsünlər. Buna görə də əlilliyi olan uşaqların təhsil ehtiyacları xüsusi və ya fərqli deyil.

Əlil uşaqlar üçün xüsusi pedaqogika varmı? Əlilliyi olan uşaqların öyrədilməsində xüsusi tədris yanaşması tələb olunurmu və ya müəllim adi tədris yanaşmasından istifadə edə bilərmi bunlar əvvəldə müzakirə edilib. Bu müzakirədə iki əsas mövqe: "unikal fərq mövqeyi" və "ümumi fərqlilik mövqeyi" var.

"Unikal fərq mövqeyi": bütün şagirdlərin hər kəs üçün ümumi olan və fərdi şəkildə onlara xas – unikal ehtiyacları var. Əlilliyi olan uşaqları üçün xüsusi pedaqogikanın olduğunu güman etmək yerinə müəllimlər bütün şagirdlərin ehtiyaclarını qarşılamaq üçün uşaqyönümlü pedaqogikadan istifadə edirlər.

"Ümumi fərqlilik mövqeyi": bütün şagirdlər üçün ümumi və unikal fərdi ehtiyaclardan əlavə, uşaqların yarımqruplarına dair xüsusi ehtiyacları da olur. Lakin uşaqlar yarımqruplara dəqiq bölgü əsasında düşmürlər. Uşaqlar öz yarımqrupları daxilində digər uşaqlar ilə eyni öyrənmə ehtiyaclarını bölüşə bilərlər, lakin bu yarımqrupun xaricindəki digər uşaqları ilə ümumi və ya onlar üçün unikal olan öyrənmə ehtiyaclarını paylaşa bilərlər.

Ümumilikdə, müəllimlərin əlilliyi olan uşaqlar üçün xüsusi və fərqli tədris yanaşması olduğuna inanmaların təşviq edilməsi faydalı hesab edilmir. Müəllimlər adi siniflərdə bütün uşaqları qəbul etmək və onlara dərs demək istiqamətində təşviq olunmalıdır. "Yüksək intensivlilik səviyyələri" və "aşağı intensivlilik səviyyələrinə" malik davamlı" tədris yanaşması" anlayışları müəllimlərin siniflərində istifadə etdikləri tədris yanaşmasının bütün uşaqlar üçün eyni olmasını vurğulamaq üçün təqdim edilir. Bununla belə, bəzi uşaqlar üçün bu yanaşma daha çox və ya daha az intensivlikdə istifadə olunur.

Əlilliyi olan uşaqların təməl olaraq fərqli və ya xüsusi öyrənmə ehtiyacları olmadığından bu cür uşaqlar üçün xüsusi pedaqogika yoxdur. İnklüziv siniflərdə müəllimlər tədris və təlimin ümumi keyfiyyətini artırmaq məqsədilə bütün uşaqların öyrənmək ehtiyaclarını qarşılamaq üçün uşaqyönümlü pedaqogikadan istifadə edir.

Daha ənənəvi təhsil quruluşunda müəllimin aydın bir vəzifəsi var: o, uşaqlara məlumat ötürür. Sinifdə daha çox uşaqyönümlü yanaşmanı icra etdikdə müəllimin rolu dəyişəcək. Müəllimin daha sabit rolu yoxdur, o vəziyyətə görə uyğunlaşır. Müəllimlər üçün mümkün olan bəzi rollara daxildir:

- Metodist: konstruktiv şəkildə ideyalara töhfə vermək üçün uşaqları təşviq edir və müvafiq təlim imkanları ilə təmin edir.
- Menecer: bütün uşaqların öz töhfələrini təmin etmək üçün müzakirələri planlaşdırır və istiqamətləndirir.
- Müşahidəçi: uşaqlar oynayarkən, tək və ya qrupda çalışarkən onları müşahidə edir. Bu, uşaqları daha yaxşı anlamağa və onlar üçün daha yaxşı öyrənmə fəaliyyətləri yaratmağa kömək edəcək.

İstisnasız bütün uşaqlar öyrənə bilərlər. Həyatlarının müxtəlif mərhələlərində onların necə öyrənmələri müxtəlif mövzular üzrə fərqli ola bilər. Bəzi uşaqlar müəllimə qulaq asmaqla öyrənir, digərləri isə vizual vəsaitlərdə və ya qrup müzakirələrindən istifadə edərək çalışmalar etməyə üstünlük verə bilər. Yeddi müxtəlif öyrənmə üsulu təsnifləndirilə bilər:

1. Sözlü və ya linqvistik: uşaqlar yaddaş və xatırlama, danışılan və yazılan sözləri öyrənir və düşünürlər.
2. Məntiqi və ya riyazi: uşaqlar mülahizələr və hesablamalar vasitəsi ilə öyrənir. Onlar rahatlıqla rəqəmlərdən istifadə edir.
3. Vizual və ya məkan : uşaqlar vizual vasitəsilə öyrənir və düşünür. Onlar incəsənəti sevir, asanlıqla xəritələri, qrafikləri oxuya bilirlər.
4. Bədən və kinestik: uşaqlar hərəkət etməklə, oyun və teatr səhnəcikləri ilə öyrənir.
5. Musiqi və ritm: uşaqlar səslər, ritm, təkrarlamaq ilə öyrənirlər .
6. Şəxsiyyətlərarası: uşaqlar qrup işi vasitəsi ilə öyrənirlər.
7. Şəxsiyyətdaxili: uşaqlar özü təhlil edərək və öz fikrini cəmləyərək öyrənir.

Müəllimin əzbərləmə təlim metodunu istifadə etdiyi sinifdə öyrədilən məzmunu yenidən təkrarlayan tədris yanaşması, güman ki, şagirdlərin kiçik qruplarını əhatə edəcək. Digər uşaqlar isə dərsi izləməkdə daha çox çətinliklərlə üzləşə bilərlər. Burada mütləq deyil ki, həmin uşaqların hansısa əlilliyi və ya xüsusi ehtiyacları olsun.

Ədəbiyyat

1. Inklüziv təhsil: əlilliyi olan uşaqları keyfiyyətli təhsilə cəlb etmək üçün nə etmək lazımdır? Bakı, BMT-nin Uşaq fondu “UNİSEF”, 2019
2. Əlliliyi olan şəxslərin hüquqları üzrə Konvensiya 4 “2016 nömrəli ümumi şərh maddə 24: inklüziv təhsil hüququ. Bakı, BMT-nin Uşaq fondu “UNİSEF”, 2019
3. Müəllimlər inklüziv uşaqyönümlü tədris və pedaqogika. Texniki kitabça 12, Bakı, UNİSEF, 2020
4. İnklüziv siniflərdə əlillik olan uşaqların təhsili: müxtəlifliyin dəstəkləməsi üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti. Xüsusi kitabça 3, UNİSEF, RİİB, Bakı, 2020

РЕЗЮМЕ

ПРОФЕССИОНАЛИЗМ ПРЕПОДАВАТЕЛЯ В ИНКЛЮЗИВНЫХ КЛАССАХ

Мамедова А.Т.

Сумгаитский государственный университет

Инклюзивное образование – одно из новых направлений в современном образовании. Приобретенные теоретические знания начинают постепенно внедряться в практические занятия. Естественно, что, как и любое новое, инклюзивное образование сталкивается с рядом трудностей. В тезисе рассматриваются проблемы инклюзивного образования на практическом уровне.

Ключевые слова: *инклюзивное образование, обучение, общество, инвалидность, права*

SUMMARY

TEACHER PROFESSIONAL IN INCLUSIVE CLASSES

Mammadova A.T.

Sumgayit State University

Inclusive education is one of the new directions in modern education. The acquired theoretical knowledge is gradually being introduced into practical exercises. Naturally, like any new, inclusive education, it faces a number of difficulties. The article deals with the problem of inclusive education at the practical level..

Key words: *inclusive education, training, society, disability, rights*

I BÖLMƏ

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ ŞƏXSİYYƏTİN FORMALAŞMASININ AKTUAL PROBLEMLƏRİ

TƏHSİL PROSESİNDƏ ŞƏXSİYYƏTİN FORMALAŞDIRILMASI İMKANLARI

Cəbrayılov İntiqam Hilal oğlu
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
Təhsilin nəzəriyyəsi və tarixi şöbəsinin müdiri,
pedaqogika üzrə elmlər doktoru,professor

Açar sözlər: *təhsil, şəxsiyyət, təlim, məzmun, interaktivlik, bilik və bacarıq, məktəb, müəllim, şagird, dəyər, tarix, vətən, valideyn*

Müasir dövrdə cəmiyyət elə bir inkişaf səviyyəsinə çatıb ki, dərin bilik və bacarıqlara, ən zəruri səriştələrə yiyələnmədən böyük uğur qazanmaq, dayanıqlığı, davamlılığı təmin etmək mümkün deyil. Araşdırmalar göstərir ki, inkişafın dinamikliyi bilavasitə təhsillə, elmlərin sirlərinə bələdçiliklə bağlıdır.Təhsil inkişafda müəyyən mənada açar rolunu oynayır.Ona görə də bütövlükdə dünyada cəmiyyətin tələbatına, mövcud reallığa və gələcək perspektivlərə uyğun olaraq təhsilin qarşısında son dərəcə ciddi vəzifələr qoyulur, yeni paradiqmalar müəyyən edilir və hədəflərə çatmaq üçün məzmun və texnologiyalar yenilənir. Bu prosesin özü cəmiyyətin hərəkətverici qüvvəsi kimi təhsilə innovativ yanaşmaların nə qədər əhəmiyyətli olduğunu bir daha təsdiqləyir[2]. Azərbaycanın müstəqillik tarixinə nəzər salsaq, təhsilin məzmun və strukturunda köklü dəyişikliklərin aparıldığının şahidi olarıq.

Bu gün ənənəvi yanaşmalardan fərqli olaraq yeni dəyəryönlü, səriştə əsaslı yanaşmalara üstünlük verilir. Bilikyönümlülük şəxsiyyətyönümlülüklə, müəllimyönümlülük şagirdyönümlülüklə, təklifyönümlülük tələbyönümlülüklə, fənnyönümlülük nəticəyönümlülüklə əvəz olunub. Müasir yanaşmalara görə monoloji təlim deyil,dialoji təlim daha əhəmiyyətlidir. Təlim-tərbiyə prosesində avtoritar idarəetmə üslubu deyil, demokratik üslubun tətbiqi tələb olunur. Bu yeni yanaşmalar dövrümüzün tələblərinə uyğun, rəqabətəqabil, kreativ təfəkkürə yiyələnmiş, milli və bəşəri dəyərləri qiymətləndirməyi bacaran, vətənini, millətini, dövlətini sevən və bütövlükdə ən zəruri mənəvi keyfiyyətlərə sahib olan vətəndaş-şəxsiyyətlərin formalaşdırılmasına istiqamətlənmişdir.

Azərbaycan təhsilinə həmişə xüsusi diqqət və qayğı göstərən Ulu Öndər Heydər Əliyev haqlı olaraq deyirdi ki, "Təhsil millətin gələcəyidir" [2]. Ümummilli liderimizin ideyaları, o cümlədən təhsil siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən yaradıcı şəkildə davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də təhsili cəmiyyət üçün ən prioritet sahə kimi dəyərləndirmiş və qeyd etmişdir ki, "Təhsil bilik, gələcək və modernləşmədir" [1,6]. Bu, həqiqətən də, belədir. Bir millət olaraq gələcəyimizin, dövlətimizin daha da möhkəmlənməsi, qüdrətlənməsi təhsilimizi, elmimizi inkişaf etdirməyimizdən xeyli dərəcədə asılıdır.

Bu gün təhsilin inkişafı, vətəndaş-şəxsiyyətlərin formalaşdırılması üçün geniş imkanlar mövcuddur. İlk növbədə təhsil proqramlarının, proqram və dərsliklərin, texnologiyaların yenilənməsi, müəllimlərin müvafiq ixtisaslar üzrə yeni metodologiya əsasında hazırlanması hədəflərə doğru irəliləmək imkanlarını genişləndirir.Təhsildə yeni yanaşmalara uyğun olaraq bu gün təhsil proqramları müvafiq məzmun xətləri, standartları əsasında formalaşdırılır. Təhsil proqramları təhsilalanlarda formalaşdırılan bilik, bacarıq, səriştələri və dəyərlər sistemini əks etdirməklə nəzəri və praktik baxımdan mühüm əhəmiyyət kəsb edir.Proqramın məzmunu müəllimlər üçün fəaliyyət istiqamətlərini, həmçinin konkret olaraq təlim məqsədlərini, gözlənilən nəticələri müəyyənləşdirməyə, prosesi idarə etməyə yol göstərir, təlim prosesinin müasir mexanizmlərinə aydınlıq gətirir. Nəzəri baxımdan bu mexanizmləri mənimsəyən və fəaliyyətində ona istinad edən və öz işinə yaradıcı yanaşan müəllimlər təbii ki, böyük uğurlara imza atmaq imkanlarına malik olurlar. Təcrübə göstərir ki, əgər fənn müəllimi yaradıcıdırsa, təlim prosesində "öyrənməyi-öyrənmək" prinsipinə, tədqiqatçılığa üstünlük verirsə, onun şagirdləri də müstəqil,yaradıcı düşünən, öz mövqeyini əsaslandırmağı bacaran şəxsiyyət kimi formalaşa bilər. Müasir dərsin interaktivliyi və inteqrativliyi bu baxımdan müəllim üçün əlverişli şərait yaradır. Müasir dərsin strukturu elədir ki, bu struktur elementlərinin nəzərə alınması təlim prosesində sonadək fəallığın təmin olunmasını, milli və bəşəri dəyərlərə sadiq şagird şəxsiyyətinin formalaşdırılmasını nəzəri baxımdan şərtləndirir [4,5].

Dərsdə fəallığın təmin olunma prosesi ilk növbədə motivasiyanın yaradılması, tədqiqat sualının qoyuluşu və şagirdlərin bu prosesə cəlb edilməsi ilə başlayır. Kollektivlə, qrupla işin pedaqoji-psixoloji,metodik xüsusiyyətlərinin nəzərə alınması, qiymətləndirmənin obyektiv aparılması şagirdlərin şəxsiyyət kimi yetişməsinə əsaslı şəkildə təsir göstərir. Şagirdlər bu prosesdə yeni bilik və bacarıqlara yiyələnir, öyrənməyi öyrənir, mənəvi keyfiyyətlərini inkişaf etdirir, vətəndaş-şəxsiyyət kimi formalaşırlar. Bu prosesdə müəllimin fasilitator (bələdçi) kimi funksiyalarını yerinə yetirməsi, şagirdlərin fəallığının, müstəqilliyinin təmin olunmasına əlverişli imkanlar yaratması, dərsin gedişini yeni yanaşmalara uyğun tənzimləməsi mühüm əhəmiyyət kəsb edir. Təlim prosesində işin bu istiqamətdə aparılması şagirdləri axtarıcılığa, tədqiqatçılığa, təşəbbüskarlığa, əldə etdiyi faktları dərindən təhlil etməyə, ümumiləşdirməyə, yeni fikirlərini əsaslandırmağa sövq edir. Belə bir iş üslubu öyrənilən problemin şagirdlərin özləri tərəfindən üzə çıxarılmasına, "kəşf" edilməsinə imkanlar yaradır [3]. Dərsdə müxtəlif xarakterli mətnlər üzərində iş, müzakirə, debat və digər metodlardan məqsədyönlü istifadə öyrənilən məsələnin dərindən mənimsənilməsinə, şagird şəxsiyyətinin inkişafına müsbət təsir göstərir. Hər hansı bir mətn üzərində işləyərkən, həmçinin bu və ya digər məsələdən bəhs edərkən problemin qoyuluşuna uyğun ciddi təhlillər və ümumiləşdirmələr, müqayisələr aparmaq, faktı, hadisəni, prosesi əsaslandırmaq, dəyərləndirmək, qiymətləndirmək, əlaqələndirmək şagirdlərin bilik və bacarıqlarını nümayiş etdirdiklərinin göstəricisi kimi izah edilə bilər.Təlim prosesində bu məsələlərə diqqət etmək, ardıcıllıq və sistemliliyi nəzərə almaq şagird nailiyyətlərinin qiymətləndirilməsi baxımından da əhəmiyyətlidir. Qiymətləndirmədə səviyyələrə uyğunluğun, sadədən mürəkkəbə, asandan çətinə prinsipinin nəzərə alınması da keyfiyyətə təsir göstərir və nəticə etibarilə şagirdlərin mənəvi keyfiyyətləri də inkişaf edir.Bu da şagirdlərin müstəqil həyata hazırlığı, vətəndaş-şəxsiyyət kimi yetkinliyi üçün çox əhəmiyyətlidir.

Təlim prosesinin idarə olunmasında demokratikliyə əməl olunması, münasibətlərdə obyektivliyin, tərəflər arasında bərabərliyin gözlənilməsi ən vacib şərtlərdən biridir.Elmi araşdırmalar və təcrübə göstərir ki, bu gün şəxsiyyətin formalaşdırılmasında ən vacib məsələlərdən biri öyrədici mühitdə bu prinsipə əməl olunmasıdır. Şagirdlərlə müəllimlər, müəllimlərlə valideynlər, yaxud şagirdlərin özləri arasındakı münasibətlər bu prinsip üzərində qurulmalıdır.Əlbəttə, münasibətlərin özünün də bir sərhəd nöqtəsi mövcuddur. Lakin münasibətlər sistemi bərabərlik, əməkdaşlıq, səmimiyyət, aşkarlıq, şəffaflıq, tələbkarlıqla yanaşı qayğıkeşlik, şəxsiyyətin formalaşması naminə inkişaf prinsipləri üzərində qurulduqda arzu olunan nəticəni əldə etmək mümkündür. Etiraf etməliyik ki, bəzi hallarda münasibətlərdə bu məsələlərə lazımi səviyyədə diqqət yetirilmir. Bəzən şagirdlərlə avtoritar üslubda münasibətlər şagirdlərin inkişafını ləngidir. Onların təlim marağının inkişafına müəyyən maneələr yaradır. Ona görə də ilk növbədə müəllimliyi özünə peşə seçənlərin özünün daim öz üzərində işləməsi, özünütəhsillə məşğul olması, hər zaman innovasiyaları izləməsi vacibdir.

Bu gün müəllimlərlə bərabər valideynlər də pedaqoji prosesin iştirakçısı kimi şagird şəxsiyyətinin formalaşmasında böyük məsuliyyət daşıyırlar[5]. Ümumtəhsil məktəbləri üçün hazırlanan yeni dərslik komplektlərində valideynlər üçün də tövsiyələr yer almışdır. Hər bir valideynin öz övladının təhsil mühiti ilə tanış olmaq imkanları genişdir. Əgər valideyn pandemiyadan əvvəl ənənəvi mühitdə müəllimlə əlaqə yaratmaq üçün mütləq məktəbə gəlməli idisə, bu gün məsafədən təhsilin tətbiqi bu əlaqələrin yaradılması şəbəkəsini genişləndirmişdir. Valideyn öz övladının dərslərinə daha çox nəzarət etmək imkanları əldə edir. Bu baxımdan valideyn-müəllim, ailə-məktəb əlaqələrinin daha da gücləndirilməsi vacibdir. Pedaqoji araşdırmalar da göstərir ki, tələblərdə vahidlik şəxsiyyət yetişdirməyin mühüm prinsiplərindən biridir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə müraciəti. 15 sentyabr 2020. https://president.az/articles/40798
2. Əliyev,H.Ə. Təhsil millətin gələcəyidir.Bakı: -Təhsil,-2002.-580s.
3. Əlizadə,Ə.Ə.Psixopedaqogika.Dərs vəsaiti./Ə.Ə,Əlizadə, H.Ə.Əlizadə, S.H.Əlizadə-Bakı:Ecoprint,-2019.-368s.
4. Təhsilin inkişafı üzrə Dövlət Strategiyası: perspektivlər və vəzifələr/elmi redaktor Q.Novruzov-Bakı:Kövsər,-2015.-304s.
5. Təhsil tədqiqatları: nəzəri və praktik yanaşmalar.Monoqrafiya./elmi redaktor və nəşrə haz.İ.H.Cəbrayılov-Bakı: Mütərcim,- 2019.-360s.
6. Yeni Azərbaycan Partiyasının VII qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yekun nitqi. 5 mart 2021-ci il. https://president.az/articles/50808

РЕЗЮМЕ
ВОЗМОЖНОСТИ ФОРМИРОВАНИЯ ЛИЧНОСТИ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ
Джабраилов И.Г.
Институт образования Азербайджанской Республики

В статье исследуются концептуальные проблемы образования в современное время, а также вопросы формирования личности, анализируются и обобщаются на основе новых подходов. Автор научно и педагогически обосновывает предпочтение новых ценностно-ориентированных подходов в современном образовании в отличие от традиционных подходов. Он отмечает, что эти новые подходы должны быть направлены на формирование граждан-личностей, отвечающих требованиям современности, конкурентоспособных, способных ценить национальные и общечеловеческие ценности, любящих свою Родину, нацию, государство и обладающих самыми необходимыми моральными качествами. В статье эти вопросы рассматриваются с теоретической и практической точек зрения.
Ключевые слова: *образование, личность, обучение, содержание, интерактивность, знания и умения, школа, учитель, ученик, ценность, история, родина, родитель*

SUMMARY
OPPORTUNITIES FOR THE FORMATION OF PERSONALITY IN THE EDUCATIONAL PROCESS
Jabrayilov I.H.
Institute of Education of the Republic of Azerbaijan

The article examines the conceptual problems of education in modern times, as well as issues of personality formation and analyzes and generalizations based on new approaches. The author scientifically and pedagogically substantiates the preference for new value-oriented approaches in modern education, in contrast to traditional approaches. He notes that these new approaches should be aimed at forming citizens-individuals who meet the requirements of our time, are competitive, able to appreciate national and human values, love their homeland, nation, state and have the most necessary moral qualities. The article evaluates these issues from a theoretical and practical point of view.
Keywords: *education, personality, training, content, interactivity, knowledge and skills, school, teacher, student, value, history, homeland, parent*

MÜƏLLİM ŞƏXSIYYƏTİNİN FORMALAŞMASINDA ÖZÜNÜTANIMANIN ƏHƏMİYYƏTİ

Elçin Qaliboğlu
AMEA Folklor İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru
elcin.galiboglu@gmail.com

Açar sözlər: *müəllim şəxsiyyəti, millilik, bəşərilik, müəllim fədakarlığı, müəllim universallığı*
Məqalədə müəllim şəxsiyyətinin formalaşmasında özünütanımanın əhəmiyyəti ayrıca vurğulanır; özünütanıma-özünəyetmə, insan və mühit, özüylə üz-üzə qalmağın, mənfi duyğulardan arınmağın qaçılmazlığı, gərəkliyi, qloballaşma (kürəsəlləşmə) və ulusallıq, ulusal (milli) dəyərləri qorumağın çətinliyi, bəşərilik və milliliyin (ulusallığın) sınırları, birliyi, müəllim (öyrətmən) və tələbə, şagird (öyrənci) münasibətləri, qarşılıqlı doğmalıq, inam, etibar, müəllim örnəkliyi, hazırlığı haqqında danışılır, universallılq, bu prosesdə pedaqoji-psixoloji aspektlər, habelə bilik-özümləşdirmə (öyrənmə) və öyrətmə kimi məsələlərin təhlilinə ayrıca yer ayrılır.

Giriş. Müəllimlik – yüksək insani istedad tələb edir. Təbiidir ki, bu keyfiyyət hər kəsdə olmur. Ardıcıl özünənəzarət, əhvalı kökdə saxlamaq, insanlara (burada şagirdə, tələbəyə münasibət ayrıca nəzərdə tutulur - E.Q.) doğma münasibət, bilik imkanlarıyla yetərlənməmək, idarəçilik qabiliyyətinə bu prosesdə ayrıca diqqət yetirilməli, eləcə də adi, qeyri-adi səviyyədə yanaşılası məsələlərdir.

Müəllimlik əslində aqibət məsələsidir. Müəllim şəxsiyyətinin formalaşmasında özünütanıma ayrıca rol oynayır. Özünütanıma iki istiqamətdə və ardıcıl davam edir:

- şəxsi psixoloji durumu öyrənmə, bilmə, mənəvi keyfiyyətləri yüksəltmə, inkişaf etdirmə;
- öz sahəsi, habelə yanaşı bilik (fənn) sahələri ilə bağlı bilikləri ardıcıl artırmaq, inkişaf etdirmək.

Özünütanıma öyrətmən (müəllim) üçün hava, su kimi gərəklidir. İnsan dünyaya kamil gəlmir, onun kifayət qədər nöqsanları olur. Bu səbəbdən də insana ağlı kəsəndən ailə tərbiyəsi, uşaq bağçası, orta və ali məktəb gərək olur. Bu, ayrıca bir araşdırma yazının mövzusudur ki, təhsil-tərbiyə müəssisələri insana necə yanaşır, onun bilik imkanları ilə yanaşı, mənəvi imkanlarının aşkarlanmasında necə rol oynayır.

Mənəvi imkanların aşkarlanması dedikdə ilk növbədə ulusal (xəlqi) imkanların dəyər səviyyəsində bilinməsi, öyrənilməsi (ömürləşməsi), öyrədilməsi (ömürləşdirilməsi) nəzərdə tutulur.

İnsan özünü bioloji cəhətdən pis tanımır. Başlıcası, bu sarıdan orta və ali məktəblərdə ardıcıl və sistemli tədris yönümü var. Təbabət insanların bioloji-maddi imkanlarının bilinməsi, sağlığın qorunmasında bacardığını edir. Ancaq insanın mənəvi cəhətdən tam öyrənilməsi üçün təhsilin qarşımızda qoyduğu tələblər yetərsiz, imkanlar məhdud görünür. Ona görə ki, insana ictimai - maddi (sosial) yox, mənəvi (ruhsal) baxımdan yanaşdıqda böyük imkanları aşkarlana bilər. İnsan kimdir? dünyaya niyə gəlib? onun başlıca işi niyə özünüöyrənmə, mənəvi imkanlarını aşkarlama, yetkinliyə (kamilliyə) çatmaq olmalıdır? İnsanın cəmiyyətdə özünü tam mənəvi cəhətdən aşkarlaması yüz illər, min illər boyunca maarifçilərin əsas ideal istəyi olub. Təbiidir ki, burada insana dini tələblər ölçüsündə yox, ulusal-mənəvi yanaşma nəzərdə tutulur.

Bu gün elmi-texniki yeniliklərin, ümumən kompüter texnologiyalarının inkişafı universal qabiliyyətli insan tələb edir. Ancaq şübhəsiz, bu gedişdə hər şeydən öncə ulusal dəyərləri dərindən bilən, dövlətə təəssübkeşlik ölçüsündə insanlar orta və ali məktəblərdə yetişdirilməlidir ki, gələcəyimizi onlara etibar edə, arxayın ola bilək.

Cəmiyyətin (cəmiyyətdəkilərin bir-birinə doğma münasibəti – E.Q.) doğmalığı insanın özünə doğma münasibətindən başlayır.

Özünü bilən, tanıyan dünyanı, təbiəti (doğanı), cəmiyyəti – başqalarını bilir, tanıyır.

M.İlyasov yazır: "Mənəvi zənginlik kamillikdir. Özündə olan nöqsan və yaxşı cəhətləri dərk edərək yaxşını artırmaq və nöqsanı aradan qaldırmaq iqtidarına malik olmaq insanı kamilliyə aparan, onu kamil edən amillərdəndir [2, 71].

Kamilləşmə - insanın özündəki anadangəlmə bacarıqları, habelə instinktiv xüsusiyyətləri dərindən araşdıra bilməsi prosesidir.

Özünüöyrənmə bir günün, bir ilin işi deyil. Nəzərə alsaq ki, insan, onun yetkinliyi, mənəvi kamilliyi haqqında indiyə kimi biri-biri ilə ziddiyyət təşkil edən çoxsaylı baxışlar var, o zaman problemin aktuallığı, həlledilməli olduğu tam anlaşılar.

Başqa tərəfdən, insan özünü mənəvi yetkinlik (kamillik-E.Q.) dönəmində də ardıcıl nəzarətdə saxlamalıdır. Bu, onun qaçılmaz insanlıq borcudur.

Müəllim özünü tanımasa, dərindən bilməsə, şagirdlərini və tələbələrini də tanıya, bilə bilməz. İlk növbədə müəllim daxili dünyasındakı instinktləri bilməlidir. Bu proses dərin idraki bilik tələb edir.

"Özüylə üz-üzə qalmaq" anlayışı çağımızda insanın insana mənəvi doğmalığının artması, yetkin formalaşması baxımından çox gərəklidir. İnsan əslində ətrafında nə varsa öyrənir, özünü də anatomik cəhətdən araşdırır, ancaq mənəvi yön tam şəkildə araşdırılmır.

Burada özünüöyrənmə əsas məsələdir. Yəni insanın hansı mənfi cəhətləri (qorxu, həsəd, köləlik, xəbislik, cahillik, vəhşilik, hərislik, zalımlıq və s.) var... onları ilk növbədə araşdırmaq, sonra isə aradan qaldırmaq gərəkdir. Əlbəttə, özünü bu sarıdan araşdırmaq çox çətindir, ancaq qaçılmazdır. Bu, artıq özünüöyrənmə mərhələsidir. Sonrakı mərhələ özündəki nöqsanlarla yağılaşmaq, sonuncu mərhələdə isə həmin şər duyğuların yerinə xeyir duyğuların (cəsarət, heyrət, vüqar, saflıq, doğruluq, insanilik, ləyaqət, mərhəmət və s.) qoyulmasıdır. Burada "yerinə qoyulma" şərti anlamdadır, yəni inam, idrak, mənəviyyat, iradə birliyi nəticəsində xeyir duyğuların (əməllərin) aşkarlanması insanın şər duyğulardan (əməllərdən) çəkinməsinin ifadəsi kimi anlaşılmalıdır.

A.Abbasov yazır: "Uşaqlar müsbət nümunələr, mütərəqqi adət və ənənələr əsasında tərbiyə almalıdırlar. Lakin həyatdakı mənfiliklər, naqis hallar və onların doğurduğu nəticələrə də diqqət yetirilməlidir ki, həmin acı nəticələr uşaqlara məlum olsun" [1, 13].

Özünü öyrənən, insanlıq cəhətdən təkmilləşdirən, yetkinləşən müəlllimin şagirdlərinə, tələbələrinə də ardıcıl insani duyğuları aşılayacağı şübhə doğurmur.

Qloballaşma (kürəsəlləşmə) və ulusallıq.

Qloballaşma (kürəsəlləşmə) çağımızda artıq ciddi problem səviyyəsindədir. İndi dünyanın bir nöqtəsində baş verən hadisə o biri başında anındaca canlı izlənilir. Belədə dünya vikipediyadakı "Kənd meydanı"na oxşayır. Nəticə odur ki, çağdaş insan dünyada baş verən hər cür çeşidli olaylara ardıcıl reaksiya verdiyi üçün özüylə üz-üzə qalmağa enerjisi və həm də zamanı yetmir, mahiyyətcə onun üçün hər şey maraqsızlaşır və adiləşir. Məhz adiləşmə yeni adiliklər dalğası yaradır.

Deməli, şagirdlərin, tələbələrin həyata, təhsilə, qurub-yaratmağa, düşünməyə, təhsilə marağının yaradılması özünü yetkin öyrənən, yaradan müəllimin çabalarından, özünə inamlı, idraklı, mənəviyyatlı, iradəli davranışından çox asılıdır.

Müəllim (öyrətmən) və tələbə, şagird (öyrənci) münasibətləri.

Ulusal dəyərləri qorumaq çətinləşdikcə yetkin müəllimin çiyninə düşən mənəvi qayğının, yükün miqyası da artır. Müəllim (öyrətmən) inandırmalıdır ki, həyatda insani gözəlliklərə çatmaq heç zaman asan başa gəlməyib, asan başa gələn nə varsa, əslində insanlığa uyğun deyil. Ona görə ki, insanlıq keyfiyyətləri zamanın gedişində, gerçəkliyin içində hazır şəkildə deyil, o, əslində aşkarlanmalı olan imkandır, məhz zəhmətlə, özünəinamla aşkarlanmalıdır, başqa cür mümkün deyil.

Bir an da arxayınlaşmamaq, öyrətdiklərinin (şagirdlərin, tələbələrin) gözündə adiləşməmək müəllimdən hünər istəyir. Əlbəttə, bu, çətin işdir, ancaq doğru sayılandır.

M.İlyasov yazır: "Peşəkarlıq və səriştəlilik müəllimin peşə fəaliyyətinin əsas atributlarından biridir. Peşə fəaliyyətinin əsas uğuru müəllimin peşəkarlıq və səriştəlilik səviyyəsinin yüksəkliyi ilə xarakterizə olunur. Səriştəlilik uğura aparan əsas yolun başlanğıcıdır. Müəllim səriştəli olduqda onun pedaqoji fəaliyyəti bütün istiqamətlərdə özünəməxsus məzmun və xarakter alır, seçilir, fərqlənir. Lakin səriştəlilik nə diplomla verilir, nə də birdən-birə formalaşır. Onun qazanılması bilavasitə pedaqoji proseslə, həm də yaradıcı şəkildə axtarışlar aparmaqla müəllimin müntəzəm olaraq üzərində çalışması, nəzəri və praktiki bilik və bacarıqlarını artırması ilə sıx bağlıdır" [3, 19].

Təcrübə göstərir ki, müəllimin nüfuzunu qoruyub saxlaması çox çətindir, ona görə ki, bu proses özünənəzarətin bir an da zəifləməməsini, əksinə, gücləndirilməsini tələb edir.

Ulusal (milli) dəyərləri qorumağın, artırmağın effektiv yolu bunları canlı yaşamaqdır. Dəyər anlayışı ulusun (xalqın) ömründəki ulusallığı ən yaddaqalan, canlı – yaşarı ifadə və təsdiq edəndir.

Bəs milli dəyər nədir?

Milli dəyər – millətin mənəvi-əxlaqi səviyyəsinin ifadəsi olub, xalq həyatının, mədəniyyətinin bütün sahələri haqqında sistemli fikirlərin məcmuyu, habelə ali mahiyyətidir.

Bəşərilik və milliliyin (ulusallığın) sınırları haraya kimidir, bunların arasında birlik varmı? Bəşərilik milliliyin təsdiqidir, bununla da milliliyin əlvanlığını təsdiq edir. Ulus (xalq) varsa, bəşər də var.

Müəllim (öyrətmən) və tələbə, şagird (öyrənci) münasibətləri doğmalığa əsaslanmalıdır. Doğmalıq olmadıqda təbiidir ki, yadlıq baş verir.

Qarşılıqlı doğmalıq, inam, etibar ciddi təhsilin əsasıdır, müəllim örnək olmalıdır ki, bu proses ardıcıl uğurlu alınsın.

Müəllim hazırlığı universallılğa əsaslanmalıdır. Pedaqoji-psixoloji aspektlərə gəlincə, müəllimin təcrübəsinin çoxluğu öyrətmək prosesində rol oynayır, ancaq həqiqətin meyarı insanlığa əsaslandıqda bu ölçü hər bir öyrənənin ağlında, ürəyində aydınca görünür, bilinir.

Müəllim öyrətmənliyində bilik özümləşdirmə (öyrənmə) və öyrətməyə əsaslanır. Öyrənmə o dərəcədə üzvi proses olur ki, öyrətmə də canlı, üzvi prosesə çevrilir.

Nəticə

Müəllim şəxsiyyətinin formalaşmasında özünütanıma əslində başlanğıc səviyyədir, ancaq o dərəcədə gərəklidir ki, bunsuz insanın yaradıcı imkanlarının tam aşkarlanması baş tutmur. Yaradıcılıq burada insanlıq imkanlarının aşkarlanması ilə obrazlı desək, üfüqlərə çatır. Çünki insanlığın özü ən böyük imkandır. Əsil müəllim öyrəndiyini, özündə aşkarladığı insani gözəllikləri başqalarına, ilk növbədə şagirdlərinə, tələbələrinə aşılayandır. Belədə təhsilin səmərəliliyi təsəvvürəgəlməz dərəcədə artar, ona görə ki, insan özünü mənən öyrəndiyi, bildiyi dərəcədə həyatı, cəmiyyəti, təbiəti də daha səylə, yaradıcı öyrənir, dəyərləndirir, yaşamağa, yaratmağa inamı artır.

Ədəbiyyat

1.Abbasov Akif. Ailə tərbiyəsinin prinsipləri. "Peşə təhsili və insan kapitalı" jurnalı. Cild 2, N-2, 2019. Səh. 12-19. Layout 1 (vet.edu.az)

2.İlyasov Müseyib. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. Bakı: “Elm və təhsil”, 2018, 208 s. 2018-1050.pdf (anl.az)
3. İlyasov Müseyib. Səriştəli müəllim hazirliği pedaqoji təhsilin əsas hədəfi kimi. “Peşə təhsili və insan kapitalı” jurnalı. Cild 2, N-2, 2019. Səh. 19-24. Layout 1 (vet.edu.az)

РЕЗЮМЕ
ЗНАЧЕНИЕ САМОПОЗНАНИЯ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ УЧИТЕЛЯ
Эльчин Галибоглу
Институт фольклора НАНА

В статье подчеркивается важность самопознания в формировании личности педагога, самопознания человека и среды: неизбежность конфронтации, необходимость избавления от негативных эмоций, глобализации и национальность, сложность защиты национального ценности, границы человечества и национальности, единство, отношения учителя и ученика, взаимное родство, доверие, пример учителя, готовность, универсальность, педагогические и психологические аспекты в этом процессе, а также анализ таких вопросов, как приобретение знаний (обучение) и преподавание.
Ключевые слова: *личность учителя, национальность, человечность, самоотверженность учителя, универсальность учителя.*

SUMMARY
THE IMPORTANCE OF SELF-KNOWLEDGE IN THE FORMATION OF TEACHER PERSONALITY
Elchin Galiboglu
Institute of Folklore of ANAS

The article emphasizes the importance of self-knowledge in the formation of the teacher's personality, self-knowledge, human and environment: the inevitability of confrontation, the need to get rid of negative emotions, globalization and nationalism, the difficulty of protecting national (national) values, the boundaries of humanity and nationality, unity, teacher and student-student relations, mutual kinship, trust, confidence, teacher example, readiness, universality, pedagogical and psychological aspects in this process, as well as the analysis of issues such as knowledge acquisition (learning) and teaching.
Keywords: *teacher personality, nationality, humanity, teacher selflessness, teacher universality.*

DİL KONFLİKTLƏRİ SOSİOLİNQVİSTİK PROBLEM KİMİ

Eminli Böyükxanım İbrahim qızı
Sumqayıt Dövlət Universiteti, dosent
resadok50@gmail.com

Açar sözlər: *sosiolinqvistika, dil, konflikt, qloballaşma, millətdaxili dil konflikti, millətlərarası dil konflikti*

Dil millətin, etnosun mövcudluq əlamətidir. Dil konfliktini "mədəniyyətlərin dillərində müharibə və sülh" termini kimi təklif edənlər də olub. V.Y.Mixalçenko millətlərarası və millətdaxili dil konfliktini xüsusi qeyd edir: “Belə konfliktlər ən çox ədəbi dilin formalaşması prosesində, əsas dialekt seçimi uğrunda mübarizə zamanı müşahidə olunur. Çox vaxt dilin qrafik əsasının seçilməsi və ya dəyişdirilməsi məsələsi münaqişəyə çevrilir, məsələn, tatar dilinin latın qrafikası əsasında tərcüməsinin tərəfdarları və əleyhdarları arasında münaqişə... Millətlərarası dil münaqişələri çox vaxt milli münaqişələrin tərkib hissəsi olur sosial, mədəni, siyasi problemlərə təsir edən” [2]. Dil konfliktlərinin nəticələri də az əhəmiyyət kəsb etmir: birincisi, dillərin ölümünə və tamamilə sıradan çıxmasına qədər dillərin yox olması (tədricən status itirməsi), ikincisi isə dillərin kreolizasiyası (yeni dillərin formalaşması) [1].

Dil konfliktləri və onların müasir siyasi prosesə təsirindən danışmazdan əvvəl müasir cəmiyyətin mövcudluğunu şərtləndirən obyektiv amilləri müəyyən etmək lazımdır. Qeyd olunan mövzu kontekstində müəyyənedici rollardan birini həm ictimai-siyasi elementlərin, həm də siyasi prosesin özünün dəyişkənliyi

ilə səciyyələnən qloballaşma oynayır. Dəyişikliklər həm daxili səviyyədə (statuslar, rollar, struktur dəyişdirilir), həm də xarici səviyyədə (mexanizmlərin özləri ilə) müşahidə olunur. Dildən istifadə də daxil olmaqla, vahid həyat qaydalarının yaradılması cəhdinə təbii reaksiya rayonlaşma idi. Bu, milli mədəniyyətlərin qorunub saxlanması, tarixi ənənələrin qorunub saxlanması və s. kimi prioritetlərin yaranmasına səbəb oldu. Bu faktın nəticəsi odur ki, özünütənzimləmə və milli birliyin qorunub saxlanması məsələləri getdikcə daha çox fikir ayrılığına səbəb olur.

Dil konfliktləri dillə bağlı müəyyən problemlərə əsaslanan, insanların icmaları arasında toqquşma kimi başa düşülür. Üstəlik, bu sahədə münaqişələr sosial xarakter daşıyır, iqtisadi, siyasi, sosial və dini sferalarda yerləşir.

Xarici alimlər dil konfliktinin prinsiplərini ən geniş şəkildə başa düşürlər. Məsələn, P.X. Neldanın əsərlərində deyilir: "Dil çox vaxt siyasət, iqtisadiyyat, idarəetmə və ya təhsil kimi digər sahələrdə baş verən münaqişənin simvoludur". Dil fərqlərinin kəskinləşməsi, əsasən, dillərin müxtəlif sosial statuslara və qeyri-bərabər sosial funksiyalara malik olduğu ölkələrdə baş verir.

Bu gün hər bir fərd hər hansı bir dildə danışmalıdır - bu, sosiallaşmanın vacib şərtlərindən biridir. Təbii ki, qohumları, dostları və ya qonşuları ilə ünsiyyət qurmaq üçün insanın ancaq öz ana dilini bilməsi kifayətdir. Buna baxmayaraq, iqtisadiyyatın müasir üsulu və siyasi proseslərin mürəkkəbliyi kommunikasiya sahəsinə yüksək tələblər qoyur. Çoxdilli dünyada uğurla həyata keçirmək üçün insanlar beynəlxalq ünsiyyət dilini bilməlidirlər.

Qloballaşan dünyada uğur qazanmağın ən vacib şərtlərindən biri xarici dilləri bilməkdir. Prioritet tarixi prosesin bu mərhələsində ingilis dili olan beynəlxalq ünsiyyət dilini bilməkdir. Bununla bağlı Rusiya Elmlər Akademiyasının akademiki V.Y. Mixalçenko: "Çoxmillətli ölkələr üçün ən məqbul funksional model üçdillilikdir (üç komponentdən ibarət çoxdillilik: milli dil + millətlərarası ünsiyyət dili + beynəlxalq ünsiyyət dili)" [2]. Bununla belə, tarix bizə başqa cür deyir - əksər çoxmillətli ölkələrin siyasəti çox vaxt təkdillilik idealına gəlir. Monolinqvizm - çox vaxt kiçik dil qruplarının sonradan yerdəyişməsi ilə dövlət dilinin dəstəklənməsi ilə əlaqədardır ki, bu da sonradan münaqişələrə səbəb olur. Bir dilin digərləri üzərində hökmranlığı siyasəti, dilin assimilyasiyası, başqa bir dilə keçidi linqvistik ixtilafların təzahürünə misaldır.

Dil konfliktləri millətlərarası və millətdaxili olmaqla 2 yerə bölünür. Sonuncu - eyni etnik qrupun nümayəndələri arasında baş verir. Çox vaxt ədəbi dilin formalaşması prosesində etnikdaxili dil fikir ayrılıqları müşahidə olunur. Onlar, adətən, əsas dialektin seçimi uğrunda mübarizəyə əsaslanır.

Ədəbi dilin normallaşması prosesində də millətdaxili dil münaqişəsi yarana bilər. Ümumiyyətlə, etnikdaxili dil münaqişələri o qədər də rezonans doğurmur və bütövlükdə cəmiyyətə təsir etmir. Bununla belə, onlar müəyyən bir regionun sabitliyinin təhlükəsizliyinə təhlükə yaradır. Odur ki, "münaqişə potensialı" olan zonalara nəzarət etmək lazımdır.

Millətlərarası dil münaqişəsi müxtəlif etnik qruplar arasında baş verən münaqişədir. Onun əsasını həmişə dillər və sosial-kommunikativ sistemin komponentləri arasında fəaliyyət sahələrinin bölüşdürülməsi uğrunda mübarizə təşkil edir.

Millətlərarası dil münaqişələri nadir hallarda öz-özünə yaranır, adətən, millətlərarası gərginlik fonunda yaranır. Bəzən onlar millətlərarası mübarizə üçün əsas təkan rolunu oynaya bilirlər.

Qarşıdurma dil vəziyyətinə misal olaraq iki rəsmi dilin, ingilis və fransız dillərinin birgə mövcud olduğu Kanadadır. Ölkədə gərginlik vəziyyəti iki dil qütbü arasında müşahidə olunsa da, dil münaqişəsi yaranmır. Kanadanın problemləri ondan ibarətdir ki, əyalətdən asılı olaraq ingilis və fransız dilləri həm azlıq, həm də əksəriyyət dilidir.

Ümumiyyətlə, anlamaq lazımdır ki, dil konfliktləri müxtəlif səbəblərdən yarana və tamamilə fərqli nəticələrə səbəb ola bilər:

-Cənubi Azərbaycanda Azərbaycan dilinin sıxışdırılması (bu dildə radio və televiziya verilişlərinin olmaması, orta məktəblərdə Azərbaycan dilinin tədrisinə məhdudiyyətlərin qoyulması və s.)

- müharibə edən etnik qruplar (Moldova və Dnestryanı, Ukrayna və Donbass) arasında düşmənçilik;

- dövlətlərarası münasibətlərdə gərginliyin formalaşması (Rusiya və Ukrayna, Rusiya və Baltikyanı ölkələr);

- piketlər və təşkil edilmiş çıxışlar (məsələn, Cənubi Azərbaycanın bəzi bölgələrində orta məktəblərdə Azərbaycan dilini öyrənmək üçün saatların azaldılmasına qarşı);

Dil konfliktlərini "söndürmək" yalnız düşünülmüş dil siyasəti və bütün döyüşən tərəfləri barışdırmaq üçün yaxşı əlaqələndirilmiş hərəkətlərlə mümkündür.

N. Tiçi və M.A.Divanna kimi müəlliflər təklif edir ki, münaqişə üç səviyyədən birində həll oluna bilər - güc, hüquq və ya maraqlar. Güc səviyyəli həllər çox bahalı və daha az davamlıdır. Bundan əlavə, bu

üsul heç bir şəkildə linqvistik fərqlərin həllinə şamil edilmir. Müəlliflərin fikrincə, ən effektiv və davamlı tənzimləmə maraqlar baxımından həyata keçirilir.

Bir çox yerli və xarici alimlər belə bir mövqedədirlər ki, millətdaxili və ya millətlərarası münaqişələrin danışıqlar yolu ilə həlli mümkündür. Hər iki tərəfin mübahisə predmetini onun iştirakçılarından ayıra bilməsi və dialoqa hazır olması vacibdir. Yalnız tərəflərin əməkdaşlığı sayəsində vəziyyətin müsbət inkişafına gəlmək mümkündür [3]. Üstəlik, yalnız bütün iştirakçılar tərəfindən tanınan dəyərlərə güvəndikdə, münaqişənin həlli ehtimalı var.

Dil konfliktində qalib gəlmək mütləq üstünlük verilən nəticə deyil. Tarix göstərir ki, dilin ərazisi nə qədər böyükdürsə, onun şaxələnməyə, dialektləşməyə meyili də bir o qədər güclü olur. Beləliklə, müasir qloballaşma prosesi və dil fərqlərinin güc yolu ilə həllinin mənasızlığı onların dialoq yolu ilə həllinin yeni yollarının tapılmasını və bütün tərəflərin ehtiyaclarının ödənilməsini tələb edir. Təbii ki, yalnız belə münaqişələrin mənşəyinə toxunduqda insanların özünü identifikasiyasını qorumaq mümkündür. Axı, məhz dil siyasətinin problemləri ölkənin milli maraqları ilə qaçılmaz qarşıdurmaya gətirib çıxarır ("çirklənmiş" dil mühiti əhalinin mənəvi deqradasiyasına səbəb olur ki, bu da dövlət üçün təhlükə yaradır).

Ədəbiyyat

1. Зассе Х.-Ю. Теория языковой смерти // Социолингвистика и социология языка : хрестоматия / [пер. с англ.] ; отв. ред. Н. Б. Бахтин. СПб., 2010. С. 433–458.
2. Михальченко В.Ю. Языковой конфликт в полиэтническом государстве // Языковая политика и языковые конфликты в современном мире: материалы международной конференции (г. Москва, 16-19 сент. 2014 г.). М., 2014. С. 209-213.
3. Подъяпольский С. Предупреждение, профилактика и разрешение межэтнического конфликта [Электронный ресурс]. URL: https://krasn.pravo.ru/analytic/view/30547/

РЕЗЮМЕ

ЯЗЫКОВЫЕ КОНФЛИКТЫ КАК СОЦИОЛИНГВИСТИЧЕСКАЯ ПРОБЛЕМА

Эминли Б.И.

Сумгаитский государственный университет

Языковые конфликты - это социальные конфликты, возникающие в результате ограничения права некоторых социальных общностей на использование родного языка в определенных социальных и других сферах. Масштабы языковых конфликтов могут сильно различаться (от глобальных до мелкомасштабных), и это отражается на различном их понимании даже на терминологическом уровне. В этом конфликте всегда присутствует доминирующая языковая группа, стремящаяся ограничить социальные и иные возможности других языковых групп. Языковой конфликт, прежде всего, по своей природе находится на уровне межэтнических и межэтнических отношений. Поэтому проблемы языкового конфликта очень важны.

Ключевые слова: *социолингвистика, язык, конфликт, глобализация, национально-языковой конфликт, межнациональный языковой конфликт.*

SUMMARY

LANGUAGE CONFLICTS AS A SOCIOLINGUISTIC PROBLEM

Eminli B.I.

Sumqait State University

Language conflicts are social conflicts that result from the restriction of the right of some social communities to use their mother tongue in certain social and other areas. The scale of language conflicts can vary greatly (from global to small-scale), and this is reflected in their different understandings, even at the terminological level. In this conflict, there is always a dominant language group that seeks to limit the social and other opportunities of other language groups. Language conflict, first of all, by its nature, is at the level of inter-ethnic and inter-ethnic relations. Therefore, the problems of language conflict are very important.

Keywords: *sociolinguistics, language, conflict, globalization, national language conflict, international language conflict*

MÜƏLLİM ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA ETİK-PEDAQOJİ İDEYALARIN VƏ MƏNƏVİ ƏQİDƏNİN ROLU

Novruzova Aidə İbrahim qızı, Hüseynova Kifayət Yunis qızı
Naxçıvan Dövlət Universiteti
aidenovruzova@mail.ru; nurv7487@gmail.com

***Açar sözlər**: müəllim, etik, pedaqoji, ideya, mənəvi, fəlsəfə, əqidə, iradə humanist, beynəlmiləl, peşə, psixologiya*

Müəllim hər zaman cəmiyyətdə ən sayılıb seçilən fədakar, zəhmətkeş, müqəddəs insanlardan olmuşdur. Müəllim özünün danışıq tərzi, davranışı, tədris zamanı seçdiyi vasitə və üsulları, öyrətməyə həvəs göstərməsi ilə şagirdləri hər zaman özünə cəlb etməlidir.

"Ən yaxşı müəllim necə olmalıdır"? sualını görkəmli pedaqoq V.A.Suxomliski belə yazırdı: "O ilk növbədə, uşaqları sevən insandır, onlarla ünsiyyətdən sevinc tapır, inanır ki, hər bir uşaq yaxşı insan ola bilər. Çətin tərbiyə olunan uşaqlarla işləmək, xəstə uşaqları ruhlandırmaq hər bir müəllimin əsas vəzifəsidir". [2]

Müəllimlik ən çətin, ən məsuliyyətli və həm də mürrəkəb vəzifədir.

Vali deynlər öz uşaqlarını müəllimə əmanət etdikdə arxayın və rahat olmalıdırlar.

Pedaqoq Y.Talıbov yazırdı ki, müəllimin peşəsini başqa peşələrlə fərqləndirən başlıca xüsusiyyətlərdən biri onun fəaliyyət obyektinin dinamik olmasıdır. [5]

Müasir müəllim öz peşə qabiliyyəti, akademik fəaliyyəti, ünsiyyət forması, iradi-emosional hissləri ilə seçilməlidir. Məlumdur ki, ən dərin biliyə, savada malik olan müəllim savadlı uşaqlar yetişdirər, zəif müəllim isə zəif uşaqlar. Bu zaman aydın olur ki, müasir müəllimin öhdəsinə böyük məsuliyyət düşür.

Müəllim hər zaman müqəddəsdir. O həm şagirdlərlə, həm də valideynlərlə sıx əlaqə saxlayır, öz vəzifəsini layiqincə yerinə yetirməyə cəhd göstərir. Bunu da qeyd etməliyik ki, uşağın düzgün yetişməsində valideynlərin də rolu damılmazdır. Uşaq harda olursa-olsun, evdə, bağcada, məktəbdə düzgün tərbiyə almalıdır. A.S.Makarenko yazırdı: "Tərbiyə hər zaman baş verməlidir. Hətta siz evdə olmasanız da belə uşağın olduğu bütün mühit və şərait ona müsbət təsir göstərməlidir. [1]

Müasir müəllim pedaqoji proses zamanı çox diqqətli olmalı, məsuliyyət hiss etməlidir. Pedaqoji tədris zamanı müasir müəllimin formalaşmada etika mühüm rol oynayır.Etik –pedaqoji ideya ta qədimdən bizə məlumdur. Hələ ta qədimdən Azərbaycan xalqı öz folklorlarında, dastanlarda, nağıl və qoşmalarında tərbiyəvi, əxlaqi-etik fikirlər irəli sürmüşlər.

Ə.Haşımov tədqiqatlarının birində yazırdı: "Pedaqoji fikrin ilk nümunəsi xalq kütlələri olmuşdur. Çünki xalqın geniş zəhmətkeş kütlələrinin düşüncəsi, yüksək insani hissləri, tarixi müdirikliyi folklorumuzda aydın əks olunmuşdur [4]

Müəllim etikası məsələsini dahi cex pedaqoqu J.Kamenski geniş aspektdə isləmişdir. O müəllim-şagird münasibətlərinə xüsusi əhəmiyyət vermiş,humanist müəllim idealını yaratmışdır. Müasir müəllim bütün tədris boyu pedaqoji etikanı unutmamalı uşaqlarla humanist davranmalı, şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almalıdır.

Ayrı-ayrı mühitdən gələn uşaqlar bir sinifdə toplaşır. Fərqli xüsusiyyətləri olan uşaqlar müəllimin köməyi, şəfqəti ilə bir-birinə uyğunlaşmalıdırlar.

Deməli müəllim şəfqətindən, düzgün etik davranışından çox şey asılıdır.

Müəllim etik biliklərə o qədər yiyələnməlidir ki, bunu şagirdlərə başa salmalı, onları hərtərəfli inkişaf etdirməlidir. Müəllim yaxşını qabağa çəkib, zəif oxuyanı danlamamalı, əksinə, hamısına eyni qaydada davranmalı və müəyyən şəraitdə onu başa salmalı, ruhlandırmalıdır.

Deməli müəllim şagirdləri elmə həvəsləndirməli, öz davranış, etikası ilə müvəffəqiyyət qazanmalıdır. Müasir müəllimin öhdəsinə böyük vəzifələr düşür. Hər bir uşağın təbiətində gizlənmiş qığılcımı yandırmaq, onlara ilham vermək müəllimin borcudur. İstedad hər bir uşağın zehnində, fikrində, ürəyində gizlidir. Bunları ancaq müəllim aşkara çıxara bilər.

Bütün bunları görkəmli pedaqoqlar təsdiq etmişlər.

Pedaqoji etika sayəsində hər bir uşağın istedadını aşkara çıxarmaq olar.

S.Ə.Sirvani, A.Bakıxanov, K.D.Uşinski, M.F.Sidqi, A.S.Makarenko, N.Nərmanov, B.A.Suxomlinski, L.N.Tolstoy, Gertsen və başqa pedaqoqlar pedaqoji etikanın ən vacib amilinin tərbiyə sistemi olduğunu qeyd etmişlər.

Ən əsas odur ki, müəllim insan zəkası haqqında təcrübə əldə etməli, həm pedaqoq, həm psixoloq olmalıdır. Müasir müəllim pedaqoji sistemdə tərbiyəçi ilə tərbiyə olunanlar arasında mənəvi münasibətlərə xeyli yer verməlidir. İlk növbədə isə müasir müəllim özünün əməli ilə sözünün bir-birinə uyğun gəlməsinə diqqət yetirilməlidir. Uşaqlarla ünsiyyətdə olmaq, daim onları dinləmək, yol göstərmək, onların qəlbində umud işığı yandırmaq lazımdır. Əlbətdə pis uşaq yoxdur, çətin tərbiyə olunan uşaq vardır.

Ünsiyyətdə olmaq işığın, qaradinməzlik isə zülmətin əlamətidir. Ünsiyyətdə olmaq müəllim nufuzunu yüksəklərə qaldırır,onu ideallaşdırır.

Müəllim şəxsiyyətinin formalaşmasında mənəvi əqidənini böyük təsiri vardır. Mənəvi əqidə müəyyən ictimai -siyasi, mədəni amillərin təsiri altında formalaşır. Əqidə insanın mühit, həyat, varlıq haqqında düşüncə və inamından ibarətdir.

Mənəvi əqidənin formalaşmasında ictimai mühitin, ailənin böyük təsiri vardır.

Mənəvi əqidənin əsas komponentlərindən biri əxlaqi, etik, elmi bilikdir. İnsan ta uşaqlıqdan başlayaraq ömrünün sonuna kimi müəyyən elmi biliklərə yiyələnmək üçün səy göstərir. Elmi biliklərə yiyələnmək sayəsində insan təbiətdə və cəmiyyətdə baş verən hadisələrin mahiyyətini dərindən dərk edir. Elmi, əxlaqi-etik biliklər müəllimin ictimai-siyasi hadisələri düzgün qiymətləndirməsinə, dünya miqyasında baş verən hadisələri düzgün dərk etməsinə kömək edir.

Mənəvi əqidənin başqa bir komponenti də müstəqil fikir, fəaliyyətdir. Elmi-əxlaqi-etik biliklərə yiyələnməklə mənəvi şüurun tam formalaşması baş vermir. Bunun üçün müstəqil fəaliyyət vacibdir. Müstəqil fəaliyyət çox mürəkkəbdir. Çünki əqidə müəllimi həmişə fəaliyyətə təhrik edir. Bu zaman müəllim cəmiyyətdə baş verən ictimai hadisələrinin yalnız seyredicisi olmur, əksinə, bu hadisələrə müdaxilə edir, fəaliyyət göstərir. Çünki müəllimin bütün hadisələrdə fəalıq göstərməsi gənc nəsli arxasınca apaması deməkdir.

Mənəvi əqidənin başqa bir komponenti iradədir. Əgər iradə olmasa, qarşıya çıxan çətinlikləri, maneələri dərk etmək cəsarəti olmasa, əqidə də ola bilməz. Deməli, mənəvi əqidə iradə qüvvəsini özündə birləşdirən prosesdir. Bütün bunlardan bir nəticə əmələ gəlir ki, mənəvi əqidə elmi, əxlaqi və etik biliklərə, həyat təcrübəsinə əsaslanan həyat stimulu olan insanların məqsədəuyğun fəaliyyətidir.

Müəllim peşəsi bütün peşələrin anasıdır. Çünki müəllim gənc nəsli həyata hazırlayır, inkişaf etmiş, hərtərəfli formalaşmış şəxsiyyə, vətən övladı yetişdirir. Müəllim hər zaman vətən üçün canını verməyə hazır olan insanlar yetişdirir. Müəllim iqtisadiyyatı idarə etməyi bacaran insanlar yetişdirir. Buna görə də, müəllim elmi-əxlaqi, etik biliklərin mənbəyi sayılır.

Müəllim hər zaman öz peşəsini sevməli, dərindən dərk etməli, daima öz üzərində işləməlidir. Müəllim bir günəşdir, hər zaman parlayır, ətrafını işıqlandırır. Müəllimm öz fəaliyyəti zamanı uşaqların psixologiyasını dərindən öyrənməli, onların daxili aləmi ilə maraqlanmalıdır. Müasir müəllim tələbkar olmalıdır, prinsiplərə rəayət etməlidir, eyni zamanda ədalətli olmalıdır. H.A.Dobrolubov yazırdı: "Müəllim şagird üçün heyranedici təcrübə oyadan bəşəri kamilliyin ali nümunəsidir".

Müəllim bilməlidir ki, öz nüfuzunu zəhməti, əməyi, biliyi, bacarığı sayəsində əldə edir. Müəllim kollektivçi olmalı, qarşılıqlı yardım göstərməyi bacarmalıdır.

Müəllim fəal ictimaiyyətçi, maarifci və biliklərin inkişaf etdiricisi, xeyirxah münasibətlərin daşıyıcısı, əsl vətənpərvər və əxlaqi əqidənin nümunəsi olmalıdır.

Müəllim-şagird, şagird-müəllim kollektivi bir-biri ilə sıx bağlıdır.

Müəllim şagird kollektivinin, münasibətlərinin öz məzmunu, spesfik xüsusiyyətləri, çətinlikləri, problemləri vardır. Müəllim uşaq kollektivinə yalnız obyekt kimi deyib, habelə, tərbiyə prosesində özünün ən yaxşı köməkçisi kimi baxmalıdır.

Kollektiv tərbiyə əsas amilidir və o, şagird şəxsiyyətinə çox vaxt müəllimdən də güclü təsir göstərir. Kollektiv münasibətlərin formalaşması müəllimin əlində qüdrətli silahdır. Müəllim hər bir şagirdin yaxşı və ya pis hərəkətini kollektivin müzakirəsinə verib rəy yaratdıqda müsbət nəticə verir.

Müəllim şagirdini qəlbdən sevir, onun hər bir böyük, kiçik müvəffəqiyyətlərindən fərəhlənir. Qəlbində uşaqlara məhəbbəti, valdeyn hərarəti olmayan müəllim uşağı incidir, ona daxili iztirab verir. L.Tolstoy belə müəllimlərə deyirdi: "Ona əzab verməyin, sorusun, qəlbini dinləyin".

Rus pedaqoqu B.A.Suxomlinski yazırdı ki, mənim həyatımda ən başlıca sənət nədir? Düşünmədən deyərdim:

-Uşaqlara məhəbbət

Uşaqlara məhəbbət böyük qüvvədir. Bu məhəbbəti B.A.Suxomlinski "Ürəyimi uşaqlara verərəm" adlı əsərində böyük bir ürəklə, hərarətlə, sevgi hissi ilə tərənnüm etmişdir.

Böyük alman pedaqoqu "müəllimlər müəllimi" F.A.Distever müəllimi cəmiyyətin hərəkətverici qüvvəsi hesab etmiş, müəllimlər üçün konkret tələblər, qaydalar hazırlamışdır. Müəllimin öz fənninə olan münasibəti uşaqlara da keçir. Məktəbin qabaqcıl məktəb olması üçün müəllimlərinin yaxşı olması şərtdir.

Dahi M.Zelinski ailə tərbiyəsi, ata-övlad, ana-qız münasibətləri, məktəbin həyatla əlaqəsi haqqında maraqlı fikirlər söyləmiş, müəllimləri uşaqlıq dünyasını öyrənməyə çağırmışdır.

Əsl müəllim şəxsiyyətin formalaşmasına, təkmilləşməsinə, inkişaf etməsinə təsir edən, o cümlədən, irsiyyət, mühit və tərbiyə amillərinin qarşılıqlı münasibəti haqqındakı məsələsinə Karl Marks didaktik şəkildə yanaşmış və insanın yenidənqurma fəaliyyətini yüksək qiymətləndirmişdir.

Müasir Azərbaycan müəlliminin daha da formalaşması, hərtərəfli inkişaf etməsi, gələcək tələblərə cavab verməsi üçün onun qarşısında çətin və məsuliyyətli vəzifələr dayanır. Müəllim hər an öz üzərində işləməli, yeni fikirlər axtarmalı, öyrənməlidir. Müəllim daim yaradıcı əməyinin qayğısına qalmalıdır. Nüfuzlu müəllim cəmiyyət daxlində elmi biliyi, dünyagörüşü, intelekt səviyyəsi, hümanistliyı, ədalətliliyi, qayğı və tələbkarlığını ölçülü-biçili tənzimləməsi ilə cəmiyyət üzvlərinin hər birindən müsbət mənada fərqlənir. Daim yaradıcı əməyinin qayğısına qalan müəllim unutmamalıdır ki, şəxsi əməksiz insan müvəffəqiyyət qazana bilməz.

Bəli, müəllim hər zaman yaradıcı olmalı, peşə fəaliyyətində etik davranış prinsiplərini gözləməli və tələblərə ciddi şəkildə əməl etməlidir.

Müəllim gənc nəslin mənəvi estetik tərbiyəsinin inkişaf etməsində böyük rol oynamalı, həm özünün, həm də şagirdlərin milli əxlaq, ictimai davranış, pedaqoji-etik normalarına riayət etməlidir. Bütün bu qaydalara layiqincə əməl edən müasir müəllim öz üzərində layiqincə işləyərək kollektivin hörmətini qazanır və yüksəlir.

Müasir müəllim şəxsiyyətinin formalaşması, hərtərəfli inkişaf etməsi, gənc nəslə dayaq olması dövrümüzün ən vacib, aktual məsələlərindən biridir. Hər bir Azərbaycan müəllimi öz peşə nüfuzunu möhkəmləndirməyə, şərəf və ləyaqətini uca tutmağa borcludur. Hər an öz üzərində çalışam yeni fikirlər axtaran,hörmətli müəllimlərimizlə fəxr edir, onlara bu şərəfli məsləkdə uğurlar arzulayırıq.

Ədəbiyyat

1. Makarenko A.S. Pedaqoji Poema.
2. Suxomlinski B.A. Vətəndaşın doğulması. Bakı: Maarif, 1975.
3. Həşimov Ə.Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri. Bakı: Maarif, 1970.
4. Dobrolybov H.A.. Seçilmiş pedaqoji əsərləri . Bakı: Azərnəşr, 1963.
5. Talıbov Y., Ağayev Ə., İsayev İ., Eminov A. Pedaqogika (tədris vəsaiti). Bakı, 2009.

РЕЗЮМЕ

РОЛЬ ЭТИКО-ПЕДАГОГИЧЕСКИХ ИДЕЙ И ДУХОВНОЙ ВЕРЫ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ УЧИТЕЛЯ

Новрузова А. И., Гусейнова К. Ю.

Нахичеванский государственный университет

Разрабатываемая нами тема гласит о большой роли этических, педагогических и маральных нравов идей в формировании учителя. В теме в основном отмечается значимая роль общественной среды в развитии и формировании личности учителя.

В теме использованы мнения гениальных педагогов. В статье имеются интересные мысли педагогов Ю.Талыбова, Макаренко, Коменского, Сухомлинского и других педагогов о педагогической этике. В произведении «Сердце отдаю детям» Сухомлинский выдвинул широкий спектр идей о педагогической этике и эстетике. В статье также подчеркивается роль педагогической этики и нравственного воспитания в формировании личности педагога.

Ключевые слова: *учитель, этический, педагогический, идея, нравы, философия, воля, гуманный, международный, профессия, психология*

SUMMARY
THE ROLE OF ETHICAL AND PEDAGOGICAL IDEAS AND SPIRITUAL BELIEF IN THE FORMATION OF TEACHER PERSONALITY
Novruzova A.I., Huseynova K.Y.
Nakhchivan State University

The subject we work on refers to playing a great role of ethic and pedagogy ideas and moral belief in the forming of the teacher. The topic mainly performing social environment in the developing and forming teacher personality is noticed as an important factor.

Mutual position of the heredity, environment and upbringing factors which affect the formation of the human personality plays an important role in the subject here. It's also noticed the essence and content of the teacher – pupil relationship teacher's pedagogy activity, being educator either a pedagogy or a psychology.

In the article ideas from great pedagogues were used. Pedagogues, such as Y.Talibov, Makarenko, Komenski, Sukhomlinsky and others have many different opinions about pedagogical ethics in the article. Sukhomlinsky suggested very many ideas about pedagogical ethics and aesthetics in his work "To children I give my heart". The important role of moral upbringing and pedagogical ethics is also emphasized in the formation of the teacher's personality in the article we have worked on.

***Keywords**: teacher, ethic, pedagogy, idea, moral, philosophy, belief, humanist, international, profession, psychology.*

INNOVATIVE STUDY OF SUBJECTS INTEGRATION AS THE PART OF FORMATION OF PERSONALITY

Hasanov Elnur Latif
Ganja Branch of Azerbaijan National Academy of Sciences, Ganja, Azerbaijan
Doctor of Philosophy in History
el-hasanov@gmail.ru

***Keywords:** education, Azerbaijan, innovative study, subject, teacher.*

A number of researchers are characterized by the use of teaching methods, cognitive questions and research elements in solving the current problem. These approaches are based on concepts (composition of knowledge) in various disciplines, activities and skills. This allows you to combine educational, educational and developmental tasks with training. In determining the classification model of interdisciplinary relations suggests relying on three main systems: the information structure of the subject, the morphological structure of educational activities, as well as organizational and methodological elements of training [2, 61-66].

Given that training is a complete process, interdisciplinary interactions operate at three interconnected levels: 1) significant information; 2) practical activities; 3) organizational and methodological. Based on these considerations, interdisciplinary communication can be considered as a system of elements:

1. The content of education is based on interdisciplinary relations due to didactic and methodological methods and means.
2. Visual tools (diagrams, graphs, charts, plans, maps, etc.) reflecting interdisciplinary communication.
3. Forms of interaction teaching individual disciplines.
4. Optimal conditions for the organization of interdisciplinary relations - objective conditions (curricula, textbooks, development of the theoretical foundations of interdisciplinary relations, etc.) and subjective conditions (knowledge of mixed subject programs by teachers, planning of interdisciplinary relations, etc.).
5. Definition of methods of interdisciplinary communication [6, 23-26].

The generalization of information in different disciplines leads to the emergence of new knowledge, both theoretical and applied. We are talking about new skills and habits in an interdisciplinary structure. The new structure does not easily translate specific knowledge, concepts and methods of one science into another. The new structure is distinguished by both the quantity and quality of the elements. A systematic approach to the problem allows us to study the event as a whole with a new integrated quality as a result of interaction. In the process of interdisciplinary communication, knowledge of one subject is the beginning of

the formation of new knowledge in a new structure. The concepts included in this structure, law, category, etc. act as knowledge. The science of knowledge is as scientific as the concept itself.

Since the main paradigm of research is developmental learning, the development of intellectual abilities and curiosity of a young pupil are its most important component. Therefore, the solution of problems associated with the teaching of the Azerbaijani language, mathematics, life sciences and other disciplines in the initial educational process is possible using a specially developed interdisciplinary method.

Based on a literature review summarizing the results of research by local and foreign scholars on the problem of interdisciplinary integration, importance of a new educational paradigm was emphasized and the main trends in the development of the existing problem with psychological, pedagogical and methodological prisms were considered. This allowed us to formulate conceptual approaches to building interdisciplinary relations in elementary school. To implement interdisciplinary integration in the elementary school, a didactic training system was developed, which covers the content of training, methods of its assimilation and forms of organization of the educational process.

The methodology developed in the developmental learning environment complies with the principles of personality-oriented learning and is consistent with the concept of the information approach, the key component of which is knowledge and information culture. Their combination will create conditions for achieving the universality of education. The main provisions of the theory of educational activity, which contribute to the developing function of learning, allow significant changes in the structure of the educational process. As the basic forms of mental activity of pupils develop, pupil will be able to determine the direction and future activities of the environment as quickly as possible [8, 34].

Motivation of interest is closely related to the content and teaching methods. One of the first conditions for transforming activities into educational activities is a change in motivation. When evaluating the effectiveness of the proposed pedagogical method, the results of expert-psychological experience confirm the hypothesis and show its significance for discovering the personal qualities of the child in this process.

Primary school age is a time of great attention in recent years and a special role in the life of a child. The psychological characteristics of primary schoolchildren cannot be fully understood and unchanged, but only the most characteristic features of this age can be discussed. Children are motivated by a desire for assimilation, their enthusiasm and their sensitivity to the environment. During this period, the ability to perceive, repeat, adapt to adaptation, adaptation to learning, the necessary conditions for verbal expression, the direction of mental activity, enrichment and development of the children's psyche are favorable. For children of this age, it is not uncommon to think of any difficulties and confusion. They cling to the areas of their thinking, knowledge and are very easy to relate to things that are not directly related to them. When they enter this field of knowledge, they continue to play.

The personality direction of a young schoolboy is expressed by his needs and motivations. There are also a number of needs of a young schoolgirl, characteristic of preschool children. He still has a high demand for games, but the content of the game is changing. The high school continues to play the games that the teacher created. But now playing, he writes for hours, solves work, reads, draws, reads and so on. This is important to consider when organizing a training event, which can sometimes be turned into an interesting gameplay due to its content.

A young schoolboy is in great need of physical activity. He cannot sit still for a long time. This need arises with short breathing. That is why it is necessary to give children more physical activity.

The need for external impressions is quite common for junior pupils. Later it becomes a learning curve. First graders are primarily attracted by the appearance of things, events, and events.

Based on the results of our research, we conclude, that the child’s collaboration with peers and the coordination of his / her own thoughts are the basis of his structure of intellectual development. The basis for the identification and assimilation of the content of the intellectual structure is the redistribution of activities. In this case, the child refers to the form of organization of joint activities, revealing the altered general meaning of the educational activity for the case participants.

As a result of research conducted by psychologists, two methods of mental activity were identified: analytical and synthetic. In the first case, the human mind as a whole moves to the concrete, and in the second to the general. The study showed that in the primary grades, the second case was much larger than in the first, and in the first case, the children were able to successfully master the educational material without any difficulties in writing and verbal calculations. But the “Synthetics” have a hard time mastering the course.

One of the important requirements of educational activities is that, children should be able to fully substantiate their own judgments and actions. Teacher demonstrates many of the prerequisites for justification in the process of teaching and learning. The need to separate the judicial system from each other and independent efforts to establish these judgments lead to the formation of the ability of younger students to review and evaluate their judgments and actions. This skill is an important quality based on a reflex that allows children to analyze their judgments and actions meaningfully and objectively.

Independence, internal action plans and reflection are key innovations identified in primary school students. With their help, the psychology of the youngest student reaches the level of development necessary for future school education.

The learning process should be structured so that motivation is not related to the activities that the child attends at school, but to the content and content of the subject itself. When the motivation and content of educational activities do not coincide, motivation gradually begins to lose its strength, and sometimes motivation does not work at the beginning of the second grade. Therefore, a motivation for learning should be created in the school. Learning motivation is a psychological characteristic of a student's interest in acquiring knowledge, acquiring certain skills and skills for their development. One of the most important conditions for learning motivation is that the student has the motivation for self-improvement, which is impossible without the necessary skills.

In the process of interdisciplinary communication, knowledge of one subject is the beginning of the formation of new knowledge in a new structure. The concepts included in this structure, law, category, etc. act as knowledge. The science of knowledge is as scientific as the concept itself.

The main components of educational technologies based on the information-categorical approach (ICY) are: perception of the world (external environment) and self-awareness (internal world).

One of the key components of a new approach to teaching children in this academic paper is the use of interdisciplinary integration, which combines content and teaching methods to ensure universal education. The main theoretical ideas of the new approach are:

1. Universal content of education can be ensured by creating a system covering all areas of education. Each of these areas should have a certain category of language that reflects the world and language (general concepts that can be formed as the "language" of the learning environment, which will describe the processes, objects and events of the environment).

2. In addition to the formation of a system of categories in education, teaching methods should be organized. This includes a combination of both universal and special disciplines, which form the basis of information culture.

3. The universality of education should provide conditions for life, interests and abilities of each person.These theoretical and conceptual ideas can lay the foundation for building integrated educational technologies.

References

1. Дьюи Д. Психология и педагогика мышления. Пер. с англ. М.: «Совершенство», 1997. 208 с.
2. Зицер Д., Зицер Н. Практическая педагогика: азбука НО. СПб.: «Просвещение», 2007. 287 с.
3. Hasanov E.L. About research of features of legal culture on the basis of historical-literary heritage. Information (Japan), 2017, vol. 20(4), p. 2289-2296.
4. Häsänow E. L. Geschichtliche und ethnographische Merkmale der charakteristische Ornamente von traditionellen Gändschänischen angewandten Künsten. European Science and Technology (Die Europäische Wissenschaft und die Technologien): 21st International scientific conference. Munich (Germany), October 24-25, 2018, p. 11-18.
5. Краевский В. В. Общие основы педагогики. Учеб. для студ. высш. пед. учеб. заведений. М.: «Академия», 2003. 256 с.
6. Педагогика. Учебное пособие. Под ред. П.И. Пидкасистого. М.: Российское педагогическое агентство, 1995. 638 с.
7. Педагогика. Учебное пособие для студентов пединститутов. Под ред. Ю.К. Бабанского. М.: «Просвещение», 1983. 608 с.
8. Pedoqogikanın əsasları. Bakı, Bakı Universiteti nəşriyyatı. 2008.
9. Прокопьев И. И. Педагогика. Избр. лекции. Уч. пособие в 3-х ч. Гродно: Изд-во ГрГУ, 1997. 114 с.

XÜLASƏ
ŞƏXSİYYƏTİN FORMALAŞMASININ TƏRKİB HİSSƏSİ KİMİ FƏNLƏRİN İNTEQRASİYASININ İNNOVATİV TƏDQİQİ
Həsənov E.L.
AMEA Gəncə filialı

Elmi əsərdə inkişaf etdirici tədris metodologiyasına əsaslanan fənlərarası inteqrasiya haqqında əsas məlumatlar öyrənilmişdir. Aşağıdakı şərtlər yerinə yetirildikdə bu problem əhəmiyyətli və real ola bilər:

- özlərinin gənclik dünyasının tam mənzərəsini formalaşdırmaq;
- tələbələrin intellektual maraq və bacarıqlarının inkişafını təmin etmək;
- şagirdlərin əqli inkişafının dinamikasını, səviyyələrini və mərhələlərini və onların inkişafının əsaslarını nəzərə almaq.

Tədqiqatın metodoloji əsasını təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi ideyaları, pedaqoji prosesə vahid sistemli yanaşma, obyektivlik və subyektivliyin vəhdəti, ənənəvi və innovativ təhsilin əlaqəsi və təsiri təşkil etmişdir.

Açar sözlər: *təhsil, Azərbaycan, innovativ tədqiqat, fənn, müəllim.*

РЕЗЮМЕ
ИННОВАЦИОННОЕ ИССЛЕДОВАНИЕ ИНТЕГРАЦИИ ПРЕДМЕТОВ КАК СОСТАВНАЯ ЧАСТЬ ФОРМИРОВАНИЯ ЛИЧНОСТИ
Гасанов Э.Л.
Гянджинский филиал НАН Азербайджана

В данной научной статье изучены основные сведения о междисциплинарной интеграции на основе развивающей методики обучения. Эта проблема может быть значительной и реальной, при выполнении следующих условий:

- сформировать целостную картину (табло) своего юношеского мира;
- обеспечить развитие интеллектуальных интересов и способностей учащихся;
- учитывать динамику, уровни и этапы умственного развития младших школьников и основы их развития.

Методологической основой исследования послужили идеи гуманитаризации и демократизации образования, целостный системный подход к педагогическому процессу, единство объективности и субъективности, взаимосвязь и влияние традиционного и инновационного образования.

Ключевые слова: *образование, Азербайджан, инновационное исследование, предмет, учитель.*

RƏŞAD NURİ GÜNTƏKİNİN ROMANLARINDA MÜƏLLİM OBRAZLARI

Zeynallı Günel Fazil qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
gunel185@gmail.com

Açar sözlər: *yazıçı, roman, müəllim, elm, təhsil, cəmiyyət*

Təhsil sistemində ən vacib mövqeni müəllimlər tutur. Müəllimlər bizi təkcə elmi biliklərə yiyələndirmirlər, həm də həyatı başa salırlar, sevmək və sevinmək, ümid etmək və inanmaq, güclü və cəsarətli, əzmkar və sadiq, ağıllı və özünəəminlik bacarıqlarını tərbiyə edirlər. Rəşad Nuri Güntəkin cəmiyyəti maarifləndirəcək, onu müasir sivilizasiya səviyyəsinə çatdıracaq iradə gücünün təhsil sisteminə məxsus olduğuna inanan və bunu öz əsərlərində də davamlı olaraq irəli sürən bir yazıçı olmuşdur. Onun "Çalı quşu", "Acımaq", "Yaşıl gecə", "Qan davası" romanlarında yaratdığı müəllim obrazları elmi, maarifi, yeniliyi təbliğ edən obrazlar olaraq oxucular tərəfindən sevilir.

R.N.Güntəkin həyatının böyük bir qismini təhsil-tədris xidmətlərində keçirmiş bir ədəbiyyatçıdır. O, bəzi romanlarını tamamilə təhsilə və Anadolunun maariflənməsinə həsr etmişdir. Cəmiyyətin təhsillə irəli gedəcəyinə inanan yazıçı ideal müəllim obrazları yaradaraq milli ədəbiyyatın düsturlarından "məktəbdən məmləkətə" şüarına sadiq qalmışdır. "Çalı quşu", "Yaşıl gecə", "Acımaq", "Qan davası" kimi romanların

qəhrəmanları müəllimlərdir. Mövzu təlim-tərbiyə, təhsillə əlaqəlidirsə, bu aspektdə Rəşad Nurinin "Çalı quşu" romanının fərqli bir yeri vardır. "Mən müəllimliyi acından ölməmək üçün qəbul etmişdim. Ancaq hesabım düz çıxmadı. Bu peşə məni bir gün acından öldürə bilər, amma nə ziyanı var? Elə bu bəs deyilmiş kimi, bu peşə mənim könlümün şəfqətə olan aclığını doyduracaq, öz həyatını başqalarının səadətinə həsr etmək kimi bir təsəllini mənə verə biləcəkdir" [1, s.287].

Bu sözlərdə bir-birinə bağlı üç plan vardır: fərdi, peşə və bəşəri planlar... Fəridənin həyat hekayəsinə bağlı olan fərdi plan romanın sonrakı səhifələrində peşə və bəşəri planlara doğru yol almış olur. "Çalışmaq, bütün ruhu ilə özünü başqalarına həsr etmək nə gözəl şeymiş!" [1, 290]. Müəllimlik başda onun üçün bir qaçış və qurtuluş, sevgi xəyanətindən, fərdi iztirablardan qaçıb uzaqlaşma, çox uzaqlara sığınmanın tək imkanı idi. Amma hesabı doğru çıxmır. Daha sonralar müəllimliyi daxili iztirablarını unutduran yüksək dəyər və bir həyat tərzi olaraq mənimsəyir. Geriliyin, cəhalətin, səfalətin qaraltdığı ruhlara öz ruhunun və zəkasının işıqlarını bəxş edir.

Romanda Anadolunun baxımsızlığı, yoxsulluğu, geriliyi, yerli əhalinin yalnış inanclara bağlılığı, o dövrdə iş həyatına atılan 18 yaşlı bir gənc qızın qarşılaşdığı sıxıntı və çətinliklər kimi ictimai mövzular ön plana çəkilir. Fəridə öncə qarşılaşdığı bu gərginliklər səbəbi ilə şikayətlənsə də, xəyal qırıqlığına məruz qalsa da, zamanla peşəsini sevməyə başlayır, bu peşəyə həqiqi mənada böyük sevgi ilə bağlanır, Zeynilər kimi hər baxımdan ən geridə qalmış, ən primitiv şərtlər içində olan kəndə belə müəllim olaraq getməkdən, orada işləməkdən heç çəkinmir. Fəridə Anadoluda işlədiyi məktəblərdə şagirdlərini "bir parça şəfqət gözləyən çiçəklər" olaraq görür, onların rahatlığı üçün əlindən gələni edir. Fəridədəki dərin insanlıq sevgisinin ən bariz örnəyi Munisəni övladlığa almasıdır. "Rəşad Nuri daha çox cəmiyyətin bir tərəfə atdığı uşaqların yenidən necə qazanılacağı üzərində dayanır. "Çalı quşu"nda Fəridənin sahib çıxdığı Munisə bunun göstəricisidir" [4, s.29].

R.N.Güntəkin "Yaşıl gecə" romanında yenə də qəhrəman rolunu müəllimlik peşəsini daşıyan birinə verir, amma bu dəfə qarşımızda müəyyən cəhətləri ilə fərqli və yeni bir tip dayanır. Uzun illər mədrəsədə oxuyan və buradakıların iç üzünə bələd olan, məmləkəti ancaq yeni təlim-təhsilin qurtaracağına inanan Əli Şahin romanın idealist müəllimi, yeni insan tipinin nümunəsidir. Əli Şahin qısa müddət içində ətrafına həmfikirlər toplayır və milləti qəflət yuxusundan oyatmaq üçün ilkin addımlar atmağı planlaşdırır və bütün bunları islamiyyətin ruhuna sadiq qalmış bir həqiqi müsəlman olaraq həyata keçirmək məqsədindədir. O, köhnə dini binaları, mədrəsələri sökmək və yerində yeni təhsil binalarının, məktəblərinin tikilməsi ideyasını irəli sürür, bu istiqamətdə fəaliyyətə keçir və təbii ki, narazılıqla qarşılanır. "Mədrəsələrin yaşıl gecəsi yalnız öz işlərini qaranlığa boğmaqla qalmamış, məmləkətin hər yanına yayılmış, hər bucağını ələ keçirmişdir. Bunun başqa cür olmasına imkan da yoxdur. Ağıllara, vicdanlara indiyə qədər ancaq bu mədrəsədən yetişənlər rəhbərlik edirdi. Bu adamlar məmləkətə qaranlıqdan başqa nə gətirə bilərdilər ki?" [2, s.43]. Dini qanunların düzgün tətbiq olunmadığını, bu qanunlardan yalnız bir qrup tufeylinin öz mənafeləri üçün istifadə etdiklərini görən Şahində bu qanunların böyüklüyünə, qüdrətinə şübhə yaranır: "Bir qanun ki, əbədiyyən pis tətbiq edilə, müxtəlif sui-istifadələrə, zülmlərə alət və vasitə ola o qanunun doğruluğundan və qanuniliyinin yüksək qüdrətindən şübhə etmək mümkün olmazdımı?" [2, s.33]. Beynini qurcalayan sualların cavabını gənc ziyalıların yetişməsində əmək sərf edən müəllimlərin təhsil aldığı müəllim məktəbində verilən çağdaş təhsildə axtarır.

Romanın süjet xəttini köhnə zehniyyət ilə yeni zehniyyət arasındakı qarşıdurma təşkil edir. "Yaşıl gecə" bir fikir mübarizəsinin, tam bir inqilab Türkiyəsinin romanıdır. Romanın qəhrəmanı Maarif şöbəsinə gedərək öz istəyi ilə Anadolunun kəndlərindən birinə getmək istəməsini bildirdikdə bu təəccüblə qarşılanır. Hər kəs İstanbuldan bir vəzifə istəyərkən Əli Şahin könüllü olaraq Anadolunu seçir. Coşqun bir ruh halı ilə sarıldığı müəllimlik peşəsinə getdikcə daha çox bağlanır. Müəllimlik onun əsl idealına qovuşmasında bir körpü rolunu oynayır. Əsərin adından göründüyü kimi, mövzunu "yaşıl" rəng üzərindən dəyərləndirsək, buna bir "İslamofobiya" deyilə bilər. Halbuki yazıçının önə çəkmək istədiyi sadəcə mənfəətpərəst, cahil din xadimlərinə qarşı mübarizədir və bu mübarizə Əli Şahin kimi kəskin və cəsarətli xarakterə malik olan, tərəqqipərvər, yenilikçi, müstəqil fikrə, sərbəst düşüncəyə sahib olan bir gəncin timsalında gerçəkləşə bilər.

Rəşad Nurinin digər bir maarifpərvər müəllim obrazı "Acımaq" romanının qəhrəmanı Zəhradır. Zəhra otuz yaşlarında qəsəbənin ən sevilən, xətri əziz tutulan, hörmət edilən bir müəlliməsidir. Çalışqanlığı, dürüstlüyü ilə qısa müddətdə maş müəllimliyə qədər yüksələn Zəhra, ilk vaxtlar çox sıxıntı çəksə də, Fəridə kimi mübarizəyə davam edir. Eynən Fəridə kimi acılarını içində gizli saxlayaraq, özünü tam kolletivə uyğunlaşdıraraq bütün fikrini məktəbə və şagirdlərə yönəldir. Zəhra da Fəridə və Əli Şahin kimi işə məktəb binasını nizama salmaqla başlayır. Əhəng, tavan, şüşə təmiri kimi işləri gördükdən sonra artırdığı pul ilə yeməkxanaya süfrə dəsti, siniflər üçün dərs vəsaitləri alır. Yerli zənginlərdən yardım tələb edərək məktəbin

binasını təmir etdirib böyüdür, bağçasını genişləndirir. Bir müəllim olaraq ayıq zəkaya malik Zəhra xurafat qarşı mübarizə aparır, şagirdlərinə elmin ən müsbət həqiqətlərini öyrədir. Həmçinin, şəxsi həyatında da ən kiçik bir ləkə, ən əhəmiyyətsiz bir zəiflik nəzərə çarpmır. Bu cür müsbət özəlliklərə malik birinin xarakterində yeganə natamamlıq hədsiz dərəcədə sərtliyi və "rəhmetmə", "mərhəmətli olma" kimi ali insani duyğudan uzaq olmasıdır. Şübhəsiz ki, onun bu dərəcədə qatı formalaşmasında uşaqlığında yaşadığı ailə faciəsinin dərin təsiri vardır. Bu səbəbdən acizliyə və duyğusallığa qarşı sərtdir.

Ədibin təhsilə həsr etdiyi digər bir romanın – "Qan davası" nın mərkəzi qəhrəmanı Ömərdə nə Fəridənin məcburi idealizmi, nə Əli Şahinin qatı və uzlaşmaz inqilabçılığı, nə də Zəhranın ailə faciəsindən qaynaqlanan mərhəmətsizliyi var. Ömər bir şeyi çox gözəl bilir: necə ki, kobud təbiət qüvvələrinə hakim olmaq üçün öncə onlara uyğunlaşmaq lazımdırsa, geridə qalmış kəndləri xilas etmək üçün də elə etmək lazımdır. Başlanğıcda çox dərinə getmədən, güc tətbiq etmədən şərtləri qəbul etmək..Sonra cəsarətlə, inamla, sevgi və şəfqətlə hədəfə doğru addım-addım irəliləmək...Ömər ruhları və beyinləri dəyişdirmədən yenilik olmayacağını, inqilabın bir gündə baş tutmayacağını, dövlət gücü, yaxud ziyalı məntiqi ilə əsrlər boyu davam edən kənd məsələlərinin həll edilə bilməyəcəyini yaxşı bilir. Ömərin yeni, təcrübəsiz bir müəllim olduğu halda, özü özünə qazandığı bir təcrübə vardır: "İnsanlıq sözdən əvvəl baxışlarla, gülümsəmələrlə, üz cizgilərində bir gizli parıltı kimi dolaşmağa başlayan hərəkətlərlə başlayıb oyanır" [3, 167]. Bu davranış tərzinin bu gün də yaxşı dərk edilməsinin bir mənası vardır. Nə qədər radikal olursa olsun, heç bir inqilab bir gündə, bir ildə, hətta bir nəsildə öz bəhrəsini verməz. Siyasi rejimləri, iqtisadi sistemləri bir gündə dəyişdirmək bəlkə də mümkündür. Amma bu cəmiyyəti köklü dəyişdirəcək ictimai inqilablar nə gün, nə il, nə də tək bir nəsil məsələsidir. Ömər bunu başa düşə bildiyi üçün bu ikinci nöqtəni də yaxşı dərk edə bilmişdir: inqilabın baş verəcəyi uzaq və cahil kənd mühitində məcburi tətbiqetmələr daima müqavimətlərlə üzləşmişdir. Əsrlərin kök saldığı dünyagörüşü və həyat tərzini, idrak və alışqanlıqları bir həmlədə söküb atmaq asan deyildir. Təbiət kimi ictimai həyatında qüvvələri və qanunları vardır. Təbiətə hakim olmaq və onu dəyişdirmək üçün öncə onun qüvvələrinə boyun əymək və qanunlarına riayət etmək lazımdır.

Rəşad Nurinin qəhrəmanları həyatın çətinliklərindən yoğrulmuş, həyatın içində doğulmuş insanlardır. Ona görə də onlar oxucuya canlı və təbii təsir bağışlayır. Sanki nə vaxtsa, hardasa bu insanlarla rastlaşacaqları hissinə qapılırlar. Böyük yazıçı müəllimləri öz şagirdlərini övladları kimi sevməyə, onlar arasında ayrı-seçkiliyə yol verməməyə, şagirdlərin xarici görünüşündən çox onların daxili aləminin zənginliklərinə varmağa çağırırdı. Anadolunu təhsillə nurlandırmağı qarşılarına məqsəd qoymuş müəllimlərin təsvir olunduğu "Çalı quşu", "Yaşıl gecə", "Acımaq" və "Qan davası" romanlarında Fəridə, Şahin, Zəhra və Ömər özlərini Anadolu savaşına həsr etmiş tiplər olaraq təzahür edir.

Ədəbiyyat

1. Güntəkin, R.N. Çalı quşu. Bakı, Şərq-Qərb, 2006, 376 s.
2. Güntekin, R.N. Yeşil gece. İstanbul, İnkılap Yayınevi, 1984, 264 s.
3. Güntekin, R.N. Kan davası. İstanbul, İnkılap və Aka kitapevi, 1972, 352 s.
4. Önertoy, O. Reşat Nuri Güntekin. Ankara, Olğac Basımevi, 1983, 152 s.

РЕЗЮМЕ

ОБРАЗЫ УЧИТЕЛЯ В РОМАНАХ РАШАДА НУРИ ГУНТЕКИНА

Зейналлы Г.Ф.

Сумгаитский государственный университет

Учителя занимают важнейшее место в системе образования. Учителя не только учат нас научным знаниям, но и объясняют жизнь, воспитывают в себе навыки любви и радости, надежды и веры, силы и мужества, упорства и верности, ума и уверенности в себе. Рашад Нури Гюнтекин был писателем, который считал, что сила воли для просвещения общества и вывода его на уровень современной цивилизации принадлежит системе образования и постоянно продвигал ее в своих произведениях. Созданные им в романах «Королек птичка певчая», «Жалость», «Зеленая ночь», «Кровавая схватка» образы учителя любимы читателями как образы, пропагандирующие науку, образование, инновации.

Ключевые слова: *писатель, проза, учитель, наука, образование, общество*

SUMMARY
TEACHER IMAGES IN RASHAD NURI GUNTEKIN'S NOVELS
Zeynally G. F.
Sumqayit State University

Teachers occupy the most important position in the education system. Teachers not only teach us scientific knowledge, but also explain life, cultivate the skills of love and joy, hope and faith, strength and courage, perseverance and loyalty, intelligence and self-confidence. Rashad Nuri Guntekin was a writer who believed that the will power to enlighten the society and bring it to the level of modern civilization belonged to the education system and constantly promoted it in his works. The images of a teacher he created in his novels "Singing bird", "Pity", "Green Night", "Blood Fight" are loved by readers as images that promote science, education, innovation.
Keywords: *writer, prose, teacher, science, education, society*

TEXNOGEN FAKTORLARIN İNSAN HƏYATINA TƏSİRİ

Qasımzadə Səidə Qasım qızı
AMEA Coğrafiya İnstitutu, doktorant
qasemzadesaida@gmail.com

Açar sözlər*: texnogen hadisələr, təbiət hadisələri, texnogen risklər, xarici mənbələr, daxili mənbələr.*

Ən son illərdə bəşəriyyət çoxsaylı təbii fəlakətlərdən - daşqınlardan, qasırğalı küləklərdən və güclü yağışlardan böyük narahatlıq və çətinliklərlə üzləşmişdir. Həmçinin fəlakətlərin ümumi sayında mühüm yer texnogen hadisələrin payına düşür. Elmi və texnoloji tərəqqi dayanmır, alimlər getdikcə daha çox yeni texnologiyalar, o cümlədən insanları müxtəlif risklərdən qorumağa yönəlmiş texnologiyalar inkişaf etdirirlər. Hər kəs həm evdə, həm də iş yerində təhlükəsizliyə, gələcəyə arxayın olmaq istəyir.Bu işin aktuallığı ondan ibarətdir ki, gözlənilmədən baş verən xüsusilə təhlükəli təbiət və texnogen hadisələr nəticəsində iqtisadiyyatın demək olar ki, bütün sahələrinə ciddi ziyan dəyir.

Təhlükəli təbiət hadisələri - buz, tufan, qar yağışı və başqaları atom elektrik stansiyalarının, sənaye, mülki strukturların, telefon şəbəkələrinin fəaliyyəti üçün təhlükə yaradır.

İnsan tərəfindən yaradılmış obyektlərin sürətli inkişafı bəşəriyyətin müasir inkişafı mərhələsinin ayrılmaz xüsusiyyətidir. Onların fəaliyyəti insanların həyat səviyyəsinin və keyfiyyətinin yaxşılaşdırılması, fərdlərin, icmaların və dövlətlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı çoxsaylı problemləri həll etməyə imkan verir. Eyni zamanda, texnogen obyektlərin tikintisi, istismarı və sökülməsi öz növbəsində insanlara və təbii mühitə mənfi təsir imkanlarına səbəb olan təhlükəli amillərin yaranmasına səbəb olur. Dövrümüzün bir çox ekoloji problemləri enerji istehsalının və istehlakının kəskin artması, nüvə enerjisindən istifadə, zərərli kimyəvi maddələrin geniş istifadəsi ilə əlaqələndirilir.

XX əsrin ikinci yarısında ətraf mühitin aşkar çirklənməsinə səbəb olan sənayenin sürətli inkişafı, o cümlədən texnogen obyektlərdə insan tələfatına səbəb olan bir sıra qəzalar sənaye təhlükəsizliyi məsələlərini ön plana çıxararaq, əhalinin diqqətini cəlb edib.

Texnogen fəaliiyət təhlükəli amillərin növü ilə və onların təsirindən dəyən zərərin xarakteri ilə fərqlənən müxtəlif növ təhlükələrin bütün spektrini yaradır: kimyəvi, yanğın, radiasiya və s. Bundan əlavə, texnogen obyektlərin fəaliyyəti ekoloji və sosial-psixoloji təhlükələr yaradır. Texnogen obyektlər iqtisadiyyatın elementləri olduğundan onların fəaliyyəti (və ya dayandırılması) iqtisadi təhlükəsizlik məsələləri ilə bağlıdır. Cəmiyyət üzvlərinin əhəmiyyətli bir hissəsi üçün texnogen obyektlərin fəaliyyəti ilə bağlı risk onların iştirakı və birbaşa razılığı olmadan qəbul edilən qərarlar səbəbindən məcburidir.

Texnogen risklərin mənbələri.

Texnogen risklərin mənbələrinə adətən texniki sistemlərin anormal işləməsinə və ya operator səhvlərinə olan müxtəlif təhlükələr deyilir. Hər bir texniki cihaz və hər bir texniki sistem üçün daxili və xarici mənbələr var.

Xarici mənbələrə adətən aşağıdakılar daxildir: təhlükəli təbiət hadisələri ilə bağlı təbii təsirlər;

xarici yanğınlar, partlayışlar;xarici texnogen təsirlər (digər texnogen obyektlərdə toqquşmalar, qəzalar və fəlakətlər və s.); xarici daxili təsirlər (elektrik kəsilməsi, su təchizatı, ictimai etirazlar);təxribat, terror aktları;müharibə fəaliyyəti;başqaları.

Daxili mənbələrə adətən aşağıdakılar daxildir:öz operatorlarının səhvləri;daxili təxribat; texniki sistemin bir hissəsi kimi texniki cihazların nasazlığı;konstruksiya materiallarının qüsurları və ya yorğunluğu səbəbindən yükdaşıyan konstruksiyaların məhv edilməsi;elektrik enerjisinin kəsilməsi, su təchizatı, texnoloji proseslərin kəsilməsi və s. nəticəsində yaranan daxili qəzalar; daxili yanğınlar, partlayışlar;texniki sistemin strukturu, qovşaqların və insident zəncirlərinin mövcudluğu;başqaları.

Texnogen qəza -texnogen obyektdə böyük həcmli qəzalardır ki, nəticədə çoxlu sayda insan tələfatına və hətta ekologi dəyişikliklərə səbəb ola bilər.Qəza dedikdə müəyyən şərtlər daxilində insanın həyat fəaliyyətinə zərər vura bilən hadisə və proseslər nəzərdə tutulur.

Bəşər sivilizasiyası tarixində texnogen fəlakətlərin çox parlaq nümunələrinə rast gəlmək olar. Onlar əvvəllər qeyd olunan xüsusiyyətlər və xüsusiyyətlərlə xarakterizə olunur. Bir sıra oxşar hadisələr dövlət tarixinin kədərli səhifəsinə çevrildi. Çernobıl AES-də baş verən hadisələr nəticəsində nüvə enerjisində təhlükəsizliyin gələcək inkişafı haqqında düşünməyə ciddi əsas verdi.

Cernobil Atom Elektrik Stansiyasında qəza 26 aprel 1986-cı il oldu. O bəşəriyyətin tarixində ən böyük texnoqen qəzalarından biri hesab edilir. XX əsrin faciəsi adlandırılan bu hadisə ən böyük texnogen fəlakət olub.AES -in dördüncü enerji blokunda baş verən partlayış nəticəsində ətraf mühitə çoxlu miqdarda radioaktiv maddə yayılıb.Partlayışın gücü vaxtilə Xirosimaya atılmış bombanın 500 misli qədərində olub. Fəlakətin ilk günlərində partlayış, yanğın və kəskin şüalanmadan 50 nəfər ölüb. Hadisə nəticəsində 7 minə yaxın insan həyatını dəyişib, 25 min nəfər güclü radiasiya nəticəsində ömürlük şikəst olub, on minlərlə insan isə sonsuz qalıb. Ukrayna, Rusiya və Belarusun 145 min kvadrat kilometrdən çox ərazisi radioaktiv çirklənməyə məruz qalıb. Qəzadan sonra AES ətrafındakı 30 kilometrlik zonada yaşayan 115 mindən çox insan köçürülüb. Ümumilikdə,586 min nəfər radioaktiv təsirə məruz qalıb. Onlardan 200 mini qəzanın nəticələrinin aradan qaldırılmasında iştirak edənlər, 116 mini Çernobılda yaşayanlar, 270 mini isə Ukrayna və Belarusun radiasiyaya məruz qalmış rayonlarında yaşayanlardır. AES-in partlamış 4-cü enerji blokunun təhlükəsiz hala salınması üçün keçirilən "Sarkofaq" əməliyyatına 7 min nəfər azərbaycanlı da cəlb edilib.Onlardan da 2000 nəfəri şüalanmadan dünyasını dəyişib.Qalanları isə ömürlük əlil olub.

Texnogen fəlakətlər təhlükəli bir hadisədir, bunun səbəbi çox vaxt sənaye və digər obyektlərdə qəzaya səbəb olan sistemlərin texniki nasazlığıdır. Davam edən proses, bir qayda olaraq, xaotik xarakter daşıyır və böyük ziyana səbəb olur, müxtəlif fəsadların verilməsinə səbəb olur, kütləvi insan tələfatı, ekoloji fəlakətlərlə müşayiət olunur. Bu fenomen sosial və iqtisadi sferalarda özünü göstərən uzunmüddətli nəticələrə malikdir və uzunmüddətli böhranların səbəbidir.

İnsanı təhdid edən təhlükələr dünyası çox genişdir və durmadan böyüyür. Sənaye, şəhər, məişət şəraitində insan eyni vaxtda, bir qayda olaraq, bir neçə mənfi amillərdən təsirlənir. Müəyyən bir zamanda fəaliyyət göstərən mənfi amillərin kompleksi "insan - ətraf mühit" sisteminin mövcud vəziyyətindən asılıdır.

Fövqəladə halların qarşısının alınması və ölkəmizdə əhalinin sağlamlığının qorunması dövlətin vəzifəsidir. Ona görə də regionlarda belə halların proqnozlaşdırılması, eləcə də onların qarşısının alınması istiqamətində işlərin dövlət tərəfindən idarə olunması zəruridir. Bütün bunlar cəmiyyətin müəyyən iqtisadi imkanları nəzərə alınmaqla həyata keçirilə bilən əhəmiyyətli xərclər tələb edir və indi hər yerdə və lazımi həcmdə lazımi tədbirlərin həyata keçirilməsi vacibdir.

Ədəbiyyat

1. Акимов В.А., Лапин В.Л., Попов В.М. Надежность технических систем и техногенный риск., - М.: Деловой экспресс, 2002.
2. Акимов В.А., Новиков В. Д., Радаев Н. Н. Природные и техногенные чрезвычайные ситуации: опасности, угрозы, риски., - М.: Деловой экспресс, 2001.
3. http://www.fact-info.az/press

РЕЗЮМЕ
ВЛИЯНИЕ ТЕХНОГЕННЫХ ФАКТОРОВ НА ЖИЗНЬ ЧЕЛОВЕКА
Гасымзаде С. Г.
Институт географии НАН Азербайджана

В статье рассматриваются техногенные катастрофы, возникающие по различным причинам (факторам) и оказывающие деструктивное влияние на государство и общество. Автором рассматриваются особенности техногенных катастроф, проблемы, связанные с их предотвращением и устранением последствий. Особое внимание уделено этапам и факторам развития техногенных катастроф, предпосылкам формирования ситуаций, способствующих наступлению деструктивных последствий. В результате анализа наиболее сложных событий техногенного типа, сделаны выводы о причинно-следственной связи между событием и различными факторами, в том числе с человеческими.
***Ключевые слова**: техногенные события, природные явления, техногенные риски, внешние источники, внутренние источники.*

SUMMARY
EFFECTS OF TECHNOGEN FACTORS ON HUMAN LIFE
Gasimzade S. Q.
Institute of Geography of the National Academy of Sciences of Azerbaijan

The subject of this research is the technogenic disasters occurred due to various factors and producing destructive influence on the state and society. The object of this research is the relations associated with solution of the questions pertaining to technogenic disasters. The author explores the peculiarities of technogenic disasters and problems related to their prevention and elimination of consequences. Special attention is paid to the stages and factors of the development of technogenic disasters, prerequisites for the emergence of situations leading to destructiveconsequences.
***Keywords**: technogenic events, natural phenomena, techogenic risks, external sources, internal sources.*

GƏNC TƏLƏBƏLƏR ÜÇÜN PEŞƏKAR STRATEGİYALARIN FORMALARI

Məhərrəmova Mətanət Hidayət qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
meherremova79@inbox.ru
ORCID: 0000-0003-3494-140x

***Açar sözlər**: social mühit, motivasiyya, peşəkar müvəffəqiyyət, formalaşmaq, naİliyyət.*

Cəmiyyətdə formalaşmış yeni iqtisadi münasibətlərdə müasir təhsil müəssisələri əmək bazarında zəruri peşələrə münasibətdə getdikcə daha çox sosial sifarişdən asılı olmağa başlayır. Bundan irəli gələrək, təhsil xidmətləri bazarında da dəyişikliklər baş verir ki, bu da öz növbəsində gənclərin gələcək peşə fəaliyyətlərini seçmək strategiyalarına təsir göstərir. Müasir sosioloqlar qeyd edirlər ki, təhsil sosial institut kimi öz sosial funksiyalarını reallaşdırmaqla bir tərəfdən biliyə məhəbbət aşılayır, gəncləri peşə bacarıqlarına yiyələnməyə istiqamətləndirir; digər tərəfdən, həyatda uğur əldə etmək, müvafiq sosial mövqe ilə bağlı iddialı arzuların formalaşmasına kömək edir [4].

Peşə seçimi prosesində gənclərin sosial özünüidentifikasiyası formalaşmağa başlayır ki, bu da müəyyən motivlər və dəyər yönümləri vasitəsilə üzə çıxır. Motivləri bilmədən, peşəkar oriyentasiya seçimində məqsədyönlü təsir göstərmək və ya kömək göstərmək mümkün deyil. Sosiallaşma prosesində şəxsiyyəti istiqamətləndirən daxili motivlər tapılmırsa, peşəkar seçimə təsir etmək üçün heç bir təsirli fürsət gözləmək olmaz. Fəaliyyət motivlərinin müəyyən edilməsi, təsir edən mühitin hadisələrinin əks olunması prosesində, onların şəxsiyyət üçün mənası müəyyən edildikdə və onlara münasibət formalaşdıqda yaranır. Motivlər həm müsbət, həm də mənfidir. Motivin neqativ mahiyyəti yarana biləcək bəzi narahatçılıq və çətinliklərin fərqində olmasından irəli gəlir və fərd əvvəllər onun üçün cəlbedici olan ixtisas üzrə təhsil

almayacaq. Bir qayda olaraq, motivasiyanın müsbət xarakteri təhsil fəaliyyətinin özündən kənarda qoyulan motivlərlə əlaqələndirilir.

Tədris fəaliyyətində fərdin sosiallaşmasının baş verdiyi sosial mühitin yaratdığı motivlərə daha çox rast gəlinir. Belə motivlər adətən geniş sosial adlanır. Peşəkar strategiya formalaşdırarkən aşağıdakı üç növ motivasiya kifayət qədər müəyyəndir: 1) uzaq; 2) nisbətən uzaq; 3) yaxın. Uzaq motivasiya, bizə elə gəlir ki, gələcəkdə sosial karyera qurmaq üçün seçilmiş peşədən istifadə perspektivləri ilə əlaqələndirilirsə, yaxın motivasiya gələcəkdə aydın görünən məqsədlərə nail olmaq üçün əldə edilmiş biliklərin tətbiqi perspektivi ilə. Nisbətən uzaq gələcəkdə praktiki tətbiqi üçün heç bir dəqiq müəyyən edilmiş məqsədlər olmadan seçilmiş ixtisas üzrə təhsil müəssisəsinə daxil olmağa yaxındır.[2]

Motivasiya, fərdin sosial uyğunlaşması üçün "məsuliyyət daşıyan" şəxsiyyətin sosial peşəkar səviyyəsinin formalaşmasına birbaşa təsir göstərir. “Kim olacağam, nə edəcəm, hörmətim, statusum olacaq” sualları məhz burada həll olunur. Bu səviyyədə onların peşəkar strategiyasının seçimi üçün ilkin axtarış aparılır: humanitar və ya texniki.

Motivasiya fərdin davranışı və fəaliyyəti üçün motivlər məcmusudur və hər şeydən əvvəl onun ehtiyaclarının ödənilməsi ilə bağlıdır. Sosial psixoloqlar motivi fərdin müəyyən ehtiyacın ödənilməsi ilə əlaqəli bu və ya digər fəaliyyət növünə (fəaliyyət, ünsiyyət, davranış) daxili motivləri kimi başa düşürlər. Motivlər maraqlar, inanclar, sosial münasibətlər, dəyərlər ola bilər.

Fərdin həyat strategiyalarının müxtəlif tipologiyaları mövcuddur, ən çox yayılmış strategiya növləri adətən bir sıra xüsusiyyətlərə görə fərqlənir: sosial-iqtisadi vəziyyət, mədəni standartların təkrar istehsalı və ötürülməsi üsulu, tənzimləmə və nəzarət sistemi, sosial xarakter, peşəkar etika [6].

Bu xüsusiyyətlər birlikdə götürüldükdə həyat strategiyalarının sosioloji tipologiyası üçün mürəkkəb meyar təşkil edir. Onun məzmunu fərdin sosial fəaliyyətinin təbiəti ilə müəyyən edilir, bu, həyatda rifah strategiyasına ("qeyri-normal" formaları nəzərə alaraq) bir oriyentasiya olan "alıcı" ola bilər; ictimai tanınmağa yönəlmiş "nəaliyyət" və xarakterik yaradıcı başlanğıcı ilə özünü həyata keçirmə strategiyası.

Həyat strategiyalarının seçilmiş növləri çoxlu dəyişikliklərə malikdir. Həyatda uğur strategiyaları, peşəkar uğurun da tərkib hissəsi olan şəxsi və sosial strategiyalara əsaslı diqqətdən asılı olaraq fərqlənir. Peşəkar müvəffəqiyyət əldə etmək müasir cəmiyyətdə əksər gənclər üçün üstünlük təşkil edir [1].

Hətta mədəni inkişafın şərti kimi təhsil almaq istəyi də bu strategiyadan aşağıdır. Gənclərin əhəmiyyətli bir hissəsi üçün təkcə “peşə əldə etmək” deyil, həm də “maliyyə cəhətdən təminatlı olmaq” vacibdir. Qeyd etmək lazımdır ki, gənclərin sosiallaşmasının baş verdiyi gündəlik həyat reallıqları, ilk növbədə, onlara peşəkar işin məzmunu haqqında deyil, daha çox onun sosial vəziyyətini təmin edən nəticələri haqqında təsəvvür yaradır. cəmiyyətdəki fərdi.

70-ci illərin sonlarında məktəblilər üçün ideal şəxsi ehtiyacların ödənilməsinin yeganə mümkün vasitəsi kimi qəbul edilən yüksək ixtisaslı zehni əmək peşəsi idi.

Hal-hazırda məktəblilər üçün ən çox üstünlük verilən sahibkarlıq fəaliyyətinin müxtəlif növləri, xidmət sənayesi, asudə vaxt, əyləncə, yəni sürətli zənginləşmə imkanı verən, şəxsi təşkilati və kommunikativ keyfiyyətlərə imtiyazlı tələblər təqdim edən və ən əsası, çox vaxt tələb etməyən peşələrdir.

Peşə seçmək və iş tapmaq vəzifəsi müasir gənclərinin təhsilinin keyfiyyət xüsusiyyətlərinin çox vaxt işin təbiətinə və məzmununa uyğun gəlməməsi ilə çətinləşir. Gündəlik həyatda akademik biliklər çox vaxt praktik tətbiq tapmır. Buna görə də, çox az gənc xidmət karyerasının mümkünlüyünü təhsil səviyyəsi və ixtisas dərəcəsi ilə əlaqələndirir [7, s. 56].

Müasir orta ixtisas təhsili bazarında müxtəlif xidmət növləri keçmiş tələbələr üçün kifayət qədər geniş çeşidli ixtisaslar təqdim edərək, peşəkar seçim imkanı yaradır. Peşəkar seçim dedikdə, müəyyən bir peşəyə kifayət qədər yüksək səviyyədə yiyələnmək istəyi ilə ifadə olunan sabit müsbət münasibət nəzərdə tutulur. Peşəkar seçimin həyata keçirilməsi bir sıra mərhələlərdən keçir və fərdin iddialarının səviyyəsi ilə birbaşa bağlıdır.

İddia insanın xarici karyerası və xarici nailiyyətləri ilə əlaqəli sosial əhəmiyyətli ehtiyaclar toplusu kimi başa düşülür, lakin onun şəxsi qabiliyyətlərinə çox az və ya heç əhəmiyyət verilmir. İnsan sosial varlıq olaraq özünü başqaları ilə müqayisə edir, onun əldə etmədiyi, amma başqalarının əldə etdiyi şeylərə diqqət yetirir. Bir insanın iddialarını qiymətləndirərkən, o, mütləq öz imkanlarını əhəmiyyətli başqalarının imkanları ilə müqayisə edir. Şəxsin iddialarının böyük əksəriyyəti gözlənilən yüksək sosial mövqelər (statuslar) ilə bağlıdır [3].

Yüksək iddialar müxtəlif formalarda ola bilər, lakin bir şey, şübhəsiz ki, həmişə arzudur, cəmiyyətin təbəqələşmə sistemində kifayət qədər yüksək mövqe əldə etmək istəyidir. Bəzi alimlərin araşdırmalarının göstərdiyi kimi, fərdin (o cümlədən peşəkarın) iddiaları səviyyəsində müəyyən amillər təsir göstərir. Şərti

olaraq, onları bioloji və sosial bölmək olar. Şəxsin iddiaları peşəkar seçimlərə ən çox birbaşa təsir göstərir. Peşəkar üstünlüklər ibtidai (orta) məktəbdə təhsil pilləsində müəyyən edilə və formalaşa bilər.

Peşə seçiminə müxtəlif sosial gözləntiləri, üstünlükləri, prestijləri, həmyaşıdları və ya artıq bu peşələrdə təhsil almış şəxslər arasındakı ünsiyyəti, bir sıra nüfuzlu şəxslərin təsirini rəhbər tutan valideynlər mühüm təsir göstərir. Bu və ya digər peşə fəaliyyətində davamlılıq da mühüm rol oynaya bilər. Müəyyən bir peşəyə münasibətdə prestij anlayışı fərdin peşəkar strategiyalarına böyük təsir göstərir. Əgər bir peşə cəmiyyətdə eyni dərəcədə yüksək qiymətləndirilirsə, o zaman peşə seçimi əlverişli şəraitdə baş verir və onun idrak inkişafına müsbət təsir göstərir. Əgər fərd üçün cəlbedici olan bir peşə cəmiyyətdə prestijli hesab edilmirsə, bu, peşə seçiminə mənfi təsir göstərir, çox vaxt insanı bu ixtisas üzrə təhsilini davam etdirmək fikrindən imtina etməyə məcbur edir.

Şübhəsiz ki, gəncləri müəyyən peşə seçməyə sövq edən motivlər sırasında fəaliyyət sahəsinin utilitar dəyərləri ön plana çıxır. Bu, tamamilə başa düşüləndir, çünki gələcək mütəxəssisləri ilk növbədə peşə fəaliyyətlərində ehtiyaclarını ödəmək üçün aldıqları təhsilin əhəmiyyəti və bunun nəticəsində layiqli həyat səviyyəsini təmin etmək imkanları narahat edir.

Ədəbiyyat

1. Hüseynzadə R. L., Əzizova Z. M., Əliyev S.H., Verdiyeva Ü. M. Pedaqogika. (dərslik) Bakı. 2021
2. Волков Ю. Г. , Добреньков В. И. и др. Социология молодежи. Ростов на Дону. 2001
3. Когда наступает время выбора . Устремления молодежи и первые шаги после окончания учебных заведений/ Отв. ред. Г. А. Чередниченко СПб. : Изд во РХГИ, 2001
4. Сорокина Н. Д. Перемены в образовании и динамика жизненных стратегий студентов //Социологические исследования. № 2, 2003.

РЕЗЮМЕ

ФОРМЫ ПРОФЕССИОНАЛЬНОЙ СТРАТЕГИИ ДЛЯ МОЛОДЫХ СТУДЕНТОВ

Махаррамова М. Х.

Сумгаитский государственный университет

В процессе профессионального выбора начинает формироваться социальная самоидентификация молодежи, которая раскрывается через определенные мотивы и ценностные ориентации. Без знания мотивов невозможно целенаправленное воздействие или оказание помощи при выборе профессиональной направленности. И, если в процессе социализации, не обнаружены внутренние мотивы, которыми руководствуется индивид, нельзя ожидать каких либо эффективных возможностей, повлиять на профессиональный выбор. Определение побуждения к действию мотивы рождаются в процессе отражения явлений воздействующей среды, когда происходит определение их значения для индивида и на этой основе формируется его к ним отношение.

Ключевые слова: *социальная среда, мотивация, профессиональный успех, формирование, достижение.*

SUMMARY

FORMS OF PROFESSIONAL STRATEGIES FOR YOUNG STUDENTS

Maharramova M. H.

Sumqayit State Universitety

In the process of professional choice, the social self-identification of young people begins to form, which is revealed through certain motives and value orientations. Without knowing the motives, it is impossible to purposefully influence or provide assistance in choosing a professional orientation. And, if in the process of socialization, the internal motives that guide the individual are not found, one cannot expect any effective opportunities to influence the professional choice. Determination of motivation to action motives are born in the process of reflecting the phenomena of the influencing environment, when their meaning for the individual is determined and on this basis his attitude towards them is formed.

Keywords*: social environment, motivation, professional success, formation, achievement.*

RƏSUL RZA ƏDƏBİ ŞƏXSİYYƏTİNİN MÜƏLLİMLİK-USTADLIQ CİZGİSİ

Cümənov Dəyanət Almaz oğlu
Sumqayıt Dövlət Universiteti, Azərbaycan, Sumqayıt
cumanov73@mail.ru

***Açar sözlər**: ədəbi şəxsiyyət, ədəbi gənclik, ədəbi tənqid, müəllimlik, ustadlıq*

Rəsul Rza haqqında yazılan məqalələr, portret oçerklər, xatirələr, vida sözləri, məktublar, yubiley teleqramları və ona həsr edilən şeirlər şairin ədəbi şəxsiyyətinin sənəti ilə vəhdət təşkil etdiyini, xarakterinin sənətində boy verdiyini göstərmşdir. Şairi tanıyan insanlar Rəsul Rza şəxsiyyətindəki mübarizliyi və cəsarəti, əbədi gənclik enerjisini və gümrahlığını etiraf etmişlər. Rus şairi Pavel Antokolski şairin son dərəcə dinamik, mübariz olduğunu, belə adamların heç kəsi naümid qoymadığını, cəmiyyət və mədəniyyətin dayağı olmasını xüsusi qeyd etmiş və ədəbi şəxsiyyətin vacib olan başqa bir cizgisinə də toxunmuşdur: "Mən bir də Rəsul Rzanın poetik nəsillər arasındakı "rabitə zabiti" kimi təmənnasız xidmətini, gənc şairlərin yaradıcılığına həmişə dostluq ehtirası ilə maraq göstərdiyini xatırlatmaq istəyirəm. Görün o, Bəxtiyar Vahabzadənin kitabına necə əla bir giriş sözü yazıb... Şəxsən mən bu gün Rəsul Rzada cavan yoldaşlarını ruhlandırmaq, onları ədəbiyyata daxil etmək ehtiyacının daha tez-tez yaranmasını arzulamaq istəyirəm. Bunu bütün Azərbaycan şairlərinə arzulayıram, həm də təkcə Azərbaycan şairlərinə yox..." [1, s. 56]. Müəllif Rəsul Rzanın ədəbi nəsillər arasındakı "rabitə zabiti" missiyasını, gənc nəslə himayədarlıq və hamiliyini gözəl bir bir örnək kimi qəbul etmiş və bu keyfiyyəti "təkcə Azərbaycan şairlərinə yox", bütün dünya şairlərinə arzulamışdır.

Rəsul Rzanın haqqında yazdığı, xeyir-dua verdiyi, uğurlu yol arzuladığı şairlərin sırası və siyahısı da böyükdür: B.Vahabzadə, Ə.Kərim, M.Araz, F.Sadıq, F.Qoca, İ.İsmayılzadə, Ə.Salahzadə,V.Səmədoğlu, V.Nəsib, V.Cəbrayılzadə, Ş.Salmanov, S.Əsəd, T.Bayram, A.Abdulla, T.Abdin, A.Abdullazadə, Ç.Əlioğlu, E.Borçalı, Ş.Aslanov, R.Rövşən, V.Əziz, X.Rza və b. Şairin xidmətlərinin gələcək nəsillərə hesablanmış fəaliyyət kimi dəyərləndirən V.Səmədoğlu "Poeziya nəhri"ndə yazırdı ki, "Rəsul Rzanın öz üzərində inadlı işi, əslində özgələrçün görülən işdir. Çünki məhz bu zəhmətin sayəsində o indiki məqama çatıb: poezyada yeni yollar açan şair, gənc, talantlı şairlər dəstəsi yetişdirmiş müəllim, alim və ictimai xadim məqamına. Təsadüfi deyil ki, ilk Azərbaycan ensiklopediyasının yaradılmasına da o başçılıq edir" (2).

Şairin "Geniş yollara çıx" (V.Vəkilov), "Bəxtiyar Vahabzadə", "Oxuyun, məsləhət görürük", "Bəxtiyarlıq" (B.Vahabzadə), "Yaxşılar və müxtəliflər" (F.Qoca, V.Qafarov, T.Bayram, V.Vəkilov), "Qayğı sözü və qayğı özü" (Ə.Kərim, Y.Həsənbəyov, F.Qoca, Ə.Salahzadə, İ.İsmayılzadə), "Yolun çətinliyi səni qorxutmasın" (Ş.Salmanov), "Ümid və arzular" (Ə.Kərim, F.Qoca, F.Sadıq, Ə.Salahzadə, Ş.Salmanov, İ.İsmayılzadə), "Şairlik ciddi sənətdir" (İltifat Saleh), "Şair haqqında bir neçə söz" (Z.Cabbarzadə), "Rənglərin şairi" (S.Bəhlulzadə), "Sən xoşbəxtsən, qardaşım! (S.Bəhlulzadə), "Şair Əli Kərim", "Əli Kərim haqqında söz", "Duyğuların izi ilə" (M.Araz), "Fikrət Qoca haqqında", "Dəyirman dərdi" (M.Süleymanlı), "Ramiz Rövşən" və bu kimi başqa məqalələrindən, gənc şairlərə arzu-tövsiyələrindən, onların kitablarına yazdığı ön sözlərdən, eləcə də ayrı-ayrı müəlliflərin ustad şair haqqında yazılarından Rəsul Rza ədəbi şəxsiyyətinin müəllimlik, ustadlıq və hamilik cizgisi tam görünməkdədir.

Bu baxımdan Rəsul Rzanın "İzvestiya" qəzetində dərc olunmuş "Yaxşılar və müxtəliflər" (6 oktyabr, 1964) məqaləsi diqqətəlayiqdir. Son illər Azərbaycan poeziyasına bir qrup gənc şairin (Tofiq Bayram, Yusif Həsənbəyov, Sərdar Əsəd, Ələkbər Salahzadə, Fikrət Sadıq, İsa İsmayılzadə, Şamil Salmanov, Vaqif Vəkilov) gəldiyini qeyd edən ustad şair poetik pöhrələr sırasında birinciliyi "standart, qafiyə xatirinə yazılmış, zahiri sığallı ənənə ölçüsü çərçivəsinə pərçim edilmiş şeirlərə bənzəməyən" bir yolla irəliləyən F.Qocaya vermiş, Ə.Salahzadə və İ.İsmayılzadənin milli poeziyamızın çərçivəsini genişləndirmək, poetik yaradıcılığa yeni boyalar, yeni formalar gətirmə cəhdlərini alqışlamışdır. V.Vəkilovun isə ilk dəfə mətbuatda dərc olunmuş şeirlərindən sonra köhnə şeir tərəfdarları tərəfindən atası S.Vurğun kimi yazmamasına görə tənqid olunmasını əsassız saymışdır: "... gənc şair istedadlı olsa da (bunu onlar inkar edə bilmədilər), düz yolla getmir. Onlar buna əsaslanırdılar ki, onun atası S.Vurğun "belə yazmırdı". Əvvəla, həqiqət naminə deyə bilərik ki, Səməd Vurğunun belə sərbəst formada yazılmış şeirləri, həm də əla şeirləri az deyildir; ikincisi, əgər gənc şair ədəbiyyatda özünə müstəqil yol seçə bilirsə, onu ancaq alqışlamaq lazımdır" [3, s. 124-125]. Rəsul Rzanı sevindirən və poeziyanın gələcəyinə ümidlə baxmağa sövq edən səbəb gənc şairlərin bir-birinə bənzəməməsi, hərəsinin öz yolu ilə getməsi, yaxud öz yolunu axtarmasına edilən ədəbi səylər, nöqsanlar isə "inkişaf zamanı baş verən büdrəmələr" idi.

Fikrimizcə, Rəsul Rzanın "Yaxşılar və müxtəliflər" məqaləsinin giriş sözü və nəticəsi ustad şairin ədəbi gənclik və ədəbiyyatın gələcəyi ilə bağlı ədəbi missiyasının proqramı olmuşdur: "Ədəbiyyata yeni gənc qüvvələr gəlməzsə, o nə qədər qüvvətli ola da, inkişaf edə bilməz. Ədəbiyyata gələn bu yeni qüvvələri düzgün tərbiyələndirmək, inkişaf və irəliləyişdə onlara istiqamət vermək, onlara həssaslıqla və ağıllı surətdə qayğı göstərmək - ədəbiyyatın müqəddəratı qayğısına qalmaq deməkdir"; "Bir də mən istərdim ki, yaradıcılıq təşkilatlarımızın rəhbərləri, qəzet və jurnallarımızın redaktorları bu şairləri..., başqalarını da bir qəlibə salamğa çalışmasınlar" [3, s. 121; 125]. Bu fikirlər, eyni zamanda, ədəbi gəncliyə qarşı lazımlı-lazımsız hücuma keçən yaşlı şairlərə, ədəbi tənqidə, onların şeirlərini dərc etmək istəməyən redaktorlara ünvanlanmışdı.

Lakin Rəsul Rzanın "Yaxşılar və müxtəliflər" məqaləsindən sonra şairin təqdir etdiyi gənc şairlərə qarşı mətbuatda geniş və məqsədli kampaniya başladılmışdır: "Kommunist" qəzetində (30 oktyabr 1964) imzasız "Şeir, yoxsa tapmaca" adlı replikada Ə.Kərim, İ.İsmayılzadə və Ə.Salahzadə, "Azərbaycan gəncləri" (4 noyabr 1964) qəzetində Qabilin "Şeir-rebus" tənqidi yazısında Fikrət Qoca, "Ədəbiyyat və incəsənət" qəzetində S.Rüstəm və N.Xəzrinin "Qayğı və tələbkarlıq" (1964) məqaləsində Ə.Kərim, Y.Həsənbəyov, F.Qoca, Ə.Salahzadə, İ.İsmayılzadə kəskin tənqid olunmuşdur. Təbii ki, bu "hücum"lar dolayı yolla Rəsul Rzanın özünə yönəldilmiş kampaniyanın bir "cinahı" idi.

Qınaq xarakterli "Qayğı və tələbkarlıq" (müəllifləri - S.Rüstəm və N.Xəzri) məqalədə Rəsul Rza "gəncləri ifrat dərəcədə tərif etdiyinə görə" tənqid edilmiş, Ə.Kərim ("Fraqmentlər"), Y.Həsənbəyov, F.Qoca ("Küləklər"), Ə.Salahzadə ("Boy", "İlk qazanc", "İşıq"), İ.İsmayılzadə ("Yağış gölməçəsi") kimi Rəsul Rzanın dəstək olduğu gənc şairlərin yaradıcılığı məhz məqsədli şəkildə gülüş hədəfinə çevrilmişdir. Ustad şairin qələm yoldaşlarına cavabı olan "Qayğı sözü və qayğı özü" məqaləsində ədəbi tənqidin tez-tələsik, əsəbi mülahizələr irəli sürdüyünü, adı "Qayğı və tələbkarlıq" olan məqalədə qayğı "sözünün" olduğunun, lakin "özünün" olmadığını, onların şeirlərindən ayrı-ayrı keyfiyyətsiz sətirlərin, sözlərin, ifadələrin seçilərək gülüş hədəfinə çevrilməsinin yolverilməz olduğunu söyləmiş, gənc şairlərin yaradıcılıq uğurlarını poetik təhlillərlə əsaslandırmışdır. Əli Kərimin "Fraqmentlər" şeirini "parodiya", "dumanlı" adlandıranlara və poetik mətndəki "otururam ömrümün bir parçasının kölgəsində", "düzmüşük yetişmiş dəqiqələri on dörd günlük ay-boşqaba, yeyirik şirin-şirin", "elə saatım var ki, ağac olub bir dost bağında", "yaşamışam… bəzən ölüm sözünün polyar qışında" və s. kimi orijinal poetik ifadə tərzini "həzm edə bilməyənlər"ə Rəsul Rza tutarlı cavablar vermiş, həmin misraların zahirən görünməyən daxili poetik poetensialını izah etmişdir: "Əli Kərimi tənqid edən müəlliflər "Fraqmentlər" şeirinin qırılmaz bədii məntiqlə bağlanmış misralarını bir-birindən ayırır, ümumi kontekstdən çıxarır, süni dolaşıqlıq yaradırlar. Onlar şairin işlətdiyi "sevgi toranında" ifadəsini bəyənmirlər. Məgər dilimizdə səhər toranlığı, axşam toranlığı yoxdurmu?" [3, s. 131]. Rəsul Rza qələm yoldaşları S.Rüstəm və N.Xəzriyə üzünü tutaraq "duman çox olmadımı?", "bu dumanı yoxdan yaratmaq nəyə lazımdır?", "Bu "duman"lar ittihamı ilə ağır illərin gedər-gəlməz yolunda azmı əziz qələm yoldaşlarımız yox oldu?!" ritorik sualları ilə, fikrimizcə, əvvəlki illərin repressiyalarına işarə etmiş, sənət yoldaşlarını bu yoldan çəkinməyə çağırmışdır.

Böyük bəstəkar Qara Qarayev Rəsul Rzanı ədəbi gəncliyə sevdirən cəhəti, altmış yaşlı Rəsulun 25-30 yaşlı Rəsul kimi ehtirasla yazmasının səbəbini belə izah etmişdir: "... Rəsulun gənc şairlərə qayğı ilə yanaşması, onların hər yaxşı şerini oxuyanda ata kimi sevinməsi də buradan irəli gəlir. Gənclərlə qaynayıb-qarışan, onların poetik nailiyyətlərini öz nailiyyəti hesab edən sənətkarlar heç vaxt qocalmır. Bunun üçün böyük şair ürəyi lazımdır" [4]. "Səni nə üçün özümə bu qədər əziz və yaxın bilirəm?", "Sənə nə üçün bu qədər bağlıyam?" suallar üzərində düşünən digər bəstəkarımız Tofiq Quliyevə görə, Rəsul Rzanı onlara sevdirən "bir insan olaraq çox cəsarətli, qeyrətli, səmimi və mehriban, bir dost olaraq sadiq və dönməz, bir vətəndaş olaraq müstəqim və zəhmətsevən, bir şair olaraq istedadlı və yenilik carçısı" olması kimi məziyyətləri deyildir, "... ona görədir ki, sən yeni həyat, yeni insan, yeni sənət uğrunda mübarizəmizdə çox zaman bizə bir nümunə, bir arxa, bir köməksən". [5].

V.Mayakovskinin şeirlərinin kamil tərcüməçisi olması da Rəsul Rzanın ədəbi gəncliyə sevdirən cəhətlərindən biri olmuşdur. Əli Kərim "Şair" məqaləsində ustad Rəsul Rza ilə hələ uşaqkən - məktəbdə V.Mayakovskinin "Yaxşı nədir, pis nədir?" əsərinin tərcüməçisi kimi tanıdığını və məhz bundan sonra nəinki özünün, bütün sinif uşaqlarının şairin yaradıcılığını addımbaaddım izlədiyini, onun poeziyası ilə birgə boy atdığını yada salmış, ədəbi nəslə təsirini etiraf etmişdir: "Rəsul Rza yaradıcılığının biz gənc ədəbi nəslə təsiri böyükdür. Onun yaradıcılığı gözəl təcrübə məktəbidir. Söz üstündə əsmək, obrazlı formada demək, vəzni fikrə tabe etdirmək, onu ölçü çərçivəsində sıxılmağa qoymamaq kimi məsələləri biz məhz Rəsul Rzadan öyrənməliyik" [6, s.11].

Şamaxının Çuxuryurd kəndində müəllim işlədiyi zaman Yazıçılar İttifaqında Rəsul Rzanın gənclərin şeirlərinə qulaq asdığını eşidib Bakıya gələn, "xalq düşməni" oğlu olduğu üçün məlum səbəblərdən "adamları uzaqdan sevən" Fikrət Sadıq ustadı belə xatırlamışdır: "Dərdimi heç kəslə bölüşmürdüm. Amma onda kimsəyə oxuya bilmədiyim şeirlərimi oxudum çinar səbrli şairə. Sonralar həmişə məndən soraq tutdu. Hər təzə yazıma, kitabıma sevindi. Hər yeni kitabından mənə bağışladı. Hərəsində öz əliylə yazılmış işıq dolu ümid. Moskvada nəşr olunacaq ilk kitabıma da ön sözü yazdı" [7].

Qarayazıda sıxıntı içində olarkən 1964-cü ilin yazında Bakıdan - Rəsul Rzadan gələn bir cavab məktubunun bütövlükdə onun taleyini dəyişdiyini yazan İsa İsmayılzadənin öz xeyirxahı haqqında etirafı ustad şairin hami obrazını bariz örnəyini canlandırır: "Rəsul Rza məni öz maşınında radio komitəsinə apardı, işə düzəltdi... Mənim ömürlük mənəvi dayağım oldu, bizi – ədəbiyyatın "ögey oğullarını" hər cür təhqirdən, sıxma-boğmadan qorudu" [8]. Bu "ögey oğullar" isə çoxəsrlik poetik ənənədən "kənara çıxanlar", o dövrün ədəbi tənqidinin dili ilə desək, "süni yolla" gedənlər, milli poeziyadan "uzaqlaşan"lar, əsl həqiqətdə isə Azərbaycan milli sərbəst şeir hərəkatının və modern şeirin "əsgərləri", öncülləri idi.

Daha çox Rəsul Rza və ədəbi gənclik münasibətlərində özünü göstərmiş ustadlıq və hamilik cizgisi, fikrimizcə, şairin ədəbi məktəbinin yaranmasında əsas faktorlardan birinə çevrilmişdir. Böyük ustadın gənc ədəbi nəslə xüsusi diqqət və qayğısını, mətbuat səhifələrində onları istiqamətləndirən, ruhlandıran, təqdir və təbliğ edən, ədəbi çəkisi olan yaşlı nəslin hücumlarından müdafiə edən məqalə yazılarla mütəmadi çıxış etməsini ədəbi şəxsiyyətin Azərbaycan-türk ədəbiyyatının gələcək taleyi və inkişafı qarşısında borc və məsuliyyət hissi, şərəf işi kimi dəyərləndirmək lazımdır. Araşdırmalar göstərir ki, ustad şairin ədəbi istedadlara münasibəti onların yaradıcılıq üslubları, hecada və yaxud əruzda, şeir, ya da nəsr yazması ilə bağlı olmamışdır. Ancaq təbii ki, əsas arzusu Azərbaycan poeziya coğrafiyasında güclü və istedadlı, müxtəlif üslublu, özüməxsus dəsti-xətti olan şairlərin yetişməsi idi.

Ədəbiyyat

1. İki ömrün işığı (Tərtib edənlər: R.Hüseynov, N.Şəmsizadə). Bakı: Gənclik, - 1987. - 552 s.
2. Səmədoğlu V. Poeziya nəhri // "Vışka" qəzeti. – 1970, 19 iyun
3. Rza R. Mənim fikrimcə (Məqalələr). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, - 1967. - 420 s.
4. Qarayev Q. Polifonik poeziya // "Ədəbiyyat və incəsənət" qəzeti. - , 1970, 14 iyul
5.Quliyev T. Səni sevdirən nədir? [Elektron resurs] / http://rasulrza.musigi- dunya.az/xatireler/xt1_13.shtml
6. Kərim Ə. Seçilmiş əsərləri: [2 cilddə]. Bakı: Elm və təhsil, - c. – 2. – 2012. - 500 s.
7. Sadıq F. Çinar ömürlü şair: [Elektron resurs] /(http://rasulrza.musigi-dunya.az/xatireler/xt1_19.shtml
8. İsmayılzadə İ. Şeirlərimə görə təhqir olunurdum: [Elektron resurs] / https://kulis.az/news/14718

РЕЗЮМЕ

УЧИТЕЛЬ- МАСТЕР ЛИНИИ РАСУЛА РЗА ЛИТЕРАТУРНАЯ ЛИЧНОСТЬ

Джуманов Д. А.

Сумгаитский государственный университет

Преподавание, мастерство и опека наиболее ярко проявились в отношениях Расула Рзы с литературной молодежью. В свое время мастер-поэт услышал такую талантливую молодежь и, несмотря на давление, направленное на развитие азербайджано-турецкой литературы, осмелился защитить ее от нападок старшего литературного поколения. Статьи Расула Рзы, адресованные литературной молодежи, рекомендации мастера в критическом и оценочном духе, мастер-классы привели к вхождению в мир поэзии поэтов с новым дыханием.

Ключевые слова*: литературная личность, литературная молодежь, литературная критика, преподавание, мастерство*

SUMMARY

TEACHING-MASTER LINE OF RASUL RZA LITERARY PERSONALITY

Jumanov D. A.

Sumqayit State University

The line of teaching, mastery and guardianship was most evident in the relations between Rasul Reza and literary youth. In his time, the master poet heard such talented young people, and despite the pressure, for the development of Azerbaijani-Turkish literature, he dared to protect them from the attacks of the older

literary generation. Rasul Rza's articles addressed to the literary youth, master's recommendations in a critical and appreciative spirit, master classes resulted in the entry of new-breath poets into the world of poetry.

***Keywords**: literary personality, literary youth, literary criticism, teaching, mastery*

MÜASİR DÖVRDƏ PEDAQOJİ FƏALİYYƏT PROSESİNDƏ MÜƏLLİM ŞƏXSİYYƏTİNİN FORMALAŞMASI VƏ FƏRDİ İNKİŞAFIN XÜSUSİYYƏTLƏRİ

Huseynov Elmar Afis oğlu
ADPU, Ümumi psixologiya kafedrası, Bakı, professor
elmar-boks@rambler.ru

***Açar sözlər**: tədris, proses, pedaqoji, psixoloji, müəllim, inkişaf, fərdi, xüsusiyyət, özünüqiymətləndirmə, motivasiya, iddia səviyyəsi, fəaliyyət.*

Müasir dövrdə müəllimin pedaqoji fəaliyyəti çoxölçülü və çoxsahəli bir prosesdir. Bu psixoloji məsələlərin pedaqoji fəaliyyətindəki müvəffəqiyyət və uğursuzluğun müəllimin öz şəxsiyyətinə münasibətinə təsiri baxımından öyrənilməsi aktualdır və bu prosesin öyrənilməsi psixoloji baxımdan çox məqsədəuyğundur. Pedaqoji fəaliyyət müəllimin psixoloji vəziyyətinə və fərdi özünüinkişafına, öz "Mən"lərinə münasibətlərinə təsir göstərir [2;5;7].

Pedaqoji fəaliyyət prosesində əldə edilən müvəffəqiyyət və yaxud uğursuzluğun müəllimin qavrayış, yaddaş, düşüncə, diqqət, funksional və emosional vəziyyətlərin dəyişikliklərinə səbəb olduğu məlumdur. Müvəffəqiyyət və uğursuzluq müəllimin şəxsiyyətinin hörmətinə, arzularının səviyyəsinə, motivasiyasına, nəticələrin aid edilməsinə, pedaqoji fəaliyyətdə onunla birgə calışan pedaqoji kollektivin qiymətləndirilməsinə və s. tənzimləyici və formalaşdırıcı təsir göstərir. Uğursuzluğun təsiri altında işi yerinə yetirərkən əzmkarlığın dəyişməsi, bəzi pedaqoji fəaliyyət növlərinə digərlərində üstünlük vermə dəyişikliyi, sonrakı dövrlərin və yaxud yeni fəaliyyətlərin effektivliyində artım və yaxud azalma baş verir [3;5;9].

Təhsildə həyata kecirilən psixoloji xidmət kimi bir psixoloji elm sahəsinin inkişafı, müəllimin şəxsiyyət formalaşmasının psixologiyası, müvəffəqiyyət və uğursuzluğun pedaqoji fəaliyyətinə təsiri barədə elmi məlumatlara əsasən praktiki psixologiyası sahəsində psixoloji tədqiqatların aparılması çox zəruridir. Bu məlumatlar təkcə nəzəriyyə üçün deyil, həm də təhsildə calışanlar arasında insan münasibətləri təcrübəsi üçün əhəmiyətlidir. Məlum olduğu kimi, bu münasibətlər vəziyyətindəki gərginliyin artması qaçılmaz olaraq təhsil müəssisəsinin kollektivinin müəyyən bir hissəsində (müəllimlər) psixoloji depressiyaya səbəb olan amillərin (zülmkar vəziyyət, məyusluq və s.) artmasına səbəb ola bilər. Bu amillər arasında psixoloji determinantlar xüsusi yer tutur və xüsusən də pedaqoji fəaliyyətindəki işin müvəffəqiyyətdən (və ya uğursuzluqdan) asılı olaraq müəllim şəxsiyyətinin özünüqiymətləndirməsi, motivasiyası və iddia səviyyəsidir [4;7].

Bu baxımdan çox vacib tədqiqat sualları ortaya çıxır: müəllimin şəxsiyyət xüsusiyyətlərinin təbiəti, səviyyəsi və reallaşma dərəcəsi nədir və bu fenomenin, çoxölçülü bir amil olaraq, təhsil müəssisəsinin fəaliyyəti prosesindəki müvəffəqiyyət və uğursuzluqdan asılığı nə diricədədir? Bu amil müəllimin psixikasına və həqiqi davranışına təsir edirmi? Müvəffəqiyyət və uğursuzluq müəllimin şəxsiyyətinin pedaqoji fəaliyyət prosesinə necə təsir edir, bu, özünü tanıma, özünə hörmət etmə, şəxsiyyətin motivasiyası və öz "Mən"inin şüurlu mexanizmləri ilə necə əlaqəlidir? Zəmanəmizin şərtlərindəki bu suallara cavablar xüsusi aktuallıq kəsb edir. Eyni zamanda, müəllim şəxsiyyətinin formalaşması psixologiyasının və müvəffəqiyyətr və uğursuzluqdan asılı olaraq peşələrinə olan münasibətlərinin ortaya çıxan elmi problemləri yalnız nəzəri deyil, həm də tamamilə praktik əhəmiyyətə malikdir, çünki bu, təhsil müəssisəsində sosial və psixoloji münasibətlər praktikasının metodoloji əsaslarını inkişaf etdirir.

Müəllimin fərdi inkişaf prosesinin öyrənilməsinin psixoloji məsələləri, onun spesifik tərəfləri ilə bağlı bir sıra maraqlı əsərlərdə, digər elm sahələrindəki problemlərin öyrənilməsi ilə əlaqədar fərdlərin iddialarının səviyyəsi ilə bağlı suallar qaldırılır və həll olunur. Bu suallar, "Mən" obarazına hörmət və hədəflər səviyyələri arasında uyğunsuzluq olduqda narahatlıq indeksinin nəzərə alınması, tələbələr arasında, zehni inkişaf səviyyələri müxtəlif olan tələbələr arasında münasibətlər, şəxsiyyətin özünü təsdiqləməsi, sinir sisteminin xüsusiyyətləri ilə əlaqəli təhsildə çətinlik hədəfləri seçmə xüsusiyyətləri ilə əlaqələndirilir. və temperament, yaş, psixofizioloji xüsusiyyətlər, zəka səviyyəsi və s. [1;2;9].

Bir sıra maraqlı əsərlərdə müəllimlərin fərdi inkişafı psixologiyasına, onun spesifik cəhətlərinə dair digər elm sahələrindəki problemlərin öyrənilməsi ilə əlaqədar olaraq şəxsiyyətin iddia səviyyəsinə dair suallar qaldırılır və həll olunur. Beləliklə, məsələn, bu suallar narahatlıq indeksi ilə iddialar və özünüqiymətləndirmələrin arasındakı uyğunsuzluğun nəzərə alınması, gənc müəllimlər arasında pedqoji fəaliyyətlə bağlı çətinliklərin xüsusiyyətləri, məktəbdə şagirdlərin davranışına, onların təlim proqramının mənimsəmə prosesinə olan münasibətlərin təsiri ilə əlaqəlidir. Bu psixoloji amillər müxtəlif zehni inkişaf səviyyələri olan müəllimlər arasında, şəxsin özünü təsdiqləməsi, sinir sisteminin xüsusiyyətləri və temperament, yaş və psixofizioloji xüsusiyyətləri və s. ilə əlaqələndirilir. Bu əsərlərdə yer alan mühakimələr, nəticələr, nəzəri müddəalar, şübhəsiz ki, dissertasiya tədqiqatımızda xüsusi, metodoloji sualların hazırlanmasında elmi bir material kimi faydalı rol oynamışdır [1;6].

Müəllim şəxsiyyətinin yüksək psixoloji xüsusiyyətlərinin, onun əqli və sosial keyfiyyətlərinin, münasibət və dəyər yönümlərinin, özünüqiymətləndirmənin və özünütanımanın, şüur aktlarının və tələbənin həqiqi davranışının formalaşmasında tədris prosesinin aspektlərinin əks olunması barədə müəlliflərin fikirləri bizi çox maraqlandırır. Biz bu elmi eşimizdə mövcud olan konseptual aparatı, müəllim şəxsiyyətinin psixologiyası ilə əlaqəli təhsil müəssisəsinin psixoloji problemlərinin ümumi nəzəri və xüsusi baxışını yüksək qiymətləndirir və araşdırmalarında nəzəri-metodoloji ilkin şərtlərdən mühakimə və elmi-psixoloji konstruksiyalardan istifadə edirik.

Mövcud psixoloji ədəbiyyatda tədqiqatçılar müvəffəqiyyət və uğursuzluğu subyektlərə təsir amili kimi və yaxud davranışın səbəblərini izah etmək üçün "obyek" kimi istifadə edirlər. Bu, iddia səviyyəsinin öyrənilməsində görülən işə, nailiyyət motivasiyasına, atribut nəzəriyyəsinə, fəaliyyətlərin birgə icrasına və s. kimi baxılır. Mövcud tədqiqatların tədqiqat nəticələrini təhlil edərək müvəffəqiyyət və uğursuzluğun idrak komponenti haqqında lazımi fikirləri görə bilərik. Müvəffəqiyyət və uğursuzluq komponentlərin bloku, əsas ehtiyacını ödəyən və nəticədə uğur qazanmağın zəruriliyini təmin edən bir məhsul kimi fəaliyyət nəticələrinin bir neçə qiymətləndirməsindən ibarətdir [7;8;9].

Nəhayət, qeyd etmək lazımdır ki, psixoloji ədəbiyyatda müvəffəqiyyət və uğursuzluğun müəllimin pedaqoji fəaliyyətinə, onun şəxsiyyətinin təhsil müəssisəsində formalaşmasına təsiri probleminin müxtəlif aspektlərini araşdırmağa cəhd edilmişdir. Lakin, bu cür araşdırmalar çox azdır. Buna görə də vurğulanmalıdır ki, bu problem sahəsində hələ də öyrənilməmiş bir çox məsələ var, bir sıra problemlər hələ də müsbət həllindən uzaqdır, təhlil olunmuş yerli və xarici ədəbiyyatda materiallar bu broblemdə müxtəlif mübahisələrə səbəb olur. Bütün bunlar ilk növbədə tədqiqat işimizin mövzusunun aktuallığını subut edir.

Tədqiqat işinin məqsədi müəllimlərin şəxsiyyətinin formalaşması və pedaqoji prosesinə müvəffəqiyyət və uğursuzluğun təsirinin metodoloji və nəzəri xüsusiyytələrinin öyrənilməsi və təhlili, pedaqoji prosesə uyğunlaşmalarını, müvəffəqiyyət və uğursuzluğun neqativ fasadlarını profilaktika və korreksiya yollarını araşdırıb göstərmək və müəllimlərin pedaqoji prosesinin səmərəli kecməsi üçün psixoloji və sosial əlverişli şəraitin yaradılmasına dair tövsiyyələr verməkdir.

"Müvəffəqiyyət və uğursuzluq", "şəxsiyyətin formalaşması" kimi psixoloji fenomenlər probleminin anlayışlarının ilkin təhlili tədqiqat işinin məntiqi strateqiyasını müəyyən rtməyə imkan vermişdir. Tədqiqat işi müvəffəqiyyət və uğursuzluğun əsasəndə gənc müəllimlərin şəxsiyyətinin formalaşmasına və pedaqoji fəaliyyətinə psixoloji təsir prosesinin müxtəlif aspektlərini təsdiqləyir.

Məktəbdə pedaqoji proses üçün elə şərait yaratmaq lazımdır ki, emosional qeyri-sabitliyi ilə seçilən müəllim uğursuzluğun səbəblərini obyektiv şəraitdə axtarmasın və öz bacarıqları hesabına səhvlərin səbəblərini üzə çıxarıb, çətinlikləri aradan qaldırmaq üçün səyləri səfərbər edirək, əhəmiyyət kəsb edən başlanmış işi uğurla başa çatdırmağı öyrənsin.

Nəticələr:

Müvəffəqiyyət və uğursuzluq kimi psixoloji amillər, müəllimlərin peşələrinə olan marağın artması və azalması, müəllimlərin özləri haqqında fikirlərinə, qabiliyyətləri, intellektual inkişaf imkanları haqqında biliklərinin formalaşmasına əhəmmiyyətli dərəcədə təsir göstərir.

Müəllimlərin fərdi inkişafı bütün psixoloji münasibətlər kompleksindəki müsbət dəyişikliklər günümüzün reallıqlarını nəzərə alınmaqla özünüqiymətləndirmənin adekvatlığında və məqsəd qoyma qabiliyyətin sabitliyində, iddia səviyyəsinin dvamlı formalaşmasında özünü göstərir.

Ədəbiyyat

1. İnanc B.Y., Yerlikaya E.E.: Kişilik Kuramları, Ankara: Pegem Akademi, 2012.
2. Əliyev B.H., Şəxsiyyət probleminə yeni baxış //Elm XXI əsrin astanasında elmi-praktik konfransının materialları, Bakı: Renesans, 1998, s. 1.

3. Əzimov Q.E., Psixi inkişaf və tərbiyənin müasir problemləri, Bakı: ADPU-nin nəşri, 2004, 338 s.
4. Huseynov Elmar, Öğrencilerin kişilik oluşumuna ve eğitim faaliyetlerine başarı ve başarısızlık etkisinin psikolojik temelleri // Psikoloji Araştırmaları Dergisi T.C. Avrasya Üniversitesi, Trabzon. 2017. sh. 1-6.
5. Батурин Н.А., Курганский Н.А. Уровень притязаний как метод исследования личности. В кн.: Диагностика психических состояний в норме и патологии. Ленинград, 1980, с.140-149.
6. Вербицкий А.А., Платонова Т.А. Формирование познавательной и профессиональной мотивации. М.: 1986, 14 с.
7. Гусейнов Э.А., Исследование психологических аспектов, влияющих на процесс подготовки будущих специалистов в ВУЗе // Вестник Московского Университета, сер. 20, педагогическое образование, М., 2012, №2, стр. 62-69.
8. Гусейнов Э.А., Психологическое влияние успеха и неудачи на процесс профессионализации будущего специалиста и формирования его личности // Рецензируемый научный журнал «Тенденции развития науки и образования», Самара, №60, Часть 7 Изд. НИЦ «Л-Журнал», 2020, с.15–19.
9. Психологическая служба в школе. Казань: изд. Каз. Ун-та, 1981, 239 с.
10. Huseynov Elmar, Psychological features of learning as an activity affecting the formation of a student's personality // VOL 2, No30 (2020) Österreichisches Multiscience Journal (Innsbruck, Austria) The journal is registered and published in Austria, 51-53 p.

РЕЗЮМЕ
ФОРМИРОВАНИЕ ЛИЧНОСТИ УЧИТЕЛЯ В ПРОЦЕССЕ ПЕДАГОГИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ И ОСОБЕННОСТИ ИНДИВИДУАЛЬНОГО РАЗВИТИЯ

Гусейнов Э. А.
Азербайджанский государственный педагогический университет

В статье показаны результаты научной работы, направленной на изучение проблем формирования личности учителей. В целом же исследование позволило рассмотреть и выявить психологические особенности влияния успеха и неудачи на профессиональную деятельность и на формирование личности учителей в процессе работы. Было обнаружено, что успех и неудача влияют как на индивидуальные качества личности учителей, так и на педагогическую деятельность учителей, играют немаловажную роль в формировании уровня притязаний, мотиваций и самооценки личности педагога. Как показали результаты наших исследований, психологическая служба в образовании должна уделять особое внимание факторам, влияющим на педагогическую деятельность и формирование личности учителей.

Ключевые слова*: обучение, процесс, педагогический, психологически, учитель, развитие, индивидуальное, особенности, самооценка, мотивация, уровень притязаний, деятельность*.

SUMMARY
FORMATION OF THE PERSONALITY OF THE TEACHER IN THE PROCESS OF PEDAGOGICAL ACTIVITY AND FEATURES OF INDIVIDUAL DEVELOPMENT

Huseynov E. A.
Azerbaijan State Pedagogical University

The article shows the results of scientific work aimed at studying the problems of the formation of the personality of teachers. In general, the study made it possible to consider and identify the psychological characteristics of the influence of success and failure on professional activities and on the formation of the personality of teachers in the process. It was found that success and failure affect both the individual qualities of the personality of teachers and the pedagogical activity of teachers, play an important role in shaping the level of claims, motivations and self-esteem of the teacher's personality. The results of our research have shown the psychological service in education should pay special attention to the factors influencing pedagogical activity and the formation of the personality of teachers.

Keywords*: learning, process, pedagogical, psychological, teacher, development, individual, features, self-assessment, motivation, level of claims, activity*.

MƏNƏVİ-ƏXLAQİ DƏYƏRLƏRİN MUSTAFA ÇƏMƏNLİ YARADICILIĞINDA İNİKASI
(“Dəhliz” və “İstək” hekayələri əsasında)

Babayeva Aynurə Nizami qızı
Sumqayıt Dövlət Universiteti, Azərbaycan
femida278@mail.ru

Açar sözlər: *Mustafa Çəmənli, hekayə, mənəvi-əxlaqi dəyərlər, sosial problemlər, cəmiyyət.*

Bütün dünya xalqlarının ədəbiyyatına müraciət etsək, görərik ki, heç zaman tükənməyən mənəvi-əxlaqi problemin təqdimi və onun həlli yollarının axtarışı əsas bədii problemlər sırasındadır və hər zaman aktual səciyyə daşıyır. Bu problem yalnız ədəbiyyatda deyil, həm də fəlsəfə, estetika, psixologiya, sosiologiya və pedaqogika kimi sahələrdə də öyrənilməkdədir. Bu səbəbdən, ədəbiyyatın real hadisələr zəminində mənəvi-əxlaqi axtarışları xüsusi maraq doğurur. F.M.Dostoyevski (“Cinayət və cəza”, “İblislər”, “Karamazov qardaşları” və s.), L.N.Tolstoy (“Hərb və Sülh”, “Anna Karenina”, “Dirilmə” və s.), O.Balzak (“Bəşəri komediya”), E.Hemenquey (“Qoca və dəniz”, “Silahlara əlvida”, “Günəş də qalxır” və s.), E.M.Remark (“Zəfər tağı”, “Lissabonda gecə”, “Yaxınını sev”, “Borc həyat” və s.), Ç.Aytmatov (“Gün var əsrə bərabər”, “Əlvida, Gülsarı”, “Dənizkənarı ilə qaçan alabaş” və s.), P.Lagerkvist (“Mariamna”, “Əbədiyyətin təbəssümü” və s.) və başqaları sosial-ictimai, psixoloji və fəlsəfi hadisələr fonunda hər zaman ön planda duran əsas mövzu kimi mənəvi-əxlaqi problemləri araşdırmış, həlli yollarını tapmağa və təqdim etməyə çalışmışlar. Yəni fəlsəfi, iqtisadi, mədəni, məişət və s. problemlərin kökündə məhz mənəvi-əxlaqi problemlərin dayandığını ifadə etmişlər. Mənəvi-əxlaqi dəyərlər bəşəriyyətin ölçü vahidi sayılır desək, yanılmarıq. Bu səbəbdən də mənəvi dəyərlər insanlığın qüsürlarının “məlhəmi”dir. Lakin mənəvi-əxlaqi dəyərlər sistemi ümumilik təşkil etsə də, milli-etnik təfəkkürə əsaslanaraq tədqiq və təhlil edilməlidir. Yəni hər bir xalq, millət özəl və fərqli olduğu kimi, onlara xas mənəvi dəyərlər sistemi də fərqlidir. Bu baxımdan ideal insan konsepti müxtəlif xalqların düşüncəsində eyniyyət təşkil edə bilməz.

Deməli, haqlı olaraq buyrulur ki, mənəvi dəyərlər insanı formalaşdıran, inkişafına kömək edən və təkan verən davranış qaydalarıdır.

M.Çəmənli də o yazıçılardandır ki, yaradıcılığı boyu təqdim etdiyi problemləri mənəvi-əxlaqi dəyərlər kodeksindən çıxış edərək təhlil edir.

Hələ 80-ci illərdə Adil Məmmədov onun hekayə və povestləri haqda yazır: “O, ataları miras qoyub getdiyi maddi və mənəvi abidələrə xor baxanlar, ata-babadan qalmış nəcib, gözəl ənənələri yaşatmaq əvəzinə ona arxa çevirənləri tənqid hədəfinə çevirir. Bu hekayələrin dilində folklordan gələn şirinlik vardır” [3, s.5] Həqiqətən də, yazıçı həqiqətə sadiqlik, vicdanlı yanaşma kimi müsbət insani xüsusiyyətlərin mənəviyyatı tarazlayan keyfiyyət kimi dəyərləndirir. Məsələn, “İstək”, “Dəhliz”, “Meşə yeri”, “Şəkil Süleymanın fotoaparatı” hekayələrində, “Yaddaş”, “Halallıq”, “Ruhların üsyanı” povestlərində bu məsələ dərindən işlənilmişdir. O, ictimai-sosial mövzuları təhlil müstəvisi olaraq seçmiş və əbədi sualların həlli yollarını axtarmışdır. Yəni yazıçı müraciət etdiyi mövzuları bir bədii vasitə kimi istifadə etmişdir. Janrından, formasından, mövzusundan asılı olmayaraq onun hər bir əsərində xeyirlə şərin mübarizəsi və mənəvi-əxlaqi problemlərin konseptual təhlili öz əksini tapmışdır.

Yazıçının “İstək” və “Dəhliz” hekayələrində mövzu oxşardır. Buna görə də bu hekayələr arasında paralellər apararaq təhlil etməyə çalışacağıq. Hər iki hekayədə biz həqiqəti dərk etməyən, vicdanını satan vəzifə sahiblərinin – şöbə müdiri Əsəd, Zülfiqarov, Tahir və s. obrazlarının təsviri ilə üz-üzə qalırıq. Müəllif əqidəsini itirmiş, rüşvətxor, “adambaz” obrazlarla vicdanlı, işini sevən, bacarıqlı Zahid və Fədanı qarşı-qarşıya qoyur. Bu qarşıdurmada ikincilərin – haqlıların məğlubiyyəti cəmiyyətin mənəvi uçurumunu əks etdirir. Yazıçı hər iki əsərdə sadə dillə, artıq ifadələr işlətmədən real situativ inandırıcılıq yarada bilmişdir. Məsələn, “Dəhliz” hekayəsində oxuyuruq:

“Səlim eynəyini çıxardıb dəsmalla silə-silə:

– Sənin nəyin var? – dedi.

Zahid barıt çəlləyi kimi partladı:

– Təmiz vicdanım, amalım, əqidəm, gözəl arzularım! Bəs Zaurun nəyi var?

– Zülfüqarovu” [2, s.199].

Kiçik bir dialoqda yazıçı haqsızlığı, ədalətlilik prinsipinin pozulduğunu çox gözəl ifadə edir. O, bu dialoqda cəmiyyətdəki mizan-tərəzinin düz işləmədiyini, insanların mənəvi böhran yaşadığını çox dəqiq və konkret, əlavə çalar qatmadan ifadə etmişdir. Hekayədə təsvir olunan redaktor tipik bir obraz kimi özündən

yuxarı vəzifədə oturanların qarşısında boyun bükən, aşağıları isə əzən qəddar və simasız fərdləri özündə ehtiva edir. Yazıçı bu epizodda lazımsız təfərrüata yol verməyərək acımasız həqiqəti – zamanın, cəmiyyətimizin ciddi problemlərindən olan "qohumbazlığ" və "adambazlığ"ı ifşa edir.

Bu problemi biz "İstək" hekayəsində də izləyirik. Yazıçı burada savadının, bacarığının qarşılığını ala bilməyən Fədanı seçim qarşısında qoyur: ya yaltaqlanaraq özünü gözə soxmalı, ya da on il işlədiyi vəzifə və vəziyyətlə razılaşıb beləcə də davam etməlidir. Varlığı və yoxluğu arasında qalan, zamanın adamı olmayan, direktora, müdirə "ayaqqabı cütləməyi" bacarmayan, "adamı olmayan" Fəda 35 il kölgədə qalmaqdan bezərək prinsiplərini kənara atmağı qərara alır. Lakin "müdirin əzizinə çevrilib vəzifəyə keçmək" istəyi ətrafında gördüyü vəzifə uğrunda direktor stolunun tozunu yalamağa hazır yaltaq və qorxaqları bir daha müşahidə etdikdən sonra onun bu istəyi itir. Anlayır ki, mənliyini sataraq özünə xəyanət hissi ilə yaşaya bilməz. Buna görə də səy görsətməyə, yaltaqlanmağa, əyilməyə belə dəyməz.

Mustafa Çəmənli Fədanın düşüncələri vasitəsilə cəmiyyətdə baş verən ictimai-siyasi problemləri vurğulayır. Əsas dayağını – mənəvi dəyərlərini itirmiş cəmiyyətdə itkisiz yaşamağın mümkünsüzlüyünü qeyd edir. Əgər Fəda və Fədakimilər bacarıqlarının müqabilində heç nə - iş, maddiyyat, hörmət əldə edə bilmirlərsə, yaltaqlıqla vəzifə pilləkənlərini sürətlə çıxanlar da insanlıqlarını itirirlər. Yəni vəzifə uğrunda savaşa çıxanlar da bu mübarizədən itkisiz çıxmırlar. Fədanın burda itkisi vəzifədirsə, vəzifə güdənlərin və vəzifə uğrunda hər şeyə hazır olanların itkisi insanlıq, mənlik, mənəviyyatdır.

Yazıçı bu hekayədə monoloqlardan çox istifadə edir. Bu monoloqlar üzə deyilməyən, lakin hamının bildiyi gerçəkliyi ifadə edir. O, Çiçək və Fəda obrazlarını daxili monoloqlar vasitəsilə danışdırır və bu mükalimələrdə cəmiyyətdə geniş vüsət alan iki problemi ön plana gətirir: 1. Vəzifə köləliyi; 2. Ailənin sevgi üzərində yox, maddiyyat üzərində qurulması. Müəllif bununla içimizdəki naqisliyi özümüzə güxgü effekti ilə görsədir. Hekayənin məqsədi cəmiyyətin mənən pozulmasını, pulun, vəzifənin insan həyatının əsas amilinə çevrildiyini, insanı öz mahiyyətindən – insanlığından uzaqlaşdırdığını göstərməkdir.

Mustafa Çəmənlinin yaratdığı Zülfüqarov (İstək), baş redaktor (Şəkil Süleymanın fotoaparatı), Səlimov (Yaddaş), Vəli Səlimov (Meşə yeri) və s. kimi tipikləşdirilmiş obrazlarla vəzifəsindən sui-istifadə edən, gözü ayağının altını görməyən, zəifləri (ona tabe olanları) əzən, qəddar və əqidəsiz şəxslərdir. Müəllif bu obrazların vasitəsilə ierarxik şəkildə bir-birindən asılı və gözükölgəli vəzifə sahiblərinin ədalətsizlikləri və onların əməlləri nəticəsində yaranan böyük və dərin bir uçurumun, boşluğun real təsvirini verir. O, Zahid və Süsən, Fəda xarakterlərini zəmanəmizin "artıq insanlar" tipinə aid edir və onların apardığı mübarizənin bir çox hallarda mənəvi tənhalıqla nəticələndiyini, çörək dərdi çəkməyə məhkum, mübarizəyə gücü qalmayan elsevərlərin ədalətsiz məğlubiyyətini isə cəmiyyətin deqredasiyası kimi təqdim edir.

Yazıçı mənəvi-əxlaqi dəyərlər mövzusuna xüsusi önəm verməkdə yanılmır. Çünki o, mənəvi problemləri təsvir etməklə bir çox problemlərin (sosial ədalətsizlik, laqeydlik, biganəlik, qəddarlıq, vəzifəpərəstlik) təhlilinə yol açır.

Bu səbəbdən də, insanlara mənəvi dəyərləri aşılamaq, insanın əsl mahiyyətini anlatmaq, Tanrını dərk edən yaşam tərzini təlqin etmək onun əsas məqsədlərindəndir. İnsanın özü və Allahı arasında baş verən hər bir yanlış dərkin, yanaşmanın sistematik (ardıcıl), eyni zamanda xaotik olaraq bütün münasibətlərin pozulmasına, yanlışlığına gətirib çıxardığını göstərir. Buna görə də siyasi, sosial, fəlsəfi, iqtisadi və s. münasibətlər üzərində qurulan insanlığın, cəmiyyətin dayaq nöqtəsi kimi məhz mənəvi dəyərlər sistemi olduğunu xüsusilə vurğulayır.

Ədəbiyyat

1. Bir kitablıq söz / Tərtib edən: Ceyhun Mustafayev. – Bakı: Təhsil, -2017, -304 s.
2. Çəmənli M. Ruhların üsyanı /M.Çəmənli. – Bakı: Adiloğlu, -2007, -320 s.
3. Məmmədov A. Təbii lövhələr //Azərbaycan gəncləri. – 5 aprel 1983-cü il. –s.5

РЕЗЮМЕ

ВОПЛОЩЕНИЕ НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ В ТВОРЧЕСТВЕ МУСТАФЫ ЧЕМЕНЛИ (по рассказам "Коридор" И "Желание")

Бабаева А. Н.

Сумгаитский государственный университет

В своих рассказах писатель ценит такие положительные качества, как верность, честный подход, сострадание как качество, уравновешивающее нравственность. Он раскрывает глубину проблем, художественно артикулируя невысказанную, но хорошо известную горькую реальность.

Описывая моральные проблемы, он может провести множество социальных, общественных, психологических анализов и представить их как точку опоры общества и человечества. Рассказы автора показывают, что он всей душой находится в поисках идеалистической жизни. Автор, прошедший советскую власть, войну и переходный период, создает литературу, способствующую подъему национального и духовного мира, используя свои темы и героев с национальными и нравственными ценностями, оставаясь во все времена верным своему делу.

Ключевые слова: *Мустафа Чеменли, рассказ, нравственные ценности, социальные проблемы, общество*

SUMMARY

THE EMBODIMENT OF MORAL VALUES IN THE WORK OF MUSTAFA CHAMANLI (ACCORDING TO THE STORIES "CORRIDOR" AND "DESIRE")

Babayeva A. N.

Sumqayit State University

In his stories, the writer appreciates such positive qualities as loyalty, honest approach, compassion as a quality that balances morality. He reveals the depth of the problems, artistically articulating the unspoken, but well-known bitter reality. Describing moral problems, he can conduct many social, social, psychological analyzes and present them as the fulcrum of society and humanity. The author's stories show that he is in search of an idealistic life with all his heart. The author, who went through the Soviet regime, the war and the transitional period, creates literature that contributes to the rise of the national and spiritual world, using his themes and heroes with national and moral values, remaining true to his work at all times.

Keywords: *Mustafa Chamanli, story, moral values, social problems, society.*

TEODOR DRAYZER ROMANLARINDA MƏNƏVİ-ƏXLAQİ MƏSƏLƏLƏR (“KERRİ BACI” VƏ “CENNİ HERHARDT” ROMANLARI ƏSASINDA)

Səfərova Ülviyyə Səfər qızı

Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci,

Sumqayıt, Azərbaycan

elnur_seferov@inbox.ru

Açar sözlər*:Drayzer, roman, qadın mövzusu, ABŞ ədəbiyyatı, XX əsr*

Naturalizm cərəyanının ən parlaq simalarından olan Teodor Drayzer ABŞ ədəbiyyatı tarixinə misilsiz töhfə hesab oluna biləcək “Kerri bacı”, “Cenni Herhardt”, “Maliyyəçi”, “Arzular trilogiyası”, “Titan”, “Dahi”, “Amerika faciəsi”, “Dayaq” kimi dünyaca məşhur romanların müəllifidir. Dahi yazıçının bu əsərləri müəyyən maneələr, tənqidlərlə qarşılansa da öz həqiqi dəyərini almağı illər sonra bacardı. İlk iri həcmli əsəri “Kerri bacı” romanı İngiltərədə çap olunduqdan sonra Drayzerə nəinki şöhrət qazandırmadı, əksinə onu tənqidçilərin tənqid hədəfinə çevirdi. Əsəri “Amerika romançılığına kölgə salan”, “gənc oxucuları əxlaqsızlığa səsləyən” əsər kimi qiymətləndirdilər. Bu əsassız tənqidlər yazıçını gələcəkdə fəth edəcəyi ədəbiyyat zirvəsindən 10 il uzaqlaşdırdı. Lakin yeddi ildən sonra ikinci dəfə İngiltərədə təkrar nəşr olunan bu əsər böyük oxucu kütləsinin rəğbətini qazana bildi, tənqidçilərin müsbət rəyindən sonra müxtəlif Avropa dillərinə tərcümə olunaraq böyük tirajla çap olundu. Əsərin ədəbiyyat aləmində yaratdığı xoş təəssüratdan sonra Amerikada da nəşr olunmasına qərar verildi. Biri-birinin ardınca çap olunan kitablar yazıçıya dünya şöhrətli bir yazıçı kimi tanınmağa şərait yaratdı.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Amerikan ədəbiyyatında cəmiyyətdə qadın və kişi hüquqlarının bərabərliyi mövzusu aktuallıq kəsb edirdi. Bir sıra əsərlərdə, dövrü mətbuatda “yeni qadın” obrazı peyda olur, bu qadın obrazı özünəqədərki həmcinslərindən özünün cəsarəti, cəmiyyətdə öz hüquq və bərabərliklərinin qorunması uğrunda apardığı mübarizə ilə seçilirdi. Eyni məzmuna və obrazların təsvirinə Teodor Drayzerin “Kerri bacı” və “Cenni Herhardt” əsərlərində də rast gəlmək mümkündür. Doğrudur, eyni adlı romanın qəhrəmanları olan bu iki obraz biri-birindən kəskin fərqlənir, lakin bu iki qadın obrazını yaxınlaşdıran bəzi məqamlar da mövcuddur. Bu məqamlar nədən ibarət idi? Bu zamana qədər mövcud cəmiyyətdə qadının rolunu, onun hüquqlarını minimuma endirən, Amerikan cəmiyyəti üçün ehkam hesab olunan bəzi məsələlər hələ də həll olunmamış qalırdı. Qadının öz həyatı ilə bağlı şəxsi istəkləri, şəxsi

seçimləri cəmiyyət tərəfindən bir qədər çətin qəbul edilirdi. Lakin müəllif hər iki romanda bu çərçivəni qırmış, hər iki obraza müəyyən qədər "azadlıq" verməyə müvəffəq olmuşdur. Müəllif bu əsərləri yazarkən kişi və qadınların cəmiyyətdəki gender rollarını dəqiq təsvir etməyi qarşısına məqsəd qoymuşdur. Yazıçının qadına, onun cəmiyyətdəki rolu və vəziyyətinə həsr olunmuş məşhur "Cenni Herhardt" (1911) romanı da bu istiqamətdədir.Əsərin qadın qəhrəmanı gənc Cenni gələcək planları ilə bağlı ailəsini xəbərdar edərkən sərt xarakterli Herhardt dini mövqedən çıxış edərək onun bu niyyətini pisləyir, olacaqlarla barışa bilmir. Lakin, ölüm yatağında olarkən qızını "yaxşı qadın" adlandırmaqla həqiqi insan əxlaqının riyakar dini əxlaqla nə qədər böyük ziddiyyət təşkil etdiyini dərk edir, Cennidən olanlara görə üzr diləyir: "Mən indi çox şeyi başa düşürəm. İnsan gərək ömrü boyu öyrənsin. Sən mənə mehriban idin. Sən yaxşı qadınsan". [1,287]Əsərdə müəllif Cenni obrazını təmənnası olmayan bir qadın obrazı kimi təsvir etmişdir. O həm övlad kimi, həm ana kimi, həm də qadın kimi mükəmməldir. Ailəsinin çətin zamanlarında özünü fəda etməkdən belə çəkinmir. Sevdiyi insanı cəmiyyətin sərt mühakiməsi qarşısında aciz qoymamaq üçün öz xoşbəxtliyini susqunluqla qurban verməyə razı olur. Romanda xoşbəxtliyə layiq olan qadın üçün ən böyük maneələrdən biri də sinfi bərabərsizlik idi. Sinfi bərabərsizliyin doğurduğu acı fəsadları biz Cenni və Lester münasibətlərində daha sıx müşahidə edirik. Drayzer pulun insan cəmiyyətində yaratdığı böyük uçurumları, insan münasibətlərindəki maneələri kəskin tənqid etmişdir. Atasından qalma mirasa sahiblənmək üçün Cennidən imtina etmək məcburiyyətində qalan Lester Letti ilə evləndikdən sonra da xoşbəxt olmur. Əldə etdiyi miras ona mənəvi zövq verə bilmir, əksinə onu həyatdan bir az da soyudur. Bu məqamda müəllif Lesteri miskin, xudpəsənd bir obraz kimi təqdim etməklə onun timsalında maddi nemətləri insanlığa, sevgiyə, hörmətə, bağlılığa qurban verən ictimai sistemə etiraz etməyə çalışırdı. Müəllif göstərməyə çalışırdı ki, bu sistemin tələbləri ilə həyatını quran heç bir cütlük xoşbəxtlik tapa bilməz. Lester tərəfindən tərk edilən və bununla barışan Cenni onu ölüm yatağında da tərk etmir, mənəvi dəstək üçün yanında yer alır. Romanın sonunda Lester heyatında necə böyük bir səhv etdiyini anlasa da, artıq gec idi, heç bir şeyi düzəltmək mümkün deyildi. Teodor Drayzeri tənqidçilərin hədəfinə çevirən məqamlardan biri də məhz onun "çəhrayı Amerika romançılığı"na vurduğu bu zərbə idi. Drayzerə qədərki ədəbiyyatı baş obrazları olan qadınlar xoşbəxtliyə apara yolda ləyaqətlə, günahsız irəliləyirdilər. Əsər müəllifləri təsvir etdikləri yolu maneəsiz, təmiz və şərəfli təqdim etməyə çalışır, bununla da reallıqdan təmamilə uzaqlaşırdılar. Drayzerin qadın qəhrəmanları, onların yürüdüyü həyat yolu isə bu dövrün hadisələrini bütün reallığı ilə təqdim edərək özünəqədərki ədəbiyyatın romantik düşüncə tərzinə ağır zərbə endirməyi bacarmışdı. Bu baxımdan müəllifin "Kerri bacı" əsəri daha diqqətəlayiqdir. Romanda hadisələr Amerikanın iki ən böyük şəhərləri olan Çikaqoda və Nyu-Yorkda baş verir. Hər iki şəhər öz dövrü üçün nə qədər inkişaf etmiş olsa da, buranın sakinləri gündəlik həyat qayğıları ilə yüklü olduqlarından insanlara, onların talelərinə laqeyddirlər. Bunu Kerri bacının ilk dəfə Çikaqoya ayaq basarkən iş aradığı hissələrdə müşahidə etmək mümkündür. Kənardan işıqlı və parıltılı görünən bu şəhərin həyatı adi insanlar üçün olduqca ağırdır. Xüsusilə qadınların dözülməz iş şəraiti, onun müqabilində aldıqları cüzi maaş, ağır işin onların səhhətində buraxdığı izlər və bunun iş təqdim edənlər tərəfindən soyuqqanlıqla qarşılanması müəllif tərəfindən təssüf hissi ilə təsvir olunmuşdur. Əsərin baş qəhrəmanı olan qadın – Karolina Miber on səkkiz yaşlı gənc qızdır. O, iş tapmaq ümidi ilə Çikaqoya bacısının yanına yola düşəndə qarşıda onu gözləyən çətinliklərdən bixəbər idi. Böyük şəhərdə heç bir dəstəyi olmadan gənc bir qadının yaşaması, işləməsi, yeni həyata başlaması çox çətin, hətta mümkünsüz idi. Eyni çətinliklər Kerrinin də qarşısına çıxır, xəyalpərəst gənc qadın üçün yeni məskunlaşdığı yerdə yaşamaq, işləmək böyük bir problemə çevrilir. Ağır fiziki işə alışmamış gənc Karolina bu problemin həllini Drue adlı komivoyajerin sevgilisi olmaqda tapır. Müəllif bu münasibətlərin ilkin mərhələsindən Drueni ciddi niyyətli bir insan kimi təqdim etmir. Drayzer Drue obrazının timsalında XIX əsrin sonları üçün xarakterik olan kişi obrazını yaratmağa çalışmışdır. Bu tip kişilər karyera qurmağa müvəffəq olur, qadınların rəğbətini qazanır, gəncliyindən və maddi imkanlarından, müasir dəbli geyim tərzindən, cəmiyyətdə qurduğu yüksək əlaqələrdən zövq almağa üstünlük verir, məsuliyyət tələb edən münasibətlərdən uzaq gəzməyə çalışırdılar. [3,119] Əsərin əvvəlindən sonuna qədər oxucu Drue obrazını bu günü ilə yaşayan, gələcək üçün ciddi planlar qurmaqdan çəkinən bir obraz kimi tanıyır. Druedən fərqli olaraq romanın digər kişi qəhrəmanı Herstvud Kerriyə olan düşkünlüyündən özünü, ailəsini, cəmiyyətdəki mövqeyini qurban verən aciz xarakterli bir obraz kimi təsvir olunmuşdur. Kerriyə olan sevgisi, ona qarşı olan hissləri Herstvuda xoşbəxtlik gətirmir. Çünki, Kerri xarakterli qadınlar onlar üçün verilən qurbanları dərk etməyə qadir deyillər. Yüksək cəmiyyətin gözqamaşdırıcı parıltısı, oraya doğru addımlamaq iddiası onlarda yüksək insani keyfiyyətlərdən bir addım öndə dayanır. Bu səbəbdəndir ki, əsərin sonunda özünə, şəxsiyyətinə olan hörmətini itirən Herstvud bütün yaşadıqlarına, səhvlərinə, iztirablarına son qoymaq üçün intihara əl atır. Əsərin qadın obrazı bir şəxsin faciəsinin birbaşa olmasa da, dolayı yolla səbəbkarına çevrilir. Drayzer Kerri obrazını səhvlərindən nəticə çıxaran bir obraz kimi təqdim etməyə çalışmır. Sadəcə oxucu qarşısında bir sual qoyur. Bütün bu qurbanları verməyə dəyərdimi, yaşananlar və qazandıqları Kerriyə xoşbəxtlik gətirdimi? Bir zamanlar əyalətdən gələn adi bir qadın üçün əlçatmaz və göz qamaşdıran nə var idisə, Kerri hamısını əldə etməyi bacarmışdı. Qazandığı pulları hara xərcləməyi bilməyən,

həyata, əks cinsə inamını itirən Kerriyə qazandıqları mənəvi zövq, ruhi rahatlıq, bir sözlə xoşbəxtlik gətirə bilmir.

Əsərin finalı oxucunu "Amerikan arzusu" haqqında dərindən düşünməyə vadar edir.

Ədəbiyyat

1. Drayzer.T.Cenni Herhardt / T.Drayzer. – Bakı: Şərq-Qərb, –2006, –360 s.
2. Drayzer.T.Kerri bacı / T.Drayzer. –Bakı: Avrasiya Press, – 2006, –472 s.
3. Кожевникова.Н.Е. Социальные знаки в художественном пространстве романа «Сестра Керри»/ Н.Е. Кожевникова. –Вестник ЯГУ, –2002, –том 3, №3, –с.117-126

РЕЗЮМЕ

ДУХОВНО-НРАВСТВЕННЫЕ ПРОБЛЕМЫ В РОМАНАХ ТЕОДОРА ДРЕЙЗЕРА (ПО РОМАНАМ "СЕСТРА КЕРРИ" И "ДЖЕННИ ХЕРХАРДТ")

Сафарова У.С.

Сумгаитский государственный технический колледж
при Сумгаитском государственном университете

Теодор Драйзер, видный деятель Американской литературы конца девятнадцатого и начала двадцатого века, является автором нескольких замечательных по тематике и содержанию романов такие как «Сестра Керри», «Дженни Герхардт», «Гений». Теодор Драйзер которого критиковали за произведения на ранних этапах своего творчество, позже стал известен как писатель с мировым именем. Персонажи автора, такие как Сестра Керри, Дженни Герхард, привлекают внимание своим свободомыслием, свободными решениями и противостоянием существующим аспектом общества. По этой причине романы автора до сих пор востребованы широким кругом читателей.

Ключевые слова:*Драйзер, роман, женская тематика, Американская тематика, XX век*

SUMMARY

SPIRITUAL AND MORAL ISSUES IN THEODOR DRAYZER'S NOVELS (BASED ON THE NOVELS "SISTER KERRY" AND "JENNY HERHARDT")

Safarova U.S.

Sumgait State Technical College at Sumgait State University

An outstanding representative of American literature Theodore Dreiser was a literary figure in the late 19th and early 20th centuries. He is the author of several novels, such as " Sister Carrie", "Jennie Gerhardt", "The Financier", "The Genius" that are noteworthy in terms of subject and content. Theodore, who was criticized for his early writings, later became a world-famous writer. The female protagonists of his novels, Carrie and Jennie attract attention with their free thinking? Free decissions and opposition to the existing rules of society. Both female characters stood out from the female protogonists of previous literary works. In this regard, the authors novels are still read and loved by a wide range of readers.

Keywords: *Drayzer, novel, womens issue,American literature, XX century*

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ ŞƏXSİYYƏTİN FORMALAŞMASININ AKTUAL PROBLEMLƏRİ

Əliyeva Şəfiqə Mədət qızı

Sumqayıt Dövlət Universitetinin
Tarix fənninin tədrisi metodologiyası və metodikası ixtisası
üzrə I kurs magistrantı
sefiqehuseynova@hotmail.com

Açar sözlər: *Qloballaşma, şəxsiyyət, şüur, formalaşma, mühit*

Qloballaşma şəraitində şəxsiyyətin formalaşma prosesi daxili və xarici amillərin təsiri altında baş verir. Qloballaşmanın bir çox müsbət keyfiyyətləri ilə yanaşı, həm də bir çox bu keyfiyyətlərdən irəli gələn mənfi xüsusiyyətləri də mövcuddur. Ümumiyyətlə, elmin, texnikanın inkişafı, cəmiyyətdə sürətlə baş verən komputerləşmə , texnikanın əməyindən daha çox istifadə edilməsi, axtarılan hər bir şeyin tez bir zamanda çox da əmək sərf edilmədən əldə olunması kimi məsələlər insanların daha da passivləşməsinə, aktiv həyat

tərzindən uzaqlaşmalarına və həmçinin onlarda müxtəlif psixoloji problemlərin yaranmasına gətirib çıxarır. Bu cür psixoloji problemlər sırasında müasir dövr üçün daha səciyyəvi olanlardan biri kimi asılı davranış probleminin adını çəkməmək mümkün deyil. Asılı davranış şəxsiyyətin tələblərinin kimlər və ya nələrsə tərəfindən pozulması ilə bağlıdır. Sosial ədəbiyyatda araşdırılmış məsələyə daha bir ad –addiktiv davranış adı da verilir. İngilis dilindən tərcümədə "addiction"- meyl, təhlükəli vərdiş mənasını ifadə edir.Asılı davranışın bir sıra formaları qeyd edilir: kimyəvi asılılıq (siqaret çəkmə, toksikomaniya, narkoasılılıq, dərman asılılığı, alkoqol asılılığı); qida davranışının pozulması (həddindən artıq qidalanma, ac qalma, qidadan imtina);(komputer asılılığı, qumar oyunları); dini desdruktiv davranış (dini fanatizm, sektaya (təriqətə) daxil olma).

Beləliklə, asılılıq birbaşa insanın psixologiyasına mənfi təsir göstərir, insanın digərləri ilə münasibət qurmasında soyuqluq yaranması ilə üzə çıxır. Başqa sözlə, biz qloballaşmanın ölkələr arasında yaxınlaşma olduğunu qeyd edərkən insanlar arasında soyuq münasibətlərə gətirib çıxarmasını da vurğulamalıyıq. Qloballaşma dövründə bu cür asılılıq özünü daha çox komputer oyunlarına hərislikdə göstərir ki, bu da əsasən yeniyetmələr arasında geniş yayılıb. Bu cür asılılıq yeniyetmələrdə psixoloji pozğunluqlara, depressiyalara, hətta intihara belə gətirib çıxara bilər. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, sürətli komputerləşmə və sosial şəbəkələrin bütün dünyanı öz əhatəsinə alması və bunun nəticəsi olaraq da dünyanın bir ucunda baş verən hadisənin digər ucuna tez bir zamanda çatdırılması insanların həyat şəraitini yüngülləşdirməklə yanaşı, eyni zamanda öz mənfi nəticələri ilə də ağırlaşdırır.Bir tərəfdən internet istifadəsi bizim vaxtımıza qənaət edib işimizi asanlaşdırır,digər tərəfdən bir sıra fəsadlar ortaya çıxarır. Müxtəlif ölkələrdə baş verən iğtişaşlar, hökumət əleyhinə çıxışlar, gənc qızların aldadılaraq zorakılığa məruz qalması və ya oğurlanması (qadın alveri), müxtəlif terror təşkilatlarına gənclərin cəlb edilməsi və s. kimi adlarını çəkmədiyimiz bir çox məsələlər vardır ki, bunlar məhz sosial şəbəkələrin bizə verdiyi "bəxşişlərdir". Həmçinin yetkinlik yaşına çatmamış şəxslərin (uşaqların) sosial şəbəkələrdən istifadəsi belə çox sarsıdıcı bir haldır. Bu ilk növbədə onun sağlam düşüncə ilə inkişafına mane olur, cəmiyyət üçün yararlı bir gənc kimi formalaşmasına öz mənfi təsirini göstərir, uşağın psixologiyasını pozur. Bu isə əksər hallarda uğursuzluqla nəticələnir, həmin şəxslərin zədə almasına və hətta ölümünə belə gətirib çıxarır.

Son dövrlərdə cinayət hallarının artmasına da sosial şəbəkələr və televiziya verilişlərinin təsiri böyük olmuşdur. Belə ki, ictimaiyyətə təqdim edilən bəzi xarici filmlərdə cinayət hadisələrinin törədilməsi, insan qətli, terror, oğurluq, soyğunçuluq və s. bu kimi mənfi hərəkətlər sağlam düşünmə qabiliyyəti olmayan insanlarda həmin hərəkətləri təkrarlamaq istəyi yaradır. Sanki bu addımı atmaqla onlar bir film qəhrəmanına çevrilirlər. Həmçinin bu cür filmlər açıq-aşkar olaraq cinayət törətməyin yollarını bunu bilməyənlərə də aşılayırlar.

Tədqiqatçılar qeyd edirlər ki, şüurun manipulyasiyası insanın yalnız sosial davranışına deyil, onun sağlamlığına da çox ciddi təsir göstərir. Məsələn, televiziya ekranlarından davamlı olaraq neqativ məzmunlu informasiyanı (zorakılıq, qəddarlıq, dağıdıcılıq və s.) qəbul etmək insanların psixikasını deformasiyaya uğradır, onları aqressivləşdirir. Eyni zamanda, müntəzəm neqativ psixoloji təsir insan orqanizminin müqavimətini zəiflədir və immun sisteminə zərər vurur.

Qloballaşma şəraitində insanların formalaşmasında üzə çıxan problemlərdən biri də texnika və texnologiyanın inkişafı nəticəsində insan əməyinə marağın azalması və işsizliyin artması ilə əlaqədar olaraq insanların müxtəlif qanunsuz işlərlə məşğul olmağa başlamalarıdır. Belə ki, müxtəlif müəssisələrdə yalnız ixtisaslı kadrlara ehtiyac duyulduğu həmin sahədə ixtisaslaşmamış şəxslər bu tipli müəssisələrdən kənarda qalırlar. Bu da həmin şəxslərin narkotik maddələrin, bir çox qaçaqmal məhsullarının satışı, qadın alveri, terror və oğurluqla məşğul olmalarına aparıb çıxarır. Nəticədə şəxsiyyətin formalaşması prosesi mənfi istiqamətdə gedir.

Texnika və texnologiyanın inkişafı, şəhərlərdə sənaye müəssisələrinin qurulması insanların bu sahələrə maraq göstərməsinə səbəb olur ki, bu da ilk növbədə urbanizasiyanın səviyyəsinin və meqapolislərin sayının artmasına gətirib çıxarır.Bunun da mənfi təsiri kənd təsərrüfatı və kənd təsərrüfatı məhsullarından yan keçmir. Kənd təsərrüfatının inkişafının geriləməsi, əhalinin qidasının əsasını təşkil edən kənd təsərrüfatı məhsullarının istehsalının azalması isə əhalinin sayının durmadan artdığı bir dövrdə aclığa aparır. Həmçinin şəhərlərdə məskunlaşma, yəni urbanizasiya artdıqca şəhərlərin ekoloji problemləri də artır, tənəffüs yollarında müxtəlif xəstəliklərin əmələ gəlməsinə səbəb olur. Hətta yenicə anadan olan körpədə belə bu cür xəstəliklərin aşkar edilməsi acınacaqlı bir haldır.Urbanizasiyanın digər mənfi cəhətlərindən biri də əhali sayının çoxalması ilə əlaqədar olaraq yaranan sıxlıq və maşınların sayının durmadan artmasıdır ki, bu da bəzi insanlarda əsəb pozğunluqlarına gətirib çıxara bilər. Həmçinin insan ölümü və xəsarət almaları ilə nəticələnən yol nəqliyyat hadisələri də getdikcə artır

Qloballaşma dövründə insanın formalaşmasındakı mənfi cəhətlərdən biri də öz dilini mükəmməl öyrənməməsidir. Belə ki, müasir dövrümüzdə beynəlxalq dillərə, xüsusilə ingilis dilinə marağın və tələbatın artması insanların öz dilinə olan marağını azaltmış və ana dili arxa plana keçirilmişdir. Əlbəttə ki, dövlətin rəsmi dilinə - "ana dili"nə bu cür münasibət düzgün deyil. Çünki dövlətin varlığında başlıca şərtlərdən biri də onun rəsmi dilidir ki, bu dildə dövlət rəsmi yazışmalarını həyata keçirir və bu halda rəsmi dilə ögey münasibət dövlətin varlığına hədə kimi qiymətləndirilməlidir. Ancaq qloballaşma dövründə beynəlxalq dili də bilmək lazımdır ki, dünya ölkələri ilə münasibət yaradarkən çətinliklər meydana gəlməsin.Ümumiyyətlə, qloballaşma şəraitində şəxsiyyətin formalaşmasında üzə çıxan problemlərin, demək olar ki, hamısı bir-biri ilə qarşılıqlı bağlıdır, yəni bir problemdən digəri meydana gələ bilər.

Ədəbiyyat

1. A. Abbasbəyli, Müasir beynəlxalq münasibətlər və qloballaşma, Bakı-2007,s.165
2. Ə.S.BAYRAMOV, Ə.Ə.ƏLİZADƏ Ali məktəblər üçün dərslik- «ÇİNAR-ÇAP» BAKI – 2002,s.287
3. Gənc tədqiqatçıların respublika elmi-praktik konfransının materialları (26 aprel 2013-cü il), Qloballaşma şəraitində sosial problemlərin həlli yolları, Bakı-2013,
4. İ.Bayramov, Qloballaşma şəraitində psixoloji identiklik problemi, Bakı-2008, s. 339
5. Yusifova R.N. Müasir psixologiyada özünüaktuallaşdırma problemi və onun psixososial əsasları // Psixologiya jurnalı, 2010, №1, s.41-52
6. http://anl.az/down/meqale/kitabxanashunasliq-biblioqrafiya/1_2003/sfp.pdf
7. http://psixologiya.net/?p=540

РЕЗЮМЕ

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ ЛИЧНОСТИВ УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

Алиева Ш. М.

Сумгаитский государственный университет

Формирование человека в целом в условиях глобализации является одним из приоритетных вопросов, волнующих страны, народы и некоторые международные организации, в этом формировании, наряду с семьей и друзьями, остается влияние интернета и социальных сетей. С этой точки зрения, в формировании личности, наряду с ее масштабами, человек должен нести определенную ответственность перед собой. Только в этом случае будут решены проблемы формирования личности, и человек сформируется как совершенная личность с положительным качеством, полезная для общества**.**

Ключевые слова : *глобализация, личность,сознание, формирование, окружающая среда*

SUMMARY

ACTUAL PROBLEMS OF PERSONALITY FORMATION IN THE CONTEXT OF GLOBALIZATION

Aliyeva Sh. M.

Sumqayit State University

The formation of people as a whole in the context of globalization is one of the priority issues of concern to the countries, peoples and some international organizations of the world. From this point of view, in the formation of the personality, along with its scope, the person must have a certain responsibility on himself. Only in this case, the problems of personality formation will be solved, and the person will be formed as a perfect personality with a positive quality, useful to society.

Keywords: *Globalization, personality, consciousness, formation,environment*

SİSTEM TƏNZİMLƏMƏ YANAŞMASI İLƏ QLOBALLAŞMA ŞƏRAİTİNDƏ ŞƏXSİYYƏTİN FORMALAŞMASININ AKTUAL PROBLEMLƏRİ

Əkbərova Sevil Şirin qızı
Sumqayıt Dövlət Universiteti
Pedaqogika və psixologiya kafedrasının magistrantı
sevil.akpar@gmail.com

Açar sözlər: *şəxsiyyət, problem, psixologiya, sistem, tənzimləmə.*

Qloballaşma ümumi qaydalar əsasında hamı üçün vahid həll yolu ilə fəaliyyət göstərən dünya fəzasının formalaşma prosesidir. Mədəniyyətin qlobal ölçüdə mövcudluğunun əsas şərtidi hər kəsin öz mədəniyyət üstünlüklərini sərbəst seçmək hüququdur. Qloballaşma şəraitində insan cəmiyyətin əsas sosial mənasına çevrildiyi üçün, müasir insanın qlobal dünyada tutduğu mövqeyə diqqət yetirmək yüksək əhəmiyyət daşıyır. Müasir insan həm yaradıcı, həm də dağıdıcı məqsədlər üçün istifadə edilə bilən əhəmiyyətli "maddi gücə" malikdir. İnsanın varlığı onun bu qüvvədən necə istifadə etməsindən, yer üzündə həyata münasibətindən, onun dünyada hansı rola malik olmasından və öz əməllərinə görə sonrakı nəsillər, bütöv insanlıq qarşısında məsuliyyətini nə dərəcədə dərk etməsindən asılıdır. Cəmiyyətlər və dövlətlər gizli və ya açıq şəkildə bütün insanların və ya cəmiyyətin müəyyən hissəsinin həyat keyfiyyətinin yüksəldilməsi səbəbini qarşıya məqsəd qoyduğu üçün, hər dövrdə insan bütün çevrilmələrin, iqtisadi, sosial, siyasi, mənəvi, mədəni tarixi hadisələrin mərkəzində dayanıb. İnsan növünün təkamülünün bu mərhələsindəki əsl problemi ondan ibarətdir ki, o, bu dünyaya gətirdiyi dəyişikliklərə mədəni olaraq ayaqlaşa və tam uyğunlaşa bilməmişdir.

Hazırki cəmiyyətin aktual problemləri - qiymətlərin artması; işsizlik, əhalinin əksəriyyətinin yoxsullaşması; korrupsiya, rüşvətxorluq; tibbi xidmətin bir çox növlərinin əlçatmazlığ; zənginlər və kasıblar arasında kəskin təbəqələşmə, gəlirlərin ədalətsiz bölgüsü; iqtisadi böhran, sənaye və kənd təsərrüfatında istehsalın azalması; ətraf mühitin pisləşməsi; əmək haqqının, pensiyanın, müavinətlərin və s. ödənişlərinin gecikdirilməsi; artan ödənişlər və təhsilin əlçatmazlığı; artan narkomaniya; əxlaq və mədəniyyət böhranı; miqrantların axını; dövlət hakimiyyətinin zəifliyi; məhkəmədə həqiqəti əldə edə bilməmək; cinayətlərin sayının artması, polis əməkdaşlarının kobudluğu və qəddarlığı; vətəndaş hüquqlarının, demokratik azadlıqların məhdudlaşdırılması (söz, mətbuat azadlığı); millətçiliyin artması, millətlərarası münasibətlərin korlanması; müxtəlif səviyyələrdə hakimiyyətin müxtəlif qolları arasında münaqişələri və s. Qlobal problemlər qarşısında, insanın mövcudluğunu və fərdiyyətini qoruması üçün, atdığı addımlar epigenetikanın tarixinə yazılaraq nəsillərarası ötürülür və növbəti nəsillər eyni problem ilə qarşılaşmadıqları təqdirdə eyni hissləri keçirərək müəyyən çətinliklər ilə qarşılaşırlar. Şəxs və ya ailə üçün səbəbin qaynağı məlum olmayan çətinliklər nəticəsində valideynlər və uşaqlar arasında münasibət problemləri; həyat yoldaşları arasında münasibət problemləri; qadın və kişi münasibət problemləri; qorxu, panikatak; müxtəlif növ asılılıqlar; təklik və təcrid; psixosomatik simptomlar; sosial uyğunlaşma pozuntuları; peşəkar inkişaf problemləri; böhran vəziyyətləri kimi problemlər yaşana bilər.

Ailədə keçmişin yarımçıq qalmış prosesləri şüursuz olaraq canlı üzvləri uzun müddət əvvəl baş verənlərə cəlb edir. Nəsillər bu qanunlara tabe olaraq əcdadları üçün yarımçıq qalanları tamamlamağa çağırılır: kədərlənmək, yarımçıq qalanı bitirmək, kimsə üçün nəsə yaşamaq və beləliklə, insan əcdadlarının taleyi ilə iç-içə olan şüuraltı tələyə düşür. Yaşanılan vəziyyətin real həyat nöqteyi-nəzərindən izahı yoxdursa, məsələn qorxu var, amma səbəb yoxdur; qısqanclıq var, amma xəyanət yoxdur; aydın səbəbi olmayan kədər varsa buna ailə hörülməsi deyilir. Hər bir belə təsadüfün arxasında sistemdən irəli gələn ciddi bir səbəb dayanır. Praktik psixologiyada buna "Hellinger tənzimləməsi", "ailə tənzimləməsi", "sistem ailə tənzimləmələri" də deyilir. Sistem tənzimləmə metodu keçən əsrin 80-ci illərində elmə daxil olmuşdur və geniş yayılmışdır. Psixoterapiyada köməkçi vasitə kimi işlədilən bu sistem yanaşma alman alimi Bert Hellinger tərəfindən yaradılmışdır. Bu üsulda ailə problemləri hansısa sistemin elementləri və onların qarşılıqlı əlaqəsi kimi təsvir edilir.

Ailə hörülməsinin yaranma səbəbləri müxtəlifdir, tənzimləmə prosesində üzə çıxırlar. Alış-veriş balansı, iyerarxiya, sistemə aid olma qanunlarının bərpası hörülmədən azad edə bilər. Əgər balans pozulduğu yerdə bərpa olunmazsa, "borc" nəsildən-nəslə ötürülür və müxtəlif ailə hörülməsinə səbəb olur. İnsan şüursuz olaraq bir əcdad üçün xilaskar rolunu qəbul etdikdə, onun öz həyatı, hörülmə nəticəsində arxa plana keçir və diqqəti, hissləri keçmişdə olduğu üçün işdə, ailə həyatında, övlad yetişdirməkdə uğursuz olur. Uşaq-valideyn münasibətlərində iyerarxiyanın pozulması uşağın emosional və funksional yüklənməsinə səbəb

olur. Çox vaxt belə uşaqlar ailə həyatı qurmurlar yaxud yaratdıqları ailə həyatında xoşbəxt olmurlar. İyerarxiyanın pozulmasının səbəbi dərin sistemli köklərdir. Əgər ailənin abort etdirdiyi uşaqları, düşükləri, erkən vəfat edən uşaqları varsa, yaşayan uşaqlar çox vaxt şüuraltı olaraq həmçinin onlar üçün də yaşayırlar. Sistemin hər bir üzvünün kimliyindən və əməllərindən asılı olmayaraq ailə sisteminə mənsub olmaq hüququ var və yeri dəqiq müəyyən edilib. Əgər ailədə kimsə unudulursa və beləliklə sistemə mənsub olmaq hüququndan məhrum edilirsə, onun yerinə ailə sistemindən başqa birisi keçəcək, onun kimi yaşayacaq və həmin şəxsin xaric edildiyini xatırladacaq. Yaşayanlardan biri mərhumla, ya da çətin taleyi olan insanla iç-içə olacaq, özünün çətin bir taleyi olacaq və ya başqası üçün yaşayacaq (abort): başqası üçün yemək yeyəcək (artıq çəki), işləyəcək (işgüzarlıq, hiperaktivlik), özünü, hərəkətlərini, istəklərini (qeyri-adekvat davranış) çətinliklə qavrayacaq. Ailə hörülmə probleminin həlli yoldan çıxarılan üzvlərin ailəyə mənsubiyyət hüququnu bərpa etməkdir. Bert Hellingerin sistem tənzimləmə metodu vasitəsi ilə psixoterapiya prosesində kök səbəbləri aşkar etmək və aradan qaldırmaq mümkündür.

Ədəbiyyat

1. Берт хеллингер. И в середине тебе станет легко // Москва 2006.
2. Гунтхард Вебер. Практика семейной расстановки Системные решения по Берту Хеллингеру. // М. 2004.
3. Веселаго Е. В. Системные расстановки по Берту Хеллингеру: история, философия, технология. // Психотерапия 2011.

РЕЗЮМЕ

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ ЛИЧНОСТИ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ С СИСТЕМНО-РЕГУЛЯЦИОННЫМ ПОДХОДОМ

Акбарова С. Ш.
Сумгаитский государственный университет

В статье рассматривается теории системной семейной расстановки Берта Хеллингера, которая показывает, что причины современных проблем формирования личности в условиях глобализации можно соотнести к межпоколеннческой травме. В статье отражены актуальные проблемы в жизни людей которые могут возникнуть в результате переплетения и пути их решения.

Ключевые слова: *личность, проблема, психология, система, расстановки.*

SUMMARY

CURRENT PROBLEMS OF PERSONALITY FORMATION IN THE CONTEXT OF GLOBALIZATION WITH SYSTEM REGULATION APPROACH

Akbarova S. Sh.
Sumqayit State University

The article discusses the theory of systemic family constellation by Bert Hellinger, which shows that the causes of modern problems of personality formation in the context of globalization can be attributed to intergenerational trauma. The article reflects the actual problems in people's lives that may arise as a result of interweaving and ways to solve them.

Keywords: *personality, problem, psychology, system, constellations.*

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ YENİYETMƏ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA İDRAK TƏLƏBATLARININ İNKİŞAF SƏVİYYƏSİ

Cəbrayılova Rəna Nüsrəddin qızı
ADPU, Pedaqoji psixologiya kafedrası, baş müəllim
r.jabrailova@rambler.ru

Açar sözlər: *idrak tələbatları, əqli fəaliyyət, maraqlar, təlim fəaliyyəti, motivasiya*

Tələbat həyatın müəyyən şəraitində və fəaliyyətdə insanın ehtiyac vəziyyətidir. Tələbat insanın istənilən vəziyyəti kimi məmnunluq və ya qeyri-məmnunluqla bağlıdır. Odur ki, bütün canlılarda tələbat var, bununla da canlının təbiəti cansızdan əsaslı surətdə fərqlənir.

İnsanın tələbatları dəyişkəndir. Bəzi tələbatlar mürəkkəbləşir, bəziləri isə yeni tələbatların yaranmasına zəmin yaradır. Tələbatların dəyişməsinə bir tərəfdən ətrafdakı cisimlər, onlardan məmnunluq hissi, digər tərəfdən isə məmnunluq üsullarının dəyişməsidir. Ensiklopedik lüğətdə idrak tələbatlarının növbəti təsnifatı verilmişdir: "Tələbat daxili vəziyyət olub şəxsiyyətin fəallığının konkret şəraitində canlı orqanizmin asılılığını ifadə edir".

Tələbatların pedaqoji mahiyyəti şəxsiyyətin inkişafındakı rolundan xəbər verir. Odur ki, belə pedaqoji təsir arzuolunan nəticəyə gətirib çıxarır ki, uşağın tələbatları düzgün nəzərə alınır, həmin tələbatlar uşağın fəaliyyətinin rəngarəng motivləri vasitəsi ilə onun tərbiyəsinə istiqamətlənir. İdrak tələbatları fərdin sərbəst tələbatları olub davranışın strukturunda şəxsi vəzifələrə malikdir. İdrak tələbatlarının aspektləri, xüsusilə də onun strukturu, dinamikası və onun digər tələbatlarla əlaqələri hələ də ciddi diskussiyanın predmeti olaraq qalmaqdadır.

İdrak tələbatları və onun formalaşması problemi pedaqoji-psixoloji ədəbiyyatda hələ kifayət qədər öyrənilməmişdir. Son zamanlar bu problemə maraq daha da artmışdır. *Birincisi,* şəxsiyyətin hərtərəfli inkişafının qanunauyğunluqlarının tədqiqi ilə bağlıdır, idrak tələbatlarının inkişafı onun əsas hissəsini təşkil edir. *İkincisi,* əqli fəaliyyətin tənzim edilməsində motivasiyanın tədqiqi, habelə yaradıcı təfəkkürlə şərtləndirilmiş motivasiya ilə bağlılıqdır.

L.İ.Bojoviçin fikrincə, hər bir uşağa yeni təəssüratlara tələbat xarakterik haldır. Əgər məktəblidə idrak tələbatları geniş şəkildə aktuallaşmayıbsa, təlim fəaliyyətinə hazırlıq yaranarsa o davranışın daha aktiv formasına keçmir. Məsələn, əgər şagirddə qarşısına qoyduğu məqsədin həyata keçirilməsinə tələbat yoduqsa və müəllim tərəfindən ona köməklik göstərilmirsə, o zaman şagirdlərin qarşısına hazır məqsədlər qoymaq lazım gəlir **[1].**

Müəllim təlim prosesində tələbatların reallaşmasına stimul verən təlim fəaliyyə- tinin məzmununa dair suallardan xüsusi olaraq istifadə etməlidir. İdrak tələbatlarının bəzi hallarında şagirdlər yaxşı qiymət aldıqda məmnunluq hissi keçirir, bəziləri təlim fəaliyyətinin düzgün təşkilində şagirdin təlimin məzmununun daxilinə yönəlməsindən razılıq hissi özünü göstərir. Təlim fəaliyyətinin gedişində onun təşkilindən, ümumi mühitindən, müəllimin şagirdlərlə ünsiyyət tipindən asılı olaraq təlim tələbatları formalaşır, təkmilləşir.

Təlim fəaliyyəti prosesində təkcə tələbatların komponentlərinin şəxsi göstəriciləri dəyişmir, həm də təlimin sosial yönəlişliyi - tələbat ictimai əhəmiyyətli işə, özünütəkmilləşdirməyə başlayır. Bütün bunlar spesifik insani tələbatların fəaliy- yətində təşəkkülünün əsasını qoyur.

İdrak tələbatları tipik formada ilkin olaraq situativ idrak tələbatları kimi təzahür edir ki, onlar şəxsiyyətlərarası birgə fəaliyyətdə ünsiyyətin xüsusiyyətləri və konkret vəzifələrin şərtlənməsi ilə təzahür edir. Situativ idrak tələbatları intellektial vəzifələrin elə şəraitində yaranır ki, onların həlli prosesində problemli situasiyada özünü göstərir ki, o da subyektdən yeni biliklərə və fəaliyyət üsullarına yiyələnib qoyulmuş vəzifələrin həllinin təminatını tələb edir.

Tələbat özlüyündə fəaliyyətin xarakterini müəyyən etmir, bu onunla izah olunur ki, tələbatlı vəziyyətdə əşya və ondan razılıq qeydə alınmır: bu və ya digər tələbatlar əşyalarla, müxtəlif üsullarla ödənilir. Əşyaların ödənilməsi onunla müəyyən edilir ki, insan fəaliyyət göstərib tələbatlarını ödəməlidir. Çünki tələbatsız uşaq fəaliyyətə təhrik olunmur, onda motivlər ayarnmır, qarşısına məqsəd qoymağa o hələ də hazır deyildir.

V.S.Yurkeviç idrak tələbatlarının forma və səviyyələrini açıqlayır:

- *İdrak tələbatlarının ilkin səviyyəsi – təssüratlarla tələbatdır.* Bu səviyyədə fərd fəaliyyətdə yeni stimullara reaksiya verir. Təəssüratlara tələbat idrak tələbat- larının təməlini təşkil edir.

- İdrak tələbatlarının inkişafında *növbəti səviyyə:* hər şeylə maraqlanmaq tələbatı, biliklərə tələbat, oxumağa tələbat və s. mühüm rol oynayır. İdrak tələbatları hər şeyi öyrənmək səviyyəsində təbii-emosional xarakter daşıyır və fəaliyyət məhsulları üçün o qədər də sosial əhəmiyyət kəsb etmir.

- İdrak tələbatlarının inkişafının *ən yüksək səviyyəsi* ictimai əhəmiyyətli nəticələrə aparıb çıxaran məqsədyönlü fəaliyyətin mənimsənilməsinə yönəldilir.

Birinci səviyyədə idrak tələbatlarının təzahür formaları hazır biliklərin mənimsənilməsidir. *İkinci səviyyədə* toplanmış biliklərə meyllilik və onların inteqrasiyasıdır. *Yüksək səviyyədə* biliklərin sistemləşdirilməsi, yeni biliklərin əldə edilməsi məqsədilə həqiqiliyin tədqiqi, təəssüratların təhlili və məqsədyönlü yaradıcı fəaliyyətə aparıb çıxaran problemli situasiyaya maraq.

İdrak tələbatlarının yüksək inkişaf səviyyəsi olan sinif kollektivində yeniyetmələr daha çox düşünməyə, məntiqi nəticə çıxarmağa meyllidirlər. Bunlar adətən yüksək intellektual qabiliyyətli-istedadlı yeniyetmələrə xas xüsusiyyətlərdir. Onlarda idrak tələbatları müxtəlif yollarla inkişaf edir.

Dərketmədə tələbat dedikdə, fəaliyyətə tələbat, yeni biliklər əldə edilməsinə istiqamət başa düşülür. Yaş dəyişikliklərinin gedişində idrak tələbatlarının inkişafında müxtəlif mərhələlər və onların müxtəlif keyfiyyət səviyyələri mühüm rol oynayır. Burada üç səviyyə fərqləndirilir:

- ***Birinci səviyyə - aşağı səviyyədir.*** Bu səviyyədə müstəqil idraki fəaliyyət xarici şəraitlə şərtlənən maraqla bağlıdır. Maraq konkret faktlara diqqətdə, nümunə üzrə fəaliyyətdə, təsviri biliklərdə ifadə olunur. Biliyə cəhd demək olar ki, özünü göstərmir. Şagirdlərdə müstəqil idrak fəaliyyətinə az vaxt ayrılır, mahiyyətinə görə dərsin müddəti ilə məhdudlaşır. Müstəqil idraki fəaliyyətin dərki qeyri dəqiqdir. Təhsil üçün yalnız ümumi biliklər (təsəvvürlər) zəruridir. Bu səviyyə təəssüratlarda tələbat səviyyəsindədir. Bir ilkin mərhələ kimi idraki cəhdlərin təməlidir., bioloji tələbatlar bələdləşmə refleksidir.
- ***İkinci səviyyə - orta səviyyədir***. Bu mərhələdə dərketmə hər şeylə maraqlanmaq mərhələsində marağa səbəb olur. Ayrı-ayrı əşyalara seçici istiqamət daha çox öyrənməyə, sualların izahına cəhdin xarakterik əlamətləri ilə səciyyələnir. Məktəbdə əşyalara idrak tələbatlarının orta səviyyəsində idrak maraqları sistemli xarakter daşımır. Bu səviyyə hər şeyələ maraqlanmaq səviyyəsidir. Bu səviyyədə uşaqlar suallar vermək, oyuncaqları sındırmaq istəyirlər ki, görsünlər onların içirisində nələr var. Məktəbə daxil olmaqla uşaq daxili aləmini daha aydın şəkildə göstərir. Uşaqların bu maraqları bütünlükdə obyektə, bu və ya digər məşğələlərə yönəldilir. Belə maraqlılıq tərbiyə ilə şərtlənir və yaş yetişkənliyi ilə bağlıdır. Bu səviyyədə idrak fəaliyyəti məqsədəyönəlmiş xarakter daşıyır.
- ***Üçüncü səviyyə - yüksək səviyyədir.*** Bu səviyyə gələcək həyatda şəxsi uğur kimi bütün təlim fənlərinin zəruri öyrənilməsi ilə xarakterizə edilir. Həm də şagirdlərdə mürəkkəb nəzəri suallara və konkret elmi problemlərə maraq təzahür edir. Təlim fəaliyyətində motivlərin iyerarxiyasında daxili motivlər dominantlıq təşkil edir. Şagirdləri idrak tələbatları yüksək səviyyədədir. Bu səviyyə meylliliyin təşəkkülü mərhələsidir. İdrak tələbatları sosial əhəmiyyətli vəzifələrlə müəyyən edilir. Onun təzahürü davamlı meyllərlə bağlıdır.

Beləliklə, idrak tələbatlarının yaş inkişafı qabiliyyətlərin inkişafı ilə qırılmaz surətdə bağlıdır. Dərketmədə mürəkkəbləşən tələbatlar təfəkkürün üsullarının inkişafına təkan verir. Uşaq ətraf aləmi öyrənmək üçün fəallıq göstərməyə cəhd edir. İdrak tələbatları əqli fəaliyyətin istənilən növü üçün xasdır. İdrak tələbatlarının aktivliyi, prosesin özünə cəhdi bu tələbatların xüsusiyyətlərindən birinin müsbət emosional vəziyyətlə bağlı olan əqli gərginlikdən məmnunluq hissidr.

İdrak tələbatları tələbat kimi təzahür edir, inkişaf edir. Buraya emosional mexanizmlər daxil edilir. Emosiyalarsız heç bir tələbat, xüsusilə də idrak tələbatları ola bilməz. İdrak tələbatlarının çoxobrazlı təzahürü onu göstərir ki, bu problem çox mürəkkəb və çoxsahəlidir. Bir çox tədqiqatçılar: A.K.Markova,V.Repkin, Sukerman və başqaları kiçik yaşlı məktəblilərin idrak tələbatlarını öyrənməklə qeyd edirlər ki, idrak tələbatları subyektin təlim fəaliyyətinin aparıcı xassəsidir. Kiçik yaşlı məktəblilərin idrak tələbatları öz inkişafını təlim fəaliyyətində davam etdirir və bu yaşda aparıcı hesab olunur. Məktəblilərin idrak tələbatlarına şüurlu, aktiv, ətraf aləmə yaradıcı dərketmə kimi baxılır. Təlim fəaliyyətinin tənzimlənməsində idrak tələbatları şəxsiyyətin müəyyən xassələrinin formalaşmasına öz təsirini göstərir.

Ədəbiyyat

1. Божович Л. И. Проблемы формирования личности: Избранные труды /Под ред. Д. И. Фельдштейна. - М.: Педагогика-Пресс, 2001. — 352с.
2. Зайцева И.А. Формирование познавательного интереса к учению как способ развития креативных способностей личности. – Ноябрьск, 2005. – 124 с.
3. Степанченко И.А. Познавательные потребности студентов // Международный журнал экспериментального образования. – 2014. – № 6-1. – С. 68-69;
4. Щукина Г.И. Педагогические проблемы формирования познавательных интересов учащихся. М.: Педагогика, 2008. – 109с.

РЕЗЮМЕ
УРОВЕНЬ РАЗВИТИЯ ПОЗНАВАТЕЛЬНЫХ ПОТРЕБНОСТЕЙ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ ПОДРОСТКА В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ
Джабраилова Р.Н.
Сумгаитский государственный университет

В тезисе показано, что в классе с высоким уровнем развития познавательных потребностей подростки склонны больше думать и делать логические выводы. Обычно это характеристики высокоинтеллектуально одаренных подростков. Познавательные потребности в регуляции учебной деятельности оказывают влияние на формирование тех или иных черт личности.В диссертации также разработаны форма и уровень развития познавательных потребностей.
Ключевые слова: *когнитивные потребности, умственная деятельность, интересы, учебная деятельность, мотивация*

SUMMARY
THE LEVEL OF DEVELOPMENT OF COGNITIVE NEEDS IN THE FORMATION OF ADOLESCENT PERSONALITY IN THE CONTEXT OF GLOBALIZATION
Jabrailova R.N.
Sumqayit State University

The thesis shows that in a class with a high level of development of cognitive needs, adolescents tend to think more and draw logical conclusions. These are usually the characteristics of highly intellectually gifted teenagers. Cognitive needs in the regulation of learning activities have an impact on the formation of certain personality traits. The thesis also developed the form and level of development of cognitive needs in the thesis.
Keywords: *cognitive needs, mental activity, interests, educational activities, motivation*

YENİYETMƏLİK YAŞ DÖVRÜNDƏ PSİXOLOJİ ÇƏTİNLİKLƏR

Məmmədova Nigar Məmmədəli qızı
ADPU, Pedaqoji psixologiya kafedrası, baş müəllim
nigar.memmedova.1962@gmail.com

Açar sözlər: *psixoloji çətinliklər, status, qrupdaxili münasibətlər, norma və dəyərlər, diskomfort*

Çətinlik anlayışı mahiyyətinə, təbiətinə və təhlil üsullarından asılı olaraq müxtəlif mövqelərdə nəzərdən keçirilir. Ümumpsixoloji çətinliklər konteksində emosional, koqnitiv və taktiki kimi təsnif olunur. B.D.Parıqin psixoloji çətinlikləri ünsiyyət prosesində tədqiq edir. Şəxsiyyətlərarası ünsiyyətdə psixoloji çətinliklərə o həm şüurlu, həm də şüursuz çətinlikləri, ümumpsixoloji maneələri daxil edir ki, onlar da bir-biri ilə əlaqəyə daxil olan fərdlər arasında baş verir. A.İ.Kitov psixoloji çətinlikləri idarəetmə sistemində birgə fəaliyyət prosesində tədqiq edir. O qeyd edir ki, psixoloji çətinliklər fəaliyyətə qoşulma prosesini çətinləşdirir, iqtisadi əlaqələrin etibarlılığını zəiflədir.

Tədqiqatlar çətinliklərlə mövcud aspektləri fərdləndirməyə bizə imkan verir. ***Birincisi,*** çətinliklər xarici şəraitdə maneələrin funksiyalarını yerinə yetirməklə bağlıdır. Q.M.Andreyeva buraya texniki, dini, peşəkar iştirakçıların fəaliyyəti ilə şərtlənən sosial qaydaların amillərini, onların müxtəlif sosial qruplara mənsubluğunu aid edir. F.A.Fradkin şəxsiyyətin qrupdaxili münasibətlər sistemində yerinə təsir edən qrupun norma və dəyərlərinin rolunu amillər qismində xüsusi olaraq qeyd edir.

Müəyyən qrupların norma və dəyərlərində ünsiyyət çətinlikləri o şəxslərdə yaranır ki, status və rol qruplarda onlara münasibətdə və rol davranışındakı gözləmələrə uyğun gəlmir. Şəxsiyyətlərarası planda yaranan maneələr ünsiyyəti, əks əlaqəni pozur. Bəzən belə maneələr kommunikativ çətinliklər kimi özünü göstərir. Xarici maneələr sahəsi kifayət qədər genişdir. Onun diapozonunun genişliyi fiziki, bioloji, sosimədəni, ideoloji amillərlə müəyyən edilir. Bu amillərin məcmuyu subyekt qarşısında maneələrin çoxluğunu bir daha göstərir. İkincisi, çətinliklər daxili qaydalarla şərtlənir. Onlar tərbiyənin xüsusiyyətləri, xüsusilə də başqalarına təsir etmək bacarığı ilə bağlıdır.

Psixoloji çətinliklər tərbiyə xüsusiyyətləri ilə bağlı ola bilər. Xüsusilə də kobud şəkildə başqasına təsir göstərməkdə, ətrafdakılara mənəvi travma yaşatmaqda, tərəfdaşına diqqətsizlikdə və s.-də özünü təzahür etdirə bilər. Bütün bu çətinliklər psixoloji çətinliklərin xüsusi formasında ifadə olunur. Onlar bir tərəfdən şəxsiyyətin xarici passivliyi, digər tərəfdən isə çoxobrazlı təzahürləri ilə özünü göstərir.

Çətinliklər birgə fəaliyyətdə iştirakçıların fərdi-psixoloji xüsusiyyətləri nəticəsində yarana bilər. Buraya qorxaqlıq və utancaqlıq, qapalılıq, bədgümanlıq, şübhəlilik, aqressivlik, söhbət qura bilməmək, üzr istəməyi bacarmamaq, hisslərini ifadə edə bilməmək, konfliktlərdən düzgün çıxış yolunu tapa bilməmək, abstrakt təfəkkürün kifayət qədər inkişaf etməməsi, passiv diqqət, kauzal atribusiya, oreal effekti, stereotiplik və s. aiddir ki, onlar psixoloji müdafiəyə səbəb olur. Çətinliklərin əsasında reallaşmamış motivlər dayanır. E.D.Tumanovun fikrincə, elə çətinlik tipləri vardır ki, onlar qaydaların məzmunundakı səbəblərlə müəyyən olunur.

Müvafiq hallarda psixoloji çətinliklərin mahiyyəti ondan ibarətdir ki, məqsəd və xarici tələblərdən uzaqlaşmaq insan üçün subyektiv olaraq arzuolunandır, obyektiv olaraq zəruridir. Digər hallarda isə mühüm məqsəd və motivlər nəzərə alınmır, emosional-iradi resurslar prioritet zonalarda daha da mərkəzləşdirilir. Öz elmi tədqiqatlarında E.D.Tumanov göstərirdi ki, psixoloji çətinliklər bəzi hallarda aktivliyi məhdudlaşdırır, bəzi hallarda isə əksinə onu daha da yüksəldir. Daxili çətinliklər funksional mobilləşmənin səviyyəsini dəyişə bilir. Belə çətinliklər funksional çətinliklər kimi səciyyələndirilir.

Qeyd etmək lazımdır ki, birgə fəaliyyətdə çətinliklər tərəfdaşların yaş xüsusiyyətləri ilə şərtlənə bilər. L.A.Povarnisinanın fikrincə, böyüklərlə birgə fəaliyyətdə yeniyetmələr özlərinə qarşı inamsızlıq hissi keçirirlər, çünki yaşlılar onları başa düşmürlər. Böyüklərlə uşaqların əlaqəsində bu çətinlik ciddi maneə yaradır və nəticədə informasiyaları bloklaşdırır.

Bəzi tədqiqatçılar şəxsiyyətin müstəqil mühakimələrinə maneəçilik yaradan çətinlikləri şəxsi təhsil kimi qiymətləndirirlər. Onların fikrincə, psixoloji çətinliklər ona görə təhlükəlidir ki, şəxsiyyətin özü haqqında mühakimələrinə ətrafdakılar tərəfindən maneəşilik yaradır. Onlar təsdiq edirlər ki, çətinliklər şəxsiyyətin şəxsi mahiyyətini zəiflədir, onun özünü cəmiyyətdən avtonom təcridinə məruz qoyur.

Z.A.Noliu baş verən çətinliklərin model sxemlərini təqdim edir ki, onlar ehtimal edilən travmalı təsirdən şəxsi "Mən"ə əsaslanır. Ətrafdakı insanlar təfəindən verilən qiymətlər şəxsiyyətin keyfiyyət və dəyişmələrinin harmoniyası haqqında təsəvvürlərini şübhə altına alır. Çətinliklər daxil olmaqla, həmişə müsbət olmağa cəhd göstərilməklə nəinki mürəkkəb özünüqiymətləndirmə sistemi saxlanılır, həm də şəxsiyyətin strukturu dəyişməz olaraq qalır. Onlar təsdiq edirlər ki, çətinliklər şəxsiyyətin şəxsi mahiyyətini zəiflədir, onun özünü cəmiyyətdən təcridə məruz qoyur.

Psixoloji çətinliklərdə üç amil: daxili çətinliklər, xarici maneələr və şəxsiyyətlərarası birgə fəaliyyətdə çətinliklər özünü aydın göstərir. Çətinliklər müxtəlif psixoloji və sosial-psixoloji effektlərdən yarana bilər. Onlar xaricən passiv nitq və ya müdafiə reaksiyalarının motorikasının pozulması kimi təzahür edə bilər. Psixoloji vəziyyətin nöqteyi-nəzərindən çətinliklər mənfi emosiyalara, frustrasiyaya, qeyri-adekvat affektlərə səbəb ola bilər. Sosial-psixoloji planda çətinliklər konfliktlərin səbəbi kimi münaqişələrin əsas əlamətlərindəndir. Çətinliklər qrupdaxili prosesləri pozub yeniyetməni həmin qrupdan təcrid edə bilər.

V.İ.Antonyukin tədqiqatlarında çətinliklərin passiv funksiyalarını fərqləndirmişdir. Tədqiqatçı alim psixoloji çətinliklərin müsbət amillərini araşdırmışdır:

- ***birincisi,*** çətinliklər çox vaxt düşünülməmiş məsələlərin həyata keçirilməsinə maneəçilik yaradır. Bu onu göstərir ki, onlar üçün obyektiv şərtlərin və ya müvafiq tələbatların ödənilməsi üçün münasib şərait yaradılmamışdır. Həmçinin onlar ilkin fikirləri təhrif edir, yeniliklərdə modifikasiyaların qarşısını alır, insanın həyat fəaliyyəti üçün zərərli olan yenilikləri qoruyub saxlayırlar.

- ***ikincisi,*** alimin fikrincə, çətinliklər katalizator funksiyasının yerinə yetirirlər. Onlar fəaliyyəti aktivləşdirir, dayanmadan cəhd göstərməyə təhrik edir, ilkin fikirlərdəki qüsurları aşkar edib daha təkmil variantlar tapmağa yönəldir.

-***üçüncüsü,*** psixoloji çətinliklər indikator funksiyasının yerinə yetirir, zəif icra edilmiş məsələlər barədə operativ məlumat verir, kifayət qədər işlənilməmiş elementləri aşkarlayır.

V.İ.Antonyukin tədqiqatları göstərir ki, psixoloji çətinliklər sosial-psixoloji təhsildə inkişaf edir. Şəxsiyyət və çətinlik problemini nəzərdən keçirdikdə qeyd etmək lazımdır ki, çətinliklər həmişə subyekt tərəfindən emosional diskomfort kimi qəbul edilmir, bəzən isə dərk olunmur. Tədqiqatçı alimlər (R.X.Şakurov, B.M.Kedrov, S.L.Rubinşteyn, V.İ.Antonyuk) xüsusi olaraq qeyd edirlər ki, çətinliklər konstruktiv və dinamik fəaliyyətdə mühüm rol oynayırlar.

Ədəbiyyat

1. Иваненков С.П. Проблемы социализация современной молодежи. 2-е изд. доп. СПб, Синтез-Полиграф,- 2003.-325 с.
2. Реан А.А. Психология личности. Социализация, поведение, общение / А.А. Реан. - М.: Прайм-Еврознак, -2004. - 416 с.
3. Шакуров Р.Х. Барьер как категория и его роль в деятельности. //Вопросы психологии. -2001. №1. С.3-18.
4. Ярцев Д.В. Особенности социализации современного подростка //Вопросы психологии. - 1998. - №6. - С.54-58.

РЕЗЮМЕ

ПСИХОЛОГИЧЕСКИЕ ТРУДНОСТИ В ПОДРОСТКОВОМ ВОЗРАСТЕ

Мамедова Н.М.

Сумгаитский государственный университет

В тезисе описываются трудности, возникающие в подростковом возрасте, и их психологическое содержание. Как положительные, так и отрицательные факторы трудностей объяснялись автором последовательно, а имеющиеся их стороны индивидуализировались. Автор справедливо отмечает, что психологические трудности могут быть связаны с особенностями воспитания. Может проявляться в особо грубом воздействии на окружающих, причинении моральной травмы окружающим, невнимании к партнеру. Все эти трудности выражаются в особой форме психологических трудностей.

Ключевые слова: *психологические трудности, статус, групповые отношения, нормы и ценности, дискомфорт*

SUMMARY

PSYCHOLOGICAL DIFFICULTIES IN ADOLESCENCE

Mammadova N.M.

Sumqayit State University

The thesis describes the difficulties that arise in adolescence and their psychological content. Both positive and negative factors of difficulty were explained by the author consistently, and the existing sides of the difficulty were individualized. The author rightly notes that psychological difficulties can be associated with the peculiarities of education. It can manifest itself in a particularly rude impact on others, causing moral injury to others, inattention to a partner. All these difficulties are expressed in a special form of psychological difficulties

Keywords: *psychological difficulties, status, group relations, norms and values, discomfort*

MÜƏLLİM ŞƏXSİYYƏTİNİN FORMALAŞMASI

Məmmədova Yavər Kamal, Uqurluyeva Aytac Vəfadar

Sumqayıt Dövlət Universiteti

Açar sözlər: *müəllim, şəxsiyyət, tərbiyə, uşaqlar, təlim*

Tədris proseslərində müəllimin fəallığı nəticəsində dərs nə qədər yüksək səviyyədə qurulursa – qurulsun əgər şagirdlər tədris mövzularına aid əvvəldən müəyyən bilik və maraqlara yiyələnməyiblərsə, müəllimi dinləməyi, müstəqil nəticələr çıxarmağı bacarmırlarsa, müəyyən dərəcə təhlil aparmağa yiyələnməmişlərsə, istənilən səviyyədə nəticə alınmayacaq. Bunun səbəblərindən biri müasir dövrdə məktəbəqədər müəssisələrdə uşaqların həyatında yeniliyin az görünməsi, onunla bağlı pedaqoji işin zəif yerinə yetirməsidir. İkinci səbəb ondan ibarətdir ki, mükəmməl oxumağı bacarmayan uşaqlar fakt və hadisələr, gördükləri, hiss etdikləri elmi-texniki nailiyyətləri düşündükləri tərzdə özlərində formalaşdırmaqda çətinlik çəkirlər. Bu məktəbəqədər tərbiyə müəssisələrinin üzərinə düşən vəzifələrin aşağı səviyyədə yerinə yetirilməsindən irəli gəlir.

Tədqiqatlar göstərir ki, bağca yaşında olan uşaqları təlim prosesinə hazırlanması dövründə, hər şeyə maraq özünü qabarıq biruzə verir. Buna görə də, lazımi köməkliyi göstərməklə, onlarda təfəkkürü inkişaf etdirmək məqsədilə onları müxtəlif işlərə istiqamətləndirmək olar. Bu dövrdə texniki tərəqqi ilə bağlı maraqlar ilkin motivə çevrilə bilər. Uşaq müəllimin fəaliyyətindən əldə etdiyi biliklərə sadəcə olaraq öz diqqətini artırır. Elmi –texniki tərəqqi ilə bağlı yenilikləri uşaqlar müəllimlərdən başqa müxtəlif informasiyalardan öyrənə bilərlər. Adi söhbətlərdən, ata və anadan, eləcə də, onlarla təmasda olan hər bir insandan alınan informasiyalar onlarda müəyyən fikirlər yaradır. Beləliklə, bağca yaşlı uşaq mühitə uyğunlaşma nəticəsində istənilən informasiyaları qəbul edə bilər.

Şəxsiyyət haqqında müxtəlif nəzəriyyələr var. Onların hər birində şəxsiyyətin inkişafının problemi özünəməxsus baxılır. Məsələn, psixoanalitik nəzəriyyəsi inkişafı insanın bioloji təbiətinin cəmiyyətdə uyğunlaşdırılmasını, insanda həyati tələblərin və tələbatların ödəməsini müəyyən müdafiə mexanizmləri və üsulların hazırlanamsı kimi başa düşür. Xasiyyətlərin nəzəriyyəsi inkişaf haqqında təsəvvürünü onunla əsasalandırır ki, şəxsiyyətin bütün xüsusiyyətləri insanın sağlığında formalaşır və bu nəzəriyyə onların yaradılması, dəyişilməsi və sabitləşməsi prosesini digər bioloji olmayan qanunlara tabe olan qanunauyğunluq kimi baxır. Sosial öyrədilməsi nəzəriyyəsi şəxsiyyət inkişafın prosesinin insanların şəxsiyyətlərarası qarşılıqlı təsirinin müəyyən üsullarının formalaşdırılması kimi təqdim edir. Humanistlik və digər fenomenoloji nəzəriyyələr onu "Mən"-nin əmələ gəlməsinin prosesi kimi izah edir [2].

Müəllim şəxsiyyət kimi formalaşaraq və inkişaf edərək, müsbət, hətta mənfi keyfiyyətləri əldə edir. Müsbət və mənfi yeniliklərin, birləşmələrin bütün mümkün olan variantları bir nəzəriyyədə ətraflı təqdim etmək praktiki mümkün deyil. Ona görə də, Erikson öz konsepsiyasında şəxsiyyət inkişafının ancaq iki kənardakı xəttini əks etdi. Təmiz şəkildə onlara həyatda rast gəlmək olmaz. Lakin aydın şəkildə təsvir edilmiş polyusların köməyi ilə insanın şəxsiyyət inkişafının bütün aralıq variantları özünü təsəvvür etmək olar.

Bəzi psixologiya məktəblərinin qəbul etdiyi kimi, şəxsiyyətin inkişafı onun sosializasiya və tərbiyə prosesində baş verir. Bu halda ki, insan sosial məxluqdur, təəccüblü deyil ki, öz varlığını birinci günlərdə o, özünü oxşar adamalrla əhatə olunur, müxtəlif cür sosial qarşılıqlı təsirinə daxildir. Sosial ünsiyyətin ilkin təcrübəsi danışmağa başlanmazdan qabaq öz ailəsinin çərçivəsində əldə edir. Sonra isə sosializasiya sosiumun bir hissəsi olaraq insan onun şəxsiyyətin ayrılmaz bir hissəsi kimi müəyyən subyektiv təcrübəsini həmişə əldə edir. Bu proses və fərddə sosial təcrübəsinin sonrakı aktiv əks etdirilmiş hissəsi kimi sosalizasiya adlanır.

Beləliklə, sosializasiya prosesi beləliklə şəxsiyyətin formalaşma prosesi də həm xüsusi institutların çərçivəsində, (məsələn, məktəbdə), həm də müxtəlif qeyri-formal təşkilatlarda yerinə yetirilə bilər. Şəxsiyyətin sosializasiyasının vacib institutu ailədir. Məhz ailədə yaxınların ətrafında insan şəxsiyyətinin əsası qoyulur. Çox vaxt biz belə fikrə rast gələ bilərik ki, şəxsiyyətin əsasları üç yaşına qədər dövründə qoyulur. Bu yaş dövrdə insanda nəinki psixi proseslərin sürətli inkişafı gedir, hətta insanda həyatın axırına kimi qalan sosial əxlaqın ilkin təcrübəsi və vərdişləri yaranır.

Qeyd etmək lazımdır ki, sosializasiya həm tənzim edilən, məqsədyönlü, həm də qeyri-tənzim edilən, kor təbii xarakteri daşıya bilər. Diqqətin sosializasiyanın həm məqsədyönlü, həm də tənzim edilən prosesin məhz eyni zamanda mövcudluğunun mümkünlüyünə yönəldərək, A.A.Rean ona növbəti misalın köməyi ilə izah edir. Biz hamımız yaxşı bilirik ki, məktəbdə, dərsdə vacib biliklər əldə edilir. Onlardan çoxu bilavasitə sosial təcrübənin müəllimin nöqteyi nəzərdən yanaşı gedən təsadüfi kimi görülə bilənlərin hesabına zənginləşdirir. Müəllimlərin şagirdlərlə sosial qarşılıqlı təsirinin müşahidə edilmiş və real görünən təcrübənin mənimsənilməsi baş verir. Bu təcrübə isə həm pozitiv, həm də neqativ ola bilər.

Şəxsiyyətin inkişaf probleminin baxılmasının, insanın sosiallaşdırılmasının fərdiyyətləşdirilməsi ilə nisbəti çox mübahisəli məsələdir. Bu mübahisələrin mahiyyəti ondan ibarətdir ki, bəzi psixoloqlar təsdiq edirlər ki, sosializasiya insanın yaradıcı imkanlarının açılmasına mane olur, digərləri isə hesab edirlər ki, şəxsiyyətin fərdiyyətləşdirilməsi – sosializasiya prosesi ilə kompensasiya olunmalı neqativ əlamətdir. Rean qeyd etdi ki, sosializasiyaya – şəxsiyyətin, insan fərdiyyətinin tarazlaşmasına aparan prosesə, fərdiyyətləşdirilməsinin antipoda kimi baxmağı məsləhət deyil. Əksinə, sosializasiya və sosial uyğunlaşma prosesində insan öz fəaliyyətini çox vaxt mürəkkəb və zidd yolu ilə əldə edir. Sosializasiya prosesinin əsasında yerləşən sosial təcrübə nəinki mənimsənilir, hətta şəxsiyyətin fərdiyyətləşdirməsinin mənbəyi olaraq aktiv surətdə emal edilir.

Müəllim şəxsiyyətinin inkişafı probleminə baxarkən müəlliflər bir qayda olaraq insan inkişafının əsaslandırılan səbəblərini təyin etməyə cəhd edirlər. Tədqiqatçıların əksəriyyəti şəxsiyyətin inkişafının aparıcı qüvvəsi kimi müxtəlif tələbatların kompleksini hesab edir. Bu tələbatların arasında öz -özünü inkişaf

etdirmək tələbatı vacib yer tutur. Öz-özünü inkişaf etdirmək cəhdi əlçatmaz ideala cəhd atmaq deyil. Şəxsiyyətin konkret məqsədə çatmaq müəyyən sosial statusa çatmaq cəhdi daha vacibdir [3].

Şəxsiyyətin özünütəkmilləşdirməsi onun cəmiyyətdəki həyati tələbatları və fəaliyyəti ilə şərtlənir. İnsanın yaşadığı ictimai şərait, aldığı təlim-tərbiyə onun özünütərbiyəsində həlledici rol oynayır. İctimai həyatın eləcə də onu əhatə edən mühitin tələblərini, öz qüvvə və imkanlarını aydın dərk edərək, insan öz həyatını daha münasib qurmaq məqsədilə lazımi keyfiyyətləri özündə inkişaf etdirməsi və bu keyfiyyətləri dəyişməkdən ötrü özünün şüurlu, məqsədəuyğun və müntəzəm sürətdə rəftar və davranışını təkmilləşdirmək qayğısına qalması özünütərbiyə adlanır. Onlardan bəziləri vaxt keçdikcə öz şəxsiyyətində çox dramatik dəyişikliklər aşkar edirlər. Bu cür dəyişikliklərin daha əhəmiyyətlisi yeniyetmə, gənc və yetkin dövrünün ilkin mərhələlərində baş verə bilər. Ondan əlavə insanın şəxsiyyəti xüsusiyyətlərinin qismən sabitləşdirilmə zamanı həyatda fərdi dəyişikliklər var. Bəzi adamlarda şəxsiyyət uşaq zamanı sabitləşir. Sonra isə əhəmiyyətli dərəcədə dəyişmir. Bəzilərində isə, əksinə, şəxsiyyət psixoloji xüsusiyyətləri çox gec, iyirmi yaşından qırx yaşına qədər özünü biruzə verir. Bura çox vaxt daxili və xarici həyatı yeniyetmə və gənc yaşlarında gərginlik, ziddiyyətlər və konfliktlər ilə xarakterizə olunan insanları aid edirlər.

Şəxsiyyət xarakteristikalarının daha kiçik sabitliyi şəxsiyyətin vaxtın uzun dövrün ərzində yox ,müxtəlif situasiyalarda baxılan zamanı özünü biruzə verir. Ağlını və idrak qabiliyyətlərini istisna edərək şəxsiyyətin çoxlu digər xarakteristikaları situativ olaraq sabit deyil. Müxtəlif situasiyalarda əxlaqın sabitliyini bu və digər şəxsiyyət xüsusiyyətlərlə malik olması ilə əlaqələndirmək cəhdlərlə uğursuz oldu.

Əsəb sisteminin xüsusiyyətləri ilə bağlı şəxsiyyətin dinamik xüsusiyyətləri daha böyük sabitliyə malikdir. Onlara temperament, emosional reaktivlik, ekstravertlik, introvertlik və digər xüsusiyyətlər aiddir. Beləliklə, şəxsiyyət xüsusiyyətləri sabitliyi haqqında cavab çox mənalıdır. Həyatın daha sonrakı dövrlərə qazandırılmış və əhəmiyyətli olmayan xüsusiyyətlərdə bir qayda olaraq sabitliyi faktiki demək olar ki, yoxdur. Çox vaxt erkən yaşlarında qazandırılmış bu və ya digər üsulu ilə orqaniki əsaslandırılmış digər şəxsiyyət xasiyyətlərdə isə sabitlik var. Bu istiqamətdə görülən bütün işlərdə uşaqların informasiya qəbulu xüsusi olaraq psixoloji gərginliyi dəyişdirir. Bu səbəbdən qəbul edilən informasiyalara xüsusi olaraq fikir vermək lazımdır.

Ədəbiyyat

1. İlyasov M.İ. Müəllimin peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. Bakı: Elm və təhsil, 2018, 208 s.
2. İlyasovM.İ.Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı:Eım və təhsil, 2013, 216 s.
3. Qasımova L.N. Pedaqogika. Dərslik. Bakı: Ekoprint, 2021, 612 s.
4. Hüseynzadə R.L. Pedaqogika. Dərslik. Bakı: Müətəcim, 2021, 488 s.

РЕЗЮМЕ

ФОРМИРОВАНИЕ ЛИЧНОСТИ ПРЕПОДВАТЕЛЯ

Мамедова Я. К., Угурлуева А.В.

Сумгаитский государственный университет

Преподаватель играет если не главную, то ведущую роль в формировании личности ребенка. От него зависит будущее всей страны. Поэтому и естественно, что уровень его развитости определяет и уровень развития учащихся. Наряду с вопросом профессиональной подготовки, формирование личностных качества имеет немало важное значение. В тезисе рассматривается проблема развития и формирования личности преподавателя.

Ключевые слова: *преподаватель, личность, воспитание, дети, обучение*

SUMMARY

FORMING THE PERSONALITY OF THE TEACHER

Mammadova Y. K., Uurluyeva A.V.

Sumqayit State University

The teacher plays, if not the main, then the leading role in shaping the personality of the child. The future of the whole country depends on it. Therefore, it is natural that the level of its development determines the level of development of students. Along with the issue of professional training, the formation of personal

qualities is of great importance. The thesis deals with the problem of development and formation of the teacher's personality.
Keywords: *teacher, personality, education, children, learning*

MÜƏLLİM ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA MÜƏLLİM VƏ ŞAGİRD MÜNASİBƏTİNİN YERİ VƏ ROLU

Hüseynova Validə Vəli qızı
Naxçıvan Dövlət Universiteti, Naxçıvan şəhəri
Validahuseynova27@gmail.com

Açar sözlər: *müəllim, şəxsiyyət, mühit, şagird, münasibət, ideya, mənəvi, fəaliyyət, əqidə, mənəvi*

Dərs pedaqoji prosesin müəllim-şagird, şagird-müəllim münasibətlərinin tam, bitkin bir hissəsidir. Görkəmli alim və metodist N.M.Verzilin haqlı olaraqdeyir ki, dərsi günəşə bənzətmək olar. Bütün planetlər günəşin ətrafında fırlandığı kimi, bütün tədris məşğələləri də dərsin ətrafında fırlanır.

Dərs hər bir müəllimin yaza biləcəyi mənəvi, əxlaqi-etik münasibətləri, elmi biliklər sistemini əks etdirən əsərdir. Müəllim və şagird məktəbdə iki əsas qüvvədir. Bu qüvvələr arasındakı münasibətlər təlim-tərbiyə keyfiyyətinin yüksəldilməsinə böyük təhsir göstərir. Hətda gələcək vətəndaşın bir şəxsiyyət kimi formalaşması, vətəndaş-valideyn kimi böyüməsi də müəllim-şagird münasibətlərindən xeyli aslıdır. Müəllim şagirdin mənəvi aləminə necə daxil olur? Valideynlər övladlarının yanında müəllimlər haqqında nə, necə danışır və s. məsələlər müəllimin mənəvi münasibətlər aləmini təşkil edir. [2]

Müəllim şagird münasibətlərini həyat özü diqtə edir. Müəllimlər özlərinə şagirdlər seçmirlər. Onlar məktəbə qəbul olunmuş eyni yaşıd uşaq kollektivi ilə işləyirlər. Şagird də öz növbəsində özünə müəllim seçmir, məktəbə gəlir və bir qrup müəllim heyətindən dərs alır, tərbiyə olunur. Müəllim – şagird münasibətləri şurlu istiqamət alır. Müəllim tələblər verir , şagird isə sözsüz həmin tələbləri yerinə yetirir. Müəllim şagird münasibətlərində müəllim partiya və hökümətin ideyalarının keçiricisi kimi çıxış edir. Müəllim əsəs siyasi sima kimi bütün ideya-siyasi məlumatları şagirdlərə çatdırır.

Müəllim eyni zamanda bu və ya digər elm sahəsinin daşıyıcısı kimi də fəaliyyət göstərir. O dərsdə maarifçi ideyalar keçirisici, materialist dünyagörüşünün formalaşdırıcısı, fəal təbliğatçısıdır. Müəllim habelə borc şərəf, ədalət və xeyirxahlıq kimi əxaqi kateqoriyaların daşıyıcısı, tərbiyəçisidir.

Dərsi müəllim-şagird, şagird- müəllim münasibətləri kimi rəngarəng zərif saplardan toxunmuş xalıya bənzətmək olar. Bu xalçada hər ilmənin öz rəngi, öz yeri, öz mənası olduğu kimi müəllim- şagird münasibətlərinin də öz yeri, öz mənası vardır. Şagird şəxsiyyəti həmin münasibətlərin təsiri altında təşəkkül tapır.

Müəllim mənəvi münasibətlər dünyasında səhvə yol verə bilmə. Ona görə ki , müəllim kiçik bir nöqsanı, kiçik bir hərəkəti şagirdlərin gözündən yayınmır. Müəllimin səsindəki titrəyiş , ahəng , sərtlik və.s uşağa dərhal təsir edir. Deməli müəllim-şagird münasibətlərində söz qüdrətli bir silaha çevrilir. Müəllimin sözündəki adi bir kinayə çox zərif olan uşaq qəlbinin yaralayır, uşaq qəlbində müəllimə olan məhəbbəti zədələyir. Bu zədə müalicə oluna da böyüyüb bir yaraya da çevrilə bilər.

Müəllim üçün bütün uşaqlar əziz olamalıdır. Lakin çox vaxt belə olmur. Hər bir müəllimin özünün istəkli şagirdi olur. Bu isə çox vaxt müəllimin istəkli şagirddən də çox istəyən bir uşağın qəlbən müəllimdən küsməsinə ondan uzaqlaşmasına səbəb olur. Müəllim-şahgird münasibətlərində baş vermiş belə hallar xalqımızın yaratdığı Ay çiçəyi əfsanəsini yada salır.

Görkəmli sovet pedaqoqu V,A.Sxomlinski çox haqlı olaraq deyirdi ki, hadisəni, olmuş, baş vermiş hərəkəti müalicə etməyin , onu yaradan səbəbləri müalicə edin! Səbəbləri müalicə etmək üçün müəllim uşaqlıq dünyasının sirlərini bilməli, uşaqlıq adlı nəhəng saraya daxil olmağı bacarmalıdır.

Müəllim yaşlı nəslin nümayəndəsidir. Onun əqidəsi dünyagörüşü, mənəvi keyfiyyətləri tamamilə başqa bir tarixi dövrdə formalaşmışdır. O adamlara, hadisələrə münasibətində başqa bir dövrü ifadə edir və bəzən müsir adamların, xüsusilə gənclərin tələbinin, həyat tərzinin bilmir. Buna görədə müəllim yaşlı nəsillə gənc nəsil arasında olan müəyyən ziddiyətləri uşaqların yaş, psixoloji və fərdi , bioloji xüsusiyyətlərinin öyrənməklə , onlara humanist baxışlarla yanaşmaqla, səbirli, təmkinli olmaqla aradan qaldırmağa çalışır. Əlbətdə, həmin ziddiyətləri aradan qaldıra bilməyən müəllim yaxşı müəllim ola bilməz, hamının istəkli müəlliminə çevrilə bilməz.

Müəllim şagird münasibətlərinin elmi, psixoloji mənəvi əsaslarını yaxşı bilən, həyatını uşaqlara bəxş etməyi bacaran müəllim həmişə hamının nəzərində ucalır.

Müəllim şagird münasibətlərində emosionallıq, təbəssüm, səmimiyyət mühüm rol oynayır. Uşaq şənlənmək , gülmək, sevinmək istəyən məxlqdur. Böyük alman şairi Göte deyirdi ki, uşaq sevinci, uşaq gülüşü bütün xeyirxahlığının anası və mənbəyidir. Ən gözəl, ən yaxşı o məktəbdir ki, orada ən ciddi iş prosesində belə şagirdlər urəkdən gülməyi bacarırlar. Ürəkdən gülməyi və gülümsəməyi bacarmayan, qəlbən şən olmayan adamın müəllim və tərbiiyəçi olmağa hüququ yoxdur. Müəllim təbəssümü onun özünü gözəlləşdirməklə yanaşı şagirdlərə mənəvi qüvvə verir, onları sabahkı sevinc naminə gərgin işləməyə sövq edir.

Görkəmli sovet pedaqoqu V.A.Sxomliniski deyirdi ki, ən əvəzsiz hədiyyə başqa adama sevinc, xoşbəxltik bəxş etməkdir. Müəllim təbəssümü bə sevinci şagirdlərin qəlbində xeyirxahlıq , insanlıq münasibətləri, məhəbbət ,gözlərində isə qığılcım yaradır. Emosionallıq olmadan insanın həqiqəti dərk etməsi mümkün deyilir. Məhsuldar yaradıcı əməyin mənbəyi emosiyadır. Didaktika çoxdan sübut etmişdir ki, cansıxıcılıq təlimin qəddar düşmənidir. Cansıxıcılıq tərbiyədə laqeydlik yaradır. Laqeydlik isə ölümdür. Xalq şairi S.Vurğun çox gözəl deyirdi: uşaq tənbəlliyinin səbəbi pedaqoji şəraitdə axtarmalıyıq. Pedaqoji şəraitin məhək daşı isə müəllim şagird münasibətləridir. Müəllim şagird münasibətlərində obyektivlik, ədalət, qayğıkeşlik, insanlıq və s. olmadıqda şagird müəllimdən inciyir, onun qəlbi yaralanır, şagirdlərdə müəllimə, onun tədris etdiyi fənnə qarşı laqeydlik yaranır. “Laqeydlik isə bədənin iflicidir. (A.P.Çexov) [1]

Deməli düzgün olmayan, şagird mənəviyyatına qol-qanad verməyən, şagird əqlinin qidalandırmayan müəllim şagird münasibəti şagirdin iflic olmasına gətirib çıxarır. üky

Emosiya mənəvi əqidənin tərkib hissəsidir. Müəllim emosiyası sinifdə təbəssümdə, sərtlikdə və.s ifadə edilir.

Hissləri əqli vəhtədətdə həyata keçirən müəllim həmişə qələbə çalır. Hisslər ən yaxşı xidmətçilərdir. Lakin hisslərə aludə olmaq, onların əsiri olmaq yaramaz. Sağlam əqil həmişə hisslərə rəhbərlik edir. Lakin əqil həmişə tək hərəkət edirsə, bu müəllim-şagird münasibətlərində təhlükəlidir, dediyimiz kimi bu laqeydliyə gətirib çıxarır.

Müəllim şagird münasibətlərindəki qeyri səmimiyyət bəzən ən yaxşı şagirdin mənəvi aləminə təhsir edir, onun dərslərdən geri qalmasına, nəticədə çətin tərbiyə olunan şagirdlər qrafasına , düşməsinə səbəb olur. Bəzən müəllim şagirdlərindən nə üçünsə küsür, ondan dərs soruşmur, soruşandada sıxma boğmaya salır. Kollektiv qarşısında çox az – az danışan şagird istər-istəməz müəllimin sərt baxışlarının, kinayəli sözlərinin təsiri altında öz yolaşalrından da utanır, danışa bilmir. Bu hal bir neçə dəfə təkrar edildikdə uşaq daha həmin müəllimin dərsini öyrənmir. Nəticədə o, hətta, həmin müəllimin dərsində intizamı pozmağada cəhd göstərir, buna nail olduqda hərəkətlərindən sevinir, getdikcə daha da artıq kobudluq etməyə başlayır. Son anda şagird özü də hiss etmədən bəzi müəllimlərin səhv olaraq “sinfimizin pəhləvanları” , “qonaqları” , adlandırdıqları zəif şagirdlər sırasına gəlib düşür, hətta, belə hallarda bəzi müəllimlər şagirdin oturduğu yeri də dəyişir, onu arxaya köçürür. Halbuki, belə uşaqlara daha çox diqqət və qayğı göstərilməlidir.

Müəllim şagirdini qəlbən sevir, onu hər hansı kiçik müvəffəqiyyətlərindən fərəhlənirsə , o şagirdinin həmişə müsbət cəhətlərini axtarıb tapmağa çalışır. Lakin qəlbində uşaqlara məhəbbəti , analıq hərarəti olmayan müəllim uşağı incidir, ona daxili iztirab verir. L.Tolostoy belə müəllimlərə deyirdi: “Ona əzab verməyin soruşun”

Böyük sovet pedaqoqu V.A.Sxomliniski deyirdi: “Mənim heyatımda ən başlıca cəhət nədir? Düşünmədən fikirləşmədən deyirəm: Uşaqlara məhəbbət”.

Uşaqlara məhəbbət böyük qüvvədir. O uşaqlara böyük təsir edərək onların tərbiyəsinin, təlimini düzgün relsler üzərinə qoyur. Axı, uşaqların məhəbbətə böyük ehtiyacı vardır.

Məhəbbətə istinad etməyən müəllim şagird münasibətləri barsız,balsız ağaca bənzəyir.

Uşaqlara məhəbbət adamlara məhəbbət yaradır, onların fəal, işgüzar, qayğıkeş, böyüməsinə kömək edir. Belə bir məhəbbəti V.A.Sxomlinski “Ürəyimi uşaqlara vermişəm” adlı əsərində böyük bir ürəklə , hərarətlə tərənnüm etmişdir. [3]

Müəllim şagird, şagird müəllim kollektivi münasibətləri bir- biriilə sıx bağlıdır. Uşaq kollektivinin bir üzvünə təsir edən müəllim eyni zamanda bütünlükdə sinif kollektivinə də təsir göstərmiş olur. Bununla belə bilavasitə müəllimin şagird kollektivinə pedaqoji təsiri zəruridir. Müəllim şagird kollektivi münasibətlərinin öz məzmun, spesifik xüsusiyyətləri, çətinlikləri, problemləri vardır.

Pedaqogikanın müasir səviyyəsində dayanan, yaradıcı axtarışlarla məşğul olan müəllim uşaq kollektivinə yalnız obyekt kimi deyil, habelə tərbiyə prosesində özünün ən yaxın köməkçisi kimi baxır.

Kollektiv tərbiyə amilidir və o şagird şəxsiyyətinə çox vaxt müəllimdən də güclü təsir göstərir. Kollektiv mənəvi tərbiyədə, münasibətlərin formalaşmasında müəllimin əlində qüdrətli silahdır. Müəllim hər bir şagirdin yaxşı vəya pis hərəkətinin kollektvin müzakirəsinə verib ictimai rəy yaratdıqda yaxşı olur.

Şagird kollektivi ilə müəllim arasında heç bir ziddiyət yaranmamalıdır. Belə hallar olarsa , onda müəllim pis vəziyyətdə qala bilər, kollektiv onu eşitməz. Nəticədə müəllim hörmətdən düşür, inzibati tədbirlər isə havadan asılı qalır.

Müəllim ictimai uşaq təşkilatları nümayəndələri ilə də hesablaşmağı, onlara işi düzgün qurmağı bacarmalıdır. Çox vaxt münasibətlərdə ziddiyyət uşaq təşkilatlarının işinin spesivik cəhətlərini bilməmək sayəsində baş verir. Yuxarıda dediyimiz kimi bəzən müəllimlər uşaq kollektivinin "istəklər"və "pislər" deyə iki qrupa bölürlər.

Belə bölgünü şagirdlər ədalətsizlik hesab edir, müəllimlərin istəkli şagirdlərinə pis münasibət bəsləyirlər. Bu isə kollektivdə münasibət bəsləyirlər. Bu isə kollektivdə münasibətlərin zədələnməsinə, korlanmasına gətirib çıxarır.

Müəllim şagird kollektivinə şəxsiyyətlərin mənəvi aləmin formalaşdıran, onları birliyə, ədalətə , humanizmə çağıran bir amil kimi baxdıqda müəllim və şagird kollektivi münasibətləri düzgün inkişaf edir.

Şagirdlərdəm yalnız bir müəllim və ya onlara dərs deyən müəllimlər deyil, habelə bütün müəllim kollektivi təsir edir. Pedaqoji kollektiv eyni zamanda ayrı-ayrı müəllimə də təsir göstərir. Deməli , müəllimlə pedaqoji kollektiv üzvləri arasında müəyyən münasibətlər yaranır və həmin münasibətlər bu və ya digər şəkildə bütünlükdə məktəbin təlim tərbiyə işinə münaqsibətlərin mahiyyətindən asılı olaraq ya müsbət, ya da mənfi təsir edir. Yaxşı, işgüzar kollektivdə kollektiv hər bir şəxsin davranışına, hərəkətinə cavab verir. Əlbətdə , həmişə səmimi mehriban münasibətlərin olamasına çalışmaq zəruridir. Bunun üçün ilk növbədə hər bir müəllimin öz işinə məsuliyyətlə yanaşması vacibdir. Dil ədəbiyyat müəllimi dilin, ədəbiyyatın tədrisi keyfiyyətinə, uşaqlarda ədəbi tələffüzün necə inkişaf etdirilməsinə məsuliyyət daşıyır. Fizika müəllimi fizikanın yüksək səviyyədə tədrisinə cavabdehdir. Sinif rəhbəri isə rəhbər olduğu sinifdə təlim tərbiyyə işlərinin yüksək səviyyədə olmasına cavabdehdir vəs. Lakin hər bir müəllim eyni zamanda bütünlükdə işlədiyi məktəbdə təlim tərbiyyə işlərinin yüksək səviyyədə olmasına məsuliyyət daşıyır. Ona görə ki, hər hansı müvəfəqiyyət və nöqsan üçün yalnız bir müəllim deyil, bütün müəllim kollektivini ya tərifləyir, ya da tənqid edirlər. Tərif və tənqid az da olsa fərdi mahiyyət daşısa da tərifin yaratdığı iftixar da, tənqidin yaratdığı kədər də son anda kollektiv məna kəsb edir. Ona görə də hər bir müəllim əvvəlcə öz işini, sonra isə bütün məktəbin işi üçün məsuliyyət daşıyır.

Məktəbdə pedaqoji kollektivdə fəaliyyət göstərən yaxşı müəllimləri üzə çıxarmaq, onu nailiyyətlərinə sevinmək, özünü ona çatdırmaq hər bir müəllimin şərəfli vəzifəsi olmalıdır.

Pedaqoji kollektivdə işgüzar şərait, cəmimi münasibət hökm sürməlidir. Pedaqoji kollektivdə yoldaşa qibtə etmək olar, lakin yoldaşa paxıllıq etmək, onu inkişafına mane olmaq müəllimə yaraşmaz.

Pedaqoji kollektivdə müəllimlərin bir-birinə münasibəti bəzən hər hansı bir şagirdin əzab çəkməsinə, iki qiymət almasına səbəb olur. Sovet müəllimi heç vaxt kiçik, subyektiv hisslərlə yaşaya bilməz. Müəllim hər hansı bir müəllimə hörmətsizlik etmişsə, onun əvəzinin uşaqdan çıxarmaq, yaxşı oxuduğu halda ona aşağı qiymət vermək anti pedaqoji hərəkətdir.

Müəllim kollektivində gənc müəllimə xüsusi qayğı olmalıdır. İşgüzar, qabaqcıl müəllimlər gənc müəllimlərə kömək etməli, məsləhət verməlidir. Məsləhə, kömək edilməlidir ki, gənc müəllim ondan inciməsin.

Kənd rayonlarında işləyən gənc müəllimlərə xüsusi diqqət və qayğı ilə yanaşmaq, onlara düzgün istiqamət vermək lazımdır. Çox vaxt elə olur ki, eyni ixtisasdan olub yeni gələn gənc müəllim qayğı kömək, məsləhət əvəzinə narahatçılıq duyur, onun rayondan getməsinə şərait yaradılır.Əlbətdə, belə hərəkətlər pedaqoji etikaya sığışmır.

Yaşlı müəllimə xüsusi hörmət və ehtiram olmalıdır. Böyüyə hörmət xalqımızın əsrlərdən bəri qoruyub saxladığı ən gözəl mənəvi keyfiyyətlərdən biridir. Gənc müəllimə qayğı göstərildiyi kimi onun da borcu yaşlı müəllimə hörmət etməsidir. Yaşlı müəllimə rişxənd etmək yaramaz. Böyüyə hörmət həyat qanunumuzdur.

Yaşlı müəllim də həmişə öz yerini bilməli, gənclərlə davranmaq qaydalarına ciddi riayət etməlidir. Gənc müəllim yaşlı müəllimi sayır, onun yanında artıq sözlər danışmrsa, yaşlılardan ehtiyyat edirsə, bu çox gözəl keyfiyyətdir.

Yaşlı nəsil bundan bacarıqla istifadə etməlidir. Böyük tərbiyyəçi A.S.Makaenko deyirdi: "Elə hesab etməyin ki, uşaqlar müxtəlif məzmunlu lətifələri bilmirlər. Xeyir, onlar bəlkə bizdən də çox lətifə, rəvayət bilirlər, lakin bizim yanımızda danışmırlar.Bax əsil tərbiyə odur ki , gənc nəsl bir çox bildiyi şeyləri yaşlı nəslin yanında danışmır, nəinki danişmır,danışmağı lazım bilmir". [2]

Lakin çox vaxt görürsən ki, yaşlı müəllimlər gənc müəllimlərin yanında etikaya sığmayan lətifələr söyləyir, gənclərin də danışmasına imkan yaradırlar. Sonra da gənclərdən şikayət edirlər ki, onlara hörmət etmirlər. Hörməti heç yerdə satmırlar. Hər bir kəs hörməti özünün əməyi, mənəviyyatı sayəsində qazanır. Hörmət sahibi olmaq o deməkdir kii gənc müəllim sənin yanında özünü yığışdırmağı da ürək sözünü də deməyi bacarsın. Hörmət odur ki , gənclər səni görəndə ehtiram əlaməti olaraq ayağa dursun, eyni zamanda çətinlik çəkdiyi, həll edə bilmədiyi məsələlərdə bir ata kimi məsləhət alsın.

Pedaqoji kollektivdə bir birinə ehtiram, hörmət inam havası hökm sürməlidir. Elmi-əxlaqi etik mübahisə olmalıdır. Belə şəraitdə hər bir kəs öz rəqibini susdurmağa deyil inandırmağa çalışmalıdır. Qarşılıqlı anlaşma, mehriban münasibət pedaqoji kollektivi vahid bir ailəyə çevirə bilər. Belə ailədə həmişə məhəbbət və qayğı olur. Kollektivin üzvləri bir-birinə qaynayıb qarışsınlar.

Ədəbiyyat

1. Çexov A.P. “Seçilmiş əsərləri”
2. Makarenko A.S. “Pedaqoji poema” 1920
3. Sxomlonski B.A. “Ürəyimi uşaqlara verirəm” Kiyev 1972
4. Talıbov Y.Pedaqoji etika Bakı 1978

РЕЗЮМЕ

МЕСТО И РОЛЬ ОТНОШЕНИЙ УЧИТЕЛЯ И УЧИТЕЛЯ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ УЧИТЕЛЯ

Гусейнова В. В.

Нахичеванский государственный университет

В своём исследовании я пыталась выяснить отношения между учителем и учеником в процессе обучения. Главная цель учителя – это создать реальные условия для формирования творческой личности. Основными чертами является отражение формирования и развития личности будущего гражданина.

Как известно, процесс воспитания - это динамичный, длительный процесс формирование нравственных отношений, требующий больших усилий, напряженный труд. Таким образом, учитель должен, несомненно, обладать психологическими знаниями, изучать индивидуальные особенности, биологически обусловленные структуры психики ученика.

Ключевые слова: *учитель, личность, среда, ученик, отношение, идея, нравственность, деятельность, убеждение, духовность.*

SUMMARY

THE PLACE AND ROLE OF TEACHER AND STUDENT RELATIONSHIP IN THE FORMATION OF TEACHER PERSONALITY

Huseynova V. V.

Nakhchivan State University

The topic that I examined is about the upgrading quality of a pedagogue-learner correlation in the educative approac. Even in formulating of a real personality forthcoming citizens find out itself in this publishing. Simultaneously, the process of nurturing, the procedure of formation of moral relations demands a dynamic, dialectical, eternal, intensive effort. Especially, the issue deals with this case. On this faint of view, educators should endeavor to acknowledge the whole particular characteristics of the learners to embezzle the psychological and biological peculiarities.

Keywords: *an educator, personality, surrounding,a student, attitude, concept, activity,high-minded confidence*

AZƏRBAYCAN MULTİKULTURALİZMİNİN İNTEQRATİV XARAKTERİ

Eyvazlı Aygün Rüstəm qızı
ADMİU, Kulturologiya üzrə fəlsəfə doktoru
Kulturologiya.admiu@mail.ru

Açar sözlər: *multikulturalizm, inteqrasiya, konsepsiya, qlobal, etnik azlıq*

Multikultural cəmiyyətin formalaşmasında müstəqillik, demokratiya mühüm şərtdir. Multikulturalizm nədir? Multikulturalizm demokratik dövlət strategiyasıdır və mədəniyyətlərin qarşılıqlı inteqrasiyasıdır. Multikulturalizm həm də dövlət siyasətidir. Multikulturalizm "…ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların, dövlətlərin milli mədəniyyətlərinin inteqrasiyasına yönəldilmişdir" [6, s.6].

Azərbaycanın multikultural siyasətinin əsasını ölkə ərazisində yaşayan müxtəlif xalqların nümayəndələrinin, o cümlədən azsalı xalqların dilinin, mədəniyyətinin və hüquqlarının qorunması, inkişafı təşkil edir.

Qlobal sivilizasiya çoxmədəniyyətililik zəminində təşəkkül tapır və onların konsentrasiyasında mövcud olur. Multikulturalizm konsepsiyası qloballaşma, müasir dünyada baş verən mədəni universalizasiya və unifikasiya meyllərinə əks olaraq mədəni müxtəlifliyin ifadəsi olan bütün fenomenlərin (dil, din, adət-ənənə, sənət və s.) mühafizə və qayğısını bəşər mədəniyyətində harmoniyanın əsas şərti hesab edir.

Öz daxili bütövlüyünü müxtəlifliyin vəhdəti şəklində tapan qlobal sivilizasiya özünü müxtəlif mədəniyyət və sivilizasiyalardan qidalandırmaqla deməli, tükənməz potensiya mənbəyinə malik olmaqla inkişafının dialektikasını və dinamikasını da təmin etmiş olur [5, s.176].

Çoxmədəniyyətlilik konsepti müasir Azərbaycanda ciddi təhlilə məruz qalmışdır. Yalnız Azərbaycan üçün deyil, bütün dünya üçün aktual problemlərdən olan mədəniyyətlərarası dialoqun mühüm xarakter daşıması, tələtümlü dünyamızın xilası faktorlarından biri olmaqdadır. Odur ki, dünya siyasətçiləri arasında mühüm yer tutan ulu öndər Heydər Əliyev Azərbaycanın tarixində ən mühüm dəyərlərdən sayılan multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi [6, s.8].

Multikulturalizm ziddiyyətli kateqoriyadır, qlobal dünyamızda ona fərqli baxışlar mövcüd olmaqdadır. Bu fərqlilik hər bir ölkə üçün müxtəlif cür formalaşmış və həmin ölkənin milli dəyərlərinə istinad edir, bunun digər şəraitdə tətbiqi və dəyrləndirilməsi üçün münasib şəraitin olması da düşündürücü olmaqla, həm də çətindir, çünki bu dəyərlər hər bir ölkədə əsrlərlə özünəməxsus şəkildə formalaşmışdır.

Bu zaman dinc yanaşı yaşamanın dünya konsepsiyasının ümumi strategiyasının konkret etnomədəni və milli-mədəni inkişaf konsepsiyası ilə uzlaşması prinsipinin nəzərə alınması zəruridir. Belə ki, multikulturalizm siyasəti assimilyasiyanı inkar edir, inteqrasiyaya doğru aparır.

Çoxmədəniyyətlilik tarixən olduğu kimi, müasir dünyanın da mövcudluq şərti və reallığıdır ki, qlobal sivilizasiyanın struktur əsaslarını təşkil edir. Buna görə də qlobal sivilizasiyanın çoxmədəniyyətlilik paradiqmasına bütün bəşəriyyətin birgə tarazlı tərəqqisinə əsaslanan humanist, inteqrativ konsepsiya olaraq multikulturalizm ideologiyası dünya ictimaiyyəti tərəfindən dəstəklənməlidir.

Mədəniyyətlərarası münasibətlərin dialoji aspektdə inkişafına hazırda böyük önəm verilməsi və bu prosesin yüksək beynəlxalq səviyyədə təşkilatlanması istiqamətində ciddi fəaliyyət göstərilməsi təsdiq edir ki, dünya birliyinin qlobal sivilizasiya məkanında qərarlaşması optimal variantları həqiqətə çevirməkdədir. Çox ölçülü və çoxsəviyyəli heterogen dünyanın qarşılıqlı əlaqə və təsirlənmələrlə təşəkkülü və harmonikləşməsi zərurətindən doğan qlobal sivilizasiya özünün lokal (regional) sivilizasiya və mədəniyyət komponentləri arasında dialoji münasibətlərin hazırkı ilkin fazasında həmin münasibətlərin təməl prinsiplərini yaratmaqdadır. Varlıq özü əksqütblülüyün dialoji strukturundadır [3, s.113].

Multikulturalizm modellərinin mürəkkəbləşməsi müasir dövr üçün səciyyəvidir. Hazırda bu modellərinin mürəkkəbləşməsi mültikultural dəyərlərin inteqrasiyası və onlara hər bir ölkənin uyğunluq dərəcəsi və adaptasiya olunması zərurəti vacib sayılır, belə olan halda hər bir konseptual xarakterli yanaşmaların araşdırılması tələb olunur.

Zaman və məkan daxilində mədəniyyətlərarası münasibətlərin yenidən nəzərdən keçirilməsi, bütün incə məqamların da dialoq üçün açıq ola biləcəyini, inteqrativ yanaşmada nələrin nəzərə alınacağı da vacib sayılır. Ona görə də mültikultural dəyərlərin inteqrasiyası informasiya əsrinin tələbləri səviyyəsində aparılarsa, uyğunlaşma mexanizmi daha möhkəm qurula bilər. Odur ki, belə bir adaptasiyanın, inteqrasiyanın müsbət həlli müasir institutların vasitələr axtarışı problemidir [3, s.71].

Multikultiralizm sözü Azərbaycan leksikonuna yeni daxil olsa da, əslində, xalqımızın çoxəsrlik ictimai-fəlsəfi fikir tarixində bu dəyərlər dərin tarixi köklərə malikdir. Azərbaycan mədəniyyəti ümumdünya mədəniyyət sisteminin tərkib hissəsi olmaqla tarix boyu dünya mədəniyyətinin inkişafına öz bənzərsiz töhfələrini vermişdir.

Azərbaycan multikulturalizminin qarsısında əsas məqsəd Azərbaycan Respublikasının multikulturalizm siyasətinin ölkədə ugurla həyata keçirilməsinə nail olmaqdır. Belə ki, insanların multikultural kompetensiyalarının qiymətləndirilməsinə nail olmaq üçün onun malik olduğu, əldə etdiyi mədəni dəyərlər əsas götürülür. Bu dəyərlər hər bir xalqın arzularının reallaşması və öz mədən həyatını informasiya əsrinin tələbləri səviyyəsində qurması üçün vacib şərtlərdən biri kimi multikulturalizmin mərkəzində durur.

Belə düşünmək olar ki, müasir texnoloji inkişaf, informasiya vasitələrinin çoxluğu multikultural dəyərlərə maraq Avropaya inteqrasiyanı dücləndirəcək. Müasir dövrümüzün reallıqlarını nəzərə alsaq, bu yanaşmanın gerçəyə çox yaxın olduğunu görə bilərik. Belə ki, multikultural dəyərlərə malik olmaq hər bir insanın mənəvi aləmini zənginləşdirir, onun dünyaya baxış bucağı dəyişir, sivil cəmiyyətin ideal şəxsiyyəti olur.

Multikulturalizmin prinsipləri müxtəlif mədəniyyətlərin bir arada yaşaması, var ola bilməsi və birgə yaşama qaydasıdır. Azərbaycan Respublikası multikulturalizm ideyalarına sadiq, tolerant dövlət kimi tanınmaqdadır. Azərbaycan tarixən müxtəlif xalqların bir ailə kimi yaşadığı, heç bir ayrı-seçkiliyə yol verilmədən, dini baxışlara dözümlü münasibət göstərən bir ölkədir.

Multikulturalizm Azərbaycan Respublikasının dövlət siyasətidir və xalqımızın mental dəyərlərindən biridir. Multikulturalizm fəlsəfəsinin əsasını təşkil edən prinsiplər dialoqlar əsasında qurulmuş yeni tipli mədəniyyətlərin qovuşmasından qaynaqlanır. Bu prinsiplər aşağıdakılardır:

- Hər bir xalqın mədəniyyəti dəyərli, özəl və unikaldır.
- Hər bir xalqın özəlliyinə, fərqliliyinə dözümlülük əsasdır.
- Hər bir xalqın özünütanıma hüququ təsbit olunur və mərkəzləşdirmə aparılmadan mədəni identiklik hüququna malikdir [2, s.1-2].

Azərbaycan rəhbərliyinin apardığı multikultural siyasət Azərbaycan Konstitusiyasının əsas müddəalarında öz əksini tapmışdır. Azərbaycan Respublikası Konstitusiyasının maddələrində[1, m. 21, 25, 44, 45] multikultural siyasətdə tolerantlıq (dözümlük) prinsipi təsbit edilmişdir. Bununla bağlı "Bərabərlik hüququ"
[maddə 25, bənd 3], "Milli mənsubiyyət hüququ" [maddə 44, bəndlər 1, 2], "Ana dilindən istifadə hüququ" [maddə 45, bəndlər 1, 2] və başqa maddələri göstərmək mümkündür.

Qloballaşmanın sürətlə getdiyi indiki şəraitdə multikultural siyasətdə tənqidi təfəkkürə malik şəxsiyyətlərin "dialoq mədəniyyətinə" üstünlük verməsi ön plana çəkilir. Xalqımızın tarixi reallığı bütün zamanlarda müxtəlif millətlərinin nümayəndələrinin cəmiyyətin tərəqqisində iştirakının mühüm amil olduğunu göstərmişdir. Tarixi, maddi-mənəvi irsin qorunub saxlanılmasında, gələcək nəsillərə ötürülməsində hər bir mədəniyyətin qorunmasının çox böyük rolu vardır. Azərbaycanda bir çox millətin nümayəndələri birgə yaşayaraq, ölkənin inkişafında yaxından iştirak edirlər.

Çoxmillətli dövlət olan Azərbaycan Şərq, Qərb, Asiya və Avropa ilə həssas məkan nöqtəsindədir. Tarixi, coğrafi göstəricilər Azərbaycanın multikultural siyasətdə də fəaliyyətinin inteqrativ təşkilini zəruri edir, məzmun etibarı ilə cəmiyyət üzvlərinə, onların maraq və istəklərinə istiqamətləndiyi üçün çoxluğun tələbinə çevrilə bilir. Belə ki, Azərbaycan məkana görə müxtəlif xalqlar arasında dialoqa modullaşdırılıb desək yanılmarıq [2, s.3].

Multikulturalizm qarşısındakı duran vəzifələrə uyğun olaraq rəngarəng mədəniyyətlərin inteqrasiyası anlayışının izahını vermək mütləqdir. Müxtəlif mədəniyyətlərə məxsus xalqların dinc yanaşı yaşama strategiyası dini, sosial zəmində münaqişələrin yaranmasının qarşısını almağa kömək edir. Belə ki, yaranan münbit şərait mədəniyyətlərin inteqrasiyasına fəal təsir göstərir.

Bütün bunlar insanları bəzən çətin dərk olunan sosial-mədəni problemlərə yenidən baxmağa və dinc yanaşı yaşama prinsipinə əməl etməyə, ...digər mədəniyyətlərlə təmas axtarışına sövq edir.

Multikulturalizm Azərbaycan Respublikasında dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Respublikamız coxmillətli dövlət kimi burada yaşayan xalqların, etnik azlıqların hər bir nümayəndəsinin maraqlarını qoruyur, onların özəl dilinin, dininin, maddi və mənəvi mədəniyyətlərinin inkişafi qayğısına qalır. Çünki onlar tarixi keçmişin yaddaşını, mentalitetini, etnik özünüdərketmə və etnopsixologiyasını qoruyub saxlayan unikal xüsusiyyətlərin daşıyıcılarıdır [7, s.11].

Azərbaycan multikulturalizmi-inteqrativ anlayışdır. Dövlət səviyyəsndə və müxtəlif qurumların köməyi ilə etnik azlıqların dəstəklənməsində və milli azlıqların öz dillərindəki milli-mədəni cəmiyyətlərin müxtəlif layihələrinin inkişaf etdirilməsində inteqrasiya siyasəti mühüm rolu oynayır. Azərbaycanın Avropaya inteqrasiyası, bunun özünəməxsusluğu və etnomilli yanaşma pozitiv şərai yaratmaqdadır.

Ədəbiyyat
1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995
2. Azərbaycanda dini mədəniyyətin, tolerantlığın, dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinin gücləndirilməsinə dair əlavə tədbirlər//Azərbaycan.- 2014, 19 yanvar, s.3
3. Azərbaycançılıq ideyasının konseptual aspektləri: Monoqrafiya. Bakı: Avropa, 2016, 179 s.
4. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması. Bakı, 15 may, 2014,
5. Cəfərova R. Olqballaşma dövründə multikulturalizm dəyərlərinin əhəmiyyəti. Bakı, 2016, 29-30 aprel, s.97
6. Multikulturalizm Azərbaycan xalqinin həyat tərzidir. Bakı, 2016, 88 s.
7. Multikulturalizm: nailiyyətlər və problemlər. Beynəlxalq hümanitar Formu. Bakı, 2011, 10-11 oktyabr
8. http://bakuforum.az/az/multikulturalizm-nailiyyetler-eroblemler/?fid=2258

РЕЗЮМЕ
ИНТЕГРАТИВНЫЙ ХАРАКТЕР АЗЕРБАЙДЖАНСКОГО МУЛЬТИКУЛЬТУРАЛИЗМА
Эйвазлы А. Р.
Азербайджанский государственный университет культуры и искусств

Демократия и интеграция являются решающими факторами в сохранении многокультурных ценностей нашего глобального мира. Мультикультурализм - очень сложная и динамичная концепция, но это противоречивая категория в современном мире в виде различных моделей. Эти разные модели можно адаптировать в одной стране, но их нельзя применять в других условиях, потому что любая модель основана на определенных ценностях, сформированных веками. Для применения той или иной модели необходимо учитывать принцип гармонизации общей стратегии мировой концепции мирного сосуществования с концепцией конкретного этнокультурного и национально-культурного развития. Таким образом, политика мультикультурализма в глобальном мире отрицает ассимиляцию и ведет к интеграции.
Ключевые слова: *мультикультурализм, интеграция, концепция, глобальный, этническое меньшинство*

SUMMARY
THE INTEGRATIVE NATURE OF AZERBAIJANI MULTICULTURALISM
Eyvazli A.R.
Azerbaijan State University of Culture and Arts

Democracy and integration are critical factors in preserving the multicultural values of our global world. Multiculturalism is a very complex and dynamic concept, but it is a controversial category in the modern world in the form of various models. These different models can be adapted in one country, but they cannot be applied in other conditions, because any model is based on certain values formed over the centuries. To apply this or that model, it is necessary to take into account the principle of harmonizing the general strategy of the world concept of peaceful coexistence with the concept of specific ethno-cultural and national-cultural development. Thus, the policy of multiculturalism in the global world denies assimilation and leads to integration.
Keywords: *multiculturalism, integration, concept, global, ethnic minority*

GƏNCLƏRİN SOSİALLAŞMASINI İSTİQAMƏTLƏNDİRƏN KOMPONENTLƏR

İsmayılova Mehriban Cəlal qızı
ADPU, Pedaqoji psixologiya kafedrası, dosenti, psixologiya üzrə fəlsəfə doktoru
mehriban_ismayilova_1962@mail.ru

Açar sözlər: *sosiallaşma, özünütəyin, dəyər, yönəlişlik, funksional komponentlər*

Gənclik yaş dövründə insanın inkişafı həmişə pedaqoq və psixoloqların diqqətini cəlb etmişdir. Müasir dövrdə sosiallaşma şəraitində gənclərin sosiallaşması onun bir şəxsiyyət, fərdiyyət və subyekt kimi funksionallaşmasına zəmin yaradır. Gənclərin sosiallaşmasının özünəməxsusluğu ondadır ki, onlar müəyyən sosial qruplarda yaşlılarla və həmyaşıdları ilə qarşılıqlı münasibətlərdə və ünsiyyətdə yeni funksiyaları

yerinə yetirirlər. Onlar fəaliyyətin müxtəlif ictimai əhəmiyyətli növlərinə daxil olmaqla ünsiyyət dairələrini genişləndirir, sosial dəyərləri mənimsəyir və şəxsi əxlaqi keyfiyyətlərini formalaşdıraraq sosiallaşırlar.

Bu yaş dövründə gənc həmyaşıdları ilə ünsiyyətdən məmnunluq hissi duyur və özünü təsdiq edir. Tələbatını ödəməklə sosiallaşan gənc təbiət və cəmiyyətdə baş verən hadisələrə müxtəlif baxışlar əldə edir, dəyər, əxlaq və davranış qaydalarına yiyələnir. Sosiallaşmanı şəxsiyyətin tam inteqral prosesi kimi təsəvvür edən Amerika sosioloqlarından: T.Parsons və R.Mertonun fikrincə, struktur-funksional istiqamətdə sosiallaşma və uyğunlaşma baş verir. Belə ənənəvi məktəbdə sosiallaşma adaptasiya anlayışı vasitəsi ilə aydınlaşdırılır.

İnsan mühit ilə qarşılıqlı əlaqə prosesində fəal olmasaydı onun sosiallaşması mümkün olmazdı, o, sosial təcrübəni və mədəniyyəti mənimsəyə bilməzdi. Sosiallaşma daim dəyişən, zənginləşən, hərəkətdə, dinamikada olan prosesdir. Sosiallaşma fərdin davranış nümunələrini, norma və dəyərləri, mövcud cəmiyyətdə onun uğurlu fəaliyyət üçün zəruri olanların mənimsənilməsidir. Alimlərin fikrincə, şəxsiyyətin sosiallaşması fərdin cəmiyyətə, müxtəlif tipli sosial birliklərə inteqrasiyasıdır ki, bu da fərdin sosial norma və dəyərləri mənimsəməsi sayəsində mümkün olur. Həmin norma və sərvətlərin əsasında şəxsiyyətin sosial cəhətdən əhəmiyyətli xüsusiyyətləri formalaşır. Başqa sözlə, insan sosiallaşaraq mədəniyyət və sosial münasibətlər aləminə daxil olur, cəmiyyətdə və sosial qruplarda onun fəal nümayəndəsi kimi formalaşır.

Adaptasiya anlayışının köməyi ilə sosiallaşma gəncin sosial mühitə daxil olub mədəni, psixoloji və sosial amillərə uyğunlaşması kimi nəzərdən keçirilir. Sosiallaşma prosesində gənc özünü nümunə göstərir, müxtəlif sosial rolları yerinə yetirir, bununla da özünü təzahür etdirə bilir. Sosial rolların yerinə yetirilməsi dinamikasında gənc sosial aləmə daxil olmaqla ətrafındakı insanlarla qarşılıqlı münasibətlərinə dair şəxsi təsəvvürlərini əldə edə bilir.

A.V.Mudrik inkişafın hər bir mərhələsində gənclərin sosiallaşmasına xidmət edən həll etdəcəkləri üç qrup vəzifələri müəyyən etmişdir: təbii-mədəni, sosial-mədəni və sosial-psixoloji **[1].** *Təbii-mədəni vəzifələr* gənclik yaş dövründə gənclərin fiziki və seksual inkişafının müəyyən səviyyəsindəki uğurları ilə bağlıdır ki, onlar bu və ya digər ərazi-mədəni şəraitdə normativlərdəki fərqliliklərlə xarakterizə olunur. Gənc bu vəzifələri yerinə yetirməklə özünü cəmiyyətdə statusunu müəyyən edir və sosiallaşır.

Sosial-mədəni vəzifələr idraki, əxlaqi-mənəvi, dəyər kimi vəzifələr olub tarixi sosiumda gənclik yaş mərhələsi üçün spesifikdir. Bu vəzifələri yerinə yetirməklə gənc əxlaqi-mənəvi keyfiyyətləri özündə əxz edir, sosial norma və dəyərləri mənimsəyir, fəallıq göstərərək sosiallaşır.

Sosial-psixoloji vəzifələr gənclərin özünüdərki, özünüreallaşdırması, özünütəyini, özünü-aktuallaşdırması ilə bağlıdır ki, o, psixoloji məzmuna və onlara nail olmaq üsullarına malikdir. Belə ki, gənc mənsub olduğu sosial qruplarda onu əhatə edən insanlarla qarşılıqlı təmasa daxil olur, özünü yaşlılar və həmyaşıdları arasında təsdiq edir, sosiallaşaraq öz "Mən konsepsiyası"nı təzahür etdirir. Tərbiyə prosesində adları çəkilən vəzifələrin həlli gənclərin şəxsiyyətinin inkişafını və onların sosiallaşmasının zəruriliyini təmin edir. Əgər hər hansı qrupdan olan vəzifələr sosiallaşmanın bu və ya digər mərhələsində həll edilməmiş qalarsa o gəncin sosiallaşmasının ləngiməsinə səbəb olar. Aparılmış tədqiqatların psixoloji təhlili adaptasiya prosesində gənclərin sosiallaşmasında mühüm olan idraki, dəyər-istiqamətlənmə və fəaliyyətli komponentləri müəyyən bizə etməyə imkan vermişdir.

İdraki komponent - sosial münasibətlərdə gəncin biliklərin və sosiumda onun həyatı üçün zəruri olan bacarıqların əldə etməsini nəzərdə tutan, dünyanın mənzərəsinin obrazını fikir və təsəvvürlərində yaradılmasına yönəldilən komponentdir. Gənc sosial qruplarda və cəmiyyətdə sosiallaşaraq həmin idraki komponentləri mənimsəyir, təlim-tərbiyə prosesində onlardan zəruri hallarda istifadə edir.

Dəyər-istiqamətlənmə komponenti - gənclərin şəxsi sosial təcrübəyə dair informasiyaları alması və ona şəxsi münasibətinin formalaşması ilə nəticələnir. Bu komponentə ictimai davranış qaydalarına, başqa adamların sosial normalarına və davranış formalarına yiyələnmək, onlara riayət etmək qabiliyyəti aid edilir. Bu komponentlərin birgə fəaliyyətində gənc sosiallaşır və müsbət əxlaqi sosial keyfiyyətlərə yiyələnir və onları dəyərləndirir. Sosiallaşma prosesində bu komponentin mahiyyəti ondan ibarətdir ki, gənc sosial normaları və rolları mənimsəyir, fəaliyyətin məzmununu başa düşüb onun sosial əhəmiyyətliliyini dəyərləndirir və ona doğru istiqamətlənir.

Fəaliyyətli komponentin əsasında dəyər sisteminə əsaslanan sosial fəaliyyət sistemində gəncin fəallığı özünü göstərir. Bu komponent gənci fəaliyyətə təhrik etməklə şəxsi sosial təcrübə əldə etməyi nəzərdə tutur, gənci öz şəxsiyyətini subyekt qismində təzahür etdirməyə, özünü təkrarolunmaz fərdiyyət kimi formalaşdırmağa, habelə təlim-tərbiyə prosesində adaptasiya olmağa və sosiallaşmağa imkan verir.

Yuxarıda göstərilən funksional komponentlər sistemi adaptasiya prosesində gəncin sosiallaşması ilə sıx bağlıdır. Gəncin sosiallaşmasının tam və obyektiv sistemi onun komponentlərinin birliyinə gətirib çıxarır.

Bir sözlə, sosiallaşma dedikdə, cəmiyyətin tələblərinə və statusuna cavab verən keyfiyyətlərin necə formalaşdığı başa düşülür. Sosiallaşmaya gənclərin şəxsi və sosial keyfiyyətlərin mənimsənilməsi də daxildir. Sosiallaşmış gənc sosial cəhətdən yetkindir. Sosiallaşma "sosial yetkinlik" termini adı altında konkret sosiomədəni konteksdə insanda sosial keyfiyyətlərin inkişaf dərəcəsi kimi başa düşülür.

S.P.İvanenkov belə bir nəticəyə gəlir ki, "sosiallaşmış şəxs cəmiyyətdə, bütünlükdə məişətdə olanlara şüurlu və məsuliyyətli olsun" [1, s.102].

Sosiallaşma cəmiyyətdə və sosial qruplarda yaranan çətinliklərin aradan qaldırılmasında təzahür edir. Fərd bu çətin yolda sosiallaşaraq həyatın mənasını dərk edir, şəxsi inkişafını davam etdirir.

A.İ.Kravçenko şəxsiyyətin sosiallaşmasını (sosial yetkinliyi) sosial-əxlaqi keyfiyyətlərin: əməksevərliyin, borc hissinin, ictimai şüurluluq və aktivliyin, qanuna riayət etmənin yüksək dərəcədə inkişafı ilə müəyyən etmişdir. Digər alimlər isə şəxsiyyətin sosiallaşmasının (sosial yetkinliyin) əsas meyarlarını özünəhörmətlə, başqa adamlara, təbiətə qayğı və hörmətlə proqnozlaşdırmağı bacarmaqda, həyata yaradıcı yanaşmada, kreativlikdə ifadə edirlər.

Sosiallaşmış gənc odur ki, o, yaşadığı cəmiyyətin əxlaqi norma və qaydalarını qəbul edib mənimsəsin, mənəviyyatca formalaşsın. Uğurli sosiallaşma bir tərəfdən cəmiyyətə konformluq bacarığını, digər tərəfdən isə əxlaqi dəyərlərdən uzaqlaşma meylinə qarşı möhkəm durmağı nəzərdə tutur. A.V.Mudrik uğurlu sosiallaşmanı təmin edən şəxsiyyəti universal mənəvi dəyərlərin başa düşülməsinə yönəldilmiş, sosial rola seçici münasibət zamanı özünün dəyərləri və tələbləri arasında balans yaratmaq bacarığına qadir olan sosial varlıq kimi xarakterizə etmişdir [1].

Apardığımız psixoloji tədqiqatın nəticələri göstərir ki, kolleclərdə təhsil alan gənclərdə orta və yüksək səviyyədə sosiallaşma üstünlük təşkil etmişdir. Bir sözlə, gənclərin sosial varlıq kimi cəmiyyətdə sosiallaşmasına özünüdərk, "şəxsi Mən", başqa adamlarla qarşılıqlı münasibət, habelə ictimai birliklərdə biliklərin üstünlüyü, ayrı-ayrı sosial institutlarda onların funksiyaları, ictimai əhəmiyyətli dəyər və normaların mənimsənilməsi, sosial yönəlişlik və sərvət dəyərlərinin formalaşması, praktiki vərdişlərin qazanılması və konkret fəaliyyətdə onların reallaşması aid edilir. Sosializasiya prosesində gənclər sosiallaşaraq adaptasiya, inteqrasiya, özünüinkişafa və özünüreallaşmaya nail olurlar. Onların birliyi ətraf mühitdə, birgə fəaliyyətdə gəncin uğurlu sosiallaşmasını təmin edir.

Ədəbiyyat

1 .Иваненков С.П. Проблемы социализация современной молодежи. 2-е изд. доп. СПб, Синтез-Полиграф, 2003

2. Горбунова М.Ю. Социальная психология /М.Ю.Горбунова.-М.:Изд-во ВЛАДОС-ПРЕСС, 2006, -223с.

3. Мудрик А.В. Социализация человека: учебное пособие для студ. выс. учеб. завудений. А.В.Мудрик. -2-е изд., исп. и доп.-М.: Изд-кий центр "Академия" , 2006, -304с.

4. Рожков М.И. Подготовка будущих педагогов к реализации социально-педагогических функции в профессиональной деятельности. –Ярославль, 2002. –с.49

РЕЗЮМЕ

КОМПОНЕНТЫ НАПРАВЛЯЮЩИЕ СОЦИАЛИЗАЦИЮ МОЛОДЕЖИ

Исмаилова М.Дж.

Азербайджанский государственный педагогический университет

В тезисе автором последовательно исследуются компоненты социализации молодежи. Автор справедливо отмечает, что социализация через понятие адаптации рассматривается как приспособление молодежи к социальной среде, культурным, психологическим и социальным факторам. В процессе социализации молодой человек подает пример, выполняет различные социальные роли, способен самовыражаться. Полная и объективная система социализации молодежи приводит к единству ее компонентов.

Ключевые слова: *социализированность, самоопредение, ценности, ориентация, функциональные компоненты*

SUMMARY
COMPONENTS THAT GUIDE THE SOCIALIZATION OF YOUNG PEOPLE
Ismayilova M. J.
Azerbaijan State Pedagogical University

In the thesis, the components of the socialization of young people are sequentially studied by the author. The author rightly notes that socialization through the concept of adaptation is considered as the adaptation of young people to the social environment, cultural, psychological and social factors. In the process of socialization, a young person sets an example, performs various social roles, and is able to express himself. The complete and objective system of youth socialization leads to the unity of its components.
Keywords: *socialization, self-determination, value, orientation, functional components*

MÜASİR DÖVRDƏ MÜƏLLİM ŞƏXSİYYƏTİNİN AKTUAL MƏSƏLƏLƏRİ

Heydərova Simnarə Nadir qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı,Azərbaycan
simnarah@gmail.com

Açar sözlər: *müəllim, şəxsiyyət, tələbə, peşə, aktual, müasir dövr, şagird, öyrətmək.*

Yaşadığımız zaman elə bir dövrdür ki, bütün nüansları müasir səviyyədə tələb edir. Əgər biz XXI əsrdə yaşayırıqsa, zəmanə ilə uzlaşmaq çox vacibdir. Hansısa sahədə yenilikləri tətbiq etmək başqa insanlar üçün əlverişlidir. Bu sahələrdən müəllim sənəti də hər daim yenilik tələb edən sənətdir. Şagirdlərə, tələbələrə, ümumilikdə hər bir öyrənən müəllimdən yeni bir metodika tələb edir. Bir çox müəllimlər var ki, hələ də sovetdə öyrəndiklərini tətbiq edirlər.

B.H.Əliyev və R.V Cabbarov yazırlar ki, "Müəllim peşəsi özünün spesfikliyi ilə bir sıra peşələrdən fərqlənir. Onun peşəsinin spesifikliyi, hər şeydən əvvəl, uşaq və yenyetmələrlə daima ünsiyyətdə olması, özünəməxsus dünyagörüşü və özünün fərdi-psixoloji xüsusiyyətləri, subyektiv inamı ilə səciyyələnir. Hər bir müəllimin də özünəməxsus müəllim fərdiyyəti olmalıdır. Hər bir müəllimə məxsus unikallıq, şəxsiyyət keyfiyyətləri və s. onun xarakterik xüsusiyyətlərini əks etdirir [6, 146].

Müəllim pedoqoji fəaliyyətlə peşəkar məşğul olan və xüsusi hazırlıq keçmiş şəxsdir.Yalnız o, pedaqoji biliklərə uyğun olaraq hərəkət etməyi bacarır, həmçinin öz peşə borcunu layiqincə icra etmək üçün müəyyən olunmuş qaydada məsuliyyət daşıyır. Bəzən müəllimi el arasında ikinci ana-ata adlandırırlar. Müəllim elə bir şəxsiyyətdir ki, uşaq altı yaşına kimi valideynin himayəsində, altı yaşdan sonra həm valideynin, həm də müəllimin himayəsində olur. Bu baxımdan da müəllimin uşaqla olan münasibətinə xüsusi diqqət yetirməli, uşaqlarla hansı formada davranmaq lazım olduğunu bilməlidir. Müəllim üçün vacib olan bir sıra sahələr var ki,onları bilməlidir. Misal üçün , müəllim psixologiyanı bilməli, həm pedogika elmini dərindən bilməli, həm də idarəedicilik və təşkilatçılıq qabiliyyətlərinə malik olmalıdır və s.

Müəllim peşəsi peşə sahibinin şəxsiyyəti ilə bilavasitə vəhdət təşkil edən, biri digərini tamamlayan peşələr sırasına daxildir. Bəlkə də ikinci elə bir peşə yoxdur ki, onun sahibinin şəxsiyyəti ilə bu qədər əlaqəli, bağlı olmuş olsun. Müəllim elə bir saflıq, təmizlik rəmzidir ki, onun şəxsiyyətində özünü göstərən müəyyən çatışmazlıqlar dərhal nəzərə çarpır və qınaq obyektinə çevrilir. Buna görə də çətin ki, başqa elə bir peşə, sənət tapılsın ki, onun sahibinin şəxsiyyətinə bu qədər çox tələbkarlıq göstərilsin və tələb verilmiş olsun. Bu da səbəbsiz deyildir. Çünki, müəllim öyrədəndir, tərbiyəçidir, təbliğatçıdır, nümunədir. Bunlar müəllimin şəxsiyyəti ilə fəaliyyətini bilavasitə əlaqələndirən həm vəzifələr, həm də proses kimi kompleks halda müəllim şəxsiyyətini xarakterizə edir.Bunların hər birini ayrılıqda nəzərdən keçirək.

1. Müəllimin öyrədici(təhsilverici) vəzifəsi. Bu vəzifə müəllim fəaliyyətinin mərkəzində dayanır və onun müəllimlik peşəkarlığını xarakterizə edir. Müəllim öyrədəndir və öyrədə-öyrədə özü də öyrənəndir.

Müasir dövrdə müəllim bir çox funksiyaları yerinə yetirir. Onun öyrətmək funksiyasının reallaşması peşəkarlığının səviyyəsini üzə çıxarmaqla yanaşı, özünütəqdim və özünütəsdiq kimi vəzifələri də yerinə yetirmiş olur.

Uşaqlar müəllimin biliyinə, öyrətmə bacarığına və səriştəliliyinə qarşı çox həssasdırlar. Burada üzə çıxan hər hansı bir səthilik, edilən səhlənkarlıq, buraxılan səhv şagirdlər tərəfindən çox tez duyulur və ona qarşı dərhal reaksiya verilir. Şagirdlər müəllimin tədris etdiyi fənni yaxşı bilməməsini və ya öyrədə

bilməməsini ona güzəştə getmirlər. Burada müəllimin digər keyfiyyətləri onun üstünü örtə bilmir. Buna görə də hər bir müəllim, xüsusən yeni yaradıcılığa başlayan gənc müəllim buna daim fikir verməlidir. Müəllimin tədris etdiyi fənn üzrə öyrətmə bacarığı o zaman qaydasına düşə biləcəkdir ki, o, öz fənnini yaxşı bilsin. Əgər müəllim öz fənnini yaxşı bilmirsə nə qədər əlverişli olsa da heç bir yeni texnologiya, səmərəli metod bu nöqsanı aradan qaldıra bilməyəcəkdir. Bütün bunlar tələb edir ki, müəllim adını daşıyan hər bir insan həqiqətən də öz fənninin müəllimi olmalı, onu bütün incəliklərinə qədər öyrənməlidir.

Müəllimin öyrədici vəzifəsi onun didaktik qabiliyyətini reallaşdırmasıdır. Bildiklərini öyrədə bilmək, yəni didaktik qabiliyyət müəllimin əsas qabiliyyətlərindən olub, müasir dövrdə daha da aktuallıq kəsb edir. Müasir müəllim bələdçidir, istiqamət verəndir,öyrənməyin yollarını öyrədə biləndir, şagirdləri stimullaşdırmağı, onlarda öyrənmə motivlərini inkişaf etdirəndir. Bu isə, əlbəttə, çətindir, çox zəhmət tələb edəndir, axtarışa, tapıntıya səbəb olan işdir.Buna görə də müəllim dərsə hazırlaşarkən mətni şagirdlərə necə danışacağı haqqında deyil, onu necə, hansı yollarla öyrədəcəyi, dərsdə şagirdləri fəal fəaliyyətə necə istiqamətləndirəcəyi, onların potensial imkanlarını necə üzə çıxara biləcəyi və onları necə, hansı yollarla inkişaf etdirə biləcəyi haqqında düşünməli, dərsini əsl yaradıcılığa çevirməyə çalışmalıdır.

İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdiyi müasir dövr bilik mənbələrinin şəbəkəsini xeyli genişləndirmişdir. Müəllimlər hazırda bir vaxt olduğu kimi yeganə bilik mənbəyi, biliklərin transformatoru deyildir. Şagirdlərin bilik aldıqları mənbələr o qədər inkişaf etmişdir ki, onların artan tələbatlarını ödəmək üçün müəllim daha çox çalışmalıdır. Müəllim öz üzərində işləməklə biliyini, metodikasını hər gün zənginləşdirməyə çalışmalıdır. O, biliklərin bələdçisi olub, şagirdərin özlərini yeni biliklər öyrənməyə istiqamətləndirməli, öyrənməyin yollarını öyrətməklə onların şəxsiyyətini inkişaf etdirməlidir. Görkəmli alman pedaqoqu, alman müəllimlərinin müəllimi hesab edilən A.Disterveqin "Pis müəllim həqiqəti təqdim edir, yaxşı müəllim isə onu tapmağın yollarını öyrədir" – kəlamını yaddan çıxarmamalıdır.

2. Müəllimin tərbiyəçilik vəzifəsi. Müəllim həm də tərbiyəçi, tərbiyə verəndir. Bu onun ən əsas funksiyalarından biridir. Müəllimin tərbiyəvi təsiri çox güclüdür. Xüsusən ibtidai siniflərdə şagirdlər müəllimi qeyd-şərtsiz qəbul edir, onun bütün tapşırıqlarını yerinə yetirməyə çalışır və onun dediklərini ən düzgün, ən ağıllı hesab edirlər. Əslində bu belə də olmalıdır. Müəllimin tərbiyəçilik vəzifəsi başlıca olaraq onun apardığı dərs prosesində, təlim zamanı reallaşır. Bəzən elə düşünənlər olur ki, müəllimin tərbiyəçilik işi onun şagirdlərlə müəyyən tərbiyə işləri aparmasından ibarətdir. Sinif rəhbəri kimi onlarla müəyyən tərbiyə işlərini həyata keçirməsidir. Bunlar da vacibdir. Lakin ən vacibi odur ki, müəllim təlim prosesinin tərbiyəvi imkanlarını üzə çıxara bilsin və onun təsirinə nail ola bilsin. Dərs və bütövlükdə təlim prosesi tərbiyə imkanları ilə zəngindir. Müəllimin dərsin daxilindəki tərbiyəvi ünsürləri üzə çıxarıb şagirdlərə çatdırması bu prosesdə əsas yer tutur. Müəllim yeni mövzunun tədrisinə hazırlaşarkən bu hazırlıq içərisində dərsin tərbiyəvi funksiyasının reallaşdırılmasına xüsusi fikir verməli və onun şagirdlərə çatdırılmasına çalışmalıdır. Ümumtəhsil məktəblərində tədris fənlərinin xarakteri elədir ki, hər bir dərsin özündə tərbiyəvi ünsürlər vardır. Lakin görkəmli rus pedaqoqu N.İ.Piroqovun belə bir fikrini yaddan çıxarmaq olmaz ki, bu ünsür çox zaman dərində olur və bəzən səthi, müşahidəçi üçün görünməz qalır. Bundan istifadə etməyən müəllim isə K.D.Uşinskinin dediyi kimi "Uşaqlar üzərində ən başlıca və gerçək təsir vasitələrini itirmiş olur". Buna görə də müəllim dərsin bu cəhətini yaddan çıxarmamalı və onun tərbiyəvi imkanlarını nəzərdən qaçırmamalıdır. Lakin dərsin tərbiyəvi funksiyası təkcə onun məzmununda olan potensial imkanlarla məhdudlaşmır. Dərs, təlim prosesi özü-özlüyündə həm də tərbiyə prosesidir. Burada mövcud olan qaydalar, dərsin düzgün təşkili, aparılması, şagirdlərin dərs boyu fəalliyyətə cəlb edilməsi üsulları, müəllim-şagird münasibətləri, pedaqoji əməkdaşlıq, dərsdə müəllimin davranışı, onun şəxsi nüfuzu və nümunəsi, şagirdlərin nizam-intizamı, verilən tapşırığın məsuliyyətinin dərk edilməsi, tələblərin reallaşdırılması və s. amillər də tərbiyəyə güclü təsir göstərir. Buna görə də təlim prosesində müəllim həm də tərbiyəçilik funksiyasını reallaşdırır ki, bunun da səmərəliliyi onun peşəkarlığından və səriştəliliyindən çox asılıdır. Müəllim həm də sinif rəhbəridir, dərsdənkənar tərbiyəvi işlərin bilavasitə təşkilatçısı və rəhbəridir. Bu istiqamətdə tərbiyə işlərinin səmərəli olması onun pedaqoji məharətindən, səriştəsindən çox asılıdır. Müəlim, sinif rəhbəri tərbiyə işlərinin metodikasına, texnologiyasına daha dərindən bələd olduqda onun apardığı tərbiyə işlərinin təsiri də bir o qədər güclü olur. V.A.Suxomlinski yazırdı: "Şagirdlərlə yalnız dərsdə-müəllim stolunun bir tərəfində o, digər tərəfində şagirdlər olmaqla görüşən adam uşaq ruhunu bilmir, uşağı tanımayan adam isə tərbiyəçi ola bilməz. Belə adam üçün uşaqların fikirləri, hissləri və arzuları həmişə bağlı olur. Müəllim stolu bəzən elə bir daş divara çevrilir ki, həmin divarın arxasından o öz "düşməninə"- şagirdlərə qarşı "hücuma" keçir; lakin çox vaxt bu stol mühasirəyə alınmış qalaya çevrilir və "düşmən" həmin qalanı təngə gətirməklə fəth edir, orada gizlənmiş"hərbi rəis" isə özünü əlləri və ayaqları bağlı hiss edir" [10, 7]. Lakin təəssüf ki, məktəbə, təhsilə, müəllimə müasir yanaşmaların olduğu və yeni tələblərin verildiyi indiki dövrdə də məktəblərimizdə belə müəllimlər vardır. Belə şəraitdə isə nə yaradıcı düşüncədən, nə də əməkdaşlıqdan söhbət gedə bilməz.

3.Müəllimin sosial-pedaqoji vəzifəsi. Müəllimin fəaliyyəti təkcə siniflə,məktəblə, şagirdlərlə məşğul olmaqla məhdudlaşmır. Onu digərziyalılardan fərqləndirən xüsusiyyətlərdən biri onun daim əhali arasında olması, onlarla ünsiyyət saxlamasıdır. Bu baxımdam müəllim həm də sosial pedaqoqdur. Əhali arasında pedaqoji biliklərin və dövlət siyasətinin təbliğatçısıdır. Müəllim peşəsinin bu xüsusiyyəti onun hər yerdə - məktəbdə də, geniş sosial arenada da,əhali arasında da öz nüfuzunu qoruması, özünün hörmətini qoruyub saxlamasını zərurətə çevirir. Bundan məhrum olan müəllim nə qədər bilikli, savadlı olsa da nüfuzlu ola bilmir. Müəllim təkcə məktəbdə deyil, sosial həyatda, cəmiyyət içərisində də müəllimdir, tərbiyəçidir. Buna görə də o, hər yerdə özünün hərəkət və davranışını gözləməli, öz üzərində uşaqların, gənclərin, yaşlıların baxışlarının olduğunu unutmamalıdır. Müdrik şəxsiyyətlərdən birinin çox gözəl bir fikri vardır: "Müəllim işini hər adama tapşırmaq olmaz. Amma müəllimə hər şeyi etibar etmək olar". Müəllimin sosial-pedaqoji vəzifəsinin sferası informasiya bolluğunun az olduğu dövrdəkinə nisbətən məhdud olsa da, yenə də o, xalq içərisində dövlətin siyasətinin daşıyıcısı, təbliğatçısı və təşviqatçısı olmalı, dövlətin, dövlətçiliyin qorunmasında fəal iştirak etməlidir.

4. Müəllimin şəxsi nümunəsi. Nümunə tərbiyənin ən sınanmış və təsirli metodlarından biri kimi pedaqoji prosesdə mühüm yer tutur. Görkəmli mütəfəkkirlər, filosoflar, pedaqoqlar, ədiblər nümunənin təsir gücünü həmişə yüksək qiymətləndirmiş və onun tərbiyədə mühüm rol oynadığını qeyd etmişlər. Valideynlərin nümunəsi, müəllimin nümunəsi, ədəbi əsərlərin qəhrəmanlarının nümunəsi, vətənimizin azadlığı və müstəqilliyi uğrunda mübarizə aparan qəhrəmanların nümunəsi, yoldaşlarının nümunəsi və s. Bunların hər biri uşaqların tərbiyəsində öz izini qoyan və tərbiyəyə qüvvətli təsir göstərən amillərdir. Müəllimin şəxsi nümunəsi bu təsirlər içərisində mühüm yer tutur.

Müəllim şəxsiyyəti nə qədər parlaq, peşə keyfiyyətləri nə qədər yüksək inkişaf etmiş olarsa, onun uşaq şəxsiyyətinə təsiri bir o qədər effektiv olar. Müəllimin təsir dairəsi o qədər genişdir ki, heç kim onun nə zaman və harada qurtracağını söyləyə bilməz. Qabaqcıl və peşəkar müəllim özünün uşağa təsirinin nətcələrini bilməli və məşğul olduğu dövrdə bu təsirin müsbət yönümdə olmasına çalışmalıdır. Müəllim müəllim şəxsiyyətinə verilən tələbləri bilməli, özünün peşə biliklərini adekvat qiymətləndirməli, öz əxlaqi keyfiyyətlərinin onun üçün cızılmış dairədən kənara çıxmasına imkan verməməlidir [7.s.159].

Ədəbiyyat

1. Abbasova Q.Y.. Mahmudova R.M., Əlizada H.Ə. Təhsilin sosial-pedaqoji məsələləri. Bakı: 2008, 2002s.
2. Bayramov Ə.S, Əlizadə Ə.Ə. Pxixologiya. Bakı: 2003. 540s.
3. Bayramav Ə.S. Əlizada Ə.Ə. Sosial psixologiya Bakı: Qapp, Poliqraf korporasiyası, 2003, 365s,
4. Baxşəliyev Ə.T. Azərbaycanda psxoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyət. Bakı Nurlan, 2007, 538 s.
5. Əliyev B.H. Şəxsiyyət probleminə yeni haxış / Elm XXI əsrin astanasında elmi-praktik konfransının materialları. Bakı: Renessans, 1996,s.1
6. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı: Təhsil, 2008, 134s.
7. Əliyev B.H., Əliyeva K.R., Cabbarov R.V. Pedaqoji psixologiya (Dərslik). Bakı Təhsil, 2011. 254s.
8. Əliyev R.İ. Psixologiya tarixi. Bakı: Nurlan, 2006, 384 s.
9. Əliyev R.İ. Psixologiya. Bakı: Nurlan, 2008, 352 s.
10. Suxomlinski V.A. Ürəyimi uşaqlara verirəm. Bakı: Maarif, 1978.

РЕЗЮМЕ

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ИДЕНТИЧНОСТИ УЧИТЕЛЯ В СОВРЕМЕННОЕ ВРЕМЯ

Гейдарова С. Н.

Азербайджанский государственный педагогический университет

Профессий много и красочно. Среди них есть те, которые существовали всегда и будут существовать в будущем, а также те, которые произошли в разное время и были заменены новыми в определенное время. Есть много таких профессий, которые непосредственно опираются на личность в процессе деятельности, т. е. личность играет важную роль и, наоборот, мало связана с личностью. Однако среди них не так много профессий, где не менее важны профессионализм, профессиональные знания и умения профессионала. Профессия учителя здесь на первом месте, пожалуй, мы правы.

Ключевые слова: *учитель, личность, ученик, профессия, актуальность, современный период, ученик, преподавать*.

SUMMARY
CURRENT ISSUES OF TEACHER IDENTITY IN MODERN TIMES.
Heydarova S. N.
Azerbaijan State Pedagogical University

The professions are many and colorful. Among them are those that have always existed and will continue to exist in the future, as well as those that have occurred at different times and have been replaced by new ones at certain times. There are many of these professions that are directly based on personality in the process of activity, ie personality plays an important role and, conversely, has little to do with personality. However, there are not many professions among them, where the professionalism, professional knowledge and skills of a professional are no less important. The teaching profession comes first here - we are probably right.
Keywords: *teacher, personality, student, profession, topical, modern period, student, teach.*

TOFİQ MAHMUDUN POVEST VƏ HEKAYƏLƏRİNDƏ MÜƏLLİM OBRAZI

İsmayılova Lamiyə Məhərrəm qızı
Sumqayıt Dövlət Universiteti
lami_b@mail.ru

Açar sözlər*: hekayələr, povest, müəllim, peşə, vicdan, məsuliyyət, reallıq*

Müəllimlik müqəddəs, müqəddəs olduğu qədər də məsuliyyətli peşədir. Müəllimlərdən gələcək nəsillərin təlim-tərbiyəsi, savadı asılıdır. Müəllim qərəzsiz, vicdanlı, qayğıkeş olmalıdır. Ümummilli liderimiz Heydər Əliyevin müəllimlər haqqındakı aşağıdakı fikri diqqəti çəkir: "Müəllim dünyada yeganə şəxsiyyətdir ki, cəmiyyət özünün gələcəyini, uşaqlara tərbiyəsini yalnız ona etibar edir."

Ömrünü cəmiyyətə, şagirdlərə həsr edən müəllim obrazına ədəbiyyatda tez-tez rast gəlinir. Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndələrindən olan Tofiq Mahmudun əsərlərində də müxtəlif müəllim obrazları yaradılmışdır. Onun yaratdığı müəllim obrazları əsl insani keyfiyyətlərə malikdirlər. Onlar öz həyatlarını şagirdlərinə həsr edirlər. Şagirdlərini öz övladlarından ayırmırlar. "Leyla" hekayəsindəki Leyla müəllimə buna bariz nümunədir. Övladı olmadığı üçün ailə həyatı dağılan Leyla müəllimə təsəllini öz şagirdlərində tapır, daima onlarla görüşə tələsir. Müəllimə şagirdlərini elə böyük məhəbbətlə sevir ki, hətta anasız qalan Sevdanı övladlığa belə götürmək istəyir. Leyla müəllimə hətta keçmiş həyat yoldaşı Dadaşın qızının da qayğısına qalır, onun dərsə gecikməsi və gəlməməsindən narahat olur. Onun keçirdiyi dərin sarsıntı belə şagirdlərinə olan sevgiyə, diqqətə kölgə sala bilmir:

Müəllimə qarayanız qıza yaxınlaşdı, bantını açıb təzədən səliqə ilə bağladı və soruşdu:
- Bu lentləri sənə kim alıb?
- Nənəm.
- Leyla adını sənə kim qoyub?
- Atam. [2,s.53]

Əsl müəllim simasına malik olan Leyla Dadaşın qızı üçün keçirdiyi narahatlıq qarşısında düşünmədən keçmiş qaynanası Sara xanımla belə ünsiyyət qurur. "Balaca Leylanın gecikməsi axırıncı dəfə olmadı. Müəllimə qızın anasını çağırtdırdı, onun əvəzində Sara xanım gəldi. Onunla üz-üzə gəlmək Leyla üçün ağır olsa da, balaca qızın hərəkətləri haqqında yana-yana danışdı." [2,s.54]

Bununla müəllif onu göstərir ki, müəllim yeri gəldikdə şagirdi üçün öz şəxsi maraqlarından belə imtina edir. Şagirdləri üçün öz rahatlığından, maraqlarından imtina edən müəllim obrazlarından biri də "Rus dili müəlliməsi" hekayəsində canlandırılmışdır. Buradakı müəllim obrazı İnna İvanovna ucqar bir dağ kəndində çalışmağa başlayır. O, şagirdlərini elə səmimi hisslərlə sevir ki, tətildən sonra belə kənddə şəraitin çətin olmasına baxmayaraq yenidən bura qayıdır.

"Yerə dağılan muncuqlar" povestində də ədib bir-birindən maraqlı müəllim obrazları yaratmışdır. Rza müəllim, Şahizə müəllimə, adları qeyd olunmayan fizika, tarix və ingilis dili müəllimləri belə obrazlardandırlar. Bu müəllimlər uşaqların gələcəkləri üçün narahat olur, onların hansı dərsi daha yaxşı oxuduqlarını müəyyən edir və onlara düzgün yolu seçməkdə kömək olmağa çalışırlar. Bunu Rza müəllimin dərslərə biganə yanaşan Nemanla olan söhbətindən görmək olar: Neman! – deyə səsləndi, oğlanın büzüşə-

büzüşə ayağa qalxdığına baxıb soruşdu: - Niyə "Pifaqor klubu"na gəlməmisən? Riyaziyyatı belə gözəl bilirsən. [3,s.14]

Tofiq Mahmudun yaratdığı müəllim obrazları mehribandır, qayğıkeşdir. Onlar şagirdlərinin səhvlərini belə mehribanlıqla izah edir, onlara düzgün yol göstərirlər. Şahizə müəllimə də bu qəbildən olan müəllimlərdəndir. Onun Şəfəqlə olan söhbətinə nəzər salaq:

- Şəfəq, bura gəl! – müəllim çox mehriban bir səslə onu çağırdı. – Muncuqları aç, mənə ver. [3, s. 63]

Şahizə müəllimə bütün diqqətini şagirdlərinə yönəltmişdir. Onların məktəbdən kənarda belə zərərli işlərlə məşğul olmamaları, mənfi təsirə məruz qalmamalarına çalışır. Nemanı mənfi təsirlərdən qorumaq üçün əl atdığı tədbirlər Şahizə müəllimənin şagirdlərə olan diqqətinin göstəricisidir: "Şahizə müəllimə Nemanı gözdən qoymurdu. Onu Şənərə, Yusifə tapşırmışdı. Həmişə sərbəstliyə can atan Neman indi özünü uşaqların və müəllimlərin əhatəsində görürdü. Bəzən buna dözə bilmirdi." [3,s.64]

Şahizə müəllim təkcə məktəbdə oxuyan şagirdlərlə maraqlanmır, eyni zamanda məktəbi bitirib tüfeyli həyat sürən Seyidi də düzgün yola çəkməyi bacarır. Bunu Seyid öz nitqi ilə təsdiqləyir: "Şahizə müəllimin mən axmaq qədrini bilmədim. Mən ölüm bilmədim. O gün ona söz vermişəm. Həri, kişi sözü." [3, s.65]

Müəllifin mövzuları rəngarəng olduğu qədər də orijinaldır. Hər nə qədər əlvan boyalarla təsvir olunsa da sünilikdən uzaqdır. Bu ədibin əsərə yanaşma tərzidir ki, bu nüansa onun digər müəlliflər haqqında dediyi fikirlərdə də rast gəlirik. Tofiq Mahmud qeyri-adi hadisə və əhvalat dalınca getməməyi, gördüyü, duyduğu, yaşadığı, mükəmməl öyrəndiyi bir həyatdan yazmağı üstün tutur. Bu baxımdandır ki, onun öz əsərlərində də qondarmaçılıq, sünilik yoxdur. Yazıçı əsərlərində həyatı olduğu kimi əks etdirir. Onun hadisələri də, obrazları da realdır. O, obrazlarının müsbət cəhətlərini göstərdiyi kim mənfi cəhətlərini də qələmə almışdır. "Yerə dağılan muncuqlar" povesti ilə eyni ada malik olan hekayədə ədib Zöhrə müəllimənin timsalında hissə qapılaraq şagirdlərinə haqsız münasibət göstərən müəllimlərin prototipini yaratmışdır. Əslində müəllimənin niyyəti heç də pis deyil. O, şagirdini öz davamçısı, yəni kimyaçı görmək istəyir. Lakin unudur ki, şagirdin də öz arzuları, maraq dairəsi var. Reallığı ilə əks olunan bu hadisədə müəllimin də səhv edə biləcəyini müəllif oxucuya göstərir. Eyni zamanda burada müəllimin öz səhvini anlayacaq qədər böyük ürəyə malik olduğunu da görürük: "Günlər keçirdi, Zöhrə müəllim Şəfəqin kimya ilə necə böyük həvəslə məşğul olduğunu görüb onun haqqında yanlış fikrə düşdüyünə görə xəcalət çəkirdi." [1,s.236]

Uşaq ədəbiyyatı nümunələri yaratmaqla ədəbiyyatın insan üzərində təsirindən istifadə edən müəllif mənfisi və müsbəti ilə dolğun müəllim obrazları yaratmaqla insanda olmalı olan müsbət xarakterləri gənc nəsilə aşılamağa çalışmışdır. Oxucu mütaliə zamanı müsbət xüsusiyyətləri örnək götürərkən mənfi xüsusiyyətlərin də nələrə gətirib çıxaracağının şahidi olur. Beləliklə, yazıçı mənfi xüsusiyyətləri yaratmaqla belə oxucsuna düzgün yolu göstərmiş olur. Tofiq Mahmudun əsərlərinin günümüzdə də xüsusi önəm daşıdığını görmək heç də çətin deyil. Müasir dövrdə müəllim və şagird arasında zaman-zaman yaranan anlaşılmazlıqları aradan qaldırmaq məqsədi ilə əsərlərin mütaliəsi müsbət təsir göstərə bilər.

Ədəbiyyat

1. Mahmud T. Gecə qapı döyülür. Bakı. Gənclik, 1988, 368 s.
2. Mahmud T. Pəncərəyə toxunan budaq. Bakı. Gənclik, 1978, 130s.
3. Mahmud T. Yerə dağılan muncuqlar. Bakı. Gənclik,1983, 328 s.
4. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı, Bakı. Maarif, 1983, 276 s.
5. Yusifoğlu R. Bədii söz – məna ocağının közləri. (Məqalələr) Bakı: ADPU, 2018,528

РЕЗЮМЕ

ОБРАЗ УЧИТЕЛЯ В ИСТОРИЯХ И В РАССКАЗАХ ТОФИГА МАХМУДА

Исмаилова Л. М.

Сумгаитский государственный университет

В статье анализируются образы учителей, созданные Тофигом Махмудом. Исследуются качества, которые автор хочет видеть в учителе. В то же время мы видим, что автор не допускает вымысла в рассказах и повестях. Мы считаем, что автор добился положительных результатов в воспитании подрастающего поколения, написав произведения на эти темы. Темы анализируются, насколько они актуальны на сегодняшний день.

Ключевые слова: *рассказы, повествование, учитель, профессия, совесть, ответственность, реальность*

SUMMARY

THE IMAGE OF A TEACHER IN THE STORIES AND NARRATİVES OF TOFIG MAHMUD

Ismailova L.M.

Sumqayit State University

The thesis analyzes the images of teachers created by Tofig Mahmud. The qualities that the author wants to see in the teacher are investigated. At the same time, we see that the author does not allow fiction in stories and narratives. We think that the author has achieved positive results in educating the younger generation by writing about these topics. Topics are analyzed how relevant they are today.

Keywords*: stories, narrative, teacher, profession, conscience, responsibility, reality*

MƏKTƏBLİLƏRİN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDA AİLƏNİN İŞTİRAKI

[1]Hümmətova Çiçək Bəhram qızı, [2]Qasımova Flora Bayram qızı

ADPU, Bakı, Azərbaycan, 1,2- baş müəllim

floraqasimova@mail.ru

Açar sözlər*: ailə, məktəb, şəxsiyyət, bilik, psixologiya.*

Böyüməkdə olan nəslin tərbiyəsi cəmiyyətimizdə xüsusi qayğı tələb edir. Onun müvəffəqiyyəti dövlət tərbiyə müəssisələri, ailə və ictimaiyyətin tərbiyəvi təsirlərinin vahidliyi və birliyi müəyyən edilir. Bu birliyin əsası yeni nəslin tərbiyəsində dövlətlə ailənin maraqlarının üst-üstə düşməsidir.

Müasir dövrdə gənc nəslin düzgün əsaslarda tərbiyə edilməsi, onların dövlətimiz və cəmiyyətimiz üçün böyük əhəmiyyətə malik olması ailə qarşısında qoyulmuş əsas vəzifələrdəndir. Cəmiyyətin ilk struktur birliyi şəxsiyyətin əsasını qoyan ailə hesab olunur. Bunu nəzərə alaraq deyə bilərik ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi şəraitində tərbiyə işinin məqsədi ondan ibarətdir ki, gənc nəsli məqsədyönlü, planlı, mütəşəkkil yiyələndirmək yolu ilə ərazi bütövlüyünü qorumağa, ölkəmizi inkişaf etmiş demokratik dövlətlər səviyyəsinə qaldırmağa qadir olan vətəndaşlar kimi yetişdirməyə kömək etmək ailə qarşısında duran əsas məqsəddir.

Şəxsiyyətin hərtərəfli və harmonik inkişafını, fiziki, mənəvi və psixoloji sağlamlığını qorumağı və möhkəmləndirməyi təmin edən tərbiyə sistemini yaratmaq təşkil edir ki, yalnız belə ailə tərbiyəsi uşağı xoşbəxt edə bilər (2,s. 42).

İctimai mənsubiyyətindən asılı olmayaraq bütün ailələrin hamısında ənənəvi olaraq uşağın tərbiyəsinə xüsusi qayğı göstərilir. Ailə tərbiyəsinin əsasını əcdadların, ulu babaların təcrübəsi, valideynlərin nüfuzu, onların işi, davranış ənənənləri təşkil edir.

Ailə tərbiyəsinin məqsədi uşaqlarda elə şəxsi keyfiyyətləri və xasiyyətləri formalaşdırmaqdır ki, onlar həyat yolunda rast gəldikləri çətinlikləri və maneələri layiqincə aradan qaldırsınlar. Həyat gözlənilməz hadisələrlə doludur. Uşaqların intellektual və yaradıcılıq qabiliyyətləri, dərketmə vərdişləri və ilk əmək fəaliyyəti təcrübəsi, mənəvi və estetik zövqlər, emosional mədəniyyət və fiziki sağlamlıq, bütün bunlar ailədən, valideynlərdən asılıdır. Bunlar ailə tərbiyəsinin başlıca məqsədidir.

İctimai tərbiyənin aparıcı rolunun tanınması uşaq şəxsiyyətinin formalaşmasında ailənin böyük əhəmiyyətini heç də azaltmır. V.A.Suxomlinski ailənin tərbiyəvi imkanlarını insan gözəlliyini doğuran sehirli qüvvə ilə müqayisə etmişdir (4,s23). Cəmiyyətin ilk özəyi olan ailədə yeni insan dünyaya gəlir. Bu kiçik sosial qrup uşaq üçün ilk həyat məktəbidir. Valideynlər onun ilk müəllimləri və tərbiyəçiləridirlər. Şəxsiyyətin formalaşmasına onların təsir gücü müstəsna dərəcədə böyükdür. Valideynin uşağa əsas təsiri onların ona təmənnasız məhəbbəti, tələbkarlıqla qayğıkeşliyin birləşməsidir. Bu məhəbbət və qayğıya uşaq valideynlərə dərin məhəbbət və bağlılıq hissi ilə, onların nüfuzunun tanınması, onları təqlid etmə səyi ilə cavab verir. Ailənin təsir gücü tərbiyəvi təsirlərə uşağın təqlidçiliyi ilə şərtlənir.

Kiçik uşaqların tərbiyəsində ailənin əhəmiyyəti xüsusilə böyükdür. Valideynlərin rəhbərliyi altında onlar ətraf aləm haqqında təsəvvürlərə yiyələnirlər.

İctimai və ailə tərbiyəsinin birliyi mühümdür. İctimai tərbiyənin rolu onunla şərtlənir ki, uşağın tərbiyəsi onun yaşıdlarının əhatəsində, kollektivdə həyata keçirilir. O, ilk ictimai davranış vərdişlərini məhz bu kollektivdə qazanır, tərbiyə elmi xarakter daşıyır, xüsusi yaradılmış pedaqoji mühitdə keçir və hazırlıqlı peşəkar mütəxəssislər tərəfindən həyata keçirilir.

Ailə tərbiyəsi valideynin və uşaqlara zövq, sevinc verən qarşılıqlı təsir prosesidir. Ailə tərbiyəsinin səmərəli olması üçün valideynlər öz uşaqları ilə daim və qarşılıqlı təsir faydalı ünsiyyətə girməli, onlara sağlam həyat tərzi aşılamalıdırlar (1,s.37). Şəxsiyyətin ailədə sosiallaşması ailədaxili münasibətlərdən nüfuzu və rəhbərliyindən aslıdır.

Müasir ailəyə cəmiyyətdəki bütün dəyişikliklər biliyin texnologiyasının və məlumatların toplanması və sistemin yenidən qurulması, siyasi və iqtisadi sistemin böhranı kimi ən iri dəyişikliklər təsir göstərir.

Valideyn dedikdə, ilk anda gözümüz qarşısında ata-ana canlanır. Bu iki şəxs övlad tərbiyəsində müstəsna rol oynayaraq cəmiyyət qarşısında məsuliyyət daşıyırlar. Övlad tərbiyəsində ata-ana məsuliyyəti Azərbaycan Respublikasının Konstitusiyasında, bir sıra hüquqi aktlarda, Azərbaycan Respublikasının Təhsil Qanununda öz əksini tapmışdır.

N.Tusi uşaqların tərbiyəsinə erkən başlamağı, bu işlə məşğul olmağı bütün ata-analara məsləhət görmüşdür.

Tərbiyə verənim – onlardır mənim – deyə qeyd edir və ilk dəfə övladın ailədə göz açarkən ata, ana və ailənin digər yaşlı üzvlərinin ailə tərbiyəsində rolundan geniş danışır. Xaqani "mən kiçi olarkən, böyük dərəcəyə onların tərbiyəsi ilə çatdım söyləyir və ailənin onun üzərində təsirini vəsf edirdi. Şair-pedaqoq ailə tərbiyəsinin insanın gələcək əqlaqına və davranışına da kömək etdiyini dönə-dönə qeyd etmişdir.

Azərbaycan ailələrində uşaqların müvəffəqiyyətli tərbiyəsinin müsbət təcrübəsi toplanmışdır. Onlarda Vətən məhəbbət tərbiyəsinin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir.

Təəssüf ki, elə ailələrdə də rast gəlinir ki, uşaqların tərbiyəsində ciddi nöqsanlara yol verilir. Bəzi valideynlər öz övladlarının tərbiyəsini onlara yaxşı paltar almaqla, bol yemək verməkdə görürlər. Onlar dərk etmirlər ki, vətənə layiq övlad tərbiyə etmək müqəddəs işdir. Valideyn uşağa hörmət və tələbkarlıqla yanaşmalıdır. J.J.Russo deyirdi ki, uşağın qəlbinə ən cüzi bir şey də təsir edir, ona görə də uşağın yanında əsəbiləşməkdən, söyüş söyməkdən, qeybətçilikdən, yalançılıqdan çəkinmək lazımdır. Bütün bunlar uşağın sonrakı inkişafına mənfi təsir göstərir, yenidəntərbiyə kimi mürəkkəb problem yaradır. Bu səhvlərin əsas səbəbi valideynlərin pedaqoji mədəniyyətinin lazımi səviyyədə olmamasıdır.

Öz uşağından yaxşı insan tərbiyə etmək arzusu hələ azdır. Bunu etməyi bacarmaq lazımdır.

Valideynlər ictimai tərbiyəçidirlər, yaxşı övladlar tərbiyə edib yetişdirmək onların vətəndaşlıq borcudur. A.S.Makarenko deyirdi: "Siz həmişə valideyn olduğunuzu yadda saxlamalı və bilməlisiniz ki, oğlunuzu yaxud qızınızı yalnız öz sevinciniz üçün tərbiyə etmirsiniz. Sizin ailədə və sizin rəhbərliyiniz altında gələcək xadim və gələcək mübariz böyüyür. Siz pis adam tərbiyə etsəniz, bunun bəlasını yalnız özünüz deyil, bir çox adamlar və bütün ölkə çəkəcəkdir. Cəmiyyətə pis, yaxud ziyanlı adamlar vermək sizin üçün böyük ayıb olmalıdır" (3, 54).

Valideynlər respublikamızda baş verən ictimai, elmi, mədəni hadisələr barədə uşaqlara danışmalı, bu haqda onlarla müzakirə etməlidirlər. Eyni zamanda valideynlər işlədikləri müəssisələrdə baş verən hadisələrdən, öz əməklərindən danışmalıdırlar.

Valideynlərə tərbiyə elminə yiyələnməyə kim kömək etməlidir? Bu işdə mühüm rol sinif müəllimlərinin üzərinə düşür. Uşağa ailədə və məktəbdə tərbiyəvi təsirlərin birliyi və qarşılıqlı əlaqəsinin olunmasına çalışaraq, onlar valideynlərin pedaqoji maariflənməsini həyata keçirməli, onlara praktik kömək göstərməlidirlər.

Ədəbiyyat

1. Axundov İ., Həsənov A. Ailədə uşaqların əxlaq tərbiyəsi. Bakı, 1970
2. Quliyev S. Ailə Pedaqogikasının ümumi problemləri, Bakı, 2005.
3. Makarenko A.S. Seçilmiş pedaqoji əsərlər. Bakı, 1952
4. Suxomlinski N.A. Ürəyimi uşaqlara verirəm. Bakı, 1979

РЕЗЮМЕ

УЧАСТИЕ СЕМЬИ В ФОРМИРОВАНИИ ШКОЛЬНИКОВ КАК ЛИЧНОСТИ

Гумматова Ч. Б., Гасымова Ф. Б.

Азербайджанский государственный педагогический университет

Одной из главных задач школы и семьи в современное время является воспи-тание подрастающего поколения на правильных основах, формирование его как лич-ности. Все семьи, независимо от социальной принадлежности, традиционно уделяют особое внимание воспитанию

детей. В основе семейного воспитания лежит опыт наших предков, репутация родителей и их поведенческие традиции.

Цель семейного воспитания состоит в том, чтобы сформировать у детей такие личностные качества и черты, которые позволят им в любое время преодолевать трудности и препятствия, с которыми они сталкиваются в жизни. В этом смысле участие семьи является основой формирования учащегося как личности.

Ключевые слова: *семья, школа, личность, знания, психология.*

SUMMARY

THE PARTICIPATION OF THE FAMILY IN THE FORMATION OF STUDENTS AS INDIVIDUALS

Hummatova C. B., Gasimova F. B.

Azerbaijan State Pedagogical University

One of the main tasks of the school and the family in modern times is to educate the young generation on the right foundations, to form them as individuals. All families, regardless of social affiliation, traditionally pay special attention to the upbringing of children. The basis of family upbringing is the experience of our ancestors, the reputation of the parents and their behavioral traditions. He purpose of family upbringing is to form in children such personal qualities and traits that they can overcome the difficulties and obstacles they face in life at any time. In this sense, the participation of the family is the basis in the formation of students as individuals.

Keywords: *Family, school, personality, knowledge, psychological*

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ ŞƏXSİYYƏTİN FORMALAŞMASININ AKTUAL PROBLEMLƏRİ

Şirinova Nəhayət Məhəmməd

ADPU Quba filialı, İctimaiyyətçi-yazar, Quba, Azərbaycan

nehayet.sirinova@mail.ru

Açar sözlər: *şəxsiyyət, problem, böhran, xalq, faktor, təlim-tərbiyə*

Azərbaycan xalqının qurucusu, dahi Ulu Öndər Heydər Əliyev deyirdi*: "Gələcək inkişaf yolu və güclənən Azərbaycanın taleyi əsl şəxsiyyət kimi yetişmiş, formalaşmış gənclərin çiyinlərindədir"* [1].

O, gənclər ki, ölkənin ictimai-siyasi, sosial, və s. sahələrində böyük sürətlə inkişaf edən və müasirliyə doğru yol alan, ümumilikdə inkişafa doğru gedən bütün sahələrdə olan irəliləyişlər cəmiyyətdə və bütövlükdə dünyada yaratdığı dəyişiklikləri, onların müsbət və mənfi cəhətlərinin ətraflı müzakirə edərək gələcək ümidləri və perspektivləri müəyyən etməyi əsas məqsədlərindən birinə çevirərək inkişaf edən xətt üzrə irəliləməkdədirlər. Qloballaşma şəraitində də bu meyyarlarla birgə irəliləyirik. Və bütün bunların ana-yasası kimi şəxsiyyət faktorunu ön plana çəkməliyik. O, faktoru ki, onsuz heç bir irəliləyişdən heç bir inkişafdan söhbət gedə bilməz. Bu proses haqqında demək olar ki, hamı məlumatlı və hazır olmalıdır. Qloballaşma şəraitində mükəmməl şəxsiyyət yetişdirilməsi yönündə bir çox aktual problemlər mövcuddur ki, buna da biz açıq gözlə baxmalı və buna uyğun qərarlar verməliyik. Zaman-zaman istənilən keçid dönəmlərində bu və ya diğər formada hallar olmuşdur.

Umummili lider Heydər Əliyev deyirdi: "*Qloballaşan dünyada hamımız bir-birimizə yaxın olmuşuq. Xalqlararası, mədəniyyətlərarası, dialoqun bu gün dərinməna kəsb etməsi də məhz bununla bağlıdır. Bu dialoqu inkişaf etdirərək, bu dialoqa dəstək verərək biz müəyyən mənada şəxsiyyətin formalaşmasına xidmət edən bütün qaynaqları araşdırıb onu kökündən həll etməyə can atmalıyıq"* [2].

Qloballaşma şəraitində şəxsiyyətin formalaşmasının bütün bu amillərin təsir dairəsinə nəzər salaq. Şəxsiyyət və onun inkişafı modelini yaradaraq tərtib etmək və üzərində işləmək günün prioritetidir. Bəli diğər sahələrdə gedən inkişaf sanki insan faktoruna olan marağı bir az azaltmışdır. Amma bizim xalq olaraq da milli-mentalitet dəyərlər toplumuzda da bu nüans ön plandadır. Cəmiyyət bizdən yetkin, intelektual səviyyəli, dolğun təfəkkürlü fərdlər tələb edir. Bu baxımdan da məsuliyyətimiz daha çox artan intervaldadır. Müşahidə etdikcə görürük ki, sanki insan amilinə, şəxsiyyət faktoruna maraq azalaraq,

texnologiyaya maraq daha da çoxalmış və pik həddə çatmaqdadır. Və buna bariz nümunə kimi müxtəlif sferaların aktiv problemlərini qeyd edə bilərik. Məsələn, dünyada baş verən maliyyə böhranları, mərkəzdən kənar reqion və əyalətlərdə olan işsizlik problemləri, müxtəlif xəstəliklərlə mübarizə və onların kökündən həlli yollarındakı maneələr və digər amillər. Bax bu kimi şəraitlərdə şəxsin özünü ifadə imkanları məhdudlaşır və aqresiya ilə yüklənməyə başlayır. Ətrafına, xüsusilə də uğur qazanan və yüksələn pillədə duranlara qarşı qəzəb mövqeyini özününküləşdirir. Ümumi götürsək istər mikro istəırsə də makromühitə ən laqeyd münasibətlərdə olan insan belə, cəmiyyətdə öz yerini görə bilmədikdə, dəyər almadıqda, özünə və potensialına tələbat duymadığında özünə qapanır və pissimizm ruhuna mübtəla olur. Biz gözlə görüləcək halda bəlkə də rahat bildiyimiz bu halı beynimizdə daim emal etməliyik. Cəmiyyətin psixologiyasında yaranan və inkişaf edən gərginlik ocaqlarını məhv etməliyik.

Bu tip düşüncə və fikirlər cəmiyyətimizin hər bir üzvünü dərin düşünməyə, mövcud əqli-intellektual potensialını maksimum meydana qoymağa vadar edir. Bax elə buna görə də bu günümüzdə əsl mütəxəssislərə, beynimizin problem situasialarını həll edə bilən, insanların psixoloji gərginlikdən xilas edə bilən və bu yolda yorulmadan səy göstərən əsl psixologlara, həqiqətən də ehtiyac vardır. Bəzən həyat bizi elə bir situatsiyalarla üz-üzə qoyur ki, uzun-uzadı düşünməyə, götür qoy etməyə, və düzgün qərar verməyə o qədər zamanımız olmur. Elə həmən an bütün beynimiz şəxsiyyətə, şəxsiyyətin inkişaf predmetlərinə yönəlir. Bəlli olduğu kimi qloballaşma dövrünü yaşamaqdayıq və bu keçidin neqativ və pozitivləri də bizimlə birgədir. Bu gün üzərimizə düşən əsas məsələlərdən biri və birincisi qloballaşma şəraitində şəxsiyyət formalaşmasının aktual problemlərinin aradan qaldırılma yollarıdır. Nə edirik bu sahədə, mütəxəssislərimiz, alimlərimiz nə düşünür və nəyi tətbiq edirik. Əsl məqam da elə bundan ibarətdir. Z. Freydin də zamanında qeyd etdiyi kimi, cəmiyyətin ən böyük qazancı ona təqdim olunan mükəmməl şəxsiyyət tipidir.

Psixoloqlarımızın bu sahədə gördüyü işlər, apardığları təbliğat təqdirəlayiqdir. Günün tələbinə çevrilən seminarlar, mühazirələr vasitəsi ilə şəxsiyyət faktoru və qloballaşma dövründə onun döğru düzgün inkişaf yolu, və sonuc olaraq mükəmməl şəxsiyyətin cəmiyyətə təqdim olunması uğrunda böyük səylər nümayış etdirməkdədirlər. Professor B.Əliyevin dediyi kimi: "*Şəxsiyyət bioloji, sosial və psixoloji münasibətləri inteqrasiya edərək, fərdin özünəməxsus simasının yaranması prosesidir. Məhz bu ierarxik münasibətlər sistemi inteqrativ bir keyfiyyət kimi şəxsiyyəti səciyyələndirir və inkişafını ön plana çıxardır*".

Hazırda bəşəriyyət sivilizasiyanın özü və planetimizdə həyatın mövcudluğu üçün böyük təhlükə törədən kəskin qlobal problemlərlə qarşılaşmışdır. Bəşəriyyətin gələcək sosial tərəqqisi əsrimizin əvvəllərində kəskin şəkildə ortaya çıxan bu həyati problemlərin həllindən asılıdır, eynilə də onların aradan qaldırılması yalnız həmin tərəqqi sayəsində mümkündür. "*Başqa tərəfdən baxsaq, B.Skinner isə öz tədqiqatlarında şəxsiyyəti praktiki olaraq ətraf mühitin təsirinə cavab reaksiyası verən insan kimi təqdim edir*".

Həyati əhəmiyyət kəsb edən qərarlarımızı bəzən cox anidən verməli oluruq. Bax, odur ki, psixoloji travmalarımız olduğunda sizin bu tip həyati qərarlarınızın icrasında səhvlərə yol vermək sansımız artır. Bu günki yaşam tendensiyamız göstərir ki, biz özümüzü operativ qərar qəbul etməyə, dərhal doğru reaksialara köklənməyə sövq etməliyik. Bax o zaman şəxsiyyətin normal yetişməsi, cəmiyyətə adaptasiyası, və cəmiyyətdə özünəməxsus yer tutması daha qənaətbəxş ola bilər. Qloballaşan dünyanın tələb və istəkləri ilə irəliləmək məcburiyyətindəyik.Bu günü bunu bir çox insanlarımızın dərk etməmə səbəbindən normal şəxsiyyət yetişmə prosesi ləngiyir və bir sıra problemlərlə qarşı-qarşıya qalırıq. İnsan faktorunun yaşam tərzinə və mənəviyyatına yad olan bir çöx amillərə uyğunlaşa bilməsi, eyni zamanda isə öz mənini qoruması şərti ilə və yaxud əksinə, hansısa nüanslardan vaxtında imtina etməsi onun həyatını döğru məcraya yönləndməkdə bir nömrəli rol oynayır.

Psixoloqlarımızın bu sahədə rəylərini nəzərə alsaq, onlar da bizə cəld orientasiya götürməyi məsləhət görür və şəxsiyyətin formalaşmasına bir neçə aspektdən müşahidə etmək lazım gəldiyini vurğulayırlar. Adlerə görə, insan şəxsiyyəti aşağıdakı faktorların təsiri altında formalaşır:

"*1. Kompensasiya – Özünü başqaları ilə müqayisədə natamam, yetərsiz hesab edən insan qarşıya daha üstün olma və ya özünü təsdiq etmə hədəfi qoyur. Hədəfə çatan insanlar şəxsi və ictimai həyatında uğura nail olurlar. Bu psixi hadisə kompensasiya adlanır.*

2. Passivlik – İnsan öz əskik hesab etdiyi cəhətləri ilə barışır və natamamlıq hissini dəf etmək üçün heç bir aktivlik göstərmir. Bu davranış forması insanların çoxuna aiddir.

3. Həddən artıq kompensasiya – Şəxsi zəifliyini həddən artıq dəf etmə meyli. Adlerə görə, belə insanlar, bir qayda olaraq, nevroz olurlar" [3].

Bu gün mən öz baxişimin məhsulu olaraq bu məsələyə toxundum. Və çox istərdim ki, bu tip problemlər problem olaraq qalmasın. Bunun üçün hər birimiz bacardığımız gədər birləşməliyik.

İctimaiyyətlə keçirilən maarifləndirici tədbirlərin, görüşlərin, seminarların bu isdə çox səmərəli rolu olacqdır. Və günün tələbi də odur ki, maarifləndirmə siyasətimizi gücləndirək. Yetər ki, bunu istəyək, buna inanaq, və icra edək. Ölkəmiz yetərincə və mükəmməl bir səviyyədə qloballaşma şəraitinin tələblərinə sinə gərəcək bir formada inkişaf istiqaməti seçmişdir və bu sahədə uğurla irəliləməkdədir. Milli rəqabət potensialı deyilən bir amil var ki, bu incə məqam bizi bir tərəfdən də qabaqcıl ölkələr tərəfindən inkişafda olan və elmi potensiala malik ölkələrə investisiyaların yatırılması, zəngin enerji resursları olan ölkəmizin gəlirlərinin elmi innovasiyalara ayrılması, digər tərəfdən isə dünyanın müxtəlif yerlərində (Yaponiya, Skandinaviya, Avropa, ABŞ) olduğu formada inkişafına istiqamətləndirir. Bəli, heç kəs çətinliklərə qayıtmağı təbliq etmir və istəmir. Dəyişmək və inkişaf etmək marağndayıq. Bu tendensiyanın ilk addımları isə özümüzdın başlıyır. Biz baxışlarımızı dəyişməklə həyatımızı dəyişirik və özümüzdə başlayan bu inkişaf strategiyası cəmiyyətə inteqrasiya edir, sonuc olaraq bir şox dəyişimlərə imza atmış oluruq. Şəxsiyyətin konkret inkişaf modeli yoxdur. Cəmiyyətdə bu modelin müəllifi bizlərik. Nicat Muradzadə öz fikirləridə yazır: "*Qlokallaşma kontekstində isə Azərbaycan kifayət qədər üstün pozisiyadadır. Həm qədim dövlətçilik ənənələri həm də xalqımızın sağlam düşüncə tərzi iqtisadi, siyasi və mədəni cəhətdən yad olan ünsürlərin şuurlara yerləşməsinə qarşı ardıcıl mübarizə aparmış bununla yanaşı ölkəmiz dünya ölkələri ilə beynəlxalq və bərabər hüquqlu iqtisadi, siyasi və mədəni əlaqələr yaratmağa müyəssər olmuşdur.Bütün bunlara isə cəmiyyətdə yetişmiş əsl şəxsiyyətlərin sayəsində gəlib çatmışıq*". [2] İnsan amili, fərd faktoru, inkişaf və dəyişimə çalışan böyük kütlə. Elə qloballaşan dünyamızın özü ilə gətirdiyi çoxsaylı problemlər və neqativləri dəf etmə yollarını da eyni zamanda bu istiqamət mexanizmi bizə aşılayır.

"*Elm və təhsilin inkişafı bütün dünyada vətəndaş cəmiyyətinin yaradılmasını təmin edəcək və bizim nəsil var gücü ilə bu prosesi dəstəkləməyə çalışacaqdır ki, bizə də belə bir cəmiyyətdə yaşamaq nəsib olsun*" **[**Professor Eden Mamut, Qara dəniz Universitetləri Şəbəkəsi, Rumıniya 2019**]**

Bütün sahələrdə olduğu kimi bu sahədə də mükəmməl nəticələrə yiyələnmək, yüksək inkişafa sahib olmaq üçün birlik nümatişinə çıxmaq önəmlidir. Hamı şəxsiyyətin formalaşmasına öz qatqısını verməlidir.Təlim-tərbiyənin rolu ümumiyyətlə üstündür. Bütün gücümüz bu yolda səfərbər olmalıdır və ümid edirik ki, mükəmməl bir yüksəlişlə üz-üzəyik.

Ədəbiyyat

1. Əliyev İ.H. Doxsan altıncı nəşr. Bakı: Azərnəşr, 2019
2. Ümummilli lider Heydər Əliyevin milli-mənəvi dəyərlərimizlə bağlı fikirləri. Bakı, "Şans Mətbəə LTD", 2016, 120 s.
3. Muradzadə N. "Yeni böhran və yeni dövran: qloballaşmadan qlokallaşmaya". www.demokrat.az.

РЕЗЮМЕ

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ ЛИЧНОСТИ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

Ширинова Н. М.

Азербайджанский государственный педагогический университет

Губинский филиал, Губа, Азербайджан

Не секрет, что в нашем постоянно меняющемся, развивающемся мире XX век – это более бурное развитие науки и техники, успешное развитие более новаторских идей, продуктов новаторского мышления, прогресс искусства и культуры и информации. век., вступил как век науки и образования в более широком смысле. Изменения во всех сферах являются одним из ключевых факторов построения гражданского общества в мире, и мы стали частью этих важных процессов и находимся в них. Таким образом, каждый из нас должен понимать свои обязанности и стараться выполнять их с совестью и честью. В такое время наша высшая цель — взрастить совершенную личность и таким образом мобилизоваться. Многим из нас ясно, что век Интернета привнес в нашу жизнь не только позитив, но и позитив. Основная цель нашей работы – воспитать совершенного, чистого, чистоплотного, патриотичного, настоящего гражданина, настоящего человека, сочетающего в себе человеческие качества. Это один из главных интересов нашей обновленной и процветающей страны.

Ключевые слова: *личность, проблема, кризис, человек, фактор, воспитание.*

SUMMARY
CURRENT PROBLEMS OF PERSONALITY FORMATION IN THE CONTEXT OF GLOBALIZATION
Shirinova F.M.
Azerbaijan State Pedagogical University, Guba branch, Guba, Azerbaijan

It is no secret that in our ever-changing, evolving world, the twentieth century is more rapid development of science and technology, the successful development of more innovative ideas, innovative thinking products, the progress of art and culture and the information age, more has entered as a century of science and education in a broad sense. Changes in all areas are one of the key factors in building civil society in the world, and we have become part of these important processes and we are in them. In this way, each of us must understand our responsibilities and try to fulfill our responsibilities with conscience and honor. At such a time, our highest goal is to cultivate a perfect personality and be mobilized in this way. It is clear to many of us that the Internet age has brought some positives to our lives, as well as positives. The main goal of our work is to cultivate a perfect, pure, clean, patriotic, real citizen, a real person who combines human qualities. This is one of the main interests of our renewed and prosperous country.
Keywords: *personality, problem, crisis, people, factor, education*

AİLƏ MÜNAQİŞƏLƏRİ VƏ ONLARIN ARADAN QALDIRILMASI

Əliyeva Həmidə Sahib qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Təhsildə sosial-psixoloji xidmət ixtisasının I kurs magistrantı
hemideliyeva@mail.ru

Açar sözlər: *ailə, ailədaxili münaqişələr, təhsil, uşaq, inkişaf, münasibət, aradan qaldırılması yolları, şəxsiyyət, səbəb, əlaqə, sevgi, hörmət, diqqət, ünsiyyət.*

Bəşər cəmiyyətinin böyük sosial kəşflərindən və təsisatlarından biri olan ailə insanlar arasındakı qarşılıqlı münasibətləri əks etdirən mənəvi-psixoloji və sosial birliyin əsas formalarındandır. Sosial sistem kimi ailənin sabitliyi cəmiyyətdə onun yalnız spesifik institutsional funksiyasını yerinə yetirməsindən deyil, həm də özünün daxili psixoloji iqlimindən, mənəvi dəyərlərdən, emosiyalardan, iqtisadi maraq və s. Digər amillərdən də asılıdır. Ailə iki əsas xarakterik xüsusiyyətinə-ailədaxili münasibətlərə və məişət birliyinə görə digər insan qruplarından fərqlənə bilir. Ailənin məişət birliyi dedikdə, ailədə uşaqların tərbiyəsi, böyüməsi, ailə üzvlərinin qidaya, istirahətə, asudə vaxtın təşkilinə olan tələbatların təmin edilməsi, sosial təminat, əmək fəaliyyəti, yaşayış tərzi ailə büdcəsi və təsərrüfatı, məişət mədəniyyəti və ekologiyası nəzərə alınır.

Ailədə kiçik qapalı sosial qrup hər şeydən əvvəl onu təşkil edən fərdlər və ailədaxili münasibətlər konteksti nəzərdə tutulur.. Bu baxımdan yanaşdıqda sosial –psixoloji tədqiqatlar ər-arvad münasibətlərinin dinamikasını, valideynlərlə uşaqlar arasında münasibətlərin xarakterini, boşanmanın səbəbləri və motivlərini müəyyənləşdirmək mümkün olur. Ailədə şəxsiyyətlərarası qarşılıqlı təsir probleminin öyrənilməsində həmin ailənin mövcud olduğu konkret cəmiyyətdə üstün qəbul edilən normaları, dəyərləri və davranış nümunələri etalon olaraq qəbul etməliyik. Cəmiyyətin digər sosial strukturları ilə xarici əlaqələri ailəni sosial institut, ailədaxili münasibətlər kontekstinə isə kiçik sosial qrup kimi anlamağa əsasdır.

Fərdin inkişafı, formalaşması, uyğunlaşması mürəkkəb proses olub, əsası məhz ailədə qoyulur. Həmçinin ailədə baş verən münaqişələr şəxsiyyət inkişafına birbaşa təsir göstərir.

ABŞ psixoloqu Doyr ailə konfliktlərinin aşağıdakı əsas tiplərini fərqləndirir:

- davranış konfliktləri;
- əsl konflikt ;
- şərti konflikt;
- qarışıq konflikt;
- gizli konflikt;
- yalançı konflikt.

Ailədaxili münaqişələrin səbəblərinə aşağıdakıları aid etmək olar:

- qarşılıqlı sevgi və hörmətin olmaması;

• cütlüklərdən birinin cinsi-intim həyatdan narazılığı, bioritm fərqi;
• şəxsi ləyaqət hissinin təhqir edilməsi, inciklik, hörmətsizlik
• tənbəllik və pintilik;
• tərəflərdə müsbət emosiyaların çatışmazlığı
• liderliyə canatma;
• tərəflərin narkomaniya, içkiyə qurşanması
• maliyyə məsələlərində fikir ayrılığı;
• ailədə əmək bölgüsü problemləri;
• sonsuzluq;
• maraq və əyləncələrdə, zövqlərdə uyğunsuzluq

Bir çox adamlar öz şəxsi həyatlarında münaqişələrlə rastlaşırlar. Münaqişələrdən danışmaq mənəviyyatın, ideologiyanın və davranış mədəniyyətinin mürəkkəb mövzularına toxunmaq deməkdir. Konkret cəmiyyət və ya qrup çərçivəsində yaranmış əsas normalara qarşı gedən deviant davranış adlanır. Ailədə tərəf müqabilləri arasında münaqişə bütün ölkələr, mədəniyyətlərdə və cəmiyyətin təbəqələrində mövcuddur. Fiziki təcavüzkarlıq olaraq, tərəf müqabilinə münasibətdə aqressiya zorakı cinsi əlaqədə və seksual əlaqəyə məcbur etmənin digər formalarında partnyora şərt psixoloji təsirdə özünü göstərir.

Ər-arvad üçün münaqişənin həll edilməsinin xüsusi forması boşanmadır. Bir çoxları üçün boşanma problemlərdən, fikir ayrılığı və tərəflərin biri-birini başa düşməməsindən azad olmaq Üçündür. Lakin boşanma çox vaxt tərəflərin yalnız birinin maraqlarını yerinə yetirir və digər tərəfdə ağır sinir-psixi təəssüratı yaradır. Bundan əlavə, boşanma nəticəsində cəmiyyətdə natamam ailə yaranır, bu isə öz növbəsində uşaqların inkişafına birbaşa təsir göstərir. Bunun nəticəsində cinayətkarlıq, narkomaniya və deviant davranış formalaşır.

Münaqişələrin həlli üçün aşağıdakı göstəricilərə diqqət yetirmək lazımdır:

*** Aktiv dinləmə.**Bu dinləmə növü, başqasının bizə ötürmək istədiyi şeyə qatıldıqda etdiyimiz və digər insan onları başa düşdüyümüzü bildiyimiz şeydir. Bu strategiya ilə cavab verməden əvvəl qarşı tərəfin bizə nə demək və ya ifadə etmək istədiyini başa düşdüyümüzdən əmin olsaq, bir çox anlaşılmazlıqdan qaçınmaq olar.

*** Danışmaq və özünüzü ifadə etmək tərzinizə diqqət.** Ailədaxili münaqişələr zamanı gördüyümüz kimi, əsəbiləşdiyimiz zaman narahatlığımızı ən uyğun şəkildə ifadə edə bilmirik. Hiss etdiyimiz və vəziyyətin bizə zərər verdiyini ifadə edərək baş verənlərə görə qarşı tərəfi günahlandırırıq. İstədiklərimizi digərinə zərər vermədən, sevgi və sayğı çərçivəsində izah etməkdir. Bu yol münaqişələrin pisləşməsinin qarşısını almaqla yanaşı, problemə həll yolu tapmağımıza da kömək edəcəkdir. Yalnız bizi narahat edən şeyləri dilə gətirməmək də vacibdir, lakin problemə alternativlər və ya həll yolları təklif etmək rahatdır.

*** İştirakçıların özünü ifadə etməsinə, müzakirədə iştirak etməsinə icazə verin.** O qədər vacibdir ki, digər insan kimi bizə də narahatlıq yaradan şeyləri ifadə edək. Ailə müzakirələrində bir-birlərindən söz almaları çox yaygındır. Bununla başqalarının bizə çatdırmaq istədiklərini dinləmək əvəzinə demək istədiklərimizə üstünlük veririk.

*** Sevginizi göstərin.** Ailə üzvləri ilə münaqişə içində olsaq da onlar hələ də sevdiyimiz və dəyər verdiyimiz insanlardır və bunu onlara hiss etdirmək, söyləmək vacibdir. Kəsinliklə, sevgi bildirmək münaqişənin yaratdığı gərginliyi azaldır.

*** Baş verən hadisələrdən müsbət tərəfini axtarın.** Münaqişə ilə qarşılaşdıqda, yalnız vəziyyətin mənfi olduğunu və digərinin etdiyi və ya söylədiyi mənfi halları görürük. Çox hallarda digərinin nə düşündüyünü təsəvvür etmək və ya təxmin etmək üçün çan atırıq, yalnız özümüzü hələ də özümüzü hiss etməyimizə kömək edən bir mənfi düşüncələrə qərq oluruq. Bu mənfi cəhətlərə diqqət yetirmək əvəzinə, münaqişənin müsbət tərəflərindən faydalana bilərik. Bunu danışmaq, başqasının nöqteyi-nəzərini bilmək, bir-birimizi daha yaxşı tanımaq üçün bir fürsətdir. Münaqişəni inkar etmək yox, bundan irəli getmək, vəziyyətdən maksimum yararlanmaq üçün istifadə etməliyik.

Uyğun vaxtı və vəziyyəti tapın

Bir çox hallarda müzakirəni təxirə salmaq çox məsləhətlidir. Bu, ondan çəkinmək, vazkeçmək və ya unutmaq da buraxmaq demək deyil, əksinə duyğu yükünün daha az olduğu və münaqişədən əvvəlki anlarda meydana gələn mənfi duyğuları idarə etmək üçün əhəmiyyətlidir. Dünyada baş verən qloballaşma prosesləri ənənəvi Azərbaycan ailələrinə də güclü təsir göstərir, müasirliklə ənənəviliyin toqquşmasına gətirib çıxarır. Münaqişələr birgəyaşayışın qaçılmaz bir hissəsidir və daha çox fərqli nəsillərin, fikirlərin və hətta dəyərlərin birləşdiyi bir ailə mühitindən danışarkən başa verə bilir. Münaqişənin müəyyən bir şəkildə müsbət olduğunu təsdiqləyən mütəxəssislər var, çünki bunun sayəsində düzgün bir şəkildə idarə edə bilsək, sosial bacarıqlarımızı inkişaf etdirə bilərik. Ailədə münasibətlərini tənzim etmək üçün ilk növbədə özünün

xasiyyəti və temperamenti idarə etməyi, güzəştə getməyi, ailənin hər üzvünün azadlığını, hüququnu pozmamağı bacarmaq önəmlidir.

Ədəbiyyat

1. Burton, J. (1990). Münaqişə: Çözüm və qarşısının alınması. New York. St Martin's Press.
2. Çələbiyev N.Z – Ailə psixologiyası – Bakı mütəcim 2015
3. Deutsch, M (1983). Münaqişələrin həlli: nəzəriyyə və təcrübə, Siyasi Psixologiya 4.
4. Ə. Əlizadə, A.N Abbasov – Ailə - Bakı 1989
5. Həsənova M. Azərbaycanda ailə: hüquqi və demoqrafik aspektləri. – B., 2004
6. Judy Roof Aulette. Changing Families. Belmont, California, 1994
7. Курильски-Ожвэн Ш. Семья, равенство, свобода: модели права / Женщина в обществе: мифы и Конфликтология / Под ред.В.П.Ратникова. – М., 200
8. Гэррод Д. Социология. А-Я: Сл.-спр / Пер. С англ. К.С.Ткаченко. – М., 2000

РЕЗЮМЕ
СЕМЕЙНЫЕ КОНФЛИКТЫ И ИХ РАЗРЕШЕНИЕ

Алиева Г. С.
Азербайджанский государственный педагогический университет

В диссертации семейные конфликты, их виды. Обсуждаются причины, описание личности и способы разрешения этих конфликтов. Автор отмечает, что многие люди сталкиваются с конфликтами в личной жизни. Говорить о конфликтах означает затрагивать сложные вопросы морали, мировоззрения, поведения и культуры. Многие люди сталкиваются с конфликтами в личной жизни. Говорить о конфликтах означает затрагивать сложные вопросы морали, мировоззрения и культуры поведения. В диссертации также рассматриваются способы разрешения семейных конфликтов.

Ключевые слова: *семья, семейные конфликты, воспитание, ребенок, развитие, отношение, пути преодоления, личность, причина, связь, любовь, уважение, внимание, общение.*

SUMMARY
FAMILY CONFLICTS AND THEIR ELIMINATION

Aliyeva H. S.
Azerbaijan State Pedagogical University

The thesis deals with family conflicts, their types, causes, personal description and ways to overcome these conflicts. The author notes that many people face conflicts in their personal lives. Talking about conflicts means touching on complex issues of morality, ideology, behavior and culture. Many people face conflicts in their personal lives. Talking about conflicts means touching on complex issues of morality, ideology and behavioral culture. The thesis also discusses ways to resolve family conflicts.

Keywords: *family, family conflicts, education, children, development, attitudes, ways of overcoming, personality, reason, connection, love, respect, attention, communication.*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN FƏALİYYƏTİ VƏ ƏSƏRLƏRİNİN ÖYRƏDİLMƏSİ ÜZRƏ İŞİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

Kərimova Aynur Fərrux qızı
Gəncə Dövlət Universiteti, Pedaqogika üzrə fəlsəfə doktoru
aynurhesenova@list.ru

Açar sözlər: *Müstəqil Azərbaycan, Heydər Əliyev, təlim, tərbiyə, təhsil, inkişaf, müstəqil fikir yürütmək, təlim materialları.*

Azərbaycanın ərazi bütövlüyünü qoruyan, fəal həyat mövqeli yeni insan formalaşdırmaq problemi inkişaf etmiş yetkin müstəqillik şəraitində daha aktual olmuşdur. Bu, bir sıra amillərlə bağlıdır. Biz onlardan dörd başlıcasını qeyd edirik:

Birincisi, cəmiyyətin ümum mədəni, elmi, sosial, iqtisadi inkişafının insan amilindən getdikcə daha çox asılı olmasıdır.

İkincisi, cəmiyyətin sosial-iqtisadi, ideya-siyasi, mədəni həyatının getdikcə inkişafı, yeni formalı insan birliyinin-Müstəqil Azərbaycan xalqının yaranmasıdır.

Üçüncüsü, Azərbaycan xalqının mənafe birliyindən irəli gələn yeni adət və ənənələrinin get-gedə genişlənməsi və müqəddəsləşməsidir.

Dördüncüsü, müharibə şəraitində yaşayan xalqımızın dünyada erməni diasporası tərəfindən böhtançı təbliğatının ifrat dərəcəyə çatması, ideoloji mübarizənin getdikcə kəskinləşməsidir.

Göstərilən amillə Azərbaycanın hər sahədə yenilənməsi prosesində iştirak edən bütün insanların Ümummilli Lider H.Əliyevin həyat mövqeyinə uyğun formalaşmasını zəruri tələbata çevirir. Bu vəzifəni yerinə yetirmək üçün məktəblilərin təlimi, tərbiyəsi və inkişafı ilə bağlı olan bütün adamların idarə, müəssisə və təşkilatların, ailə, məktəb, ictimaiyyətin əlbir, məqsədyönlü və sistemli fəaliyyət göstərmələri vacibdir [1, s.28]. Onların birgə təsir qüvvəsinin eyni istiqamətə yönəldilməsində qabaqcıl təcrübəni ümumiləşdirməyin böyük rolu var.

Məktəbliləri H.Əliyev nümunəsində formalaşdırmaq, yəni biliyi, əqidəsi və praktik fəaliyyəti vahid sistem təşkil edən gələcək Azərbaycanın qurucuları yetişdirmək üçün təsiredici elmi mənbələr içərisində H.Əliyev cənablarının məruzəsi və çıxışları xüsusi əhəmiyyət kəsb edir. Bu mənbələr dərin səfərbəredici, istiqamətləndirici, tərbiyələndirici və inkişafetdirici qüvvəyə malikdir.

Göstərilən sənədlərdə məktəblilərin siyasi və əmək fəallığının daha da yüksəldilməsi, intizamın və mütəşəkkilliyin möhkəmləndirilməsi uğrunda aparılan mübarizə prosesindəki işin səmərəliliyini artırmaq problemlərinə başlıca diqqət yetirilir. Ona görə də həmin mənbələr istisnasız olaraq məktəbdə tədris edilən bütün fənlərin, sinifdənxaric tədbirlərin məzmununda xüsusi yer tutmalıdır.

Məktəbdə H.Əliyevin həyatı və fəaliyyətinin, əsərlərinin, bütövlükdə Ümummilli Liderin həyat mövqeyinin öyrədilməsi üzrə respublikamızda zəngin iş təcrübəsi yaranmışdır. Görülmüş işlərin xarakterinə uyğun olaraq həmin təcrübəni bir neçə qrupa bölmək olar:

1. H.Əliyevlə əlaqədar şagirdlərə öyrədilən materialın məzmununu müəyyənləşdirmək üzrə toplanmış təcrübə. Buraya daxildir:

- Əliyevlər ailəsinin tarixi və onun üzvləri barədə;
- H.Əliyevin bioqrafiyası və bu sahədə oçerklər: uşaqlıq və gənclik illəri üzrə məlumat, hakimiyyətdəki fəaliyyətinin ilk dövrləri;
- H.Əliyevin doğulduğu və böyüdüyü ictimai, iqtisadi, sosial, mədəni mühit;
- H.Əliyev haqqında xatirələr, ona həsr olunmuş bədii yazılar, kinofilmlər, fotosənədlər;
- H.Əliyevin siyasi, elmi, fəlsəfi əsərləri, çıxışları, məruzə və nitqləri;
- H.Əliyevlə əlaqədar hökumət sənədləri, mühüm qərar və göstərişlər;
- Dünyanın müxtəlif yerlərində H.Əliyevlə əlaqədar çap olunmuş materiallar barədə məlumat və s.

2. H.Əliyevin həyat mövqeyini, nəzəri irsini öyrətmək üçün tətbiq olunan işin forma və metodları üzrə toplanmış təcrübə. Öyrədiləcək materialın məzmunundan asılı olaraq müəllimlər şagird kollektivi ilə qarşılıqlı fəaliyyətlərini əsasən üç formada təşkil edirlər: müəllimin informasiyası; şagirdlərin informasiyası; qarşılıqlı informasiya. Müəllimin informasiyası, əsasən, iki formada olur: 1) istiqamətverici və təlimatlandırıcı; 2) təhlil və izahedici.

Şagirdlərin informasiyası, əsasən, hesabat və məlumat xarakteri daşıyır. Oxuduqları, eşitdikləri, gördükləri faktları təsvir etməklə şagirdlər eyni zamanda müəyyən ümumiləşdirmələr də aparırlar [2, s.31]. Müxtəlif mənbələrdən əldə etdikləri məlumatları bir-birilə əlaqələndirir, bildiklərini sinif qarşısında nəql edirlər.

Şagirdlərdə müstəqil mühakimə yürütmək, fikirlərini sərbəst ifadə etmək bacarıqları formalaşdırmaq məqsədi ilə məktəblərin bir qismində onların informasiyalarının dinlənilməsinə mümkün qədər geniş yer verilir. Müəllim və şagirdlərin qarşılıqlı informasiyaları, əsasən, ümumiləşdirici, əlaqələndirici, qarşılıqlı tamamlayıcı, eyni zamanda yoxlayıcı xarakterdə olur.

Müəllimin informasiyası söhbət, nəql, məktəb mühazirəsi, müəyyən obyektin nümayişi, təhlil, müqayisə kimi metodlarla həyata keçirilir. Adətən qabaqcıl müəllimlər H.Əliyev haqqında informasiyanı şagirdlərə elə məzmunda verirlər ki, onlar həmin informasiyaları nəzəri məlumat kimi yox, həyati həqiqət kimi dərk edirlər. Bunun səbəbi odur ki, müəllimlər hər hansı hadisə ilə əlaqədar H.Əliyevin fikirlərini söylədikdən sonra bu fikirlərin həyatda özünü necə doğrultduğunu konkret faktlarla tamamlayırlar [3, s.56]. Belə iş metodu şagirdlərin nəinki H.Əliyevin ideyalarının məzmununu, mahiyyətini başa düşməyə kömək edir, eyni zamanda təlim metodlarına verilən müasir tələblərdən birinin ödənilməsinə-şagirdlərin H.Əliyev

haqqında biliklərini müstəqil surətdə dərinləşdirməyin və genişləndirməyin yolları, forma və metodları barədə bacarıqlarının inkişaf etdirilməsinə geniş imkan yaradır, onların nəzəriyyə ilə təcrübənin vəhdətini anlamalarına güclü təsir göstərir.

Məktəblilərdə H.Əliyevin həyat mövqeyini formalşdırmaq üzrə təcrübəni təkmilləşdirmək üçün iki istiqamətdə əməli iş aparılmalıdır: birincisi, müəllimlərin, tərbiyəçilərin, valideynlərin H.Əliyevin həyat mövqeyi haqqında görüş dairəsini sistemli şəkildə genişləndirmək, H.Əliyevin həyat mövqeyinin mahiyyətini, məzmununu, ictimai təsir xarakterini onlara daha dərindən öyrətmək; ikincisi, ayrı-ayrı müəllimlərin, məktəb və sinif kollektivlərini, şagird ictimai təşkilatlarının, ailələrin bu istiqamətdəki qabaqcıl işini müntəzəm surətdə öyrənmək, ümumiləşdirmək və yaymaq.

Doğrudur, məktəblərdə H.Əliyevin həyat və fəaliyyətini, əsərlərini öyrətmək üzrə bir sıra tədqiqatlar aparılır, hər bir rayonda, şəhərdə H.Əliyev mərkəzləri fəaliyyət göstərir və metodik ədəbiyyat nəşr edilir. İndi elə bir məktəb, pedaqoji kollektiv, fənn müəllimi tapmaq olmaz ki, H.Əliyevin nəzəri irsini şagirdlərə öyrətmək məsələsindən kənarda qalsın. Onların bir çoxunun işində ümumi cəhətlər olsa da, hər birinin fəaliyyətində müəyyən orjinallıq elementlərinə təsadüf edilir.

Ədəbiyyat

1. Hüseynova L. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, 2004
2. Mehdiyev R. Azərbaycan tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı, 2000
3. Mirzəzadə R.Azərbaycan respublikasında çoxpartiyalı sistemin formalaşması xüsusiyyətləri. Bakı, 2001

РЕЗЮМЕ

ПУТИ СОВЕРШЕНСТВОВАНИЯ РАБОТЫ ПО ОБУЧЕНИЮ ДЕЯТЕЛЬНОСТИ И ТВОРЧЕСТВУ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

Каримова А. Ф.

Гянджинский государственный университет

В статье рассматривается деятельность общенационального лидера Гейдара Алиева и пути совершенствования преподавания его произведений. Отмечается, что доклады и выступления Г.Алиева имеют особое значение среди влиятельных научных источников для формирования молодого поколения на примере Г.Алиева, воспитания основоположников будущего Азербайджана, чьи знания, убеждения и практическая деятельность образуют единую систему. Эти источники обладают глубокой мобилизующей, направляющей, воспитательной и развивающей силой.

Чтобы развить у учащихся способность выносить независимые суждения и свободно выражать свое мнение, в некоторых школах предоставляется как можно больше места для прослушивания их информации.

Ключевые слова: *Независимый Азербайджан, Гейдар Алиев, обучение, воспитание, образование, разработка, думать самостоятельно, учебные материалы.*

SUMMARY

WAYS TO IMPROVE THE WORK ON TEACHING THE ACTIVITIES AND WORKS OF NATIONAL LEADER HEYDAR ALIYEV

Karimova A. F.

Ganja State University

The article discusses the activities of national leader Heydar Aliyev and ways to improve the teaching of his works. It is noted that the reports and speeches of Mr. Aliyev are of special importance among the influential scientific sources for the formation of the young generation on the example of Heydar Aliyev, the education of the founders of the future Azerbaijan, whose knowledge, beliefs and practical activities form a single system. These sources have a deep mobilizing, directing, educating and developing power.

In order to develop students' ability to make independent judgments and express their opinions freely, some schools give as much space as possible to listen to their information.

Keywords: *Independent Azerbaijan, Heydar Aliyev, training, upbringing, education, development, to think independently, training materials.*

II BÖLMƏ

MÜASİR DÖVRDƏ MÜƏLLİM HAZIRLIĞININ AKTUAL MƏSƏLƏLƏRİ

MÜƏLLİMİN PEDAQOJİ ETİKASI

Aslanova Ülviyyə Salam qızı
170 saylı məktəb, direktor, Baki, Sabunçu rayonu

Açar sözlər: *müəllim, etika, əxlaq, ünsiyyət, münasibət.*

Müəllimin tədris etdiyi fənn, hər gün ünsiyyət və münasibətdə olduğu şagirdlər, onlarla apardığı təlim tərbiyə işləri, yetişdirmələrinnin təhsil nəticələrinin qiymətləndirilməsi,şagirdlərin stimullaşdırılması, ətraf aləmə bilik,, elm mədəniyyət yayması, öyrətmək, məlumatlandırmaq, nümunə göstərmək müəllimin gündəlik işi və həyat tərzidir. Hər gün müəllim tədrisin müxtəlif tərəflərini dərk etməli, təhsil sisteminin digər iştirakçıları ilə anlaşma əldə etməli, pedaqoji peşənin incəliklərini, səciyyəvi xüsusiyyətlərini nəzərə almalı, özünün daim pedaqoji səriştəlilik və peşəkarlıq səviyyəsini yüksəltməlidir.

Təhsilin inkişafını şərtləndirən əsas amil məhz müəllimin pedaqoji fəaliyyətidir və uğurlu nəticə də bu fəaliyyətin düzgün, etik qaydalara uyğun qurulmasından asılıdır. Bütün bu uğurların əsas təməlində pedaqoji etika durur. Pedaqoji etikaya sahib olmadan heç bir uğur qazanmaq mümkün deyildir. Etik qaydalar müasir dövrümüzdə hər bir peşə sahibinin mütləq yerinə yetirəcəyi qaydalardır. Etika anlayışlar, xüsusilə təhsildə pedaqoji etik qaydalar, düzgün davranış normaları təhsilimizin ayrılmaz tərkib hissəsidir.

Bu gün müstəqil Azərbaycanda təhsilin yenidən əsaslı şəkildə qurulması, təhsildə keçirilən islahatların qarşıya qoyduğu vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi müəllimin metodiki, elmi-pedaqoji hazırlığından, onun işə fəal və yaradıcı münasibətindən və işinə ustalıqla yanaşmasından çox asılıdır. Hər bir müəllim elmli, məşğul olduğu sahənin bilicisi, eyni zamanda əxlaqi cəhətdən inkişaf etmiş, xüsusi yaradıcılıq qabiliyyətinə malik olmalıdır. Müəllim tədris etdiyi sahəni, fənni mükəmməl bilməli, elmə, tədris etdiyi fənninə yaradıcı yanaşmalı, pedaqoji, psixoloji biliklərə sahib olmalı, ixtisasını dərindən bilməli və yüksək səriştə və peşəkarlığa, pedaqoji etikaya malik olmaldır.

Müəllimin verdiyi təhsil cəmiyyətin tərəqqisinə qüvvətli təsir göstərir, millətin inkişafına güclü təsir edir. Necə ki dahi rəhbərimiz, Ulu Öndər Heydər Əliyev - "Təhsil millətin gələcəyidir "... Mən, yer üzündə müəllim adından yüksək bir ad tanımıram" - demişdir.

Müəllimin həyatı daim təhsillə, oxuyub, öyrətməklə, insan şüurunu formalaşdırmaqla, tərbiyə və təhsil verməklə bağlı olub layiqli vətəndaşlar, hərətəfli inkişaf etmiş şəxsiyyətlər yetişdirməkdir.

Müəllimin tədris etdiyi fənn, hər gün ünsiyyət və münasibətdə olduğu şagirdlər, onlarla apardığı təlim-tərbiyə işləri, yetişdirmələrinnin təhsil nəticələrinin qiymətləndirilməsi,şagirdlərin stimullaşdırılma, ətraf aləmə bilik, elm və mədəniyyət yayması, öyrətmək, məlumatlandırmaq, nümunə göstərmək gündəlik işi və həyat tərzidir.

Hər gün müəllim tədrisin müxtəlif tərəflərini dərk etməli, təhsil sisteminin digər iştirakçıları ilə anlaşma əldə etməli, pedaqoji peşənin incəliklərini, səciyyəvi xüsusiyyətlərini nəzərə almalı, daim pedaqoji səriştəlilik, peşəkarlıq səviyyəsini fasiləsiz olaraq yüksəltməlidir.

Təhsilin inkişafını şərtləndirən əsas amil məhz müəllimin pedaqoji fəaliyyətidir və uğurlu nəticə də bu fəaliyyətin düzgün, etik qaydalara uyğun qurulmasından asılıdır. Bütün bu uğurların əsas təməlində pedaqoji etika durur. Pedaqoji etikaya sahib olmadan heç bir uğur qazanmaq mümkün deyildir.

Etik qaydalar müasir dövrümüzdə hər bir peşə sahibinin mütləq yerinə yetirəcəyi qaydalardır. Etika anlayışlar, xüsusilə təhsildə pedaqoji etik qaydalar, düzgün davranış normaları ildən ilə daha da aktual əhəmiyyət kəsb edir.

Etika qədim yunan dilində "şəxsin əxlaqi baxımdan xasiyyət və xarakteri" mənasını ifadə edən "ethos" kəlməsindən törəmişdir. Etikanın əsas mövzusu əxlaq anlayışıdır.

Müəllim qarşısına qoyulan vəzifələri layiqincə yerinə yetirməsi üçün onun pedaqoji normalara əməl etməsi, təhsil alanlarla, valideynlərlə, həmkarları ilə bütün insanlarla yüksək ünsiyyət mədəniyyətinə, düzgün ünsiyyət və rəftara malik olmalıdır. Təhsil haqqında Azərbaycan Respublikasının Təhsil haqqında

Qanunun III fəslində, [1, s. 40], "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" [2] haqqında ölkə Prezidenti, cənab İlham Əliyevin sərəncamında müəllimin səriştə və peşəkarlığına, əxlaqi görüşlərinə və etik davranış qaydalarına xüsusi diqqət və əhəmiyyət verilmişdir.

Müasir dövrdə cəmiyyətimizdə etika, etik davranış, etik qanunauyğunluq anlayışları ilə demək olar ki, bütün sahələrdə qarşılaşırıq. Təhsil sahəsində islahatların keçirilməsi pedaqoji etikaya, pedaqoji rəftara, pedaqoji ünsiyyət və münasibətlərə, davranış normalarına diqqəti daha da artırılmış və Təhsil Nazirliyi bu barədə xüsusi əmr də imzalamışdır. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 16 may 2014-cü il tarixli əmri ilə təsdiq edilmiş "Müəllimlərin etik davranış qaydaları""nda deyilir: "Müəllimlərin etik davranış qaydaları təhsilin bütün səviyyələrində peşə fəaliyyəti zamanı təhsilverənlərin ümumi davranışını və təhsil prosesi iştirakçıları ilə qarşılıqlı münasibətlərini tənzimləyən normalar məcmusundan ibarətdir" [3].

Təhsil Nazirliyinin bu dəyərli, mühüm əmri təhsil işçilərini, pedaqoji elmin tədqiqatçılarını bu istiqamətdə daha da fəallaşdırmış va pedaqoji prosesdə daha uyğun hərəkət və davranışlara diqqət artırılmış və bu barədə dəyərli əsərlər yazılmışdır [4;5].

Son dövrlərdə pedaqoji fəaliyyət sahəsində etik qaydalar, pedaqoji etikaya əməl olunması, pedaqoji etik qanunauyğunluqlar daha dərindən araşdırılır. Xüsusilə prof.Akif Abbasovun [6], prof. Ləzifə Qasımovanın [7], prof. Rüfət Hüseynzadənin [8] yeni nəşr olunan Pedaqogika dərslik və dərs vəsaitlərində çox haqlı və yerində olaraq müəllim şəxsiyyəti, müəllimin ünsiyyət və mədəniyyəti, müəllim şagird münasibətləri, pedaqoji etika haqqında çox dəyərli məlumatlar verilmişdir ki, bütün bunlar da nəinki ali məktəb müəllim və tələbələri üçün, həmçinin ümumtəhsil məktəblərinin məktəb rəhbərləri və müəllimləri üçün çox əhəmiyyətli və dəyərlidir.

Tədqiqatlar göstərir ki, hər bir müəllim etik qaydalara nə qədər dərindən bələd olsa, təlim fəaliyyəti də bir o qədər keyfiyyətli olar, təhsilin keyfiyyəti daha da yüksələr. Etika hər bir insanın ətraf aləmə ünsiyyət və münasibətindən yaranır. Bu gün isə etikalı, mədəni olmaq, gözəl davranışa sahib olmaq hər bir müəllimin həm vətəndaşlıq borcu, həm də peşə tələbidir.

Müəllimin nüfuzu hazırda məktəbin ən vacib problemlərindən biridir. Bizim fikrimizcə, ibtidai və orta sinif şagirdləri bu nüfuzu hazır şəkildə qəbul etmir, onu qazanmaq lazımdır. Təcrübə göstərir ki, müəllim nüfuzu olmadan mənəvi tərbiyə problemləri də həll edilməmiş qalaacaqdır. Əlbəttə, müəllim nüfuzu, hər şeydən əvvəl, uşaqlara məhəbbət üzərində qurulur və öz-özündə tərbiyəedici xarakter daşıyır. Şagirdlərini sevən həqiqi tərbiyəçi onları həyata hazırlamalı, cəmiyyətimizin idealları ilə səsləşən məqsədlərinə çatmağa çalışmağı öyrətməlidir.

Uşaqları sevən müəllim onlara həssas olmağı, gözəlliyi sevməyi və duymağı, xeyirxahlığı öyrətməlidir. Özü də söhbət yalnız xeyirxahlığın və gözəlliyin nə olduğunu izah etməkdən getmir, məsələ şagirdin xeyirxahlığı, həyatda ən vacib xüsusiyyət olduğunu dərk etməsində və həqiqi insanlığın bunu həyata tətbiq etməkdə olduğunu başa düşməsindədir. Özü də bu münasibətin ilk nümunəsi müəllim özü olmalıdır.

Pedaqoji etikanı, hər şeydən əvvəl müəllimlərin mənəvi istiqamətdə hazırlığı maraqlandırır. Çünki, fizika, ədəbiyyat və ya kimya müəllimləri dərs deyərkən fənni necə izah etməsi onun ixtisas dərəcəsindən, yaradıcılığından, biliyindən asılıdırsa, uşaqları necə tərbiyə etməsi bütünlükdə siyasi idealları, hətta şəxsi həyatından da asılıdır. Təbiidir ki, belə olduqda normativ qaydalar etik davranış qaydaları daha ciddi xarakter alır və differensiallaşdırılmış olur.

Müəllim, hər şeydən əvvəl, mənəvi cəhətdən yetkin, əxlaqca saf, bilikli, dünyagörüşlü insan olmalıdır.

Pedaqoji etikanı ilk növbədə mənəvi münasibətlər, o cümlədən tərbiyə olunana konkret şəxsiyyət münasibəti bəslənməsi, ona məhəbbət və hörmət bəslənməsi maraqlandırır. Bu münasibətlər məhz daxili aləmlə həqiqi tanışlığın əsasını təşkil etməlidir.

Məqalənin aktuallığı. Deyə bilərik ki, etika müəllimlik fəaliyyətinin ən vacib atributudur. Nitq mədəniyyəti, ünsiyyət mədəniyyəti müəllim etikasının ayrılmaz tərkib hissəsidir. Müəllimin pedaqoji etikasında Nizami fəlsəfəsində nə dərəcədə aktuallığını aydın görmək olur: "Qüvvət elmdədir, başqa cür heç kəs heç kəsə üstünlük eyləyə bilməz", "Bir inci saflığı varsa da suda, artıq içiləndə dərd verir o da", "Kamil bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan." Budur inversiya yaranəb pedaqoji etikanın əsl mənbəyi. Müəllimin pedaqoji etikası – onun pedaqoji ustalığının, ünsiyyət mədəniyyətinin əsasını təşkil edir.

Məqalənin elmi əhəmiyyəti. Pedaqoji prosesdə əxlaqi münasibətlərin quruluşu mürəkkəb çoxplanlı və həmçinin ümumi və səciyyəvidir. Bura, hər şeydən əvvəl, uşaqlar, müəllim-cəmiyyət münasibətləri, sonra isə onlara təsir edən bütün qalan münasibətlər, yəni valideynlər-uşaqlar-müəllim, müəllim-pedaqoji kollektiv, müəllim-cəmiyyət və başqaları daxildir ki, bu münasibətlər haqqında ayrıca elmi işlər, tədqiatlar aparmaq olar. Biz bu məslələrə ümumi elmi-nəzəri baxış etmişik.

Məqalənin praktik əhəmiyyəti. Məqalədə oxuculara təqdim edilən materiallardan istər ali məktəb və istərsə də ümumtəhsil məktəblərinin müəllimləri praktik olaraq istifadə edə bilər və bundan xeyli faydalana bilərlər.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu. Bakı: Hüquq ədəbiyyatı nəşriyyatı.2009, 80 s.
2. Azərbaycan Respublikasının təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı: 2013.
3. Azərbaycan Respiblikası Təhsil Nazirinin "Müəllimlərin etik davranış qaydaları" haqqında 16 may 2014-cü il tarixli 600 nömrəli əmri// Azərbaycan müəllimi, 23 may 2014.
4. İlyasov M.İ. Müəllimin peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. Bakı: Elm və təhsil, 2018, 208 s.
5. İlyasov M.İ.Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı:Eım və təhsil, 2013, 216 s.
6. Abbasov A.N., Məmmədzadə R.M., Məmmədli L.A. Pedaqogika: Müntəxabat. Ali tədris müəssisələri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2021, 608 s.
7. Qasımova L.N. Pedaqogika. Dərslik. Bakı: Ekoprint, 2021, 612 s.
8. Hüseynzadə R.L. Pedaqogika. Dərslik. Bakı: Müətəcim, 2021, 488 s.

РЕЗЮМЕ

ПЕДАГОГИЧЕСКАЯ ЭТИКА УЧИТЕЛЯ

Асланова У. С.

Школа №170, Баку

Преподаваемый учителем предмет, учащиеся, с которыми он общается и взаимодействует его повседневная работа и образ жизни учителя. Учитель должен разбираться в различных аспектах преподавания, добиваться взаимопонимания с другими участниками системы образования, учитывать тонкости и особенности педагогической профессии, постоянно повышать свое педагогическое мастерство и профессионализм. Главным фактором, определяющим развитие образования, является педагогическая деятельность педагога, успешный результат которой зависит от правильной, этичной организации своей деятельности. В основе всех этих успехов лежит педагогическая этика. Без педагогической этики невозможно добиться каких-либо успехов. Этические правила – это правила, которым должен следовать каждый учитель. Этические понятия, особенно педагогические этика являются неотъемлемой частью нашего образования.

Ключевые слова*: Учитель, этика, нравственность, общение, отношение*.

SUMMARY

PEDAGOGICAL ETHICS OF THE TEACHER

Aslanova U. S.

School No. 170, Baku

The subject taught by the teacher, the students with whom he communicates and interacts his daily work and the teacher's lifestyle. The teacher must understand various aspects of teaching, achieve mutual understanding with other participants in the education system, take into account the subtleties and peculiarities of the teaching profession, constantly improve their pedagogical skills and professionalism. The main factor determining the development of education is the pedagogical activity of the teacher, the successful result of which depends on the correct, ethical organization of their activities. At the heart of all these successes is pedagogical ethics. Without pedagogical ethics it is impossible to achieve any success. Ethical rules are rules that every teacher must follow. Ethical concepts, especially pedagogical ethics, are an integral part of our education.

Keywords: *Teacher, ethics, morals, communication, attitude.*

AZƏRBAYCANDA MÜƏLLİM HAZIRLIĞININ İNKİŞAFINDA ƏLAVƏ TƏHSİLİN ROLU

Məmmədov Nurlan Ramiz oğlu
Bakı Slavyan Universiteti, Pedaqogika və psixologiya kafedrası

Açar sözlər: *ixtisasartırma, pedaqoji kurslar, savad kursları, əlavə təhsil, müəllim hazırlığı, yenidənhazırlanma, ev pedaqoji texnikumları*

XIX əsrin I yarısından etibarən başlayaraq Azərbaycan sənayedə sürətli inkişaf mərhələsinə qədəm qoymuş oldu. Xüsusilə neft, dağ-mədən sənayenin və kənd təsərrüfatının bəzi sahələrinin sürətli inkişafı ixtisaslı fəhlə və savadlı qulluqçularla yanaşı pedaqoji kadrlara da tələbatı kəskin şəkildə artırmışdı. Qısamüddətli savad kursları vasitəsilə müəllim hazırlamaq isə gözlənilən nəticəni vermirdi. Müəllim seminariyasını qurtarmış və xüsusi pedaqoji təhsil görmüş müəllimlərin olmasına ciddi ehtiyac hiss olunurdu. Buna görə də çar hökuməti 1875-ci ildə Zaqafqaziya müsəlmanları üçün müəllim seminariyası açmaq məcburiyyətində qaldı.

Həmin dövrdə Qərbi Avropa ölkələrində müəllim seminariyaları geniş yayıldığı halda Rusiyada ilk pedaqoji seminariya 1786-cı ildə təşkil edilmişdi. Üçillik təhsil müddəti olan seminariyanın əsas məqsədi ibtidai məktəblər üçün müəllim kadrları hazırlamaqdan ibarət idi. XIX əsrin 60-cı illərində Rusiyada müəllimlər seminariyasının geniş şəbəkəsi yaradıldı. Yeni yaranan seminariyalarının layihəsinin müəllifi görkəmli rus pedaqoqu K.D.Uşinski idi. Onun hazırladığı "Müəllim seminariyasının layihəsi" 1861-ci ildə nəşr edilmişdir. Rusiya XMN ölkədə seminariyaların fəaliyyətini tənzimləmək məqsədilə 1870-ci ildə "Müəllimlər seminariyası haqqında əsasnamə" təsdiq etdi. Həmin dövrdə Moskva, Peterburq, Xarkov, Kazan, Odessa təlim dairələrində xeyli müəllim seminariyaları fəaliyyət göstərsə də, seminariyalar regionlar üzrə düzgün paylanmamışdı. Belə ki, Rusiyanın milli ucqarları bu bölgüdən kənarda qalmışdı. Yalnız yeni əsasnaməyə və 1875-ci ildə təsdiq edilmiş təlimati xarakterli məktuba əsasən Kubanda (1871), Qoridə (1876) və İrəvanda (1881) müəllim seminariyaları açıldı.

Zaqafqaziyada müəllim kadrları hazırlığı ilə məşğul olan ilk müəssisə 1866-cı ildə yaradılmış Tiflis Aleksandrovski Müəllimlər İnstitutu (1866-1919) idi. Burada əsas məqsəd şəhər məktəbləri üçün müəllim kadrları hazırlamaq idi.

Rəsmi olaraq 1880-cı il sentyabrın 18-dən fəaliyyətə başlayan və ilk Azərbaycan məktəbləri üçün pedaqoji kadrlar hazırlayan müəssisə isə Qori Müəllimlər Seminariyası nəzdində yaradılan Azərbaycan şöbəsi olmuşdur. Tiflis müəllimlər institutunda 13 nəfər, Şimali Qafqaz müəllimlər seminariyasında isə cəmi bir azərbaycanlı müəllim hazırlanmışdı. Petrovski müəllimlər seminariyasında heç bir azərbaycanlı təhsil almamışdır. Beləliklə, Azərbaycanın Rus imperiyasına daxil edildiyi vaxtdan Azərbaycan Demokratik Respublikasının yaranmasına qədər olan dövrdə cəmi 327 müəllim hazırlanmışdı. Əgər bu sayı əhalinin miqdarına bölsək 30 min əhaliyə 1 müəllim düşürdü.

1917-ci ildə qədər olan dövrdə Azərbaycan kimi 4 milyon əhalisi və böyük ərazisi olan ölkə üçün müəllim hazırlayan cəmi 5 tədris müəssisəsi var idi. Onlardan ən məhsuldarı Qori Seminariyası olmuşdur. İkincisi isə 1881-ci il noyabrın 8-də fəaliyyətə başlamış **İrəvan müəllimlər seminariyası** idi ki, burada cəmi 63 müəllim kadrları hazırlanmışdı. Bu baxımdan, 29 dekabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" Sərəncam mühüm elmi-pedaqoji hadisə olmaqla yanaşı həm də siyasi-ideoloji, mədəni-mənəvi əhəmiyyət kimi qiymətləndirilməlidir.

1918-ci ildə Qori Seminariyasının Azərbaycan şöbəsi Azərbaycan Xalq Cümhuriyyətinin maliyyə vəsaiti hesabına Qazax şəhərinə köçürülür və sovet hakimiyyəti qurulduqdan sonra 1940-cı illərə qədər Qazax Pedaqoji Texnikumu adı ilə fəaliyyət göstərir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə müəyyən əmək təcrübəsi olan əhali üçün əlavə təhsil hesab ediləcək müxtəlif növ kurslar təşkil edilmişdi. Mühüm iqtisadi-siyasi əhəmiyyət daşıyan sahələrdə isə - dəmiryol, bank, rabitə, poçt, teleqraf sahələri üzrə ixtisaslı milli kadrlar hazırlayan tədris kursları açılmışdır. Dövrün əlavə təhsil xidmətlərini özündə ehtiva edən bu proses ixtisaslı dövlət qulluqçuları arasında milli kadrların xüsusi çəkisinin artmasına səbəb olmuşdur. Həmin dövrdə pedaqoji kadrların yetişməsinə xüsusi diqqət yetirilirdi. Məsələn, peşəkar müəllim kadrlarının azlığını aradan qaldırmaq üçün 1919-cu ilin sentyabrında Bakıda kişi müəllimlər seminariyası təsis edilmişdir. Hökumətin 1919-cu il, 17 iyul tarixli müvafiq qərarı ilə Qazax, Nuxa, Şuşa, Quba, Zaqatala, Salyan, Bakı və Gəncədə 2 aylıq pedaqoji kurslar açılmış, Türkiyədən müəllimlər dəvət edilmişdir. [1,689].

XX əsrin əvvəllərindən etibarən dövrün tələbinə uyğun olaraq xalq təsərrüfatının müxtəlif sahələrində çalışan əmək qabiliyyətli əhalini zəruri bilik, bacarıq və vərdişlərlə silahlandırmaq, müəyyən sərişta qazandırmaq üçün bir sıra xeyriyyə cəmiyyytləri də bu prosesə sürətlə qoşulmağa başladı. "Nəşri-maarif" (1906), "Nicat" (1906), "Səadət" (1907), "Səfa" (1910) və s. cəmiyyətlərin təsis etdiyi savad kursları yaşlıların kompleks təhsilinin təşkilinə yönəlmişdi və bu cəmiyyətlərin hər birinin özünəməxsus missiyaları var idi [4,338].

Məsələn, "Səadət" cəmiyyəti bilavasitə iranlı tacirləri səfərbər edərək Cənubi Azərbaycandan gəlmiş fəhlələrin uşaqları üçün Bakıda "İttihad", Tiflisdə "İttifaq" adlı məktəblər açması, ümumiyyətlə, müsəlmanlar arasında maarifçilik fəaliyyəti sahəsində onun ciddi planlarının olduğuna dəlalət edirdi. Arxiv materiallarına istinadən qeyd etmək olar ki, rus-fars 7 sinifli "İttihad" kişi progimnaziyası (natamam orta məktəb) canişinin icazəsi ilə 1906-cı ildən açılmışdı. "Əncümən" Bakı fars xeyriyyə cəmiyyətinin xahişi ilə yaradılmışdı. Progimnaziya 8-17 yaşlı uşaqlar üçün nəzərdə tutulmuşdu. Burada İvan Alekseyeviç Motorin (rus dili), Xudadat Əzizbəyov (hesab), Qasım Qasımov (tarix, coğrafiya), Ağalar bəy Mahmudbəyov (alman dili), Ağa Axundov (fransız dili), Mirzə Mahmud xan (ərəb dili), Əsədulla Əliyev (fars dili), Seyidəli Mehdiyev (türk dili) kimi müəllimlər fəaliyyət göstərirdi. Məktəbin binası Bakı şəhəri Sadovaya küçəsində (indiki Niyazi küçəsi) Şahidanov soyadlı şəxsin evində yerləşirdi [3,13].

Respublikada yeni tipli məktəblərin açılması, çoxsaylı kadrların yetişdirilməsi sahəsində ciddi dəyişikliklər 1920-ci illərdən Azərbaycan sovetləşəndən sonra başlandı. Yalnız bu dövrdən savadsızlığın aradan qaldırılması, bütün kənd və şəhərlərdə dünyəvi təhsil məktəblərinin açılması dövlət siyasətinin vacib istiqaməti oldu. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra digər sovet respublikaları ilə sıx bağlı olaraq xalq təsərrüfatının bərpa edilməsinə, sosialist quruculuğuna başlanıldı. Yeni cəmiyyətin yaradılmasının vacib məsələləri içərisində savadsızlığın ləğv edilməsi problemi dururdu [2].

Sovet dövlətinin qarşısında duran birinci dərəcəli vəzifə əhalinin geri qalan mədəni səviyyəsini aradan qaldırmaq idi. Belə ki, 1897-ci ildəki əhalinin siyahıya alınmasının məlumatına görə Rusiya əhalisinin yalnız 22,3 faizi oxuyub yaza bilirdi. Bu göstərici 1917-ci ildə bir qədər artsa da əhalinin əsas hissəsi savadsız olaraq qalırdı. Sovet hakimiyyəti isə mətbuat vasitəsilə öz ideya və görüşlərini yaymaqda maraqlı idi. Bütün bunlar ölkədə ümumi icbari ibtidai təhsilə keçməyə təkan verən əsas hərəkətverici səbəblər idi.

Savadsızlığın ləğv edilməsi 1920-ci ilin sentyabrında Azərbaycan Xalq Maarif Komissarlığı nəzdində xüsusi olaraq təşkil edilmiş Mərkəzi Komissiyanın rəhbərliyi altında bütün şəhər, qəza mərkəzləri və kəndlərində vahid plan üzrə həyata keçirilirdi. 1920-ci ildən etibarən Azərbaycanda müəllim kadrlarının çatışmaması, həmçinin onların bilik və pedaqoji ixtisas səviyyəsinin çox aşağı olması məktəb quruculuğunda başlıca problem kimi qiymətləndirilmişdir.

1922-ci ildə müəllimləri yenidən hazırlamaq, məktəbəqədər və məktəbdənkənar müəssisə işçilərinin ixtisasını artırmaq, eyni zamanda müəllimlərə elmi və metodik kömək göstərilməsi məqsədilə **Bakı Xalq Maarifi İnstitutu yaradıldı.** Həmin institut 1924-cü ilədək fəaliyyət göstərmişdir.

Sovet hökuməti yeni tip müəllimlər hazırlamaq üçün 1922-ci il Qazax Seminariyasından əlavə bir neçə müəllim seminariyası da açdı. Bu seminariyalar həm də artmaqda olan məktəbləri pedaqoji təhsilli müəllimlərlə təmin etmək məqsədini görürdü. Bu yeni tədris müəssisələrinə 637 tələbə qəbul olundu. Qeyd etmək lazımdır ki, Bakı, Gəncə, Şuşa və Nuxa seminariyalarına nisbətdə Bakıdan başqa Qazaxda tələbələrin sayı digərlərindən çox idi. Məsələn: Bakıda 154 oğlan, 120 qız, Gəncədə 83 oğlan, Qazaxda 110 oğlan, Şuşada 50 oğlan, Nuxada isə 80 oğlan, 40 qız təhsil alırdı. [5,30]

1922-ci ildə Xalq Maarif Komissarlığı (XMK) müşahidə etdi ki, açdığı seminariyalarda müxtəlif səviyyəli uşaqlar təhsil alır. Belə komplektləşmə isə təhsilin keyfiyyətinə mənfi təsir göstərirdi. Bu zaman Maarif Komissarlığı Qazax Seminariyasının təcrübəsindən istifadə edib, açdığı yeni seminariyalarda da hazırlıq sinifləri yaratdı. Tezliklə məlum oldu ki, belə bir tədbir seminariyada təlimin keyfiyyətmni yüksəltməklə bərabər tələbə toplamaq probleminin həllinə də yaxından kömək edir. Xalq Maarif Komissarlığı bu təcrübəni getdikcə genişləndirdi.

Ümumazərbaycan müəllimlərinin V(II) qurultayında Azərbaycan SSR XKS və MİK-in 18 mart 1924-cü il tarixli **"Azərbaycan SSR əhalisi içərisində savadsızlığın ləğvi haqqında"** qərarında yazmağı və oxumağı bacarmayan 15-25 yaş arasında bütün əhaliyə savad öyrənmək bir vəzifə - mükəlləfiyyət kimi tapşırılmışdı. Respublikanın bölgələrində əhalinin bütün yaş qruplarını əhatə edən savadsızlığı ləğvetmə məktəbləri və kursları açılmışdı. Savad məktəblərində oxuyan fəhlələrin əmək haqqı saxlanılmaqla 8 saatlıq iş günü bütün təhsil müddətində iki saat ixtisar edilmişdi. 1924/25-ci tədris ilində Azərbaycan üzrə savadsızlığın ləğvi üçün 1522 məktəb açılmışdı. Bununla yanaşı, respublika üzrə savadsızlığı ləğvetmə məntəqələri yaradılmışdı.

Beləliklə, 1927-ci ildən başlayaraq Xalq Maarif Komissarlığı “evdə pedaqoji texnikum”ları təşkil etdi. etdi. “Evdə pedaqoji texnikum”un məqsədi qiyabi təhsil yolu ilə orta pedaqoji səviyyəli müəllimlər hazırlamaqdan ibarət idi. Bu tip tədris müəssisəsinə 1500-ə yaxın müəllim cəlb edildi. Həmin dövrdən etibarən müəllimlərin yenidən hazırlanması işində müəyyən sistem yarandı. Yenidən hazırlanma kursları üçün vahid tədris proqramları işlənib hazırlandı. Həmin proqramlara əsasən eyni dinləyici kontingenti 3 il ardıcıl bu kurslara cəlb edilərək yeddiillik məktəb səviyyəsində bilik qazanırdı. Bu dövrdən etibarən müəllimlərin yenidən hazırlanması işində müəyyən sistem yaranmışdı. Yay yenidənhazırlanma kursları üçün vahid tədris proqramları işlənib hazırlanmışdı. Həmin proqramlara əsasən, eyni dinləyici kontingenti üç il dalbadal bu kurslara cəlb edilərək pedaqoji fənlər də əlavə olunmaqla, yeddillik məktəb səviyyəsində biliklər qazanırdı. Bu kurslarda “Evdə pedaqoji texnikum” üçün hazırlanmış material və dərsliklərdən istifadə olunurdu. Ümumiyyətlə, bu dövrdə müəllimlərin bütün yenidənhazırlanma işi faktik olaraq “Evdə pedaqoji texnikum”da cəmlənmişdi.

Ədəbiyyat

1. Azərbaycan Milli Ensiklopediyası. Azərbaycan. “Elm mərkəzi”, Bakı 2007
2. Azərbaycan Kommunist Partiyası tarixi xülasəsi. Bakı, 1963,
3. H.Əhmədov “Azərbaycanda xeyriyyə cəmiyyətlərinin maarifçilik fəaliyyəti" Bakı: Mütərcim, 1997 və C.Cavadov «Azərbaycan xeyriyyəçilik hərəkatı» Bakı: Elm, 1999)
4. Mədəniyyət.- 2018.- 28 mart
5. Mərkəzi Azərbaycan İdarəsinin xəbərləri Bakı, DUSU nəşriyyatı. 1922. №17,

РЕЗЮМЕ

РОЛЬ ДОПОЛНИТЕЛЬНОГО ОБРАЗОВАНИЯ В РАЗВИТИИ ПОДГОТОВКИ УЧИТЕЛЕЙ В АЗЕРБАЙДЖАНЕ

Мамедов Н. Р.

Бакинский славянский университет

В статье изучено особое место системы дополнительного образования в подготовке педагогических кадров Азербайджана начиная с первой половины XIX века. С этого времени широкое распространение идей просвещения, особенно бурное развитие в Азербайджане нефтяной, горнодобывающей промышленности и некоторых отраслей сельского хозяйства, наряду с квалифицированными и грамотными служащими, создало большую потребность в подготовке учителей для просвещения населения.

Автор провел историко-педагогический анализ проблем дополнительного образования в период от времен Азербайджанской Демократической Республики до периода независимости, включая период советизации.

Ключевые слова: *повышение квалификации, курсы грамотности, дополнительное образование, подготовка учителей, домашние педагогические техникумы*

SUMMARY

THE ROLE OF ADDITIONAL EDUCATION IN THE DEVELOPMENT OF TEACHER TRAINING IN AZERBAIJAN

Mammadov N. R.

Baku Slavic University

The article studies the special place of supplementary education system in the training of pedagogical personnel in Azerbaijan since the first half of the XIX century. Since that time, the widespread ideas of education, especially the rapid development of oil and mining industry and some branches of agriculture in Azerbaijan, along with qualified and literate employees, created a great need for teacher training to educate the population. The author has made a historical and pedagogical analysis of the problems of supplementary education in the period from the times of the Azerbaijan Democratic Republic to the period of independence, including the period of sovietization

Keywords: *teacher training, pedagogical courses, teacher training courses, additional education, home pedagogical technical schools*

TƏLƏBƏLƏRİN MÜƏLLİM PEŞƏ FƏALİYYƏTİNƏ HAZIRLIĞI

[1]Qasımova Tahirə Əliş qızı, [2]Adıgözəlova Şəlalə Əli qızı
Sumqayıt Dövlət Universiteti, Pedaqogika və psixologiya kafedrası, 1- müəllim, 2-dosent
qasimova.taira@mail.ru

Açar sözlər: *pedaqoji təcrübə, peşə fəaliyyəti, müəllim,pedaqoji-psixoloji səriştə, şəxsi-sosial səriştə.*

"Müəllim" sözü özündə çox dərin məna və hikmət birləşdirən müqəddəs bir kəlamdır. Müəllim dedikdə biz yalnız dərs deyən, sinfə girib-çıxan , məktəbdə çalışan adamları düşünmürük. Bu kəlam göz önündə müdrik, həyatı dərindən bilən, gözəl mənəviyyata və əqidəyə malik, "el içində pak oturub, pak duran " (Aşıq Ələsgər), yaşından asılı olmayaraq ağsaqqal, gəncliyə nümunə ola bilən kamil bir insan gətirir . Pedaqoji ədəbiyyatda müəllimə bir çox tərifler verilmişdir. Müəllimə məhdud və geniş mənada aşağıdakı kimi tərif verilir. Məhdud mənada müəllim dedikdə, kiməsə nəyisə öyrədən, məsləhət və istiqamət verən şəxs başa düşülür. Kiməsə – şagirdə, tələbəyə, müdavimə və s.; nəyisə – tarixi, ədəbiyyatı, riyaziyyatı və s. öyrədən, bu sahədə düzgün məsləhət və istiqamətlər verən şəxs başa düşülür. Geniş mənada müəllim dedikdə, xüsusi təhsil görmüş, tədris müəssisələrinin birində insanları bilik, bacarıq və vərdişlərlə silahlandıran, onlara yol göstərən, istiqamət verən savadlı, bilikli, mədəni, geniş və hərtərəfli dünyagörüşə malik şəxs başa düşülür. Başqa bir tərif də vardır: Müəllim – gənc nəsli və digər təhsil alanları sistemləşdirilmiş milli və ümumbəşəri dəyərlərlə məqsədyönlü, planlı və mütəşəkkil şəkildə silahlandıran, nəsillər arasında mənəvi əlaqə yaradan, xalq təsərrüfatının, elmin, mədəniyyət və incəsənətin sonrakı inkişafına güclü təkan verən pedaqoji təhsilli işçidir (şəxsdir).

Yeniləşən təhsilimizin öncül mövqeyinin saxlanması, funksiyalarını yerinə yetirməsi və inkişafı milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli pedaqoji kadrların olmasından asılıdır. Hansı ki, bu cür keyfiyyətlərə malik pedaqoji kadrların hazırlanması, mövcud pedaqoji kadr potensialının ixtisasının artırılması, yenidən hazırlanması, qabaqcıl pedaqoji təcrübənin, texnologiyaların mənimsənilməsi və praktikaya gətirilməsi və s. pedaqogikanın bilavasitə və bilvasitə problemləridir, vəzifələridir. Pedaqogika elmi bu tələbləri ödəmək, pedaqoji prosesin effektivliyini yüksəltmək üçün yeni nəzəriyyə və texnologiyalar işləyir və məktəbə təklif edir. Cəmiyyyətin inkişafının müasir dönəmində şagirdlərin həyata hazırlığının təkmilləşdirilməsi, düşünülmüş peşə seçimi orta məktəb qarşısındar yeni vəzifələr qoyur. Şagirdləri dərin və möhkəm biliklərlə təmin etmək, fənnin tərbiyəvi və inkişafedici funksiyalarını həyata keçirmək üçün pedaqogika və psixologiyadan yüksək biliklər mənimsəmiş, öz fənninin nəzəri əsaslarını və təlim metodikasını bilən müəllim lazımdır. Müəllimin peşə hazırlığının yüksək keyfiyyəti – müasir məktəbin qarşısında duran vacib məsələlərin uğurlu həllinin mühüm şərtidir.

Müəllim əməyi – tədris məsələlərinin optimal həllinin daim yaradıcı axtarışıdır, bu da müəllimdən pedaqoji bacarıq və ustalıq tələb edir. Pedaqoji ustalıq müəllimin şəxsi keyfiyyətlərinin, onun bilik, bacarıq və vərdişlərinin sintezidir. Bu keyfiyyətlərin formalaşması ali məktəbin bütün mərhələlərdə həyata keçir. Lakin mühüm və əsas yeri metodik fənndən olan məşğələlər tututr. Belə məşğələlərdə tələbələr yeni nəzəri tədqiqatlar, qabaqcıl müəllimlərin təcrübəsi ilə tanış olurlar, fənn otaqlarının təciz və tərtibi üzrə biliklərə yiyələnirlər.

Müəllim hazırlığı sistemində xüsusi yer pedaqoji təcrübəyə ayrılır. Pedaqoji təcrübənin məqsədi dərs keçmə, dərsdənkənar və sinifdənkənar iş, müəllimlərin iş təcrübəsini öyrənmə, öz fəaliyyətini öyrənmə, tədris tədqiqat işinin aparılması üzrə tələbələrin peşə bacarıqlarını formalaşdırmaqdır. Tələbə təcrübəyə gedəndə qarşısında belə suallar qoyur: "Şagird haqqında nəyi bilməliyəm?", "Fənnimin ümumi təlim-tərbiyə prosesində rolu haqında nə bilməliyəm?", "Dərsdə bu bilikləri necə daha uğurlu birləşdirə bilərəm?" K.D.Uşinski bu məsələ ilə əlaqədar yazırdı ki, tədris metodlarını tətbiq etmək bacarığına yalnız uzunmüddətli, böyük zaman tələb edən pedaqoji təcrübə zamanı yiyələnmək mümkündür. Pedaqoji təcrübə zamanı tələbələrin ümumtəhsil məktəblərində şagirdlərin təlim-tərbiyəsi işini müstəqil həyata keçirmək bacarığı formalaşdırılır. Onlar seçdikləri müəllimlik peşəsinin xüsusiyyətlərinə, incəliklərinə bələd olur, müstəqil fəaliyyətdə özlərini gənc müəllim kimi təsdiqləyir. Tələbələr fənn üzrə dərsliklərdən öyrəndikləri təlim-tərbiyənin qanunauyğunluqlarını, prinsiplərini təcrübə, əməli fəaliyyət zamanı daha dərindən, şüurlu dərk edir, peşə səriştələrinə yiyələnir, dərslikdən, müəllim üçün metodik vəsaitdən yaradıcı istifadə təcrübəsi qazanırlar.

Təcrübə müasir texnoloqiyalarla təciz olunmüş məktəblərdə keçirilməlidir. Təcrübəyə rəhbərlik edən müəllimlər öz dərslərində müasir inovasiyalardan və kompyutor texnologiyalardan istifadə edən müəllimlər olmalıdır. Müəllimlər mühazirələr oxuyur, açıq dərslər keçirir, tələbələrə müasir texnologiyalardan istifadə etməklə dərsin keçirilməsinin xüsusiyyətlərini aşılayır.

Dərslərdə kompyutor texnologiyalardan istifadə imkanları tələbələrdə yüksək maraq yaradır. Belə dərslərdə müəllimlər videofraqmentlər , animasiyalar, audiofraqmentlər, pp təqdimatlar nümaiş edirlər, eyni zamanda şərhlər edirlər, çətin prosessləri bir neçə dəfə nümaiş edirlər. Sonra şagirdlər suallara cavab verirlər, bəzən diskussiyalar edirlər. Belə dərslərdən sonra tələbələrdə öz dərslərində bu texnologiyalardan istifadə etməyə çalışırlar. Onlar müstəqil olaraq yeni təqdimatlar hazırlayırlar, bilik və bacarıqların yoxlanılması məqsədi ilə suallar, şəkillər, sxemlər tərtib edirlər. Bunlar hamısı fənnin tədrisini dahada gözəlləşdirir və eyni zamandada müəllim əməyini yüngülləşdirir.

Pedaqoji təcrübə gələcək mütəxəssisin peşə və şəxsi başlanğıclarını birləşdirən məqsədyönlü prosesdir. Pedaqoji təcrübəni tələbələr pedaqogika, psixologiya, metodikalar kimi tədris kurslarının mənimsəyəndən sonra keçirlir ki, bu da onları bütöv təhsil prosesi, onun məzmunu və təşkili haqqında nəzəri biliklərlə təmin edir. Pedaqoji təcrübə hər bir tələbəyə peşə bacarıqlarının mənimsənilməsini təyin etmək üçün imkan yaradır. Təcrübənin gedişində gələcək pedaqoq aşağıdaki prioritet istiqamətləri mənimsəməlididir: şagirdlərin təlim, tərbiyə və inkişafı səviyyəsinin təhlili və qiymətləndirilməsi, təlim-tərbiyə tədbirlərinin (dərslər, məşğələlər) planlaşdırılması, hazırlığı və keçirilməsi, inkişafedici təlim-tərbiyə prosesinin yaradılması, diaqnostik fəaliyyətin həyarta keçirilməsi, təhsil fəaliyyətində yeni texnologiyalardan istifadə, kommunikativ və təşkilatçı funksiyaların həyata keçirilməsi, diqər fənn sahələri ilə inteqrasiya metod və formalarından istifadə.

Gələcək pedaqoqun peşə başlanğıcı və professionalizm o zaman yaranır ki, tələbə öz pedaqoji fəaliyyətinə məsuliyyətli yanaşır, onu mühüm həyati məsələ kimi qəbul edir və dərk edir ki, bu məsələnin həlli yüksək iradi keyfiyyətlər, pedaqoji təcrübə, ozünü mütəxəssis kimi görmə və bu peşədə özünü tam realizə etmə kimi xüsusiyyətlərdən asılıdır. Bu başlanğıc müxtəlif nisbətlərdə ola bilər: əmək və yaradıcı yol, fərdi və sosial həyat, xarici hadisələr və şəxsiyyətin daxili aləmi. Tələbənin pedaqoji təcrübəsi real təhsil prosesinin aktiv fəaliyyətinin mənimsənilməsinə uyğun olmalıdır.

Ədəbiyyat

1. İbrahimov F., Hüseyzadə R. Pedaqogika. I cild, Bakı-2012
2. İlyasov M.. Müəllimin pedaqoji ustalığı. Bakı: Elm və təhsil, 2013.

РЕЗЮМЕ

ПОДГОТОВКА СТУДЕНТОВ К ПРОФЕССИОНАЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ УЧИТЕЛЯ

Гасымова Т. А., Адыгозалова Ш. А.

Сумгаитский государственный университет

В статье рассматривается важность педагогической практики как ключевой фактор подготовки студентов к профессиональной деятельности. Педагогическая практика – это начало будущей карьеры специалиста. При этом отмечается, что педагогическая практика проводится после освоения студентами таких курсов, как педагогика, психология, методика, что дает им теоретические знания обо всем образовательном процессе, его содержании и организации, при этом формируется педагогическая и психологическая, личностно-социальная компетентность, направлена на повышение эффективности решения социально-профессиональных вопросов выпускниками.

Ключевые слова: *педагогический опыт, профессиональная деятельность, педагог, педагогико-психологическая компетентность, личностно-социальная компетентность*

SUMMARY

PREPARING STUDENTS FOR THE PROFESSIONAL ACTIVITIES OF A TEACHER

Gasimova T. A., Adigozalova Sh. A.

Sumqayit State University

The article discusses the importance of teaching practice as a key factor in preparing students for professional activities. Pedagogical practice is the beginning of the future career of a specialist. At the same time, it is noted that pedagogical practice is carried out after students have mastered such courses as

pedagogy, psychology, methodology, which gives them theoretical knowledge about the entire educational process, its content and organization, while pedagogical and psychological, personal and social competence is formed, aimed at increasing the efficiency of solving social and professional issues by graduates.

Keywords: *pedagogical experience, professional activity, teacher, pedagogical and psychological competence, personal and social competence.*

GƏLƏCƏK İBTİDAİ SİNİF MÜƏLLİMLƏRİNİN HAZIRLIĞINDA YENİ TƏHSİL PROQRAMLARININ ROLU (müqayisəli təhlil)

Əfəndiyeva Fidan Emin qızı
Bakı Slavyan Universiteti, İbtidai təhsil kafedrası, baş müəllim, doktorant
fidan141923@gmail.com

Açar sözlər: *təhsil proqramı, ibtidai sinif, müəllim, islahat, kompetensiya*

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda [1] ikinci strateji istiqamət *"təhsil sahəsində insan resurslarının müasirləşdirilməsi"* adlanır. Bu çağırış müəllim hazırlığının, xüsusilə də ibtidai sinif müəllimi hazırlığının yeniləşdirilməsini və müasir dövrün tələblərinə uyğunlaşdırılmasını tələb edir. 2008-ci ildə "Azərbaycan Respublikasında ibtidai sinif müəllimi hazırlığının çərçivə kurikulumu" hazırlanmışdır. Onun əsasında 2008 və 2015-ci illərdə "İbtidai sinif müəllimliyi" ixtisası üzrə tədris planı hazırlanmışdır. Təhsil təcrübəsi göstərir ki, hər beş ildən bir təhsil proqramlarında müəyyən dəyişikliklər edilir. 2020-ci ildə müəllim kadrları hazırlığını daha da təkmilləşdirmək məqsədi ilə yeni təhsil proqramları hazırlanmışdır.

Həmin proqram 28 avqust 2020-ci ildə Azərbaycan Respublikasının Təhsil Naziri tərəfindən təsdiq edilmişdir [3].

Bu gün ali məktəblərdə təhsil alan gələcək ibtidai sinif müəllimləri növbəti onilliklərdə də (2030 - 2040-cı illərdə də) pedaqoji fəaliyyətlə məşğul olacaqlar.Ali məktəb onlara gələcəkdə uğurlu müəllim olmaları üçün zəruri kompetensiyaları verə bilirmi? 2020/21-ci tədris ilində ölkənin "İbtidai sinif müəllimliyi" ixtisası üzrə kadr hazırlığını həyata keçirən bütün ali məktəblərində tətbiq edilən yeni təhsil proqramı bu tələblərə cavab verirmi? Mövcud təhsil proqramından onun özəlliyi nədir? Yeni təhsil proqramı gələcək ibtidai sinif müəllimlərində zəruru pedaqoji kompetensiyalar formalaşdırmağı, onlarda pedaqoji hadisə və proseslərə ustalıqla, peşəkarlıqla yanaşmağı təmin edə biləcəkmi?

Gələcəyin ideal müəllimi mütəxəssis kimi, işçi kimi, insan kimi hansı müəyyən keyfiyyətlərə malik olmalıdır? Onun *mütəxəssis kimi malik olacağı keyfiyyətlər* aşağıdakılardır:

- pedaqoji qabiliyyət,
- pedaqoji ustalıq,
- pedaqoji-psixoloji bilik,
- təlim-tərbiyə texnologiyalarını bilmək,
- əməyin keyfiyyətli təşkili,
- şagirdlərə məhəbbət, mənəviyyatlılıq, insana inam və optimizm, dözümlülük, ədalətlilik və xeyirxahlıq, şagirdləri başa düşmə və onlarla işləmək həvəsi,
- ümumi erudisiya,
- tələbkarlıq, təşkilatçılıq, ünsiyyət bacarığı və s.

Gələcəyin ideal müəllimi*işçi kimi malik olacağı keyfiyyətlər* aşağıdakılardır: məqsəd qoymaq və ona çatmaq bacarığı, vaxtı bölüşdürmək bacarığı, yaradıcılıqla məşğul olmaq bacarığı, kollektivdə işləmək bacarığı, intizamlı, məsuliyyəti, səmimi, fəal olmaq bacarığı və s.

Gələcəyin ideal müəllimi *insan kimi malik olacağı keyfiyyətlər* aşağıdakılardır:

- yüksək əxlaqi keyfiyyətlər,
- ictimai həyatda fəal iştirak, fəal həyat mövqeyi,
- nümunə olmaq, milli qürur,
- milli məsuliyyət hissinə malik olmaq,
- sağlam həyat tərzi,
- humanizm,
- öz hərəkətlərinə tənqidi münasibət,

- multikultural dəyərlərə sadiqlik və s.

Bütün bu sadaladıqlarımız müəllimin peşə professioqramında öz əksini tapır. 2008 və 2015-ci illərlə müqayisədə 2020-ci ildən tətbiq olunan "İbtidai sinif müəllimliyi" ixtisasının yeni Təhsil Proqramında xeyli fərqlər nəzərə çarpır. Hər şeydən əvvəl bu fərq həftəlik saatların həcmində özünü göstərir. Diqqət yetirək: 2008-ci ildə həftəlik saatların həcmi 26 saat , 2015-cü ildə 24 saat, 2020-ci ildə isə 22 saat olmuşdur. Həftəlik tədris yükünün azalması, təbii ki, ümumi saatların azalmasına hesabına baş vermişdir. 2008-ci ildə ibtidai sinif müəllimi hazırlığı üçün 3000, 2015-cü ildə 2520, 2020-ci ildə isə cəmi 2310 auditoriya saatı nəzərdə tutulmuşdur. Bununla yanaşı Təhsil Proqramına yeni fənlər daxil edilmiş, pedaqoji-psixoloji fənlərin xüsusi çəkisi xeyli artırımışdır.

Humanitar fənlər blokuna aid saatların inkişaf dinamikası

№	Humanitar fənlər bloku	Kredit	Ümumi saatlar	Auditoriya-dan kənar saatları	Auditoriya saatları	Müh.	Sem.
1.	2015-ci il	44	1320	780	540	90	450
2.	2020-ci il	30	900	570	330	75	255

"İbtidai sinif müəllimliyi" ixtisasının 2015-ci il tədris planında 210 kreditin 44-ü "Humanitar fənlər" blokuna, 2020-ci ilin tədris planında isə 210 kreditdən 30-u "Ümumi fənlər" blokuna ayrılmışdır. Ayrılan kreditlərə müvafiq olaraq ümumi, auditoriyadankənar və auditoriya saatlarının sayında da azalma baş vermişdir. Əsas azalma "Xarici dil" fənninə ayrılan kreditlərin sayı (29 kredit) ilə bağlı idi. Belə ki, son tədris planında "Xarici dil" fənninə ayrılan 29 kredit 15 kreditə qədər azalmışdır."İbtidai sinif müəllimliyi" ixtisasına 29 kreditin ayrılması 2008-ci ildə təsdiq edilən standartlarla bağlı idi. Həmin standartlara görə, gələcəyin ibtidai sinif müəllimləri həm də I-IV siniflərdə ingilis dili fənnini tədris etməli idilər. Bu yanaşma tədris planının yüklənməsinə səbəb olmaqla yanaşı, pedaqoji-psixoloji fənlərin xüsusi çəkisinin azalmasına səbəb oldu. Gələcək ibtidai sinif müəllimlərinin həm də ingilis dili fənnini tədris etməsi ideyası özünü doğrultmadı.

İxtisas-peşə hazırlığı fənləri blokuna aid saatların inkişaf dinamikası

№	İxtisas-peşə hazırlığı fənləri bloku	Kredit	Ümumi saatlar	Auditoriya dan kənar saatlar	Auditoriya saatları	Müh.	Sem.
1.	2015-ci il	140	4200	2520	1680	885	795
2.	2020-ci il	120	3600	2280	1320	675	645

Avropa ölkələrindəki müəllim hazırlığı modelinə uyğun olaraq son Təhsil Proqramında da"İxtisas-peşə hazırlığı fənləri bloku" na ayrılan kreditlər azaldılmış, üstünlük ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlərə verilmişdir. Burada diqqəti cəlb edən əsas məsələ pedaqoji fənlərə ayrılan kreditlərin sayının artması ilə bağlıdır.

Cədvəldən də göründüyü kimi, 2015-ci i – l in tədris planında pedaqoji fənlərə cəmi 13 kredit (150 saat) vaxt ayrılmışdı. Bu da "İxtisas-peşə hazırlığı fənlər" blokuna ayrılan auditoriya saatların (1680 saat) cəmi 8,9 %-ni təşkil edirdi. Son tədris planında isə bu fənlərin sayı 2-dən 6- ya yüksəlmiş, yeni fənlər ("Təhsil və pedaqoji fikir tarixi", "İbtidai siniflərdə inklüziv təhsil", "Təhsil fəlsəfəsi", "Təhsil sistemləri və layihələrin idarə edilməsi") daxil edilmiş, pedaqoji fənlərin tədrisi üçün 33 kredit nəzərdə tutulmuşdur. 2020-ci ilin tədris planında "İxtisas fənləri" blokuna ayrılan 1320 saatın 315 saatı (23,9%)pedaqoji fənlərin tədrisi üçün nəzərdə tutulmuşdur.Deməli, son tədris planında pedaqoji fənlərin tədrisinə ayrılan saatların həcmi əvvəlki tədris planı (2015) ilə müqayisədə 15 % çoxdur. Bu da gələcək ibtidai sinif müəllimlərində zəruri pedaqoji kompetensiyaların formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Pedaqoji fənlərə ayrılan saatlar

№	Pedaqoji fənlər	2015-ci ilin tədris planın	Kreditlərin sayı	Saatlar		2020-ci ilin tədris planı	Kreditlərin sayı	Saatlar	
				müh.	sem.			müh.	sem
1.	Pedaqogika	+	5	30	30	+	6	30	30
2.	İbtidai təhsil pedaqogikası	+	8	45	45	+	7	30	45
3.	Təhsil və pedaqoji fikr tarixi	–	–	–	–	+	5	30	15
4.	İbtidai siniflərdə inklüziv təhsil	–	–	–	–	+	5	30	15
5.	Təhsil fəlsəfəsi					+	5	30	15
6.	Təhsil sistemləri və layihələrin idarə edilməsi					+	5	30	15

İxtisas-peşə hazırlığı blokunun seçmə fənlərinin inkişaf dinamikası

№	İxtisas-peşə hazırlığı blokunun seçmə fənləri	Kredit	Ümumi saatlar	Auditoriyadan kənar saatlar	Auditoriya saatları	Müh.	Sem.
1.	2015-ci il	26	780	480	300	185	115
2.	2020-ci il	60	1800	1140	660	330	330

"İxtisas-peşə hazırlığı bloku"nun, yəni ali məktəbin müəyyən etdiyi fənlərin sayı, onlara ayrılan kreditlərin həcmi xeyli artmışdır. 2015-ci ilin Təhsil Proqramında seçmə fənlərə cəmi 26 kredit, 2020-ci ilin Təhsil Proqramında isə 60 kredit ayrılmışdır. Kreditlərə uyğun olaraq auditoriya saatları da 2 dəfədən çox artmışdır. Əvvəlki Təhsil Proqramında ümumi auditoriya saatlarının (2520 saat) 12 %-i "İxtisas-peşə hazırlığı bloku"na aid seçmə fənlərə ayrıldığı halda, son Təhsil Proqramında 2310 auditoriya saatının 28,6 %-i (660 saat) seçmə fənlərə ayrılmışdır. 660 saatın 225 saatı (34%-i) pedaqoji fənlərə, 60 saatı Azərbaycan dilinin, 60 saatı riyaziyyatın nəzəri məsələlərinə, 315 saatı isə Azərbaycan dilinin və riyaziyyatın tədrisi metodikasına ayrılmışdır. Pedaqoji kadr hazırlığının son və həlledici mərhələsi olan pedaqoji təcrübəyə 30 kredit (əvvəkində 21 kredit idi) nəzərdə tutulmuşdur.

Araşdırmalarımız göstərir ki, ibtidai sinif şagirdlərinin mənimsəməli olduğu dəyərlər və kompetensiyalar dəyişdikcə, ona uyğun olaraq ibtidai sinif müəllimi hazırlığına verilən tələblər də dəyişir.

Müasir dövrdə kiçikyaşlı məktəblilərdə təfəkkür, fəaliyyət və dəyərlə bağlı kompetensiyaları formalaşdırmaq o qədər də asan məsələ deyil. Hər şeydən əvvəl, şagirdlərdə bu kompetensiyaların formalaşdırılması ailə və məktəb əməkdaşlığının yüksək səviyyədə qurulmasını tələb edir. Prosesin iştirakçıları, istər müəllim olsun, istərsə də valideyn özləri zəruri pedaqoji səriştəyə malik olmalıdırlar. Əks halda səmərəli və məhsuldar nəticə almaq olduqca çətindir. Valideynlərdə də zəruri pedaqoji kompetensiyaların formalaşdırılmasında da məsuliyyət məktəbin və müəllimin üzərinə düşür. Bu səbəbdən də, hesab edirəm ki, gələcəyin ibtidai sinif müəllimləri ali təhsil müəssisələrində təlim prosesində və auditoriyadankənar məşğələlərdə elə zəruri peşə kompetensiyalarına yiyələnməlidirlər ki, fəaliyyətləri dövründə kiçik məktəbyaşlı uşaqlarla bərabər, həm də onların valideynləri ilə ünsiyyət qurmağa, əməkdaşlıq etməyə hazır olsunlar.

Ədəbiyyat

1.Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Xalq qəzeti" 24 oktyabr 2013

2.“Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları”. Azərbaycan Respublikas Nazirlər Kabinetinin 29 sentyabr 2020-ci il 361 saylı Qərarı. https://nk.gov.-az/az/document/4806/
3.Bakalavr səviyyəsinin (əsas (baza) ali tibb təhsilinin) ixtisas üzrə Təhsil Proqramı. 050107 – İbtidai sinif müəllimliyi. Bakı: 2020
4.İlyasov M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı: Elm və təhsil, 2018, 208 s.
5.Mehrabov A.Səriştəli müəllim hazırlığının problemləri. Bakı: Elm və təhsil, 2015, 286 s.
6.Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı:Elm və təhsil, 2012, s.45.
7.Yeni təhsil proqramı və gələcək ibtidai sinif müəllimlərində peşə kompetensiyalarının formalaşdırılma sına verilən tələblər. // Azərbaycan Respublikasının Təhsil İnstitutu. Elmi Əsərlər.Cild 87, 2020, №5, s.163-167

РЕЗЮМЕ
РОЛЬ НОВЫХ ОБРАЗОВАТЕЛЬНЫХ ПРОГРАММ В ПОДГОТОВКЕ БУДУЩИХ УЧИТЕЛЕЙ НАЧАЛЬНЫХ ШКОЛ (Сравнительный анализ)

Эфендиева Ф.Е.
Бакинский славянский университет

В статье исследуются и сравнительно анализируются возможности образовательных программ (Госстандарта) в подготовке будущих учителей начальных классов. Объясняются преимущества утвержденной министром образования в 2020 году программы. Утверждается, что новые государственные стандарты важны с точки зрения открытия необходимых профессиональных компетенций для будущих учителей начальной школы. Он отражает компетенции выпускника, методы преподавания и обучения по предметам, методы оценки, результаты обучения, подготовку кадров, педагогическую практику, подбор персонала и другие вопросы.

Ключевые слова: *начальная школа, учитель, реформа, компетенция, учебная программа*

SUMMARY
THE ROLE OF NEW EDUCATIONAL PROGRAMS IN THE TRAINING OF FUTURE PRIMARY SCHOOL TEACHERS (Comparative analysis)

Efendiyeva F.E.
Baku Slavic University

The article examines and comparatively analyzes the possibility of educational programs (state standard) in the preparation of future teachers of primary school. Explained the benefits of the Minister of Education in 2020 programs. It is argued that the new state standards are important from the point of view of the discovery of the necessary professional competencies for future teachers of primary school. It reflects the competence of the graduate, methods of teaching and training in subjects, methods of assessment, results of training, staff training, pedagogical practice, staff selection and other issues.

Keywords: *primary school, teacher, reform, competence, curriculum.*

QLOBALLAŞMA AZƏRBAYCAN TƏHSİL SİSTEMİNİN MODERNLƏŞMƏSİNİN MÜHÜM AMİLİ KİMİ

Dadaşzadə Əhliman İbrahim oğlu, Cəfərov Pərviz Tahir oğlu
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
ehlimandadaszade@gmail.com parvizjafarov5@gmail.com

Açar sözlər*: Təhsil, cəmiyyət, modernləşmə, qloballaşma, dövlət, inkişaf*

İnsan cəmiyyəti yarandığı gündən daim inkişaf edir, formalaşır, yeni dəyərlər, yeni keyfiyyətlər əldə edir. Təhsilalma, maariflənmə süzgəcindən keçən cəmiyyət daim yeniləşir, inkişafın növbəti mərhələlərinə qədəm qoyur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi, “Müstəqil Azərbaycan Resphblikasının təhsil sistemi onun gələcək inkişafını təmin etməlidir. Təhsil millətin gələcəyidir.”[1, 93]

Öz gələcəyinə bu günün təhsil prizmasından baxan xalq daim inkişaf edir. Dövrün tələblərinə cavab vermək istəyən xalq cəmiyyətin bütün sahələrində yaranan problemlərin həlli yollarını, ilk növbədə, təhsil sistemində axtarmalı və tapmalıdır. Təhsil sisteminin, məktəbin vasitəsi ilə gələcəkdə baş verməsi güman edilən çatışmazlıqlar aradan qaldırılmalıdır. Azərbaycan xalqının təhsili müasir dünyanın mütərəqqi təhsil sisteminin ayrılmaz bir hissəsidirvə dünya xalqlarından biri kimi məhz bu məntiqə söykənərək inkişaf edir.

Qədim sivilizasiya mərkəzi olan Azərbaycan , tarixin çox qədim zamanlarından başlayaraq öz təhsil sistemini formalaşdırmış, bu təhsil sisteminə milli çalarlar qatmış, qədim elm və mədəniyyət mərkəzi kimi özünün püxtələşmiş, dayanıqlı təhsil sisteminə, bilikləri gənc nəsillərə ötürməyə qadir olan təhsil müəssisələrinə malik olmuş, bu müəssisələrdə parlaq elm xadimləri yetişdirmişdir. İmperiya buxovlarından azad olaraq müstəqillik əldə etdikdən sonra respublikamızda təhsil, təlim-tərbiyə sahəsində yeni perspektivlər reallaşdırılması üçün yeni imkanlar açıldı. Azərbaycan təhsili xalqımızın elm və mədəniyyət sahəsində qazandığı yeni dəyərləri, təhsil ənənələrimizi gənc nəslə mənimsədən təlim-tərbiyə mərkəzinə çevrildi. Azərbaycan təhsili xalqımızın milli-mənəvi dəyərlərini, milli psixologiyasını, milli dünyagörüşü sisteminin nəsildən-nəslə ötürmək missiyasını öz üzərinə götürdü. Təəsüflər ki, müstəqilliyin ilk illərində bütün sahələrdə olduğu kimi təhsil sistemində də böhranlı vəziyyət yarandı. Təhsil sahəsində milli ruhlu kadrlar hazırlamaq, vətəni sevən, onun mənafeyini müdafiə edən gənc nəsil tərbiyə etmək kimi müqəddəs vəzifənin öhdəsindən gəlməyi bacaran islahatçı kadrlar yetişdirmək vəzifəsi arxa plana keçdi. Bu təbəddülatlar 1993-cü ilin iyunundan sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin yenidən hakimiyyətə dönməsi ilə başa çatmış oldu. Bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də tənəzzülün qarşısı alındı, milli təhsil sistemimiz özünü bərpa etməyə, tədricən inkişaf etməyə başladı. Azərbaycan cəmiyyətində siyasi, iqtisadi, hüquqi, əxlaqi-mənəvi cəhətdən sağlam mühitin əsası qoyuldu, təhsil sistemində islahatlara başlamaq üçün əlverişli şərait yaranmış oldu.

Xalqımızın ümummilli lideri, təhsilimizin himayəçisi, möhtərəm Heydər Əliyevin fərmanı ilə 1998-ci ildə bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olduğu ölkəmizdə təhsil sistemində islahatın aparılması üçün, islahat proqramının hazırlanması məqsədilə xüsusi komissiya yaradıldı[2, 58].

Kamil insanın formalaşmasında əsas vasitə olan elmin əsaslarına dərindən yiyələnmə və faydalı əmək fəaliyyəti mükəmməl təlim-tərbiyə prosesində yaranır. Azərbaycan təhsili məhz belə xüsusiyyətlərə malik şəxsiyyətlərin yetişməsinə, insan kapitalının inkişafına əsaslanan bir sistemdir.. Ona görə də milli-mənəvi dəyərlər əsasında təmiz əxlaqlı, rəqabətəqabillik xüsusiyyətlərinə uyğun biliklər sisteminə yiyələnmiş və nümunəvi davranışlı şəxsiyyətin formalaşması üçün, millilikdən ümumbəşəriliyə doğru gedən yolun metodologiya və fəlsəfəsinin elmi sisteminin işlənilməsi təhsilin ən aktual problemi kimi meydana çıxdı. Belə elmi sistemin, milli-mənəvi dəyərlər xəzinəsinin tərkib hissəsini, təlim-tərbiyə prosesinin əsas prinsipi olan inteqrasiya olunmuş biliklər sisteminə yiyələnmiş yüksək intellektli, sağlam düşüncəli şəxsiyyətin yetişdirilməsi təşkil etdiyindən Azərbaycan təhsil sisteminin əsas məqsədlərinin yenidən formalaşdırılması mühüm problem kimi qarşıya qoyuldu. Belə qlobal problemlərin həlli isə yalnız Azərbaycan təhsil sistemində milli xüsusiyyətləri və milli dəyərləri saxlamaqla dünya təhsil sisteminə inteqrasiyası, yəni təhsil sferasının qloballaşması nəticəsində həyata keçirilə bilər. Bu isə öz növbəsində təhsil sisteminin məzmun və struktur cəhətdən yenişləməsini,ümumbəşəri prinsiplər əsasında qurulmasını, onun modernləşməsini tələb edir.

Təhsilin modernləşdirilməsinin həyata keçirilməsi praktiki olaraq bütün Azərbaycan ailələrini əhatə etdiyindən təhsildə aparılan dəyişiklərinin mahiyyəti, məqsədləri müntəzəm olaraq əhaliyə şərh edilməli, təhsili idarə edən qurumlar və təhsil müəssisələri tərəfindən ictimai fikrin nəticələri diqqətlə öyrənilməli və təhsilin modernləşdirilməsində nəzərə alınmalıdır. Azərbaycan təhsili və dünyanın inkişaf tendensiyası, Azərbaycan təhsil sisteminə verilən yeni sosial tələblər, Azərbaycanda keyfiyyətli təhsilin həyata keçirilməsinə dövlər təminatı, təhsildə səmərəli iqtisadi münasibətlərin formalaşması:təhsil sisteminin yüksəkixtisaslı kadrlarla təminatı, dövlət və ictimaiyyət tərəfindən onun dəstəklənməsi;pedaqoji kadrların peşəkarlığının yüksəidilməsi və digər problem sahələr üzrə maarifləndirmə işləri ön plana çəkilərək, məlumatlı cəmiyyətin formalaşdırılması sahəsində işlər yeni vüsət almalıdır.

İnsan sivilizasiyası öz tarixi inkişaf dövründə həmişə yeni proseslərlə köhnə infrastrukturlar arasında ziddiyyətlərin, böhranın şahidi olmuşdur. Bilirsinzi ki, hazırda dünyanın bir nöqtəsindən başqa nöqtəsinə getmək, planetin istənilən nöqtəsi ilə rabitə əlaqəsini qurmaq heç bir problem yaratmır. Lakin dünyanın istənilən nöqtəsində normal təhsil almaq problemdir. Sual olunur, bu nə ilə bağlıdır? Elmi araşdırmalar göstərir ki, bunlar, ilk növbədə, təhsil infrastrukturunun həddindən çox böyük kapitaltutumlu, intellekttutumlu olması ilə bağlıdır. Bu proses onun qurucularından, yəni humanitar texnoloqlardan yüksək professionallıq tələb edir. Bundan başqa, elmin, texnikanın inkişafı ilə bağlı müasir təhsil sisteminin institusional nüvəsinin fəaliyyəti dəyişir. Əvvəllər belə nüvə rolunu təhsil müəssisəsi oynadırdı. Təhsil alan isə məktəbdə müəyyən çərçivəyə salınmış standart təhsil xidmətləri ilə rastlaşırdı. Hazırda isə belə

institusional təhsilin məzmununu şəxsi təhsil proqramları təşkil etməyə başlamış, onun mərkəzində isə şəxsin özü qoyulmuşdur. Hazırda dünyanın inkişaf etmiş ölkələrində imkanlı ailələr uşaqlarının kiçik yaşlarından professionallarla-tyuter və psixoloqlarla şəxsi təhsil proqramı hazırlayır, onu həyata keçirmək üçün xüsusi məktəblər açırlar.(Hollandiya və təcrübəsi). Başqa sözlə, təhsilin fərdiləşdirilməsi prosesi gedir. Bu isə təlim-tərbiyə prosesi məzmununun tamamilə yenidən qurulmasını və onun əsasında tədrisin aparılmasını tələn edir. Bu halda proses konkret şəxsə istiqamətləndiyindən təhsil verənlər, birinci növbədə, təlimin yeni məzmununun metodoloji üsullarını öyrənməli və bu istiqamətdə daima öz biliyini artırmalıdırlar.

Azərbaycan Təhsil sisteminin islahat proqramının tələblərinə uyğun olaraq dünya təhsil sisteminə inteqrasiyası və onun modernləşdirilməsi məqsədiləbir sıra vacib addımlar atıldı. Təhsil sistemində struktur dəyişikliyinə gedildi. Təlim və tərbiyənin məzmununda, ilkin pedaqoji kadr hazırlığı məsələsində müvafiq tədbirlər həyata keçirildi. Təhsil sisteminin informasiya, tədris və elmi-metodiki təminatı sistemi tamamilə modernləşdirildi. Təhsil sisteminin idarə olunması, təhsil sisteminin maddi texniki bazasınının möhkəmləndirilməsi, təhsilin iqtisadiyyatı, təhsil sisteminin dəyərləndirilməsi və qiymətləndirilməsi problem sahələr üzrə xeylj işlər görülmüş və hazırda təhsil sisteminin modernləşdirilməsi ilə bağlı işlər davam etdirilir. [3, 94]

Dünya təhsil sferasının qloballaşması uzunmüddətli və mürəkkəb bir prosesdir. Bu proses dil, mədəniyyət, ideologiya, din baxımından müxtəlif olmasına baxmayaraq, bu istiqamətdə işlər dinamik xarakter almış və Azərbaycan da bu dinamikanın mühüm bir tərkib hissəsinə çevrilmişdir. Özünün zəngin ənənələrinə, milli-mənəvi və ümüumbəşəri dəyərlərə əsaslanan Azərbaycan təhsili daimi inkişaf yolunda beynəlxalq təcrübəyə əsaslanan modernləşməni özünə əsas prioritet seçmiş və bu seçim öz müsbət nəticələrini artıq indidən göstərməkdədir.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Təhsil Standartları Bakı 2000
2. Azərbaycanda Təhsil Siyasəti I kitab Bakı 2005
3. Təhsil İslahatı və kurikulum Bakı 2005

РЕЗЮМЕ

ГЛОБАЛИЗАЦИЯ АЗЕРБАЙДЖАН ОБРАЗОВАНИЕ
КАК ВАЖНЫЙ ФАКТОР МОДЕРНИЗАЦИИ СИСТЕМЫ

Дадашзаде А. И.Джафаров П.Т.
Сумгаитский государственный университет

Решение глобальных проблем может быть достигнуто только в результате интеграции азербайджанской системы образования в мировую систему образования, т.е. глобализации образования при сохранении национальных особенностей и национальных ценностей. Это требует создания всеобщей системной системы образования и ее модернизации. Азербайджанское образование, опираясь на свои богатые традиции, национально-духовные и общечеловеческие ценности, выбрало своим главным приоритетом модернизацию на основе международного опыта на пути устойчивого развития, и этот выбор уже дает свои положительные результаты.

Ключевые слова*: Образование, общество, тодернизация, глобализация, состояние, разработка*

SUMMARY

GLOBALIZATION AZERBAIJAN EDUCATION
AS AN IMPORTANT FACTOR OF SYSTEM MODERNIZATION

Dadashzade A. I., Jafarov P. T.
Sumqayit State University

The solution of global problems can be achieved only as a result of the integration of the Azerbaijani education system into the world education system the globalization of education, while preserving the national features and national values. It requires the establishment of a universal principled education system and its modernization. Azerbaijani education, based on its rich traditions, national-spiritual and universal values, has chosen modernization based on international experience on the path of sustainable development as its main priority, and this choice is already showing its positive results.

Keywords*: Education, society, modernization, globalization, state, development*

MÜƏLLİMİN NİTQ MƏDƏNİYYƏTİ

Quliyeva Aynurə Pənah qızı
Sumqayıt Dövlət Universiteti, magistrant

Açar sözlər: *nitq, müəllim,qramatik,psixoloji,ziddiyyət*

Müəllimin məharətinin tərkib hissələrindən biri də onun nitq mədəniyyətidir. Müəllimin nitq mədəniyyətinə, ceteris paribus - bilik və metodik bacarıq səviyyəsinə sahib olması - tərbiyə işində ona böyük uğurlar qazandırır.

Nitq mədəniyyəti geniş, tutumlu və çoxkomponentli anlayışdır. Qrammatik qaydaların möhkəm biliyi müəllimə öz fikrini düzgün ifadə etməyə imkan verir, nitqinə ahəngdar, mənalı xarakter verir ki, bu da şagirdlərin tədris materialını, tapşırıqları və s. qavramasını və başa düşməsini asanlaşdırır. Əks halda müəllimlə şagird arasında ziddiyyət verə bilər. Çünki, nitqin qrammatik cəhətdən düzgün qurulması onun məzmununu, məntiqi ardıcıllığını, başa düşülməsini təmin edir.

Müəllimin nitq mədəniyyətinin ikinci komponenti təqdimatın sadəliyi və aydınlığıdır. Bir və bir neçə fikir şagirdlər üçün başa düşülən formada ifadə oluna bilər və ya əksinə, nitqə elə elmi görünüş verilə bilər ki, şagirdlər onlardan nə tələb olunduğunu, nəyi öyrənməli olduqlarını başa düşə bilməzlər. Mürəkkəbdən sadə danışmaq, mücərrədi anlaşıqlı etmək bacarığı müəllimin təfəkkürünün aydınlığına, izah etmək üçün verilən misalların obrazlılığına və canlılığına əsaslanır.Müəllimin nitq mədəniyyəti özündə aşağıdakı komponentləri birləşdirir:

1. Söz birləşmələrinin qurulmasındakı biliklər.
2. Gündəlik həyatda işlədilən sözlərin düzgün tələffüzü:

a) sözlərdə düzgün vurğu;
b) yerli dialektlərin xaric edilməsi.

3. Təqdimatın sadəliyi və aydınlığı.
4. Ekspressivlik:

a) intonasiya və tonallıq;
b) nitqin tempi, pauzalar;
c) səs dinamikası;
d) lüğət zənginliyi;
e) obrazlı nitq;
e) diksiya.

5. Xüsusi terminologiyanın düzgün istifadəsi:

a) qulaq kəsən frazeoloji ifadələrin xaric edilməsi;
b) artıq sözlərin xaric edilməsi;
c) jarqon və dəbli sözlərin xaric edilməsi.

6. Sakitlik.
7. Hərəkət nitqinin koordinasiyası.

Nitq mədəniyyətinin üçüncü komponenti ekspressivlikdir. Bu, həm düzgün sözlərin və sintaktik konstruksiyaların seçilməsi, həm də şifahi nitqin ekspressivliyinin əsas komponentlərindən - ton, səs dinamikası, temp, pauzalar, vurğu, intonasiya, diksiyadan fəal istifadə etməklə əldə edilir.

İntonasiya və tonallıq söz və ifadələrə emosional rəng verdiyi üçün təkcə şagirdin şüuruna deyil, həm də hisslərinə təsir göstərir. Nitq tonu bayram, təntənəli, səmimi, şən, qəzəbli, kədərli və s. ola bilər.Müəllim situasiyadan asılı olaraq bütün ton zənginliyindən istifadə etməli, monoloqları passiv, monoton səslə söyləməməlidir.

Süjet oyunları zamanı müəllim intonasiyanı dəyişdirərək, şagirdlərdə süjetə uyğun gələn adekvat ideyaların və vizual obrazların formalaşmasına öz töhfəsini verir.

Müəllimin nitq tonu sakit, inamlı, nüfuzlu olmalıdır. Lakin bunun üçün müəllimin özünün sakit olması, verilən əmrlərin düzgünlüyünə, öz hərəkətlərinə, şagirdlərin hərəkət və hərəkətlərinə verdiyi qiymətə əmin olması lazımdır. Tərtib edən, tərbiyələndirici ton çox arzuolunmazdır, o, adətən şagirdləri müəllimdən uzaqlaşdırır, çünki şagird nə qədər böyük olsa, özünü təsdiq etmək, özünü bir şəxsiyyət kimi tanımaq istəyi bir o qədər aydın görünür.

Nitqin tempi də onun ifadəliliyini müəyyən edir. Çox sürətli nitq yararsızdır, çünki şagirdlərin diqqətini müəllimin dediklərinə cəmləmək, bütün məlumatları "həzm etməyə" vaxt tapmaq çətindir və çox ləng nitq tələbələrə sakitləşdirici təsir göstərir.

Nitq pauzaları düzgün istifadə edildikdə, danışılan sözün və ifadənin mənasını daha yaxşı çatdırmağa imkan verir. Pauzanın köməyi ilə müəllim öz nitqinin, hansısa hadisə ilə bağlı mesajının və s.-nin maraqlı hadısənən mənasını artıra bilər.

Müəllimin nitqinin ifadəliliyini şərtləndirən digər amil səsin səs dinamikası, onun gücünün dəyişməsidir.

Lüğət zənginliyi nitqin obrazlılığına, onun vasitəsilə isə ifadəliliyə kömək edir. Atalar sözlərindən, məsəllərdən, məcazlardan, mücadilədən məharətlə istifadə müəllimin nitqini şirəli və emosional edərək şagirdləri ruhlandırır. Əlbəttə ki, yalnız bu yaşda olan uşaqların başa düşə biləcəyi nitq vasitələrindən istifadə etmək lazımdır.

Müəllimin izah etdiyi tədris materialının şagirdlər üçün başa düşülməsində nitqin *obrazlılığı mühüm rol oynayır.*

Diksiya, yəni səslərin və ifadələrin aydın tələffüzü müəllimin nitqini şagirdlərin başa düşməsini asanlaşdırır. Sözlərin sonunu tələffüz etməkdə səhlənkarlıq ("udmaq"), nazallıq – diksiyadakı bu çatışmazlıqlar müəllim həm müstəqil, həm də nitq texnikası üzrə mütəxəssisin rəhbərliyi altında sistemli şəkildə məşq edərsə, aradan qaldıra bilər.

"Monotonistlər" adlanan bəzi müəllimlərin xarakterik nitq xüsusiyyətləri var ki, şagirdləri "sakitləşdirir". Onlar nitq tonunun dəyişməsindən (artırma və ya azalma) nadir hallarda istifadə edirlər, nitqlərinin həcmi aşağı olur, fasilələr uzanır, nitqin intonasiyası, eləcə də tempi çox nadir hallarda dəyişir.
Müəllimin nitq mədəniyyətinin dördüncü komponenti gündəlik nitqindəki sözlərin səriştəli tələffüzüdür. Məsələn, sözlərdə vurğuların yerləşdirilməsində səhvlər var,yəni "anladın *"* əvəzinə *"* anladınmı " və s.

Müəllim mütləq nitqindən jarqonları, dəbli sözləri, məsələn, "sərin", "çəkil" və s. qovmalıdır. Nə qədər aşıqlı olsada müəllimin nitqində təhqiramiz sözlər yolverilməzdir.

Müəllimin nitq mədəniyyətinin beşinci komponenti ***lakonizmdir.*** Bəzi müəllimlər dərsin məqsədlərini aydın şəkildə adlandırmaq əvəzinə, şagirdlərin dərsdə nə edəcəyini, nəyin müzakirə olunacağını çox ətraflı təsvir edirlər. İfadə və sözlərin təkrarlanmasında da ifadəlilik ifadə olunur.

Təbii ki, lakonizm özlüyündə son deyil. Həddindən artıq sıxılmış, demək olar ki, teleqraf dili də nitqi bəzəmir, xüsusən sözlərin kiçilməsi səbəbindən müəllimin ifadələri qeyri-müəyyənləşir.

Ədəbiyyat

1. Pedaqoji prosesdə ünsiyyət və şəxsiyyət // Məktəbdə biologiya.1985. № 5.a, 1995.
2. Kondratieva S.V. Müəllim tərəfindən şagirdin şəxsiyyətinin başa düşülməsi // Psixologiya sualları. 1980. № 5.
3. Kondratiyev S.V.Pedaqoji fəaliyyətin və ünsiyyətin sosial-perseptual tənzimlənməsi // Psixologiya dünyası. 1996. № 3.
4. Kunitsyna V.N. Şəxslərarası qeyri-rəsmi ünsiyyətin pozulması, maneələr, çətinliklər // Psixoloji nəzəriyyə və praktikanın aktual problemləri. - Sankt-Peterburq, 1995.
5. Kashnitsky V. I. Gələcək müəllimin kommunikativ səriştəsinin formalaşması: Dissertasiyanın xülasəsi. dis. cand. Elmlər. - Kostrom 239. Kovalev G.A.

РЕЗЮМЕ

КУЛЬТУРА РЕЧИ УЧИТЕЛЯ

Гулиева А. П.

Сумгаитский государственный университет

Культура речи – понятие широкое, емкое и многокомпонентное. Уверенное знание грамматических правил позволяет учителю правильно излагать свои мысли, придает речи стройный, осмысленный характер, что помогает учащимся понять учебный материал, задания и т. д. облегчает восприятие и понимание. В противном случае может возникнуть конфликт между учителем и учеником. Потому что грамматически правильное построение речи обеспечивает ее содержание, логическую последовательность, понимание.

Ключевые слова: *речь, учитель, грамматика, психология, противоречие.*

SUMMARY
TEACHER'S SPEECH CULTURE
Guliyeva A. P.
Sumqayit State University

Speech culture is a broad, capacious and multi-component concept. Strong knowledge of grammar rules allows the teacher to express his thoughts correctly, gives a harmonious, meaningful character to the speech, which helps students to understand the teaching material, assignments, etc. facilitates comprehension and understanding. Otherwise, there may be a conflict between the teacher and the student. Because, grammatically correct structure of speech provides its content, logical sequence, comprehension.
***Keywords**: speech, teacher, grammar, psychology, contradiction.*

İRƏVAN MAARİFÇİLİK MÜHİTİ VƏ İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI

Hüseynzadə Rüfət Lətif oğlu
Pedaqoji elmlər doktoru, professor, Əməkdar müəllim.
prof.rufat@mail.ru

***Açar sözlər:** İrəvan, Seminariya, Gimnaziya, müəllim, məzun.*

1881-ci ildə İrəvanda 3 böyük tədris müəssisəsi – İrəvan Kişi Gimnaziyası, İrəvan Müəllimlər Seminariyası və İrəvan qız progimnaziyası açılmışdır.

İrəvan Kişi Gimnaziyasının tanınmış məzunları olmuşdur:

Eynəli bəy Sultanov - 1886-cı ildə məzun olmuş, gimnaziyanın pedaqoji şurasının qərarı ilə ona müəllimlik hüququ verilmişdir.

Mustafa Topçubaşov (1895-1981)- Akademik. İrəvan Kişi Gimnaziyasını sonuncu qızıl medalçısı olmuşdur. O Kiyev universitetinin tibb fakültəsində təhsil almış, görkəmli cərrah, ictimai və dövlət xadimi olmuşdur.

Əziz Əliyev (1897-1962)- elm və dövlət xadimi. İrəvan Kişi Gimnaziyasını 1917-ci ildə fərqlənmə diplomu ilə bitirmiş, Hacı Zeynalabdin Tağıyevin maliyyə yardımı ilə Sankt-Peterburq Hərbi Tibb Akademiyasında təhsil almış, Səhiyyənin, təhsilin müxtəlif sahələrində, dövlət işlərində yüksək vəzifələrdə çalışmış, 1929–1932-ci illərdə Azərbaycan Klinik İnstitutunun rektoru, Azərbaycan Dövlət Tibb İnstitutunun rektoru, 1937- ci ildə Azərbaycan Dövlət Universitetinin rektoru olmuş, professor, "Əməkdar həkim", ictimai və dövlət xadimi olmuşdur.

Əhməd Rəcəbli (1898-1963) Akademik. 1919- cu ildə AXC hökuməti Ə. Rəcəblinin İtaliyaya oxumağa göndərmiş, qayıtdıqdan sonra Moskva Universitetində dərs demişdir. Heydər Hüseynov (1908-1950) - Akademik. Müxtəlif elm sahələrində, dövlət işlərində yüksək vəzifələrdə çalışmışdır. Mehdi Kazımov - (1890-1954), Miryusif Mirbabayev (1889-1951), Səid Rüstəmov (1907-1983) və daha başqa görkəmli tanınmış şəxsiyyətlər İrəvan Kişi Gimanziyasını bitirmişlər.

1881-ci il, 8 noyabrda İrəvan şəhərində İrəvan Müəllimlər Seminariyası açılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2021-ci il tarixində imzaladığı "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" Sərəncamı mühüm elmi, pedaqoji,siyasi və tarixi əhəmiyyət kəsb edir. Sərəncamda deyilir: "Biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu, gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı - bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq" (1). Bu sərəncam İrəvan mahalında azərbaycanlıların min illər boyu yaşayıb- yaratdığı tarixi- mədəıni irsə sahib çıxmağa çağırış, qan yaddaşımızı oyatmağa yönələn mühüm tarixi bir sərəncamdır.

37 il fəaliyyət göstərən bu təhsil ocağı 1918-ci ilin 6 avqustunda bağlanmışdır. Seminariyanın Azərbaycan bölümünün rəhbəri Axund Məmmədbağır Qazızadə olmuşdur. Seminariyanın fəaliyyətində Firudin

bəy Köçərli, İsmayıl bəy Şəfibəyov, C.Ələkbərbəyov, Cəlil Məmmədquluzadə, M.Terequlov və başqalarının böyük xidmətləri olmuşdur. İrəvan Müəllimlər Seminariaysının Azərbaycan şöbəsinin müxtəlif vaxtlarda direktorları Məmmədbağır Qazızadə, Rəşid Bəy Şahtaxtinski, Həmid Bəy Şahtaxtinski, Cəfər Bəy Cəfərbəyov olmuşdur:

1925-ci ildə İrəvanda iki illik müəllimlər kursu, 1936 -cı ildə İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutu, 1937 -ci ildə iki illik Müəllimlər İnstitutu, 1945-1988 -ci illərdə İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsi fəaliyyət göstərmişdir.

İrəvan Pedaqoji İnstitunda dərs demiş dos. Əkbər Yerevanlı, dos. Lətif Hüseynzadə, dos. Əli Dalqılıcov, dos. Fərrux Rzayev, dos. İsrafil Məmmədov, dos. Mehdixan İrəvanski, dos. Hüseyn İsmayılov, dos. Məhərrəm Hüseynov, dos. Vilayət Əliyev, prof. Fərhad Fərhadov, prof. Rəhim Allahverdiyev, prof. Həmid Əliyev, prof. Mirəli Seyidov, Adil Süleymanov, Sabir Əsədov, Arzuman Qəmbərov, Təvəkkül Kərimov kimi tanınmış pedaqoq alimlər dərs demişlər.

Ədəbiyyat

1. İlham Əliyev. "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsihaqqında" Sərəncam. Bakı şəhəri, 29 dekabr 2021-ci il/https:/ /president.az/az/articles/view/55116.

РЕЗЮМЕ

ИРАВАНСКАЯ ОБРАЗОВАТЕЛЬНАЯ СРЕДА И ИРАВАНСКИЙ СЕМИНАРИЯ УЧИТЕЛЕЙ

Гусейнзаде Р. Л.

В 1881 году в Ереване были открыты 3 крупных учебных заведения - Иреванская мужская гимназия, Иреванская учительская семинария и Иреванская женская прогимназия. Известными выпускниками Иреванской мужской гимназии были: Эйнали бек Султанов, Мустафа Топчубашов, Азиз Алиев, Ахмед Раджабли, Гейдар Гусейнов и другие. 8 ноября 1881 года в Ереване была открыта Иреванская учительская семинария. Это учебное заведение, просуществовавшее 37 лет, было закрыто 6 августа 1918 года. Заведующим азербайджанским отделением семинарии был Ахунд Мамедбагир Газизаде.

Ключевые слова:*Ереван, семинария, гимназия, учитель, выпускник.*

SUMMARY

IRANIAN EDUCATIONAL ENVIRONMENT AND IRANIAN SEMINARY TEACHER

Huseynzadeh R. L.

In 1881, 3 large educational institutions were opened in Yerevan - the Irevan Men's Gymnasium, the Irevan Teacher's Seminary and the Irevan Women's Progymnasium. Well-known graduates of the Irevan male gymnasium were: Einali bey Sultanov, Mustafa Topchubashov, Aziz Aliyev, Ahmed Rajabli, Heydar Huseynov and others. On November 8, 1881, the Iravan Teachers' Seminary was opened in Yerevan. This educational institution, which existed for 37 years, was closed on August 6, 1918. The head of the Azerbaijani department of the seminary was Akhund Mammadbagir Gazizade.

Keywords: *Yerevan, Seminary, Gymnasium, teacher, graduate.*

DÜNYA TƏCRÜBƏSİNDƏ MÜƏLLİM HAZIRLIĞI

Talıbova Xalidə Ağadadaş qızı

ADPU-nun Cəlilabad filialı, Cəlilabad, Azərbaycan

xalidetalibova@mail.ru

Açar sözlər: *xarici təhsil sistemində, iş təcrübəsi, peşəkarlıq səviyyəsi, mentorluq, kouçinq*

Peşəkar müəllim təhsil sisteminin əsas elementidir. Pedaqoji kadrların hazırlığı və inkişafına daxili və xarici təhsil siyasətində böyük diqqət verilir. Bəzi təhlillər göstərir ki, pedaqoji ali məktəblərin məzunlarının bir qismi ilk iki və ya üç il işlədikdən sonra müəllimlik peşəsini tərk edir. Qeyd etmək lazımdır ki, işə başlayan ilk illər gələcək müəllimlərdə peşəkarlıq və onun peşədə qalması niyyəti formalaşır. Bu müddətə

xüsusi diqqət lazımdır. Məlumdur ki, peşədə ilk addımları ilə razı olmayan 44% məzun bir və ya iki il sonra tədrisi tərk edir.

Xarici təhsil sistemində peşəyə başlayan müəllimlərin işdə saxlanılmasına və peşəsini dəyişməməsinə nail olunub. Belə ki, yeni işə başlayan məzunun həmin fənni tədris edən mentoru ilə işi və qayğısı onun işdən uzaqlaşma riskini 30% azaldır. Eyni fənni tədris edən həmkarları ilə birgə planlaşdırmanı öyrənmək, işdənkənar görüşlərdə iştirak və şəbəkə fəaliyyəti işdən getmə riskini 44% azaldır.

Xarici ölkələrin iş təcrübəsini öyrəndikdən sonra belə nəticəyə gəlmək olar ki, yeni işə başlayan müəllimlərin peşədə qalma və peşəkarlıq səviyyəsini inkişaf etdirmək üçü 4 baza elementinə riayət etmək lazımdır. Bunlar aşağıdakılardır:

- mentorluq - mentorla birlikdə dərsin planlaşdırılmasını hazırlamaq, açıq dərslərin və məsləhətlərin keçirilməsi (Fransa, Avstriya, Hollandiya, Yeni Zelandiya, Avstraliya, Finlandiya, İrlandiya, İsveç, Koreya, Yaponiya, Kanadada qəbul edilib);
- məktəbdənxaric fəallıq - ali təhsil müəssisələrinin proqramının öyrənilməsi, peşəkar təşkilatlara inteqrasiya, təhsil idarəetmə orqanlarında iştirak (Fransa, Avstriya, Hollandiya, Yeni Zelandiya, Avstraliya, Finlandiya, İrlandiya, İsveç, Koreya, Yaponiya, Kanadada qəbul edilib);
- 10 ölkədə qəbul edilən müəllimlər üçün inzibati dəstək;
- 9 ölkədə tətbiq olunan dəstək proqramının sonunda qiymətləndirmə;

Bu əsas elementlərdən əlavə 4 dəstək üsulundan da istifadə edilir:

1. İşə başlayanlarla komanda ilə işləmək altı xarici ölkədə, yəni Avstraliya, Yaponiya, Fransa, Koreya, İrlandiya və Yeni Zelandiyada həyata keçirilir. Bura məktəb rəhbərləri, təcrübəli həmkarlar, müəllim hazırlığı müəssisələrinin nümayəndələri daxildir.
2. Yeni Zelandiya, Avstraliya, Koreya, İsveçrə, Fransa və Yaponiyada işə başlayan müəllimlərlə fərdi qaydada iş aparılır. Bu ölkələrdə gənc mütəxəssisin daha çox portfolio, reflektiv gündəlikləri üsulu tətbiq edilir.
3. Dərs yükü azaldılır.
4. Adaptasiya modulundan istifadə. Adaptasiya komponenti Avstraliya, Koreya, İsveç, İsveçrədə tətbiq edilir.

Bir sıra xarici ölkələrdə işə başlayan müəllimlərə dəstək təcrübəsini öyrəndikdən sonra, ümumiləşdirmə olaraq demək olar ki, əlavə təhsil sistemində onlara kömək məqsədilə hansı modeli təklif edirlər:

- Kanada, İsveç və İsveçrədə istifadə olunan yeni işə başlayan müəllimlə məktəb arasında bağlanmış müvəqqəti müqavilə.Müvəffəq iş zamanı bu müqavilə qeyri-müəyyən müddətə yenilənir;
- Avstraliya, İrlandiya və Yeni Zelandiyada istifadə olunan müvəqqəti qeydiyyat müddətindən sonra müəllim statusunun təsdiqi;
- Avstriya, Fransa və Hollandiyada tətbiq olunan məktəbdə bir il staj keçmə.

Müəllim statusunu təsdiq elən modeli nəzərdən keçirək.

Avstraliyada təcrübəsiz mütəxəssis diplom aldıqdan sonra müvəqqəti müəllim statusunu alır. Daimi olaraq isə o, Müəllimlərin qeydiyyat şurası tərəfindən (Board of Teacher Registration) 12 ay ərzində qeydiyyat alması mümkündür. Daimi qeydiyyat almaq üçün təcrübəsiz müəllim direktor və iki müəllimin qiymətləndirmə apardığı Məktəb şurasında "Peşəkar təcrübəsini sübut" edir.Bu qiymətləndirməni aparan biri müəllimin mentoru ola bilər, digər qiymətləndirmə aparan şəxs isə qiymətləndirmə üzrə xüsusi hazırlığı olan müəllim olmalıdır. Şuranın vəzifəsi – təqdim edilmiş sübutu üç istiqamət üzrə qiymətləndirməli və daimi qeydiyyat yeri əldə etmək üçün tövsiyələr verməkdir. Sübut kifayət qədər olmasa şura müvəqqəti qeydiyyat dövrünü uzada bilər.

Viktoriyada, məsələn, müəllimin daimi qeydiyyat əldə etmək üçün ən azı 80 gün tədris təcrübəsi olmalı və qiymətləndirmə prosedurunu keçməlidir. Yeni Zellandiyada isə gənc mütəxəssislər daimi qeydiyyat almaq üçün beş il müvəqqəti qeydiyyat olunur.

İrlandiyada 2002-ci ildən etibarən müəllimlik təhsilini tamamlayan və ilk işlə təmin olunan gənc mütəxəssislər üçün, zəruri bir addım illik təcrübə keçməkdir.

Beləliklə, Avstraliya, Yeni Zelandiya və İrlandiya yeni işə başlayan müəllimlər daimi qeydiyyat almaq üçün müəllim statusunu almalıdır. Kanada, İsveç, İsveçrədə isə daimi qeydiyyat verilməsi haqqında qərarı işəgötürən (məktəb) tərəfindən deyil, təhsil sistemində olan xüsusi institut və ya təşkilat, məsələn Qeydiyyat şurası verir.

Avstraliyada işə başlayan müəllimləri dəstəkləmək üçün proqram - 8 elementdən, Yeni Zelandiya proqramı -7, İrlandiya – 4 elementdən ibarətdir.

Avstraliya və Yeni Zelandiyada yeni işə başlayan müəllimin mentorla və komanda ilə əməkdaşlığı əsas iş üsulu sayılır.

Avstraliyada yeni başlayan müəllimlər üçün məktəb heyətinin komanda şəklində dəstək proqramlarının mühüm xüsusiyyəti var. Avstraliyada adaptasiya proqramının ikinci modulu («Laying Foundations») gənc mütəxəssis hər gün direktor və mentorla ünsiyyət qurur, onlarla birlikdə dərslər keçirir və planlaşdırmada onlardan yardım xahiş edir. Həmin mütəxəssis ikinci həftədən səkkizinci həftəyə kimi müntəzəm olaraq direktor və mentorla əlaqə saxlayır, digər müəllimlərin işinə nəzarət edir və digər məktəblərin gənc mütəxəssislərlə əlaqə saxlayır.

Üçüncü modul (Continuing Professional Growth) mentorun mütəxəssisi işə daxil etməsi, ətrafla tanışlığa başlayır və ona peşəkar dəstək göstərir və onun inkişafını korrektə edir.

Gənc mütəxəssis mentorun işini müşahidə edir, planlaşdırmada iştirak edir, onun inkişaf planının hazırlanması ilə məşğul olur, portfolio hazırlayır, tədbirlərdə iştirak edir.

Viktoriyada Tədris İnstitutu (Victorian Institute of Teaching) müvəqqəti qeydə alınmış müəllimlər tərəfindən dəstəklənən proqram (Supporting Provisionally Registered Teachers Program) irəli sürmüşdür.

Proqrama təcrübəsiz müəllim və mentoru ilə birgə sinifdaxili fəallığı (Collegiate Classroom Activities) daxildir. İki dərs təcrübəsiz müəllimin, bir dərs mentorun sinfində keçirilir. İştirakçılar birlikdə dərsin məqsədlərini, onlara nail olmaq üçün üsullarını seçir, sonra daimi qeydiyyat üçün çərçivə standart qiymətləndirilməsindən meyar kimi istifadə edirlər. Standartlara uyğun həm təcrübəsiz müəllim, həm də mentor qiymətləndirmə həyata keçirir.

Yeni Zelandiyada tyutor (təlimçi müəllim) ya direktor müavini və ya təcrübəli müəllimlər olsa da, adətən, tədris ilinin əvvəlinə qədər gənc mütəxəssislərlə görüşür. Təlimçilər giriş müddətini planlaşdırır və bu çərçivədə onun həyata keçirilməsi üçün büdcəni hazırlayır. Onlar, həmçinin, direktora və ya onun müavinlərinə yeni gələnlərin güclü və zəif tərəflərini ifadə edən aylıq hesabatını təqdim edir.

Yeni işə başlayan müəllimlər həftədə ən azı bir dəfə, dərsdənkənar vaxtlarda təlimçi ilə görüşməlidir. Tədris ilinin birinci həftəsi yeni müəllim hər ay üçün yazılı hesabat hazırlayaraq təlimçiyə təqdim edir. Hesabata refleksiya və özünüqiymətləndirməni də daxil edir.

Avstraliyada müəllim statusu onun adaptasiya keçdiyi məktəbin direktoru tərəfindən təqdim edilən xasiyyətnamə əsasında verilir.

2003-cü ildə Viktoriya İnstitutu (Victorian Institute of Teaching, VIT) daimi qeydiyyat üçün icazənin alınması prosesini modernləşdirdi. Qeydiyyat prosesi zamanı gənc mütəxəssislər aşağıdakılardan ibarət portfolio hazırladılar:

1) təcrübəçi müəllimin bir neçə dərslərinin təhlili, ən azı iki şagirdi öyrənmək dinamikasını öyrənmək;

2) mentorla iş, ən azı üç dərsdə iştirak edərək onun təhlili;

Portfolio direktor, mentor və həmkarları tərəfindən qiymətləndirilir.

"İrlandiyada attestasiya dövründə ibtidai məktəb müəllimi məktəb inspektoru tərəfindən yoxlanılır; orta məktəb pilləsində işləyən müəllimlər məktəb direktoru tərəfindən nəzarət edilir və onun tövsiyələri əsasında qeydiyyat şurası (Secondary Teachers' Registration Council) tərəfindən attestasiyadan keçirilir" [1, s.154].

Yeni Zelandiyada müəllimlərin qeydiyyatına Müəllimlərin qeydiyyatı Şurası nəzarət edir.

Qərar məktəb tərəfindən təqdim edilmiş müəllimi xarakterizə edən materiallar əsasında verilir. Materiallar qovluğuna təcrübəçi müəllimi xarakterizə edən aşağıdakı göstəricilər daxildir:

- proqramı və qiymətləndirmə üsullarını bilir;
- tədris və idarəetmə bacarıqlarının texnikasına malikdir;
- plan hazırlamaq və proqramları qiymətləndirə bilir;
- məktəbin işinə öz töhfəsini verir.

İşə yeni başlayan mütəxəssis:

Daimi qeydiyyat olması üçün gənc mütəxəssis:

- ən azı iki il təcrübəli müəllimin nəzarəti altında tədris etmək;
- həftədə ən azı 12,5 saat dərs yükü olmaq;
- könüllü yox, müəllim vəzifəsini tutmaq;
- adaptasiya proqramında iştirak etmək və öz iştirakını sübut etmək;
- daimi qeydiyyatı olan müəssisə rəhbəri tərəfindən tövsiyə edilmək:
- təhsillə bağlı tələb edilən sertifikatları olmaq.

Beləliklə, yeni işə başlayan müəllimlərin dəstək proqramı, Avstraliya, Hollandiya və Yeni Zelandiyada müəllim statusunun təsdiqi əsasında aşağıdakı dəstək üsullarından istifadə imkanını verir:

1) mentorluq və komanda ilə iş;

2) təhsil müəssisələrinin ilə əməkdaşlıq şəraitində məktəbdənkənar fəallıq;

3) portfolio və refleksiv hesabatların köməyi ilə yeni başlayan müəllimlə fərdi iş;

4) dərs yükünü azaltmaq;

5) müstəqil üçüncü tərəflərin iştirakı ilə yeni başlayan müəllimlərin qiymətləndirilməsi və statusunun təsdiqi [3, s.72].

Yeni innovativ model olan Kouçinq (ingiliscə coaching) hərfi tərcümədə hazırlamaq, məşq etdirmək deməkdir. Termin özündə əməkdaşların qarşılıqlı fəaliyyəti prossesində gizlilik, dəyişkənlik, fəallıq əks etdirir. Kouç təcrübənin müxtəlif aspektlərində öz səriştəliliyini artırmaq məqsədilə bacarıq və təcrübəsindən istifadə etməklə müəllimin bildiklərini, başa düşdüklərini daha da dərinləşdirir və onun peşəkarlığını təkmilləşdirir.

Koucinq və mentorluq prosesinin müqayisəli təhlili:

Mentorluq: uzunmüddətli və davamlı, sistemli münasibətlər; qeyri-formal xarakter daşıya bilən; görüşlər təhkimedilənin istəyi ilə keçirilir; məsləhət, tövsiyə və dəstək daha uzunmüddətlidir və çoxaspektli əsasa malikdir; bir qayda olaraq mentor daha çox təcrübəli və peşəkar təhsilin təşkilində təcrübəsi olan müəllimdir. O, öz bilik və təcrübəsini ötürür və təhkimolunanın ”açabilmədiyi” qapıları açır; daha çox təhkimolunanın kariyerasını və iş təcrübəsinin inkişafına yönəlir; təhkimedilənin mentorla gəldiyi razılıq əsasında məsləhətin məqsədi müəyyən edilir.

Kouçinq: qeyri-müəyyən davamlı münasibətin qurulmasıdır; daha çox strukturlu xarakter daşıyır; konkret olaraq hansısa inkişaf məsələlərinin həlli üçün qısa müddətli görüşlər keçirir; Kouçunqun çoxlu praktik təcrübəsinin olması vacib deyil; kouçinq təhkimolunanın konkret hansısa bacarığının formalaşmasına yönəlmiş prosesdir; bir qayda olaraq diqqət peşəkar problemlərin həllinə mərkəzləşib; qısa müddətli konkret məqsədə çatmaq üçün məsləhətə istiqamətlənir.

Mentorluq prosesi. Mentorluq prosesinin əsas mahiyyəti təhkimolunanda fəal dinləmə, təcrübənin təkmilləşdirilməsi üçün əsas bacarıqların formalaşdırılmasıdır. Mentor təhkimolunana, etibara, əməkdaşlığa, səmimiliyə və düzgünlüyə əsaslanan peşəkar dəstək və çətin tapşırıqların həllini təklif edir. Mentorluq prosesinin sonunda yaranmış münasibət daha az peşəkar müəllimdə özünəgüvən, öz problemlərini həlletmə yollarını axtarmağa hazırolma bacarığı formalaşdırır.

Kouçinq prosesi. Təcrübəsi az olan müəllimlə iş zamanı müəllimdə düşünmək və yaradıcı fəaliyyətlə onda peşəkar imkanlarını yüksəltmək məqsədilə ideya və yanaşmalarla təmin edir. Kouç işlədiyi məktəbdə gələcəkdə aktual və lazım olan bacarıqları təkmilləşdirmək üçün müəllimə kömək edir. Əsas məqsəd daha az təcrübəyə malik olan əməkdaşların imkanlarını inkişaf etdirməkdir.

Kouçinq və mentorluq prosesinin səmərəliliyini təmin etmək üçün 3 əsas komponenti nəzərdə saxlamaq lazımdır:

1. Konkretlik. Kouçinq prosesinin reallaşdırılmasında səmərəliliyini təmin etmək üçünkonkretlik əsas götürülməlidir.

2. Aktuallıq. Verilən informasiya və məsləhət həm müəllim, həm də onların tədris etdiklərітəhsil məsələləri üçün yetərli aktual olmalıdır.

3. Sistemli mentorinq. Mentorun köməyi gündəlik həyata keçməlidir; müəllimlər müvəffəqiy-yət əldə edənədək əldə etdikləri bacarıqları aprobasiya etməlidirlər.

Məktəblərdə mentorluq və kouçinq 7 prinsipə əsaslanır: 1.Kouçinq və mentorluq müəllimlərin peşəkar inkişaf və təkmilləşməsində müəllimə səmərəli köməketmə üsuludur. 2.Mentorluq prosesindən səmərəli istifadə tədrisin və təlimin keyfiyyətini yüksəldir. 3.Kouç və mentorlar peşəkar təkmilləşmə üçün treninqlərdən keçməlidirlər. 4.Kouçun təkmilləşməsi – mentorun əsas roludur. 5.Təhsil və təlim prosesində dinamik inkişafında baş verən hiss edilməz addımlar sinfin vəziyyətində hiss olunacaq dəyişikliklər edir. 6.Tədris və təlim zamanı tətbiq edilən müəyyən üsul və vasitələr ilk baxışda hiss edilməsə də, sistem halında özlüyündə təsiredici gücə malik olmaqla, pozitiv dəyişiklik edə bilər. 7.Kouçinq prosesində yeganə düzgün yol yoxdur.

İnnovativ metodların köməyi ilə müəllimlər öz təcrübələrini inkişaf etdirir və peşəkar inkişaf ehtiyaclarının müəyyənləşdirilməsi və yerinə yetirilməsi üçün məsuliyyət daşıyır, erkən peşəkar inkişaf üçün prioritet sahələri müəyyənləşdirirlər.

Ədəbiyyat

1. Гаргай В.Б. Развитие системы повышения квалификации учителей в Великобритании (конец XIX – конец XX вв.): Дисс. ... д.пед.н. Новосибирск, 2006, 324 с.
2. Грачева Е.Ю. Особенности системы повышения квалификации учителей в Германии // Актуальные проблемы гуманитарных и естественных наук, 2010, №10, с.255-26
3. Джемилева Н. Н. Сравнительный анализ повышения квалификации учителей за рубежом // Ярославский педагогический вестник, 2011, № 1, с. 209-211
4. Hudson S., Beutel D., Hudson P. Teacher Induction in Australia: a sample of what's really happening // Research in Comparative and International Education. Oxford, 2009. Vol. 4. Num. 1.

РЕЗЮМЕ

ПОДГОТОВКА УЧИТЕЛЕЙ В МИРОВОЙ ПРАКТИКЕ

Талыбова Х.А.

Азербайджанский государственный педагогический университет

Джалилабадский филиал, Джалилабад, Азербайджан

Учителям, начинающим карьеру в зарубежной системе образования, удалось сохранить работу и не менять профессию. Профессиональный педагог является основным элементом системы образования. Подготовке и развитию педагогических кадров уделяется большое внимание во внутренней и внешней образовательной политике. Некоторые анализы показывают, что часть выпускников педагогических вузов покидает преподавательскую профессию после первых двух-трех лет работы. Следует отметить, что в первые годы работы у будущих педагогов формируется профессионализм и намерение остаться в профессии.

Ключевые слова*: зарубежная система образования, опыт работы, уровень профессионализма, наставничество, коучинг*

SUMMARY

TEACHER TRAINING IN WORLD PRACTICE

Talibova X.A.

Azerbaijan State Pedagogical University, Jalilabad Branch, Jalilabad, Azerbaijan

Teachers starting a career in the foreign education system managed to keep their jobs and not change their profession. A professional teacher is the main element of the education system. Much attention is paid to the training and development of teaching staff in the internal and external educational policy. Some analyses show that some graduates of pedagogical universities leave the teaching profession after the first two or three years of work. It should be noted that in the first years of work, future teachers form professionalism and the intention to stay in the professi

Keywords*: foreign education system, work experience, level of professionalism, mentoring, coaching*

ЗНАЧЕНИЕ И МЕСТО ПАТРИОТИЧЕСКОГО ВОСПИТАНИЯ В ПРОФЕССИОНАЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ ПРЕПОДАВАТЕЛЯ

Пашаева Саида Васиф

Сумгаитский государственный университет, кафедра Педагогики и психологии

Açar sözlər: *vətənpərvərlik, müəllim, tərbiyə, prinsiplər, şəxsiyyət*

Проблема подготовки профессиональных кадров является глобальной на сегодняшний день. Каждая профессия предполагает свой круг вопросов и задач, освоить которые долг каждого желающего проявить себя в той или иной сфере деятельности. Преподаватель наиболее сложная профессия, поскольку она включает в себя не только набор профессиональных качеств, но и огромное количество специальных и личностных способностей, что делает данную профессию наиболее сложной по своей структуре. При подготовке современных преподавателей вопрос

воспитания, причем именно воспитания в них патриотизма считается самым главным. Именно от уровня их патриотической подготовки зависит и уровень подготовки подрастающего поколения.

Одной из важнейших задач воспитания является воспитание любви к Родине и толерантного отношения к людям. Чувство любви к Родине сродни чувству любви к родному дому. Роднит эти чувства единая основа – привязанность и чувство защищенности. Чувство патриотизма многогранно по своей структуре и содержанию. В него входят такие понятия, как ответственность, желание и умение трудиться на благо Отечества, беречь и умножать богатства Родины, различная гамма эстетических чувств и др. Воспитываются эти чувства на разном материале: мы учим детей ответственно относиться к делу, беречь вещи, книги, природу, то есть воспитываем качество личности – бережливость, учим трудиться на благо своей группы и товарищей, приобщаем к красоте окружающей природы.

На следующем этапе ребенок приобщается к определенным знаниям о том, к чему он успел привязаться, что успел полюбить. Знания постепенно обогащают представления детей о родной стране. Такой территориальный принцип отбора содержания и построения методики патриотического воспитания приемлем и эффективен лишь в том случае, если он реализуется неформально и в сочетании с практикой поведения детей.

Важной составной частью работы по патриотическому воспитанию является приобщение их к традициям и обычаям народа, страны, к искусству. Дети должны не только узнать о традициях, но участвовать в них, принимать их, привыкать к ним.

Средствами патриотического воспитания являются само окружение (природное и социальное), в котором они живут, художественная литература, музыка, изобразительное искусство. Средствами служат та или иная деятельность (игра, труд), праздники, которые отмечаются в стране. В последние годы изменились взаимоотношения с другими странами. Они стали более открытыми, а сами страны – более доступными. Эти социально - политические изменения повлекли за собой и изменения в подходах к интернациональному воспитанию, к соотношению национального, интернационального и расового. Появляющиеся термины «планетарное мышление» и «толерантное отношение к людям» говорят о том, что с малых лет нужно закреплять в детях представление о равенстве всех народов, живущих на Земле.

Такой подход не исключает задачу приобщения к своей национальной культуре, но предусматривает воспитание уважения ко всем народам. В этом сущность патриотического воспитания [4].

Базой для формирования любви к Родине является глубокая и основательная работа преподавателя. На него возлагается сложнейшая задача по формированию и воспитанию тех главных составляющих, которые в дальнейшем проявятся во всех сферах деятельности человека в форме его отношения к родному краю и Родине. Как и всякий процесс, процесс патриотического воспитания имеет свою структуру в соответствии с общей структурой всего педагогического процесса. Эта структура включает в себя анализ целей, задач, содержания, формы, методов, средств и результатов. Учитывая особенности патриотического воспитания в современном обществе, следует отметить, что целью этого процесса является воспитание глубоко мыслящих патриотов, любящих свою страну, преданных ей, готовых служить ей и защищать ее интересы.

Образовательная система Азербайджана всегда формировала у детей чувства свободы, единства, равноправия, братства. Формирование патриотизма реализовывалось совместно с формированием интернационального единства. После приобретения независимости и роста укрепления государственности вопрос национального патриотического воспитания в угоду и в пользу стало ведущей. На современном этапе патриотическое воспитание стало одним из ведущих принципов и определяется Законом об образовании. В связи с этим определение понятий патриотизма и Родины с философской, социально-педагогической и психолого-педагогической точки зрения требует нового анализа.

Надо отметить, что впервые понятие «патриотизма», «патриотического воспитания» было использовано в 1789-1793-их годах во времена Великой Французской революции. Защитники идей народа и республики называли себя патриотами и тем самым отличались от сторонников монархии. Исследование проблемы патриотизма было в центре внимания многих ученых в разные времена. В произведениях Сократа, Демокрита, Я.А. Коменского, К.А. Гельвеция и других можно встретить анализ данной проблемы. Исследование проблемы патриотического воспитания охватывает три этапа. Первый этап (XVI – XVIII века) охватывает проблему, начиная изучать ее с дошкольного

возраста, и исследуется Я.А. Коменским, И.Ф. Гербартом, А. Дистервергом. Второй этап (XIX – середина XX) связан с научной постановкой данной проблемы. Третий этап (XX - до нашего времени) связан с комплексным изучением проблемы патриотического воспитания.

Согласно взглядам современных азербайджанских педагогов и философов, патриотизм одно из самых глубоких чувств, прошедшее испытанием временем. Именно это чувство объединяет все слои общества.

Для определения сущности патриотизма необходимо проанализировать структуру данного понятия. Определение его только как морального чувства было бы неверно, поскольку чувства это отражение переживаемого отношения к окружающему. При определении сущности патриотизма необходимо учитывать его эмоционально- психологическую, рационально- идеологическую и практическую стороны. Иначе говоря, понятие патриотизма включает в себя чувства, принципы и качества.

Исследование исторически-философской и социально-педагогической аспектов проблемы дает возможность расширить границы данного понятия. Исторически-философский аспект рассматривает данное понятие как общественно-историческое событие и характеризует социально-политическую, экономическую, этнокультурную и другие стороны общества. Социально-педагогический аспект дает возможность охарактеризовать его как отношение индивида и всего общества в целом. Такой подход к патриотизму дает основание рассматривать его как совокупность устойчивых мотивов, направляющих деятельность личности.

Патриотизм – это неотъемлемая часть социально-нравственной направленности личности, оно является комплексным понятием. 1) акцентирование понятий Родины и Отечества, являющихся ведущими понятиями в структуре патриотизма, предполагает включение элементов патриотизма, лояльности и служение стране, что является важным условием положительного эмоционального отношения к своей стране; 2) любовь к своей родине, языку, уважение к своему народу, обычаям и традициям – это духовные чувства, характеризующие жизнь человека.

Патриотизм может проявляться по-разному. На методологическом уровне - как нравственное начало, на эмоционально-психологическом уровне - как нравственное чувство, на поведенческом уровне - как интегративное нравственное качество.

Таким образом, в содержание патриотизма можно включить:

- любовь к Родине, родным краям, родному языку, людям, обычаям и традициям;
- знание истории родного края;
- понимание задач, стоящих перед страной и свой патриотический долг;
- уважение к другим народам, их культуре и обычаям;
- стремление защищать честь Родины;
- уважение к армии и готовность защищать Родину;
- служить интересам Родины;
- сознательно участвовать в трудовой деятельности и др.

Основными принципами, которыми необходимо руководствоваться при осуществлении практической деятельности в сфере патриотического воспитания, являются научность, гуманизм, демократизм, систематизация, приоритет истории страны и культурного наследия, духовных ценностей и традиций, систематизация, наследственность и преемственность формы, методов и средств [5].

Реализация этих принципов в следующих областях может считаться приемлемой:

1. Нравственная область. Восприятие высших целей и ценностей реальной жизни, общественно значимых процессов и событий личностью, руководство ими как определяющими принципами в практической деятельности и поведении.

2. Историческая область. Молодежь должна изучать историю Родины, место и роль ее в историческом процессе, понимать особенности менталитета, обычаев и традиций своего народа, изучать героев предыдущих поколений, борющихся за независимость нашей страны.

3.Политико-правовая область . Обеспечение глубокого понимания Конституции и воинского долга, текущих политико-правовых событий в обществе и государстве, гражданской и военной политики, основных положений концепции безопасности страны, места и роли ее Вооруженных Сил.

4. Область профессиональной деятельности. Формирование ответственного и добросовестного подхода к работе, связанной со служением Родине, стремление к активному проявлению профессиональных и трудовых качеств, которые помогут решить служебные задачи и предстоящие вопросы.

5. Область психологии. Формирование у молодежи психологической стойкости, готовности к выполнению сложной и ответственной работы в любой ситуации, способности преодолевать трудности военной и гражданской службы, важнейших психологических качеств, необходимых для успешной жизни.

Эти направления органично связаны друг с другом.

Целью патриотического воспитания является воспитание гражданственности и цивилизованности, являющихся важнейшими нравственными и социальными ценностями молодежи, подготовка их к проявлению профессиональных качеств и умений в различных сферах жизнедеятельности, воинской и иной государственной службе, в мирное и военное время - формирование приверженности своему конституционному долгу, высокой ответственности и дисциплинированности.

Патриотическое воспитание, являющееся составной частью воспитания, трактуется разными учеными по-разному. Одни считают его частью идейно-политического воспитания (Л. Р. Болотина, О. И. Павелко, Л. Ф. Спирин и др.), другие - частью нравственного воспитания (И. Ф. Харламов, Н. И. Болдырев). Другие отмечают его принадлежность к самостоятельному разделу (Т.А. Ильина, И.Т. Огородников).

Выделяя относительно самостоятельное направление патриотического воспитания, следует отметить, что оно органически связано с другими направлениями воспитания.

Сравнительный анализ вопросов патриотического воспитания с задачами других направлений воспитательной работы показывает, что их совместное решение является основой осуществления педагогического процесса в целом. Утверждение относительной самостоятельности патриотического воспитания в системе образования определяет их интеграцию, а не противопоставление его другим направлениям воспитательной работы.

Литература

1. Бенхабиб С.С. Притязания культуры. Равенство и разнообразие в глобальную эру. Москва: Логос, 2003, 250 с.
2. Мультикультурализм и трансформация постсоветских обществ. Под редакцией В. С. Малахова и В. А. Тишкова. Москва, 2002, 210 с.
3. Гасанов, З.Т. Патриотическое воспитание граждан / Народное образование. 2005, № 6, с. 58-61
4. Козлова С.А., Куликова Т.А. Дошкольная педагогика. М.: Академия, 2012, 416 с.
5. Həşimov, Ə.Ş., Sadıqov, F.B. Tərbiyə nəziyyəsinə dair mühazirələr. Bakı, 1995, 165 s.

XÜLASƏ
MÜƏLLİMİN PƏŞƏ FƏALİYYƏTİNDƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN ƏHƏMİYYƏTİ VƏ YERİ

Paşayeva S. V.

Sumqayıt Dövlət Universiteti

İnsan inkişafının müasir mərhələsində vətənpərvərlik tərbiyəsi məsələsi ən vacib və əsas məsələlərdən biridir. Dünyada baş verən hadisələr bu fikri bir daha təsdiqləyir. Gənc nəsildə doğma xalqa, doğma torpağa, Vətənə hörmət və məhəbbət hisslərinin tərbiyəsi ölkənin gələcəyi üçün böyük məsuliyyət daşıyan müəllimlərin bütün fəaliyyətini şərtləndirir. Tədqiqat vətənpərvərlik tərbiyəsi probleminə, ona daxil olduğu struktur və anlayışların müəyyənləşdirilməsinə həsr edilmişdir.

Ключевые слова: *патриотизм, преподаватель, воспитание, принципы, личность*

SUMMARY
THE SIGNIFICANCE AND PLACE OF PATRIOTIC EDUCATION IN THE PROFESSIONAL ACTIVITY OF A TEACHER

Pashayeva S. V.

Sumqayit State University

The question of patriotic education at the present stage of human development is the most important and fundamental. The events taking place in the world once again confirm this idea. The upbringing in the younger generation of respect and love for the native people, native land, Motherland determines all the activities of teachers who bear great responsibility for the future of the country. The study is devoted to the problem of patriotic education, the definition of its structures and concepts, which it includes.

Keywords: *patriotism, teacher, education, principles, personality*

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ПОДГОТОВКИ УЧИТЕЛЕЙ РУССКОГО ЯЗЫКА В ПЕРИОД СОВРЕМЕННОЙ ГЛОБАЛИЗАЦИИ

Ибрагимова Натига Ага Шариф гызы
Бакинский славянский университет, Баку, Азербайджан
natiqa.ibrahimova2@gmail.com

Ключевые слова: *цель, индивидуально, чтение, развитие, значение.*

В настоящее время в компьютерный XXI век для выполнения важных задач перед средней школой требуется повысить уровень подготовки будущих учителей, приблизить его к мировым стандартам. Поэтому студенты должны уметь применить приобретенные знания и умения на практике. Известно, что педагогическая практика является одним из основных частей образовательной программы. Педагогическая практика – важный этап в подготовке учителей.

Основные цели педагогической практики следующие:

- закрепление, углубление, применение в последующей трудовой деятельности теоретических знаний, полученных в высшем учебном заведении;
- ознакомление студентов с новыми технологиями, приемами работы, научными исследованиями и др. в зависимости от профиля выбранной специальности;
- привитие студентам трудолюбия, организаторских и коммуникативных навыков;
- усовершенствование знаний студентов в области компьютерной технологии;
- закрепление интереса к педагогической профессии, умение использовать на уроках новых обучающих технологий, развитие умения творческого претворения в жизнь воспитательной работы и т.д. [3]

Педагогическая практика – важный период в жизни студентов. Подготовка студентов к прохождению педагогической практики начинается во время лабораторных занятий в университете. Студентов знакомят со спецификой урока русского языка в школе и современными требованиями к его проведению, с содержанием Курикулума (программы по русскому языку для средней школы), развернутыми планами и фрагментами уроков, наглядными пособиями, презентациями, дидактическим материалом и т.д. Преподаватели-методисты учат студентов анализировать проведенные уроки. Неотъемлемой частью всех лабораторных занятий является самостоятельная работа студентов по составлению примерных планов – конспектов различных типов уроков или их фрагментов.

Студенты-практиканты за время нахождения в школе проводят уроки русского языка, обсуждают проводимые уроки, ведут дополнительные занятия с отстающими учениками. На всех уроках используются наглядные пособия, дидактические материалы, презентации, которые студенты готовят сами. Кроме этого практиканты проводят разнообразную внеклассную работу, организовывают утренники, выпускают стенгазеты, бюллетени и др. За этот период они получают консультацию как со стороны университетского преподавателя-методиста, так и школьного учителя-предметника.

Согласно инструкции учебно-педагогическая практика на предвыпускном и выпускном курсах педагогического факультета Бакинского славянского университета проводится с отрывом от аудиторных занятий в университете. С 2012 года практика начинается со второго курса. Это дает возможность студенту больше проходить практику и квалифицироваться на должном научно-методическом уровне.

Во время педагогической практики студент становится действующим объектом, нуждающимся в методической помощи и коррекции при самостоятельном решении конкретных практических задач в реальных жизненных ситуациях. Такие ситуации в школе бесконечно разнообразны и непредсказуемы. Поэтому необходимо прежде всего определять сущность явления, а затем уже решать вопрос о выборе эффективного приема работы. И дело заключается нее в том, чтобы попытаться охватить все многообразие возможных вариантов, а в том, чтобы очертить, выделить наиболее типичные. Например, если ученик допускает ошибку при объяснении орфограммы, пунктограммы или при определении грамматической категории, то действия учителя (практиканта) прежде всего должны быть направлены на`расчленение правила, то есть деления его на шаги, и выявление, где именно допущена ошибка, что не усвоено или не правильно понято. Так, для решения вопроса об усвоении учащимися правил о правописании безударной гласной в корне необходимо

установить следующее: умение различать ударение, определять значимые части слова, подбирать родственные слова.

На педагогической практике становится реальным то, что в аудитории виделось в отдаленной перспективе. Наступает период активного самообразования, поскольку студенту необходимо уже сейчас, а не в отдаленном будущем готовиться и проводить уроки, продумать систему воспитательной работы, общаться с определенным и конкретным контингентом учеников. Будущему учителю нужно много читать, узнавать, а затем использовать на практике знания, прочитанные из методической и педагогической литературы. Таким образом, цели и характер деятельности, условия способствуют интенсивной мотивированной учебе.

В соответствии с типологией познавательных задач студентов интересует как живой опыт педагога (предметников и воспитателя), так и педагогические, психологические, теоретические сведения по предмету и воспитательной работе. Решению этих задач могут способствовать проблемные методические семинары по заранее запланированным вопросам обучения и воспитания, актуальным для данного периода практики (формы внеклассной и воспитательной работы с различными возрастными группами, рациональная методика планирования учебного материала, а также оценка учебной деятельности учеников, приемы построения урока, активизация внимания и мн.др.). Такие семинары нужно проводить еженедельно. Они являются совместными: в них участвуют студенты, методисты, учителя. Здесь же рассматриваются вопросы, подсказанные самим ходом практики.

Изучению педагогического опыта способствуют также посещения открытых уроков учителей. План предусматривает уроки разных типов всех учителей-предметников, участвующих в педагогической практике. Прослушивание уроков, беседа, последующий анализ урока способствуют осмыслению методики и творческого поиска учителей, обеспечивая переход к самостоятельной педагогической деятельности студентов-практикантов; помогает проводить анализ внеклассных мероприятий, Кроме того, студенты самостоятельно посещают уроки по разным предметам в «своем» и других классах. Это создает широкую базу для сравнения, размышления, анализа педагогических ситуаций, мотивированных педагогических действий. Возникает повышенный интерес к специальной литературе по предмету, методике его преподавания, психологии и педагогике, к дополнительным учебным, занимательным и другим материалам, способным оживить работу. Полезно изучить методические разработки опытных учителей, учителей «года» и воспитателей, описание опыта их работы.

Все это диктует необходимость подбора и сосредоточения нужных материалов под рукой, на одном месте. С этой целью в школе № 190 Сабаильского района г.Баку, где долгие годы проходила педпрактику студенты педагогического факультета создан методический уголок студента-практиканта. В его создании принимали участие как сами студенты, так и методисты, учителя, а также работники библиотеки школы и преподаватели университета. После каждого проведенного урока студенты-практиканты сдавали в координационный центр наглядные пособия, дидактические материалы, схемы, в результате чего пополнялся кабинет русского языка. Это куррикулум по предмету, учебники по русскому языку для тех классов, в которых проводится педагогическая практика, методические пособия и разработки уроков по русскому языку для определенного класса. Подбирались статьи из журналов и сборников, в которых разрабатываются или освещаются изучаемые в данный период темы, оформлялись альбомы, посвященные творчеству отдельных писателей, определенным темам, комплектовались образцы наглядных пособий по русскому языку. Специально по заданию методиста группа студентов готовила списки статей по изучаемым в период практики темам по русскому языку и воспитательной работе, которые хранятся в отдельных папках. Списки позволяют студентам найти необходимые материалы в библиотеке и у учителя. Это экономит время практикантов.

В уголке должны быть журналы «Русский язык и литература в Азербайджане», «Русский языке за рубежом», «Ученые записки» БСУ, «Иностранные языки в школе» и др. Для облегчения организации и дела в уголке представлены образцы необходимых документов: календарно-тематический план, поурочные планы-конспекты по русскому языку, план воспитательной работы классного руководителя, памятка студенту-практиканту, в которой даются формы и методические советы по ведению определенных документов. Выставлены образцы планов, описание внеклассного мероприятия, папки с образцами документации студента-практиканта.

Все эти материалы желательно поместить на стенде-витрине, оставляя место (отдельную полку, уголок) для новинок специальной литературы. Новые материалы могут появиться не только в профессиональных изданиях: так, например, нами в период практики были использованы материалы различных конференций. Эти материалы помогали студентам обсуждать свои первые шаги на педагогическом поприще.

Материалы конференций не только читались, по ним проводилась дискуссия на одном из методических семинаров. Высокая активность и заинтересованность участников семинара объясняется тем, что студенты все делились своими наблюдениями, переживания, проблемами. Очень важно подчеркнуть, что здесь уже не было необходимости говорить студентам: «Запомните!», «Это пригодится!», «Это нужно!». В такой ситуации достаточно квалифицированного руководства, тактичной подсказки, направления внимания.

Два года (2008, 2009 гг.) под руководством автора этой статьи студенты БСУ проходили педпрактику в Бейлаганском районе в школе беженцев из села Туг Ходжавяндского района. За этот период ими была проделана следующая работа: проведены уроки русского языка, обсуждение проводимых уроков, дополнительные занятия с отстающими учениками. На всех уроках были использованы наглядные пособия, дидактические материалы, которые студенты готовили сами. По окончании уроков вся наглядность оставлялась в уголке русского языка в учительной комнате: в школе нет лишнего помещения и поэтому уголок организовали в учительской. Проводились занятия кружка русского языка, литературы, умелых рук.

Почему так важно все необходимое сосредоточить в методическом уголке в школе? Во-первых, это экономит силы и время студента-практиканта и методиста. Во-вторых, это позволяет создать оптимальный режим работы практикантов. Ведь им необходимо постоянно консультироваться с учителями, приспосабливаясь к их рабочему графику, посещать уроки, общаться с учащимися, готовить и проводить внеклассные мероприятия. Работа же с учебно-методической литературой вне школы резко сокращает возможности будущих учителей. Таким образом, режим работы и спокойная деловая обстановка во многом зависят от наличия содержательного методического уголка в школе.

Опыт работы в качестве группового руководителя-методиста позволяет отметить самые важные и необходимые моменты. Значительное место в системе методического обеспечения учебно-воспитательной работы студентов принадлежит консультациям по проведению уроков. Консультируют студента учитель и методист по заранее запланированному рабочему графику. В интересах дела важно определить целесообразную последовательность и принципы работы. Первую консультацию дает учитель, определяя тему и цель урока. Он также определяет материал, его содержание и объем, указывает возможные формы работы, дает также примерные рекомендации по оценке деятельности учащихся. После составления примерного плана студентом - беседа с методистом, который выясняет степень целесообразности структуры отдельных видов работы, их последовательность, объем и затрату времени, логику замысла, его реализацию. Психологическое состояние студента, настрой должны вселять уверенность, позволяя отрабатывать, репетировать урок. Несколько иначе складывается ситуация во время стажировки практиканта на IV курсе, т.е. его самостоятельной работы в течение длительного периода в одном классе. На этом творческом этапе практикант поставлен в реальные условия, максимально приближенные к работе учителя. Условия специфичны, и методическое обеспечение этого периода имеет свои особенности. В этот период студент убеждается в целесообразности подачи учебного материала в логической последовательности без погони за внешне эффективным набором методических приемов.

В наш век новых технологий, в период глобализации, когда в системе образования уроки проводятся с помощью компьютеров, желательно, чтобы и наши студенты-практиканты использовали в своей работе интерактивную доску, компьютеры. При составлении отчета о прохождении педпрактики студент-практикант может представить свой отчет в виде презентации по нескольким слайдам по программе Power Point. В конце статьи нами дается образец отчета о проделанной работе во время педпрактики.

Все наши рассуждения о методическом обеспечении педагогической практики, о важности, целесообразности определенных форм организации и приемов работы обусловлены особым решающим значением этого этапа в формировании профессионально направленной личности будущего педагога. И здесь следует иметь в виду не только те известные положения, что именно на

практике актуализируются знания и умения, проверяются и оцениваются способности, определяется программа совершенствования дальнейшей подготовки педагогической деятельности. Не менее важно то, что именно в этот период должна определиться уверенность в том, что он, студент-практикант, сможет стать хорошим учителем. Надо сделать все, чтобы практикант с первых шагов почувствовал удовлетворение от проводимых педагогических мероприятий и особенно проведенных уроков, чтобы он поверил в свои силы и искал оптимальные пути достижения цели.

Литература

1. Баринова Е.А., Боженкова Л.Ф., Лебедев В.И. Методика русского языка. М.: Просвещение, 1974.
2. Сафарова Н.З. Методика проведения разговорных уроков в восьмилетней азербайджанской школе. Ж. «Русский язык и литература в азербайджанской школе», 1978, № 2.
3. Текучев А.В. Методика русского языка в средней школе. М.: Просвещение, 1980.

XÜLASƏ
MÜASİR QLOBALLAŞMA DÖVRÜNDƏ RUS DİLİ MÜƏLLİMİ HAZIRLIĞININ AKTUAL PROBLEMLƏRİ

İbrahimova N. A.

Bakı Slavyan Universiteti

Hal-hazırki zamanda orta ümumtəhsil məktəblərində əsas vəzifələri yerinə yetirmək üçün gələcək müəllimlərin hazırlıq səviyyələrini qaldırmaq tələb olunur. Bunun üçün ali təhsil ocaqlarının tələbələri əldə etdikləri bilik və bacarıqlarını pedaqoji təcrübə zamanı istifadə etməklə sınaqdan keçirməlidirlər. Müasir tədris proqramının əsas hissələrindən biri pedaqoji təcrübədir. Pedaqoji təcrübə müəllim hazırlığının əsas mərhələsidir və tələbənin həyatının maraqlı və önəmli zamanıdır. Pedaqoji təcrübəyə hazırlıq hələ universitetdə seminar dərsləri zamanı baş verir. Tələbələr orta məktəbdə rus dili dərslərinin spesifik xüsusiyyətləri, müasir dərs prosesinə olan tələblərlə, Kurikulumun məzmunu, müəllimin dərs planları, əyani vəsaitlər, təqdimatlar, didaktik materiallar və s. ilə tanış olurlar. Metodist müəllimlər keçirilən dərsin müzakirəsi formalarını tələbələrə öyrədirlər.

Açar sözlər: *məqsəd, fərdi, oxu, inkişaf, məna.*

SUMMARY
CURRENT PROBLEMS OF RUSSIAN TEACHER TRAINING IN THE PERIOD OF MODERN GLOBALIZATION

Ibragimova N. A.

Baku Slavic University

In accordance with the typology of cognitive tasks, students are interested in both the live experience of the teacher (subject teachers and educator), and pedagogical, psychological, theoretical information on the subject and educational work. Solving these problems can be facilitated by problematic methodological seminars on pre-planned issues of education and upbringing that are relevant for a given period of practice (forms of extracurricular and educational work with different age groups, a rational methodology for planning educational material, as well as assessing the learning activities of students, techniques for building a lesson, activating attention and many others). These workshops should be held weekly. They are joint: students, methodologists, teachers participate in them. It also deals with questions prompted by the course of practice itself.

Keywords: *purpose, private, study, development, meaning.*

АКТУАЛЬНЫЕ ВОПРОСЫ НАУЧНО-МЕТОДИЧЕСКОЙ ПОДГОТОВКИ ПРЕПОДАВАТЕЛЕЙ МАТЕМАТИКИ В ВУЗЕ

Гасанова Халида Сидгали кызы, Байрамова Новраста Сидгали кызы
Сумгаитский государственный университет, Сумгаит, Азербайджан
abdullayev_ayxan@list.ru

Ключевые слова: *Математическое образование, школьный курс математики, процесс обучения, современные методы обучения, ИКТ.*

Только что окончивший высшую школу и начинающий свою педагогическую деятельность преподаватель математики обычно сталкивается с рядом трудностей. Большая часть этих трудностей связана с профессиональными технологическими трудностями:

- современный педагог должен быть ознакомлен с современными методами обучения и преподавания.;
- должен хорошо знать урок математики, его структуру, предъявляемые к нему требования;
- при подготовке к занятию учитель должен знать методические особенности отдельных тем, требования к знаниям, умениям и навыкам учащихся, связанные с преподаванием по содержательным линиям;
- укреплять самостоятельную познавательную деятельность учащихся за счет применения эвристических методов при объяснении темы, использования дифференцированных заданий;
- при необходимости использовать наглядные пособия;
- должен знать современные способы оценивания (диагностическое, формативное, суммативное) и эффективные методы их применения для оценивания результатов обучения.

Вторым аспектом педагогической деятельности учителя является реализация воспитательной функции в процессе обучения. Функция образования проявляется в двух направлениях:

1) обеспечение дисциплины как в процессе обучения, так и в педагогической деятельности ,

2) воспитывать нравственные качества учащихся в совокупности с преподаванием математики. Для этого важно обеспечить обоснованность выбора вопросов, актуальных для каждой преподаваемой дисциплины. Постоянная работа над собой, повышение своего научно-методического уровня, подготовка к уроку, педагогическая деятельность в целом служат повышению профессионального уровня. учителя.

Таким образом, подготовка учителя к следующему занятию должна охватывать следующие вопросы: определение актуальности темы, мотивация, последовательность в объяснении темы, правильный выбор пояснительных, обосновывающих задач или примеров, подготовка раздаточного или иллюстративного материала, индивидуальный подход при выборе учебников, методических пособий для наилучшего разъяснения данной темы. Необходимость в применении ИКТ, а также другие аспекты всегда должны быть в центре внимания учителя. Применение исследовательских и творческих методов обучения в интерактивном методе обучения способствует развитию познавательной деятельности учащихся и является основными функциями современного урока. [2;1].

С увеличением опыта педагогической деятельности учителя появляется его собственная методика, формируется критическое отношение к известным методам. Отношения «ученик-учитель» и «учитель-ученик» приобретают новую форму и содержание. Он по-новому подходит к учебному плану, к представленным методическим подходам, методам решения задач и пытается использовать более эффективные методы, предлагает некоторые изменения в содержательных линиях программы. Таким образом, преподаватель приходит к выводу о необходимости некоторых изменений в структуре и содержании преподаваемого им предмета. Все это свидетельствует о том, что учитель заинтересован в том, чтобы внести уточнения в такие глобальные вопросы обучения математике, как цели обучения и сущности школьного обучения, пытается выявить пути интеграции математики к повседневной жизни. В качестве необходимых элементов научно-методической подготовки учителя можно обозначить следующие вопросы: в какой степени школьный курс математики связан с современной наукой математики, каким образом новые научные сведения и идеи отражаются в школьном обучении математике, в чем преимущества традиционных и современных методов обучения школьного курса математики, в какой степени в современных учебниках по математике отражается необходимая и обновлённая информация, позволяет ли содержание учебника

соответствовать требованиям к знаниям, умениям и навыкам по математике в конкретном классе учебной программы, является ли взаимно адекватным требования учебной программы и результаты учеников, получаемые в процессе обучения, соответствуют ли математические умения и навыки, приобретаемые учениками в каком либо классе материальной базе учебного плана математики, способствуют ли математические знания, полученные учащимся, их общему математическому развитию, какие принципы необходимо учитывать при реализации межпредметных связей для совершенствования методики преподавания курса «Статистика и вероятность» в I-XI классах в новой системе обучения, какой фактор следует выделить при реализации методических связей между содержательными линиями «Геометрия» и «Измерения», есть ли необходимость включать в содержательные линии самостоятельную тему под названием «Величины и их измерения?. Такие вопросы мотивируют учителей научно-методическом плане и побуждают к более творческому подходу к своей работе [2;3].

Известно, что цели обучения математике в школе в той или иной степени меняются в зависимости от задач, которые общество ставит перед школой. Например, в 50-х и 60-х годах XX века особое внимание уделялось трудовому обучению учащихся в общеобразовательных школах и реализация этой идеи шла успешно, в результате чего появились средние профессиональные школы. В 1990-е и в последующие годы снижение внимания к профессиональному образованию привело к сокращению количества этих школ, но в последние годы государство позаботилось об увеличении сети профессионально-технических училищ, что являлось жизненно актуальным.

В связи с проводимой образовательной реформой, выдвигающей на первый план идею развития самостоятельного и творческого мышления учащихся при обучении школьного курса математики, учителей интересуют следующие вопросы:

- Каковы цели школьного математического образования?
- Какие умения и навыки должны приобрести учащиеся по математике, связанные с умственной деятельностью?
- Что важнее для современного школьника: конкретные математические знания или общее умственное развитие?
- Каково содержание и характер школьного курса математики:

1) определение, правило, множество теорем, взятых с определенной последовательностью,

2) система развивающих знаний, способствующая связи и применению математики к повседневной жизни;

- Каким способом учитель должен разъяснять школьный курс математики [4; 5]:

1) аксиоматическим способом,

2) теоретическим способом,

3) на основе интуиции и практики?

Как видно, научно-методическая подготовка учителя математики состоит из инновативных идей, очень богатых по содержанию. Включение элементов высшей математики, в том числе элементов прикладной математики, в школьный курс математики требует от учителя освоения новых методов обучения. Чтобы справиться с этим, необходимо обратиться к образовательному опыту своей страны, а также к прогрессивному опыту передовых стран при условии, что должны учитываться и соблюдаться изменения как в содержании, так и в методологии обучения. Преподавание математики в нашей стране имеет очень долгую и богатую историю. Зарекомендовавшие себя и успешно проверенные в жизни традиции необходимо сохранять, адаптируя их к новым требованиям. Потому что внедрение этих научно-методических систем в школу основывалось на педагогических экспериментах. К сожалению, обновленные школьные учебники по математике включены в учебную программу без каких-либо экспериментов и поэтому подвергаются критике со стороны педагогического сообщества. Математическое образование на всех этапах требует к нему серьезного подхода, основанного на историческом опыте и наследственности. Для эффективной и правильной реализации математического образования в первую очередь необходимо решить следующие задачи:

1. Как следует преподавать математику в условиях химического или общего обучения?
2. Что и какие принципы следует учитывать при определении содержания школьного курса математики и методики ее преподавания?
3. На каком уровне следует преподавать математику?

4. На каком уровне следует преподавать фундаментальные понятия математики: понятия чисел и множеств, понятия функции и отобржения, понятия производной и интеграла, понятия вероятности, статистики и логических операций?

Успех математического образования в школе зависит от решения вышеперечисленных задач. Математика в школе преподается в основном на основе соответствующих учебников. Создание современных учебников по математике является наиболее актуальной проблемой. Учебник математики является самым необходимым учебным пособием для школьника и содержит методические элементы. Методические пособия для учителей не могут выполнять функции учебника. Внесение неоторых материалов учебного пособия в учебники является нежелательным и не отвечает принципам научности и актуальности обучения.

«Сократовский метод обучения» в математике всегда был актуальным, и даже сегодня в новой системе обучения взаимоотношений и формы обмена «учитель-ученик», «ученик-учитель» и «ученик-ученик» остается актуальным [4; 5]. Суть этого метода заключается в следующем: изучаемая тема, вопрос обсуждается совместно, происходит обмен информацией, делаются обобщения, выводы, а затем происходит переход к этапу применения. То есть современное обучение – это творческое, коллективное обучение.

Литература

1. Əlizadə Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 2004, 234 s.
2. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün kurikulumları. Bakı: Təhsil, 2008, 564 s.
3. Гнеденко Б.В. О роли математических методов в биологических исследованиях / Вопрос философии. М, 1979, № 1, с. 85-97.
4. Фридман Л.М. Учитесь учиться математике. М.: Просвещение, 1985, 112 с.
5. Шардаков М.Н. Мышление школьника. М., «Просвещение», 1983, 184 с.

XÜLASƏ
RİYAZİYYAT MÜƏLLİMLƏRİNİN ELMİ-METODOLOJİ HAZIRLIĞININ AKTUAL MƏSƏLƏLƏRİ

Həsənova X. S., Bayramova N. S.

Sumqayıt Dövlət Universiteti

Ali pedaqoji məktəbin Riyaziyyat fakültəsində təhsil alan gələcək riyaziyyat müəlliminin elmi və peşə hazırlığı elementləri onun hələ orta məktəb illəri ərzində özünü göstərmişdir. Ali məktəbdə, əsasən I-II kurslarda gələcək riyaziyyat müəlliminin elmi hazırlığı məsələləri həll olunur. III-IV kurslarda isə onun peşə (metodiki) hazırlığı məsələləri həll olunur və bu mərhələdə pedaqoji təcrübənin rolu xüsusi qeyd olunmalıdır.

Açar sözlər: Riyazi təhsil, məktəb riyaziyyat kursu, təlim prosesi, müasir təlim metodları, İKT.

SUMMARY
CURRENT ISSUES OF SCIENTIFIC AND METHODOLOGICAL TRAINING OF MATHEMATICS TEACHERS AT UNIVERSITIES

Gasanova Kh. S., Bayramova N. S.

Sumqayit State University

Elements of scientific and professional training of a future mathematics teacher studying at the Faculty of Mathematics of the Higher Pedagogical School showed itself during his high school years. The issues of scientific training of the future mathematics teacher are solved in the university, mainly in the I-II courses. In III-IV courses, the issues of his professional (methodological) training are solved, and the role of pedagogical practice at this stage should be emphasized.

Keywords: *Mathematical education, school mathematics course, learning process, modern teaching methods, ICT.*

MÜƏLLİM PEŞƏSİNƏ HAZIRLIĞIN İNKİŞAF SƏVİYYƏLƏRİ

Məmmədova Münəvvər İsmayıl qızı
ADPU, Pedaqoji psixologiya kafedrası, baş müəllimi
sehran61@mail.ru

Açar sözlər: *müəllim peşəsinə hazırlıq, pedaqoji fəaliyyət, motivasiya, kommunikativ səriştəlilik, koqnitiv komponent*

Müasir şəraitdə ali pedaqoji təhsilin qarşısında dayanan əsas məsələlərdən biri də müxtəlif situasiyalarda işləyə bilən, yeni təlim və tərbiyə metodlarını bacarıqla tətbiq edən geniş dünyagörüşə,yüksək intellektə, yaradıcı və yaradıcı qabiliyyətlərə malik müəllim yetişdirməkdir. Çünki bütün sosial-iqtisadi, ictimai-mədəni sahələr üçün kadr hazırlayan müəllim cəmiyyətin ziyalı təbəqəsinin böyük hissə- sini təşkil edir. Təhsildə kurikulum şəxsiyyətyönümlülük, inteqrativlik, universallıq, varislik, çeviklik və digər vacib prinsiplərə əsaslanmaqla müəllim şəxsiyyətinin hərtərəfli inkişafında mühüm əhəmiyyət kəsb edir.

Pedaqoji sahədə müəllim kadrları hazırlığı üçün sistemli, fundamental bilik, bacarıq və vərdişlərin olması zəruridir. Təhsil sistemində müəllim hazırlığı məsələsi dünyəvilik, reallıq, humanizm, inteqrasiya və yeni təlim formalarında fərdi yaradıcılıq tələb edir. Yeni təhsil strategiyası baxımından müəllim peşəsinə hazırlıga yanaşma müəllimlər üçün zəruri olan keyfiyyətlərin formalaşdırılmasının, psixoloji xüsusiyyətlərini, mexanizmlərini, müəllim hazırlığı modelinin nəzəri metodoloji əsaslarını müəyyənləşdirməyi zəruri edir.

V.P.Taranteyə görə, "hazırlıq - tələbə şəxsiyyətinin psixoloji vəziyyəti, onun təlim və əmək vəzifələrinin yerinə yetirilməsi zamanı müəyyən davranışda daxili həvəsi, məqsə- dəyönəlmiş hərəkətləri və aktiv ustanovkasıdır**.** Tələbələrdə onun (hazırlığının) məqsədinin formalaşması alimin fikrincə, "müasir istehsalat şəraitində adaptasiya prosesinin yüngülləşdirilməsi, uğura nail olmaq üçün əməli, əxlaqi, psixi, seçilmiş peşənin təşkilati tərəflərinə yiyələnmək zərurətidir **[128, s.21].**

Peşəyə hazırlıq mürəkkəb struktura malik olmaqla onun inkişaf səviyyələrinin xarakteristikası da özünəməxsusluğu ilə seçilir. Müəllim peşəsinə hazırlığın səviyyəsi: peşəyə hazırlığın yüksək səviyyəsi, gələcək müəllimin seçdiyi peşəyə davamlı marağı, onun ixtisası üzrə işləmək arzusu ilə xarakterizə olunur.

Müəllim peşəsinə hazırlığın *yüksək səviyyəsi* ali təhsil müəssisələrinin məzun- larında dörd struktur komponentin yüksək inkişaf səviyyəsinin göstəricilərinə müvafiq əlamətlərin təzahürünə səbəb olmuşdur:

1/motivasiya;**2**/koqnitiv;**3/** kommunikativ səriştəlilik; **4/** emosinal-iradi davamlılıq.

Motivasiya və koqnitiv komponent orta səviyyədən aşağı olmamalıdır. Koqnitiv komponentə: müxtəlif mənbələrdən müstəqil şəkildə biliklərin əldə edilməsi və mütəxəssislər tərəfindən həmin biliklərin sistemləşdirilməsi aiddir. Kommunikativ səriştəlilik komponenti ünsiyyət və onun vasitələrinə yiyələnmə qabiliyyətinin inkişafı ilə xarakterizə olunur. Emosional-iradi davamlılıq komponentinə özünüqiymətləndirmədə yüksək nəzarət, tabe olmamaq hissi, emosional davamlılıq və s. aiddir.

Müəllim peşəsinə hazırlığın *orta səviyyəsi* aşağıdakılarla xarakterizə olunur: peşəyə hazırlığın motivasiya komponentinin orta səviyyəsində gələcək peşəyə müəyyən marağın olması xasdır. Kommunikativ səriştəlilik komponentinə: əsas psixoloji vasitələrə (nitqə, qeyri-verbal ünsiyyətə və davranışa yiyələnmə); sözləri düzgün seçmək, ifadələri məntiqi qurmaq; onları emosional çalarlarla birlikdə tələffüz etmək və s. aiddir. Emosional-iradi davamlılıq komponentinə aktivliyin orta səviyyəsi, daxili qüvvə və psixi gərginliyin səfərbər edilməsi və s. aiddir.

Peşəyə hazırlığın aşağı səviyyəsi aşağıdakı hallarda tələbələr üçün xarakterik haldır:

- Seçilən peşəyə marağın zəif ifadə olunması və ya olunmaması;
- Ali təhsil müəssisələrində keçirilən təlim prosesində tələbələr tərəfindən fundamental zəruri biliklər kompleksinin əldə edilməsi, lakin biliklərin keyfiyyəti o qədər yüksək deyildir ki, gələcək müəllim onların əsasında standart olmayan peşə vəzifələrinin öhdəsindən gələ bilsin.
- kommunikativ səriştəliliyin aşağı səviyyəsi birinci səviyyədən aşağı olmayan inkişafla müəyyən edilir ki, o, orta aşağı intellektual göstəricilərlə və kommunikativ səriştəliliyin orta səviyyədən aşağı emosional inkişafı ilə xarakterizə olunur.

Əgər yuxarıda sadalanan üç komponent kifayət qədər yaxşı inkişaf edib onlardan yalnız biri inkişafın aşağı səviyyəsindədirsə, o zaman müəllim peşəsinə hazırlığı orta səviyyədə də qəbul etmək olmaz.

Peşə hazırlığını şəxsiyyətin peşə vəzifələrinin təcrübə, bilik və şəxsi keyfiyyətlər əldə etməklə onun uğurla yerinə yetirilməsinə imkan verən, ardıcıl şəkildə həyata keçirilən fəaliyyət kimi nəzərdən keçirərkən onun strukturuna aşağıdakıların daxil edilməsi, zənnimizcə, məqsədəuyğundur:

- seçilən peşə fəaliyyətinə müsbət münasibət-motivasiya-qiymət komponenti (peşə vəzifələrini uğurla yerinə yetirməyə tələbat, onun həllinə maraq, uğur əldə etməyə cəhd, özünü yaxşı tərəfdən göstərnək və s.);
- zəruri biliklər-koqnitiv komponent (peşə vəzifələrini başa düşmək, onların əhəmiyyətini qiymətləndirmək, onların yerinə yetirilməsinə dair biliklərə yiyələnmək, əmək şəraitindəki müvafiq dəyişiklikləri təsəvvür etmək və s.);
- fəaliyyətə adekvat tələblər, peşədə xarakter xüsusiyyətləri, qabiliyyətlər, qavrama, təfəkkür, emosional və iradi proseslər-əxlaqi komponent və emosional-iradi davamlılıq;
- kommunikativ komponent- (əlaqə yaratmaq qabiliyyəti, həmsöhbətin daxili aləmini başa düşmək və onun həyəcanlarına emosional həssaslıqla empatik qabiliyyət və s.).

Şəxsiyyətin peşə fəaliyyətinə hazırlığında yuxarıda göstərilən dörd mühüm komponent gələcək mütəxəssisə peşə seçmədə yüksək nəticələr əldə etməyə imkan verir ki, onlar bizim fikrimizcə, peşə fəaliyyətinin hazırlığının meyarları sayıla bilər.

A.A.Derkaç pedaqoji fəaliyyətdə peşə hazırlığı problemini tədqiq edərək onu tərbiyəçi şəxsiyyətinin hərtərəfli, tam təzahürü kimi müəyyən etmiş və idraki, emosional, motivasiya komponentlərini ayırmışdır. Hazırlığın formalaş- ması elə motivlər sisteminin təhsilini müəyyən edir ki, bu da tərbiyəçiyə öz vəzifələrini, münasibətlərini, eləcə də bilik, bacarıq və vərdişlərini aktivləşdirməklə onları effektiv şəkildə yerinə yetirməyi təmin edir.

A.A.Derkaç peşəyə hazırlığın formalaşmasında yaradıcı əməyi fərqləndirir:

- müstəqilliyin, mədəniyyətin tənqidi mənimsənilməsi;
- ictimai əhəmiyyətli vəzifələrin həllində aktiv iştirak emək;
- şəxsiyyətin yaradıcı potensialının xüsusi inkişafı-onun psixi prosesləri **[71, s.177].**

Müəllimin peşə fəaliyyətinə hazırlığının səviyyəsini müəllif müəllimin ümumi, psixoloji bilik və vəzifələrlə silahlandırılmasını, şəxsiyyətin xassə və vəziyyətinin, psixi proseslərinin həyata keçirilməsini müəyyən etmişdir.

Peşəyə hazırlığın strukturunda aşağıdakılar fərqləndirilir:

- yaradıcı işləmək bacarığı, zəruri biliklər əldə etmək, hər şeylə maraqlanmaq, təşəbbüskarlıq, şəxsi keyfiyyətlərin və əməkdən həzz alma hissinin dərk edilməsi;
- pedaqoji fəaliyyətin strukturu və məzmunu haqqında təsəvvürlər və onun yerinə yetirilməsinə maraq;
- şəxsiyyətin keyfiyyətləri- ideya-əxlaqi, emosional-iradi;
- münasibət, yönəlişlik və vərdişlər sistemi
- müxtəlif xassələr kompleksi-fəaliyyətə aktiv münasibət, əməksevərlik, məqsədəyönümlülük, təşkilatçılıq, müstəqillik, inamlılıq

Peşəyə hazırlıq mürəkkəb struktura malik olmaqla onun inkişaf səviyyələrinin xarakteristikası da mürəkkəbliyi ilə seçilir. Peşə hazırlığının yüksək səviyyəsi üçün gələcək mütəxəssislərin şəxsiyyətinin strukturunda xüsusi və fundamental biliklərin müəyyən kompleksinin olması zəruridir. Odur ki, bu kompleks düzgün balanslaşdırılmalıdır.

Ədəbiyyat

1. Əliyev V.H. Müəllim hazırlığı prosesində peşə keyfiyyətlərinin formalaşdırılması yolları. Ped.elm.nam.alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Naxçıvan, -2004
2. Quliyeva K. Yuxarı sinif şagirdlərinin müəllimlik peşəsinə istiqamətləndirilməsi. Bakı.: Nurlan, 2003,- 340 s.
3. Деркач А.А. Акмеология: личностное и профессиональное развитие человека. Кн.1-5.Кн.4: Развитие ценностной сферы профессионала. М.: Изд-во РАГС, 2001, -483 с.
4. Деркач А.А. Акмеологические основы развития профессионала. М.: Издательство москов- ского психолого-социального института. Воронеж: НПО «МОДЕК», 2004, -752 с.
5. Тарантей В.П. Социально-педагогические проблемы профессионального становления молодых учителей в сов- ременных условиях. Дис.канд.соск.докт.пед.наук в форме научного доклада. СПб. 1994,- 80 с.

РЕЗЮМЕ
УРОВНИ РАЗВИТИЯ ПОДГОТОВКИ УЧИТЕЛЕЙ
Мамедова М.И.
Азербайджанский государственный педагогический университет

В тезисе говорится о том, что для подготовки учителей в педагогической сфере необходимы систематические знания, умения и навыки. Вопрос подготовки учителей в системе образования требует светскости, гуманизма, интеграции и индивидуального творчества в новых формах обучения. Автор справедливо отмечает, что высокий уровень подготовки профессии учителя характеризуется высоким уровнем профессиональной подготовки, непрекращающимся интересом будущего учителя к избранной профессии, стремлением работать по специальности. Для высокого уровня профессиональной подготовки необходимо наличие определенного набора специальных и фундаментальных знаний в структуре личности будущих специалистов.
Ключевые слова: *подготовка учителей, педагогическая деятельность, мотивация, коммуникативная компетентность, познавательный компонент*

SUMMARY
LEVELS OF DEVELOPMENT OF TEACHER TRAINING
Mammadova M.İ.
Azerbaijan State Pedagogical University

The thesis states that systematic knowledge, skills and habits are necessary for the training of teachers in the pedagogical field. The issue of teacher training in the education system requires secularism, humanism, integration and individual creativity in new forms of learning. The author rightly points out that the high level of training for the teaching profession is characterized by a high level of professional training, the continuous interest of the future teacher in the chosen profession, the desire to work in their specialty. For a high level of professional training, it is necessary to have a certain set of special and fundamental knowledge in the personality structure of future professionals.
Keywords: *teacher training, pedagogical activity, motivation, communicative competence, cognitive component*

MÜƏLLİM MƏNƏVİ DÜNYANIN MEMARI OLMALIDIR

Şərifova Əsməd Təyyar qızı
Gəncə Dövlət Universiteti, pedaqogika üzrə fəlsəfə doktoru. baş müəllim
Gəncə, Azərbaycan
Serifova.73@mail.ru

Acar sözlər: *şəxsiyyət, təfəkkür, ziyalı, müəllim, təlim, tərbiyə,*

Bu gün güclü bir dövlətin gələcək vətəndaşlarını düzgün formalaşdırmaq və yetişdirmək üçün müasir təlim və tərbiyə ocaqları bizdən gənc nəslin təlim-tərbiyəsi ilə mükəmməl məşğul ola biləcək usta-müəllimlər, pedaqoji sahədə öz karyerasını düzgün qurmağı bacaran hərtərəfli şəxsiyyətlər tələb edir.

Bu gün sürətlə inkişaf edən dövlətimizin ən vacib strateji əhəmiyyətli sahələrindən biri də təhsil sahəsidir. Bu sahədə yüksək qabiliyyətləri ilə seçilən, xüsusi pedaqoji etika və ustalığa malik olan şəxslər çalışırlar. Simaları, bilik və bacarıqları ilə seçilən müəllimlər təlim-tərbiyə ilə yanaşı uşaqları – şagirdləri, eyni zamanda gənclərimizi xüsusi peşəkarlıqla vətən üçün, sağlam gələcəkli ölkəmiz üçün böyüdüb başa çatdırırlar.

İnsanların ən yüksək göstəriciləri əsasən onların təlim və tərbiyələri olmuşdur. Qədim zamanlardan insanların düzgün formalaşdırılmasında bir çox insanlar seçilmiş və təlim-tərbiyə verməklə məşğul olmuşdurlar. Bu seçilən insanlar cəmiyyət içərisində yüksək ziyalılığa malik olmaqla yanaşı, eyni zamanda gözəl əqidəyə də sahib olmuşlar. Dünya şöhrətli insanlar Azərbaycan tarixində təlimin daha dərin iz açması üçün müəllimlik adını qazanmışlar. El arasında bu insanlara “ Ustad” deyə müraciət edilmişdir. Tarixə nəzər saldığımız məqamlardan da görürük ki, ən qüdrətli hökmdar və mütəfəkkirlər təcrübi və nəzəri imkanlarına

görə özlərini borclu saydıqları əsas sima müəllimləri olmuşdur. Aristotel-İskəndər, İbn Sina-Bəhmənyar tondemində bunu daha aydın müşahidə etmək mümkündür.

Azərbaycanın dahi şairi və mütəfəkkiri, dünya ədəbiyyatının görkəmli nümayəndəsi, Nizami Gəncəvi bəşəriyyətin bədii fikir səlnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir desək, yəqin ki yanılmarıq.Müdrik sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri, Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır.

Ulu Nizami Gəncəvinin əsrlər öncə dediyi kəlamlar bu günümüzdə də öz aktuallığını qoruyub saxlamışdır. Müasir müəllim şəxsiyyətinin bu gün daha mükəmməl əxlaq tərbiyəsini tərənnüm etməsi üçün cəmiyyətdə nümunəvi şəxsiyyət ampulasından görünməsi daha vacib bir məsələdir.

Gördü ki, tərbiyəsiz, təlimsiz bir naşıyam,
Təlim- ədəb verdi ki, “ insan” adı daşıyam.
Həyalı söz danış, öyrənib səndən,
Həyalı danışsın səni dinləyən. [1.]

Bundan başqa daha bir tanınmış Azərbaycan mütəffəkirinin sözləri bu gün də maraqla qarşılanır. N.Tusi demişdir: [2.]"Hər sənətin şərəfi onun məqsədində, hər varlığın islahı onun zatındakı şərəfindədir... Deməli, bu dünyadakı mövcudatın ən şərəflisi olan insanı kamilliyə çatdırmaq məqsədini güdən sənət dünya sənətlərinin ən şərəflisi olmalıdır... Varlıqları ən aşağı dərəcədən kainatın ən şərəfli mərtəbəsinə qaldıran sənətdən daha şərəflisi nə ola bilər?!"

Bəli, müəllimlik çox şərəfli peşədir - vəzifədir, şərəfli olduğu qədər də mürəkkəb, məsuliyyətli vəzifədir. Ona görə də hər bir müəllim bilməlidir ki, hər bir uşaq - fikirləri, görüşləri, hissləri, duyğuları, maraqları, sevincləri, həyəcanları, kədərləri və qayğıları ilə özünəməxsus xüsusi bir dünyadır.

Bu gün güclü bir dövlətin gələcək vətəndaşlarını düzgün formalaşdırmaq və yetişdirmək üçün müasir təlim və tərbiyə ocaqları bizdən gənc nəslin təlim-tərbiyəsi ilə mükəmməl məşğul ola biləcək usta-müəllimlər, pedaqoji sahədə öz karyerasını düzgün qurmağı bacaran hərtərəfli şəxsiyyətlər tələb edir.

Müasir təlim və tərbiyə nəzəriyyəsi pedaqoji ustalıq problemini daha da aktual edir. Pedaqogikanın ümumi qanunlarından aydın olur ki, mövcud cəmiyyətin bugünkü və gələcək inkişaf tələblərinə cavab verə biləcək intellektual səviyyəli, vətəninə sevgi dolu, müsbət aurada formalaşmış, zəhmətsevər, milli, qeyrətli, şəxslər yetişdirməyə istiqamətlənməlidir.

Müəllim çox çətin, məsuliyyətli və eyni zamanda gələcəyi görməyi –qurmağı bacaran insanlardır. Əsl ziyalı müəllim-pedaqoq bu gündə yaşayır, lakin gələcəyi qurur. Qeyd olunan məsələlər çox mürəkkəb bir işdir. Bu gün müəllim-pedaqoqun məqsədi tərbiyə etdiyinin gələcəyində obyektivləşir. Müəllimin yetişdirmək istədiyi uşaq isə bu günlə yaşayır, gələcək onun üçün çox uzaqdır. Bu məsələlər tərbiyədə çox ziddiyyətli məqamlara yol aça bilər.

Deyilənlərə istinad edərək bildirmək lazımdır ki, əsl pedaqoq-müəllim hər bir yaş dövründə uşağın gələcəyini qurmaqda ona kömək etməli, yol göstərməli, istiqamət verməli, onun öz gələcəyinə güclü inam yaratmağa çalışmalıdır.Bu qeyd olunanların köməyi ilə yalnız övladlarımızın gələcəyini tərbiyə etmək, hərtərəfli inkişaf etmiş şəxsiyyəti formalaşdırmaq mümkündür.

Pedaqoji prosesdə professional biliklərə sahib olmaq hər bir müəllimin pedaqoji ustalığının əsasıdır desək yanılmarıq. Daha çox diqqət çəkən məqamlardan biri isə müəllim (öyrədən) və şagird (öyrənən) arasında yaranan qarşılıqlı münasibətlərin səviyyəsidir. Təlim prosesində əsasən qarşıya qoyulan təlim məqsədlərinin (tərbiyəedici, təhsilləndirici və inkişafetdirici) təsir məqamları əsas meyar hesab edilə bilər.

Biz hamımız bilirik ki, müəllimlik dəyərli olduğu qədər də şərəfli peşədir - məsuliyyətli vəzifədir. Bu baxımdan hər bir müəllim öz məsuliyyətini dərk etməli. Ona görə də hər bir müəllim peşəsinin necə ağır bir sahə olmasını öncədən dərk edərək bu sənətə tam hazır olmalıdır. Özünü uşaqlarla işləməyə, onların qayğısını çəkməyə, onlara valideyn olmağa qadir olmaq məsuliyyətini öz üzərlərinə götürmək məcburiyyətini dərk etməlidirlər.

Məktəbdə hər bir fənn müəlliminin fəaliyyəti üçün xarakterik olan pedaqoji funksiyalar qeyd olunur : inkişafetdirici, tərbiyəedici, kommunikativ-öyrədici, qnostik, konstruktiv, təşkilatçılıq. [3.]

Bütün bunlar müasir müəllimlər üçün vacib sayılan amillərdəndir. Bu gün mütləq şəkildə müasir müəllimlər bu məqamlardan öz iş fəaliyyətlərində istifadə edərək yüksək səviyyədə tərbiyə, əxlaq konteksindən çıxış etməli, zəkalı, intellektual, vətənpərvər vətəndaşlar böyüdüb başa çatdırmalıdırlar. Elə edilməlidir ki, pedaqoji fəaliyyətin sonunda geriyə baxan hər kəs öz uğur yolunu görsün. Həmişə intellekt və davranış etalonları ilə zəngin olan, insan üçün karyera və ideal seçimində vacib simalardandır müəllim. Müasir müəllim bütün yeniliklərdən xəbərdar olmalı, daim təkmilləşməyə önəm verməlidir. Bundan əlavə müasir müəllim ən başlıcası peşəkar psixoloq olmalıdır. Çətinliklərlə, sosial problemlərlə dolu olan

dünyamızda ən əsası humanistlik prinsiplərinə daha yaxın olmalıdır. Müasir müəllim yeni təlim texnologiyalarına dərindən bələd olmalı, müasir dərslərin tələbinə uyğun dərslərini İKT ilə təşkil etməlidir.

Beləliklə mən qeyd etdiklərimi Ulu öndər Heydər Əliyevin müəllimlik fəaliyyətinə hər zaman yüksək dəyər verərək dediyi bir fikri ilə bitirmək istəyirəm : "Müəllimlik çox çətin peşədir. Həqiqi müəllim olmaq cəmiyyət üçün doğrudan da çox qiymətlidir. Bütün varlığımla, keçdiyim həyat yolu ilə həmişə məktəbə, müəllimə borcluyam".

Ədəbiyyat

1. Muradxanov M. N,Gəncəvinin əxlaq haqqında fikirləri. // Azərbaycan məktəbi, 1947, №4.
2. Muradxanov M. Məktəblilərin əxlaq tərbiyəsinin prinsip və üsulları. Bakı.Azərnəşr.1962.
3. Həmzəyev M. Pedaqoji psixologiya. Bakı.Maarif. 1991.
4. Tusi N. "Əxlaqi-Nasiri." Bakı- 1987.

РЕЗЮМЕ

УЧИТЕЛЬ ДОЛЖЕН БЫТЬ АРХИТЕКТОРОМ ДУХОВНОГО МИРА

Шарифова А. Т.
Гянджинский государственный университет, Гянджа, Азербайджан

При изучении ценностей профессии учителя более подробно изучаются задачи и ценности этой профессии.Воспитание детей, школьников и младших школьников как совершенных личностей считается одним из важнейших аспектов жизни общества.Поэтому в будущем необходимо образование студентов, имеющих педагогическую профессию и получивших педагогическое образование и обладающих большими, более педагогическими этическими и профессиональными навыками.Гораздо важнее продвигать ценности профессии учителя, показывать им пример и в то же время прививать дух.

Ключевые слова- *личность,мысленный,интеллектуально,учитель, обучение, образование.*

SUMMARY

THE TEACHER SHOULD BE THE ARCHITECT OF THE SPIRITUAL WORLD

Sharifova A. T.
Ganja State University, Ganja, Azerbaijan

When examining the values of the teaching profession, the responsibilities and values of this profession are more studied. The upbringing of children, pupils and younger students by teachers as a perfect person is considered one of the most important aspects of society. Therefore, in the future, it is necessary to train the students who have the profession of a teacher and receive pedagogical education with more perfect, more pedagogical ethics and skill abilities. It is more important to propagate the values of the teaching profession, to teach them-to be an example and instill at the same time.

Keywords- *personality, thought, intelligent, teachers, learning education.*

РОЛЬ ЛИЧНОСТИ ГЕЙДАРА АЛИЕВА В СТАНОВЛЕНИИ ПЕДАГОГИЧЕСКИХ КАДРОВ АЗЕРБАЙДЖАНА

Байрамова Зияфат Вилаят кызы, Кулиев Аллахверди Искедрер оглы
Гянджинский государственный университет, Гянджа, Азербайджан, 1,2-доцент
ziyafet@bk.ru

Ключевые слова: *общенациональный лидер, высшее образование, педагогическое образование, контракт века.*

Становление, пути развития, особенности высшего педагогического образования в Азербайджане относятся к самым чутким моментам национальной истории народа. Азербайджанское педагогическое образование становление педагогических кадров имеет свои многовековые корни.

Как представители народов Древнего Востока ментальность наших предков обусловлена глубокими корнями основ научных знаний.

Как известно, неоднократно доводилось отстаивать свободу, независимость, суверенитет азербайджанского народа. На пути грандиозных побед были убытки и потери глобальных масштабов. Среди многих потерь, которые наш народ в героической борьбе смог вернуть – это государственность национального языка, оккупированные земли соседями – варварами. На протяжении многих веков азербайджанскому народу удалось сохранить свою ментальность, национальные ценности и удержать богатства священной земли огней.

Общенациональный лидер Азербайджана Гейдар Алиев является посланником судьбы для своего народа, который в самый критический момент, в ту трудную пору, когда решалось «быть или не быть» суверенитету страны, принял мудрые решения, тем самым спас нашу нацию, нашу землю, нашу честь от посягательств со стороны и внутри самой страны. Факт то, что все успехи, исторически пройденный путь высшего образования, в том числе и педагогического непосредственно связаны с именем общенационального лидера Гейдара Алиева.

Конец XX и начало XXI столетия ознаменовалось большими трудностями, в то же время большими успехами для страны. Приход к власти гениального лидера для азербайджанского народа была большой победой во всех отраслях, а также в сфере высшего образования. Трудность заключалась в том, что на месте разрушенного необходимо было построить новое суверенное, самостоятельное, демократическое для служения народу, в то же время на мировой политической арене суметь представить свой суверенитет и свою национальную Доктрину.

«Контракт века» был началом и политического и экономического, и культурного становления после провозглашения суверенитета страны.

Первым решающим шагом было решение о двухступенчатом образовании, принятым в 1997 году, а в 1999 году принятие «Программы реформ в сфере образования Азербайджанской Республики». В дальнейшем реформы в сфере образования протекали с уверенной скоростью, конечной целью этих реформ было интегрирование высшего образования в мировую сферу, с определением конкретной цели интеграции. Эта была устойчивая почва для развития и процветания высшего образования в период глобализации всемирного общества, заложенная великим сыном азербайджанского народа Гейдаром Алиевым.

Итак, второй период правления Гейдара Алиева по праву можно назвать эпохой возрождения нации. Он всегда утверждал, что путь развития и возрождения азербайджанского образования лежит через научные достижения, через интеграцию в мировую систему образования. Приоритетным вопросом для него было разрешение проблемы в становлении учительских кадров, так как образование-это стратегическая сфера. Понятно, что от уровня педагогических кадров зависит будущее страны.

На первом съезде учителей Азербайджана Гейдар Алиев отметил: «Я считаю, что в человеческом обществе самое высокое место занимает духовность. Материальное положение, богатство и все другое находится ниже. Этим я не хочу сказать, что учителя всегда должны испытывать материальные трудности. Говоря так, я просто хочу подтвердить преданность учителя своей профессии. Эти учителя могли бы заняться другим делом, иметь от этого больше выгоды, поправить материальное положение. Но они избрали профессию учителя. Вы избрали профессию учителя. Поэтому я говорю вам: "Молодцы!". Склоняю голову перед вами, учителями».[2]

Он знал, что учителя архитекторы человеческой нравственности и на их плечах держится мораль достигнутого. Самые крупномасштабные реформы после триумфа независимости охватили сферу образования, подготовку педагогических кадров.

Реформы в области образования проводились с учетом становления национальных кадров, которые могли бы свободно представлять свою страну, свой народ далеко за пределами Азербайджана. Поэтому в рамках реформ были приняты государственные программы, целью которых было обучение молодых кадров в престижных вузах мира.

Нашим любимым Президентом, Господином Ильхамом Алиевым была унаследована политическая традиция Общенационального лидера. В 2005 году Азербайджан был принят в Болонский процесс и тем самым, получив доступ в мировое образование и науку, который стал расширяться, углубляться. Согласно основным положениям Болонского процесса, предложения исполняемые в рамках процесса, сводятся к 6 основным позициям:

1. Введение двухциклового обучения;

2. Введение кредитной системы;
3. Контроль качества образования;
4. Расширение мобильности;
5. Обеспечение трудоустройства выпускников;
6. Обеспечение привлекательности европейской системы образования.

Дидактическая система этих вузов основной целью ставит подготовку высококвалифицированных специалистов в соответствии с современными требованиями общества и мирового образования, формирование всесторонне развитой личности.

Подводя итоги вышесказанного сделаем следующие умозаключения:

1. Это исторический факт, что высшее образование в Азербайджане, в том числе педагогическое, достигло современного уровня развития в соответствии с мировыми тенденциями развития, и исключительную роль в его развитии сыграл наш общенациональный лидер Гейдар Алиев;

2. Сегодня развитие независимого Азербайджанского государства, стремительно интегрирующего в мировое сообщество, напрямую связано с деятельностью Гейдара Алиева, а период его руководства является важным этапом в развитии социально-экономических сфер, особенно образования и т.д.;

3. Сегодня в нашей стране действует широкая сеть образовательных учреждений, сильный научно-педагогический потенциал, истоки которого восходят к 70-м годам прошлого века; дальновидная и целенаправленная политика, проводимая в области образования и становления педагогических кадров под руководством Гейдара Алиева продолжается с темпами развития мирового сообщества под руководством преемника общенационального лидера Господином Ильхамом Алиевым;

4. В период правления Гейдара Алиева все учебные заведения Азербайджана, в том числе университеты, вышли на новый уровень развития по сравнению с предыдущими годами, и последовательная государственная политика в этом направлении сыграла исключительную роль в повышении образовательного, культурного и интеллектуального уровня азербайджанского населения.

Государственная политика образования является неотъемлемой частью всей политики Азербайджана. Это один из ключевых моментов, который предвещает народу политическую независимость, развитие всех сфер человеческой деятельности. Мой народ счастлив тем, что у него такой Общенациональный лидер Гейдар Алирза оглы Алиев – гений своего времени, вестник счастливого будущего народа. Его наследие неисчерпаемо и мой народ во всю будет преумножать своим трудом, оставленные им блага.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev tərəfindən 1999-cu il 15 iyun tarixli 168 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir
2. Речь Президента Республики Гейдара Алиева на I съезде учителей Азербайджана - 26 сентября 1998 года. https://lib.aliyevheritage.org/ru/3116236.html
3. Təhsil haqqında Azərbaycan Respublikası Qanunu. Bakı, 2009

XÜLASƏ

AZƏRBAYCAN PEDAQOJİ KADRLARIN YETİŞMƏSİNDƏ HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİNİN ROLU

Bayramova Z.V., Quliyev A.İ.

Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan

Müstəqillik əldə etdiyimiz dövrdən sonra H.Əliyevin qayıdışı ilə Azərbaycan təhsilinin intibah dövrü başlandı. Aparılan islahatlar çərçivəsində təhsildə ideoloji dönüş yarandı. Azərbaycanda ali təhsili və eləcə də pedaqoji kadr hazırlığı ilə bağlı islahatlara start verildi. 1997-ci ildən başlayaraq təhsilimizin dünya təhsilinə inteqrasiyasının təməli qoyuldu. Pedaqoji kadrların yetişdirilməsində islahatların davamlı olması, mövcud təhsil mühitinin daha da təkmilləşdirilməsi, nəticəyönümlü siyasətin uğurlara apardığından xəbər verir.

***Açar sözlər**: ümummilli lider, ali təhsil, pedaqoji təhsil, əsrin müqaviləsi*

SUMMARY
THE ROLE OF THE PERSONALITY OF HEYDAR ALIYEV IN THE FORMATION OF THE PEDAGOGICAL STAFF IN AZERBAIJAN
Bayramova Z.V., Quliyev A.İ.
Ganja State University, Ganja, Azerbaijan

With the return of Heydar Aliyev, a period of revival of Azerbaijani education began. As part of the reforms, there was an ideological turn in education. Azerbaijan has launched reforms in the system of higher education, as well as in the field of training teachers. Since 1997, the foundation has been laid for the integration of our education into world education. The reforms carried out in the formation of teaching staff are purposeful.
Keywords*: national leader, higher education, teacher education, contract of the century.*

MÜƏLLİM HAZIRLIĞINDA PEDAQOJİ TƏCRÜBƏNİN ROLU

Rzayeva Nurəngiz Tofiq qızı
ADPU, Ümumi psixologiya kafedrası, dosent
nurəngiz.rzayeva@gmail.com

Açar sözlər: *müəllim hazırlığı, pedaqoji təcrübə, müəllimlik peşəsi, pedaqoji qabiliyyət, təfəkkür*

Pedaqoji kadr hazırlığının ən mühüm sahələrindən biri pedaqoji təcrübədir. Pedaqoji təcrübə prosesində tələbələrin ali məktəblərdə aldıqları biliklər dərinləşir və möhkəmlənir. Tələbələr pedaqoji iş prosesində yeni bacarıq və vərdişlərə yiyələnirlər. Mütəxəssis hazırlığı praktik yolla başa çatır, nəzəri biliklər pedaqoji təcrübə müddətində əməli şəkildə icra olunaraq mənimsənilir. Bu yolla pedaqoji təfəkkür, pedaqoji qabiliyyət formalaşır ki, bunlar da pedaqoji səriştənin vərdiş halında möhkəmlənməsinə səbəb olur.

Ali pedaqoji və orta ixtisas təhsil müəssisələrində tələbələrin müəllimlik fəaliyyətinə hazırlanmalarında pedaqoji təcrübənin düzgün təşkilinə mühüm əhəmiyyət verilir. Tələbələrdə ixtisas üzrə qazanılan nəzəri bilikləri tətbiq etmək bacarığının və müəllimə xas keyfiyyətlərin formalaşdırılması məhz pedaqoji təcrübə vasitəsilə həyata keçirilir. Bu prosesdə tələbələr gələcək peşə fəaliyyətləri üçün ən zəruri olan bacarıq və vərdişlərə yiyələnirlər.

Pedaqoji təcrübə nəzəri təlimi həyata, praktik pedaqoji işə, peşəkar müəllimlik sənətinə yaxınlaşdırır, konkret şəraitdə tələbələrdə fəallığı, pedaqoji peşə qabiliyyət və maraqlarını inkişaf etdirir. Bunlarla yanaşı məktəb kollektivində nəzəri bilikləri əməli işlə ümumiləşdirərək hər bir tələbə gələcək peşəkar müəllimin ən mühüm pedaqoji bacarıq və qabiliyyətlərini formalaşdırır.

Pedaqoji təcrübə müddətində təcrübəçi tələbə - gələcək müəllim təlim-tərbiyə prosesinin müxtəlif tərəflərini müşahidə və təhlil edir, qabaqcıl müəllimlərin təcrübəsi ilə yaxından tanış olur və özü şəxsən təlim prosesini təşkil edir, uşaqlarla tərbiyəvi işi və digər pedaqoji tədbirləri həyata keçirir.

Pedaqoji təcrübə kadrları bir mütəxəssis kimi formalaşdırır. Müəllimlərin hazırlanmasına dair istənilən proqramın zəruri bir hissəsini ixtisas üzrə təcrübə təşkil edir. Praktikum və ya tələbənin dərs deməsi çox zaman bir ixtisas təcrübəsinin kulminasiyası olur. Praktikumun müəllim ixtisasına yiyələnmə proqramı çərçivəsində bir sıra xüsusi adlara və statusa malik olmasına baxmayaraq ixtisas üzrə bütün təcrübələr bir-birinə oxşayır. Ümumilikdə isə bu təcrübələrin iki səciyyəvi cəhəti vardır:

1. Onlar tələbələrin müəllimlik peşəsi mədəniyyətinə uyğunlaşmasına yardımçı olan inkişaf yolunu təmin edir;
2. Onlar tələbələrə nəzəriyyəni birbaş təcrübə ilə birləşdirmək imkanı verir.

İxtisas üzrə təcrübələrin digər ümumi cəhətləri də vardır. Birincisi, ixtisas üzrə təcrübələr öz təyinatından asılı olaraq müəllimi və ya təlim şəraitini prosesə cəlb edir. İkincisi, onlar öyrənən şəxsi cəlb edir. Üçüncüsü, onlar müəllimin öyrənənlə bölüşdüyü təlim materialını cəlb edir. Nəhayət, ixtisas üzrə bütün təcrübələr təlim və öyrənmə təcrübəsinə təsir göstərən nəticələrdən və fərdi psixoloji mühitdən ibarət kontekst çərçivəsində aparılır.

Praktikum və ya tələbənin dərs deməsi ixtisas üzrə təcrübənin bir formasıdır. İxtisas üzrə təcrübələr kimi praktikum da ilkin təlim təcrübəsini inkişaf etdirmək məqsədi daşıyan keçid təcrübəsidir, o tələbələrə

real və əlverişli bir mühitdə müşahidə və təlim üçün imkanlar yaradır. Praktikumda bütünlükdə ixtisas üzrə təcrübə üçün nəzərdə tutulanlar iştirak edir. Buraya dərs deyən tələbəyə nəzarət edən müəllim daxildir.

İxtisas üzrə digər təcrübələrdə fərqli olaraq çox zaman praktikum erkən tədqiqatın əsas hissəsi kimi sonradan müəllimlərin hazırlanması üzrə proqram çərçivəsində həyata keçirilir. O əsasən tələbənin bir neçə daha az intensiv olan təlim təcrübələrində iştirak etməsindən sonra aparılır.

Pedaqoji təcrübələrin nəticələrinin çoxballı sistemlə və monitorinq yolu ilə qiymətlən- dirilməsi Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq əsasnaməsinə və digər rəhbər sənədlərə əsasən universitetlərdə artıq neçə illərdir ki, uğurla həyata keçirilir. Monitorinq və qiymətləndirmə prosesində pedaqoji təcrübə keçən tələbənin fəaliyyətinin xüsusi qiymətləndirmə meyarı müəyyənləşdirilmişdir ki, bura tələbənin dəvamiyyəti, təcrübə müddətində fəallığı, nəzəri pedaqoji hazırlığı, praktik pedaqoji fəaliyyəti, pedaqoji qabiliyyətləri, müəllim-şagird münasibət- lərinin qurulması, habelə təlim prosesinin təşkilində yeni pedaqoji texnologiyalardan istifadə bacarığı, təşkilatçılığı və s. kimi məsələlər daxil edilmişdir.

Ölkəmizdə hüquqi, demokratik dövlət quruculuğunun sürətlə inkişaf etdiyi bir şəraitdə Azərbaycan təhsil sisteminin milli xüsusiyyətlərini və milli dəyərlərini saxlamaqla dünyanın təhsil sisteminə uyğunlaşdırılmasını, yeni strukturun formalaşdırılmasını, məzmunca əsaslı keyfiyyət dəyişikliklərinin aparılması təxirəsalınmaz bir vəzifə kimi qarşıya qoyur.

Məhz buna görə də təhsilin hüquqi normativ sənədləri yeniləşir, təlimin məzmunu əsaslı keyfiyyət dəyişikliklərinə uğrayır, artıq ali məktəblərdə kadr hazırlığı aparan ixtisasların tədris planları və tədris olunan fənlərin tədris proqramlarının təkmilləşməsi və yeniləşməsi zərurətə çevrilir, peşəkar müəllimin hazırlığı hazırlığı ön plana çəkilir. Bu baxımdan pedaqoji kadr hazırlığı aparılan ali məktəblərin tədris planları və proqramlarının təhlili, mövcud nöqsanların aşkar olunması, onların aradan qaldırılması yollarının göstərilməsi, tədris planları proqramlarının təkmilləşməsi üçün təkliflərin verilməsi böyük əhəmiyyət kəsb edir və bu sahədə əsaslı araşdırmaların aparılması qarşıya qoyulur [2, s.112].

Son dövrlərdə həyata keçirilən təhsil islahatları yeni pedaqoji təfəkkürə malik müəllim kadrlarının hazırlığını, pedaqoji təcrübə, pedaqoji fəaliyyətin monitorinqi və qiymətləndirilməsi məsələlərini də özündə əks etdirir. Milli Təhsil konsepsiyasının yaradılması, kurikulumun tətbiqi pedaqoji təcrübənin yeni müstəvidə aparılması, davamlı olaraq pedaqoji fəaliyyətin qiymətlən- dirilməsi və monitorinqlərin aparılması müəllimlərin hazırlığında əhəmiyyətini xeyli dərəcədə artırmışdır.

Təcrübə göstərir ki, Azərbaycanın Avropaya inteqrasiya olunduğu müasir dövrdə ali məktəblərdə tədris olunan bütün fənlər üzrə şəxsiyyətyönümlü təhsil standartlarının hazırlanmasına ehtiyac vardır. Məhz bu standartlar tamamilə yeni tipli proqram və dərsliklərin hazırlanmasına imkan verir və nəticədə təlimin keyfiyyəti məqsədəuyğun şəkildə yüksəlir. Bu, bütünlükdə cəmiyyətimiz üçün gərəklidir. Ona görə ki, sabahın mütəxəssis kadrı öz işinə, öz xalqının mədəniyyətinə hörmət edən və daim yaradıcılıq axtarışları aparan şəxsiyyət olmalıdır [3,s.57].

Ədəbiyyat

1. Azərbaycan Respublikasında Ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum). //Kurikulum, 2008, № 1
2. Abbasov A.N. Pedaqogika. Bakı: Mütərcim, 2010
3. Mehrabov A.O., Cavadov İ.A. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı: Mütərcim, 2007
4. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007

РЕЗЮМЕ

РОЛЬ ПЕДАГОГИЧЕСКОЙ ПРАКТИКИ В ПОДГОТОВКЕ УЧИТЕЛЕЙ

Рзаева Н. Т.

Азербайджанский государственный педагогический университет

В тезисе рассматривается роль педагогической практики, одного из важнейших направлений подготовки учителей. Автор говорит о том, что в процессе педагогической практики углубляются знания, полученные студентами в высшей школе, они приобретают новые навыки и навыки в процессе педагогической работы. Подготовка специалистов завершается практическим путем, теоретические знания приобретаются путем практической реализации в ходе педагогической практики. В диссертации автор также исследует особенности педагогической практики.

Ключевые слова: *педагогическая подготовка, педагогический опыт, педагогическая профессия, педагогические способности, мышление*

SUMMARY
THE ROLE OF PEDAGOGICAL PRACTICE IN TEACHER TRAINING
Rzayeva N.T.
Azerbaijan State Pedagogical University

The thesis examines the role of pedagogical practice, one of the most important areas of teacher training. The author says that in the process of pedagogical practice, the knowledge acquired by students in higher education deepens, they acquire new skills and habits in the process of pedagogical work. The training of specialists is completed in a practical way, theoretical knowledge is acquired through practical implementation during pedagogical practice. In the thesis, the characteristics of pedagogical practice are also studied by the author

Keywords: *teacher training, pedagogical experience, teaching profession, pedagogical ability, thinking*

MƏKTƏBƏQƏDƏR TƏHSİLİN İNKİŞAF PERSPEKTİVLƏRİ

[1]Bəşirov Vidadi Paşa oğlu , [2]Mahmudov Abzar Katif oğlu
Lənkəran Dövlət Universiteti, 1-Ped.ü.f.d, dosent, 2- magistr
Vidadi.besirov@mail.ru ; roksanabagirova3@gmail.com

Məktəbəqədər təhsil təhsilin bünövrəsidir. Məktəbəqədər təhsil sayəsində insan şəxsiyyət kimi formalaşır, inkişaf edir. Uşaqların nisbətən daha geniş sosial qruplarla tanışlığı və birgə fəaliyyəti başlayır.Bu təhsil dövründə uşaqlar bioloji psixoloji və sosioloji baxımdan digər yaş qruplarına nisbətən daha sürətli və nəzərə çarpacaq qədər xaotiq keçirirlər. Təhsilin bu dövründə təhsil verənlər daha humanist, qayğıkeş və tələbkar olmalıdırlar. Belə ki, bu təhsil sayəsində uşaqların bacarıqları, potensialı, keyfiyyəti, müstəqil yaradıcılıq qabiliyyəti ortaya çıxır. Azərbaycan Respublikası "Təhsil haqqında qanun" da bildirildiyi kimi məktəbəqədər təhsil məktəb yaşına çatmış uşaqlarda fərdi keyfiyyətlərin formalaşmasını təmin etmək, onların təbiətə, ətraf mühitə qarşı hisslərinin meydana çıxarılmasında mühüm rol oynayır. Məktəbəqədər təhsil sisteminin inkişafı və beynəlxalq standartlara cavab verməsi dövlət strategiyasının əsas prioritet istiqamətlərindən biri sayılır.

İnsanın şəxsiyyət kimi formalaşmasında məktəbəqədər təhsilin rolu olduqca böyükdür. Belə ki uşaq öz gücünə, potensialına inanmağı bacaqmalıdır, uğur qazanmağı öyrənməlidir. Bu mənada məktəbəqədər təhsil uşaqlarda baxça və məktəbə marağ oyandırır.

Təəssüflər olsun respublikamızda məktəbəqədər təhsil müəssisələrinin sayı uşaqların sayına uyğun gəlmir. 90-cı illərdə məlum səbəblərə görə Bakı şəhəri və onun ətrafında olan yaşayış məntəqələrində əhalinin sürətli artımı nəticəsində həmin ərazilərdə məktəbəqədər təhsil müəssisələrinin çatışmazlığı nəticəsində bu ərazilərdə yaşayan əhalinin azyaşlıları məktəbəqədər təhsil müəssisələrinə yerləşdirilməsi problemi yaranmışdı. Son dövrlər ölkə rəhbərliyi tərəfindən həmin sahəyə qayğı və diqqət artırılmış, nəzərə çarpacaq dərəcədə məktəbəqədər təhsil müəssisələrinin sayı artmış, bütün yaşayış məntəqələrinin əhalisinin say göstəcisinə yaxınlaşdırılıb. Bu gün məktəbəqədər təhsil müəssilərinə qəbul online şəkildə qəbul edilir, bu da təhsildə şaffalığın təmin olunmasına rəvac verir. Məktəbəqədər təhsil müəssisələri ölkənin ərazisinə, uşaqların sayına görə çox azlıq təşkil edir. Bundan əlavə, erkən yaş qruplarında təhsilyönümü, müəllimlərin əksəriyyəti müasir tələbləri ödəyə bilmir. Amma digər tərəfdən ənənəvi üsulda uşaqların pedaqoji təhsilə yönəlməsi bu dəfə də onların yükünü artırır. Bu baxımdan məktəbəqədər təhsil müəssisələrində tərbiyəçilərin üzərinə, o cümlədən valideynlərin də üzərinə də iş düşür. Məşğələlərdə valideynlərlə uşaqların birgə fəaliyyətini təmin etmək daha yararlı sayıla bilər.

Artıq başa düşmək lazımdır ki, məktəbəqədər təhsil uşaqların ətrafı, dünyani dərk etməsi üçün bir istiqamətdir, yoldur. Bu baxımdan yeri gəldikcə xarici dövlətlərin təcrübələrindən yararlanmaq lazımdır. İnkişaf etmiş ölkələrin təhsilsistemində şəxsiyyətyönümlü, insanın şəxsiyyət kimi formalaşması olduqca mühüm məsələdir.

Məktəbəqədər təhsil sisteminin müasir tələblərə cavab verən bir səviyyəyə çatdırılması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti 2010-cu il 16 iyul tarixli, 137 nömrəli qərari ilə "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı"nı təsdiq etmişdir. Bu qanun respublikamızda fəaliyyət göstərən bütün məktəbəqədər təhsil müəssisələrinə aiddir. "Məktəbəqədər təhsilin dövlət proqramı və standartı" sayəsində nəticəyönümlü və uşaqyönümlü təhsilə keçilib. Bu sənəd uşaqların tamamilə uşaqların maraq, arzu,

meyillərinə yönəlib. Biz ənənəvi təhsil sistemi ilə uşaqları həddindən artıq yükləyib onların təhsil yükünü artıra bilmərik. Müasir təhsil strategiyası ilə uşaqlar yorulmadan ətraf aləmdə baş verənləri dərk etməli, öyrənmək üçün onlarda maraq yaranmalıdır. Uşaqlara dərk etməyi, araşdırmağı öyrətmək müasir təhsilin əsas prioritetlərindən biri sayılır.

Məktəbəqədər təhsil proqramına uyğun olaraq, tərbiyəçi-uşaq münasibətləri subyekt-subyekt münasibətlərinə uyğunlaşdırılır. Bu zaman uşaqlar öz düşüncələrinin, tərbiyəçilər isə bu keyfiyyətlərin formalaşmasına təkan verir. Bu zaman tərbiyəçilər uşaqların qrup şəklində fərdi qabiliyyətinin, bacarıqlarının ortaya çıxması üçün istiqamətverici rolunda çıxış edir. Təhsildə əsas dəyər təhsil alandı. Məktəbəqədər yaş dövrü isə təkcə məktəb həyatına hazırlıq mərhələsi deyil, eyni zamanda insan həyatının ən məsuliyyətli, ən mühüm yaş dövrüdür ki, bu dövrdə insanda bütün mənəvi dəyərlərin təməli qoyulur. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda deyildiyi kimi, "...Təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərindən əldə edildiyinə görə uşaqların zehninin erkən yaş dövründən inkişaf etdirilməsi vacibdir. Bu səbəbdən məktəbəqədər təhsilin inkişafı dövlət siyasətində əhəmiyyətli yer tutur". Məktəbəqədər təhsil proqramında məktəbəqədər təhsilin məzmunu özündə aşağıdakı inkişaf sahəsini ehtiva edir:

Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik;
İdrakın inkişafı;
Estetik və yaradıcı inkişaf;
Sosial-emosional inkişaf.

Məktəbəqədər təhsildə ehtiva olunan sahələr özü özlüyündə dövlətin gənc nəsilə və onun təhsilinə diqqətdən irəli gəlir. Müasir dövrdə hər bir xalqın kapitalı onun gəncləridir. Gənc nəsilin yetişməsi və tam inkişafı məktəbəqədər təhsil dövründə verilən təhsil tərbiyənin əsasında formalaşır.Təhsil anlayışı özü özlüyündə qırılmaz zəncirə bənzəyir təhsilin bir hissəsində zəncir qırılarsa, uzun illərlə verilən əmək boşuna itirilmiş vaxt hesab oluna bilər.

İnsanın sosiallaşması prosesində milli və dünyəvi dəyərlərə yiyələnməsi müxtəlif fəaliyyət sahələrində həyata keçirildiyindən məktəbəqədər təhsil fasiləsiz təhsilin ilk tərkibi olaraq təhsil sisteminin ardıcıllığını təmin edir.

Ədəbiyyat:

1.Əhmədov H.H. “Azərbaycan təhsilinin inkişaf strategiyası” Bakı “Elm” -2010 -800 səh.
2. Cəfərova Laləzər “Azərbaycan müəllimi”- 2014.- 20 iyun.- S. 6

РЕЗЮМЕ

ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ДОШКОЛЬНОГО ОБРАЗОВАНИЯ

Баширов В.П., Махмудов А.К.
Ленкоранский государственный университет

В статье отмечены современные парадигмы дошкольного образования.Выявлены методы и пути совершенствования теоретический и практический педагогического процесса.

SUMMARY

DEVELOPMENT PERSPECTIVES OF PRESCHOOL EDUCATION

Bashirov V.P., Mahmudov A.K.
Lenkoran State University

The thesis notes modern paradigms (examples) of preschool education. Methods and ways to improve theoretical and practical activities in the practice of the pedagogical process have been identified.

SƏRİŞTƏLİ MÜƏLLİM HAZIRLIĞI VƏ TƏHSİL SAHƏSİNDƏ MÖVCUD OLAN PROBLEMLƏRİN ARADAN QALDIRILMASI

Yunusova Şölə Əsəd qızı
Sumqayıt Dövlət Universiteti, filologiya üzrə fəlsəfə doktoru, dosent
yunusovashole@gmail.com

Açar sözlər: *təhsil sistemi, peşəkarlıq, şəxsiyyət, təhsil sahəsində olan problemlər, pedaqoji fəaliyyət, müasir təlim texnologiyaları, müəllim hazırlığı*

"Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir" (ümummilli lider Heydər Əliyev).

Hər bir dövlətin gələcəyi, qüdrəti, iqtisadiyyatının inkişafı, müstəqilliyi onun qabaqcıl texnologiyalara əsaslanan təhsil sisteminin yaradılması, təlim və tərbiyə prosesinin səmərəliliyinin yüksəldilməsi ilə şərtlənir. Təhsil islahatlarının əsas məqsədi qabaqcıl texnologiyaların, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkənin sosial-iqtisadi həyatına tətbiqi, təlim və tərbiyə prosesinin səmərəliliyinin yüksəldilməsi, milli və bəşəri dəyərlərə yiyələnən, yaradıcı və tənqidi düşünməyi bacaran şəxsiyyətlərin yetişdirilməsi ilə bağlıdır. Bu başlıca vəzifədən irəli gələn məsələlərin həyata keçirilməsi səriştəli müəllim kadrlarının hazırlığı ilə sıx bağlıdır və müasir dövrdə xüsusi əhəmiyyət kəsb edir.

Səriştəli müəllim qloballaşan dünyamızda durmadan artan informasiya axınını, cəmiyyətdə baş verən ictimai prosesləri izləməli və cəmiyyəti daha işıqlı, daha xoşbəxt günlərə apara bilən nəsillər yetişdirib tərbiyə etməlidir. "Müəllim təkcə bilik vermir, o, istiqamət verir, idarə edir, tərbiyəvi keyfiyyətlər aşılayır. Buna görə də o, bir tərəfdən öyrədən, tərbiyə edəndir, digər tərəfdən isə bunlar üçün özü bir çox keyfiyyətlərə malik olmalıdır" [5, s.42]

Hər bir müəllim öz pedaqoji fəaliyyətində Vətənin qüdrətlənməsi və inkişafı naminə çalışmalı, öyrənənlərə qarşı münasibətində həmfikirlik və eyni zamanda tələbkarlıq göstərməli, demokratizm prinsipinə riayət edərək təhsil alanların hüquqlarını, bərabərliklərini təmin etməli, onların şəxsiyyət kimi formalaşmasına önəm verməli və fəaliyyəti müddətində fədakararlıq göstərərək nəticələr əldə etməyə nail olmalıdır.

"Səriştəlilik – müəllimin pedaqoji prosesi məharətlə, daha əlverişli metodlarla həyata keçirə bilməsidir. Əldə olunmuş bilik və bacarıqları praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir. Səriştəyə əsaslanan təhsil sosial-iqtisadi inkişafa daha effektli xidmət göstərir" [2].

Müəllim üçün vacib olan və bir-biri ilə qarşılıqlı əlaqədə olan peşəkarlıq və səriştəlilik pedaqoji prosesin tamlığını təmin edir, müəllimin öz işində novator kimi fəaliyyət göstərməsinə, gənc nəslin qabaqcıl dünyagörüşə malik bir şəxsiyyət kimi yetişdirilməsinə kömək edir. Peşəkarlıq – müəllimin lazımi biliyə, bacarıqlara, şagirdlərlə yaradıcı şəkildə işləyə bilmək texnologiyalarına sahib olması, pedaqoji prosesin incəliklərinə dərindən yiyələnməsidir." [5, s.17-18].

Yüksək ixtisaslı, peşəkar və səriştəli müəllim hazırlığında ali məktəblərdə tələbələrin pedaqoji təcrübəsinin çox böyük əhəmiyyəti var. Odur ki, pedaqoji təcrübələrin müasir tələblərə uyğun təşkil olunmasına diqqət yetirmək, pedaqoji təcrübə müddətini artırmaq, gələcək müəllimlərdə öz sənətinə uyğun praktiki vərdişlərin əldə edilməsi üçün fəallığın inkişaf etdirilməsini gücləndirmək, yeni təlim metodlarından, informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə müasir təlim proseini yaratmaq və nəticədə təhsilin keyfiyyətinin yüksəldilməsinə nail olmaq böyük əhəmiyyət kəsb edir. Müasir təlim texnologiyalarından istifadə, təhsilin humanistləşdirilməsi, yeni təhsil paradiqmalarının yaranması, şəxsiyyətyönümlü təhsilin inkişaf etdirilməsi, dünya təhsil standartlarına keçid, təhsildə qloballaşma siyasəti, təhsil kurikulumlarının yaranması və s. kimi yeniliklər bunları reallaşdırmağa qabil olan yeni pedaqoji təfəkkürə malik olan usta müəllimlər tələb edir [4].

Yaradıcı işləmək qabiliyyətinə malik olan pedaqoji kadrların öz işlərini səmərəli, kefiyyətli təşkil etmələri üçün təhsil müəssisələrində pedaqoji şərait yaradılmalı, pedaqoji proses daha da təkmilləşdirilməli, idarəetmə sistemi yenidən qurulmalıdır. Təhsilin keyfiyyəti tədris prosesini müasir dövrün tələblərinə uyğun təşkil edən müəllimin peşəkarlıq səviyyəsindən və peşəsini ürəkdən sevməsindən asılıdır. Müasir şəraitdə sosial dialoq aparmaq bacarığı, sosial tərəfdaşlığın təmin edilməsi və s. kimi tələbatların artması səbəbindən müəllim öz fəaliyyətini sinif otağı ilə məhdudlaşdırmamalı, peşəkarlıq səviyyəsinin yüksəldilməsinə çalışmalı, qabaqcıl Avropa və Amerika təhsil sistemində əhəmiyyət kəsb edən yenilikləri əldə edib öz

dərslərində tətbiq etməlidir. “Müəllim nə qədər ki, oxuyur, öyrənir, o yaşayır, o, oxumağı dayandırdıqda ondakı müəllimlik ölür” (K. D. Uşinski).

Təlim sonsuz, bitməyən bir prosesdir və bu təhsil verənlərə öz bacarıqlarını daim təkmilləşdirməyə, işlərində daha peşəkar olmağa kömək edir. Biliklərə əsaslanan cəmiyyətin problemlərini aradan qaldırmaq üçün tələbələrin ehtiyaclarına uyğun yeni öyrənmə strategiyalarını tapmaq, bacarıqlarını artırmaq və nümayiş etdirmək, peşəkarlığını inkişaf etdirmək müəllimlərin əsas vəzifələrindən hesab olunur.

Yaxşı bir müəllim olmaq üçün lazım olan əsas şərtlər bunlardır:

- Seçdikləri peşələri sevmək, ixtisaslarına uyğun biliklərə yiyələnmək, şagirdləri tədris prosesinə cəlb etmək və ruhlandırmaq;
- Şagirdlər və onların valideynləri ilə ünsiyyətqurma qabiliyyətini formalaşdırmaq;
- Tədris etdikləri mövzuları anlaşılan şəkildə çatdıra bilmək, ünsiyyət vərdişlərini inkişaf etdirmək;
- Mükəmməl təşkilati bacarıqlara malik olmaq;
- Yenilikləri təkmilləşdirmək, iş prosesində tətbiq etmək;
- Səbirli və dürüst olmaq, münaqişələrin öhdəsindən gəlmək, hər bir hərəkətdə, davranışda və danışıqda şagirdlərə nümunə göstərmək.

Təhsilin səmərəliliyinin artırılması və keyfiyyətinin yüksəldilməsi təhsil işçilərinin əsas vəzifəsi olduğu üçün dövlətimiz təhsilə, onun dövrün tələblərinə uyğun təkmilləşdirilməsinə, müəllim kadrlarının hazrlanmasına, müəllim şəxsiyyətinə xüsusi diqqət və qayğı göstərir. Təhsilin bütün səviyyələrində köklü dəyişikliklər aparılır, yeni tələblərə əsaslanan struktur, məzmun və idarəetmə mexanizmləri formalaşdırılır.

Təhsil sistemində informasiya mühitinin inkişaf etdirilməsi, fəal-interaktiv təlim metodlarının tətbiq edilməsi, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, attestasiyası və sertifikatlaşdırılması, keyfiyyətin təminatı sisteminin yaradılması istiqamətində işlərin aparılması, müəllimlərin əmək haqlarının artırılması və həyat səviyyəsinin yüksəldilməsi, onların öz peşələrinə tam bağlanaraq maddi rifah hallarını yaxşılaşdırması təhsil sahəsində mövcud olan problemlərin aradan qaldırılmasına imkan yaradır.

Müəllim hazırlığının məzmunu təhsil sahəsində dövlət siyasətini və təhsil sisteminin islahatını təyin edən humanistlik, demokratiklik, bərabər şərait, millilik, dünyəvilik, keyfiyyətlilik, səmərəlilik, fasiləsizlik meyarları gözlənilməklə şəxsiyyətyönümlülük, fundamentallıq, universallıq, inteqrativlik, variativlik, çeviklik, elmilik, praktiklik, müasirlik, şəffaflıq, fərdiləşdirmə, varislik, alternativlik və rəqabət kimi əsas prinsiplərlə müəyyən edilir [11].

Ədəbiyyat

1. «Azərbaycan Respublikasının ali təhsil müəssələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. «Azərbaycan» qəzeti, Bakı, 2008.
2. Azərbaycan Respublikasında təhsil üzrə Dövlət Strategiyası. Bakı, 2013.
3. Firədun İbrahimov, Rüfət Hüseynzadə. Pedaqogika: 2 cilddə. I cild. Bakı: Mütərcim, 2012, 706 s.
4. İlyasov M.İ. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2013, 216 s.
5. M.İ. İlyasov. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. Bakı: “Elm və təhsil”, 2018, 208 s
6. Nəzərov A., Məmmədov R. Pedaqoji ustalıq. Bakı: Müəllim, 2008.
7. https://www.researchgate.net/publication/341902530_Characteristics_of_organizing_the_educational_process_in_preschool_educational_institutions
8. http://elibrary.bsu.edu.az/files/books_rax/N_211.pdf
9. http://genderi.org/museyib-ilyasov-muellimin-pedaqoji-ustalg.html?page=2
10. www.prospects.ac.uk/jobs-and-work-experience/job-sectors/teacher-training-and-education/how-to-become-a-teacher
11. http://www.e-qanun.az/framework/13540

РЕЗЮМЕ
ПОДГОТОВКА КОМПЕТЕНТНОГО ПРЕПОДОВАТЕЛЯ И УСТРАНЕНИЕ СУЩЕСТВУЮЩИХ ПРОБЛЕМ В ОБЛАСТИ ОБРАЗОВАНИЯ

Юнусова Ш. А.

Сумгаитский государственный университет

Будущее, экономическое развитие и независимость каждого государства связаны с созданием системы образования, основанной на передовых технологиях и повышении эффективности процесса обучения и воспитания. Качество образования зависит от уровня профессионализма преподавателя,

который организует учебный процесс в соответствии с требованиями современности. Обучение - это бесконечный процесс, который помогает преподавателям совершенствовать свои навыки и становиться более профессиональными в своей работе. Применение активно - интерактивных методов обучения в систему образования способствует устранению существующих проблем в сфере образования и повышению профессионального уровня педагогов.

Ключевые слова: *система образования, профессионализм, личность, проблемы в сфере образования, педагогическая деятельность, современные технологии обучения, подготовка учителей*

SUMMARY

TRAINING OF COMPETENT TEACHER AND ELIMINATION OF EXISTING PROBLEMS IN THE FIELD OF EDUCATION

Yunusova Sh. A.

Sumqayit State University

The future, economic development and independence of each state are connected with the creation of an education system based on advanced technologies and increasing the efficiency of the training and education process. The quality of education depends on the level of professionalism of the teacher, who organizes the teaching process in accordance with the requirements of modern times. Training is an endless process, and helps educators to improve their skills and become more professional in their work. Application of active interactive training methods in the education system helps to eliminate existing problems in the field of education and improve the professional level of teachers.

Keywords: *education system, professionalism, personality, problems in the field of education, pedagogical activity, modern learning technologies, teacher training*

GƏLƏCƏK MÜƏLLİMİN PEŞƏKAR HAZIRLIĞINA SƏRİŞTƏ ƏSASLI YANAŞMA

Quliyeva Səbinə Mürsəl qızı

Mingəçevir Dövlət Universiteti, Pedaogika və psixologiya kafedrası, baş müəllim

a.s.n.a.quluyeva@mail.ru

Açar sözlər: *sərişta əsaslı yanaşma, sərişta, səriştȧlilik, innovativ fəaliyyət, innovasiya.*

Müasir dövrdə dünyada təhsilin inkişafının əsas istiqamətlərindən biri şəxsiyyətin inkişafı əsasında keyfiyyətin yüksəldilməsidir. Bu tendensiya əksər inkişaf etmiş ölkələr üçün xarakterikdir və yeni təhsil siyasətinin həyata keçirilməsinə dəstək olaraq bu ölkələrin müvafiq qanunvericilik aktları qəbul edirlər ki, bu da digər məsələlərlə yanaşı, müəllim hazırlığı sisteminin yenidən qurulması məsələlərini də əks etdirir.

2007-ci ildə qəbul edilən "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiyası və Strategiyası" [1] sənədində Azərbacan mülliminin hazırlığı sistemindəki mövcud vəziyyət təhlil edilmiş , problemlər və nöqsanlar aşkara çıxarılmışdı. Bununla əlaqədar müəllim peşəkarlığının yüksəldilməsi prioritet məsələ kimi dövlət siasətinin əsas hədəfini təşkil edir.

Ölkə prezidenti İlham Əliyev tərəfindən 24 oktyabr 2013-cü ildə qəbul etdiyi Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının məqsədi ölkədə Avropa standartlarına uyğun, təkmil təhsil sistemi yaratmaqdır. Bu məqsəddən irəli gələn səriştȧli müəlliməllimlərin hazırlanması, peşə hazırlılarının müasir tələblərə müvafiq təkmilləşdirilməsi, təhsilin məzmununun dövlətin, cəmiyyətin, itisadi inkişafın tələblərinə uğun qurulması xüsusi yer tutur [2].

Müasir peşəkar təhsilinin əsas məqsədi aşağıdakılardır:

• əmək bazarında rəqabətqabiliyyətli, səriştȧli, məsuliyyətli, dünya standartları səviyyəsində səmərəli fəaliyyət göstərməyə qadir olan, davamlı peşəkar yüksəlişə hazır olan ixtisaslı mütəxəssislərin hazırlanması;

• təhsil prosesində fərdin, cəmiyyətin və dövlətin ehtiyaclarının ödənilməsi;

• müasir əmək bazarının tələblərinə cavab vermək [3].

Müasir dövrdə insanın yiyələnməli olduğu kompetensiyalar siyahısı 2006-cı ildə Avropa Şurası tərəfindən aşağıdakı kimi tədim edilmişdir:

1. Ana dilində ünsiyyət kompetensiyası
2. Xarici dillərdə ünsiyyət kompetensiyası

3. Riyazi savad, elm və texnologiyada kompetensiyalar
4. Kompüterdən istifadə kompetensiyası
5. Örənməyi öyrənmək kompetensiyası
6. Sosial və vətəndaşlıq kompetensiyası
7. Təşəbbüskarlıq və sahibkarlıq kompetensiyası
8. Mədəni məlumatlılıq və özünü ifadə etmək kompetensiyası

Yuxarıda göstərilənlər şəriştəli təhsilverənlərin hazırlanmasını aktual edir.

Səriştə əldə olunmuş bilik və bacarıları praktik fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək bacarığıdır. O, şəxsin qazandığı bilik, bacarıqların konkret fəaliyyətin nəticəsinə çevrilməsini təmin edir. Səriştəyə əsaslanan təhsil sosial-itisadi inkişafa daha effektli təsir göstərir.

Səriştəli yanaşmada iki əsas termindən istifadə edilir: "səriştə" və "səriştəlilik". Bu anlayışların düzgün anlaşılması nəzərdə tutulan anaşmanı məqsədəmüvafiq şəkildə həyata keçirməyə imkan verir.

"Səriştə" termininin mənşəyi artıq onların mahiyyətinin izahını verir: səriştəli (lat.) – münasib, bacarıqlı; Competere - tələb etmək, uyğun gəlmək, uyğun olmaq; kompetensiya (ingilis dili) - bacarıq (səriştə).

Ən ümumiləşdirilmiş mənada səriştələr məzunların gözlənilən və ölçülə bilən spesifik nailiyyətləridir ki, bu da məzunun təhsil proqramının hamısını və ya bir hissəsini başa vurduqdan sonra nə edə biləcəyini müəyyən edir [1].

Səriştəlilik insanın biliyə və təcrübəyə əsaslanan fəaliyyətində, müvafiq səriştəyə malik olmasında, o cümlədən ona və fəaliyyət subyektinə münasibətdə təzahür edən şəxsi keyfiyyət kimi müəyyən edilir.

Ümumiyyətlə, peşə səriştəsi insanın peşəkar fəaliyyətə hazır olması və bacarığında təzahür edən keyfiyyət kimi başa düşülür.

Fikrimizcə, müəllimin pedaqoji səriştəsi pedaqoji fəaliyyətin, pedaqoji ünsiyyətin kifayət qədər yüksək səviyyədə həyata keçirildiyi, müəllimin şəxsiyyətinin reallaşdığı, məktəblilərin təlim və tərbiyəsində yaxşı nəticələrin əldə olunması ilə nəticələnən pedaqoji işdir.

Gələcək müəllimin peşə hazırlığına səriştə əsaslı yanaşmanın strukturuna aşağıdakı komponentlər daxildir:

• kommunikativ kompetensiya - müəllimin dialoq zamanı həmsöhbət haqqında lazımi məlumatları (onun təhsili, tərbiyə səviyyəsi, kommunikativ mədəniyyətinin xarakteri və xüsusiyyətləri və s.) almaq, onu dinləmək və anlamaq bacarığıdır. Deyilənləri başa düşmək, digər insanların mövqe müxtəlifliyinə və dəyərlərinə (dini, etnik, peşəkar, şəxsi və s.) hörmət bəsləyərək dialoq və nitqində sivil şəkildə öz baxışını ifadə və müdafiə etmək;

• etik kompetensiyaya nəzəri biliklərin, etika sahəsində praktiki bacarıqların və şəxsi keyfiyyətlərin müəyyən məcmusunun inteqrasiyasına əsaslanan kompleks fərdi psixoloji təhsildir;

• informasiya kompetensiyasına özü haqqında, təhsilalanlar və onların valideynləri haqqında, digər müəllimlərin iş təcrübəsi haqqında məlumatların (biliklərin) həcmi daxildir.

İnformasiya səriştəsi anlayışı məlumatı qəbul etmək, onu emal etmək, özü və digər istifadəçilər üçün əlverişli formada təqdim etmək, alınan məlumatı başa düşdüünü nümayiş etdirmək, qeyri-müəyyən şəraitində nəticə çıxarmaq və qərarlar qəbul etmək bacarıqları ilə əlaqələndirilir. Öz növbəsində, kompüter səriştəsi tələbənin alınan məlumatın emalı üçün müxtəlif proqram vasitələrindən istifadə etməyə hazırlığını müəyyən edir;

• təlim-tərbiyə səriştəsi:

1. məqsəd qoymaq və ona nail olmağı təşkil etmək və izah etmək bacarığı;

2. özünün təhsil və idrak fəaliyyətinin planlaşdırılmağı, təhlil, refleksiya, özünüqiymətləndirməni təşkil etmək bacarığı;

3. müşahidə olunan faktlara sual vermək, hadisələrin səbəblərini tapmaq, tədqiq olunan problemlə bağlı öz yanaşmasını tədim etmək bacarığı;

4. koqnitiv tapşırıqlar qoymaq və fərziyyələr irəli sürmək bacarığı; müşahidə və ya təcrübə aparmaq üçün şərtləri seçmək; zəruri alət və avadanlıqları seçmək, ölçmə vərdişlərinə malik olmaq, təlimatlarla işləmək; idrakın ehtimal və statistik üsulların elementlərindən istifadə etmək; nəticələri təsvir etmək və nəticə çıxarmaq;

5. kompüter alətləri və texnologiyalarından (mətn və qrafik redaktorlar, təqdimatlar) istifadə etməklə apardıqları tədqiqatların nəticələri barədə şifahi və yazılı təqdimatlar etməyi bacarmaq.

Müəllim xassələrin, xüsusiyyətlərin və keyfiyyətlərin məcmusu kimi qəbul edilə bilməz. Bir qayda olaraq, xassələr toplusu vahid bir bütövlükdə görünürsə, o, bir şəxs və peşəkar ola bilər. Bunun əsasında aşağıdakılar dayanır:

• sosial, koqnitiv və peşəkar-pedaqoji oriyentasiyanı təmin edən motivasiya sferası;

• peşəkar bacarıqlara yiyələnmə prosesində baş verən mütəxəssis şəxsiyyətinin inkişafı.

Ölkədə iqtisadiyyat və təhsil sahəsinə innovativ yanaşma pedaqoji peşə təhsili sistemində məzunların hazırlığının keyfiyyətinin təmin edilməsində ciddi dəyişikliklər tələb edir. Hazırda araşdırmalar göstərir ki, gənclərin peşə hazırlığının qurulmasına yönəldilən yanaşmaların müasirləşdirilməsinə xüsusi diqqət yetirilməlidir.

Sərişt əlilik universitetin məzununun xeyli həcmli bilik və təcrübəsinin olması ilə yanaşı, yığılmış bilik və bacarıqları lazımi anda aktuallaşdırmaq və peşəkar funksiyalarının həyata keçirilməsi prosesində istifadə etmək bacarığını da nəzərdə tutur. Şəriştəlilik universitet məzununun kifayət qədər bilik və təcrübəyə malik olmasını deyil, daha çox toplanmış bilik və bacarıqları zəruri vaxtda yeniləmək və onlardan öz peşə funksiyalarının həyata keçirilməsi prosesində istifadə etmək bacarığını nəzərdə tutur. Beləliklə, sərişt əlilik təhsildə əsas innovasiyaya çevrilir. Ali pedaqoji təhsil müəssisələrinin məzunlarında ünsiyyət, əməkdaşlı, didaktika, elmi-idraki, empatia, özünürefleksiya, təşkilatçılıq və s. qabiliətlərin formalaşdırılması mühüm vəzifə hesab edilməlidir. Müəllimlərin peşəkarlığını artımadan təhsil sahəsində uğurlu nailiyyətlər əldə etmək mümkün deyil. Daim yeni biliklər əldə etmək həvəsi,öyrənmək və özünü təkmilləşdirmək səyləri, mənəvi inkişafmüəllimin əsas xüsusiyyəti olmalıdır.

Beləliklə, müasir şəraitdə gələcək müəllimin peşəkar sərişt əsi müəllimin şəxsi və peşəkar inkişafının motivasiyasını nəzərdə tutan və onun yüksək nəzəri-metodoloji, psixoloji-pedaqoji, metodik və metodoloji biliklərinin yüksək səviyyəsini əhatə edən şəxsi təhsilin inteqrativ səviyyəsidir. Eyni zamanda, gələcək müəllimin peşəkar sərişt əsinin inkişaf dinamikası onun reproduktiv performansının dəyişərək yaradıcı fəaliyyətlə əvəz olması və sərişt ələrin komponentlərinin uyğunlaşdırılması və mürəkkəbləşməsi ilə müəyyən edilir.

Dünanın təhsil tarixində həmişə humanist bir missiyanı həyata keçirən məktəbin nümunəvi fəaliyyəti ilk növbədə müəllim hazırlığı ilə, sərişt əli müəllim ilə şərtlənmişdir. Nə qədər yaxşı texnika, İKT, yeni pedaqoi texnologiyayalar, distant təhsil, innovasiyalar olsa da müəllim nüfuzunu, müəlliməməyini, yaradici fəliyətini, sərişt əsini əvəz edə bilməz.

Ədəbiyyat

1. Azərbayan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiyası və Strategiyası. “Azərbaycan müəllimi” qəz, 2006, 17 fevral
2. Azərbayan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası, . “Azərbaycan müəllimi” qəz, 2014, 28 oktyabr
3. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür, ideyalar, prinsiplər, problemlər. Psixoloi araşdırmalar, Bakı, Adiloğlu, 2001, 162 səh

РЕЗЮМЕ

КОМПЕТЕНТНОСТНЫЙ ПОДХОД К ПОДГОТОВКЕ БУДУЩЕГО УЧИТЕЛЯ

Гулиева С.М.

Мингечевирский государственный университет

В данной статье разъяснено основное понятие «компетентность», связанное с понятием «компетенция». Дается педагогико-психологическая трактовка этих понятий, раскрываются структура и содержание компетентностного подхода в подготовке будущих учителей к инновационной деятельности. Объяснено значение компетентностного подхода к профессиональной подготовке будущих педагогов, структура и сущность входящих в него понятий коммуникативной компетентности, этической компетентности, информационной компетентности, учебной компетентности. В то же время в статье приведен перечень компетенций, определенных Советом Европы в 2006 году.

Ключевые слова: *компетентностный подход, компетенция, компетентность, инновационная деятельность, инновация.*

SUMMARY
COMPETENCE-BASED APPROACH TO FUTURE TEACHER TRAINING
Guliyeva S.M.
Mingachevir State University

This article explains the basic concept of "competent" associated with the concept of "competence". The pedagogical and psychological interpretation of these concepts is given, the structure and content of the competence-based approach in preparing future teachers for innovative activities are revealed. The significance of the competence-based approach to the professional training of future teachers, the structure and essence of the concepts of communicative competence, ethical competence, informational competence, and educational competence included in it are explained. At the same time, the article provides a list of competencies defined by the Council of Europe in 2006.
Keywords: *competency-based approach, competence, competence, innovative activity, innovation.*

AZƏRBAYCANDA PEDAQOJİ KADR HAZIRLIĞI STRATEGİYASININ HƏYATA KEÇİRİLMƏSİ MİLLİ-MƏNƏVİ VƏ BƏŞƏRİ DƏYƏRLƏR KONTEKSTİNDƏ

Əliyev Afiq Xanoğlan oğlu
Lənkəran Dövlət Universiteti, "Pedaqogika, psixologiya və incəsənət fənləri" kafedrasının müdiri
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
qi.afiq1958@gmail.com

Açar sözlər: *pedaqoji kadr, səriştəlilik, milli-mənəvi, bəşəri dəyərlər.*

Azərbaycan müstəqillik əldə etdikdən sonra cəmiyyətimizin demokratikləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər, təhsil sahəsində başlanan islahatlar mütərəqqi ideyaların meydana çıxmasına, beynəlxalq standartlara uyğun pedaqoji təcrübənin öyrənilməsinə, təhsilin məzmununun yeniləşməsinə geniş meydan açdı. Keçmiş sovetlər məkanında mövcud olan inzibati-amirlik iş metodlarından uzaqlaşmaq sayəsində, yeni didaktik sistemin üzə çıxması, yeni milli tərbiyə nəzəriyyəsinin yaranması, yeni məktəbi idarəetmə sisteminin formalaşması sahəsində əsaslı dönüş yararandı.

Respublikamız müstəqillik əldə etdikdən sonra bir çox sahələrdə olduğu kimi təhsil sahəsində də bir sıra islahatlar aparılmış, təhsilin keyfiyyətinin yüksəldilməsi üçün onun məzmununda bir sıra yeniliklər edilmiş, cəmiyyətin sosial sifarişlərinin, ehtiyac və tələbatlarının ödənilməsi məqsədi ilə çoxlu sayda yeni tipli təhsil müəssisələri tikilib istifadəyə verilmişdir. Hər bir inkişaf etmiş ölkədə təhsilin keyfiyyətinin yüksəldilməsinin əsas və başlıca yolu müasir pedaqoji texnologiyalara, ixtisas üzrə intellektual səviyyəyə, milli-mənəvi və bəşəri dəyərlərə malik keyfiyyətli müəllim hazırlığından və məhz həmin səviyyəyə malik olan kadrların pedaqoji prosesin idarə olunmasına cəlb olunmasından keçir. Azərbaycan Respublikasının Təhsil Qanununda qeyd olunur: "Milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq" təhsilimizin əsas məqsədlərindən biridir [3]. Lakin bu heç də gizli deyil ki, hazırda pedaqoji kadr hazırlığı işini həyata keçirən ali və orta ixtisas təhsili müəssisələrində müasir standartlara uyğun qabiliyyətlərin formalaşdırılmasından, pedaqoji sahədə praktik peşə hazırlığının inkişaf etdirilməsindən daha çox, nəzəri səpgidə biliklərin verilməsinə üstünlük verilir. Belə ki, ali və orta ixtisas təhsili sistemində ən ciddi problemlərdən biri keyfiyyətli müəllim hazırlığı ilə bağlıdır. Son onillikdə pedaqoji yönümlü ali və orta ixtisas təhsili müəssisələrimizdə müəllim hazırlığı işinin məzmunu və keyfiyyəti sahəsində ciddi addımlar atılmaqdadır. Bu həm tədris planı və proqramlarının tərtib edilməsində, həm dərsliklərin və dərs vəsaitlərinin yazılmasında, həm gələcək müəllimlərin pedaqoji texnologiyalar sahəsində ən zəruri kompetensiyalara malik olmasında, həm də tədris prosesinin aparıcı subyekti kimi mövcud müəllimlərin özlərinin pedaqoji-psixoloji hazırlıq səviyyəsini inkişaf etdirməsi üçün müxtəlif layihələrə qoşulmasında aydın şəkildə görünür. Bu problemin sistemli şəkildə yerinə yetirilməsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 iyun tarixli, 102 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası" proqram xarakterli sənəd kimi mühüm əhəmiyyət kəsb

edir. Həmin sənəddə keyfiyyətli müəllim hazırlığı sisteminin formalaşdırılması və tətbiqi üçün vacib olan altı əsas strateji fəaliyyət istiqaməti müəyyən edilmişdir:

1. Müəllim hazırlığı kurikulumunun keyfiyyəti.
2. Müəllimlərin hazırlanması və təhsil sisteminin müəllimlərlə təmin edilməsi;
3. Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı müəssisələrinin təşkilati strukturu və funksiyaları;
4. Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığında monitorinq və keyfiyyətin təminatı;
5. Müəllimlərin hazırlanmasının və təkmilləşdirilməsinin həyata keçirilməsi modelləri;
6. Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sisteminin idarə olunması [1].

Qeyd edilən strateji fəaliyyət istiqamətləri dairəsində məqsədyönlü addımlar atıldığını və əsaslı işlər görüldüyünü vurğulamaqla qeyd etmək istərdik ki, müəllim hazırlığında keyfiyyətin təminatı, müəllimlərin hazırlanması və təkmilləşdirilməsinin həyata keçirilməsi modelləri, müəllim hazırlığı sisteminin idarə olunması və menecer hazırlığı istiqamətlərində müəyyən addımlar atılsa da, bu sahədə həll edilməsi vacib olan problemlər qalmaqdadır. Bununla əlaqədar vacib hesab etdiyimiz aşağıdakı kriteriyaların nəzərə alınması pedaqoji kadrların milli və bəşəri dəyərlərə nail olunmasını təmin edər:

- Müəllimlik peşəsinə aid ixtisas qruplarına təsadüfi gələn, uşaqlara və bu peşəyə məhəbbəti olmayan abituriyentlərin düzgün ixtisas seçimi etməsi mexanizminin işlənib hazırlanması və bu məqsədlə müvafiq peşə professioqramının tətbiq edilməsi;
- Gələcək müəllimlərin peşəkarlıq səviyyəsinin, praktik hazırlıqlarının və idarəetmə bacarıqlarının artırılmasında pedaqoji kadr hazırlayan təhsil müəssisələrində pedaqogika, psixologiya və metodika fənlərinin tədrisinin mühüm rol oynadığını nəzərə alaraq, həmin fənlərin məzmununun və tədrisi səviyyəsinin yüksəldilməsi;
- Pedaqoji təcrübəyə yüksək pedaqoji qabiliyyətə, metodik hazırlığa malik, pedaqoji səriştəsi olan müəllimlərin cəlb olunması;
- Məktəbdə İnformasiya Kommunikasiya Texnologiyaları üzrə maddi-texniki bazanın müasir tələblər səviyyəsinə uyğun işlək halda idarə olunması;
- Məktəb-valideyn-məktəbdənkənar təhsil müəssisələri arasında sosial pedaqoji əlaqələrin inkişaf etdirilməsi istiqamətində müasir formada daha işlək mexanizmlərin tətbiqi.

Bununla yanaşı qeyd etmək lazımdır ki, ali və orta ixtisas təhsili müəssisələrində pedaqoji kadr hazırlığı strategiyasının milli və bəşəri dəyərlər əsasında həyata keçrilməsi yaşadığımız dövrün sosial-mədəni tələblərindən irəli gəlir. Bu zaman bir sıra şərtlərin nəzərə alınması strateji fəaliyyət istiqamətlərinin daha səmərəli nəticəyönümlüyünü təmin etmiş olar:

- Milli-mənəvi dəyərlərə malik keyfiyyətli pedaqoji kadr hazırlığının prioritet sahə kimi qəbul olunması.
- Təhsil müəssisələrində demokratik pedaqoji idarəetmənin üstünlük təşkil etməsi;
- Pedaqoji sistemin bütün subyektləri arasında qarşılıqlı əməkdaşlıq mühitinin üstünlük təşkil etməsi;
- Pedaqoji sistem daxilində əlverişli psixoloji şəraitin və optimal tədris mühitinin olması;
- Pedaqoji sistemin tələbənin intellektual və mənəvi potensialının inkişafına yönəldilməsi;
- İdarəetmənin subyekti kimi tələbələrin milli-mənəvi və sosial-mədəni kompetensiyalara yiyələnməsi.

Pedaqoji kadrların hazırlanma səviyyəsi müəllimlərin praktik professional fəallıq səviyyəsi ilə dəyərləndirilir. Müəllim şəxsiyyətinin xarakteristikasının ən vacib əlamətlərindən biri olan professional fəallıq pedaqoji peşə hazırlığının nəticəsi və onun keyfiyyətinin mühüm şərti kimi özünü göstərir. Odur ki, pedaqoji kadr hazırlığı aparan ali və orta ixtisas təhsili müəssisələrində bütün tədris və idarəetmə işləri, bununla yanaşı müasir pedaqoji texnologiyalardan istifadə imkanları tələbələrdə professional fəallığın formalaşdırılmasına yönəldilməlidir. Hələ vaxtilə Ü.Hacıbəyov müəllimləri həqiqi mənada xalq üçün çalışanlar hesab edərək yazırdı ki: Müəllimlik işini təkcə dərs deməklə məhdudlaşdıranların əleyhinə olaraq, "təlimdən başqa, uşağın tərbiyəsi dəxi müəllimin öhdəsindədir"– deyən, "Ü.Hacıbəyov müəllimdən geniş tərbiyəvi iş aparmağı tələb edirdi [5, s.320].

Əsl müəllimin hər bir dərsi onun yaradıcılıq əsəridir, başqa sözlə desək, ürəkdə (hissdə, duyğuda), beyində (şüurda) bərqərar edilən abidəsidir. Pedaqoji prinsiplər, qaydalar, yollar bu abidə üçün kərpic, qum, gil və s. materiallardır. Abidənin davamlılığı, gözəlliyi, sərfəliliyi onun memarından–müəllimin istedadından, peşəsinə vurğunluğundan, ona ürəyinin qanını, duyğularını"qatmasından" asılıdır [4, s.57].

Ulu öndər Heydər Əliyevin və onun siyasi məktəbinin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü və ardıcıl dövlət siyasəti nəticəsində təhsil sahəsində aparılacaq islahatların vahid konsepsiyası, aydın stategiyası və konkret dövlət proqramı hazırlandı "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)", "Təhsil haqqında"

Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Məktəbəqədər, ümumi, texniki peşə, orta ixtisas və ali təhsil sahəsində mühüm addımlar atıldı.

Məktəblərin infrastrukturunun yeniləşdirilməsində Heydər Əliyev Fondunun və onun prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri vardır. Bununla yanaşı, təhsilin insan karitalının inkişafı çağırışlarına cavab verməsi üçün daha səmərəli və təsirli addımların atılmasına ehtiyac yarandı. Həmin ehtiyacların ödənilməsi üçün mövcud infrastrukturun təkmilləşdirilməsi, yeni təhsil-tərbiyə texnologiyasına, əxlaqi-mənəvi saflığa, yüksək peşə və ixtisas hazırlığına malik pedaqoji kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərancamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edildi [2].

Strategiyanın əsas məqsədi ölkədə sərişt əli təhsilverənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələri və əhəmiyyətinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemi yaratmaqdır. Azərbaycanın təhsil sisteminin iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun olması üçün 5 istiqamət müəyyənləşdirilmişdir:

1. Sərişt əyə əsaslanan şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması.
2. Təhsil sahəsində insan resurslarının müasirləşdirilməsi.
3. Təhsildə nəticələrə görə cavabdehlik, şəffaf və səmərəli idarəetmə müxanizminin yaradılması.
4. Ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması.
5. Təhsil sisteminin dünya standartlarına uyğun müəyyənləşdirilməsi [2].

Müəyyənləşdirilən bu istiqamətlərin həyata keçirilməsi akademik bacarığı, tədris təcrübəsi və peşəkarlıq səviyyəsi ilə fərqlənən keyfiyyətli müəllim kadrlarının hazırlanmasını, müəllim peşəsinin nüfuzunun yüksəldilməsini tələb edir. Bununla əlaqədar K.S.Stanislavskinin "teatr asılqandan başlayır" – məşhur kəlamı yada düşür. Keyfiyyətli və sərişt əli müəllim kadrlarının hazırlığının ilkin şərti pedaqoji peşəyə seçimin düzgün, obyektiv və şəffaf aparılmasından asılıdır. Bunun üçün isə ilk növbədə, pedaqoji peşə sahəsinə sənəd verən abituriyentlərin peşəyə yararlılıq səviyyəsi yoxlanılmalıdır.

Müəllimə verilən başlıca tələb onun peşə kompetensiyalarına malik olmasıdır. Müəllimin şəxsi keyfiyyətləri hesab olunan pedaqoji kompetensiyalar onun uşaqlara məhəbbətində, onlarla işləməkdən və ünsiyyətdə olmaqdan həzz almaqda özünü göstərir.

Ötən əsrin ikinci yarısından başlayan, müasir dövrdə həyəcan doğuracaq bir həddə çatmış məktəblərdə gedən feminizasiya prosesinin qarşısını almaq məqsədilə oğlanların müəllimlik peşəsini seçmələri üçün zəruri tədbirlərin görülməsi həyati zərurətdir. Feminizasiya effektlərini təhlil edən professor Əbdül Əlizadə oğlanların tərbiyəsində qadınların-evdə ananın, məktəbdə isə çoxluq təşkil edən qadın müəllimlərin daha fəal rol oynaması faktına diqqət cəlb edir: günün çox hissəsini qadınlarla ünsiyyət şəraitində keçirən oğlan uşaqları cox vaxt onların təkcə düşüncə tərzini götürmür, həm də məhz qadın meyarlarını mənimsəyir, başqa sözlə, dünyaya qadın gözüylə baxmağa başlayır [6, s.308]. Deməli, onda daha çox qadın xarakteri formalaşır. Xarakter insan şəxsiyyətinin mahiyyətini, istiqamətini, meylini, məqsədini, hisslərini, fəaliyyət tərzini ifadə edir. Xarakter insanın həyat yolundan, tərbiyəsindən və özünütərbiyəsindən asılı olaraq dəyişir. Qüvvətli və möhkəm xarakterin formalaşması təhsilverənlərin xarakterindən asılıdır. Əbəs yerə demirlər ki, xarakteri xarakter formalaşdırır.

Bu həqiqətdir ki, yüksək elmi-pedaqoji kadr potensialına, güclü maddi-texniki bazaya malik olmadan təhsilin keyfiyyətini Avropa standartları səviyyəsində təmin etmək real görünmür. Hesab edirik ki, ali təhsilin bakalavriat səviyyəsini bitirən məzunlardan müəllim işləmək istəyənlər ən azı bir il internatura keçməli, qabaqcıl müəllimlərin təcrübəsini öyrənməli, peşəkarlıq səviyyəsini, şagirdlərlə işləmək bacarığını mənimsəməlidir.

Bəzi ali təhsil müəssisələrinin yataqxanasının olmaması və ya onların müasir tələblərə cavab verməməsi ölkəmizdə təhsil almaq istəyən tələbələrin müvafiq təhsil müəssisələrində oxumalarına mane olur. Ali təhsil müəssisələri üçün yeni imkanların yaradılması, xüsusilə yataqxanalarla təmin olunması Boloniya prosesinin əsas tələblərindən biri olan tələbə mobilliyinin həyata keçirilməsinə kömək etmiş olardı. Bu baxımdan Lənkəran Dövlət Universitetinin təcrübəsi geniş şəkildə təqdir olunmalıdır. Qızlar üçün yataqxananın olması, cari tədris ilindən etibarən oğlanlar üçün yeni yataqxana binasının istifadəyə verilməsi, respublikamızın digər şəhərlərindən dərs demək üçün dəvət olunan müəllimlərin yaşayış mənzilləri ilə təmin olunması bu istiqamətdə atılan mütərəqqi addım kimi dəyərləndirilməlidir.

Millətin mənəvi potensialının formalaşması onların dərin və hərtərəfli biliyə, praktik bacarığa, yüksək mədəniyyətə, vətəndaş hazırlığına, milli və bəşəri dəyərlərə hansı səviyyədə malik olmalarından asılıdır. Müasir dövrdə cəmiyyətdə intensiv olaraq dəyişən dəyərlər sistemi və sosial-iqtisadi münasibətlər təhsil

sisteminin bu proseslərə dinamik adaptasiyasını tələb etdiyindən, ildən-ilə pedaqoji prosesin keyfiyyətini yüksəltmək müəllimlərdən təhsil prosesinə daha səriştəli yanaşma tələb edir.

Müasir məktəbin müəllimi yaradıcı olmalı, dərs dediyi şagirdin potensial imkanlarını görməyi bacarmalı, onların milli-mənəvi və bəşəri dəyərlərə malik vətəndaş-şəxsiyyət kimi formalaşmasını düzgün istiqamətləndirməlidir. Öz üzərinə düşən məsuliyyəti dərk edən, xalqın milli ənənələrinə, azərbaycançılıq ideyalarına, bəşəri dəyərlərə sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək üçün müəllim öyrənənlərin yaradıcı təfəkkürünə məxsus bütün psixo-pedaqoji xüsusiyyətləri bilməlidir.

Strategiyada nəzərdə tutulan strateji istiqamətlərin reallaşdırılması təhsilin məzmununun, milli-mənəvi və bəşəri dəyərlərə malik kadr hazırlığının, təhsili idarəetmə sisteminin və təhsil infrastrukturunun Azərbaycanın inkişaf konsepsiyasına və beynəlxalq təcrübəyə uyğun yenidən qurulmasını, ölkədə səriştəyə əsaslanan iqtisadiyyatın bərqərar olmasını təmin edəcəkdir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 iyun tarixli 102 nömrəli qərarı.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Azərbaycan məktəbi, 2013, № 5.
3. Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu. Bakı: Qanun, 2009.
4. Ağayev Ə.Ə. Seçilmiş pedaqoji əsərlər: 2 cilddə. I cild. Tərtib edən: A.X.Əliyev. Bakı: Mütərcim, 2011.
5. Əhmədov H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: ADPU, Elm və təhsil, 2014.
6. Əlizadə Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 2004.

РЕЗЮМЕ

РЕАЛИЗАЦИЯ СТРАТЕГИИ ПОДГОТОВКИ ПЕДАГОГИЧЕСКОЙ ПОДГОТОВКИ В АЗЕРБАЙДЖАНЕ В КОНТЕКСТЕ НАЦИОНАЛЬНО-ДУХОВНЫХ И ЧЕЛОВЕЧЕСКИХ ЦЕННОСТЕЙ

Алиев А. Х.

Ленкоранский государственный университет

В статье определены научные основы его экспериментально-методической базы, выявлены приоритетные направления реализации стратегии подготовки педагогов в контексте национально-нравственных и общечеловеческих ценностей. Особо подчеркивается актуальность практического применения структурных особенностей и оптимальных методов педагогической подготовки, а также механизма управления на основе формирования национально-нравственных и общечеловеческих ценностей у подрастающего поколения. Реализация этих стратегических направлений обеспечит создание содержания образования, подготовку кадров с национально-нравственными и общечеловеческими ценностями, инфраструктуры образования в стране, грамотную экономику и реконструкцию в соответствии с мировой практикой.

Ключевые слова: *педагогический коллектив, компетентность, национально-нравственные, общечеловеческие ценности*

SUMMARY

IMPLEMENTATION OF PEDAGOGICAL TRAINING TRAINING STRATEGY IN AZERBAIJAN IN THE CONTEXT OF NATIONAL-SPIRITUAL AND HUMAN VALUES

Aliyev A. Kh.

Lenkoran State University

The article identifies the scientific basis of its experimental and methodological base, identifying priority areas for the implementation of the strategy of teacher training in the context of national-moral and human values. It is especially emphasized that the practical application of the structural features and optimal methods of pedagogical training, as well as the management mechanism on the basis of the formation of national-moral and human values in the younger generation is vital. The implementation of these strategic directions will ensure the establishment of the content of education, training of personnel with national-moral and human values, education infrastructure in the country, a competent economy and reconstruction in accordance with international practice.

Keywords: *pedagogical staff, competence, national-moral, human values*

OPTİMAL İDARƏTMƏNİN ƏSAS PRİNSİPLƏRİNİN SƏCİYYƏSİ

Almasova Aytən Firudin qızı
Lənkəran Dövlət Universiteti, Magistr
aytenalmasova1998@gmail.com

Açar sözlər: *prinsip, optimal, müasir, təhsil, pedaqoji, innovasiya*

Sosial həyatın xüsusi sahələrindən biri də təhsildir. Konkret olaraq o milli, sosial, iqtisadi və mədəni dəyərlərə əsaslanır. Təhsilin keyfiyyəti və təhsil dairəsi isə peşəkar kadrlar tərəfindən idarə olunan səmərəli innovasiyalar sistemi hazırlamaqdan ibarətdir.

Müasir dövrdə bir sıra ictimai elmlərin, həmçinin, psixologiyanın diqqət mərkəzində olan və özünün tədqiqat predmetinə çevirdiyi problemlərdən bir də idarəetmə anlayışıdır.

XX əsrdə psixologiya elminə idarəetmə əmək və təhsil sferasını əhatə etməklə yanaşı həmçinin, xalq təsərrüfatının idarə olunması və əmək məhsuldarlığının səmərəliliyinin artırılması daxil edilmişdir. Bu isə psixologiya elmində nəzəri cəhətdən daha çox praktik fəaliyyətin təşkilindən irəli gəlir.

Bu gün idarəetmə prosesində müasir texnologiyalardan kompleks şəkildə istifadəyə ehtiyac yaranır. İdarəetmənin demokratik şəkildə həyata keçirilməsi üçün aşağıdakı optimal variantlardan istifadə oluna bilər:

-Təhsil sahəsində qarşıya qoyulmuş tələblərin müəyyən edilməsi;

-Mümkün şəraitin nəzərə alınması;

-Bir neçə məsələni özündə cəmləşdirən optimal variantın seçilməsi [1].

Məktəbdaxili idarəetmənin düzgün şəkildə aparılmasını məktəb rəhbərləri ilə müəllim, şagird, valideynlər və onlar arasında demokratik münasibətlərin inkişaf prosesi təşkil edir. Bu isə yaxın məqsəd sayılır. Demokratikləşdirmənin uzaq məqsədi isə mümkün vəziyyətdə məktəblilərin təhsili, tərbiyəsi və inkişafı üçün maksimum nəticələr əldə etmək və optimal pedaqoji prosesin təşkilini yaratmaqdan ibarətdir [1].

Məktəbdə pedaqoji fəaliyyətə başlayan hər bir gənc müəllimin üzv olduğu kollektivdə öz yerini tapması və səmərəli fəaliyyət göstərməsi üçün o, idarəetmə bacarığına yaxşı yiyələnməlidir. Çünki hər bir müəllim məktəb rəhbərləri, pedaqoji və şagird kollektivləri, valideynlər ilə sıx əlaqə şəraitində işləməli olur. Məktəbin idarəetmə fəaliyyətinə yaxşı bələd olmayan müəllim düzgün fəaliyyət göstərə bilməz. Həmçinin, müasir dövr məktəbin demokratikləşməsini müəllimin məktəb həyatına geniş cəlb olunmasını və ictimai fəallığını tələb edir. Bunun üçün gənc mütəxəssis öz fənnini şagirdlərə sevdirməklə yanaşı, məktəbi idarəetmənin praktik məsələlərini də həll etməyi bacarmalıdır. Araşdırmalara əsaslanaraq söyləmək olar ki, idarəetmə fəaliyyətinin daha effektiv şəkildə həyata keçirilməsi üçün nəzəri və tətbiqi məsələlər, həmçinin yeni təlim texnologiyaları və metodlarından düzgün şəkildə istifadə etməyi bacarmaq peşəkar səviyyədə olmalıdır [4].

İdarəetməni daha yaxşı formada həyata keçirmək üçün onun prinsiplərini bilmək və onlardan düzgün şəkildə istifadə etmək məqsədəuyğundur. Prinsip müvafiq qanunları özündə əks etdirən rəhbər ideyalar və tələblərə deyilir. İdarəetmə fəaliyyətində başlıca tələblərdən biri də idarəetmə prinsipləri sayılır. İdarəetmə prinsiplərini uyğun olaraq iki qrupa bölmək olar. Bunlara aşağıdakıları aid etmək olar: demokratiklik, humanistlik, bərabərlik, millilik, dünyəvilik, fasiləsizlik, varislik, inteqrasiya və s. prinsipləri aid etmək olar. Bütün təhsil sistemində olduğu kimi, eyni zamanda məktəblərin idarə edilməsində də bu prinsiplər əvəzedilməzdir.

Məktəbin idarə edilməsinin əsasında demokratikləşdirmə prinsipi dayanır və məktəb həyatının bütün sahələrində – rəhbərlikdə, ünsiyyət və münasibətlərdə, təlim-tərbiyə prosesinin və məktəbdaxili nəzarətin təşkilində həyata keçirilir.

Məktəbin idarə edilməsinin əsas prinsiplərinin tətbiq dairəsi olduqca genişdir və təzahür formalarına görə fərqlənir. Onlara aşağıdakıları aid etmək olar:

- Təhsilin dövlət və ictimai əsaslarla idarə edilməsi;
- Müəllim və şagirdlərin hüquq və azadlıqlarına hörmətlə yanaşılması;
- Rəhbərlikdə demokratik üslubun tətbiq edilməsi;

- Müəllim, valideyn və şagirdlərin məktəb həyatında fəal iştiraka cəlb olunması [4].

Humanistlik, bərabərlik, millilik və dünyəvilik, keyfiyyətlilik, səmərəlilik, fasiləsizlik, varislik, liberallaşma, inteqrasiya və s. məktəbi idarəetmənin birinci qrup prinsiplərinə aiddir.

Məktəbi idarəetmənin ikinci qrup prinsipləri təhsilin dövlət siyasətinin ümumi prinsiplərinə istinad edərək onların həyata keçirilməsi, məktəbdaxili idarəetmənin inkişaf etməsi və yeniləşməsinə xidmət göstərir. Həmin prinsiplərə aşağıdakıları aid edə bilərik:

1. İdarəetmədə dövlət və ictimai əsasların uzlaşdırılması prinsipi. Təhsil sisteminin idarə olunmasında, məktəbə rəhbərlikdə dövlət orqanlarının fəaliyyəti ilə ictimaiyyətin və ictimai özünüidarə orqanlarının fəaliyyətinin birgə əməkdaşlığını müəyyən edir. Dövlət və cəmiyyətin başlıca işi təlim, tərbiyə prosesi olduğu üçün ictimaiyyət təhsilin idarə olunması və təhsildə keyfiyyətin artırılmasında yaxından iştirak etməlidir. Məktəb dövlət müəssisəsi kimi deyil, dövlət- ictimai müəssisə kimi də fəaliyyət göstərməlidir.

2. İdarəetmədə kollegiallıqla təkrəhbərliyin uzlaşdırılması prinsipi. Məktəb təkbaşına idarə edilməməli, bu işə kollegial orqanlar və ictimai özünüidarə orqanları da cəlb edilməlidir. Bu zaman məktəb həyatında baş verən hər hansı bir problemə, situasiyaya rəhbərlik tək qərar vermir, o bu işə kollektivlə birgə qərar verir, onların fikirlərini nəzərə alır. Bu halda qərarların qəbulunda yalnız məktəb rəhbərinin şəxsi maraqları deyil, həmçinin, kollektivin maraqları da əsas hesab edilir. Nəticədə, qərar qəbulunda iştirak edən hər kəs məsuliyyət daşıyır.

3. İdarəetmədə məqsədyönlülük prinsipi. Bu prinsip məktəbə rəhbərliyi məqsədyönlü şəkildə qurmağı nəzərdə tutur, həmçinin, onun bütün fəaliyyətini, imkanlarını qarşıya qoyulmuş məqsədə çatmaq üçün yönləndirir. Məlum olduğu kimi, idarəetmə məqsədyönlü fəaliyyət prosesdir. Hər bir sahədə olduğu kimi, məktəbin idarə edilməsi də məqsəddən başlayır və onun nəticələnməsi ilə sonlanır. Məktəbə rəhbərliyin digər elementlərinə qarşıya qoyulmuş işin məzmunu, onun vasitə və metodlarının hazırlanmasını və s. misal göstərə bilərik.

4. Elmilik və nəzriyyə ilə praktikanın əlaqələndirilməsi prinsipi. Bu prinsipdə məktəbin idarə edilməsi elmi əsaslarda qurulur və elmi biliklərdən sistemli şəkildə istifadə etməklə elmləri əlaqələndirərək ondan yaradıcı şəkildə istifadə etməyi nəzərdə tutur. Elmilik prinsipi nəzəriyyə ilə praktikanın birliyinə əsaslanır. Məktəb rəhbərləri nəzəri bilikləri praktikaya tətbiq etməklə təlim-tərbiyə işini daha səmərəli qurmağa səy göstərməlidirlər.

5. Aşkarlıq və şəffaflıq prinsipi. Aşkarlıq prinsipində görülən bütün işlər aparılan yoxlamalar, müzakirələr və s. gizli şəkildə deyil, aşkar şəkildə olmalıdır, kollektivə vaxtında və düzgün məlumatlar çatdırılmalıdır. Şəffaflıq prinsipində isə məktəbin müxtəlif fəaliyyət sahələri, həmçinin, maliyyə-təsərrüfat sahələri cəmiyyətə aydın şəkildə bildirilir. Həmin işlər barədə hesabat və məlumatlar cəmiyyət üzvlərinə çatdırılır.

6. İdarəetmədə planlılıq, uçot və nəzarətin vəhdəti prinsipi. Bu prinsip idarəetmə prosesinin bütün səviyyələrini, həmçinin, məktəb işini planlaşdırmağı, onu təşkil etməyi və bu prosesə nəzarət edərək onun nəticələrini bütöv şəkildə qiymətləndirməyi müəyyən edir.

7. Optimallıq prinsipi. Bu prinsip idarəetmə sahəsində dəqiq şərait üçün ən uyğun, optimal variantlar seçilərək ən səmərəli nəticələr əldə olunmasıdır. Optimallaşdırmanın iki ümumi göstəricisi mövcuddur: Onun birinci göstəricisində müəyyən şərait üçün ən yüksək nəticələr əldə olunmalıdır. Digər göstəricidə isə bu nəticələrin əldə edilməsi üçün az vaxt, qüvvə və vəsait ayırmaqla nail olunur. Bu iki göstərici həyata keçirildikdən sonra idarəetmənin optimallığından danışıla bilər [4].

Qeyd olunan bu prinsiplərdən başqa, pedaqoji ədəbiyyatda məktəbi idarə etmək üçün digər prinsiplər də göstərilmişdir: idarəetmədə dəqiqlik, çeviklik, prinsipiallıq, məsuliyyət, son nəticəyə istiqamətlənmə, konkretlik prinsipləri və s. Bu prinsiplərə əməl edilməsi idarəetməni peşəkar səviyyədə, müasir tələblərə uyğun formada həyata keçirməyə xidmət edir.

Ədəbiyyat

1. Məmmədzadə R., Abdullayev A., Kərimova F. və b. Təhsilin idarə edilməsinin bəzi priblemləri. Bakı, 2008.
2. İbrahimov F. N., Hüseynzadə R. L. Pedoqogika, I cild. Bakı, 2012.
3. Kəlbəliyev Ə. A., Təhsili idarəetmənin əsasları (Məktəbşünaslıq). Bakı, 2006.
4. İsmixanov M., Bəxtiyarova R. Məktəbin idarə edilməsi. Bakı, 2012.

РЕЗЮМЕ
ХАРАКТЕРИСТИКА ОСНОВНЫХ ПРИНЦИПОВ ОПТИМАЛЬНОГО УПРАВЛЕНИЯ
Алмасова А.Ф.
Ленкоранский государственный университет

В статье рассматриваются основные принципы оптимального управления школой и пути эффективного подхода к ним. Демократия, управление, гуманизм, ответственность, равенство, интеграция, единство, преемственность, либерализация, преемственность, постоянство и т. д. необходимы руководителям школ для реализации оптимального управления. Создание образовательных учреждений на принципах создает условия для более целенаправленного совершенствования деятельности, а также выбора оптимального варианта как для обучающихся, так и для педагогов, работающих в сфере образования.
Ключевые слова: *принцип, оптимальный, современный, образования, педагогический, инновационный*

SUMMARY
CHARACTERISTICS OF BASIC PRINCIPLES OF OPTIMAL MANAGEMENT
Almasova A. F.
Lenkoran State University

The article discusses the basic principles of optimal school management and ways to approach them effectively. Democracy, governance, humanism, responsibility, equality, integration, unity, succession, liberalization, continuity, permanence, etc. are essential for school leaders to implement optimal governance. The establishment of educational institutions on the basis of principles creates conditions for more purposeful improvement of the activity, as well as the selection of the optimal option for both students and educators working in the field of education.
Keywords: *principle, optimal, modern, education, pedagogical, innovation*

HEYDƏR ƏLİYEVİN MÜƏLLİM SƏRİŞTƏSİ VƏ PEŞƏKARLIĞI HAQQINDA FİKİRLƏRİ

Vəliyeva Sevil Vəzirxan qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
sevil-veliyevaSDU@mail.ru

Müəllimlik yaradıcı işdir, müəllimin səriştəliliyi onun yüksək əxlaqi keyfiyyətlərində, milli və bəşəri dəyərlərə sahib olmasında, dərin biliyində, yüksək pedaqoji qabiliyyətlərində, pedaqoji, psixoloji biliklərə malik olmasında, yeni texnika və texnologiyaları tətbiq etmə qabiliyyətinə malik olmasında, öz şagirdlərinə hörmət və qayğıkeşliklə yanaşmasında, mədəni davranışında, sağlam, xoş görünüşündə, mehriban ünsiyyətində, səliqəli geyimində, mehriban rəftarında özünü göstərir. Ulu Öndərimiz Heydər Əliyevin müəllimlik sənətinə verdiyi dəyər, müəllim səriştəliyi və peşəkarlığı bağlı söylədiyi dəyərli fikirlər dünən də, bu gün də, sabah da aktual və əhəmiyyətlidir. Onun bu şərəfli peşəyə verdiyi dəyərlər onun çıxışlarında, verdiyi müsahibələrdə hər zaman öz əksini tapmışdır.
Açar sözlər*: müəllim, peşəkarlıq, bacarıq, şərəfli, məsuliyyətli, pedaqoji proses*

Müəllimlik sənəti qəhrəmanlıq sənətidir. Valideynlərin minnətdarlığı, şagirdlərin məhəbbəti isə ən böyük mükafatdır.

Müəllim gənc nəsli sistemləşdirilmiş milli və ümumbəşəri dəyərlərlə məqsədyönlü, planlı və mütəşəkkil şəkildə silahlandırmaq yolu ilə nəsillər arasında mənəvi əlaqə yaradan, elmin, iqtisadiyyatın, mədəniyyət və incəsənətin sonrakı inkişafına güclü təkan verən pedaqoji təhsilli işçidir [5, 10].

Yer üzündə ən şərəfli və ən gözəl peşə olan müəllimlik peşəsi eyni zamanda ən çətin peşədir. Valideyn ilə bərabər, müəllimin də üzərinə çox böyük və məsuliyyətli iş düşür. Müəllim cəmiyyət üçün şəxsiyyət yetişdirməli, gələcəkdə yaşadıqları dövrün problemlərindən azad olmaq üçün bütün bilik və bacarıqlarını sərf etməli, valideynlər kimi hər bir şagirdin kədərinə kədərlənməli, sevincinə sevinməli, uğuru

ilə fəxr etməlidir. Ən əsas vəzifələrindən biri Vətənə, xalqa layiqli bir vətəndaş yetişdirməkdir. Buna görə də, onlar öz səy və bacarıqlarını əsirgəməməlidirlər.

Müəllim həm də ikinci valideyndir. Çünki, o, müəyyən yaşdan sonra uşaqlara valideynlər ilə birlikdə himayədarlıq edir. Müəllim işdə yaradıcı olmalıdır, çünki, istənilən bir vəzyyətdə doğru çıxış yolu tapmalı və təlim-tərbiyə prosesini düzgün istiqamətləndirməlidir.

Əsas məqsəd və nəticə müəllimin öyrətmək fəaliyyətidir. Bu fəalliyyət isə hər bir müəllimdən peşəkarlıq və səriştəlilik tələb edir. Dərs prosesini düzgün planlaşdırmaq, şagirdləri dərs prosesinə cəlb etməyi bacarmaq, keçirilən mövzunun nə dərəcədə əhəmiyyətli və ya vacibliyini ön plana çəkmək, qabaqcadan dərsin bütün mərhələlərini planlaşdırmaq, düzgün vaxt bölgüsü aparmaq, keçirilən dərsin məqsədini düzgün müəyyənləşdirmək və s. meyarlar hər bir müəllimdən tələb olunan meyarlardır.

"Müəllim nə qədər ki, oxuyur, öyrənir, o yaşayır, o oxumağı dayandırdıqda ondakı müəllimlik ölür" [1, 31]. Müəllimlik peşəsinin şərəfli olmağı ilə yanaşı, çətin, mürəkkəb və məsuliyyətli bir işdir.

Pedaqoji fəaliyyət eyni zamanda yenilik tələb edən bir fəaliyyətdir. Əgər bu fəaliyyət olmazsa, şagirdlərin inkişafı ləngiyər, müəllim fəaliyyətinin səmərəsi azalar.

Cəmiyyətimiz sürətlə inkişaf edir. Hər gün meydana çıxan innovasiyalar təhsilə də öz təsirini göstərir. Belə ki, şagirdlər daim yeniliklərə can atır, yeni bilikləri mənimsəmək istəyir, onları nə zaman əldə edəcəklərini səbirsizliklə gözləyirlər. Bu yenilikləri mənimsəyən və dərs prosesində istifadə edən müəllimlərin dərsləri də maraqlı, cəlbedici, zövqverici xarakter alır. Yenilikləri icra etmək də müəllimdən peşəkarlıq tələb edir. Belə ki, bu nöqteyi-nəzərdən müəllim daim öz üzərində işləməli, peşəkarlığını təkmilləşdirməli, yaradıcılıq sahələrini genişləndirməli, hər zaman yeniliklərin axtarışında olmalı, dərsin məzmununu rəngarəng etməli və s.

Peşəkarlıqla səriştəlilik bir-biri ilə elə əlaqəlidir ki, bunların birinə malik olub, digərinə yiyələnməmək mümkün deyildir [1, 18].

Peşəkarlıq-müəllimin lazımi biliyə, bacarıqlara, şagirdlərlə yaradıcı şəkildə işləyə bilmək texnologiyalarına sahib olması, pedaqoji prosesin incəliklərinə dərindən yiyələnməsidir.

Səriştəlilik-müəllimin pedaqoji prosesi məharətlə, daha əlverişli metodlarla reallaşdıra bilməsidir.

Dahi şairimiz Nizami Gəncəvi belə söyləmişdir: "Kamil bir palançı olsa da insan, yaxşıdır yarmçıq papaqçılıqdan". Bu misralarla dahi sənətkar bildirmək istəmişdir ki, hansı sahənin, peşənin sahibi olursansa ol, amma həmin sahədə peşəkar olmaq əsas meyardır.

Peşəkar müəllim bir sıra keyfiyyətlərə məxsus olmalıdır.

Dərsi şagirdlərin yaddaşına həkk etmək üçün ilk öncə səlis, zəngin nitqə malik olmalıdır.

Özünəinam hissi o qədər güclü olmalıdır ki, hətta şagirdlər bunu hiss etməlidirlər.

Hər bir şagirdin probleminə yaxından münasibət göstərməli.

Hər an yeniliklərlə maraqlanaraq öz biliyini zənginləşdirməli, peşəkarlıqla bu zənginliyi şagirdlərinə çatdırmalıdır. Bir sözlə, müəllimin peşəkar fəaliyyəti daima yeniləşmə tələb edən bir fəaliyyətdir.

Dərsdə keçirilən metodlar nə qədər əlverişli, mövzuya uyğun, seçim nə qədər səmərəli olsa da, müəllimin səriştəliyindən və pedaqoji peşəkarlığından çox şey asılıdır. Pedaqoji səriştəliliklər bunlardır:

1. Müəllim çevik pedaqoji təfəkkürə yiyələnərək pedaqoji situasiyalarda tətbiq etməyi bacarmalıdır.
2. İstənilən təlim metodlarından zamanı gəlincə istifadə etmək bacarığına malik olmalıdır.
3. Daima öz üzərində müntəzəm işləməlidir.
4. Müasir texnoloji biliklərə yiyələnməli və onları dərs prosesi zamanı tətbiq etməlidir.
5. Hər bir təlim metodunu, onun xüsusiyyətlərini bilməlidir.

Bəşər tarixində böyüməkdə olan gənc nəslin tərbiyəsi və təlimi ilə məşğul olan bir sıra görkəmli şəxsiyyətlər yaşayıb yaratmışlar.

Həmin şəxsiyyətlərdən biri də istər tərbiyə, istər təhsil, istərsə də məktəbə aid bütün çıxışlarında müəllim əməyini uca tutan, onun şəxsiyyətinə xüsusi hörmət bəsləyən Ulu Öndər, xalqımızın Ümummilli Lideri Heydər Əliyev olmuşdur. O, belə demişdir: "Müəllim adı dünyada ən yüksək addır. Şəxsən mən yer üzərində müəllimdən yüksək ad tanımıram. Çünki hər birimizə təhsil, bilik verən, bu səviyyəyə çatdıran məktəbdir, məktəbdə təhsil verən müəllimdir" [7, 25].

Ümummilli Liderimiz Heydər Əliyevin müəllimlərlə bağlı söylədiyi bir sıra dəyərli sözləri hər zaman öz aktuallığını qoruyub saxlamışdır:

-müəllimlik sənəti şərəfli bir sənətdir.

-özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır.

-həyatını müəllimliyə həsr edən insanlar, həqiqətən, fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insandır.

-biz hamımız həyatımızda əldə etdiyimiz nailiyyətlərə, bütün varlığımıza görə müəllimə borcluyuq [6, 4].

Cəmiyyətin ən şərəfli peşəsi müəllimlikdir. Fərdlər müəllimlərin vasitəsilə bilik əldə edir, tərbiyə olunur, inkişaf edərək dünyanı dərk edirlər. Əgər nəyinsə bünövrəsi möhkəm, sağlam olarsa, gələcəyi də bir o qədər möhkəm olar. Bu nöqteyi-cəhətdən cəmiyyətdə yaxşı nəslə sahib olmaq üçün yüksək mənəviyyata, zəngin əxlaqi keyfiyyətlərə malik müəllim yetişdirməliyik. Pedaqoji peşənin mövcud olduğu ilk vaxtdan müəllimin əsas vəzifəsi bilik vermək, tərbiyə etmək, inkişaf etdirmək və cəmiyyətə layiqli vətəndaşlar yetişdirmək idi. Hər bir müəllim gənc nəslə dövrün ən vacib, müasir biliklərini öyrədir, bu günün problemləri ilə tanış edir, onları gələcəyə hazırlayır.

Müəllimin qarşısında duran vəzifələr haqqında Ulu Öndərimiz Heydər Əliyev 1998-ci ildə Azərbaycan Müəllimlərinin Qurultayında müraciətində demişdir: "Azərbaycan müəlliminin bir amalı olmalıdır. Azərbaycanımızı çiçəklənən, inkişaf edən, firəvan, qüdrətli bir ölkəyə çevirməyə qadir, müstəqillik ideyalarına sadiq, özünü vətənin azadlığı naminə fəda etməyə hər an hazır olan, yeni təfəkkür tərzini qavrayaraq müasir tələblərə cavab verən sağlam əqidəli, milli ruhlu nəsil yetişdirmək".

Heydər Əliyev müəllimlik peşəsini ürəkdən sevmiş, müəllim əməyinə hər zaman yüksək qiymət vermişdir. Heç də təsadüfi deyil ki, Heydər Əliyev Azərbaycanda ona təklif olunan müxtəlif fəxri adlardan yalnız "Xalq müəllimi" fəxri adını məmnuniyyətlə qəbul etmişdir.

Ulu Öndər deyirdi ki, ölkədə təhsilin hərtərəfli inkişafında, təlim-tərbiyə prosesində qarşıda duran mühüm vəzifələrin uğurla həyata keçirilməsində həm məktəbin, həm də təhsil ocağında çalışan pedaqoji heyətin əməyi kifayət deyil.

Heydər Əliyevin müəllimlik peşəsinə böyük hörmət və ehtiramı var idi. Bu, bir tərəfdən onun ilk ixtisasca müəllim olması ilə bağlı olması başlıca rol oynayır. Heydər Əliyev "əla" qiymətlərlə oxumuş, hər sahədə qabaqcıl, nümunəvi tələbə olmuş, həmişə öz müəllimlərinə böyük hörmət və ehtiramla yanaşmış, onları daim minnətdarlıqla xatırlamışdır.

Ədəbiyyat

1. İlyasov M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri, Monoqrafiya, Bakı: Elm və təhsil, 2018
2. Hüseynzadə R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Dərs vəsaiti. Bakı 2020, 538s.
3. Hüseynzadə R.L., Əzizova Z.M., Əliyev S.H., Verdiyeva Ü.M. Pedaqogika, Dərslik, Bakı: Mütərcim, 2021, 488 s.
4. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Bakı: Elm və təhsil, 2013.
5. Mirzəyev F., Rüstəmova X. Pedaqoji ustalığın əsasları, Dərs vəsaiti, Bakı, 2012, 44s.
6. Azərbaycan müəllimi, Bakı, 2010, 10 dekabr.
7. Mərdanov M., Quluyev Ə. Təhsil millətin gələcəyidir. Monoqrafiya. Bakı: Təhsil, 2002, 25s

QLOBALLAŞMA DÖVRÜNDƏ AZƏRBAYCAN TƏHSİLİNDƏ HEYDƏR ƏLİYEV FENOMENİ

Nəsibova Saidə Nazim qızı

Gəncə Dövlət Universiteti, Gəncə şəhəri, Azərbaycan

Saide.nesibova@gmail.com

***Açar sözlər**: ali təhsil, qloballaşma, Bolonya prosesi, təhsil islahatları.*

Tarixin kritik və mürəkkəb dövrlərindən biri XX və XXI əsrlərin kəsişmələrində baş veridi. Qarşıdan gələn yüzillik üçün bütün dünya tarixinə dair təzə parametrlər və qaydalar müəyyənləşməyə başladı. Qlobal və regional xarakterə malik ziddiyyətlər meydana çıxdı ki, bu da öz növbəsində dünyanın inkişaf templərinə təsir göstərdi.

Yaranmış yeni beynəlxalq münasibətlər sistemi "qloballaşma" termini ilə səciyyələndirildi. Qloballaşma dünyanın inkişaf tendensiyalarından olmaqla, yeni yaranmaqda olan dünyavi sistemin iqtisadi, beynəlxalq, siyasi göstəricilərinə çevrilmişdir. Bu dönüş 1990-cı illərdən başlayaraq təkmilləşməyə döğru yola istiqamətlənmişdir.

Məlumdur ki, qloballaşma bəşərin inkişafının tarixi mərhələlərində qaçılmaz məqam olaraq özünü göstərdi. Müasir dünyamızda ölkələr arası qloballaşma demək olar ki, dünya ölkələrinin hamısını əhatə etdi.

XX əsrin 90-cı illəri məlum hadısələrlə bəşər tarixində gözəçarpacaq qədər özünü göstərdi. Totalitar rejimdən qurtulmuş Azərbaycan köhnə SSRİ respublikaları kimi bütün sahələrdə krizislə üzləşdi. Müasir Azərbaycanın dövlətçilik modeli Ümummilli lider Heydər Əliyev tərəfindən təklif edildi. Artıq dünya siyasi müstəvisində öz savadı, qeyri-adi istedadı ilə tanınmış siyasi nəhəng Azərbaycan adlı məmləkətin xilaskar missiyasını öz üzərinə götürmüş oldu.

Qloballaşma proseslərində Azərbaycanın iştirakı, iqtisadi, mədəni, siyasi cəhətdən tanınması atılmış məsuliyyətli,ciddi addım oldu. Ümumdünya inkişaf tendensiyalarına müvafiq olaraq qarşılıqlı inteqrasiya məsələləri Heydər Əliyev tərəfindən gündəmə gətirildi.

"Əsrin Müqaviləsi" adlı sənəd uzaqgörən siyasi liderimiz Heydər Əliyevin Azərbaycana dünyanı açması idi. "Əsrin Müqaviləsi" XXI srdə Azərbaycan üçün siyasi və iqtisadi baxımdan böyük amplitudalı sıçrayış oldu. Yeni neft siyasətinin düzgün aparılması Azərbaycan Respublikasını neft sənayesinin beynəlxalq səviyyəsində tanıda bildi. Heydər Əliyev bilirdi ki, qüdrətli dövlət yaratmağın başlıca göstəriciləri iqtisadi dayaqlarla ölçülür. O, suveren Azərbaycanın qüdrət paramertlərini bu cür təqdim edirdi:

- Milli birlik sisteminin olması;
- Mərkəzi və yerli idarəçilik sisteminin mükəmməl olması;
- İctimai-siyasi həyatın stabilliyi;
- Mövcüd qanunvericiliyin yüksək səviyyədə ədalətlilik prinsiplərə əsaslanması;
- İnsanların qabiliyyətlərinə görə qiymətləndirilməsi və kadr siyasətinin düzgün yürüdülməsi.

Heydər Əliyevin başlıca amalı real vətəndaş cəmiyyətinin qurulması və bu cəmiyyət çərçivəsində hər bir vətəndaşın öz ölkəsinin idarəçiliyində demokratik mövqe nümayiş etdirməklə idarə etməsi olmuşdur. Hər bir azərbaycanlını vətəndaş olaraq təşəbbüskar, fəal,savadlı, ədalətli, milli – mənəvi dəyərlərə yüksək qiymət verməyi bacaran, sərbəts və qlobal düşüncəyə malik, daxili və xarici siyasəsi proseslərdə iştirak etməyə qadir olan, xalqına gərəkli olmasını vacib bilirdi.

Ümummilli lider müstəqil Azərbaycan dövlətçiliyinin konsepsiyasını həyata keçirdi. Bununla yanaşı yeni milli ideologiyanın təməlini qoydu. Milli ideologiya vətənin balalarını bir ideya, amal ətrafında sıx birləşdirdi. Qarşıya qoyulmuş məqsədə doğru hər bir azərbaycanlı öz qüvvəsini səfərbər etməklə nümunəvi şəkildə qələbəyə doğru kursunu seçdi. Azərbaycan xalqının birliyi, Heydər Əliyev ideyalarına sadiqliyinin baris nümunəsi 44 günlük Vətən Müharibəsində özünü dünyaya göstərdi.

Azərbaycançılıq ideyasına yeni məzmun verməklə, H.Əliyev ölkədə milli-etnik məsələlərə çox böyük həssaslıqla yanaşırdı. Azərbaycan xalqının və onun siyasi idarəçiliyində birbaşa iştirak edən rəhbərlərin milli və etnik azlıqlara diqqət və qayğısı, bu anlamda ölkədə aparılan işlər dünya xalqlarına gözəl nümunədir. Azərbaycanda milli və etnik mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın hüquqları Konstitusion qaydalarla, ciddi qorunur. Azərbaycan dünyanın ən tolirant ölkələrindən biridir. Heydər Əliyevin sayəsində azərbaycanşılıq ideyası ölkənin milli birlik platformasına çevrilmişdir.

Siyasi lider olaraq, Heydər Əliyev çox gözəl anlayırdı ki, iqtisadi baxımdan qüdrətli ölkənin təhsil sferası da inkişaf etmiş olacaqdır. O, XX əsrin 70-ci illərində yürütdüyü ağıllı kadr siyasətini ikinci dəfə qayıdışla uğurla davam etdirdi.

Müstəqillik əldə olunandan sonra ən böyük uğurlardan birinə Ümummilli lider imza ataraq Azərbaycan dilinin yüksək status almasına və latın qrafikasına keçidə imza atdı. Bununla da milli-mənəvi dəyərlərimizin qorunmasına qətiətli addım atıldı. Azərbaycançılıq ideyasını rəhbər tutaraq Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının Təhsil haqqında ilk Qanunu təsdiqləndi. Azərbaycan təhsilinin gələcəyini düşünən öndər, onun dünya təhsilinə açılan yolunu müəyyən etdi.

1999-cu ildə müstəqil Azərbaycanın təhsil siyasətində yaranmış boşluqları aradan qaldıran mühüm sənəd cəmiyyətimizə təqdim edildi: "Azərbaycan Respublikasinin Təhsil Sahəsində İslahat Proqrami". [2] Proqramda konkret olaraq təhsilimizin yaxın gələcək üçün inkişaf trayektoriyası, aparılan islahatların məqsədi və prinsipləri, "...müstəqil Azərbaycan Respublikasının gələcəyi üçün təhsil sisteminin üstün inkişaf etdirilməli sahə olduğunu təsbit etməyə imkan verən etibarlı bazanın yaradılması, ölkədə elmin və mədəniyyətin inkişafı, demokratik vətəndaş cəmiyyətinin qurulması, modernləşdirilmiş istehsalat-mülkiyyət sistemi əsasında sabit iqtisadi artıma nail olunsun; demokratikləşdirilmə, humanistləşdirilmə, inteqrasiya, differensiallaşdırma, fərdiləşdirilmə, humanitarlaşdırılma prinsiplərinə əsaslanaraq, təhsil alanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsini başlıca vəzifə hesab edən, milli zəminə, bəşəri dəyərlərə əsaslanan, bütün qurumların fəaliyyətini təhsil alanın mənafeyinə xidmət

etmək məqsədi ətrafında birləşdirən yeni təhsil sisteminin yaradılması" kimi aktuallıq kəsb edən məsələlər vurğulanır. Proqram konkret zaman baxımından aparılacaq işlərin məzmununu və mahiyyətini açıqlayır.

İslahatda nəzərdə tutulmuş üç mərhələ aşağıdakı kimi səciyyələndirilir:

"Bir il müddətini əhatə edən birinci mərhələ — hazırlıq mərhələsi (1999-cu il) Azərbaycan Respublikası vətəndaşlarının Konstitusiyada müəyyən olunmuş təhsil almaq hüququnu təmin edən, bazar iqtisadiyyatının tələblərinə uyğun yeni təhsil sisteminin normativ hüquqi, iqtisadi və informasiya bazasını yaratmaq üçün təşkilati işlərin aparılmasını, eləcə də onun infrastrukturu və kommunikasiya sisteminin müəyyən edilməsini nəzərdə tutur.

Qısamüddətli perspektivi əhatə edən ikinci mərhələdə (2000-2003-cü illər) təhsil sahəsinin sosial-iqtisadi stabilliyini təmin edən təxirəsalınmaz problemlərin həll olunması və geniş miqyaslı islahatın aparılması üçün təşkilati-hüquqi, kadr, maliyyə, maddi-texniki təminatının və yeni idarəetmə modelinin yaradılması nəzərdə tutulur.

Müəllimdən yüksək rütbə tanımaya öndər, pedaqoji kadrların yeniləşən Azərbaycan üçün yetişdirilməsinə çox böyük önəm verirdi. O, bilirdi ki, stabil iqtisadiyyat və müasir dünyanın tələblərinə cavab verən təhsil pedaqoji kadr siyasətinin düzgün yürüdülməsindən asılıdır.

Üçüncü mərhələ (2004-cü ildən) proqramda nəzərdə tutulan bütün tədbirlərin həyata keçirilməsini əhatə edir." [2]

Bu sənəd baza Proqram olmaqla sonrakı illərdə Azərbaycan Respublikasının təhsil sahəsində olan hüquqi-normativ bazasının ideoloji məzmununu formalaşdırmışdır, Azərbaycanın hər bir regionunda yürüdülən təhsil siyasətinin cəmiyyətin, vətəndaşın təhsil ehtiyaclarını qarşılanmasında real addımlar atmağa imkan yaratmışdır. Bu siyasi kursun davamı olaraq "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 27 noyabr tarixli, 261 nömrəli qərarı ilə təsdiq edilmiş sənəd ilk olaraq azərbaycan gəncləri üçün dünya səviyyəli ali təhsil ocaqlarının qapısını açdı. [4]

Heydər Əliyevin apardığı müdrik siyasətinin ən vacib məqamlarından biri də təhsilin məzmununun dövlətçiliyin müstəqilliyi prinsiplərinə utğun qurulması idi. Dövlətin nəzarətində olan pulsuz icbari təhsil, dövlət sifarişi əsasında kadrların ölkə üçün yetişdirilməsi və məqsədyönlü aparılan dərslik siyasəti də Azərbaycanın iqtisadi baxımdan çətin günləri üçün qətiyyətli gözəl addım olmuşdur.

Onun qurduğu müdrik siyasətə söykənən dövlətimizin gələcək uğurları onu sadiq davamçısı Prezidentimiz Cənab İlham Əliyevin xorezmatik düşüncələrində daha çiçəkləndi, daha da mıhsuldar oldu. Azərbaycan Ali təhsilinin dünya təhsilinə inteqrasiyası rəsmi dövlət səviyyəsində Azərbaycanın Boloniya prosesinə qoşulması oldu. Bu gün ulu Öndər Heydər Əliyev arzuladığı kimi bizim gənclər dünyanın inkişaf etmiş ölkələrində yüksək səviyyəli unuversitetlərdə böyük həvəslə, fəaxarət hissi ilə təhsil alırlar, dünya elmində yetərincə uğurlara imza atırlar, Azərbaycanı və azərbaycançılığı fəal şəkildə təbliğ edirlər.

Zamanında Ümummilli Lider Hedər Əliyev tərəfindən düzgün seçimlərin edilməsi, uzaqgörənlik siyasəti ilə yeni Azərbaycanın siyasi, iqtisadi, mədəni, milli-mənəvi dəyərlərini düzgün məcrayə gətirilməsi, bu gün Azərbaycanda kadr siyasətinin Cənab, Prezidentimiz İlham Əliyev tərəfindən yüksək səviyyədə aparılması məmləkətimizə daim uğur və qələbələr gətirir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995
2. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev tərəfindən 1999-cu il 15 iyun tarixli 168 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir
3. Təhsil haqqında Azərbaycan Respublikası Qanunu. Bakı, 2009
4. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 27 noyabr tarixli, 261 nömrəli qərarı ilə təsdiq edilmişdir.

РЕЗЮМЕ

ФЕНОМЕН ГЕЙДАРА АЛИЕВА В ПЕРИОД ГЛОБАЛИЗАЦИИ АЗЕРБАЙДЖАНСКОГО ОБРАЗОВАНИЯ

Насибова С.Н.

Гянджинский государственный университет, Гянджа, Азербайджан

Конец XX начало XXI века ознаменовалось глобальными изменениями в сфере образования.. После крушения тоталитарного режима в области образования необходимы были реформы.

Создание первой Конституции суверенной страны, правовой базы в сфере образования был точным и четким шагом. В дальнейшем реформы приняли более широкий масштаб. В последствие, Азербайджан был принят в Болонский процесс. Перед гражданами Азербайджана был открыт доступ в престижные университеты мира.

Во всех продвижениях в экономике, политике, культуре и образовании имеется бесценная заслуга общенационального лидера Азербайджана Гейдара Алиева.

Ключевые слова: *высшее образование, глобализация, Болонский процесс, реформы образования*

SUMMARY

THE PHENOMENON OF HEYDAR ALIYEV IN THE PERIOD OF GLOBALIZATION OF AZERBAIJANI EDUCATION

Nasibova S.N.

Ganja State University, Ganja, Azerbaijan

The end of the 20th beginning of the 21st century was marked by global changes in the field of education. After the collapse of the totalitarian regime in the field of education, reforms were needed. The creation of the first Constitution of a sovereign country, the legal framework in the field of education was a precise and clear step. Subsequently, the reforms took on a broader scale. Subsequently, Azerbaijan was admitted to the Bologna process.

The citizens of Azerbaijan were given access to the prestigious universities of the world. In all advancements in the economy, politics, culture and education, there is an invaluable merit of the National Leader of Azerbaijan Heydar Aliyev.

Keywords *: higher education, globalization, Bologna process, education reforms.*

YAPONİYA, ABŞ VƏ AZƏRBAYCANDA İBTİDAİ SİNİF MÜƏLLİMLƏRİNİN PEŞƏ HAZIRLIĞININ VƏ PEDAQOJİ PRAKTİKASININ STANDARTLAŞDIRILMASININ MÜQAYİSƏLİ TƏHLİLİ

Nağıyeva Ülviyyə Fikrət qızı

ulviyyenagiyeva921@gmail.com

Açar sözlər: *Yaponiya, ABŞ, Azərbaycan, ibtidai sinif müəllimi, pedaqoji praktika*

1. XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda ali pedaqoji təhsil sahəsində köklü islahatlar aparmaq məqsədilə inkişaf etmiş xarici ölkələrin bu sahədəki təcrübəsinin öyrənilməsinə zərurət yarandı. Müəllim kadrları hazırlığının məqsədi, məzmunu və texnologiyası ilə bağlı yeni tədqiqatlar meydana gəldi. Xarici ölkələrdə ibtidai sinif müəllimlərinin peşə hazırlığının və pedaqoji praktikasının standartlaşdırılmasının öyrənilməsinə başlanıldı. Xarici təcrübəni öyrənmədən bu sahədə uğur qazanmaq mümkün deyildi.

2. Müəllim hazırlığının standartlaşdırması yalnız Avropa Birliyi ölkələri üçün deyil, həm də Yaponiya, ABŞ və Azərbaycan üçün də xarakterikdir.

3.Yaponiyada pedaqoji kadrlar universitetlərin Pedaqoji fakültələrində, pedaqoji universitetlərdə və 2 illik pedaqoji kolleclərdə hazırlanır. Universitetlərin Pedaqoji fakültəsinin məzunları, habelə psixoloji – pedaqoji fənləri mənimsəmələri ilə bağlı sertifikat alanlar pedaqoji fəaliyyətlə məşğul ola bilərlər. Alınan sertifikatlar daimi və müvəqqəti ola bilər. Daimi sertifikata malik olanlar Yaponiyanın istənilən yerində (bölgəsində) müəllim işləyə bilərlər. Sertifikatlar səviyyələrinə görə bir-birindən fərqlənir.

4.Magistratura səviyyəsini bitirənlərə orta məktəblərdə işləmək üçün xüsusi (I dərəcəli) sertifikat verilir. Azərbaycanda isə MİQ imtahanında iddiaçının magistraturanı bitirməsi nəzərə alınmır.

5.Pedaqoji fəaliyyətlə məşğul olmaq üçün gələcək ibtidai sinif müəllimləri 124-159 kredit toplamalı olurlar. Fənn müəllimləri iki fəndən dərs demək üçün 160-180 və ən çoxu isə 200 kredit toplayırlar. Azərbaycanda isə ibtidai sinif müəllimi işləmək üçün tələbə pedaqoji təcrübə ilə birlikdə 240 kredit toplamalıdır. Nəzəri kursu müvəffəqiyyətlə başa vuran tələbələr 6 aylıq pedaqoji təcrübədə olurlar. Yalnız

pedaqoji təcrübəni uğurla başa vuranlara müəllim işləmək hüququ verilir. Yaponiyada müəllimlik yüksək prestijli peşə hesab olunur və 82 peşənin arasında 9-cu yeri tutur [1, s.152].

6. Yaponiyada müəllim işləmək istəyən universitet məzunları, Azərbaycanda olduğu kimi, xüsusi imtahan verməli olurlar. Bu məqsədlə iddiaçı xüsusi test tapşırıqları icra etməli olur. Yüksək dərəcə almaq üçün müəllimlər iş stajına və diploma malik olmalıdır. Onların stajları və topladıqları kredit nə qədər çox, diplomlarının səviyyəsi nə qədər yüksək olarsa, onun statusu da, maaşı da ona uyğun olaraq yüksək olur.

7. Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsinin məzmununa məktəblə tanışlıq, dərslərdə iştirak, nümunəvi dərslər demək, tərbiyəvi tədbirlər təşkil etmək daxildir. Pedaqoji təcrübəyə ayrılan kreditlərin sayı Azərbaycan ali məktəbləri ilə müqayisədə xeyli az, cəmi 2-4 kredit təşkil edir. Azərbaycanda tələbələrin pedaqoji təcrübəsi üçün 30 kredit nəzərdə tutulmuşdur. Yaponiyada müəllim hazırlığını yüksəltmək məqsədilə "*pedaqoji fəaliyyətə yeni başlayan müəllimlər üçün xüsusi proqramı"* [2, s.10-12] hazırlanmışdır.

8. XX əsrin 60-cı illərindən başlayaraq ABŞ-da pedaqoji kolleclərin sayının azaldılması, pedaqoji kadr hazırlığında universitetlərin payının artırılması meyili müşahidə edilir. Universitet kolleclərində gələcək ibtidai sinif müəllimləri 3-4 il təhsil alırlar. Digər ixtisaslarda oxuyanlar da müəllim işləmək istəsələr pedaqoji-psixoloji fənləri öyrənməklə, pedaqoji təcrübədə iştirak etməklə buna nail ola bilərlər. Azərbaycanda isə belə bir təcrübə yoxdur və buna icazə verilmir. Son illərə kimi ibtidai sinif müəllimi olmaq üçün 9 aylıq pedaqoji kurslar və təkrar ali təhsil təcrübəsi olsa da, 2021/22-ci tədris ilindən Təhsil Nazirliyinin müvafiq göstərişi ilə bu proses dayandırılmışdır.

ABŞ-da müəllimlərin peşə-ixtisas səviyyəsinin yüksəldilməsinə xidmət edən proqramlar fəaliyyət göstərir [4, s.366].

9.ABŞ-da pedaqoji təhsilin vacib mərhələlərindən biri pedaqoji təcrübə hesab olunur. Azərbaycan universitetlərindən fərqli olaraq burada pedaqoji təcrübəyə çox az, cəmi 4-5 həftə vaxt ayrılmışdır. Pedaqoji kolleclərdə pedaqoji təcrübə bütün tədris illərində aparılır və təcrübəyə yüksək hazırlıqlı müəllimlər rəhbərlik edir. Pedaqoji təcrübə dövründə gələcək ibtidai sinif müəllimləri təhsil-tərbiyə prosesinin təşkilini öyrənir, müşahidələr aparır, nümunə dərsləri deyir və tələbə yoldaşlarının dərslərin təhlil edir. Ölkədə elmi-tədqiqatla məşğul olan müəllimlər xüsusi təqaüdlərə layiq bilinir. Bu sahədə uğur qazanan müəllimlər Ağ Evdə ölkə prezidenti tərəfindən mükafatlandırılır.

Ədəbiyyat

1.Павлова Т.Л. Профессионализм учителя японской школы: пути становления. / Журнал: Академический вестник Института педагогического образования и образования взрослых «Человек и образование». №4 (41) – М., 2014. – s.152-155

2. Озерская, О. Ю. Профессиональная подготовка учителей в высших учеб - ных заведениях Японии: автореф.…канд. пед. наук: / О. Ю. Озерская. Харьков, 2006. – 22 с.

3. Rüstəmov, F.A. Pedaqogika tarixi./ F.A.Rüstəmov. –Bakı: Elm və təhsil, –748 s.

4. Mikayıllı B. Dünyanın təhsil mənzərəsi.I kitab. / B.Mikayıllı. – Bakı: Elm və zəka, – 2021, – 480 s.

РЕЗЮМЕ

СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ СТАНДАРТИЗАЦИИ ПРОФЕССИОНАЛЬНОЙ ПОДГОТОВКИ И ПЕДАГОГИЧЕСКОЙ ПРАКТИКИ УЧИТЕЛЕЙ НАЧАЛЬНЫХ КЛАССОВ В ЯПОНИИ, США И АЗЕРБАЙДЖАНЕ

Нагиева У.Ф.

В начале 1990-х годов возрос интерес к изучению опыта зарубежных стран с целью проведения коренных реформ в высшем педагогическом образовании в Азербайджане. Появились исследования, обосновывающие существенные изменения цели, содержания и технологии педагогической подготовки. Возникает необходимость изучения стандартизации профессиональной подготовки и педагогической практики учителей начальных классов в зарубежных странах. Процесс стандартизации не уникален для Европейского Союза. Япония и Соединенные Штаты также имеют стандарты для подготовки учителей. В докладе проводится сравнительный анализ стандартизации профессионального обучения и педагогической практики учителей начальных классов в Японии, США и Азербайджане.

Ключевые слова: *Япония, США, Азербайджан, учитель начальных классов, педагогическая практика.*

SUMMARY

COMPARATIVE ANALYSIS OF STANDARDIZATION OF PROFESSIONAL TRAINING AND PEDAGOGICAL PRACTICE OF PRIMARY SCHOOL TEACHERS IN JAPAN, USA AND AZERBAIJAN

Nagieva U.F.

In the early 1990s, there was a renewed interest in the study of the experience of foreign countries with the aim of carrying out root reforms in the highest pedagogical education in Azerbaijan. Research has emerged, which substantiates the essential changes in the purpose, content and technology of pedagogical training. It is necessary to study the standardization of professional training and pedagogical practice of teachers of primary classes in foreign countries. The process of standardization is not unique to the European Union. Japan and the United States also have standards for teacher training. The report provides a comparative analysis of the standardization of professional training and pedagogical practice of primary school teachers in Japan, the United States and Azerbaijan.

Keywords: *Japan, USA, Azerbaijan, primary school teacher, pedagogical practice.*

MÜASİR MÜƏLLİM PEŞƏSİNƏ VERİLƏN PEDAQOJİ TƏLƏBLƏR

Hüseynova Arzu Hüseyn qızı
Sumqayıt Dövlət Universiteti, Azərbaycan
arzuhuseynova776@gmail.com

Açar sözlər: *müəllim, şagird, təhsil prosesi, pedaqoji ustalıq, psixologiya, şəxsiyyət*

Ulu öndər Heydər Əliyev həmişə müəllim əməyini yüksək qiymətləndirmiş və bizim gələcəyimiz olan gənclərin tərbiyəsində, onların bir şəxsiyyət kimi formalaşmasında, elmə yiyələnməsində müəllimin rolunu həmişə dəyərləndirmişdir. Ölkə başçısı İlham Əliyev də bu şərəfli işi davam etdirməkdədir.

Pedaqogikanın predmeti təlim, tərbiyə və təhsildir. Bu vəzifələri həyata keçirən və tədqiq edən müəllimdir. Onun ustalığı əsasdır. Ustalıq, pedaqoji prosesin effektliyini daim yüksəltmək məharətidir. Öz işinin ustası olan müəllim fənnini, pedaqogikanı, psixologiyanı və metodikanı dərindən bilən, yaradıcı olan, müxtəlif elm sahələrinə və incəsənətə bələd olan, yüksək mədəniyyətə malik olan adamdır. Mənəvi zənginliyi, əxlaqi saflığı, vətənpərvərliyi, onun sözü ilə əməlinin üst-üstə düşməsi, eqoist hislərdən uzaq olması, şəxsi kədəri ilə heç kəsi narahat etməməsi, şagirdlərin şəxsiyyətinə hörmətlə yanaşması müəllimin pedaqoji ustalığıdır.

Həm də unutmaq olmaz ki, müəllim-şagird ünsiyyəti təlim prosesində vacib pedaqoji tələbdir. Düzgün təşkil edilməyən pedaqoji mühit şagirddə qorxu, inamsızlıq, diqqətin zəifləməsi, fəaliyyətsizlik, inamsız nitq, yalan danışmaq və s. yaradır və müstəqil fikirləşmək həvəsi zəifləyir. Bundan sonra müəllimə qarşı mənfi münasibət yaranır.

Müəllim daima öz ustalığını artırmalı və təkmilləşdirməlidir. Bunun üçün xalq təcrübəsindən və pedaqogika elminin qarşıya qoyduğu tələb və tövsiyələrdən yerində və vaxtında istifadə etmək bacarığına malik olmalıdır.

Müəllim daima tətbiq etdiyi metod və tədbirləri yeniləşdirməlidir ki, şagirdlərin tələbatını ödəyə bilsin. Belə olarsa, şagirdlər onları əhatə edən təbiət və cəmiyyəti dərk edə bilməzlər.

Müəllim həm dərs dediyi şagird, həm də valideyn üçün şəxsiyyət olmalı, onların hörmət və rəğbətini qazanmalıdır. Əks halda valideynlə birlikdə şagirdin tərbiyə məsələsini həll edə bilməz.

Gələcək qurucularımız olan gənclərin düzgün tərbiyələnməsində müasir tələblərə cavab verə biləcək, elmi-texniki tərəqqinin və pedaqoji texnologiyanın son nailiyyətlərini bilən və ondan istifadə etməyi bacaran müəllimlərin hazırlanması və onun bir şəxsiyyət kimi formalaşdırılması müasir müəllim hazırlığının əsas istiqamətidir.

Bu bir reallıqdır ki, şagird və müllim şəxsiyyətinin inkişafı yalnız fəaliyyət və ünsiyyət prosesində reallaşır. Ünsiyyət fəaliyyətin mühüm hissəsidir. Ünsiyyət yalnız fəaliyyət prosesində özünü göstərir. Onun funksiyaları məqsəd və məzmunundan, şəraitdən, istifadə edilən metodlardan asılıdır.

İnsan psixologiyasının məhsulu olan ünsiyyət- iki və daha çox adamın münasibətləri aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədilə öz səylərini əlaqələndirməyə və birləşdirməyə yönəldilmiş qarşılıqlı

fəaliyyətdir. Ünsiyyətə tələbat insanın digər tələbatları içərisində xüsusi yer tutur. Çünki ünsiyyət tələbatı insanın psixi inkişafının əsas amilidir. İnsanın aləmə münasibəti başqa adama münasibəti vasitəsilə meydan çıxır.

Şagird bir şəxsiyyət kimi başqa adamlarla ictimai münasibət və əlaqələrlə formalaşır. Şagird yalnız praktik ünsiyyət prosesində inkişaf edir. İnsanı insan edən praktik ünsiyyətdir. Şagirdin özünü dərk etməsi, özünü tərbiyə ilə məşğul olması onun bilavasitə ətrafındakı insalara münasibəti ilə ölçülür.

Müəllim-şagird ünsiyyəti daha çox tədris prosesində formalaşır. Pedaqoji ünsiyyət müəllimin bir sıra: "nikbinlik, xeyirxahlıq, humanizm, ünsiyyətçilik, ədalətlilik, həssaslıq, diqqətlilik, qayğıkeşlik, hörmət və tələbkarlıq, insanı başa düşmək qabiliyyəti, insana inam" [3, s.57] və s. keyfiyyətləri ilə səciyyələnir.

Ünsiyyət aşağıdakı 2 (iki) formada reallaşır:

1. Birgə fəaliyyətdə ünsiyyət
2. Şəxsi-fərdi ünsiyyət

Bigə fəaliyyətdə ünsiyyət sinif kollektivi arasında olan ünsiyyətdir.

Fərdi şəxsiyyət isə 2-3 adamın ünsiyyətidir.

Ünsiyyət prosesində şagird başqalarının biliyinin təcrübəsini dərk edir və mənimsəyir. Bunun nəticəsində də özünün inkişafı üçün şərait yaranır. Şagirdin digər şagirdlə münasibətdə iradə, ləyaqət və qürur hissi qüvvətlənir.

Şagird üçün ünsiyyət tələbatı onun psixoloji və soioloji tələbatında xüsusi yer tutur.

Pedaqoq və psixoloqlar ünsiyyəti üç qrupa bölüblər:

1. Ünsiyyət informasiya mübadiləsi kimi
2. Ünsiyyət qarşılıqlı təsir prosesi kimi
3. Ünsiyyət insanların bir-birini qavraması prosesi kimi

Şagird şəxsiyyətinin formalaşmasında pedaqoji prosesin təsiri daha böyükdür. Müəllim şagird ünsiyyəti digər ünsiyyətlərdən fərqlənir və "pedaqoji ünsiyyət" adlanır.

Pedaqoji ünsiyyət müəllimin şagirdlə (öyrədənin öyrədənlə) təhsil-tərbiyə prosesində həyata keçirdiyi peşə ünsiyyətidir.

Pedaqoji ünsiyyət geniş anlayışdır. Məktəbdə, məktəb rəhbərləri ilə müəllimlər arasında, müəllimlər özləri arasında, müəllimlər və şagirdlər arasında, şagirdlə şagird arasında olan ünsiyyət pedaqoji ünsiyyətdir.

Bütün bunlarla yanaşı bəzi pedaqoqlar haqlı olaraq müasir mərhələdə "ünsiyyətin məzmununu müəllim və şagirdin bir-biri ilə informasiya mübadiləsi təşkil edir" [4, s.169] fikrini də bildirirlər.

Müəllim-şagird münasibəti əsasən rəsmi münasibətdir. Bu özünü müəllimin qarşıya qoyduğu vəzifəni dərk etməyə, tərəf müqabillərin müəyyən məramlara əməl etməsində göstərir.

Pedaqoji ünsiyyətin məzmununa müəllimin ünsiyyət formaları, ünsiyyətin təşkili, metodları, bir sözlə fərdi ünsiyyət üslubu təsir göstərir.

Ən səmərəli ünsiyyət üslubundan istifadə edən müəllim şagirdi subyekt kimi qəbul edir, şagird kollektivi ilə hesablaşır, şagirdin müstəqilliyini, təşəbbüskarlığını dəstəkləyir, şagirdin fərdi xüsusiyyətlərini, ehtiyac və tələbatlarını nəzərə alır.

Pedaqoji ünsiyyət nə qədər düzgün və səmərəli qurularsa, təhsil-tərbiyə işinin təşkili bir o qədər səmərəli olar.

Pedaqoji ünsiyyəti təmin edən amillər:

1. Müəllimin öz ixtisasını dərindən bilməsi və tətbiqi
2. Müəllimin pedaqoji ustalığı
3. Müəllimin şəxsi nümunəsi
4. Şagirdin müəllimə, müəllimin şagirdə inam və etibarı
5. Şagirdin problemini düzgün başa düşülməsi, şagird şəxsiyyətinə hörmət və tələbkarlıq
6. Öz səhvini etiraf etməyi bacarmaq
7. Şagirdlər arasında yarana biləcək konfliktin qarşısını almağı bacarmaq
8. Baş verən anlaqsızlığı ədalətlə həll etmək bacarığı

Məktəb və müəllimlərin qarşısında duran mühüm vəzifə, gələcəyin qurucuları olan indiki uşaqları bir şəxsiyyət kimi formalaşdırmaqdır.

Müəllimin təşkilatçılıq qabiliyyəti aparıcı rol oynayır, qalan qabiliyyətlər isə köməkçi qabiliyyətlər hesab edilir. Pedaqoji peşı kütləvi peşə olduğundan istənilən qədər istedadlı və qabiliyyətli tərbiyəçi tapmaq çətindir. Ona görə də bu məsələyə bir qədər başqa tərzdə yanaşmaq lazımdır. Bir çox mütəxəssislər hesab edirlər ki, insan nəzərə çarpan qabiliyyətə malik olmasa da bir çox vacib peşə keyfiyyətlərini əməksevərlik, doğruçuluq, vəzifəsinə ciddi yanaşmaqla vəzifənin öhdəsindən gələ bilər.

Bunlardan əlavə müəllim və tərbiyəçinin peşə qabiliyyətinə aşağıdakılar da daxildir:

a) əməksevərlik
b) intizamlılıq
c) məsuliyyətlilik
d) qarşıya məqsəd qoymaq və ona nail olmaq yolunu seçməyi bacarmaq
e) əməyin keyfiyyətini sistematik yüksəltmək

Müəllim və tərbiyəçinin insani keyfiyyətlərinə aşağıdakılar daxildir:

1. Humanistlik
2. Xeyirxahlıq
3. Dözümlülük
4. Düzlük
5. Ədalətlilik
6. Obyektivlik
7. Əliaçıqlıq
8. İnsanlığa hörmət
9. Nikbinlik
10. Ünsiyyətə tələbkarlıq
11. Uşaqların həyatına maraq
12. Özünü tənqidi münasibət
13. Emosional mədəniyyət

Müəllim və tərbiyəçi üçün ən vacib keyfiyyət humanizmdir. Bu yer üzündə ən yüksək dəyər olan insani münasibətdir. Bu münasibət konkret işlərdə və hərəkətlərdə öz ifadəsini tapır. Humanist münasibət dedikdə şagirdin fikrinə, şəxsiyyətinə hörmət etməkdən, şəxsiyyətinin inkişafına qayğı göstərməkdən və s. ibarətdir.

Müasir pedaqogika elmində bu məsələyə müxtəlif aspektlərdən yanaşırlar. Məsələn, pedaqoqlar Fəxrəddin İbrahimov və Rüfət Hüseynzadənin təqdim etdikləri "Pedaqogika" dərsliyində bildirilir ki, "müəllimin humanizmi onun hər bir rəftarında, davranışında, söhbətində, uşaqlara münasibətində özünü göstərməli və o hər zaman mehriban, səmimi olmalı, uşaqların səviyyəsinə enməyi bacarmalıdır. Uşağın ləyaqətinə hörmət etmək müəllimin öz ləyaqətini qat-qat yüksəldir." [1, s.159]

Digər pedaqoqlar Ağahüseyn Həsənov və Əjdər Ağayevə görə isə "humanizmin tərbiyə edilməsində əsas məsələ şagirdlərdə dünyanı qəlbləri ilə görməyi, duymağı öyrətməkdir." [2, s.350]

Müasir müəllim və tərbiyəçi həmişə fəal, yaradıcı şəxsiyyət olmaqla şagird kollektivi kimi mürəkkəb orqanizmə pedaqoji rəhbərliyi həyata keçirmək üçün inadlı olmaqla hər hansı situasiyada qarşısına qoyduğu məqsədi müstəqil həll etməyə çalışmalıdır. Dözümlülük, özünü ələ almaq müəllim peşəsi üçün zəruri olan keyfiyyətlərdəndir.

Ədalətlilik müəllimin peşə keyfiyyətlərinin ayrılmaz hissəsidir. Tərbiyəçi və müəllim sistematik olaraq şagirdin tərbiyəvi hərəkətlərini qiymətləndirir. Onun fikirləri şagirdin inkişaf səviyyəsinə uyğun olmalıdır. Şagirdlər buna əsaslanaraq müəllim barədə fikir söyləyirlər. Tərbiyəçi və müəllim qərəzçiliyi, subyektivliyi tərbiyəyə çox zərər verir. Qərəzçilik konflikt yaradır.

Müəllim və tərbiyəçi tələbkar olmalıdır. Bu onun müvəffəqiyyəti üçün əsas şərtdir. Tərbiyəçi birinci növbədə özünə tələbkar olmalıdır, çünki özündə olmayan şeyi başqalarından tələb etmək olmaz. Pedaqoji tələbat ağlabatan olmalıdır. Bir də deyirlər ki, şən tərbiyəçi qaraqabaq tərbiyəçiyə nibətən daha yaxşı tərbiyə edir.

Maraqlı haldır ki, müəllim və tərbiyəçi obrazı şagirdin qəlbində daima qalmır, illər keçdikcə dəyişir. Bağçada tərbiyəçi idealdır, onun tələbləri qanundur. Bir qədər sonra tərbiyəçi və ibtidai sinif müəllimi ideallığı azalma meyli müşahidə olunur. Müəllim və tərbiyəçinin peşə potensialı onun başlıca xarakteristikasıdır. Bu təbii və sonradan qazanılmış keyfiyyətlərin məcmusudur. Bu tərbiyəçi və müəllimin öz vəzifəsini yerinə yetirmək qabiliyyətini müəyyən edir.

Ədəbiyyat

1. Firəddin İbrahimov, Rüfət Hüseynzadə. Pedaqogika. Dərslik. 2 cilddə.I cild. Bakı: Mütərcim, 2013, s.703
2. Həsənov A., Ağayev Ə. Pedaqogika (Dərslik) "Nasir" nəşriyyatı, 2007, s.496
3. İsmixanov M.A.,Bəxtiyarova R.Ə. Ali məktəb pedaqogikası. Mühazirə kursu. Bakı,2010.s.236
4. Qasımova L.N.,Mahmudova R.M. Pedaqogika.Dərslik.Bakı.Çaşıoğlu,2012. s.548

РЕЗЮМЕ

ПЕДАГОГИЧЕСКИЕ ТРЕБОВАНИЯ ПРЕДЪЯВЛЯЕМЫЕ К СОВРЕМЕННОЙ ПРОФЕССИИ УЧИТЕЛЯ

Гусейнова А. Г.

Сумгаитский государственный университет

В статье говорится о профессиональных качествах, которыми должен обладать учитель в современное время. Рассматриваются вопросы педагогического мастерства учителя, его личного

примера, как образца для подражания и педагогического гуманизма в процессе педагогической деятельности. Особо подчеркивается, что сегодняшние школьники, являющиеся участниками процесса построения общества будущего, должны перенять у учителя не только знания, но и учиться у них жизни, поведению, общению.

Ключевые слова: *учитель, ученик, образовательный процесс, педагогическое мастерство, психология, личность*

SUMMARY

PEDAGOGICAL REQUIREMENTS FOR THE MODERN TEACHER PROFESSION

Huseynova A. H.

Sumqayit State University

The article examines the issues of professional qualities required of a teacher in modern times. Issues such as the teacher's professional activity, his pedagogical proficiency, his personal example, being an example for the student and the teacher's humanism have been clarified.In particular, it is emphasized that today's children who are participants in the process of building a future society should not learn not only knowledge from teachers but also life, behavior, communication relationships.

Keywords: *teacher, student, educational process, pedagogical proficiency, psychology, personality*

XXI ƏSR MƏKTƏBLƏRİ ÜÇÜN MÜƏLLİM HAZIRLIĞININ AKTUAL MƏSƏLƏLƏRİ

Novruzova Günel Siyavuş qızı

AMEA Gəncə Bölməsi, Gəncə Dövlət Universiteti, Azərbaycan

gunel.novruzova91@mail.ru

Açar sözlər: *21-ci əsr məktəbi, pedaqoji təhsil, rəqəmsal texnologiyalar, müəllimin mövqeləri, təhsili inkişaf etdirən, pedaqoji təhsilin məzmunu.*

Müəllim ümumi təhsil sistemində həmişə mühüm fiqur olub və əgər biz məktəbin işinin nəticələrini keyfiyyətcə yaxşılaşdırmaq istəyiriksə, ilk növbədə pedaqoji kollektivin keyfiyyətinin yüksəldilməsinə diqqət yetirməliyik. Bunu həm daxili təcrübə, həm də Beynəlxalq Tədqiqatlar sübut edir.

Qabaqcıl məktəb sistemləri tədrisin keyfiyyətini artırmaq üçün üç prinsipə sadiq olmuşdur:

- müəllimlərə uyğun insanları cəlb etmək (təhsil sisteminin keyfiyyəti orada işləyən müəllimlərin keyfiyyətindən yüksək ola bilməz);

- bu insanları effektiv müəllimlərə çevirmək (tələbələrin nəticələrini yaxşılaşdırmaq üçün yeganə yol tədrisin keyfiyyətini yaxşılaşdırmaqdır) ;

— sistem yaratmaq və ünvan dəstəyini elə təmin etmək ki, hər bir uşaq yüksək ixtisaslı tədrisə çıxış əldə edə bilsin (sistemin ən yüksək nəticə səviyyəsinə çatmağın yeganə yolu hər bir şagirdin səviyyəsini qaldırmaqdır)" [3 s.7-60].

Məqalənin məqsədi XXI əsr məktəbləri üçün müəllim hazırlığının aktual məsələlərinin təhlilidir. Sürətlə dəyişən və mürəkkəbləşən dünya təhsilə yeni tələblər irəli sürür və getdikcə daha aydın olur ki, bütün səviyyələrdə gələcək təhsil sistemi bugünkü təhsildən keyfiyyətcə fərqlənməlidir.

"Mürəkkəb cəmiyyət üçün təhsil" məruzəsinin müəllifləri qeyd edirlər ki, "indən əvvəlki yüzilliyin mühazirələri əsasında qurulmuş təhsil sistemləri dövrün tələblərinə getdikcə daha çox cavab vermir. İnformasiya sahəsində eksponent texnologiyaların inkişafı, yeni materialların, biologiyanın və genetikanın istehsalı nəzərə alınmaqla - gələcək baş verənlərə reaksiya verdiyimizdən daha tez bizə "gəlir"[11, s. 16].

Beləliklə, müasir pedaqoji cəmiyyətin sosial sorğuya cavab verməyə hazır olması məsələsi son dərəcə aktualdır. V. A. Bolotov, M. L. Levitski, i.m. Remorenko, V. V. Serikov bu sualı soruşaraq ona mənfi cavab verirlər. Onlar pedaqoji təhsilin müasir məzmununun layihələşdirilməsinin fundamental tədqiqatlara zəif söykəndiyini vurğulayırlar.

Müəllimin fənn və əslində pedaqoji hazırlığının balansı problemi həll olunmamış qalır. "Müəllimin peşəkar sosiallaşması problemi üzrə fundamental tədqiqatların çatışmazlığı ona gətirib çıxarır ki, biz bu gün eklektik (mozaik) və onun fəaliyyəti haqqında müəyyən dərəcədə arxaik təsəvvürə malikik: müəllimin öz peşəsinin məkanına daxil olmasının müasir modelləri çatışmır, müəllimlərin qabaqcıl (innovativ, rəqəmsal və

s.) fəaliyyəti kifayət qədər araşdırılmamışdır. p.) təhsil sistemləri, prosesin qiymətləndirilməsi və müəllimlərin hazırlanması nəticələrinin kriterial bazasının tənqidi yenidən düşünülməsinə ehtiyac duyur.

Təhsil standartında təqdim olunan kompetensiyalar siyahısı, əslində, onların formalaşdırılması texnologiyaları paketi ilə təmin edilmir "[4].

Son üç onillikdə pedaqoji təhsil daim tənqid olunmuş, onun təkmilləşdirilməsi proqramları işlənib hazırlanmış, onların həyata keçirilməsinə yekun vurduqda isə alınmış nəticələrin gözləntilərə uyğun gəlmədiyi vurğulanmışdır.

Bu gün XXI əsr məktəbinin məzununun hansı kompetensiyalara malik olması barədə müxtəlif baxışlar mövcuddur, lakin ümumi anlayış budur ki, bu, inkişaf etmiş təfəkkürlü, əməkdaşlığa və birgə işə qadir, təhsil almağa qadir olan, qeyri-standart məsələləri həll etməyə qadir olan, əməkdaşlıq və birgə işə istiqamətlənmiş, təhsil almağa qadir olan insan olmalıdır.

"İctimai inkişaf üçün təhsil ekosistemi" məruzələri ilə müəlliflərinin tapdığı nəticələrlə razılaşmamaq olmaz:

- indi tez-tez öyrənmə prosesinin əsasını təşkil edən şablonlara əsaslanan standart tapşırıqlar veririksə, insanları yaradıcı olmağa öyrətmək mümkün deyil;
- biz ayrı-ayrılıqda onlarla işləyiriksə və ya onları bir-biri ilə yarışmağa məcbur ediriksə, insanlara əməkdaşlıq və birgə iş öyrətmək mümkün deyil;
- biz insanlara bütün həyatları boyu öyrənməyi, öz təhsil məqsədlərinə nail olmağı öyrədə bilmirik, əgər biz ilk gündən onları müstəqil araşdırmaq imkanından məhrum ediriksə, onları öyrənmək istəyini məhv edirik;
- müəllimlərinin zehinli olmadığı təqdirdə, insanlara zehinlilik öyrətmək mümkün deyil " [12].

Tədrisin gələcək transformasiya sistemində təşkilinin əsas xüsusiyyəti onun fərdiləşdirilməsidir. "Tədris prosesinin planlaşdırılması, gedişatı və onun nəticələrinin qiymətləndirilməsi fərdi tədris planlarının mənimsənilməsi ətrafında qurulacaqdır

material və hər bir təlim fərdi inkişaf. Şagirdlər müəllimləri (müəllimlər, müəllimlər, müəllimlər, müəllimlər) ilə birlikdə planları inkişaf etdirəcək və həftəlik şəkildə düzəldəcəklər" [14].

Təhsil prosesinin təşkilinin bu modelində ənənəvi təhsil modeli ilə müqayisədə onun iştirakçılarının rolu dəyişir. Müəllim yalnız fənn müəlliminin rolunu deyil, həm də müəllim-tərbiyəçi (tərbiyəçi və ya müəllim) rolunu oynayır.

Təhsil prosesinin nəticələrinin qiymətləndirilməsi sahəsində qiymətləndirilən model hər bir tələbənin tələb olunan Attestasiya prosedurlarından dərhal sonra tələb olunan materialı mənimsədiyini və tələb olunan təhsil nəticələrinə nail olduğunu nümayiş etdirməyə hazır olduğunu göstərir. Qiymətləndirmə proseduru müxtəlif texniki vasitələrdən geniş istifadə əsasında həyata keçiriləcəkdir.

İmtahanlarda bu və ya digər rəqəmsal alətlərdən (məsələn, geoinformasiya sistemləri) istifadə olunması bu alətlərin gündəlik Tədris işində geniş istifadə olunmasına gətirib çıxaracaqdır.

Yuxarıda təsvir olunan rəqəmsal məktəb modelinin əsasını təşkil edən ümumi təhsilin rəqəmsal transformasiyası ideyaları və onların tətbiqi praktikası kəskin və mənim fikrimcə, bir çox cəhətdən əsaslandırılmış tənqidlərə məruz qalır. Bununla yanaşı, rəqəmsal texnologiyaların tətbiqi, şübhəsiz ki, mövcud olanlardan keyfiyyətcə fərqli olan və sonuncu üçün əlçatmaz təhsilin nəticələrini əldə etməyə imkan verən bir məktəb qurmaq üçün əhəmiyyətli imkanlar açır. Amma bu imkanlar hələ istifadə etmək öyrənmək lazımdır.

Təhsilin rəqəmsal transformasiyasının təklif olunan modelinin əsas çatışmamazlığı ondan ibarətdir ki, o, quraşdırmanı şagirdlərin inkişafına bəyan edərək, bunun üçün tamdəyərli şərait yaratmır. Hesab edirəm ki, rəqəmsal texnologiyaların tətbiqi, ilk növbədə, əsaslandırılmış psixoloji-pedaqoji nəzəriyyənin məntiqində həyata keçirildikdə, ikincisi, əgər bu texnologiyalar yalnız fənn biliklərinin yayımlanması məsələlərinin həlli üçün deyil, təhsil sisteminin tərkib hissəsi olacaqsa, həqiqətən effektiv olacaqdır.

XXI əsrdə yaşamaq üçün zəruri olan ümumi təhsilin nəticələrinə nail olmaq müəllimin bugünkü məktəbdəki məsələlərundən daha çox digər məsələləri həll etməli olduğu təhsil sistemlərinin qurulmasını tələb edəcəkdir. Belə bir məktəbin konseptual modelləri artıq var [7], [8], [9], [10]. Fənn biliklərinin yayımı müxtəlif rəqəmsal platformalar və təlim proqramlarının kompüter texnologiyaları ilə təmin edilə bilər. Onlar təkmilləşdiriləcəkdir. Buna görə də belə müəllimlərin hazırlanmasına istiqamətlənmiş pedaqoji təhsilin perspektivi yoxdur. İnkişaf edən tipli tədris fəaliyyətini layihələşdirməyə, həyata keçirməyə, təhlil etməyə və təkmilləşdirməyə qadir olan müəllimlər tələb olunacaq.

Gələcək müəllimlərin təlim sistemini qurarkən, bütün hallarda iki əsas suala cavab vermək lazım gəlir- tələbələrə nə öyrətmək və necə öyrətmək lazımdır. XXI əsr məktəbi üçün müəllim hazırlığına tətbiq edilən

bu suallara cavablar bu gün malik olduğumuz mövzularla müqayisədə əhəmiyyətli dəyişikliklərə məruz qalmalıdır.

Pedaqoji təhsilin məzmunundan başlayacağam. Normal olaraq, məktəblilərin nə və necə öyrədilməsini müəyyən edən üç hissədən ibarət olmalıdır:

- şagirdlərə çatdırılmalı olan fənn bilikləri və bacarıqları;
- şagirdlərə təqdim edilməli olan metapredmetmetik bilik və bacarıqlar (idrak məsələləri həll etmək bacarığı, hədəflər qoymaq bacarığı, praktiki tədbirlər planlaşdırmaq bacarığı və s.);
- təlim fəaliyyətinin layihələndirilməsi, həyata keçirilməsi, təhlili və qiymətləndirilməsi texnologiyaları.

Bu gün pedaqoji təhsil proqramlarında ikinci hissə faktiki olaraq yoxdur, yaxud onun fraqmentləri vardır. Əgər müəllim məktəblilərə idrak və ya praktiki məsələləri həll etməyi öyrətmək istəyirsə, onda o bilməlidir ki, müvafiq hərəkətlərin yerinə yetirilməsinin hansı üsulları öyrənilməlidir. Bu üsullar da ümumi məzmuna daxildir

təhsil. Əgər biz Dərsliklər açsaq, bu ikinci məzmunu orada tapa bilmərik.

Lakin, müəllim tələb olunan bacarıqları formalaşdıraraq, şagirdlərə veriləcək təlim hərəkətlərini yerinə yetirmək yollarını bilməli və bu üsullar pedaqoji təhsilin məzmununa daxil olmalıdır.

Pedaqoji təhsilin məzmununun üçüncü hissəsi qeyri-adekvatdır, çünki tədris fəaliyyətinin köhnəlmiş modelinin həyata keçirilməsini nəzərdə tutur.

Məktəb tələbələrin tam inkişafı və XXI əsrin səlahiyyətlərinin formalaşması məsələlərini həll edə bilməsi üçün, tədqiqat və layihələndirmə Tələbələrin fəaliyyətinin aparıcı növləri olmalıdır. Bu gün yuxarı məktəbdə "fərdi layihə"adlı xüsusi fənn tətbiq edilib. Lakin bu azdır və bu, yalnız başlanğıcdır. Şagirdlər fərdi layihəni (tədqiqat və ya praktiki) keyfiyyətcə yerinə yetirmədən əvvəl birgə fəaliyyətlərdə tədqiqat və dizayn yollarını öyrənməlidirlər. Müəllimlər bu cür fəaliyyəti təşkil etməyə və orada iştirak etməyə qadir olmalıdırlar.

Bu o deməkdir ki, onlar ali məktəbdə təhsil prosesində buna hazırlaşmalıdırlar. Hesab edirəm ki, məktəblilərin layihə və tədqiqat fəaliyyətinin öyrənilməsi gələcək müəllimlərin hazırlanması proqramlarında Mərkəzi (periferik) yer tutmalıdır.

Eyni zamanda, əlbəttə ki, gələcək müəllimlərin təlimlərinin məzmununa müasir rəqəmsal texnologiyaların imkanlarını bilmək və müxtəlif növ problemləri həll etmək üçün tədris fəaliyyətində istifadə etmək yollarını daxil etmək lazımdır.

Pedaqoji təhsil sisteminin ikinci mühüm komponenti texnologiyadır.

Gələcək müəllimlərin öyrədilməsinin əsas dezavantajı yaxşı bilinir-təlimin seminar və tədris formasının hökmranlığı. O, Tələbələrdə peşəkar təfəkkürün mükəmməl inkişafını təmin edə bilmir.

Mühazirə-seminar məhdudiyyətlər anlamaq üçün

gələcək müəllimlərin peşə təfəkkürünün inkişafı və inkişaf etməkdə olan təhsil texnologiyalarının hansı tələblərə cavab verməsi baxımından təhsilin formaları müvafiq psixoloji təfəkkür nəzəriyyəsinə əsaslanmalıdır. Bu nəzəriyyə mədəni-tarixi elm məktəbində hazırlanmışdır psixologiya (L. S. Vygotsky, P. ya Galperin, V. V. Davidov, A. N. Leontyev, A. R. Luriya, D. B. Elkonin və s.). Bu nəzəriyyəyə görə, insan təfəkkürünün xüsusiyyəti ondan ibarətdir ki, heyvanların təfəkküründən fərqli olaraq, o, vasitəli xarakter daşıyır.

Hər bir peşənin öz dili var, o cümlədən başqa dillərdə olmayan anlayışlar. Müəllimlərin, həkimlərin, mühəndislərin peşəkar dilləri müxtəlifdir, ona görə də onların peşəkar təfəkkürü və müvafiq intellektual vəzifələri həll etmək qabiliyyəti müxtəlifdir.

Konsepsiya düşüncə hərəkətlərini yerinə yetirmək üçün bir vasitə halına gətirmək üçün bu cür düşüncə hərəkətlərini yerinə yetirərkən formalaşmalıdır. Avtomobili idarə etmədən idarə etməyi öyrənmək olmaz. Eyni şəkildə, zehni yerinə yetirməyi öyrənə bilməzsiniz

onları yerinə yetirmədən hərəkətlər.

Bundan Tələbələrdə peşəkar təfəkkürün formalaşdırılması üçün nə lazımdır?

Birincisi, əgər biz Tələbələrdə hansısa fikir hərəkəti yaratmaq istəyiriksə, onları bu hərəkətin yerinə yetirilməsinə cəlb etməliyik. İnkişaf yalnız fəaliyyət və fəaliyyət vasitəsilə baş verir.

İkincisi, bu hərəkətin yerinə yetirilməsinin orijinal forması xarici olmalıdır. Daxili hala gəlməzdən əvvəl hər cür fikir hərəkət xarici forma malikdir.

Üçüncüsü, formalaşan hərəkət kollektiv surətdə yerinə yetirilməlidir. İnteriorizasiya kollektivdən fərdi kollektivə doğru gedir.

Dördüncüsü, tələbələrin zehni fəaliyyətinin formalaşması prosesində onların fəaliyyət üsulunun refleksiyası daim həyata keçirilməlidir.

Beşincisi, mənimsənilən anlayış tələbələrə hazır şəkildə verilməməli, müəllimlə birlikdə çıxarılmalıdır.

Bütün bunları tədris mühazirə-seminar forması təmin etmir. Burada məzmunca zəngin nəzəri anlayışlar deyil, definisiyalar nəzəri biliklərin ən mücərrəd formasıdır.

Pedaqoji ali məktəblərdə tədqiqat və layihə fəaliyyətinin tədrisi proqramları mövcuddur. Lakin onlar bu fəaliyyətin mənimsənilməsinə gətirib çıxarmır. Əgər tələbələr hansısa tədqiqat və layihələndirmə məsələlərini həll edirlərsə, bu o demək deyil ki, onlar bu fəaliyyəti mənimsəyəcəklər. Tədqiqat və dizayn tədris prosesində epizod olmalı deyil, bütün tədris prosesindən keçməli, onun əsas məzmunu olmalıdır.

Nəticələr.

1. Ümumi təhsildə rəqəmsal texnologiyaların tətbiqi müəllimin təhsil prosesində mövqeyinin və onun səlahiyyətlərinin tələblərinə radikal bir şəkildə dəyişdirilməsinə gətirib çıxaracaq.

Bilik translyasiyası müəllimin əsas vəzifəsi olmaqdan çıxacaqdır.

2. XXI əsrin məktəbi inkişaf edən olmalıdır, çünki belə məktəbin yalnız məzunları dəyişən cəmiyyətdə tələb olunacaqlar.

3. Bütün bu dəyişikliklər artıq bu gün pedaqoji təhsilin məzmununda və texnologiyalarında keyfiyyətli dəyişikliklər tələb edir. O, təhsil məktəbi üçün müəllim hazırlığından, bilik translyatorunun müəllim hazırlığından uzaqlaşmalıdır.

Ədəbiyyat

1. «Azərbaycan Respublikasının ali təhsil müəssələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. «Azərbaycan» qəzeti, Bakı, 2008, 1 fevral.
2. Cahangirov A., Qədirov F. Müasir dərs. “Azərbaycan müəllimi” qəzeti,2000 –ci il, 21- 27 sentyabr.
3. Əliyev H. Ə.Təhsil millətin gələcəyidir (Tərtib edənlər: M.Mərdanov, Ə.Quliyev). Bakı: Təhsil, 2002.
4. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998.
5. ƏlizadəƏ., Əlizadə H. Pedaqoji psixologiya. Bakı: 2010.
6. İlyasov M.İ. Müəllimin pedaqoji ustalığı. Bakı: Elm və təhsil, 2013.
7. Karnegi D. Dost qazanmaq və adamlara təsir göstərmək sənəti. Bakı: Qanun nəşriyyatı, 2015.
8. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2002.
9. Kərimov Y.Ş. Pedaqoji tədqiqat metodları. Bakı:Azərnəşr, 2009
10. Mürəkkəb cəmiyyət üçün təhsil: qlobal təhsil gələcək hesabat. 212 C. URL: https://drive.google.com/file/d/0B9ZvF6mQ5FMbSTFKVmhodU5rNTNiTXpUZ2QwZktiR0pzSmJR/view (müraciət tarixi: 25.04.2021).
11. İctimai inkişaf üçün təhsil ekosistemləri: hesabat. URL: https://drive.google.com/file/d/0b9zvf6mq5fmbstfkvmhodu5rntnitxpuz2qktir0pzsmjr/bax (Tarix: 25.04.2021).
12. Orlov A.A., Orlova L.A., Boziyev R.S. milli pedaqoji təhsil modellərinin dizaynının aktual problemləri // SB: "Müasir Rusiyada pedaqoji təhsil: inkişafın strateji istiqamətləri". - Rostov n / d; Taganrog: Cənubi Federal Universiteti, 2020. S. 155-171 (müraciət tarixi: 25.04.2021).
13. Çətinliklər və təhsilin rəqəmsal transformasiyasının perspektivləri / A. Y. Uvarovun və D. Fruminin redaktəsi ilə. M.: Ali ŞK Nəşriyyat Evi. iqtisadiyyat, 2019. 342 S.
14. Alimlər və müəllimlər məktəbin rəqəmləşdirilməsinə qarşı çıxdılar. Ünvan: http://kolokolrussia.ru/təhsil/alim-i-pedaqoqlar-giriş-qarşı-cifrovizacii-məktəb (müraciət tarixi: 25.04.2021). 16. Dörd Nəfər Haqqında. N. Rusiya layihəsi "Digital School" gizli təhdidlər / / Milli Təhsil. 2019. № 1. S. 9-25.

РЕЗЮМЕ

АКТУАЛЬНЫЕ ВОПРОСЫ ПОДГОТОВКИ УЧИТЕЛЕЙ ДЛЯ ШКОЛ XXI ВЕКА

Новрузова Г. С.

Гянджинский государственный университет, Гянджа, Азербайджан

В системе общего образования уже в ближайшей перспективе неизбежно произойдут качественные изменения. Это приведет к изменению роли педагога в образовательном процессе и

требований к его компетенциям. Анализ показывает, что современное педагогическое образование не готово к тому, чтобы выпускать учителей, отвечающих требованиям современной социальной ситуации. За последние тридцать лет, педагогическое образование сохраняет ориентацию на подготовку учителя. Чтобы преодолеть ограничения существующие в системе подготовки будущих учителей, потребуется существенно изменить содержание программ и технологии педагогического образования.

Ключевые слова: *школа 21 века, педагогического образования, цифровые технологии, позиции учителя, развивающее образование, содержание педагогического образования.*

SUMMARY

CURRENT ISSUES OF TEACHER TRAINING FOR SCHOOLS OF THE XXI CENTURY

Novruzova G. S.

Ganja State University, Ganja, Azerbaijan

Qualitative changes will inevitably occur in the general education system in the near future. This will lead to a change in the role of the teacher in the educational process and the requirements for his competencies. The analysis shows that modern pedagogical education is not ready to produce teachers who meet the requirements of the modern social situation. Over the past thirty years, teacher education has maintained a focus on teacher training. In order to overcome the limitations existing in the system of training future teachers, it will be necessary to significantly change the content of programs and technologies of pedagogical education.

Keywords: *school of the 21st century, pedagogical education, digital technologies, teacher positions, developing education, content of pedagogical education.*

HEYDƏR ƏLİYEV İDEYALARINDA MÜƏLLİM ŞƏXSİYYƏTİ

[1]Hüseynov Şikar Əli oğlu, [2]Əhmədov Qara Hüseyn oğlu

Sumqayıt Dövlət Universiteti, 1-ped.f.d.,dosent, 2- baş müəllim

Shikar_huseynli@mail.ru ; qara_ahmedov_66@mail.ru

Açar sözlər: *ümummilli lider, müəllim, şəxsiyyət, məktəb, ,formalaşdırma*

Müstəqil, suveren Azərbaycan Respublikasında baş verən ictimai-siyasi, sosial-iqtisadi dəyişikliklər, təhsilin demokratik və humanist prinsipləri əsasında qurulması insan amilinə, vətəndaş təhsili və tərbiyəsinə , müəllim əxsiyyətinin formalaşması məsələlərinə xüsusi diqqət yetirməyi tələb edir. Bu mənada Ümummilli Lider Heydər Əliyevin elmi-nəzəri və ideya irsində dövlətçilik, müstəqillik , azərbaycançılıq, insan – şəxsiyyət – vətəndaş amili mühüm yer tutur.İlk dəfə olaraq Heydər Əliyev dövlətçiliyin siyasi, iqtisadi , milli və mənəvi inkişaf yollarını müəyyənləşdirərkən şəxsiyyət – vətəndaş tərbiyəsinin mühüm rolunu göstərmişdir. Məhz Heydər Əliyev insanın kamillik ölçüsünü onun yüksək mənəviyyata malik insan-vətəndaş olması ilə səciyyələndirmişdir və bi işdə müəllimlərin qarşısında mühüm vəzifələr qoyurdu.

Heydər Əliyev Azərbaycan müəllimlərinin XI qurultayına təbrik məktubunda (24 sentyabr 1998-ci il) qeyd etmişdir ki, bu gün ölkəmizin qarşısında duran problemlərin həllində müəllimlərin fəal iştirakı xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan müəlliminin bir məqsədi , bir amalı olmalıdır; çiçəklənən, inkişaf edən, firavan, qüdrətli bir dövlətə çevirməyə qadir, müstəqillik ideyalarına sadiq, özünü vətənin azadlığı naminə fəda verməyə hər an hazir olan, yeni təfəkkür tərzini qavrayaraq müasir tələblərə cavab verən, sağlam əqidəli, milli ruhlu nəsil yetişdirmək lazımdır. Biz hamımız həyatımızda əldə etdiyimiz nailiyyətlərə, bütün varlığımıza görə müəllimlərimizə borcluyuq. Hər bir cəmiyyətdə savadlı şəxs müəllimə hörmət etməli, cəmiyyətin həyatında oynadığ rolu qiymətləndirməlidir. Cəmiyyət harada olursa olsun, nədən olursa olsun, kəsib təhsilə xırcləməlidir, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Həyatını müəllimliyə həsr edən həqiqətən fədakar, xalqina, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır. İnsan konsepsiyasına daxil olan müəllim şəxsiyyəti problemi onun bütün xüsusiyyətlərini , qabiliyyətlərini, daxili amilini, həyatda tutduğu mövqeyi, təlimini və tərbiyəsini özündə ehtiva edir və zaman keçdikcə bu

keyfiyyətlər təkmilləşir, formalaşır, kamil insan – bütöv insan səviyyəsinə yüksəlir. İnsan adi fərddən şəxsiyyət səviyyəsinə doğru böyük inkişaf yolu keçir. O, özünün mənəvi, intellektual və fiziki inkişafı, idrakı, psixi xüsusiyyətləri və qabiliyyətləri ilə seçilən şəxsiyyətə çevrilir. Lakin bu proses özbaşına gedən bir proses deyil. Bir fərd kimi dünyaya gələn insan ilk növbədə tərbiyəyə, ictimai mühitə möhtac olur. Şəxsiyyətin formalaşması və tərbiyəsi prosesinin əsası sistemli, planlı şəkildə məktəbdə qoyulur. Şagird ilkin olaraq sosial, iqtisadi, ekoloji, əxlaqi, mənəvi, hüquqi biliklərə yiyələnir, yuxarı siniflərə keçdikcə onlarda vətəndaşlıq mövqeyi, vətəndaşlıq təhsili və hazırlığı formalaşır. Vətəndaşlıq təhsili isə bütövlükdə vətəndaş tərbiyəsini, əxlaq tərbiyəsini, əmək tərbiyəsini ekoloji, fiziki, hüquq tərbiyəsi kimi komponentlərini özündə ehtiva edir.

Məktəbdə şəxsiyyətin tərbiyəsinin formalaşması üçün hər bir müəllim vətəndaş təhsilinin vasitə və üsullarından səmərəli istifadə etməli, kiçik məktəb yaşlarından başlayaraq bu istiqamətdə məqsədyönlü işlər aparmalıdır. Ümummilli lider qeyd edirdi ki, "Gərək hər bir müəllim, məktəbli, hər bir gənc Azərbaycanın tarixini, xalqımızın keçdiyi inkişaf yolunu yaxşı bilsin, tariximizi bilməyənlərə, adət-ənənələrimizə gözləməyənlərə vətənpərvər demək olmaz. Bu şəxsiyyət tərbiyəsində, vətəndaş təhsilində ən vacib məsələlərdən biridir".

Məktəbdə şagirdlərin şəxsiyyət-vətəndaş tərbiyəsinin həyata keçirilməsində daha çox humanitar biliklər əsas rol oynadığından bu sahədə səmərə əldə etmək daha çox mümkündür. Lakin bu biliyi şagirdə ötürən, onu həyata keçirən, pedaqoji prosesdə rəhbərlik edən müəllimlərin, pedaqoji kollektivin, məktəbin idarəetmə orqanlarının daşıdıqları funksiyalar daha önəmlidir. "Müəllim adı dünyada ən yüksək addır. Şəxsən mən yer üzərində müəllimdən yüksək ad tanımıram. Çünki hər birimizə təhsil, bilik verən, bu səviyyəyə çatdıran məktəbdir, məktəbdə təhsil verən müəllimdir" - deyən Heydər Əliyev müəllimin şəxsi və peşə keyfiyyətlərinə xüsusi önəm verərək müəllimin mənəvi-əxlaqi simasını, ideya inamını, səmimiliyii, vicdanlılığını, maraq dairəsinin genişliyini məktəbdə qüdrətli tərbiyə amili hesab edirdi. [3, 257]

Heydər Əliyev bu amilləri məktəbli şəxsiyyətinin formalaşması üçün vacib sayırdı. Bu ideyaları belə ümumiləşdirmək olar :

- Müəllimin şəxsi keyfiyyətləri—ləyaqəti, mənəviyyatı, nüfuzu, ictimai fəallığı
- Müəllimin yüksək peşəkarlığı, peşəsinə olan məhəbbəti, pedaqoji qabiliyyəti
- Pedaqoji kollektivdə olan mənəvi-psixoloji mühitin saflığı, humanistlik və xeyirxahlığın mövcudluğu, müəllim-şagird münasibətlərində şəffaflıq

Söz vasitəsi ilə öyrətmələr, izahlar nə qədər təsirə malik olsa da şəxsi nümunələr praktik hərəkət və davranışlar müəllimin şəxsi keyfiyyətləri, əxlaqi, mənəviyyatı, əməlləri, davranışı, geyimi , problemlərə ədalətli yanaşması, intizamlılığı, qanunların aliliyinə əməl olunması şagirdlərdə düzgün vətəndaş mövqeyinin formalaşmasına güclü təsir göstərir. Heydər Əliyev nitq və çıxışlarında, müəllimlərlə, ziyalılarla görüşlərində bu məsələlərə xüsusi önəm verirdi və özü də şəxsi nümunə idi.

Şəxsiyyətin formalaşması imkanlarının artırılmasında təhsil aparıcı rol oynayır. Təhsildə müəllimin roluna yüksək qiymət verən Heydər Əliyev qeyd edirdi ki, müəllimlik sənəti,peşəsi cəmiyyətdə ən yüksək qiymətə layiq olan bir peşədir, müəllim olmaq kimi şərəfli bir iş yoxdur. Çünki müəllimlər xalqın bıliklənməsinin, təhsilin inkişaf etməsinin və nəhayət, xalqın elminin inkişaf etməsinin əsasını qoyanlardır." [2,412] Təhsil vasitəsilə müəllim insanda əxlaqi bilik və əxlaqi əqidəni formalaşdırır. Müəllim üzərinə düşən vəzifələri yalnız təlim vasitəsilə deyil, özünün şəxsi nümunəsi və peşəsinə aid dərin biliyi və pedaqojii ustalığı ilə yerinə yetirir.

Heydər Əliyev məktəbin göstəricilərinə qiymət verərkən insan amilini əsas götürürdü: "Çox uzun bir müddət ərzində məktəbin işinə yalnız bir göstəriciyə görə qiymət verilirdi: məktəbin nə qədər məzunu tələbə olmuş, ali məktəb diplomu almışdır. Bu nöqteyi-nəzəri dəyişdirmək vaxtı çatmışdır. Bilikli, bacarıqlı, əməksevər insanlar yetişdirmək məktəbin ən birinci borcudur. Məzun əməyə hazırdırmı – bu gün məktəbin işi bu meyarla müəyyən edilir." [3, 256]. Göründüyü kimi, insan-şəxsiyyət amili Ulu Öndərin ideya irsinin aparıcı leytmotivini təşkil edir..

Heydər Əliyev ayrı-ayrı nitq və çıxışlarında irəli sürdüyü qiymətli fikirlər tərbiyə işinin məzmununu , həm də onun həyata keçirilmə yollarını müəyyənləşdirmişdir. O, ölkəmizin gənclərinin müstəqil dövlətinin öz taleyinin sahibi olmaq hissinə yiyələnməsi ideyasını irəli sürmüşdür. Azərbaycanın gələcəyi, müstəqilliyimizin taleyi məhz belə insanların yetişdirilməsini tələb edir.

H.Əliyevin irsində insanın insana, insanın Vətənə xalqına dövlətinə olan sədaqəti mühüm yer tutur. O, müəllimin bir vətəndaş, şəxsiyyət kimi formalaşmasında əqli, əxlaqi, fiziki ,mənəvi tərbiyənin vəhdətini əsas götürür, müəllimin ideya vətəndaşlıq, peşə, şəxsi mənəvi və iradi emosional keyfiyyətlərə malik olmasına önəm verirdi. Şəxsiyyətin bir vətəndaş kimi təşəkkülündə , gənclərin vətənpərvərlik tərbiyəsində məktəbin, müəllimin böyük rol oynadığını qeyd edirdi. Heydər Əliyev məktəbdə vətənpərvərlik tərbiyəsi işini daim təkmilləşdirməyi , onun müxtəlif forma və metodlarından istifadəni müəllimin vətəndaşlıq borcu hesab edirdi.

Ülu Öndər Azərbaycan müəllimlərinin VI qurultayındakı çıxışında demışdır: " Böyüməkdə olan nəslin tərbiyəsi, mənəviyyatca zəngin, ideyaca mətin, yüksək əxlaqlı şəxsiyyətin formalaşdırılması bu gün cəmiyyətimizin qarşısında duran çox mühüm vəzifədir. Bu kompleks problemdir və onun həllində məktəb çox böyük rol oynayır. Məktəbdə insanın dünyagörüşünün bünövrəsi qoyulur. Onun xarakteri formalaşır, ideya dayaqlarının, mənəvi və əxlaqi dayaqların təməli yaradılır. Məktəbin təsiri altında adamın əməyə məhəbbət, yüksək mənəviyyat və humanızm, vətənpərvərlik kimi zəruri keyfiyyətləri tərbiyə edilir." (5)

Ulu öndər Heydər Əliyev məktəblərdə aparılan tərbiyə işlərindən danışarkən deyirdi: "Məktəbdə insanın mənəvi keyfiyyətlərinin əsası qoyulur, onun baxışları, arzu və istəkləri formalaşır, onun rəhbər tutduğu mənəvi dəyərlər bir çox cəhətdən müəyyənləşir" [3, 257]

Şagirdlərin əsl vətəndaş, şəxsiyyət kimi formalaşmasında mühüm pedaqoji əsaslardan biri təlimin müasir texnologiyalarının həyata keçirilməsidir. Bu texnologiyalardan səmərəli istifadə məktəblilərdə müəyyən bacarıqlar formalaşdırır, onlarda dialoqa girmək, mühakimə yürütmək, müstəqil düşünmək, əməkdaşlıq etmək , qərarlar qəbul etmək, öz hüquqlarını qorumaq və müdafiə etmək kimi keyfiyyətləri formalaşdırır. Bu bacarıq və keyfiyyətlər isə sözsüz ki, vətəndaş təhsilinin, şəxsiyyət tərbiyəsinin əsaslarını təşkil edir.

Ulu Öndər Heydər Əliyev gənclərə, uşaqlara böyük dəyər verirdi. O, məktəbə gedən uşaqlara müraciətlə deyirdi: " Bu gün məktəbə gedən uşaqlar Azərbaycanın vətəndaşı- yüksək mənada vətəndaş, yüksək biliyə malik olan vətəndaş , yüksək əxlaqa malik olan vətəndaş, dövlətçiliyə sədaqətli olan vətəndaş, vətənpərvər olan vətəndaş olmalıdır." [2,416] Bu işdə müəllimin üzərinə mühüm vəzifə düşür.

Tədris prosesində Heydər Əliyev irsində şəxsiyyət-vətəndaş tərbiyəsi üzrə iş apararkən bir sıra zəruri şərtlərə diqqət yetirilməlidir:

1. Təlim materialı şagirdin şəxsiyyətinə müvafiq olmalı, sadədən mürəkkəbə, asandan çətinə prinsipi əsasında qurulmalıdır.
2. Təlim üsulları və qaydaları seçilərkən məktəblilərin psixi inkişafı nəzərə alınmalıdır.
3. Təlim prosesində müəllim şagirdlərin müsbət keyfiyyətlərini qiymətləndirməli, mənfi cəhətləri aradan qaldırmalıdır.
4. Şagirdlərin əqli, əxlaqi, psixi və mənəvi inkişafının , bir sözlə şəxsiyyət-vətəndaş tərbiyəsinin mənəvi inkişafının həyata keçirilməsində fasiləsizlik gözlənilməlidir.

Məktəbdə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə aid materiallar tədris olunarkən müəllim şagirdlərin vətəndaş təhsilini və tərbiyəsini həyata keçirmək üçün mövcud imkanlardan səmərəli istifadə etməlidir. Şagirdlər Heydər Əliyevin həyatı, fəaliyyəti ilə məlumatlandırılarkən müəllim Heydər Əliyevin Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin yaradıcısı və qurucusu, onun həyat yolunun hər bir azərbaycanlı üçün nümunə, örnək olduğunu, doğma vətənini, torpağını dərindən sevdiyini, torpaqlarımızın uğrunda mübarizə apardığını öyrənir, özləri də bu ruhda tərbiyə olunur. Onlar dərk edirlər ki, Heydər Əliyev vətəndaş təhsili alan böyük Azərbaycanlıdır. Kamil bir şəxsiyyət olan H.Əliyev dövrünün problemlərinə əsl vətəndaş təəssübkeşliyi ilə yanaşırdı. Ən vacib keyfiyyətlərindən biri də məhz onun humanizm, sosial-ədalət, insanpərvərlik prinsiplərinə tapınması olmuşdur. O, hər bir fərdin maraq və mənafeyini, qanunu hüquqlarının müdafiəsini dövlətin mühüm vəzifəsi saymış, insana hörmət və qayğını önə çəkmişdir. O, deyirdi: "Hər bir insanın milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam." Heydər Əliyev azərbaycanlılara xas olan yaxşı nə varsa, onların hamısını öz simasında cəmləşdirmiş, özü də bu keyfiyyətlərin daşıyıcısı olmuş və bütün insanlara bunu arzulamışdır.

Heydər Əliyevin hər bir Azərbaycan müəllimində görmək istədiyi keyfiyyətləri bunlar idi:

1.Dövlətçilik, 2. Milli mənəvi dəyərlər, 3. Ümumbəşər dəyərlər, 4. Azərbaycançılıq

Ümummilli Lider Heydər Əliyevin ideya nəzəri irsində müəllim şəxsiyyəti haqqında söylədiyi fikirlər bu gün də öz dəyərini saxlayır və müəllimləri daha səmərəli fəaliyyət göstərməyə ruhlandırır.

Ədəbiyyat

1. Heydər Əliyev . Müstəqilliyimiz əbədidir. Azərnəşr, Bakı , 1997, 513 səh,4-cü kitab
2. Heydər Əliyev. Müstəqilliyimz əbədidir. Azərnəşr Bakı-2009, 520 səh, 29-cü kitab
3. Heydər Əliyev: Təhsil, Bilik, Məktəb –Bak,. ”Müəllim ”nəşriyyatı , 2006, 400 səh. (Tərtibçi . Ə.İsmayılov, redaktor və məsləhətçi: prof. A. Naxçıvanlı)
4. Şəxsiyyətin qüdrəti. Bakı , “Yazıçı” nəşriyyatı 2012, 302 səh. (Tərtib edən, prof. A..Naxçıvanlı)
5. Müdriklik zirvəsi. Bakı. Yazıçı nəşriyyatı 2011, 300 səh. (Tərtib edən , prof. A. Naxçıvanlı)

РЕЗЮМЕ

ЛИЧНОСТЬ УЧИТЕЛЯ В ИДЕЯХ ГЕЙДАРА АЛИЕВА

Гусейнов Ш. А., Ахмедов Г. Г.

Сумгаитский государственный университет

В статье исседуется постановка проблемы личность-гражданин в идеях Гейдара Алиева. В отношении формирования личности обращаются к мыслям и идеям Гейдар Алиева. А также говорится о различных формах работы и возможностях формирования учащихся, как граждан и обучения в школах наследия Гейдара Алиева.

Ключевые слова: *общенациональный лидер, личность, школа, формированиео*

SUMMARY

TEACHER PERSONALITY IN HEYDAR ALIYEV'S IDEAS

Huseynov Sh. A., Ahmadov G.H.

Sumqayit State University

In the article the author inverstigates the problem of citizen-personality in Heydar Aliyev's heritage. On forming the personality it is appeled to H. Aliyev's thoughts and ideas. The article is devoted to the different forms of works of teaching hereditaty at school and to the pupils' growing.

Keywords: *national leader, personality, school, forming*

III BÖLMƏ

MÜASİR DÖVRDƏ MÜƏLLİM ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASININ PSİXOLOJİ ASPEKTLƏRİ

MÜƏLLİMİN ŞƏXSİ XÜSUSİYYƏTLƏRİNİN YARATDIĞI ÜNSİYYƏT ÇƏTİNLİKLƏRİ

Salamova Kamalə Bahazər qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
Salamovak11@gmail.com

Açar sözlər: *Müəllim tələbə,ünsiyyət,bacarıq,təsir*

Pedaqoji ünsiyyət müəllimin şagirdlərlə, habelə onların valideynləri ilə müəyyən pedaqoji, o cümlədən təhsil məqsədləri olan peşəkar ünsiyyətidir. Pedaqoji ünsiyyətin köməyi ilə təkcə bilik və bacarıqların ötürülməsi deyil, həm də şagirdlərin şəxsiyyətinin xüsusiyyətləri, fikir və münasibətlərıı dəyişir, qarşılıqlı anlaşma yaranır. Çünki ünsiyyət qarşılıqlı prosesdir, insanlar arasında qarşılıqlı əlaqədir. Odur ki, pedaqoji ünsiyyət təkcə müəllimin şagirdlərə təsiri deyil, həm də şagirdin müəllimə təsiridir. Bu zaman müəllimin təşəbbüsü ilə olsa belə, şagird də müəllimə təsir edir, onun davranışına, hərəkətlərinə bu və ya digər şəkildə reaksiya verməyə məcbur edir. Buna görə də pedaqoji ünsiyyət müəllimin şagirdlərə birtərəfli təzyiqi prosesi kimi qəbul olunmur.

Bəzi müəllimlər, məktəb direktorları, dekanlar və digər pedaqoji müəssisələrdə çalışan səlahiyyətli insanlar, hətta tək-bətək söhbət zamanı belə özlərini kürsüdə olan kimi aparırlar. Direktorlardan tutmuş sinif rəhbərlərinə qədər bütün rütbələrin "boslarını" belə psevdooratorik üslubda mənimsəmək asandır. Onlar həmsöhbətlə danışarkən, bir qayda olaraq, "onun vasitəsilə" baxır və hansısa xəyali kütləyə müraciət edirlər: "Yoldaşlar, nəhayət başa düşməyin vaxtıdır ki, sizin üçün əsas olan nizam-intizamdır" və s. kommunikativ vəziyyətin dəyişməsindən və ətrafdakı konteksti nəzərə almaq ehtiyacından qorxaraq həmsöhbətlə görüşməkdən çəkinirlər. Belə bir "müəllim" ifadələrini fərdiləşdirməyə və həmsöhbətin daxili vəziyyəti ilə əlaqələndirməyə meylli deyil. Onun üçün əsas məsələ funksional-rol məsafəsini saxlamaqdır. Təsəvvür etmək çətindir ki, belə bir lider müəllim yoldaşlarını və ya tələbələrini səmimi söhbətə çağıra, onlarda "ruhlarını açmaq", ağrılarını bölüşmək istəyini oyatmaq imkanı verəcəkdir. Eyni zamanda, o, səmimi şəkildə öz problemlərinə rəğbət oyatmaq və səylərinin müsbət qiymətləndirilməsini istəyir. Belə müəllimlər əsəbilik, düzlük, sərtlik, tələskənlik, yüksək qürur, inadkarlıq, özünə inam, yumor hissinin olmaması, toxunma, məsumluq, yavaşlıq, quruluq, nizamsızlıq kimi xüsusiyyətlərinin arxasında gizlənirlər.

Qızğın emossional xüsusiyyətlər və özünə inam yaşlı müəllimlərə inadkarlıq, nizamsızlıq və qərarsızlıq isə gənc müəllimlərdə daha çox müşayət olunur.Şəhər müəllimləri ədəb-ərkanında yumşaqlığı, hərtərəfliliyi, eyni zamanda düz danışıqlığı ilə seçilən kənd müəllimlərindən daha çox əsəbi və emossional olurlar.

Hansı ki, müəllimin şagird və tələbə ilə münasibətdə formalaşmış stereotipik münasibətlər sistemi mövcuddur. Bu stereotiplərdən biri də müəllimin şagirdi fəaliyyətinə görə qiymətləndirməsidir. Yaxşı nəticə göstərən şagirdləri təsvir edən müəllimlər, ilk növbədə onların müsbət keyfiyyətləri, əsasən, intellektual və iradəli olması, zəif nəticələri olanları isə daha çox mənfi mövqelərdən səciyyələndirir, onlarda ətalət, passivlik, inkişafdan qalma, qabiliyyət və maraqların olmamasini qeyd edirlər. Orta nəticə göstərənlər isə müəllimin gözündə simasız olurlar.

Müəllimlər intizamlı və icraçı uşaqlarla daha yaxşı davranmağa meylli olurlar. Müstəqil, aktiv və özünə güvənən məktəbliləri isə sevmirlər. Zahirən cazibədar şagirdlərin isə daha yüksək intellektə sahib olduqlarını və valideynlərin uşaqlarını öyrətmək üçün daha çox səy göstərməyə meyilli olduğunu qeyd edirlər. Zahirən cəlbedici şagirdlərin müəllimin sevimlisinə çevrilmək ehtimalı daha yüksəkdir, cəlbedici olmayanın isə əksinə. Təcrübələrin birində ev heyvanları ilə məşqləri yerinə yetirərkən müəllimləri tərəfindən sevilən şagird qəsdən səhvlər edir, müəllimlər tərəfindən sevilməyən şagird isə tapşırığı düzgün yerinə yetirir. Nəticə yoxlanılarkən birincinin orta balı daha yüksək olub. Müəllim ünsiyyətdə birinci partalarda əyləşən şagirdlərə üstünlük verir və bu şagirdlərin cavablarını daha yüksək qiymətləndirir. Başqa

bir təcrübədə isə universitet tələbələrinə - gələcək müəllimlərə yeddi yaşlı uşaqların törətdiyi yaramazlıqların təsviri verilmişdir. Bu təsvirlərə "günahkarlar"ın fotoları əlavə edilib. Körpələrə münasibətini və davranışlarını qiymətləndirən qız tələbələrin daha cazibədar görünüşə malik olanlara qarşı daha mülayim olduğu ortaya çıxıb (*Rean A.A., Kolominsky Ya.L.,* 1999, s. 336).

Reaksiya sürəti, anlama, sakitlik, fikir müstəqilliyi, şübhəsiz ki, tələbələrin fəzilətləridir, lakin müəllimlər tərəfindən belə tələbələr təqdir olunmur.Nəticədə başqalarında belə bir təəssürat yaranır ki, həmin tələbənin heç bir müsbət xususiyyəti yoxdur. Buradan aydın olur ki, müəllimin tələbənin (şagirdin) psixoloji xüsusiyyətlərinə baxışının genişliyi qarşılıqlı anlaşmanın qurulması üçün bir əhəmiyyətə daşımır.

Müəllimin şagirdləri qavrayışının adekvatlığı onun müşahidəçiliyinin əsasını təşkil edən sosial-perseptual bacarıq və keyfiyyətlərindən asılıdır Qadın müəllimlər müşahidə baxımından kişi müəllimlərdən üstündürlər. Birincilər şagirdlərin insanlara və özlərinə münasibətini ifadə edən intellektual və iradi keyfiyyətləri, habelə xarakter xüsusiyyətlərini daha dolğun və dərindən dərk edirlər. Kişi müəllimlər işə münasibəti ifadə edən xarakter xüsusiyyətlərini daha yaxşı görürlər. Gənc müəllimlər (5 ilə qədər təcrübə) uşaqları daha adekvat və daha dərindən başa düşürlər, çünki onlar hələ də uşağın daxili dünyasına nüfuz etməyi çətinləşdirən klişeləri, qavrayış stereotiplərini inkişaf etdirməmişlər. Daha çox təcrübəsi olan müəllimlər üçün isə şagirdlərin xüsusiyyətləri ümumiləşir. Eyni zamanda, magistr-müəllimlər tələbələrin fərdi orijinallığını görmək istəyini ortaya qoyur, qeyri-magistrlər isə tələbələrin şəxsiyyətini stereotip və formal şəkildə əks etdirirlər. Nəhayət, məktəb və universitet illərində daha yaxşı oxuyan müəllimlərdə uşaqların daha dərindən başa düşülməsi müşahidə olunur,

Müəllimlər arasında stereotiplərin və münasibətlərin olması onların ayrı-ayrı şagirdlər haqqında fikir söyləməsini zəruri edir. Bu müəllim cəmiyyətində ayrı-ayrı şagirdlərin xüsusiyyətlərinin necə müzakirə olunmasından asılıdır.

Müəllimin ən mühüm bacarığı *empatiyadır,* yəni insanın əhvalını üz ifadələri, davranışları, səs tembrləri ilə başa düşmək bacarığıdır. Çətinlik ondadır ki, məktəblilərin, xüsusən də, aşağı sinif şagirdlərinin xarici reaksiyaları böyüklərin standartlarına uyğun gəlmir, çünki məktəb illərində insanın emosional vəziyyətini ifadə etmək texnikası hələ də inkişaf edir.Müəllimin davranışları simpatiya və empatiyada özünü göstərir. Başqasına simpatiya, onun vəziyyətini nəzərə almaq - bu, başqa bir insanı anlamaq mexanizmlərindən yalnız biridir, qarşılıqlı anlaşma yolunda addımlardan biridir, hələ bir insanın digəri ilə eyniləşdirilməsini nəzərdə tutmur. Empatiya daha dərin hissdir. Bu, başqasının yaşadığı eyni duyğuların subyektinin təcrübəsi ilə əlaqələndirilir. Təbii ki, müəllim bütün hallarda bütün tələbələrlə empatiya qura bilməz. Müəllim imtahanı başa vurmayan şagirdə rəğbət bəsləyə bilər, amma özünü şagirdin yerinə qoyub eyni duyğuları ortaya qoymağa ehtiyac yoxdur. Eyni zamanda, bu şagirdin təcrübələrini nəzərə almaq müəllimə onun istəklərini, fənnə münasibətini daha yaxşı başa düşməyə kömək edəcəkdir.

Qarşılıqlı anlaşma şagirdlərdən (və ya onlardan ən azı birindən) dərsə hazır olmasını və digərinin nöqteyi-nəzərini nəzərə almanı bacarmasını tələb edir. İlk növbədə, bu mövqe müəllim tərəfindən qorunmalıdır, çünki, ibtidai sinif şagirdləri az həyat təcrübəsi və məhdud intellektual inkişaf səbəbindən müəllimin təhsil məqsədlərini həyata keçirə və qəbul edə bilməzlər. Məktəblilər öz davranışlarını daha çox günümüzün maraqlarına tabe edir, müəllim isə ilk növbədə uzunmüddətli maraqları və məqsədləri rəhbər tutur. Lakin hər gün uzunmüddətli proqramı həyata keçirmək üçün müəllim uşaqların istək və arzularını başa düşməli, yəni onların nöqteyi-nəzərini qəbul etməyi bacarmalıdır.

Əgər müəllim şagirdin qiymətləndirilməsində onun daimi xüsusiyyətlərini, yəni şablon, stereotip, sosial qavrayış (qavrayış) münasibəti kimi çıxış edən münasibətini nəzərə almazsa, qarşılıqlı anlaşma yaranmaya bilər. Bu parametrlər yalnız *nəyi* görməyi deyil, həm də *necə* görməyi müəyyənləşdirir. Buna görə də, bu münasibətlərə zidd olan təəssüratlar dəyişdirilir və çox vaxt "bu ola bilməz, çünki bu heç vaxt ola bilməz" prinsipi əsasında atılır.

Müsbət münasibətə malik müəllimlər əmindirlər ki, hər bir şagirddə müəyyən şərtlər altında aşkarlana və inkişaf etdirilə bilən müəyyən fəzilətlər var. Çətin uşaqlarla işləyərkən belə şagirdlərə müsbət-emossional münasibəti dəyişmirlər. Düzdür, bəzi müəllimlərin tələbələrə olan hisslərini zahirən göstərmirlər, onlarla rəsmi tonda danışırlar ki, bu da onların tələbələrə həqiqi münasibətini maskalayır.

Situasiya münasibəti olan müəllimlərin şagirdin şəxsiyyəti və onun inkişaf imkanları haqqında qəti və obyektiv fikirləri yoxdur. Onların xüsusiyyətləri ziddiyyətlidir, sinfin qiymətləndirilməsi qeyri-müəyyəndir. Belə müəllimlər psixoloji qeyri-sabitlik, çətin vəziyyətlərdə özünə nəzarətin itirilməsi, soyuqqanlılıq və ekssentriklik ilə xarakterizə olunur. Bu gün belə müəllimlər biri, sabah isə heç kimi bəyənməzlər.

Mənfi münasibəti olan müəllimlər ehtiyatlılıq, təşəbbüskarlıq, bütövlükdə sinif və şagirdlərin əksəriyyəti haqqında mənfi rəy ilə xarakterizə olunur. Lakin onların bəziləri tələbələrin davranışlarına açıq şəkildə narazılıqlarını göstərmirlər. Digər müəllimlər isə öz münasibətini gizlətmir və bunu sərt tonda iradlar şəklində bildirirlər. Tərbiyə üsulu kimi tərifi "unudarlar" və şagirdin hər hansı uğursuzluğu baş verərsə, onu şişirdib böyüdürlər.

Ədəbiyyat

1. Kashnitsky V. I. Gələcək müəllimin kommunikativ səriştəsinin formalaşması: Dissertasiyanın xülasəsi. dis. cand. Elmlər. – Kostrom 239. Kovalev G.A.
2. Pedaqoji prosesdə ünsiyyət və şəxsiyyət // Məktəbdə biologiya.1985. № 5.a, 1995.
3. Kondratieva S.V.Müəllim tərəfindən şagirdin şəxsiyyətinin başa düşülməsi // Psixologiya sualları. 1980. № 5.
4. Kondratiyev S.V. Pedaqoji fəaliyyətin və ünsiyyətin sosial-perseptual tənzimlənməsi // Psixologiya dünyası. 1996. № 3.
5. Kunitsyna V.N. Şəxslərarası qeyri-rəsmi ünsiyyətin pozulması, maneələr, çətinliklər // Psixoloji nəzəriyyə və praktikanın aktual problemləri. - Sankt-Peterburq, 1995.

РЕЗЮМЕ

ЛИЧНЫЕ ХАРАКТЕРИСТИКИ УЧИТЕЛЯ, СОЗДАЮЩИЕ ТРУДНОСТИ ОБЩЕНИЯ

Саламова К.Б.

Сумгаитский государственный университет

Одной из областей, детально изучаемых в современной психологии, является система межличностных отношений.Эта система сочетает в себе общение и деятельность. Неотъемлемой частью этой системы является педагогическое общение, не только процесс общения, но и его результаты во взаимопонимании и построении определенные межличностные отношения. Ведь в процессе общения люди не только обмениваются информацией, но и регулируют отношения, являющиеся продуктом общения. С другой стороны, ход коммуникативного процесса зависит главным образом от межличностных отношений, существующих между участниками.С помощью педагогического общения происходит не только передача знаний и умений, но и меняются особенности личности учащихся, мнения и установки, возникает взаимопонимание. Педагогическое общение – это не только влияние учителя на учеников, но и влияние ученика на учителя, потому что ученик заставляет учителя так или иначе реагировать на его поведение.

Ключевые слова : *учитель, ученик, общение, навыки, влияние*

SUMMARY

TEACHER'S PERSONAL CHARACTERISTICS COMMUNICATION DIFFICULTIES

Salamova K.B.

Sumgait State University

One of the areas studied in detail in modern psychology is the system of interpersonal relations. This system combines communication and activity. An integral part of this system is pedagogical communication, not only the process of communication, but also its results in mutual understanding and building certain interpersonal relationships. Indeed, in the process of communication, people not only exchange information, but also regulate relations that are the product of communication. On the other hand, the course of the communicative process depends mainly on the interpersonal relationships that exist between the participants. With the help of pedagogical communication, not only the transfer of knowledge and skills takes place, but also the characteristics of the personality of students, opinions and attitudes change, mutual understanding arises. Pedagogical communication is not only the influence of the teacher on the students, but also the influence of the student on the teacher, because the student makes the teacher react in one way or another to his behavior.

Keywords: *teacher, student, communication, skills, influence*

ŞAGİRD ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA ŞƏXSİ NÜMUNƏ

Rzayeva Sevinc Baxış qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
sevincrzayevasdu@gmail.com

Açar sözlər: *müəllim, şəxsi nümunə,keyfiyyət,əxlaqi dəyərlər,humanist təhsil, zəngin bilik, müstəqil-yaradıcı fəallıq*

Xalqımızın müstəqil dövlət quruculuğunu müvəffəqiyyətlə həyata keçirdiyi bir zamanda insanlar yeni psixoloji keyfiyyətlərə yiyələnir və təkmilləşərək inkişaf edir. Elə bu baxımdan da təlim-tərbiyəsi ilə məşğul olduğumuz şagirdlərin gələcəyi, xoşbəxtliyi, xalqımız üçün faydalı bir şəxsiyyət kimi yetişdirilməsi müəllimlərdən, onların qayğılı, işgüzar əməyindən, uşaqlara bəslədikləri sağlam psixoloji münasibətlərdən çox asılıdır. Bilirik ki, müasir təhsil konsepsiyası psixologiya və pedaqogikanın uğurlarına söykənir.Tanınmış psixoloq Ə.Ə.Əlizadənin sözləri ilə desək "Müstəqillik yoluna çıxmış Respublikamızın milli mənafeyi Azərbaycan məktəbinin, ilk növbədə, məhz ağıl, intelekt məktəbi olmasını tələb edir."

Müasir təhsilin vəzifəsi şagird şəxsiyyətini fəallaşdırmaqla yanaşı, onu obyekt deyil, subyekt kimi xarakterizə etməkdir. Belə anlam müəllim-şagird münasibətlərində əks əlaqəni çox dəqiq ifadə edir. Müəllim və şagirdlərin bərabərliyi və birliyi mahiyyətcə "insan- insan" münasibətlərini formalaşdırır. Müasir təhsilin qarşısında duran mühüm amillərdən biri də müəllim şəxsiyyətinə xas olan psixoloji xüsusiyyətlərinin hərtərəfli inkişaf etməsidir. Təhsil o zaman bəhrə verər ki, aparıcı şəxs özü alicənab, xeyirxah, mərhəmətli, əxlaqi və estetik gözəlliyi dəyərləndirməyə qabil olsun. Bu prosesdə şəxsi nümunə çox önəmlidir. Müəllim fənnindən asılı olmayaraq mövzuları bir-biri ilə məqsədli şəkildə elə qurub əlaqələndirməlidir ki, şagird bu prosesdən mənəvi zövq alsın.

Cəmiyyətdə mənəvi amillərin rolunun daha da artdığı bir zamanda müəllim əxlaqi kamilliyi, yüksək mədəniyyəti və fiziki sağlamlığı ahəngdar şəkildə özündə birləşdirən yeni insan tərbiyə edir. Ona görə də, xalqımızın tarixən milli zəmində formalaşdırdığı müsbət əxlaqi dəyərləri mənimsətmək, milli vətənpərvərlik hissini formalaşdırmaq müəllimlərdən iradə, əzm, mətanətlilik tələb edir. Humanizm pedaqogikası – yuxarıda sadaladığımız dəyərləri qoruyub saxlamaq, uşağın potensialını üzə çıxarmaq, ona ədalətli və humanist olmağı öyrətməkdən ibarətdir. Böyük pedaqoq Ş.Amonaşvilinin belə bir fikri var: "Səndən xeyirxahlıq gözləsələr də, gözləməsələr də sən xeyirxahlıq et. Hətta xeyirxahlığın yamanlıqla əvəz olunsa belə, qarşılıq gözləmədən ürəyindən keçəni et. Sənin xeyirxahlığın üzərində kimsə hökmranlıq edə bilməz". Uşaqlara nəcibliyi, xeyirxahlığı təbliğ etmək, öz şəxsi nümunəmizlə örnək olmaq, vətənə layiqli övlad yetişdirmək deməkdir.

Bildiyimiz kimi, tərbiyə - şəxsiyyətin inkişafına istiqamət verməklə, həm də onu təşkil edir. Tərbiyə şagirdlərin həyat və fəaliyyətini təşkil etməklə məhdudlaşmır, həm də mövcud pedaqoji-psixoloji prinsiplər əsasında hər bir uşağın imkanlarını müəyyən etməyə şərait yaradır. Bu əsasda da uşağın psixi cəhətdən inkişafı təmin edilir. Tərbiyə – şəxsiyyətin inkişafı,onun mənəvi aləminin təşəkkülü, nəcib və ləyaqətli vətəndaş kimi formalaşması prosesidir. Elə buna görə də, bu proses elə təşkil edilməlidir ki,o, şəxsiyyətin hər bir yaş mərhələsində ən yüksək inkişaf səviyyəsini təşkil etsin. Şəxsiyyətin hərtərəfli inkişafının əsaslarından biri də estetik tərbiyədir. Bu da ancaq və ancaq ümumi tərbiyə vasitələri ilə üzvi şəkildə birləşəndə istənilən nəticəni verə bilər. J.J. Russonun gözəl bir fikri var: "Xeyirxahlıq özü də hərəkətə, fəaliyyətə çevrilmiş gözəllikdir."

Bildiyimiz kimi, tərbiyənin müxtəlif sahələri bir-biri ilə üzvi şəkildə bağlıdır və biri digərini tamamlayır. Məsələn, əxlaqi tərbiyə ilə estetik tərbiyənin mütəqabil təsirini götürək. M.Qorki demişdir: " Estetika –estetik tərbiyə gələcəyin əxlaqidir." Bu günün müasir ruhlu estetik tərbiyə alan məktəblisi gələcəyin yüksək əxlaqi dəyərlərə malik olan vətəndaşıdır.

Psixoloji tədqiqatlardan aydın olur ki, şagirdin bir şəxsiyyət kimi formalaşması onun bilik, bacarıq və vərdişlərə yiyələnməsində başlıca amildir. Bu proses məktəbəqədər yaş dövründən başlayaraq bütün yaş mərhələlərində formalaşır və inkişaf edir. Bildiyimiz kimi dərsin tərbiyə imkanları son dərəcə böyükdür. İstər pedoqogikada, istərsə də psixologiyada bu mülahizə cəmiyyət tərəfindən qəbul edilmiş bir həqiqətdir.

İctimai həyat cəmiyyətin hər bir üzvündən yaşamağa, yaratmağa və yaşatmağa hazır olmağı, həyat mübarizəsi üçün öz mənəvi və fiziki qüvvələrini inkişaf etdirməyi, müasir ruhlu insan olmağı tələb edir. Cəmiyyət inkişaf etdikcə onun öz üzvləri qarşısına qoyduğu tələblər, bilik, idrak mənbələri də mürəkkəbləşərək yeni məzmun kəsb edir. Bu mürəkkəblikdən düzgün baş çıxara bilmək üçün cəmiyyətin hər bir üzvündən müəyyən mənada universallıq tələb olunur. Hər bir vətəndaş bəşəriyyətin keçmişi, bu günü və gələcək inkişaf yolları haqqında müəyyən təsəvvürə malik olmalıdır. Həmçinin elmin və incəsənətin son

nəailiyyətlərindən xəbərdar olmalı və bu biliklərdən özünün ictimai işində - cəmiyyətə, xalqa, vətənə xidmətdə işində istifadə edə bilməlidir. Belə bir geniş dünyagörüşünə və yüksək amala sahib ola bilmək üçün "insan şəxsiyyətinin hərtərəfli inkişaf etdirilməsi,mənəvi zənginliyi,əxlaqi saflığı,humanistliyi və fiziki kamilliyi özündə birləşdirən yeni insan" tərbiyə etmək əsas şərtdir. Belə bir tərbiyənin də təməli ailədə başlayaraq təhsil ocaqlarında davam edir, sonra da insanın bütün həyatı boyu təkmilləşərək davam edir.

Ədəbiyyat

1. Əzimov Q.E. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı-2014
2. Həmzəyev M.Ə. "Yaş və pedaqoji psixologiyanın əsasları". Bakı-2000
3. Mərdanov M., Ağamalıyev R., Mehrabov A., Qardaşov T. "Təhsil sistemində monitorinq və qiymətləndirmə". Bakı: Çaşıoğlu, 2003, s.16-234.
4. Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Təhsil EİM, 2003, s. 4-12

РЕЗЮМЕ

ЛИЧНЫЙ ПРИМЕР В ФОРМИРОВАНИИ СТУДЕНЧЕСКОЙ ИДЕНТИЧНОСТИ

Рзаева С.Б.

Сумгаитский государственный университет

Одним из важных факторов, стоящих перед современным образованием, является всестороннее развитие психологических особенностей личности педагога. Воспитание плодотворно только в том случае, если ведущий человек способен оценить благородную, добрую, сострадательную, нравственную и эстетическую красоту. Личный пример очень важен в этом процессе. Независимо от предмета, учитель должен целенаправленно организовывать и связывать темы друг с другом таким образом, чтобы ученик получал духовное удовольствие от этого процесса. В период, когда роль духовных факторов в жизни общества возрастает, педагог взращивает нового человека, в котором гармонично сочетаются нравственное совершенство, высокая культура и физическое здоровье.

***Ключевые слова**: учитель, личный пример, качество, нравственные ценности, гуманитарное образование, богатые знания, самостоятельно-творческая активность*

SUMMARY

PERSONAL EXAMPLE IN THE FORMATION OF STUDENT IDENTITY

Rzayeva S.B.

Sumgait State University

One of the important factors facing modern education is the comprehensive development of the psychological characteristics of the teacher's personality. Education is fruitful only if the leading person is able to appreciate the noble, kind, compassionate, moral and aesthetic beauty. Leading by example is very important in this process. Regardless of the subject, the teacher must purposefully organize and link topics to each other in such a way that the student receives spiritual pleasure from this process. At a time when the role of spiritual factors in the life of society increases, the teacher nurtures a new person, in which moral perfection, high culture and physical health are harmoniously combined.

***Keywords:** teacher, personal example, quality, moral values, humanitarian education, rich knowledge, self-creative activity*

MÜƏLLİMİN FƏALİYYƏTİNDƏ YARADICILIĞIN ROLU

İsayeva Zabitə Mustafa qızı

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

zabite66@box.az

***Açar sözlər:** müəllim, peşə, fəaliyyət, yaradıcılıq, biliklər sistemi*

Təlim vəzifələri iki tərəfin birgə fəaliyyəti zamanı: öyrətmə və öyrənmə proseslərinin birliyi şəraitində həyata keçirilir. Öyrətmənin subyekti müəllim, öyrənmənin subyekti isə şagird və ya tələbədir. Təlim vəzifələrinin yüksək səviyyədə yerinə yetirilməsi müəllimdən və şagirdlərdən bir-birini şərtləndirən fəaliyyət sistemi tələb edir.

Təlimdə müəllimin fəaliyyət sisteminə öyrənmə prosesinin, yəni şagirdin tədris və idrak fəaliyyətinin təşkilinə və ona rəhbərliyə aid olan bütün cəhətlər: davamiyyətə ciddi nəzarət etmək və ondan müvafiq pedaqoji nəticələr çıxartmaq; şagirdin tərbiyəsinə və inkişafına yönələn fəaliyyətlərini təşkil etmək; şagirdi fəallığa həvəsləndirmək; şagird fəaliyyətinə nəzarət etmək; şagird fəaliyyətinə istiqamət vermək; məqsədyönlü, planlı və mütəşəkkil fəaliyyət göstərmək; şagirdlərə öyrənməyin qaydalarını öyrətmək və s. Müəllimin bütün fəaliyyətiini ümumiləşdirsək, "müəllim kimdir" sualına belə cavab verə bilərik: müəllim-sistemləşdirilmiş bilikləri, bacarıq və vərdişləri, habelə mənəvi keyfiyyətləri şagirdlərə məqsədyönlü, planlı və mütəşəkkil aşılamaq yolu ilə cəmiyyətin sonrakı inkişafına güclü təkan verən pedaqoji təhsilli mütəxəssisdir [1, s. 145].

Bu çətin və məsuliyyətli fəaliyyətdə müəllimin bir çox qabiliyyətləri xüsusi önəm daşıyır. Təbii ki, burada bizik növbədə yaradıcı şəxsiyyət, yaradıcı peşəkar insan haqqında danışmalıyıq.

İnsan ruhunun əsas istiqamətlərindən biri məhz xüsusi elmi dəyərlərə və qüvvəyə, biliklər istehsal etməkdən yeniliklərə yol açmaqdan ibarətdir. Elmi yenilik adı altında çox mürəkkəb və praktik baxımdan müəyyən olunmayanlar başa düşülür. Belə ki, yenilik, həmişə qeyri-müəyyənliklə qarşı-qarşıya qoyulur. Həqiqətən də, bir anlıq dünyanı bütövlükdə dəyişməyən kimi təsəvvür edək. Bu zaman yeniliyin baş verməsinə ehtiyac olacaqmı? Belə olduğu halda, hər şey təkrarlanandır, heç bir gözlənilməzlik baş vermir. Yenilik ətraf aləmin qeyri-müəyyənlik ifadəsidir. Ətraf aləm nə qədər çox qeyri-müəyyən, dəyişəndirsə, özündə o qədər çox yenilik daşıyır. Belə mühit özünün təsiri altında, onunla qarşılıqlı əlaqədə olan obyekti yaradır. Bütün bunlar təbiidir ki, insan yaradıcılığına da şamil edilir. İnsan və cəmiyyət nə qədər çox dəyişən, mürəkkəb şəraitdə olursa o qədər çox yeniliklər baş verəcək, yaradıcılıq çox inkişaf edəcək.

Həm bədii, həm də elmi yaradıcılıq prosesi oxşar qanunayğunluqlarla tənzimlənir. Bununla yanaşı, bədii və elmi yaradıcılığın fərqli cəhətləri də var. Birinci - fəaliyyətin xarici təzahürlərə (incəsənət əsərlərinin yaradılmasına), ikincisi – daxili proseslərə (fikri əlaqələrin qurulmasına) yönəlir. Nəticədə, hər iki yaradıcılıq prosesi özünü müvafiq dərəcədə formada göstərir. Bu nəticələr insanın yaradıcı təxəyyülünü, fantaziyasını, əqli konstruksiyalarını özündə əks etdirərək ən sadə şeir parçasından tutmuş nəhəng tikinti layihələrinə, elmi kəşflərə qədər dəyişir.

Əgər biz yaradıcılığın iki sahəsi, məsələn, bədii və elmi yaradıcılıq fəaliyyətində baş verən psixi prosesləri təhlil etsək, elmi yaradıcılıq prosesinin özünəməxsus cəhətlərini daha aydın görə bilərik. L.S.Vıqotski elmi yaradıcılığın xarakteri haqqındakı fikirlərin aydınlığını psixologiyanın imkanları ilə əlaqələndirir. Belə düşünür ki, əvvəllər dərketmə proseslərinin psixoloji mahiyyəti kifayət qədər aydın deyildi. Lirik təəssüratlarda, həyəcanlarda emosiya əsas rol oynadığı halda, incəsənətin mahiyyəti olan fikir dərketmə prosesi sayılmaya bilməz. Bu emosiya tamamilə dəqiqliklə elmi fəlsəfi yaradıcılıqda - fikirdə əmələ gəlir. İncəsətin psixoloji təhlilində, məsələn, riyazi yaradıcılıqda, heç şübhəsiz ki, xüsusi riyazi emosiya fərqləndirilmir. Bununla belə, nə riyaziyyatçı, nə filosof, nə də təbiətşünas onların vəzifəsinin ixtisasları ilə bağlı olaraq emosiya yaratmaqdan ibarət olması fikri ilə razılaşarlar. Ona görə də, nə elmi, nə də bədii yaradıcılığı biz emosional fəaliyyət adlandırılır. Bədii yaradıcılıq öz sahələrinə görə çox zəngindir. Bu zənginlik yalnız incəsənətin sahələri ilə deyil, həm də sənət əsərlərinin fərdi xüsusiyyətləri, stili, xarakteri və insanlara təsiri ilə də fərqlənir. İstər musiqi, istər rəssamlıq, istərsə də incəsənətin digər sahələrində onun müəlliflərini fərdi stili özünü göstərir. Bu, həmin əsəri yaradan insanın fərdi-psixoloji quruluşu ilə izah olunur. Bundan başqa, yaradıcılıq aktının nəticələri onun müəllifinin fikri, praktik fəaliyyətinin istiqaməti və xarakteri ilə müəyyən olunur.

L.S.Vıqotski incəsənətin elmi yaradıcılıqdan fərqləndirilməsi ilə bağlı daha mühüm fikirlər irəli sürür: «Hər halda, intellektual proseslərlə incəsənət arasındakı əlaqəyə, oxşarlığa prinsipial yanaşmaq olmaz…Son nəticədə hər hansı nəzəriyyəni onun yaratmış olduğu təcrübənin özündə sınaqdan keçirmək lazımdır…Bədii yaradıcılıq özünün mahiyyətinə görə psixologiyadan, adi ruhi hadisələrdən kənara çıxaraq ruhi empirizmə qalib gəlməsi ilə xarakterizə olunur. Bu mənada, hansısa passiv olan ruhu fərqləndirmək lazımdır…İntellekt yalnız iradənin ləngidilməsi deyil. Onu həm də fantaziyanın ləngidilməsi kimi də təsəvvür etməliyik». L.S.Vıqotskiyə görə, «incəsənət-ictimai insanın psixikasının tamamilə xüsusi hisslər sahəsini sistemləşdirir». O, hələ Vundt tərəfindən fərdi yaradıcılıqla bağlı aparılmış tədqiqatları xatırlayaraq belə nəticə çıxarır ki, sosial yaradıcılığın son mənbəyi - fərdin yaradıcılığıdır.

L.Vıqotski bu qənaətdədir ki, indiyə qədər tədqiqatçılar, demək olar ki, bütün intellektual prosesləri estetik təsir sahəsindən kənarlaşdırıblar. Bir çox nəzəriyyəçilər birtərəfli olaraq incəsənətin - qavrayış, fantaziya, yaxud hisslərin işi olmasını düşünürlər. Bu halda incəsənət, dərketmə sahəsi olan elmlə kəskin şəkildə qarşı-qarşıya qoyulur. Çünki onların mövqeyinə görə, elmi dərketmənin incəsənət nəzəriyyəsi və bədii həzzalma hissinin əmələ gətirdiyi fikri aktların bir hissəsi olmasını qəbul etmək mümkün deyil. Beləliklə,

indiyə qədər incəsənətin bütün nəhəng sahələri: musiqi, arxitektura, poeziya və digərləri fikri iş kimi izah edilən nəzəriyyədən təcrid olunub [4, s. 75].

Fantaziyaların psixoloji təbiətini izah edərkən Z.Freyd mövzu ilə bağlı olaraq yazır: «Fantaziyadan reallığa qayıdan yol var. Bu - incəsənətdir. Fantaziyanın aralıq məmləkətində insanlıq üçün eyni olan reallıq hökm sürür. Məhrumiyyətlə üzləşənlərin hər biri ondan rahatlıq və ovundurma gözləyir. Rəssam olmayanlarda fantaziyanın mənbəyindən yararlanmaq imkanları məhduddur» .

A.Ben zərif, gözəl incəsənət əsərlərinin dərk olunmasını məmnunluğun bir neçə növü ilə əlaqələndirir. İncəsənət növlərinə o arxitekturanı, heykəltəraşlığı, rəssamlığı, poeziyanı, artsitlik sənətini, rəqs və musiqini daxil edir. Bunların hər birinin öz məqsədi var- gözəllikdən zövq almaq. Ancaq bu zövqalma vasitələri müxtəlifdir. Ümumilikdə bu sahələrlə bağlı insana zövq verən iki hissdir: görmə və eşitmə. A.Ben tərəfindən incəsənətdən zövqalmanın iki yolu fərqləndirilir: a) incəsənət materialını yadda saxlamaq meyli; b) bədii zövq, yaxud artsitlik həssaslığı. Bunun üçün aşağıdakı xüsusiyyətlər tələb olunur :

1. İfaçının mexaniki işi yerinə yetirməsi tələb olunan mədəniyyətlərdə hərəki qabiliyyətlər vacibdir. Müğənni, aktyor, natiq üçün səs vasitələri (səs orqanın gücü, onu hərəkət etdirmək üçün iradə, şərait, fərqləndirmə, yadda saxlamaq bacarığı və s.). Aktyor və natiqə mimika və jestikulyasiya, musiqiçiyə - virtuoz, rəssam və heykəltəraş üçün - (həssas) əllər tələb olunur. Yalnız şair üçün bunlar vacib deyil.

2. Bu və digər incəsənət materialını mənimsəmək meyili ona uyğun gələn ideya və formaların ruhən zənginləşdirilməsini tələb edir. Rəssam, şair geniş hafizəyə malik olmalıdır. Şairdə söz materialının daha geniş olması vacibdir. Aktyor jestləri, musiqiçi səsi yaxşı yadda saxlamalıdır.

3. Bütün bu güc və qabiliyyətlərə estetik hisslər rəhbərlik edir. Bu hisslər insanı mərkəzləşməyə, həmin sahələrdən zövq almağa, rahatlıq tapmağa vadar edir. Artist bunun üçün - öz sahəsi üzrə incəsənətə xas olan effektiv biliyə, incə hisslərə; arxitektor-mütənasibliyə; rəssam-rənglərin hamoniyasına; malik olmalıdır. Bədii həssaslıq-musiqiçini, ağıl, müxtəliflik meyli, estetik zövq-naturalisti, yaxud rəssamı, şairi yaratmır. Bütün bunları insan öz qabiliyyətləri və iradəsilə özü yaradır.

K.Q.Yunq bildirir ki, biz hələ bəşər həyatının ilk dövrlərindən hiss olunanların bədii təsviri cəhdlərinin izlərini görə bilirik. Qayaüstü təsvirlərdə müxtəlif simvollarla insan həyatının hadisələri təsvir olunub. Məsələn, səkkizgüşəli ulduz, dairə, xaç və s. Bu gün hərflər, işarələr və spektrin rəngləri, təbiət elementlərivə zodiak işarələri, planetlər və insanın əxlaqi keyfiyyətləri və s. arasındakı münasibətləri müəyyən edən çoxlu simvolik sistemlər mövcuddur. İnsan tərəfindən yaradılmış, hamımıza bəlli olan simvollar həqiqətən insanın özündən də qədimdir. Bu simvollarla ifadə olunanlar kainatın özüylə bir yerdə meydana gəlib arxetipik şüurun izləridir. Yunq hesab edir ki, onun müasir xüsusiyyətlərini təhlil edə bilmək üçün qədim mədəniyyətin xüsusiyyətlərinə görə bədii təsvir vasitələrini daha dərindən öyrənməliyik.

Eləcə də, poetik yaradıcılığın psixologiyasını tədqiq edən K.Yunqun gəldiyi nəticəyə görə bədii yaradıcılıq ədəbiyyatşünaslıqdan fərqlənir. Psixologiya üçün xas olan dəyərlər və faktlar ədəbiyyat üçün mövcud olmaya bilər. Belə ki, şeir bir çox hallarda qeyri-ciddi yaradıcılıq növü kimi psixoloqa maraqsız görünür, yaxud, hansısa psixoloji roman ədəbiyyatşünas üçün, bəlkə də eyni mahiyyət kəsb etmir. Poetik yaradıcılıq fenomenin mahiyyətini anlamaqdan ötrü şairlərin yaradıcılığına psixoloji yanaşma tələb olunur. Bu yanaşmada biz son nəticədə, kollektiv şüurla, şüuraltıda qorunanlarla üzləşirik. Çünki psixoloji quruluşun əsas qanununa uyğun olaraq yeni doğulan hər kəs eyni dəqiqliklə, anatomik baxımdan əcdadlarının keçdiyi yolu təkrarlayır, lakin burada Yunq bir fərqləndirici cəhəti də qeyd edir: "Yeni yaradılan hər bir poeziya nümunəsində yenilik var. Bu yenilik şairin fərdi şüuru ilə bağlı olanlardır".

Pedaqoji fəaliyyət, o cümlədən, elmi fəaliyyət sahəsində çalışanların yüksək intellektə malik olması hər şeyi həll etmir, çünki elmi yaradıcılıq fəaliyyət üçün daha geniş imkanlar tələb olunur.

Ədəbiyyat

1. Əlizadə Ə.Ə. İstedadlı uşaqlar. Psixopedaqoji məsələlər: esselər, etüdlər. Bakı: ADPU-nun mətbəəsi, 2005, 352 s.
2. Сеидов С.И. Феноменология творчества. (История. Парадоксы. Личность). Ваку, Чашыоглы, 2009, 304 с.
3. Пономарев Я. А. Психология творчество и педагогика. М.: Педагогика, 1976, 280 с. Mac Kinnonд.W. Creativity: f multi-faceted phenomenon. URL// hipp: www rsad edu
4. Петровский А.В., Ярошевский М.Т. Основы творческой психологии. М.: УН ФРА, 1998, 329 с.

РЕЗЮМЕ
РОЛЬ ТВОРЧЕСТВА В ДЕЯТЕЛЬНОСТИ УЧИТЕЛЯ
Исаева З.М.
Сумгаитский государственный университет

Профессия преподавателя всегда находилась и сейчас находится в почете. Деятельность преподавателя требует большого профессионализма и проявления всех человеческих качеств, в том числе и творческих. В центре исследования находится вопрос о роли и возможностях творчества в процессе деятельности преподавателя.
Ключевые слова: *преподаватель, профессия, деятельность, творчество, система знаний*

SUMMARY
THE ROLE OF CREATIVITY IN THE ACTIVITY OF A TEACHER
Isaeva Z.M.
Sumgayit State University

The teaching profession has always been and is now held in high esteem. The activity of a teacher requires great professionalism and the manifestation of all human qualities, including creative ones. The focus of the study is the question of the role and possibilities of creativity in the process of teacher's activity.
Keywords: *teacher, profession, activity, creativity, knowledge system*

ALİ MƏKTƏB MÜƏLLİMİ VƏ ONUN "ROLLAR ÇƏLƏNGİ"

Məmmədov Ceyhun Həsən oğlu
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
j.mamedov@gmail.com

Açar sözlər: *ali məktəb müəllimi, Bolonya sistemi, Bolonya prinsipləri, fasilitasiya, müəllim-fasilitator, müəllim-moderator, müəllim-tyutor.*

Müasir təhsil sistemində dövrün tələblərinə müvafiq olaraq əsaslı dəyişikliklərin həyata keçirilməsinə yönəlmiş səylərin nəticəsi kimi meydana çıxan Bolonya prosesinin* bəyannaməsində bəyan edildiy kimi, bu prosesin başlıca məqsədi - vahid Ümumavropa təhsil məkanının formalaşması və unifikasiya olunmuş Ümumavropa təhsil sisteminin yaradılmasıdır.

Bu məqsədin həyata keçirilməsi, əksər Avropa ölkələrinin səlahiyyətli nümayəndələri tərəfindən razılaşdırılmış və sözü gedən prosesin nəticəsi olaraq meydana çıxan yekun sənədin – məşhur "Bolonya bəyənnaməsinin" qəbul etdiyi başlıca prinsiplərinə müvafiq olaraq, aşağıdakıları nəzərdə tutur [1]:

- iki səviyyəli (bakalavriat və magistratura) ali təhsil sisteminin tətbiq edilməsini;

** Avropa ölkələri arasında, vahid ümumavropa təhsil məkanının və ümumavropa təhsil sisteminin yaradılması məqsədi ilə razılaşma prosesi. Bu razılaşmanın nəticəsi kimi, təhsil nazirlikləri səviyyəsində 19 iyun 1999-cu ildə Bolonya universitetində 29 Avropa ölkəsinin nümayəndələri tərəfindən imzalanmış, ali təhsil standartlarının və keyfiyyətlərinin uzlaşdırılmasının təmin edilməsinə yönəlmiş deklarasiya işıq üzü görmüşdür.*

- təlim işinin həcminin qeydiyyatının unifikasiya olunmuş üsulu kimi kreditlər sisteminin tətbiq edilməsini;
- ali təhsilin yüksək keyfiyyətini təmin edəcək metodologiyaların və meyarların tətbiq edilməsini;
- təhsilin Bolonya deklarasiyasını imzalamış ölkələrin hər hansı birinin ali təhsil müəssisəsində davam etdirilməsi imkanının yaradılmasını.

Təqdim edilən prinsiplərin təhlili onu göstərir ki, artıq ali məktəb müəlliminə münasibətdə də zamanın irəli sürdüyü xüsusi tələblər formalaşır. Belə ki, əgər klassik (məs., keçmiş sovet təhsil sistemi məkanında bərqərar olan və postsovet məkanda hazırda da əhəmiyyətli yer tutan) mənada ali təhsil sistemində fəaliyyət göstərən pedaqoq öyrənənlərə münasibətdə əsasən informasiya mənbəyi kimi çıxış edirdi və təhsil prosesi, hər şeydən əvvəl, tələbənin pedaqoqdan informasiya almasına köklənmişdi.

Bolonya sistemi çərçivəsində isə təhsil sitemində başlıca aksent tələbə tərəfindən müstəqil şəkildə böyük miqdarda peşəkar biliyin əldə edilməsinə yönəlir (müxtəlif informasiya mənbələrinə - internet-resurslarına, çoxsaylı nəşrlərə və s. – sərbəst girişin təmin edildiyi şəraitdə bu hal məntiqi cəhətdən əsaslı görünür).

Yeri gəlmişkən, ümumiyyətlə təhsil siteminə münasibətdə "oyrədən-öyrənən" qarşılıqlı münasibətləri çərçivəsində öyrənənin fəallığının ön plana çəkilməsi, öyrədənin isə yardımçı, istiqamətləndirici, dəstəkverici kimi statusu ideyası heç də yeni deyildir. Bu ideya, məsələn, məşhur ingilis mənşəli alim-pedaqoq Con Dyuinin didaktik sisteminin qayəsini təşkil edir desək, zənnimcə yanılmarıq.

Bu heç də o demək deyildir ki, təhsil prosesində pedaqoqun rolu zəifləyir. Əksinə, bu rol müasir tələblərə müvafiq olaraq transformasiyaya uğrayır, müxtəlif şaxələrə bölünərək genişlənir, daha böyük əhəmiyyət və daha dolğun keyfiyyət kəsb edir. Müəllimin, ələlxüsus humanitar elmlər sahəsində çalışan ali məktəb pedaqoqunun, peşəkar fəaliyyəti öyrənənlər üçün ilkin informasiya mənbəyi rolunu icra etməyə deyil, onlara zəruri olan informasiyanın tapılmasında, onun adekvat qiymətləndirilməsində və, nəhayət fərdi mövqeyinin formalaşmasında fəallıq nümayiş etdirmək baxımından yardım göstərilməsinə yönəlmiş olur.

(Nəzərə amaq lazımdır ki, ali peşə təhsilinin səciyyəvi xüsusiyyəti həm də ondan ibarətdir ki, gənclər ali məktəbə artıq müəyyən (həm ümumi, həm də seçdikləri peşə sahəsinə dair) bilik ehtiyatı ilə gəlirlər, onların özlərinin dünyagörüşü və mənəvi dəyər oriyentirləri formalaşmış olur, bu baxımdan onlar müəyyən səviyyə nümayiş etdirmək və, deməli, öyrədənlə fikir mübadiləsinə qoşulmaq imkanına malik olduqlarına əmindirlər.)

Ali təhsil müəssisəsində fəaliyyət göstərən müəllimin müasir tələblərə cavab verəcək peşəkar fəaliyyətinin özünəməxsusluğu həm də ondadır ki, əslində bu zaman "pedaqoq" məvhumunun həqiqi mənasını ifadə edən funksiya – öyrənənlərin istiqamətləndirilməsi, dəstəklənməsi, müşayiət edilməsi - öz yerini alır.

Bu danılmaz faktdır ki, ənənəvi (konservativ) təhsil sistemi modelində öyrənənin şəxsiyyətinin və onun psixikasının bir sıra atributları (dərketmədə şüurluluq, davranışda fəallıq, fəaliyyətdə məqsədyönlülük, motivləşmə və s.) tam mənada açılmır, nəticədə ali məktəb müəlliminin fəaliyyətində fasilitatorluq mövqeyi formalaşır. ("*fasilitasiya*" anlayışı hələ XIX əsrdə Karl Rojersin əsərlərində şərh edilir [5]. Hazırda bu terminin mənası açıqlıq, həqiqilik, inam, empatik anlaşılma kimi nəzərdən keçirilir [2].

Pedaqoq-fasilitator tələblərə pedaqoji yardım və dəstək göstərir, bu dəstək ayrı-ayrı tələbələrin və ya tələbə qrupunun peşəyönümlü fəaliyyətinin istiqamətlənməsində və onun məhsuldarlığının yüksəlməsində öz əksini tapır. Bu cür dəstəyi göstərməklə pedaqoq tələbəni öz fikirlərini (ideyalarını) özünün bir subyekt kimi fəallığının nəticəsi olaraq, müstəqil şəkildə və düşünülmüş mğvqedən çıxış edərək həyata keçirilməsinə təhrik edir, bu zaman onlar üçün məsuliyyət tələbənin öz üzərinə düşür.

Pedaqoq-fasilitator tələbələri birgə qərarların axtarışı və qəbul edilməsi prosesində köməkçi mövqeyinə qoyur, bu zaman onlara tam axtarış və qərar seçimi azadlığı verilir. Pedaqoqun funksiyası isə tələblərə pedaqoji dəstək verilməsi kimi həyata keçirilir.

Müasir ali təhsil sistemi səviyyəsində fəaliyyət göstərən pedaqoqun peşəkar mövqeyi öyrənənlərlə qarşılıqlı münasibətlərin formalaşması prosesində dəyişir, yeni çalarlar alır. Belə ki, Sankt-Peterburq elmi məktəbinin nümayəndələri pedaqoqun, yuxarıda göstərilmiş fasilitator rolundan əlavə, yerinə yetirməli olduğu aşağıdakı rollarını da fərqləndirirlər [3; 4]:

a) *Pedaqoq-məsləhətçi*. Təklif olunan bu pedaqoq modelinin mahiyyəti ondan ibarətdir ki, bu zaman pedaqoq tərəfindən materialın ənənvi qaydada şərh edilməsi yer almır, öyrətmə funksiyası məsləhətvermə vasitəsilə həyata keçirilir (məsləhətvermə istər real rejimdə, istərsə də məsafədən, onlayn rejimdə həyata keçirilə bilər). Məsləhətvermə, bir qayda olaraq, konkret problemin həllində cəmlənir. Bu zaman pedaqoq-məsləhətçi ya təklif edə biləcəyi hazır həlli bilir, ya da ki problemin həllinə yol açacaq fəaliyyət üsullarına yiyələnmiş olur;

b) *Pedaqoq-moderator*. Moderasiya – pedaqoq tərəfindən, tələbənin mövcud və yaxud ehtimal olunan qabiliyyətlərinin və potensial imkanlarının aşkar edilməsinə yönəlmiş fəaliyyətdir. Moderator fəaliyyətinin əsasında sərbəst kommunikasiya, fikir mübadiləsi prosesini təşkil etməyə yardım edən və tələbələri öz daxili imkanlarının həyata keçirilməsi hesabına qərarın qəbul edilməsinə yönəldən xüsusi texnologiyalardan istifadə edilməsi durur. Moderator fəaliyyəti müasir tələbənin daxili potensialının üzə çıxarılmasına, onun hələ də gizli qalmış imkanlarının və həyata keçirilməmiş bacarıqlarının aşkar edilməsinə yönəlmişdir.

Eyni zamanda, pedaqoq-moderator tələbələr arasında qarşılıqlı münasibətlərin bərqərar olmasına dəstək verən vasitəçi kimi də çıxış edir;

c) *Pedaqoq-tyutor*. Bu rolda ali məktəb pedaqoqu, faktiki olaraq, təgsil prosesində tələbələrin pedaqoji cəhətdən müşayiət edilməsini həyata keçirir, fərdi və qrup tapşırıqlarını işləyib hazırlayır, tələbələri maraqlandıran hər hansı bir elmi və ya praktiki əhəmiyyətli, peşə yönümlü və ya dünyagörüşü baxımından meydana çıxan problemin qrup halında müzakirəsini təşkil edir. Bununla da, mahiyyət etibarı ilə pedaqoq-tyutorun fəaliyyəti, eyni ilə pedaqoq-məsləhətçinin fəaliyyəti kimi, hər hansı bir informasiyanın yenidən üzə çıxarılmasına (təkrarlanmasına) deyil, tələbənin subyektiv təcrübəsi ilə işə yönəlmiş olur.

Pedaqoq-tyutorun vəzifəsi – tələbələrə təlimdən maksimum dərəcədə yararlanmaqda dəstək vermək, təlimin gedişinə nəzarət etmək, tələbələrdə konkret fənnin öyrənilməsi müddətində təlimə olan marağı gücləndirmək, onlarla müxtəlif əlaqə formalarından (şəxsi görüşlər, elektron poçt, onlayn konfranslar və s.) istifadə etməklə əlaqə yaratmaq imkanlarını təmin etməkdir;

d) *Pedaqoq-təlimatşı*. Təlim prosesində təkcə ixtisasa öyrədən kimi deyil, həm də tələbənin, müəyyən bilik sisteminin mənimsənilməsi sistemi vasitəsilə, gələcək peşə fəaliyyəti baxımından ustalığa yiyələnməsini təmin etmək məqsədini güdən amil kimi çıxış edir. Bu zaman pedaqoq tələblərə müəyyən təlim kurslarının keçilməsində, seminarların və praktiki məşğələlərin gedişində, daha sonra isə elmi konfranslarda məruzələrlə və məlumatla kütləvi çıxışın hazırlanmasında yardım edir.

Ali təhsil müəssisəsində təlim prosesi onun subyektlərinin – pedaqoqların və tələbələrin qarşılıqlı fəaliyyəti həyata keçirilir. Müasir ali məktəb müəlliminin nəzərdən keçirilən peşəkar mövqeləri (rolları) həm tələbənin subyektiv mövqeyinin inkişafına, həm də bütövlükdə təlim fəaliyyətinin vüsət almasına dəstək verir.

Sonda qeyd etmək istərdik ki, təqdim edilən məqalə ali məktəb müəlliminin vəzifə öhdəliklərinin təhlili məqsədi güdmür. Eləcə də, məqalədə söylənilənlər müəllimin yerinə yetirməli olduğu funksiyaların çoxsaylı olması və onların tam mənada yerinə yetirilməsi üçün real imkanların mövcud olmamasına yönüm kimi qəbul edilməməlidirlər.

Aydın olan odur ki, ali təhsilin qlobal xarakter alması və kommersiya xarakterli bir sosial fenomen kimi səciyyələnməsi şəraitində onun subyektləri – pedaqoqlar – özlərinin əvvəlki sosial statusunu, peşəkar identikliklərini qoruyub axlaya biməyəcəklər. Peşəkar şüurun və fəaliyyətin inkişafının yeni oriyentirlərini və dəyərlərini diktə edən zaman ali təhsil müəssisəsinin fəaliyyətinə yeni təsir amilləri formalaşdırır.

Ədəbiyyat

1. Болонская декларация и ее основные аспекты. [Электронный ресурс]. spbu.ru/news/edusem/bd/htm (дата обращения: 28.08.2012).
2. Димухаметов, Р.С. Обновление научных основ педагогики повышения квалификации: Принцип фасилитации: Моногр. -Алматы: МоиН РК, РИПКСО, Центр пед. исслед. РИПКСО, 2005. - 115 с.
3. Козырев, В.А., Шубин Н.Л. Высшее образование России в зеркале Болонского процесса. - СПб,: Изд-во РГПУ им. А.И. Герцена, 2005.
4. Радионова, Н.Ф. Педагогика в системе высшего многоуровневого образования // Непрерывное педагогическое образование. - СПб., 1993. - Вып. II: Методическое обеспечение психолого-педагогических дисциплин (базовое педагогическое образование).
5. Роджерс, К. Взгляд на психотерапию. Становление человека. М.,1984.

РЕЗЮМЕ

ПРЕПОДАВАТЕЛЬ ВУЗА И «ВЕНОК РОЛЕЙ»

Маммадов Дж.Г.

Сумгаитский государственный университет

В статье автором сделана попытка рассмотрения особенностей трансформации в современных условиях роли преподавателя высшего учебного заведения, характера изменения выполняемых им функций в условиях применения новых, соответствующих Болонскому процессу требований к современному учебному процессу. Констатируется вывод о том, что преподаватель вуза, из «источника знаний», превращается в «проводника» по информационным потокам, приобретает, в соответствии с принципами Болонской системы, многофункциональность, выполняя также роли «модератора», «фасилитатора», «тьютора» и т.д.

Ключевые слова: *преподаватель вуза, Болонский процесс, Болонские принципы, фасилитация, педагог-фасилитатор, педагог-модератор, педагог-тьютор*

SUMMARY
TEACHER OF THE UNIVERSITY AND "WREATH OF ROLES"
Mammadov C.H.
Sumgait State University

The article is an author`s attempt to examine the pecularities of transformation of role of the teacher of the humanities in higher education, in terms of application of the new requirements to the educational process, the relevant agreement of Bologna. It is concluded that the univerity teacher of the "source of knowledge" becomes a "conductor" on the information flow. Also he plays a role of "moerator", "tutor", etc.
Keywords: *university teacher, Bologna process, Bologna principles, facilitation, teacher-facilitator, teacher-moderator, teacher-tutor*

TƏLİM PROSESİNDƏ TƏLƏBƏLƏRİN ƏQLİ FƏALİYYƏTİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Mirzəyev Ramil Nazim oğlu
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
mrpsixoloq@gmail.com

Açar sözlər: *mənimsəmə, hissi idrak, məntiqi idrak, nəzəri təfəkkür, praktiki təfəkkür, emosionallıq.*

İnsanların öyrənmə prosesində fiziki, yəni bədənin müxtəlif hərəkətləri və psixoloji, yəni qavrayış, təfəkkür, diqqət, hafizə və s. amillər mühüm rol oynayır. Öyrənmə insanın xarici-fiziki və daxili-psixi aləmində baş verən məqsədəuyğun dəyişmələrin nəticəsidir. Ancaq demək olmaz ki, insanın hər cür hərəkəti öyrənmə ilə nəticələnir. *Məsələn, insan işıqlı küçədən qaranlıq otağa keçdikdə, əvvəl ətrafda olan əşyaları görmür. O, bir qədərdən sonra əşyaları sezməyə başlayır.* Bu hal öyrənmə ilə deyil, gözün həssaslığının artması nəticəsində qaranlığa alışma hadisəsi ilə əlaqədardır [2, 40].

Öyrənmə əsasən effektiv mənimsəmə ilə bağlıdır. O, təlim fəaliyyətinin nəticəsi kimi xarakterizə olunur və yeni biliklərin qəbul edilməsi prosesidir. Əqli fəaliyyət zamanı məlumatların fikrən işlənməsi və uzunmüddətli yadda saxlanılması çox aktualdır. Çünki qavranılan və mənimsənilən hər bir informasiya nəzəri və praktiki baxımdan tətbiqi əhəmiyyət daşıyır. Bu baxımdan da əqli fəaliyyət zamanı mənimsəmənin psixoloji quruluşunun öyrənilməsi çox vacibdir. Mənimsəmənin psixoloji strukturuna daxil olan komponentlərinin kifayət qədər olmaması təlimdə müəyyən müvəffəqiyyətlər əldə olunmasında çətinlik yaradır və təlimin səmərəliliyinin qarşısını alır.

Ali məktəblərdə səmərəli mənimsəməni təmin edən əsas psixoloji komponentlərdən biri *tələbələrin təlimə müsbət münasibətidir*. Psixoloji tədqiqatlar göstərir ki, tələbələrin təlim prosesinə müsbət münasibəti bir sıra cəhətləri formalaşdırmağa yeni yollar açır. Təlimə müsbət münasibətin yaranmasına isə təlim materialının elmi məzmunluluğu, onun praktika ilə əlaqəsi, dinləyicilərin idrak - axtarış fəaliyyətinin təşkili, yeni idrak maraqları, anlamanın emosional xarakteri və s. də təsir göstərir.

Mənimsəmə fəaliyyətində vacib psixoloji proseslərdən biri *diqqətdir*. Çünki dinləyicilərə təsir edən informasiya axını içərisindən tələb edilən bilik və məlumatları müəyyənləşdirmək, seçmək diqqətin bilavasitə iştirakı olmadan mümkün deyildir. *K. D. Uşinski qeyd edirdi: "Diqqət şüurumuzun elə bir yeganə qapısıdır ki, şüurumuzda olan hər bir şey mütləq buradan keçir..."* [4, 183].

Mənimsəmə prosesinə təsir edən faktorlardan biri də *materialla bilavasitə hissi tanışlıqdır.* Buraya təsvirçilik, əşyavilik və sözlü əyanilik daxildir. Materiallarla bilavasitə hissi tanışlıq təlimin optimallaşdırılmasına hərtərfli təsir göstərir. Çünki bu zaman idrak proseslərinin, xüsusilə hissi idrak mərhələlərinin birgə fəaliyyəti materialların daha adekvat mənimsənilməsinə kömək edə bilir.

Mənimsəməyə təsir edən amillərdən biri də *materialın cazibədarlığı və emosionallığıdır.* Materialın tələbələrdə müəyyən emosional vəziyyət yarada bilən xüsusiyyətləri mənimsəmə prosesində müəyyən rol oynayır. Adətən, qüvvətli müsbət hissi hal yaradan material yaxşı yadda saxlanılır. Bir-birindən az fərqlənən ünsürlərdən ibarət olan şablon material pis mənimsənilir. Mənfi emosional təsirə malik olan material bəzən pis, bəzən də yeknəsəq materiala nisbətən daha yaxşı yadda saxlanılır. *Məsələn, qorxu, yaxud heyrət törədən məzmun "soyuq" və ya təsirsiz materiala nisbətən yaxşı yadda qalır. Əgər materialda formulaların mürəkkəbliyi üzündən qorxu hissi yaransa mənimsəmə səmərəli nəticə vermir* [2, 80].

İdrak tələbatlarının emosional təzahürü olan *maraqlar* da tələbələrdə dərsə müsbət münasibətin formalaşmasında faydalı rol oynayır. Maraq emosional təsirə malik olur, dərin və mənalı hisslərlə əlaqədar fəaliyyətə keçir. Bu zaman təlim maraqları seçici xarakter daşıyır. *Məsələn,* ali məktəblərdə tələbələrdə təlimə seçici maraq daha qabarıq şəkildə ifadə olunur. Təlim materialının mənimsənilməsində öyrənilən materialın tələbə şəxsiyyətinin formalaşması üçün böyük əhəmiyyətə malik olması, materialın dinləyicilərin başa düşə biləcəkləri tərzdə şərh edilməsi, təlim metodlarının rəngarəngliyi mühüm rol oynayır. Tələbələrdə təlim maraqlarını inkişaf etdirməklə, müəllim dərsi əyləncə şəklinə salmamalıdır. Çalışmaq lazımdır ki, dinləyicilər mənimsədikləri materialın məzmun və ictimai-siyasi mahiyyətini dərindən başa düşsünlər, həmin məlumatları mənimsəmənin gələcək mütəxəssisin həyat və fəaliyyəti üçün zəruri olduğuna inansınlar. Hər yeni material köhnə ilə əlaqədar tədris edildikdə də tələbələrin təlimə marağı artır. Məhz bu kimi hallar dinləyicilərdə səmərəli təlim maraqlarının formalaşmasına və inkişafına imkan yaradır.

Əqli fəaliyyət zamanı mənimsəməyə təsir edən əsas amillərdən biri də təfəkkürdür. Belə ki, *təfəkkür prosesinin materialın fəal işlənməsi prosesi kimi nəzərdən keçirilməsi* çox vacibdir. Bu zaman təfəkkür anlama prosesi kimi nəzərdən keçirilir. Çünki tanış olmayan materialın artıq tanış olan materialla assosiasiya olunması mənimsəmənin nəticəsinə müsbət təsir edir. Həm də təfəkkür suallara cavabın axtarılması prosesidir. Ona görə də mənimsəmə prosesində yaranan suallar və bu suallara uyğun cavabların axtarılması həm yaddasaxlamaya, həm də ki, yeni materialların mənimsənilməsinə keyfiyyətcə müsbət təsir göstərir. Çünki təfəkkür təlim materialının mahiyyətinin dərk edilməsinə və şüurlu surətdə mənimsənilməsinə imkan verir. Təfəkkür dinləyicilərin qarşısına çətinlik çıxdıqda, tələbə problematik situasiyaya düşdükdə, fikri məsələni həll etmək lazım gəldikdə qabarıq şəkildə özünü göstərir. O, anlama ilə sıx surətdə əlaqədardır. Anlama təfəkkürə daha intensiv surətdə cərəyan etmək imkanı yaradır. Tələbələrdə təfəkkürün inkişaf səviyyəsi müxtəlif olduğundan, anlama dərəcəsi də müxtəlifdir. Anlamanın dərəcəsi materialın əsas cəhətlərinin nə səviyyədə dərk edilməsi və əlaqələndirilməsi ilə ifadə olunur. Tədqiqatlar göstərir ki, təfəkkürün inkişafında anlayışların səmərəli mənimsədilməsi müsbət əhəmiyyətə malikdir.

Ali məktəblərdə anlayışların düzgün mənimsədilməsində aşağıdakı şərtlərə əməl etmək faydalıdır:

- anlayışlar sadədən mürəkkəbə, konkretdən mücərrədə doğru gedən xətt üzrə mənimsədilməlidir.
- yeni anlayışların mənimsədilməsi tələbələrin vaxtilə mənimsəmiş olduqları anlayışlara əsasən aparılmalı və yeni anlayışlar onların mənimsəmiş olduqları anlayışlar sisteminə daxil olaraq, onlarla əlaqələndirilməlidir.
- anlayişlar problem situasiya prosesində meydana çıxmalı və dinləyicilərin yaradıcı təfəkkürünə əsaslanmalıdır.
- tələbələr anlayışların mühüm, zəruri cəhətlərini mənimsəməklə yanaşı onların mühüm olmayan, ikinci dərəcəli cəhətlərini də bilməlidir.
- hər bir yeni anlayış mənimsədilərkən qabaqlayıcı inikasa istinad edilməlidir: yeni anlayış məhz köhnə anlayış fonunda təşəkkül tapmalı və özündən sonra gələcək anlayışın yaranmasına zəmin hazırlamalıdır.
- yenicə mənimsədilmiş anlayışları beyində möhkəmləndirmək üçün onları təcrübəyə tətbiq etmək lazımdır. Anlayışlar yalnız nəzəri təfəkkürü deyil, eyni zamanda praktik təfəkkürü inkişaf etdirməlidir.
- anlayışlar aydın, qısa və dəqiq formada ifadə edilməlidir.
- hər bir anlayış özünəməxsus emosional boyaya və emosional təsirə malik olmalıdır [2, 68].

Əqli fəaliyyət prosesində mənimsəmənin diqqət ayrılacaq əsas nəticələrindən biri də tələbələrdə elmi-praktik anlayışların formalaşdırılmasıdır. Bunun üçün ilkin şərt kimi analitik-sintetik fəaliyyəti əsas hesab edirlər. Bu zaman təlimin ilkin mərhələlərində analiz qeyri-dəqiq, tamamlanmamış, səthi və hadisələrin mahiyyətindən uzaq şəkildə həyata keçirilir. Bunun nəticəsində isə ümumiləşdirmə generalizasiyaya səbəb olur. *Generalizasiya* yanlış və ya səhv ümumiləşdirməyə deyilir. Bu cür səhv ümumiləşdirmələrin qarşısı vaxtında alınmadıqda tələbənin əldə etdiyi bilik və bacarıqlar nöqsanlı olur. *Məsələn, bəzən tələbələr psixoloji anlayışlar olan "hiss" anlayışı ilə "hissi idrak" anlayışlarını səhv başa düşür və qarışdırırlar.*

Tədqiqatlar və müşahidələr göstərir ki, səhv ümumiləşdirmələrin qarşısının alınması üçün ilk növbədə onu doğuran əsas səbəbləri bilmək və təlim fəaliyyətində bu cür hadisənin baş verməməsi üçün müvafiq iş aparmaq lazımdır.

Təlim prosesində generalizasiya hadisəsi daha çox ikinci növ təsirdən yaranır. Belə ki, tələbələr oxşar, lakin təsadüfi əlamətə istinad etdikdə gəldikləri nəticə düzgün olmur, səhv ümumiləşdirmə özünü göstərir. Bununla bərabər, faktlar göstərir ki, generalizasiya hadisəsi çox vaxt müşahidə etdiyimiz cisim və hadisələrin, məfhum və qaydaların xüsusiyyətləri ilə bağlı olur. Bu xüsusiyyət isə səhv ümumiləşdirmənin meydana gəlməsi üçün şərati yaradır.

Psixoloqların gəldiyi nəticəyə görə mənimsəmənin dörd mərhələsi var:

1) təlim materialı ilə tanışlıq;
2) mənalandırma;
3) yaddasaxlama;
4) praktikaya tətbiq etmə.

Mənimsəmənin nəticəsi bilik, bacarıq və vərdişlərin qazanılması ilə ölçülür. Bilik təlimin məzmununda onun nüvəsini təşkil edir. Biliklərin əsasında tələbələrdə bacarıqlar və vərdişlər formalaşır, əqli və praktik hərəkətlər təşəkkül tapır, biliklər onların dünyagörüşü, inamları və estetik baxışlarının əsasını qoyur [5, 211].

Ancaq biliklərin mənimsənilməsindən danışmazdan əvvəl hansı biliklərin bilavasitə bilik kimi səciyyələndiyini, hansı biliklərin tələbələr üçün zəruri olduğunu bilmək lazımdır. Bilik anlayışı çox məzmunludur və birmənalı tərifə müəssər deyil. O həm şüurun bir hissəsi kimi həm predmet və hadisələrin müxtəlif səpkidə inikası, idrakın məhsul və nəticəsi kimi, həm də dərk olunan obyektin şüurda canlandırılması kimi səciyyələndirilir. Biliklərin obyektiv və mükəmməl olması çox vacibdir. Mütəxəssislər hesab edir ki,: *"yarımçıq bilik heç bilməməkdən daha təhlükəlidir".* Ona görə də biliyin keyfiyyəti tələbənin idrak fəaliyyətindən asılıdır. İdrak fəaliyyəti zamanı tələbələrin bilikdən aldığı sevinc hissi və özünəinam hissi idrak fəallığının motivinə çevrilməlidir. Ciddi qiymətləndirmə müəllimin şəxsi nəzarəti ilə idarə olunan təlim prosesi bu biliyə olan sevinc hissini yaratmağa imkan vermir, özünəinam - müəllimin inamına çevrilərək tələbə üçün idarə olunan səviyyəsinə keçir.

Ona görə də hər bir tələbəyə fərdi yanaşılmaqla idrak fəallığı yarada biləcək vasitələrə əl atmaq tələb olunur. Yaradıcı fəallıq burada əsas vasitələrdən biridir.

Biliklərin mexaniki yaddasaxlanması prinsipinə əsaslanan ənənəvi təhsil müddəalarından fərqli olaraq müasir dərs bir növ təfəkkür keyfiyyətlərinin inkişaf etdirilməsi prinsiplərinə əsaslanır. Dərs prosesində ortaya çıxan silsilə biliklər hafizədəki zəruri bilikləri sıxışdıraraq onların lazımsız biliklərlə əvəzlənməsinə gətirib çıxarır.

Tələbələrin bilikləri mənimsəməsilə yanaşı, həm də onları özü üçün dərk etməsi və "özününkü" etməsi vacibdir. Bunun üçün nəyi necə öyrətmək məsələsi həll edilməlidir. Yəni idrak proseslərinin inkişaf etdirilməsi ilə yanaşı, diqqət əsasən şəxsiyyətin formalaşmasına və öyrənmənin daha optimal modelinin seçilməsinə yönəldilməlidir. Təlim yalnız biliklərin öyrənilməsi, mənimsənilməsi, yaddda saxlanılması və icra edilməsi naminə həyata keçirilməməlidir. Təlim həm də tələbələrin idrak maraqlarının və motivlərinin formalaşdırılması qayğısına qalmalıdır. Çünki təlim prosesində əsas situasiya tələbələrin həvəsindən, marağından asılı olaraq onlara müstəqil informasiya verilməsidir. Bu halda əgər informasiya müstəqil həyata keçirsə, tələbə informasiyanın selektoru, yaxud qurulan generatoru kimi çıxış edir[2, 86].

Müasir ali təhsil müəssisələrində təlim prosesində tələbə və ya dinləyicilərin dərketmə qabiliyyətinin yüksəldilməsi yaradıcı emosional ton vasitəsi ilə həyata keçirilməli, onların öz potensiallarının dərk edib aktuallaşdırılması və gerçəkləşdirilməsi yolu ilə reallaşdırılmalıdır. Tələbələrlə iş prosesinin optimallığını qısa zaman intervalında həyata keçirtmək üçün kiçik qruplar yaradılmalı, daha çox koperativ və konstruktiv öyrənməyə üstünlük verilməlidir. Bu baxımdan təlimin başlıca prinsiplərini şəxsiyyətyönümlü və dərketməyönümlü model üzərində qurulmasına çalışmalı, bu prinsiplərdən irəli gələn vəzifələr dərsin yaradıcı təşkilinə və münasibətlərin humanistləşdirilməsinə yönəldilməlidir.

Ədəbiyyat

1. Məmmədov A. U. Təlimin psixoloji əsasları. Bakı, Maarif, 1993, 296 s.
2. Zeynaloğlu C. Təlim fəaliyyətinin psixoloji prosesi.Bakı, Print-S nəşriyyatı,2017, 144 s.
3. İbrahimbəyov F. Ə. Seçilmiş elmi əsərləri. Bakı, Mütərcim, 2017, 512 s.
4. Uşinski K. D. Seçilmiş pedaqoji əsərləri. Bakı, Azərnəşr, 1953, səh. 183.
5. Зимняя И. А. Педагогическая психология. Москва, Логос, 2000, 384 с.

РЕЗЮМЕ

ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ УМСТВЕННОЙ ДЕЯТЕЛЬНОСТИ СТУДЕНТОВ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ

Мирзоев Р.Н.

Азербайджанский Государственный Педагогический Университет

В представленной статье в обширной форме пояснены психологические аспекты качественных показателей умственной деятельности, влияющие на процесс усвоения. Так, здесь показано влияние совместной деятельности чувственного и логического познания на усвоение

познавательных процессов, оказывающих влияние на деятельность по усвоению. Одновременно, в статье всесторонне отмечено положительное влияние, оказываемое эмоциональностью и вниманием на работу усвоения.

Ключевые слова: *усвоение, чувственное познание, логическое познание, теоретическое мышление, практическое мышление, эмоциональность.*

SUMMARY

PSYCHOLOGİCAL FEATURES OF THE MENTAL ACTİVİTİES OF STUDENTS İN THE PROCESS OF TRAİNİNG

Mirzayev R.N.

Azerbaijan State Pedagogical University

The presented article explains in an extensive form the psychological aspects of qualitative indicators of mental activity that affect the process of assimilation. Thus, the influence of the joint activity of sensory and logical cognition on the assimilation of cognitive processes that influence the assimilation activity is shown here. At the same time, the article comprehensively notes the positive influence exerted by emotionality and attention on the work of assimilation.

Keywords: *assimilation, sensory knowledge, logical knowledge, theoretical thinking, practical thinking, emotionality.*

TƏLƏBƏLƏRLƏ ÜNSİYYƏTDƏ PROFAYLİNQ ÜSULUNUN TƏTBİQİ

Musayeva İlahə İlham qızı

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

musayevailahe@987gmail.com

Açar sözlər: *tələbə, psixoloji profil, profayliq, pedoqoq, insan tanıma sənəti*

Bir hadisənin qarşısını almaq o hadisə baş verəndən
sonra nəticələri aradan götürməkdən daha asandır.
H.Əliyev.

Şəxsi keyfiyyətlərin dəyərləndirilməsi, partnyorun əsl məqsəd və məramının aydın olması bir növ gərəksiz hadisələrdən sığortalanma məqsədi güdür. Pedoqoji mühit şəxsiyyətin yüksək səviyyədə formalaşması üçün mühüm amil rolunu oynayaraq sosial mühitə adaptasiyasına şərait yaradır. Bu baxımdan ünsiyyətin düzgün qurulması üçün pedoqoqun insanların psixoloji dil xüsusiyyətlərini bilməsi olduqca zəruridir. Psixoloji profilinə bələd olaraq insanın həqiqi motivlərinin üzərindən iş aparmaqla nəinki asan, hətta çətin xarakterli hesab etdiyimiz şagird və ya tələbələrlə mükəmməl ünsiyyət qurmaq mümkündür. Dinamik, enerjili, aqressiv, optimist, pessimist, mühafizəkar, sərt, şən, deyingən, qalmaqal yaradan və s. kimi fərqli xarakterik xüsusiyyətlərə malik tələbələrin hər birinin müstəqil, fəal, intellektual, yüksək əxlaqi dəyərlərə malik uğurlu şəxs kimi formalaşmasında pedoqoq gərgin əmək sərf etməlidir. Şəxsiyyətin müəyyən bir komponenti olan xarakter istər gizli, istərsə də aşkar mütləq şəkildə özünü biruzə verməlidir. Aşkar və görünən tərəf hər zaman aydındır, pedoqoqikanın müxtəlif sahələrinin tədrisi prossesində tələbələrin gizli qalan xarakter xüsusiyyətlərini profaylinq üsulu ilə kəşf etmək və üzərində işləmək pedoqoqun malik ola biləcəyi ən gözəl xüsusiyyətdir. "Pedoqogika elminin arxitekturasının özünəməxsusluğu, təkrarolunmazlığı məhz təbiətin ən ali varlığı olan insanın özünün dünyaya gəlməsi ilə və ya sosiallaşması prossesində düçar olduğu qeyri-normal hadisələrlə şərtlənir" (1.s44). Bu hadisələr fonunda təlim və tədris məsələlərinə xarakter müxtəlifliyini nəzərə alaraq həyat, təhsil, elm və tərbiyə kontekstindən yanaşaraq vahid koqnisiya formalaşmalı və təlim prossesinə tətbiq olunmalıdır. Profaylinq metodu bu baxımdan mükəmməl yardımçı vasitədir.

Profaylinq (ingilis dilində "profile"-profil) qanunsuz hərəkətlərin qarşısının alınması üsullarından ibarət bir sahə olaraq , xarici görünüş , verbal və qeyri-verbal davranışın analizi əsasında insan profilinin psixoloji metodlarla dəyərləndirilməsidir [2, s17].

Profaylinq tətbiqi psixologiya metodlarından istifadə etməklə potensial təhlükəli şəxsləri və vəziyyətləri müəyyən etməklə qanunsuz hərəkətlərin qarşısını almaq üçün texnikadır (3, s5) .

İlk dəfə 70-ci illərin sonunda İsrailin "EL-AL" avia kampaniyasının uçuşqabağı aparılan araşdırmaları zamanı ekstremistlərin terror fəallığına qarşı aktivliyinin yoxlanılması üçün tətbiq olunmuşdur. Bu metodika təhlükəsizliyin təmin olunması məqsədilə potensial təhlükəli şəxslərin və halların üzə çıxarılmasında təklif olunan psixoloji metod və bu yöndə aparılan tədbirlər sistemidir. Metodoloji əsasları V.Frizen, O.Fray, P.Ekman, K.Şerer, V Frizena, V.A. Labunskoy kimi alimlər tərəfindən araşdırılan profaylinq texnologiyasından hazırda dünyanın bir çox ölkələrində təhlükəsizlik məsələlərini önləmək üçün müəyyən müəssisələrdə kadr seçimində, fərdi sorğuların aparılmasında, iş görüşmələrində, ailə həyatında partnyorun seçilməsində və s. istifadə olunur. Əsasən hüquqi orqanlar tərəfindən işə qəbul və ya cinayətlərin üstünü açmaq üçün istifadə olunan bu texnikadan günümüzdə şəxslərarası ünsiyyətin düzgün qurulması üçün partnyorun psixoloji profilini öyrənərək kommunikasiya prossesinin interaktivliyini, səmərəliliyini artırmaq məqsədilə istifadə edilir. Profaylinq üsulunun baza alqaritmləri aşağıdakılardır:

- Əsas davranış modelini təyin etməklə şəxslə mücərrəd mövzularda söhbət etmək lazımdır, hansı ki, sualın cavabına yanlış cavab vermək çətin olsun;
- Düşünən və nəyisə xatırlayan zaman mimika və jestləri müəyyən edərək yalan danışmağa ehtiyac duymadığı vəziyyətdə əsas reaksiyalar təhlil edilməli;
- Açıq-aydın üz ifadəsi yalanın təzahürlərindən biridir. Bunu nəzərə alaraq çətin suallara keçməklə jest və mimikaların dəyişməsinə fikir verilməli;
- Fərqli ifadə ilə eyni sözü soruşub bir az təzyiq göstərilməli;
- Söhbətin sakit və emosional fonunu qaytararaq həmsöhbətin sakit vəziyyətdə özünü necə aparmağına diqqət yetirilməli, söhbətin tempi dəyişən zaman mimika və jestlərin qeyri-standart təzahürləri izlənməlidir [4].

Düzgün analiz nəticəsində müəyyən edilən *isteroid* (aktiv, kreativ, diqqət mərkəzində olmağı xoşlayan, konfliktə meyilli, şən, özgüvənli), *epileptoid* (səliqəli, dəqiq, aqressiv, qaydalara riayət edən, konkret, standartlılıq), *paranoyal* (hədəfə xidmət edən, lider, hökm edən, qürurlu, qlobal işlərə meyilli, statuslu), *hipertim* (cəld, ünsiyyətcil, şən, məsuliyyətdən uzaq, enerjili, əyləncəyə meyilli, motivator), emotiv (xeyirxah, sevgi dolu, qayğı çəkən, hisslərlə yaşayan, utancaq, qurban tipi, kompramisə gedən), *şizoid* (qeyri-adi düşüncəli, dağınıq, azad düşüncəli, sosial məsuliyyətsiz, distansiyasız davranış), *həyəcanlı* (hər zaman stresli, özünü qoruma mövqeyində olma, standart düşüncə, şübhəli, həyəcanlı), *depressiv-kədər* (şikayətcil, tək, neqativə köklənmiş, problemə meyilli) kimi xarakter tipləri ilə qüsursuz kommunikativ əlaqə yaratmaq və düzgün yönləndirmək üçün profaylinq metodikasından istifadə mütləqdir.

"Başqa bir insana toxunduğumuzda ya ona kömək edirik, ya da ona mane oluruq. Üçüncüsü yoxdur: ya insanı aşağı çəkirik, ya qaldırırıq" C.Vaşinqtonun bu oforizminə əsaslanaraq ünsiyyət prossesində təməl emosiyalarına bələd olmaqla partnyorun hiss, düşüncə və davranışlarını anlayışla qarşılayaraq qarşılıqlı kommunikasiyada mükəmməl nəticə əldə etmək olar. Təhsilin əsas məqsədi cəmiyyət üçün savadlı, fəal, tərbiyəli, intellekt səviyyəsi yüksək, yaradıcı, əxlaq və cəmiyyət dəyərlərini mənimsəyib düzgün nəticə çıxara bilən, sərişt̂əli vətəndaşlar yetişdirməkdir. Müəllim isə təlim prossesində icraçı şəxs kimi hər bir gəncin həyatında önəmli toxunuşlar edən şəxsdir. Gənclərin öyrəndikləri sahənin elmi əsaslarına nə dərəcədə dərindən yiyələnməsini, konkret elmi yaradıcılıq xüsusiyyətlərinə malik olmasını və intellektual maraqlarını müəyyənləşdirmək düzgün qurulmuş tədris prossesinin nəticəsində aşkar edilə bilər.

Ədəbiyyat

1. F.N.İbrahimov, R.N.Hüseynzadə "Pedoqogika" Bakı, "Mürtəcim", Icild 201, 706s, s44
2. Hacınski T. 60 saniyədə INSANI TANIMA SƏNƏTİ, Bakı, "Şərq-Qərb" 2021, 152s, s17
3. Ю. М. Волынского-Басманова, Н. Д. Эриашвили. "Профайлинг". Технологии предотвращения противоправных действий / под ред. Москва 2012. С. 5.)
https://searchinform.ru/kontrol-sotrudnikov/profajling/tekhnologiya-profajlinga/

РЕЗЮМЕ
ПРИМЕНЕНИЕ МЕТОДА ПРОФАЙЛИНГА В ПРОЦЕССЕ ОБЩЕНИЯ СО СТУДЕНТАМИ

Мусаева И.И.

Сумгаитский государственный университет

Основной целью статьи является исследование применения метода профилирования в общении со студентами. Возможен анализ индивидуальных особенностей людей, человеческих качеств, знаний и интеллектуального уровня путем уточнения их психологического профиля. Важным

фактором является способность к индивидуальному распознаванию. Эта способность особенно важна для учителей\преподавателей. Таким образом, одна из трудных и почетных задач учителя состоит в том, чтобы понять интересы учащихся, возраст, тип характера, не выделить их слабости как личности, даже научить, развить их сильные стороны, помочь им сформировать человеческие функции как часть общества. Педагогическая среда играет важную роль в формировании высокого уровня личности и создает условия для адаптации к социальной среде. Метод профилирования является прекрасным методом с точки зрения правильной организации процесса общения, знания психологического профиля школьников и студентов.

Ключевые слова: *студент, психологический профиль, профилирование, преподаватель, человеческое познание*

SUMMARY

APPLICATION OF PROFILING METHOD IN COMMUNICATION WITH STUDENTS

Musayeva I.I.

Sumgayit State University

The main aim of the article is to research the application of profiling method in communication with students. Analyze of people's individual characteristics, human qualities, knowledge and intellectual level by clarifying their psychological profile is possible. To have a an ability of recognition individually is an important factor. This ability is important especially for teachers. Thus, it is one of the difficult and honorable tasks of a teacher to understand students' interests, age, character type, not to highlight their weaknesses as individuals, even to teach, to develop their strengths, to help them form human functions as part of society. The pedagogical environment plays an important role in the formation of a high level of personality and creates conditions for adaptation to the social environment. The profiling method is an excellent method in terms of the correct organization of the communication process, knowing the psychological profile of pupils and students.

Keywords: *student, psychological profile, profiling, ðecturer, human cognition*

TƏLİM PROSESİNDƏ MÜƏLLİM VƏ ŞAGİRD MÜNASİBƏTLƏRİNİN PSİXOLOJİ ƏSASLARI

Quliyeva Şahnaz Mustafa qızı

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

Shahnaz1969@mail.ru

Açar sözlər: *müəllim, şagird, şəxsiyyət, ünsiyyət, təlim, münasibət*

Təlim prosesində müəllim və şagird münasibətlərinin psixoloji əsasları peşəkar-pedaqoji unsiyyətin və pedaqoji rəhbərliyin üslubundan aslıdır ki, bunları da aşagıdakı kimi qruplaşdıra bilərik.

1. Müəllimin şəxsiyyətindən: onun səriştəliliyindən, komunikativ mədəniyyətindən, təhsil alanlara emosional-mənəvi münasibətindən, peşəkar fəaliyyətə yaradıcı yanaşmasından;

2. Təhsil alanların fərdi xüsusiyyətlərindən:onların yaş xüsusiyyətlərindən, cinsi mənsubiyyətindən, təlim və tərbiyyə səviyyəsindən, şagird kollektivinin xüsusiyyətlərindən aslıdır.

Qeyd etmək lazımdır ki, psixoloji və pedaqoji ədəbiyyatda müəllim və şagird ünsiyyət üslubları aşağıdakı təsnifatda təqdim olunur:

Birgə fəaliyyətə olan aludəçiliyə əsaslanan ünsiyyət. Ünsiyyətin bu üslubu özündə əməkdaşlığı, birgə fəaliyyəti və dostluğu əks etdirir. Bu üslubun əsas xüsusiyyəti müəllimin yüksək səviyyəli səriştəsi ilə mənəvi keyfiyyətlərinin vəhdət təşkil etməsidir. Bununla bərabər ünsiyyət dostluq, mehribanlıq, qarşılıqlı hörmət əsasında qurulmalıdır.

Səmimi münasibətlərə əsaslanan ünsiyyət. Səmimi münasibətlərə əsaslanan ünsiyyət tərbiyə olunanın şəxsiyyətinə, o cümlədən kollektivə səmimi maraqla bağlıdır. Bu tip ünsiyyət tərzinə malik olan müəllimlər şagirdlərin fəaliyyət və davranışının motivlərini başa düşməyə cəhd göstərir. Qeyd edilən ünsiyyət üslubu ünsiyyətin əvvəlki üslubu ilə bağlıdır və birgə fəaliyyətin yerinə yetirilməsini situmullaşdırır. Digər tərəfdən birgə fəaliyyətə olan aludəçilik dostluq münasibətlərinin yaranmasına səbəb olur [4.57].

Qeyd edilən ünsiyyət üslublarında müəllim-şagird münasibətləri iki tərəfli qarşılıqlı münasibət kimi özünü göstərir. Bu münasibətlər daha çox subyekt-subyekt münasibəti kimi özünü göstərir. Təlim-tərbiyə prosesində bu cür humanist ünsiyyət üslubları komfortlu şərait yaradır və şagirdlərin fərdiliyinin təzahür olunması və inkişaf etdirilməsini şərtləndirir.

Müəllimin davranış modelinin qiymətləndirilməsi ilə bağlı digər bir yanaşma isə M.Talenin adı ilə bağlıdır. Onun yanaşmasında aşağıdakı davranış modelləri fərqləndirilir.

1. Sokrat modeli. Bu davranış modelinə malik olan müəllimləri mübahisələri və müzakirələri sevirlər. Dərs zamanı bilərəkdən şagirdləri bu prosesə cəlb edirlər. Onlara təlim prosesində fərdilik xarakterikdir və təlim prosesində daima konfrantasiya vəziyyətində olurlar. Bu isə istər-istəməz şagirdlərin mövqeyini gücləndirir və öz mövqelərini müdafiə etməyə şərait yaradır.

2. Qrup diskussiyasının rəhbəri modeli. Bu davranış modelinə malik olan müəllimlər təlim-tərbiyə prosesində əsas kimi əməkdaşlığın yaradılması və həmrəyliyin meydana gəlməsini götürürlər. Onlar iştirakçılar arasında harmoniya axtarışının müzakirələrin nəticəsindən daha vacib olduğunu qeyd edirlər. Bu məqsədə çatmaq üçün iştirakçılar arasında vasitəçi rolunu oynamağa hazırdırlar.

3. Usta modeli. Usta müəllim şagirdlər üçün örnək rolunu oynayır. Bu cür örnək təkcə təlimlə bağlı deyil, həyatın bütün sahələrini özündə əks etdirir. Bu modeldə şəxsi nümunə ön plana çıxır. Müəllimlər çalışırlar ki, şəxsi nümunə əsasında bütün məsələləri şagirdlərə çatdırsınlar.

4. General modeli. Belə davranış modeli üstünlük təşkil edən müəllimlər hər cür qeyri-müəyyənlikdən qaçır, qətiyyətli və tələbkardır. Hər yerdə və her şeydə haqlı olduğuna inandığından belə hesab edir ki, şagird verilən əmrə tabe olmalıdır. Müəllifin fikrincə, bu model pedaqoji praktikada digər modellərin birlikdə götürülmüş çəmindən daha çox rast gəlinir.

5. Menecer modeli. Bu model radikal yönümlü məktəblərdə geniş yayılmışdır. Bu model daha çox bir qrup şagirdin təşəbüskarlığını və müstəqilliyini dəstəklənməsini özündə ehtiva edir. Müəllim hər bir şagird ilə həll olunan problemin mənasını və son nəticənin qiymətləndirməsini müzakirə etməyə çalışır.

6. Məşqiçi modeli. Sinifdəki ünsiyyət atmosferi korporativ ruha malikdir. Eyni zamanda sinif şagirdlərinin hər biri ayrı-ayrılıqda fərdi olaraq vacib olmadığını, lakin birlikdə çox şey edə biləcəyi bir komandanın oyunçularına bənzəyirlər. Bu modeldə müəllim qrup səylərinin ilhamvericisi rolunda çıxış edir və onun üçün əsas olan son nəticə, parlaq uğur, qələbədir.

7.Bələdçi modeli. Bu modelə malik olan müəllimləri gəzən ensklopediyada adlandırmaq mümkündür: lakonik, təmkinli, dəqiq. Bütün sualların cavablarını, hətta sualların özlərinidə əvvəlcədən təxmin edir. Texnik cəhətdən qüsursuzdur və bəzən darıxdırıcı olur [5.112].

Ünsiyyət prosesində müəllimin davranış modeli ünsiyyət üslubları və pedaqoji rəhbərlik üslubları bir-biri ilə qarşılıqlı əlaqədədir.

Müasir dövrdə təlim prosesində telekommunikasiya vasitələrinin tətbiqinin genişlənməsi ilə əlaqədar olaraq müəllimin əsas informasiya mənbəyi kimi rolunun azalmasına baxmayaraq, onun şəxsiyyətə təsiri isə aşkar şəkildə günü gündən artmaqdadır. Məhz bu səbəbdən də uğurlu pedaqoji ünsiyyət və müəllimin tələbəylə qarşılıqlı təsiri ondan müəyyən psixoloji keyfiyyət və qabiliyyətlər məcmusunu tələb edir ki, bu qabiliyyətlərə aşağıdakıları aid etmək olar:

-tələbələrə və onlarla işləməyə maraq; tələbatlar və ünsiyyət bacarığı toplusu, ünsiyyətcillik, kommunikativ keyfiyyətlərin inkişafı

- emosional empatiya və insanları başa düşmək qabiliyyəti

- dəyişilən ünsiyyət şəraitində tez və düzgün oriyentasiya olunma qabiliyyətini təmin edən çeviklik, operativ-yaradıcı təfəkkür; ünsiyyət situasiyasından, tələbələrin fərdi xüsusiyyətlərindən asılı olaraq nitq təsirini tez dəyişə bilmək bacarığı

- ünsiyyətdə əks təsiri hiss etmək və dəstəkləyə bilmək bacarığı

- özünü, öz psixi vəziyyətini, bədənini, səsini, mimikasını idarə etmək bacarığı; əhval-ruhiyyəsi, düşüncəsi, hisslərini idarə etmək bacarığı; əzələ gərginliyini azalda bilməyi bacarmaq

- spontan ünsiyyətə qabillik, yəni əvvəldən hazırlanmamış kommunikasiya və improvizasiya

- mümkün pedaqoji situasiyaları, öz pedaqoji təsirinin mümkün nəticələrini proqnozlaşdırmaq bacarığı

- yaxşı verbal qabiliyyətlər: nitq mədəniyyəti və inkişafı, zəngin söz ehtiyatı, düzgün dil vasitələrinin seçilməsi və s. [6.187]

Təlim prosesində müəllim ilk anlardan auditoriyanın əhval-ruhiyyəsini və fəaliyyət imkanlarını ilkin mərhələdə seçilmiş metodlarından istifadə etməklə aydınlaşdırmalıdır. Müəllim ünsiyyətin təşəbüskarı kimi çıxış edir. Onun bu prosesdə uğur əldə etməsi şagirdlərlə pedaqoji ünsiyyəti neçə qurmasından aslıdır.

Ədəbiyyat

1. Bayramov Ə.S. Psixoloji düşüncələr. Bakı: Azərnəşr, 1994, 189 s.

2. Bayramov Ə.S. Etnik psixologiya. Bakı: Renessans, 2001, 374 s.
3. Əlizadə Ə.Ə., Əlizadə H.Ə., Əlizadə S.H. Psixopedaqogika. Dərs vəsaiti. Bakı: BDU, 2019, 368 s.
4. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. Bakı: Maarif, 1995, 102 s.
5. Əliyev B. H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi.Bakı: Təhsil, 2008, 134 s.
6. Adıgözəlova Ş.Ə., Quliyeva Ş.M. Psixopedaqogika. Dərs vəsaiti. Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2021, 200 s.

РЕЗЮМЕ
ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ ОТНОШЕНИЙ УЧИТЕЛЯ И УЧАЩЕГОСЯ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ

Гулиева Ш.М.
Сумгаитский государственный университет

Тезис посвящен исследованию психологических основ взаимоотношений учитель - ученик в процессе обучения. В процессе глобализации, охватившем весь мир, во времена высокого научно-технического прогресса, одним из главных вопросов в образовательном процессе является формирование личности учащегося, обладающего всесторонними знаниями и умениями. В этом процессе ключевую роль играет педагог со своими личностными качествами, поведением и установками, исследование которых и нашли свое отражение в статье.

Ключевые слова: *преподаватель, учащийся, личность, обучение, отношения*

SUMMARY
PSYCHOLOGICAL BASES OF THE RELATIONSHIP OF THE TEACHER AND STUDENT IN THE PROCESS OF LEARNING

Guliyeva Sh.M.
Sumgayit State University

The thesis is devoted to the study of the psychological foundations of the teacher-student relationship in the learning process. In the process of globalization that has engulfed the whole world, in times of high scientific and technological progress, one of the main issues in the educational process is the formation of the personality of a student with comprehensive knowledge and skills. In this process, the key role is played by the teacher with his personal qualities, behavior and attitudes, the study of which is reflected in the article.

Keywords: *teacher, student, personality, communication, training, relationships*

PEDAQOJİ İMİCİN FORMALAŞMASININ PSİXOLOJİ ASPEKTLƏRİ

Mirzəyeva Sevər Sərvət qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
severmirzayeva@gmail.com

Açar sözlər: *pedaqoji imic, peşə fəaliyyəti, psixotexnologiyalar, peşəkarlıq, psixoloji səriştələr, imic komponentləri , özünü təqdimetmə*

Müasir şəraitdə müəllim fəaliyyətinin səmərəliliyi onun peşəkar, davranış və sosial-psixoloji xüsusiyyətlərinin məcmusu olan müəllimin pedaqoji imicinin formalaşmasına sistemli yanaşmadan asılıdır. Pedaqoji imicin formalaşdırılması gələcək müəllimə qabiliyyətlərin və bacarıqların formalaşdırılması strategiyasında ən mühüm vəzifələrdən biridir. Ümumiyyətlə qəbul edilir ki, imic ümumilikdə peşəkar uğurun ən mühüm struktur elementidir. Müəllimlər uşağın şəxsiyyətinin hərtərəfli inkişafının qlobal vəzifələrini yerinə yetirən mütəxəssislər kimi müsbət pedaqoji imicin bütün xüsusiyyətlərinə tam sahib olmalıdırlar. Pedaqoji imic şəxsi və peşəkar şəkildə şərtləndirilmiş xüsusiyyətlərin sintezi kimi onun inkişafına kompleks yanaşma tələb edir. Müəllimin "effektiv" imicinin qurulması "insanın xüsusi xidmətlərini nəzərə alaraq sosial və peşəkar vəzifələrin daha uğurlu həllini" təşviq etmək məqsədi daşıyır. [1]. Müəllimin sabit, müsbət rəngli imicinin formalaşması davam edən pedaqoji təsirlərin səmərəliliyinə təsir göstərir. Ona görə də müəllimin pedaqoji imici hazırda “müasir bazar şəraitində müəllimin mövcud olması üçün zəruri şərtlərdən biri” kimi qəbul edilir [2]. Pedaqoji imic yaratmaq üçün tədbirlər kompleksinin

hazırlanması bir sıra psixoloji texnologiyalara ehtiyac duyur. Burada əsas məqsəd müasir təhsil məkanı üçün aktual olan müəllimin şəxsi keyfiyyətlərinin və psixoloji səriştələrinin inkişaf etdirilməsi və aparıcı fəaliyyətin optimallaşdırılmasıdır.

Son dövrlərdə aparılan əksər elmi tədqiqatlar müasir mərhələdə pedaqoji imicin əsas xüsusiyyətlərinin müəyyənləşdirilməsinə həsr edilmişdir. Bu tədqiqatların nəticələrinə görə müəyyənləşdirilmişdir ki, formalaşdırılmış pedaqoji imic pozitiv özünəmünasibətin inkişafı və peşəkar səriştə və nüfuzun formalaşmasıdır. Bütün bunlar birlikdə şəxsiyyətin sosial-peşəkar aktuallığının ümumi səviyyəsinə təsir göstərir. Pedaqoji imicin formalaşması probleminə böyük diqqət yetirilməsinə baxmayaraq, fikrimizcə, bu prosesin psixoloji təchizatı məsələsi, yəni pedaqoji imicin inkişafı üçün texnologiyalardan istifadə problemi kifayət qədər tədqiq olunmamışdır.

Pedaqoji imicin mahiyyətini müəyyən etmək üçün psixoloji, pedaqoji və sosioloji ədəbiyyatlarda "imic" fenomeninin mövcud təriflərinə müraciət etmək lazımdır. İmic ictimai rəy əsasında formalaşmış stereotip xarakteri daşıyan obrazdır. Təsvir həmişə emosional rəngdədir, yəni onu dərk edən insanlarda müəyyən assosiasiyalara (təəssüratlara) səbəb olur. Təsvirin formalaşması həm kortəbii, həm də məqsədyönlü şəkildə baş verir. İlkin obrazın strukturunda xüsusiyyətlərin formalaşmasına aşağıdakılar təsir edir:

1. təbii keyfiyyətlər
2. şəxsi fəaliyyət
3. dizayn xüsusiyyətləri: cəlbedici imicin və auditoriyanın etibarının formalaşması.

Beləliklə, görünüş olduqca mürəkkəb bir fenomendir. Cəlbedici görünüşün, imicin formalaşması xarici və daxili amillərdən, o cümlədən peşə fəaliyyətinin xüsusiyyətlərindən də asılıdır. Beləliklə, pedaqoji imicə belə bir tərif vermək olar: "Pedaqoji imic müəllimin peşə fəaliyyəti zamanı kütləvi şüurda yaradılmış simvolik və dinamik dəyişən obrazıdır" [3].

Pedaqoji imicin strukturunda psixoloji komponentləri nəzərə alaraq müəllimin bir sıra psixoloji kompetensiyalarına diqqət yetirmək lazımdır. Bu səriştələr psixoloji bilik, bacarıq və vərdişlərinin məcmusu kimi pedaqoji fəaliyyətin bütün mərhələlərini əhatə edərək təhsil prosesində əməkdaşlığın optimallaşdırılmasına nail olmağa imkan verir [4]. Pedaqoji imicin strukturuna bir sıra daxili xüsusiyyətlər daxildir:

- təbii tipoloji xüsusiyyətlər (temperament, cins, yaş, neyrodinamik xüsusiyyətlər və meyillər);
- tərbiyə və təhsil prosesində formalaşan psixoloji keyfiyyətlər və səriştələr;
- peşəkar şərtləndirilmiş keyfiyyətlər[4].

Beləliklə, müəllimin ilkin obrazının strukturunda olan bütün komponentlər psixoloji avadanlıqlara ehtiyac duyurlar. Pedaqoji imicin formalaşmasında ən təsirli psixoloji texnologiyaların seçilməsi üçün fəaliyyətin psixoloji aspektləri prizmasından nəzərdən keçirilərək, onun inkişafında aşağıdakı vəzifələr müəyyən olunmuşdur:

1) Sosial institutlarla etibarlı əlaqələrin inkişafı, eləcə də təhsil məkanının bütün subyektləri ilə ünsiyyətin optimallaşdırılması;

2) " Üfüqi" və " şaquli" münasibətlərdə müəllimin özünü təqdimi və nüfuzunun dəstəklənməsi ;

3) Müəllimin peşəkar şəxsiyyətinin formalaşmasına daim təsir edən müəllimin müsbət "Mən-konsepsiyasının" inkişaf etdirilməsi;

4) Müəyyən peşəkar statusa nail olunması və müəllimlik karyerasında uğur qazanılması.

Bütün bu vəzifələri həll etmək üçün pedaqoji imicin hər bir konkret komponenti üçün psixoloji vasitələrdən istifadənin xüsusiyyətlərini müəyyən etmək lazımdır. Pozitiv obraz yaratmaq üçün müəllim yuxarıda göstərilən komponentləri şəxsiyyətin konkret sahələri ilə müqayisə edərək təhlil etməlidir.

Fikrimizcə, pedaqoji imicin formalaşması prosesində müəyyən edilmiş bütün psixoloji təsir hədəflərini 4 qrupa bölmək olar:

- kommunikativ ünsiyyət bacarıqları, o cümlədən şəxsiyyətlərarası münasibətlər və ünsiyyət mədəniyyəti;
- özünü təqdim etmə bacarığı;
- idarəetmə bacarıqları;
- özünü tənzimləmə və özünü inkişaf etdirmək bacarıqları.

Sadalanan bu komponentlər pedaqoqun psixoloji mədəniyyətinin tərkib hissəsidir. Bu ad altında müəllimin idrak fəaliyyətinin, davranışının və ünsiyyətinin səmərəliliyini artırmağa imkan verən və bu proseslərin psixoloji qanunauyğunluqlarının optimal tətbiqinə imkan verən bəzi şəxsi keyfiyyətlərin inkişafının xüsusi səviyyəsi nəzərdə tutulur. Özünütəqdimetmə bacarıqları daha çox xüsusi əhəmiyyətə

malikdir, bunun əsasında isə sosial münasibətlərə yüksək tələbat səbəbindən şəxsi keyfiyyətlərini təqdim etmək imkanı dayanır. Hal-hazırda insanın imici təkcə birbaşa şəxsiyyətlərarası ünsiyyət vasitəsilə deyil, həm də dolayı yolla - sosial şəbəkələr, icmalar vasitəsilə formalaşdıqda özünü təqdimetmə problemi xüsusilə aktuallıq kəsb edir. Yəni müəllim imicini formalaşdırarkən özü haqqında təəssürat yaratmaq yollarına xüsusilə diqqət yetirməlidir.

Müəllim özünü təqdim etmə bacarıqlarını inkişaf etdirərək, başqalarının gözləntilərinə diqqət yetirərək, öz davranış tərzini şüurlu şəkildə tənzimləyir. "Həqiqətən səriştəli mütəxəssisin özünü təqdim etməyə ehtiyacı yoxdur" fikrinə baxmayaraq, belə bir bacarığın pedaqoji qarşılıqlı fəaliyyətin mərkəzində duran müəllimin bir sıra formalaşmış səriştələrini əks etdirdiyi inandırıcıdır. Özünütəqdim etmə qabiliyyətinin əsas göstəriciləri aşağıdakılar hesab olunur:

- özünü tanıtmağa kömək edən xüsusi peşəkar və şəxsi keyfiyyətləri vurğulamağa imkan verən formalaşmış özünüdərk ;
- şəxsi keyfiyyətlərin olması: özünə inam, iddialılıq , adekvat özünə hörmət, ünsiyyətcillik;
- müsbət ilk təəssürat yaratmaq bacarıqları və özünənəzarət etmək bacarığı ;
- özünüəks etdirmək və fəaliyyətlərin xarici qiymətləndirmələrini təhlil etmək bacarığı, öz karyerasını qurmaq bacarığı.

Pedaqoji imicin strukturunda təsvir olunan komponentlərlə əlaqədar olaraq, müəllimin peşə fəaliyyətinin müəyyən sahələrində psixoloji səriştələrini inkişaf etdirmək üçün istifadə olunan bəzi psixotexnologiyalar müəyyənləşdirilmişdir. Təqdim olunan texnologiyalar pedaqoji imicin formalaşmış komponentlərinin psixoloji təchizatı üçün zəruridir. Bununla onlar bir neçə funksiyanı yerinə yetirirlər:

- inkişaf funksiyası; ;
- psixoloji dəstək funksiyası;
- profilaktik funksiyası;
- səfərbərlik funksiyası;
- diaqnostik və proqnostik funksiya .

Bu texnologiyalardan savadlı istifadə sayəsində, artıq peşə hazırlığı mərhələsində gələcək müəllimin psixoloji səriştələrinin formalaşmasına, şəxsiyyət xüsusiyyətlərinin inkişafına nail olmaq, onun uğurlu peşəkar identifikasiyasına töhfə vermək mümkündür.

Beləliklə, pedaqoji imicin əsas xüsusiyyətlərinin müəllimin sosial-psixoloji təbiəti, xarici amillərin təsiri (ictimai rəy, peşəyə gözləntilər və münasibət, habelə pedaqoji fəaliyyətin şərtləri) və daxili psixoloji ilkin şərtlər, onun formalaşması olduğu müəyyənləşdirildi. Müsbət pedaqoji imic formalaşdırmaq üçün onun elementlərinin məzmununu nəzərə almaq, psixoloji təsirin "hədəflərini" müəyyən etmək üçün özünənəzarət və özünüəks etdirmək lazımdır. Pedaqoji imicin yaradılmasında psixoloji avadanlıqların məqsədləri və məzmunu, bunların ən vacib və ən aktual növləri kimi peşəkar məsləhətləşmələr, ekspert ustad dərsləri, psixodiaqnostik seminarlar, interaktiv formada psixoloji təhsil, kommunikativ mexanika, özünü təqdimetmə, idarəetmə və özünü tənzimləmə bacarıqlarının inkişafı üzərində iş müəyyən edildi. Əsas psixoloji texnologiyalar və iş sahələri müəllimin peşə fəaliyyəti sahələri ilə əlaqələndirildi. Bu texnologiyalardan istifadə gələcək müəllimlərin yaradılmış pedaqoji imicinin səmərəliliyinə nail olmağa kömək edəcəkdir.

Ədəbiyyat

1. Бегидова С.Н. Формирование профессионального имиджа будущего учителя/С.Н. Бегидова, Р.А. Ахтаов // Евразийское Научное Объединение. 2018. Т. 4. № 3 (37). С. 224-228.
2. Мотунова Л.Н. Имиджевая компетентность выпускника вуза как условие формирования профессионального успеха// Вестник Воронежского института высоких технологий. 2018. № 4 (27). С. 153-155.
3. Сысоева Е.Ю.Имидж педагога. М.: МГУ, 2019, 236 с.
4. Щеткина И.А. Отношение молодых педагогов к профессии учителя: социологический анализ/И.А. Щеткина, Е.Ю.Захарова, Н.И. Окунева// Ученые записки Забайкальского государственного университета. Серия: Социологические науки. 2015. № 4 (63). С. 191-197.

РЕЗЮМЕ
ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ФОРМИРОВАНИЯ ПЕДАГОГИЧЕСКОГО ИМИДЖА
Мирзоева С.С.
Сумгаитский государственный университет

В статье проанализированы существующие психолого-педагогические исследования по изучаемой проблеме, выявлены общие закономерности и «фокус» теоретических и практических трудов, связанный с выявлением специфики педагогического имиджа, обеспечения оптимальных условий его становления. В основной части работы выявлены ключевые признаки феномена «имидж», определена специфика компонентов педагогического имиджа. Кроме того, рассмотрено содержание психологических компетенций и качеств педагога, которые должны быть в основе первичного имиджа. Выявлены аспекты использования психологического инструментария для каждого конкретного компонента педагогического имиджа, сформулированы рекомендации по проведению саморефлексии с целью развития разных сфер личности. Изучены содержание и функции психологических технологий в основных сферах профессиональной деятельности педагога.
Ключевые слова: *педагогический имидж, профессиональная деятельность, психотехнологии, профессионализм, психологические компетенции, компоненты имиджа, самопрезентация*

SUMMARY
PSYCHOLOGICAL ASPECTS OF PEDAGOGICAL IMAGE FORMATION
Mirzoeva S.S.
Sumgait State University

The article analyzes the existing psychological and pedagogical studies on the problem under study are analyzed, general patterns and the "focus" of theoretical and practical works associated with identifying the specifics of the pedagogical image and ensuring the optimal conditions for its formation are identified. In the main part of the work, key features of the "image" phenomenon are identified, the specificity of the components of the pedagogical image is determined. In addition, the content of psychological competencies and qualities of the teacher, which should be the basis of the primary image, is considered. Identified aspects of the use of psychological tools for each specific component of the pedagogical image, formulated recommendations for self-reflection in order to develop different areas of personality. The content and functions of psychological technologies in the main areas of professional activity of a teacher are studied.
Keywords: *pedagogical image, professional activity, psychotechnology, professionalism, psychological competence, image components, self-presentation*

3-4 YAŞLI UŞAQLARIN RİYAZİ BİLİKLƏRİNİN PSİXOMOTOR FƏALİYYƏTLƏ MƏNİMSƏNİLMƏSİ

Quliyeva Afayət Elman qızı
Bakı Qızlar Universiteti, Bakı, Azərbaycan
afaytq@gmail.com

Açar sözlər: *məktəbəqədər hazırlıq,riyaziyyat, oyunlar,hipokampus, psixomotor fəaliyyət*

Məktəbəqədər hazırlığın vəzifəsi uşağı öyrətmək deyil, onu gələcək təhsilə hazırlamaqdır. Uşaq məktəbə fiziki cəhətdən güclü, həmyaşıdları ilə ünsiyyət qura bilən, diqqətli bir fərd kimi gəlməliir. Bu baxımdan yanaşsaq yeni bilikləri öyrənmək olduqca asan olacaq. Gücləndirilmiş arxa əzələlər oturmaqdan yorulmayacaq. Sinir sistemi münaqişələr və komplekslərlə çox yüklənməyəcək.

Tədqiqatçılar uşaqlarla zehni fəaliyyətə erkən yaşdan başlamağı tövsiyə edirlər. Bu fikirləri əsaslandırmaq mövqeyindən əfsanəvi Masaru İbukanın 1971-ci ildə, daha sonralar 1980- ci illərdə erkən inkişaf haqqında "Üçdən sonra çox gecdir" nəşr etdirdiyi kitabı qeyd etmək yerinə düşər [2]. Həmin illərdə elm adamları hesab edirdilər ki, yetkinlik yaşına çatdıqdan sonra insan beynində yeni neyronlar daha doğulmur. Bu fikir 1990-cı illərin ortalarına qədər nevroloqlar arasında geniş yayılmışdı. Lakin artıq 1998-ci ildə yetkin hipokampusda nörogenezin ilk sübutu əldə edilmişdir. Onlar belə hesab edirlər ki, hipokampus

beynin yaddaşla bağlı olan bir hissəsidir. Beləliklə, əgər uşaqda məktəbəqədər dövrdə nəyisə yadda saxlamaq alınmırsa, onun sonradan öyrənmək imkanı olacaq.

Beynin inkişafı hərəkətlə baş verir. Məsələn, uşaq dolabın divarı boyunca üfüqi barmaqlığa dırmaşdıqda, sonra ayaqlarını sallayaraq ondan asılırsa, bu, riyazi biliklərin əsasını qoyur. Çoxları riyaziyyatın rəqəmlərlə başladığını düşünür. Yox! O "daha yüksək", "aşağı", "yaxın", "daha", "sağ", "sol" məkan təsvirləri ilə başlayır [1].



Uşaq kağız məkanında "sağ-solu" təyin etməyə başlamazdan əvvəl bunu öz bədəni vasitəsilə başa düşməyi öyrənməlidir. Onun üçün kosmosda hərəkət etmək vacibdir. Uşaq ilk çarpaz dirəyə qalxdı, hissi tutdu. İkinciyə qalxdı. Aşağı baxdı, məsafəni müqayisə etdi. Daha yüksək yerdən daha da uzaqdır. Dayandı, qərar verdi: daha da qalxmaq, yoxsa tullanmaq? Məsafəni qiymətləndirir, öz gücü ilə ölçür.

Top oynamaq həm də riyazi biliklər üçün əsasdır, çünki bu, məkan təsvirlərini inkişaf etdirmək üçün əla bir yoldur[3]. Top uzaqdır, yoxsa yaxın? O, hansı istiqamətdə yuvarlanır? Topun düzgün istiqamətdə uçması üçün təsir istiqaməti və qüvvəsi nə olmalıdır?

Riyaziyyatın təməli erkən uşaqlıqda qaydalarla açıq hava oyunları, o cümlədən top oyunları vasitəsilə qoyulmuşdur. Siz, ən əsası, uşağınızla çox və məmnuniyyətlə top oynayın, sonra uşaq böyüdükdən sonra, qazanılan bacarıqların nəyin təməli olmaq istədiyinə özü qərar verəcəkdir. Gələcəkdə istədiyinizi qura biləcəyiniz təməli qoymaq- inkişafın mahiyyəti məhz budur.

Ədəbiyyat

1. Быкова А. “Развивающие занятия “ленивой мамы”, Издательство «Бомбора», 2016, 272 с.
2. Masaru Ibuka. Kindergarten Is Too Late! Publisher “ Fireside “, 1980, 183p.
3. https://azbyka.ru/deti/chemu-uchit-rebenka-3-let-vmesto-bukv-i-tsifr-pryatki-i-igry-s-myachom

РЕЗЮМЕ
ОБУЧЕНИЕ МАТЕМАТИЧЕСКИМ ЗНАНИЯМ ДЕТЕЙ 3-4 ЛЕТ С ПСИХОМОТОРНОЙ АКТИВНОСТЬЮ
Гулиева А.Э.
Бакинский женский университет

Дети дошкольного возраста обладают самым высоким потенциалом развития. Этот потенциал лучше направить на развитие эмоционального интеллекта, коммуникативных навыков и направление, которое поможет им быть счастливым в будущем. Важна в этом процессе и динамика их развития, т. е. детей 3-4 лет, через разнообразные, красочные игры, так как психомоторная деятельность способствует развитию у них вычислительных навыков, а также способности к ускорению развития коммуникативных навыков.
Ключевые слова: *дошкольная подготовка, математика, игры,гипокампус, психомоторное действие*

SUMMARY
MASTERING MATHEMATICAL KNOWLEDGE OF 3-4 YEAR OLD CHILDREN WITH PSYCHOMOTIC ACTIVITY
Guliyeva A.E.
Baku Girls University

Preschool children have the highest developmental potential. It is better to focus this potential on the development of emotional intelligence, communication skills - in a direction that will help you to be happy in the future. Also important in this process is the dynamics of their development, ie children 3-4 years old, through various, colorful games, because psychomotor activity helps to develop their computational skills, as well as the ability to accelerate the development of communication skills.
Keywords: *preschool preparation, mathematics, games, hippocampus, psychomotor activity*

MÜƏLLİMİN ÖYRƏTMƏ ÜSLUBUNUN GƏNCLƏRİN ÖZÜNÜ AKTUALLAŞDIRMASINA TƏSİRİ

Hacıyeva Ayna Şirzad qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
r.hajiyeva98@gmail.com

Açar sözlər: *öyrətmə üslubu, özünüreallaşdırma, pedaqoji təcrübə, öyrənmə fəaliyyəti, yaradıcı inkişaf.*

Gənclər hazırda şəxsiyyət olaraq həyat fəaliyyətinin müxtəlif sferalarında dəyişiklikləri qavramağa, alternativ mədəniyyətə yiyələnməyə, yeni həyat üslubu, təfəkkür stereotiplərini formalaşdırmağa calışırlar. Bu yaş həm də özünüreallaşdırma üçün senzitiv dövrdür .

Ozünüreallaşdırma sayəsində gənc şəxsiyyətini, mənliyini daha yaxşı anlamağa başlayır, müsbət və nöqsan cəhətlərini görməyi bacarır.

Onda özünüidarə, özünütəyinetmə, özünüqiymətləndirmə, özünütərbiyə kimi böyük əhəmiyyətə malik olan keyfiyyətlər formalaşmağa başlayır.

Şəxsiyyətin özünüreallaşdırma qabiliyyəti erkən uşaqlıq dövründən başlayaraq özünü göstərir və insanı bütün sonrakı həyat yolu boyunca müşayiət edir və əsas rol oynayır.

Müasir gənclərin psixoloji xüsusiyyətlərinin 10-15 il əvvəkli həmyaşıdlarından fərqləndiyini qeyd etmək lazımdır. Müasir gəncləri qloballaşmanın təsirindən yaranan tamamilə yeni, fərqli sosial mühit əhatə əldə edir.

Gənclik yaş həddi, şəxsin əxlaqi və estetik hisslərinin fəal inkişafı, onun xarakterinin formalaşması və sabitliyi, ictimai rolların tam yiyələnməsi dövrü kimi qəbul olunur. Gənclik, insanın gələcək həyatını müəyyən edəcək məsul qərarların qəbul edilməsi dövrüdür. Bu qərar qəbulu bəzi cənclərdə öz qüvvəsinə və qabiliyyətinə inamını möhkəmləndirir, onda həyata ümid yaradır, bəzilərində isə əksinə.

Gənclərin inkişafı probleminə diqqətinin artması, prioritetin bilik paradiqmasından inkişafa keçməsi təhsil sistemində öz əksini tapmışdır. Bu tendensiyalar əsaslı şəkildə təkcə təhsilin və tərbiyənin məqsədlərinin qoyulmasına təsir etmir, həm də müəllimin şəxsiyyətinə ən son tələbləri qoyur. Bu tələblərdən biri də müəllimin sosial və peşəkar mövqeyinin aydınlığıdır.

Fəaliyyətin xüsusiyyətlərindən biri də onun "üslubu"dir. Üslub insanın öz hərəkətlərini və münasibətlərini xarici şərtlərlə və digər insanlarla uyğunlaşdırmaq üçün şüurlu və ya kortəbii şəkildə müraciət etdiyi fərdi unikal psixoloji vasitələrin sistemidir.

Bu mövqe müəllimin pedaqoji ünsiyyət üslubunda əksini tapır. Müəllimin pedaqoji ünsiyyət üslubu həm təlim nəticələrinə, həm də təlim fəaliyyətinin psixoloji amillərinə təsir göstərir, onların inkişafını ləngidir və ya əksinə.

Müəllim və tələbələr arasındakı ünsiyyət üslubu kollektivdəki emosional rifah mühitinə birbaşa təsir göstərir ki, bu da öz növbəsində bütövlükdə təhsil fəaliyyətinin effektivliyinə təsir göstərir [4].

Pedaqoji fəaliyyətdə tələbələrə münasibətdə geniş çeşidli hərəkətlər özünü göstərir - bunlar hörmət, qayğı, sevgi, mərhəmət, aqressivlik, hökmranlıq, təhsil fəaliyyətinin subyektlərini öyrənmək üçün müşahidə, empatiya və s.

Üslub müəllimin tələbələr, həmkarları, valideynlər ilə səciyyəvi olan qarşılıqlı əlaqə sistemi kimi təqdim edilə bilər və onlar arasındakı münasibətlərin səviyyəsini və spesifikliyini ifadə edə bilər.

Pedaqoji fəaliyyət üslubu özünü göstərir:

- başqa insanlara münasibətin spesifikliyi (avtoritar, demokratik, liberal üslub);
- fəaliyyətlərin yerinə yetirilməsinin spesifikliyi (improvizə, situasiya, texnoloji üslub);
- fəaliyyətin nəticələrinin spesifikliyi (yenilikçi, ənənəvi, məhsuldar üslub);
- özünün və öz fəaliyyətinin başqaları tərəfindən qavranılmasının spesifikliyi (inamlı, peşəkar, nümayişkaranə və s.);
- yaşa münasibətdə spesifiklik (gənclik, ənənəvi və s.);
- gender mövqeyinə münasibətdə spesifiklik (kişi, qadın üslubu);

Müəllimin üslubu tələbələrlə qarşılıqlı münasibətdə müəyyən emosional fon yaradır, müəllimin fərdiliyini önə çəkir. Pedaqoji ünsiyyət tərzinə müəllimin fərdi xüsusiyyətləri peşə hazırlığı, peşəyə cəlb olunma dərəcəsi, formalaşması təsir göstərir. [5].

Ünsiyyətdə həmişə iki komponent var: məzmun və üslub. Məzmun ünsiyyətin yarana biləcəyi məsələlərin və problemlərin diapazonunu müəyyən edir, üslub isə insanların bir-biri ilə necə əlaqə saxladığını göstərir. Ünsiyyətin bu iki komponentindən onun məzmunu dəyişkən komponentdir və əsasən ünsiyyətin məqsədindən, fəaliyyət növündən asılıdır. Ünsiyyət tərzi, yəni müəllimin bu və ya digər fəaliyyətdə tələbələr və ya həmkarları ilə münasibət qurma tərzi müəllimin şəxsiyyətini xarakterizə edən həmişə sabit qalır. Hər bir insanın öz ünsiyyət tərzi var, yalnız onun üçün xarakterikdir.

Üslub müəllimin ümumi mədəniyyətə mənsubluğunu, eləcə də onun peşə-pedaqoji mədəniyyətinin formalaşma səviyyəsini əks etdirir.

Müəllimlə tələbələrin ünsiyyət tərzində müəllimin ünsiyyət imkanlarının xüsusiyyətləri, müəllim və tələbələr arasında münasibətlərin mövcud xarakteri, müəllimin yaradıcı fərdiliyi, tələbə qrupunun xüsusiyyətləri öz ifadələrini tapırlar.

Məhsuldar fəaliyyət üçün müəllim yadda saxlamalıdır ki, ünsiyyət bütün pedaqoji prosesə, onun hər bir komponentinə nüfuz edir, onun ən kiçik dəyişikliklərinə son dərəcə həssas olmalıdır. Bu, öz növbəsində, müəllimdən eyni zamanda onların davranışını, tələbələrlə münasibətlərini tərtib etməyi ən ifadəli ünsiyyət vasitələrini tapmağı bacarmağı tələb edir [9].

Kan-Kalik pedaqoji fəaliyyətdə ünsiyyətin aşağıdakı xüsusiyyətlərini müəyyən edir: 1) müəllimlə şagirdlər arasında ümumi qurulmuş ünsiyyət sistemi, yəni ünsiyyət tərzi; 2) pedaqoji fəaliyyətin müəyyən mərhələsi üçün xarakterik olan ünsiyyət sistemi; 3) konkret pedaqoji və ya kommunikativ vəzifənin həlli zamanı yaranan situasiyalı ünsiyyət sistemi. Ünsiyyət üslubu cəmiyyətin sosial münasibətlərini təcəssüm etdirir, müəllimin şəxsi və pedaqoji səviyyəsini, onun emosional-psixoloji xüsusiyyətlərini əks etdirir.[5]

Pedaqoji təcrübə ən çox onlardan biri üstünlük təşkil etdikdə, müxtəlif nisbətlərdə müxtəlif üslubların birləşməsini müşahidə edir. Müəllimlər və tələbələr arasında ünsiyyətin növləri və modellərinə əlavə olaraq, ünsiyyət üslublarının başqa təsnifatları da mövcuddur. Beləliklə, müəllim və tələbələr arasında münasibətlərin xarakterinə görə üç ənənəvi üslub fərqləndirilir:

- avtoritar (və ya inzibati, güclü iradəli, direktiv),
- demokratik (və ya kollegial, yoldaş),

- liberal (və ya azad, neytral, icazə verən). üslub.

Praktikada onun həyata keçirilməsinin müxtəlif mərhələlərində bu və ya digər ünsiyyət uslubu üstünlük təşkil edə bilər. Kollektivinin formalaşması zamanı bəzən liberal ünsiyyət tərzi daha uyğun olur. Təlimin xüsusi keyfiyyəti kimi tədrisin effektivliyi pedaqoji elmdə öyrənilir. Bu cür tədqiqatların təhlili əsasında belə nəticəyə gəlmək olar ki, didaktik nöqteyi-nəzərdən səmərəlilik təhsil fəaliyyəti prosesində konkret nəticələrin ictimai əhəmiyyət kəsb edən nəticələrə necə çevrildiyinin göstəricisidir.

Öyrənmə insanın sosial profilinin tərəflərindən biridir. Öyrənmə, bir növ "nərdivan" istifadə edərək, fərdlərin müxtəlif vəziyyətləri ilə müqayisə edilə bilər: öyrənmə - öyrənmə dərəcəsi - öyrənmə qabiliyyətləri.

Tədris fəaliyyətinin effektivliyinin qiymətləndirilməsi öyrənmə parametrlərinə uyğun olaraq tərtib edilə bilər. Səmərəliliyin müəyyən edilməsi, ilk növbədə, effektivliyin - qiymətləndirilmiş nəticələrin optimal şəkildə əldə edilə bilənlərlə əlaqələndirilməsi deməkdir.

Öyrənmə hər hansı xüsusi təlim nəticələrinin arzuladığı hədd kimi məhsuldar müstəviyə çevrilən maddiləşdirilmiş sosial məqsəd kimi başa düşüləcəkdir. Təhsil fəaliyyətinin həyata keçirilməsinin müxtəlif mərhələlərində bu nəticələrin təhlili öyrənmə dərəcəsini göstərir [7].

Tədris və öyrənmə fəaliyyətinin qarşılıqlı əlaqəsi davam edərsə, öyrənmənin əlverişli şərtləri altında, insanın təbii xüsusiyyətini xarakterizə edən öyrənmə qabiliyyətinə çevrilir. Öyrənməyə nail olmaq, yəni “savadsızlıqdan”dan “bilik”ə keçid zamandan asılıdır: bəziləri üçün daha tez keçir, digərləri üçün isə daha yavaş.

Beləliklə, təhsil fəaliyyətinin təşkili təlimin səmərəliliyini artırmaq üçün ən vacib ilkin şərtlərdən biri kimi çıxış edir. Bu gün müəllim və tələbələr arasında qarşılıqlı əlaqənin təşkili üzərində diqqət yetirmək istərdim. Pedaqoji qarşılıqlı münasibəti müəllim və tələbənin bir-biri ilə qarşılıqlı ünsiyyət proseslərini, onların qarşılıqlı şərtiliyini və nəticədə subyektlərin idrak və psixofizioloji vəziyyətlərinin dəyişməsini əks etdirən universal təlim kateqoriyasıdır.

Prinsipcə, təlimin məqsədi yeni bir şəkildə qoyulur: özünüaktuallşdırmaq qabiliyyətinə əsaslanan fərdin zehni və yaradıcı inkişafı. Özünüreallaşdırma dərkolunmuş və aktiv bir proses kimi, insanın praktikada maraqlarını, tələbatlarını və qabiliyyətlərini dərk etdiyi zaman mümkündür.

Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 2003, 534 s.
2. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006, 200 s.
3. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Pedaqoji psixologiya. Bakı: ADPU-nun mətbəəsi, 2010, 600 s.
4. Зимняя, И. А. Педагогическая психология. М.: Логос, 2003, 384с.
5. Кан-Калик, В.А., Никандров Н.Д. Педагогическое творчество./В.А. Кан-Калик. М., "Педагогика"., 2007.83с.
6. Леонтьев А. А. Педагогическое общение / Под ред. М. К. Кабардова. 2–е изд., перераб. и доп. -М.; Нальчик, 2012, 367 с.
7. Скакун В. А. Основы педагогического мастерства; Инфра–М, Форум - Москва, 2012,208 с.
8. Целуйко В. М. Психологические основы педагогического общения; Владос , Москва, 2010,432 с.
9. Шадриков В. Д. Качество педагогического образования; Логос, Москва, 2012,200 с.
10. Шелихова Н. И. Техника педагогического общения. М.; Воронеж,2009,128с.

РЕЗЮМЕ

ВЛИЯНИЕ СТИЛЯ ПРЕПОДАВАНИЯ УЧИТЕЛЯ НА САМОРЕАЛИЗАЦИЮ МОЛОДЕЖИ

Гаджиева А.Ш.

Сумгаитский государственный университет

В настоящее время молодежь как личность пытается воспринять изменения в различных сферах жизни, освоить альтернативную культуру, сформировать новый образ жизни, стереотипы мышления. Этот возраст также является чувствительным периодом для самореализации.

Повышенное внимание к проблеме развития молодежи, переход приоритета от парадигмы знаний к развитию находит свое отражение в системе образования. Эти тенденции не только коренным образом влияют на постановку целей образования и воспитания, но и предъявляют новейшие требования к личности педагога. Одним из таких требований является четкость социальной и профессиональной позиции педагога. Эта позиция находит свое отражение в стиле педагогического

общения учителя. Педагогический стиль общения учителя влияет как на результаты обучения, так и на психологические факторы учебной деятельности, тормозит их развитие или наоборот.

Стиль общения преподавателей и студентов оказывает непосредственное влияние на эмоциональное самочувствие коллектива, что, в свою очередь, влияет на эффективность воспитательной деятельности в целом.

Если взаимодействие педагогической и учебной деятельности продолжается хорошо, при благоприятных условиях обучения, оно становится обучением, характеризующим естественную природу человека. Достижение обучения, то есть переход от «неграмотности» к «знаниям», зависит от времени: у одних оно происходит быстрее, у других медленнее.

Таким образом, организация учебной деятельности является одной из важнейших предпосылок повышения эффективности обучения. Педагогическое взаимодействие - универсальная категория обучения, отражающая процессы взаимодействия учителя и ученика, их взаимную обусловленность и, как следствие, изменение познавательного и психофизиологического состояния субъектов.

В принципе цель обучения ставится по-новому: интеллектуальное и творческое развитие личности на основе способности к самореализации. Самореализация как осознанный и активный процесс возможна тогда, когда человек на практике осознает свои интересы, потребности, способности.

Ключевые слова: *педагогический стиль, самореализация, педагогическая практика, учебная деятельность, творческое развитие.*

SUMMARY
INFLUENCE OF STYLE PRESENTATION OF TEACHER ON SAMOREALIZATION OF YOUTH

Hajiyeva A.Sh.
Sumgait State University

At present, young people as individuals are trying to perceive changes in various spheres of life, to master an alternative culture, to form a new way of life, stereotypes of thinking. This age is also a sensitive period for self-realization.

Increased attention to the problem of youth development, the transition of priority from the knowledge paradigm to development is reflected in the education system. These trends not only fundamentally affect the setting of education and upbringing goals, but also place the latest demands on the teacher's personality. One of these requirements is the clarity of the teacher's social and professional position. This position is reflected in the teacher's style of pedagogical communication. The teacher's pedagogical communication style affects both learning outcomes and psychological factors of learning activities, slows down their development or vice versa.

The style of communication between teachers and students has a direct impact on the emotional well-being of the team, which in turn affects the effectiveness of educational activities as a whole.

If the interaction between teaching and learning activities continues well, under favorable conditions of learning, it becomes learning that characterizes the natural nature of man. Achieving learning, that is, the transition from "illiteracy" to "knowledge" depends on time: for some it is faster, for others it is slower.

Thus, the organization of educational activities is one of the most important prerequisites for increasing the effectiveness of training. Today I would like to focus on the interaction between teachers and students. Pedagogical interaction is a universal category of learning that reflects the processes of interaction between teacher and student, their mutual conditionality and, consequently, changes in the cognitive and psychophysiological conditions of the subjects.

In principle, the purpose of training is set in a new way: the intellectual and creative development of the individual based on the ability to self-actualize. Self-realization, as a perceived and active process, is possible when a person understands his interests, needs, and abilities in practice.

Keywords: *teaching style, self-realization, pedagogical practice, learning activities, creative development.*

MÜASİR NƏSRDƏ ŞƏXSİYYƏT PSİXOLOGİYASI VƏ ÖZÜNÜDƏRK

Məmmədova Törə Kamal qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
toramammadova@gmail.com

Açar sözlər: *nəsr, roman, hekayə, şəxsiyyət, özünüdərk, özünütəsdiq*

Yeni yaradıcılıq axtarışlarında olan modern roman şəxsiyyət problemini önə çəkir, qlobal dünyada şəxsiyyətin yaşantıları, özünü dərki, özünütəsdiqi, yeni mənəvi-əxlaqi dəyərlər qazanması, adət-ənənələrə münasibəti kimi məsələləri diqqət mərkəzinə gətirir. "Fərd", "şəxsiyyət" anlayışları, şəxsi qayğı və narahatlıq, intim hisslər, ümumiyyətlə, məişət fonu, fərdi meyllər müasir romanın düşüncə obyektinə çevrilir. Müəlliflər insan şəxsiyyətlərini hərtərəfli qələmə alan yeni insan konsepsiyasına müraciət edərək, insanın daxili aləminə, idrak fenomeninə müraciət edirlər. Bu da öz növbəsində, yazıçılardan insan psixologiyasına bələd olmağı, həyati təcrübə, insan həyatına xüsusi yanaşma, hisslərin və mənəvi dəyərlərin düzgün dəyərləndirilməsini tələb edir. Bu mənada İ.Əfəndiyevin romanları hərtərəfli, ziddiyyətli daxili aləmi ilə seçilən qəhrəmanları ilə diqqəti çəkir. Müəllif romanlarında bütöv canlı xarakterlər yaradır, insanın psixi həyatının əsasını, onun əxlaqının aparıcı cizgilərini düzgün müəyyənləşdirir, məişətin köklü problemlərinə nəzər salır, ideya – mənəvi və fəlsəfi sualları daha yüksək, bədii dolğun yaradır. Şəxsiyyət axtarışı, qəhrəmanların mənəvi dünyası İ.Əfəndiyev nəsrinin problematikasını təşkil edir..

"Söyüdlü arx" müəllifin ilk romanıdır və burada hər şeydən əvvəl insanın qarşılıqlı münasibətlərindəki psixoloji hallar, mənəvi-əxlaqi qarşıdurmalar, şəxsiyyət axtarışı ön plana çəkilmişdir. Başqa əsərlərində olduğu kimi, burada da, ilk növbədə təsvir olunan obrazlar mürəkkəb psixoloji keyfiyyətlərə malikdirlər. Nuriyyə bu obrazların içində fərdi psixoloji hisslər aləmi ilə, növbələşən hadisələr – ümumi maraqlar və şəxsi tale fonunda diqqəti daha çox cəlb edir. Qəhrəmanın daxili-psixoloji aləmi də bu hadisələr fonunda açılmağa başlayır.

A.Lundqvist "Ne proqramma, a napravleniye" məqaləsində müasir ədəbiyyatda "insanşünaslıq"– psixoanalizin müvəffəqiyyətini şəxsiyyətin "içəridən", eyni zamanda tarixi təfəkkürün nailiyyətini şəxsiyyətin yeni səviyyədə "xaricdən, kənardan" tədqiq olunması ilə müəyyənləşdirir və yazır: "Psixoanaliz uzun mühakimələrin obyekti olmamalıdır. Şərtilik qabığını dağıtmaq, insanın daxili aləmini tədqiq etmək, hərəkət edən güc və impulsların qarşılıqlı əlaqəsini aşkar etmək lazım olduqda, ondan gözəl bir alət kimi istifadə olunmalıdır" (6.418).

Qəhrəmanın daxili aləminin təsvirində əsas hədəf mənəvi məzmundur, qəhrəmanın hiss və düşüncələrində həqiqət axtarışıdır. Yazıçının tədqiqat obyekti şəxsiyyətdirsə və onun əsasını xarakterin mənəvi və fəlsəfi məzmunu tutursa, belə problematika özünün təcəssümündə bədii forma kimi psixologizmi tələb edir. Mənəvi problematikada diqqət insanın həyata baxışına və onun dəyişməsi prosesinə yönəlir. Əsərin mərkəzində fəlsəfi və etik axtarışlar durur. Qəhrəman həyat və onun mənası haqqında düşünür, daha çox isə necə düşündüyünü götür–qoy edir. Mənəviyyat axtarışları prosesində qəhrəman öz həqiqətini axtarır, onu təcrübədən keçirir, elə bu həqiqət də insan üçün dəyərli olur. Mənəvi axtarışlar prosesində qəhrəman gərgin vəziyyətlərə düşür, həyəcan keçirir. Ziddiyyətlər prosesində nəhayət ki, fərdi "mən"ini təsdiq edir. A.B.Yesin şəxsiyyətin ideya – mənəvi özünütəsdiqi prosesini mənəvi problematikanın əsası hesab edir. Səlimə özünütəsdiq edərək, öz yolunu seçir, insanlara və ətraf aləmə münasibətini belə müəyyənləşdirir.

Mənəvi axtarışlar və şəxsiyyətin özünütəsdiqi prosesində qəhrəmanın "həqiqət" fəlsəfəsi ətraf reallığın faktları ilə toqquşur, ziddiyyətli reallıqlar içində qalan qəhrəman daxili "mən"i ilə götür–qoy edərək, öz konsepsiyasını irəli sürməkdə cəsarət göstərir, hətta vərdiş olunmuş qanunları pozmaqda belə, inad edir. Məsələn, Səlimə ("Dağlar arxasında üç dost") Şahları sevir, lakin onun ultimatumunu qəbul etmir. "... o, məndən azadlığımı istəyirdi. Əgər o, bunu mənim insanlıq ləyaqətimi məhv etməyəcək ədalətli bir iş üçün etsəydi, Prometey kimi dara çəkilməyə də, sinəmi qarğa–quzğunların didib–parçalamasına da razı olardım. Lakin şərəfsizliyi, yaltaqlığı, kor-koranə tabe olmağı mən nə ona rəva görərdim, nə də özümə!"(35.309)

Yaxud "Körpüsalanlar" əsərində Səriyyə Adillə söhbətdən sonra belə deyir: "Mən özümü onun qarşısında ikiüzlü bir miskin kimi hiss elədim. Mənim əqidəmcə, dünyada ən böyük alçaqlıq namərdlikdir. Sənin bir yastığa baş qoyduğun adamdan heç nə gizlətməyə haqqın yoxdur! Ona görə də mən təklikdə öz hisslərimi aydınlaşdırmalıyam" (2.328).

Səriyyədə yeni təəssüratlar dəyərlərin yenidən qiymətləndirilməsinə gətirir. Qəhrəman hərəkətlərinə yeni nəzər salır. Artıq biganə, laqeyd, ikiüzlü ola bilmir.

Mənəvi axtarışlar prosesində qəhrəman özünün mənəvi prinsiplərini, həyata baxışını müxtəlif nöqteyi–nəzərdən, müxtəlif həyati kriteriyalardan müqayisə edir və nəhayət özünün mənəvi–fəlsəfi nəticəsini müəyyənləşdirir. "Bəlkə Güləbətin yaxşıdı... Mən özümdə fövqəladə bir qüvvə hiss etdim. "Yox! Min dəfə yox!" deyə ürəyimdə qışqırdım. Bu sadəcə bir qısqanclıq deyildi. Bu üsyan idi!.. Ədalətsizliyə, zülmə, sitəmə, zorakılığa qarşı üsyan idi!.. Mən onu Güləbətinə verə bilməzdim. Ölərdim... Amma verə bilməzdim!"(3.291) ("Dağlar arxasında üç dost").

Mənəvi problematikanın bədii təcəssümündə psixologizm daxili emosional aləmin təsvirində təbii forma kimi çıxış edir. Bu zaman, təkcə Səlimənin düşüncələri yox, eyni zamanda hiss və həyəcanları da təsvir obyektinə çevrilir.

İ.Əfəndiyev emosional proseslərin elementar təsvirini çox gözəl verir. Münasibətlərdən söhbət gedirsə, təkcə bir baxış, hətta bir gülüş, bir söz kifayət edir ki, emosional vəziyyət hiss olunacaq dərəcədə dəyişsin. Oxucu ətraf aləmi daha aydın, daha rəngarəng görür. Burada əlbəttə, söhbət insan təbiətindən və onun təsvirindən gedir. Hisslərin, düşüncələrin, emosiyaların şüurdan ötürülərək, dərk olunması, davranış əlbəttə, əsas yer tutur. Lakin müəllifin təsvirində ünsiyyətin hiss olunan, görünən tərəfi – baxışlar da az təsirə malik deyil. Baxışların gördüyünü qələmə almaq daha çətindir, bu çox zaman şəxsiyyətin başqa məzmununu açmağa kömək edir. Baxışların ünsiyyəti, təsviri bizim təsəvvürümüzdə dolayısı ifadə üçün imkanlar açır. "Aydınlıq gecələr" povestində biz sujetin inkişafı prosesində Surxayla Şirinin baxışlarındakı ünsiyyəti tez–tez hiss edirik. Elə əsərin əvvəlindən Şirinin münasibətlərində nə isə bir gərginlik, həyatında nə isə bir çatışmamazlıq hiss olunur və bunu hər şeydən əvvəl baxışlar biruzə verir. "Uzun arakəsmə ilə keçib getdikləri zaman Surxay bir sövqi–təbii ilə dönüb geri baxdı. Nəzərləri qapının astanasında dayanaraq, onlara baxan Şirinin nəzərləri ilə qarşılaşdı. Qız çevrilib otağa keçdi. Surxay onun bu ani baxışlarında nə isə qəmli, küskün bir ifadə hiss etdi və bu onun xəyalından silinmədi..." (4.180).

Yaxud Surxayın çaldığı "Ay sonatası"na qulaq asan "Şirinə elə gəlirdi ki, ömründə ilk dəfədir bu qədər dərin mənalarla çırpınan musiqi eşidir. Ürəyi birdən – birə anlaşılmaz, riqqətli duyğularla titrədi və o, nəcib bir həyəcanla nişanlısına baxdı, Kərəm, Şirinin dəfələrlə diqqət yetirmiş olduğu gödək karandaşla kibrit qutusu üzərində nə isə cızma–qara eləyirdi. Üzərində hər zamankı kimi, kəskin zehninə, iti ağlına dəlalət eləyən adi ifadə vardı. Şirin xəfifcə bir ah çəkərək, təkrar bəstəkara baxdı. Solğun ay işığında onun üzü həlim və nurani görünürdü. Melodiya davam elədikcə, qıza elə gəlirdi ki, bu həlimlik artır, yüksəlir və munis olur...

Oğlanın mavi büllur kimi parlayan gözləri uzaqlara, aydınlıq gecənin dərin sükutu içində röyaya dalmış dağlara baxırdı. Bu gözlərdə indi xülya kimi uzaq və kədərli bir məna vardı" (4.185-186). Şirin Surxayın mahnısında, onun baxışlarında özünə aid olan nəyisə hiss edir, duyur. Bəlkə elə duyduğu üçün də baxışlarını ondan gizlətməyə çalışır. "Onlar xudahafizləşdilər. Şirinlə görüşdüyü zaman Surxay onun qəsdən nəzərlərinin yuxarı qaldırmamağa çalışdığının fərqinə vardı" (4.187). Göründüyü kimi, lal baxışların gizli bir ünsiyyəti şəxsiyyətin daxili aləminin açılmasına kömək edir və müəllif burada dolayısı psixologizmdən istifadə edir.

Müəllif "sözsüz münasibətlər"ə, baxışlarda, gülüşdə qəhrəmanın arzu və iradəsindən asılı olmayaraq, üzə çıxan hisslərin təsvirinə tez-tez müraciət edir. Bununla da insanın daxili "mən"ini açmağa cəhd edir. Belə ki, hisslərin qeyri-iradi, nitqsiz ifadəsi çox zaman daha həqiqi olur, nəinki onların sözlə ifadəsi. Eyni zamanda nitq, çox zaman hissləri qəsdən "hamarlayaraq, düzəliş edərək" ötürdüyü halda, insanın sifəti, baxışları, gözləri hisslərin, bilavasitə canlı inkişafını açır. "Dağlar arxasında üç dost" əsərində Səlimə Gülnisə xalanın ona qarşı münasibətlərini məhz baxışlarından hiss edir. Onlar arasında "sözsüz münasibətlər" uzun müddət davam edir, Gülnisə xala özünün kəskin baxışları ilə Səliməyə qarşı tez-tez "hücuma" keçir. Bəndalı əminin evində Hayk Səlimənin şərəfinə sağlıq deyir: "Arzu edirəm ki, bizim belə uzaq kəndlərimizə gələn zootexniklərin hamısı sizin kimi gözəl olsunlar. Çünki siz öz gözəlliyinizlə bizə işıq və xoşbəxtlik gətirirsiniz" (3.186). Səlimə oğlana təşəkkür edərək şərabı axıra qədər içir. Bu zaman onun bütün fikri Gülnisə xalanın yanındadır: "Mən cəbhənin ən qorxulu yerini hiss edirdim. O, (Gülnisə xala – T.M.) ayaq üstə dayanaraq, qulaq asırdı. Oğlanın axırıncı sözlərini eşitdikdə arvadın üzü soyuq bir ifadə aldı və o, mənə ani, kəskin bir nəzər salaraq, oğluna baxdı. Lakin Şahlar onun nəzərlərini duymadı. Heyf ki, duymadı.

Gülnisə xalanın son hərəkəti mənə ağır bir zərbə oldu. Birdən-birə öz-özümə yerini bilməyən, başqasına sıranmağa can atan bir məxluq kimi göründüm. Lakin bu düşgün əhval-ruhiyyə yalnız bir an çəkdi. Şah dönüb mənə baxdı və mən hər şeyi unutdum. Daxilimdə üsyankar, coşğun bir hiss baş qaldırdı. Öz

ləyaqətim haqqındakı inamım təkrar bütün varlığıma hakim oldu və mən bir daha Gülnisə xalaya tərəf baxmadım"(35.186). Gülnisə xalanı baxışlarından anlayan və daxili aləmində gərginlik hiss edən Nuriyyə bu dəfə Şahların baxışlarında ümid, təsəlli tapır və Gülnisə xalanın üzünün sərt ifadəsindən gizlənməyə çalışır.

İnsan həyəcanlarının təsvirində təkcə gülüş, yaxud baxış yox, eyni zamanda, jest və hərəkət də az rol oynamır. Müəllif bir neçə cümlə ilə qəhrəmanın daxili aləmində baş verən emosional prosesləri işıqlandıra bilər. Lakin bu zaman hərəkət də vacibdir. Məs., "Geriyə baxma, qoca" əsərində Muradın babasının ölümünü necə qarşılaması səhnəsinə nəzər salaq: "Atam gəlib anama ürək-dirək verərək dedi:

- Özünü töxtaq tut. Bütün yaranan gedəcək.

Anam heç bir söz demədi. Amma gözlərindən sakit yaş axırdı. Sonra o, mənə dedi:

- Get babanı gör.

Mən də elə bil ki, tamam qeyri-şüuri bir hərəkətlə babamgilə gedib gördüm ki, Fatma nənəmlə Gülbəs arvad yerdə, yorğan-döşəyin içində, səssiz, xəfifcə yuxuya getmiş kimi görünən babamın yanında oturublar. Babamın gözəl üzü çox arıqlayıb göyərmişdi. Çal saçları əvvəlki təki yana daranmış kimi idi. Mən ayaq üstündə durub ona baxırdım. Gülbəs arvad mənə dedi:

- Gəl, babanı öp.

Lakin mən, nə üçünsə, yerimdən tərpənmədim. Mən ağlamırdım da, tamam şüursuz olaraq babama tamaşa edirdim. Sonra çevrilib, səssizcə gəldiyim kimi, səssizcə də çıxıb getdim. Mən bağın içi ilə dizə qədər qalxmış qarı ayaqlaya-ayaqlaya evimizə tərəf gedərkən birdən üç il bundan qabaq, belə bir qarlı qış günündə babamın ayaqlarında uzunboğaz çəkmə, əynində xəz kürk, belində onatılan tapança, məşhur kəhər atının üstündə Qızılbaşoğlu Alının müşayiətilə Ağdama getdiyi yadıma düşdü. Gözümün yaşı sel kimi axmağa başladı. Mən bağın səssizliyi içində budaqlarını qar əyən ağaca söykənib yana-yana ağlayırdım…"(1.421). Burada Muradın hərəkəti (qeyri-şüuri hərəkətlə babasıgilə getməsi, ayaq üstə durub yerindən tərpənmədən şüursuz ona baxması, ağlamaması, səssizcə gəldiyi kimi, səssizcə də getməsi) daxili gərginliyindən (psixoloji məqam) xəbər verməklə yanaşı, xarakterinin açılmasında da təsirə malik olur. Məhz təbiət (qarlı qış günü) Murada babası ilə bağlı hansısa xatirəni yada salır və elə bu vəziyyət onun daxili aləmində daha böyük gərginlik yaradır, bu gərginlik artıq daxildən xaricə ötürülür. Biz qəhrəmanın psixoloji vəziyyətinin (göz yaşları) şahidi oluruq. Burada İ.Əfəndiyev şəxsiyyətin qəlbinin kədərini göstərməklə kifayətlənmir, daxili aləmin fasiləsiz hərəkətini verməklə kədərin əsl məzmununu açmağa səy göstərir. " Məni ağladan o idi ki, bir də heç zaman babam kəhər atı minməyəcək. Bir də heç zaman qırmızı ağac qoburlu onatılanı belinə bağlamayacaq, bir də heç zaman bu dünyanı görməyəcək. Demək bu dünyanın kədəri əbədidir!

Birdən ağacın budağına bir sərçə gəlib qondu və budağın qarı silkələnib üzümə tökülərək məni diksindirdi, elə bil ki, mən ağır, çox ağır bir yuxudan ayılıb çox məyus halda ona baxırdım. Sərçə də tələşla ora-bura və mənə baxaraq həyəcanla səslənirdi. "Yəqin acdır, yem axtarır" deyə mən düşündüm. Neçə gün idi qalın qar hər yeri örtmüşdü. Demək, bu dünyanın dərdi əbədidir!

Mən bəlkə çörək qırıntısından-zaddan bir şey tapdım deyə ciblərimi axtardım, amma heç nə tapmadım. Sərçə uçub getdi və mən onun ardınca baxaraq nə üçünsə Qaracanı xatırladım. "Görəsən, bu soyuq qış günündə o, atasız-anasız neyləyir? Görəsən acdı?" Sonra mən o zaman yaylaqda Bayram babamın Qaracaya pul verdiyini xatırladım. "Görəsən, Bayram babamın vəfatını biləndə Qaraca ağlayacaq?" Amma anası onları qoyub qaçanda, heç ağlamadı. Qonşumuz, mənim yaşıdım Abbas bəy də anasının vəfatından danışanda heç ağlamırdı. Heç bikef də olmurdu. Demək, bu dünyanın dərdi əbədidir!

Qəhrəmanın bir emosiyası böyüyüb başqa emosiyaya keçir, müəyyən gərginlik hissi başqası ilə əvəzlənir. Bununla müəllif Muradın keçirdiyi hissləri oxucuya daha təbii və inandırıcı şəkildə çatdırmağa nail olur. Qəhrəmanın təbiətindəki daxili narahatlıq, götür-qoy hissi təhkiyədə təhlili şərtləndirir. Uzun mühakimələrdən, düşüncələrdən sonra Murad bir qənaətə gəlir – dünyanın dərdi əbədidir!

E.Bazen yazır: "Həqiqi psixologizm hökmən çıxılmaz vəziyyəti, gələcəyə ümidi (irəlini, istiqbalı) göstərəcək, idrakı mənəvi yüksəklik axtarışlarına yönəltməyə kömək edəcək" (5.137). Muradın keçirdiyi hisssslərin bədii təsviri, və hiss və düşüncələrdən doğan yekun nəticə, məhz şəxsiyyətin mənəvi axtarışları ilə, özünüdərki, dünyanıdərki ilə əlaqəlidir.

Bilirik ki böhran görünənin yalançı üzünü açır, işin əsas məzmununu, məğzini aydınlaşdırır. İ.Əfəndiyev böhran zamanı onun bütün momentlərini izləyir və belə zamanlarda ən kiçik epizodun da əsas əhəmiyyətə malik olduğunu dərk edir. Belə ki, "Aydınlıq gecələr"də Şirinin böhranı (hərəkəti) – özünü öldürmək istəməsi yazıçı təxəyyülünün sadəcə təsvirindən irəli gəlmirdi. Deyək ki, baş verən bu böhran həm də Kərəm surətinin tamamilə açılmasına, xarakterinin sona qədər aydınlaşmasına kömək edir. Kərəm Şirinin faciəsinin qarşısının alınması üçün son addımı atmaqla özündə cəsarət və mərdlik hisslərini, əsl insanlıq ləyaqətini biruzə verir. "Onun (Kərəmin) duyğuları indi o əvvəlki qısqanclıq, qəzəb və nifrətdən uzaq idi.

Gənc bir qızı ölümün qapısına qədər gətirib çıxarmış səbəbləri aydın təsəvvür edə bilməsə də, o, bu faciəyə acıyırdı.” Kərəm birbaş Surxayın evinə gedir və “Nə üçün sən onu öldürməyi bacarırsan, yaşatmağı yox?” – deyə, “ədalətli düşünməyi” Surxayın “vicdanına” tapşırır. İnsanı yüksək qiymətləndirən, insanda insanlığın başlanğıcını axtaran İ.Əfəndiyev Kərəmi xarakterdən çox şəxsiyyət kimi açır. Kərəmin mənəvi təkamülü, həyatı – insanı düzgün dərki onu bir şəxsiyyət kimi təsdiq edir.

Adilin (“Körpüsalanlar”) böhranı da onun xarakterinin açılmasında vasitə olur. Yuxudan ayılaraq Səriyyəni “Çarpayısının üstündə büzüşüb oturaraq, bayıra baxan” görən Adilin nələr çəkdiyini düşünmək, o qədər də çətin deyil. Həmin anda Adilin şüurundan təqdim olunan fikirləri onun xarakterinin açılmasında, bilavasitə iştirak edir. Əvvəlcə Qəribin, bir qədər sonra da Səriyyənin ölümünü arzulayan Adilin gücsüz, zəif bir insan olduğunun şahidi oluruq. Səriyyə-Adil-Qəribcan xəttinin aydınlaşmasında bir məqama nəzər salaq. Qəribin ayağının əzilməsi və onun xəstəxanaya düşməsi zamanı Səriyyənin fikirlərini nəzərdən keçirək. “Biz yığışıb rayona gedəndə şəhərdə qalan qış paltarlarımıza naftalin vurmaq lazım olduğunu Adil mənim yadıma salmışdı. Mən də onları çox həvəslə dərmanlayıb şifonerə yıgmışdım. İndi mənə elə gəlir ki, bu iş çox uzaq bir zamanda olmuşdur. Elə bil ki, o paltarları cansıxıcı bir payız günündə dərmanlayıb getmişdim. O günün xatirəsi indi ağır bir daş kimi ürəyimi sıxırdı. Doğrudanmı, hər bir həvəsdən, xeyirli hesab elədiyin hər bir işdən axırda bu cür ağır, kədərli xatirədən başqa heç nə qalmır?! Doğrudanmı, məyusluq bizim son mənzilimizdir... Birdən bütün varlığıma qəribə bir hiss hakim oldu: mənə elə gəldi ki, əgər buldozerçi sağalıb qalxsa, əgər onun ayağını kəsməsələr, mən yenə də əvvəlki həvəslə gedib Adilin də, özümün də paltarlarımızı çıxarıb günə sərəcəyəm... Təzədən bir də dərmanlayacağam və Adilə hər şeyi bağışlayacağam... hər şeyi! Axı mən nə zaman demişəm ki, Adil pisdir?..” Bir anlığa Səriyyənin peşmançılığının, kədərinin şahidi oluruq, qəhrəman hər şeyi unudacağını, Adili bağışlayacağını vəd edir. Burada hiss və həyəcan, emosional vəziyyət əsas rol oynayır, düşüncə isə ikinci plana keçir, qəhrəmanın düşüncələri - baxmayaraq ki, qaçılmazdır - hələlik, o qədər də vacib deyil. Səriyyənin hissləri bir qədər anlaşılmaz, bir qədər ziddiyyətli olsa da, əsas məsələ bu hisslərin yaranması faktıdır. Əsas diqqət də qəlbin dərkolunmaz hərəkətinə - ayrı-ayrı əhval–ruhiyyənin, təəssüratların, bir sözlə daxili aləmin çətin bədii təhlilinə yönəldilib. Bədii təsvirin obyekti də qəhrəmanın psixoloji vəziyyətindən çox, bu vəziyyəti yaradan ümumi emosional tondur. Bu da tənhalıq hissi, bəzən qorxu, anlaşılmaz narahatçılıq, bəzən kədər və s. ola bilər. Bir anlığa elə başa düşmək olar ki, Qərib sağalacaq və Səriyyə də onunla bir dost kimi ayrılaraq Adillə bir yerdə qalacaq. Lakin hadisələrin inkişafı daha başqa cür istiqamət alır. Adil – Səriyyə böhranı daha da gərginləşir və bu böhran ailənin dağılmasına gətirib çıxarır. Səriyyə artıq yenidən Adilin “əsarəti” altında yaşaya bilməz, hər şeyi onun ölçüləri çərçivəsində həyata keçirə bilməz, keçmiş qayıtmalı deyil və qayıda da bilməz. Qəhrəman bunu dərk edir. Əsərdə qəhrəmanın əsas ideya – mənəvi inkişafı təsvirinin özünəməxsusluğu da ondadır ki, bu inkişaf – şəxsiyyətin özünüdərki, məqsədyönlü, planlı aparılmır, şüurlu və ardıcıl, gündəlik həyatda olduğu kimi – elə bil birdən, özü-özünə baş verir. Bu prosesdə rasionallıq yox emosionallıq, düşüncə yox, hisslər, dərk olunmayan, yaxud az dərk olunan əhval-ruhiyyə əsas rol oynayır. Şəxsiyyət hisslər və əhval-ruhiyyələrdən keçərək, mənəvicə dəyişir.

Ədəbiyyat

1. Əfəndiyev İ.M Seçilmiş əsərləri. 3 cilddə, I c., Bakı: Avrasiya Press, 2005, 280 s.
2. Əfəndiyev İ.M. Seçilmiş əsərləri. 4 cilddə, IIc., Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1971, 396 s.
3. Əfəndiyev İ.M. Seçilmiş əsərləri 4 cilddə, IIIc., Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1971, 359 s.
4. Əfəndiyev İ.M. Seçilmiş əsərləri. 7 cilddə, I c., Bakı: Çinar – Çap, 2002, 448 s.
5. Балашова Т.В. Эрве Базен и пути французского психологического романа. Москва: Худож. лит., 1987, 270 с.
6. Называть вещи своими именами (Программные выступления мастеров западно-европейской литературы XX века). Москва: Прогресс, 1986, 640 с.

РЕЗЮМЕ

ПСИХОЛОГИЯ ЛИЧНОСТИ И САМОСОЗНАНИЯ В СОВРЕМЕННОЙ ПРОЗЕ

Мамедова Т.К.

Сумгаитский государственный университет

В статье рассматривается проблема личности в современном романе, вопросы внутри самой личности. Исследуется роль психологизма в процессе духовного поиска и самоутверждения личности. С этой целью анализируются рассказы и романы И. Эфендиева. В своих произведениях И.

Эфендиев по-разному дает природу человека, его внутренний мир, процесс самоутверждения личности. Иногда передача чувств, мыслей и эмоций человека, а иногда и его поведение занимают центральное место в самосознании человека. Однако в авторском описании видная и зримая сторона общения также имеет немалое влияние. Сложнее зафиксировать движение взглядов, что нередко помогает выявить иное содержание личности

Описание взглядов открывает косвенные возможности для понимания главного героя в нашем воображении. В статье анализируются эти моменты на примерах.

Ключевые слова: *проза, роман, повесть, личность, самосознание, самоутверждение*

SUMMARY

PSYCHOLOGY OF PERSONALITY AND SELF-CONSCIOUSNESS IN MODERN PROSE

Mammadova T.K.

Sumgait State University

The article examines the problem of personality in the modern novel, the issues within the personality itself. The role of psychology in the process of spiritual search and self-affirmation of personality is studied. For this purpose, I. Efendiyev's stories and novels are analyzed. In his works, I. Afandiyev gives the human nature, its inner world, the process of self-affirmation of the personality in different ways. Sometimes the transfer of feelings, thoughts and emotions from the mind, and sometimes the behavior of the individual is the main thing in the self-consciousness. However, in the author's description, the visible and visible side of communication is also influential. It is more difficult to record the movement of views, which often helps to reveal a different content of personality. The description of the views opens up indirect opportunities to recognize the protagonist in our imagination. The article analyzes these points on examples.

Keywords: *prose, novel, story, personality, self-awareness, self-assertion*

DEPORTASİYA, YURD HƏSRƏTİ VƏ ŞƏHİDLİK MÖVZULARININ BAYATILARIMIZDA PSİXOLOJİ LAYI

Bayramov Astan Əhmədxan oğlu

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

folklorshunas@mail.ru

Açar sözlər: şəhid, qaçqın, Qarabağ, Şamaxı, girov

1813-cü ilin oktyabr ayında Rusiya ilə İran arasında olan Gülüstan, 1828-ci ilin fevral ayında olan müharibə isə Türkmənçay müqaviləsi ilə sona yetdi. Bu müqavilə azərbaycanlılara qaçqınlıq, köçkünlük, soyqırımı gətirdi. Elə həmin ərəfədə, mart ayında İrəvan xanlığının ərazisində ermənisiz "Erməni vilayəti" yaradıldı. J.Şopenə görə İrəvan xanlığında 1111 kənd olmuşdur. Müharibə zamanı 300-dən çox kənd dağıdılmış, əhalisi qaçqına çevrilmişdir. İrandan 40 min, Türkiyədən 84 min ermənini gətirib Azərbaycanın münbit kəndlərində yerləşdirmişlər. Rusiya-Türkiya arasında olan müharibə isə Ədirnə andlaşması ilə nəticələnmiş və bundan sonra da ermənilərin Türkiyədən Cənubi Qafqaza köçü davam etmişdir. 1894-cü ildə Türkiyədən yenə də 90000 ermənini gətirdib İrəvan, Gəncə, Qarabağ, Şamaxı, Tiflis qəzalarında Azərbaycan türkləri yaşadığı yerlərə yerləşdirmişlər. 1878-ci ildə Cənubi Qafqaza erməni axını daha da gücləndirilmişdir. Rus hökuməti çalışırdı ki, Cənubi Qafqazda azərbaycanlıların etnik tərkibini azaltsın. 1917-ci ildə nəşr olunan "Qafqaz təqvimi"ndə göstərilir ki, 1873-cü ildə Qərbi Azərbaycanda 654 kənddə Azərbaycan türkləri yaşamışdır [2, s.20]. Tədqiqatçı İ.Məmmədov 1873, 1886, 1905, 1914-cü illərdə həmin kəndlərdə yaşayanların etnik tərkibini və sayını cədvəldə müqayisə ilə göstərərək 1990-ci ildə həmin kəndlər də bir nəfər də Azərbaycan türkünün yaşamadığını qeyd edir[3, s.235-254].

Oktyabr çevrilişindən sonra da rus ordusunun silah-sursatına sahib olan erməni könüllüləri İrəvan quberniyasında 211, Zəngəzur qəzasında 115, Naxçıvanda 60, Şamaxı qəzasında 58, Qarabağda 150 kənd, Quba qəzasında 122 kəndi yerlə yeksan eetmiş, on minlərlə insanı məhv edərək soyqırım törətmişlər. Nijde, Dro, Andranik kimi erməni quldurları, daha sonra daşnak Şaumyan, Mikoyan kimi bolşeviklərin rəhbərliyi ilə bu qətliamlar davam etdirilmiş və Cənubi Qafqazda etnik təmizləmələr aparmışlar[2, s.145].

Ermənilərin müxtəlif dövrlərdə Azərbaycana qarşı olan torpaq iddiaları həmişə Cənubi Qafqazda bir qarışıqlığa səbəb olmuşdur. Nəticədə, çar Rusiyası və bolşevik Rusiyası zamanında azərbaycanlıların toplu yaşadıqları Zəngəzur, İrəvan, Lori, Pəmbək, Vedi, Şəmsəddin, Ağbaba Şörəyel, Göyçə, Meğri, Qaraqoyunlu və digər tarixi torpaqlar əsasında gəlmə ermənilərin terrorçu hərəkətləri nəticəsində monoetnik "Ermənistan " yaradılmışdır. Dəfələrlə həmin tarixi ərazilərdən azərbaycanlılar deportasiya olunmuş və soyqırıma məruz qalmışlar. Bu gün də Qarabağ və daha yeddi rayonumuzdan bir milyona qədər soydaşımız erməni terror nəticəsində qaçqın və köçkün vəziyyətindədirlər. Bu qaçqınlıq, köçkünlük və soyqırımı nəticəsində ağbirçəklərin sinəsində çəkdikləri əzab-əziyyət və yurd həsrətini əks etdirən bayatılar göyərmişdir.

Yuxarıda dediyimiz kimi, hər bir tarixi şəraitdə ermənilər vəziyyətdən istifadə edərək Azərbaycan ərazilərini zəbt etmiş, etnik təmizləmə aparmışlar. Belə ki, 28.11.1943-cü ildə Tehranda ABŞ, Britaniya və Sovetlər birliyi dövlət başçılarının keçirdiyi konfransda da belə olmuşdur. Həmin vaxt səfirliyin qabağına toplaşan ermənilər Stalinə göstərək bildirirlər ki, bunlar İranda yaşayan ermənilərdir. Sovetlər birliyinə köçmək arzusundadırlar. Müharibə qurtardıqdan sonra Mikoyanın təhriki ilə 23.12.1947-ci ildə SSRİ Nazirlər Soveti 4083, 10.03.1948-ci ildə isə 754 nömrəli qərarları ilə Qərbi Azərbaycanın Vedi, Qəmərli, Üçkilsə, Göycə, Lori, Pəmbək, Ağbaba, İrəvan və digər rayon və şəhərlərdən "könüllü" adı ilə azərbaycanlıları Azərbaycanın aran rayonlarına – Salyan, Sabirabad, Biləsuvar, Saatlı, İmişli və s. ərazilərə köçürürlər. Köçkünlər həftələrlə dəmiryol stansiyalarında qalır, iqlim şəraitinə dözməyərək uşaqlar və qocalar qızdırmadan tələf olurlar. Köçkünləri yerləşdirmək üçün heç bir şərait olmadığı üçün Stalin öldükdən sonra köçürülən əhalinin 40%-i geriyə qayıtmağa nail olur.

1988-ci ildə Qorbaçovun uğursuz yenidənqurma siyasətindən sonra ermənilər yenə də Azərbaycana qarşı torpaq iddiasında olsunlar. Qarabağ Ermənistana birləşdirməyə çalışdılar. Yenə də 260 mindən çox Azərbaycan türkünü Qərbi Azərbaycandan erməni terroru nəticəsində qaçqın saldılar. Qaçqınlar Azərbaycanın müxtəlif rayonlarında məskunlaşdılar. Əzab-əziyyətə düçar olmuş qaçqınların sinəsi folklor örnəkləri ilə zəngin idi.

1989-cu ildəfolklor və dialekt materialları, eləcə də onomastik vahidlər toplamaq üçün Bakı şəhərinin o vaxt "Semaşko", "Papanin", "Xutor" adlanan ərazilərində oldum. Şəhərin o hissəsinə Lori-Pənbək, Qaraqoyunlu, Ağbaba-Şörəyel kəndlərindən olan qaçqınlar çoxluq təşkil edirdi. Onların arasında yaşlı qadın və kişilər çox idi. Adam gəzirdilər ki, qəm-kədər, qəriblik, nisgil dolu olan sinələrini boşaltsınlar. Holavarlı Gülpəri Kərim qızı, mollaqışlaqlı Qiymət Rəhim qızı, xancığazlı Pəri nənənin dillərindən qaçqınçılığı əks etdirən bayatılar toplaya bildim. Bu bayatılar nə qədər orijinal, nə qədər poetik tutumlu folklor inciləridir. Bu misralarda xalqın haray-həşiri, acı taleyi, dərdi-səri bildirilir və erməni vəhşiliyinə düçar olan bir xalqın psixoloji

Durnam uçur Loruya,
Qanad çalır oruya.
Pənbəkdən dönüb gəlsin
Xəbər versin geriyə [1, s.64].

Maymaxda laçın gördüm,
Holavar köçün gördüm.
Hay çəkdim kənd yuxarı
Holavar heçin gördüm [1, s.63].

Bu bayatılar xalqın harayıdır, xalqın çətin günlərinin tarixi yaddaşıdır. Ağbabanın Güllücə kəndindən olan Sinə Həmid qızının dilindən qaçqınlığın acılığını əks etdirən bir neçə orijinal bayatı da qələmə almışdım. Bu bayatılardan isə erməni vəhşiliyinə düçar olan bir xalqın psixoloji halı, haray-həşiri, çətin günlərinin niskili

Əzizim, didər gənə,
Yaxamı didər gənə.
Bunnan çox zulum olmaz,
Yurdunnan didərginə [1, s.62].

Ağbabanın baş yolu
Sel oyufdu daş yolu.
Elinnən ayrı tüşüf
Qoy yusun qan-yaş yolu [1, s.64].

Göründüyü kimi, yurd həsrətindən doğan ağrı-acı, əzab-əziyyət və həsrət duyğuları yüksək emosionallıqla bayatıların canına hoparaq bayatının ideya-məğzini özündə ifadə edir.

Oxçuoğlu kəndindən olan Leylan nənə də Şörəyelli qonşularına xitabən söylədiyi bir bayatıda dərdini bölməyə adam axtarır vtökülən şəhid qanının unudulmayacağını söyləyir.

A gələn, Şörəyelli,
Torpağı çörək elli.

Əzizinəm, qurum az,
Sevə çoxdu, qurum az.

Yurdum tüşmana qaldı.
Dərdimi bölək elli [1, s.63]

Tökülən şəhid qanı,
Min il keşsə qurumaz [1, s.64].

Qaçqın kimi Sumqayıtda yaşamış və dəfələrlə televerilişlərin qonağı olmuş 95 yaşlı Nənəxanım Mikayıl qızının da dilindən bir çox bayatı qələmə almışdım.

Əzizinəm, Göydağdan,
Əysik olmaz, göy dağdan.
Elə bir ah çəkdim kin,
Yenif gəldi köy dağdan [3, s.224].

Gümrü yanı sərt qaya,
Boylandım Arpa çaya,
Əv tikdim yuva qurdum
Əməyim getdi zaya [3, s.221].

Ağbabaya get, aman,
Çiçəyi cana dərman.
Məktub gəlib köç ilən,
Yarı dərd, yarı dərman [1, s.63].

Ağbaba hasar dağlar,
Qar yolun basar, dağlar.
El aciz, tüşmən zalım,
El qalıf naçar, dağlar [1, s.63].

Bu bayatılarda da konkret yer-yurd adları ilə vətən həsrəti, poetik duyğularla ifadə olunur.

1990-cı illərdə ermənilərin Azərbaycana Qarabağ və ətraf rayonlarda onların apardığı ədalətsiz müharibəyə qarşı döyüşə atılan və igidliklə şəhid olan oğullarımız da anaların bayatı -ağılarında xatırlanmaqdadır.

Bərə keçdim, ov qaldı,
Çatammadım ov qaldı.
Xaxın gedəni gəldi,
Mənimki girov qaldı [1, s.63].

Haray ellərim, haray,
Qara tellərim, haray.
Qarabağdan yel əsdi
Tökdü güllərim, haray [1, s.64].

Çıxdım yazılar gördüm,
Körpə quzular gördüm.
Anasından ayrılmış
Mələr quzular gördüm [1, s.64].

Əzizinəm, Qarabağ
Dağlarında qara bax.
Neçə şəhid itirdik
Elim geydi qara, bax [1, s.64].

1992-ci ildə Gəncədə olarkən "Vtoroy çast" deyilən hissədə məskunlaşan vedili Xatun nənə və ağbabalı Gözəl nənədən də ayrılıq və vətən həsrətli bir neçə bayatı toplamışdım. Bu bayatıların məzmununda qaçqınlıq, ayrılıq, həsrət, Vətən sevgisi, qəriblik və s. motivlər vardır:

Əzizim, ağlıyırdı,
Gülmürdü, ağlıyırdı.
Gecə yuxumda gördüm
Kəndimiz ağlıyırdı.

Eləmi, tikən hanı?
Gül hanı, tikan hanı?
Səni xarava gördüm
Əv, səni tikən hanı?

İrəvan çarşısında
Bulax var qarşısında.
Əlim qoynumda qaldı,
Tüşmənnər qarşısında.

Qurudu bulağımız,
Dağıldı tifaqımız.
Qərifliyə tuş gəldik
Nolocax halımız.

Ümumiyyətlə, real folklor toplamaları olsa, Azərbaycanın hər bir regionunda yaşayan informatorlarda qaçqınlıq, deportasiya, yurd həsrəti və şəhidlik mövzusunda bayatı-ağıları çox böyük tarixi-etnoqrafik əhəmiyyəti vardır.

Ədəbiyyat

1. Bayramov A. Oğuz elinin söz çələngi – Ağbaba folkloru / A.Bayramov. – Bakı: Zəka Print MMC, -2017, - 552 s.
2. Bayramov A. Azərbaycanlıların tarixi faciələrimiz: deportasiya, repressiya və soyqırım / A.Bayramov. - Sumqayıt: AMG65 MMC, - 2015, - 414 s.
3. Bayramov Aslan. Qədim Oğuz ellərinin – Ağbaba, Şörəyel və Pənbək bölgələrinin yer-yurd adları / A.Bayramov. – Bakı: Çaşıoğlu, - 2003, - 223 s.

4. Məmmədov İsrafil. Tariximiz, torpağımız, taleyimiz / İ.Məmmədov. – Bakı: Gənclik, -2002, -340 s.
5. Vəliyev İ. Qaçqınlıq / İ.Vəliyev. – Bakı: Elm, - 1996, -125 s.

РЕЗЮМЕ
ПСИХОЛОГИЧЕСКИЙ ПЛАСТ В ТЕМАХ ДЕПОРТАЦИИ, ТОСКИ ПО РОДИНЕ И ШЕХИДСТВА В НАШИХ БАЯТАХ
Байрамов А.А.
Сумгаитский государственный университет

В статье сообщается о приходе армян на Южный Кавказ и их расселении на благодатных землях Азербайджана. Отмечается, что азербайджанские тюрки стали беженцами и вынужденными переселенцами после Гюлистанского, Туркменчайского и Эдирненского соглашений. Страдания беженцев и тоска по родине представлены на примерах фольклора, рассказанных отдельными информантами, в частности, на конкретных примерах баятs. Кроме того, в статье отражены баяты шехидов, павших в боях с армянскими захватчиками в Карабахе и прилегающих районах. Статья актуальна с точки зрения изучения истории депортации и геноцида нашего народа.
Ключевые слова: *шехид, беженец, Карабах, Шамаха, заложник.*

SUMMARY
THE PSYCHOLOGICAL LAYER IN THE TOPICS OF DEPORTATION, HOMESICKNESS AND MARTYRDOM IN OUR BAYATS
Bayramov A.A.
Sumgayit State University

The article reports on the arrival of Armenians in the South Caucasus and their settlement in the fertile lands of Azerbaijan. It is noted that Azerbaijani Turks became refugees and internally displaced persons after the Gulistan, Turkmenchay and Edirne agreements. The suffering of refugees and homesickness are presented through examples of folklore told by individual informants, in particular, through specific examples of bayati. In addition, the article reflects bayats of martyrs who fell in battles with the Armenian invaders in Karabakh and adjacent regions. The article is relevant from the point of view of studying our history of deportation and genocide.
Key words: *martyr, refugee, Karabakh, Shamakhi, hostage.*

MÜƏLLİM ŞƏXSİYYƏTİNƏ VERİLƏN TƏLƏBƏR PEDAQOJİ PEŞƏYƏ HAZIRLIĞIN ƏSAS PSİXOLOJİ ASPEKTİ KİMİ

Xuda-zadə Könül Akif qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
Konul.akbar.31@gmail.com

Açar sözlər: *müəllim, şəxsiyyət, fəaliyyət, psixoloji, formalaşmaq*

Müəllimin şəxsiyyəti onun pedaqoji fəaliyyətinə yön verir. Müəllim şəxsiyyətinin strukturunda ona məxsus psixi keyfiyyətlər, qabiliyyətlər, hal və halətlərin mürəkkəb vəhdəti özünə yer tapır ki, bu da fəaliyyətin nüvəsini təşkil edir. Müəllim şəxsiyyəti özünün istiqamət və motivasiyası, qabiliyyətləri, xarakteri, yaradıcı mövqeyi, fərdi üslubi və s. ilə xarakterizə olunur. [3]

Müəllimin şəxsiyyətinin önəmli xüsusiyyəti onun fəaliyyətinin və ünsiyyətinin fərdi üslubudur. Fərdi üslub pedaqoji fəaliyyət və ünsiyyət məsələlərinin, vasitə və üsullarının bu müəllim üçün səciyyəvi sabit birləşməsi, həmçinin, psixi – fizioloji xüsusiyyətlər və keçmiş təcrübə ilə təyin edilən iş ritmi kimi özünəməxsus xüsusiyyətlərdir. Optimal fərdi üslub minimum vaxt və qüvvə sərf etməklə daha yüksək nəticəni təmin edir. Müəllim öz üslubunda işləyərkən daha az gərgin olur və az yorulur. [4]

Müəllimin fərdiliyi şagirdlərin gözündə onun nüfuzunu – şagirdlərə spesifik təsiri bildirən xüsusi peşə mövqeyini, qərar qəbul etmək, qiymətləndirməni ifadə etmək, məsləhətlər vermək hüququnu təmin edir. Müəllimlik vəzifəsi özü – özlüyündə yalnız nüfuz üçün şərait yaradır, lakin onu avtomatik şəkildə təmin

etmir. Əsl nüfuz fəaliyyət və ünsiyyət subyekti kimi müəllimin xarakteristikasına və onun şəxsiyyətinin yuxarıda təsvir edilən xüsusiyyətlərinə əsaslanır.

Müəllimin şəxsiyyətinin daha bir inteqral xarakteristikası onun yaradıcı potensialıdır. Əgər pedaqoji məsələlərin həlli üsullarının dəyişkənliyini yaradıcılıq təzahürlərindən biri kimi hesab etsək, o zaman onu hər bir müəllim hər gün sinfə daxil olduğu zamanı həyata keçirir. Başqa sözlə, pedaqoji fəaliyyətin tipik üsullarının sonsuz sayda müxtəlif pedaqoji situasiyalara qeyri – adekvatlığı müəllimi obyektiv olaraq yaradıcılığa stimullaşdırır. [2]

Müəllim hazırlığında müəllimin şəxsiyyətinə verilən tələblərdən biri də onun pedaqoji yaradıcılığa malik olmasıdır. Pedaqoji yaradıcılıq həmişə yenilik axtarışı və onu tapmaqdır. Pedaqoq hər kəsdən daha çox novator olmalıdır. Novatorluq, hər şeydən əvvəl, sonradan orijinal qərarla və onun pedaqoji təcrübəyə qaytarılması ilə ümumi problemlərin aşkar edilməsi üsullarının daxil olduğu xüsusi təfəkkür tipidir. Novatorluq xüsusi şəxsiyyət tipidir. Bu, şəxsiyyət üçün sabit peşəkar yönümlülük, pozitiv və konstruktiv "Mən – konsepsiya", öz ideyalarını müdafiə etmək, onların yeniliyini və fəaliyyət qabiliyyətini sübut etmək bacarığı, fərdilik və müəllif konsepsiyasıdır. Novatorluq həm elmə, həm də təcrübəyə töhfədir. Heç də hər bir müəllim bu yaradıcılıq səviyyəsinə qalxmır, baxmayaraq ki, prinsip etibarilə, bu yaradıcılıq səviyyəsi hər müəllim üçün bağlı deyil. Həm də nəzərə almaq lazımdır ki, yaradıcılıq müəllim peşəkarlığının yüksək səviyyəsidir ki, bu da müasir təhsil üçün inkişaf etdirilməsi vacib olan cəhətlərdən biridir. [1]

Müəllim hazırlığında müəllimin şəxsiyyətinin özünüifadə və özünüinkişaf üçün konkret bacarıqların zəruri olması tədqiqatçılar tərəfindən tez-tez vurğulanır. Bu, hər şeydən əvvəl, öz peşəsinin vacibliyini başa düşən, onun sosial və ümumbəşər dəyəri naminə çətinliklərə qarşı dura bilən pedaqoqun sabit peşəkar mövqeyini saxlamaq bacarığı; öz pedaqoji qabiliyyətlərini, həm onların perseptiv komponenti, həm də idarəetmə komponenti və hərəkətlərinə deyil, həm də onun motivlərinə, məqsədlərinə təsir etmək bacarıqları daxil olmaqla reallaşdırmaq və inkişaf etdirmək bacarıqları; öz emosional vəziyyətlərinə dağıdıcı deyil, konstruktiv xarakter verərək onları idarə etmək bacarıqları; özünün və şagirdlərin pozitiv imkanlarını qavramaq və bununla da öz pozitiv Mən – konsepsiyasının möhkəmlənməsinə kömək etmək bacarıqları; əmək etalonlarına yiyələnmək bacarığı (pedaqoji ustalıq); yaradıcı axtarışı həyata keçirmək bacarığıdır. [4]

Ədəbiyyat

1. Həmzəyev M.Ə. Pedaqoji psixologiya.Bakı: Maarif, 1991, 196 s.
2.Əliyev B.H., Əliyeva, K.R., Cabbarov, R.V. Pedaqoji psixologiya. (Dərslik). Bakı: Təhsil, 2011, 256 s.
3. Рукавишникова Н.Г. Профессиональное самопознание студентов педагогического вуза: Дисс. ... канд. психол. наук. — М., 1999.
4. Сергеев И.С. Основы педагогической деятельности. Учебное пособие. СПб.: Питер, 2004, 316 с.

РЕЗЮМЕ

ТРЕБОВАНИЯ К ЛИЧНОСТИ УЧИТЕЛЯ КАК ПСИХОЛОГИЧЕСКОГО АСПЕКТ ПЕДАГОГИЧЕСКАЯ ПРОФЕССИОНАЛЬНАЯ ПОДГОТОВКА

Худа-заде К.А.

Азербайджанский государственный педагогический университет

Требования к личности педагога обусловливают необходимость формирования у тех, кто готовится заниматься этой деятельностью в будущем, сферы личности в направлении профессии. Понятие личности имеет глубокий смысл и содержание. Личность педагога означает формирование профессиональных качеств тех, кто будет осуществлять педагогическую деятельность. Личность педагога является той движущей силой, которая формирует психологический источник его педагогической деятельности. Удовлетворение профессиональных требований к личности педагога создает основу для успешной реализации социальных задач, поставленных обществом.

Ключевые слова: *педагог, личность, деятельность, психологическая, формировать*

SUMMARY

REQUIREMENTS FOR THE PERSONALITY OF THE TEACHER AS A PSYCHOLOGICAL ASPECT PEDAGOGICAL VOCATIONAL TRAINING

Khuda-zadeh K.A.

Azerbaijan State Pedagogical University

The requirements for the personality of a teacher determine the need to form the personality of those who are preparing to engage in this activity in the future, in a professional direction. The concept of personality has a deep meaning and content. The personality of the teacher means the formation of the

professional qualities of those who will carry out pedagogical activities. The personality of the teacher is the driving force that forms the psychological source of his pedagogical activity. Satisfaction of professional requirements for the personality of a teacher creates the basis for the successful implementation of the social tasks assigned to society.
Keywords: *teacher, personality, activity, psychological,form*

QLOBALLAŞA ŞƏRAİTİNDƏ MÜƏLLİM-TƏLƏBƏ MÜNASİBƏTLƏRİNİN FORMALAŞMASININ PSİXOLOJİ ASPEKTLƏRİ

Əliyeva Validə Rəcəb qızı
Azərbaycan Dövlət İqtisad Üniveristeti, Bakı, Azərbaycan
Valid.aliyeva61@mail.ru

Açar sözlər*: müəllim, tələbə, pedaqoji ünsiyyət, psixoloji fəaliyyət, cəmiyyət, tədqiqat.*

Müasir dövrdə təhsil sisteminin qarşısında duran əsas məsələ baş verən dəyişikliklərə fəal şəkildə münasibət bildirməyi bacaran bunun üçün yüksək idrak fəallığına qabil olan şəxsiyyətlər formalaşdırmaqdır.İdrak fəallığı isə öz-özünə baş vermir.Bunun üçün müasir təhsilin tələblərinə cavab verə bilən müəllim və əlverişli pedaqoji mühit olmalıdır.Araşdırılan bu problem də məhz qlobalizm şəraitində müəllim-tələbə münasibətlərinin düzgün formalaşmasının psixoloji aspektlərinə həsr olunub.Pedaqoji ünsiyyət prosesinin psixoloji aspektdə öyrənilməsi göstərir ki, «müəllim-tələbə» münasibətləri köklü təlim-tərbiyə məsələsidir. Pedaqoji fəaliyyətin psixoloji məzmununu təhlil edəndə onun ana xətti (vektoru) kimi «müəllim-tələbə» münasibətlərini ayırd edirlər.

Müəllim də, tələbə də konvensial roldur. Özlərinin rol repertuarlarına görə onlar müxtəlif adamlarla bağlıdırlar. Bu kökdə də müəllim və tələbə münasibətləri şaxələnir: «müəllim-müəllim», «müəllim-valideyn», «tələbə-tələbə», «tələbə-valideyn» və s. tipli münasibətlər şəbəkəsi əmələ gəlir. Lakin ali məktəbin münasibətlər şəbəkəsi nə qədər çoxcəhətli olursa-olsun, onların mürəkkəb kontinimunda mərkəzi, sistemtəşkiledici münasibətlər «müəllim-tələbə» münasibətləri sayılır.

Pedaqoji ünsiyyət məkanında müəllim və tələbə tərəfi-müqabil kimi müəyyən rol gözləmələri və normativləri ilə bir-birilə bağlıdırlar. Bəzi müəlliflərin qeyd etdikləri kimi, müəllimin tələbələrə münasibətini, tələbələrin isə müəllimə münasibətini nəzərə almadan onların xüsusiyyətlərini psixoloji baxımdan açıqlamaq mümkün deyil. «Müəllim» anlayışı ancaq tələbələrə münasibət, tələbə anlayışı isə yalnız müəllimə münasibət konteksində özünün əsl mənasını kəsb edir. Müəllim-tələbə münasibətləri həm də onların müxtəlif, xüsusi müəllim-valideyn və tələbə-tələbə tipli münasibətlərini şərtləndirir.

İnsan münasibətlərinə bu gün insanın özünəməxsus varlıq forması kimi baxırlar. İnsan bir insan kimi bu münasibətlərdə mövcuddur, bu münasibətlərdə yaşayır. Müəllim-tələbə münasibətlərinin humanistləşdirilməsi böyük bir amala, tələbənin bir şəxsiyyət kimi formalaşdırılmasına, inkişaf etdirilməsinə, özünüaktuallaşdırılması üçün şəraitin yaradılmasına xidmət etməlidir.

Müəllim bu münasibətlərin sadəcə olaraq iştirakçısı deyil, özünün statusuna, peşə səriştəsinə və həyat təcrübəsinə görə onların təşkilatçısıdır. Humanistik psixologiya anlamında müəllim tələbənin özünü və «ideal mənə»ə nail olmaq imkanına inamını möhkəmləndirməli, onun «Mən-konsepsiyası» ilə real təcrübəsi arasındakı dissonansı aradan qaldırılmalı, sinifdə şagirdin özünüaktuallaşdırmasına imkan verən qarşılıqlı etimad və canlı ünsiyyət mühiti yaratmalıdır.

H.Kuperin müşahidələrinə görə, müəllimlər dərsin gedişində qabiliyyətli tələbələrə daha çox müraciət edirlər. Çox ehtimal ki, onların özləri də, müəllimə və dərsə münasibətləri ilə müəllimlərin diqqətini özlərinə cəlb edirlər.

Müəllim-tələbə münasibətlərinin psixoloji effektləri çoxcəhətlidir.

Müəllimin pedaqoji fəaliyyəti müvəffəqiyyətlə yerinə yetirməsi onun öz qarşısında duran funksiyaları necə həyata keçirməsindən asılı olur. Müəllimin pedaqoji fəaliyyətinin təhlili göstərir ki, bu fəaliyyət bir-biri ilə sıx bağlı olan bir sıra funksiyalardan ibarətdir. Həmin funksiyaların həyata keçirilməsi tələbələrin təlim və tərbiyəsini, onlarda şəxsiyyətin formalaşmasını təmin edir.

Pedaqoji ünsiyyət üçün ən səmərəli üslub demokratik rəhbərlik üslubudur. Bununla belə müəllim bütün rəhbərlik üslublarına malik olmalıdır. Belə olduqda konkret şəraitdən asılı olaraq müvafiq rəhbərlik üslubuna və ya üslublarına müraciət etmək mümkün olur. Lakin bütün hallarda demokratik üslub üstünlük

təşkil etməlidir. Müəllimlə tələbələrin qarşılıqlı ünsiyyəti nə qədər səmərəli olarsa, kollektivin idarə olunması, interaktiv dərsin təşkili də bir o qədər səmərəli olacaqdır. Bu sahədə aparılmış tədqiqatlara istinad etmiş olsaq, tələbələrlə qarşılıqlı ünsiyyətin səmərəliliyinə görə müəllimləri şərti olaraq dörd qrupa bölmək mümkündür.

Gənc müəllimin pedaqoji ünsiyyətindəki bu cür çətinliklər müxtəlif amillərlə bağlı ola bilər. Bu cür amilləri «psixoloji maneələr» adlandırırlar. Pedaqoji ünsiyyət sahəsində geniş tədqiqat aparmış V.A.Kan-Kalik bu cür «psixoloji maneələr»i aşağıdakı şəkildə xarakterizə edir.

Yüksək pedaqoji qabiliyyətlərə malik olmadan müəllim təlim və tərbiyənin müasir tələblərini həyata keçirə bilməz.

Pedaqoji qabiliyyətləri şəxsiyyətin həm əqli, həm də emosional-iradi cəhətləri xarakterizə edir. Bütün bu keyfiyyətlər bir-birilə sıx bağlı olub, bir-birinə təsir edir və tam bir vahid yaradır.

Müəllimin vacib şəxsi qabiliyyəti dərsdə tələbələrlə iş aparmaq üçün optimal psixi vəziyyət yarada bilməsidir. Bu cür qabiliyyətə malik olan müəllimlər özlərinin gümrahlığı, həyatsevərliyi, kifayət qədər canlılığı ilə fərqlənirlər. Nə olursa olsun, müəllim həmişə nikbin, arzuolunan əhval-ruhiyyə ilə auditoriyaya daxil olmalıdır. Məhz buna görə də müəllim özünün əhvalını idarə etməyi, tənzimləməyi bacarmalıdır. Müəllimin həm yaxşı, həm də pis əhval-ruhiyyədə auditoriyaya girməsi tələbələrə öz təsirini göstərir. Şübhəsiz ikinci hal arzuolunmaz nəticələrə gətirib çıxarır, tələbələrin əqli fəallığını ləngidir. Didaktik qabiliyyətlər, müəllimin zəruri məlumatları tələbələrə çatdıra bilmək, öyrədə bilmək, materialı uşaqların səviyyələrinə uyğunlaşdırmaqla onlara çatdırmaq, material və ya problemi aydın və anlayışlı şəkildə tələbələrə təqdim etmək, fənnə qarşı maraq oyatmaq, tələbələrdə fəal müstəqil fikir yarada bilmək qabiliyyətlərindən ibarətdir. Buraya konkret olaraq müəllimin izah edə bilmək qabiliyyəti, ekspressiv – nitq (natiqlik) qabiliyyətini, nəzəri qabiliyyətləri (akademik qabiliyyət) aid etmək olar.

Müəllimin izah edə bilmək qabiliyyəti. Bu cür qabiliyyətə malik olan müəllimin fikri tələbələr üçün aydın olur. Onlar çətin, anlaşılmaz materialı tələbələr üçün anlaşıqlı edə bilirlər. Təlim materialının məzmununu tələbələrin səviyyəsinə uyğun, aydın və anlaşıqlı, sadə şəkildə izah edə, çatdıra bilirlər. nəticədə onlar tələbələrdə tədris etdikləri fənnə qarşı maraq oyadır, onların fikrinin fəal müstəqil işləməsinə şərait yaradırlar. belə müəllimlər zəruri hallarda çətini asan etməyi, mürəkkəbi sadələşdirməyi, anlaşıqsızı anlaşıqlı etməyi bacarırlar.

Nəzəri qabiliyyətlər. Bu cür anlayış altında müəllimin müvafiq fənn, daha doğrusu elm sahəsinə aid qabiliyyətləri nəzərdə tutulur. Müəllimin tədris etdiyi fənni dərindən bilməsində ifadə olunur. Bu cür qabiliyyətə malik olan müəllim öz fənnini təkcə tədris kursunun həcmində deyil, daha geniş, dərindən bilir, tədris etdiyi elm sahəsində olan kəşfləri daima işləyir, materiala tam sərbəst yiyələnir, ona böyük maraq göstərir, kiçicik də olsa öz ixtisası sahəsində tədqiqat işi aparır.

Təşkilatçılıq qabiliyyəti. Bu cür qabiliyyətlər də pedaqoji fəaliyyət üçün az əhəmiyyətə malik deyildir. Təlim və tərbiyənin səmərəliliyi müəllimin təşkilatçılıq qabiliyyətindən çox asılıdır. Müəllimin təşkilatçılıq qabiliyyətləri təlim-tərbiyə prosesində özünü büruzə verir. Deməli, yüksək psixoloji qabiliyyətlərə malik olan müəllim-tələbə kollektivini təşkil etməyi, onu möhkəmləndirməyi, istiqamətləndirməyi bacarır. Belə müəllim icra edəcəyi hər bir işdə öz təşkilatçılığını göstərir, öz işlərini planlaşdırmağı, ona nəzarət etməyi bacarır, vaxtı düzgün hiss edir, bölür, artıq vaxt itirmir. Ona görə də bu cür qabiliyyətlərə malik olan müəllimlər gözəl təşkilatçılıq nümunəsi göstərməklə vaxtdan səmərəli istifadə edə bilir.

Beləliklə, müəllimin perspektiv qabiliyyətləri nəticəsində pedaqoji –psixoloji müşahidəçiliklə müşahidə nəticələrini düzgün anlamaq, izah və şərh etmək qabiliyyətlərinin vəhdətindən ibarətdir.

Ümumiyyətlə götürdükdə müəllimin psixoloji çətinlikləri, onun müəyyən pedaqoji şəraitdə həyata keçirdiyi fəaliyyət zamanı təzahür edən gərginlik vəziyyəti ilə müəyyən edilir.

Müəllimin əməyi özünün məqsəd və vəzifələrinə görə də başqa peşə sahiblərinin əməklərindən fərqlənir. Adətən, pedaqoji məqsəd və vəzifələr həmişə standart xarakter daşımır. Burada standartlıq mümkün də deyildir. Çünki pedaqoji məqsəd və vəzifələr tələbələrin psixi inkişafının bütün cəhətlərini əhatə etməli olur. Bu cəhətlər isə genişdir. Ona görə də standart məqsəd və vəzifə bu çoxcəhətli inkişafın tələbələrinə cavab verə bilməz.

Müəllim əməyini təhlil edərkən bir sıra mühüm anlayışlara istinad etmək lazım gəlir. Bu cür anlayışlara pedaqoji fəaliyyət, pedaqoji ünsiyyət, pedaqoji məqsəd, pedaqoji situasiya, pedaqoji fəaliyyətin üslubları, şəxsiyyət və s. aid edə bilərik.

Ədəbiyyat

1. Cavadov, R.Ə., Cavadova R.R. Psixologiya. Bakı, 2020- 644 s.
2. Həmzəyev M. Təlim psixologiyası və müasir dərs. Bakı, 2008
3. Məmmədzadə R. Təhsil müəssisələrində psixoloji xidmət. Bakı, 1996
4. Клее Мишел. Мышление учителя. Москва, 1990

РЕЗЮМЕ

ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ОТНОШЕНИЙ УЧИТЕЛЬ-УЧИТЕЛЬ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

Алиева В.Р.

Азербайджанский государственный экономический университет

В сфере педагогического общения учитель и ученик взаимосвязаны определенными ожиданиями и нормами как контрагенты. Некоторые авторы отмечают, что невозможно объяснить их особенности с психологической точки зрения без учета отношения учителя к ученикам и отношения учеников к учителю. Понятие «учитель» имеет свое истинное значение только в контексте отношения к ученикам, а понятие ученика только в контексте отношения к учителю. Отношения учитель-ученик также определяют их различные отношения учитель-родитель и ученик-ученик.

Ключевые слова: *учитель, ученик, педагогическое общение, психологическая деятельность, общество, исследование.*

SUMMARY

PSYCHOLOGICAL ASPECTS OF TEACHER-STUDENT RELATIONS IN THE CONTEXT OF GLOBALIZATION

Aliyeva V.R.

Azerbaijan State University of Economics

In the field of pedagogical communication, the teacher and the student are interrelated by certain expectations and norms as a counterpart. Some authors have noted that it is not possible to explain their characteristics from a psychological point of view without taking into account the teacher's attitude towards students and the students' attitude towards the teacher. The concept of "teacher" has its true meaning only in the context of attitude to students, and the concept of student only in the context of attitude to the teacher. The teacher-student relationship also determines their different teacher-parent and student-student relationships.

Keywords*: teacher, student, pedagogical communication, psychological activity, society, research.*

MƏKTƏB MÜHİTİNDƏKİ BULLİNQİN YENİYETMƏ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINA TƏSİRİ

Şəfiyeva Elnarə İbrahim qızı, Allahyarova Sevinc Ağavəli, Səməndərova Aydan Firudin qızı

Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan

shafiyeva @mail.ru ; seva68@mail.ru ; a.sudan77@mail.ru

Açar sözlər: *bullinq, yeniyetməlik dövrü, narahatlıq, əsəbilik, aqressivlik, məktəb mühiti, emosional infantillik*

Bullinqin təzahür etməsinin yüksək riski yeniyetməlik dövründə özünü göstərir. Məlum olduğu kimi, yeniyetməlik dövrü təkcə bütün orqanizmin deyil, həm də daxili psixoloji vəziyyətin yenidən qurulması ilə xarakterizə olunur. Yeniyetmələrdə tez-tez narahatlıq, əsəbilik və aqressivlik inkişaf edir. Bu, yeniyetmənin hər şeyi ideallaşdırması, səylə hər kəsdən və hər şeydən üstün olmağa çalışması ilə bağlıdır. Eyni zamanda, onlar hələ uduzmağı öyrənməyiblər və hər bir uğursuzluğu çox kəskin və ağrılı şəkildə qəbul edirlər.

Bullinqin inkişafına ailədəki tərbiyə, uşaqlıqdan aşılanan yönəliş, təhsil müəssisəsinin mikroiqlimi təsir göstərir. Eyni zamanda, bullinqin ortaya çıxması üçün əsas amil kimi çox vaxt siniflə məhdudlaşan bir yeniyetmə kollektivi çıxış edir [1].

Məktəb mühitində bullinqin inkişafına səbəb olan bir sıra amillər xüsusi qeyd edilməlidir. Psixoloqlar aşağıdakıları fərqləndirirlər: tərbiyənin aşağı səviyyəsi, özünü qiymətləndirmənin aşağı olması, pis vərdişlərdən sui-istifadə, yeniyetmənin şəxsi aqressivliyi, zəif həmyaşıdları hesabına özünü təsdiq etmək istəyi, kollektivə uyğunlaşma ehtiyacı, zəif akademik göstəricilər, ailədaxili münaqişələr, ailə zorakılığı, yaxın mühitdə oxşar aqressiv təzahürlərin müşahidə edilməsi, ailənin aşağı sosial statusu, valideynlərin yeniyetmədən həddindən artıq tələbləri, valideynlərin hiperhimayəsi və ya əksinə biganəliyi və s. Bu amillərlə əsası qoyulan dağıdıcı qüvvə bullinq situasiyasında daha da güclənir [2].

Uşağın həmyaşıdları ilə münasibəti yeniyetməlik dövrünün ən mənalı hissəsidir. Yeniyetmə həmyaşıdları qrupunda özü üçün əlverişli mövqe tutmağa çalışır, buna görə də onun qaydalarını və normalarını tam qəbul edir, kollektivdə bərqərar olmuş davranış prinsipinə tabe olur. Bu, həmyaşıd cəmiyyəti mahiyyət etibarilə mənfi olduqda təhlükəli olur. Özünü ifadə etmək istəyi şəxsiyyətlərarası münaqişələrin yaranmasına təsir göstərir. Həmyaşıdlarla ünsiyyət ön plana çıxaraq, tədrisi, ailə ünsiyyətini ikinci plana keçirir. Eyni zamanda, həmyaşıdları ilə şəxsiyyətlərarası ünsiyyətdə hər hansı bir problem yeniyetmələr tərəfindən çox ağır yaşanılır və şəxsi dram kimi qəbul edilir.

Yeniyetməlik dövründə zorakılığın şəxsiyyətə təsiri xüsusilə güclüdür. İstənilən növ zorakılığın birbaşa və ya dolayı təsiri insanın dünyanın mənzərəsini qavramasında dərin izlər buraxır. Müəyyən bir davranış modelini, məsələn, "qurbanın" davranışını mənimsəyən bir yeniyetmə bütün sonrakı həyatı boyunca bu rola əməl edə bilər. Eyni zamanda, zorakılıq vəziyyəti həm qurban, həm də zorakılığın səbəbkarı üçün dağıdıcı nəticələrə malikdir, çünki zorakılığın icrası rolunu öz üzərinə götrüən yeniyetmə sonralar kriminal və antisosial davranış yolunu tutur.

Həmyaşıdları ilə ünsiyyət müasir yeniyetmənin həyatının böyük bir hissəsini tutur. Əgər bu ünsiyyət bullinq qurbanı olmuş yeniyetmələr üçün sadəcə bullinq situasiyası ilə məhdudlaşırsa, onda belə halların yaşanması təcrübəsi onlar üçün çox travmatik olur və bütövlükdə yeniyetmə şəxsiyyətinin formalaşmasına mənfi təsir göstərir. “Xüsusən, mənfi təsir onun mən konsepsiyasının, dəyər sisteminin, eləcə də həmyaşıdları ilə ünsiyyət tərzinin formalaşmasına təsir göstərir”

Davamlı olaraq baş verən bullinqin ən mənfi təsiri yeniyetmənin asosial (cəmiyyətdə qəbul edilmiş davranış və hərəkət qaydalarına uyğun olmayan) şəxsiyyətinin formalaşmasında özünü göstərir. Mütəmadi zorakılıq, təhqir, alçaldılma, gizli nifrət, düşmənçilik və aqressivlik hissi formalaşdırır, qisas almaq istəyi yaradır. Bullerdə qurbanını sistematik və şüurlu olaraq alçaltması nəticəsində cəzasızlıq hissi formalaşır. O,cəzasız qaldığı üçün, ya da yüngül cəzalandığı üçün öz hərəkətlərinin qanuni və qeyri-qanuni olmasını dərk edə bilmir[3].

Bullinq onun bütün iştirakçıları üçün xoşagılməz, əlverişsiz gələcəyə gətirib çıxarır. Yeniyetməlik dövründə qorxu və ümidsizlik yaşayan bullinq qurbanının nisbətən yetkin yaşda narahatlıq, həyəcan hisslərindən yaxa qurtarması, yeni tanışlıqlar qazanması, yeni kollektivə alışması çətinləşir. Daha dağıdıcı nəticələr özünə inamsızlıq, qapalılıq, insanlarla ünsiyyət qorxusu və hətta intihar düşüncələridir.

Bullinq nəticəsində təzahür edən zorakılığın yeniyetmə qurbanların şəxsiyyətinin inkişafına bütün təsirlərini aşağıdakı kimi ümumiləşdirmək olar [4].

1. Ən ciddi neqativ təsir bu yeniyetmələrin özünüdərkinə olur. Onların özünüdərki qeyri-müəyyən xarakter daşıyır, bəzən isə ziddiyyətli olur. Özlərinin qurban olması haqqında güclü, qabarıq ifadə olunmuş təsəvvürlər müşahidə edilir. Özünüqiymətləndirmə aşağı düşür, yeniyetmə davamlı olaraq günahkarlıq, utanc, qüsurluluq hiss edir.

2. Zorakılıq nəticəsində yeniyetmənin dünyagörüşü və motivasiya məna sahəsində qeyri-konstruktiv transformasiya baş verir. Əgər normal inkişaf zamanı yeniyetmələrdə yüksək idrak maraqları, həyatsevərlik, xarici aləmə açıqlıq xas olursa, zorakı əməllərdən zərər çəkmiş yeniyetmələr qorxaqlıq, qapalılıqla səciyyələnir. Bu da onda dünya haqqında müvafiq neqativ mənzərənin formalaşmasına təsir edir. O xarici aləmi maraqlı-maraqsız, gözəl- eybəcər kimi deyil təhlükəli-təhlükəsiz kimi nəzərdən keçirməyə başlayır. Məna vektorlarında qarışıqlıq yaranır. Davranışda, oyun və təlim fəaliyyətində, amotivasiya təzahür edir. Təşəbbüs aradan qalxır. Əməllərin seçimi və icrasına görə şəxsi məsuliyyət aşağı enir.

3. Zorakılıq nəticəsində yeniyetmədə formalaşan ustanovkalar çox vaxt destruktiv xarakter daşıyır. Belə ki, döyülən uşaqda belə bir inam möhkəmlənir ki, fiziki zorakılıq məqsədə çatmağın ən təsirli vasitəsi. Belə cəza forması yol verilən və hətta vacibdir.

4. Bu yeniyetmələrin davranışında başqalarının kədəri, ağrısı, iztirabı ilə bağlı situasiyalarda emosional kütlük təzahür edir. Adətən onlar digər insanların real və virtual həyatdakı iztirab səhnələrini maraqla müşahidə edir.

Psixoloqlar qeyd edir ki, emosional inkişafın belə pozuntuları digər insanın yaşadığı hissləri anlamamaq, emosional infantilliklə bağlıdır.

5. Bu yeniyetmələrin qarşılıqlı münasibətlərində və ünsiyyətində ciddi pozuntular müşahidə edilir.

Buller də insanlarla münasibətlərdə çətinliklər yaşayır, lakin fərqli baxımdan. Onun məktəb kollektivində istifadə etdiyi bütün antisosial davranış formaları böyüklər dünyasında öz fəaliyyətini dayandırır və təqibçi özünü həyatın və sosial münasibətlərin dibində tapır, sonralar daha yektin yaşda ya kriminal situasiyalarla qarşılaşır, ya da ailə mühitində diktatora çevrilir.

Ədəbiyyat

1. Бердышев И.С., Нечаев М.Г. Медико -психологические последствия жестокого обращения в детской среде. Вопросы диагностики и профилактики «Региональный цент «Семья». 2005
2. Кутузова Д. Проблема травли детей в школе. Москва, 2009
3. Макарова Ю.Л. Гендерные особенности поведения участников подростковой буллинг-структуры // Психология. Историко-китический обзор и современные исследования. 2017, Т6, № 5А, с 181-192
4. Rigby K. Consequences of bullying in schools // Canad. J. Psychiatry. 2003. N 9. V. 48. P. 583-590.

РЕЗЮМЕ

ВЛИЯНИЕ ШКОЛЬНОГО БУЛЛИНГА НА ФОРМИРОВАНИЕ ЛИЧНОСТИ ПОДРОСТКОВ

Шафиева Э.И., Аллахьярова С.А., Самандарова А.Ф.

Бакинский государственный университет

В статье показано, что высокий риск буллинга проявляется в подростковом возрасте. Влияние насилия на личность в подростковом возрасте особенно сильно. Прямые или косвенные последствия любого вида насилия накладывают глубокий отпечаток на мировосприятие человека. Подросток, усвоивший определенную модель поведения, например поведение «жертвы», может играть эту роль всю оставшуюся жизнь.

Буллинг ведет к неприятному, неблагоприятному будущему для всех его участников. Жертва буллинга, жившая в подростковом возрасте в страхе и отчаянии, в относительно зрелом возрасте с трудом избавляется от беспокойства, волнения, заводит новые знакомства и привыкает к новому коллективу. Более разрушительными последствиями являются незащищенность, изоляция, страх перед общением и даже суицидальные мысли.

Ключевые слова: *буллинг, подростковый возраст, тревожность, нервозность, агрессия, школьная среда, эмоциональный инфантилизм*

SUMMARY

THE EFFECT OF SCHOOL BULLING ON THE FORMATION OF TEENAGERS PERSONALITY

Shafiyeva E.I., Allahyarova S.A., Samandarova A.F.

Baku State University

The article shows that the high risk of bullying manifests itself during adolescence. The effects of violence on the personality during adolescence are particularly strong. The direct or indirect effects of any kind of violence leave deep imprints on a person's perception of the world. A teenager who adopts a certain pattern of behavior, such as the "victim's" behavior, can play this role for the rest of his life.

Bulling leads to an unpleasant, unfavorable future for all its participants. The bullying victim, who live in fear and despair during adolescence, finds it difficult to get rid of anxiety, excitement, make new acquaintances and get used to a new team at a relatively mature age. More devastating consequences are insecurity, isolation, fear of socializing, and even suicidal thoughts.

Keywords: *bulling, adolescence period, anxiety, nervousness, aggression, school environment, emotional infantilism*

MÜASİR DƏRSDƏ MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN FORMALAŞMA SƏVİYYƏSİNİN PSİXOLOJİ TƏHLİLİ

Səlimova Zenfira İlyas qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
zenfira_selimova@gmail.com

Açar sözlər: *Müəllim-şagird münasibətləri, müəllim şəxsiyyəti, pedaqoji ustalıq, yeni təlim texnologiyaları, şagird şəxsiyyəti*

Mükəmməl təhsil sisteminə malik olmaq dövlətin gələcəyi və müstəqilliyinin mühüm şərtidir. Respublikamızda həyata keçirilən təhsil islahatının məqsədi təlim prosesinin səmərəliliyini təmin etməklə milli və ümumbəşəri dəyərlərə yiyələnən, yaradıcı və tənqidi düşünməyi bacaran, fəal şəxsiyyət yetişdirməkdir. Təlimdə keyfiyyətin əldə olunması üçün psixoloji xüsusiyyətləri dərindən bilmək vacibdir. Müəllim bütün hallarda, xüsusən, müəllim-şagird münasibətlərinin qurulmasında pedaqoji - nəzakəti, onun davranışına verilən etik tələbləri gözləməli, şagirdlərin şərəf və ləyaqətinə hörmət bəsləməli, onlara münasibətdə ədəblə davranmalıdır. Təhsil islahatlarının tələblərinin yerinə yetirilməsində, ilk növbədə, müəllim özü dəyişməli, təlimin yeni texnologiyalarını bilməli, yeni proqram və dərsliklərdən, fənn kurikulumunun tələblərindən irəli gələn dəyişiklikləri tətbiq etməyi bacarmalıdır [6].

Yeni metodlardan istifadə zamanı müəllim şagirdlərin idraki fəallığına, müstəqil düşünmə qabiliyyətinin inkişafına nail ola bilər. Dərs prosesində müəllim-şagird münasibətlərinin düzgün qurulması, şagirdlərin təhsilə marağının artmasında, tədris etdiyi fənlərin sevdirilməsində mühüm əhəmiyyət kəsb edir. Təhsil sistemi dünyada yarandığı vaxtdan müəllim-şagird münasibətləri də mövcud olmuşdur. Zaman keçdikcə bu münasibətlər formalaşmış, yeni mahiyyət kəsb etmişdir. Artıq elə bir dövrə gəlib çatmışıq ki, müəllim-şagird münasibətlərində subyekt-subyekt münasibətləri tələb olunur. Müəllim və şagird arasında qarşılıqlı hörmət olmalıdır, müəllim şagirdə sevgi, məhəbbətlə və eyni zamanda ciddi yanaşmalıdır. Müəllim şagirdi bir şəxsiyyət kimi görməli, onun mənliyinə, şəxsiyyətinə toxunan söz deməməlidir.

Düzgün qurulmuş müəllim-şagird münasibətləri şagirdlərin təlim marağının artmasında mühüm vasitədir. Qarşılıqlı ünsiyyət şagirdlərin fəallığını artırır, kollektiv şəkildə işləməyə istiqamət verir. Müəllimdə bu tip keyfiyyətlərin olmaması təhsil sistemində şagird-müəllim problemlərinin yaranmasına gətirib çıxarır. Daha vacib məqamlardan biri müəllimlərin öz peşələrinə bağlılığı, müəllimlik keyfiyyətləridir. Müəllim öz ixtisasını dərindən bilməklə, pedaqoji, psixoloji, metodik hazırlığa malik olmaqla yanaşı, peşəsinin vurğunu olmalı, onu sevməli, uşaqlara qayğı ilə yanaşmalı, onları başa düşməli, hər birinə fərdi yanaşmağı bacarmalı, problemlərini, qayğılarını öyrənməli, münasibətləri əməkdaşlıq səviyyəsində qurmalı, davranışı, geyimi, yerişi, duruşu ilə nümunə olmalıdır [3, s.212].

Müasir dövrdə pedaqoji prosesə yanaşmada əsas paradiqmalar dəyişdiyindən müəllim-şagird münasibətləri də buna uyğunlaşdırılmalıdır. Şagirdin obyektdən subyektə doğru inkişafı, ona şəxsiyyət kimi yanaşılmasını, bütün təlim prosesinin şagirdin maraqları, qabiliyyəti üzərində qurulmasını, onun fərdi-psixoloji xüsusiyyətlərinin nəzərə alınmasını tələb edir. Bu gün müəllim qarşısında dərsdə susan, yalnız sual verdikdə cavab verən, heç bir təşəbbüskarlıq göstərməyən dünənki şagirddən tamamilə fərqli bir insan dayanmışdır. İndi şagird müəllimlə əməkdaşlıq edir, öz fikir və mülahizələrini sərbəst bildirir, rəy söyləyir, fərqli yanaşma nümayiş etdirə bilir, hətta müəyyən məsələlərdə müəllimlə razılaşmaya da bilir [6].

Müəllim savadlı, müasir dünyagörüşünə malik, milli mənəvi dəyərlərə sadiq vətəndaşların yetişdirilməsi işinə bütün imkan və bacarığını sərf etməlidir. Nahaq yerə demirlər ki, hər öyrədən müəllim deyil, o kəs müəllimdir ki, ondan öyrənirlər, onun yanına sevə-sevə öyrənməyə gedirlər. Həm də o müəllim yaxşı öyrədə bilər ki, onu yaxşı öyrədiblər. Elə müəllimlərə ehtiyac var ki, onlar hər bir şagirdin qəlbində elm, bilik, savad məşəli yandırmaqla yanaşı, vətənə, torpağa, millətə sevgi hissləri ilə alışıb yanan, onu düşmən tapdağından azad etməyə, qorumağa hazır və qadir olan vətənpərvər şəxsiyyətlər yetişdirə bilsin [4].

Hər hansı bir peşə sahibi səhv edə bilər və onun səhvindən ziyan çəkənlər də olar, lakin bu səhvi aradan qaldırmaq olar. Amma müəllimin səhvi çoxlu sayda insanların həyatını və gələcəyini təhlükədə qoyar. Bu mənada, nüfuz və hörmətin qazanılması, hər şeydən əvvəl müəllimin özündən asılıdır. Müəllim-şagird münasibətlərinə müsbət təsir edən amillərə də diqqət yetirilməsi vacib hesab olunur:

1. İlk növbədə, müəllim öz peşəkar fəaliyyəti, qüsursuz davranışı, düzgün münasibəti, yüksək mənəvi-əxlaqi keyfiyyətləri ilə fərqlənməlidir. Bu, müəllimin daxili aləmindən gələn bir təşəbbüs olmalıdır.

2. Müəllim öz ixtisasını dərindən bilməli, şagirdlərinin nəzərində ucalığını qoruyub saxlamalıdır.

3. Müəllimin sosial müdafiəsi təmin edilməli, onun üçün layiqli yaşayış şəraiti yaradılmalıdır ki, ailəsi və cəmiyyət qarşısında qürurunu sındırmasın.

4. Müəllimin statusu müəyyənləşdirilməlidir. Status müəllimin cəmiyyət tərəfindən adekvat qəbul edilməsinə zəmin yarada bilər.

5. Məktəblər müəllim adını doğrultmayan, bu yüksək ada ləkə gətirən təsadüfi müəllimlərdən təmizlənməlidir. Bunun üçün qanunvericilik bazası təkmilləşdirilməlidir.

6. Müəllim peşəsinə qəbul prosesində ciddi seçim aparılmalıdır. Yalnız bu peşənin ağırlıqlarını çiyinlərində daşıya biləcək, müəllimlik xüsusiyyətlərini özündə cəmləşdirəcək şəxslərin müəllim kimi yetişməsinə imkan yaradılmalıdır.

7. Məktəblərdə işləyən müəllimlərin fəaliyyəti müntəzəm olaraq qiymətləndirilməlidir, şagirdlər, valideynlər arasında rəy sorğuları keçirilməlidir.

Müəllim cəmiyyətdə çox böyük rol oynayır. O, yaşlı nəslin təcrübəsini gənc nəslə verir. Görkəmli şəxsiyyətlər müəllimin əməyinə yüksək qiymət vermiş, müəllimi günəşə, bağbana, mühəndisə bənzətmişlər. Çünki o, günəş kimi gənc qəlbi və ağlı işıqlandırır, uşaqlara bağban qayğısı göstərir, mühəndis kimi insan qəlbinin layihəsini cızır. Pedaqoji fəaliyyəti düzgün qurmaq üçün müəllimlik işinin xüsusiyyətlərini nəzərə almaq lazımdır. Bu xüsusiyyətlərə aşağıdakılar daxildir: a) müəllimlik şərəfli işdir; çünki o, öz həyatını xalqın gələcəyinə həsr edir; b) müəllimlik məsuliyyətli işdir; çünki o, ən qiymətli kapital olan insanla işləyir, bu işdə isə səhvə yol vermək olmaz; c) müəllimlik çətin və mürəkkəb işdir; çünki müəllimin fəaliyyət obyekti olan insan özü mürəkkəb və dəyişkən, pedaqoji proses isə çoxcəhətli və çətindir; ç) müəllimlik yaradıcı işdir; çünki o, hazır göstərişlərlə, reseptlərlə işləyə bilməz [2].

Yaradıcılıq müəllimdən bütöv pedaqoji prosesi müşahidə və təhlil etməyi, onun qanunauyğunluqlarını nəzərə almağı, pedaqoji problemlərin optimal həlli yollarını müəyyən etməyi nəzərdə tutur. Yaradıcılıq müəllimə nikbinlik, sevinc bəxş edir. Pedaqoji fəaliyyətdə müəllimin şəxsiyyəti böyük əhəmiyyətə malikdir. Başqa peşə sahiblərindən fərqli olaraq müəllimin şəxsiyyəti onun işinə - pedaqoji prosesə bilavasitə təsir göstərir. Müəllim ilk növbədə, öz şəxsiyyəti ilə tərbiyə edir.

Təhsil prosesində müəllim yeni pedaqoji texnologiyalardan faydalanaraq şagirdlərdə təfəkkürün formalaşmasına nail olur, müasir təlim yanaşmalarını əks etdirən dərs-mühazirə, dərs-yarış, dərs-müzakirə, dərs-disput kimi qeyri-standart dərslərdən istifadəyə üstünlük verir, qruplarla, cütlərlə, fərdi və kollektivlə iş formalarından istifadə edir, dialoqa, məntiqi və tənqidi təfəkkürü inkişaf etdirən, yaradıcı metodlara əsaslanan fəal metodlardan istifadəyə geniş yer verir.

Fəal təlimdən istifadə etməklə dərslərin yeni təlimə uyğun qurulması müəllim və şagird fəaliyyətinin səmərəsini artırır. Təhsilin inkişafını şərtləndirən əsas amil məhz müəllimin fəaliyyətidir. Bu gün uğurlu nəticə müəllim fəaliyyətdən aslıdır. Müəllimin uşaqlarla həssas ünsiyyət qurma, əməkdaşlıq, tədqiqatçılıq, özünütəhsil və idarəçilik bacarıqlarına malik olması, onun, dövrün tələblərinə uyğun inkişaf etmiş xüsusiyyətlərindən hesab olunur. Mükəmməl təhsil sisteminə malik olmaq dövlətin gələcəyi və müstəqilliyinin mühüm şərtidir. Respublikamızda həyata keçirilən təhsil islahatının məqsədi təlim prosesinin səmərəliliyini təmin etməklə milli və ümumbəşəri dəyərlərə yiyələnən, yaradıcı və tənqidi düşünməyi bacaran, fəal şəxsiyyət yetişdirməkdir [3].

Azərbaycanda təhsil sisteminin inkişaf etdirilməsi, onun dünya standartlarının tələbləri səviyyəsinə çatdırılması fəaliyyətin daha çox iki istiqamətdə təşkili ilə səciyyələnir. Onlardan birincisi, ölkənin daxilində təhsil sahəsində əldə olunmuş nailiyyətlərin öyrənilib, ümumi- ləşdirilməsi və təhlil edilməsindən ibarət olub, ilk növbədə təlim-tərbiyə sahəsində irəliləyişlərin mahiyyət və məzmununu öyrənməklə təhsilin mövcud durumunu, cəmiyyətin tələb və ehtiyaclarını müəyyənləşdirmək baxımından əhəmiyyət daşıyır və vətəndaş cəmiyyətinin formalaşdırılması istiqamətində nələrin əldə olunduğunu və gələcək üçün hansı potensial imkanların yarandığını meydana çıxarmağa imkan verir.

İlkin araşdırmalar göstərir ki, respublikamızda istər müəllimin, istərsə də məktəbin fəaliyyətinin cəmiyyətin tələblərinə uyğun qurulması nəticəsində şəxsiyyətin formalaşdırılması, nailiyyətlərin qiymətləndirilməsi, təhsilin idarə olunması sahəsində xeyli qabaqcıl təcrübə toplanmışdır. Ona görə də həmin materialların ümumiləşdirilərək onlardan geniş istifadə olunması təbii ki, Azərbaycan təhsil sisteminin milli zəmində yenidən qurulması baxımından əhəmiyyət daşıyır.

Ədəbiyyat

1.“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”. Bakı.: 2013.
2. Əlizadə Ə.Ə. Məktəbə psixoloji xidmət: problemlər, düşüncələr //Azərbaycan məktəbi, 1993, №3
3. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı.: 2003,

4. Mehrabov A. Şəxsiyyətyönümlü təhsil standartlarının hazırlanma texnologiyası. // Azərbaycan məktəbi. Bakı.: № 4, 2005.
5. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009
6. Ümumtəhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları). Bakı.: 2010

РЕЗЮМЕ
ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ УРОВНЯ СФОРМИРОВАННОСТИ ОТНОШЕНИЙ УЧИТЕЛЬ-УЧЕНИК НА СОВРЕМЕННОМ УРОКЕ

Салимова З.И.
Азербайджанский государственный педагогический университет

В тезисе проводится психологический анализ уровня сформированности отношений «учитель-ученик» и рассматриваются проблемы, возникающие между учителем и учеником. Также было отмечено, что факторы, положительно влияющие на отношения учитель-ученик, и необходимость учета особенностей преподавания для правильного построения педагогической деятельности. Автор справедливо отмечает, что творчество предполагает наблюдение и анализ педагогом всего педагогического процесса, учет его закономерностей, определение оптимальных решений педагогических задач.

Ключевые слова: *отношения между учителями-студентами, личность преподователя, педагогическое мастерство, новое технология обучение, личность студента.*

SUMMARY
PSYCHOLOGICAL ANALYSIS OF THE LEVEL OF FORMATION OF TEACHER-STUDENT RELATIONS IN THE MODERN LESSON

Salimova Z.I.
Azerbaijan State Pedagogical University

The thesis provides a psychological analysis of the level of formation of teacher-student relations and examines the problems between teacher and student. It was also noted that the factors that positively affect the teacher-student relationship and the need to take into account the characteristics of teaching in order to properly build pedagogical activity. The author rightly notes that creativity involves the teacher to observe and analyze the whole pedagogical process, to take into account its regularities, to determine the optimal solutions to pedagogical problems.

Keywords: *relationship between teacher and student, teacher personality, pedagogical skills, new training technology, student personality*

MÜƏLLİM ŞƏXSİYYƏTİNİN FOFMALAŞDIRILMASININ PSİXOLOJİ ASPEKTLƏRİ

Rəhimova Qəribə Vahid qizi
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Baki, Azərbaycan
QARİBA648@mail.ru

Açar sözlər: *müəllim şəxsiyyəti, özünüdərk, məktəb, şəxsiyyət, cəmiyyət, psixoloji mexanizm*

Müəllim cəmiyyətin ən fəal üzvlərindən biridir. Hər zaman diqqət mərkəzindədir. Cəmiyyətin gələcəyi olan uşaqları onlara etibar edirlər. Müəllim özünün biliyi, dünyagörüşü,şəxsi və əxlaqi keyfiyyətləri ilə şagirdlərə nümunədir. O, pedaqoji fəaliyyət zamanı uşaqları cəmiyyətimizə yararlı şəxsiyyət kimi formalaşdırmağa çalışır.

Məktəblilərin hər tərəfli inkişafında onların şəxsiyyətinin tələbat və motivlərinin formalaşmasında, maraq və meyllərin, həmçinin yaradıcı təfəkkürün, özünü idarə, özünüdərketmə və sosiallaşmasında müəllimin müstəsna rolu vardır. Cəmiyyətin inkişafı və bu inkişafla bərabər sosial tələblər problemin aktuallığını daha qabarıq şəkildə önə çəkir. Müəllimin pedaqoji fəaliyyətində nəzəriyyə və praktikanın qarşılıqlı təsiri təmin edilməlidir. Uşaq şəxsiyyəti və onun fərdi xüsusiyyətlərinin psixoloji mexanızmləri

nəzərə alınmalıdır. Nəzərə alınmadıqda müəllimin şagirdə olan praktik pedaqoji təsirinin səmərəliliyi əhəmiyyətli dərəcədə azalır və istəniən nəticəni əldə edə bilmir. [1]

Müəllim qarşısına qoyulan vəzifələri uğurla həyata keçirməlidir. Şagirdlərə biliklər vermək həmin bilikləri təcrübədə tətbiq etmək, vərdişləri və bacarıqları aşılamaqdan ibarətdir. Burada müəllimin rolu əvəzsizdir

Müəllimin pedaqoji fəaliyyəti bir sıra funksiyalardan ibarətdir. Biz bura inkişafetdirici, tərbiyəedici, kommunikativ-öyrədici, qnostik, konstruktiv, təşkilatçılıq funksiyaları aid edə bilərik. Şagirdlərin təlim və tərbiyəsini, onlarda şəxsiyyətin formalaşmasını bu funksiyaların rolu mühümdür.

Pedaqoji fəaliyyətin psixologiyasının öyrənilməsi sahəsində tədqiqatlar aparılmışdır. Bu baxımdan L.S.Vıqotskinin, N.D.Levitovun, A.V. Petrovskinin, A.İ.Serbakovun və başqalarının apardıqları fundamental tədqiqatlar diqqətə cəlb edir. [2]

1.Pedaqoji əməyinin psixologiyasında adətən üç aspekti xüsusi olaraq ön plana çəkirlər: a) müəllim şəxsiyyətinin xüsusiyyətləri; b) pedaqoji fəaliyyətin xüsusiyyətləri; c) pedaqoji ünsiyyətin xüsusiyyətləri. Müəllim şəxsiyyətinin təhlil zəminində pedaqoji fəaliyyəti səmərəli edən keyfiyyətlər fərqləndirilir.Həmin keyfiyyətlər pedaqoji fəaliyyətin səmərəliyini təmin edən amillər kimi qiymətləndirilir.Psixoloqlar müəllim şəxsiyyətində peşəkarlıq baxımından əhəmiyyətli olan və pedaqoji fəaliyyətin strukturasında mühüm mövqeyə malik olan psixopedaqoji istiqamətli dörd alt blokları irəli sürürlər: 1) ideya-əxlaqi mənəvi sima, 2) pedaqoji istiqamət, 3) pedaqoji qabiliyyətlər – ümumi və xüsusi, 4) pedaqoji bacarıqlar və vərdişlər.

Aparılmış tədqiqatlarda pedaqoji qabiliyyətlərin öyrənilməsinə böyük diqqət yetirilir. Ümumi qabiliyyətlərlə yanaşı (tədris olunan fənlərdən asılı olmayaraq bütün müəllimlər üçün zəruri olan) xüsusi qabiliyyətlər (tədris olunan predmetin özünəməxsusluluğunun nəzərə alınması ilə əlaqədar olan) öyrənilir və xarakterizə edilirlər.

2. Pedaqoji qabiliyyətlərin əksər modelləri dörd yarımqrupa bölünürlər: 1) sistem modelləri; 2) struktur modelləri; 3) psevdoproqnozlaşdırıcı modellər; 4) proqnostik modellər.

Birinci yarımqrupa pedaqoji qabiliyyətlərin sistemli modelləri aid edilir. Məsələn, orta, məktəbdə işləyən müəllimin modeli. Aparılmış müşahidələr və psixoloji araşdırmalar əsasında pedaqoji qabiliyyətlərin strukturasında aşağıdakı fərdi xassələr müəyyənləşdirilmişdir: [5]

1) təlim materialının uşağın mənimsəmə imkanlarına uyğunlaşdırmaq qabiliyyəti;
2) şagirdin müəllim tərəfindən başa düşülməsi;
3) aparılan pedaqoji işdə yaradıcılıq;
4) uşaqlara pedaqoji iradi təsir;
5) uşaq kollektivini təşkil etmək qabiliyyəti;
6) uşaqlara maraq;
7) nitqin məzmunluluğu və parlaqlığı;
8) nitqin obrazlılığı və inandırıcılığı;
9) pedaqoji takt;
10) tədris olunan predmetin həyatla əlaqələndirilmək qabiliyyəti;
11) müşahidəçilik (uşaqlarla münasibətdə;
12) pedaqoji tələbkarlıq.

İkinci qrupa pedaqoji qabiliyyətlərin struktur modelləri aid edilir ki, onlar da, öz növbəsində, tədrisin səmərəliyinə təsir göstərirlər. Bu modeldə pedaqoji ustalıq müəllim şəxsiyyətinin peşəkar istiqamətinin ən yüksək forması kimi qiymətləndirilir və müəllim şəxsiyyətinin təşkil olunmasının 4 səviyyəsi fərqləndirilir:

1) müəllim şəxsiyyətinin xassə və xarakteristikalarının müəyyənləşdirilərək sadalanması;
2) psixoloji-pedaqoji hazırlığa qarşı olan tələblərin sadalanması;
3) akademik hazırlığın həcmi və məzmunu;
4) konkret ixtisaslaşma üzrə metodiki hazırlığın həcmi və məzmunu.

Qeyd edilən hipotetik (fərziyyə olunan) strukturuya istinad etməklə pedaqoji qabiliyyətləri təyin edən əlamətləri müəyyənləşdirmək olar:

1) istiqamət (ideya, peşə -pedaqoji, idraki);
2) ümumi akademik qabiliyyətlər (intellektual və başqaları);
3) xüsusi didaktik qabiliyyətlər (konkret fənlərin tədrisi üzrə metodiki vərdişlərin mövcud olması).

Üçüncü qrupa pedaqoji qabiliyyətlərin psevdoproqnozlaşdırıcı modeli aid edilir. Pedaqoji fəaliyyətin öyrənilməsi göstərir ki, müəllim təşkilati qabiliyyətlərlə yanaşı kommunikativ, konstruktiv, proyektiv və qnostik qabiliyyətlərə də malik olmalıdır.

Dördüncü yarımqrupa pedaqoji qabiliyyətlərin proqnostik modelləri aid edilir. ABŞ-da 6 il ərzində 1700 məktəbdə açıq dərs prosesində 6 min müəllimin fəaliyyəti izlənilərək öyrənilmişdir. Məlumatların toplanılması başa çatdıqdan sonra toplanılan materialın faktorlu analizi aparılmışdır. Təhlil əsasında yaxşı pedaqoq imidjinin formalaşmasına təsir göstərən 9 faktor müəyyənləşdirilmişdir:

1) şagirdin halına acımaq (empatiya) faktoru — eqosentirizm (biganəlik);
2) işgüzarlıq faktoru (sistemlilik) — səhlənkarlıq, səliqəsizlilik, başısoyuqluq;
3) xeyirxahlıq faktoru — şagirdlərə qeyri-xeyirxah münasibət;
4) şagirdlərin yaradıcı imkanlarını stimullaşdırıcı dərslərin aparılması faktoru – məşğələlərin darıxdırıcı, yeknəsək aparılması faktoru;
5) demokratik tədris tipinin qəbul olunması və qəbul olunmaması faktoru;
6) məktəbin rəhbərliyinə və digər işçilərinə xeyirxah və qeyri-xeyirxah münasibət faktoru;
7) ənənəvi-liberal tədris tipinə meyl (üstünlük vermək) faktoru;
8) emosional stabillik - qeyri-stabillik faktoru;
9) yaxşı şifahi-sözlü anlama (başa düşmə) faktoru.

Pedaqoji qabiliyyətlərin təsnifatını aşağıdakı ardıcıllıqla xarakterizə etmək olar: [4]

1. Didaktik qabiliyyətlər (bu qabiliyyətlər müəllimin məlumat vermə funksiyasını şərtləndirir və bu əsasda şagirdlərə zəruri olan informasiyalar verilir, onlarda fəal, müstəqil və yaradıcı təfəkkür formalaşdırılır). Didaktik qabiliyyətlərin əsas komponenetləri: uşaqlara informasiyanı ötürmək qabiliyyəti, ekspressiv-nitq qabiliyyəti, akademik (idraki) qabiliyyətlər, diqqətin paylanması.

2. Təşkilati-kommunikativ qabiliyyətlər (bu qabiliyyətlər müəllimin təşkilatçılıq funksiyaları və ünsiyyəti ilə əlaqədardırlar). Təşkilati-kommunikativ qabiliyyətlərin komponentləri: kommunikativ qabiliyyətlər, pedaqoji takt, təşkilatçılıq qabiliyyətləri, suqqestiv və ya təlqinə məruz qoymaq qabiliyyətləri.

3. Şəxsiyyətlə (şəxsi) bağlı qabiliyyətlər (bu qabiliyyətlər müəllimin tərbiəyedici funksiyasının keçirilməsi ilə əlaqədardır). Bu qabiliyyətlərin komponenetləri: perseptiv(qavrayış) qabiliyyətlər, pedaqoji təxəyyül, və ya müəllimin şəxsi davranışı və emosiyalarını tənzim etmək bacarığı.

Müəllim şəxsiyyətinin xassələrinin tərkibi çox genişdir. Onları ardıcıllıqla sadalayaq: dərin düşünmə, nəzakətlilik, tələbkarlıq, diqqətçil, tərbiyəlilik, həssaslıq və mütəssirlik, səbr və özünü ələ almağı bacarmaq, davranışın çevikliyi, vətəndaşlılıq, humanistlik, işgüzarlıq, intizamlılıq, xeyirxahlıq, vicdanlılıq, xoşxasiyyətlilik (mehribanlıq, mərhəmət), ideya və əqidəlilik, təşəbbüskarlıq, səmimilik, kollektivçilik, tənqidilik, məntiqilik, uşaqlara məhəbbət, müşahidəçilik, təkidlilik, ünsiyyətlilik, özünü təşkiletmə bacarığı, məsuliyyətlilik, qayğıkeşlik (həssaslıq, xeyirxahlıq), vətənpərvərlik, pedaqoji erudisiya (bacarıq), siyasi şüurluluq, ləyaqətlilik, doğruluq (düzlük, doğrululuq), ehtiyatlılıq (tədbirlilik, ehtiyatlıq), prinsipiallıq, özünə tənqidi yanaşmaq, müstəqillik, təvazökarlıq, cəsarətlilik, tez başa düşmə (düşüncəli, zəkalı, fəhmli, ayıq), ədalətli (insaf, haqq), özünütəkmilləşdirməyə və inkişaf etdirməyə meyl, nəzakətlilik (ədəbilik), yenilik hissi, şəxsi ləyaqət hissi, həssaslıq (canıyanqılıq, qayğıkeşlik), emosionallıq.

Müəllim şəxsiyyətinin ahəngdar inkişafi bütün yuxarıda göstərilən şəxsi keyfiyyətlərin qarşılıqlı surətdə formalaşdırılması şəraitində təmin edilir. Müəllim əməyini tədqiq edən psixoloqların yekdil rəyinə görə müəllim şəxsiyyətinin strukturasının formalaşmasının əsasını onun fəaliyyətinin pedaqoji istiqaməti təşkil edir. Məhz pedaqoji istiqamət davamlı motivlər sistemi olmaqla müəllimin davranışını onun sənətə münasibətini və hər şeydən əvvəl uşağa münasibətini şərtləndirir. Təsadüfi deyildir ki, pedaqoji fəaliyyəti öyrənən psixoloqlar uşağa qarşı meylin olmasını müəllim şəxsiyyətinin başlıca keyfiyyəti kimi xarakterizə edirlər.

Aparılmış psixoloji tədqiqatların nəticələri göstərir ki, müəllim tərbiyəçi kimi fəaliyyətində pedaqoji nüfuzun mühüm əhəmiyyəti vardır. Pedaqoji nüfuz ilk növbədə tərbiyənin məqsədlərinə uyğun olaraq şagirdlərin dəyişdirilməsinə yönəlməlidir. Pedaqoji nüfuz müəllimin müsbət xarakterik keyfiyyətlərinin formalaşması əsasında müəyyənləşir.

Müəllimin peşakarlığını təmin edən keyfiyyətləri içərisində onun stressə davamlılığının mühüm əhəmiyyəti vardır. Müəllimin işində stressin təzahürü çoxcəhətli və genişdir. Yorğunluq, üzgünlük, narahatlılıq, frustrasiya və bu kimi digər hallar müəllim əməyinin stresliliyini şərtləndirir. Odur ki, stressə davamlılıq müəllim fəaliyyətinin peşəkar keyfiyyəti kimi qiymətləndirilməlidir. [6]

Stressli şəraitlərə sosial uyğunlaşmanın ən mühüm faktorlarından biri müəllim şəxsiyyətində sosial-psixoloji tolerantlığın (dözümlülüyünün) inkişafının təmin edilməsidir. Dözümlülük şəxsiyyətin stereotipləri ilə şəxsiyyətlərarası qiymətləndirmənin neqativ (mənfi) yönəlişləri ilə (ustanovkaları ilə) şərtlənir. Dözümsüzlülük müəllimin bir şəxsiyyət və peşəkar kimi aşağı səviyyə malik olması şəraitində, o cümlədən pedaqoji mədəniyyətin bəsitliyi zəminində daha açıq şəkildə büruzə verir.

Ədəbiyyat

1. www.aztehsil.com
2. www.azvision.az
3.
4. Qədirov Ə. Yaş psixologiyası Bakı -2002
5. Həmzəyen M. Pedaqoji psixologiyaBakı -2003
6. Əzimli Q. Yaş və pedaqoji psixologiyanın müasir priblemləri Bakı-2006
7. Seyidov S., Həmzəyev M. Psixologiya. Bakı, 2007

РЕЗЮМЕ

ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ФОРМИРОВАНИЯ ЛИЧНОСТИ ПЕДАГОГА

Рагимова Г.В.

Азербайджанский государственный педагогический университет

Положение учителя имеет исключительное значение в нашем обществе. Учитель должен отличаться в обучении и воспитании своими уникальными педагогическими и психологическими характеристиками, нравственными качествами, знаниями, мировоззрением, сильным характером и волей. Учитель всегда должен работать над собой, учиться и учить так, чтобы дети приобретали знания, умения и навыки. привычки, приобретает навыки и привычки, формируется как личность, приобретает ряд качеств, что оказывает важное влияние на их развитие, как прививает такие качества.

Ключевые слова: *личность учителя, самосознание, школа, личность, общество, психологический механизм*

SUMMARY

PSYCHOLOGICAL ASPECTS OF TEACHER'S PERSONALITY FORMATION

Rahimova G.V.

Azerbaijan State Pedagogical University

The position of the teacher is of exceptional importance in our society. A teacher should be distinguished in teaching and upbringing by her unique pedagogical and psychological characteristics, moral qualities, knowledge, outlook, strong character and will. The teacher should always work on himself, learn and teach so that children acquire knowledge, skills and habits, acquires skills and habits, is formed as a person, acquires a number of qualities, which has an important impact on their development instills qualities such as.

Keywords: *teacher personality, self-awareness, school, personality, society, psychological mechanism*

YENİYETMƏLƏRİN BEYİN QURULUŞUNDAKI İNKİŞAF VƏ DƏYİŞİKLİKLƏRİN ONLARIN TƏRBİYƏSİNDƏ NƏZƏRƏ ALINMASININ PSİXOLOJİ MƏSƏLƏLƏRİ

İsgəndərov Elmir Arif oğlu

Azərbaycan Respublikasının Təhsil İnstitutu, Bakı, Azərbaycan

isgenderlielmir@gmail.com

Açar sözlər: *yeniyetməlik, beyin, keçid dövrü, neyronlar, sinir hüceyrələri, sinaptik budanma.*

Son dövrlərə qədər insan beyninin inkişafının 4-5 yaşlarda artıq başa çatdığı güman olunurdu. Buna görə də xüsusilə yeniyetməlik dövründə baş verən dəyişikliklər, əsasən, hormonal disbalans və keçid dövrünün özünəməxsus xüsusiyyətləri ilə şərh edilirdi. Ənənəvi yanaşmalarda yeniyetmələrin impulsiv, üsyankar, "qeyri-adi" davranışları, qərarsızlıq, tənbəllik kimi xüsusiyyətləri tamamilə hormonal dəyişikliklərlə izah olunmuşdur.

Bu gün artıq elmi tədqiqatlar insan beyninin inkişafının 24-25 yaşlara qədər davam etdiyini sübut edir. Bu isə o deməkdir ki, yeniyetmələrə yeni yanaşma üsullarının araşdırılması olduqca vacibdir. Çünki

yeniyetmə beyninə artıq inkişafını başa çatdırmış yetkin insan beyni kimi yanaşmağın düzgün olmadığı artıq məlumdur.

Əlbəttə, hormonların insan davranışlarına və psixikasına təsirini inkar etmək olmaz. Yeniyetməlik dövrü boyun sürətli inkişafı, orqanizmdə gedən maddələr mübadiləsinin yüksəlməsi, daxili sekresiya vəziləri fəaliyyətinin kəskin surətdə güclənməsi və cinsi yetişkənliyin baş verməsi ilə xarakterizə olunur [1, s. 305]. Ancaq bütün bu proseslərin beyinlə əlaqəsiz bir şəkildə baş vermədiyi bilinməlidir.

Yeniyetmənin fizioloji parametrlərinin dəyişməsi (qızlarda sinə nahiyəsi, oğlanlarda üzün tüklənməsi, həmçinin hər iki cinsdə boyun uzanması və s. kimi xüsusiyyətlər) onu yetkin şəxsə bənzətdiyi üçün böyüklərin ondan gözləntiləri bir anda artır. Lakin yeniyetmənin beyin quruluşuna nəzər saldıqda yeniyetmə davranışlarının qeyri-adekvatlığının səbəbi daha yaxşı başa düşülür.

Yer kürəsində insan və ya təbii sistemlər içərisində ən çox rabitəli şəbəkəyə malik olması səbəbindən və trilyonlarca sinaptik rabitəsi ilə insan beyni əvəzsiz bir quruluşu təmsil etməkdədir [2, s. 10]. İdraka və davranışlara bilavasitə təsir etməsi səbəbilə yeniyetmə beyni haqqında məlumatlı olmaq olduqca əhəmiyyətlidir. Əgər yeniyetmənin beyin quruluşundakı dəyişikliklər hərtərəfli bilinər və bundan düzgün istifadə edilərsə, təkcə həmin dövrdə deyil, həyatın qalan mərhələlərində də vacib qabiliyyətlər əldə edilər. Yeniyetməlik dövründə beynin necə dəyişdiyi bilinərsə, qərar vermə prosesinin də hansı formada olduğu başa düşülər.

Yeniyetməlik dövrünü yalnız bəzi hormonların inkişafı ilə əlaqələndirmək, bu dövrə "keçici", "çətin", "keçid" dövrü kimi ənənəvi formada baxmaq artıq primitiv yanaşma olaraq qəbul edilir. Bu dövrdə hormonlarda inkişaf və dəyişikliklər olduğu faktdır. Ancaq yeniyetməlik dövrünün bütün xüsusiyyətlərini hormonlarla əlaqələndirmək məsələnin digər tərəflərini nəzərdən qaçırmağımıza səbəb olar. Uşaq Tədqiqatları Hərəkatının qurucusu Qranvil Stenli Hol hələ 1904-cü ildə yeniyetməlik dövrünü həyatın ən yaxşı 10 ili adlandıraraq bildirirdi ki, insan başqa heç bir dövrdə yetkinlərin xoş niyyətli və müdrik cəhdlərinə qarşı bu qədər həssas olmur. Həmçinin heç bir mənəvi torpaqda həm yaxşı, həm də pis toxumlar bu qədər dərin kök salmır və ya bu qədər sürətli və dəqiq nəticə vermir [3].

Məlumdur ki, sinir sistemi strukturunun əsası olan sinir hüceyrələri — neyronlar sinir sistemi daxilində informasiyanın keçirilməsini təmin edən xüsusi hüceyrələrdir. İnsan beyni çox miqdarda neyrondan ibarətdir. Bəzi alimlər neyronların sayının 100 milyarddan artıq (təxminən qalaktikadakı ulduzların sayı qədər) olduğunu bildirirlər [4, s. 45]. Neyron nəzəriyyəsinin tərəfdarı olan fizioloqlar bir sıra fizioloji hadisələri təhlil edərək belə nəticəyə gəlmişlər ki, neyronlar bir-birindən ayrıdırlar və iki qonşu neyron arasında birləşdirici səth vardır. Bu birləşdirici səth yarımkeçirici zar olub, sinir impulslarını bir neyrondan digərinə verir. İki neyronu bir-birilə birləşdirən bu səthə sinaps deyilir [5, s. 180].

Beyin doğumdan sonra insan bədənində inkişafını ən az başa çatdırmış orqan hesab olunur. Bu zaman fizioloji olaraq beyin öz inkişafının yalnız 40%-də olur. Böyüdükcə beynin fizioloji quruluşu ilə bərabər, daxili rabitələr də dəyişir.

Yeniyetmələrin beynindəki əsas dəyişiklik xüsusilə ön beyin qabığında müşahidə olunan sinaptik budanma (boz maddənin azalması) və mielinləşmədir (ağ maddənin artması). Boz maddə – beynin əsasını təşkil edən sinir hüceyrələri, ağ maddə isə informasiyanın beyinin bir hissəsindən başqa hissəsinə keçidini təmin edən əlaqələrdir. Bu vəziyyəti çox vaxt mühərriki yüksək pillədə işləyən, amma hara gedəcəyini bilməyən avtomobilə bənzədirlər. Beyinin xarici təbəqəsinin – korteksin altında ağ maddə vardır. Beyin hüceyrələrinin çoxu boz maddənin içərisində yerləşir. Neyronlar yaxınlıqda yerləşən sinir hüceyrələri ilə birbaşa əlaqə qurduğu halda beyinin digər hissələrində və ya yarımkürəsində, yaxud da bədənin başqa qisimlərindəki əzələ və sinirləri fəaliyyətə keçirmək üçün onurğada yerləşən neyronlara göndərdikləri siqnallar ağ maddə vasitəsilə ötürülür [6, s. 41]. Araşdırmalara görə, boz maddənin miqdarı qızlarda 11, oğlanlarda isə 14 yaşında zirvəyə çatır və yeniyetməlik dövrü boyunca artıb-azalır. Beyindəki ağ maddə və ya mielin miqdarı isə bu dövrdə yalnız artan qrafiklə hərəkət edir. Bunu J.Giedd və ABŞ Milli Psixi Sağlamlıq İnstitutunun əməkdaşları 13-18 yaşları arasındakı 1000 nəfər uşaq beynində apardıqları araşdırma nəticəsində ortaya qoymuşlar [7].

Əvvəla, beyin həmin dövrə qədər artmaqda olan sinir hüceyrələrinin bir hissəsini (istifadə edilməyənləri) və onların rabitələrini itirir. Buna sinaptik budanma deyilir. Hansı sinir hüceyrələrinin budanacağını təcrübələr müəyyənləşdirir. Bu, eyni zamanda az istifadə olunan qabiliyyətlərin də aradan qalxması deməkdir. Bu səbəbdən yeniyetməlik dövrünün başlanğıcında beyin qabığı qalınlaşsa da, bu qalınlıq getdikcə azalır. Sinaptik budanma, başqa sözlə, neyroloji təmizlik vasitəsilə yeniyetmənin idrak fəaliyyətləri güclənir və beynin faydalılıq əmsalı artır.

Yeniyetmələrin beynində baş verən ikinci əsas dəyişiklik mielinləşmədir. Mielinləşmə neyronlar arasındakı əlaqəni təmin edən aksonların mielin təbəqəsi ilə örtülməsi deməkdir. Mielinləşmə eyni zamanda ön beyin qabığında (prefrontal korteks) ağ maddənin çoxalması ilə də səciyyələnir. Yeniyetməliyin sonuna doğru sinaptik budanma və mielinləşmə səbəbindən yeniyetmələr daha mürəkkəb idrak fəaliyyətləri tələb edən işləri yerinə yetirə bilirlər.

Yeniyetməlik boyunca beyin qabıqları və qabıqlararası əlaqələr inkişaf etməyə davam edir. Beynin sağ və sol yarımkürələrini bir-birinə bağlayan korpus-kollosumda aksonlar qalınlaşıb qüvvətlənir. Eyni zamanda frontal və temporal kortekslər arasındakı sinir toxumaları qalınlaşır, mielinləşir və bu dəyişikliklər neyronlar arasındakı informasiya mübadiləsini sürətləndirir [8].

Öyrənmə və hafizə fəaliyyətlərini yerinə yetirən hipokampus qızlarda daha erkən formalaşdığı halda, emosional reaksiyaların mənbəyi olan amiqdala oğlanlarda daha erkən inkişaf edir. Amiqdala beyinin limbik sistemində yerləşən badam şəkilli kompleks bir quruluşdur. Əsas funksiyası duyğuları müvafiq cavab nümunələri ilə birləşdirmək, fizioloji səviyyədə cavab reaksiyası vermək və ya davranış cavabını hazırlamaqdır. Amiqdala həmçinin duyğuların somatik ifadəsini koordinasiya etmək, təcrübələrin emosional mənasını qiymətləndirmək, beyində hislər, məmnuniyyət və ya qorxu cavablarını idarə etmək kimi aktual işləri də icra edir. Eyni zamanda bu dövrdə ön beyinin daha gec inkişaf etdiyini də bildirməliyik. Yeniyetmələrin yetkinlərlə müqayisədə daha emosional reaksiya vermələrinin səbəbi də məhz amiqdalanın sürətli inkişafı fonunda ön beynin öz inkişafını tamamlamaması ilə izah oluna bilər. Ön beynin əsas funksiyaları idarə etmə, mühakimə və qavrama qabiliyyəti, qərar vermə, nəticə çıxarma, analiz etmə, özünənəzarət, özünü idarə kimi xüsuslardır. Beyin arxadan önə doğru formalaşdığından yeniyetməlik dövründə bu hissə digər hissələrlə müqayisədə ən az inkişaf edən və ən az əlaqə quran beyin hissəsidir. Ön beyin qabığının təxminən 20-22 yaşlarında formalaşdığı ehtimal olunur. Məhz bu yaşlarda gənc öz emosiyalarını cilovlamağa, həmçinin fərdi intizama yiyələnməyə, daha şüurlu fəaliyyətə yönəlməyə, düşüncə, şərh və qərar vermə mexanizmlərindən səmərəli istifadə etməyə başlayır [9].

Beyindəki sinir rabitələri içərisində ən son bağlanan hissə ön hissədir. Yeniyetmə beyin inkişafının yalnız 80%-ni tamamlamışdır. Qalan 20% isə rabitələrin ən seyrək olduğu hissə olmaqla bərabər, olduqca vacib funksiyalara malikdir. Bu, yeniyetmələrin nə üçün qeyri-adi davranışlar nümayiş etdirdiklərini, çox vaxt aqressiv davrandıqlarını, duyğularını cilovlamaqda, böyüklərlə ünsiyyət qurmaqda çətinlik çəkdiklərini, diqqətlərinin asanlıqla dağıldığını, daha çox riskli davranışlara meyilli olduqlarını, həzzə yönəldiklərini anlamaqda mühüm məlumatdır [6, s. 51]. Bundan başqa, insan stress altında və ya qorxu hiss edəndə talamus informasiyanı düşüncə və öyrənməyin reallaşdığı korteks sahəsinə göndərmək əvəzinə, uzunsov beyin kimi beyinin daha primitiv hissələrinə göndərir. Bunun nəticəsində həmin şəxsdə rasional düşüncə yox, instinktiv davranışlar müşahidə olunur [10, s. 26].

Beyin çəkisinin 85%-lik hissəsini təşkil edən ən böyük parçası və ən çox sinir hüceyrəsinə malik olan beyin qabığı (korteks) yarım və qabıqlı qoz kimi beyinin qalan hissəsini əhatələyir. Beyin qabığı beyinin inkişafını tamamlayan son hissə olması səbəbindən beyinin digər hissələri ilə müqayisədə daha uzun müddət boyunca ətraf faktorlara qarşı həssasdır [11, s. 167].

Qeyd etdiyimiz kimi, beyinin inkişafı arxadan önə doğru prinsipi ilə çalışır. Yeniyetmələrin beynindəki başqa bir dəyişiklik də arxa beyinin hissələrindən olan beyincikdə (serebellum) meydana gəlir. Məlumdur ki, beyincik əzələ fəaliyyətlərimizə nəzarət edərək hərəkətlərimizi nizamlayır. Arxa beyinin bu hissəsindən iynədən ipi keçirərkən, əməliyyat edərkən, piano çalarkən, velosiped sürərkən istifadə edilir [12, səh 62]. Beyincik yeniyetməlik dövründə inkişafını davam etdirir və bu dövrün sonuna doğru öz inkişafını başa çatdırır. Yeniyetmələrin çox vaxt müvazinələrini saxlamaqda çətinlik çəkmələri, əl-qol hərəkətlərini düzgün tənzimləyə bilməmələri, kiçik miqyaslı qəzalar törətmələri bu səbəbdəndir.

Amerikalı professor Daniel Siqel yeniyetməlik dövründə beyində baş verən dəyişikliklərin yeniyetmələrin idrak fəaliyyətlərində dörd əsas xüsusiyyəti formalaşdırdığını bildirmişdir. Alim eyni zamanda bu xüsusiyyətlərin müsbət və mənfi cəhətlərini də göstərmişdir:

1. Orijinallıq axtarışı (Novelty). Bu, həyatda daha mənalı münasibətlər qurmağı təmin edən mükafat ehtiyacından doğur. Bu xüsusiyyətin müsbət cəhətləri ənənəvi üsullardan qismən imtina edib yeni yollar tapmaq, yeni fikir və yanaşmalar müəyyənləşdirmək, monoton həyat tərzi sürməməkdir. Mənfi cəhəti isə odur ki, həyəcana qapılıb risk faktorunu nəzərə almamaq təhlükəli davranışlar və hətta xəsarətlə nəticələnə bilər. Orijinallıq axtarışına bağlı olaraq sürətli hərəkət etmə instinktinin nəticəni düşünmədən dərhal fəaliyyətə keçməyə gətirib çıxarması labüddür.

2. Sosial münasibətlər (Social engagement). Sosial münasibətlər yeniyetmələrin həmyaşıdları ilə əlaqələrini gücləndirməyə və yeni dostluqlar qurmağa yönəlmişdir. Araşdırmalar bu münasibətlərin ömür

boyu sağlamlığın və xoşbəxtliyin mənbəyi olduğunu göstərmişdir. Bunu sosial münasibətlərin müsbət tərəfi kimi qeyd etmək olar. Mənfi cəhətə gəlincə, böyüklərdən, xüsusilə valideynlərdən, demək olar ki, tamamilə təcrid olunmuş və yalnız həmyaşıdları ilə əhatə edilmiş bir həyat tərzi yeniyetmələrdə riskli davranışların çoxalmasına səbəb olur.

3. Emosional qığılcım (Emotional spark). Emosional halətlə yaşamaq daha enerjili, həyat eşqi ilə dolu, coşqun, istəkli və şövqlü bir həyat tərzi deməkdir. Bu halətin mənfi tərəfi odur ki, ifrat emosionallıq yeniyetməni ani qərar verməyə, uyğunsuz davranışlara, onun qeyri-adekvat reaksiyalar göstərməsinə səbəb ola bilər.

4. Yaradıcı kəşfiyyatçılıq (Creative explorations). Məlumdur ki, koqnitiv psixologiyanın əsas simalarından olan J. Pyaje (1896-1980) məşhur nəzəriyyəsində yeniyetməlik dövrünü mücərrəd əməliyyatlar dövrünə daxil etmişdir [4, s.462]. Bu da yeniyetmələri mövcud vəziyyəti nəzərdən keçirməyə, problemlərə düşünərək çıxış yolları tapmağa, yeni fikir və kəşflərə sövq edir. Çox vaxt yetkinlərin mənimsədikləri monoton həyat tərzinin hüdudlarından kənara çıxmaq, yeni və fərqli təcrübələri sınaqdan keçirmək, bir növ həyatı daha geniş perspektivdə yaşamaq və s. yaradıcı kəşfiyyatçılığın müsbət cəhətləri sırasında sayıla bilər. Böyüklər yaradıcı kəşfiyyatçılıq potensiallarından istifadə etməkdən əl çəkəndə problemlərə vərdişlərin təkrarı ilə baxırlar. Bu həm də təxəyyül qabiliyyətinin imkanlarından yararlanmamaq deməkdir.

Professor Daniel Siqel yetkinlərlə yeniyetmələrin qarşıdurmalarını, daha doğrusu, yeniyetməliyin əsas xüsusiyyətlərinə qarşı yetkinlərin yanaşmalarını bir şəlalənin təbii axarına qarşı durmağa bənzədir. O bildirir ki, yeniyetməliyin gücü böyüməkdə olan gəncin zahiri davranışlarında və düşüncə sistemində özünü göstərəcək bir yol tapacaqdır. Şəlalənin axınını dayandıra bilməzsiniz, ancaq onun istiqamətini dəyişdirə və gücündən istifadə edə bilərsiniz [13, s. 39].

Dahi şairimiz Nizami Gəncəvi yeniyetməlik yaşına çatan oğlu Məhəmmədə nəsihətdə onu müstəqil davranmağa səsləmiş, təkbaşına hünər qazanmağa təşviq etmişdir:

"Uşaqkən əslini sorsalar bir az,
Ağac bar verəndə cinsi sorulmaz!
Elə ki böyüdün, belədir qayda,
Atanın adından sənə nə fayda?!
Sən aslanlar kimi keç cəbhələrdən,
Yalnız hünərinin balası ol sən!" [14, s.51]

Beyin üzrə mütəxəssis, professor Sinan Canan bildirir ki, insanların gənclərlə bağlı şikayət etdikləri bir çox məsələ, əslində, beyinin müxtəlif inkişaf mərhələlərindən asılı olan davranış formaları ilə bağlıdır. Ailə fərdləri və digər böyüklərlə fikir ayrılıqları gənclərin başqa insanların davranışlarındakı məqsədləri düzgün oxuma bacarığına tam olaraq yiyələnmədiklərindən irəli gəlir. Bu dövrdə gənc beyin ətrafındakı insanlarla yaşadığı müxtəlif konflikt və qarşıdurmalarla sərhədləri, baxış bucaqlarını və başqa insanların nəzərindən dünyanın necə göründüyünü daha yaxşı dərk etməyə və beyindəki əlaqələri də bu müstəvidə qurmağa başlayır. Xaricdən görünən isə adətən yaramaz, narazı, bəzən də içinə qapanan aqressiv gənclərdir [15, s. 57].

Nəticə olaraq, insan beyninin hələ də araşdırıldığını nəzərə alsaq, qeyd edə bilərik ki, yeniyetmə beyni ilə bağlı yeni kəşflər ortaya çıxdıqca tədqiqatlar daha da genişlənəcək. Yeniyetmələrə yanaşarkən onların öz inkişaflarını hələ tamamlamadıqlarını, xarakterlərinin tam oturuşmadığını diqqətdən qaçırmamalıyıq. Yeniyetməlik bir öyrənmə dövrüdür və bu məqamdan yaxşı istifadə edilməlidir. Yeniyetmənin beyin quruluşu son illərə qədər ciddi mənada araşdırılmamış bir mövzudur. Bu baxımdan hal-hazırda davam edən araşdırmalar fonunda yeni informasiyaların ortaya çıxacağı da mütləqdir.

Ədəbiyyat

1. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı, 2008. 386 s.
2. Merba Tat. Sinir Dili Programlamasının (NLP) kişisel gelişim ve kişilerarası iletişim üzerindeki etkileri. Doktora tezi. İzmir, 2007. 350 s.
3. Granville Stanley Hall. Adilescence: ıts psychology and ıts relations to psychology, anthoropology, sociology, sex, crimine, religion and education. New York: D.Appletion, 1904.
4. Robert L. Solso, M. Kimberly MacLin, Otto H. MacLin. Bilişsel Psikoloji. İstanbul, 2016. 724 s.
5. Əliyev Ə.H., Əliyev F.Ə., Mədətova V.M. İnsan və heyvan fiziologiyası. I hissə. Bakı, 2007. 414 s.
6. Dr. Frances E. Jensen, Amy Ellis Nutt. Ergen beyni. İstanbul, 2021. 384 s.
7. Giedd J. The teen brain: Primde to learn, Primed to take riskes. Celebrum, 26 fevral, 2009.
8. https://jag.journalagent.com/kpd/pdfs/KPD_11_1_42_47.pdf.
9. Prof.İsmail Hakkı Aydın, Can Hikmet Değirmenci. Beynin şifresi. İstanbul, 2016. 296 s.

10.Celalettin Uzuner. NLP Teknikleri Koleksiyonu. I cild. Ankara, 2021. 440 s.
11.Laura E. Berk. Bebekler ve çocuklar (Infants and children). Doğum öncesinden orta çocukluğa. Ankara, 2015. 610 s.
12.Həsənli S. Psixologiya. Bakı, 2013. 284 s.
13.Daniel J. Siegel. Ergen beyin rehberi. İstanbul, 2019. 342 s.
14.Gəncəvi N. Leyli və Məcnun. Bakı: Lider nəşriyyatı, 2004. 288 s.
15.Sinan Canan. Değişen beynim. İstanbul, 2020. 350 s.

РЕЗЮМЕ
ПСИХОЛОГИЧЕСКИЕ ВОПРОСЫ ИСПОЛЬЗОВАНИЯ РАЗВИТИЯ ПОДРОСТКОВ И ИЗМЕНЕНИЯ СТРУКТУРЫ ИХ МОЗГА В ОБРАЗОВАНИИ

Исгандаров Э.А.
Институт образования Азербайджанской Республики

В статье рассматривается механизм развития головного мозга человека, особенности этого развития в подростковом возрасте, который является важной частью жизни человека. В современном мире неполноценно говорить об особенностях этого периода, не принимая во внимание выводы нейронауки, качество физиологических изменений, не зная параметров мозга подростка. Когда мы осознаем базовую структуру развития мозга подростка, мы сможем легче управлять процессом с ними, и вместо того, чтобы проводить этот период как «переходный период», мы научимся использовать его более эффективно. Не случайно основатель Детского исследовательского движения Грэнвилл Стэнли Холл назвал этот период «днем рождения воображения».

Ключевые слова: *подростковый возраст, головной мозг, переходный период, нейроны, нервные клетки, синаптическая обрезка*

SUMMARY
PSYCHOLOGICAL ISSUES OF TAKING ADVANTAGE OF TEENAGERS' DEVELOPMENT AND CHANGES IN THEIR BRAIN STRUCTURE IN THEIR EDUCATION

İsgandarov E.A.
İnstitute of Education of the Republic of Azerbaijan

The article discusses the mechanism of development of the human brain, the characteristics of this development during adolescence, which is an important part of human life. In the modern world, it is incomplete to talk about the features of this period, without taking into account the conclusions of neuroscience, the quality of physiological changes, without being aware of the parameters of the adolescent brain. When we are aware of the basic developmental structure of the adolescent brain, we will be able to more easily manage the process with them, and instead of spending this period as a "transition period", we will learn how to use it more effectively. It is no coincidence that the founder of the Children's Research Movement, Granville Stanley Hall, called this period "the birthday of the imagination."

Keywords: *adolescence, brain, transition period, neurons, nerve cells, synaptic pruning*

MÜASİR DÖVRDƏ MÜƏLLIM ŞƏXSIYYƏTI VƏ ONUN İSTİQAMƏTİ MƏSƏLƏLƏRİ

Mehtiyeva Kubra Nizaməddin qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
kubramehtiyeva6@gmail.com

Açar sözlər: *müasir dövr, şagird, öyrətmək, müəllim, şəxsiyyət, tələbə, peşə, psixologiya.*

Müəllim şəxsiyyətinin psixoloji cəhətlərini araşdırmaq üçün ilk növbədə şəxsiyyətin psixoloji xarakteristikası müəyyən edilməlidir. Şəxsiyyətin psixoloji məzmunu açılmadan müəllim şəxsiyyətinin formalaşma istiqamətlərini ayırd etmək və onun tədqiqi istiqamətlərini aydınlaşdırmaq müəyyən çətinliklər yaradır. Birmənalı şəkildə qeyd etmək olar ki, şəxsiyyətin tədqiqinə həsr olunmuş tədqiqatlar olduqca çoxdur və müxtəlif elmlər konteksində özünəməxsus tərzdə şərh edilmişdir. Ayrı-ayrı mənbələrin təhlili göstərir ki, şəxsiyyətə 50-dən artıq tərif verilmişdir və öu təriflərin hər biri şəxsiyyətin yalnız müəyyən tərəflərini özündə əks etdirir, onun mahiyyətinin açılmasına göstərilmiş cəhdlər demək olar ki, nəticəsiz qalır.

Şəxsiyyət haqqında bütöv, bütün təlbələrə cavab verən konsepsiya hələ ki, yaradılmamışdır. Azərhaycan psixoloqu, AMEA-nın müxbir üzvü, professor B.H.Əliyevin təbirincə desək, müasir elmin, o cümlədən psixologiya elminin mərkəzi, əsas problemi şəxsiyyətdir. "Şəxsiyyət çox sirli, müəmmalı, ancaq mövcud olan möcüzələrin: mözüzəsidir. Onun mahiyyətini açmağa çox cəhdlər edilməsinə baxmayaraq, bu günə kimi şəxsiyyət sirli bir dünya olaraq qalırə [5, s.3].

Şəxsiyyətin sirli, müəmmallığı onun iki qütblü olmasıdır. Bu iki qütbülülük şəxsiyyət haqqında birmənalı fikir irəli sürməyə imkan vermir.

Şəxsiyyətin psixoloji mahiyyətirin müəyyən edilməsində Azərhaycan psixoloqlarının sanballı tədqiqat işləri vardır. Bilavasitə həmin tədqiqat işlərinə istinad etməklə şəxsiyyətin psixoloji mahiyyətini araşdırmığa çalışaq.

Azərbaycan psixoloqları professor Ə.S.Bayramov və professor Ə.Ə.Əlizadə "Psixologiya" dərsliyində şəxsiyyəti aşağıdakı kimi səciyyələndirirlər: "Şəxsiyyət" fərd üçün subyektiv olaraq onun "Mən"i - özü haqqında təsəvvürlər sistem kimi meydana çıxır, şəxsiyyətin özünə verdiyi qiymətlərdə, özünə hörmət hissində, iddia şəviyyəsində və s. onun özü haqqında təsəvvürləri əks olunur. Şəxsiyyətə çevrilmək müəyyən həyat mövqeyi, hər şeydən əvvəl, əxlaqi mövqe tutmaq, öz mövqeyini cəmiyyət üzvü kimi, aydın dərk etmək və onun üçün məsuliyyət daşımaq, özünün əməlləri, işləri,bütün həyatı ilə onu təsdiq etmək deməkdir [5.s.106].

Müəllimin şəxsi nümunəsi heç də ona görə təsirli deyildir ki, uşaqlar nəyi isə müəllimdən görüb-götürməlidirlər. Ona görə təsirlidir ki, xalq müəllimə həmişə bir şəxsiyyət kimi yüksək qiymət vermiş, o, bir tərbiyə etalonu kimi hər sözündə, işində, əməlində kamillik nümunəsi kimi insanların daha çox inandığı, etimad göstərdiyi şəxs olmuşdur. İkinci bir tərəfdən də müəllim insan yetişdirdiyi, şəxsiyyət formalaşdırdığı üçün onda hər bir şey – söz də, hərəkət də, davranış da, geyim də, insanlarla ünsiyyət tərzi də, uşaqlara münasibət də o qədər saf, təmiz, inandırıcı, gözəl olmalıdır ki, şagirdlər onun sehrinə düşsün və müəllimində gördüklərini özlərində görməyi arzu etsinlər və heç bir təzyiq, heç bir göstəriş olmadanbuna cəhd etsinlər.

Müəllim peşəsi onun şəxsiyyəti ilə həmahəng olan peşədir, sənətdir. Müəllim deyəndə uşağın da, böyüyündə ilk növbədə göz önünə gətirdiyi onun hərəkət və davranışı olur. Yəni, müəllimdirsə hərəkət və davranışında müəyyən ölçü vardır, yersiz hərəkət, yersiz davranış ona yaddır, sözlərində səmimidir, səliqəsi, geyimi, insanlarla qarşılıqlı münasibətləri müəyyən etilk normalara uyğundur, biliklidir, hər şeydən xəbərdardır,bir sözlə, tərbiyəlilik nümunəsi, mənəviyyat etalonudur. Elə məhz buna görədir ki, müəllim adı, müəllimlik peşəsi bütün cəmiyyətlərdə ən nüfuzlu, ən hörmətli peşə, müəllim adı ən yüksək ad hesab olunur.

Deməli şəxsiyyət kimi formalaşmaq üçün ilk növbədə "Mən" formalaşmalıdır. "Mən" xarakterin və şəxsiyyətin nüvəsini təşkil edir. Mənin qeyri-məndən fərqləndirilməsi şəxsiyyətin ilkin elementi kimi meydana çıxır. Müəlliflərin göstərdikləri kimi özü haqqında təsəvvürlərin meydana çıxması insana özü haqqında məlumatlar verir və insanın özü haqqında bütöv təsəvvürləri formalaşır. Özü haqqında təsəvvürlərin formalaşması insanını özünə hörmət hissini, özünə münasibəti və s. yaranmasına zəmin formalaşdırır. Bu baxımdan müəllim şəxsiyyətinin formalaşması da şəxsiyyətin. formalaşmasının tərkib elementi kimi peşəkar xarakter daşıyır. Lakin şəxsiyyətin formalasmasından fərqli olaraq bu keyfiyyət müəllim fəaliyyətinin məzmun tərəfini özündə əks etdirir.

Konkret olaraq müəllim şəxsiyyətini necə səciyyələndirmək olar? Onun bir insan, həm də şəxsiyyət kimi malik olduğu keyfiyyətlər sistemini necə təsvir etmək olar?

Fikrimizcə, müəllimi ilk növbədə yüksək mənəviyyata malik insan kimi xarakterizə etmək lazımdır.Mənəviyyat, mənəvi keyfiyyətlər müəllim üçün ən zəruri keyfiyytlərdən biridir.Müəllimin mənəvi keyfiyyətlərə malik olması həm də ondan tələb olunan keyfiyyətdir. Bunsuz nəinki müəllimdən, həm də müəllimlikdən, insanlıqdan, insan olmaqdan belə danışmaq əbəsdir.

Mənəvi zənginlik kamillikdir. Özündə olan nöqsan və yaxşı cəhətləri dərk edərək yaxşını artırmaq və nöqsanı aradan qaldırmaq iqtidarına malik olmaq insanı kamilliyə aparan, onu kamil edən amillərdəndir.

Başqa mənbələrdə şəxsiyyətə bu cürə səciyyələndirilir: "Şəxsiyyət - fərdin özünü cəmiyyətlə eyniləşdirməyə imkan verən sabit fiziki və psixi keyfiyyətlərin məcmusudur" [11, s.104].

Ədəbiyyat

1. Abbasova Q.Y.. Mahmudova R.M., Əlizada H.Ə. Təhsilin sosial-pedaqoji məsələləri. Bakı: 2008, 2002s.
2. Bayramov Ə.S, Əlizadə Ə.Ə. Pxixologiya. Bakı: 2003. 540s.
3. Bayramav Ə.S. Əlizada Ə.Ə. Sosial psixologiya Bakı: Qapp, Poliqraf korporasiyası, 2003, 365s,
4. Baxşəliyev Ə.T. Azərbaycanda psxoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyət. Bakı Nurlan, 2007, 538 s.
5. Əliyev B.H. Şəxsiyyət probleminə yeni haxış / Elm XXI əsrin astanasında elmi-praktik konfransının materialları. Bakı: Renessans, 1996,s.146
6. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı: Təhsil, 2008, 134s.

7. Əliyev B.H., Əliyeva K.R., Cabbarov R.V. Pedaqoji psixologiya (Dərslik). Bakı Təhsil, 2011. 254s.
8. Əliyev R.İ. Psixologiya tarixi. Bakı: Nurlan, 2006, 384 s.
9. Əliyev R.İ. Psixologiya. Bakı: Nurlan, 2008, 352 s.
10. Suxomlinski V.A. Ürəyimi uşaqlara verirəm. Bakı: Maarif, 1978.
11. Psixologiya. Ali məktəblərin bakalavr pilləsi üçün dərslik professor S.İ.Seyidov və M.Ə.Həmzəyevin elmi redaktorluğu ilə. Bakı, Nurlan,2007, s. 700

РЕЗЮМЕ
ВОПРОСЫ ЛИЧНОСТИ УЧИТЕЛЯ И ЕЕ НАПРАВЛЕНИЯ В СОВРЕМЕННОЕ ВРЕМЯ
Мехтиева К.Н.
Азербайджанский Государственный Педагогический Университет

Учитель давно известен как человек, который обучает подрастающее поколение социальному опыту и приучает его к практике. На протяжении всей истории его роль в развитии общества была значительной и незаменимой. В новое время концепция обучения обогатилась новыми качествами. В современном обществе учитель – это зрелая личность, обладающая высокими теоретическими знаниями, культурой и просвещением, педагогической этикой и правлением. Учитель настолько авторитетен, настолько мудр, настолько совершенен, что каждый из нас доверяет ему воспитание своих детей. Учитель своими научными знаниями и научными достижениями передает новому поколению лучший жизненный опыт предыдущего поколения. Педагог формирует личность молодых специалистов, создает условия для формирования и развития их мировоззрения.
Ключевые слова: *современный период, ученик, преподавать ,учитель, личность, ученик, актуальность, психология.*

SUMMARY
ISSUES OF TEACHER PERSONALITY AND ITS DIRECTION IN MODERN TIMES
Mehtiyeva K.N.
Azerbaijan State Pedagogical University

The teacher has long been known as a person who taught the younger generation the social experience and taught it to practice. Throughout history, its role in the development of society has been significant and irreplaceable. In modern times, the concept of teaching has been enriched by new qualities. In modern society, a teacher is a mature person with high theoretical knowledge, culture and enlightenment, pedagogical ethics and board. The teacher is so authoritative, so wise, so perfect that each of us entrusts the upbringing of our children to them. The teacher passes on the best life experience of the previous generation to the new generation with his scientific knowledge and scientific achievements. The teacher forms the personality of young professionals, creates conditions for the formation and development of their worldview.
Keywords: *modern period, student, teach, teacher, personality, student, profession, psychology.*

PSYCHOLOGICAL REQUIREMENTS IN A TEACHER'S PERSONALITY DEVELOPMENT

Karimova Dilara Abuzar
Sumgait State University, Sumgait, Azerbaycan
dilara_14@mail.ru

Keywords: *teacher, pupil, teacher's personality, pedagogical activity, moral qualities, society,, training and education.*

"The best teacher are the ones that change their minds".
Terry Heick.

The connection between teacher and learner can be considered the first cultural integration. Along with the family, the teacher has an undeniable role in his personal intellect and behavior, so that each individual can form over time and take his place in society. .For this reason, a teacher with his intellect and personal qualities becomes one of the important figures in the choice of career for everyone in the future. Being a real teacher requires high intellectual ability and great skill. .The pedagogical activity of a teacher is

not only difficult, but also honorable and benevolent. This activity has its own responsibilities. First of all, in the process of this activity, students acquire the basics of science by acquiring relevant knowledge, skills and habits. .Pedagogical activity is not limited to instilling knowledge, skills and habits in students, but also instills in them worldview, beliefs and convictions [1, p.64].In this process, students acquire the necessary forms of behavior. They develop activity and greed for knowledge. A true teacher must also be distinguished by his public reputation. The teacher's personality plays a key role in the teacher's professional activity and is also an important driving force. .It is important in the formation of a teacher's personality with high qualities in the successful outcome of pedagogical activity. These qualities gradually become the hallmarks of students' personalities in the process of activity. .Every teacher must have a high level of awareness, moral qualities, true faith, general culture and so on. Together with pedagogical abilities, these qualities allow a teacher to succeed in his activity.If the teacher's personality is not formed to the required level, he / she will not be able to fulfill the requirements and responsibilities set by the society. The teacher plays the role of an architect in the formation of a young personality. Society entrusts its most valuable existence to the teacher. .The teacher, on the other hand, cultivates this "precious being" as a result of his pedagogical activity, handing it over to society as a perfect person. For this reason, the teacher who shapes the future personality of humanity, who cultivates a young personality, must also have a perfect personality. .The teacher's own personality also has a positive effect on the formation of the student's personality.The psychological knowledge of the teacher creates the basis for inculcating a number of qualities of a psychologist.At the same time, the teacher must be deeply aware of the individual characteristics of the children. .it is generally impossible to imagine a teacher without psychological knowledge. As a teacher deepens his pedagogical and psychological level, the ways to his success become clear [2, p.76-77].

As for the mental states and processes manifested in the structure of the teacher's personality, they are episodic, structural, and play a reserve role in the formation of a kind of personality. .Finally, experience, knowledge, skills, habits and habits have a special place in the structure of a teacher's personality and play an important role in the effectiveness of his activities. .By the way, it should be noted that it is the direction of the teacher's personality that tends to change the least among the structural components. This aspect is relatively difficult to change and educate. The correct formation of the direction of the teacher's personality is crucial. .The psychological state of the teacher also significantly affects his pedagogical activity.Although his pedagogical potential is wide, his activity as a teacher is ineffective if his psychological condition and moral qualities do not allow it. The success of a teacher's pedagogical activity depends on how well he or she performs the functions assigned to him or her. .The analysis of the teacher's activity in the field of teaching shows that this activity consists of a number of closely related functions. The implementation of these functions provides training and education of students, the formation of their personality. .Psychological literature mentions the following pedagogical functions that are characteristic of the activity of each subject teacher at school: developmental, educative, communicative, gnostic, constructive, organizational. [3, p.94] Of course, these functions can be increased.Each function is important. The personality of the teacher has a profound effect on the development of the child's mind, feelings and will, and on his life. .The teacher's personality sometimes has a positive effect on the personality of those students, not only during the period of teaching, but also in the post-school period. So, sometimes boys and girls in the last grades of high school choose their favorite teachers as their ideal. .As in any field, they try to imitate their teachers in the qualities of their personality, and strive for it in all their work and activities. The personality of their favorite teachers becomes a beacon that illuminates their lives. .therefore, such positive qualities should be formed in the teacher's personality that they should be an object of real example for students.

References

1.Seyidov, S.I Psixologiya / Bakı: - 2007, - 650 s.
2. İlyasov, M.I. .Müəllim peşəkarlığı və pedoqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya / - Bakı:"Elm və təhsil", - 2018, - 208 s.
3. Əmrahlı, L.S. Psixoloji xidmətin əsasları / - Bakı: c.I – 2006, -201 s.

XÜLASƏ
MÜƏLLİM ŞƏXSİYYƏTİNİN İNKİŞAFINDA PSİXOLOJİ TƏLƏBLƏR
Kərimova D.A.
Sumqayıt Dövlət Universiteti

Müasir müəllimin qarşısında çox mühüm vəzifələr durur ki,onları yerinə yetirmək üçün təkcə pedaqoji biliklər deyil, həmçinin psixoloji biliklər də lazımdır.Psixoloji biliklərlə müəllim şagirdlərin qəlbinə daha da yaxın olur.Müəllimin psixoloji bilikləri onun peşə səriştəliliyini daha məzmunlu edir. Bu baxımdan müəllim, ilk növbədə, şagirdlərin yaş xüsusiyyətlərini, fərdi xüsusiyyətlərini dərindən bilməlidir.Psixoloji biliklər müəllimin pedaqoji fəaliyyətində psixoloqa məxsus bir sıra keyfiyyətlərin aşılanmasına zəmin yaradır. Sonda belə nəticəyə gəlinir ki,müəllim dərin müşahidə qabiliyyətinə malik olmalı,şagirdlərin bütün mənfi və müsbət cəhətlərini görməlidir.
Açar sözlər: *müəllim, şagird, müəllim şəxsiyyəti, pedaqoji fəaliyyət, əxlaqı keyfiyyətlər, cəmiyyət, təlim və tərbiyə.*

РЕЗЮМЕ
ПСИХОЛОГИЧЕСКИЕ ТРЕБОВАНИЯ В РАЗВИТИИ ЛИЧНОСТИ УЧИТЕЛЯ
Керимова Д.А.
Сумгаитский государственный университет

Перед современным учителем стоят очень важные задачи, требующие не только педагогических, но и психологических знаний. Обладая психологическими знаниями, учитель становится ближе к сердцу ученика. Психологические знания педагога делают его профессиональную компетентность более значимой. .С этой точки зрения, прежде всего, учитель должен иметь глубокие знания о возрастных особенностях и индивидуальных особенностях учащихся. .В итоге делается вывод о том, что учитель должен иметь умение глубоко наблюдать, видеть все плюсы и минусы учеников.
Ключевые слова: учитель, ученик, личность учителя, педагогическая деятельность, нравственные качества, общество, обучение и воспитание.

PANİK ATAK VƏ ONUN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Rzayeva Nərmin Tahir qızı
ADPU, Təhsildə sosial-psixaloji xidmət ixtisasının magistrantı, Bakı, Azərbaycan
nara.1912@mail.ru

Açar sözlər: *panika, atak, panik atak, panika halı, psixoloji problem, həyəcan, qorxu*

Həyəcan, qorxu, stress, gərginlik kimi anlayışlar bəşər övladı yarandığı gündən bəri mövcuddur. Həmin qorxular insanın həyatında müəyyən əngəllər törədir. Gündəlik məişət həyatının olduqca sürətli, operativ şəkildə yaşandığı, texnologiyanın tərəqqisinin yüksək həddə gəlib çatdığı XXI əsrdə isə bu anlayışlar daha da aktuallaşmaqdadır. Gün ərzində qarşılaşdığımız hər bir hadisə, şəxs bizdə müəyyən mənfi və müsbət çalarlı hisslər doğurur. Həmin duyğular da öz növbəsində psixikamızda müəyyən məsələlərlə bağlı yaxşı və pis qənaətə gəlib çıxmağımıza səbəb olur. Modern insanın ən böyük problemlərindən biri daxilində yığılıb qalan narahatlıq, gərginlik nəticəsində məruz qaldığı "panik atak"dır. Hər bir insan ortalama olaraq ömrünün 2,2 ilini panik pozuntulara sərf edir. Davamlı sürətlə baş verən panik ataklar panik pozuntulara gətirib çıxarır.

Panik atak – həyəcan, qorxu (ölüm qorxusu kimi), sıxıntı hislərini içində axtaran, qıcolmalar şəklində ortaya çıxan bir narahatlıqdır. Psixoloji problemlərlə, ya da bəzi xəstəliklərlə birlikdə insanda özünü göstərə bilir. Xəstə ani bir atakda tamamilə qorxu içində olur. Öləcəyini, ürəyində bir problem olduğunu, infarkt keçirəcəyini düşünür. Atak 10 dəqiqə içində ən şiddətli halını alır. Xəstə panika içində həkim müayinəsinə gəlir. Panik atak zamanı insan müxtəlif hisslər keçirir. Bu halla üzləşən xəstələrin təsvirləri müxtəlif olur. Get-gedə balacalaşaraq yığılırmış kimi, özünü terror hücumuna məruz qalmış və ya nəhəng yaratıqlar arxasında qaçırmış kimi hiss edənlər, divarların yaxınlaşdığını, hər yerin bulanıqlaşdığını deyənlər

olur. Bəzi xəstələr həmin anda içərisində olduqları məkanı yanğın baş verən binaya, qəribə bir tunelə və ya surət qatarına bənzədirlər. Bayılacağını, çox pis şeylər baş verəcəyini və hətta öləcəyini düşünənlər də olur. Yarım saat içində atak keçməyə başlayır. Xəstə özünü çox yorğun və üzgün hiss edir. Heç bir şey etmək istəmir, dözümü qalmır, tək qalmaq istəmir. Yanında birinin olmasını istəyir.

Panik atakın 13 əsas əlaməti var. Bunlardan ən az 4 əlamətin insanda olması panik atakın olma ehtimalını artırır.

1) Ürək döyüntülərinin çox olması;
2) Tərləmə (istilik basma ve üşümə);
3) Titrəmə;
4) Nəfəs almaqda çətinlik çəkmək, boğulma qorxusu və tıxanma hissi;
5) Başgicələnmə, bayılacağını düşünmək;
6) Ürəkbulanma, gəyirmə, qarın ağrısı hissi;
7) Nəfəsi kəsilmək hissi, aldığı havanın yetmədiyini düşünərək dərindən nəfəs almaq;
8) Döş qəfəsində ağrı və sıxılma hissiyatı;
9) Özünü hiss etməmək, özünə yadlaşmaq və özünü təhlükədə hiss etmə (depersona- lizasyon);
10) Ətrafının həqiqi, gerçək olmadığını düşünmək (derealizasyon);
11) Ölməkdən qorxmaq;
12) Dəli olacağını düşünmək, başqalarına zərər vermək qorxusu;
13) Bədənində keyləşmə, iynə batma hissiyatı.

Çox vaxt panik-atak səbəbsiz bir şəkildə ortaya çıxır. Beyindəki maddələr mübadiləsinin pozulmasından və ya beynin yan qisminin funksional pozulmasından meydana gəldiyi də ehtimal olunur. Tək başına, ya da müxtəlif xəstəliklərlə birlikdə ortaya çıxa bilir. Stresli bir həyat sürmək panik atakın əmələ gəlməsinə təkan verir. Bu hal hətta yuxuda belə baş verə bilər. Güclü bir travma və ya stress də panik ataka gətirib çıxara bilər. Məsələn, işindən ayrılan, bir yaxınını itirən ya da xəyanətə uğrayan insanlar üçün panik ataklar çox zaman qaçılmaz olur.

Travma yaşamış insanda hadisədən sonra yenidən həmin təcrübəni yaşamaq qorxusu baş qaldırır. Ona görə də bu cür şəxs həmin hadisənin baş verdiyi (və ya oxşar) məkandan və əlaqəli insanlardan qaçmağa çalışır. Bunlardan başqa bu vəziyyətlərdə də panik atak əmələ gələ bilər: Epilepsiya xəstəliyi, ağciyər-ürək xəstəlikləri, vitamin əksikliyi, kofeinlə zəngin qidalanma, qalxanabənzər vəzi xəstəlikləri, qan şəkərinin düşməsi, qanazlığı, beyində yaranan şiş xəstəlikləri, dərmanların yan təsiri, qapalı yerlərdə çox olmaq, çox tünlük, sıxlıq olan yerlərdə olmaq, depresiya ve sinir pozulmaları, narkotik və uyuşduruculardan istifadə etmək, asılılıq yaradan dərmanların qəfildən kəsilməsi və s. hallar.

Panik atak halının simptomlarının çoxu ürək tutmasında olduğu kimi fizikidir. Bəzən bu simptomlar o qədər açıq-aydın və şiddətli olur ki, şəxs ürək tutmasına məruz qaldığını zənn edə bilər. Statistikaya görə, hər il çoxlu sayda insan panik atakla ürək tutmasını səhv salır və ciddi bir ürək problemi olduğunu düşünərək həkim müayinəsindən keçir. Əlbəttə, il ərzində profilaktik tədbir kimi müayinədən keçmək yaxşı, hətta zəruridir. Lakin panik atak zamanı fizioloji əlamətlər psixoloji əlamətlərdən sonra gəlir. Bu zaman əsas səbəb kimi panik yaratmış hadisə götürülür.

Yer üzündə 3 faizi bu xəstəlikdən əziyyət çəkir. Hər yaşda buna rast gəlmək mümkündür.16-20 yaş arasında olan insanlarda daha çox rast gəlinir. Qadınlarda isə kişilərlə müqayisədə daha çoxdur. Genetik və irsi ötürülmə riski də çoxdur. Uzun müddət təsir altında yaşayanlarda, acınacaqlı həyat tərzi yaşayan insanlarda, problemlərini heç kimlə paylaşmayan insanlarda və problemlərini içində qapalı yaşayan insanlarda daha sıx rast gəlinir.

Panik atak müalicə olunan bir xəstəlikdir. Xəstəyə ilk öncə özünü necə kontrol etməyini öyrətmək lazımdır. Bunu bacaran xəstə artıq panik atakı həyatından tamamilə çıxarda bilər. Atak zamanı xəstə oturmalı və ya uzanmalıdır. Öz-özünüzə bunun sadəcə bir atak olduğunu, qorxulu bir hal olmadığını söyləməli və onun keçməsini gözləməlidir. Atak müddətində üzücü, həyəcanlan- dırıcı mübahisələrdən uzaqlaşmalıdır. Kofeinli içkilərdən, alkoqollu içkilərdən və siqaretdən istifadə etməməlidir. Özünü kontrol etməyə çalışmalıdır. Bu zaman şəxs sürətli nəfəs alıb verir və beyinə gedən oksigenin miqdarı artır. Ona görə də ilk olaraq nəfəs alıb vermə prosesi tənzimlənməlidir. Bu zaman bir torba götürün. Əvvəlcə torbanın içərisinə üfürüb doldurun, sonra isə həmin havanı geri udaraq nəfəsinizi nizama salın.

Torbanın içərisinə nəfəs almağın məqsədi odur ki, beyinə gedən oksigen miqdarı azalsın və panik atakın şiddəti aradan qaldırılsın. Panik atak zamanı zehninizi işə salın. Ətrafınızda olan əşyaları başqa nəsnələrə bənzətməyə, müqayisə etməyə çalışın. Sizi əhatələyən adi əşyaların quruluşu haqqında düşünməyə vaxt sərf edin. Burada məqsəd sizi qorxudan, stressə salan hadisəni zehninizdən uzaqlaşdırmaqdır. Vəziyyəti

özünüzə izah edin. Panik atak halı ilə üzləşdiyinizi özünüzə etiraf edin. Bu vəziyyətin tezliklə keçib gedəcəyini, heç bir zərər verə bilməyəcəyini zehninizdə dayanmadan təkrarlayın. Təsəvvür edin ki, darısqal bir yol ilə irəliləyirsiniz. Siz qorxduqca yol daha da daralır. Qorxularınızdan qaçmadan birbaşa onların üzərinə gedin. Görəcəksiniz ki, siz qorxularını cilovladıqca, yol genişlənir və rahatlaşır. Bir müddətdən sonra o yolla getməkdən zövq almağa başlayacaqsınız. Əgər bütün bunları tətbiq etmisinizsə və panik atak hələ də aradan qalxmayıbsa, deməli vəziyyət düşündüyünüzdən daha ciddidir. Bu zaman mütləq mütəxəssisə müraciət etməlisiniz. Qorxu, narahatlıq, gərginlik bütün insanlara xas olan duyğunlardır. Düşdüyünüz vəziyyət nə qədər çətin olursa olsun, bu adi, insani hissləri gözünüzdə böyütməyin. Unutmayın ki heç nə dünyanın sonu deyildir! Xəstə mütəxəsisə müraciət etməli və həkiminə güvənməlidir. Xəstənin kiməsə olan inamı xəstəliyin tez və keyfiyyətli sağalmasını sürətləndirir. Müalicə zamanı nəfəs və rahatlama hərəkətləri, atakın üstünə gətmə texnikaları, əzələ gərginliyini yox etmək üçün edilən hərəkətlər xəstəyə öyrədilməlidir.

Müalicə formalarına aiddir: psixoterapiya, dərman qəbulu, yüksək motivasiya, relaksasiya texnikləri, nəfəs hərəkətləri, idman və gimnastika, biofeedback, imagination, atakın üstünə getmə texnikaları, qrup terapiyası, refleksoloji terapiya.

Ədəbiyyat

1. İsmayılov N.V. “ Psixiatriya”, Bakı, 2013
2. İsmayılov N.V., İsmayılov F.N. “ Tibbi psixologiya və psixoterapiya”, 2002
3. Gəraybəyli G.Ç., Musabəyov Z.F., Eldarova N.N., Musabəyova G.N. “Psixiatriya” (dərs vəsaiti), 2019.
4. Kaplan H.İ., Sadock B.J. “ Clinical Psychiatry”
5. Жариков Н.М., Тюльпин Ю.Г. «Психиатрия», 2009
6. Иванец Н.Н., Тюльпин Ю.Г., Кинулькина М.А. «Психиатрия и медицинская психология», 2014.
7. Султанов А.А. «Психиотрия», Баку, 2003.

РЕЗЮМЕ

ПАНИЧЕСКАЯ АТАКА И ЕЕ ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ

Рзаева Н.Т.

Азербайджанский государственный педагогический университет

В диссертации обсуждаются панические атаки, их симптомы, проявления в разных возрастных группах, что следует делать больному во время панических атак и как их предотвратить. Автор отмечает, что этим заболеванием страдают 3% людей. Она может проявляться в любом возрасте. Однако чаще встречается у женщин. Чаще встречается у людей, которые давно болеют, ведут бедный образ жизни, ни с кем не делятся своими проблемами, интроверты. В диссертации также рассматривается, что следует делать больному во время панической атаки, а также его лечение.

Ключевые слова: *паника, панические атаки, паническое состояние, психологические проблемы, возбуждение, страх.*

SUMMARY

PANIC ATTACK AND ITS PSYCHOLOGICAL FEATURES

Rzaeva N.T.

Azerbaijan State Pedagogical University

The thesis discusses panic attacks, their symptoms, their manifestations in different age groups, what the patient should do during panic attacks and how to prevent them. The author notes that 3% of people suffer from this disease. It can manifest itself at any age. However, it is more common in women. It is more common in people who have been affected for a long time, have a miserable lifestyle, do not share their problems with anyone, and are introverted. The thesis also discusses what the patient should do during a panic attack, as well as his treatment.

Keywords: *panic, panic attacks, panic state, psychological problems, excitation, fear.*

MÜASİR DÖVRDƏ MÜƏLLİM ŞƏXSİYYƏTİNƏ VERİLƏN PSİXOLOJİ TƏLƏBLƏR

Əfəndiyeva Ülviyyə Akif qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
ulviyya16@yandex.com

Açar sözlər: *müəllim şəxsiyyəti, psixoloji tələblər, peşəkar, pedqoji keyfiyyətlər.*

Təhsildə gedən intensiv dəyişikliklər, təlimin prosessual tərəfinin inkişafı müasir dövrdə müəllim şəxsiyyətinə yeni tələblər vermiş, onun cəmiyyətdəki rolunun dəyişməsinin zəruriliyini ön plana çəkmişdir. Bu gün təlim psixologiyası sahəsində şagird şəxsiyyətinin formalaşması və inkişafında, pedaqoji ünsiyyətin təşkilində fəal iştirak edən, eyni zamanda məktəb həyatına innovasiya texnologiyalarını daxil edə bilmək üçün xüsusi bilik və bacarıqlara malik olan yeni tipli müəllimlərin hazırlanması məsələləri daha da aktuallaşır. Yalnız daima öz üzərində çalışan müəllim uşaq şəxsiyyətinə, onun inkişafına və formalaşmasına bilavasitə təsir göstərə bilər.

R.İ. Əliyevə görə, «Təhsildə aparılan yeniləşmələr müəllimlərin də fəallaşmasına, özünütəsdiqinə, peşəkarlığın artmasına xidmət etməlidir. Yəni, yeni sistem nə qədər mütərəqqi, elmi olsa da, onu yerinə yetirən müəllimdir. Deməli təhsil sistemində şagirdlə yanaşı müəllim şəxsiyyətini, peşəkarlığını da yaddan çıxarmaq olmaz. Təbii ki, ənənəvi metodlarla işləmiş, müəyyən təcrübə və uğur qazanmış müəllimin yeni metodla işləməsi, yeni texnologiyaları tətbiq edə bilməsi o qədər asanlıqla başa gəlmir. Psixoloji ətalət qanununa uyğun olaraq belə keçiddə tələskənlik həm psixoloji travma yaradır, həm də sonda uğursuzluğa düçar olur. Yəni təlimin məzmunu və metodlarının dəyişməsi yox, şəxsiyyətin ustanovkası, şəxsi inkişafı müəyyən çətinliklər yaradır" [2, s. 71].

Ənənəvi təhsildə müəllimin roluna təhsil alanlardan daha çox şişirdilmiş məna verirdilər. Aydındır ki, indi belə yanaşma qəbul edilmir. Təhsil bilik, informasiya mənbəyi yox, koqnitiv inkişaf, təlim vasitəsilə şəxsiyyətin özünü inkişaf etdirmək mənbəyi olmalıdır. Humanist psixologiyanın nümayəndəsi olan K.Rocersin nöqteyi-nəzərincə, "Müəllimin əsas məqsədi təlim prosesini asanlaşdırmaq və stimullaş-dırmaqdan, sinifdə intellektual və emosional şərait yaratmaqdan ibarət olmalıdır. Təhsilin mərkəzində şagird şəxsiyyətinin inkişafı dayandıqda daha çox uğur qazanmaq mümkündür. Belə olduqda şagirdlərin təlimə, məktəbə münasibəti dəyişir, biliyə maraqları çoxalır, müəllimlərin də yaradıcılığı yüksəlir, emosional gərginlikləri azalır" [3, s.263].

Müasir sivilizasiyalı cəmiyyətdə müəllim xüsusi diqqət tələb edən bir şəxsiyyətdir. Əgər müəllimin yerini lazımi qədər peşəkar olmayan, hazırlıqsız insanlar tutarsa, birinci növbədə burada gənc nəsil, uşaqlar əziyyət çəkir və bu itkilərin yerini də sonralar doldurmaq mümkün olmur. Bütün bunlar müasir dövrdə cəmiyyətin qarşısında bir çox tələblər qoymuşdur. Bu tələblərə görə müəllim və tərbiyəçilər sırasına yalnız elə adamlar qoşulmalıdır ki, onlar uşaqlarla işləməyə intellektual və mənəvi cəhətdən hazır olsunlar. Lakin bu gün cəmiyyətimizdə bir çox sahələrdə irəliləyiş, inkişaf özünü göstərsə də, bu sahədə müəyyən problemlər yaranmışdır. Bəzən məktəblərdə müəllimlik sənətinə təsadüfən gələn, intellektual və mənəvi səviyyəsi aşağı olan müəllimlərə də rast gəlmək mümkündür. Əlbəttə bu, yetişməkdə olan gənc nəslin gələcək inkişafına, onların şəxsiyyətinin formalaşmasına mənfi təsir göstərən amillərdən biridir.

Müəllimin cəmiyyətdəki mövqeyi cəmiyyətin gənc nəslin tərbiyəsi işinə, tərbiyə sisteminin və onun özəyini təşkil edən ümumtəhsil məktəblərinin inkişafı və təkmilləşdirilməsinə verdiyi böyük əhəmiyyətlə müəyyənləşir.

Müəllimin şəxsiyyəti onun peşə fəallığının mənbəyi və hərəkətverici qüvvəsidir. Pedaqoqun şəxsiyyəti onun psixi keyfiyyətlərinin elə birliyidir ki, (qiymət meyarları, motivasiya, qabiliyyətlər və s.) onlar pedaqoji fəaliyyətin və pedaqoji ünsiyyətin məqsədi, vəzifəsi, vasitə və üsullarının seçilməsinə əsaslı təsir göstərir.

Ona görə də müəllim əməyində onun şəxsiyyəti aparıcı yerlərdən birini tutur. Müəllimin şəxsiyyəti düzgün formalaşmasa, cəmiyyətin onun qarşısında qoyduğu sosial sifarişi lazımi səviyyədə həyata keçə bilməz.

Müəllim şəxsiyyəti peşəkar pedaqoji keyfiyyətlərin iyerarxiyasından ibarətdir. Müəllimin pedaqoji əməyinin istənilən psixoloji keyfiyyəti peşəkar cəhətdən vacib sayılır. Müəllimin şəxsiyyətində mühüm əhəmiyyət kəsb edən bir qrup vacib peşə keyfiyyətləri vardır ki, bunlar şəxsiyyətin istiqamətliyinə, insan davranışının motivasiyasına (qiymət meyarları, idealları, motivləri, fikrin məqsədi və s.) təsir göstərir və peşə

mentalitetini müəyyən edir: pedaqoq nəyə görə çalışır, onun əməyinin mənasını nə təşkil edir, müəllim əməyinin missiyasını nədə görür? [1, s.9]

Müəllim şəxsiyyətinin istiqamətliliyinin növləri (sosial-vətəndaş, idraki, peşəkar-pedaqoji) onun davranışını müəyyən edir. Pedaqoji istiqamətlilik – müəllimin özünün peşə motivasiyasında, müəllim olmaq və həmişə yaxşı müəllim olmağa can atmaqda özünü göstərir. Peşəkar inkişafın müəyyən bir dövründə pedaqoji ustalıq və yaradıcılıq motivasiyası xüsusi əhəmiyyət kəsb edir. Bu da müəllimin pedaqoji əməyin daha yüksək səviyyəsinə keçməsini göstərir. Pedaqoji istiqamətlilikdə əsas cəhət pedaqoqun yalnız uşaqlara məhəbbəti deyil, eyni zamanda təhsil alanların şəxsiyyətinin inkişafına yönəlməsidir. Sabit pedaqoji istiqamətliliyin, motivasiyanın olması şəxsiyyətin bütün başqa keyfiyyətlərini müəyyən edir.

Şəxsiyyətin iradi və emosional sferasını təşkil edən keyfiyyətlər müəllimin pedaqoji əməyinə əsaslı təsir göstərir. Bunlar aşağıdakılardır:

1. Pedaqoji məqsədəyönlük – pedaqoqun öz əməyinin taktiki və operativ məqsədlərini nəzərə alması;
2. Pedaqoji empatiya – pedaqoqun pedaqoji prosesin digər iştirakçılarının dərdinə şərik olması, qayğısına qalması;
3. Pedaqoji mərifət – pedaqoji vəzifələrin, şəraitin təhsil alanların xüsusiyyətlərilə müəyyən qədər uyğunlaşdırılması;
4. Emosional dözümlülük – özünü ələ almaq, davranışda və peşə fəaliyyətində müsbət emosiyaların üstünlüyü.
5. Başqa insanların imkanlarına inam və pedaqoji optimizm – bütün şagirdlərə optimistcəsinə, ümid və inamla yanaşmaq.

Pedaqoji fəaliyyətin müvəffəqiyyətində yüksək keyfiyyətlərə malik olan müəllim şəxsiyyətinin formalaşması mühüm əhəmiyyətə malikdir. Həmin keyfiyyətlər fəaliyyət prosesində tədricən şagirdin şəxsiyyətinin əlamətlərinə çevrilir. Qabaqcıl müəllimlərin iş təcrübəsini nəzərdən keçirdikdə onlarda yüksək intellekt, mənəviyyatın yüksək səviyyəsi, ümumi mədəniyyət və s. kimi keyfiyyətləri müşahidə etmək olar. Pedaqoji qabiliyyətlərlə birlikdə bu keyfiyyətlər müəllimin öz fəaliyyətində müvəffəqiyyət qazanmasına imkan verir.

Müəllim şəxsiyyətinə bir neçə ciddi tələblər verilir. Onların içərisində əsas və ikinci dərəcəli tələbləri ayırmaq olar. Əsas tələblərin ödənilməsi yüksək səviyyəli müəllim olmağa zəmin yaradır. İkinci dərəcəli tələblər isə müəllimə uşaq şəxsiyyətinin təlim və tərbiyəsini daha yaxşı formada həyata keçirməyə imkan verir.

Peşəkar müəllimə lazım olan əsas və əlavə psixoloji keyfiyyətlər içərisində bütün dövrlərdə müəllim və tərbiyəçilərə məxsus olan sabit keyfiyyətlər və mövcud cəmiyyətin sosial-iqtisadi inkişaf səviyyəsinə əsaslanan dəyişkən keyfiyyətlər daxildir.

Müəllimə verilən əsas və daimi tələblərə uşaqlara və pedaqoji fəaliyyətə olan məhəbbət, öz sahəsinə aid xüsusi biliklərin olması, geniş erudisiya, pedaqoji intuisiya, yüksək intellekt, ümumi mədəniyyətin və mənəviyyatın yüksək dərəcəsi, təlim və tərbiyənin müxtəlif metodlarına peşəkar yiyələnməsi aiddir. Göstərilən bu amillərsiz uğurlu pedaqoji fəaliyyəti həyata keçirmək mümkün deyildir. Bütün bu keyfiyyətlər anadangəlmə deyil, müəllimin öz üzərində sistematik, gərgin əməyinin nəticəsində yaranır. Ə.Ə.Əlizadə belə hesab edir: "Müasir dövrdə şagirdlər müəllim erudisiyasını yüksək qiymətləndirirlər. Bilikli müəllimi sayırlar. Ancaq onlar səmimi, xeyirxah, qılıqlı, həssas, qəlbini uşaqlara verən, onlarla söhbət etməyi bacaran, hətta sinifdənkənar vaxtlarda da onlarla həvəslə məşğul olan müəllimləri sevirlər. Şagirdlərin gözündə müəllim portretinin ümumi cizgiləri belədir. Şagirdlər üçün ilk növbədə müəllimin şəxsi keyfiyyətləri, əsl dost və hami olması əhəmiyyətlidir. Şagirdlər müəllimin əvvəlcə «necə olmasına», sonra isə «onun necə dərs deməsinə» fikir verirlər» [3, s. 260].

Müəllimə lazım olan əlavə, amma stabil keyfiyyətlərə ünsiyyətlilik, aktyorluq qabiliyyəti, şən əhval, yaxşı zövqün olması və s. daxildir. Bu keyfiyyətlər yuxarıda göstərdiyimiz əsas keyfiyyətlərə nisbətən müəllim üçün çox da vacib deyildir. Bu keyfiyyətlərsiz də müəllim və tərbiyəçilər keçinə bilərlər. Məsələn, çox da ünsiyyətli olmayan riyaziyyat müəlliminin bilikləri və dərs demək qabiliyyəti o qədər yaxşı inkişaf etmiş olar ki, əksər insanlara lazım olan ünsiyyətlilik keyfiyyəti olmadan da o yenə də yaxşı müəllim olaraq qalacaqdır.

Əsas və ikinci dərəcəli keyfiyyətlərin birliyi müəllimin fərdiyyətini təşkil edir və bunun nəticəsində onlar da hər bir yaxşı müəllimi özünəməxsus, nadir bir şəxsiyyət kimi təcəssüm etdirir.

Müəllimin əsas və ikinci dərəcəli keyfiyyətləri probleminin həlli, cəmiyyətin bu tarixi anında, müasir dövrdə daha mürəkkəbdir. Artıq hər bir sahədə olduğu kimi, məktəb də öz işini yenidən qurur, şagirdləri yeni

keyfiyyətlərlə tərbiyələndirməyə və müasir təlim metodlarını tətbiq etməyə çalışır. Cəmiyyətdə yaranmış yeni şərait təlim və tərbiyənin qarşısına yeni məqsəd və vəzifələr qoymuşdur. Onlar da öz növbəsində həm müəllimlərin, həm də şagirdlərin qarşısına qoyulan tələbləri müəyyənləşdirmişdir. Bu tələbləri dəqiq və vaxtında aşkar etmək üçün aşağıdakı şərtlər vacibdir:

1. Cəmiyyətin siyasi, sosial və iqtisadi inkişaf tendensiyasını düzgün qiymətləndirmək.
2. Cəmiyyətin fasiləsiz inkişafı üçün insanın hansı keyfiyyətlərə malik olmasının vacibliyini müəyyənləşdirmək.
3. Məktəbi qurtaran müasir insanın hansı müsbət keyfiyyətlərin özündə birləşdirməsi, hansı keyfiyyətlərin aradan götürülməsini müəyyənləşdirmək.
4. Cəmiyyətin tələblərinə uyğun şəxsiyyətin formalaşdırılmasını və inkişafını təmin edə bilən müasir pedaqoqun necə olmasını aydınlaşdırmaq.

Deyilənləri təhlil edək: Müasir dövrdə, yeni inkişaf yolunu seçmiş cəmiyyətimizin əsas tendensiyası – həyatın demokratikləşdirilməsi, idarəetmənin desentralizasiyası (mərkəzdən idarə olunmaması), hakimiyyətin yerlərə verilməsindən ibarətdir. İqtisadi dəyişikliklər sosial münasibətlərin bütöv sisteminə də öz təsirini göstərmişdir. Onun əsas hissəsinə bazar iqtisadiyyatına aid olan münasibətlər daxil edilmişdir. Bu münasibətlərdə məsuliyyətli məsələlərdə müstəqil qərarların qəbul edilməsi əsas şərtlərdən biridir. Bununla əlaqədar olaraq, açıq siyasi, sosial, təsərrüfat, mədəni əlaqələrin qurulması imkanları genişlənmiş, bu da öz növbəsində işgüzar və şəxsi ünsiyyətin intensivləşdirilməsinə səbəb olmuşdur. Göstərilən bu tendensiyalar yetişməkdə olan yeni nəsildə müasir dövrün tələblərinə uyğun olan keyfiyyətlərin inkişaf etdirilməsinə olan tələbatları daha da artırmışdır.

Öncə daha da genişlənən və artan demokratizasiya, söz azadlığı, fikirlərin plüralizmi şəraitində yaşamağı bacarmaq, demokratik, qanuni əsasları olan ölkədə insanlarla ünsiyyətdə və qarşılıqlı fəaliyyətdə olmağı bacarmaq lazımdır. Bu bir tərəfdən müxtəlif nöqteyi-nəzərləri etiraf etmək, başa düşmək, qəbul etmək, diskussiyalar keçirmək, yaranmış müxtəlif fikirləri yüksək mədəni səviyyədə həll etmək bacarığını, digər tərəfdən isə şəxsiyyətə qarşı göstərilən istənilən təsirlərdən, əmrlərdən (diktatdan) imtina etməyi tələb edir.

Müasir dövrdə ümumtəhsil məktəblərinin modernləşdirilməsi təhsil alanların yalnız müəyyən bilik, bacarıq və vərdişləri mənimsəməsini deyil, onların şəxsiyyətinin, idrakı və yaradıcılıq qabiliyyətlərinin inkişafını istiqamətləndirməyi əsas götürür. İndiki dövrdə təhsil alan hər bir orta məktəb məzununun sağlam həyat seçiminə, müstəqil əmək fəaliyyətinə, müstəqil qərarlar qəbul etməyə, şəxsi məsuliyyətə hazırlanması tələb olunur. Yeni cəmiyyətin qurucuları düşüncə, təfəkkür, mənəvi dəyərlər, işgüzarlıq keyfiyyətləri baxımından bu tələbləri yerinə yetirə bilən, tamamilə yeni xüsusiyyətlərə malik insanlar olmalıdır. Bu keyfiyyətlərin içərisində işgüzarlıq, təşəbbüskarlıq, tolerantlıq, rəqabətəqabillik, sinergetik (qarşılıqlı faydalanma) kimi keyfiyyətlər əsas yer tutur.

Əgər biz istəyiriksə, cəmiyyətdə başlayan müsbət dəyişikliklər daha da möhkəmlənsin, inkişaf etsin, bu cəmiyyətdə yaşamağı bacaran şəxsiyyətləri formalaşdırmalıyıq, artıq indidən uşaqların təlim-tərbiyə sistemini əsaslı surətdə dəyişməliyik.

Təhsil alanları şəxsiyyət kimi istiqamətləndirmək üçün əvvəl pedaqoq özü müstəqil, savadlı, təşəbbüskar, ünsiyyətli, yaradıcı kimi keyfiyyətlərə malik olmalı və bu keyfiyyətləri sistematik olaraq özündə inkişaf etdirməlidir.

Müasir dövrdə təhsilə məqsədyönlü şəkildə inkişaf edən yeni texnologiyaların daxil edilməsi zəruridir, o zaman insan özünü dəyişdirməyin müxtəlif formalarına hazır olacaqdır. Bu gün pedaqoqların hazırlanması dövrün tələblərinə uyğun olmalı, məzmun və texnoloji cəhətdən, keyfiyyətcə dəyişməlidir.

Müasir dövrdə respublikamızın təhsil sistemində aparılan islahatlar, yeni texnologiyaların, innovasiyaların, yeni pedaqoji yanaşmaların təhsil sisteminə gətirilməsi, qabaqcıl, yenilikçi müəllimlərin təcrübəsindən istifadə olunması göstərir ki, bu istiqamətdə işlər artıq dinamik xarakter daşıyır, təhsilimiz özünün mütərəqqi ənənələrinə, beynəlxalq təcrübəyə əsaslanaraq formalaşır və inkişaf edir.

Ədəbiyyat

1. Əfəndiyeva Ü.A. Müəllim şəxsiyyətinin psixologiyası. Bakı, ADPU, 2014.
2. Əliyev R.İ. Şəxsiyyətin formalaşmasında müəllimin fərdi-psixoloji xüsusiyyətlərinin və peşə fəaliyyətinin rolu // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 2001, № 4.
3. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, Pedaqogika, 2004.
4. Митина М.Л. Учитель на рубеже веков: психологические проблемы.// Психологическая наука и образование,1990.

РЕЗЮМЕ
ПСИХОЛОГИЧЕСКИЕ ТРЕБОВАНИЯ К ЛИЧНОСТИ ПЕДАГОГА В СОВРЕМЕННОСТИ
Эфендиева У.А.
Азербайджанский государственный педагогический университет

На сегодняшний день становится более актуальным подготовки новых типов учителей, активно работающих в сфере педагогической психологии, в формировании и развитие личности школьника, организации педагогического общения, а также умение специальных знаний и умений по интеграции инновационных технологий в школьную жизнь. Непосредственное влияние на личность ребенка, ее развитие и формирование может оказать только педагог, постоянно развивающийся сам. Для того чтобы руководить учащимися как личностью, воспитатель должен прежде всего обладать качествами самостоятельности, грамотности, инициативы, коммуникабельности, творчества и систематически развивать эти качества.
Ключевые слова: *личность педагога, психологические потребности, профессиональные, педагогические качества*

SUMMARY
PSYCHOLOGICAL REQUIREMENTS TO THE TEACHER'S PERSONALITY IN MODERN TIMES
Afandiyeva U.A.
Azerbaijan State Pedagogical University

Today, the issues of training new types of teachers who are actively involved in the field of educational psychology, the formation and development of student personality, the organization of pedagogical communication, as well as special knowledge and skills to integrate innovative technologies into school life are becoming more relevant. Only a teacher who is constantly developing himself can have a direct impact on the child's personality, its development and formation. In order to guide students as individuals, the educator must first have the qualities of independence, literacy, initiative, communication, creativity, and systematically develop these qualities.
Keywords: *teacher's personality, psychological requirements, professional, pedagogical qualities.*

TEXNOLOGİYA FƏNNİNİN TƏDRİSİNDƏ MÜƏLLİMİN PSİXOLOJİ HAZIRLIĞI

Dadaşov İlham Minacət oğlu
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
ilhamdadasov69@bk.ru

Açar sözlər: *psixoloji biliklkər, pedaqoji psixologiya, şagirdyönümlü, analitik təfəkkür, müşahidə qabiliyyəti*

Müasir dövrdə texnologiya fənnini tədris edən müəllimin qarşısında bir çox mühüm vəzifələr durur ki, onları tədris prosesində yerinə yetirmək üçün təkcə pedaqoji biliklər kifayət etmir. Burada müəllimin köməyinə psixopedaqogika və pedaqoji psixologiya çatır. Müəllim həm də kifayət qədər psixoloji biliklərə malik olmalıdır. Psixoloji biliklər müəllimi şagirdlərə, onların qəlbinə daha da yaxınlaşdırır və pedaqoji prosesi rəngarəng, daha maraqlı, daha məzmunlu edir. Elə bu səbəbdən də bir çox klassik pedaqoqlar müəllimin psixoloji biliklərə yiyələnməsinin vacibliyini dəfələrlə vurğulamış və buna çox böyük əhəmiyyət vermişlər. Bu elmi biliklərə istinad etmədən təlimdə uğur qazanmaq mümkün deyildir. Görkəmli rus pedaqoqu K.D.Uşinskinin müəllimin qarşısına qoyduğu tələblər içərisində onun pedaqogika ilə yanaşı, psixologiya elmini də dərindən bilməsinin zəruri olduğunu qeyd etməsi bu cəhətdən əhəmiyyətlidir. [1, s.66].

Bəs psixoloji biliklərə nəyi aid etmək olar? Müəllim hansı psixoloji biliklərə yiyələnməlidir ki, texnologiya fənninin tədrisində onun peşə səriştəliliyinin daha da məzmunlu, zövqlü, olmasını təmin edə bilsin?

Psixoloji biliklər ilk növbədə müəllimin uşaqların yaş xüsusiyyətlərini dərindən bilməsi ilə səciyyələnir. Bu tədris prosesində mühüm amillərdən biridir. Müəllim nəinki dərs dediyi sinfin yaş xüsusiyyətlərini, həmçinin, ayrı-ayrı yaş qrupları üzrə bütün uşaqlara xas olan xüsusiyyətləri yaxşı bilməlidir. Uşaqlarda maraq və meyllərin hansı yaşda necə istiqamətləndiyini, inkişafın senzitiv dövrlərini, fiziki inkişafın necə getdiyini və s. yaxşı bilməlidir ki, dərsi daha yaradıcı, keyfiyyətli və səmərəli təşkil edə bilsin. Hər bir yaş dövrü üçün xarakterik xüsusiyyətləri bilməklə yanaşı, həm də konkret yaş dövründə inkişafın hansı tərəflərinə daha çox diqqət yetirilməli lazım olduğunu yaxşı bilməli və tətbiq etməyi bacarmalıdır. Müəllim eyni zamanda uşaqların müəyyən fərdi xüsusiyyətlərinə dərindən bələd olmalıdır. Onların temperament tiplərini, hər bir temperament tipinin özünəməxsus xüsusiyyətlərini, hansı tip uşağa fərdi olaraq necə yanaşmaq lazım olduğunu, uşaqların diqqəti, emosiyası, hafizəsi, onların xüsusiyyətləri, təfəkkür və təxəyyülün inkişaf səviyyələri, nitqi və s. haqqında elmi biliklərə yiyələnməlidir. Ümumiyyətlə götürüldükdə müəllimi psixoloji biliklərsiz təsəvvür etmək mümkün deyildir. Psixojoji biliklər müəllimdə psixoloqa məxsus bir sıra mühüm keyfiyyətlərin aşılanmasına zəmin yaradır. Bu keyfiyyətlər müəllim səriştəliliyində, onun şagirdlərlə pedaqoji prosesin "subyekt-obyekt" kimi deyil, "subyekt-subyekt" kimi rol ifa etməsində, müəllimin böyük nüfuz qazanmasında, onun özünün və tədris etdiyi texnologiya fənninin uşaqlar tərəfindən sevilməsində əhmiyyəti olduqca böyükdür. [4, s.92].

Hər şeydən əvvəl, müəllim dərin müşahidə qabiliyyətinə malik olmalı, şagirdlərinin bütün müsbət və mənfi cəhətlərini görməli, onların irəliləyişlərini və geriliyini, dərhal duymalı, onları cavabsız qoymamalıdır. Həmçinin müəllimin psixoloyi hazırlığına intellektual, şəxsi keyfiyyətlər və nəhayət, iradi hazırlıq komponentləri mühüm rol oynayır. Bu amillər uşağın müxtəlif texnoloyi biliklərə yiyələnməsinə təsir edən faktorlardan biridir.

İkincisi, müəllim dərin analitik təfəkkürə malik olmalı, baş verən bütün situasiyaları, o cümlədən, şagirdlərin irəliləmə və geriləmə səbəblərini, onlara təsir edən amilləri təhlil edə bilməli və müvafiq nəticələr çıxarmağı bacarmalıdır. Bu da sonrakı inkişaf mərhələsində şagirdin müxtəlif bacarıq və vərdişlərinin inkişafında faydalı ola bilər.

Üçünçüsü, müəllim tədris prosesini yüksək emosional fonda, şagirdləri maraqlandıra biləcək səviyyədə, onlarda gərginlik yaratmadan, lakin qəlblərini həyəcanlandıra biləcək səviyyədə dərsi təşkil etməyi və uşaqlarda yaradıcı qabiliyyətlərini formalaşdırmağı, müxtəlif bacarıq və vərdişləri inkişaf etdirməyi uşaqları öyrətməyə, yeni biliklər kəsb etməyə ruhlandırmalıdır. Ayrı-ayrı uşaqların psixoloji qabiliyyət və xüsusiyyətlərini peşə seçmə və peşə məsləhətinin elmi əsaslarını öyrətməlidir.

Dördüncüsü, müəllim şagirdlərin düşüncəsinə, hisslərinə, fikirlərinə, ideya və istəklərinə hörmətlə yanaşmağı, onları qiymətləndirməyi özündə tərbiyə etməli, humanizmin ən yüksək səviyyəsinə malik olmalıdır. Şagirdlərə qarşı mehriban münasibət, onların ən kiçik müvəffəqiyyətini belə yüksək qiymətləndirmək müəllimin şagirdlərə qarşı diqqətli münasibətini ifadə etməklə yanaşı, həm də müəllimi uşaqların gözündə ucaldır.

Beşincisi, müəllimdə şagirdlərə, pedaqoji prosesə, uşaqlarla işləməyə sevgi, maraq və motivlər olmalı, müəllim pedaqoji prosesi həyata keçirərkən məhz bu proseslə yaşamağı bacarmalıdır. [2, s.84].

Müəllim uşaqların daxili aləminə nüfuz etməyi bacarmalıdır. O, uşaqların hisslərini, düşüncəsini, daxili və xarici emosional gərginliyini, sevinc və kədərini hiss edə bilməli, müsbətləri qiymətləndirməyi, mənfiləri neytrallaşdırmağı bacarmalıdır. Bəzən də özü-özünə düşünməlidir: "Mən özüm bu uşaqlar yaşda olanda necə idim?", "Mən bu uşağın yerində olsam hansı hissləri keçirərdim?", "Müəllim mənə qarşı belə hərəkət və münasibətdə olsa idi ona necə münasibət bəslərdim?" və s. Təbii ki, belə sualları özünə verməyi, özünün uşaqlığına qayıtmağı və ya özünü həmin uşağın yerində təssəvvür etməyi bacaran, yəni empatik qabiliyyətlərə malik olan müəllim öz hərəkət və davranışlarında uşaqlara verdiyi tələbi, çıxardığı qərarı, hərəkət və münasibətlərini şagirdyönümlü, şəxsiyyətyönümlü etməyi də bacaracaqdır. Görkəmli Ukrayna pedaqoqu V.A.Suxomlinski yazırdı: "İnsan mənəviyyatında elə keyfiyyətlər vardır ki, insan bunlarsız həqiqi tərbiyəçi ola bilməz. Həmin keyfiyyətlər içərisində uşağın mənəvi aləminə nüfuz etməyi bacarmaq birinci yerdə durur. Yalnız özünün uşaq olduğunu heç vaxt unutmayan adam həqiqi müəllim ola bilər. Müəllim şagirdin hər şeydən əvvəl idrak, yaradıcılıq, insani qarşılıqlı münasibətlər aləminə qədəm qoyan canlı insan olduğunu unutmamalıdırlar." [5, s.104].

Beləliklə müasir dövrdə texnologiya fənnini tədris edən müəllimin psixoloji bilik səviyyəsi mükəmməl səviyyədə olmalıdır ki, dərsin səmərəli fəaliyyəti daha keyfiyyətli olsun və uşaqlarda yaradıcı qabiliyyət düzgün qaydada müvəffəqiyyətlə inkişaf etsin.

Ədəbiyyat
1. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998. 144 s.
2. Əlizadə Ə., Əlizadə H. Pedaqoji psixologiya. Bakı: Elm və təhsil, 2010, 136 s.
3. İlyasov M.İ. Müəllimin pedaqoji ustalığı. Bakı: Elm və təhsil, 2013. 98 s.
4. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2002. 176 s.
5. Kərimov Y.Ş. Pedaqoji tədqiqat metodları. Bakı: Azərnəşr, 2009. 108 s.
6. Quliyeva K.R. Yuxarı sinif şagirdlərinin müəllimlik peşəsinə istiqamətləndirilməsi. Bakı: Nurlan, 2003. 114 s.

РЕЗЮМЕ
ПСИХОЛОГИЧЕСКАЯ ПОДГОТОВКА ПРЕПОДАВАТЕЛЯ В ОБУЧЕНИИ ТЕХНОЛОГИЧЕСКИМ ДИСЦИПЛИНАМ
Дадашов И.М.
Сумгаитский государственный университет

Значение психологических знаний учителя технологии в современное время. При обучении предмету необходимо знать, к какому типу ребенка следует подходить индивидуально, детское внимание, память, их особенности, уровни развития мышления и воображения, речи и др. Усвоить научные знания о. Педагог также обладает глубоким знанием индивидуальных особенностей детей и умением проникать во внутренний мир детей. Психологические знания создают основу для привития учителю ряда качеств психолога. Любовь и интерес педагога к детям, педагогическому процессу, работе с детьми, умение жить этим процессом при реализации педагогического процесса. Влияние психологических знаний педагога на правильное развитие творческих способностей детей.
Ключевые слова: *психологическое знание, педагогическая психология, студентоориентированность, аналитическое мышление, наблюдательность.*

SUMMARY
PSYCHOLOGICAL TRAINING OF A TEACHER IN TEACHING TECHNOLOGICAL DISCIPLINES
Dadashov I.M.
Sumgayit State University

The importance of psychological knowledge of a teacher of technology in modern times. In teaching the subject, it is necessary to know what type of child should be approached individually, children's attention, memory, their characteristics, levels of development of thinking and imagination, speech, etc. Acquire scientific knowledge about. The teacher also has a deep knowledge of the individual characteristics of children and the ability to penetrate the inner world of children. Psychological knowledge creates a basis for instilling in the teacher a number of qualities of a psychologist. The teacher's love and interest in children, the pedagogical process, working with children, the ability to live with this process while implementing the pedagogical process. The influence of the teacher's psychological knowledge on the proper development of children's creative abilities.
Keywords: *Psychological knowledge, pedagogical psychology, student orientation, analytical thinking, observation.*

İLKİN SÜNİ BİLİNQVİZMİN PSİXOLİNQVİSTİK ƏSASLARI

Bünyatova Aytən Bəxtiyar qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
ayten.bunyatova@yahoo.com

Açar sözlər: *erkən süni bilinqvizm, dilin akustik təbiəti, nitqin emosional təbiəti, ümumbəşəri və milli xüsusiyyətlər*

Bütün dünyada bir çox uşaq kiçik yaşlarından iki dildə böyüyür. İkidilli körpələrin valideynlərini erkən ikidilliliyin xərcləri və faydaları, uşaqlarında dil mənimsəməsinə ən yaxşı şəkildə necə dəstək

veriləcəyi ilə bağlı mühüm suallar maraqlandırır. İkidilli valideynlər bacarıqlı, dinamik ikidilli uşaq yetişdirmək arzusundadırlar. Ancaq ikidilli ailələrdə uşaqların böyüdülməsi ilə bağlı müxtəlif - müsbət və mənfi fikirlət var, hətta bəzi pediatrlar bu gün uşaqları iki dilə məruz qoymamağı tövsiyə edirlər. Erkən ikidilliliyə qarşı münasibət çox vaxt elmi tapıntılara deyil, miflərə və yanlış şərhlərə əsaslanır. Burada inkişaf psixologiyası, koqnitiv psixologiya, təhsil, dilçilik, ünsiyyət elmləri və pozğunluqları daxil olmaqla müxtəlif elmi sahələrdən əldə edilən tədqiqat nəticələrindən istifadə edərək ikidillilik ilə bağlı ən çox verilən sualları həll etməyi hədəfləyirik. Burada valideynlərin və onların uğurlu ikidilli inkişafda məsləhət almaq üçün müraciət etdiyi bir çox insanların – məktəbəqədər müəllimlər, ibtidai sinif müəllimləri, pediatrlar və loqopatoloqlar böyük rolları vardır.

Süni bilinqvizmin formalaşması prosesinin təşkili psixolinqvistik yanaşma tələb edir. Bu, aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunan mövcud vəziyyətlə əlaqədardır:

- xarici dili erkən öyrənməyin artan aktuallığı
- müasir miqrasiya kontekstində bu fenomenin intensiv xarakterinə baxmayaraq, erkən təbii bilinqvizmin formalaşması prosesi haqqında məlumatların kifayət qədər olmaması;
- tanınmış psixolinqvistlərinin əsərlərində təqdim olunan nitq fəaliyyəti nəzəriyyəsində bir sıra nəzəri müddəaların parçalanması.

Nəzərdən keçirilən prosesin psixolinqvistik anlayışının olmaması məktəbəqədər uşaqlara xarici dillərin öyrədilməsində müasir metodların ənənəvi yanaşmalarından istifadə edilməsinə gətirib çıxarır. Ümumiyyətlə, son dövrlərdə uşaqların tədrisə cəlb olunma yaşı azalmağa meyllidir. Psixolinqvistik mövqenin səciyyələndirilməsi terminologiyadan başlamalıdır. Yalnız şərti olaraq "xarici dili erkən tədrisi" ənənəvi metodoloji terminini onun psixolinqvistik məzmununu izah edərək qəbul etmək olar. Nə uşağın öz ana dilini öyrənməsi, nə də təbii və süni bilinqvizmin formalaşması vəziyyətində tədrisdən söhbət getmir. N.İ.Jinkinə görə, "Ünsiyyət üçün zəruri olan nitq bacarığı kimi dilin praktik mənimsənilməsi özünü öyrənmə növünə görə baş verir" [4, s. 106].

Psixolinqvistika insanın bioloji olaraq bir neçə kodun, yəni dil sistemlərinin mənimsənilməsinə və ünsiyyətində istifadəsinə uyğunlaşmasından irəli gəlir. Kodların ikinci sistemi (qeyri-doğma, xarici dil) birinci (doğma dil) kimi eyni qanunauyğunluqlara uyğun fəaliyyət göstərir. Bununla əlaqədar olaraq, uşağın ana dilini mənimsəməsi prosesi, həssas dövr deyilən dövrə qədər uşağın nitqinin inkişafının keçdiyi mərhələlər (dövrlər) haqqında məlumatlar xüsusi əhəmiyyət kəsb edir. Bu müddətdən sonra ümumiyyətlə dilin mənimsənilməsini təmin edən anadangəlmə bacarıqlar öz fəaliyyətini dayandırır ki, bu da ana dili olmayan nitqə aiddir.

Psixolinqvistik münasibət, ilk növbədə, bu prosesin təşkilinə fərqli yanaşmanı zəruri edir. Bu, ənənəvi olaraq yeniyetmə uşaqların və böyüklərin tədrisində baş verir. Uşaq nitq məlumatının mövcudluğunda doğma (birinci) dilin mənimsənilməsinin anadangəlmə bacarıqlarından istifadə edir (son zamanlarda bu fenomenə istinad etmək üçün *input* termini istifadə olunur). “Strategiya müəyyən nəticələrə və məqsədlərə çatmağa xidmət edən informasiyanın əldə edilməsi, saxlanması və istifadəsinin müəyyən üsuldur” [1, 36]. Xarici dillərin öyrədilməsinin ənənəvi üsulları öyrənməyə sərf olunan səylərin aşağı səmərəliliyinə səbəb olan yanlış strategiyaların istifadəsinə söykənir. Bu, xarici dil sistemi haqqında biliklərin toplanmasına gətirib çıxarır və nəzəri məlumat üçün "idarəetmə qolu" olmadıqda, kifayət qədər nitq təcrübəsi olmadıqda, xarici dilin effektiv öyrənilməsinə kömək etmir. Buna görə də bu problemi həll etmək üçün psixolinqvistik yanaşmanın mahiyyətini nəzərə almaq vacibdir.

Psixolinqvistika bu baxımdan ana dilini mənimsəmə prosesində aktivləşdirilən anadangəlmə bacarıqların mövcudluğu ideyasını nəzərdən keçirir. Birinci dilin mənimsənilməsi ilə onlar dərhal itirilmir, “kritik” deyilən dövrə qədər müəyyən dərəcədə saxlanılır. Bunu dil mühitində ikinci dilin asan mənimsənilməsi ilə bağlı çoxsaylı müşahidələr sübut edir. Bu prosesin az sayda tədqiqatı var. Bununla belə, xarici dilin dil mühitindən kənarda erkən öyrənilməsi prosesinin təşkili üçün əsas ola biləcək strategiyaların xüsusiyyətlərini müəyyən etmək mümkündür.

Qeyri-ana dil sisteminin formalaşmasının əsas əlamətlərindən biri də bu prosesin emosional xarakter daşımasıdır. Ana nitqinin emosional və ekspressiv vasitələrinin sistemi uşaqda onun inkişafının ən erkən mərhələsində, "nitq ontogenezinin preverbal dövründə" formalaşır [3, s. 19].

Yetkinlərlə emosional interaktivlik prosesində uşaq bu dövrdə doğma nitqin ritmik-intonasiya sistemini, əsas ifadə vasitələrini və paralinqvistik vahidlər sistemini, o cümlədən mimik, jest və jestlər sistemini öyrənir. Ontogenezin ənənəvi təsvirlərində adətən ciddi diqqət yetirilməyən bu dövr son dərəcə əhəmiyyətlidir: o, uşağın gələcək nitqinin paralinqvistik və prosodik vasitələrinin əsaslarının qurulmasına cavabdehdir. Ana dilinin sözləri və sintaktik konstruksiyaları sonrakı dövrlərdə bu dövrdə yaradılmış

“çərçivə”nin üzərinə qoyulur. Əvvəlcə sözlərin ritmik formaları şəklində formalaşan uşağın lüğət ehtiyatı sürətlə artmağa başlayır.

Ananın (və uşaqla təmasda olan digər böyüklərin) nitqində doğma nitqin ritmik-intonasiya nümunəsinin milli xüsusiyyəti özünü göstərir. Kiçik bir uşaqla ünsiyyət quran bir şəxs, şüursuz şəkildə öz doğma nitqinin xüsusiyyətlərini dərk edir. Uşaq nitqinin öyrənilməsi problemlərinə dair ingilisdilli mətnlərdə bu cür nitq fono-üslubi parametrlərinə görə körpə ilə danışıq adlanırdı. Ana nitqin ifadə vasitələri nitq ontogenezinin çox erkən mərhələsində formalaşdığından və emosional amil uşağın dili mənimsəməsində və sonrakı nitq fəaliyyətində mühüm rol oynadığından başqa dilin ifadə vasitələri sisteminə keçid təbii prosesdir. Bu, eyni zamanda uşağın nitq mühitində uyğun (ifadəli) vasitələr haqqında məlumat almasını tələb edir. Qeyri-doğma dilin vahidlərinin bütün səviyyələrdə mənimsənilməsinin əsasını ana dilinin assimilyasiyasında olduğu kimi səsli nitq vasitələri sistemi təşkil etməlidir. Təəssüf ki, bu postulat hələ də tədris metodlarında adekvat şəkildə öz əksini tapmayıb. Təbii ikidilliliyin inkişafı şəraitində xarici dil nitqini səsləndirmə vasitələrinə etibar intuitiv şəkildə baş verir. Süni ikidillilik vəziyyətində ən vacib problem uşağın nitqinin xarici dildə səslənən nitqin ifadə vasitələrinin parametrlərinə tərcüməsidir.

Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, xarici dilin tədrisi modelini qurarkən emosional amil əsaslardan biri olmalıdır. Praktik aspektdə əsas vəzifə müəyyən bir xarici dilin səsli nitqinin emosional və ifadəli komplekslərinin mənimsənilməsidir.

Xarici dildə səslənən nitqin parametrlərinin mənimsənilməsi prosesi ritmik-intonasiya və tələffüz (artikulyasiya) bacarıqlarının formalaşmasını nəzərdə tutur. Yetkinlərin öyrənmə vəziyyətində yaranan əsas problemlər məhz bunlardır: ana dilinin müdaxiləsi və erkən öyrənmə ilə əlaqədar olaraq onların mənimsənilməsinin yüksək dərəcədə şüursuzluğu səbəbindən yeni səs və intonasiya sisteminin formalaşması prosesinin idarə edilməsində çətinliklər olmuşdur [5, s. 15]. Geniş diapazonda (şərti olaraq 8-9 yaşa qədər) nəzərdən keçirdiyimiz həssas dövrə qədər, bir sıra psixolinqvistik şərtlərə uyğun olaraq, ritmik və melodik parametrlər böyüklərlə emosional qarşılıqlı əlaqədə məqsədyönlü şəkildə mənimsənilməyə məruz qalır. Bu şəraitdə artikulyar bacarıqlar yaranır və təqlidçi olaraq supraseqmental xüsusiyyətlərin törəmələri kimi sabitləşir. Fonoloji sistemin bütövlükdə mənimsənilməsi mənaların fərqləndirilməsi ilə eyni vaxtda differensial xüsusiyyətlərin işlənməsini tələb edir. Əsas vəzifə qeyri-doğma dilin prosodiyasının mənimsənilməsidir, nitqin kommunikativ növlərinin və yuxarıda qeyd edildiyi kimi, ifadəli nitq vasitələrinin dizaynıdır.

Baxılan fənlərarası mövqedən süni ikidilliliyin formalaşması modeli təbii ikidilliliyin formalaşması prosesinə yaxındır. İkinci dilin təbii mənimsənilməsi vəziyyətində olduğu kimi, bu prosesin uğurlu inkişafı üçün lazımi şərtlər, ilk növbədə:

- uşağın böyüklərlə emosional qarşılıqlı əlaqəsi;
- nitq ontogenezində onların formalaşma iyerarxiyasında verilmiş xarici dilin vahidlərini aydın əks etdirən kifayət qədər həcmli nitq materialının əldə edilməsi;
- verilən nitq materialının təqdimat xarakteri.

Bu, səslənən nitqin prosodik və seqmental vahidlərinin, leksik və sintaktik vahidlərin psixolinqvistik münasibətdə, yəni təbii nitq ontogenezindəki əlaqəsini nəzərə alaraq, qısaldılmış şəkildə mənimsənilməsinə aiddir. Bu amil qeyri-doğma dil vahidlərinin dilin təbii assimilyasiyasına uyğun istiqamətdə təmsil olunmasına şərait yaradır. Bu zaman assimilyasiyasının sıxılma prosesi nəzərdən keçirdiyimiz modeli təbii ikidilliliyin formalaşmasından fərqləndirir. Təqdim etdiyimiz təlim modelinin qurulması prinsipləri bunlardır:

1. Süni ikidilliliyin yaradılması üçün optimal yaş. Bu suala cavab vermək üçün doğma nitq bacarıqlarının formalaşma dərəcəsini nəzərə almaq lazımdır. Təcrübə ikidilli mühitdə erkən ikidilliliyin təbii uğurlu inkişafına dəlalət edir. Eyni zamanda, dillərin hər birinin təsirinin intensivliyi və dil balansına münasibətdə uşağın davranışı baxımından kifayət qədər tam və sistemli təsvirlər yoxdur. Şübhəsiz ki, uşağın təbii interaktiv mühitdə iki dili mənimsəmək strategiyası var. Eyni zamanda, böyüklərin hərəkətləri uşağın diqqətini dillərdən birinə cəlb etmək, vahidlərin tərcüməsini daxil etmək cəhdləri və yəqin ki, qrammatik formaların izahı kimi digər məqsədyönlü hərəkətlər uşağın nitq qabiliyyətlərinin uğurlu inkişafına kömək etmir.

2. Təlimin məzmunu. Tədris materialının təbiəti və onun mənimsənilməsi xüsusiyyətləri haqqında düşünsək, təbii oyun və ünsiyyət vəziyyətlərində (yaş nəzərə alınmaqla) ikinci dildən istifadə prosesində baş verən nitq qabiliyyətinin inkişafı haqqında danışmalıyıq.

3. Xarici dilin erkən öyrənilməsində ana dilinin rolu. Məktəbəqədər və erkən məktəb yaşlı uşaqları fərqləndirən yaxşı təqlid qabiliyyətinə baxmayaraq, onların ana nitqinin inkişafında dil mühitinin olması, ana

dilinin uşağın həyatında oynadığı rol belə bir nəticəyə gəlməyə imkan verir ki, ikinci dildə nitq elementlərinin inkişafı ana dilinin əlamətlərinə həyata keçirilməlidir. Bu zaman ana dilindən istifadəni minimuma endirmək üçün ikinci dil vahidlərinin müvafiq təqdimatı dolayı yolla daxil edilməlidir. Xarici dilin təbii mənimsənilməsi tərcümənin olmamasını şərtləndirir.

4. İkinci dildə xarici dil nitq qabiliyyətinin inkişaf modeli. Bu model əvvəllər müzakirə edilən ənənəvi nitq ontogenezinin məlumatları nəzərə alınmaqla qurula bilər.

Xarici dildə nitqin erkən öyrənilməsi modelini müəyyən edən əsas vəzifələr bunlardır:

- xarici dilin tədrisi modelinin qurulmasında mühüm olan emosional xarakter;
- xarici dil nitqinin ifadə vasitələri sistemi haqqında təsəvvürlərin inkişafı;
- xarici dil sözlərinin ritmik formalarda söyləmə bacarıqlarının inkişafı;
- nitqin əsas kommunikativ növləri (nəqletmə, sual, əmr) üçün melodik bacarıqların inkişafı, ifadənin mövzu-tematik melodiyasının tərtibatı;
- ifadələrin əsas kommunikativ növləri üçün sintaktik dizayn bacarıqlarının inkişafı;
- səslənən nitqin universal və milli səciyyəvi xüsusiyyətlərini nəzərə almaq;
- xarici nitqin ritm və melodiyasına yiyələnmək üçün motor-taktil bacarıqların inkişafı [2, s. 7].

Qeyri-nitq hərəkətləri uşaqlar tərəfindən ikinci dildə nitqin mənimsənilməsi prosesinin məcburi tərkib hissəsidir. Erkən təlimin təşkili üçün zəruri alətlər toplusu qafiyələr, sayma qafiyələri, səs yazılarında uşaq şeirləri, cizgi filmləridir. Bunlar xarici dil nitqinin zəruri xüsusiyyətlərini əks etdirmək üçün seçilmişdir. Səsyazmalarda hədəf dildə danışanların uşaq səsləri olmalıdır. Təqdim olunan materialda interaktiv təlimin əsasını və konturunu təşkil edən süjetlər (məsələn, uşaqlar haqqında hekayələr və ya nağıllar) olmalıdır.

Ədəbiyyat

1. Брунер Дж. Онтогенез речевых актов / Дж. Брунер // Психолингвистика: сб. ст. [Переводы]. – М.: Прогресс, 1984. – С. 21–49.
2. Величкова Л.В. Психолингвистические и педагогические основы раннего обучения иностранному языку в условиях искусственного билингвизма /Л.В. Величкова, О.В. Абакумова // Глобальный научный потенциал. – Вып. № 3(12). – СПб., 2012. – С. 5–7.
3. Винарская Е.Н. Выразительные средства текста (на материале русской поэзии)/ Е.Н. Винарская. – М.: Высш. шк., 1989. – 136 с.
4. Жинкин Н.И. Речь как проводник информации / Н.И. Жинкин. – М.: Наука. 1982. – 159 с.
5. Ludmila Veličkova. Phonologische und psycholinguistische Probleme des Ausspracheunterrichts Zeitschrift für Interkulturellen Fremdsprachenunterricht 12: 2, 2007, 17 s.

РЕЗЮМЕ

ПСИХОЛИНГВИСТИЧЕСКИЕ ОСНОВЫ РАННЕГО ИСКУССТВЕННОГО БИЛИНГВИЗМА

Бунятова А.Б.

Сумгаитский Государственный Университет

В статье рассматриваются проблемы создания раннего искусственного двуязычия с точки зрения психолингвистики и теории речевой деятельности. Представлены основные принципы и подходы к организации процесса формирования раннего двуязычия вне естественной языковой среды. Ведущими научными положениями в этом исследовании являются акустическая природа языка и эмоциональная природа речи. Эти положения позволяют разработать подходы к раннему обучению неродному языку, не противоречащие процессу естественного овладения неродным языком. Учитывается, что речь имеет общечеловеческие и национальные особенности.

Ключевые слова: *раннее искусственное двуязычие, акустическая природа языка, эмоциональная природа речи, общечеловеческие и национальные черты.*

SUMMARY

PSYCHOLINGUISTIC FOUNDATIONS OF EARLY ARTIFICIAL BILINGUISM

Bunyatova A.B.

Sumgayit State University

The article deals with the problems of creating early artificial bilingualism from the point of view of psycholinguistics and the theory of speech activity. The main principles and approaches to the organization of the process of early bilingualism formation outside the natural language environment are presented. The leading scientific provisions in this study are the acoustic nature of language and the emotional nature of

speech. These provisions make it possible to develop approaches to early learning of a non-native language that do not contradict the process of natural acquisition of a non-native language. It is taken into account that speech has universal and national characteristics.

Keywords: *early artificial bilingualism, acoustic nature of the language, emotional nature of speech, universal and national features.*

KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN ÜNSİYYƏTİNDƏ EMOSİONAL SFERANIN ROLU

Məmmədova Səriyyə Əkbər qızı
Bakı Dövlət Universiteti, doktorant, Bakı, Azərbaycan
seris.isazade@gmail.com

Açar sözlər: *ünsiyyət, emosional sfera, ünsiyyət çatışmazlığı, deprivasiya, intimlilik, ekspressiv reaksiyalar*

Ünsiyyət iki və daha artıq adamın münasibətlərini aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədilə səylərini əlaqələndirməyə və birləşdirməyə yönəldilmiş qarşılıqlı təsir prosesidir [2,s.442]. Ünsiyyət fərdin deyil, birgə fəaliyyətin nəticəsidir. Ünsiyyət dialektik prosesdir. O, həm də insanlar arasında qarşılıqlı təsir vasitəsi olub onlara xidmət edir. Ünsiyyət prosesində insanlar bir-birini aydın başa düşür, anlayır və psixoloji təsir göstərirlər.

Prof.R.İ.Əliyev uşağın yaşıdları ilə ünsiyyətinə böyük əhəmiyyət verir. O göstərir ki, "yaşıdları ilə ünsiyyət və fəaliyyət uşağa dərin sosial-psixoloji təcrübə toplamaq imkanı verir, nəinki yaşlılarla ünsiyyət. Uşağın uşaqla qarşılıqlı münasibətlərini necə qurmasını özü qurmasını özü təcrübədə qazanmasa, heç bir yaşlı - nə müəllim, nə də valideyn onu uşağa öyrədə bilməz" [3,s.128].

Böyüklərlə ünsiyyətin inkişaf prosesində ekspressiv reaksiyalar böyüklərin davranışına istiqamətlənir. İbtidai mərhələdə böyüklərə inam onunla izah olunur ki, onlar "böyükdürlər" və uşaq onlarla dioloji ünsiyyətə həmişə hazır olmalıdır. Psixoloqların apardıqları müşahidələr təsdir edir ki, uşaqlar özlərini çox vaxt bəyəndikləri adamlarla eyniləşdirir, onların sosial davranışlarını, vərdişlərini, hərəkətlərini, xüsusilə də səs intonasiyalarını, nitqlərini və s. olduğu kimi təqlid edirlər. Psixologiyada "etibarlı ünsiyyət"i fərqləndirirlər. Bu ünsiyyətdə başqaları haqqında informasiyalar insanın öz fikirlərində, hisslərində, o cümlədən şəxsi, intim təəssüratlarında, özünün daxili aləmində təzahür edir. Zənnimizcə, etibarlı ünsiyyət şəxsiyyətin inkişafı üçün mühüm şərt olub onun özünə, xarici aləmə adekvat münasibəti üçün zəruridir. N.N.Abdeyevanın apardığı psixoloji tədqiqatlarda sınanılanların 83 %-i şəxsi məsələləri yalnız yaxın dostları və qohumları ilə müzakirə etməyə üstünlük vermişlər.

Kiçik məktəb yaşlı uşaqlarda ünsiyyətə tələbat təzahür edir. Uşaqlarla qarşılıqlı münasibət- lər, onların xarakteri uşaqların emosional sferasını inkişaf etdirir. Emosiyaların xüsusiyyətləri uşaqların qarşılıqlı münasibətlərinin xarakterinə təsir edir, onların ünsiyyətini tənzimləyir. Motivasiya sahəsi kimi məhz emosiyalar məktəbəqədər yaş dövründə uşaqların uğurlu ünsiyyət amillərinə çevrilir. Məktəblilərdə emosiyaların ifadəsi qeyri-ardıcıl xarakter daşıyır və onlar mimika, hərəkət və sözlərdə ifadə olunurlar. Uşaqlıq dövründə emosional vəziyyətlərin xüsusiyyətləri dəyişir. Belə ki, məmnunuluq və qeyri-məmnunluqla bağlı olan razılıq və narazılıq hisslərinin uşaqlar tərəfindən keçirilməsi onlarda daha mürəkkəb hisslər yaradır ki, onlar da çox vaxt affektiv reaksiyalara səbəb olur.

Kiçik məktəblilərin yaşıdları ilə ünsiyyətə tələbatlarının ödənilməməsi həyəcanlılığın yüksəlməsinə, aqressivliyə, özünə inamsızlığa gətirib çıxarır, bir sözlə, mənfi emosiyaların möhkəmlənməsinə səbəb olur. Öz növbəsində emosional təcrübə ünsiyyətin xarakterini müəyyən edir. Əgər kiçik məktəbli ünsiyyətdə emosiyaları yaşayırsa, o zaman o, öz həmyaşıdları ilə münasibət qura bilmir, onların əhatəsində uğursuz uşaq sayılır, bu da son nəticədə mənfi emosiyalara gətirib çıxarır, başqa sözlə desək uşaq bağlı bir dairəyə düşür.

Şəxsiyyətin emosional sferasının inkişafı mürəkkəb və dinamiki proses olub şəxsiyyətin koqnitiv və davranış sahəsinə aid edilir. Bu proses konkret sosial şəraitlə, cinsi xüsusiyyətlərlə və şəxsiyyətin tərbiyəsi ilə determinləşir. Sadə emosiyalar insana hələ erkən uşaqlıq dövründən xasdır. Əgər uşağın həyatının birinci ilində onda yalnız sadə emosional reaksiyalar özünü göstərirsə, sonrakı yaş mərhələlərində onlar sosial davranış normaları ilə bağlı olanları əlavə edirlər. Şəxsiyyətin emosional aləmi müntəzəm olaraq zənginləşir, yəni uşağın emosiya gücü artır, xarakteri mürəkkəbləşir. Bütün bunların nəticəsində ünsiyyət prosesində mürəkkəb emosiya və hisslər formalaşır.

Alim psixoloqlardan: L.Əmrahlı və N.Rzayeva haqlı olaraq qeyd edirlər ki, "emosiyaların məktəbəqədər yaşda ən yüksək səviyyəsi özünü sosial emosiyalarda göstərir. Bu sosial motivlərin yaranmasına birbaşa təsir edir. Psixoloqların gəldiyi qənaətə görə, uşağın sosial mühitdə şəxsiyyət kimi qəbul olunmasının başlıca şərtlərindən biri rolunda çıxış edən bu emosional yenidənqurulmanı "emosional sosiallıq" adlandırmaq olar. Onun əsas göstəricisi uşağın sosial tələblərə uyğunlaşması, öz maraqlarını sosial maraqlara tabe edə bilməsidir. Əksinə, emosional-iradi sferada balansın pozulması, aqressivlik əlamətləri onun ciddi fərd kimi qəbul olunmasına imkan vermir [4,s.202].

Emosional sferanın inkişafında və təşəkkülündə, kiçik yaşlı məktəblilərin emosional sferasında yaşıdları ilə ünsiyyətdə aqressivlik, həyəcanlılıq, mənfi emosiyaları müəyyən etmək olar. Kiçik məktəb yaşı dövründə uşaqlarda emosional vəziyyət ünsiyyətin səmərəliliyinə də öz təsirini göstərir. Aqressivliyin, gərginliyin və həyəcanlılığın yüksək səviyyəsi bu yaşda uşaqlarda kommunikativ bacarıqların və sosiometrik statusun aşağı səviyyəsində formalaşmasına gətirib çıxarır. Kommunikativ bacarıqların səviyyəsindən asılı olmayaraq onlar sosiometrik statusda ünsiyyət zamanı həyəcan hissi keçirirlər. Uşaqların öz həmyaşıdları ilə münasibətlərində qeyri-məmnunluq hissi mənfi emosiyaların əsas mənbələrindən biridir.

Müvəffəqiyyətli situasiya qismində biz kiçik yaşlı məktəblilərin orta həyəcanlılıq səviyyəsini, yüksək və ya kifayət qədər olmayan kommunikativ bacarıqlarını nəzərdən keçirək:

1. *Kommunikativ-inamlı tip.* Bu tipdə həyəcanlılığın və həmyaşıdlarla ünsiyyətin orta səviyyəsində uşaqlar özlərini kifayət qədər inamlı hiss edir, yüksək formalaşmış kommunikativ bacarıqlarını nümayiş etdirirlər. Onlar ünsiyyətcildirlər, təşəbbüskardırlar,öz yoldaşları ilə qarşılıqlı əlaqələrini tənzimləməyə cəhd göstərirlər. Lakin bu tipdə olan kiçik yaşlı məktəblilər bir qədər eqoist olurlar ki, bu da bir çox situasiyalarda onların fəallığına və davranışına xarici nəzarətin zəruriliyinə gətirib çıxarır. Konfliktli situasiyaların həllində bu tip uşaqlar öz şəxsi təşəbbüsləri ilə müsbət emosiyalarını təzahür etdirirlər.

2. *Kommunikativ-həyəcanlı tip.* Bu tipin kommunikativ bacarıqların inkişaf səviyyəsinə görə birinci tipə oxşaqlıqları çoxdur. Bu tipdə olan uşaqlarda öz yoldaşları ilə əlaqələrə daxil olmaq daxil olmaq, o cümlədən sosial normaları və qaydaları mənmsəmək və təşkil etmək bacarığı kifayət qədərdir. Baxmayaraq ki, kiçik yaşlı məktəblilər öz həmyaşıdları əhatəsində yüksək mövqe tuturlar, onlarda həyəcanlılıq yüksək səviyyədə olur, bu da sinifdə uşaqların özlərinə inamsızlıqları və yaşıdları tərəfindən qəbul edilməmək qorxusu ilə müşayiət olunur.

3. *İnamlı-qeyri-kommunikativ tip.* Bu tipdə olan kiçik yaşlı məktəblilərə öz həmyaşıdları ilə ünsiyyətdə həyəcanlılığın orta səviyyəsi xasdır. Bu tip uşaqlar öz yaşıdları əhatəsində özlərini inamlı hiss edir və onlarla münasibətdən məmnun olurlar. Lakin onlarda kommmunikativ bacarıqlar aşağı və ya orta səviyyədə qeydə alınır. Yaşıdları ilə ünsiyyətdə köməyə gəlməyə o qədər də təşəbbüs və cəhd göstərmir, ünsiyyətdə yaranan gərginlikləri aradan qaldırmağa cəhd etmirlər. Ünsiyyətdə aktivliyə baxmayaraq bu tipda olan uşaqlar arasında münaqişələr tez-tez müşahidə olunur.

4. *Həyəcanlı-kommunikativ tip.* Bu tip uşaqlar üçün kommunikativ bacarıqların kifayət qədər formalaşmaması xarakterik haldır. Baxmayaraq ki, uşaqlar öz yoldaşlarına diqqətlə qulaq asır, ünsiyyətin konkret situasiyalarında diqqətlərini mərkəzləşdirə bilirlər. Bununla belə onlar tez-tez bir-biri ilə konfliktlərə daxil olur və ya yoldaşları ilə ünsiyyətdən uzaqlaşırlar. Bu tipdə olan uşaqlar əlaqələrin yaradılmasında passivlik nümayiş etdirir, çox vaxt ünsiyyətdə söhbətlərin istiqamətini qeyri-adekvat olaraq qavrayırlar.

Bu tip uşaqların münasibətlərində qeyri-məmnunluq hissi, ünsiyyətdə yüksək və ya aşağı həyəcanlılıq səviyyəsi müşahidə olunmuşdur. Göründüyü kimi bu tip uşaqlarda emosional rifah müdafiə xarakteri daşıyır.

Beləliklə, apardığımız tədqiqatın nəticələri göstərir ki, kiçik yaşlı məktəblilərin ünsiyyətinin nikbinliyi emosional vəziyyətdə də nikbinliyə səbəb olur, onların gərginliyinin, həyəcanlılığının, aqressivliyinin aradan qaldırılmasına, həmyaşıdları ilə münasibətlərdə təşəbbüskarlıqlarının yaxşılaşmasına kömək edir.

Ədəbiyyat

1. Abdullayeva Ş.Y. Kiçik yaşlı məktəblilərin həmyaşıdları ilə qarşılıqlı münasibət- lərinin emosional xüsusiyyətləri. Psixol.elm.nam.dis.avtoref. Bakı: 2004, 17s.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı: 2002, 620 s.
3. Bağırlı L.Ş. Uşaqların məktəbə hazırlanmasının psixoloji məsələləri. Bakı: Nərgiz, 2003, 116s.
4. Əmrahlı L.Ş., Rzayeva N.T. Uşaq psixologiyası.Dərs vəsaiti. Bakı: Nurlar nəşriyyat-poliqrafiya Mərkəzi, 2015, 344s.
5. Çələbiyev N.Z. Uşaq psixologiyası. Dərs vəsaiti. Bakı, 2005, 341s.

РЕЗЮМЕ
РОЛЬ ЭМОЦИОНАЛЬНОЙ СФЕРЫ В ОБЩЕНИИ МЛАДШИХ ШКОЛЬНИКОВ
Мамедова С.А.
Бакинский государственный университет

В научной статье автор по праву отмечает, что общение формирует у человека индивидуальные особенности мышления и эмоциональную сферу личности. Недостаточность общения в семье происходит в результате неуделения достаточного внимания к детям, а также незанятия ими родителей. В научной статье общение характеризуется как фактор развития эмоциональной сферы. Автор верно отмечает, что развитие эмоциональной сферы личности определяется уровнем общительности. Поэтому сценические эмоции формируются под влиянием конформности общения. Развитие эмоциональной сферы личности является сложным и динамическим процессом и относится к сфере когнитивного поведения.
Ключевые слова: *общение, эмоциональная сфера, дефицит общения, депривация, интимность, экспрессивные реакции*

SUMMARY
THE ROLE OF EMOTIONAL SPHERE IN THE COMMUNICATION OF YOUNG SCHOOLCHILDREN
Mammadova S.A.
Baku State University

In the scientific article, the author rightly points out that communication forms the individual characteristics of thinking in people and the emotional sphere of personality. Communication shortage is the result of lack of attention to children in the family, as well as the parents' employment. Communication in scientific writing is characterized as the factor of development of the emotional sphere. The author correctly notes that the development of the emotional sphere of personality is determined by the level of communication. Thus, stenotic emotions are shaped by the effect of communication conformation. The development of emotional spheres of personality is a complicated and dynamic process and relates to cognitive and behavioral attributes of personality.
Keywords: *communication, emotional sphere, communication shortage, deprivation, intimacy, expressive reactions*

ADAPTASİYA PROBLEMİNİN TƏDQİQİNƏ DAİR

Salmanova Səbinə Fərrux qızı
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
salmanova-sebine@bk.ru

Açar sözlər: *adaptasiya, dezadaptasiya, ünsiyyət, davranış, fəaliyyət, ehtiyac, mədəniyyət*

Yaşayış yerinin hər hansı bir dəyişikliyi insanların istər -istəməz həm təbii, həm iqtisadi, həm sosial, həm də psixoloji şərtlərə adaptasiya olunmağa ehtiyac yaradır. Bir çox hallarda, bu proses olduqca ağrılı bir şəkildə özünü göstərir və heç də həmişə uğurla başa çatmır. Hətta yeni mühitə uyğunlaşa bilməyən insanın fizioloji və psixoloji vəziyyətini xarakterizə edən xüsusi bir termin də - "dezadaptasiya sindromu" da meydana gəlmişdir [2]. "Dezadaptasiya sindromu" yeni mühitə uyğunlaşa bilməyən insanın fizioloji və psixoloji vəziyyətini xarakterizə edir.

Adaptasiya olunmağa ehtiyac fərdlər və ya bütün qruplar üçün fərqli sosial mühitdə, fərqli mədəniyyət və sosial quruluşda olduqları zamanı yaranır. Bu zaman onların statusu və sosial rolların da dəyişiklik yaranır, eyni zamanda həyatın fiziki məkanınında, təbii-coğrafi, ekoloji və iqlim faktorlarında, iqtisadi və siyasi mövcudluq şərtlərin də dəyişiklik yaranır.

L.Filipsə görə adaptasiya olunmağın göstəriciləri kimi adaptasiya prosesinin iki nəticəsi çıxış edə bilər.

Birincisi, hər bir fərdin yaşı və cinsinə uyğun olaraq həyat boyu qarşılaşdığı sosial gözləntilərə uyğun özünü aparmasıdır [5]. Müəllif bu cür adaptasiyanı cəmiyyətin fərdin davranışına tətbiq etdiyi normalara uyğunluğun olması ilə əlaqələndirirdi. Bir sıra tədqiqatçıların fikrincə bu cür adaptasiya daha çox sosioializasiya prosesini xatırladır.

İkincisi, adaptasiya sosial normaların sadə qəbulu deyil, öz məqsədləri ilə bağlı səmərəli istifadəsi üçün yeni, potensial təhlükəli şərtlərlə üzləşdikdə davranış çevikliyidir. Adaptasiyanın bu variantı həyat fəaliyyətinin müxtəlif sahələrində istifadə olunur və subyektiv xarakter daşıyır. Bundan başqa intereksionist istiqamətin nümayəndələri öz yanaşmalarında adaptasiya və uyğunlaşma anlayışlarını bir-birindən fərqləndirirlər. Amerikan psixoloqu T.Şibutani sosial psixoloji adaptasiyanı tədqiq edərkən qeyd edir ki, adaptasiya "daha sabit həllərə istinad edərək - tipik problemləri həll etmək üçün yaxşı təşkil olunmuş bir yoldur" və ardıcıl bir sıra uyğunlaşmalardan sonra yaranan prosesdir [4]. Bununla da adaptasiya orqanizmin xüsusi şəraitin tələblərinə necə uyğunlaşdığını ifadə edən "uyğunlaşma" dan fərqlənir.

Adaptasiya prosesinin tədqiq edən məhşur rus tədqiqatçısı L.S.Vıqotskinin insanın inkişafı ilə bağlı mədəni –tarixi nəzəriyyəsində də öz əksini tapmışdır. Onun fikrincə insanın filogenetik və ontogenetik inkişafı prosesində davranışın mədəni formaları təşəkkül edir. Onun fikrincə "Tarixi inkişaf prosesində sosial insan davranış tərzini və metodlarını dəyişdirir, təbii meyilləri və funksiyaları dəyişdirir, yeni davranış formaları - xüsusən mədəni davranış formalarını yaradırvə inkişaf etdirir " [1].

Rubinşteyn fəaliyyəti "subyektin dünyanı dəyişdirməyə, maddi və ya mənəvi mədəniyyətin müəyyən bir obyektivləşdirilmiş məhsulunun istehsalına və ya istehsalına yönəlmiş fəaliyyəti" kimi başa düşürdü. Bu tərif bir insanın subyektiv xüsusiyyətlərinə, yalnız dünyaya uyğunlaşma qabiliyyətinə deyil, planına və hədəflərinə uyğun olaraq dəyişdirmə qabiliyyətinə yönəlmişdir. Beləliklə, bir insan yalnız təbii bir varlıq (Homo sapiens) olaraq deyil, bir şəxsiyyət (Homo socialis) olaraq fərqli bir adaptasiya ilə xarakterizə olunur - sosial-psixoloji adaptasiya ilə. Bu, fərdin sosial mühitə sadə bir uyğunlaşması deyil, sosial mühitlə optimal əlaqələr qurmaq üçün bir cəhddir.

D.V.Olşanskinin fikrincə, sosial adaptasiya, fərd və ya sosial qrup arasında sosial mühitlə qarşılıqlı əlaqə növüdür və bu proses ərzində iştirakçıların tələbləri və gözləntiləri bir biri ilə uyğunlaşır. Adaptasiyanın ən vacib komponenti - subyektin öz qiymətləndirmələrinin, onun imkanları və sosial mühitin reallığı ilə uzlaşmasıdır [3]. Şüurlu özünü tənzimləmə mexanizmləri, sosial-psixoloji adaptasiyanın funksional sisteminin fəaliyyətini təmin etməyə imkan verir. Onun komponentləri bir-birinə qarşılıqlı şəkildə təsir edərək yeni inteqrativ qabiliyyət və keyfiyyətlər formalaşdırır. Şüurlu özünü tənzimləmə mexanizmləri, subyekt üçün əhəmiyyətli olan subyektiv təbii və sosial təsirlərin fərdi-şəxsi qiymətlən-dirilməsinə əsaslanır. Adaptasiya üçün vacib olan şəxsiyyətin özünü tənzimləmə qabiliyyəti ünsiyyətdə, davranışda və fəaliyyətdə özünü göstərir, sabit şəxsiyyət xüsusiyyətləri kimi möhkəmlənir və onun özünəməxsusluğunu və fərdiliyini müəyənləşdirərək xarakterin strukturuna daxil olur. Həyat prosesində formalaşan adaptasiya mexanizmləri, avtomatlaşdırılmış bacarıqlar, vərdişlər, bilinçaltı davranış tənzimləyi-cilərinə çevrilir və bu zaman onların tənzimləmə funksiyası azalmır. Həyat boyu inkişaf edən şəxsiyyət xüsusiyyətləri, əldə edilən biliklərin həcmi və təbiəti, maraqların istiqaməti, emosional və iradi keyfiyyətlərin orijinallığı, dəyər istiqamətləri fərdi sosial-psixoloji adaptasiya üçün zəmin yaradır.

Biz belə hesab edirik ki, yuxarıdaq vurğulanan və təsvir olunan səviyyələrin araşdırıması bizim tədqiqat üçün mühüm əhəmiyyət kəsb edir. Yüksək adaptasiya səviyyəsi yüksək istehsal fəaliyyəti və nizam -intizam, yüksək sosiometrik status, emosional əhval -ruhiyyənin müsbət tonu və narahatlığın aşağı göstəricilərinə uyğundur. Yüksək adaptasiya səviyyəsi, fərdin fəaliyyətə və ünsiyyətə cəlb edilməsi ilə xarakterizə olunur. Bu, bir insanın məqsədlərinə çatmaq üçün yüksək emosional cəhdlərinin göstəricisidir.

Ədəbiyyat

1.Выготский, Л. С. Проблемы развития психики // Собр. соч. : в 6 т. / Л. С. Выготский. –М.: Педагогика, 1983. –Т. 3. –386 с.
2. Козлов В.И. Этническая экология: становление дисциплины и история проблем. М.: Мир, 1994. 219 с.
3. Рубинштейн, С. Л. Основы общей психологии / С. Л. Рубинштейн. –СПб.: Питер, 2002. –720 с. , s. 432.
4. Шибутани, Т. Социальная психология / Т. Шибутани ; сокр. пер. с англ. В. Б. Ольшанского. –М.: Прогресс, 1969. –535 с. , 354 s.
5. Philips, L. Human adaptation and his failures / L. Philips. –N.-Y.; L.: Academic Press, 1968. –227 p. 154.

РЕЗЮМЕ
К ИЗУЧЕНИЮ ПРОБЛЕМЫ АДАПТАЦИИ
Салманова С.Ф.
Бакинский государственный университет

В статье автор рассматривает психологический анализ проблем адаптации и дезадаптации, их влияние на поведение и деятельность личности человека. Потребность в адаптации возникает, когда отдельные лица или группы действуют в разных социальных средах, разных культурах и социальных структурах. При этом меняются их статус и социальные роли, меняются физическое пространство жизни, природно-географические, природно-климатические факторы, условия экономического и политического существования. Синдром дезадаптации характеризует физиологическое и психологическое состояние человека, неспособного приспособиться к новой среде. Способность человека к саморегуляции, важная для адаптации, проявляется в общении, поведении и деятельности, закрепляется как устойчивая черта личности и входит в структуру характера, определяя его неповторимость и индивидуальность.
Ключевые слова: *адаптация, дезадаптация, коммуникация, поведение, действие, необходимость, культура*

SUMMARY
ON THE STUDY OF THE PROBLEM OF ADAPTATION
Salmanova S.F.
Baku State University

In the article, the author examines the psychological analysis of the problems of adaptation and maladaptation, their impact on the behavior and activity of the human personality. The need for adaptation arises when individuals or groups operate in different social environments, different cultures and social structures. At the same time, their status and social roles change, as well as changes in the physical space of life, natural-geographical, environmental and climatic factors, conditions of economic and political existence. Disadaptation syndrome characterizes the physiological and psychological state of a person who is unable to adapt to a new environment. The ability of a person to self-regulate, which is important for adaptation, manifests itself in communication, behavior and activity, is strengthened as a stable personality traits and enters the structure of the character, defining its uniqueness and individuality.
Keywords: *adaptation, maladaptation, communication, behavior, movement, need, culture*

MÜƏLLİMİN PSİXOLOJİ PORTRETİ

Bəylərov Elxan Bəylər oğlu
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası, Bakı, Azərbaycan
elxan.beylerov@ascca.edu.az

Açar sözlər*: müəllim, təhsil, bacarıq, şagird, pedaqoji fəaliyyət.*

Müəllim gənc nəsli sistemləşdirilmiş milli və ümumbəşəri dəyərlərlə məqsədyönlü, planlı və mütəşəkkil şəkildə silahlandırmaq yolu ilə nəsillər arasında mənəvi əlaqə yaradan, elmin, iqtisadiyyatın, mədəniyyət və incəsənətin sonrakı inkişafına güclü təkan verən pedaqoji təhsilli işçidir. Müəllim pedaqoqdur, tədris edəndir, təhrik edəndir və ustadır. Pedaqoji fəaliyyət tələbatdan yaranır və tələbatların ödənilməsi ilə təşəkkül tapır. Pedaqoji fəaliyyət prosesində müəllim şəxsiyyəti formalaşır, zənginləşir və inkişaf edir. Pedaqoji fəaliyyət dedikdə, gənc nəslin tərbiyə olunmasına yönələn fəaliyyət başa düşülür. Başqa sözlə desək, təlim, tərbiyə, inkişaf prosesinin həyata keçirilməsinə, o cümlədən şagird şəxsiyyətinin formalaşmasına yönəldilən peşə fəallığı başa düşülür. Pedaqoji fəaliyyət mürəkkəb və çoxsahəlidir. Qarşıda duran vəzifələrdən asılı olaraq pedaqoji fəaliyyətin öyrətmə, tərbiyə vermə, təşkilatçılıq, özünütəhsil, özünütərbiyə, yenidəntərbiyə və s. növləri vardır. Bunlardan hər biri müəyyən quruluşa malikdir. Hər bir sənətin öz səciyyəvi xüsusiyyətləri olduğu kimi, müəllimlik sənətinin də öz spesifik xüsusisyyətləri var. Belə ki, müəllimlik sənəti olduqca nəcib, şərəfli, müqəddəs bir sənətdir. Cəmiyyətimiz üçün yararlı adamlar

hazırlamaq, onların kamillik zirvəsinə qalxmasına, əxlaqca təkmilləşməsinə, mənəviyyatca zənginləşməsinə çalışmaq, əlbəttə ki, son dərəcə müqəddəs, nəcib və şərəfli bir işdir.

Hər bir peşə sahibinə, o cümlədən də müəllimə onun fəaliyyət sahəsinə müvafiq olaraq müəyyən tələblər verilir. Çünki, müəllim cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq həmişə insanın formalaşması prosesində iştirak etmişdir. Onun ictimai tərəqqidəki rolu, bu peşənin sosial və humanist mənası da məhz bundan ibarətdir. Digər fəaliyyət növlərindən fərqli olaraq müəllim əməyinin məhsulu insanın xaricində olan predmet deyil, məhz insanın özüdür. Müəllim fəaliyyətinin nəticələri onun şagirdlərinin, tələbələrinin şəxsiyyətində, mövqeyində, həyata və əməyə hazırlıq səviyyəsində ifadə olunur.

Psixoloji ədədiyyatda müəllimin fəaliyyəti üçün xarakterik olan aşağıdakı qabiliyyət və bacarıqlara malik olmalıdır :

1) konstruktiv, 2) kommunikativ, 3) təşkilatçılıq, 4) qnostik, 5) didaktik, 6) diaqnostik, 7) kreativ, 8) ekspressiv, 9) yeni pedaqoji texnologiya və pedaqoji yaradıcılıq qabiliyyəti, 10) yüksək peşəkarlıq, 11) pedaqoji ünsiyyət, 12) pedaqoji müşahidəçilik, 13) diqqətin düzgün bölünməsi, 14) pedaqoji mərifət, 15) tələbkarlıq, 16) innovasiya üslublu elmi-pedaqoji təfəkkür.

Təlim-tərbiyə materialını düzgün seçmək və şagirdlərin imkanlarına, təlimin məzmununa, mərhələlərinə, təşkilat formalarına uyğunlaşdırmaq, yaranmış sosial-pedaqoji hadisəni təhlil edib qiymətləndirmək, onun yaranma səbəblərini aşkar etmək,şagirdlərin zehni əmək fəaliyyətinin və ona pedaqoji rəhbərliyin strukturunu planlaşdırmaq, göstərilən təsirin ehtimal olunan nəticələrini qabaqcadan görə bilmək, şagirdlərin çətinlik və səhvlərinin nəticələrini proqnozlaşdırmaq, bütünlükdə pedaqoji prosesin və ayrı-ayrı məşğələlərin, tədbirlərin təşkilati pedaqoji və məntiqi – psixoloji strukturunu yaradıcı və əsaslandırılmış şəkildə qura bilmək **konstruktiv bacarıqlara** aiddir. Xarici görünüşü və hərəkətlərinin dəyişməsinə görə şagirdin psixi vəziyyətindəki dəyişiklikləri təyin etməyi bacarmaq, onların qəlbinə yol tapmaq, hər hansı fəaliyyət prosesində vəzifə bölgüsü apararkən şagirdlər arasındakı qarşılıqlı münasibətləri nəzərə almaq, özünü fikrən şagirdin yerində qoymaq, onunla ümumi dil tapmaq, şagirdlər, onların valideynləri, müəllim həmkarları, ictimaiyyət nümayəndələri ilə səmimi, işgüzar, düzgün və pedaqoji cəhətdən səmərəli qarşılıqlı münasibətlər yarada bilmək (əməkdaşlıq pedaqogikası), müəyyən situasiyada daha güclü pedaqoji təsir vasitələri tapmaq, şagirdin davranışındakı ən kiçik dəyişikliyi belə dərhal duymaq, psixi proseslərin inkişafını görə bilmək **kommunikativ bacarıqlara** aiddir. Şagirdlərin tədris və sinifdənxaric fəaliyyətini planlaşdırmaq və ona rəhbərliyi bacarmaq, məktəblilərin əmək və peşə fəaliyyətinə hazırlığının formalaşması üçün pedaqoji şəraiti təşkil etmək, şagird kollektivində işgüzar əhval-ruhiyyə yaratmaq, şagirdlər arasında düzgün vəzifə bölgüsü aparmaq,onların davranış və fəaliyyətini idarə etməyi bacarmaq, konkret həyati situasiyalarda necə hərəkət etməyi şagirdlərə başa salmaq, onları cəmiyyətin istehsal münasibətlərinə qoşmaq, ailə, tələbləri mürəkkəbləşdirmək və şagirdlərin işini stimullaşdırmaq, yekunlaşdırma, əldə edilmiş nəticələri qiymətləndirmək və yeni pedaqoji vəzifələri müəyyənləşdirmək, bir sözlə, fəaliyyətin düzgün təşkili **təşkilatçılıq bacarıqlarına** aiddir. Yoldaşlarının təcrübəsini təhlil edib ümumiləşdirməyi, səmərəli metod və vasitələri öz təcrübəsində tətbiq etməyi bacarmaq, elmi yenilikləri müntəzəm izləmək, onlardan təlim məqsədilə istifadə etmək, metodik yaradıcılığa malik olmaq, öz qarşısında tədqiqatçılıq vəzifəsi qoymaq **qnostik bacarıqlara** aid edilir. Qnostik bacarıqlar dedikdə, şəxsiyyətin o keyfiyyəti nəzərdə tutulur ki, onlar bir tərəfdən predmet və hadisələrin dəqiq öyrənilməsini, digər tərəfdən isə gerçəkliyi əks etdirən obrazlardan – (işarə, simvol, anlayış, ideya, bədii əsər) müvəffəqiyyətlə istifadə olunmasını təmin edir. Diaqnostik və kreativ bacarıqlar da qnostik bacarıqlara daxildir.

Diaqnostik bacarıqlar sayəsində məlum ümumi qanunauyğunluqların vacib konkret əlamətlərini tez aşkar etmək və ayrı-ayrı aləmətlərə görə ümumi nəticə çıxarmaq, diaqnoz qoymaq mümkündür. Müəllim rəhbərlik etdiyi, ünsiyyətdə olduğu kollektivin əhval-ruhiyyəsini müəyyənləşdirməyi bacarmalıdır. Bu və ya digər sahədə düzgün diaqnoz qoymağı bacarmaq – insanın, xüsusilə müəllimin qiymətli keyfiyyətidir.

Kreativ bacarıqlar nə isə yeni, əvvəllər məlum olmayan bir iş forması fikirləşib tapmağa, əvvəl gördüyü hər hansı bir predmet və hadisəni yeni şəkildə təsəvvür etməyə imkan verir. Bütün müəllimlər üçün zəruri olan xüsusi bacarıqları nəzərdən keçirərək belə nəticəyə gəlmək olar ki, dərsin məqsədini müəyyənləşdirmək, qarşıya qoyulmuş məqsədin həyata keçirilməsini təmin edən tədris materialını seçmək, əsas biliklərin formalaşdırılması üçün zəruri olan başlıca əlamətləri ayıra bilmək bacarıqları ilə yanaşı, hər bir konkret fənn müəllimi məktəblilərin yaş və idrak imkanlarına müvafiq olaraq tədris materialının məzmununu metodik cəhətdən işləyib hazırlamaq bacarığına da malik olmalıdır.

1)Müəllimin ixtisasına və metodik hazırlığına verilən tələblər isə bunları əhatə edir: - tədris etdiyi fənni əsaslı surətdə bilmək; müvafiq elm sahəsində yenilikləri sistematik olaraq öyrənmək; fənnin tədrisi

texnologiyasına yiyələnmək; ixtisası üzrə qabaqcıl təcrübəni öyrənib yaradıcılıqla tətbiq etmək; daim öz üzərində işləmək, metodik yaradıcılığa malik olmaq; pedaqoji ustalığa sahib olmaq. Beləliklə, pedaqoji fəaliyyətin professioqramı müəllim şəxsiyyətinin əsas xüsusiyyətləri və xarakteristikasının, onun ictimai-siyasi, pedaqoji, xüsusi və metodik hazırlığının layihələşdirilməsi üçün etibarlı zəmin yaradır.

Müəllimin peşəkarlığının inkişafında psixoloji-pedaqoji səriştənin rolu danılmazdır. **Psixoloji səriştə** psixoloji savadlılığa əsaslanan fəaliyyətlərin (xarici və daxili) effektivliyi, konstruktivliyi ilə xarakterizə edilə bilər, yəni insanın qarşısında duran vəzifə və problemlərin həlli üçün bilik və bacarıqların səmərəli tətbiqi deməkdir.

Psixoloji savad və psixoloji səriştə arasındakı əsas fərq ondan ibarətdir ki, savadlı insan bilir, başa düşür (məsələn, müəyyən bir vəziyyətdə necə davranmalı, necə ünsiyyət qurmalı) və səriştəli insan bilikdən həqiqətən və səmərəli istifadə edə bilər: müxtəlif problemləri həll etmək, sözdən əmələ, ümumi mülahizədən əsaslı hərəkətlərə keçməyi bacarır. Bacarıqlı müəllim psixologiyanı bilir, səriştəli isə bu biliklərdən həqiqətən və səmərəli istifadə edir. Psixoloji səriştənin inkişafı vəzifəsi sadəcə bir insanı daha çox və daha yaxşı tanımaq deyil, bu bilikləri məktəbin psixoloji təcrübəsinə daxil etməkdir. Psixoloji səriştə müəllimin şəxsiyyətindən, onun şəxsi keyfiyyətlərindən asılıdır. Müəllimin şəxsi və işgüzar keyfiyyətləri vahid psixoloji və pedaqoji səriştədə birləşir.

M.I.Lukyanova pedaqoji fəaliyyətdə aşağıdakı zəruri şəxsi keyfiyyətləri müəyyənləşdirir: əks etdirmə, empatiya, ünsiyyətcillik, şəxsiyyət çevikliyi, əməkdaşlıq etmək bacarığı, emosional cəlbedicilik. A.K. Markova isə həmin keyfiyyətləri tamamlayaraq peşəkarlıq keyfiyyətlərinə: özünənəzarət, pedaqoji erudisiya, pedaqoji məqsəd qoyma, pedaqoji təfəkkür, praktik pedaqoji təfəkkür, pedaqoji müşahidə, sayıqlıq, pedaqoji eşitmə, pedaqoji vəziyyət, pedaqoji nikbinlik, pedaqoji hazırcavablıq, pedaqoji uzaqgörənlik, proqnozlaşdırma, pedaqoji əks etdirmə bacarıqlarını da əlavə etmişdir.

Müəllimin peşəkar zəruri keyfiyyətləri dözümlülük və özünə nəzarətdir. Peşəkar həmişə, hətta ən gözlənilməz şəraitdə belə təhsil prosesində lider mövqeyini qorumağa borcludur. Şagirdlər pedaqoqun hər hansı bir nasazlığını, çaşqınlığını, çarəsizliyini hiss etməməli və görməməlidir.

A.S.Makarenko əyləci olmayan müəllimin xarab, idarəolunmaz avtomobil olduğuna diqqət çəkib. Bunu daim xatırlamalı, hərəkətlərinizə və davranışlarınıza nəzarət etməli, uşaqlara qarşı inciklik içində əyilməməli, xırda şeylərə görə əsəbiləşməməlisiniz.

Müəllimin xarakterindəki psixi həssaslıq ona şagirdlərin vəziyyətini, onların əhval-ruhiyyəsini hiss etməyə, ən çox ehtiyacı olanların köməyinə vaxtında çatmağa imkan verən bir növ barometrdir. Müəllimin təbii vəziyyəti şagirdlərinin bu günü və gələcəyi üçün peşəkar qayğı və şəxsi məsuliyyətdir.

Müəllimin ayrılmaz peşəkar keyfiyyəti ədalətdir. Fəaliyyətinin xarakterinə görə o, tələbələrin bilik, bacarıq və hərəkətlərini sistemli şəkildə qiymətləndirməyə məcburdur. Ona görə də onun dəyər mühakimələrinin şagirdlərin inkişaf səviyyəsinə uyğun olması vacibdir. Onlarla pedaqoqun obyektivliyini mühakimə edirlər. Heç bir şey müəllimin mənəvi nüfuzunu obyektiv olmaq bacarığı kimi gücləndirmir. Qərəz, subyektivizm təhsil işinə çox zərərlidir.

Müəllim tələbkar olmalıdır. Bu, onun uğurlu işləməsi üçün ən vacib şərtdir. Müəllim özünə qarşı yüksək tələblər qoyur, çünki insan özündə olmayanı başqalarından tələb edə bilməz. Pedaqoji tələbkarlıq inkişaf etməkdə olan şəxsiyyətin imkanlarını nəzərə alaraq ağlabatan olmalıdır.

Müəllim həm cəmiyyətin, həm də ayrı-ayrı şəxslərin etibar etdiyi şəxsdir. Müəllim yeganə şəxsdir ki, ona hər şeyi - görkəmli rus pedaqoqu K.D.Uşinskinin dediyi kimi - uşaqlarımızın əxlaqını, ağlını, ruhunu və Vətənimizin gələcəyini etibar etmək olar. Bu etibar isə həmişə olmalı və hamı ona güvənməlidir.

Yaradıcı fəaliyyət göstərən müəllim öz pedaqoji yaradıcılığını müntəzəm olaraq pedaqogika, psixologiya və metodikanın vacib müddəaları ilə əlaqələndirməli, yeniliklərlə zənginləşdirməlidir. Təcrübə və tədqiqatlar göstərir ki, dərsi qabaqcıl pedaqoji təcrübə ilə əlaqələndirməklə, onlardan bəhrələnməklə dərsi daha səmərəli qurmaq olar.

Müəllimin sosial-pedaqoji vəzifəsi. Müəllimin fəaliyyəti təkcə siniflə, məktəblə, şagirdlərlə məşğul olmaqla məhdudlaşmır. Onu digər ziyalılardan fərqləndirən xüsusiyyətlərdən biri onun daim əhali arasında olması, onlarla ünsiyyət saxlamasıdır. Bu baxımdam müəllim həm də sosial pedaqoqdur. Əhali arasında pedaqoji biliklərin və əxlaqi-mənəvi keyfiyyətlərin, dəyərlərin təbliğatçısıdır. Müəllim peşəsinin bu xüsusiyyəti onun hər yerdə - məktəbdə də, geniş sosial arenada da, əhali arasında da öz nüfuzunu qoruması, özünün hörmətini qoruyub saxlamasını zərurətə çevirir. Bundan məhrum olan müəllim nə qədər bilikli, savadlı olsa da nüfuzlu ola bilmir. Müəllim təkcə məktəbdə deyil, sosial həyatda, cəmiyyət içərisində də müəllimdir, tərbiyəçidir. Buna görə də o, hər yerdə özünün hərəkət və davranışını gözləməli, öz üzərində uşaqların, gənclərin, yaşlıların baxışlarının olduğunu unutmamalıdır. Müdrik şəxsiyyətlərdən birinin çox

gözəl bir fikri vardır: "Müəllim işini hər adama tapşırmaq olmaz. Amma müəllimə hər şeyi etibar etmək olar". Müəllimin sosial-pedaqoji vəzifəsinin sferası informasiya bolluğunun az olduğu dövrdəkinə nisbətən məhdud olsa da o, dəyər daşıyıcısıdır.

4. **Müəllimin şəxsi nümunəsi.** Nümunə tərbiyənin ən sınanmış və təsirli metodlarından biri kimi pedaqoji prosesdə mühüm yer tutur. Görkəmli mütəfəkkirlər, filosoflar, pedaqoqlar, ədiblər nümunənin təsir gücünü həmişə yüksək qiymətləndirmiş və onun tərbiyədə mühüm rol oynadığını qeyd etmişlər. Valideynlərin nümunəsi, müəllimin nümunəsi, ədəbi əsərlərin qəhrəmanlarının nümunəsi, vətənimizin azadlığı və müstəqilliyi uğrunda mübarizə aparan qəhrəmanların nümunəsi, yoldaşlarının nümunəsi və s. Bunların hər biri uşaqların tərbiyəsində öz izini qoyan və tərbiyəyə qüvvətli təsir göstərən amillərdir. Müəllimin şəxsi nümunəsi bu təsirlər içərisində mühüm yer tutur. Müəllimin uşaqlara tərbiyəvi təsiri güclüdür. Həm bilavasitə, həm də dolayısı yolla edilən və sözsüz, yəni "mənim kimi ol" və ya "mənim kimi et" ifadələrini işlətmədən baş verən bu təsir çox zaman sözlə edilən təsirdən daha güclü, daha səmərəli olur. Buna görə də onun bütün hərəkət və davranışının, danışıq tərzinin, həmkarları və şagirdlərlə ünsiyyət tərzinin, hətta mimika və pantomimikasının da uşaqlara bu və ya digər səviyyədə təsir etdiyini unutmamalı, özünənəzarəti həmişə gözləməlidir. Bu baxımdan Azərbaycan Respublikası Təhsil Nazirliyinin 16 may 2014-cü il tarixli, 600 nömrəli əmri ilə təsdiq edilən "Müəllimlərin etik davranış qaydaları" müəllimlərin özünənəzarəti üçün faydalı tövsiyələrdir. Sənəddə deyilir ki, hər bir müəllim peşə fəaliyyətində bir sıra etik davranış prinsiplərini gözləməli və müvafiq tələblərə ciddi şəkildə əməl etməlidir. Bu tələblərin aşağıdakılardan ibarət olduğu göstərilir: Qanunun aliliyi-müəllim vəzifə funksiyalarının icrası zamanı Azərbaycan Respublikası Konstitusiyasının, Azərbaycan Respublikasının qanunlarının, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə, insan hüquqlarına və demokratik prinsiplərə əməl etməyə borcludur. Vicdanlılıq–müəllim cəmiyyət və dövlətin maraqları naminə öz peşə fəaliyyətini keyfiyyətlə və səmərəli yerinə yetirməyə borcludur. Müəllim bütün hallarda hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdır. Peşəkarlıq və fərdi məsuliyyət – müəllim öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində peşəkar səviyyədə yerinə yetirməyə borcludur və vəzifə funksiyalarının keyfiyyətlə yerinə yetirilməsinə görə məsuliyyət daşıyır. Müəllim peşəkar fəaliyyəti və şəxsi nümunəsi ilə təhsilalanların, valideynlərin, cəmiyyətin təhsil sisteminə, təhsil müəssisəsinə və təhsil işçilərinə inamını artırmalı və möhkəmləndirməlidir. Loyallıq – müəllim onun peşə vəzifəsinə aid olmadığı hallarda işlədiyi və digər təhsil müəssisələrinin, dövlət orqanlarının, onların rəhbərlərinin fəaliyyəti ilə əlaqədar (qanunsuz fəaliyyət istisna olmaqla) tənqidi ictimai mülahizələrdən, çıxışlardan və onların fəaliyyətinə ictimai qiymət verilməsindən çəkinməlidir. Müəllim peşə fəaliyyəti zamanı müəllim adına və nüfuzuna, habelə təhsil müəssisəsinin işgüzar nüfuzuna xələl gətirə biləcək hərəkətlərə yol verməməlidir. Mədəni davranış – müəllim təhsilalanlarla, rəhbərlik və həmkarları ilə davranışında nəzakətli, xeyirxah, diqqətli və təmkinli olmalıdır. Müəllim peşə fəaliyyəti ilə əlaqədar iradları, tənqidi fikirləri qəbul etməli, qiymətləndirməli və onlardan düz-gün nəticə çıxarmalıdır. Müəllim səmimi, çalışqan, intizamlı, təşəbbüskar olmalı, xarici görkəminə, geyiminə xüsusi fikir verməli, hər zaman səliqəli olmalıdır.

Qərəzsizlik-müəllim peşə vəzifəsini yerinə yetirərkən qərəzsiz olmalı, irqinə, milliyyətinə, dilinə, cinsinə, sosial mənşəyinə, dinə münasibətinə, əqidəsinə, ictimai mənsubiyyətinə görə təhsilalanlara və təhsil prosesinin digər iştirakçılarına fərq qoymamalıdır. Müəllim özünün və ya maraqlı şəxslərin mənafelərinin vəzifə funksiyalarının icrası zamanı ona təsir etməsinə yol verməməli və buna şərait yaratmamalıdır. Müəllim öz peşə vəzifəsindən və səlahiyyətlərindən kənar məsələlərə müdaxilə etməməlidir.

Ədəbiyyat

1. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir (tərtib edənlər: M.Mərdanov, Ə.Quliyev) Bakı. Təhsil, 2002
2. Əlizadə Ə.Ə.Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan,1998.
3. Əlizadə Ə., Əlizadə H. Pedaqoji psixologiya. Bakı: 2010.
4. İlyasov M.İ. Müəllimin pedaqoji ustalığı. Bakı. Elm və təhsil 2013.
5. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2002
6. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. M.İlyasov 2018.
7. Удовлетворенность профессиональной деятельностью как психологический критерий личностно-профессионального развития учителя. Гордиенко. Валерий Николаевич. 2000
8. Кан-Калик В.А., Никандров Н.Д. Педагогическое творчество. М.: Педагогика, 1990.

РЕЗЮМЕ
ПСИХОЛОГИЧЕСКИЙ ПОРТРЕТ УЧИТЕЛЯ
Байларов Э.Б.
Академия государственного таможенного комитета
Азербайджанской Республики

В статье рассматривается формирование профессиональных качеств, необходимых для обучения, и его психологические основы. Профессионализм и компетентность педагога формируется синтезом многих необходимых ему качеств. В статье подробно описаны умения и навыки, характерные для педагогической деятельности, их содержание, особенности, пути формирования этих качеств.
Ключевые слова: *учитель, образование, мастерство, ученик, педагогическая деятельность.*

SUMMARY
PSYCHOLOGICAL PORTRAIT OF THE TEACHER
Baylarov E.B.
Academy of the State Customs Committee of the Republic of Azerbaijan

The article considers the formation of professional qualities necessary for teaching and its psychological basis. The professionalism and competence of a teacher is formed by the synthesis of many necessary qualities. The roadmap for mastering these qualities begins with the correct choice of the pedagogical profession, the effective organization of the process of mastering it, the psychological support of the pedagogical process. The article describes in detail the abilities and skills that are characteristic of teaching activities, their content, specific features, ways of formation of these qualities.
Keywords: *teacher, education, skill, student, pedagogical activity.*

DEPRESSİYA FONUNDA YARANAN KOQNİTİV POZUNTULAR

Ramilova Nigar İzzət qızı
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
Nigar1598@list.ru

Açar sözlər: *koqnitiv pozuntular, depressiya, neyrovizuallaşma, selektiv inhibitorlar*

Depressiya yalnız psixiatrın deyil, həmçinin nevroloqun, terapevtin və digər ixtisaslı həkimlərin təcrübəsində rast gəlinən ən çox yayılmış psixi pozğunluqlardan biridir. Epidemioloji tədqiqatlara əsasən, yaşam boyu depressiyanın inkişafetmə riski kişilərdə 10%-ə, qadınlarda isə 20%-ə qədər təşkil edir. Nevroloji və terapevtik pasiyentlər arasında depressiyanın yayılması ümumi əhali ilə müqayisədə mühüm dərəcədə yüksəkdir. Beləliklə, Rusiyanın KOMPAS epidemioloji proqramına əsasən (2004), ümumi tibbi təcrübədə depressiv pozğunluqların tezliyi 24 ilə 64% arasında dəyişir. Eyni zamanda, depressiya bəzən zəruri dərəcədə şiddətlənir.

Nevroloji təcrübədə depressiyada adətən xroniki ağrı sindromlar (baş və bel ağrıları), beyin damar xəstəlikləri, subkortikal bazal ganglionların əsas zədələnməsi ilə neyrodegenerativ xəstəliklər, dağınıq skleroz, epilepsiya` və s. müşaiyət edilir. Qeyd etmək lazımdır ki, komorbid emosional pozğunluqların korreksiyası olmadan əsas nevroloji xəstəliyin müalicəsində əhəmiyyətl uğur əldə etmək praktiki olaraq qeyri-mümkündür.

Depressiya pasiyentlərin və çox vaxt onların ən yaxın qohumlarının həyatlarının hər bucağına son dərəcə mənfi təsir göstərir. Ən çox həyat keyfiyyəti əziyyət çəkir, çünki hər bir insan gündəlik həyatı yalnız şəxsi emosiyaları prizmasından qavrayır. Emosional pozğunluqların olması istər-istəməz iş bacarığının itirilməsinə və ya azalmasına səbəb olur.

Depressiya çox yayıldığına və iş bacarığına mənfi təsir göstərdiyinə görə cəmiyyət üçün çox xərc tələb edən xəstəliklərdən biridir. Beləliklə, farmakoiqtisadi araşdırmalara görə, ABŞ-da depressiyadan illik zərər təxminən 83 milyard dollar, Avropa İttifaqı ölkələrində isə 75 milyard avro dəyərində qiymətləndirilir. Ən böyük iqtisadi itkilər pasiyentin iş yerində olmaması (absenteizm) və ya işçinin formal olaraq işdə olmasına (prezenteizm) baxmayaraq iş məhsuldarlığında depressiyanın

olması səbəbindən azalması ilə bağlıdır. Depressiya nəticəsində bir işçiyə ildə orta hesabla 27 iş günü itirilir. Bunlardan 18 gün (üçdə ikisi) prezenteizmlə, yalnız doqquz günü (üçdə biri) absenteizmlə [1,s.284] əlaqədardır.

Depressiya zamanı koqnitiv disfunksiyanın səbəbi

Depressiyada koqnitiv disfunksiyanın inkişafı həm psixoloji, həm də bioloji (neyrokimyəvi, morfoloji, patofizioloji) ilkin şərtlərə malikdir.

Depressiya olan pasiyentlərdə koqnitiv çətinliklər emosional vəziyyətin diqqəti düzgün yaymaq qabiliyyətinə (diqqətin seçmə qabiliyyətinin pozulması) mənfi təsiri ilə əlaqələndirilə bilər. Beləliklə, depressiyada olan bir pasiyent, düşüncələrində mərkəzi mövqe tutan, ona hakim olan emosional həyəcanından tamamilə üzülmüş ola bilər, eyni zamanda, pasiyentin emosional təcrübələrinin məzmunu ilə əlaqəli olmayan digər məlumatların qavranılması, işlənməsi, təhlili və yadda saxlanması təbii olaraq pozulur. Eynilə, sağlam insanlar, əhəmiyyətli və emosional rəngli məlumatların qavranılması və yadda saxlanması ilə müqayisədə onlar üçün az əhəmiyyət kəsb edən məlumatları əhəmiyyətli dərəcədə pis qəbul edir və yadlarında saxlayırlar.

Koqnitiv proseslərə mənfi təsir, depressiyada olan pasiyentlərdə müntəzəm olaraq inkişaf edən motivasiyanın azalmasına səbəb olur. Motivasiyanın azalması qaçılmaz olaraq idrak fəaliyyətinin aktivliyinin azalmasına səbəb olur ki, bu da son nəticədə koqnitiv problemlərin həllinin ümumi effektivliyinə mənfi təsir göstərir.

Depressiya hal-hazırda emosional pozğunluqların (depressiyanın monoamin hipotezi) formalaşması üçün əsas neyrokimyəvi mexanizm hesab edilən beyin neyrotransmitterlərinin sintezi və fəaliyyətinin azalması ilə müşayiət olunur (şəkil). Beyində serotonin, noradrenalin, dopamin kimi vasitəçilərin sintezi və fəaliyyətinin azalması təsvir edilmişdir. Qeyd olunan dəyişikliklər, şübhəsiz ki, təkcə emosional deyil, həm də koqnitiv disfunksiyaya səbəb ola bilər. Xüsusilə, beynin dopaminerjik sistemləri (mezokortikal dopaminerjik yol) diqqətin yayılması və dəyişdirilməsi və nəzərdə tutulan proqramın həyata keçirilməsinə (beynin nəzarət funksiyaları) koqnitiv nəzarətin həyata keçirilməsində mühüm rol oynayır. Hisslərdən gələn məlumatların daha effektiv yadda saxlanması üçün noradrenerjik sistemin aktivləşdirilməsi zəruridir. Beynin serotoninerjik sistemi idrak fəaliyyəti üçün motivasiyanın formalaşmasında iştirak edir. Beləliklə, depressiya zamanı müşahidə olunan dofamin, noradrenalin və serotoninin sintezi və aktivliyinin azalması koqnitiv sindromun formalaşması üçün neyrokimyəvi substrat kimi qəbul edilə bilər.

Bundan əlavə, depressiya hipotalamus-hipofiz-adrenal sistemin aktivləşməsinə kömək edir, bu da steroid hormonlarının aktivliyinin artmasına səbəb olur. Sonuncu beynin neyrogenez və neyroplastiklik proseslərinə mənfi təsir göstərir, yaşla əlaqəli serebral atrofik dəyişikliklərin aktivləşməsinə kömək edir. Qeyd etmək lazımdır ki, fenomenoloji olaraq, depressiya zamanı koqnitiv disfunksiya ilə subkortikal bazal qanqliyaların və ya beynin ağ maddəsinin başlıca zədələnməsilə xəstəliklər arasında əhəmiyyətli bir oxşarlıq müşahidə edilir.[2,s.860]

Xüsusilə qeyd etmək lazımdır ki, kritik serebral strukturların (zolaqlı cisimlər, amigdala nüvəsi) metabolizmində bəzi dəyişikliklər təkrarlanan depressiyanın inkişafına genetik meylli olan klinik cəhətdən sağlam insanlarda da müşahidə edilmişdir. Bu, depressiyanın emosional və koqnitiv oxlarının bir-birindən asılı olmadığını bir daha vurğulayır ki, bu da hər bir konkret halda terapiyanın planlaşdırılması zamanı nəzərə alınmalıdır.

Depressiyada koqnitiv disfunksiyanın klinik təzahürləri

Hal-hazırda, depressiyanın "soyuq" və "isti" idrak əlamətləri ayırd edilir. "Soyuq" simptomlar emosional olaraq laqeyd məlumatlarla işləyərkən koqnitiv pozğunluqları ehtiva edir. Bununla yanaşı, idrak fəaliyyətinin aktivliyində və sürətində azalma müşahidə olunur: bütün koqnitiv proseslər

(məlumatların qavranılması, işlənməsi, təhlili, çevrilməsi, ötürülməsi) yavaş sürətlə həyata keçirilir. Pasiyentlərin fəaliyyəti yavaşlayır, hər hansı bir mnestik, intellektual və motor fəaliyyəti normaldan daha çox vaxt tələb edir. Onlarda yorğunluq daha sürətli inkişaf edir, bu, tez-tez zehni iş zamanı artan yorğunluq şikayətlərində əks olunur.

Digər xarakterik şikayət konsentrasiyada və ya labüd vaxt ərzində diqqəti lazımi səviyyədə saxlamaqda çətinlik çəkməkdir. Obyektiv olaraq neyropsixoloji müayinə zamanı koqnitiv proseslərin neyrodinamikasının pozulması aşkar edilir.

Depressiyanın başqa bir tipik "soyuq" koqnitiv simptomu beynin frontal (alın) hissələrinin nəzarət funksiyalarının az olmasıdır. Nəzarət funksiyalarına idrak fəaliyyətini və şəxsi davranışını planlaşdırmaq və idarə etmək bacarığı daxildir (sinonimlər: tənzimləyici funksiyalar, icraedici

funksiyalar, ixtiyari fəaliyyətin tənzimlənməsi). Depressiya tez-tez planlaşdırma qabiliyyətinə təsir göstərir. Diqqəti koqnitiv prosesin indiki mərhələsindən növbəti mərhələyə keçirmək qabiliyyəti də pozulur (koqnitiv proseslərin hərəkətliliyinin azalması, ətalət). Buna görə koqnitiv proseslərin sürəti azala bilər, lakin əsasən yalnız fəaliyyətin adi paradiqmasının dəyişdirilməsi tələb olunduğu hallarda. Əzm qeyd edilə bilər. Koqnitiv proseslərin hərəkətliliyinin azalmasının əsasında dorsolateral frontal korteksin disfunksiyasının dayandığı hesab edilir. Koqnitiv ətalətin aşkarlanması üçün ən yaxşı neyropsixoloji üsullardan biri rəqəm və hərf əlaqə testidir. Bu testin birinci və ikinci hissələrinin (A hissəsi və B hissəsi) icra müddəti müqayisə edilir. Testin hər iki hissəsinin icra müddətində proporsional artım koqnitiv proseslərin neyrodinamikasının azalması (kök-subkortikal strukturların disfunksiyası) üçün xarakterikdir, testin ikinci hissəsinin (B hissəsi) icra müddətində isə qeyri-proporsional artım koqnitiv proseslərin ətalətini (dorsolateral frontal korteksin disfunksiyası) göstərir.[3]

Depressiyanın "isti" koqnitiv simptomlarına pasiyentin diqqətini mənfi emosional rəngli məlumatlara üstünlük təşkil edən yenidən bölüşdürülməsi daxildir. Belə ki, pasiyentdən şəkildəki üzün emosional ifadəsini müəyyən etməsi istənilsə, o, şən və ya neytral ifadə ilə müqayisədə kədərli ifadəni daha tez tanıyacaq.[4,s.467] Bundan əlavə, kədərli bir üz pasiyentin diqqətini daha uzun müddət çəkəcəkdir. Eynilə, mənfi rəngli məlumatlar depressiyada olan pasiyentlər tərəfindən müsbət rəngli və ya neytral məlumatdan daha yaxşı yadda qalır. Bəzi müşahidələrə görə, "isti" koqnitiv pozğunluqların elementləri təkrarlanan affektiv pozğunluğa genetik meylli olan klinik cəhətdən sağlam (yəni depressiyada olmayan) şəxslərdə müşahidə olunur. Bu məlumatlar koqnitiv sferada dəyişikliklərin təkcə depressiyanın ağırlaşması və ya paralel simptom deyil, həm də depressiyanın səbəbi ola biləcəyini göstərir (pasiyent yalnız mənfi məlumatları görür və xatırlayır və buna görə depressiv reaksiyaların formalaşmasına meyllidir).

Ədəbiyyat

1.Greer T.L., Kurian B.T., Trivedi M.H. Defining and measuring functional recovery from depression // CNS Drugs. 2010, 284s.

2.Harvey P.O., Fossati P., Pochon J.B. et al. Cognitive control and brain resources in major depression: an fMRI study using the n-back task // Neuroimage. 2005. 860–869s.

3.Захаров В.В., Вознесенская Т.Г. Нервно-психические нарушения: диагностические тесты. М.: МЕДпресс- информ, 2013

4.Disner S.G., Beevers C.G., Haigh E.A., Beck A.T. Neural mechanisms of the cognitive model of depression // Nat. Rev. Neurosci. 2011. 467–477s.

.

РЕЗЮМЕ

КОГНИТИВНЫЕ НАРУШЕНИЯ ПРИ ДЕПРЕССИИ

Рамилова Н.И.

Бакинский государственный университет

В статье рассматриваются причины и клинические симптомы когнитивной дисфункции при депрессии. Отмечается, что когнитивные нарушения оказывают неблагоприятное влияние на качество жизни пациентов и их повседневную активность. Подробно обсуждаются методы диагностики и лечения когнитивных нарушений при депрессии. Когнитивные расстройства могут сохраняться после достижения ремиссии и регресса эмоциональных нарушений, поэтому у пациентов с депрессией необходимо тщательно исследовать когнитивную сферу и учитывать ее состояние при выборе терапевтической тактики.

Ключевые слова: *когнитивные нарушения, депрессия, методы нейровизуализации, селективные ингибиторы,*

SUMMARY
COGNITIVE DISORDERS IN DEPRESSION
Ramilova N.I.
Baku State University

Here, we discuss causes and clinical symptoms of cognitive dysfunction during depression. It is noted that cognitive disorders exhibit unfavorable influence on quality of patients' life and their everyday activity. Methods of diagnostics and treatment of cognitive disorders during depression are discussed in detail. Cognitive disorders may be maintained after reaching remission and regression of emotional disorders implying that patients with depression must be thoroughly examined for the status of their cognitive sphere to be taken into consideration upon choosing therapeutic tactics.
Keywords: *cognitive disorders, depression, neuroimaging, selective inhibitors*

IV BÖLMƏ

MÜASİR DÖVRDƏ MÜƏLLİM ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASININ PEDAQOJİ ASPEKTLƏRİ

MƏTN PRAQMATİKASINDA FON BİLİYİ PROBLEMİ

Musəvi Samirə Elçin
Azərbaycan Dillər Universiteti, Bakı şəhəri, Azərbaycan
musavi.samira@mail.ru

Açar sözlər: *bilik strukturu, mətn, praqmatika, fon biliyi, diskurs, kontekst*

Koqnitivistlərin əksəriyyətinə görə, bilik insan beynindəki əqli sfera daxilində konseptlər, təsvirlər, analogiyaları və elementlər arasındakı əlaqələri özündə ehtiva edən mental göstəricilərdən ibarətdir.

Qeyd olunur ki, bilik formasız bir bütöv deyil və konkret informasiya bloklarını ifadə etmək üçün yaradılır, bu da "biliyin strukturu" termininin istifadəsini şərtləndirir. Bu termin müxtəlif adlarla ifadə olunur: "ensklopedik bilik", "bilik formatı", "fon biliyi" və s. Biliyin bir çox növü var, lakin biz bu növləri 2 böyük qrup daxilində təsnif edə bilərik.

1) Linqvistik bilik
2) İnsan beynində dünya haqqında öz əksini tapmış qeyri-linqvistik bilik

"Biliyin strukturu" anlayışı koqnitiv üslub, xüsusilə də mətnin anlaşılması üçün vacib əhəmiyyətə malikdir. Mətn özündə ifadə olunan informasiyanın başa düşülməsinə və anlaşılmasına yönələn məqsədyönlü koqnitiv fəaliyyət kimi nəzərdən keçirilir. Mətnin anlaşılması prosesi mətnin arxasında duran məlumat barədə hipotezanın üzə çıxarılması və onun təsdiqlənməsi ilə həyata keçir. Koqnitiv dilçiliyin tərəfdarlarına görə, bu proses anlama ilə əlaqəli, konkret modullar çərçivəsində reallaşmalıdır. Anlama üçün lazım olan şərtlərə aşağıdakılar daxildir:

1. Dil biliyinin istifadəsi
2. Hipotetik anlamanı üzə çıxarmaq və təsdiqləmək
3. Mətnin "model dünyasını" yaratmaq
4. Müəllifin niyyətini, başqa sözlə, mətndə əslində hansı məlumatı vermək istədiyini üzə çıxarmaq
5. Adresant ilə adresatın daxili dünyaları arasındakı əlaqəni qurmaq

Son zamanlarda aparılan müşahidələrə görə mətn praqmatikasında məlumatın oxucuya çatdırılması üçün üslubi vasitələr çox önəmli bir rol oynayır. Bunu nəzərə alaraq deyə bilərik ki, linqvistik vahidlər bilik strukturunun müxtəlif növlərini ifadə etməyə məqsədlənir. Qeyd olunan bu vasitələr mətndə praqmatik funksiya rolunu oynayır. Başqa sözlə desək, mətndə gizlənən əsl informasiyanı aktivləşdirməyə şərait yaradır. Burada "aktivləşdirmək" ifadəsi bilik strukturunu ifadə etməyə yönələn verbal siqnalların təsiri altında nitq prosesi zamanı insan beynində müəyyən hissələrin hərəkətə gəlməsi kimi başa düşülür.

Son dövrlərdə mətn diliçiliyində mətnin linqvistik aspektləri ilə yanaşı, həmçinin qeyri-linqvistik faktorlar, xüsusilə də, həmin mətni sosial cəmiyyətdə istifadə edən dil daşıyıcılarının rolu tədqiqatçıların diqqət mərkəzinə çevrilmişdir. Bu sahə semantika, sosiolinqvistika, mətn dilçiliyi, diskurs təhlili və praqmatika elmləri ilə sıx əlaqəlidir [2, s.37].

Praqmatika dilçilik elminin bir hissəsi olub mətn dilçiliyində özünəməxsus bir yer tutur. Praqmatikada əsas diqqət implisit mənaya yönəlir, çünki sözü gedən mənanın dil strukturu vasitəsi ilə ifadə olunması nəyin nəzərdə tutulduğunu və nəyin anlaşıldığını bilməyi tələb edir. Beləliklə, linqvistik praqmatika dil, məna və kontekst anlayışlarını özündə ehtiva edir. Qeyd etməliyik ki, kontekstdə söz, söz qrupları, cümlə ilə yanaşı, mətn də müəyyən mənaya sahib olmalıdır.

Van Deyk isə kontekst anlayışına onun iştrakçılarını, onların məqsədlərini, kontekstin həyata keçdiyi məkanı və fon biliyini vacib faktorlar kimi aid edir [6, s.105].

Müəllifin məqsədi və niyyəti vacib faktorlardan olub, dilçilik elminə funksional-praqmatik yanaşma ilə bağlı tədqiqatlarda araşdırılır. Umberto Eko "The Role of the Reader" və "The Limits of İnterpretation" "niyyət " anlayışını "müəllifin niyyəti", "oxucunun niyyəti" və "mətnin arxasında gizlənən niyyət" kimi ayıraraq izah edir [5, s.120]. Birinci kitabında o, oxcunun hər hansı bir mətni oxuyarkən məna yaratmaq

bacarığını analiz edir. O, mətndəki mənanın yalnız mətnin strukturu hesabına deyil, həm də qarşılıqlı təsirə əsaslananaraq məna yaradan və məna çıxaran oxucunun anlama bacarığı sayəsində hasil olduğu fikrinə əsaslı arqument gətirir. Tədqiqatçı mətnin kommunikasiya prosesi ərzində əvvəlcədən qarşıya qoyulmuş anlama məhdudiyyətlərinə görə müəyyən məqsəd qazandığını qeyd edir [5, s.110]. Onun fikrinə görə, hər hansısa verilmiş mətnin məhdud sayda məntiqli və uyğun interpretasiyaları ola bilər.

Mətnin anlaşılmasında fon biliyi əhəmiyətli dərəcədə rol oynayır. Formal baxımdan mətnin mənası müəyyən linqvistik elementlərdə mövcud olur və adresat tərəfindən ekspilisit şəkildə ifadə olunan müxtəlif leksik, qrammatik və üslubi vasitələrin köməyilə başa düşülür. Lakin mətni yaradan şəxsin nəzərində tutduğu implisit məna isə yuxarıda qeyd olunan linqvistik elementlərlə tam şəkildə aydın olmur, çünki adresant tərəfindən yaradılan mətn müəyyən mədəniyyət daxilində ümumi fon biliyi sayəsində başa düşmədə məhdudiyyətlərlə qarşılaşmayan diskurs iştirakçılarının gümanına əsaslanan gizli anlamanın məhsuludur. Mətnin anlaşılmasına bu nöqteyi-nəzərdən yanaşma konkret mental modellərə nəzər yetirməyi tələb edir. [4, s.45].

Mətn və diskurs bir-biri ilə sıx əlaqəlidir. Bəzi dilçilərə görə, diskursun hasil olması şəxs tərəfindən mətnin yaradılması prosesində baş verir. Belə bir fikir diskurs və mətn anlayışlarını fərqləndirməyi şərtləndirir. Belə ki, əgər mətn son nəticədirsə, diskursu isə mətnin yaranması prosesi kimi dəyərləndirmək olar. Mətn konkret bir fəaliyyətin məhsulu olduğu halda, diskurs anlayışı daha mürəkkəb təbiətə malikdir. Diskursu öyrənmək üçün danışanın niyyətini və fikrini açmaq lazımdı yəni, danışanın aydın linqvistik formaların arxasında gizli şəkildə mövcud olan niyyətini və nəyi demək istədiyini bilməliyik. Bunun üçün də qəbul edən şəxs üçün fon biliyinin rolu danılmazdır.

Mətn ünsiyyət üçün çox vaxt formal konstruksiya rolunu oynayır, diskursa isə mental proseslər səviyyəsində yanaşılır. Başqa sözlə, diskurs mətnin arxasında mövcud olan qeyri-linqvistik faktorlarla əlaqəlidir. Müəyyən bir təyinedici ifadənin davamlı istifadəsi fon biliyinin və ya danışan və dinləyən arasında mətndə açıq şəkildə özünün büruzə verməyən ortaq təcrübənin olduğunu ifadə edir [3, s.84].

“Now, I’ve always has a clear view about immigration. I believe that immigration has brought significant benefits to Britain, from Polish heroes who fought for us during the war to West Indians who helped us to rebuild afterwards; from those who’ve come to our shores seeking a safe heaven, from persecution, to those who’ve come to make a better life for themselves and their families and, in the process, have enriched our society by working hard, taking risks and creating jobs and wealth for the whole country” [1, s.72].

Yuxarıda qeyd olunan mətnin müəllifi istifadə etdiyi “Britain”, “us”, “our shores”, “our society” və “the whole country” ifadələri arasındakı gizli əlaqələrin dinləyicilərə onların koqnitiv bacarıqları sayəsində anlaşıqlı və aydın olub olmamasını göstərməyə çalışır. Baxmayaraq ki, burada ümumi informasiya şəxs əvəzliyi “us”, yiyəlik əvəzliyi “our” və müəyyən artikl “the” ifadələrinin köməyi ilə reallaşır, cəm formanın istifadə olunması mətndə açıq şəkildə özünü göstərməyən, lakin oxucuda mövcud olan fon biliyini ifadə edir. Beləliklə, mətnaltı mənanın anlaşılmasındakı çətinlik aradan qalxır.

Ədəbiyyat

1. Mammadov, A. Studies in Text and Discourse/ Mammadov, A.-Azerbaijan University of Languages,-2017.-p.108 .
2. Beaver, D. Presuppositions and Assertions in Dynamic Semantics/ Beaver, D-University of Edinburgh,-1995.- p.250
3. Kadmon, N. Formal Pragmatics/ Kadmon, N. -Blackwell Publishers,-2001.-p.436
4. Kartuneen,L.Presuppositions and Linguistic Context/ Kartuneen,L.-London: Longman,-1974.-p.378
5. Eco, Umberto. The Role of the Reader/ Eco, Umberto.- Indiana University Press,-1979.-p.214
6. Dijk, Teun A. van 1985 Semantic Discourse Analysis/ Dijk, Teun A. van- London: Academic Press,-1989.- p. 235

РЕЗЮМЕ

ПРОБЛЕМА ФОНОВЫХ ЗНАНИЙ В ТЕКСТОВОЙ ПРАГМАТИКЕ

Мусави С. Э.

Азербайджанский университет языков

Понятие «знания» имеет широкую и сложную характеристику. Это понятие можно рассматривать как совокупность умственных представлений, происходящих в человеческом разуме. Виды знаний можно разделить на 2 большие группы:

1.Лингвистическое знание

2.Нелингвистическое знание

Нелингвистическое знание, которое относится ко второй группе, можно обозначить термином «фонового знания». В правильном понимании текста «фоновое знание» играет важную роль. С формальной точки зрения значение текста существует в определённых лингвистических элементах и понимается с помощью явных лексических, грамматических и стилистических средств лицом, который принимает данный текст. Однако для того, чтобы полностью и ясно передать скрытое значение, которое имеет в виду создатель текста, использование обозначенных нами лингвистических средств недостаточно, и получателю полностью становится неясно, потому что любой созданный адресантом текст является продуктом скрытого понимания, опирающегося на предположение участников дискурса, которые не встречают какие-либо ограничения в понимании значения текста благодаря фоновому знанию в рамках определённой культуры. Таким образом, обозначенный выше данный фактор создаёт возможность для участников дискурса выразить определённую информацию опосредованным путём.

Ключевые слова: *структура знания, текст, прагматика, фоновое знание, дискурс, контекст*

SUMMARY

THE PROBLEM OF BACKGROUND KNOWLEDGE IN TEXT PRAGMATICS

Mousavi S.E.

Azerbaijan University of Languages

The term “knowledge” has a complex and wide characteristics. It can be regarded as a whole of some mental representations occuring in the human mind. We can divide the types of knowledge into two groups:

1) Linguistic knowledge
2) Non-linguistic knowledge

The second group can also be called as “background knowledge”. Background knowledge plays an important role for the interpretation of the text. Normally the meaning of text exists in the relevant linguistic elements and can be understood by a receiver by means of explicit grammatical, lexical, and stylistic devices. But implicit meaning the sender intend is not fully explicated in these noted representations. Because any text by a sender is a product of an invisible compromisebaed on the assumption of discourse participants who don’t experience any difficulty in understanding thanks to the background knowledge whithin certain culture. Thus it helps the discourse participants to express certain part of information in an implicit way.

Keywords: *knowledge structure, text, pragmatics, background knowledge, discourse, context*

NİTQ MƏDƏNİYYƏTİ UĞURLU PEDAQOJİ FƏALİYYƏTİN ƏSASI KİMİ

Allahverdiyeva Leyla Nəsib qızı

Sumqayıt Dövlət Universiteti,Sumqayıt, Azərbaycan

lela_leyla@mail.ru

Açar sözlər*: nitq mədəniyyəti, müəllim, pedaqoji səriştəlilik, müəllim nitqi, ifadəlilik.*

Müəllimin məharətinin tərkib hissələrindən biri də onun nitq mədəniyyətidir. Kimin nitq mədəniyyətinə, ceteris paribus - bilik və metodik bacarıq səviyyəsinə sahib olması - tərbiyə işində böyük uğurlar qazanır. “Hər bir məqsəd üçün vasitələr var, bu, linqvistik vasitələr mədəni cəmiyyətin şüarı olmalıdır” [3] Müəllimin nitq mədəniyyətinin tərkib hissələri:

1.Dilin qrammatik qaydalarını bilmək
2.Təqdimatın sadəliyi və aydınlığı
3. Ekspressivlik:
a) intonasiya və tonallıq
b) nitqin tempi, pauzalar
c) səs dinamikası
d) lüğət zənginliyi
e) obrazlı nitq
e) diksiya
4. Sözlərin düzgün tələffüzü:

a) sözlərdə düzgün vurğu
b) yerli dialektlərin xaric edilməsi
5. Xüsusi terminologiyadan düzgün istifadə:
a) qəliz frazeoloji ifadələrin xaric edilməsi
b) lüzumsuz sözlərin xaric edilməsi
c) jarqon və dəbli sözlərin xaric edilməsi
6. Sakitlik və təmkinlilik

Nitq mədəniyyəti geniş və tutumlu çoxkomponentli anlayışdır. Lakin hər şeydən əvvəl ifadələr qurmaq savadıdır. Qrammatik qaydaları dərindən bilməyi müəllimə öz fikrini düzgün ifadə etməyə imkan verir, nitqinə ahəngdar, mənalı xarakter verir ki, bu da şagirdlərin, tələbələrin tədris materialını, tapşırıqları və s. qavramasını, başa düşməsini asanlaşdırır. Nitq etikası düzgün nitq davranışı qaydalarıdır, əxlaq normalarına, milli - mədəni ənənələrə əsaslanır. [1]

Müəllimin nitq mədəniyyətinin ikinci komponenti təqdimatın sadəliyi və aydınlığıdır. Mürəkkəbi sadə dillə danışmaq, mücərrədi anlaşıqlı etmək bacarığı müəllimin təfəkkürünün aydınlığına, izah etmək üçün verilən misalların obrazlılığına və canlılığına əsaslanır.

Nitq mədəniyyətinin üçüncü komponenti ekspressivlikdir. Buna həm düzgün sözlərin və sintaktik konstruksiyaların seçilməsi, həm də şifahi nitqin ekspressivliyinin əsas komponentlərindən - ton, səs dinamikası, temp, pauzalar, vurğu, intonasiya, diksiyadan fəal istifadə etməklə nail olunur.

İntonasiya və tonallıq söz və ifadələrə emosional rəng verdiyi üçün təkcə şüura deyil, həm də şagirdlərin hisslərinə təsir göstərir. Nitq tonu şən, təntənəli, səmimi, şən, qəzəbli, kədərli və s. ola bilər. Müəllim vəziyyətdən asılı olaraq bütün ton zənginliyindən istifadə etməli, monoloqları passiv, yeknəsəq səslə söyləməməlidir.

Süjet oyunları zamanı müəllim intonasiyanı dəyişdirərək, şagirdlərdə süjetə uyğun gələn adekvat ideyaların və vizual obrazların formalaşmasına öz töhfəsini verir.

Müəllimin nitq tonu sakit, inamlı, nüfuzlu olmalıdır. Lakin bunun üçün müəllimin özünün sakit olması, verilən tapşırıqların düzgünlüyünə, öz hərəkətlərinə, şagirdlərin hərəkət və davranışlarına qiymət verilməsinə əmin olması lazımdır. Böyük əhəmiyyət kəsb edən söhbətin tonu, dinləmək bacarığı, vaxtında və mövzunu dəstəkləməkdir. [4, 12]

Nitqin tempi də onun ifadəliliyini müəyyən edir. Çox sürətli nitq yararsızdır, çünki şagirdlərin diqqətini müəllimin dediklərinə cəmləmək, bütün məlumatları "həzm etməyə" vaxt tapmaq çətindir və çox ləng nitq tələbələrə sakitləşdirici təsir göstərir.

Nitq pauzaları, düzgün istifadə edildikdə, danışıq sözlərin və ifadələrin mənasını daha yaxşı çatdırmağa imkan verir. Pauzanın köməyi ilə siz müəllimin nitqinin, onun hansısa hadisə ilə bağlı xəbərinin və s. maraqlı hadisələrinin mənasını artıra bilərsiniz.

Müəllimin nitqinin ifadəliliyini şərtləndirən digər amil səsin səs dinamikası, onun gücünün müxtəlifliyidir. Nitqin qeyri-kafi həcmi dinləyicilərə mənfi təsir göstərir. Bu, şagirdlərin tez yorulmasına gətirib çıxarır. Nəticədə ya söndürməli, müəllimin nitqinin məzmununu izləməyi dayandırmalı, ya da özlərini dinləməyə məcbur etməlidir. Sessiya boyu eyni həcmdə nitq (səthin sabitliyi) yuxululuq effektinə malikdir.

Lüğət zənginliyi nitqin obrazlılığına, onun vasitəsilə isə ifadəliliyə kömək edir. Atalar sözlərindən, məsəllərdən, qanadlı sözlərdən, məcazlardan, mücadilədən məharətlə istifadə müəllimin nitqini şirəli, emosional edir, şagirdləri ruhlandırır. Əlbəttə ki, yalnız bu yaşda olan uşaqların başa düşə biləcəyi nitq vasitələrindən istifadə etmək lazımdır.

Müəllimin izah etdiyi tədris materialının şagirdlər və tələbələr üçün başa düşülməsində nitqin obrazlılığı mühüm rol oynayır. [2]

Diksiya - səslərin, sözlərin və ifadələrin aydın tələffüzü, şagirdlərin müəllim nitqini başa düşməsini asanlaşdırır.

Müəllimin nitq mədəniyyətinin dördüncü komponenti gündəlik nitqdən sözlərin səriştəli tələffüzüdür. Məsələn, sözlərdə vurğuların yerləşdirilməsində səhvlər var. Yerli dialektlərin təsiri ilə yaranmış söz və ifadələrin işlədilməsində başqa bir xəta baş verir.

Müəllim öz nitqindən jarqon və gurultulu sözləri çıxarmalıdır. Müəllimin nitqində nə qədər qıcıqlansa da, təhqiramiz sözlər yolverilməzdir.

Müəllimin nitq mədəniyyətinin digər bir komponenti lakonizmdir. Bəzi müəllimlər dərsin məqsədini aydın şəkildə adlandırmaq əvəzinə, şagirdlərin dərsdə nə edəcəyini, nəyin müzakirə olunacağını ətraflı təsvir edirlər. İfadə və sözlərin təkrarlanmasında da ifadəlilik ifadə olunur.

Təbii ki, lakonizm özlüyündə son deyil. Həddindən artıq yığcam, demək olar ki, teleqraf dili də nitqi bəzəmir. Xüsusən də sözlərin kiçilməsi səbəbindən müəllimin ifadələri qeyri-müəyyənləşdikdə.

Pedaqoji fəaliyyətin ən mühüm peşə vasitəsi ünsiyyətdir. Nitq ünsiyyəti məktəblilərin təhsil və inkişafının əsas vasitələrindən biridir.

Müəllimin nitq mədəniyyətinin qaydaları var:

1. Müəllim sakit, lakin elə danışmalıdır ki, onu hamı eşidə bilsin ki, dinləmə prosesi şagirdlərdə ciddi stress yaratmasın.

2. Müəllim aydın danışmalıdır.

3. Müəllim dəqiqədə təxminən 120 söz sürətlə danışmalıdır.

4. Ekspressiv səsə nail olmaq üçün pauzalardan istifadə etməyi bacarmaq vacibdir - məntiqi və psixoloji. Məntiqi pauzalar olmadan nitq savadsız, psixoloji fasilələr olmadan rəngsiz olur.

5. Müəllim intonasiya ilə danışmalıdır. Yəni, məntiqi vurğular qoymağı, deyilənlərin məzmunu üçün vacib olan ayrı-ayrı sözləri vurğulamağı bacarmalıdır.

6. Melodiya müəllimin səsinə fərdi rəng verir və şagirdlərin emosional rifahına əhəmiyyətli dərəcədə təsir göstərə bilər: ruhlandırır, ovsunlayır, sakitləşdirir. Melodika sait səsləri əsasında doğulur.

Təbii ki, nitq mədəniyyətinin yuxarıda qeyd olunan tələb və qaydalarını bilmək, onlara əməl etmək nitqi daim təkmilləşdirmək vəzifəsi xalqın tarixi yaddaşını inkişaf etdirmək, müasir müəllimin uğurlu işinin açarıdır. Bu mədəniyyət ilk növbədə çoxmillətli mədəniyyətin zənginliyinə təsir etməklə dərk edilir.

Ədəbiyyat

1. Авраменко Б.В. Культура речи учителя. ЮНПУ им. К.Д.Ушинского, г.Одесса. https://scienceandeducation.pdpu.edu.ua/doc/2011/8_2011/2.pdf
2. Емельянова М.В., Журлова И.В., Савенко Т.Н. Основы педагогического мастерства: Курс лекций для студентов дневного и заочного отделений педагогического университета. – Мозырь: УО «МГПУ», 2005. – 150с.
3. Винокур Г. Культура языка / Григорий Осипович Винокур. – М. : Изд-во "Лабиринт", 2006. – 256 с.
4. Шевчук С.В. Українське ділове мовлення: навч. посібник. 2-е вид., випр. К.: Вища школа, 2000. 271 с.

РЕЗЮМЕ

КУЛЬТУРА РЕЧИ КАК ОСНОВА УСПЕШНОЙ ПЕДАГОГИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ

Аллахвердиева Л.Н.

Сум гаитский государственный университет

Развитие культуры речи является важнейшей профессиональной обязанностью педагога, и в ее основе лежит чувство слова, чувство языка. Развитие этого чувства начинается в раннем детстве, когда человек воспринимает речь и учится говорить, а затем формируется в результате изучения грамматики, фонетики, стилистики, а также чтения лучших произведений художественной литературы. Речь является и средством обучения, и средством обучения. Большое влияние на формирование речевой культуры учащихся оказывает учитель, речь учителя служит для них примером. Речь учителя является не только средством передачи определенной информации, но и средством управления вниманием учащихся, формирования идей и понятий.

Ключевые слова: *культура речи, учитель, педагогическая компетентность, речь учителя, выразительность.*

SUMMARY

SPEECH CULTURE AS A BASIS OF SUCCESSFUL PEDAGOGICAL ACTIVITY

Allahverdiyeva L. N.

Sumqayit State University

The development of speech culture is the most important professional duty of a teacher, and it is based on the sense of the word, the sense of language. This feeling begins to develop in early childhood, when the child perceives speech and learns to speak, and then is formed as a result of studying grammar, phonetics, stylistics, as well as reading the best works of fiction. Speech is both a means of teaching and a means of learning. The teacher has a great influence on the formation of students' speech culture, the

teacher's speech serves as an example for them. A teacher's speech is not only a means of conveying certain information, but also a means of controlling students' attention, forming ideas and concepts.

Keywords: *speech culture, teacher, pedagogical competence, teacher speech, expressiveness.*

MÜASİR DÖVRDƏ MÜƏLLİM ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASININ PEDAQOJİ ASPEKTLƏRİ

Əbiyev Qalib Şamil oğlu, Muxtarlı Eldar Arif oğlu
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Bakı, Azərbaycan
qalib.abiyev@sport.edu.az ; eldar_muxtarli@mail.ru

Açar söz: *pedaqoji və peşə qabiliyyətləri, dərs prosesi, müəllim, şagird, tələbə, dialoq qurması, bilik və bacarıqlar.*

Müəllim – sözünün mənası konkret fənn üzrə təlim – tədris prosesini həyata keçirən səlahiyyətli şəxs deməkdir. Təhsil prosesinin əsas siması müəllimdir. Pedaqoji ustalığa yiyələnmək üçün təlim tərbiyənin prinsiplərini bilmək, təlim – tədris prosesinin texnologiyalarından istifadə etməyi bacarmaq vacibdir. Müəllimin mövqeyi və funksiyaları cəmiyyətin, gənc nəslin tərbiyəsinə və onun əsasını təşkil edən ümumtəhsil məktəblərinin inkişafı və təkminləşdirmə ilə müəyyən edilir [1, s.16-18].

N.Nərimanov müəllim kadrlarının hazırlığı işinə xüsusi diqqət verməklə yanaşı, müəllimlərin qarşısında bir sıra mühüm vəzifələr qoymuşdur. N.Nərimanov belə hesab edirdi ki, müəllimlərdən təlim alan gənclər, ilk növbədə, əməksevər olmalıdırlar. 1924-cü ildə APİ-nin ilk məzunlarının buraxılışı münasibətilə yazdığı "Elmlərini yeni tamam etmiş müəllimlərə" şəxsiyyətin inkişafı və tərbiyəsi haqqında N.Nərimanov demişdi: [2, s.1].

Bütün şəxsiyyətlər adamdır, amma bütün adamlar şəxsiyyət deyildir. Şəxsiyyət şüura malik olan ətraf aləmi dəyişdirmək üçün şüurlu fəaliyyət göstərən adam deməkdir.

Anadan yenicə doğulmuş uşaqda adamdır, amma hələ şəxsiyyət deyil. Vəzifəniz hər nə qədər çətin, ağır və məsuliyyətli bir vəzifədirsə, bunu da düşünməlisiniz: insanın ruhunu ucaldan çox şey varsa, onun ən birincisi zəhmətdir.

Müəllimin pedaqoji fəaliyyəti tədris zamanı baş verir. Müəllimin pedaqoji fəaliyyəti yerinə - yetirdiyi vəzifələrdən irəli gəlir. Müasir dövrdə müəllimin qarşısında duran ən mühüm vəzifə gənc nəsilə elmlər haqqında biliklər vermək və bilikləri təcrübədə tətbiq edərək həyat fəaliyyətinə hazırlamaqdır. Müasir dövrdə müəllimin pedaqoji fəaliyyəti zamanı öz bilik və bacarıqlarını, vəzifələrinin öhdəsini müvəffəqiyyətlə yerinə yetirilməsi onun yaradıcı münasibətindən asılı olur. Əsl müəllim suallara standart cavab tapa bilir, şagird və tələbələrə qayğı ilə yanaşmağı bacarır. Bu cür müəllimlər öz ixtisasını, tədris etdiyi fənni, müasir bilikləri, elmləri dərindən bilərək təhlil etməyi bacarır. Pedaqoji ustalığa malik olan müəllim fəal interaktiv təlim metodlarına, mədəniyyətə və yeni texnologiyalara yiyələnən müəllimdir. Təcrübəli müəllimlər tədris materiallarını yeni metodikadan və tədris texnologiyaları kompotensiyalardan istifadə edərək şagird və tələbələrə dərs zamanı mənimsətməyə nail olurlar. Müasir dövrdə təcrübəli müəllimlərin müvəffəqiyyət qazanması şagird və tələbələrin fəaliyyətinin düzgün idarə etmək bacarığındadır. Pedaqoji ustalığın göstəricilərindən biri də şagird və tələbələrin bilik qabiliyyətlərini fəallaşdırmaq bacarığıdır. Müasir dövürdə peşə ustalığına malik olan müəllim təlim-tədris prosesini fəallaşdırmaq üçün fəal interaktiv təlim metodlarından istifadə etməklə dərs zamanı şagird və tələbələri düşünməyə, maraqlanmağa istiqamətləndirməlidir. Pedaqoji ustalığın tərkib hissələrindən biridə müəllimin şagird və tələbələrin diqqətini idarə etmək bacarığıdır. Təcrübəli müəllim üçün əsas keyfiyyətlərdən biridə şagird və tələbələrin zahiri görünüşünə görə onun daxili vəziyyətini müəyyənləşdirmək bacarığıdır. Şagird və tələbələrin psixoloji vəziyyətini hər zaman nəzərə almaq pedaqoji qabiliyyətin əsasını təşkil edir və mühüm yer tutur. Təcrübəli müəllimin müraciəti şagird və tələbələrə xahiş, tənbeh, təqdir və əmr formasında ola bilər. Pedaqoji ustalığa malik olan müəllim hər zaman öz rolunda düzgün olmalı, səsinin tonuna və nitq mədəniyyətinə fikir verməlidir.Təcrübəli müəllim səs tonunu idarə etməyi bacarmalı, pauzanı, mimikanı, jestləri düzgün idarə etməyi bacarmalıdır [1, s.16-18].

Müasir dövrdə müəllimin pedaqoji fəaliyyətinin və peşə qabiliyyətinin yüksəldilməsi məqsədilə A.D.B.T.İ.A – nın tək mübarizlik növləri kafedrasının müdiri: prof.əvəzi Qalib Şamil oğlu Əbiyev və həmin kafedranın elmi işçisi müəllim: Eldar Arif oğlu Muxtarlı Bakı şəhəri Nərimanov rayonunda (məktəb

direktorunun xahişi ilə məktəbin nömrəsi və adı açıqlanmır) yerləşən orta ümumtəhsil məktəblərinin birində pedaqoji tədqiqat keçirdik. Tədqiqatda gənc müəllimlər və kollec tədris müəsissəsindən məktəb təcrübəsinə ezam olunan təcrübəçi tələbələr (gələcəyin gənc ixtisasçı müəllimləri) iştrak edirdi.

16 fevral 2022-ci il tarixində məktəblərə təcrübəyə 4-cü kurs tələbələri ezam olunmuşdur. Tədqiqat fiziki tərbiyə dərslərində iştrak edən gənc müəllimlər və təcrübəçi tələbələr (gələcəyin gənc ixtisasçı müəllimləri) arasında keçirildi. Keçirdiyimiz tədqiqatın başlıca məqsədi gənc müəllimləri və təcrübəyə ezam olan tələbələrin gələcəkdə müəllim vəzifəsində çalışarkən pedaqoji qabiliyyətini inkişaf etdirməkidir.

Tədqiqatın aktuallığı:

Müasir müəllimin pedaqoji fəaliyyətini həyata keçirmək, gənc nəslin və yeniyetmələrdə təlim tərbiyə işlərini, tədrisini düzgün istiqamətdə qurulmasını müəyyənləşdirməkdir. Pedaqoji fəaliyyət insan əməyinin ən mürəkkəb sahələrindən birini təşkil edir. Pedaqoji fəaliyyət zamanı müəllim cəmiyyət üçün əhəmiyyətli olan bir sıra mühüm vəzifələri və funksiyaları yerinə yetirir. Pedaqoji fəaliyyət zamanı müəllimdən yeniyetmələri tərbiyə etmək və təlim tədris işində yüksək pedaqoji ustalıq tələb olunur [2, s.172].

Tədqiqatın məqsədi:

Müasir dövrdə müəllimin pedaqoji və peşə qabiliyyətlərinin aspektlərinin formalaşdırılmasını müəyyənləşdirmək.

Tədqiqatın vəzifələri :

1. Müəllimin öyrətmə qabiliyyətinin aşkar olunması.
2. Müəllimin hansı səviyyədə elm və biliklərə malik olmasıdır.

Tədqiqatın metodları :

Elmi-metodik ədəbiyyatların təhlili, pedaqoji müşahidə, pedaqoji eksperiment.

Tədqiqatın obyekti :

Keçirdiyimiz tədqiqat 16.03.2022 ci il tarixində Nərimanov rayonu orta ümumtəhsil məktəbinin yuxarı və aşağı sinif şagirdləri arasında keçirildi. Tədqiqatda 2 gənc müəllim və 7 tələbə təcrübəçi iştrak edirdi. Tədqiqat - 6,7,8 və 9-cu siniflərdə dərs zamanı keçirildi. Tədqiqat məktəbin idman zalında fiziki tərbiyə proqramına uyğun planlaşdırıldı və keçirildi. Gənc müəllimlərə və 4-cü kurs təcrübəçi tələbələrə (gələcəyin gənc ixtisasçı müəllimlərinə) dərs keçmək üçün siniflər təqdim edildi və buradan məlum olundu ki, müəllim və təcrübəçi tələbələrin pedaqoji qabiliyyətləri çox aşağı səviyyədədir.

Nəticələrin təhlili :

1-ci-tədqiqat zamanı gənc müəllimlər və pedaqoji təcrübədə iştrak edən tələbələr dərsi tədris edərkən nöqsanlara yol verərək dərsi hissələrə bölə bilmirdilər. Məsələn : fiziki tərbiyə dərsi 4 hissədən giriş, hazırlayıcı, əsas və tamamlayıcı hissələrindən ibarətdir.

2-ci-gənc müəllimlər və pedaqoji təcrübədə iştrak edən tələbələr yeni fəal interaktiv təlim metodlarından istifadə etməyi bacarmırdılar.

3-cü-müəllimə fəaliyyət zamanı lazım olacaq pedaqoji komponentlər haqqında (yəni müəllimin didaktik, konstruktiv, təşkilatçılıq və s qabiliyyətlərindən) gənc müəllim və pdaqoji təcrübədə iştirak edən 4-cü kurs tələbələri məlumatsız idilər.

4-cü gənc müəllim və pedaqoji təcrübədə iştrak edən tələbələrin nitq mədəniyyəti və elmi ixtisas bilikləri kifayət qədər olmadığı üçün şagirdləri idarə edə bilmirdilər.

Yekun nəticələr :

Pedaqoji tədqiqatların araşdırmalarından belə məlum oldu ki, müəllimin pedaqoji və peşə qabiliyyətləri yoxdursa həmin müəllim dərs prosesi zamanı nöqsanlarla qarşılaşacaq. Müəllim şagird və tələbələrlə təmasda olarkən dialoq qurmağı, bilik və bacarıqlara malik olmalıdır. Müəllim şagird və tələbələrin etibarlığını doğrultmağı bacarmalıdır. Müasir dövrdə müəllimin formalaşdırılması üçün müəllimdən pedaqoji qabiliyyətlər tələb olunur. Bu peşə qabiliyyətləri aşağdakılardır :

1. Akademik qabiliyyət – (yəni hər hansı bir elm sahəsini əhatə edən komponent). Elm sahəsi bir müəllimin öz elmini məsələn: fizika, idman, riyaziyyat və s. əhatə edən sahədir.
2. Didaktik qabiliyyət – (yəni öyrətmə qabiliyyəti). Didaktika öyrədənlə öyrənən arasında baş verən pedaqoji prosesdir. Müəllim öyrədəndir və yüksək səviyyədə elmi biliklərə malik olaraq öyrətməyi bacarmalıdır.
3. Konstruktiv qabiliyyət – (yəni konstruksiya qurmaq bacarığı), müəllim şəxsi bacarığını və şagirdlərin bacarıqlarını layihələndirməyi bacarmalıdır.
4. Kommunikativ qabiliyyət – bu qabiliyyət müəllimin şagird və tələbələrlə düzgün ünsiyyət qurmaq və iş aparmaq bacarığıdır.

5. Təşkilatçılıq qabiliyyəti – müəllimin şagird və tələbələrin fəaliyyətini təşkili və istiqamətləndirilməsidir.

6. Perspektiv qabiliyyət – müəllim tərəfindən şagird və tələbələrin daxili aləmini görmək və onların emosional vəziyyətini obyektiv qiymətləndirməkdə, psixikasının xüsusiyyətlərini üzə çıxarmaqda özünü göstərir.

7. Suqqestiv (yəni təyinedici) qabiliyyət – Müəllimin şagird və tələbələrə emosional, iradi təsir göstərməsidir.

8. Tədqiqatçılıq qabiliyyəti – (yəni müəllimin pedaqoji prosesləri dərk etməsi, araşdırmalar aparması və s.) ibarətdir.

9. Ekspressiv qabiliyyət – (yəni müəllimin nitq mədəniyyəti, mimikalar, jestlər, aktyorluq və s.) bacarıqlarıdır.

10.Pedaqoji təxəyyül – (yəni müəllimin şəxsi təlim tərbiyə bacarığını nümayiş etdirmə bacarığıdır).

11.Pedaqoji refleksiya – (yəni müəllim pedaqoji şəraitə daim nəzarət etməli, onu qiymətləndirməli, təhlil etməyi, tənzim və təkmilləşdirmə bacarığıdır).

Müasir dövrdə müəllim şəxsiyyətinin formalaşdırılmasının pedaqoji aspektləri və pedaqoji ustalığının təkmilləşməsi peşə fəaliyyəti zamanı ixtisas sahəsinə aid olan yeni elmi-metodik məlumatların mükəmməl mənimsənilmiş fəaliyyət komponentləri və pedaqoji qabiliyyətləri bazasında həyata keçirilir.Ən yaxşı müəllim güclü metodikaya və elmi biliklərə malik olan müəllimdir.

Ədəbiyyat

1. Məcidov N.B. Bədən tərbiyəsinin nəzəriyyəsi və metodikası. Dərslik. Bakı, 2018.
2. Hüseynov Q.H. Fiziki tərbiyənin tədrisi metodikası. Dərslik. Bakı, 2010.
3. Azərbaycan Müəllimi qəzeti – 9 aprel ; 2010 – ci il.

РЕЗЮМЕ

ПЕДАГОГИЧЕСКИЕ АСПЕКТЫ ФОРМИРОВАНИЯ ЛИЧНОСТИ УЧИТЕЛЯ В СОВРЕМЕННОСТИ.

Абиев Г.Ш., Мухтарлы Э. А.

Азербайджанская государственная академия физической культуры и спорта

В целях совершенствования педагогической деятельности и профессионального мастерства педагогов в современное время заведующий кафедрой единоборство: профессор Галиб Шамиль оглы Абиев и преподаватель той же кафедры: научный сотрудник Эльдар Ариф оглы Мухтарлы провели педагогическое исследование в одной из общеобразовательных школ, расположенных в Наримановском районе города Баку. Цель педагогическое исследование состоит в том, чтобы развивать педагогические навыки молодых учителей и студентов-стажеров, учителями в будущем. Исследование показало, что педагогические способности преподавателей и стажеров были очень низкими.

Ключевые слова: *педагогические и профессиональные способности, учебный процесс, учитель, ученик, студент, построение диалога, знания и умения.*

SUMMARY

PEDAGOGICAL ASPECTS OF THE FORMATION OF THE TEACHER'S PERSONALITY IN MODERN TIME

Abiyev G. S., Mukhtarli E.A.

Azerbaijan State Academy of Physical Culture and Sport

In order to improve the pedagogical activity and professional skills of teachers in modern times, the head of the department of arrogance of ADBTI.A: Prof. Galib Shamil oglu Abiyev and the teacher of the same department: researcher Eldar Arif oglu Mukhtarli conducted pedagogical research. The aim is to develop the pedagogical skills of young teachers and student interns while working as teachers in the future. The study found that the pedagogical abilities of teachers and interns were very low.

Keywords: *pedagogical and professional abilities, educational process, teacher, student, student, building a dialogue, knowledge and skills.*

MÜƏLLİM-TƏLƏBƏ MÜNASİBƏTLƏRİNİN SƏMƏRƏLİLİYİNİN MÜƏYYƏN EDİLMƏSI

Kərimova Sevinc Arif qızı,
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
kerimova_sevinc@mail.ru

Açar sözlər: *müəllim, tələbə, təhsil, münasibət, təlim, pedaqogika*

Tələbələr arasında elələri də vardır ki, onlar doğma evlərindən müvəqqəti ayrı düşərək, təhsil aldıqları şəhərlərdə (Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Lənkəranda və s.) məskunlaşır, ali təhsil alırlar. Ermənistanın ölkəmizə təcavüzü nəticəsində tələbə yataqxanaları qaçqın və məcburi köçkünlər tərəfindən tutulduğundan bu tələbələr ya kirayə etdikləri otaqlarda, evlərdə, yaxud qohum mənzillərində qalırlar. Deməli, qayğıya ehtiyacları olur. Müəllim-tələbə münasibətləri düzgün qurulmadığı təqdirdə bu gənclərin ümumtəhsil məktəblərini yeni bitirmiş 17-18 yaşlı oğlan və qızların vəziyyətini təsəvvürə gətirmək çətin olur. Qohumluq əlaqələri nə qədər yaxın olsa belə, gənclər bu mənzillərdə sıxılır, istədikləri şəraitləri olmur, vaxtlı-vaxtında qidalanmaq və s. nisbətən çətin olur. Kirayədə qalan gənclərə və hazırda müəyyən yaş həddinə çatmış şəxslərə çox yaxşı məlumdur. Odur ki, müəllim-tələbə münasibətlərinin düzgün qurulması bütün tələbələrlə yanaşı, xüsusən haqqında danışılan (kirayədə, qohum evlərində, mənzilində yaşayıb təhsil alan) tələbə oğlan və qızlar üçün vacibdir.

İlkin pedaqoji kadr hazırlığı zamanı müəllim-tələbə münasibətlərinin keyfiyyətini müəyyənləşdirmək məqsədilə biz pedaqoji eksperiment keçirdik. Əlavə olaraq bildiririk ki, eksperimentin birinci mərhələsində tələbələr və müəllimlər kütləvi sorğuya cəlb edilmiş, onlar üzərində müşahidələr aparılmış, müsahibələr keçirilmişdir. Məqsəd ali məktəblərdə müəllim-tələbə münasibətlərinin necə qurulduğunu öyrənməkdən ibarət olmuşdur. Üç səviyyə aşkara çıxarılmışdır: yüksək, orta və aşağı.

Tələbə oğlan və qızlara bir sıra suallara cavab vermək təklif olunmuşdur. İlk sorğu müəllim-tələbə münasibətlərinin xarakterinə aid idi. Diqqət yetirək: "Müəllimlərinizin sizinlə qarşılıqlı münasibətlərində daha çox səciyyəvi olan cəhətlər hansılardır?"

Sorğuda iştirak edən 107 tələbənin 27 nəfəri müəllimlərin ciddilik və rəsmiliyini; 35 nəfəri müəllimlərin bəzi tələbələrdən yan dolandığını, hər tələbə ilə ünsiyyət bağlamağı, səmimi davranmağı özünə rəva görmədiyini və onlarla maraqlanmadığını; 41 nəfəri müəllimlərin avtoritar üslubunu; 36 nəfəri isə avtokratik üslubunu; 29 nəfəri onların liberal üslubunu; 24 nəfəri də demokratik üslubunu diqqət mərkəzinə gətirmişdir.

Kütləvi sorğu zamanı səy göstərdik ki, aydınlaşdıraq: görəsən müəllimlərdən kimsə tələbə həyatı ilə maraqlanır?! Məlum oldu ki, 73 müəllimin yalnız 12 nəfəri (onların da 8-i qadın müəllimlər idi ki, daha çox qızların gün-güzəranı və davranışı ilə maraqlanırdı) tələbələrin məişət şəraiti, dolanışığı və ehtiyacları ilə; 11 nəfəri onların öz asudə vaxtlarını necə keçirmələri ilə; 15 nəfəri gənclərin öz ailələri – valideynləri, bacı-qardaşları ilə necə əlaqə saxlamaları ilə; 7 nəfəri gənc oğlan və qızların mühazirə və seminarlardan sonra vaxtını necə və harada keçirmələri ilə; 10 nəfəri gənclərin öz tələbə yoldaşları ilə; 6 nəfəri tələbələrin müəllimlərlə qarşılıqlı münasibətlərinin; 12 nəfəri onların dekanlıq və ali məktəbdəki digər təşkilatlarla münasibətlərinin, 8 nəfəri tələbələrin akademik qrupun kuratoru ilə; 4 nəfəri isə gənclərin başqa adamlarla, yaşayış yerindəki insanlarla qarşılıqlı münasibətlərinin xarakteri ilə maraqlanmışdır.

Rəqəmlər vəziyyət barədə aydın təsəvvür yaradır. Əlbəttə, vəziyyət lazımi qədər deyildir.

Müəllimlərin tələbələrə göstərdikləri konkret köməklə bağlı məsələ də diqqətdən kənarda qalmamışdır. Məlum olmuşdur ki, sorğuda iştirak edən 63 müəllimin 17-si təlimdə və təlim müvəf-fəqiyyətinin artırılmasında; 13-ü auditoriyadankənar tədbirlərin təşkilində və həmin tədbirlərin tələbələrin hiss və duyğularında, davranış və rəftar tərzində müsbət izlər buraxmasında; 9 nəfəri gənclərin ailə-məişət problemlərinin həll olunmasında; 14 nəfəri tələbələrin ailə həyatına uğurla hazırlanmalarında, 6 nəfəri əks cinslə qarşılıqlı münasibətlərin düzgün qurulmasında məsləhətçi rolunu oynamaqla; 14 nəfəri tələbələrin seçdikləri ixtisasa nəzəri cəhətdən; 12 nəfəri tələbələrin seçdikləri ixtisasa praktik baxımdan yüksək səviyyədə yiyələnmələrində öz köməklərini göstərmişlər.

Bir şəxsiyyət kimi formalaşmaqda tələbəyə köməyin hansı səviyyədə olmasına da fikir verilmişdir. Aydınlaşdırılmışdır ki, müəllimlər tərəfindən bu kömək davranışında və rəftar tərzində; insanlara, müəllimlərə, gələcək həyat yoldaşı kimi seçdikləri şəxsə düzgün münasibətdə; onların özünütərbiyə ilə məşğul olmalarında; Vətənə sevgilərində, torpağımızın, vətənimizin müdafiəsinə hazır olmalarında; vətənin ləyaqətli oğul və qızları olmalarında öz ifadəsini tapır.

Eyni zamanda auditoriyada müəllimlərin fəaliyyəti ilə bağlı məsələlərin öyrənilməsidə diqqət mərkəzimizdə dayanmışdır. Tədqiq olunmuşdur ki, müəllimin: 1. Davranış və rəftarı pedaqoji etikanın tələblərinə hansı səviyyədə uyğundur? 2. Nitqi və ünsiyyət tərzi hansı səviyyədə qənaətləndiricidir? 3. Geyiminin pedaqoji tələblərə uyğunluğu necədir? 4. Nəzəri hazırlığının səviyyəsi necədir? 5. Metodik hazırlığının səviyyəsi necədir? 6. Pedaqoji ustalığının səviyyəsi necədir? 7. İnformasiya-kommunikasiya texnologiyalarından istifadə vəziyyəti necədir? 8. Nəzəriyyə və praktikanı əlaqələndirmə bacarığı hansı vəziyyətdədir? 9. Yeni təlim texnologiyalarından, interaktiv təlim metodlarından xəbərdarlıq səviyyəsi və onlardan faydalanmaq bacarığı necədir? 10. Təlimin prinsiplərindən xəbərdarlıq səviyyəsi və onlardan faydalanmaq bacarığı necədir? 11. Təlim prosesini idarəetmə səviyyəsi hansı vəziyyətdədir? 12. Tələbələri idarəetmə səviyyəsi hansı vəziyyətdədir?

Qeyd etmək lazımdır ki, sorğunun nəticələri bizi qane etməmişdir.

Bir çox müəllimlərin (istər mühazirə deyən, istərsə də seminar məşğələsi aparan) davranış və rəftarı yüksək səviyyədə olsa da, bunu heç də bütün ali məktəb müəllimlərinə şamil etmək mümkün deyildir. Bəzi müəllimlərin davranış və rəftarı pedaqoji etikanın tələblərinə uyğun gəlmir. Onlar bir sıra hallarda müəllim-tələbə münasibətlərini lazımi səviyyədə qura bilmirlər. Bu, daha çox onların xarakterindən, şəxsi xüsusiyyətindən, xasiyyətindən irəli gəlir. Belə müəllimlər tələbələrlə kobud rəftar edir, adi bir anlaşılmazlıq olduqda bunu problemə çevirir, tələbələri hədələyirlər.

Mühazirə oxuyan bəzi müəllimlərin nitqi və ünsiyyət tərzi də xoşagələn deyil. Bu müəllimlərin nəzəri və metodik hazırlığı aşağı səviyyədədir. Təbii ki, onların pedaqoji ustalıq nümayiş etdirəcəyindən danışmağa dəyməz.

Müəllimlər arasında elələri də vardır ki, yüksək səviyyəli mühazirə oxumaq, nümayəndəsi olduğu elmin, fənnin incəliklərini, uğurlarını, son nailiyyətlərini və yeniliklərini maraqlı və məzmunlu, cəlbedici şəkildə tələbələrə çatdırmaq əvəzinə, mühaziréni diktə yolu ilə gənclərə yazdırır. Qeydlər aparmaq istəməyən tələbələri buna məcbur edir, onların üstünə qışqırır, auditoriyadan çıxarırlar.

Ali məktəb müəllimlərinin bir çoxunun nəzəriyyə və praktikanı əlaqələndirmə qabiliyyəti qənaətləndiricidir, onlar informasiya-kommunikasiya texnologiyalarından bacarıqla istifadə edirlər. Lakin müəllimlərin bir qismi (onların sayı heç də az deyildir) barədə həmin sözləri demək olmur. Belələri yeni təlim texnologiyalarından, interaktiv təlim metodlarından xəbərdar deyillər, təbii ki, onlardan faydalanmırlar.

Nəticə. İstər təlim prosesində və auditoriyadankənar tədbirlər zamanı, istərsə də ali məktəb təhsili və praktik bacarıq və vərdişlərin qazanılması üçün son dərəcə vacib olan pedaqoji təcrübə dövründə də müəllim-tələbə münasibətləri diqqət mərkəzində olmalıdır. Həmin münasibətlər özünəməxsusluğu ilə fərqlənir. Pedaqoji təcrübə dövründə tələbə bir tərəfdən öz ali məktəb müəllimləri – pedaqoji təcrübə rəhbəri, metodist müəllim, pedaqogika və psixologiya müəllimləri; digər tərəfdən təcrübə keçdikləri ümumtəhsil məktəblərinin fənn müəllimləri və sinif və məktəb rəhbərləri ilə qarşılıqlı münasibətlərdə olurlar. Universitetin və institut müəllimləri ilə onların qarşılıqlı münasibətləri həm müəllim-tələbə, həm də müəllim-müəllim (burada tələbələr əllərində jurnal, müəllim kimi sinif otaqlarına daxil olur, müstəqil dərs keçirlər) münasibətlərində olurlar.

Ədəbiyyat

1. Suxomlinski V.A. Vətəndaşın doğulması. Bakı: Maarif, 1975.
2. Şaiq A. Əsərləri. 5 cilddə, 4-ci cild. Bakı: Azərnəşr, 1977.
3. Talıbov Y.R., Ağayev Ə.Ə., Eminov A.İ., İsayev İ.R. Pedaqogika: Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Adiloğlu, 2006, 140 s.
4. Talıbov Y.R. Müəllim: Nizami Gəncəvi anlamında. “Azərbaycan müəllimi” qəz,. 1995, 14 mart.
5. Təhsil haqqında qanun. Bakı: Hüquq ədəbiyyatı, 2009, 80 s.
6. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953, 316 s.
7. Utkan Qocatürk. Atatürk. Bakı: Azərnəşr, 1991, s. 145.
8. Veysova Z.A. Fəal / interaktiv təlim: müəllimlər üçün vəsait. Bakı: UNİJEF, 153 s.

РЕЗЮМЕ
ОПРЕДЕЛЕНИЕ ЭФФЕКТИВНОСТИ ОТНОШЕНИЙ МЕЖДУ УЧИТЕЛЕМ И УЧЕНИКОМ
Керимова С.А.
Сумгаитский государственный университет

Студент учится на уровне бакалавра высшего образования в течение четырех лет. Как государственные, так и негосударственные высшие учебные заведения расположены в основном в центре страны в столице Баку. Кроме того, есть другие региональные университеты в Нахчыване, Гяндже, Сумгайыте, Мингячевире и Лянкяране. Азербайджанский Государственный Педагогический Университет, расположенный в Баку, имеет филиалы в регионах (Газахский, Шекинский, Загатальский, Сальянский, Джалилабадский, Агджабединский, Губинский, Шамахинский), которые предоставлять высшее образование. Поскольку часть студентов являются жителями этих городов и районных центров, они не сталкиваются с такими проблемами, как окружающая среда, стоимость проживания, материальные и бытовые условия. Они всегда находятся под родительским контролем и заботой, ведут своеобразный прежний образ жизни. Единственным изменением является тип учебного заведения.
Ключевые слова: *учитель (преподаватель), студент, воспитание, отношение, обучение, педагогика*

SUMMARY
DETERMINING THE EFFECTIVENESS OF TEACHER-STUDENT RELATIONDIP
Karimova S.A.
Sumqayit State University

The student studies at the bachelor's level of higher education for four years. Both state and non-state higher education institutions are located mainly in the center of the country in the capital Baku. Additionally, there are other regional universities in Nakhchivan, Ganja, Sumgayit, Mingachevir and Lankaran. Azerbaijan State Pedagogical University which is situated in Baku has branches in the regions (Gazakh, Sheki, Zagatala, Salyan, Jalilabad, Aghjabadi, Guba, Shamakhi), which also provide higher education. As some of the students are residents of those cities and district centers, they do not face problems such as environment, stay cost, material and living conditions. They are always under parental control and care, and lead a kind of previous lifestyle. The only change is the type of education institution.
Keywords: *teacher (lecturer), student, education, attitude, training, pedagogy*

İNGİLİS DİLİNİN TƏDRİSİ ZAMANI TƏLƏBƏLƏRDƏ MOTİVASİYANIN FORMALAŞDIRILMASINDA MÜƏLLİMİN ROLU

Xudayarova Günel Hüseyn qızı
Azərbaycan Dillər Universiteti,Bakı,Azərbaycan
gunel.xudayarova@gmail.com

Açar sözlər: *müəllimin xüsusiyyətləri, təlim fəaliyyətləri, müəllimin rolu, pedaqoji strategiyalar, motivasiyaedici amillər*

Təlim prosesinin iştirakçıları sırasında aparıcı rola malik olan müəllimin şəxsiyyətini səciyyələndirən başlıca amillərdən biri onun təhsilalanlarla münasibətidir. Müəllimin fərdi məsuliyyəti və peşəkarlığı savadlı kadrların yetişdirilməsində mühüm əhəmiyyət kəsb edir. Siracəddin Urməvinin "Öyrənən öyrədənin davamçısıdır" deyimi xüsusilə bu fikri təsdiqləyir [3, s.183]. Bu baxımdan, öz sahəsi üzrə yüksək elmi-pedaqoji potensiala malik olan müəllim dövrün tələblərinə uyğun müxtəlif strategiyalarla tələbələrin könlünü ələ alır və onların savadlı kadr kimi yetişdirilməsinə nail olur.

İngilis dilinin tədrisi zamanı tələbələrin dərsə olan marağını artırmaq və öyrənmə prosesinin effektivliyini təmin etmək üçün, müəllim müxtəlif təlim strategiyalarından istifadə edir. Professor F.Klippel qeyd edir ki, dərs zamanı müxtəlif təlim fəaliyyətlərindən istifadə etməyin bir sıra üstünlükləri vardır. O, vurğulayır ki, ingilis dili dərslərində təlim üsullarından istifadə etmək, ilk növbədə tələbələrlə müəllimlər

arasında psixoloji məsafəni azaldır, onların bir-birini daha yaxşı tanıması üçün şərait yaradır [4, s.8]. C.Harmer bütün bunları ümumiləşdirərək tələbələrdə motivasiyanın formalaşdırılması zamanı müəllimin rollarını aşağıdakı kimi qruplaşdırır:

1. İdarəçi – müəllimlər bəzən təlim zamanı tələbələrin çətinlik çəkdikləri mövzuları onlara izah edir. Lakin, bu zaman informasiyanı hazır formada deyil, düşündürücü tapşırıqlar vasitəsilə təqdim etmək daha effektiv hesab edilir;

2. Müşahidəçi – tapşırıqların həlli zamanı tələbələrin fəaliyyətini izləyərək onların uğurları və problemləri qeyd edilir. Daha sonra rəylərin verilməsi zamanı bu qeydlər nəzərə alınır;

3. Motivasiyaedici – tələbələri həvəsləndirmək üçün onların görməli olduqları işlər qeyd edilir. Əgər, tapşırığın həlli zamanı problem yaranarsa, müəllim o səhvlərin aradan qaldırılması üçün tələbələri istiqamətləndirir;

4. Mənbə - tələbələr əmin olmadıqları məsələlər barədə müəllimə suallar ünvanlayır və onların bu sualları cavablandırmasını gözləyir. Müəllim bu zaman tələbələrin fərdi nailiyyətlərini izləyə bilir.

5. Təşkilatçı – dil öyrənənlərin fəaliyyətlərini əyləncəli təşkil etmək, başlama və bitmə vaxtlarını dəqiq müəyyənləşdirmək lazımdır. Həmçinin, müəllim tələbələrin fəaliyyətləri icra edən zaman vaxtında rəy vermək məsələsinə də diqqət edir [1, s.117].

Yuxarıda sadalanan rolları icra edən müəllim tələbələrin təlim ehtiyaclarını təmin edərək, onların dərsə olan maraqlarının artırılmasına nail olur. Müəllimin özünün yüksək potensialının olması, dərslərə həvəslə hazırlaşması, tələbələrlə emosional bağlılıq qura bilməsi və s. keyfiyyətlərə malik olması dilöyrənənlərin onun sərişt əlilik bacarığına əmin olmasına kömək edir. Bu isə təhsilalanların dərsə olan maraqlarını artırır və onların təlim nailiyyətləri əldə etməsini asanlaşdırır. Müəllimin tələbələrlə rəftarı, müzakirələr aparması, mövzunu izah edərkən onlara dəqiq və ətraflı məlumatlar ötürməsi təhsilalanların öyrədənə olan inamını artırır, dil öyrənənlərin rahat mühitdə təhsil almalarına imkan yaradır. Kifayət qədər məlumatlı olmayan müəllimin dərsi də maraqsız və keyfiyyətsiz olacaqdır. Materialla bağlı yetərli məlumatı olmayan müəllim tələbələr arasında çaşqınlığın yaranmasının qarşısını ala bilmir və dərsin səmərəsiz nəticələnməsinə səbəb olur. Bu da tələbələrin ruhdan düşməsi və oxumaq həvəsinin azalması ilə nəticələnir. Yüksək ixtisas biliklərinə malik olan müəllim təlim zamanı öyrədiləcək materialı hərtərəfli təhlil edərək, məzmunu ağırlaşdıran məsələləri müxtəlif motivasiyaedici üsullarla asanlaşdırmağa nail olur.

Müəllim təfəkkürün müxtəlif növlərinin inkişaf etdirilməsinə yönəlmiş pedaqoji strategiyalarından istifadə etməklə dərslərin effektivliyini daha da artırır. Təlim nailiyyətlərini artırmaq üçün tədris prosesinin əvvəlində tələbələrin məqsədlər müəyyənləşdirməsi və bu məqsədlərə nail olmaq üçün plan qurması mühüm hesab edilir. Məntiqi, tənqidi və yaradıcı təfəkkürə malik olan tələbələr öz məqsədlərini dəqiq müəyyənləşdirir, hazırki bilikləri və hədəflərini təyin edir, onlara nail olmaq üçün həvəslə çalışır. Bu məqsədləri təyin edərkən müəllim onlara aşağıdakı istiqamətləri verir:

- gün ərzində nail olmaq istədiyimiz hədəflər .....,
- bu materialı öyrənmək ona görə faydalıdır ki, ...,
- bu fəaliyyəti icra etməkdə əsas məqsədim .....,
- bunu anlamaq ona görə faydalıdır ki, ... [2].

Məqsədləri müəyyənləşdirdikdən sonra müəllim öyrənənlərin həvəslə çalışması üçün fəal təlimin prinsiplərindən istifadə edir. Məlumdur ki, fəal-interaktiv təlim metodları ilə təşkil edilən dərslərdə tələbələr bilikləri tədqiqat yolu ilə əldə edirlər. Tələbəyönümlü tədris prosesinin əsas xüsusiyyətlərindən biri də problemli vəziyyət yaradaraq, dilöyrənənlərin təlim prosesinə marağını artırmaq və onları fəallaşdırmaqdır. Problem həlletmə bacarığı formalaşan tələbələrdə müstəqil düşüncə bacarığı və sərbəst qərar qəbuletmə sərişt əsi də formalaşır. Təsadüfi deyildir ki, bir çox alimlər dərslərdə problemli vəziyyətin yaradılmasını mühüm hesab edirlər. Qeyd edirlər ki, tələbələrin dərsdə çətinlikləri olduğu zaman onları problem həllinə cəlb etmək lazımdır. Nümunə olaraq, sözlərin mənasını bilməyən tələbələri onların təxmin edə biləcəkləri fəaliyyətlərə yönəltmək göstərilir. Bu cür tapşırıqlar dilöyrənənlərə problemi müstəqil formada həll etmək imkanı verir ki, bu da onların gələcək fəaliyyətində effektiv hesab edilir.

Ümumilikdə, tələbələrin idrak fəallığını artırmaq və onların aktiv dərsə cəlb olunmasını təmin etmək məqsədilə müxtəlif motivasiyaedici strategiyalardan istifadə etmək mümkündür. Bu strategiyaları belə ümumiləşdirmək olar:

- ingilis dili dərslərində geniş sinif müzakirələrinin aparılması üçün açıq suallardan istifadə edilməsi məqsədəuyğun hesab edilir. Bu zaman tələbələrin dil bilikləri təkmilləşdirilir;
- vizual öyrənənlərin maraqlarını nəzərə alaraq əyani təlim materiallarından istifadəyə üstünlük verilir. Belə olduqda, tələbələrin müxtəlif təsvirlər vasitəsilə materiallara marağını oyatmaq mümkündür;

• məlumat boşluğu olan tapşırıqlardan istifadə mühümdür. Bu tapşırıqların yerinə yetirilməsi zamanı tələbələr yaradıcı fikirlər səsləndirərək, araşdırma aparmağa maraq göstərir;

• problemli vəziyyət yaradaraq tələbələrin məsələ ilə bağlı fikirləri müzakirə edilir;

• təlim zamanı daha çox real həyatla bağlı hadisələrdən nümunələr gətirərək onların dərsə olan maraqları artırılır.

Ədəbiyyat

1. Harmer J. The Practice of English Language Teaching. England: Pearson Education Limited, 2015, 446 p.
2. https://egyankosh.ac.in/bitstream/123456789/23795/1/Unit-2.pdf
3. Kazımov N. Ali məktəb pedaqogikası. Bakı: Çıraq, 2011, 392 səh.
4. Klippel F. Communicative Fluency Activities for Language Teaching. Cambridge: Cambridge University Press, 202 p.
5. Harmer J. The Practice of English Language Teaching. England: Pearson Education Limited, 2015, 446 p.
6. https://egyankosh.ac.in/bitstream/123456789/23795/1/Unit-2.pdf
7. Kazımov N. Ali məktəb pedaqogikası. Bakı: Çıraq, 2011, 392 səh.
8. Klippel F. Communicative Fluency Activities for Language Teaching. Cambridge: Cambridge University Press, 202 p.

РЕЗЮМЕ

РОЛЬ УЧИТЕЛЯ В ФОРМИРОВАНИИ МОТИВАЦИИ СТУДЕНТОВ ПРИ ОБУЧЕНИИ АНГЛИЙСКИМ ЯЗЫКОМ

Худаярова Г.Г.

Азербайджанский государственный университет языков

В этой тезис было объяснено, что учитель может оказывать глубокое влияние на мотивацию учащихся. Один из ключей к поддержанию мотивации учащихся — сделать так, чтобы материалы и занятия, которые используют учителя, соответствовали жизни и интересам наших учеников. Тезис посвящена выбору соответствующих материалов, целям студентов, педагогическим стратегиям и роли учителя в формировании мотивации у студентов.

Ключевые слова: *характеристика учителя, учебная деятельность, роль учителя, педагогические стратегии, мотивирующие факторы*

SUMMARY

THE ROLE OF THE TEACHER IN THE FORMATION OF MOTIVATION IN STUDENTS IN TEACHING ENGLISH

Xudayarova G.H.

Azerbaijan State University of Languages

In this thesis were explained that the teacher can have a profound effect upon students' motivation. One of the keys to sustaining student motivation is to make the materials and activities teachers are using relevant to our students' lives and interests. The thesis deals with choosing appropriate materials, students' goals, pedagogical strategies and the role of teacher in the formation of motivation in students.

Keywords: *features of a teacher, teaching activities, the role of a teacher, pedagogical strategies, motivational factors*

MƏSAFƏDƏN TƏHSİLDƏ XARİCİ DİLLƏRİN (İNGİLİS DİLİNİN) TƏDRİSİ

Namazova Aygün Yaşar qızı, Balakişiyeva Mehriban Əhmədəli qızı

Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki kolleci, Sumqayıt, Azərbaycan

namazovaaygun@rambler.ru ;mehriban131286@gmail.com

Açar sözlər: *təhsil, distant təhsil, pedaqoq, pedaqoji proses, təlim*

Bu gün dünyada təhsilin yeniləşməsi və ya islahatı məqsədi ilə səylər universal bir görünüşə malikdir. Demək olar ki, dünyanın bütün ölkələri təhsil sistemlərini ya qismən, ya da tamamilə yeniləşdirməyə çalışırlar. Bu yeniləşmə səylərində Azərbaycan da mühüm yer tutur. Ölkəmizdə təhsil

sistemində olan mövcud problemlərin həlli üçün islahatların aparılması istiqamətində mühüm addımlar atılmışdır. Təhsilin yeniləşməsinin əsas istiqamətlərinin müəyyən edildiyi hallarda qərəzli təkliflər qərəzsiz meyarlarla əvəz olunur. Hazırda bu meyarların hazırlanmasında müsbət aşkar edilmiş vəziyyətlərin tədqiqindən geniş istifadə olunur. Azərbaycan təhsil sistemi bir tərəfdən sürətlə artan əhalinin təhsilə olan tələbatını ödəməyə çalışır, digər tərəfdən isə əhalinin daha səmərəli təhsil alması üçün daha çox səy göstərməlidir. Bildiyiniz kimi, 2009-cu ilin 19 iyununda qəbul edilmiş "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 13-cü maddəsinin 13.1.3. bəndində məsafədən təhsil təhsilalma formalarından biri kimi göstərilmişdir [1]. Lakin ölkəmizdə distant təhsilin təşkili ilə bağlı işlərin sürətləndirilməsi zərurəti pandemiya dövrünə təsadüf etdi.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) 2020-ci ilin martın 11-də koronavirus (COVİD-19) pandemiyasını elan etdi [3, s.95-98]. Bu gün dünyada və ölkəmizdə yaranan pandemiya şəraiti hələ də hökm sürməkdə davam edir. Covid-19 xəstəliyinin insanlar arasında yayılmasının qarşısının alınması məqsədilə dünya ölkələri tərəfindən bir neçə mühüm addımlar atıldı. Bu addımlardan biri də insanların bir – biri ilə ünsiyyətinin məhdudlaşdırılması məqsədilə onlayn platformanın istifadə imkanlarının genişləndirilməsi oldu. Belə bir şəraitdə 2020/2021-ci tədris ilinin mart ayından etibarən COVİD-19 pandemiyasına yoluxmanın qarşısını almaq məqsədilə ölkəmizdə, digər sahələrdə olduğu kimi, təhsil sahəsində də fiziki təmasın minimuma endirilməsi üçün bütün təhsil müəssisələrində tədris təlim prosesi distant formada təşkil edilmişdir .

İlk dəfə olaraq Viskonsin Universitetinin 1892-ci il kataloquna daxil edilmiş "*distant təhsil*" termini yenə, ilk dəfə 1906-cı ildə həmin universitetin direktoru Uilyam Layti tərəfindən yazılmış məqalədə istifadə edilmişdir. Bu termin 1960-cı ildən etibarən geniş tətbiq sahəsinə malik olmuşdur. Bu illər ərzində distant təhsili təsvir etmək üçün əsasən *"qeyri-ənənəvi təhsil", "qeyri-ənənəvi öyrənmə", "müstəqil iş", "məktəbdənkənar təhsil"* və s. kimi terminlərdən istifadə olunmuşdur. Lakin bu terminlərin heç biri tamamilə məsafədən təhsilin mahiyyətini əhatə etmir [4]. Distant təhsil – təhsilalanla təhsilverənin fiziki cəhətdən bir-birindən uzaq olduğu tədris formasıdır. Distant təhsil–tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunan təhsil alma formasıdır. Bu təhsilalma forması 2 cür təşkil olunur: sinxron və asinxron (Sxem 1) [3]:

Sxem 1. Distant təhsilin təşkil olunma formaları



Dil biliyi dinləmə/anlama, danışma, oxu və yazı bacarıqları ilə bu dilin dil biliklərinin istifadəsidir. Dinləmə/dinlədiyini anlama dedikdə, səsləri fərqləndirə bilmək, sözləri anlamaq, sözlərin mənasını ifadə edə bilmək qabiliyyəti nəzərdə tutulur. Bu xüsusiyyətlərdən başqa nitqdə şifahi ünsiyyət də var. Burada əldə edilməsi vacib olan iki mühüm element: 1) düzgün istifadə (dəqiqlik) - yəni qrammatik strukturlardan təyinatı üzrə istifadə; 2) axıcılıq, yəni bu dildə ünsiyyətin təmin edilməsi nəzərə alınmalıdır. Oxu bacarığı oxucu ilə mətn arasında əlaqə yaratmaqla inkişaf etdirilə bilər. Yazının məqsədi öyrənilmiş qrammatik strukturları və sözləri gücləndirmək, eləcə də müəyyən bir məqsədə uyğun xarici dildə yazmağı öyrətməkdir. Yazı bacarıqlarının inkişaf etdirilməsi sözlərin doğru yazılmasına, durğu işarələrinin istifadəsinə, mətnin növündən, fikirlərin və düşüncələrin düzgün təşkilindən asılı olaraq düz sözlərin seçilməsinə mütənasibdir.

Bu bacarıqların demək olar ki, hamısı distant təhsil metodu ilə əldə edilə bilər. Lakin danışıq bacarığının inkişaf etdirilməsi üçün daim cəmiyyət içində ünsiyyətdə olmaq lazımdır.

Digər sahələrdə olduğu kimi, distant təhsil vasitəsi ilə xarici dillərin tədrisində 3 əsas element vardır:

- Təhsilverən – məsafədən təhsil üçün lazım olan infrastrukturu öyrədir və hazırlayır;
- Tələbə – öz tələblərinə uyğun təlim strategiyasını müəyyənləşdirir;
- Təlim mühiti - mühit (radio/televiziya/kompüter/İnternet/çap materialları/telefon və s.) seçilir, seçilən mühitə uyğun olaraq hazırlanmış materialdan istifadə olunur.

İngilis dilinin distant formada tədrisinin bir çox yolları vardır. Bunlardan bəziləri aşağıda verilmişdir:

1) Self (Öz-özünə) öyrənmə - tutorials, flipbook, CD, video kasetlər və audio kasetlər daxildir. Tələbə müstəqil şəkildə izləyə və əldə etdiyi tərəqqini ölçə bilər;

2) Televiziya və radio verilişləri - bir çox yayım müəssisələri və təşkilatlar televiziya və radiolarda ingilis dili kursları təklif edirlər;

3) Web saytlar - hər gün daha çox web sayt ingilis dili kursları təklif edir. Bu dərslərdə ingilis dilinin tədrisinə aid müxtəlif audio və şəkillər var. İngilis dili müəllimlərin və tələbələrin istifadəsinə təqdim olunan bu saytlar da onların qarşılıqlı fəaliyyəti üçün də geniş imkanlar olur. İnternet tərəfindən təmin edilən yazışmalarla ünsiyyət, söhbət mühiti və s. fəaliyyətlərdə inkişaf edən texnologiyanın dilin istifadəsinə yaratdığı imkanlara daxildir.

Bu sahədə aparılan beynəlxalq araşdırmalardan aydın olur ki, Çin dillindən tutmuş Makedon dilinə kimi bir çox dillər distant tədris üsulu ilə tədris olunur və öyrənilir. Məsələn, İngiltərədə 1980-ci illərdə Milli Britaniya proqramı ("United British Program") vasitəsilə fransız dilinin radio və televiziya ilə tədrisi məqsədilə təcrübəyə başlanılıb. Proqram əsasında radio/televiziya verilişləri təqdim olunur, tələbələrin iştirakı üçün proqramla bağlı jurnal çap olunur, dili istifadə etmək üçün yerli işçi qrupları yaradılır, ikitərəfli (qarşılıqlı) ünsiyyət üçün isə telefonla sual və cavab xidməti istifadə olunur [6, p. 151-159].

Kanada, Manitabo, Ontario və British Columbiada ikinci dil kimi telefonla ingilis dilinin tədris məqsədi ilə evdə təlim proqramı həyata keçirilmişdir. Tələbələr müstəqil olaraq audiokassetlərin olduğu iş dəftəri ilə işləyir, telefonla hər bölmənin müəyyən yerlərində müəllimlə əlaqə yaradırlar. Bu söhbətlər şagirdə şifahi tətbiq etmək imkanı verir. Müəllim telefon danışıqlarını qeyd edir və onları təkrar etmək üçün şagirdə göndərir. 1988-ci ilin qiymətləndirməsinə görə, proqram həm müəllimlərdən, həm də tələbələrdən razıdır [7, p. 73-87.].

Merilenddə standart kabel televiziyası texnikasından istifadə etməklə distant təhsilin interaktiv proqramları keçirilir. Missisipi ştatının İngilis dili Departamenti fiber-optik Texnikanın köməyi ilə analoji təcrübə keçirir [5].

Deyilənlərin əsasında belə bir nəticəyə gəlmək olar ki, ingilis dilinin tədrisi prosesinin distan formada təşkilinin müəllim və tələbələr üçün bəzi üstünlükləri vardır. Bu üstünlüklər ümumiləşdirilmiş şəkildə sxem 2-də öz əksini tapmışdır.

Sxem 2. Distant formada ingilis dilinin tədrisi prosesinin üstünlükləri



Həmçinin qeyd olunanlardan bir daha aydın olur ki, distant formada təşkil olunmuş ingilis dili dərslərindən də əyani formada təşkil olunmuş dərslərdən əldə olunduğu qədər effektiv nəticə əldə etmək mümkündür. Lakin bunun üçün ingilis dili müəllimi daim öz üzərində çalışmalı, yeniliklərə açıq olmalı,

ölkədə distant təhsilin səmərəli və effektiv təşkili üçün normativ-hüquqi baza yaradılmalı, imkanlar genişləndirilməlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. [Elektron resurs] / - Bakı, 2009, URL: http://www.e-qanun.az/framework/18343
2. Distant tədris prosesinin təşkili. https://www.arti.edu.az/noduploads/et_book/cb3b8- 886a77732102a921f85e1653051.pdf
3. Cavadov İ. Distant təhsilin təşkili: uğurlar və perspektivlər // "Müasir təhsilin inkişaf strategiyaları: uğurlar və çağırışlar" mövzusunda Beynəlxalq elmi konfransının materialları, Naxçıvan, 2021. Səh. 95-98.
4. Kaya Z. Uzaktan Eğitimde Ders Kitapları, 1996, Ankara: G.Ü. Endüstriyel Sanatlar Eğitim Fakültesi Matbaası.
5. Clifford, R. Foreign Languages and Distance Education: The Next Best Thing to Being There. ERIC Digest. ED327066, 1990.
6. Rybak S. Foreign languages by radio and television: A national support strategy for adult homelearners. British Journal of Language Teaching, (22) 3, 1984, pp.151-159.
7. Selman M. Learning Languages at a distance. TESLTalk, (15)", 1988, 3, p.73-87.

РЕЗЮМЕ

ПРЕПОДАВАНИЕ ИНОСТРАННЫХ ЯЗЫКОВ (АНГЛИЙСКОГО) В ДИСТАНЦИОННОМ ОБРАЗОВАНИИ

Намазова А.Я., Балакишиева М.А.

Сумгаитский государственный технический колледж
при Сумгаитском государственном университете

Это индивидуальная и социальная необходимость человека постоянно чему-то учиться на протяжении всей жизни. Каждый преподаватель иностранного языка (английского) должен иметь ясный менталитет и знать возможные способы поддержки квалифицированной учебной среды. Преподаватель иностранного языка (английского) как педагог должен создать среду обучения, адаптированную к потребностям своих учеников. Сегодня он охватывает основные потребности учителей иностранного языка (английского языка) в том, чтобы они могли обеспечить полезную среду обучения в соответствии с требованиями своих учеников: время, ресурсы и информация. Таким образом, учебная среда, соответствующая потребностям и требованиям многих людей, может быть обеспечена с помощью дистанционного обучения. В статье рассмотрен вопрос применения дистанционного образования в процессе обучения иностранным языкам (английскому языку), проблема и пути его изучения.

Ключевые слова: *образование, дистанционное образование, педагог, педагогический процесс, обучение*

SUMMARY

TEACHING FOREIGN LANGUAGES (ENGLISH) IN DISTANCE EDUCATION

Namazova A.Y., Balakishiyeva M.E.

Sumgait State Technical College at Sumgait State University

It is an individual and social necessity for a person to constantly learn something throughout his life. Every English teacher should have a clear mindset and know the possible ways to develop the learning environment. As an educator, an English teacher must create a learning environment tailored to their specific needs. The basics for providing a useful learning environment for English teachers today according to their needs: time, resources and information resources. Thus, the learning environment that meets the needs and requirements of many people is provided by the introduction of distance learning. The article examines the application of the English language teaching process, distance learning problems and ways of distance learning.

Keywords:*education, distance education, pedagogue, pedagogical process, training*

MÜASİR DÖVRDƏ İBTİDAİ SİNİF MÜƏLLİMİNİN ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASININ PEDAQOJİ ASPEKTLƏRİ

Tağıyeva Təranə Əsgər qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
tarana.tagiyeva.56@mail.ru

Açar sözlər: *təhsil, tərbiyə, tərbiyəçi, bağban, peşə yaradıcılığı, sərişta*

Sağlam, gümrah, elmli cəmiyyət qurucuları yetişdirmək indi təhsilimizin qarşısında duran əsas vəzifələrdəndir. Təhsil prosesinin əsas siması isə müəllimdir. İnsanın şəxsiyyət kimi formalaşmasında müəllimin rolu danılmazdır. Və elə bir insan tapılmaz ki, onun müəllimi olmasın. Ulu öndər Heydər Əliyev demişdir : "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizin ös müəllimi vardır və biz bütün ömrümüz boyu unun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq".

Cəmiyyətin qarşıya qoyduğu sosial-iqtisadi inkişafı sürətləndirmək, insan və onun tərbiyəsinə cəmiyyətin xüsusi diqqət verməsi bu gün üçün çox böyük aktuallıq kəsb edir. Bu cəhətdən təhsilin ilk pilləsi olan ibtidai siniflərdə gənc nəslin bilik, bacarıq və vərdişlərə yiyələnməsi xüsusi aktuallıq kəsb etməklə yanaşı, bizim hər birimizin qarşısında çox mühüm vəzifələr qoyur.

Uşağın məktəb həyatının necə olması ilk müəllimdən, yəni ibtidai sinif müəllimindən asılıdır. Ibtidai sinif müəllimi – kiçik yaılı məktəblilərin təlim və tərbiyəsi ilə məşğul olan pedaqoqdur. O. 6-10 yaşlı uşaqlara baza bilikləri verir ki, bunsuz onların sonrakı təhsili mümkün deyildir. Məktəb həyatına qədəm qoyan uşaqlar valideynlərindən sonra ən çox müəllimlə ünsiyyətdə olurlar. İbtidai sinif müəllimi birinci sinif şagirdlərini ilk dəfə olaraq məktəbdə qarşılayır, ona həmyaşıdları ilə münasibət qurmağa yadımçı olur, onun təlim prosesinə qoşulmasına kömək edir.

İbtidai sinif müəllimliyi pedaqogikanın çox çətin, məsuliyyətli, maraqlı bir sahəsidir. Bu problemin çətinliyi ondadır ki, valideynlər öz canlarından əziz tutduqları övladlarının gələcək taleyini bu günkü tələbə - gələcək müəllimin ixtiyarına verirlər. Ona gorə də gələcəyin sinif müəllimi olan bu günkü tələbə-gənclər dərk etməlidirlər ki, onlar bacarıqsız, öz qüvvəsinə inamı olmayan, hər an fikrini dəyişən kiçik yaşlı uşaqlardan vətən, xalq üçün müqəddəs olan şəxsiyyətlər yetişdirməlidirlər. Təsadüfi deyildir ki, bu gün dünyanın görkəmli pedaqoq və psixoloqları ibtidai siniflərdə təhsil və tərbiyə işinə hərtərəfli hazırlıqlı, mükəmməl bilikli, istedadlı və həm də məsuliyyətli müəllimlərin cəlb edilməsi tələbini irəli sürürlər. Təcrübə göstərir ki, müəllimin sərişta və peşəkarlığı aşağı səviyyədə olduqda, cəmiyyətin tələblərindən irəli gələn vəzifələrin həyata keçirilməsi istənilən nəticəni verə bilmir. Həmçinin həyat bunu da tələb edir ki, bu günkü tələbə - gələcək müəllim dərk etməlidir ki,məktəbin ən qiymətli və ən dəyərli şəxsiyyətləri şagird və müəllimdir, onların birgə əməyidir. Pedaqogika və psixologiya dərsliklərində dəfələrlə göstərilmişdir ki, uşaq tərbyənin vasitəsi deyil,əksinə, məktəb və müəllimlər uşaqlara uygunlaşdırılmalıdır. Məktəb müəllimlərinin həyat təcrübəsi bunu da təsdiq edir ki, müəllim öz işinin ustası olmaq üçün öz mənəvi aləmini daim zənginləşdirmək qayğısına qalmaq məqsədilə ilk növbədə pedaqogika və psixologiya elmlərini dərindən bilməli və onu tətbiq etməyin yol və vasitələrinə yiyələnməlidir. Bu ona görədir ki, pedaqogika elmi təlim-tərbiyə sahəsində zəruri nəticələrin necə alındığını izah etməklə yanaşı, həm də bu və ya digər problemlərin yaranma səbəblərini göstərir, onun çətin və ziddiyyətli məqamlarının aradan qaldırılması yollarını müəyyən edir.

Pedaqogikada tərbiyə problemi insan mənəviyyatını istiqamətləndirən elə bir inkaredilməz anlayışdır ki, onun gücü ilə insan təbiət və cəmiyyətdə baş verən bütün hadisələri öz güclü ağıl və zəkası ilə dəyişdirə bilir. Belə bir məsuliyyətli iş, sistemli, ağıllı şəkildə ilk dəfə birinci sinif müəllimi tərəfindən həyata keçirilir. Bunu nəzərə alaraq deyə bilərik ki, pedaqogika və psixologiya elmi həm mürəkkəb, həm də çətin bir elmdir. O, başqa elmlər kimi konkret şəraiti, nümunə və qaydaları təsvir etmir. O, pedaqoji, psixoloji münasibətlərdə nəyin əsas və düzgün olduğunu göstərməklə yanaşı, həm də bu prosesdə tərbiyənin məqsəd və vəzifələrini, uşaq həyatının rəngarəngliyini dəqiq, səlis, nəzəri fikirlərlə açıqlayır.

Bunu da bilmək lazımdır ki, gənc yaşlaından uşaqların elmə yiyələnməsi təbiətin və bəşər cəmiyyətinin inkişaf qanunlarını dərk etməkdə onlara böyük imkan verir. Bu da aydındır ki, şagirdləri elmin əsasları ilə silahlandırmadan, yəni onları əqli ruhda tərbiyə etmədən cəmiyyətin tələblərindən irəli gələn vəzifələrin həyata keçirilməsi qeyri-mümkündür. Axı müəllim uşaqların əqli tərbyəsini , onların təfəkkürü və yaddaşını, məsuliyyət hissini, bütün daxili aləmini zənginləşdirən ilk böyük şəxsiyyətdir.

Pedaqogika və psixologiya elmlərindən bizə bu da məlumdur ki, təlim prosesinin əsasını təşkil edən və bir-biri ilə üzvi əlaqədə olan məqsəd, məzmun, forma, metod, vasitə kimi komponentlərin ümumi vəzifəsi gənc nəsli kamil insan kimi formalaşdırmaqdan ibarətdir. Çünki kamil insanın yüksək insani keyfiyyətlərini, mənəvi dəyərlərini özündə cəmləşdirən və fəaliyyət prosesində ona əməl edən yeganə şəxsiyyət ancaq müəllimdir.

Bu keyfiyyətlərə malik olan müəllim, o böyük şəxsiyyət, ilk növbədə, gənc nəslə nələri, nə üçün və necə öyrətməyin yollarını, onları mənəvi cəhətdən necə zənginləşdirməyi düşünür və təlimin məzmun və metodlarını tədris prosesinin aparıcı qaydaları kimi yerinə yetirir.

Bu gün qarşımızda duran ən ümdə vəzifələrdən biri tədris prosesində Milli kurikulumun tətbiqi nəticəsində insanların təhsillilik və tərbiyəlilik səviyyəsinin yüksəlməsinə nail olmaqdır. Axı orta ümumtəhsilin birinci pilləsi olan ibtidai təhsilin standartları demokratik prinsiplərə uygun gələn, sərbəst düşünən, inkişafa istiqamətlənmiş şəxslərin yetişdirilməsi üçün tam zəmanət verir. Müəllim əməyinə, onun şəxsiyyətinə və fəaliyyətinə hazırlığın ilk bünövrəsi orta məktəbin ibtidai siniflərindən başlayır desək, bizcə, səhv etmərik. Belə bir məsuliyyətli vəzifənin həyata keçirilməsi prosesi pedaqoji ustalıq, takt, işgüzar və qabiliyətli müəllimdən çox şey tələb edir. Şagirdlərin meyl və maraqlarını bilən hər bir müəllim həyatını pedaqoji sənətə bağlamağı arzulayan şagirdləri gələcək pedaqoji kadrlar kimi hazırlamaqda çox məsuliyyətli bir iş gördüyünü heç vaxt unutmamalıdır.

Bu gün həyat sübut edir ki, inkişafımızın dinamikliyini, elm və texnikanın inkişaf prosesini nəzərə alaraq müəllim öz siyasi və elmi səviyyəsini yüksəltmədən yaşaya və işləyə bilməz Bu baxımdan müəllimin işində peşə yaradıcılığı böyük əhəmiyyət kəsb edir. Peşə yaradıcılığı dedikdə, ilk növbədə müəllimin peşə və pedaqoji əməyi, davamlı əxlaqi, pedaqoji hazırlığı, onun mədəniyyəti, oriyentasiya sistemində düzgün istiqamət seçməsi nəzərdə tututlur. Peşəkarlıq -müəllimin lazımi biliyə, bacarıqlara, şagirdlərlə yaradıcı şəkildə işləyə bilmək texnologiyalarına sahib olması, pedaqoji prosesin incəliklərinə dərindən yiyələnməsidir. Müasir dünyada müəllimin peşəkar inkişafı aşağıdakı istiqamətlərdə gedir:

-nəzəri-elmi biliklərin inkişafı;

-metodiki tələblərin müasir tələblərə uyğunlaşdırılması;

-İKT-dən istifadə bacarıqlarının formalaşdırılması;

-pedaqoli və psixoloji yanaşma bilik və bacarıqları;

-zəruri ümumi biliklər.

Bununla yanaşı,ibtidai sinif müəllimliyi peşəsinə qoyulan tələblər də müəyyən olunmuşdur. İbtidai sinif müəllimi:

-ibtidai sinif şagirdləri üçün nəzərdə tutulmuş rəsmi təhsil proqramlarını həyata keçirir;

-dərsləri və sinifdənxaric tədbirləri planlaşdırır, didaktik materialları, tədris proqramlarını analiz edir;

-şagirdlərin fərdi xüsusiyyətlərini, onların bilik səviyyələrini müəyyənləşdirir və inkişaf etdirir;

-inkişafında bəzi qüsurları olan və ya inkişafdan geri qalan uşaqlarla iş aparan mütəxəssislərlə əməkdaşliq edir:

-uşağın tərbiyəsi ilə əlaqədar olaraq valideynlərlə iş birliyi yaradır, "müəllim-şagird-valideyn" qarşılıqlı münasibətləri sistemini qurur.

İbtidai sinif müəllimi pedaqoq, təşkilatçı, psixoloq, uşaqların dostu, himayəçisi və məsləhətçisi, eyni zamanda uşaq konfliktlərinin yaranması zamanı ədalətli hakim olmalıdır. O, fənnini, peşəsini və uşaqları sevməlidir. İbtidai sinif müəllimi şagirdlərinin potensial imkanlarının, istedad və bacarıqlarının üzə çıxmasına şərait yaratmalı, "ilk kəşf" sevinci keçirməsinə imkan verməli, onda yeni biliklərə yiyələnmək həvəsi yaratmalıdır.

Müəllim əldə olunmiş bilik və bacarıqlardan düzgün istifadə etməli və səmərəli şəkildə onları şagirdlərə çatdırmağı bacarmalıdır. Müəllim təşkilatcılıq qabiliyyəti sayəsində uşaqları məşğul edir, vəzifələri bölüşdürür, işi planlaşdırır, görülən işi yekunlaşdırır. Bununla yanaşı, ibtidai sinif müəlliminin davranışı, hərəkətləri, şagirdlər üçün yüksək məlumatlılığı, ideya inamı, prinsipiallıq nümunəsi, onun ideal olması üçün vacibdir. O, yüksək əqidə, məslək sahibi, vətəndaş olmalı, gəncliyə vətənini sevdirməlidir. Müəllim yaddan çıxarmamalıdır ki, ilk gündən onun hərəkətləri kiçik yaşlı uşaqların daim nəzarəti altında olur. Uşaqlar onun müsbət və mənfi hərəkətlərinə dəqiq qiymət verirlər. Müəllimin xarici görkəmi də uşaqların tərbiyəsinə güclü təsir göstərir. Səliqəsiz, saçları dağınıq olan müəllim savadlı olsa da, şagirdlərə heç cür yaxşı təsir bağışlaya bilməz. Bu cür müəllim uşaqlara nümunə ola bilməz.

Müəllim əməyinin müstəsna əhəmiyyətindən danışaraq A.Disterverq yazırdı; "Özündə olmadığı şeyi başqasına vermək mümkün olmadığı kimi, özü inkişaf etməmiş, tərbiyəsi və təhsili olmayan şəxs başqalarını

inkişaf etdirə, tərbiyələndirə və təhsilləndirə bilməz... O, yalnız o vaxta qədər həqiqəti tərbiyələndirməyə və təhsilləndirməyə qabildir ki, hələ öz şəxsi tərbiyəsi və təhsili üzərində işləyir".

İbtidai sinif müəllimi hər addımında gördüyü işin məqsədini yaddan çıxarmamalıdır. Bu işi ona görə yaddan çıxarmaq olmaz ki, uşaqlar sinifdə müəllimin bütün hərəkətlərini görüb, nəticə çıxararaq gəldikləri qənaəti evdə valideynləri ilə bölüşürlər. Bunu nəzərə almadan müəllim uşaqları qiymətləndirmədə və yaxud onlara münasibət göstərmədə obyektiv olmasa,bu ən böyük ədalətsizlik olmaqla yanaşı, tərbiyə işinə də böyük zərər yetirər.

Müəllimin şəxsi nümunəsi bütün işlərdə böyük və həm də təsiredici əhəmiyyət kəsb edir. Müəllim öz qabiliyyəti, davranışı, geyimi, danışıq tərzi, tədrisdə seçdiyi üsul və vasitələrlə şagirdi cəlb etməlidir. O, şagirdin fərdi-psixoloyi vəziyyətini, onun maraq və tələblərini nəzərə almalı, nailiyyət səviyyəsinə təsir edən mənfi amilləri aradan götürməyi bacarmalıdır. Şagird müəllimə inanmalıdır. Müəllim şagirdə subyekt kimim yanaşırsa, ona fikirlərini söyləməkdə müstəqillik verirsə, ondakı yaxşı cəhətləri görə bilirsə, bu, müəllimə olan inamın artmasına səbəb olar. Düzgün yanaşma tərzi şagirdin təlim nəticələrinə müsbət təsir göstərir.Şagirdlər özlərinin qəbul olunduqlarını və obyektiv qiymətləndirilməsini hiss etdikdə, yeni nailiyyətlərə həvəslənirlər.

Tərbiyə işində sinif müəlliminin fəaliyyətini fənn müəlliminin fəaliyyəti ilə eyniləşdirmək olmaz. Belə ki, I sinif müəllimi kiçik yaşlı məktəblilərlə hər gün orta hesabla 3-4 saat məşğul olduğu halda, fənn müəllimləri həftədə bir, bəzən də iki saat məşğul olurlar. Bu çoxsaylı görüşlər sinif müəllimini uşaqlar üçün doğmalaşdırır. Bu cəhət həm də onun məsuliyyət hissini artırır. Kiçik yaşlı uşaqların məktəbə qəbulunun ilk günü də sinif müəllimi üçün çox məsuliyyətli bir gündür. Bunu sinif müəllimi heç vaxt yaddan çıxarmamalıdır. Uşaqların məktəbə qəbulunun ilk günü müəllimdən böyük ustalıq, dəqiqlik və diqqətlilik tələb edir. İlk dərs günü həyatı boyu uşağın yadında qaldığından elə etmək lazımdır ki, həmun gün uşaq yaddaşında parlaq və şən bir gün kimi iz buraxsın.

Bütün bunlar onu göstərir ki, yuxarı sinifdə dərs deyən müəllimlərdən fərqli olaraq ibtidai sinif müəllimi çətin şəraitdə işləyir. Axı birinci sinifdə dərs deyən müəllim ilk gündən məktəbə, müəllimə, sinfə çətin alışan, hətta onlardan qorxub ağlayan, oxumaq istəməyən, uzun müddət kollektivə qaynayıb-qarışmayan şagirdlərlə tez-tez rastlaşır. Müəllimlərdən belə uşaqlara fərdi yanaşmaq, ağlayanın göz yaşını silmək, özünə inamı olmayana ürək-dirək vermək və onlarla təmkinli rəftar etmək tələb olunur.

V.Q.Belinski müəllimi bağbanla müqayisə edərək yazırdı: "Tərbiəçini bağbanla müqayisə etmək nə qədər köhnə müqayisə olsa da, hər halda son dərəcə doğrudur. Bəli, körpə, toxumdan yenicə boylanan cavan ,açıq-yaşıl rəngli cücərti, tərbiyəçi isə bu zəif bitkiyə qulluq etmək üçün onun başına dolanan bağbandır". V.Q.Belinskinin qeyd etdiyi fikirlərdən gəldiyimiz qənaət belədir ki, sinif müəllimi bağban kimi iş prosesində şagirdin ətrafında dolanmalıdır.

Əsrlər boyu müəllim cəmiyyəttə sayılıb-seçilən insanlardan olub. Bu gün də müəllimlər cəmiyyətdə özlərinə layiq yer alıblar. Onlar öz vəzifələrinin məsuliyyətini, çətinliyini dərk edir və zəhməti, fədakarlığı hesabına gələcək nəslin cavabdehliyini daşıyirlar. Müəllimlər indiki zamanın estafetini gələcəyə verən əvəzedilməz bir şəxsiyyətdir və heç bir şeylə müqayisəyəgəlməz bir insandır!

Ədəbiyyat

1. Belinski V.Q. "Seçilmiş əsərləri", Bakı, 1948
2. Əliyev H. "Fəal həyat mövqeyinin formalaşdırılması: Mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri." Bakı: Azərnəşr, 1979
3. Azərbaycanda Təhsil siyasəti. I kitab. Bakı, Təhsil, 2005
4. İliyev V. Müəllim hazırlığı prosesində peşə keyfiyyətinin formalaşması yolları. Bakı, 2005
5. Quliyev S.M., İsmixanov M. Müəllimlik ixtisasına giriş, Bakı, 2015
6. İlyasov M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı, 2018

РЕЗЮМЕ

ПЕДАГОГИЧЕСКИЕ АСПЕКТЫ ФОРМИРОВАНИЯ ЛИЧНОСТИ УЧИТЕЛЯ НАЧАЛЬНЫХ КЛАССОВ В СОВРЕМЕННУЮ ЭПОХУ

Тагиева Т.А.

Азербайджанский государственный педагогический университет

Темпы развития общества требуют, чтобы учебно-воспитательная работа, проводимая в школе, согласовывалась с растущими запросами общества. Все это требует от педагогов постоянной

работы над собой, повышения профессионализма, а также расширения творческого потенциала и поиска инноваций. В статье указано, что учитель должен знать все тонкости своей профессии, умело выполнять педагогическую деятельность, должен быть в состоянии решить проблему научно оптимальными методами. Помимо всего этого, учитель начальных классов должен своим поведением подавать пример.

Ключевые слова: *образование, воспитание, воспитатель, садовник, профессиональное творчество,компетентность*

SUMMARY

PEDAGOGICAL ASPECTS OF THE FORMATION OF THE PERSONALITY OF A PRIMARY SCHOOL TEACHER IN MODERN TIMES

Tagiyeva T.A.

Azerbaijan State Pedagogical University

The pace of development of the society reguires thaf the training and educational work carried out at school be coordinated with the growing demands of society. All this reguires the theacher to constanly work on himself, to improve his professionalizm, as weii as to expand creative opportuniites and look for innovations. The article shows that a teacher must have a deep knowledge of the intricacies of the profession, master the art of teaching, and be able to solve the problem, scientifically with optimal methods. In addition to all this, the primary school teacher should be an example by his behavior.

Keywords: *education, upbringing, tutor, gardener, professional creativity, competence*

UNİVERSİTET MÜƏLLİMİNİN PEDAQOJİ USTALIĞININ FORMALAŞMASI PROBLEMİ

Məmmədova Aytən Ceyhun qızı

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

aytanm@rambler.ru

Açar sözlər: *pedaqoji ustalıq, fəaliyyət, ünisyyət üslubu, təşkilatçılıq, aktuallıq.*

Ali təhsil müəssisəsi səviyyəsində pedaqoji ustalıq ali məktəb müəlliminin professional fəaliyyətinin yüksək nümayiş səviyyəsi deməkdir. Zahirən bu keyfiyyət pedaqoji fəaliyyətin həyata keçirilməsinin gedişində meydana çıxan müxtəlif pedaqoji məsələlərin uğurlu və yaradıcı həllində, təlim-tərbiyə işinin məqsədlərinə uğurla çatmaqda özünü göstərir.

Pedaqoji ustalıq özündə aşağıdakıları ehtiva edir:

- zəngin dünyagörüşü ilə şərtlənən yüksək ümumi mədəniyyət;
- tədris edilən elm sahəsində ətraflı və dərin peşəkar bilik və vərdişlər;
- ümumi və yaşla bağlı pedaqoji biliyə malik olmaq və onları təcrübədə istifadə edə bilmək bacarığı;

Ali məktəbdə pedaqoq pedaqoji məqsədin fəal və şüurlu daşıyıcısıdır. Qarşıya qoyulmuş məqsədin aydın dərk edilməsi ali məktəb müəlliminin peşəkar analitik-sintetik fəaliyyətinin inkişafına təkan verir.

Pedaqoji məqsədlərin həyata keçirilməsi bir çox hallarda təqdim olunan materialın dərindən ümumiləşdirməsini və zəruri qaydada sistemləşdirilməsini, irəli sürülən əsas ideyaların və əldə edilən nəticələrin daha dəqiq formulə olunmasını, materialın mənimsənilməsinə yönəlmiş dəqiqləşdirici sualların verilməsini zəruri edir və hətta, nəticə etibarilə, yeni fərziyyələrin yaranmasına gətirib çıxarır.

Vacib bir məqamın vurğulanmasına ehtiyac var: əgər ali təhsil müəssisəsində həyata keçirilən pedaqoji fəaliyyət elmi işlə birlikdə aparılmırsa, vəhdət təşkil etmirsə, professional pedaqoji ustalıq tez sönür.

Rus tədqiqatçısı N.V. Kuzminanın rəhbərliyi altında yerinə yetirilmiş tədqiqatlar ali məktəb müəllimlərin pedaqoji fəaliyyəti və ustalığı probleminin həll edilməsinə yönəlmiş üsul və vasitələrin araşdırılmasına böyük təsir göstərmişdir. Belə ki, bu tədqiqatlar ali məktəbdə həyata keçirilən pedaqoji fəaliyyətin bir sıra qanunauyğunluqlarını ortaya çıxarmış, ali məktəb müəlliminin püşəkar fəaliyyətinin effektivliyi meyarlarını təyin etmiş, pedaqoji fəaliyyətin nəzəri modelini dəqiqləşdirmək və onu pedaqoji praktikada sınaqdan keçirməyə imkan yaratmışdır.

Sözü gedən model ali məktəb müəlliminin pedaqoji fəaliyyətinin psixoloji strukturu kimi çıxış edir ki, bu struktur həmin müəllimin pedaqoji məsələlərin həllinə yönəlmiş hərəkətlərinin məntiqi baxımdan qarşılıqlı bağlantısını, sistemini və artdıcıllığını təmsil edir. Eyni zamanda bu strukturda pedaqoji sistemin məqsədlərinin realizə edilməsi prosesində yaranan pedaqoji məsələlərin həlli üçün zəruri olan bütün bacarıqlar öz əksini tapır [4].

Ali məktəb müəlliminin pedaqoji fəaliyyətinin zəruri tərkib hissəsini təşkil edən qnostik fəaliyyəti ilk növbədə onun öz iş işində təlim metodikasını bilmək və bu biliyi tətbiq etmək bacarığı ilə sıx bağlıdır. Başlıca metodoloji prinsipləri bilmək və onların həyata keçirilməsi üçün zəruri olan üsul və vasitələri başa düşmək sözü gedən fəaliyyətin əsasını təşkil edir. Təqdim edilmiş dərsin materialının təhlil edilməsinin özü də vacib qnostik bacarıqdır.

Pedaqoji təhlilin üç əsas funksiyası fərqləndirilir [2]:

• pozitiv-nəzəri fəaliyyət – pedaqoqun hərəkətlərinin pedaqoji nəzəriyyəyə uyğun olması, pedaqoji prosesin uğurlu olmasının şərtlərinin aydınlaşdırılması;

• praktik-hərəkət fəaliyyəti müsbət nümunələrin qurulması və inkişaf etdirilməsindən, həmçinin konkret şərtlərə uyğun olaraq priyom və hərəkətlərin yenidən qurulmasından ibarətdir.

• təşkilatçılıq fəaliyyəti tələbələri dərsdə effektiv şəkildə məşğul etmək bacarığından ibarətdir

Müstəqil fəaliyyət prosesində pedaqoqun əsas inkişaf mərhələləri bunlardı: peşəni mənimsəmə, onu inkişaf etdirmə, ümumiləşdirmə və təcrübəni bölüşmə, nəticələri əldə etmə.

Müəllimin ustalığının funksional meyarları rolunda onun əlində olan və optimal nəticələr əldə etmək üçün istifadə edilən vasitələrin arsenalı çıxış edir. Müəllimin pedaqoji ustalığının səviyyəsi onun bacarıqlarının formalaşması səviyyəsi ilə bağlıdır.

Dərslərin praktik xarakterini nəzərə alaraq deyə bilərik ki, müəllimin təşkiletmə bacarıqları çox böyük əhəmiyyat daşıyır. Təşkiletmə bacarıqlarına aşağıdakılar aiddir: tapşırıqlar vermək, onların yerinə yetirilməsi prosesinə nəzarət etmək, fəaliyyətin nəticələrini qiymətləndirmək, səhvləri düzəltmək, əyanilikdən istifadə edə bilmək, tələbələri müxtəlif ictimai və faydalı əmək növlərinə cəlb etmək, kollektiv yaratmaq və onu şəxsiyyətin strukturunu formalaşdırmaq üçün alətə çevirmək.

Dəqiqlik, səliqəlik, işə məsuliyyətli yanaşmaq ali məktəb pedaqoqunun şəxsiyyətinin danılmaz keyfiyyətləridir və onun təşkilatçılıq bacarığının nəticəsidir.

Ali məktəb pedaqoqunun professionallığının yüksək səviyyəsi onun şəxsiyyətinin motivlərinin strukturunun ayrılmaz bir xüsusiyyətidir və onun peşəkar fəaliyyətlə bağlı maraqlarının vəhdətini ifadə edir. Öz peşəkar səviyyəsinin tələb olunan yüksək səviyyədə formalaşması və inkişafı üçün ali məktəb pedaqoqu öz fəaliyyətini elə təşkil etmək lazımdır ki, bu fəaliyyətə münasibətdə müasir tələblər və onun şəxsiyyətə aid mənası arasında olan ziddiyətlər aktuallaşsın [3].

Müəllimin pedaqoji ustalığını saysız-hesabsız məsələlərin yüksək uğurluq səviyyəsində həllinin yeni metodları və formalarını axtara bilmək qabiliyyəti kimi təyin etmək olar. Professional bacarıqlar fəaliyyət prosesində tədricən formalaşır və inkişaf edir, ümumi və xüsusi xarakter daşıyırlar, bu bacarıqların məcmusunu əldə etmək ustalığın yüksək səviyyəsinə çatmağa yardım edir və tələbənin şəxsiyyətinin və bacarıqlarının formalaşmasına effektli təsir göstərərək, ona özünü realizə etməyə imkan yaradır [5].

Ədəbiyyat

1.Зазюна И. А. Основы педагогического мастерства. Киев, 1987. 205 с.

2. Смирнов С. Д. Педагогика и психология высшего образования: от деятельности к личности. М.: Аспект Пресс, 1995. 271 с.

3.Есарева 3. Ф. Особенности деятельности преподавателя высшей школы. Л.: Изд-во Ле-нингр. ун-та, 1974. 112 с.

4 Кузьмина Н. В. Профессионализм личности преподавателя и мастера производственного обучения. М. : Высшая школа, 1990. 119 с.

5. Митина Л. М. Учитель как личность и профессионал. М. : Дело, 1994. 216 с.

РЕЗЮМЕ
ПРОБЛЕМА ФОРМИРОВАНИЯ ПЕДАГОГИЧЕСКОГО МАСТЕРСТВА ПРЕПОДАВАТЕЛЯ УНИВЕРСИТЕТА
Мамедова А.Д.
Сумгаитский государственный университет

В данной статье рассматривается такое понятие как «педагогическое мастерство», способы и необходимые качества для его достижения, а также необходимые компоненты вышеуказанного мастерства. Рассмотрены также такие существенные составляющие деятельности преподавателя вуза, как позитивно-теоретическая, практически-действенная, организационная, а также выделены умения, выступающие в качестве результата овладения профессионально значимыми знаниями. Кроме того, выделены также стили общения, присущие личности преподавателя вуза, которые направлены на решение коммуникативных задач.
Ключевые слова: *педагогическое мастерство, деятельность, стиль общения, актуальность, организационные способности.*

SUMMARY
THE PROBLEM OF THE FORMATION OF PEDAGOGICAL SKILLS OF A UNIVERSITY TEACHER
Mammadova A.J.
Sumqayit State University

This article is dedicated to the matter of pedagogical skill, ways and qualities necessary for achieving it, as well as components of the mentioned skill. We have considered such parts of teaching activity, as positive theoretical, practical efficient, organizational, and also the skills, arising as a result of mastering knowledge. Besides, the communication styles of a teacher`s personality directed to solution of communicative tasks are underlined.
Keywords: *pedagogical ability, activity, communication style, abilities, actuality.*

MORFOLOGİYANIN TƏDRİSİNDƏ FƏAL/İNTERAKTİV TƏLİMİN ROLU

Əhmədova Elnarə Hüseynağa qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
ahmedovaelnara03@gmail.com

Açar sözlər: *Azərbaycan dili, morfologiya, fəal/interaktiv təlim, təlim metodları, tədris*

Elm inkişaf etdikcə, təhsil sistemi də dəyişir, təkmilləşir. Bununla əlaqədar olaraq, təlimin məzmunu, tədris proqramları da müasir tələblərə cavab verəcək şəkildə dəyişdirilir. Hal-hazırda interaktiv təlim metodları dünyanın inkişaf etmiş ölkələrinin təhsil sahəsində ən çox önəm daşıyan təlim üsullarındadır. Elmə, təhsilə olan marağı artırmağın, təhsilin səviyyəsini yüksəltməyin ən doğru yolu fundamental dəyişikliklər aparılmaqla ənənəvi təlim üsullarında əl çəkib dərsləri yeni təlim metodları əsasında qurmaqdır. Fəal təlim metodları təlim prosesinin inkişafına və səmərəliliyinə təminat yaradan ən güclü faktorlardan hesab oluna bilər. Fəal təlim metodlarının tətbiqi şagirdlərdə elmə, təhsilə maraq oyadır, eyni zamanda onlarda müstəqil düşünmək, sərbəst fikir yürütmək, dərsdə əməkdaşlıq etmək kimi qabiliyyət və bacarıqları formalaşdırır.

İnteraktiv təlimdə mexaniki yaddaşın deyil, təfəkkürün inkişafı, şagirdlərin fəal dərketmə mövqeyi, biliklərin müstəqil əldə edilməsi, dərketmə və tədqiqat üçün müvafiq şəraitin yaradılması, təbii öyrənmə fəallığının artırılmasına təkan verən problemli şəraitin yaradılması,biliklərin yaradıcı tətbiqi, birgə fəaliyyət bacarığı, təfəkkürün sərbəstliyi vacib amillər kimi nəzərdə tutulur [1, s.12].

Fəal təlim tədrisin differensiallaşması, fərdiləşməsi deməkdir və şagirdlərin imkan və bacarıqlarının aşkara çıxarılmasına yönəldilməlidir.

Fəal təlimin sadalanan üstünlükləri onun tətbiqini zəruri edir.Yeni təlim metodlarının peşəkarlıqla tətbiq edilməsi məktəbdə şəraiti şagirdin təhsilə laqeyd münasibətini dəyişə bilər, pozitiv və fəal həyat

mövqeyini formalaşdırmağa imkan verər, təlimin keyfiyyətinin yüksəldilməsinə şərait yaradar. Bu üstün cəhətlər Azərbaycan dili dərslərinin tədrisində də fəal təlim metodlarından istifadəni zəruri edir.Bu baxımdan hazırda ümumtəhsil orta məktəblərində Azərbaycan dili fənninin tədrisində istifadə edilən dərsliklər mühüm rol oynayır.

Morfologiyanın əsaslı şəkildə tədrisi dil hadisələrinin şüurlu surətdə mənimsənilməsinə və düzgün yazı vərdişlərinin formalaşmasına imkan yaradır. Bu təlim prosesində nəzəri materialla əməli fəaliyyət vəhdət təşkil etməlidir. Müəllim bir tərəfdən də yeni öyrənilmiş nəzəri bilikləri təkrarlatmalı, digər tərəfdən isə yeni mənimsədilmiş qayda-qanunlar kontekstdə müəyyənləşdirilməlidir. Təkrarlama zamanı qrammatik təhlilin köməyi ilə həm morfoloji qayda-qanunlar, həm də orfoqrafik qaydalar şüurlu mənimsədilir. Buradan belə nəticə çıxır ki, morfologiyanın tədrisində lazımi vərdişlərin sistemləşdirilməsində və möhkəmləndirilməsində əsas prinsiplər təxminən aşağıdakı kimidir:

1.Morfologiyanın tədrisində öncədən qazanılmış biliklərin möhkəmləndirilməsinə xidmət edən üsul və priyomlar (müsahibə, fərdi sorğu və s.).

2.Ayrı-ayrı qrammatik məfhumların ümumiləşdirən yazı işlərinin aparılması(çalışma həlli, təhlil, yazı vərəqələri üzərində iş və s.).

Bu prinsiplər əsasında morfologiyanın tədrisi prosesində təkcə qayda və formalar öyrədilmir, həm də qazanılmış və yeni biliklər calışmalar vasitəsilə yoxlanıb möhkəmləndirilir. Morfologiya təliminin xarakteri qrup şəklində aparılan işlərdə daha qabarıq şəkildə təzahür edir. Bu zaman sinif kiçik qruplara ayrılır. Bu qrupları təşkil edən şagirdlərin hər birinə müxtəlif sualları və ya çalışmaları əhatə edən yazı vərəqələri təqdim olunur. Qrup üzvlərinin verilən tapşırıqların nəticələri ikinci qrup tərəfindən yoxlanılır və qiymətləndirilir. Bu prosesdə müəllim bir növ hakim mövqeyi tutur. Qrup nümayəndələri öz işlərinin nəticələri haqqında məlumat verdikdən sonra müəllim əldə olunan nəticələri müqayisə edir, buraxılan səhvləri müəyyənləşdirir və hər iki qrupu qiymətləndirir. Morfologiyanın tədrisi zamanı tətbiq olunan bu üsul şagirdlərin təlim prosesində morfoloji vahidlərin əlamətlərinin ayrı-ayrı dil faktları əsasında dəqiq müəyyənləşdirilməsi, eyni zamanda öz bacarıqlarını həyata keçirməsi, onların hər birinin müstəqil inkişafını təmin edir.

Hər bir əvvəlki mövzu elə tədris olunmalıdır ki, sonrakı anlayışları asan mənimsəməyə, oxşar və ya fərqli faktları qarşılaşdırmağa imkan yaratsın. Linqvistik anlayışlar spesifik əlamətlərə malik olsa da, onlar arasında daxili bağlılıq var. Bu baxımdan linqvistik anlayışların biri digərinin movcudluğu üçün şərtdir. Morfoloji vahidlər, dilin vahid sisteminin gözlənilməsi prinsipinə uyğun olaraq, bölmə və mövzular şəklində əlaqəli tədris olunmalıdır [2, s.23]. Ona görə də hər bir əvvəlki mövzunun fərdi əlamətləri hərtərəfli öyrədilməlidir ki, sonrakı mövzunun mənimsədilməsinə imkan yaratsın. Məsələn, şagirdin ismin və sifətin qrammatik təbiəti haqqında bilikləri nisbidirsə, substantivləşmiş sifətlərlə isim, və ya atributivləşmiş isimlərlə sifət qarışdırılacaq, söz qruplarına dair informasiya ötəri xarakter daşıyacaq. Bu baxımdan ismin tədrisində sifətlə oxşar və fərqli əlamətlərə diqqət yetirilməli, ismin atributivləşənə qədər malik olduğu və atributivləşdikdən sonra itirdiyi özünəxas və qazandığı sifətə məxsus morfoloji xüsusiyyətlər dəqiq öyrədilməlidir.

Nitq hissələrinin əlaqəli tədrisində ən mühüm amil onlar arasında mümkün əlaqənin yollarını əsaslandırmaqdır. Sifəti də isimlə əlaqəli öyrənmək üçün sifət haqqında məlumatın məzmun və həcmini dəqiq bilmək, əlaqəli tədris oluna biləcək məsələləri aydın təsəvvür etmək lazımdır. Sifətin digər əlamətləri- quruluşu, mənaca növləri, qrammatik vasitələri, isimləşməsi haqqında məlumatları nəzərə alan müəllim müqayisə və əlaqəni sonrakı dərslərdə də davam etdirməlidir. Buna misal olaraq Azərbaycan dilində həm isim, həm də sifət düzəlltməyə xidmət edən ümumi şəkilçilərin dildəki qrammatik mövqeyi dəqiq müəyyənləşdirilməlidir. Məsələn, -lı[4] və -lıq, -lil, -luq, -lük şəkilçiləri vasitəsilə həm isim, həm də sifət düzəlir: kəndli, yerli, şəhərli, çəmənlik, otluq, meyvəlik (isim); yağlı, duzlu, dadlı; illik, həftəlik, kabablıq (sifət) və s. Bu sözlər formaca eyni şəkilçilərdən düzəlsə də, mənaca bir-birindən fərqlənir. Birincilər substantiv, ikincilər atributiv sözlər yaradır. Deməli, müəllim bu bəhsi izah edərkən şagirdlərin diqqətini ona yönəltməlidir ki, həmin şəkilçilərin morfoloji əlamətini təyin etmək üçün onların yaratdığı sözlərin mənasına diqqət edilməli və bunun əsasında yaranmış yeni sözün hansı nitq hissəsinə aid olduğu müəyyən edilməlidir.

Feil bəhsində feilin bir nitq hissəsi kmi formal əlamətini, zaman anlayışını, həmin anlayışa daxil olan şəkilçilər və onların yazılışını, məsdərlərin isim kimi işlənməsi, ismin hal və mənsubiyyət şəkilçilərini qəbul etdiyi zaman zaman q-nin ğ-ya (oxumaq – oxumağı, gülmək – gülməyi), k-nin y-yə keçməsi "İsim" bəhsi ilə vəhdətdə öyrənmək yaxşı nəticə verə bilər.

Söz həm morfoloji, həm də lüğəvi-semantik mənasını əsas nitq hissələri içərisində tapır, ona görə də sözün forma və məzmunca fərqini tam dəqiqləşdirməkdə həmin bəhs mühüm bir rol oynayır. Əsas nitq hissələrini birini digərindən təcrid olunmuş şəkildə qruplaşdırıbtədris etməklə dilin qrammatik quruluşunu dərindən mənimsətmək mümkün deyildir. Hər bir qrammatik məfhumun tam aşılanmasında bir neçə qaydanın sadalanması vacibdir. Belə qayda-qanunlarbir-birini tamamlayır və bütövlükdə morfologiyada bütün nitq hissələrini əhatə edən oxşar fərqli cəhətlər müqayisə edilir və lazımi nəticələr çıxarılır. Sözün qrammatik mənası tək-tək deyil, əlaqəli surətdə öyrədildikdə əşya və hadisəyə münasibət dərhal ortaya çıxır. Sözün məzmunu onun qrammatik kateqoriyasını dəqiqləşdirir. Bu və ya digər kateqoriyaya mənsub olan istər söz, istərsə də şəkilçilər bir qrammatika ətrafında birləşdirilib təkrarlanır.

H.Balıyev yazır ki, «…morfologiyanın tədrisi zamanı bir sıra morfoloji məfhumların sintaktik məfhumlarla qarşılaşdırılması morfoloji məfhumların özünün dəqiq mənimsənilməsinə kömək etmiş olur» [3, s.277]. Bu baxımdan sözün forma və məzmunun dəqiq müəyyənləşdirilməsində onun daşıdığı sintaktik vəzifə də mühüm rol oynayır. Bəzən şagirdlər sifətlə təyinin, isimlə mübtəda, yaxud tamamlığın, feillə xəbərin qrammatik funksiyalarını qarışdırır. Məsələn, *Mənim istəyim azad yaşamaqdır* cümləsində yaşamaqdır sözü sintaktik cəhətdən ismi xəbər, morfoloji cəhətdən məsdərdir və *nədir?* sualına cavab verir. Əvvəlki mövzulardan şagirdə məlum olur ki, isim və feildən başqa digər nitq hissələri ifadə olunan xəbər ismi, feillə ifadə olunan xəbər isəfeili xəbərdir. Məsdər morfoloji cəhətdən əsas nitq hissəsi olan feilə aid olub, onun təsriflənməyən (şəxsə və kəmiyyətə görə dəyişməyən) formasıdır. O həm feilin, həm də ismin xüsusiyyətlərini daşıyır; feil kimi təsdiq və inkarda, təsirli və təsirsiz olur, növ şəkilçiləri qəbul edir,isim kimi hallanır, mənsubiyyətə görə dəyişir, ismin sintaktik vəzifəsini icra edir (cümlədə mübtəda və tamamlıq yerində işlənir) və xəbərlik şəkilçisi vasitəsilə cümlənin ismi xəbəri olur. Məsdər bəhsinin tədrisi zamanı müəllim diqəti daha çox sonuncuya yönəltməlidir. Morfologiyanı tədris edən müəllim morfoloji vahidləri elmi cəhətdən qüsursuz, yüksək səviyyədə şərh etməli və bununla da müqayisə, ümumiləşdirmə, təhlil kimi müxtəlif təfəkkür əməliyyatlarının formalaşmasına nail olmalı, şagirdləri müstəqil işləməyə sövq etməli, elmi biliklərə həvəsi və tələbatı artırmalıdır.Müqayisə metodundan istifadə etməklə, cümlədə ismi xəbər mövqeyində duran feili sifətlərlə məsdərlər qarşılaşdırılır. Hər iki formanın ümumi cəhəti onların cümlədə ismi xəbər kimi işlənməsidir. Bunu tam aydın izah etmək üçün xəbəri məsdərlə və feili sifətlə və təsriflənən feillə ifadə olunan iki cümlə qarşılaşdırılmalı, hər ikisinə verilən sual əsasında onların sintaktik mövqeyi müəyyənləşdirilməlidir. Bu işdə vəziyyət üzrə praktikum, situativ praktikum, qar topası kimi interaktiv təlim metodlarının tətbiqi faydalı nəticə verə bilər.

Təhlil dilə aid hər hansı bir mövzunun daha asan, dəqiq və yaddaqalan olmasını və nəzəri şəkildə öyrənilmiş qramatik məlumatınpraktik şəkildə mükəmməlləşdirilməsinitəmin edən metoddur. Dilçiliyin orta ümumtəhsil məktəblərində tədris edilən bütün sahələrinə aid müxtəlif təhlil formçaları mövcuddur. Dərsliklərdə verilən tapşırılıqların da böyük bir qismi şagirdlərdən problemin həllinə təhlil vasitəsilə nail olmağı tələb edir. Bəzi çalışmalarda sözlərin eyni anda həm fonetik, həm leksik, həm də qrammatik quruluşunu təhlil etmək tələb olunur. Aşağıdakı nümunəni nəzərdən keçirək:

Çalışma 10.*Lüğətin köməyi ilə sözərin düzgün yazılış formasını müəyyən edin. Sözlərdə kökün son samitinə diqqət yetirin. Şəkilçilərin söz kökünə qoşulması il bağlı qanunauyğunluğu müəyyən edin.*

seçki/seçgi
sevki/sevgi
çalqı/çalğı
sürtgü/sürtkü
bitki/bitgi
asqı/asğı [4, s.18]

Çalışmanın şərtində düzgün sözlərin yazılmış sözləri müəyyən etmək üçün lüğətdən istifadə etmək tələb olunur. Şagirdə başlanğıc mərhələdə lüğət üzərində işləmək bacarığı aşılanır. İlk öncə orfoqrafiya lüğəti vasitəsilə sözün yazılış forması dəqiqləşdirilir. Azərbaycan dilində bir hərfə görə fərlənməklə mənası dəyişən sözlər var. Məsələn: nigah (baxış, baxma, nəzər) /nikah (kəbin, izdivac, evlənmə), səpki (şəkil, bişim, üsul) / səpgi (dəri üzərində əmələ gələn keçici iltihablı qabarcıq) və s. Bu baxımından şagird sözün yazılış şəkli ilə yanaşı, onun leksik mənasına da diqqəti yönəldir və izahlı lüğətdən istifadə edilməklə sözün leksik mənasını müəyyənləşdirir. Məzmunu və forması müəyyən edildikdən sonra sözün tərkibində baş verən morfonoloji preseslər müşahidə edilir. Bu morfoloji təhlil vasitəsilə sözün kökü və şəkilçisi müəyyənləşdirilir. Yuxarıdakı sözləri kök və şəkilçiyə ayırsaq, onların *seç, sev, çal, sürt, bit as* kimi söz köklərinə -ki, -gi şəkilçilərinin əlavəsi ilə yarandığı aydın olur. Azərbaycan dilində belə bir qayda var: əgər kök son samiti cingiltili samitdirsə, ona artırılan şəkilçinin ilk samiti cingiltili, kar samitdirsə kar olmalıdır. Bu halda

cingiltili samitlə bitən sev, çal sözlərinə -gi, seç, sürt, bit, as sözlərinə ilə -ki samiti artırılmalıdır. Şagird təhliletmə yolu ilə özü bu nəticəni əldə edir və sonrakı tapşırıqlarda da tətbiq etməklə məsələnin daha tez və asan həllinə nail olur. O, həm fonetik, həm leksik, həm də morfoloji təhlil aparmaq bacarığına yiyələnir. Bu prosesdə yazılı debat şəklində yeni anlayışın üzə çıxarılması üsulları tövsiyə edilə bilər. Müəllim lövhədə müxtəlif rəngli dairəvi karlar asır. Kartların arxa tərəfində-ki, -gi şəkilçiləri vasitəsilə düzəlmiş bir neçə söz yazılır. Şagirdlər bu sözləri tapmalıdırlar. Kömək məqsədilə müəllim həmin sözlərin leksik mənasını ifadə edən, hər bir anlayışa məxsus olan bir neçə xüsusiyyət yazır. Bu xüsusiyyətlərin əsasında şagirdlər əvvəl apardıqları təhlil əsasında gizlədilən sözləri tapmağa çalışır. Müəllim şagirdlərin cavablarını dinləyəndən sonra xahiş edir ki, şagirdlər tapdıqları sözləri ardıcıl və öz fərziyyələrinə uyğun olaraq dairələrin üzərinə yazsınlar. Müəllim bu sözlərin düzgün olub-olmamasını yoxladıqdan sonra əgər yanlış cavablar varsa, yenə bu anlayışların tapılmasını xahiş edir, fərziyyələri dinləyir və yoxlama aparır. Şagirdlər öz cavablarını verdikdən sonra müəllim bu tapmacanın tapılıb-tapılmamasını hamıya çatdırır və kartoçkalarda yazılan sözləri açır. Müəllim xahiş edir ki, şagirdlər bu anlayışlara daha da geniş tərif vermək üçün onları lüğətlərdə axtarsın və onlara aid olan yeni xüsusiyyətlər və misallar əlavə etsinlər. Yenidən nəticələr müzakirə edilir, qiymətləndirmə aparılır.

Göründüyü kimi, dərs prosesində şagirdlərin nəzəri biliklərlə yanaşı, həm müstəqil, həm də qrup şəklində işləmək bacarıqlarına yiyələnməsi yüksəkkeyfiyyetli tədrisə nail olmaq baxımından son dərəcə əhəmiyyətlidir. Təlimin müvəffəqiyyəti müəllim və şagirdlərin fəaliyyətinin düzgün əlaqələndirilməsi ilə sıx bağlıdır. Bu müvəffəqiyyəti əldə etməyin ən optimal yolu fəal təlim metodlarının tətbiqindən keçir.

Ədəbiyyat

1.Nəzərov, A.M. Müasir təlim texnologiyaları (dərs vəsaiti). / A.M.Nəzərov. – Bakı: ADPU-nəşriyyatı, – 2012. – 103 s.

2.Əfəndizadə Ə., Əhmədov N., Kəlbəliyev Ə., Vahidov S. Orta məktəbdə Azərbaycan dilinin tədrisi, II hissə. / Ə.Əfəndizadə, N.Əhmədov, Ə.Kəlbəliyev, S.Vahidov.– Bakı: Maarif, – 1977. – 297 s.

3.Balıyev, H.B. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. / H.B.Balıyev. – Bakı: ADPU-nəşriyyatı, – 2003. – 425 s.

4.İsmayılov R., Cəfərova D., Məmmədova S. Azərbaycan dili – 6. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün Azərbaycan dili (tədris dili) fənni üzrə dərs vəsaiti. / R.İsmayılov, D.Cəfərova, S.Məmmədova. – Bakı: Altun kitab, – 2018. – 191 s.

РЕЗЮМЕ

РОЛЬ АКТИВНОГО/ИНТЕРАКТИВНОГО ОБУЧЕНИЯ В ПРЕПОДАВАНИИ МОРФОЛОГИИ

Ахмедова Э.Г.

Сумгаитский государственный университет

В статье рассматривается роль активного/интерактивного обучения в преподавании морфологии на уроках азербайджанского языка в общеобразовательных школах, правила использования наиболее подходящих методов и приемов, упрощающих процесс обучения. Студентов учат умению решать задачи и справляться с трудностями при изучении морфологии, которая является очень важной областью языкознания. При изучении различных словоформ, как в группах, так и самостоятельно, используются соответсвующие методы и средства. В статье подчеркивается важность использования методов обучения, основанных на активной познавательной деятельности учащихся и реализуемых в интерактивной среде.

Ключевые слова: *азербайджанский язык, морфология, активное/интерактивное обучение, методы обучения, обучение.*

SUMMARY

THE ROLE OF ACTIVE/INTERACTIVE LEARNING IN TEACHING MORPHOLOGY

Ahmedova E.H.

Sumqayıt State University

The article discusses the role of active/interactive learning in teaching morphology in Azerbaijani language classes in secondary schools, the rules for using the most appropriate methods and techniques that

simplify the learning process. Students are taught the ability to solve problems and difficulties in teaching morphology, which is a very important area of linguistics, by studying various word forms both independently and in groups, using appropriate methods and means. The article emphasizes the importance of using teaching methods based on the active cognitive activity of students and implemented in an interactive environment.

Keywords: *Azerbaijani language, morphology, active/interactive learning, teaching methods, teaching.*

BİRGƏ TƏDRİS MÜƏLLİMLƏRDƏ MÜLTİKULTURAL DƏYƏRLƏR AŞILAYIR

Bayramova Nübar İsmayıl
ADPU-nun Quba filialı, Quba, Azərbaycan
nubar.bayramova.78@mail.ru

Açar sözlər: *multikulturalizm, tolerantlıq, müəllim, irqi, dini, etnik, inklüziya, birgə tədris*

İnklüziya nədir və nə üçün lazımdır? Bir cəmiyyətin dayanıqlığı onun üzvlərinin sağlam düşüncə və savadlılıq dərəcəsinin yüksək olmasındadır. Lakin bunu cəmiyyətin müəyyən təbəqələrinin hesabına həyata keçirmək yetərli olmur. Bəzən müəyyən amillər, cəmiyyətin daxilində olan irqi, dini, milli, etnik, sosial status, yaxud fərqli əllillik dərəcələrinin olması səbəbindən aparılan qeyri-düzgün siyasət nəticəsində cəmiyyətin müəyyən üzvləri seqredasiyaya məruz qala bilir ki, bu zaman dayanıqlı cəmiyyətin varlığı sual altına düşür. Bəs çıxış yolunu harada, yaxud nədə axtarmaq lazımdır? Məlumdur ki, bütün uşaqlar üçün effektiv, əlçatan və bəhrələnmələri üçün münbit şərait yaratmaqla onların təlim ehtiyaclarını qarşılamaq mümkün ola bilır. Bu zaman isə bizim köməyimizə inklüziv təhsil gələ bilir. Müxtəlif –dini, irqi, əqli və fiziki müxtəlifliyə malik olan uşaqların adi siniflərdə inklüziv təhsilə cəlb olunması cəmiyyətin müxtəlif təbəqələşməsinin, seqredasiyasının qarşısını ala biləcəkdir. Təbii ki, bu çətin və mürəkkəb prosesdir. Bəs, təkmilləşmiş, effektiv və inklüziv təlim mühitinin təhsil müəssisələrimizdə bərqərar olmasına nə dərəcədə hazırıq? Bu sahədə son illərdə respublikamızda bu sahəyə dair bir çox qanun və sosial proqramlar qəbul edilmişdir. Təsadüfi də deyildir ki, Azərbaycan "davamlı inkişaf məqsədləri indeksi"nə görə dünyada hər üç ölkədən ikisini qabaqlayıb"[1].

Xüsusilə, Azərbaycan Respublikasın Prezidentinin 2017-ci il 14 dekabr tarixli, 3498 saylı sərəncamı ilə təsdiq edilmiş "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə" Dövlət Proqramı xüsusi olaraq həm siyasi, həm də sosial əhəmiyyətə malik olub, böyük rola malikdir [2, 31-33].

Sözü gedən Dövlət Proqramının 5-ci hissəsi- Maarifləndirmə- çox uğurla həyata keçirilir. Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyinin tərəfindən həyata keçirilən "Müəllimlərin inklüziv təhsil sahəsində bacarqlrının artırılması", "Keyfiyyətli inklüziv təhsildən istifadə imkanlarının genişləndirilməsi" layihələri bu sahədə aparılan nümunəvi addımlardan sayılır. Bu layihələr zamanı respublikanın ali təhsil ocaqları inklüziv təhsil üzrə maarifləndirilməyə təşviq etmişdir. Proses maarifləndirməni həm pedaqoji kadrlarla (müəllimlər), onların rəhbər heyəti ilə (məktəb direktorları) və ən həssas təbəqə sayılan valideynlərlə də aparılmışdır.

Lakin müəllimlərimiz metodik olaraq inklüziv təhsilə nə dərəcədə hazırdır? Yaxud dəyişiklik təkcə müəllimin metodikasında deyil, dərs prosesinin mezanizmində və quruluşunda və idarə olunmasında da inklüziv təhsilə uyğun təkmilləşdirmə aparılmalıdır?

Birinci olaraq inklüziv təhsilə cəmiyyətdəki yanlış yanaşmanı araşdırmalıyıq. Çox təəsüflər olsun ki, nəinki təhsil sektorunda olmayan insanlar, həmçinin müəllimlər də bəzən inklüziv təhsil dedikdə yalnız əlilliyi olan insanların təhsili kimi düşünürlər. İnklüziya: "müxtəlif əqli və fiziki bacarıqlı uşaqların, digər uşaqların da böyük məmuniyyətlə iştirak etdiyi məktəb həyatının bütün aspektlərinə tam cəlb edilməsidir"[3, 3]. Əgər təhsil prosesində inklüziv təhsili tətbiq etmək, bütün uşaqların, xüsusilədə əlilliyi olan uşaqlarında eytiyaclarının ödənilməsinə çalışırıqsa dərs prosesinin quruluşundada təmillədirməni aparılmasını də diqqət mərkəzində saxlamalıyıq.

Təbii ki, təlim prosesinin qurulmasında əsas həlledici yük müəllimlərin üzərinə düşür. Bu prosesdə müəllimlərin cəmi 45 dəqiqəlik zamanlarının olması, sinifdəki bütün uşaqların özlərinə məxsus oyrənmə çətinlklərinin olduğunu nəzərə alsaq, onları bu yükün altında tək qoymaqla sadəcə nəticəni təhlükə altına

atırıq. Bu təhlükənin nəticələrini də təkcə əllilliyi olan uşaqların təlim nəticələrində deyil, həmdə əlliliyi olmayan uşaqların təlim nəticələrində də özünü göstərəcəkdir. Bəs hansı çıxış yolunu seçməliyik? Mütəxəssislər hər zaman çıxış yolu kimi müəllimin metodik bacarıqlarının, pedaqoji ustalığının və səriştəliliyinin təkmilləşdirilməsində görürlər. Ancaq müəllim bu günkü dərs prosesi buna nə dərəcədə nail olmağa imkan verir?

Beynəlxalq təcrübədə özünütəkmilləşdirmənin ən uğurlu yolu əməkdaşlıq sayılır. Bu hec kim üçün yenilik deyil, axı müəllimlər daima məktəbdə metodbirləşmələrdə, iştirak etdikləri müxtəlif seminarlarda, təlimlərdə az ya çox dərəcədə əməkdaşlıq edirlər. Lakin sinifə qayıtdıqda və təlim prosesini başladıqda tək olduqlarından öyrəndiklərini nə dərəcədə uğurlu həyata keçirdikləri şübhə doğurur. Çalışmaq lazımdır ki, müəllimin bu çətin prosesdə özünü tək hiss etməsin. Ona bu çətin prosesdə dəstək lazımdır. Əməkdaşlıq isə bu sahədə müəllmin köməyinə gələ biləcək ən güclü dəstəkdir.

Əməkdaşlığın hər bir forması müəllimin fəaliyyətinin uğurlu nəticələnməsinə xidmət etmək imkanını verir. Lakin əməkdaşlığın xüsusi forması kimi iki müəllimin dərsi birgə tədris etməsi inklüziv təhsil prosesi üçün ən universal üsullardandır.

Birgə tədris deyəndə nə başa düşülür? Mexanizmə çox sadə tərif verə bilərik: "*birgə tədris dərs prosesinin iki müəllim tərəfindən həyata keçirilməsidir*"[4] Bu əməkdaşlıqda fikirləşsək ki, təlim prosesi iki fərqli düşünən beyin tərəfindən planlaşdırılır və idarə edilir bu zaman prosesin dafa effektli olacağı haqqında fikir yaranır. Birgə tədris müxtəlif ehtiyac və qabiliyyətlərə malik şagirdlərdən ibarət sinifdə iki müəllimin təlim verməsi modeli hesab edilir. Birgə tədris prosesinin metodik cəhətdən özünə məxsus çətinlikləri vardır. Birgə tədrisi həyata keçirəcək müəllimlər fərqli metodik bacarıqlara, fərqli üslublara və ən əsası fərqli şəxsiyyətlərə malik ola bilərlər. Ancaq dərs prosesini planlaşdıran zaman onların qarşıda qoyduqları hədəf uğrunda bir-birlərinə güzəştə getməyi bacarmalıdırlar. Bu detal isə müəllimlərdə tolerantlıq hissinin olmasını zəruri edir. Onlarda olacaq tolerant dəyərlər sayəsində davranışları psixoloji olaraq bir-birlərini tamamlanır və dərsdə bir müəllimin əvəzinə iki müəllimin olması sezilmir. Multikultural dəyərlər sayəsində birgə tədris apararkən aralarında ciddi bir fərq hiss edilmir. Multikultural dəyərlər müəllimlərdən artıq dərəcədə yüksək peşəkarlıq tələb edir. Xüsusilədə prosesdə hansı müəllimin əsas, hansının isə ikinci dərəcəli olması nəzərə çarpmır. Bu uşaqlar arasında təbəqələşmə, dərs prosesində birtərəfli qütbləşmə baş verməsinə imkan yaratmır, yoxsa birgə tədrisin mahiyyəti itə bilər. Birgə tədris ənənəvi təlimdən kəskin fərqlənən iki müəllimin olduğu bir sinif hesab edilir ki, bu zaman sinifdə olan hər iki müəllim həm təlimin gedişatı, həm də şagirdlər üçün məsuliyyət daşıyırlar.

Bəs birgə tədris prosesi inklüziv təhsil prosesinin uğurlu tətbiqinə hansı üstünlüklər verəcəkdir?

1. Müəllimin 45 dəqiqəlik zaman kəsiyindən daha səmərəli istifadə etmək imkanı yaranır ki, bu da daha keyfiyyətli nəticə verir.
2. Dərsin planlaşdırılması və tədrisi eyni zamanda iki müəllim tərəfindən həyata keçirilməsi sinifdə dərs prosesi zamanı heç bir şagirdin diqqətdən kənarda qalmamasına səbəb olur.
3. Təlim prosesində müəllimin tək olmaması əllilliyi olan uşaqlara daha artıq vaxt ayırması hesabına onları xüsusi olaraq fokuslanmasının qarşısını alır.
4. Birgə tədris zamanı müəllim dərsdə öz həmkarından psixoloji və metodik dəstək almaqla yanaşı, dərsdə addımlarının digər müəllimin nəzarəti ilə dayanmadan izlənildiyi hər an kömək ala biləcəyi vəziyyətdə olması müəllimə bu ağır psosesdə böyük stimul və özgüvənlik verir.
5. Birgə tədris zamanı müəllimlər öz aralarında məsuliyyəti bölüşdürdüklərindən təlim prosesi zamanı öz psixoloji gərginliklərini də azaldırlar.
6. Birgə tədris zamanı şagirdlərdə eyni bir müəllimdən asılılıq kimi lazımsız vərdişin yoxa çıxır.
7. Birgə tədris sayəsində təlim prosesinin təhlili artıq müəllimin metodikasının təhlilinə deyil, prosesdən uşaqların təlimdən nə dərəcədə faydalanmasına fokuslanır.
8. Birgə tədris təlim prosesində çətinlik çəkən şagirdlər üçün ən üniversal həlli yoludur, daha doğrusu belə uşaqlara kömək etmək üçün iki beyin düşünür.
9. Birgə tədris irqi, sosial-iqtisadi status və müxtəlif əllilliyi olan uşaqları təhsil ehtiyaclarının ödənilməsində ən məqsədyönlü üsuldur.
10. Birgə tədris yüksək nəaliyyətli şagirdləri daha aşağı nəaliyyətli şadirdlərdən ayırmaq kimi 21 əsrin ayrı-seçkiliyini yaratmamaqla, əksinə şagirdləri qarışıq şəkildə öyrədilməsinə imkanlar yaradır.

Bir sözlə birgə tədris zamanı ümumilikdə bütün proses sadəcə şagirdlərin maksimum dərəcədə yararlanmasına, müəllimlərin bu prosesdə bir-birlərinə mütəmadi dəstək şəraitində iştirak etməsinə xidmət etmiş olur.

Ancaq bu prosesi reallaşdıra bilmək Azərbaycanda hal-hazırda mümkündürmü?

Müəllimlərin bu prosesə psixoloji və metodik olaraq hazır deyil;

a) Birgə tədris prosesini nizamlaya biləcək qanunvericilik hələki yoxdur.

Müəllimlərin birgə tədris prosesinə psixoloji olaraq hazır olması üçün təbii ki, zaman tələb olunur. İlk əvvəl isə müəllimlərdə olan bəzi sterotiplərin, *məsələn yaxşı müəllim kimdir*? Aradan qaldırılması lazımdır. Cəmiyyətdə qəbul olunmuş düşüncələrə görə çox zaman yaxşı müəllim dərs prosesinin sonunda təhsilalanların təlim göstəricilərinin nəticəsi ilə müəyyənlşir. Sadə dildə desək, müəllimin dərsində nə qədər yüksək nəticə göstərə biləcək şagird varsa bu da müəllimin göstəricisi hesab olunur və müəllimin bütün səyi yalnız şagirdlərin təlim göstəricilərinin yüksəldilməsinə yonəlir ki, bu zaman müəllimin ikinci funksiyası, yəni təlimlə yanaşı tərbiyə funksiyası ikinci dərəcəli missiya kimi tamamilə kölgədə qalır. Xüsusən də, dərs prosesinə əlilliyi olan uğaqlar cəlb edildiyi zaman isə müəllimin işi daha da çətinə düşür. Çünki müəllimin onların da təlim bacarıqlarına yiyələndirməklə yanaşı, sinifdə digər uşaqlarla sağlam münasibətlərinin qurulmasına zaman ayırır. Eyni zamanda əllilliyi olmayan uşaqların valideynləri ilə də, əllilliyi olan uşaqlaya daha çox vaxt ayırmaqla digər uşaqlarının vaxtina girilir, və ya o biriləri axsayır kimi qayğılar müzakirə obyektinə çevrilir.

Digər bir sterotip isə müəllimlərdə əməkdaşlıq prosesinin düzgün qurulmaması ilə bağlıdır ki, bu da ən əsas məktəblərdə baş tutan "açıq" dərslərin təhlili zamanı özünü biruzə verir. Əlilliyi olan uşaqların dərs prosesində aşağı nəticə göstərmək imkanın olması müəllimləri məyus edir ki, bu onlarda həmin uşaqlarla ümumi sinifdə təlim bacarıqlarına yiyələndirmək mümkün olmaması, fərdi təhsilin yeganə çıxış olması fikrini daha da möhkəmləndirir. Müəllimin təlim prosesində nəyi düzgün edib ya etməməsi deyil, dərs prosesində nə uğurlu alınıb ya alınmaması müzakirə olunan zaman müəllimlər arasında sağlam əməkdaşlıq və digər müəllim yoldaşının tövsiyyə və məsləhətlərindən yararlanmaq kimi vərdişlər formalaşır. Birgə tədris zamanı müəllimlərdə multikultural dəyərlərin formalaşması baş verir ki, bu da onlara tədris prosesində yardımçı olur.

Birgə tədris zamanı müəllimlər arasında dərs prosesinin məsuliyyəti bölüşdürüldüyündən, onları hansı müəllimin yaxşı müəllim olması fikri deyil, dərs prosesinin nəticəsi, qarşıya qoyulmuş məqsədlərə nə dərəcədə nail olub olmaması narahat edir. Təəsüf ki, müəllimlərimiz bu prosesə demək olar ki, hazır deyil. Buna görə *birgə tədris prosesini* müəllimlər arasında vərdiş halına gətirtməklə onları bu prosesə psixoloji və metodiki yanaşması dəyişdirib müvafiq dəyərləri formalaşdıracaqdır.

Təəssüf ki, məktəblərdə dərs proseslərində mütəmadi olaraq iki müəllimin birgə tədris prosesini reallaşdırmaq qanunvericiliklə mümkün deyildir. Lakin bu prosesi daha fərqli formatla həyata keçirmək mümkündür. Son illər Azərbaycanda cəmiyyətin bir çox sahələrində könüllülük fəaliyyətinin uğurlu tətbiqi, bu prosesin məktəblərdə də tətbiq edə bilmək fikrini ehtimal etməyə imkan verir. Bunun üçün məktəblərə pedaqoji kadrları hazırlayan ali təhsil ocaqlarının sonuncu tədris illərinin tələbələrini könüllü kimi təşviq etməklə biz bu prosesin ilk rüşeymlərini əkə bilərik. Əslində bu prosesdən təlim prosesinin bütün tərəfləri yararlanacaqdır. Müəllimlər öz könüllü müəllimləri ilə birgə tədris prosesinə qoşulmaqla həm özləri üçün birgə tədris təcrübəsi qazanır və təlim prosesinə yanaşmalarını dəyişdirir, könüllü tələbələr isə əvəzində gələcək peşələrinə həm psixoloji, həm metodik olaraq hazırlıqlarını yoxlamaqla yanaşı müəllim peşəsini seçmələrində nə dərəcədə düzgün addım atmalarını dəqiqləşdirirlər. Prosesdən qazanan ən uğurlu tərəf olan şagirdlərdir. Çünki, onların dərs prosesini iki beyin planlaşdırır və onlar iki müəllimin metodikasından faydalanırlar. Dərs prosesində hər hansı şagirdin, xüsusilədə ədər o əllilliyi olan şagirddirsə və başqalarından sürət və digər qabiliyyətlər baxımından geri qalırsa vaxt çatışmamazlığı baxımından kənarda qalması ehtimalı sıfra enir. Həmçinin də, valideynlərin də, xüsusilə əllilliyi olan uşaqların valideynlərin öz uşaqlarının diqqətdən kənarda qalması kimi narahatçılıqları və mənin uşağın dərs prosesində öyrənməyə qabil deyil o məcburən fərdi təhsilə möhtacdır fikrindən daşındırır.

Bu prosesdən təlimin bütün iştirakçıları yararlanmaq imkanı onu yoxlamağa dəyərli edir. Bu prosesdən hər iki tərəf, həm məktəb, həm də ali təhsil müəsisəsi faydalanır. Ümumtəhsil məktəbi birgə tədris ilə müəlliminə həm psixoloji, həm də metodiki dəstək verərək onun gərginliyini azaldır, ali təhsil müəssisəsi isə hazırladığı kadrın səviyyəsini zamanında yoxlayaraq onun daha hansı bacarıqları mənimsəməyə ehtiyacı olduğunu praktik olaraq dəqiqləşdirir. Daha aydın desək bazara çıxardığı məhsunun keyfiyyətinin erkən monitorinqini aparır və öz fəaliyyətini də qiymətləndirir. Təlim prosesində isə ekvatorda müəllim deyil şagird dayanır.

Birgə tədris asan və rahatlıqla idarə oluna biləcək bir proses deyildir. İlk əvvəl ondan ötrü ki, uzun illər vərdiş aldığımız bir müəllimin hakim olduğu dərs sterotipini dəyişmək həm müəllimlərdə, həm də cəmiyyətin bir çox nümayəndələrində müqavimət və inamsızlıqla qarşılancaqdır. Lakin biz təhsilimizin

dünyəvi təhsilə inteqrasiya edilməsinə, beynəlxalq standardtlara uyğun qiymətli insan kapitalının yaradılmasına can atırıqsa beynəlxalq təcrübədən yararlanaraq birgə tədris prosesini məktəblərə gətirməyə borcluyuq.

Ədəbiyyat

1.V. Bayramov, "Xalq qəzeti" http://xalqqazeti.com/az/news/52050, 15 iyul 2020
2.İnklüziv təhsil (Məlumat kitabçası), RİİB, Bakı-2018, s-39
3.İnklüziv təhsil, T.Loreman, J. Deppeler, D.Harvey, 2005, s-309
4.UNİSEF-in Azərbaycandakı Nümayəndəliyi və "Regional İnkişaf" İctimai Birliyinin sifarişi ilə hazırlanmış "İnklüziv təhsil üzrə müəllim inkişaf proqramları"

РЕЗЮМЕ

МУЛЬТИКУЛЬТУРНЫЕ ЦЕННОСТИ ПОВЫШАЮТСЯ В СОВМЕСТНОМ ПРЕПОДАВАНИИ УЧИТЕЛЕЙ

Байрамова Н.И.
Азербайджанский государственный педагогический университет,
Губинский филиал, г. Губа, Азербайджан

Что имеется в виду под совместным обучением? Можно дать очень простое определение механизма: «совместное обучение — это осуществление процесса обучения двумя учителями». В этом сотрудничестве идея о том, что процесс обучения планируется и контролируется двумя разными мыслящими мозгами, предполагает, что процесс будет повторяться. Совместное обучение — это модель, в которой два учителя преподают в классе со студентами с разными потребностями и способностями.

Ключевые слова: *мультикультурализм, толерантность, учитель, раса, религия, этническая принадлежность, инклюзия, совместное обучение*

SUMMARY

MULTICULTURAL VALUES ARE INCREASED IN JOINT TEACHING TEACHERS

Bayramova N.İ.
Azerbaijan State Pedagogical University,Guba Branch, Guba, Azerbaijan

What is meant by co-teaching? We can give a very simple definition of the mechanism: "joint teaching is the implementation of the teaching process by two teachers. In this collaboration, the idea that the learning process is planned and controlled by two different thinking brains suggests that the process will be repetitive. Co-teaching is a model of two teachers teaching in a classroom with students with different needs and abilities.

Keywords: *multiculturalism, tolerance, teacher, race, religion, ethnicity, inclusion, co-teaching*

DİL VƏ MÜƏLLİM ŞƏXSİYYƏTİ

Mürsəliyeva Xəyalə Muğamat qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
murseliyeva.xeyale@mail.ru

Açar sözlər: *bioloji fenomen, antroposentrik istiqamət, kulturoloji istiqamət, sosial gözləntilər, müəllim şəxsiyyəti*

Dil təbii, bioloji fenomen kimi yaransa da, sosial-ictimai fenomen kimi inkişaf edir və sabitləşir, bəzən qloballaşır, bəzən isə işləklik səviyyəsini itirərək ölü dillər sırasına keçir. Dil - cinsindən, yaşından, təhsilindən, maddi vəziyyətindən asılı olmayaraq bu cəmiyyətin bütün üzvlərinə xidmət göstərən fövqəladə bir fenomen kimi təkrarı olmayan hadisədir..

Dilin inkişafında ayrı-ayrı insanların rolu bir-birindən seçilir. Belə ki, hər bir şəxsiyyət dilə münasibətdə müəyyən bir azadlığa malikdir. Belə ki, şəxsiyyət azadlığı dilə münasibətdə dil vahidlərini seçmək, öz idiolektini formalaşdırmaq (arqo və jarqon sözlərdən istifadə etmək), dil vahidlərinin qiymətləndirmək imkanına malikdir. Bu kimi amillərin dilə təsiri nəticəsində dil daim inkişaf edir və dilə antroposentrik və kulturoloji istiqamətdən yanaşma sərgilənir.

İnsan isə özlüyündə bioloji, sosial və psixi-mənəvi ölçülərin təşkil etdiyi tamlıqdır. Bioloji cəhət insanın varlığı üçün ilkin şərt olan morfo-fizioloji, genetik, beyin-əsəb sisteminin xüsusiyyətlərini ifadə edir. Psixi-mənəvi cəhət insanın daxili mənəvi aləmini (şüur, iradə, həyəcan, əhval-ruhiyyə, yaddaş, xarakter, temperament) əks etdirir. İnsanda sosial aspekt onun başqa adamlarla qarşılıqlı əlaqə və münasibətlərini, sosial əlaqələrini, ictimai mühitdə kəsb etdiyi xassə və keyfiyyətlərini əhatə edir. Bu aspektlərin üçü də insanda vəhdət halında təzahür edir və insanın biopsixososial mahiyyətini əks etdirir.

Şəxsiyyət – ictimailəşmiş, sosial münasibətlərə girən, inkişaf etmiş insandır. Şəxsiyyətin başlıca cəhəti insanın fiziki təbiəti deyil, onun sosial fəaliyyətində təzahür edən sosial keyfiyyətləridir. Onlar öz-özünə yaranmır, mövcud cəmiyyətin sosial münasibətləri sisteminin məhsulu kimi çıxış edir. "Şəxsiyyət" anlayışı biososial varlıq olan insanın ancaq sosial tərəfini ifadə edir. Şəxsiyyət yüksək zəkalılığı, öz hərəkət və davranışı üçün məsuliyyət hissini, şəxsi ləyaqəti və başqa yüksək mənəvi keyfiyyətləri özündə təcəssüm etdirən insandır. Şəxsiyyətin başlıca cəhəti onun sosial fəaliyyətidir. İnsan anadan fərd kimi doğulur, tədricən şəxsiyyət kimi formalaşır. Şəxsiyyətin fəaliyyyətinin mənbəyini onun tələbatı təşkil edir. Məhz tələbat insanı müəyyən tərzdə və müəyyən istiqamətdə fəaliyyət göstərməyə təhrik edir.

Hər bir millətin formalaşmasında, ədəbi dilin təşəkkülündə, ictimai şüurun oyanmasında şəxsiyyətin rolu əhəmiyyətli dərəcədə vacibdir. Ümumiyyətlə, dil fərdi müdaxiləyə, onu şüurlu şəkildə "təkmilləşdirmək" və tənzimləmək cəhdlərinə son dərəcə davamlıdır. Çünki dilimizə hər hansı bir dəyişiklik etmək üçün bu dildən istifadə edən bütün insanları "razı salmaq" lazım gəlir. Bu kimi amillər dilin uzun illər ərzində sabit qalmasına və mövcud qayda-qanunların yenisi ilə əvəzlənə bilməməsinə səbəb olur.

Sosial mənzərəni təşkil edən münasibətlərin formalaşması və saxlanması dildə baş verir, buna görə də dil sosial hərəkətlərin əsas əlaqələndirilməsini həyata keçirir. Dil sosial təcrübənin müəyyənləşdirilməsi, qorunması və ötürülməsi üçün əsas vasitə, habelə subyektiv mənaların obyektivləşdirilməsi vasitəsidir. Dil fərdi təcrübələrə subyektlərarası məna verir. Bütün ictimai münasibətlər dil işarələri sistemi daxilində formalaşır.

Dil milli-etnik differensiasiyada mühüm rol oynayır, çünki o, öz təsiri ilə konkret icmanın mənəvi varlığını əhatə etməklə yanaşı, həm də digər xalqlardan və etnik qruplardan bir-birini tamamlamaq və fərqləndirmək hissini təmin edir. Deməli, milli-etnik kimlik hər hansı bir ictimai birliyin mövcudluğunun ən mühüm şərtlərindən biri olduğu üçün dillə sıx əlaqədə nəzərdən keçirilməlidir.

Vətəndaş bərabərliyinin təmin edilməsi, təhsil və tərbiyə sistemi, milli//dövlət dili, dövlət rəmzləri, mədəni istehsal və media vasitəsi ilə formalaşan milli kimlik siyasi kateqoriyadır. Etnik kimlik şəxsiyyət tərəfindən sosial kateqoriya, sosial konstruksiya, fərqlilik işarəsi, sosial qarşılıqlı təsirin məhsulu kimi şərh olunur.

"Mən yer üzündə müəllimdən yüksək ad tanımıram" ifadəsi ilə Ulu Öndər Heydər Əliev Azərbaycan xalqının müəllimə, müəllim şəxsiyyətinə ehtiramının sonsuz olduğunu bir daha vurğuladığının şahidi oluruq. Müəllimin şəxsiyyətinin formalaşması, ümumi və peşə-pedaqoji mədəniyyətinin inkişafı özünə və böyüməkdə olan nəslə münasibətdə sosial gözləntiləri doğrultmalıdır. Sosial inkişafın dialektikası çox vaxt cəmiyyətdə pedaqoji işin həcminin artırılması zərurəti ilə müəllimlərin iş vaxtı ehtiyatlarının azaldılması, eləcə də müəllim hazırlığının standart sistemi və fəaliyyətinin fərdi-yaradıcı xarakteri arasında ziddiyyətlərə gətirib çıxarır. Nəticədə ideal müəllimin formalaşmış modeli hazırlanır. Şəxsiyyətin fərdi quruluşunu pozaraq, müəllimin işi və görünüşü haqqında orijinal ideyadan fərqli yeni ideyalar formalaşır. Pedaqoji şəxsiyyətinizi formalaşdırarkən müəllim aşağıdakı peşəkar keyfiyyətlərə malik olmalıdır: uşaqlara maraq və sevgi, ədalət, pedaqoji sayıqlıq, əzmkarlıq, məqsədyönlülük, müşahidəçilik, pedaqoji takt, təşkilatçılıq bacarığı və s.

Pedaqoji fəaliyyətin mahiyyəti həm də müəllimdən tədris prosesini araşdırmağı, aşkara çıxarmağı bacarmağı, onun ziddiyyətlərini, hərəkətverici qüvvələrini, təşkilinə elmi yanaşma tətbiq etməyi tələb edir. Müəllim şəxsiyyətinin formalaşmasında və inkişafında pedaqoji tədqiqatın metod və prosedurları haqqında bilikləri, psixologiya problemləri üzrə elmi iş təcrübəsini daim artırmaq, təlim və təhsil nəzəriyyələrini dərindən bilmək lazımdır. Müasir təhsil pilləsində ali və orta məktəblərdə müvafiq fənnlər üzrə dərin və

psixoloji-pedaqoji biliyə, peşəkar səriştələrə malik, tələbələrə özünüdərk yollarını tapmağa kömək edə bilən, müstəqil, yaradıcı və özünə güvənən insanlar yetişdirən müəllimlərə ehtiyac duyulur.

Bu gün müəllim nəinki uşaqlara bilik öyrətməyə, həm də onların dünyagörüşünü zənginləşdirməyə, uşaqlarda müstəqil kəşflər, araşdırma yollarını oyatmağa, ictimai fəal insan yetişdirməyə səy göstərir. Bunlara nail olmaq üçün müəllimin özü mütləq yüksək şəxsi keyfiyyətlərə malik olmalı, tələbələrində görmək istədiyi həmin fəzilətləri özündə təsdiq etməli, şəxsi yaradıcılıq potensialını daim inkişaf etdirməlidir.

Hər hansı bir milli dilin tədrisinin müxtəlif mədəniyyətlər arasında körpü rolu oynadığını müşahidə edirik. Dilin tədrisinin aparılması istiqamətində əsas yük müəllimin öhdəsinə düşür. Milli-mədəni dəyərlərə sahib vətəndaş və şəxsiyyət formalaşdırmaq üçün hər bir şəxs öz ana dilini dərindən bilməli və sevməlidir! Dil xalqın nəsillərdən-nəsillərə ötürülən milli-mədəni irsidir.

РЕЗЮМЕ

ЯЗЫК И ЛИЧНОСТЬ УЧИТЕЛЯ

Мурсалиева Х.М.

Сумгаитский государственный университет

Преподаватель, который всегда находится в поиске научных новшеств, уважает честь и достоинство учащихся, не допускает голословных суждений, демонстрирует объективность и беспристрастность и старается быть примером для всех. Преподаватель должен учитывать возрастные и психологические особенности учащегося при обучении языку, основывать процесс обучения на новейших достижениях психологии. Он также должен стремиться развивать у учащегося способность мыслить и понимать, а также предоставлять возможности для академического и делового общения.

Ключевые слова: *биологическое явление, антропоцентрическое направление, культурное направление, социальные ожидания, личность педагога*

SUMMARY

LANGUAGE AND TEACHER IDENTITY

Mursaliyeva K.M.

Sumqayit State University

The teacher, who is always in search of scientific discoveries, respects the honor and dignity of students, does not allow vocal judgments, demonstrates objectivity and impartiality and strives to be accepted. The teacher must take into account the age and psychological characteristics of the student when teaching the language, base the learning process on the latest achievements in psychology. It should also strive to develop the learner's ability to think and comprehend, and provide opportunities for academic and business communication.

Keywords: *biological phenomenon, anthropocentric direction, cultural direction, social expectations, teacher personality*

KİMYA TƏHSİLİNİN HUMANİSTLƏŞDİRİLMƏSİNİN TƏLİMIN KEYFİYYƏTİNƏ TƏSİRİ

Quliyeva Gülzar Nizam qızı

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

q.gulzar@mail.ru

Açar sözlər: *təhsil standartı, kimya, təhsil, humanistləşdirmə,inteqrasiya*

Məlum olduğu kimi, orta ümumtəhsil məktəblərində adətən dərslərin böyük əksəriyyətini humanitar fənlər təşkil edir. Çoxlarına tanış olan bu vəziyyətdə kimyanın tədrisi prosesində müəyyən çətinliklər yaranır. Sözsüz ki, öyrənənlərin bu prosesdə dəqiq elmləri öyrənməsində qavramaq qabiliyyətinin müəyyən qədər aşağı olması qaçılmazdır. Çünki öyrənənlər tərəfindən humanitar sahəyə aid olan materialların

mənimsəmənilməsinin mümkünlüyünü nəzərə alsaq, əksəriyyətinin dəqiq elmlərə aid mövzuların mənimsənilməsi onların "artıq yük" xarakteri daşıdığından yeni materialları qavrama prosesi aşağı səviyyəyə doğru istiqamətlənir. Bir qayda olaraq, belə tip öyrənənlər dəqiq elmlərə aid materialları mənimsəməkdə müəyyən çətinliklər yaşayırlar və bu cür siniflərdə işləyərkən tez-tez onların məktəb kimya kursunun məzmununun minimum materialının mənimsənilməsi çox çətin bir iş kimi görünür. Bununla əlaqədar olaraq, kimyanın tədrisi üçün təklif olunan standarta uyğun nəticələr əldə etmək üçün və məktəb təhsilinin yenilənməsinin əsas tendensiyalarına (məktəb təhsil prosesinin və xüsusən də politexniki təhsilin humanistləşdirilməsi və humanitarlaşdırılması, biliklərin birliyi prinsipi, təcrübə və fəaliyyət, alternativlik və çeviklik, fənlərarası əlaqə və mürəkkəblik, təhsil prosesinin inkişaf edən xarakteri) istinad etməklə bu çətinlikləri aradan qaldırmaq olar [1]. Beləliklə, öyrənənlərin kimya kursunda təklif olunan materialı qavraması asanlaşdıracaq bir layihə yaratmağa ehtiyac var. Layihəyə ekoloji, regional, tarixi, ədəbi materialların daxil edilməsi ilə tematik planlaşdırma və proqramın hazırlanması daxildir. Təklif olunan modeldə fənlərarası əlaqələrin qurulmasına diqqət yetirmək lazımdır. Bu baxımdan çoxfənli inteqrasiyanın əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Öyrədənin vəzifəsi öyrənənlərin marağını artırmaq və onların dərslərdə fəallığını artırmaqdır. Praktik və təcrübi məsələlərin həlli bu problemi həll etməyə kömək edir.

Kimya üzrə tədris materialının mənimsənilməsi keyfiyyəti hər zaman qaneedici olmur. Bu, ilk növbədə, saatların azalması ilə əlaqədardır ki, bu da fənnə marağın azalmasına səbəb olur. Kimya fənninə ayrılam saatların miqdarı 7-ci siniflərdə 1 saat, 8 və 9-cu siniflərdə isə 2 saat təşkil etdikdə mənimsəmənin maraq və keyfiyyətindən danışmağa ehtiyac qalmır. Buna baxmayaraq, belə minimum saatlarla belə, mövzunun eksperimental tərəfini göstərmək lazımdır. Kimya fənninin praktiki tərəfində obyektiv şərtlərlə öyrənənin ehtiyacları arasında ziddiyyət var. Belə olan təqdirdə rasional həll yolları axtarmağa ehtiyac duyulur. Onlardan biri dərsdən sonra həvəsli uşaqlarla işləmək (müxtəlif növ sinifdənkənar layihə fəaliyyətləri) və təbii ki, sinifdə maddələr və onların xassələri haqqında praktiki biliklərin rolunu nümayiş etdirməyə xüsusi diqqət yetirməkdir.

Beləliklə, dərslərdə ətrafımızda baş verən prosesləri nəzərdən keçirir, uşaqların gündəlik həyatda qarşılaşdıqları maddələr və materiallarla tanış oluruq. "Zülallar" mövzusunu öyrənərkən yeməkdə (kolbasa, ət kubları, bulyonlar) zülalın mövcudluğunu eksperimental olaraq yoxlayın. Uşaqlar ekspert kimi çıxış edərək istehsalçının məhsullarında zülalların olub-olmadığı barədə rəylər söyləyirlər. Məişətdə istifadə etdiyimiz kimyəvi maddələrinin də fəaliyyət prinsiplərini nəzərdən keçirməklə nəzəri biliklərin praktik cəhətdən öyrənmək kimi bacarıqlara yiyələnmək olar.

Bir çox mövzuları öyrənərkən insan sağlamlığına mənfi təsir göstərən maddələrə (spirtlər, plastiklər, fenollar, turşular, qələvilər, ağır metallar və s.) rast gəlirik. Şagirdlər bu mövzuları təhlil edərək, bu maddələrin insan orqanizminə necə təsir etdiyi və onlara qarşı nə üçün son dərəcə diqqətli olmaq lazım olduğu barədə dolğun məlumat alırlar.

Ətraf mühitin çirklənməsi problemi qlobal xarakter daşıyır. Daim qarşılaşdığımız məişət kimyası, tikinti materialları, dərman maddələri, plastik və digər materialların istifadə normaları haqqında biliyə ehtiyac var. Bu maddələrin düzgün idarə edilməməsi kədərli nəticələrə səbəb ola bilər. Buna görə də sinifdə tez alışan, zəhərli maddələrin saxlanması və istifadəsi qaydalarını təhlil edir, yanğınlar zamanı davranış qaydalarını, zəhərli maddələrlə zəhərlənmələri, kimyəvi yanıqlar zamanı ilk tibbi yardımı nəzərdən keçiririk.

Dərslərdə öyrənənlərə izah etmək lazımdır ki, kimyəvi savadsızlıq onların öz həyatları və ətrafdakılar üçün təhlükəlidir. Kimya zavodunda işləmədən belə, kimyəvi təhlükələrə məruz qalmaq olar: məsələn, hamımız müxtəlif məhsullar yeyirik, kosmetika və məişət kimyəvi maddələrdən istifadə edirik, buna görə də bu maddələrin xüsusiyyətlərini və canlı orqanizmə təsirini bilməliyik və başa düşməliyik [2].

Kimya dərslərində öyrədənlərin vəzifəsi çox mürəkkəb, həmçinin möcüzəvi bir fənni sevdirməkdir. Eyni zamanda humanitar fənlərin köməyi ilə də kimyanı sevdirmək bu prosesi daha da asanlaşdırır [3]. Başqa sözlə, kimya müəlliminin əsas məqsədi kimyəvi biliklərlə zəngin olan savadlı, mənəvi cəhətdən sağlam, eyni zamanda yaradıcı, daim dəyişən mühitdə (sosial-iqtisadi, mədəni-maarif, məzmun-informasiya, dəyəryönümlü, elmi və texnoloji) baxımdan inkişaf edən sağlam gənclər formalaşdırmaqdır.

Ədəbiyyat

1. https://infourok.ru/gumanizaciya-i-gumanitarizaciya-shkolnogo-himichesskogo-obrazovaniya-2212945.html
2. https://infourok.ru/metodicheskaya-statya-gumanizaciya-himicheskogo-obrazovaniya-1377582.html
3. Quliyeva G.N., Seyidova Ə.N. Kimya fənninin müasir təlim üsulları ilə tədrisi. Cild 16, № 3, 2020, s. 94-97

РЕЗЮМЕ
ОБУЧЕНИЕ ГУМАНИЗАЦИИ ХИМИЧЕСКОГО ОБРАЗОВАНИЯ ВЛИЯНИЕ НА КАЧЕСТВО
Гулиева Г.Н.
Сумгаитский государственный университет

В рамках применения нового образовательного стандарта современное образование предъявляет новые требования к преподаванию химии, которое все больше внимания уделяет методам и формам обучения, соответствующим природе человека и окружающей среде. Для образования в области естественных наук, в том числе химии, это должно быть сделано в первую очередь для укрепления межпредметных связей с гуманитарными науками, а также соответствующего цикла самой гуманитарной составляющей химии.
Ключевые слова: *образовательный стандарт, химия, образование, гуманизация, интеграция*

SUMMARY
TEACHING THE HUMANIZATION OF CHEMISTRY EDUCATION EFFECT ON QUALITY
Guliyeva G.N.
Sumqayit State University

As part of the application of the new educational standard, modern education places new demands on the teaching of chemistry, which pays more and more attention to the methods and forms of education that correspond to human nature, ie prevent the destruction of man himself and the environment. For education in the natural sciences, including chemistry, this should be done primarily to strengthen interdisciplinary links with the humanities, as well as the relevant cycle of the humanities component of chemistry itself.
Keywords: *educational standard, chemistry, education, humanization, integration*

MÜƏLLİM ŞƏXSİYYƏTİ GƏNC NƏSLİN TƏRBİYƏSİNDƏ ƏN MÜHÜM AMİL KİMİ

Əlixanova Gülnarə Həmzəbəyovna
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
gulnare.alixanova@mail.ru

Açar sözlər: *pedaqoji taktika, dözümlülük, özünütənqid, didaktik qabiliyyəti, peşəkarlıq, ünsiyyət tərzi.*

Müasir tədqiqatçılar qeyd edirlər ki, uşaqlara məhəbbət müəllimin ən vacib şəxsi və peşəkar xüsusiyyəti hesab edilməlidir, çünki onsuz səmərəli pedaqoji fəaliyyət mümkün deyil. Müəllimin özünü təkmilləşdirməyin, özünü inkişaf etdirməyin vacibliyini vurğulayan K.Uşinski qeyd edirdi ki, “müəllim nə qədər ki, oxuyur, öyrənir, o, yaşayır, oxumağı dayandırdıqda ondakı də müəllimlik ölür".

Pedaqoji psixologiyada müəllimin ən mühüm sosial rolunu, onun cəmiyyətdəki yerini və funksiyalarını vurğulayan xüsusi bölmə "müəllim psixologiyası" adlanır. Müvafiq olaraq, peşə-pedaqoji hazırlıq və müəllimin özünütəkmilləşdirməsi pedaqoji psixologiyanın aparıcı problemlərindən biri hesab olunur. Bütün pedaqoji elmlərdə müəllimin təhsil və tərbiyə prosesindəki mühüm, müəyyənedici rolu ilə bağlı mövqeyi hamılıqla tanınır.

Müəllim özünün şəxsi nümunəsi ilə bilik verdiyi şagirlərinə, tələbələrinə Azərbaycan Respublikasının Konstitusiyasına və onun qanunlarına, dövlət rəmzlərinə, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə və dilinə, adət və ənənələrinə, milli və umumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə dərin hörmət və qayğı hissi aşılayır

Dahi liderimiz Heydər Əliyev müəllim əməyini yüksək qiymətləndirirdi: "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir " [8].

N.Tusi “Əxlaqi-Nasiri” əsərində tərbiyə işində əsas sima kimi müəllim və tərbiyəçilərin rolunu yüksək qiymətləndirir, onların yüksək təhsilli, elmli, əxlaqlı, tələbkar, mərhəmətli, şirin danışıqlı və ehtiramlı

olmasını vacib hesab edirdi. Tərbiyə prosesində mənəvi təmizliyə, əxlaq saflığına, vicdan aydınlığına son dərəcə yüksək qiymət verən mütəfəkkir bu keyfiyyətləri uşaqlara kiçik yaşlarından aşılamağı lazım bilirdi. N.Tusi uşaqların əxlaq tərbiyəsində cəza, tərif, alqışlamaq, mükafat və şirniklendirmək kimi rəğbətləndirmə vasitələrinə xüsusi yer ayırırdı [2.s.36].

Qədim yunan filosofu Aristotel, böyük Çin mütəfəkkiri Konfutsi, Şərqdə Əbu Nəsr Məhəmməd Əl-Fərabi, filosof Bəhmənyarın müəllimi İbn Sina, dahi Nizami Gəncəvi, Cəlaləddin Rumi və Əvhədi Marağalı və digər görkəmli mütəfəkkirlər məhz yüksək müəllim şəxsiyyətləri ilə seçilmişlər.

ABŞ-ın Şimali Karolina Universitetinin professoru, Nobel mükafatı laureatı Əziz Sancar Bakıda səfərdə olarkən tələbələrlə görüşündə bu sözləri demişdi: "Özünüzə yaxşı müəllim seçin. Elə bir müəllim ki, müəllimlik peşəsinin şərəfli olduğunu qəbul etməklə yanaşı, onun məsuliyyətli, çətin və mürəkkəb bir iş olmasını qəbul etsin."

Adları həmişə hörmətlə anılan İ.H.Pestalossi, L.N.Tolstoy, Y.Korçak, V.A.Suxomlinski, M.T.Sidqi, F.Köçərli, Ü.Hacıbəyov, A.Şaiq, M.Ə.Sabir, M.F.Axundov və digər klassik şəxsiyyətlərin müasirlərimiz olan yüzlərlə ustad müəllimlərin sənətdəki uğur və müvəffəqiyyətlərinə nəzər salmaq kifayətdir.

P.F.Kapterev əsrin əvvəllərində vurğulayırdı ki, "təlim və tərbiyə mühitində müəllimin şəxsiyyəti birinci yeri tutur, onun bu və ya digər xüsusiyyətləri isə təlimin tərbiyəvi təsirini ya artıracaq və ya azaldacaq". O, ilk növbədə müəllimin "xüsusi müəllimlik keyfiyyətləri" xüsusiyyətlərini əsas kimi qeyd edirdi. Bunu "müəllimin elmi hazırlığı" və "şəxsi müəllimlik istedadı" ilə əlaqələndirdi [3.s.101].

Obyektiv xarakter daşıyan birinci xüsusiyyət müəllimin tədris etdiyi fənn üzrə bilik və ixtisas üzrə elmi hazırlıq dərəcəsində, yaxın fənlər üzrə, əhatəli təhsildə; fənnin metodologiyası, ümumi didaktik prinsipləri ilə tanışlıqda və ən nəhayət, müəllimin məşğul olduğu uşaq təbiətinin xüsusiyyətlərini bilməkdə özünü göstərir. İkinci xüsusiyyət isə subyektiv xarakter daşıyaraq müəllimlik sənətindəki şəxsi pedaqoji istedad və yaradıcılığında əks olunur. Bu xüsusiyyətə həmçinin pedaqoji taktika, pedaqoji müstəqillik, pedaqoji sənət də daxildir. Müəllim müstəqil, azad yaradıcı, özü də daim hərəkətdə, axtarışda, inkişafda olmalıdır.

P.F.Kapterevin fikrinə görə, müəllim və şagirdin yaradıcılığında "özünütərbiyə və inkişaf ehtiyacı birləşir". Onların əslində bir sahənin iki əks tərəfini təmsil etdikləri psixoloji təbiəti dərk etmək üçün təlim prosesində müəllim və tələbələrin həqiqi təhsil əməkdaşlığına ehtiyac duyulur.

P.F. Kapterev "xüsusi" tədris xassələri ilə yanaşı müəllimin zəruri şəxsi - "mənəvi-iradi" xüsusiyyətlərini də qeyd edirdi. Bunlara obyektivlik, diqqətlilik, həssaslıq (xüsusilə zəif şagirdlərə qarşı), vicdanlılıq, əzmkarlıq, dözümlülük, özünütənqid və uşaqlara əsl sevgi daxildir. Bütün müasir tədqiqatçılar qeyd edirlər ki, uşaqlara məhəbbət müəllimin ən vacib şəxsi və peşəkar xüsusiyyəti hesab edilməlidir, onsuz səmərəli pedaqoji fəaliyyət mümkün deyil.

Rus psixologiyası və pedaqogikasının görkəmli nümayəndələri N.K. Krupskaya, A.S.Makarenko, V.A. Suxomlinski, A.I.Şerbakov, V.A.Slastenina, İ.V. Straxova və başqalarının peşəkar bilik və bacarıqlar haqqında fikirləri müəllim peşəkarlığının əsas komponentlərini müəyyən etməyə imkan verir. Bu fikirlər müəllimin peşəkarcasına bilməli olduğu şeyi əks etdirirlər. Müvafiq olaraq, bunlar onun üçün professional-pedaqoji hazırlıq və özünütəlim obyektləri kimi təzahür etməlidir [4.s.89].

Psixoloji-pedaqoji bilik sahəsində müəllim hazırlığı əsasən mühüm pedaqoji funksiyalarla, həyata keçirdiyi hərəkətlərlə (bacarıqlarla) və onların əsasında duran qabiliyyətlərlə tanış etmək baxımından nəzərdən keçirilir. N.V. Kuzmina, A.I. Şerbakov və digər tədqiqatçılar müəllim şəxsiyyətinə aid olan tələbləri və əsas funksiyaları (konstruktiv, təşkilati, kommunikativ, qnostik) müəyyən etdilər. Müəllimlərin peşə-pedaqoji hazırlığının həyata keçirilməsi və onların özünütədris, özünü inkişaf etdirmə planlarında bu məsələ çox mühümdür. İlkin olan qabiliyyətlər funksiyaların əsasını təşkil edir, fəaliyyətdə inkişaf edərək insanın ona uyğunluğunu müəyyənləşdirir, ona görə də onlar müəllim şüurunun obyektini təşkil etməlidirlər.

A.K.Markova və S.D.Litvin öz araşdırmalarında pedaqoji qabiliyyətləri "təkcə pedaqoji fəaliyyətin uğurunu təmin edən şəxsiyyət xüsusiyyətlərinin məcmusu kimi deyil, həm də pedaqoji vəziyyətin yenidən qurulmasında müəllimin peşəkar fəaliyyəti kimi" izah edirlər. S.D.Litvin belə qabiliyyəti formalaşdıran şərtlər toplusunda ümumiləşdirmə, qeyri-stereotipləşmə və situasiyanın dialoji yenidən qurulması meyarlarına uyğun olaraq bu qabiliyyətlərin müxtəlif inkişaf səviyyələrini müəyyənləşdirir. Bunlara məktəbdə və bu qabiliyyətin digər strukturlarına malik olan digər müəllimlərlə əlverişli şəxsiyyətlərarası ünsiyyət daxildir. Eyni zamanda, bir çox tədqiqatçılar kimi qabiliyyətin daim təkmilləşdirilməsi zərurətini qeyd edən S.L.Rubinşteyn də "insanın qabiliyyətinin inkişafı prosesi elə insanın inkişafı prosesidir" fikrini irəli sürürdü.

F.N.Qonoblinin ümumi nəzəri əsasda pedaqoji qabiliyyətlər toplusu (didaktik, akademik, perseptual, ifadəli, avtoritar, kommunikativ, təşkilati) pedaqoji psixologiya üçün böyük əhəmiyyət kəsb edirdi. Bu şərh N.D.Levitov, V.A.Krutetski və başqaları tərəfindən də inkişaf etdirilmişdir [5.s.123].

Müvafiq olaraq, pedaqoji qabiliyyətlər aşağıdakı məzmuna malikdir:

1. Didaktik qabiliyyətlər - tədris materialını şagirdlərə əlçatan etmək, onlara materialı aydın və başa düşülən şəkildə çatdırmaq, fənnə maraq oyatmaq, şagirdlərdə fəal müstəqil düşüncə oyatmaq qabiliyyətidir. Didaktik qabiliyyətə malik olan müəllim, lazım gəldikdə, iş materialını lazımi şəkildə yenidən qura, uyğunlaşdıra, çətin işləri asanlaşdıra, mürəkkəbi sadələşdirə, anlaşılmaz, qaranlıq olanları başa düşülən edə bilər. Peşəkar bacarıq, eyni zamanda bilikləri və materialı təkcə başa düşülən şəkildə təqdim etmək bacarığını deyil, o həm də şagirdərin müstəqil işini təşkil etmək bacarığını, biliklərin müstəqil şəkildə mənimsənilməsini, onların idrak fəaliyyətini düzgün istiqamətə yönəltmək işini əhatə edir.

2. Akademik qabiliyyətlər - müvafiq elm sahəsinə (riyaziyyat, fizika, biologiya, ədəbiyyat və s. üzrə) olan qabiliyyətdir. Bacarıqlı müəllim fənni təkcə kursun əhatə dairəsində deyil, daha geniş və dərindən bilir, öz elminə dair kəşfləri daim izləyir, materialı tamamilə mükəmməl bilir, ona böyük maraq göstərir və ən azından çox təvazökar tədqiqat işi aparır.

3. Perseptual qabiliyyətlər - şagirdin daxili aləminə nüfuz etmək bacarığı, şagird şəxsiyyətinin və onun müvəqqəti psixi vəziyyətlərinin incəliklə dərk edilməsidir. Bacarıqlı pedaqoq əhəmiyyətsiz əlamətlərlə, kiçik xarici təzahürlərlə şagirdin daxili vəziyyətindəki ən kiçik dəyişiklikləri hiss edə bilir.

4. Nitq qabiliyyətləri - nitq, eləcə də mimika və pantomimika vasitəsilə öz fikir və hisslərinin dəqiq və aydın ifadə etmək bacarığıdır. Bacarıqlı müəllimin dərs zamanı çıxışı həmişə şagirdlərə ünvanlanır. Müəllim yeni materialı çatdıranda, şagirdin cavabını şərh edəndə, istər təsdiq, istərsə də qınaq ifadə etdikdə də, nitqi həmişə onun daxili gücü, inamı və dediyi sözlərə marağı ilə seçilir. Bu cür müəllimin fikri ifadəsi aydın, sadə və şagirdlər üçün başa düşüləndir.

5. Təşkilatçılıq bacarığı, birincisi, şagird kollektivini təşkil etmək, onları birləşdirərək, mühüm problemlərin həllinə ruhlandırmaq bacarığı, ikincisi, öz işini düzgün təşkil etmək bacarığıdır. Öz işinizi təşkil etmək onu düzgün planlaşdırmaq və idarə etmək bacarığını özündə ehtiva edir. Nəticədə təcrübəli müəllimlərdə zamanla özünəməxsus hiss - işi vaxtında düzgün bölüşdürmək, son tarixləri yerinə yetirmək bacarığı inkişaf edir.

6.Avtoritar qabiliyyətlər - şagirdlərə emosional və iradi təsiri yönəltmək və bu əsasda avtoritet əldə etmək bacarığıdır. (öz fənnini mükəmməl bilmək əsasında müəllimin həssaslığı və nəzakəti və s.). Avtoritar qabiliyyətlər müəllimin bütün şəxsi xüsusən də onun iradi keyfiyyətlərindən (qərarlılıq, dözümlülük, əzmkarlıq, tələbkarlıq və s.), habelə məktəblilərin təlim və tərbiyəsi üçün onun məsuliyyət hissindən, özünün haqlı olduğuna inamını şagirdlərinə çatdırmaq bacarığından da asılıdır.

7. Ünsiyyət bacarıqları - uşaqlarla ünsiyyət qurmaq bacarığı, şagirdlərə düzgün yanaşma tərzini tapmaq, onlarla məqsədəuyğun, pedaqoji nöqteyi-nəzərdən səmimi münasibət qurmaq bacarığı və pedaqoji taktın təzahürüdür.

8. Pedaqoji təxəyyül (proqnozlaşdırma qabiliyyəti) öz fəaliyyətinin nəticələrini görmək və şagird şəxsiyyətinin tərbiyəvi tədbirlərində ifadə olunan, onun gələcəyi, müəyyən keyfiyyətlərinin inkişafını proqnozlaşdıra bilmək bacarığı ilə əlaqəli xüsusi qabiliyyətdir.

9. Diqqəti bir neçə fəaliyyət arasında eyni vaxtda bölüşdürmək bacarığı müəllimin işində xüsusi əhəmiyyət kəsb edir. Bacarıqlı, təcrübəli müəllim materialın məzmununu və onun təqdimat formasını, fikirlərinin (və ya şagirdin fikirlərinin) inkişafını diqqətlə izləyir, eyni zamanda bütün şagirdləri diqqət mərkəzində saxlayır, yorğunluq əlamətlərinə həssaslıqla reaksiya verir, diqqətsizlik, anlaşılmazlıq, nizam-intizamın pozulması hallarına diqqət yetirir və nəhayət, öz davranışına (duruşu, mimika və pantomimikası, yerişi) nəzarət edir [6, s. 101].

Müəllimin bacarıqları və pedaqoji qabiliyyətlərin məzmunu onun müəyyən hərəkətləri vasitəsilə özünü biruzə verir. Bir neçə qabiliyyətin məzmununu özündə birləşdirən bacarıqlarda vardır. Məsələn, didaktik qabiliyyəti olan şagirdlərin müstəqil işini təşkil etmək, təşkilatçılıq qabiliyyətini nəzərdə tutan başqalarının işini təşkil etmək və sairə bir neçə qabiliyyətin məzmununu özündə birləşdirən bacarıqlardandır [1.s.145].

Perseptiv qabiliyyəti üzə çıxaran bacarıqlar "diqqəti bölüşdürmə qabiliyyəti"nə daxil olan bacarıqlara çox yaxındır. Bu onu göstərir ki, müəllimin müəyyən hərəkətləri (bacarıqları) daha çox konkret pedaqoji funksiyanı həyata keçirən yalnız bir neçə qabiliyyətə əsaslana bilər. Müvafiq olaraq müəllimin öz qabiliyyətlərini və onların inkişaf səviyyəsini bilməsi müəllimin özünü yoxlaması da peşəkar-pedaqoji hazırlığının mühüm tərkib hissəsidir.

Peşəkar və pedaqoji hazırlığın ikinci məqamı P.F.Kapterevin diqqətini çəkdiyi müəllimin şəxsi keyfiyyətləridir. Tədqiqatçılar məqsədyönlülük, əzmkarlıq, zəhmətkeşlik, təvazökarlıq, müşahidə, təmas kimi keyfiyyətlərin məcburiliyini qeyd edir.

Müəllimdə natiqlik qabiliyyəti və təbiilik kimi keyfiyyətlərə ehtiyac xüsusilə vurğulanır. Şagirdlərin psixi vəziyyətini başa düşməyə hazır olmaq, empatiya və sosial qarşılıqlı əlaqəyə tələbat kimi keyfiyyətlər çox önəmlidir [7.s.145].

Müəllimin ümumi mədəniyyəti, onun pedaqoji fəaliyyəti və istiqamətinin yüksək peşəkarlığını ifadə edən "pedaqoji taktika"ya da böyük əhəmiyyət verilir.

Deməli, müəllim, hər hansı təlim mühitində şagirdin təlim fəaliyyətini təşkil edən və idarə edən şəxs kimi aşağıdakılarla səciyyələnməlidir: a) tədris olunan dil sahəsində ona başqalarına da öyrətmək üçün mənəvi hüquq və maddi imkan verən yüksək peşəkarlıq, b) nəticələrin və təlimin gedişatının qiymətləndirilməsində həqiqi obyektivlik, c) didaktiklik, təhsil prosesini təşkil etməyə imkan verən pedaqoji bacarıqlara sahib olmaq. Eyni zamanda müəllim demokratik ünsiyyət tərzi fonunda: müəllim şagirdlərinin bərabərhüquqlu həmsöhbətinə çevrilməyi mənimsəməli, yaranmış söhbət mövzusuna hətta onu maraqlandırmasa da, maraq nümayiş etdirməyi bilməli, yaxşı həmsöhbət olmalı, söhbəti davam etdirməyi bacarmalıdır. Bu, əsl müəllim şəxsiyyətini xarakterizə edən onun peşəkarlığının səviyyəsidir. Müəllim özünün yüksək ictimai fəallığı, insanpərvərliyi, uşaqlara məhəbbəti və pedaqoji təsirin tərbiyəvi xarakteri ilə seçilməlidir.

Ədəbiyyat

1.Bayramov S.Ə, Əlizadə Ə.Ə. Psixologiya, Bakı, 2002.
2.Əliyev B.H, Əliyev K.R, Cabbarov R,Pedaqoji psixologiya, Bakı, 2016.
3.Əliyev B.H. Təhsildə şəxsiyyət problemi. Bakı, 2008.
4.Xacə Nərəddin T. Əxlaqi-Nasiri. Bakı: Lider Nəşriyyat, 2005.
5.Mustafayev A.M. Şəxsiyyətin psixologiyası. Proqram. Bakı, 2018.
6.Валентина Г. Казанская: Личность ученика и учителя в начальной школе Издательство: Каро. 2004 г.
7.Щербаков. А. И. Практикум по возрастной и педагогической психологии: Учебное пособие / М.: Просвещение, 2004.
8.https://az.wikipedia.org/wiki/

РЕЗЮМЕ

ЛИЧНОСТЬ УЧИТЕЛЯ КАК ВАЖНЕЙШИЙ ФАКТОР ВОСПИТАНИЯ ПОДРАСТАЮЩЕГО ПОКОЛЕНИЯ

Алиханова Г.Г.

Азербайджанский государственный педагогический университет

В статье рассматривается личность педагога как источник и движущая сила его профессиональной деятельности. Его личность занимает ведущее место в работе педагога. Общество доверяет будущее своих самых дорогих и ценных детей учителю. Учитель же в процессе педагогической деятельности воспитывает наших будущих детей и развивает их как полезных для общества граждан. Поэтому учитель, олицетворяющий молодую личность, должен формировать и собственную личность на высоком уровне. Для успешной педагогической деятельности педагог должен иметь глубокие познания в природе и обществе, обладать рядом положительных качеств.

Ключевые слова: *педагогическая тактика, толерантность, самокритичность, дидактичность, профессионализм, стиль общения.*

SUMMARY

TEACHER PERSONALITY AS THE MOST IMPORTANT FACTOR IN THE UPBRINGING OF THE YOUNGER GENERATION

Alikhanova G.H.

Azerbaijan State Pedagogical University

The article discusses the teacher's personality as a source and driving force of his professional activity. His personality takes a leading place in the work of a teacher. The society entrusts the future of its

most cherished and valuable children to the teacher. The teacher, on the other hand, raises our future children in the process of pedagogical activity and develops them as useful citizens for the society. Therefore, the teacher who exemplifies the young personality must also form his own personality at a high level. For successful pedagogical activity, the teacher must have a deep knowledge of nature and society, have a number of positive qualities.

Keywords: *pedagogical tactics, tolerance, self-criticism, didactic ability, professionalism, communication style.*

РОЛЬ И ОСНОВНЫЕ ФУНКЦИИ ИЗУЧЕНИЯ ИНОСТРАННОГО ЯЗЫКА В АКАДЕМИИ МИНИСТЕРСТВА ЧРЕЗВЫЧАЙНЫХ СИТУАЦИЙ КАК СОСТАВНОЙ ЧАСТИ ПЕДАГОГИЧЕСКОГО ПРОЦЕССА ПО ПОДГОТОВКЕ КАДРОВ

Рзазаде Вусала Амираслан
Академия Министерства Чрезвычайных Ситуаций, Баку, Азербайджан
vusala_55@mail.ru

Ключевые слова: *языковая коммуникация, высшее учебное заведение специального назначения, специалист системы ликвидаций последствий чрезвычайных ситуаций, подготовка кадров, обучение курсантов, языковая подготовка, инженерия пожарной безопасности, инженерия безопасности жизнедеятельности.*

На сегодняшний день современные стандарты и требования высшего образования ориентированы не только на формирование компетентного специалиста, но и на воспитание всесторонне развитой самостоятельной личности. Наряду с другими учебными заведениями по подготовке высокопрофессиональных кадров, создание специализированного высшего учебного заведения Министерства Чрезвычайных Ситуаций способствует формированию глубоких и разносторонних знаний у курсантов о правилах и нормах поведения в различных чрезвычайных ситуациях.

Обучение курсантов – это социально-педагогический процесс, обусловленный потребностями страны в хорошо подготовленных кадрах, подразделениях, способных успешно выполнять служебно-боевые задачи, самостоятельно принимать решения [1].

Одним из главных компонентов становления современных кадров для всех ведомственных систем МЧС является приобретение опыта языковой коммуникации как для поддержания отношений, так и для согласования действий на службе. Языковая подготовка курсантов становится неотъемлемой частью проблемы профессионального образования и занимает ведущее место в ряду общественных и гуманитарных наук, обеспечивающих мировоззренческое и общекультурное развитие.

Организация процесса изучения иностранного языка в академии МЧС отталкивается от Учебной Программы для высших учебных заведений, где отражены требования к профессиональному общению.

Согласно Учебной Программе для уровня бакалавриата академии МЧС, утвержденной приказом Министерства Образования Азербайджанской Республики за номером F370 от 13 августа 2020 года, в рамках изучения иностранного языка уделяется особое внимание формированию у обучающихся умений и навыков устной и письменной речи, представления, ораторства, академического и делового письма.

В силу глобализации общества и широкой востребованности английского языка Учебной Программой в академии МЧС изучению английского языка выделены учебные часы как на уровне бакалавриата «Деловая и академическая коммуникация на английском языке» в объеме 720 часов в первом и во втором семестре, так и в магистратуре «Иностранный язык» в объеме 135 часов в первом семестре.

По Учебному Плану академии МЧС изучению русского языка отводятся факультативные занятия в объеме 240 часов в шестом семестре.

Анализ учебного плана по направлению подготовки 050640 (Инженерия пожарной безопасности) и 050614 (Инженерия безопасности жизнедеятельности) показал, что «Иностранный

язык» является базовым учебным предметом, трудоемкость которого среди всех дисциплин гуманитарного, социального и экономического цикла определена достаточно большим количеством часов.

В соответствии с целями обучения, контекстом образования и задачами Учебной Программы преподавание иностранного языка в академии МЧС определяется коммуникативной методикой как наиболее желательной и эффективной, которая позволит курсантам моделировать речевые ситуации разной сложности от социально-бытовых до профессиональных.

Коммуникативно направленные методы обучения позволяют максимально приблизить учебную деятельность к практическому использованию иностранного языка в реальном общении. Целью обучения в этом случае становится общение на иностранном языке, а ведущим принципом этой методики – принцип активной коммуникации.

Принцип коммуникативной направленности определяет отбор содержания обучения (сфер общения, тематики, ситуаций общения, языкового и речевого материала, знаний, навыков и умений); организацию обучения (где общение выступает как цель и средство обучения иностранному языку), которая предполагает использование разных организационных форм (индивидуальных, парных, групповых, коллективных), средств, приемов обучения, позволяющих моделировать ситуации общения, упражнений (языковых, условно-речевых, коммуникативных), обеспечивающих обильную тренировку [2, с. 93].

Применяя различные формы и методы подготовки курсантов по иностранному языку, можно выделить основные функции, которые выполняет дисциплина «Иностранный язык» в академии МЧС Азербайджана:

- изучение иностранного языка включает все психические функции человека, тем самым развивая обобщенное абстрактное мышление;
- изучение иностранного языка повышает у курсантов уровень образованности и мировоззрения, способствует формированию общекультурных и профессиональных компетенций;
- изучение иностранного языка формирует у курсантов сумму знаний, относящихся к профессиональной деятельности; владение билингвальными эквивалентами профессиональной терминологии; понимание профессионально-ориентированной информации на иностранном языке, умение работать с учебно-познавательной литературой для расширения профессионального кругозора;
- изучение иностранного языка развивает мотивационную сферу подготовки кадров; разрабатывает различные стратегии профессионально обусловленной познавательной деятельности;
- изучение иностранного языка позволяет успешно реализовывать межпредметные связи с другими учебными предметами, изучаемыми по конкретной специальности, и отвечает социальным, психологическим, личностно-развивающим требованиям, предъявляемым к подготовке специалиста-сотрудника МЧС. Такая связь ориентирует курсантов на возможность углубленного изучения информации, избегая дублирования, через программу другой учебной дисциплины;
- изучение иностранного языка прививает навыки работы с двуязычным и толковым словарями, с наглядными пособиями, справочным материалом (таблицы, схемы, правила, компьютерные обучающие программы, Интернет-ресурсы); выявляет способности курсанта ориентироваться в потоке информации и систематизировать сбор, анализ, обработку научно-технических данных по направлению профессиональной деятельности; способствует самореализации курсантов в свободном образовательном пространстве;
- изучение иностранного языка формирует способность курсантов к продуктивным методам самостоятельной работы по решению коммуникативных задач в профессиональной и научной деятельности, которая требует тщательной организации и управления процессом самообразования. Курсант, научившись самостоятельно работать, легче воплотит возникшие у него идеи в проекты и конструкции, сможет разработать требуемую стратегию при чрезвычайных ситуациях.
- изучение иностранного языка позволяет продолжить научную деятельность и уверенно пользоваться иностранным языком как средством академической коммуникации в формате международных семинаров и конференций.

Нацеленность практических занятий на выполнение данных функций повысит мотивацию курсантов овладеть иностранным языком.

Продуктивность практических занятий по иностранному языку возможна при условии методически грамотно разработанной системы упражнений, объединяющей необходимые типы,

виды и разновидности заданий, выполняемые в определенной последовательности с целью обеспечения максимально высокого уровня овладения иностранным языком [2, с. 50].

Предлагаем следующую последовательность подачи учебного материала:

- представление новых слов по теме, их воспроизведение на слух, перевод на родной язык, толкование, словарные комментарии, подбор синонимов;
- группировка лексических единиц по семантике;
- использование лексических единиц в ситуативных диалогах;
- выявление двуязычных соответствий, семантических, логических, ассоциативных связей между новыми словами и выражениями;
- использование лексических единиц в контексте, адаптированных текстах по специальности;
- воспроизведение/пересказ текста или составление рассказа с использование эквивалентных замен;
- создание самостоятельно текста с изученными лексическими единицами, с использованием ключевых слов и словосочетаний;
- повторение/запоминание новых слов и выражений путем самостоятельного составления предложений, текста;
- объяснение грамматического материала и его отражение в усвоенных ресурсах представленной темы;
- закрепление нового лексического и грамматического материала путем работы над справочными карточками (справочниками), слайдами, таблицами и графиками, словарями, современным мультимедийным оборудованием.

Иллюстрация теоретического и практического учебного материала весьма плодотворна для закрепления усвоенной программы, проведения начального контроля по заданным темам с целью выявить пробелы в знаниях курсантов, проведения самоконтроля, взаимоконтроля и основного контроля.

Для успешности проведения контроля педагогу следует:

- изложить материал достаточно полно и с примерами;
- выбрать в качестве учебных текстов материал познавательный, достоверный, научный или научно-популярный, который бы содержал представленный грамматический материал, в целях углубления знаний, полученных на лекциях по другим профильным предметам;
- повторить уже усвоенные определения и понятия, ввести новые понятия, использовать их в заданиях для лучшего запоминания и расширения представления о данном явлении;
- обеспечить достаточным количеством литературы, учебных пособий, учебно-методических и наглядных материалов;
- внедрить инновационные технологии, в частности автоматизированные обучающие системы для самостоятельной работы курсантов с иностранным языком;
- представить проблемные темы для дискуссий;
- ввести в практику написание письменных работ (эссе, реферат) по актуальным вопросам профессии, что позволит вдохновить курсантов на логичное изложение изучаемого материала, творческое мышление.

В заключение отметим, что коммуникативная направленность обучения иностранному языку, контроль за усвоением и наконец, свободное владение иностранной речью реализуется в зависимости от профиля вуза и является наглядным показателем будущей мобильности обучающегося и его дальнейшей успешной интеграции в мировое образовательное пространство. Считаем, что на современном уровне преподавания иностранных языков в академии МЧС должен стоять вопрос соотнесения методик обучения иностранным языкам с зарубежной практикой в соответствии с целями и содержанием образования в военном вузе, а также требованиями, стоящими перед специалистами силовых структур в целом. Важно обеспечить библиотеки высшей школы поступлением иностранной периодической печати, а также своевременным обновлением материально-технической базы кафедры иностранных языков.

Литература

1. Бабанский Ю. К. Оптимизация учебно-воспитательного процесса: Методические основы. – М.: Просвещение, 1982. – 192 с.
2. Методика обучения иностранному языку. Учебник и практикум для вузов. Под редакцией О. И. Трубициной. Москва «Издательство Юрайт», 2021, 383 с.

XÜLASƏ

FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN AKADEMİYASINDA KADRLAR HAZIRLIĞI ÜZRƏ PEDAQOJİ PROSESİN TƏRKİB HİSSƏSİ KİMİ XARİCİ DİLİN ÖYRƏNİLMƏSİNİN ROLU VƏ ƏSAS FUNKSİYALARI

Rzazadə V. Ə.

Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Bakı, Azərbaycan

Məqalə Fövqəladə Hallar Nazirliyinin (FHN) Akademiyasında xarici dilin öyrədilməsi məsələsindən bəhs edir. Xüsusi təyinatlı ali təhsil müəssisəsində tədris prosesinin effektivliyi hər şeydən əvvəl, mətndə lüğət ehtiyatı üzərində işi nəzərdə tutan tədris materialının təqdimatı zamanı düzgün metodikanın seçilməsindən, formalaşmış leksik vərdişlərdən, pedaqoji qaydalardan istifadə olunmasından və sözlərin danışıq və yazının müxtəlif növ və formalarında işlədiməsindən asılıdır.

FHN sistemində müasir mütəxəssisin peşəkar hazırlığının vacib komponenti onun real və işgüzar şəraitdə müstəqil şəkildə xarici dildə danışmağa cəhd göstərməsidir.

Açar sözlər: *ünsiyyət kommunikasiyası, xüsusi təyinatlı ali təhsil müəssisəsi, fövqəladə halların nəticələrinin aradan qaldırılması sistemləri üzrə mütəxəssis, kadr hazırlığı, kursantların öyrədilməsi, dil hazırlığı, yanğın təhlükəsizliyi mühəndisliyi, həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi.*

SUMMARY

THE ROLE AND MAIN FUNCTIONS OF LEARNING A FOREIGN LANGUAGE AT THE ACADEMY OF THE MINISTRY OF EMERGENCY SITUATIONS AS A COMPONENT OF THE PEDAGOGICAL PROCESS FOR TRAINING STAFF

Rzazadeh V.A.

Academy of the Ministry of Emergency Situations, Baku, Azerbaijan

The article is devoted to the subject of teaching a foreign language at the Academy of Ministry of Emergency Situations (MES) as an important component of personnel training. The effectiveness of the educational process in a special-purpose academy depends primarily on the choice of the correct method of presenting educational material, implying work over vocabulary in context, the use of already formed lexical skills, rules of formation and the use of words in different types and forms of speech and writing.

An important component of the professional training when it comes to a modern specialist of The Ministry of Emergency Situations system is an independent foreign language activity in a real business situation.

Keywords*: language communication, higher educational institution of special purpose, specialist of the emergency response system dealing with consequences of emergency situations, personnel training, cadet training, language training, fire safety engineering, life safety engineering.*

MÜASİR DƏRSLƏRDƏ İNTEQRASİYANIN TƏMİN OLUNMASI

Məmmədova Aybəniz Əbil qızı

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

aybeniz.mammadova.1962@gmail.com

Açar sözlər: *qloballaşma, inteqrasiya, fənlərin tədrisi, əlaqə, prinsip*

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xarici ölkələrlə, dünya xalqları ilə sosial-iqtisadi, mədəni-mənəvi sahələrdə sıx əməkdaşlıq əlaqələri yaratmışdır. Bu əlaqələr biliklərin də bir-birilə əlaqəli öyrənilməsinə səbəb olmuşdur. Müəyyən elm sahəsinə müxtəlif yönlərdən yanaşmaq, elmlərin bir-birilə

əlaqəsi zəminində birlikdə yanaşmaq və ya kollektiv, ya da kompleks yanaşmaq sinergetikanın mahiyyətinin əsasını təşkil edir.

Təhsil prosesində inteqrasiya fənlərin tədrisinə sinergetik yanaşmanı, fəndaxili və fənlərəarası əlaqədən geniş istifadə etməyi tələb edir.

Qloballaşma və inteqrasiya bu gün müasir dünyada baş verən dəyişikliklərin əsas mənbəyidir. Çox zaman qlobalizasiyaya ilk növbədə iqtisadiyyatla bağlı bir qüvvə kimi anlaşılsa da, o bütövlükdə dünyada gedən bütün sosial-siyasi prosesləri,o cümlədən təhsil sahəsini də əhatə edir. "İnsan kapitalının inkişafı iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində ən mühüm şərtlərdən olub, ölkənin təhsil sisteminin başlıca vəzifəsini təşkil edir"[1, 1].

Kommunikasiya və informasiya texnologiyasındakı dəyişikliklər qloballaşma və inteqrasiya prosesini daha da sürətləndirir. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi keçirmək, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir. Bütün bunları yerinə yetirmək müxtəlif elmlərin inteqrasiyası əsasında və ya başqa sözlə desək, məsələyə sinergetik yanaşma ilə nail olmaq olur.

Bu gün təhsil alanların müxtəlif qabiliyyət və istedadlarının vaxtında üzə çıxarılması, onların təlimin inteqrasiyası şəraitində idrak qabiliyyətlərinin, potensial imkanlarının inkişaf etdirilməsi yalnız bu prosesə sinergetik yanaşma ilə uğurla nail olmaq olar.

Prosesə kollektiv yanaşma ilə mümkün olur. Respublikamızda ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)"nda təhsilin inteqrativliyi, təhsilə kollektiv yanaşma əsas amillərdən biridir.

Milli kurikulum ona kollektiv yanaşmanın məhsuludur. Kurikulumlarda fəndaxili və fənlərarası inteqrasiyaya xüsusi önəm verilir.

Müxtəlif sahələr üzrə biliklərin inteqrasiyası şagird təfəkküründə ətraf aləm haqqında vahid, sistemli elmi dünyagörüşün formalaşmasına kömək edir.İnteqrativ kurikulum şagirdyönümlü, şəxsiyyətyönümlü, nəticəyönümlü humanistləşən təhsilin sinergetik fəlsəfəsid

Qeyd olunan konsepsiyada ümumi təhsilin pillələri və bu pillələr arasında əlaqə və ardıcıllığın gözlənilməsi, bilik, bacarıq və vərdişlərin təhsil pillələri üzrə konsentrik inkişaf etdirilməsi vacib pedaqoji, sinergetik tələb kimi qarşıya qoyulmuşdur.

"İnteqrasiya" termini XX əsrin sonundan daha fəal istifadə olunmağa başlasa da, onun ifadə etdiyi mahiyyət və məzmun yarandığı gündən mövcud olmuş, onun varlığını təşkil etmişdir. Zaman-zaman diferensial yanaşmalar, hissələrə bölünmələr, ayrılmalar, bir-birilə əlaqələr inteqrasiya proseslərinin bütövləşmənin, tamamlanmanın sinergetik nəticəsi kimi meydana çıxmışdır.

Bütün elm sahələrində, o cümlədən sosiologiyada, pedaqogikada, metodikada, fənlərin tədrisində inteqrasiya önəmli yer tutmuşdur. Ona görə də pedaqogikada, metodikada "inteqrasiya", "inteqrativlik", eləcə də "təhsildə inteqrasiya", "təhsilə sinergetik yanaşma" anlayışlarından bu gün daha çox istifadə olunmağa başlanmışdır.

Müasir dünyada sürətlə gedən sosial, mədəni, elmi-texnoloji dəyişikliklər insanlarda qlobal düşünmə tərzini, hadisələrə sinergetik yanaşma metodunu yaratmışdır.

Belə olan halda şagirdlər təlim prosesində ayrı-ayrı fənlər üzrə verilən bilik və bacarıqların passiv iştirakçısı olmurlar. İnteqrativlik, məsələyə sinergetik yanaşma şagirdlərə ətraf aləmin dərk edilməsinə yaradıcı idraki münasibət bəsləyən subyektlər kimi yanaşılmasına imkan yaradır. Bu, o zaman mümkün olur ki, təhsil pillələrində öyrənilən fənlər və onların əhatə etdiyi mövzular ayrı-ayrılqda deyil, fəndaxili və fənlərası əlaqəli şəkildə, inteqrativlik və sinergetik yanaşma zəminində tədris olunur.

Digər bir tərəfdən inteqrativ, sinergetik kurikulum təhsil alanların dərsliklərdə verilən materiallara yaradıcı yanaşmasına kömək edir.Təcrübə göstərir ki, tədris prosesində fəndaxili və fənlərarası inteqrasiyanın təmin edilməsi bilik və bacarıqların şagirdlər tərəfindən daha asan mənimsənilməsinə, dərslərin maraqlı və məzmunlu qurulmasına, uşaqlarda tədqiqatçılıq meyillərinin yaranmasına səbəb olur.

Fəndaxili inteqrasiya müəyyən bir fənnin aşıladığı anlayış, bilik və bacarıqların əlaqələndirilməsi, fənn daxilində səpələnmiş faktların sistemləşdirilməsidir. Bu mənada inteqrasiya olunmuş məzmun informativ cəhətdən daha tutumlu olur, tələbələrin daha əhatəli kateqoriyalarla düşünmə bacarığı formalaşdırmalarına kömək edir.

Fənlərarası inteqrasiya bir neçə fənnin əhatə etdiyi ortaq bilik və bacarıqların sintezi olmaqla, bir fənnə aid anlayışların və metodların digər bir fənnin tədrisində istifadəsini nəzərdə tutur. Belə inteqrasiya müxtəlif fənlər arasında məntiqi əlaqələrin qurulmasına xidmət edir. Bu proses eyni bir bacarığın ayrı-ayrı fənlər vasitəsilə daha da təkmilləşdirilməsini təmin etməklə təlim prosesinin səmərəliliyinin artırılmasına şərait yaradır.

Fənlərarası və fəndaxili münasibətlərin, sadəcə, əlaqə deyil, onun sinergetik xarakter daşıması bu münasibətlərin daha sıx və möhkəm olmasına, onun bütöv bir prosesə çevrilməsinə şərait yaradır.

Fənlərarası və fəndaxili inteqrasiya interaktiv öyrənməyə geniş yol açır, şagirdlərin təbiət, cəmiyyət və insanlar haqqında qarşılıqlı əlaqələr şəraitində kompleks qurulmuş biliklərə yiyələnməsini stimullaşdırır.

İnteqrasiya nəticəsində sinergetik yanaşma yaranır ki, bu da tədris materialının yığcamlılığını təmin edir, təkrara yol verilmir, tələbə artıq yüklənmir və tədris vaxtına qənaət edilir. Onlar az vaxt içərisində çox, həm də bir-biri ilə üzvi əlaqədə formalaşmış biliklər əldə edirlər.

Bu cəhətdən deyə bilərik ki, təhsil prosesinə sinergetik yanaşma uşaqların inteqrativ biliklər əldə etməsinə şərait yaradır.

İnteqrasiya prosesində məsələyə sinergetik yanaşma tədris fənninin şagirdlər tərəfindən yaxşı mənimsənilməsinə, təhsilin keyfiyyətinin yüksəlməsinə səbəb olur.

İndiyəqədər aparılan dərslər zamanı qazanılmış təcrübələr və müşahidələrin nəticəsi təsdiq edir ki, bu proses təlim-tərbiyə prosesinin çevikliyi, əməkdaşlıq, dialoji təlim prinsipi əsasında həyata keçirilir. Bunun üçün "müasir dərs və ona verilən tələblər" nitq mədəniyyəti fənninin tədrisində diqqət mərkəzində olmalıdır: dərsdə psixoloji gərginliyin emosional əhval-ruhiyyə ilə əvəz olunması, dərsin mərhələlər üzrə təşkili, yeni təlim texnologiyalarından istifadəni düşündürür.

Bu əlaqə nə dərəcədə mükəmməl və sərrast qurularsa, yeni dərsin izahında qarşıya qoyulan məqsədə bir o qədər tez nail olmaq olar. Fənlərarası və mövzulararası inteqrasiya pedaqoji, psixoloji, estetik, metodiki, elmi baxımdan düzgün qurulmalıdır. İnteqrasiya mərhələsində planlaşdırılan bir çox məsələlər öz həllini asanlıqla tapmağa başlayır. Yeni mövzunun nə məqsədlə keçilməsi, mövzunun hansı cəhətlərinin diqqət mərkəzində qalması, onun necə tədris olunması inteqrasiyanın təşkilindən də asılıdır.

Metodika sahəsində öz üslubu ilə seçilən prof. C.Əhmədov "Nümunəvi dərsin hansı xüsusiyyətləri olmalıdır?" sualını aşağıdakı kimi əsaslandırmışdır[4, 118].

1) Yaxşı müəllim səriştəli və peşəkar olmalıdır;

2) Müəllim tədris edəcəyi mövzu haqqında ciddi düşünməlidir. Hər hansı bir mövzunu tədris edən zaman mövzunun tələbəyə aydın olan tərəfləri ilə yanaşı, onun gizli tərəfi haqqında tələbəni düşündürməyə vadar etsin.

3) Müəllim daim düşünməlidir ki, necə edim ki, dərsim düşündürücü olsun.

Tədqiqat aparmağa yönəlmə, fəndaxili və fənlərarası inteqrasiya dərsin səmərəliliyini artıran başlıca şərtlərdir. Bu prosesdə yaradıcı fəaliyyəti stimullaşdıran iş formalarından üsul və vasitələrdə,müqayisədən, evristik müşahidədən istifadə edilməsi əhəmiyyətli məsələdir.

Belə dərslərdə tələbə də hiss edir ki, onun qarşısında yalnız müəllim, söz sərrafı yox, gözəl pedaqoq, psixoloq, metodist dayanıb. Müxtəlifyönümlü əməkdaşlığı təmin edən, qarşılıqlı hörmət və etibarı qazanmağa qadir olan həssas müəllim tələbəyə gözəl duyğular aşılamağı bacarır.

Zaman bizim qarşımıza təhsil prosesinə mütərəqqi texnologiyaların gətirilməsini, gənclərdə həyati bacarıqların formalaşdırılmasını bir tələb kimi qarşıya qoydu. Təhsilin məzmununda humanizm, təhsilalanın bir subyekt kimi hesab olunması, nəticəyönümlülük və s. kimi məsələlər qoydu və bir norma kimi qəbul olundu.

Nizaminin belə bir beytini xatırlamaq kifayət edir:

O şey ki, bizlərə tam aşkardır,
Orda da gizlibir xəzinə vardır.

Buradan belə bir nəticəyə gəlmək olar ki, müasir dövrdə tədris prosesini kifayət qədər maraqlı və canlı qurmaq üçün istənilən mövzunun tədrisi zamanı innovativ vasitələrdən və inteqrasiyadan yaradıcı şəkildə istifadə etmək lazımdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası.// Məktəbəqədər və ibtidai təhsil, 2013(4), s.4-17
2. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) Bakı, 2006 Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixli, 233 nömrəli qərarı ilə təsdiq edilmişdir.
3. Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası. Bakı, 2007
4. Əhmədov C. Ədəbiyyatın tədrisi metodikası, Bakı, 1982
5. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı Hüquq ədəbiyyatı, 2009

РЕЗЮМЕ
ОРГАНИЗАЦИЯ ИНТЕГРАЦИИ В УЧЕБНОМ ПРОЦЕССЕ
Мамедова А.А.
Сумгаитский государственный университет

В результате интеграции создается синергетический подход, при котором материал компактный, дублирование не допускается, студенты больше не перегружены, а время обучения экономится.

В этой связи мы знаем, что синергетический подход в учебном процессе помогает получать интерактивные знания.

Синергетический подход к проблеме в процессе интеграции помогает школьникам и студентам усваивать материал в процессе обучения.
Ключевые слова: *глобализация, интеграция, обучение предметам, связь, принцип*

SUMMARY
ORGANİZATİON OF İNTEGRATİON İN THE TRAİNİNG PROCESS
Mammadova A.A.
Sumqayit State University

As a result of integration, a synergistic approach is created, where the material is compact, duplication is not allowed, students are no longer overloaded and teaching time is saved.

İn this regard we know that a synergistic approach in the teaching process helps to acquire interactive knowledge.

A synergetic approach to the issue in the integration process helps students to master the material in the learning process.
Keywords: *globalization, integration, training subjects, realationship, principle*

MÜASİR TƏLİM PROSESİNDƏ MÜƏLLİM – ŞAGİRD ƏMƏKDAŞLIĞI

Məhərrəmova Elza Xaniş qızı
Sumqayıt Dövlət Universiteti
elzameherremova342@dmail.com

Açar sözlər: *şagird, müəllim, metod, bilik, bacarıq*

Giriş. “Təhsil əsri“ elan edilən XXI əsrdə yüksək intellektə malik insan kapitalının formalaşmasında təhsilin rolu heç vaxt indiki qədər aktual olmamışdır. Təhsil hər bir şəxsin, cəmiyyətin , xalqın və dövlətin həyatında inkişaf və tərəqqinin mənbəyidir. Bu gün təhsildə həm forma, həm də məzmunca ciddi dəyişikliklər gedir : milli təhsil sistemi yaradılır, beynəlxalaq təcrübəyə əsaslanan yeni təhsil formalaşır, müəllim – şagird münasibətləri yenidən qurulur. Ulu öndərimiz H.Əliyev ölkədə təhsil sisteminin inkişafı istiqamətlərini müəyyınləş dirərkən demişdir : “ Təhsil sistemində islahatların məqsədi ondan ibarətdir ki, Azərbaycanın təhsil sistemi dünya təhsil sisteminin standartları ilə uyğunlaşsın” (2).

Azərbaycan Respublikasında ümumi təhsil konsepsiyasına görə pedaqoji proses onun tamlığı, təlimdə öyrədən və öyrənənlərlə bərabər imkanların yaradılması, habelə müəllimin əlaqələndirici, istiqamətverici, məsləhətçi, şagirdin isə tədqiqatçı və yaradıcı subyekt kimi qarşılıqlı əməkdaşlıq fəaliyyəti əsasında qurulmalıdır. Bu deyilənlərin həyata keçirilməsində isə interaktiv təlim metodlarının xüsusi əhəmiyyəti vardır.

Bəşəriyyətin fəaliyyət sahələrinndən biri təhsil sahəsidir. Təhsil sistemi çoxpilləli və çoxcəhətli mürəkkəb infrastruktura malik sistemdir. Bu sistemin ən geniş sahəsi ümumi təhsil sahəsidir.

Ulu öndərimiz Heydər Əliyevin dediyi kimi, “ Təhsil xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib sahədir “. Bu gün də Ulu öndərin təhsil sahəsindəki islahatları Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan Respublikasının təhsil sistemi milli zəminə, ümumbəşəri dəyərlərə əsaslanır, demokratik xarakter daşıyır. Təhsil sistemi müxtəlif pillədən olan ardıcıl təhsil proqramlarının məcmusundan, onları

həyata keçirən təhsil müəssisələri şəbəkəsindən, təhsil idarəetmə, təlim – tərbiyə prosesi ilə məşğul olan digər təşkilatlar və müəssisələrdən ibarətdir.

Respublikamızda sürətlə gedən quruculuq işləri, Təhsil islahatı proqramı, dünya təhsil sisteminə inteqrasiya məktəblərdə təlimin məzmununda və idarəetmənin optimallaşmasında ən səmərəli yolların üzə çıxarılmasına imkan yaratmışdır. Bu gün təhsildə həm forma, həm də məzmunca ciddi dəyişikliklər gedir: milli təhsil sistemi yaradılır, beynəlxalq təcrübəyə əsaslanan yeni təhsil formalaşır, müəllim – şagird münasibətləri yenidən qurulur. Cəmiyyətdə gedən köklü dəyişikliklərlə ayaqlaşmaq üçün təhsilin əsaslı şəkildə dəyişdirilməsi, islah edilməsi zəruridir ki, bu proses cəmiyyətdə davam etdikcə təhsildə də heç vaxt bitməyən prosesə çevrilir, onun daim yeniləşməsini və inkişaf etməsini tələb edir. Elmi – texniki tərəqqinin yüksəldiyi, insanın idrak fəaliyyətinin qiymətləndirildiyi bir şəraitdə qarşımızda zamanın nəbzini tutan, hərtərəfli insan hazırlamaq tələbi dayanır. Nəzəriyyəçilikdən əyaniliyə keçid, inteqrativ təlim metodlarından istifadə şagirdlərin dərs prosesində qarşılıqlı əlaqə zəminində fəallığını təmin edir.

Ənənəvi təlim metodlarından fərqli olaraq öyrənənlərin (şagirdlərin) müəllimlə təmasda (dialoqda) olan imkanla, həmçinin virtual auditoriyadan aldığı bilik imkanlarını vahid müstəviyə gətirməklə xüsusilə də fərdi iş zamanı öyrənənlərlə (şagirdlərlə) qalıq biliyə çevirmək olar. Əldə olunmuş bu uğuru öyrənənin (şagirdin) öz zəhməti hesabına qazanılmış bilik hesab etmək olar. Ənənəvi metodlardan fərqli olaraq, interaktiv metodların tətbiqi biliyin mənimsənilməsi prosesində öyrənənin idrakı fəallığını artırır. Təlim prosesi zamanı şagird- şagird dialoquna geniş yer verilir , problemli vəziyyət yaradılır və problemin həlli şagird – şagirdin müzakirəsi müstəvisində araşdırılır, öyrənən tədqiqatçılıq prosesinə cəlb edilir və s. Öyrənən (şagird) qarşısında problemin yaradılmasını öyrədənlər (müəllimlər, pedaqoqlar) " standart olmayan təlim – idrak məsələlərini real (qeyri – standart) metodlarla işləməyə hazırlayan yaradıcı proses " kimi qiymətləndirirlər. Disterveq göstərirdi ki, təlim işi üçün təfəkkür müstəqilliyi daha çox əhəmiyyət kəsb edir, ona görə də öyrənənlərdə (şagirdlərdə) müstəqil təfəkkür qabiliyyətinin tərbiyə edilməsinə daha çox fikir verilməlidir. Onun fikrincə, təlim prosesində öyrənənlərə (şagirdlərə) bu və ya digər biliyin verilməsi kifayət deyildir, onların müstəqil surətdə bilik öyrənmək bacarığını da inkişaf etdirmək lazımdır. Müəllimin köməyi olmadan öyrənən (şagird) yalnız kitabdan deyil, həm də onu əhatə edən mühitdən, həyat hadisələrindən faydalı biliklər almaq bacarığına yiyələnməlidir. Belən olduqda öyrənən (insan) bütün ömrü boyu öyrənməyə, bilik, bacarıq qazanmağa çalışır.

Bu gün yaddaşa əsaslanan dərs təfəkkürü sərbəstlik, müstəqillik və təşəbüskarlıq kimi keyfiyyətlərdən mərhum edir. " Öyrənməyi öyrətmək " dövrün tələblərinə cavab verməli, necə öyrətmək əvəzinə, necə " öyrənməyi öyrətmək " prinsipinə cavab verilməlidir. Öyrədən (müəllim) öyrənənə (şagirdə) "öyrənməyi öyrətmək " üçün şübhəsiz özü də öyrətməni öyrənməlidir. Bu məqsədlə öyrədən (müəllim) qabaqcıl təcrübəni öyrənməli, fənnin tədrisdə yerini, şəxsi təcrübəni, pedaqoji hadisələri, öyrənəni (şagirdi) fəaliyyətini müşahidə etməyi, təhsil standartlarını, metodik ədəbiyyatı, elmi yenilikləri, yaradıcılıqla bağlı problemləri həll etməyi, fəaliyyətin əsas göstəricilərinin inkişaf etdirilməsinə dair işlərin aparılmasını və müasir dərsi təşkil etməyi bacarmalıdır.

Məqsədyönlü və məzmunlu təşkil edilən təlim – təhsil prosesi öyrənənlərə əqli, əxlaqi, emosional, iradi, əmək, iqtisadi və s. keyfiyyətlər aşılamaqla yanaşı, onlarda dünyanı dərk etmək, həyatı dəyərləndirə bilmək bacarıqları formalaşdırır və gələcək həyat üçün bir sıra keyfiyyətlər aşılayır. Dərsin əsas xüsusiyyətləri ondan ibarətdir ki, o, öyrənənlərdə (şagirdlərdə) müəyyən bilik, bacarıq, sərişta, intellektual inkişaf, elmi düşüncə tərzi, dərketmə bacarıqlartı formalaşdıra bilir. Öyrənənlərin (şagirdlərin) təlim – təhsil fəaliyyətinin təşkilində və aparılması prosesində öyrədən (müəllim) fəaliyyətinə daxil olan pedaqoji texnologiyaların nəzərə alınması olduqca zəruridir. Öyrədən (müəllim) bu texnologiyaları, qarşıda duran məsələlərin necə, hansı formada və şəraitd həll edilməsini yaxşı bilməlidir. Pedaqoji prosesdə öyrənənlərin (şagirdlərin) öz fikirlərini sərbəst şəkildə ifadə etmək, yaradıcılıq prosesinə qoşulmaq, axtarmaq, tapmaq, nəticə ç ıxarmaq,məlumat mübadiləsi aparmaq və s. kimi məsələlərə geniş imkan yaratdığından öyrədənin (müəllimin) öyrənənlərlə (şagirdlərlə, tələbələrlə) sıx əməkdaşlıq şəraitində işləməsi xüsusi xarakter alır (3).

Ənənəvi təlimdə öyrənən (şagird) təlim prosesində öyrədənin (müəllimin) danışdıqlarını öyrənir, verdiyi tapşırıqları yerinə yetirdiyi üçün öyrədən (müəllim) təlim prosesinin sybyekti, öyrənən (şagird) isə obyekti kimi qiymətləndirilirdi. Müasirtəlimdə isə biliyin ötürülməsi öyrədənin (müəllimin) öyrənənlə (şagirdlə) ilə qarşılıqlı əməkdaşlığı müstəvisində həyata keçirilir. Qarşılıqlı əməkdaşlıq prosesində həm öyrədən (müəllim), həm də öyrənən (şagird,) fəal mövqrdə durduğu üçün, onların hər ikisi təlim prosesinin subyektinə çevrilirlər. Müəllimlər (öyrədənlər) öyrənmə prozesində şagirdlə (öyrənənlə) əməkdaşlıq edən tərəf müqabildirlər. Müəllim şagirdyönümlü təlim şəraiti yaratmağa nail olmaq istəyirsə, o, əməkdaşlıq mühitini yaratmalıdır. Şagirdyönümlü təlim mühiti açıq, dinamik, qarşılıqlı hörmətə əsaslanan

və öyrənmə arzu və həvəsin yüksəldilməsi şərtləri daxilində mümkündür. Təlim şəraiti insanı bir tam olaraq – onun duyğularını, düşüncələrini, məqsədlərini, ictimai bacarıqlarını və intuisiyasını əhatə edir. Bunun nəticəsində də müstəqil təlim bacarıqları ilə silahlanmış, özünün və digərlərinin bacarıqlarını dəyərləndirməyi bacaran və özünə inam əldə etmiş bir insan formalaşmış olar.

Dərin bilik, möhkəm bacarıq, yüksək tərbiyəlilik zirvəsinə gedən yolun mahir bələdiçisi müəllimdir. Bəşəriyyətin aparıcı qüvvəsi olan ziyalıların ərsəyə çatmasında müəllim əməyi danılmazdı. Böyük sərkərdə Teymurləng müəllimin müqəddəsliyi qarşısında həmişə baş əyib və öləndə məni müəllimimin ayaq tərəfində dəfn edin deyə vəsiyyət edib.

Ulu Zərdüşt vaxtı ilə demişdir ki, " Pis müəllim şüuru korlayır, ağlın inkişafını ləngidir, təlim – tərbiyəni fəsada çevirir ". Yunan filosofu Platon da söyləmişdir ki, " Pinəçinin bir cüt ayaqqıbını pis tikməsi bir nəfərə ziyan vurduğu halda, bir müəllimin pis işi cəmiyyətə ziyan gətirir ".

Ümummilli liderimiz Heydər Əliyev gedən müəllimliyi çox yüksək qiymətləndirərək demişdir ki, " Müəllimliyə gedən adamın mənəviyyatı zəngin, biliyi dərin, saf vətəndaşlıq vicdanı, sənətkarlıq məharəti olmalıdır ".

Təhsil islahatının həyata keçirilməsində, humanistləşdirilməsində müəllimin məqsədyönlü, hərtərəfli fəaliyyəti mühüm rol oynayır. Müstəqil respublikamızda həyata keçirilən təhsil islahatının ilk addımı təhsilin humanistləşdirilməsi, müəllim – şagird, .şagird – müəllim münasibətlərinin insaniləşdirilməsidir.

Təlimin humanistləşdirilməsində müəllim – şagird münasibətləri hərəkətverici funksiyaya malikdir. Müasir sinif şəraitində şagirdlərə müstəqil və sərbəst fəaliyyət göstərmələri üçün daha əlverişli mühitin yaradılması tələb olunur. Müəllimin yaratdığı demokratik mühit şəraitində keçən dərslərdə müəllim – şagird münasibətləri məhəbbət və hörmətlə əvəz olunur. Sualların cavablandırılmasında, şagirdlərin müzakirələrə tez – tez cəlb olunmasında, işçi vərəqlər üzərində sərbəst, müstəqil işləməsində, yoldaşına sual verməsində, dərsin mövzusunun, mahiyyətinin, mühüm fikrin seçilib planlaşdırılmasında şagirdlərin fəal iştirakının təmin edilməsi şagirdlərdə öz gücünə, bacarığına inam yaradır. Bu inam müəllim – şagird, şagird – şagird fəaliyyətində qarşılıqlı əməkdaşlığı gücləndirir. Qayğıkeşlik, diqqət əsasında yaranan belə əməkdaşlıq müəllimi şagird üçün şəxsiyyətə, sevimli dosta və sirdaşa çevrilir (3).

Müəllim və şagirdlər arasında olan münasibətin, psixoloji mühitin dəyişdirilməsi yeni təlim metodlarının tətbiq edilməsinin əsas şərtidir. Şagirdə hörmətlə yanaşma, etibar etmə hissinin yaradılması, cavabların yaxşı və ya pis qiymətləndirilməsindən kənarlaşma, şagirddə müəllimə qarşı hörmət, özünə inam hissi yaratmalı, özündə yaranan qorxunu aradan götürməlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 168 nömrəli sərəncamı,15 iyun 1999-cu il
2. Əliyev H.1999-cu il martın 17-də təhsil sahəsində islahat üzrə Dövlət Komissiyasının iclasındakı yekun nitqi
3. Məhərrəmova E. İbtidai siniflərdə interaktiv və ənənəvi metodlardan vəhdətdə istifadənin təlimin keyfiyyətinə təsiri . Ped.üzrə fəlsəfə doktoru adını almaq üçün dissertasiya.Bakı,2013.-134s.

РЕЗЮМЕ

СОТРУДНИЧЕСТВО (СОТРУДНИЧЕСТВО) УЧАЩИХСЯ ТЕХНИКА В ПРОЦЕССЕ MODEM TRAMINIQ INSTRUCTION DOCTRINE

Магеррамова Э.Х.

Сумгаитский государственный университет

Происходящие в мире процессы глобализации оказывают влияние на все сферы деятельности человека, в том числе проявляются они и в яркой форме в сфере образования. Современное мышление требует от учащихся не простого обучения, а скорее больше мыслительной деятельности, самостоятельного получения знаний. Современная школа ставит своей целью отказ от монологов и диалогов и замену их взаимным сотрудничеством в отношениях преподаватель-учащиеся.

Ключевые слова: *ученик , учитель , метод , языкознание, навык*

SUMMARY
COLLABORATION (COOPERATION) OF TECHER PUPIL IN THE PROCESS MODEM TRAMINIQ INSTRUCTION DOCTRINE
Maharramova E.Kh.
Sumgayit State University

Process of (the) globalizing qoung (gone) in the world at present as (like) , unfluenled to (the) social (public), political life of our republic, he (she, it) show yourself in (the) education (al) reforms in the salient (distinct) picture (photo). School of new thinking is not to teach thoughts to pupils, he (she, it) demands teaching, acquiring independent knowledge most of all.

Modern school monologues instead, he (she , it) has broadened mutual (reciprocal), free reasoning in (the) attitudes (relations) of dialogues , teacher, pupil of collaboration (cooperation) and he (she, it) sounts (respects) developing to yourself to (the) purpose suitably properly, appropriately
Key words: *student , teacher , method , knowledge , skills*

MARAĞALI ƏHVƏDİNİN "CAMİ-CƏM" POEMASINDA MƏNƏVİ TƏRBİYƏ

Rəfiyeva Afət İlyas qızı, Murtuzayeva Günay Məhbuz qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
afat.rafiyeva@gmail.com

Açar sözlər: *klassik ədəbiyyat, əxlaqi-didaktik poeziya, mənəvi dünya, tərbiyə, təhsil*

İnsan cəmiyyəti təşəkkül tapdığı gündən bu günümüzədək müxtəlif yollarla öyrənməyə və öyrətməyə cəhd edib. Bu cəhdlərin uğurlu nəticələri hal-hazırki sivilizasiyanın formalaşmasına və gələcəkdə də inkişafının ən uca zirvəsinə çatmasına səbəbiyyət verir. Elmin və inkişafın yolu həmişə hamar olmur. Bu sahədə uğurlar, yeniliklər həmişə alqışla qarşılanmır, novatorluq cəmiyyətdə dərhal qəbul edilmir. Lakin bu, elm, ədəbiyyat, incəsənət adamlarının bəşəriyyət üçün yaratmalarının qarşısını almır, onlar əllərindəki hər vasitə ilə cəmiyyəti maarifləndirməyə cəhd edirlər.

Qədim və orta əsrlərdə məktəb-təhsil sistemi hələ mövcud deyildi. Fəaliyyət göstərən azsaylı mollaxana, mədrəsə, fərdi və saray məktəblərində sıravi insanların kütləvi təhsilindən söhbət belə gedə bilməzdi. Bu baxımdan o dövrlərdə yaşayıb-yaradan şairlərin üzərinə daha çox iş düşürdü. Sadə insanın istək və arzuları onların əsərlərinin əsas qayəsi, xalqı maarifləndirmək isə əsas istiqamətlərindən hesab edilirdi. X.Şirvaninin "Töhfətül-İraqeyn", N.Gəncəvinin "Sirlər xəzinəsi", M.Əhvədinin "Camü-cəm", Nəsiminin qəzəlləri, Ş.İ.Xətayinin "Nəsihətnamə", Füzulinin "Şikayətnamə", Aşıq Ələsgərin ustadnamələri və s. əsərlər belə əxlaqi-didaktik materiallarla zəngin əsərlərdəndir və onlar bu gün də təlim-tərbiyə prosesində müəllimlərimizin köməyinə gələn nadir sənət inciləridir.

XIII-XIV əsrlərdə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Marağalı Əhvədinin 64 illik həyat təcrübəsi, 40 illik yaradıcılıq axtarışlarının nəticəsi kimi ortaya çıxan "Cami-cəm" (Cəmşidin camı) əsəri əxlaqi-fəlsəfi, siyasi-etik, didaktik-pedaqoji mahiyyəti ilə fərqlənən bir poemadır. Poema məzmun etibarilə orijinal əsər olub, içərisində qoyulan problemlər baxımından bizə Nizaminin "Xəmsə"sindən təsirləndiyini açıq-aydın görmək imkanı verir. "Əhvədinin poeması həm qoyulan məsələlərin çoxluğu, həm də onları əks etdirmə metodunun orijinallığı ilə diqqəti cəlb edir. Əhvədi əksər hallarda elə məsələlərə toxunur ki, biz onları başqa sənətkarlarda görmürük. Şairin maraq dairəsinin rəngarəngliyi də buna xeyli imkan vermişdir" [4, s. 5].

İstər ənənəvi girişdə, istər əsərin fəsil və bablarında toxunduğu əsas məsələ insanın mənəvi dünyasının, əxlaqının yaxşılaşdırılmasında elmin roludur. O, əsərdə bəzən alim kimi elmi məsələləri şərh etməyə, həll yolu göstərməyə çalışır, dünyanın, kainatın yaranması haqqında fikirlər söyləyir, bəzən isə şair kimi məsələlərə poetik don geyindirir. Lakin hər baxımdan əsər bütövlükdə elmin, maarifin, təhsilin himni səciyyəsi daşıyır desək, yanılmarıq:

Göylərin hərəkət etməsi, de bir,
Elm ilə deyilsə, bəs nə ilədir?!
Bu qədər görüdüyün işlər, peşələr,
Elmdən, düşüncədən doğmamış məgər?!

Bilik insanları ucaldar Aya,
Nadanlıq korlar tək salar quyuya. [4, s. 47]

Əruz vəzninin xəfif bəhrində yazılan məsnəvi süjetsiz lirik poemaların gözəl nümunəsi kimi diqqəti cəlb edir. Poemada bir neçə kiçik hekayət istisna olmaqla hansısa bir əhvalat yox, şairin insan, zaman, məkanla bağlı dini-dünyəvi, ictimai-fəlsəfi görüşləri yer alır. Məsələn, şair giriş hissəsində "Kainatın həqiqəti haqqında sual" başlığı altında özünə və mənəvi xələflərinə dünya, kainat haqqında xeyli suallar ünvanlayır, yaradılışın sirrinə vaqif olmağa çalışır. Təhsil, elm məsələlərinə geniş yer ayıran M.Əhvədi vaxtilə Təbrizdə təhsil, mədəniyyət və elmin əsas mərkəzi sayılan "Rəbi-Rəşid" akademiya şəhərciyindən yüksək zövq və dərin sevgi ilə bəhs edir. Bu da onun təhsilin insanın mənəvi dünyasının kamilləşməsindəki roluna nə qədər önəm verdiyini göstərən amil kimi maraqlıdır.

Əsərin adının "Cami-cəm" adlandırılmasının da maraqlı səbəbləri var. Rəvayətə əsasən, əfsanəvi İran hökmdarı Cəmşidin elə bir camı var idi ki, dünyadakı hər şeyi onda görmək mümkün idi. Həm də əsər çox əhatəli olduğu üçün bu adı daşıması qeyri-adi görünmür. İnsanın doğulmasından, kainatın yaranmasından başlayaraq bir çox məsələni özündə əks etdirən məsnəvi, əsasən şairin sufi dünyagörüşünə əsaslanır. Elə ona görə də I fəsildə qoyulan məsələlərə bu mövqedən yanaşan sənətkar insanı Allahın yer üzündəki xəlifəsi hesab edir, insana ali mövqedən yanaşılmasına üstünlük verir. Lakin insanın bu ali mövqeni dərk etməməsi şairi heyfsiləndirir. "Ümumiyyətlə, sənətkar dini hədislərdə deyilən belə bir fikirlə tam şəkildə razılaşır ki, Allah gizli bir xəzinə ikən özünü aşkara çıxarmaq və tanıtmaq üçün insanı yaratmaq qərarına gəlir. Lakin onu xəlq etmədən öncə bütün qeyri-mövcudatı yaradır. Deməli, varlıq və ondakı hər şeyin səbəbi insandır. Sonuncu yarananın – insanın xatirinə külli-aləm qərarlaşmışdır. Xilqətin əvvəli də, sonu da insana bağlıdır" [2, s. 85].

İkinci fəsil əsərin ən böyük hissəsi olduğu üçün şair qəsdən onu 2 baba (yarımfəslə) bölür. Bu fəsil insanın dünyaya gəldiyi gündən öldüyü günə qədərki həyatının müxtəlif məqamları təsvir olunur. Burada daha çox tərbiyə, övlad-valideyn münasibətləri, dostluq, insana məxsus olan keyfiyyətlər haqqında ətraflı danışılır, gələcək nəslə şairin nəsihət və tövsiyələri maraq doğurur. "Evlənmək və törətmək haqqında", "Övlad tərbiyəsi haqqında", "Tərbiyənin təsiri və özbaşına boy atmağın nəticəsi", "Dostluq və vəfanın şərtləri", "Övladı natəmizlərin şərindən qorumaq haqqında" başlıqları altında şairin poetik dildə düşüncə və duyğuları yer alır. M.Əhvədi övladın tərbiyəsində əsas rolun valideynlərin üzərinə düşdüyünü deyir. O hesab edir ki, uşaqlar daim valideynin nəzarətində olmalı, onların öyüd-nəsihətləri, nümunəvi davranışları övladın gələcək həyatına işıq tutmalıdır. "Əhvədi ailədə əmək tərbiyəsinə xüsusi fikir verilməsinin, uşaqların kiçik yaşlardan əmək vərdişlərinə alışdırılmasının və onlarda əməyi sevmək, əmək adamlarına hömət etmək kimi vacib keyfiyyətlərin formalaşdırılmasının tərəfdarı idi. Əmək vərdişlərinin formalaşdırılması işi uşaq üçün əziyyətli olsa da, valideynlər əsla vaz keçməməli, onu gələcək həyatın çətinliklərinə hazılamalıdırlar" [1, s. 157].

Fəsildə şair insanlarda bilik, səadət, ədalət, düzlük, comərdlik kimi sifətləri göstərməyə çalışır, paxıllıq, yalan, hiylə, ikiüzlülük, namərdlik kimi mənfi sifətləri rədd edirdi. O, bu cür mənfi keyfiyyətlərin kökündə yatan səbəbləri elmsizlik, cəhalətlə əlaqələndirir, gəncləri daha çox elmə yiyələnməyə səsləyirdi. M.Əhvədi sözü tərbiyənin ən qüdrətli vasitəsi hesab edirdi. O, düşünürdü ki, sözlər tutqun könülləri açar, yaxşıları əbədi yaşadar. Sənətkar insanları yalnız düz söz danışmağa səsləyir, doğru sözdən çəkinməyin yaramaz bir keyfiyyət olduğunu vurğulayırdı. "Əhvədi tərbiyədə doğru sözü qəbul etməyi, eşitməyi, habelə doğru sözdən inciməməyi məsləhət görür, tərbiyəliliyin, sağlamlığın əlaməti hesab edirdi. O, doğru sözü insanın əməli işi, fəaliyyəti və düşüncəsi ilə vəhdətdə götürür və deyirdi ki, məhz belə olduqda deyilən söz həyati məna kəsb edir, tərbiyəedici qüvvəyə çevrilir, insanın fiziki kamilləşməsinə zəmin yaradır... Söz yerində deyilməlidir. Vaxtında, yerində deyilməyən söz insanın ləyaqətinə yaraşmır" [3, s. 187].

Əsərdə insanlar arasındakı münasibətlərin əy dəyərlilərindən biri kimi dostluqdan da söhbət açılır. O, həqiqi dostluğun ürəkdən gəldiyini poetik dillə ifadə edir, çörək üçün, yemək üçün dostluq edənləri qınayırdı. Dostluqda əhdə vəfanı önəmli sayan şair, edilən xəyanət üçün Tanrı qarşısında cavab veriləcəyindən əminliyini dilə gətirir.

Əsərin III fəsli isə insanın dünyasını dəyişdikdən sonrakı axirət həyatına həsr olunmuşdur. M.Əhvədi axirət gününün həqiqət olduğuna inanırdı. Təbii ki, bu düşüncələr onda orta əsr elmlərinin və təriqət görüşlərinin diqtəsi ilə ortaya çıxmışdı. Şair əmin idi ki, pak əməl sahiblərinin, yüksək əxlaqlı insanların ruhu cənnətə, kafir və imansızların ruhu isə cəhənnəmə gedir. Buna görə də o, insanları mənfi əməllərdən uzaq durmağa, saleh əməllər ardınca getməyə səsləyir.

"Cami-cəm" əsəri orta əsr insanın bu günün insanına çağırışı, öyüdü, nəsihəti kimi çox dəyərli bir məxəzdir. İnsan ac-susuz qaldığı zaman cismən məhv olduğu kimi, onun ruhu da qidasız qaldığında mənən

geriləyir və cəhalət bataqlığına sürüklənir. Əsər bu mənəvi qidanın yollarını, önəmini çatdırmaq, elm və biliyin insan həyatındakı rolunu göstərmək baxımından çox əhəmiyyətli mənbədir.

Ədəbiyyat

1. Cabbarova S. Əhvədi Marağalının "Cami-cəm" poemasında övlad tərbiyəsi // Elmi əsərləri. Azərbaycan Respublikası Təhsil İnstitutu, 2018, №1, s. 156-158
2. Babayev Y. Əxlaqi-didaktik əsərlərimiz milli sərvətimizdir // Azərbaycan məktəbi: elmi-nəzəri pedaqoji jurnal, 2014, №3, s. 82-88
3. Quliyev S.M., Quliyeva M.A. Gəncliyin tərbiyəsində aqillərin nəsihət və vəsiyyətləri. Bakı: ADPU-nun nəşriyyatı, 2011, 250 s.
4. Marağalı Ə. Cami-cəm. Bakı: Lider, 2004, 288 s.

РЕЗЮМЕ

ДУХОВНОЕ ВОСПИТАНИЕ В ПОЭМЕ МАРАГАЛИ АХВЕДИ «ДЖАМИ-ДЖАМ»

Рафиева А.И., Муртузаева Г.М.

Сумгаитский государственный университет

Во все времена человеческое образование считалось важнейшим вопросом для человечества. С этой точки зрения наши классики, жившие и творившие в древности и средневековье, когда наука и образование были слабо развиты, считали важным включить этот вопрос в свои произведения. Нравственно-дидактическая поэма «Джами-джам» видного представителя азербайджанской литературы XIII-XIV веков Марагали Ахвади представляет собой интересное произведение с точки зрения понимания внутреннего мира человека. В статье анализируются взгляды автора на возможности духовного воспитания молодежи в поэме, сравниваются взгляды современного человека в этой области.

Ключевые слова: *классическая литература, нравственно-дидактическая поэзия, духовный мир, воспитание, образование*

SUMMARY

SPIRITUAL EDUCATION IN MARAGHEI AWHADI'S POEM JAM-I JAM

Rafiyeva A.I., Murtuzayeva G.M.

Sumgayit State University

Human education has been considered to be the most important issue for mankind at all times. From this point of view, our classics, who lived and created in the ancient and medieval times, considered it important to include this issue in their works when science and education developed poorly. The moral-didactic poem "Jami-jam" by Maraghei Awhadi, a prominent representative of Azerbaijani literature of the XIII-XIV centuries, is an interesting work in terms of understanding the inner world of man. The article analyzes the author's views on the possibilities of spiritual education of youth, compares them with the views of modern man in this field.

Keywords: *classical literature, moral-didactic poetry, spiritual world, upbringing, education*

THE ROLE OF PEDAGOGY IN THE FORMATION OF TEACHER PERSONALITY

Jafarzada Narmin Khanoglan

Azerbaijan State Academy of Physical Education and Sport,Baku, Azerbaijan

narmin.jafarzada@sport.edu.az

Keywords: *globalization, pedagogical aspect, the role of the teacher, development, personality, professional, psychology, methodology.*

The humanization of the instructive system makes expanding requests on the proficient abilities and identity of the educator, who is the most protagonist of any changes in the instruction framework. The instructing calling may be an individual calling. The instructor impacts the identity of the child, to begin with

of all, with his identity, his distinction. The issue of relationship between organic and social, physiological and mental constantly remains one of the central and most intense issues of identity brain research, academic theory and practice. In outside instructional method and brain research, there are three fundamental regions on the issue of identity and its improvement: organic, sociological, and biosocial. Agents of the natural heading, considering the personality as a simply common being, clarify all human behavior by the activity of desires, drives and instinctual inherent in him from birth. Representatives of the sociological trend believe that in spite of the fact that an individual is born as a natural being, be that as it may, within the prepare of his life he is socialized due to the impact on him of those social bunches with which he communicates. Agents of the biosocial course accept that mental forms are of an organic nature, and the introduction, interface, capacities of the person are shaped as social marvels. Family academic science considers the personality as a single entire, in which the natural is indivisible from the social. Changes in the science of the person influence not as it were the characteristics of its exercises, but too the way of life. In any case, the conclusive part is played by those thought processes, interface, objectives, i.e., the comes about of social life, which, deciding the total appearance of the identity, donate it quality to overcome its physical shortcoming and character traits. The individual, being an item of social life, is at the same time a living organism. Relations between the social and the biological in the arrangement and behavior of the person are greatly complex and have a distinctive effect on it at diverse stages of human improvement, in several circumstances and sorts of communication with other individuals.

The teacher's personality develops, forms and manifests itself primarily in the process of pedagogical activity and pedagogical communication, and each of the areas of the teacher's work makes special demands on his personal qualities. An indicator of the maturity of pedagogical activity is the maturity of its components. So, in the course of setting pedagogical tasks, their hierarchization according to the degree of importance, restructuring in the classroom, the teacher develops pedagogical goal-setting. The teacher's mastery of the system of means and methods for solving these problems, the ability to penetrate the essence of phenomena contribute to the formation of pedagogical thinking, and introspection develops pedagogical reflection. In the process of optimal pedagogical communication, a pedagogical tact is formed. The teacher's personality is also characterized by a pedagogical orientation - a stable dominant system of motives (beliefs, inclinations, interests). Each of these qualities can be considered as a combination of more elementary and particular personal properties, formed in activity and in communication, depending to one degree or another on inclinations. Conducted scientific research has shown that the group of properties that characterize each professionally significant quality of a teacher includes a group of properties that characterize the pedagogical orientation, determine the attitude of the teacher to his work, to the subject, to the students. Pedagogical goal-setting refers to the properties of anticipating the result of activity and volitional properties. Pedagogical thinking is represented by the properties that determine the practical-effective and theoretical-practical thinking of the teacher. The properties that characterize the teacher's attitude towards himself and his professional qualities, as well as the properties that represent the teacher from the point of view of the moral regulation of behavior, belong to the group of properties that determine pedagogical reflection. Pedagogical tact is determined by a group of properties that characterize the interaction of a teacher with students, work colleagues. The basic human need, according to humanistic theories of personality, is self-actualization, the desire for self-improvement and self-expression. Recognition of the leading role of self-actualization unites all representatives of this theoretical direction.

The pedagogical ‘knowledge base’ of instructors incorporates all the desired cognitive information for making compelling educating and learning situations. Research recommends that this information can be considered. Identifying the substance of this knowledge base, in any case, may be a complex issue. Most thinks about utilize the qualification between explanatory (‘knowing that’) and procedural information (‘knowing how’) from cognitive brain research as a theoretical premise. This approach is significant because it centers on understanding how information is related to behavior, or in other words, the quality of educating performance. The primary key think about on educator knowledge (Shulman, 1987) categorized instructor information into 7 categories, among which were the concepts of: [5]

- general pedagogical knowledge (principles and strategies of classroom management and organization that are cross-curricular)
- pedagogical content knowledge (the knowledge which integrates the content knowledge of a specific subject and the pedagogical knowledge for teaching that particular subject).

The concept of a self-fulfilling personality was first used by K. Goldstein to denote the activity of a biological process. From the standpoint of pedagogy, according to B.S. Gershunsky, the life self-realization

of the individual can be considered at the present time as the goal of education. At the same time, self-realization of the personality of a teacher is possible under the following conditions:

- if he is aware of his abilities, interests, life preferences and motives of behavior;
- has knowledge, skills, abilities and creative abilities that allow him to fully realize himself in professional activities;
- is capable of purposeful and effective volitional efforts necessary for full self-realization.

The pedagogical aspect of the problem of self-realization of the individual involves the development of means and conditions that stimulate the processes of self-knowledge, goal-setting, and designing the prospects for individual life. Based on the activity paradigm of designing the education of a self-fulfilling personality, the teacher needs to implement: goal-setting, carried out on the basis of the agreed self-determination of the teacher and student; highlighting the preconditions for self-determination; formation of a set of assumptions about the ways and means of achieving the goal; implementation of reflection and redesign with subsequent implementation. The humanization of modern education, focusing on the self-development of the individual, makes the problem of self-expression as a factor in its formation significant. Personal self-expression is aimed not so much at the affirmation of the "I", but rather at the presentation of the "I" with the aim of knowing the other and self-knowledge, assessment and self-assessment of the directions and quality of self-realization. Man's self-expression is a reflection of his desire to be understood and accepted by others, it is a search for what is necessary in order to be understood by others.

In this way, these groups of pedagogical values, creating each other, form an axiological model. This model can act as a model for tolerating or not tolerating created or made academic values. His esteem introductions discover their generalized expression in the motivational-value demeanor to educational movement, which is a pointer of the humanistic introduction of the teacher's identity. This attitude is characterized by the unity of the objective and the subjective, in which the objective position of the educator is the premise of his particular center on educational values, which are a calculate in his proficient and social movement. The social and proficient behavior of the educator, subsequently, depends on how he concretizes the values of academic movement, what put the relegates to them in his life. But no modern innovations of preparing and instruction will offer assistance the instructor to effectively carry out his educational action in the event that he himself isn't actually and professionally prepared for it. It is no coincidence that within the humanistic academic sees of all times, extraordinary significance was joined to the identity of the instructor. An outstanding educator K.D. Uscinski believed that only the teacher, who himself could be an identity, can offer assistance the developing identity of the student in its arrangement: "In education, everything ought to be based on the identity of the teacher, since instruction streams as it were from the living source of the human personality."

Consequently, having determined the functional purpose of each of the spaces of the teacher's pedagogical activity, it is possible to present them in the form of a single functional structure that gives a holistic view of the patterns, essential connections and dependence of some elements on others. Personal growth can be carried out in different directions: - by expanding the education of the teacher in his subject, other subjects;

- by increasing pedagogical and psychological competence (awareness);
- by mastering new ways and methods of training and education;
- through self-education, when the teacher strives to develop personal qualities in himself;
- by developing creative potential in professional activities.

Abilmazhinova and Dzhanbubekova (2019) described the issues of vocational training of a future primary school teacher in the context of globalization through the following stages:[1]

1) adaptation to the profession;

2) self-actualization of the student in cognitive professional activity;

3) the formation of professional and pedagogical activities of students of pedagogical universities is carried out in a cognitive and service way;

4) the period of the formation of personality in the conduct of pedagogical research.

Thus, the leading place in the complex synthesis of properties that determine the pedagogical skill of a teacher belongs to the personal component as the unity of its motivational and value component (professional and pedagogical orientation) and individual psychological characteristics (general and professional pedagogical abilities). The teacher is included in professional and pedagogical activity holistically, with his whole personality, the level of formation of skills and abilities depends on his position, orientation, aspirations, value system and methods of pedagogical activity.

References

1. Abilmazhinova, O., & Dzhanbubekova, M. Z. (2019). Use of interactive methods in the development of creativity of future professionals. . Bulletin of KazNU. Psychology and Sociology Series, 69(2), 222-230.
2. Essary, E.H. (2007). Speaking of Globalization: Frame Analysis and the World Society. International Journal of Comparative Sociology; 48; 509, SAGE Pub.,
3. Giangreco, M. F. (2021). Maslow's Hammer: teacher assistant research and inclusive practices at a crossroads. European Journal of Special Needs Education, 36(2), 278-293.
4. O'Sullivan, E. (2008). Finding our way in the great work. Journal of Transformative Education, 6, 27-32.
5. Shulman, L.S. (2012). Knowledge and teaching: Foundations of the new reform. Harvard Educational Review, 57(1), 1-22.
6. Абульханова-Славская К.А. Деятельность и психология личности. — М., 2010.
7. Винокуров В.И. Призвание творческой личности. — Ульяновск, 2012.
8. Завалишина Д.Н. Профессиональная деятельность как смысл жизни // Психологопедагогические и философские аспекты проблемы смысла жизни. — М., 2015.
9. Abbasov A. Pedaqogika. Bakı, 20l0
10. Ləzifə Qasımova, Rəhimə Mahmudova, Pedaqogika dərslik, Bakı, 2012.

XÜLASƏ
MÜƏLLİM ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASINDA PEDAQOGİKANIN ROLU

Cəfərzadə N. X.

Azərbaycan Dövlət Bədən tərbiyəsi və İdman Akademiyası, Bakı, Azərbaycan

Qloballaşma prosesi və onunla bağlı sosial dəyişikliklər təhsil sistemlərində daimi dəyişikliklərin və islahatların aparılmasını tələb edir. Müəllimin yeni rolu danılmazdır. Bu, qabaqcıl dövrün və sosial ehtiyacların çağırışıdır. Müasir dövrdə müəllimlər həm təhsilalan tələbələri, həm də onların valideynlərini dəstəkləməlidirlər. Bu, şəxsiyyət və təhsilin effektivliyi arasındakı əlaqəyə baxmaq səylərini nəzərdən keçirir. Təlimatçılar qloballaşma prosesinin çağırışlarını nəzərə alaraq, öz tələbələri üçün bələdçi rolunu oynamalı və onları təkmilləşdirmə formalarında əlaqələndirməlidirlər. Cəmiyyətdəki missiyasına görə xüsusi qabiliyyətə malik olan bir müəllimin şəxsiyyətinin bütün quruluşunu seçir. Nəzərə almaq lazımdır ki, bəşəriyyət tarixində insanların, ölkələrin və ictimai quruluşların tərəqqisində birmənalı rol oynayır və bu gün də oynayır.

Açar sözlər: *qloballaşma, pedaqoji aspekt, müəllimin rolu, inkişaf, şəxsiyyət, peşəkar, psixologiya, metodika*

РЕЗЮМЕ
РОЛЬ ПЕДАГОГИКИ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ УЧИТЕЛЯ

Джафарзаде Н.Х.

Азербайджанская государственная академия физической культуры и спорта, Баку, Азербайджан

Глобализация и связанные с ней социальные изменения требуют постоянных изменений и реформ в системах обучения. Неиспользованная часть учителя бесспорна. Это призыв к передовой эпохе и социальным потребностям. В современной части учителя должны поддерживать как обучающихся, так и их родителей. В нем рассматриваются усилия по поиску взаимосвязи между личностью и эффективностью образования. Инструкторы должны действовать как руководство для своих учеников, принимая во внимание вызовы процесса глобализации и координируя их в формах улучшения. Они решают всю структуру личности инструктора, у которого есть место для сбора жизненно важного человека в соответствии с его миссией в обществе. Следует иметь в виду, что в истории человечества она играла и по сей день играет неоднозначную роль в прогрессе людей, стран и общественных структур.

Ключевые слова*: глобализация, педагогический аспект, роль педагога, развитие, личность, профессиональный, психология, методика*

MÜASIR DÖVRDƏ MÜƏLLIM ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASININ PEDAQOJİ ASPEKTLƏRİ

Müzəffərov Rasif Rəfayel oğlu
AR DİN-in Polis Akademiyası, polis polkovnik-leytenantı,Bakı,Azərbaycan
psixoloq-83@mail.ru

Açar sözlər: *təhsil, şəxsiyyət, ideal, peşəkar hazırlıq, müəllim şəxsiyyətinin formalaşması, qloballaşma, pedaqoji ustalıq, imic, tədris prosesi, müəllim mədəniyyəti, təhsilin keyfiyyəti.*

Müasir qloballaşma şəraitində təhsil sferasında mütəxəssis hazırlamağın əsas aspekti nisbətən yeni xarakter kəsb edir. Hazırki qloballaşma dövründə sosial dinamik inkişafın təsiredici faktorları informasiya, elm və təhsildir. Əsas elmləri, informasiyanın qavranılması və ötürülməsinin yeni üsullarını mənimsəyən, təhsilli və hər şeydən əvvəl, peşəkarlıq, dil bilmə və dünyagörüş kontekstində praktik cəhətdən hazırlıqlı şəxsiyyət gələcəkdə rəqabət qabiliyyətli insan olacaqdır. Məhz bu yolla təhsil, elm və informasiya texnologiyaları sistemində dünyəvi transformasiya prosesləri inkişaf edir.

Müəllim şəxsiyyətinin – onun peşəkarlığının, dünyagörüşünün, mədəniyyətinin, mənəvi-əxlaqi simasının formalaşması problemi pedaqogika və təhsilin fəlsəfəsi kimi elm sahələrində aktual məsələlərdən biridir. Tədris planlarının reallaşması, təhsil xidmətlərinin keyfiyyəti, həm təlim prosesində, həm də təlimdənkənar vaxtlarda şagirdlərin tərbiyəsi müəllimin şəxsi xüsusiyyətlərindən asılıdır [1]. Müasir dövrdə müəllim şəxsiyyətinin formalaşması probleminin aktuallığı müəllimin təhsildə yeri və rolunun, onun şəxsi keyfiyyət və xüsusiyyətlərinin qloballaşma və informasiya təkamülünün geniş vüsət alması, habelə ictimai inkişafın postsənaye vektorunun bərqərar olması kontekstində dərk edilməsi zərurəti ilə müəyyən edilir. Dünya ictimaiyyəti insanın təhsilinin qlobal strategiyalarının yaradılmasına çalışır. Yaşadığımız dövr qloballaşma faktoru ilə şərtlənir ki, burada təhsil prosesinin qloballaşması da istisna olunmur [2].

Qeyd etmək lazımdır ki, qloballaşma gələcək mütəxəssisdən təkcə biliklərin deyil, eləcə də onların əldə edilməsi və işlədilməsi texnologiyalarının mənimsənilməsini tələb edir. Bunun üçün sağlam praqmatizm tələb olunur ki, bu da məzunun tam hüquqlu subyekti olduğu həyata daxil olmasına imkan yaradır. Bu cür praqmatizm elə müəllim tərbiyə edə bilir ki, o da öz növbəsində bu missiyanın həyata keçirilməsi üçün özündə müvafiq keyfiyyətləri formalaşdıra bilsin. "Yeni dövrün müəllim" şəxsiyyəti modelinin qurulmasına qoyulan tələblər qloballaşma kimi fundamental anlayış altında birləşən proseslərlə birgə təklif edilir. Onun mahiyyəti təhsil xidmətlərinin keyfiyyətinin artırılmasına, təlim-tərbiyə prosesi səviyyəsində biliklərin mənimsənilməsi və onlara nəzarət üsullarının şəffaf şəkildə fəaliyyət göstərməsinə qoyulan tələblərin universallaşdırılmasından ibarətdir. Hazırda müəllimlər tolerantlıq, demokratizm, humanizm, multikulturalizm, şagirdi anlamaq və ona hörmət etmək, eyni zamanda səmimi ünsiyyət qura bilmək kimi cizgiləri ilə seçilməlidirlər [4].

Onu da nəzərə almaq lazımdır ki, informasiya təkamülünün tələblərinə olan reaksiya kimi müəllimin şəxsi "siması"nda da mühüm dəyişikliklər baş verir. Məlum olduğu kimi, o, təlim-tərbiyə prosesində müəllimin yerini və rolunu dəyişən pedaqoji informasiya texnologiyalarını özü ilə daşıyır. Müəllim biliklərin yeganə və əsas mənbəyi olmaqdan çıxır. Müasir pedaqogika qabaqcıl pedaqoqların öz nəzəriyyələrində irəli sürdükləri şəxsiyyət anlayışının gizli mənalandırmalarından uzaqlaşmağa, eyni zamanda da onların axtarışını aktuallaşan yeni sosial şəraitlərin, keyfiyyətlərin şərhi vasitəsilə davam etdirməyə çalışır [5]. Y.Komenski, İ.Pestalotsi, F.Disterveq, D.Dyui, K.Uşinski, A.Makarenko, V.Suxomlinski və digər görkəmli pedaqoqlar nəinki şəxsiyyətin mahiyyətini adekvat şəkildə anlamaq, həm də bu barədə əldə etdikləri biliklərdən şəxs pedaqoji fəaliyyətdə istifadə etmək üçün çoxlu səy göstərmişlər. Müasir pedaqogika elmi şəxsiyyətin bütöv şəkildə görülməsinə çalışır, şəxsiyyəti müxtəlif planlı yanaşmaların formal birliyinin formalaşması kimi deyil, bu və ya digər tərəflərinin bütöv varlıq kimi açılması fonunda izah etməyə çalışır. Bununla yanaşı fərd ictimai münasibətlərə daxil olmalı, insanlarla ünsiyyət qurmalıdır [6].

İnsan həm də özünəməxsus şüura malik, müəyyən tələbatlar sistemi, maraqları, baxışları, əqidələri olan, davranışlarını daxilən müəyyən edən, ona müəyyən məqsədyönlülük, sabitlik və mütəşəkkillik qazandıran əqli,əxlaqi və digər keyfiyyətlərə malik bir şəxsiyyətdir. Bütün bunların sayəsində insan fərdi fəaliyyət subyekti kimi çıxış edir, onun nəticələrini qabaqcadan nəzərə alır, fəaliyətinə nəzarət edir və ona görə məsuliyyət daşıyır. Şəxsiyyətin tamlığını təşkil edən fiziki, əqli, əmək, əxlaqi və estetik tərəfləri bir-biri ilə ayrılmaz surətdə əlaqədardır.

Pedaqoji fikir tarixində müəllim şəxsiyyətinin idealı və onun reallıqla korrelyasiyası məsələsi XIX əsrin sonu – XX əsrin əvvəllərində irəli sürülmüşdür. Bu dövrün ideal hesab edilən müəllimlərinin fikrincə, mənəvi cəhətdən kamil, ünsiyyətcil, yüksək əxlaqlı, öz işinin peşəkarı, geniş erudisiyaya malik insan əsil ideal kimi formalaşır. Azərbaycan müəlliminin qarşısında doğma xalqının tarixini, dilini, mədəniyyət və ənənələrini bilmək, şagirdlərdə vətənpərvərlik hissinin oyanması istiqamətində fəaliyyət göstərmək kimi vəzifələr qoyulmuşdur [7]. Müəllimin ideala yaxınlaşmasına gəlincə isə o dövrdə hökm sürən pedaqoji fikir şəxsi özünütəkmilləşdirməni əsas hesab edirdi. İdeala cəhd edən müəllim bir sıra xüsusiyyətləri özündə cəmləşdirməlidir. Belə ki, müəllim həm də alim (tədqiqat işlərinin yanaşma və metodlarını mənimsəməli); pedaqoq (pedaqoji nəzəriyyələri praktikada tətbiq etməyi bacarmalı və bilməli); psixoloq (psixologiyanın əsaslarını, şagirdlərin yaş və fərdi psixoloji xüsusiyyətlərini bilməli); texnoloq (elmi fikri praktikada tətbiq etməklə təlim-tərbiyə prosesinin metodika və texnologiyalarını mənimsəməli); təşkilatçı (şagird kollektivini idarə etmək üçün menecerlik vərdişlərinə yiyələnməli); bir az da həkim (uşaq orqanizminin fiziki və əqli hüdudlarını, psixoloji gərginliyin həddini bilməli); artist (sözü başqa şəkildə ifadə etməyi bacarmalı, düzgün tələffüzə, bədii danışığa sahib olmalı) və s. olmalıdır [8].

Müəllimin ideala yaxınlaşmasında həlledici amil onun pedaqoji texnologiyalara yiyələnmə səviyyəsidir. Pedaqoqun şəxsi texnoloji potensialı bir sıra komponentləri əhatə edir: intellektual komponent (həm ənənəvi, həm də innovativ təhsil texnologiyalarından xəbərdar olmaq, onların konseptual əsasını başa düşmək); effektiv-praktik komponent (peşəkarlığın əsasını təşkil edən didaktik metodlar, üsullar və təşkilati formalar toplusuna yiyələnmək); emosional-şəxsi komponent (şagirdlərin fərdi tələbatlarını nəzərə almaqla öz peşəkar imkanlarının şagird kontingentinə uyğunlaşdırılması, şagirdlərlə onların xarakter cizgilərinə (temperament, intuisiya, ifaçılıq və təşkilati qabiliyyətlər) müvafiq ünsiyyət təcrübəsi) [9].

Müəllimin ictimai idealı onda şəxsi müsbət imicin formalaşması ilə sıx surətdə əlaqədardır. Müəllim imic texnologiyalarına sahib olmalı və daima onların təkmilləşdirilməsi üzərində işləməlidir. Müsbət imic qabiliyyəti istənilən fəaliyyət sferasında uğur əldə etməyin əsas açarıdır. İdeala yaxın olan müəllim pedaqoji konfliktləri həll etmək bacarığına sahib olmalıdır. Yəni, ekstremal vəziyyətlərdə müəllim gedişatı tənzimləməli, zəruri hallarda bu vəziyyətlərə əngəl olmalı və ya aradan qaldırmalıdır. Müəllim konfliktli situasiyanı tolerantlıq mövqeyindən yanaşaraq dərindən təhlil etməlidir, qarşısını almaq mümkün deyilsə, bir sıra metodik üsullar vasitəsilə səhvsiz onu həll etməlidir. [10]. Bu zaman hər şeyi ölçüb-biçmək və əsaslandırmaq mütləq şərt kimi çıxış edir. Müəllimdə ziyalılıq hökmən olmalıdır. Bu cür müəllimin sərbəst fikirli, daxili kamil insanlar, məharətlə qavrayan şəxsiyyətlər yetişdirməyə daha çox şansı vardır. Məhz yüksək mədəniyyətə malik şəxsiyyətlərdə elmə, ədəbiyyata, incəsənətə və təbiətə maraq oyanır.

Müəllim yalnız öyrətməli deyil, həm də tərbiyə etməlidir. Bu da yalnız pedaqoji cəhətdən mahir olan, pedaqoji hadisəni sərbəst surətdə təhlil etməyi, əsas pedaqoji məsələni və onun optimal həlli yollarını görməyi bacaran müəllimin səyi nəticəsində mümkündür [11].

Ə.Ə.Əlizadə, Ə.S.Bayramov, M.Ə.Həmzəyevin fikrincə, əsil mahir pedaqoq olmaq üçün özünəməxsus fəaliyyətdə ilkin pedaqqoji mpvqeyə malik olmaq lazımdır, bundan əlavə, pedaqoji prosesdə ilkin mövqeni reallaşdırmaq üçün müəllim müəyyən metodika və texnologiyalara yiyələnməli, təlim-tərbiyə prosesində, uşaqların həyatının təşkilində, valideynlərlə və ictimaiyyətlə iş gedişində daima tam, səmərəli, dərin, bəzən də zərif həll yollarını axtarmalıdır.

Beləliklə, müasir mahir pedaqoji işçi geniş dünyagörüşü olan, qayğıkeş, xeyirxah, prinsipial insandır. O, təlim-tərbiyə işinin yeni forma və üsullarını həvəslə tətbiq edir, az məhsuldar olan forma və metodları tərk edərək onları yenidən təşkil edir, eləcə də öz işində qazandığı yeni biliklər ətrafında daima həvəskarlarla təcrübə mübadiləsi aparır.

Müasir təhsil şəraitində ideal müəllim qarşısında çoxmiqyaslı vəzifələr qoyulmuşdur. Bunlar da hərtərəfli inkişaf etmiş, eləcə də ictimai və peşəkar dəyişikliklər prosesinə daxil olmaq qabiliyyəti olan şəxsiyyət formalaşdırmaqdır. Bu gün müəllim peşəkar olmalı, müxtəlif pedaqoji təsir qabiliyyətinə malik olmalı, mümkün ola biləcək nəticələri proqnozlaşdırmalı, bir sıra təhlil və özünənəzarət üsullarını mənimsəməli, yeni sosial-iqtisadi tərbiyə şəraitini, bazar münasibətlərinin reallığını pedaqoji cəhətdən dərk etməli, yenilikləri pedaqoji fəaliyyət mövqeyindən qiymətləndirməlidir [12].

Ədəbiyyat

1.A.U. Məmmədov. “Təlimin psixoloji əsasları”. B., 1993.
2.Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. Psixologiya. B., 2002.
3.Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. Sosial psixologiya. B., 2003.
4.M.Ə.Həmzəyev. “Pedaqoji psixologiya”. B.,1991.
5.Амонашвили Ш. А. Как любить детей (опыт самоанализа). – Донецк : Ноулидж, 2010.

6.Гуманизация учебно-воспитательного процесса : сборник научных трудов / под общ. ред. проф. В.И. Сипченка. Славянск : Издательский центр СДПУ, 2007. 182 с.
7.Губерский Л., Андрущенко В., Михальченко М. Культура. Идеология. Личность:Методолого-мировоззренческий анализ. – М., 2002.
8.Зязюн И. А. Педагогика добра: идеалы и реалии. – К., 2000.
9.Ильенков Э. В. Философия и культура. – М., 1991.
10.Ильясов Д. Ф. Педагогическое исследование : учебное пособие для слушателей курсов повышения квалификации пед. кадров/ Д.Ф.Ильясов, Челябинск:[б. и.], 2007.
11.Поликультурное образование в контексте общекультурного развития личности педагога : монография / Л. А. Хомич, Л. Ю. Султанова, Т. А. Мошенник. –Кировоград : Имекс-ЛТД, 2014.
12.Сысоева С. А. Основы педагогического творчества учителя : учебное пособие / С. А. Сысоева. – М. : ИСДОУ, 1994. – 112 с.

РЕЗЮМЕ
ПЕДАГОГИЧЕСКИЕ АСПЕКТЫ ФОРМИРОВАНИЯ ЛИЧНОСТИ УЧИТЕЛЯ В СОВРЕМЕННОЕ ВРЕМЯ

Музаффаров Р.Р.
Полицейская академия МВД АР, Баку, Азербайджан

Аспект подготовки специалиста в современных условиях глобализации сферы образования является относительно новым. В эпоху глобализации влиятельными факторами социальной динамики становятся информация, наука и образование. Конкурентоспособной в будущем будет личность, овладевшая основными науками, владеющая новейшими способами восприятия и передачи информации, образованная и практически подготовленная прежде всего в профессиональном, языковом и мировоззренческом контексте. Именно в таком ключе разворачиваются мировые трансформационные процессы в системе образования, науки и информационных технологий.

Ключевые слова: *образования, личность, идеал, профессиональная подготовка, формирование личности преподавателя, глобализация, педагогическое мастерство, имидж, учебный*

SUMMARY
PEDAGOGICAL ASPECTS OF THE FORMATION OF THE TEACHER'S PERSONALITY IN MODERN TIMES

Muzaffarov R.R.
Police Academy of the Ministry of Internal Affairs of Azerbaijan, Baku, Azerbaijan

Aspect of specialist training in modern conditions of globalization of educational system is relatively new. In the era of globalization influential factors of social dynamics are information, science and education. Competitiveness in the future will be a person mastered the basic sciences, which owns the newest ways of perception and transfer of information, educated and practical training, especially in the professional, linguistic and philosophical context. It is in this vein that the unfolding global trans-formation processes in education, science and information technology.

Keywords: *education, personality, ideal, professional training, teacher's personality formation, globalization, pedagogical skills, image, learning process, culture of the teacher, quality of education.*

İNGİLİS DİLİNİN BRİTANİYA VƏ AMERİKA VARİANTLARINDA QRAMMATİK FƏRQLƏR

Səfərova Mehriban Qənimət qızı
Azərbaycan İlahiyyat İnstitutu, Bakı, Azərbaycan
safarova.mehriban@bk.ru

Açar sözlər: *dil, variant, qrammatika, regional, dialekt*

İngilis dili İngiltərə, Şotlandiya, Uels və İrlandiya dövlətlərinin da daxil olduğu Britaniya Krallığının rəsmi dilidir. İngilisdilli ölkələrdə məktəblərdə , universitetlərdə, mediada savadlı insanlar tərəfindən danışılan universal dil ədəbi dil adlanır. Bu dil müqayisə üçün dialektlərə qarşı qoyulur. Dilçilik

ədəbiyyatlarında variant termini də işlədilir. Burada regional dialekt və regional variant terminlərini fərqləndirmək mütləqdir. Regional dialekt milli dilin müəyyən əraziyə xas olan variantıdır. İngilis milli dili regional dialektlərin inkişafı nəticəsində formalaşmışdır. Ədəbi dilə malik olan regional müxtəlifliklər isə variantlar adlandırılır. İngilis dilinin regional variantları Amerika Birləşmiş Ştatları, Kanada, Avstraliyada danışılan dillərdir.

Bəzi dilçilər Amerika variantını dialekt hesab edir. Lakin burada bir məsələni qeyd etmək lazımdır ki dialekt ,adətən, müqayisə üçün ədəbi dilə qarşi qoyulur. Amerika variantı isə ədəbi dilə malikdir .

Bəzi Amerika dilçiləri bir az da irəli gedərək bu variantı dil adlandırmağa cəhd etmişlər . Bu nəzəriyyənin başında "Amerika Dili" adlı kitabın müəllifi Henri Luis Menken dururdu. O, öz yazılarında ziddiyyət təşkil edən fikirlər irəli sürürdü. Kitabın ilk buraxılışlarında bu dilin "amerika ruhu"nun nəticəsi olduğunu və ingilis dilindən tamamilə fərqləndiyini bildirirdisə, sonrakı dövrlərdə isə daha çox "amerikalaşdırılmış" ümumi bir ingilis dilindən bəhs edirdi. Lakin əksər dilçilərin iddia etdiyi və bizim də şərik olduğumuz yekdil bir fikir mövcuddur ki, bu variant ayrıca dil ola bilməz. Bir dilin müstəqil fəaliyyət göstərməsi üçün onun özünəməxsus qrammatik və leksik quruluşu olmalıdır. Amerika variantı isə ingilis dilinin əsasında formalaşmışdır.

Yuxarıda adı sadalanan variantlar eyni bir dildən şaxələndiyinə baxmayaraq, onların arasında fonetik, orfoqrafik, qrammatik və leksik fərqlər vardır .

Bütün sadalananları nəzərə alsaq, iki variant arasındakı qrammatik fərqləri belə ümumiləşdirə bilərik.Məqalədə Britaniya əvəzinə, Br. Amerika əvəzinə, Am.işlədiləcək.

1.Amerika variantında Britaniya variantında işlədilən indiki bitmiş zaman əvəzinə, keçmiş qeyri-müəyyən zaman işlədilir,məsələn:

I have just finished my homework. I just finished my homework. (Mən işimi indicə bitirmişəm).

Britaniya variantında bu cür işlədilmə düzgün hesab olunmur, çünki indiki bitmiş zaman yaxın keçmiş zamanda baş vemiş hərəkəti billdirir və nəticəsi indiki zamana aiddir. Amerika variantında isə hər iki işlənmə forması düzgün hesab olunur .

2.İndiki bitmiş zamana aid olan digər bir fərq zaman zərflərinin işlədilməsi ilə bağlıdır. Already (artıq), just (indicə), yet (hələ) zərfləri Britaniya variantında indiki bitmiş zamanla, Amerika variantında isə həm indiki bitmiş, həm də keçmiş qeyri-müəyyən zamanla işlədilir. Məsələn, Br. I have already seen this film. Am. I have already seen this film və ya I already saw this film. (Mən artıq bu filmi izləmişəm).

3. İndiki bitmiş zamanda köməkçi feilin işlədilməməsi iki variant arasındakı qrammatik fərqlərdən biridir. Məsələn, Br.I have gone, I have ridden. Am. I gone, I ridden (Mən getmişəm, mən sürmüşəm).

4. Amerika variantında keçmiş qeyri-müəyyən zamanda bəzi feillər ingilis ədəbi dilindən fərqli yolla düzəldilir. Məsələn, to ride (sürmək) -ridd , to creep(sürünmək) -crop, to show (göstərmək)-shew, to burst(partlamaq)-bursted.Halbuki Britaniya variantında bu feillərin keçmiş zaman formaları aşağıdakı kimidir. Məsələn, to ride -rode, to creep - crept, to show-showed,to burst-burst .

5. Hər iki variantda keçmiş qeyri-müəyyən zaman və keçmiş zaman feili sifəti iki cür düzəldilir. Buna baxmayaraq qaydasız feillər, bir qayda olaraq, Britaniya variantına, qaydalı feillər isə Amerika variantına uyğundur. Məsələn:

To burn(yandırmaq) -burnt-burned. to dream(arzulamaq, yuxu görmək)-dreamt-dreamed
to lean (əyilmək)-leant-leaned to learn(öyrənmək)- learnt-learned
to smell (iyləmək)-smellt-smelled to spell (hərf-hərf demək)-spelt-spelled
to spill (daşmaq)-spillt-spilled to spoil (korlamaq) -spoilt-spoiled

Britaniya variantında learned ifadəsi oxumuş, savadlı mənasında işlənir .

6.To get (almaq, əldə etmək) feilinin feli sifət forması Britaniya variantından fərqli təqdim olunur .

Am. To get-got-gotten Br. To get-got-got

Məsələn, Br.I have got better at driving. Am. I have gotten better at driving. (Maşın idarə etməyim yaxşılaşıb).

Buna baxmayaraq Britaniya variantında to forget (unutmaq) feilinin feili sifət forması forgotten kimi qalır .

7. Britaniya variantında gələcək qeyri müəyyən zaman formasında birinci şəxsin təkində işlədilən "shall" köməkçi feilin əvəzinə Amerika variantında "will" işlədilir. Bu cür işlədilmə Britaniya variantında mövcuddur, lakin bu modallıq ifadə edir. Amerika variantında işlədilən "shall" köməkçi feili isə məcburiyyət ifadə edir. Məsələn:

I will participate in the meeting (Mən iclasda iştirak edəcəyəm). Son dövrlərdə Britaniya variantında da bu əvəzlənmə müşahidə olunur.

8. Qeri-rəsmi danışıqda Britaniya variantında istifadə olunan və planlaşdırılmış hərəkəti bildirən "to be going to" ifadəsi Amerika variantında "gonna" şəklində işlənir. Maraqlısı ondadır ki , bu ifadə artıq Britaniyada da geniş yayılmağa başlamışdır.

Are you going to meet your friends? Are you gonna meet friends?(Sən dostlarını qarşılayacaqsan?)

Bu ifadənın köməyi ilə digər bir mənanın verilməsi də mümkündür .

Amerika variantında istiqaməti göstərərkən daha çox "to be going to" və ya "gonna" feili işlənirsə , Britaniya variantı üçün əmr formasının işlənməsi tipikdir. Məsələn, Am . You are gonna straight along King street and you are gonna past a church. Br.Take King street here on the left and go past a church. (Kınq küçəsi ilə düz get və kilsənin yanından keç).

9."Malik olmaq" mənası verən "to have" feilinə "do" köməkçi feili vasitəsilə sual verilməsi Amerika variantına xasdır. Məsələn , Am .Does America have its own language? Br. Has America its own language? (Ameikanın öz dili varmı?).

Britaniya variantında " to have" feilinə yalnız o zaman "do" köməkçi feili vasitəsilə sual verilir ki, əsas feillə ifadə olunmuş hərəkət müntəzəm xarakter daşıyır. Məsələn :

-Have you any milk? (-Süd varmı?)

-No , I have not . (Xeyr, yoxdur)

-Do you have it?(Ümumiyyətlə sizdə süd olurmu?)

- Yes we have , but today we've run out of it. (Bəli , olur, amma indi bitib)

10. Amerika variantında "var, malik olmaq" mənası verən "have got" feili əvəzinə "have" işlədilir . Britaniya variantında hər iki forma işlədilir. Məsələn, We have got much work to do. We have much work to do (Bizim ediləsi çox işimiz var).

Bundan əlavə Amerika variantında "do" əsas feilinin "have" əvəzinə işlənmə halları da mövcuddur . Məsələn, Am. Have you any money ? Yes, I do. Br. Have you any money Yes, I have (Pulun varmı? Bəli.).

Lakin bu cür əvəzlənmə koməkçi feillərə aid deyil. Məsələn, Have you understood? Yes, I have (Anladinmi? Bəli). Hər iki variantda işlənmə eynidir.

11. "Ehtiyac yoxdur" mənası verən ifadə Britaniya variantında "needn't", Amerika variantında "don' t need to" kimi işlənir. Məsələn, Br. You needn' t spend spare time on entertaiment. Am. You don' t need to spend spare time on entertaiment. (Boş vaxtını əyləncəyə sərf etməyə ehtiyac yoxdur).

12. Hissi-qavrayış bildirən feillər Britaniya variantında "can" və ya "could" (bacarmaq) modal feili ilə işlənirsə, Amerika variantında müstəqil şəkildə işlənir .

Məsələn, Br. I could hear the birds

Am.I hear the birds (Mən quşların səsini eşidirəm).

13. Zərurət, borc, vaciblik kimi anlayışları ifadə etmək üçün Britaniya variantı "have to" , Amerika variantı isə "have got to" feilindən istifadə edir. Br.You have to take this painkiller, if you have a headache. Am.You have got to take this painkiller, if you have a headache (Başın ağrayırsa, ağrıkəsici qəbul etməlisən).

14. "Almaq, götürmək, qəbul etmək" mənalarını verən "to have" və "to take" feilləri Britaniya variantında çox geniş surətdə təmsil olunur. Amerika variantında isə bu mənanın ifadə olunması üçün yalnız "to take" feili işlədilir. Məsələn, Br. To take \ to have a shower Am. To take a shower (duş qəbul etmək), Br. to have \to take a break, Am. To take a break (fasilə etmək).

15.Sözönülərin və zərflərin işlədilməsində fərqlər .

Br. Stay at home .	Am.Stay home (Evdə qal) .
At the weekend	on the weekend(həftə sonu)
Monday to Friday	Monday through Friday (bazar ertəsindən cüməyədək)
Check something.	Check something out (yoxlamaq)
Visit somebody.	Visit with somebody (kimisə ziyarət etmək)
Apart from	aside from (ayrı, başqa)
Different from	Different than (fərqli)

Ümumiyyətlə, Britaniya variantında zaman və məkan anlayışlarını bildirmək üçün "at", Amerika variantında zaman anlayışlarını bildirmək üçün "on", məkan anlayışlarını bildirmək üçün isə "in" sözönülərindən istifadə olunur .

16. Toplu isimlər Britaniya variantında həm təkdə, həm də cəmdə olan feillərlə işlənir . Fərqləndirici nüans ismin bir ideya və ya fərdlərin cəmi olmasıdır . Britaniya variantından fərqli olaraq , Amerika variantında toplu isimlər özlərindən sonra işlənən feili təkdə tələb edir. Məsələn, Br. The team have won a game. The other team has lost a game. Am. The team has won a game. (Komanda qalib gəldi).

Lakin burada qeyd etmək vacibdir ki, “polis” sözü istisna təşkil edir və özündən sonra feili yalnız cəmdə tələb edir. Məsələn,The police are investigating the crime (Polis cinayəti araşdırır.).

17. Qeyri-müəyyən şəxs əvəzliklərinin işlədilməsində bir fərq nəzərə çarpır. Məsələn , Am. One should not think too much to defend his lands. Br. One should not think too much to defend one ‘s lands. (Torpalarının müdafiəsi üçün çox fikirləşməməlisən).

18. -wards suffiksi ilə düzəldilən istiqamət bildirən isimlər Britaniya variantında forwards(irəli), upwards(yuxarı), afterwards(sonra) kimi, Amerika variantında forward, upward, afterward kimi işlənir .

19. Variantların birində təkdə işlənən təyin digərində cəmdə işlənə bilir . Burada xüsusi bir qayda yoxdur və variantlar üzrə dəyişə bilir. Məsələn, Britain has a drugs problem. America has a drug problem. (Amerikanın narkotiklərlə bağlı problemi vardır).

20. Half (yarım) sayı ilə qeyri-müəyyən artiklın işlənməsi iki variant arasındakı fərqlərdən biridir.

Am .We spent a half hour waiting for a bus. Br. We spent half an hour waiting for a bus (Biz yarım saat avtobus gözlədik).

21. Britaniyada gündəlik danışıqda salamlaşmalarda istifadə olunan, yaxşı mənasını verən “well” zərfinin əvəzinə, good(yaxşı) sifətinin işlənməsi hallarına rast gəlinir. How are you? Br . I am well. Am. I am good. (Necəsən ? Yaxşıyam).

Yuxarıda nəzərinizə çatdırdığımız faktların detallı araşdırılması belə bir nəticəyə gəlməyə əsas verir ki , Amerika Birləşmiş Ştatlarında danışılan, bəzilərinin dialekt, digərlərinin ayrıca dil adlandırdığı variant, Böyük Britaniyada danışılan dillə eynidir. Qrammatik sistemdəki hər hansı bir fərq adı çəkilən variantın ayrıca dil olma iddiasını əsaslandırmır və dil daşıyıcıları arasında heç bir anlaşılmamazlığa səbəb olmur.

Ədəbiyyat

1. Бабич Г. Н. Лексикология английского языка. Учебное пособие. Флинта. Наука. Москва, 2010 с.145-153
2. Беляева Т. М. Потапова И. А. Английский язык за пределами Англии. Ленинград, 1961, с. 25-37
3. Швейцер А. Д. Литературный английский язык в США и Англии Высшая школа. Москва ,1971, с. 83-128
4. Najafli E., Taghiyeva S. English lexicology (textbook) Baku -Mutarjim 2018. Pages 265-267
5. Veliyeva N . Communicative -Pragmatic paradigm of English lexicology. A linguistic approach. Baku-2014. Pp. 227-244

РЕЗЮМЕ
ГРАММАТИЧЕСКИЕ РАЗЛИЧИЯ МЕЖДУ БРИТАНСКИМ И АМЕРИКАНСКИМ АНГЛИЙСКИМ ЯЗЫКОМ

Сеферова М.Г.

Азербайджанский институт теологии, Баку, Азербайджан

Американский вариант английского языка является литературным языком всех американцев, так как имеет свою стандартную форму. Несмотря на то, что он был сформулирован на основе британского английского, в нем достаточно отличий, которые иногда приводят к непониманию. Эти различия обусловлены как лингвистическими, так и экстралингвистическими факторами, которые необходимо учитывать Имеются данные, подтверждающие тенденцию американского влияния на британский английский. Таким образом появляется новый способ использования. Различия, о которых идет речь в этой статье, обнаруживаются только в литературном языке. Поэтому при изучении темы необходимо учитывать диалекты внутри Америки как объект исследования. В заключение, поскольку все вышеупомянутые различия не мешают англичанину и американцу общаться и понимать друг друга они не могут рассматриваться как основание для утверждения о существовании двух отдельных языков.

Ключевые слова*: язык, вариант, грамматика, региональный, диалект*

SUMMARY
GRAMMATICAL DIFFERENCES BETWEEN BRITISH AND AMERICAN ENGLISH
Seferova M.G.
Azerbaijan Institute of Theology, Baku, Azerbaijan

American variant of the English language is a literary language of all Americans as it has its own standard form . Notwithstanding the fact that it has been formulated on the basis of British English , there are enough differences that sometimes leads to misunderstanding.These differences are caused both by linguistic and extralinguistic factors that must be taken into consideration. There are evidences proving the tendency of American influence over British English as well.Thus a new way of usage penetrates into an island. The differences presented in this article are found only in literary language. Therefore while dealing with the topic, dialects within America must be taken as an object of research. To conclude, as all the above mentioned differences do not prevent an Englishman and an American from communicating and understanding each other, they can not be considered as grounds for claiming the existence of two separate languages .
Keywords: *language, variant, grammar, regional, dialect*

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ TƏLİM-TƏRBİYƏ PROSESİNİN TƏŞKİLİ

Həbibullayeva Vəfa Məməş qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
vefa.hebibullayeva@mail.ru

Açar sözlər*: təlim, tərbiyə, qloballaşma, təhsil, yeni texnologiyalar*

Müasir dövrdə təlim-tərbiyə pedaqoji prosesin əsas tərkib hissəsi kimi yeni dövrün tələblərinə uyğun formalaşır. Qloballaşma şəraitində təlim-tərbiyənin təşkili zərurəti yeni texnologiyaların, innovasiyaların bütün sahələrə, həmçinin pedaqogika elminə inteqrasiyası ilə birbaşa bağlıdır. Qloballaşma dedikdə, cəmiyyətdə insanlar, xidmətlər, məhsul və s. resursların lokal çərçivədən daha geniş müstəvidə, başqa sözlə, ümumdünya səviyyəsində inteqrasiyası nəzərdə tutulur. Qloballaşma siyasi, mədəni və iqtisadi təsirlər konteksində ölkələrin müxtəlif sahələrində yeni istiqamətlər formalaşdırır. İlk dəfə iqtisad elmində ABŞ iqtisadçısı Teodar Levitt tərəfindən bazarların birləşməsi və onların qiymətləndirilməsi üçün istifadə olunmuş bu termin sonradan müxtəlif sahələrdə, eləcə də pedaqogika, psixologiya sahəsində yeni məzmun xüsusiyyətlətləri əsasında təhlil edildi.

Müasir dövrdə təlim, təhsil və tərbiyə prosesi zamanın tələblərinə uyğun qloballaşan informasiya axınında yeni texnologiyalardan istifadə etməklə milli şüürun, əxlaqi dəyərlərin, vətənpərvərlik ruhunun qorunması zəminində formalaşdırılmalıdır. Yeni dövrdə geniş dünya görüşlü, xalqına və cəmiyyətinə fayda verən şəxsiyyətin formalaşması üçün tərbiyə prosesində əsas prinsiplərə - məqsədyönlülük, yaşauyğunluq, fərdi və cinsi xüsusiyyətlərin nəzərə alınması, hörmət və tələbkarlığın vəhdəti, əmək və ictimai işlərdə tərbiyə, şüurla davranışın vəhdəti, şəxsiyyətin kollektiv vasitəsilə tərbiyəsi və s. əməl olunması vacibdir [3, s. 97].

Yeni texnologiya və innovasiyalardan təlim-tərbiyə prosesində düzgün və səmərəli istifadə olduqca vacibdir. Erudisiyalı, vətənpərvər şəxsiyyətin yetişdirilməsi gələcəyin peşəkar mütəxəssislərinin formalaşdırılması dövrün tələbidir və bu prosesdə əsas yüklərdən biri təlim- tərbiyə müəssisələrinə, müəllim şəxsiyyətinin üzərinə düşür. Öz peşəsini dərindən bilən, sevən, geniş dünyagörüşlü, vətənpərvər müəllim yalnız ağıllı beyinlər, peşəkar və milli dəyərlərinə sahib çıxan şəxsiyyət yetişdirə bilər. Psixoloqlar öz tədqiqatlarında qeyd edirlər ki, praktiki biliklər nəzəri bilikdən daha asan dərk edilən və yaddaqalan olur. Təlim prosesində ağıllı lövhələrdən, kompüterlərdən, natural obyektlərdən, cihaz və alətlərdən, şəkillərdən, video çarxlardan, animasiyalardan istifadə tədris-tərbiyə prosesinin daha effektiv təşkilinə imkan verir.

Təlim və tərbiyə prosesinin vəhdətində təhsil əsas baza rolunu oynayır və pedaqoji prosesin tərkib hissələrindən biridir. Bu baxımdan ölkədə təlim-tərbiyə prosesindəki vəziyyətin təhlili üçün təhsil göstəricilərdən istifadə zəruridir.

Təhsil sisteminin müasir formada həyata keçirilməsi praktiki olaraq bütün Azərbaycan ailələrini əhatə etdiyindən, təhsilin strukturunda, məzmun və mahiyyətində aparılan yenilənmələr, müasir və yeni

yanaşmalar ictimai fikrin nəticələri diqqətlə öyrənilməli, statistik təhlillər və araşdırmalar genişləndirilməlidir.

Cədvəl

2000-2021 – ci illər üzrə Azərbaycanda təhsilin əsas göstəriciləri

	2000-2001	2005-2006	2010-2011	2015-2016	2019-2020	2020-2021
Təhsil alanların cəmi sayı	2034739	1957981	1724524	1775060	2033877	2078353
Ümumi təhsil müəssisələrində	1692812	1588364	1327532	1356081	1617138	1657685
Peşə təhsili müəssisələrində	172944	172189	197330	194482	164503	153041
Orta ixtisas təhsil müəssisələrində	42698	58070	53470	56456	56075	60060
Ali təhsil müəssisələrində və doktoranturada	126285	139358	146192	168041	196161	207567

***Mənbə**: cədvəl müəllif tərəfindən müvafiq materiallar əsasında hazırlanmışdır [1, s.39-40].*

Belə ki, 2000-2021- ci ildə üzrə təhsil alanların sayının təhlili göstərir ki, cəmi say üzrə ən yüksək göstəricilər 2020- 2021/ 2000-2001-ci tədris illəri üzrə əldə edilib. Ümumtəhsil müəssisələrində daha çox təhsil alanların sayı 2000-2001-ci tədris ilində, peşə təhsil müəssisələrində təhsil alanların sayı 2010-2011, orta ixtisas və ali təhsil müəssisələrində 2020-2021-ci tədris ilində görünür (bax cədvəl 1). Real vəziyyətin təhlili göstərir ki, son illərdə ali təhsilə maraqla yanaşı, orta ixtisas müəssisələrinə tələbat artıb. Ümumiyyətlə təhsilə peşə, orta ixtisas və ali təhsilə cəlb olunan vətəndaşın bir şəxsiyyət kimi formalaşdırılması nisbətən daha asan prosesdir. Bu prosesin daha effektiv olması isə maraqlı, effektiv, təcrübi biliyə əsaslanan fənlərin tədrisi ilə bağlıdır. İnnovasiyalardan, yeni metod və vasitələrdən düzgün istifadə işinin qurulması isə təlim-tərbiyə mühitinin daha effektiv olmasına əsas yaradar. Azərbaycan təhsili və dünyanın inkişaf tendensiyası; Azərbaycan təhsil sisteminə verilən yeni sosial tələblər; Azərbaycanda keyfiyyətli təhsilin həyata keçirilməsinə dövlət təminatı; təhsildə səmərəli iqtisadi münasibətlərin formalaşması; təhsil sisteminin yüksək ixtisaslı kadrlarla təminatı, dövlət və ictimaiyyət tərəfindən onun dəstəklənməsi; pedaqoji kadrların professionallığının yüksəldilməsi və digər problemli sahələr üzrə maarifləndirmə ön plana çəkilərək, bu sahədə işlər gücləndirilməlidir [5, s.122].

İnnovasiyalar yeni düşüncələrin ixtirası deməkdir. Yeni dövrün gətirdiyi yeni texnologiyaların elmdə istifadəsi yeni uğurlara əsas yaratdığı halda, yeni texnologiyalardan qaydasız istifadə, bazara işləyən, lakin cəmiyyət üçün faydasız, milli əxlaqi dəyərlərə zidd informasiyanın sürətli axını, televiziya, jurnal və sosial şəbəkələr vasitəsilə sürətli yayılması təəssüf ki, müasir dövrün uşaqlarının, yeniyetmələrinin və gəncliyinin təlim-tərbiyəsində neqativ təsirlər yaradır, təhsildən yayınmasına təsir edir. Məhz belə bir aktual problemin həll olunması ailə, təlim-tərbiyə və təhsil müəssisələrinin birgə fəaliyyəti əsasında mümkündür. Düzgün təhsil, tərbiyə şəraitində yetişdirilmiş insanları, onlarn əqidəsi və rəftarı qloballaşmanın neqativ təsirlərini normallaşdırmağa kömək edər. Gənclərin bədii-estetik tərbiyəsində, zövqündə, mənəviyyatında Qərb cəmiyyətinədəki neqativlərə meyillik ailə münasibətlərinə də çox ciddi təsirlərini göstərir. Unutmaq olmaz ki, Azərbaycan milli mentaliteti, milli dəyərləri olan bir dövlətdir. Ailə dəyərlərinə bağlılıq, qadına, övlada sevgi, böyüklərə hörmət Azərbaycan ailəsinin uzunömürlülüyünün səbəbi idi. Lakin qloballaşmanın mənfi təsirləri Azərbaycan ailəsinə də müəyyən mənada təsir edib. "Tərbiyə etmək üçün, tərbiyə almaq lazımdır" deyən Uşinski yeni nəslin tərbiyəsi məhz onu əhatə edən ailəsindən, mühitindən, cəmiyyətindən asılıdır [4, s.133]. Əgər qloballaşmanın müsbət tərəfləri varsa, niyə də biz mənfilərə meyl etməliyik. Biz qloballaşmadan öz xeyirimizə istifadə etməyi bacarmalıyıq.

Zənnimcə, öz zəfər tarixi ilə dünyaya öz gücünü, vətənpərvər gəncliyi tanıdan bir ölkənin inkişafdan, uğurdan, yeni peşəkar, vətənpərvər ruhda şəxsiyyət yetişdirməkdən başqa yolu yoxdur. Son illərdə "2019-2023 Dövlət Proqramı" çərçivəsində xaricdə doktorantura təhsilinin reallaşması, ikili diplom proqramlarının həyata keçirilməsi, xaricdə təhsil imkanlarının genişləndirilməsi, tələbə mübadiləsinin aparılması bir daha göstərir ki, ölkə rəhbərliyi dünya təhsil bazarında Azərbaycan kadrlarının tanınmasına maraqlıdır. Bu siyasi xətt uğurlu gələcəyimizin əsasıdır. Yaxın zamanda Qarabağda yeni təhsil, təlim-tərbiyə müəssisələrinin

yaradılmasının, vətənpərvər, savadlı mütəxəssislərin yetişəcəyinin, ölkəmizin daha da inkişaf edəcəyinə inanırıq.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanda təhsil, elm, mədəniyyət. Statistik məcmuə. Bakı, 2021, 504 s
2. Hüseynzadə R. Pedaqogika. Bakı, 2010
3. İsmixanov M. Pedaqogikanın əsasları. Bakı, 2013
4. İsmixanov. M., Bayramov H., Vəliyeva S. Ali məktəb pedaqogikası. Bakı, 2019, 241 s
5. Rzayev O.H., Məmmədov S.M., İsmayılov Ş.N. Təhsilin idarə olunmasının əsasları. Bakı, 2010, 476 s

РЕЗЮМЕ

ОРГАНИЗАЦИЯ ОБРАЗОВАТЕЛЬНОГО ПРОЦЕССА В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

Хабибуллаева В.М.

Сумгаитский государственный университет

В статье анализируются современные тенденции образовательного процесса в условиях глобализации. Автор исследовал требования к образованию и воспитанию в современности, педагогическую подготовку учителей, применение новых технологий в образовательном процессе, а также проанализировал государственную политику, проводимую в системе образования в последние годы. Предложения и рекомендации показали снижение негативного влияния глобализации на воспитание подрастающего поколения, обладающего патриотическими, широкими взглядами и национальными нравственными ценностями.

Ключевые слова: *обучение, образование, глобализация, образование, новые технологии.*

SUMMARY

ORGANIZATION OF THE EDUCATIONAL PROCESS IN THE CONTEXT OF GLOBALIZATION

Habibullayeva V.M.

Sumgayit State University

The article analyzes modern trends in the educational process in the context of globalization. The author researched the requirements for education and upbringing in modern times, pedagogical training of teachers, the application of new technologies in the educational process and analyzed the state policy pursued in the education system in recent years. Suggestions and recommendations has shown to reduce the negative effects of globalization on the upbringing of a young generation with a patriotic, broad outlook and national moral values.

Keywords*: training, education, globalization, education, new technologies*

ŞAGİRDLƏRİN OXU PROBLEMLƏRİNİN HƏLLİNDƏ MÜƏLLİMİN ROLU

Cəfərova Nabat Beydulla qızı

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan

Cafarova_nabat@mail.ru

Açar sözlər: *müəllim, oxu, problem, təlim prosesi, strategiya*

Şagirdlərin oxu vərdişlərinin normal inkişafını təmin etmək üçün təlimin hər bir mərhələsində bunu fərdi şəkildə öyrənmək zəruridir. Təlimin üçüncü ilində şagirdlərin oxu vərdişlərinə yiyələnməsi və oxunun təkmilləşdirilməsi davam edir. Oxunun düzgün, aydın, sərbəst, səlis, rəvan, ardıcıl, şüurlu, ifadəli olması qayğısına qalınır. Şagirdlərin qarşısında oxunmuş, materialların məzmununu dərk etmək, ona münasibət bildirmək, onu qiymətləndirmək tələbi qoyulur. Bütün bunlar həm də şagirdlərin nitq inkişafına xidmət edir [4, s.32].

Şagirdin oxusuna verilən tələbləri: düzgünlüyü, sürəti, şüurluluğu, ifadəliliyi təmin edən və ya əks təsir yaradan halları aşkara çıxarmaq, bu istiqamətdə ardıcıl iş aparmaq oxunun keyfiyyətini üzə çıxarır, şagirdlərin oxusunu vərdişə çevirməkdə əhəmiyyətli rol oynayır. Oxunun bütün növləri aşağıdakı tələbləri doğrultmalıdır: oxunun düzgünlüyü; oxunun rəvanlığı; şüurluluq; ifadəlilik.

Şagirdlərin oxusu təkmilləşdirilməsə, oxu mətnləri uşaqlara düşünməyi, oxumağı və hiss etməyi aşılamayacaqdır. Odur ki, şagirlərin oxusuna verilən tələblər haqqında bəzi məqamları bilmək lazımdır. Düzgün oxu. Məzmun o zaman daha tez anlaşılır ki, oxu düzgün olsun. Oxunun düzgünlüyü şüurluluğun təmin oxunmasına xidmət edir. Oxunun rəvanlığı oxunun şüurluluğu ilə üst-üstə düşmürsə, faydalı deyildir.Oxuda gözlənilən digər keyfiyyət onun ifadəli olmasıdır. Oxu materialında verilənlər, əsas ideya, obrazlar, fikirlər ifadəli oxuda canlanır və məzmunun şüurlu dərk olunmasına səbəb olur. Düzgün oxu, rəvan oxu, şüurlu oxu ifadəli oxunu tənzimləyir. Oxunun düzgünlüyünə verilən başlıca tələblər: sözləri düzgün, aydın, sərbəst, səlis təhrifə yol vermədən oxuya bilmək; sözlərdə vurğunun yerini müəyyən etmək, vurğuya uyğun olaraq mənanı dəyişməmək; bir sözü başqa oxşar sözlə dəyişməmək; düzgün tələffüzə əməl etmək; cümləyə söz artırmamaq, sözü ixtisat etməmək; təkrarlara yol verməmək; mətni, cümlələri oxuyarkən fasiləyə əməl etmək; punktuasiya qaydalarını gözləmək; nitqdə olan qüsurları aradan qaldırmaq. Oxu zamanı düzgünlüyü pozan başlıca amillər aşağıdakılardır:

- ilkin oxunun düzgün aparılmaması;
- dialekt və şivə qüsurlarının islah edilməməsi;
- yazı və tələffüz arasındakı fərqin başa düşülməməsi;
- fizioloji nöqsanların mövcudluğu;
- şagirdlərin leksik mənanı başa düşməmələri;
- oxu mətnlərində şagirdlərin yaş səviyyəsinə uyğun olmayan çətin sözlərin yer alması.

Qeyd olunanları islah etmək üçün aşağıdakı iş növlərindən istifadə məqsədəuyğundur:

- müəllimin düzgün oxusu;
- oxunun izahla müşayət edilməsi;
- yoldaşlarının oxusuna nəzarət;
- səhv oxunan sözlərin təkrar oxusu;
- sözlərdə çətinlik səviyyəsinin müəyyənləşdirilməsi və təhlili;
- oxuya nəzarət və səhvlərin islahında sinif şagirdlərinin fəal iştirakının təmin olunması.

Oxunun düzgünlüyünün pozulması bəzən nitq orqanlarının nöqsanlarından (r, s, z, g, ş və s. səslərin öz məxrəcində tələffüz olunmaması), səslərinin tələffüzündə olan qüsurlardan və s. irəli gəlir.Göründüyü kimi, düzgün oxu nitq orqanlarının vəziyyətindən də asılı ola bilir. Müəllim bu kimi hallarda hansı tədbirlər görəcəyini əvvəlcədən müəyyənləşdirməlidir. O, şagirdlə fərdi məşğul ola bilər və ya loqopedə müraciət edə bilər.

Şagirdlərin oxusuna nəzarətin ardıcıllığı və sistemli xarakter daşıması düzgün oxunun formalaşmasında mühüm faktordur. Nöqsanlı oxusu olan şagirdlər fərdi tapşırıqlarla işləyərək düzgün oxuya nail olmalıdırlar. Əlbəttə, bu iş müəllimin nəzarəti altında həyata keçirilməlidir. Şagird səhvini başa düşməlidir, əks halda o, nədə cəhv etdiyini bilməyəcəkdir. Müəllimin şagirdlərə yanaşmasında psixoloji amillər nəzərə alınmalı, hər kəsə onun xarakterinə uyğun tapşırıq verilməlidir, çətinliklər dəf olunmadıqda loqopedin yardımına müraciət edilməlidir.

Oxuda sürət. Şagirdlərin oxu texnikasına yiyələnməyə başladığı dövrdən aşağı templə müşayiət olunur, tədricən oxunun rəvanlığı artır. Oxunun nə çox asta, nə də çox sürətlə aparılması qəbuledilməzdir. Oxunun rəvanlığı yaradıcılıq tələb edir, belə ki, şagird oxuduğu mətnin məzmununu dərk edirsə, oxunun sürəti normal olacaqdır, yox belə deyilsə, oxu sürəti aşağı düşəcəkdir. Əgər şagird oxu vərdişlərinə yiyələnibsə, hər hansı mərtni oxumaqda çətinlik hiss eməyəcək, əksinə onun oxu sürəti artacaqdır. Fəal təlimdə strategiyalı oxu tendensiyası hökm sürür ki, bu da oxunun idarə olunması və daha sürətli oxunun həyata keçirilməsini tələb edir.

Oxunun rəvanlığı mətnin qavranılmasında əsaslı rol oynayır. L.S.Vıqotskinin təbirincə desək, sürətli oxu daha məhsuldar oxudur. O, oxunun sürəti haqqında mülahizələrində deyirdi, elə güman edilir ki, asta oxu məzmunun dərk olunmasını yüksəldir, amma bu belə deyil, anlama sürətli oxuda çox yaxşı baş verir.

Strategiyalı oxunun əsas amillərindən biri məhz sürətli oxu problemidir. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, sürətli oxuya yiyələnmək oxu texnikasının necə mənimsənilməsindən çox asılıdır. Əgər şagird savad təlimi dövründə oxu texnikasına lazımi qaydada yiyələnmişsə, əlbəttə, onun oxu bacarıqları daha səmərəli olacaqdır. Psixoloq T.Q.Yeqorov göstərir ki, oxunun ilk mərhələsində şagirdlər hecalarla yox,

hərflərlə oxuya üstünlük verirlər və hər bir hərfin üzərində müəyyən qədər dayanırlar. Odur ki, oxu texnikasının ilkin mərhələsində hecaya bərabər oxu sahəsi yaradılmalıdır[7].

Oxu texnikasının səmərəli olması müəllimin bu işi necə qurmasından da asılıdır. Qeyd etmək lazımdır ki, şagirdlərin hecanın oxu vahidi olmasını dərk etməsi və hecalarla oxumağı mənimsəməsi ibtidai siniflərdə nəzərə alınmalı zəruri məsələdir. Müəllim savad təlimi dövründə oxunun tədrisində açıq heca texnikasına, hecalarla oxuya, oxuda oriyentasiyaya, mövqelilik prinsipinə əməl edilməsinə diqqətli yanaşmışsa, şagirdlər strategiyalı və sürətli oxuya asanlıqla və mükəmməl yiyələnəcəkdir. Mövqelilik prinsipinə görə samit səslərin oxunması onlardan əvvəl və sonra gələn saitin tələffüzündən asılıdır.

Psixoloq N.İ.Jinkinin təbirincə desək, yazıda və danışıqda olduğu kimi, oxu prinsipində də sonrakı hissələri qabaqlama, əvvəlki hissələri isə hifzetmə özünü göstərir[9]. Belə ki, bu, oxunun sürətini artırır, mənanın anlaşılmasını təmin edir. Oxumağa yeni başlamış şagirdlərin oxu sahəsi çox dar olduğu üçün müəllim uyğun çalışmaların tətbiqi ilə oxu texnikasının düzgün formalaşması qayğısına qalmalıdır.

Şagirdlərdə oxu texnikası müntəzəm aparılan oxu çalışmaları nəticəsində tədricən yaranır və formalaşır. Bu zaman şagirdlər sürətli və rəvan oxumaqla yanaşı, oxuduğu materialın məzmununu dərk edir, başa düşürlər. Oxu prosesində hər bir sözün hərf-heca birləşməsi gözdən keçirilir, qavranılır və mənası dərk olunur. Bundan əlavə, oxunan mətnin ardıcıllığı da yadda saxlanılmalıdır. Oxu vərdişləri artıqca, çətinliklər də dəf olunur. Şagirdlərinin oxu sürətini tənzimləmək üçün müxtəlif iş üsullarından istifadə edilir: mətnə dair sualların verilməsi;_mətnin hissələrlə oxunması; rollar üzrə oxu; əzbərləmə; seçmə oxu; təkrar oxu; səhnələşdirmə; müsabiqənin təşkili; sinifdənxaric oxu.

Müəllim əsərin oxusunu cütlərlə iş şəraitində keçirir. Mətnin bir hissəsinin müəyyən vaxt (5 dəq.) ərzində oxunub məzmununun nəql edilməsi tapşırığını alan şagirdlər daha sürətlə oxumağa, verilən vaxt ərzində məzmunu öyrənməyə çalışırlar. Əlbəttə, tapşırığı cəld, vaxtında yerinə yetirənlər təltif olunurlar(müəllim qalibləri verval və qeyri-verbal üsullarla mükafatlandırır). Beləliklə, şagirdlərin sürətli oxu vərdişləri möhkəmləndirilir.Oxu sürətinin dəyərləndirilməsinə müəllimin şagirdləri cəlb etməsi çox faydalıdır. Bu zaman şagird öz oxu sürətini sinif yoldaşlarının oxusu ilə müqayisə edərək daha sürətli oxumağa çalışır.

Şüurlu oxu. Şüurluluq oxuda çox vacib oxu fəaliyyətidir. Oxu prosesində şagird oxuduğunun mahiyyətini dərk etmək üçün şüurluluğa əməl etməlidir, əgər şüurluluq gözlənilməzsə, çətin ki, o, məzmunu dərk etsin. Oxuda şüurluluq şagirdlər tərəfindən oxunmuş mətnin mənimsənilməsidir. Oxuda şüurluluğun təmin edilməsi mühüm məsələdir. Mətnin yanlış başa düşülməsi və ya başa düşülməməsinə səbəb şüurlu oxuya riayət olunmamasıdır. Əsərin məzmununun anlaşılmaması sürətli və ifadəli oxuya mənfi təsir göstərir. Şagirdlərin şüurlu oxuya yiyələnməsi üçün müəllim tərəfindən qavrayışın dərinləşdirilməsinə yönəlmiş məşğələlərin təşkili zəruridir: şagirdlərin şüurlu oxuya hazırlaşması; oxunmuş mətnin məzmununa dair sualların verilməsi; lüğət işinin təşkili; planın tərtib edilməsi; seçmə oxuya üstünlük verilməsi; mətnin məzmununu nağıletmə; nəticələrin çıxarılması; həyatla əlaqələndirmə və s.

Şagirdlərin şüurlu oxusu ifadəlilikdə əsas şərtdir. Odur ki, müəllim izahlı oxu dərslərinə üstünlük verilməli, oxu dərsləri belə təşkil olunmalıdır.

Oxunun ifadəliliyi. İbtidai siniflərdə ifadəli oxu oxunun zirvəsi hesab olunur. İfadəli oxu əsərin mənasının dərk olunmasında, mətndəki söz, ifadə və cümlələrin məntiqi mənası və emosional çalarlığının açılmasında böyük rol oynayır. İfadəli oxu şagirdin sözün qüdrətini dərk etməsinə, estetik zövqünün inkişafına kömək edir. İfadəli oxu mətnin məzmunu əsasında emosional mühitin yaranmasına, hadisə və faktların olduğu kimi dərk edilməsinə şərait yaradır. Oxunun ifadəliliyi oxu vərdişlərinin yaranmasına təkan verir, həmçinin şagirdlərin oxuya marağını gücləndirir.

"Şifahi nitq-ifadəli oxu, ifadəli söz deməkdir. İfadəli oxu təkcə əsəri oxumaq deyil, ifadəli oxu zamanı şagirdlər sözlərin ədəbi tələffüz qaydalarını, nitqdə yaradıcı inkişafını, sözün ədəbi kəsər mənalarını, o cümlədən danışıqda ədəbi dilin əlaqələlərini öyrənirlər. İfadəli oxunun ikinci bir cəhəti odur ki, şagirdlər yazıçı sənətkarlığını, onun üslubunu, arzu və istəyini dərk edirlər. Sözün arxasında həyatı görür, adamları tanıyır, pisi yaxşıdan seçə bilir, nəhayət, oxuduğu əsərdən tərbiyə alırlar"[5, s.172].

Şüurlu oxunun düzgün aparılması şagirdlərin ifadəli oxusunun əsasıdır. Rus mütəfəkkiri N.V.Qoqol yazırdı, yalnız ifadəli oxu şeirə dair düzgün fikir yaradar... . Yaxşı oxumaq üçün şairin qəlbini duymaq, hər bir sözün ruhunu tapmaq lazımdır.Bədii mətnin mənasının anlaşılması yalnız ifadəli oxu zamanı mümkün olur. Oxuya verilən digər tələblərin (düzgün, rəvan, şüurlu oxu) reallaşması ifadəli oxuya zəmin yaradır. Əsərin oxusu o zaman daha effektli təsir bağışlayır ki, ifadəlilik gözlənilsin.Müəllim bu işdə ibtidai sinif şagirdlərinə nümunə olmalıdır. Müəllim oxuya hazırlıq üçün düşünməli, yazıçının nə demək istədiyini araşdırmalı, özünü hadisələrin iştirakçısı kimi hiss etməlidir. Müəllim həmçinin duyğularını

şagirdlərə çatdıra bilməli, mətni (şeir, hekayə, təmsil və s.) tələb olunan səviyyədə oxumalıdır. Düzgün, rəvan şüurlu oxuya bilmək, hələ hər şey demək deyildir. Yalnız oxuda ifadəliliyin gözlənilməsi şagirdlərin diqqətini mətndəki əsas fikrə istiqamətləndirir. Oxunun ifadəli olması üçün müəllim əsərdəki ən xırda nüansları da şagirdlərin diqqətinə çatdırmağı özünə borc bilməli, obrazların xarakterini, daxili aləmlərini, onlara müəllifin münasibətini və s. çatdırmağı bacarmalıdır. İfadəli oxu üçün ilk şərt mətnin məzmununun şüurlu öyrənilməsidir.İfadəlilik həçinin şüurluluğu artırır. Oxu bədii əsərlə tanışlığın ən sadə formasıdır. Lakin ifadəli oxudan bəhs etdikdə bu sadəlikdən əsər-əlamət qalmır. Əsəri ifadəli oxumaq asan deyildir, şagirdlər ilk mərhələdə hələ bunu bacarmırlar. Amma məhz ifadəli oxu ifaçıya və dinləyiciyə güclü təsir edərək əsərin bütün dərinliyini, emosional təbiətini açıb göstərir[7, s.51]. İfadəlilik üzərində iş zamanı şagirdlərin oxusuna müxtəlif tələblər verilir. İfadəli oxuya dair vərdişlərin formalaşdırılması zamanı müəllimin işi ardıcıl və sistemli olmalıdır. Şagirdlərin nitqinin ifadəli olması onların oxu vərdişlərinə yiyələnmələri səviyyəsindən asılıdır. Müəllim daim oxu vərdişlərinin yaradılması, nitq texnikası istiqamətində çalışmalıdır. Belə ki, tənəffüs, səs, diksiya nitq texnikası anlayışının mühüm elementləridir. Nitq texnikası anlayışına oxu və danışıq prosesində intonasiya, səs, səsin gücü, səsin ucalığı, diksiya, melodiklik, tənəffüs (nəfəsalma- nəfəsvermə), səsin tonallığı (səsdə təmizlik, düzgünlük, gözəllik və dəyişmə tempi), vurğu, fasilə və s. daxildir [3, s.172].

"... şagirdlərin ifadəli oxu mədəniyyətinə sahib olmaları üçün ilk növbədə canlı danışıqda işlənən sözlərin leksik və qrammatik mənalarını dərk etməli və ya başa düşməli, sözlərin cümlədə işlənmə yerini və üslubi xüsusiyyətlərini dərk etməlidir" [5, s.172].

"Şagirdlərin şifahi nitqinin, o cümlədən ifadəli oxu bacarıqlarının inkişaf etdirilməsində stimullaşdırma, nitq situasiyalarının zəmin rolu oynaması, mətndən, əyanilikdən, texniki vasitələrdən, təsvir, nəqletmə, mühakimə səciyyəli çalışmalardan məqsədyönlü istifadə məsələlərinə xüsusi diqqət yetirilməlidir" [2, s.16].

Ədəbiyyat

1. Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası.I hissə. Bakı: Elm-təhsil, 2016, 404 s.
2. Həsənli B., Abdullazadə N. İfadəli oxu. Bakı: Müəllim, 2015, 304 s.
3. Kərimov Y. Ş. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003, 520 s.
4. Nəbiyeva Ş. Ana dili tədrisi metodikasının aktual problemləri. Bakı: ADPU, 2010, 127s.
5. Tağıyev B. Oxu təlimi. Bakı:ADPU, 2006, 315 s. Rus dilində
6. Элконин Д.Б. Как учить детей читать. 2-е изд. М.: Знание, 1991. - 80 с.
7. Егоров, Т.Г. *Психология овладения навыком чтения / Т.Г. Егоров.* – Санкт-Петербург : КАРО, 2006, 304 с
8. Рыбникова М.А. Очерки по методике литературного чтения. 3-е изд. *М.*: *Просвещение, 1963,* 315 с.
9. *Жинкин Н.И. Речь* как *проводник информации.* М.: Наука, 1982.
10. http://azkurs.org/qafqaz-universiteti-materiallar.html?page=92
11. https://aztehsil.com/kitabxanac/512-ktab-oxumaq-mdniyytdir-sizd-ktab-oxuyun-.html

РЕЗЮМЕ

РОЛЬ УЧИТЕЛЯ В РЕШЕНИИ ПРОБЛЕМ С ЧТЕНИЕМ УЧАЩИХСЯ

Джафарова Н. Б.

Азербайджанский государственный педагогический университет, Баку, Азербайджан

Ошибки чтения возникают по объективным и субъективным причинам. Таким образом, в качестве объективных причин можно назвать наличие в читаемом тексте слов, не соответствующих возрасту учащихся, употребление слов с трудной орфографией, неспособность объяснить значение слов или отсутствие словарной работы.

Субъективная причина – неумение учащихся определять фонетический строй слов, отсутствие образности слов в тексте. В таких случаях учащиеся воспринимают слова не на основе входящего в них предложения, а вовне. Большинство детей, которые только что освоили технику чтения, понимают слова вне предложений и текста.

Перед чтением текста учитель должен написать и объяснить трудные слова на доске и на этой основе начать чтение. Чтение многосложных слов по слогам или хором укрепляет навыки чтения учащихся. Повторное чтение текста облегчает чтение и расширяет поле зрения. В этом процессе нельзя допускать низкой активности младших школьников, им следует готовить интересные задания

для чтения. Говоря об условиях, которые играют роль в побуждении учащихся к чтению, важно помнить о его беглости.

Главное условие – учитель дает пример чтения и постоянно следит за чтением учащихся, не быть равнодушным к ошибкам учащихся, допускающих ошибки. Надзор за правильным чтением следует оставить самим учащимся. В процессе чтения учащимся нельзя разрешать читать так, как написано в книге. Для этого учитель должен познакомить учащихся с орфоэпическими правилами.

Ключевые слова: *учитель, чтение, проблема, учебный процесс, стратегия*

SUMMARY

THE TEACHER'S ROLE IN SOLVING STUDENTS 'READING PROBLEMS

Jafarova N. B

Azerbaijan State Pedagogical University,Baku, Azerbaijan

Reading errors occur for objective and subjective reasons. Thus, as objective reasons, one can name the presence in the readable text of words that do not correspond to the age of the students, the use of words with difficult spelling, the inability to explain the meaning of words or the lack of vocabulary work.

The subjective reason is the inability of students to determine the phonetic structure of words, the lack of imagery of words in the text. In such cases, students perceive words not on the basis of the sentence included in them, but outside. Most children who have just mastered the technique of reading understand words outside of sentences and text.

Before reading the text, the teacher should write and explain difficult words on the board and start reading on this basis. Reading polysyllabic words syllable by syllable or in chorus strengthens students' reading skills. Repeated reading of the text makes it easier to read and expands the field of vision. In this process, low activity of younger students should not be allowed, they should prepare interesting tasks for reading. Speaking about the conditions that play a role in encouraging students to read, it is important to remember about his fluency.

The main condition is that the teacher gives an example of reading and constantly monitors the reading of students, not to be indifferent to the mistakes of students who make mistakes. The supervision of correct reading should be left to the students themselves. While reading, students should not be allowed to read as written in the book. To do this, the teacher must introduce students to the orthoepic rules.

Keywords: *teacher, reading, problem, educational process, strategy*

ИНДИВИДУАЛЬНОСТЬ СТУДЕНТА КАК ОСНОВА ИНДИВИДУАЛИЗАЦИИ УЧЕБНОГО ПРОЦЕССА

Мамедова Сона Муса гызы

Сумгаитский государственный университет, Азербайджан, доцент

sona-mammadova@list.ru

Ключевые слова: *индивидуальность, обучение, природные свойства, память, речевой слух, навыки и умения, знания, дифференцированный подход*

Индивидуализация обучения является одним из ведущих принципов дидактики. При обучении иноязычному говорению этот принцип приобретает еще большее значение, так как индивидуальным, неповторимым, прежде всего, является речь студента как средство выражения его сугубо индивидуальных переживаний, чувств, эмоций, моральных устремлений. Поэтому обучение иностранному языку, пожалуй, в большей степени, чем какому-либо другому предмету, требует индивидуального подхода. [1]

Индивидуализация – это не одноразовое средство, используемое обычно лишь на каком-то одном этапе усвоения материала и применительно к какой-то одной группе студента (сильных, средних, слабых); она должна пронизывать весь процесс обучения иноязычному говорению. Индивидуализация не должна сводиться и к дифференциации обучения.

Основой индивидуализации может служить индивидуальность студента, понимаемая во всей своей многогранности как система. Когда речь идет об индивидуализации обучения, нельзя не учитывать все эти три стороны человеческой деятельности при ведущей роли ее личностного аспекта.

Рассмотрим индивидуальность обучаемого в трех аспектах и соответственно три вида индивидуализации: А, Б, В.

А. Индивидные свойства студентов и индивидная индивидуализация.

Индивидные свойства представлены в индивидуальности в виде предельных комплексов природных свойств человека. Совокупность этих свойств в более общей форме выступает в виде темперамента.

При обучении иноязычной речевой деятельности роль задатков проявляется в том, что одни студенты оказываются более способными к выполнению одних действий, другие – других. Для преподавателя различия в индивидных свойствах выступают как объективная данность, с которой необходимо всемерно считаться и учитывать в обучении. В силу значимости и специфики учет индивидных свойств человека в обучении должен производиться в рамках специально выделенного вида индивидуализации. Индивидная индивидуализация в первую очередь призвана служить учету и развитию способностей к иноязычной речевой деятельности.

Дифференцированное обучение строится как раз в основном на подборе индивидуальных заданий, в зависимости от способностей учеников (память, речевой слух) и уровня сформированности речевых навыков и умений. Однако дифференцированный подход страдает определенными недостатками:

а) в большинстве случаев дифференцированный подход применяется как одноразовое средство и, как правило, после того как у студентов допущены пробелы в знаниях. Это означает, что не используется профилактическая функция индивидуализации;

б) создается парадоксальное положение, при котором студенты, которые работают быстро благодаря своим способностям и менее нуждаются в упражнениях, получают дополнительные задания. Слабые же студенты, которые более нуждаются в упражнениях, выполняют меньшее их количество, так как делают это медленнее, а также обучаются из урока в урок лишь на облегченных заданиях, что приводит к усугублению недостатков в их развитии и уровне знаний;

в) дифференцированный подход на уроке направлен очень часто лишь на выявление слабых сторон в знаниях студентов, в то время как истинный индивидуальный подход должен служить главным образом выявлению и развитию сильных сторон индивидуальности;

г) дифференцированный подход практически исключает сотрудничество между студентами. Каждому студенту приходится учиться иноязычному общению … вне общения, т.е. изолированно от своих друзей.

В плане устранения указанных недостатков предоставляется необходимым сделать два замечания.

Первое касается методологии выявления и определения способностей (индивидных свойств). Плодотворным представляется подход к определению способностей с учетом вида речевой деятельности и метода обучения.

Важнее необходимости создания портативной системы тестов, а также специальных упражнений для развития иноязычных способностей. Своевременное выявление этих способностей позволит осуществить профилактическую функцию индивидной индивидуализации и развивать их на начальной ступени обучения параллельно с общей программой.

Б. Субъективные свойства студентов и субъективная индивидуализация.

Как субъект человек характеризуется не только тем, что занимается различной деятельностью, но и мерой ее продуктивности, которая определяется, с одной стороны, природными способностями, а с другой стороны умением трудиться, т.е. субъективными свойствами. [2]

Для обучения иноязычному говорению учет субъектных свойств студентов важен потому, что у каждого студента есть свои приемы знаниями, своя учебная стратегия.

Применительно к говорению, тем более в рамках коммуникативного метода, развитие субъективных свойств еще не изучено. Индивидуальные задания для студентов со слаборазвитыми субъективными свойствами почти не содержат описания алгоритмов оптимального выполнения каждого данного задания. Если таких памяток нет, то много времени на уроке непроизводительно расходуется из-за того, что студенты не умеют быстро и организованно работать.

Если при обучении другим предметам считается приемлемым, даже положительным, тот факт, что студенты работают каждые в своем темпе, то при обучении иноязычному говорению такая форма презентации учебного процесса имеет отрицательные последствия: речевой коллектив разваливается и каждому приходится учиться общению … вне общения, в лучшем случае, общаясь только с преподавателем (1-2 минуты за урок).

Специфика субъектной индивидуализации при обучении иноязычному говорению состоит в том, что она должна предусматривать одновременное применение дидактических материалов, различных по форме (например, наличие или отсутствие опор), учитывающих своеобразие приемов учебной деятельности студента, но приводящих, в конечном счете к одинаковым результатам по возможности за равные отрезки времени.

В. Личностные свойства студентов и личностная индивидуализация

Очень часто, однако, студенты проявляют поразительную пассивность даже при выполнении ими посильных речевых заданий и при владении способом выполнения этих заданий. Причина заключается в том, что не учитываются личностные свойства студентов.

Личностная индивидуализация учитывает:

а) контекст индивидуализации обучаемого;

б) жизненный опыт студентов (опыт их как читателей, спортсменов, путешественников и т.п.);

в) сферу интересов, желаний, склонностей, духовных потребностей;

г) мировоззрение (взгляды на жизнь);

д) эмоционально-чувственную сферу (при «провоцировании студентов на высказывание в защиту своей любимой команды, актера, книги, профессии);

е) статус личности в коллективе: популярность студента среди друзей, взаимные симпатии для нахождения речевых партнеров.

Перечисленные компоненты личностной подструктуры индивидуальности служат источником для использования приемов личностной индивидуализации.

Таким образом, если рассматривать личность в рамках избранного нами подхода к человеческой индивидуальности, то она выражает определенное количественного состояние социального развития человека. Поэтому личностные свойства входят в индивидуальность человека в качестве важнейшего компонента и составляет его сущность. Представляется оправданным и методически целесообразным выделить отдельный вид индивидуализации, специально предназначенный для учета личностных свойств студента – личностную индивидуализацию.

Литература

1. Рогова Г.В. Повышение эффективности обучения иностранном языкам за счет улучшения психологического климата на уроке / Иностранные языки в школе, –1977, № 5, –с. 46
2. Мерлин В.С., Климов Е.А. Формирование индивидуального стиля деятельности в процессе обучения / Советская педагогика, –1967. №4, –с.111
3. Пассов Е.И. Коммуникативный метод обучения иноязычному говорению: Пособие для учителей иностр. яз. –М.: Просвещение. 1985. –208 с.

XÜLASƏ

TƏLƏBƏ FƏRDİLİYİ TƏDRİS PROSESİNİN FƏRDİLƏŞDİRİLMƏSİNİN ƏSASI KİMİ

Məmmədova S.M.

Sumqayıt Dövlət Universiteti

Təlimin fərdiləşdirilməsi didaktikanın aparıcı prinsiplərindən biridir. Çünki fərdi, təkrarolunmaz hər şeydən əvvəl, tələbənin nitqi onun sırf fərdi həyəcanlarını, hisslərini, emosiyalarını, mənəvi istəklərini ifadə etmək vasitəsi kimi çıxış edir. Xarici dil tədrisi hər hansı fənndən daha çox fərdi yanaşma tələb edir. Fərdiləşmənin əsasını tələbə fərdiliyi təşkil edə bilər.

***Açar sözlər**: fərdilik, təlim, təbii xüsusiyyətlər, yaddaş, danışma eşitmə, bacarıq və bacarıqlar, biliklər, diferensial yanaşma*

SUMMARY
STUDENT'S INDIVIDUALITY AS THE BASIS OF INDIVIDUALIZATION OF THE EDUCATIONAL PROCESS
Mammadova S.M.
Sumqayıt State University

Individualization of learning is one of the leading principles of didactics. When teaching foreign language speaking, this principle becomes even more important, since the student's speech is first of all individual and unique as a means of expressing his purely individual experiences, feelings, emotions, moral aspirations. Teaching a foreign language, to a greater extent than any subject, requires an individual approach. The basis of individualization can be the student's individuality, understood in all its versatility as a system.

Key words: *individuality, learning, natural properties, memory, speech hearing, skills and abilities, knowledge, differentiated approach*

KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN SOSİAL PEDAQOJİ KORREKSİYA İŞİNİN İNKİŞAFETDİRİCİ VƏ TƏRBİYƏEDİCİ XÜSUSİYYƏTLƏRİ

Mehrəliyev Şahin Bəylər
Lənkəran Dövlət Universiteti, doktorant, Lənkəran, Azərbaycan
shahin_75@mail.ru

Açar sözlər: *kiçik məktəbli, korreksiya, sosial pedaqogika, inandırma, kiçik motorika*

Sosial pedaqoji istiqamətdə aparılan elmi tədqiqatlar göstərir ki, kiçik məktəblilərin təlim tərbiyəsində və davranışlarında rast gəlinən nöqsanları onlarla təşkil edilən düzgün sosial pedaqoji korreksiya işi ilə aradan qaldırmaq mümkündür. Sosial pedaqoji korreksiya işini həyata keçirən sosial pedaqoq ilk növbədə məktəb mühitinə sosiallaşa bilməyən, sosial adaptasiya prosesində problemlər yaşayan uşaqların iradi-emosional və xarakter keyfiyyətlərinə diqqət göstərməlidir. Aydındır ki, təlimə yeni başlayan uşaqlarda məktəb mühitinə dezadaptasiya daha çox rast gəlinir. Adətən emosional iradi sferalarında, xarakter və davranışlarında nöqsanlar müşahidə edilən uşaqlar təlim tərbiyə mühitinə sosiallaşmaqda çətinlik çəkirlər. Kiçik məktəbli dövründə belə uşaqların vaxtında pedaqoji korreksiya işinin təşkili onların readaptasiyası ilə yanaşı gələcəkdə təlimdə uğurlu nəticələr göstərmələrinə də səbəb ola bilər. Bu xüsusda dahi çex padaqoqu Y.A.Kamenski qeyd etmişdir: "Məktəbdə təhsilin vacib səbəblərindən biri uşaqlara məhz məktəbdə cəmiyyətin əsaslarının öyrədilməsidir.

İlk növbədə şagirdin kiçik məktəbli yaşı dövründən məktəb mühitinə sosiallaşmasını təmin etməyə səy göstərmək, sosial pedaqoq üçün əsas prioritet pedaqoji prinsip hesab edilməlidir. Kiçik məktəbli uşaqlarla koreksiya işini təşkil edərkən ciddi şəkildə fərdi yanaşma və humanizm prinsipinə riayət edilməlidir. Bəzi uşaqların gələcəkdə asosial olmaları, deviant davranşlar nümayiş etdirmələrində onların vaxtında kiçik məktəbli dövründə pedaqoji korreksiya olunmamalarını əsas səbəb kimi göstərmək olar. Bəzən ailədə uşağa düzgün verilməyən tərbiyə də onun məktəbdə adaptasiya işini çətinləşdirir. Prof. H.Ə.Əlizadə qeyd etmişdir:

"Hər bir insanın sosial tərbiyəsi ailədən başlayır. Bütün ailələrdə valideynlər öz uşaqlarının xoşbəxt gələcəyə malik olmasını istəyirlər. Lakin bu istək azdır. Heç də bütün valideynlər uşağın gələcək xoşbəxtliyini təmin etmək üçün obrazlı desək, sosial tərbiyənin özülünü möhkəm qoya bilmirlər. Bu hər şeydən əvvəl, ailədaxili münasibətlərin düzgün tənzimlənməməsindən irəli gəlir".[2, s.326] Ona görə də yaxşı olardı ki, pedaqoji korreksiya işinin daha effektiv olması üçün uşağın öz ailə üzvləri də korreksiya işinə cəlb edilsinlər. Ailə mühitində böyüməyən uşaqlarla pedaqoji korreksiya işi isə onların daha çox ünsiyyətdə olduğu sosial qrupa görə müəyyən edilməlidir.Məktəb mühitinə çətin adaptasiya olan kiçik məktəbli uşaqlar bəzi hallarda inadcıl, tərs, özbaşına, aqressiv, bəzi hallarda isə iradəcə zəif, tez təlqinə düşən, emosional baxımdan isə apativlik və asteniklik nümayiş etdirirlər. Bununla bağlı prof. Ə. Ağayev qeyd etmişdir: " Davranışında əyintilərin olması uşaqlar üçün təhlükə yaradır, onlar qəsdə cəhd edir, təlimdən uzaqlaşır, öz gələcəklərini düşünmürlər". [1, s.150] Bunu nəzər alaraq uşaqların iradi keyfiyyətlərinin inkişafına xüsusi diqqət göstərmək lazımdır. Sosial pedoqoji korreksiya işində diqqət mərkəzində olan əsas məsələ uşaqda

emosional iradi sferanın müsbətə doğru inkişaf etdirilməsidir. Bütün davranış nöqsanlarının özəyində uşağın iradə zəifliyi və emosional baxımdan tez mənfi təlqinlərə məruz qalmasıdır. Uşaqlarda iradiliyin tərbiyəsi çox vaxt, səbr və dözüm tələb edən bir prosesdir. Uşağa ilk növbədə istədiyi kimi hərəkət etmək əvəzinə zəruri işləri yerinə yetirmək təlqin edilməlidir. Sosial pedaqoq korreksiya işində didaktik oyunlardan, stimul motiv xarakterli üsullardan istifadə edə bilər. Sosial pedaqoqun özünün möhkəm iradəsi, səbri və dözümlülüyü korreksiya işində müvəffəqiyətin əsas zaminidir. Zəif iradəli uşaqlar gün ərzində diqqətlərini daha çox maraqlarını cəlb edən şeylərə yönəltdiklərinə görə günün sonunda onlarda yorğunluq, gücdən düşmə və fikirlərində dağınıqlıq müşahidə olunur. Zəif iradəli uşaqların pedaqoji korreksiya işində ilk növbədə sensor baxımdan onlara xarici təsirlərin miqdarını azaltmaq lazımdır. Zəif iradə öz növbəsində xarakter keyfiyyətlərinin dəyişməsinə gətirib çıxarır. Pedaqoji korreksiya prosesində uşaqlarda yol verdikləri səhvlərindən narahat olmaları və kədərlənmələri, vicdan hissi keçirmələri müşahidə edilirsə bu yaxşı əlamət hesab edilir. Bundan sonra baş verən uğursuzluqlardan nəticə çıxarmaq, ruhdan düşməmək, qətiyyətli olmaq və mübarizlik ruhunu uşaqlarda tərbiyə etmək onların cəmiyyət üçün hərətərfli şəxsiyyət kimi formalaşması və inkişafında mühüm rol oynaya bilər. Uğursuzluq nəticəsində mənəvi cəhətdən düşkünləşən və yolunu azan həyatın qurbanı yox düzgün olmayan tərbiyənin qurbanıdır. Ona görə də kiçik məktəblinin düzgün tərbiyə olunması istiqamətində bütün səyləri səfərbər etmək lazımdır.

Prof. F.Sadıqov əsərində geniş və ətraflı şəkildə uşaqların tərbiyə işində pedaqoji korreksiyanın qaydalarını vermişdir. Biz bunlardan bir neçəsini mövzumuzda qeyd etməyi vacib hesab edirik. Bura daxildir: “ inandırma, məhdud imkanlı uşaqlara öyüd verməklə inandırma, məhdud imkanlı uşaqlara nəsihətləndirməklə inandırma, məhdud imkanlı uşaqları dilə tutmaqla inandırma, məhdud imkanlı uşaqlara yola gətirməklə inandırma, məhdud imkanlı uşaqları başa salmaqla inandırma, məhdud imkanlı uşaqlara tövsiyyə verməklə inandırma, məhdud imkanlı uşaqları fərdi söhbətə cəlb etməklə inandırma, alışdırma üsulları, ictimai əməyə cəlb etməklə alışdırma, rəğbətləndirmə və cəzalandırma, xoş sözlərlə tərifləmə, təşəkkür etmək və mükafatlandırmaq və s. [3,s.24-30] Bu istiqamətdə tərbiyə işinin düzgün qurulması və kiçik məktəblilərdə davranışlarla bağlı problemləri aradan qaldırmaq istiqamətində əlavə olaraq aşağıdakı inkişafetdirici və bərpaetdirici korreksiya işlərini həyata keçirməyi də təklif edirik. Belə məşqlərə kiçik və böyük motorikanın inkişafı məşqləri də daxildir. Bu məşqləri məktəbli uşaqlar məmnuniyyətlə və maraqla icra edirlər. Eyni zamanda qeyd olunan məşqlər əgər kompleks şəklində icra olunarsa bir çox davranış problemlərin qısa müddət ərzində aradan qalxacaqdır. Tədqiqatlar göstərir ki, aşağıda qeyd olunan korreksiya metodları uşaqlarda bir çox davranış problemlərinin aradan qalxmasına kömək edir. İlk növbədə bir neçə kiçik motorik hərəkətlərin icra olunma qaydalarını nəzərinizə çatdımaq istəyirik. Xatırlatmaq istərdik ki, əl və ayaq barmaqları ilə icra olunan incə hərəkətlər sistemi kiçik motorika adlanır.

1. Xırda əşyalarla, muncuqlarla, mozaikalarla,konstruksiyalar, bitki toxumları ilə müxtəlif oyunlar qurmaq.
2. Dulusçuluq işi. Plastilin və gildən istifadə etməklə müxtəlif fiqurlar yaratmaq.
3. Kağızı xırda-xırda əl barmaqları ilə doğramaq.
4. Barmaqlarla məşqlər sitemi.

Hər iki əldə baş barmağın növbə ilə dairəvi şəkildə altıya qədər saymaqla (sayı artırmaq da olar) öncə saat əqrəbi istqamətində sonra saat əqrəbinin əksi istiqamətində hərəkət etdirmək lazımdır.

1. Əlləri yumruq kimi sıxmaqla yenidən açmaq. Bu hərəkətlərlə korreksiyanın təsirini artırmaq üçün bir neçə dəfə əllər yorulana qədər təkrarlamaq lazımdır

2. Ardıcıl olaraq aşağıdakı barmaq hərəkətlərini bir neçə dəfə əllər yorulana qədər icra etmək lazımdır.



3. Əlləri stolun üzərində açıq vəziyyətdə qoyub gah sağ əli gah da sol əli yumruq kimi sıxıb ardıcıl açıb bağlamaq. Bu hərəkəti əllər yorulana qədər icra etmək lazımdır

Böyük motorikaya isə əl, ayaq və digər bədən üzvlərinin ümumi hərəkətlər sistemi daxildir. Böyük motorika insanın doğulduğu ilk gündən inkişaf etməyə başlayır. Böyük motorik hərəkətlərə göz, əl və ayaqların, bel və boyun hərəkətləri, nitq və s. daxildir

Böyük motorik hərəkətlərə həmçinin bir çox gimnastik və hərəkətli oyunları da əlavə etmək olar. Bunlara misal olaraq aşağıdakıları göstərmək olar:

1. Önə və arxaya doğru bir neçə dəfə əyilmək
2. Arxaya doğru hərəkət edərək yerimək.
3. Topla müxtəlif hərəkətlər etmək.
4. Bir ayaq üstə durmaq və hoppanma hərəkəti.
5. Pilləkənləri yuxarı qalxmaq və enmək.
6. İki ayaq üstə hoppanma hərəkəti.
7. Hər ayaq üstə fasilələrlə 10 saniyyəyə qədər dura bilmək.Bu hərəkətləri bir neçə dəfə yorulana qədər təkrar etmək lazımdır.
8. Velosiped sürmək.
9. Bir ayaq üstündə hoppanmaq.
10. Ayaq pəncələri və ayaq barmaqları üzərində gəzmək.

Böyük motorikanın inkişafı üçün ritmiş tənəffüs və göz hərəkətləri məşqlərini də əlavə etmək olar. Bu məşqlər eyni zamanda baş beyinə neyron səviyyəsində müsbət təsir göstərməkdədir.

1. Ritmik tənəffüs məşqi-Ritmik olaraq tənəffüs məşqlərini hər gün eyni zamanda icra etmək lazımdır. İlk öncə nəfəs burunla alınmalıdır, ağızla isə ağciyərlərdən xaric olunur. Bu məşqin ritmik olması üçün müyyən sayda təkrarlalanmalıdır. Misal olaraq yeddiyə qədər ürəyinizdə sayıb nəfəsinizi burunla ehmalca yavaş və həfifcə alırsınız. Sonra yenidən yavaşca nəfəsinizi ürəyinizdə yeddiyə qədər saymaqla verirsiniz. Bu məşqi gündə 3 dəfə səhər, günorta və axşam hər məşqə isə 5 dəqiqə vaxt ayırmaqla icra etmək lazımdır.

2. Göz hərəkətləri məşqi.

I məşğələ. Öncə hər iki göz qapağı açılmış vəziyyətdə öncə sağ gözü bağlamaq lazımdır sol göz qapağı açılmış vəziyyətdə qalır sonra sağ göz bağlananda sol göz açılır. Daha sonra yenə hər iki göz açılmış vəziyyətdə sol göz açılır sağ göz bağlı qalır. Hər iki göz açılmış vəziyyətdə gah sağ, gah da sol göz açılıb bağlanır.Qeyd olunan bu göz hərəkəti 10 dəfəyə yaxın təkrarlanır.

II məşğələ. Hər iki göz bağlı vəziyyətdə öncə sağ göz açılır sol göz yumulu vəziyyətdə qalır,sonra sol göz açılır sağ göz yumulu qalır. Bu göz hərəkəti də 10 dəfəyə qədər təkrarlanmalıdır.

Yuxarıda qeyd olunan korreksiya işləri ilə yanaşı kiçik məktəblilərdə tərbiyəvi istiqamətdə təsirləri gücləndirmək lazımdır. Bununla bağlı valideynlər, pedaqoji kollektiv və şagirdlər arasında maarifləndimə və profilaktik işləri vaxtaşırı həyata keçimək lazımdır.

Ədəbiyyat

1. Ağayev Ə.Ə, Rzayeva Y.T, Hüseynova T.M, Vahabova T.M. Sosial Pedaqogika. Bakı- 2008.
2. Əlizadə H.Ə, R.M.Mahmudova Sosial pedaqogika.Bakı -2013.
3. Sadıqov F.Korreksiya Pedaqogikasına giriş. Bakı -2017.
4. Uşaq inkişafı metodikası. Bakı 2011.
5. Астапов В. М. Коррекционная педагогика Москва-2006.

6. Олиференко Л.Я, Т. И. Шульга, Социально-педагогическая поддержка детей группы риска. Москва-2002.
7. Кащенко В. П. Педагогическая коррекция. Москва -2000.

РЕЗЮМЕ
РАЗВИВАЮЩИЕ И ВОСПИТАТЕЛЬНЫЕ ОСОБЕННОСТИ СОЦИАЛЬНО-ПЕДАГОГИЧЕСКОЙ КОРРЕКЦИОННОЙ РАБОТЫ ШКОЛЬНИКОВ МЛАДШИХ КЛАССОВ
Мехралиев Ш.Б.
Ленкоранский государственный университет

Своевременная социально-педагогическая коррекция школьников с проблемами поведения и воспитания поможет им предотвратить серьёзные недостатки, которые могут проявиться в дальнейшей жизни. В связи с этим социальные педагоги, социальные работники, учителя и родители должны серьёзно работать вместе. Самое главное, что в процессе воспитания учащегося мы можем комплексно применять другие соответствующие методы, помимо традиционных методов обучения, чтобы мы могли проводить коррекционную работу более эффективно и результативно.
Ключевые слова: *школьник младшего класса, коррекция, социальная педагогика, убеждение, мелкая моторика*

SUMMARY
DEVELOPMENTAL AND EDUCATIONAL FEATURES OF SOCIO-PEDAGOGICAL CORRECTIONAL WORK OF PRIMARY SCHOOL STUDENTS
Mehraliev S.B.
Lenkoran State University

Timely social and pedagogical correction of schoolchildren with problems of behavior and education will help them prevent serious shortcomings that may manifest themselves in later life. In this regard, social educators, social workers, teachers and parents should seriously work together. Most importantly, in the process of educating a student, we can comprehensively apply other appropriate methods besides traditional teaching methods so that we can carry out remedial work more effectively and efficiently.
Keywords: *primary school students, correction, social pedagogy, persuasion, small motor skills*

MÜƏLLİM- ŞAGİRD MÜNASİBƏTLƏRİ STİMULLAŞDIRMA VƏ MOTİVASİYA VASİTƏSİ KİMİ

Əliyeva Sevinc Qərib qızı
General- leytenant K.A.Kərimov adına 8 nömrəli tam orta məktəb, Bakı, Azərbaycan
alievasevinc_1976@hotmail.com

Açar sözlər: *Müəllim, əməkdaşlıq, ünsiyyət, motivasiya, stimullaşdırma*

Müəllim-şagird münasibətlərində əməkdaşlıq, ünsiyyət və münasibətlər humanizm prinsiplərindən irəli gəlmişdir. Müəllimin şagirdlərlə əməkdaşlığını bir pedaqoji prinsip, dəyərli metod, motivasiyaedici yanaşma və ən əsası isə stimullaşdırma vasitəsi kimi başa düşmək olar.

Uşaq təbiətində ən kiçik yaşlardan əməkdaşlıq, ünsiyyətcillik, insansevərlik vardır. Pedaqoji proses də uşaq təbiətinə uyğun və onun təbiətinə müvafiq olaraq əməkdaşlıq əsasında qurulmalıdır. Uşaqlar məhz başqa insanlarla ünsiyyət və münasibətdə, əməkdaşlıqda sosiallaşır, onların bilik və dünyagörüşü genişlənir, müsbət emosiya, motivasiya və stimul qazanırlar. Ünsiyyət və əməkdaşlıq olmadan uşaqların təlim və tərbiyəsi düzgün qurulmaz və onlar hərtərəfli inkişaf edə bilməzlər. Pedaqoji prosesdə təlimə stimul yaradılmasında, düzgün motivasiya qurulmasında müəllim-şagird əməkdaşlığı vacib və əhəmiyyətlidir. Müəllimin pedaqoji fəaliyyətində stimullaşdırma funksiyası tələb edir ki, *"müəllim şagirdi müxtəlif yollarla təhsilə təhrik etməyi və istiqmətləndirməyi bacarsın"* [4, s.44].

Əməkdaşlıq pedaqogikasının əsas fəlsəfəsi belədir ki, müəllim pedaqoji prosesi idarə edərkən şagirdlərə arxalanır, onları özünə köməkçi hesab edir, onların rəyini, fikrini soruşur, onları təlim və tərbiyə prosesinin dinləyicisi deyil, iştirakçısı və təşkilatçısı kimi qəbul edir və onlarla birlikdə pedaqoji prosesi həyata keçirir.

Amma, onu da qeyd edək ki, məktəbdə müşahidə və təcrübələrimizdən məlum olmuşdur ki, bir çox müəllimlər əməkdaşlıq və ünsiyyətdə seçicilik edirlər. Belə ki, müəllimlər o uşaqlarla daha çox və ardıcıl ünsiyyət və münasibətdə olurlar ki, onlar uşaqlara qarşı müəyyən subyektiv münasibətdədirlər. Yəni, yaxşı oxuyan, intizamlı, sözə baxan, ədəbli şagirdlərlə müəllimlər daha çox ünsiyyət və münasibətdə olurlar. Lakin diqqəti cəlb etməyən, passiv, intizama bir çox hallarda əməl etməyən uşaqlarla az ünsiyyət və münasibətdə olurlar. Belə hal isə həmin şagirdlərin daha da geriləməsinə və intizamı pozmasına səbəb olur.

Müəllim-şagird ünsiyyət və münasibətlərində pedaqoq-alimlər bunun əsasən üç növünü fərqləndirmişlər:

a) dəyişməz – müsbət ünsiyyət

b) passiv – müsbət ünsiyyət

c) dəyişən ünsiyyət

Yenə də qeyd edilir ki, müəllim-şagird əməkdaşlığında müxtəlif ünsiyyət tərzləri də vardır:

1. Birgə həvəs və yaradıcılıqla əsaslanan ünsiyyət.
2. Dostluğa əsaslanan mehriban ünsiyyət.
3. Şagirdlərlə müəyyən "məsafə", pərdə saxlamaqla ünsiyyət.
4. Qorxudularaq hökmlü ünsiyyət.
5. Ələ salınaraq rişxəndli ünsiyyət.
6. Qılığa girərək ünsiyyət [3, s.105-106].

"Müəllim-şagird ünsiyyətindən danışdıqda ilk növbədə bunun təlim-tərbiyə prosesində həyata keçirilməsi və reallaşması başa düşülür.Müəllim - şagird ünsiyyəti aşağıdakı proses və istiqmətlərdə özünü göstərir:

1. Təlim vəzifələrinin yerinə yetirilməsi vasitəsi kimi.
2. Tərbiyə prosesinin sosial –psixoloji cəhətdən təmin olunması kimi.
3. Təlim və tərbiyənin müvəffəqiyyətini təmin edən müəllim və şagirdin qarşılıqlı əlaqəsinin təşkili tərzi kimi" [1, 142].

"Şəxsiyyətin formalaşması ictimai münasibətlər sistemi ilə bilavasitə bağlıdır. Tərbiyədən geniş mənada danışanda məhz bu cəhəti – ictimai münasibətlər, o cümlədən, ailə münasibətləri sisteminin uşaq şəxsiyyətinə təsiri nəzərdə tutulmalıdır"[2].

Fikrimizcə, müəllim şagirdlərlə ünsiyyət və münasibətini daha uğurlu və optimal qurması üçün aşağıdakı şərtlərə də əməl etməlidir: 1) müəllim şagirdlərlərlə əməkdaşlığında seçiciliyə yol verməməli, ünsiyyət və münasibətində diqqətli, həssas və səmimi olmalıdır; 2) müəllim şagirdin psixoloji durumunu bilməli, ümumi vəziyyətini, əhval ruhiyyəsini duymalı və yaş xüsusiyyətlərini nəzərə almalıdır; 3) müəllim ünsiyyət və münasibətində, əməkdaşlığında öz davranışına, hərəkətlərinə, sözlərinə və xarici görkəminə diqqət yetirməlidir; 4) əməkdaşlıq və ünsiyyət zamanı şagirdlər çətinliyə düşərsə və ya cavab verməkdə çətinlik çəkərsə, müəllim onlara kömək etməlidir; 5) müəllim həm verbal, həm də qeyri verbal ünsiyyətini mənalı, məzmunlu aparmalı, dəstəkləyici mühit yaratmalı, şagirdlərdə müsbət motivasiya və stimul verməlidir; 6) müəllim şagirdələrlə əməkdaşlığını, pedaqoji, psixoloji münasibətlərini daim təhlil etməli və bu münasibətləri təkmilləşdirməlidir; 7) müəllim-şagird münasibətləri yalnız xoş aura yaratmalı, xoş emosiyalarla müşayiət olunmalı, istiqamətverici, motivasiyaedici və stimullaşdırıcı mövqedə olmalıdır.

Yekun olaraq belə qənaətə gələ bilərik ki, müəllim-şagird əməkdaşlığı bütövlüklə məktəbin humanistləşməsinin, demokratikləşdirilməsinin və şagirdlərdə təlimə müsbət motivasiya, stimulun yaradılmasının əsasını təşkil edir.

Ədəbiyyat

1. İlyasov M.İ. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2013, 216 s.
2. Əliyev P.B. Valideyn-övlad münasibətlərinin pedaqoji əsasları. https://aztehsil.com/valideyn/195-valideyn-vlad-mnasibtlrinin-pedaqoji-larpiral
3. Hüseynzadə R.L. Pedaqogika. Dərslik. Bakı: Mütərcim, 2021, 488 s.
4. Quliyev S.M., İsmixanov M.A. Müəllimlik ixtisasına giriş.Dərs vəsaiti. Bakı:ADPU, 2015.

РЕЗЮМЕ
ОТНОШЕНИЯ УЧИТЕЛЬ-УЧИТЕЛЬ КАК СРЕДСТВО СТИМУЛЯЦИИ И МОТИВАЦИИ
Алиева С.Г.
Полная средняя школа № 8 им. Генерал-лейтенант К.А. Керимова, Баку, Азербайджан

В отношениях учитель-ученик сотрудничество, общение и отношения строятся на принципах гуманизма. Сотрудничество учителя с учащимися можно понимать как педагогический принцип, как метод, мотивирующий подход и как средство стимуляции. В характере ребенка с раннего возраста присутствует сотрудничество, общительность и человечность. Педагогический процесс должен строиться на основе сотрудничества. Именно в общении и взаимодействии с другими людьми дети социализируются, их знания и кругозор расширяются, и они получают положительные эмоции, мотивацию и стимул.
Ключевые слова: *Учитель, сотрудничество, общение, мотивация, стимулирование.*

SUMMARY
TEACHER-TEACHER RELATIONS AS A MEANS OF STIMULATION AND MOTIVATION
Aliyeva S.G.
Full secondary School No. 8 named after Lieutenant General K.A. Kerimova, Baku, Azerbaijan

In the teacher-student relationship, cooperation, communication and relationships are built on the principles of humanism. The cooperation of the teacher with the students can be understood as a pedagogical principle, as a method, a motivating approach and as a means of stimulation. In the character of a child from an early age there is cooperation, sociability and humanity. The pedagogical process should be built on the basis of cooperation. It is in communication and interaction with other people that children socialize, their knowledge and horizons expand, and they receive positive emotions, motivation and incentives.
Keywords: *Teacher, cooperation, communication, motivation, stimulation*

YENİ TƏLİM TEXNOLOGİYALARININ ƏNƏNƏVİ TƏLİM METODLARINDAN FƏRQLİ CƏHƏTLƏRİ

Baxşiyeva Nərgizxanım Ağababa qızı
Lənkəran Dövlət Universiteti, Lənkəran, Azərbaycan
nergiz.baxsiyeva.98@gmail.com

Açar sözlər: *təlim, texnologiya, fərqli, səmərəli, ənənəvi metod*

Təlim texnologiyaları pedaqoji texnologiyanın bir növüdür. Təlim texnologiyaları pedaqoji proses zamanı şagird və müəllimlərin texniki vasitələrin köməyi ilə bu prosesin təsviri formalarının məzmununu yaxşılaşdırır. Müasir dövrümüzdə qazanılmış son nailiyyətlərdən biri hesab edilir və təlim texnologiyalarına texniki vasitələri, kompüter texnologiyasını aid edə bilərik. Kompüter texnologiyasının yaradılması təlimdə irəliləyişə gətirib çıxartdı. Bu texnologiyalar da təlimin bütün mərhələlərinin optimallaşdırılmasını təmin edir.

Yeni təlim texnologiyaları şagirdləri intellektual, mənəvi, idraki cəhətdən inkişaf etdirir, onlarda bir sıra qabiliyyətlərin inkişafına gətirib çıxarır. Əsasən də şagirdlərin yaradıcılıqları üzrə sərişt əliliyini artırır. Ənənəvi təlimə nəzər yetirdikdə aydın formada görə bilərik ki, ənənəvi təlimdə şagirdlərdə müəllimə qarşı, həmyaşıdlarına qarşı olan ünsiyyət fəal təlimə nisbətən zəif şəkildə olur. Lakin yeni təlim texnologiyalarının tətbiqi nəticəsində şagirdlərdə ünsiyyət mədəniyyəti formalaşmağa başlayır, şagirdlər vacib ünsiyyət bacarıqlarına yiyələnirlər.

Təlim metodu çoxfunksiyalı olan bir məfhum olmaqla, təlimin məqsədini, məzmunu, prinsiplərini səmərəli həyata keçirmək üçün istifadə olunur. Təlim metodlarını seçən zaman təlimin məqsədini, məzmununun keyfiyyətlə icrasına, metodların praktiki imkanlarına fikir verilməsinə əsasən diqqət yetirmək lazımdır.

Yeni təlim texnologiyaları təlim prosesinin səmərəliliyini, keyfiyyətini yüksəldən əsas meyardır. Dərs zamanı təlim prosesini aktivləşdirmək, optimallaşdırmaq üçün müəllim elə metod, texnikalardan

istifadə etməlidir ki, bu metod, texnika, üsul və ya vasitələr şagirdi təlimə cəlb etsin, onda təlimə qarşı motivasiya yaratsın. Belə olduqda, müəllim təlim məqsədlərinin həyata keçirilməsinə biraz da daha yaxınlaşar. Yeni təlim texnologiyalarının tətbiqi vasitəsilə şagirdlərin öyrənməyə marağı yaranır, yaradıcılığa həvəslənirlər. Şagird təlimin fəal iştirakçısına çevrilməli, təlimin mərkəzində müəllim deyil, şagird olmalıdır. Müəllim şagirdlərə real həyatı anlamaq və əldə etdiyi bilikləri real həyatda necə istifadə etmək bacarığında öz köməyini göstərməlidir.

Yeni təlim texnologiyalarının bir çox cəhətləri vardır ki, onları ənənəvi təlim metodlarından fərqləndirir. Belə xüsusiyyətlərə aid olaraq şagirdlərin tədqiqat fəaliyyətinə cəlb olunmaları, müəllim tərəfindən situasiyanın qoyulması, biliklərin şagirdlər tərəfindən müstəqil şəkildə əldə edilməsi və s. xüsusiyyətləri göstərmək olar. Göstərilən xüsusiyyətlər bəzi ənənəvi təlim metodlarında da olub, buna baxmayaraq yeni təlim metodları bu xüsusiyyətlərə əsaslanır [2].

Tədris üslubları illər ərzində əhəmiyyətli dərəcədə dəyişdi. Təhsilin ənənəvi üsulları şagirdlərin hər hansı materialı əzbərləmə üsulu vasitəsilə həyata keçirilirdi, müasir üsul isə interaktiv metodları əhatə edir [3]. Yeni təlimin yaradılması ilə müəllimin funksiyalarından biri kimi artıq dizayner anlayışı da istifadə edilir. Müəllimə dizayner dedikdə, müəllimin hər bir şagirdin maraq və tələbatlarına uyğun olaraq mövzuları, təlimin məzmununu müəyyən etməsi başa düşülür. Müasir təlim zamanı müəllim təhsilalanın müxtəlif öyrənmə üslublarını aşkarlayır və onları təlimə daha çox cəlb etmək məqsədilə müxtəlif strategiya və yanaşmalardan istifadə edir. Müasir tədris üsulu daha çox dərs prosesində sinfin fəallığı, aktivliyinə əsaslanan, daha çox sual vermə, izah etmə, kompüter vasitəsilə ona verilən materialı, dərsi nümayiş etdirmək və qarşılıqlı əməkdaşlıq formalarından istifadə edir [4].

Ənənəvi təlimi ilk növbədə lövhənin qarşısında duran müəllim və passiv dinləyici mövqeyində duran şagirdlərlə, öyrənənlərlə təsvir etmək olar. Müəllim bu zaman bilikləri şagirdlərə çatdırmağa, onları izah etməyə və ona uyğun misallar gətirməyə çalışır. Şagirdlər müəllimin verdiyi materialları, bilikləri passiv formada mənimsəyirlər. Daha sonra bilikləri möhkəmləndirmək məqsədilə təkrar edir və ya tapşırıqlar prosesi zamanı bu biliklərdən istifadə edirlər. Ənənəvi dərsdə şagirdlər məlumatları sadəcə yadda saxlayır, dərketmələri passiv yöndə inkişaf edir və bu da mahiyyət etibarilə reproduktiv xarakter daşıyır. Müəllim isə əslində nəticələri şagirdlərin çıxaracağı yerdə, özü nəticələri çıxararaq bilikləri hazır formada şagirdlərə çatdırır [2]. Ənənəvi təlimdə dərs sadəcə müəllimin fəaliyyətindən ibarət olur, şagird yalnız dinləmə mövqeyini tutur. Ənənəvi üsullarla dərs zamanı tələbələri öyrətmək üçün məlumatın təkrarı və əzbər yadda saxlanmasından istifadə edildiyi üçün bu, onların tənqidi düşüncə, problem həll etmə və qərar qəbul etmə bacarıqlarını inkişaf etdirilməməsinə gətirib çıxarır.

Təlimin fəal metodları dedikdə öyrənənlərin məlumatlanmasını, idrak müstəqilliyini fikri fəallığını, yaradıcılığını artıran metodlar nəzərdə tutulur [1, s.84].

Fəal təlim metodu ilə dərs prosesində müəllimlə şagird arasında qarşılıqlı əməkdaşlıq, əlaqə, ünsiyyət əmələ gəlir. Artıq bu dərs metodunda şagirdlər passiv mövqedə durmurlar, əksinə, onlar dərsin fəal iştirakçılarına çevrilirlər, passiv mövqedən aktiv mövqeyə keçirlər. Fəal təlimdə müəllim və şagird eyni səviyyədə durur, dərsin əsas təşkilatçıları olurlar.

Fəal təlimdə həm müəllim, həm də şagird bir-birinə təsir göstərir. Başqa sözlə, müəllim şagirdə biliyi, məlumatları öyrətdiyi kimi, həmçinin müəllim də şagirddən öyrənir və beləliklə, müəllim və şagird arasında qarşılıqlı dialoq əmələ gəlmiş olur [2]. Pedaqoji ədəbiyyatdakı təlim metodları ilə yeni təlim texnologiyalarını müqayisə etdikdə görünür ki, interaktiv təlim metodları ilə ənənəvi metodlar arasında bir sıra fərqli və oxşar cəhətlər vardır.

Yeni təlim texnologiyalarının ənənəvi təlim metodlarından fərqli cəhətləri.

Ənənəvi təlim metodlarında:

-Müəllim tərəfindən biliklər əsasən şagirdlərə hazır şəkildə verilir;

- Ənənəvi metodlar əsasında təşkil edilən dərslərdə müəllim aktiv, şagirdlər passiv olur;
- Şagirdlərin dərsin sonunda qiymətləndirilməsini müəllim aparır. Şagirdlərin qiymətləndirmədə iştirakı təmin edilmir;
- Müəllim-şagird, şagird-şagird arasında ünsiyyət aşağı səviyyədə olur, qarşılıqlı əlaqə yaranmır;
- Şagird şəxsiyyətinin formalaşdırılması və onun inkişafı üçün heç bir şərait yaradılmır;
- Müəllimin funksiyası sadəcə şagirdlərə dərsi, mövzunu izah etmək, onu soruşmaqdan ibarətdir;
- Şagirdlərin yaradıcılığı, müstəqil şəkildə bilik əldə etməsi təmin edilmir;
- Dərs diskussiya şəraitində təşkil edilmir. Başqa sözlə, müəllim hər bir şagirddən yalnız verdiyi dərs materialını soruşur və bununla da kifayətlənir;

-Dərsdə fəallıq, interaktivlik, təşkilatçılıq kimi qabiliyyətlər, bacarıqlar təmin edilmir.

-Dərslər eyni qaydada təşkil edildiyinə görə, şagirdlərə darıxdırıcı formada dərs həyata keçir;
-Ənənəvi təlim zamanı şagirdlər öz fikirlərini deməkdən, sual soruşmaqdan çəkinirdilər. [4]
Yeni təlim texnologiyalarında isə:
-Bu texnologiyaların tətbiq edildiyi dərslərdə şagirdlərin müstəqil bilik əldə etmələri üçün şərait yaradılır. Şagirdlər bilikləri bir sıra internet resursları, kitablardan istifadə edərək müstəqil şəkildə əldə etmiş olurlar;
-Yeni təlim texnologiyaları əsasında keçilən dərslərdə şagirdlər aktiv (fəal) olur, şagirdlərin yaradıcılıq cəhətdən səriştəliliyini formalaşdırmaq mümkün olur;
-Şagirdlərin təlim fəaliyyəti onların özləri tərəfindən müəllimin təyin etdiyi bir neçə qiymətləndirmə meyarlarına uyğun qiymətləndirilir;
- Təlim-tərbiyə prosesinin mərkəzində duran, şagirdlər, ümumilikdə bütün təhsilalanlardır;
-Şagirdlərin vətəndaş kimi formalaşdırılmasına, onlara şəxsiyyət kimi yanaşılmasına çalışılır [4].

Yeni təlim texnologiyaları ənənəvi texnologiyalardan fərqli məzmuna malik olduğu kimi, fərqli təşkili formalarına da malikdir. Yeni təlim texnologiyaları qrup (müxtəlif tərkibli qruplar ola bilər), cütlərlə iş, dəyirmi masa və s. kimi təşkiletmə formalarına malikdir. Hər bir dərs üçün seçilən forma veriləcək biliyin məzmunu ilə müəyyən edilməlidir. Ənənəvi təlim metodları vasitəsilə tədris edilən dərsin mərhələləri ilə yeni təlim texnologiyalarından istifadə edərək həyata keçirilən dərsin mərhələləri arasında da bir sıra fərqliliklər özünü göstərir.

Ədəbiyyat

1. Ağayev Ə.A. Təlim prosesi: ənənə və müasirlik. Bakı, 2006.
2. İbrahimov F.N., Hüseynzadə R.L. Pedaqogika. Dərslik. I cild. Bakı, 2013.
3. https://sixthform.stephenperse.com
4. https://azkurs.org

РЕЗЮМЕ
НОВЫЕ ТЕХНОЛОГИИ ОБУЧЕНИЯ ОТЛИЧИЯ ОТ ТРАДИЦИОННЫХ МЕТОДОВ ОБУЧЕНИЯ

Бахшиева Н.А.
Ленкоранский государственный университет

В статье проводится анализ новых технологий обучения, используемых в современном образовании, проводится различие между этими технологиями и традиционными методами обучения. В результате использования в учебном процессе новых технологий обучения более эффективно и результативно организуется учебный процесс, а также повышается мотивация студентов к обучению. Основными особенностями новых технологий обучения при традиционных методах являются более активное участие учащихся в уроке, развитие логических и познавательных навыков.

Ключевые слова: *обучение, технология, разное, эффективный, традиционный метод*

SUMMARY
NEW TRAINING TECHNOLOGIES DIFFERENCES FROM TRADITIONAL TEACHING METHODS

Baxshiyeva N.A.
Lenkoran State University

The article analyzes the new learning technologies used in the field of education in modern times, distinguishing between these technologies and traditional teaching methods. As a result of the use of new learning technologies in the learning process, the teaching process is organized more effectively and efficiently, and students' motivation to learn increases. The main features of new learning technologies with traditional methods are the more active participation of students in the lesson, the development of logical and cognitive skills.

Keywords: *teaching, technology, different, effective, traditional method*

TƏHSİL SİSTEMİNDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ İDEYALARININ ELMİ-NƏZƏRİ ƏSASLARI

Səmədova Günay Fərmail qızı
Lənkəran Dövlət Universiteti,Lənkəran, Azərbaycan
samedzede01@mail.ru

***Açar sözlər**: təhsil sistemi, monitorinq, təhsilin keyfiyyəti, qiymətləndirmə, idarəetmə*

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə gəlişi ilə müstəqillik əldə edən Azərbaycan Respublikasında bütün istiqamətlərdə məqsədyönümlü islahatlar həyata keçirilməyə başlandı, dayanıqlı inkişaf strategiyası yaradıldı. Əsaslı islahatların aparılması, idarəetmənin bütün pillələrində, eləcə də, təhsil sahələrində şəffaf, demokratik və ədalətlilik prinsipləri tətbiq olunmağa başlandı. Heydər Əliyev cəmiyyətdə dayanıqlı inkişaf strategiyasının elmi prinsiplərini əməli iş platformasına çevirdi. Azərbaycan Respublikasında əsası Heydər Əliyev tərəfindən qoyulan yeni təhsil sistemin formalaşması bütövlükdə yüksək səviyyəli bilik və bacarıqları, mədəni rifah və davranışları, mənəvi keyfiyyətləri, yaradıcı ideya və sağlam düşüncəni və bütün insani dəyərləri ilə gənc nəslin şəxsiyyət kimi hərtərəfli yetişdirilməsinə yönəldilmişdir [1]. Azərbaycanın müstəqillik əldə etməsi bütün sahələrdə olduğu kimi, gələcək ixtisaslı kadr hazırlığının hazırlanmasına müasir tələblərə uyğun yenidən yanaşmanı ön plana çıxardı. Bunun nəticəsində elmi prinsiplərin növbəti mərhələsi həyata keçirilməyə başlandı. Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, "Müstəqil Azərbaycan Respublikasının təhsil sistemi onun gələcək inkişafını təmin etməlidir. Təhsil millətin gələcəyidir" [2, s.44].

Azərbaycan təhsil sistemində həyata keçirilməyə başlanan yeni təhsil islahatları ölkədə təhsil sahəsində prioritet məsələ hesab edilməklə yanaşı, ən başlıca məqsəd təhsilin keyfiyyətinin yüksəldilməsi isiqamətinə yönəldilmişdir.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan təhsil islahatları Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.

Qloballaşan cəmiyyətdə Azərbaycan təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyası bütün təhsil müəssisələrinin informasiyalaşmasının, yeni maddi-texniki vəsaitlərlə təmin olunmasının effekivliyini artırdı, o cümlədən təhsil sisteminin monitorinqi və qiymətləndirilməsi sahəsində də tədqiqatları gücləndirdi.

Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramının III mərhələsində təhsil sistemində qloballaşma konsepsiyası əsas götürülmüşdür. Təhsildə islahatların həyata keçirilməsi keyfiyyət göstəricilərinin yüksəldilməsinin təmin edilməsi ilə səciyyələnir.

Təhsilin keyfiyyətini, bütövlükdə təhsil sisteminin fəaliyyətini və təhsil prosesində əks-əlaqə iştirakçılarının nailiyyətlərini qiymətləndirmək üçün müəyyən indiqatorlar müəyyənləşdirilməsi və yeni qiymətləndirmə meyarlarının işlənib hazırlanması vacib şərtdir. İndiqatorlar təhsil sisteminin vəziyyətini müəyyən edən vasitə kimi çıxış edir [5].

Məlumdur ki, təhsilin keyfiyyəti təlim iştirakçılarının nailiyyətlərinin qiymətləndirilməsi ilə ölçülür. Lakin ümumilikdə təhsilin səviyyəsinin yüksəldilməsi istiqamətində təhsil sistemində ümumilikdə təlim-tərbiyə prossesini, təşkilatçılıq, idarəetmə işlərini qiymətləndirmək və bu işlərin daim nəzarətdə olmasını diqqətdə saxlamaq lazımdır. Belə ki, monitorinqlər təhsil sahəsində sistemli şəkildə yerinə yetirilməlidir. İdarəetmənin keyfiyyətinin monitorinqi pedaqoji prossesə sistemli yanaşmanı təmin edir

Monitorinq və qiymətləndirmə təhsil fəaliyyətinin hansı səviyyədə olduğunu vurğuladığından qiymətləndirilən prossesin müəyyən edilməsi ölçmə indiqatorlarından istifadə edilməklə yerinə yetirilməlidir. Yalnız bu halda təlim prossesinin keyfiyyət göstəricisi kimi monitorinq və qiymətləndirmədən pedaqoji tələblərə uyğun məzmunda istifadə etmək olar [3].

Qeyd etmək lazımdır ki, monitorinq və qiymətləndirmənin əsas məqsədi təhsil sisteminin ümumi vəziyyətini müəyyənləşdirməklə bərabər təhsil sisteminin keyfiyyətinin yüksəldilməsi sahəsində əsaslı tədbirlərin təşkilidir. Keyfiyyətin yüksəldilməsinə nail olmaq üçün ilk iş pedaqoji prossesin düzgün planlaşdırmasının aparılmasıdır. İlkin növbədə idarəetmənin bütün mərhələlərində monitorinq və qiymətləndirilmələr aparılmalıdır. Belə ki, monitorinq və qiymətləndirməyə pedaqoji prossesin keyfiyyətinin təminatı kimi baxılmalıdır.

Qeyd etmək lazımdır ki, monitorinq və qiymətləndirmə zamanı idarəetmənin məqsədi ətraflı göstərilməli, idarə olunan prosesin uyğun vəziyyəti qeyd edilməli, əks-əlaqə və onun nəticəsi işlənilib hazırlanmalıdır. Monitorinqlərin təhsil müəssisələrində aparılması obyektiv nəticələrin öyrənilməsinin

başlıca mexanizmidir. Qiymətləndirmə isə təlim iştirakçılarının nailiyyətinin ilkin səviyyəsinin diaqnostik qiymətləndirilməsi, təhsil alanların irəliləmə-geriləməsinin monitorinqi və təhsil alanların bilik, bacarıq səviyyəsinə qoyulan dövlət tələbi başa düşülür. Burada əsas məqsəd təhsil alanların nailiyyət səviyyəsini qiymətləndirməklə yanaşı təhsil müəssisələrində keyfiyyətin idarə olunmasını təmin etməkdir.

Monitorinq və qiymətləndirmə, həmçinin müşahidə, ekspert, informasiyanın araşdırılması və nəticələrin obyektiv təhlilini özündə birləşdirir. Monitorinqlərin aparılmasında təhsilin prinsipləri gözlənilməlidir. Monitorinq və qiymətləndirmə şəffaf, obyektiv şəkildə həyata keçirilməli və real faktlara əsaslanmalıdır. Monitorinqin konkret nəticələri formalaşdırılmalıdır. Eyni zamanda, formalaşmış nəticələrin təhlili keyfiyyətin təminatı ola bilər. Monitorinq və qiymətləndirmə məqsədəyönlü şəkildə həyata keçirilməli və daim nəzarətdə saxlanılmalıdır.

Ədəbiyyat

1. Qaralov Z. Heydər Əliyevin Elmi irsi. II- cild. Bakı, 2013.
2. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı, 2007.
3. Rzayev O.H., Məmmədov S.M., İsmayılov Ş.N. Təhsilin idarə olunmasının əsasları. Bakı, 2010.
4. Məmmədzadə R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı, 2010.
5. Mərdanov M., Ağamalıyev R., Mehrabov A., Qardaşov T., Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı, 2003.

РЕЗЮМЕ
МОНИТОРИНГ И ОЦЕНКА В СИСТЕМЕ ОБРАЗОВАНИЯ
НАУЧНО-ТЕОРЕТИЧЕСКАЯ ОСНОВА ИДЕЙ

Самадова Г.Ф.
Ленкоранский государственный университет

В статье анализируются теоретические основы мониторинга и оценки управления качеством системы образования. Подчеркивается, что единственной целью радикальных реформ в системе образования Азербайджанской Республики является повышение качества системы образования, формирование всесторонне развитой личности учащегося в условиях глобализации. Контролировать систему образованиясуществление мониторинга, показателей достижений студентовиграет ключевую роль в выявлении новых перспектив в области оценивания и получении высоко оцененных результатов в сфере образования и повышения качества образования.

Ключевые слова*: система образования, мониторинг, качество образования, оценивание, управление.*

SUMMARY
MONITORING AND EVALUATION IN THE EDUCATION SYSTEM
SCIENTIFIC AND THEORETICAL BASIS OF IDEAS

Samadova G.F.
Lenkoran State University

The article analyzes the theoretical basis of monitoring and evaluation for quality management of the education system. It is stressed that the sole purpose of the radical reforms in the education system of the Republic of Azerbaijan is to improve the quality of the education system, the formation of a comprehensively developed student personality in the context of globalization. To control the education system implementation of monitoring, indicators of students' achievements plays a key role in identifying new perspectives in the field of assessment and obtaining highly valued results in the field of education and in improving the quality of education.

Keywords*: education system, monitoring, quality of education, assessment, management*

PEDAQOJİ PROSESDƏ HƏYATA KEÇİRİLƏN TƏLİM STRATEGİYALARININ TƏRBİYƏEDİCİ ƏHƏMİYYƏTİ

Rzayeva Aysel Fərhad qızı
Lənkəran Dövlət Universiteti, Lənkəran, Azərbaycam
rzayevaa438@gmail.com

Açar sözlər: *təlim, situasiya, forma, üsul, strategiya, planlaşdırma.*

Təlim strategiyası dedikdə pedaqoji prosesdə təhsilverənin təhsilalanın qarşısında qoyduğu məqsədə çatmaq üçün öyrətmə metod və üsullarından istifadə nəzərdə tutulur. Təlim strategiyalarına təlimin təşkilinə verilən tələblər, təlimin formaları, təlimin üsulları, müəllimin fəaliyyətinin planlaşdırılması daxildir.

Təhsilalanların həm sosial, həm də emosional inkişafı onların böyüdüyü və öyrəndiyi mühitlə, mədəniyyətlə bağlıdır. Bu səbəbdən də təhsilverənlər və valideynlər təhsilalanların sosial və emosional inkişafının formalaşmasında əsas rol oynayırlar.

Optimal hesab edilən pedaqoji yanaşmalar təhsilalanların nadir ehtiyaclarını ödəyən təcrübələr əldə etməsini daha səmərəli edər:

- Hər bir təhsilalana qarşı həssas, humanist, ədalətli, məsuliyyətli və qayğıkeş yanaşılması;
- Təhsilalanlara öz emosiyalarını anlamaqda və onları idarə etməkdə kömək edilməsi;
- Ailə mədəniyyətinin yüksək qiymətləndirilməsinə dəstək verməklə ailələrlə əməkdaşlıq qurulması;
- İnsanlara hörmət və ehtiram hissi ilə yanaşma mühitinin formalaşdırılması;
- Qarşılıqlı münasibətlər yaratmaq üçün davamlı, ardıcıl şəraitin təşkil olunması;
- Təhsilalanların nəyi bildiyinə və nəyi yaxşı bacardığına istinad edilməsi;
- Təhsilalanlara yarana biləcək problemlərin həlli yollarının öyrədilməsi;
-Təhsilalanın maraq və ehtiyaclarının, potensial imkanları və inkişaf səviyyəsinin nəzərə alınması.

Hər bir təhsilalan özünəxas fərdi - psixoloji xüsusiyyətlərə malik olduğu üçün, o, özünün fiziki və sosial dünyasında müxtəlif metodlarla informasiya əldə edir. Mahiyyət etibarilə, hər bir uşaq dil, nitq, ünsiyyət və digər zəruri həyati bacarıqlarının inkişaf etdirilməsi üçün köməyə ehtiyac duyur. Şüurun inkişafına kömək edə biləcək strategiyalar aşağıdakılardır:

-Təhsilalanların gündəlik zəruri həyati bacarıqlara sahib olması üçün optimal mühitin yaradılması;

-Öyrətmə və öyrənmə taktikalarının birləşdirilməsi (məsələn, nəğməli oyunlar, musiqi və hərəkətləri idraki inkişafla əlaqələndirmək);

-Çətin tapşırıqların nisbətən daha kiçik hissələrə bölünməsi ilə sadələşdirilməsi;

-Gün ərzində təhsilalanların müxtəlif yaradıcı fəaliyyətlərə cəlb olunması;

-Daha yaxşı öyrənmə, mənimsəmə üçün praktiki təcrübənin təmin edilməsi;

-Təlim prosesi təhsilalanların müxtəlif bacarıq və qabiliyyətləri, həmçinin, öyrənmə metodları ilə uzlaşmalıdır [1].

Tədris prosesində öyrədən - öyrənən münasibətləri qarşılıqlı hörmət, əməkdaşlıq əsasında qurulur [3]. Bu zaman fərdi, cütlərlə, qruplarla və kollektiv iş formalarından səmərli şəkildə istifadə edilməsi təlim strategiyalarının tərbiyəedici təsirini artırar.

Lakin nəzərə almaq lazımdır ki, fərdi iş formasından davamlı olaraq uzun müddət istifadə olunduqda şagirdlərdə əməkdaşlıq etmək etmək qabiliyyəti, ünsiyyət qurmaq bacarığı formalaşmır, bu sahədə bir sıra çətinliklər yaranır. Bununla belə, fərdi iş formasının bir sıra müsbət cəhətləri vardır:

- dərs prosesində şagirdin öz təfəkküründən müstəqil şəkildə istifadə etməsinə şərait yaradılır;
- bu iş forması təlim prosesində şagirdin özünə inamını gücləndirir, təlimə olan həvəsi artırır;
- müəllim hər bir şagird haqqında daha ətraflı məlumat əldə edir ki, bu da qiymətləndirməni asanlaşdırır.

Cütlərlə iş formasında fərdi iş formasından fərqli olaraq şagirdlərlə daha yaxından əməkdaşlıq etməyə imkan yaranır. Bu zaman şagirdlər qarşılıqlı şəkildə bir-birilə ünsiyyət qurur, məsuliyyəti bölüşürlər.

Qruplarla iş forması. Qrupla iş formasının bir sıra müsbət cəhətləri vardır:

- əməkdaşlıq bacarıqları inkişaf edərək formalaşır;
- bu iş formasında şagirdlərin təqdimetmə bacarığı formalaşır;
- şagirdlər arasında rəqabət yaranır, onların təlimə olan marağı artır;
- qrup üzvləri arasında məsulliyyət hissi artır;
- hər bir təhsilalanın fərdi xüsusiyyətləri nəzərə alınır;
- şagirdlərdə özünün və yoldaşlarının işini dəyərləndirmək bacarığı formalaşır;
- şagirdlər özünüidarə bacarıqlarına yiyələnirlər;

- təhsilalanlarda müzakirə etmək, diskussiya etmək qabiliyyəti formalaşır;

Kollektivlə iş formasında sinifdəki bütün şagirdlər problemin həllinə yönləndirilir. Kollektivdə işləmək, müzakirə aparmaq, diskussiya zamanı bir-birini dinləmək və bir-birinin fikrinə hörmətlə yanaşmaq və s. kimi bacarıqlar inkişaf edir [2].

Təlim üsullarından yerli-yerində və düzgün istifadə edilməsi dərsin tərbiyədici və inkişafetdirici funksiyasının səmərəliliyini daha da artırır. Belə ki:

- Beyin həmləsi üsulu təhsilalanlarda məntiqi və tənqidi təfəkkürün inkişafını təmin edir, onların yaradıcı təfəkkürünü formalaşdırır və gücləndirir. Şagirdlərdə özünəinam hissi artır və şəxsi ifadə tərzi formalaşır. Onlarda müstəqil şəkildə düşünmək, problemli situasiyalardan çıxış yolu tapmaq, təhlil etmək, düzgün qərar qəbul etmək kimi bacarıqlar formalaşır.
- BİBÖ üsulunda şagirdlərdə mövcud biliklər ilə qazandığı yeni biliklər arasında əlaqə yaratmağa, onların müqayisə bacarıqlarını inkişaf etdirməsinə imkan yaranır.
- Debat üsulunda təhsilalanlardan dinləyib-anlama, seçilmiş mövzunun araşdırılması, arqumentlərlə iş, qərar qəbuletmə, nəticə çıxarma və s. bacarıqları, həmçinin, natiqlik məharəti, ünsiyyət mədəniyyəti tələb olunur.
- Simulyasiya üsulunda hadisələr yalandan yaradılır, təqlid etmək, imitasiya etmək kimi bacarıqlar formalaşır. Bununla yanaşı bu üsul vasitəsilə təhsilalanlarda əməkdaşlıq, rola girmək, idarəetmə kimi xarakter əlamətləri formalaşır.
- Karusel üsulundan istifadə zamanı şagirdlərdə ünsiyyət, dəyərləndirmə, qarşılıqlı əlaqə, düzgün davranış mədəniyyəti və s. kimi keyfiyyətlər formalaşır.

Bütün bunlarla yanaşı, dərsin planlaşdırılması müəllimin qarşısına qoyduğu məqsədə çatması üçün real imkanlar yaradaraq bələdçi rolunu oynayır. Müəllim planlaşdırma vasitəsilə şagirdlərə materialları düzgün və məntiqi ardıcıllıqla çatdıra bilir [3].

Pedaqoji prosesdə həyata keçirilən təlim strategiyaları əvvəlcədən dərsin planlaşdırılması zamanı məqsədə uyğun olaraq düzgün müəyyənləşdirilməli və fəaliyyət istiqamətləri ona uyğunlaşdırılmalıdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu). Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015.
2. Gülər Hüseynova, Kurikulum təliminə praktik baxış. Bakı, 2020, 7-ci nəşr.
3. İlkin Həsənov, Aynur Rüstəmova, Nigar Babayeva. Kurikulum. Metodika. Pedaqogika. Bakı, 2021.

РЕЗЮМЕ

ВОСПИТАТЕЛЬНОЕ ЗНАЧЕНИЕ СТРАТЕГИЙ ОБУЧЕНИЯ, РЕАЛИЗУЕМЫХ В ПЕДАГОГИЧЕСКОМ ПРОЦЕССЕ

Рзаева А.Ф.

Ленкоранский государственный университет

В статье рассматривается содержательные элементы стратегии обучения, используемые для реализации педагогической работы. Изучены роль и место применяемых форм и место применяемых форм и методов в плане усвоения содержания образования. Описание стратегии обучения как основной структурной единицы учебной программы по естественным наукам указывает на методологическую полезность статьи. Также в статье разъясняются требование к организации педагогического процесса. На примерах обосновывается влияние тенденции употреблять таким образом на развитие современной модели личности, предполагается уровень теоретической и практической значимости статьи.

Ключевые слова: *обучение, ситуация, форма, метод, стратегия, планировать.*

SUMMARY

EDUCATIONAL IMPORTANCE OF TRAINING STRATEGIES IMPLEMENTED IN THE PEDAGOGICAL PROCESS

Rzayeva A.F.

Lenkoran State University

The article discusses the components of the training strategy used to implement pedagogical work. The role and place of the applied forms and methods in the plan of mastering the content of education have been studied. Describing the learning strategy as the main structural unit of the subject curriculum indicates

the methodological usefulness of the article. The article also explains the requirements for the organization of the pedagogical process. The influence of the tendency to use in this way on the development of the modern personality model is substantiated by examples, and the level of theoretical and practical significance of the article is expected.
Keywords: *teaching, situation, form, method, strategy, planning.*

MÜƏLLİMİN ÇƏTİN ŞAGİRDLƏRLƏ MÜNASİBƏTDƏ DAVRANIŞ STRATEGİYALARI

Məmmədzadə Günay Hümbət qızı
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı, Azərbaycan
mammadzadamgh@gmail.com

Açar sözlər: *çətin şagirdlər, şagird tipi, çoxdanışanlar, yapışqanlar, mübahisə edənlər, qaşqabaqlılar.*

Məktəblərdə daim müəllim-şagird mübarizəsi və ya mübahisəsi olur. Bu mübahisənin fonunda müəllimin şagirddən dərs və dərs zamanı davranış qaydalarına əməl etmə tələbi və şagirdin dərs oxumaq istəməməsi durur. Ələlxüsus da bu mübahisələr yeniyetməlik dövründə artır. Məqalədə bu problemə toxunub onun həll yollarını araşdıracağıq.

İlk olaraq müəllimin dərs zamanı sakitliyə nəyə görə önəm verməsinə diqqət edək. Şagirdlərin diqqəti çox dağınıq olur və nəzərə alsaq ki, bu "döyüş"də 1 nəfər azı 24 nəfərlə mübarizə aparır və onlardan 4-ü isə xüsusilə mərkəzdənqaçmaya, dərs prosesini qatmağa meyillidirsə bu zaman müəllimin necə çətin vəziyyətdə olduğunu anlaya bilərik.

Bəs nəyə görə bəzi şagirdlər dərs prosesində iştirak etmək istəmir, min bir bəhanə ilə dərs prosesini pozmağa çalışır? Bu tip şagirdlər adətən ailədən və mühitdən qaynaqlanan problemlərin bir növ nəticəsi olurlar. Onlar dərsin onlar üçün heç bir əhəmiyyət daşımadığına inanan və gələcək planları olmayan şagirdlərdir. Bu problemin ən birinci həll yolu uşaqları təhsilə hər hansı yollasa cəlb etməkdir. Lakin, şagirdlərin hər biri fərqli psixologiyaya və maraqlara sahib olduqlarından bu yolları tapmaq da müəllim üçün elə də asan deyil.

Bəzən müəllimlər də artıq bu tip şagirdlərlə bacara bilmir və onlara istədiklərini (sakit olmaq şərtilə yatmaq, telefonla oynamaq) etməyə icazə verirlər ki, dərslərini rahat keçə bilsinlər. Lakin bu həll yolu deyil və zamanla digər şagirdlər də çətin idarə olunan şagirdə verilən "səlahiyyət"lərdən istifadə etmək istəyəcəklər. Bunun yeganə yolu həmin şagirdləri də dərs prosesinə cəlb etməkdir. Belə bir sual yaranır. Bəs, necə?

Bunun üçün müəllimin etməli olduğu ilkin davranışlar var. Müəllim siniflə ilk tanışlığı zamanı dərs prosesində şagirdlərdən nə gözlədiyi, hansı davranışa qarşı daha həssas olduğu, qiymətləndirmə zamanı nələrə diqqət edəcəyi haqda qısaca məlumat verməlidir. Bunu amiranə tonda deyil, məlumat məqsədli, bir-birini daha yaxşı tanıyıb səmərəli dərs keçmək məqsədli olduğunu bildirməlidir. Müəllim şagirdlərə məktəb qaydalarını başa salmalı və qaydalara riaəyət etməyin nə üçün vacib olduğunu başa salmalıdır. Eyni zamanda, şagird hüquqları haqqında məlumat verilməsi də onlarda özünə inam yaradacaqdır. Şagirdlərin yaxşı hərəkətlərini və dərsə cavab verməklərini sözlə və ya hərəkətlə qiymətləndirmək lazımdır. Bu onlar üçün çox önəmlidir və eyni zamanda münasibətlərinizə istilik gətirəcəkdir. Dərs zamanı yeni təlim texnologiyalarından istifadə, dərsin interaktiv şəkildə aparılması da ən səmərəli üsullardandır. Müəllim geyimi, davranışı, səs tonu ilə dərsin "sahibi" olduğunu bildirməli, lakin bu hal şagirdlərdə qıcıq yaratmamalıdır. O, eyni zamanda şagirdlərin dostu ola biləcəyi siqnalını da onlara ötürməlidir.

Lakin məsələlər bu qədər asan olmur. Hər sinifdə çətin idarə olunan uşaqlar olur ki, onlar dərs prosesini müəllim və sinifyoldaşlarına "cəhənnəm"ə çevirirlər.

Bunun üçün çətin idarə oluna bilən şagirdləri nəzərdən keçirək. Onları aşağıdakı kimi qruplaşdırmaq olar.

Çoxdanışanlar:

Xarakteri: Demək olar, bu tip şagirddən hər sinifdə hətta bir neçə nəfər ola bilir. Adətən danışdıqlarını boyunlarına almırlar. Hər zaman inkar edirlər və ya yalançı bəhanə uydurarak parta yoldaşına dərs başa saldıqlarını bildirirlər.

Davranış strategiyası: Uyğun bədən dili ilə və sözlə xatırlatma etmək, nəzakətlə diqqətini dərsə verməli olduğunu bildirmək, səs tonuna xüsusən diqqqət etmək, təşəkkür edə bilmək. Bədən dili xüsusi önəm daşıyır. Demək olar ki, şagirdlərə təsir imkanlarımızın 70%-i bədən dili ilə aparılır. Buna görə də, səs

tonumuzu, təhsil alanla məsafəmizi, baxışımızı, bədən dilimizi nəzarətdə saxlamaq lazımdır. Bəzən dərsi başa saldığınız yerdə danışan şagirdlərə iradınızı bildirmək və ya diqqətlərini çəkmək üçün susub sərt şəkildə və ya ironiya ilə baxmaq onlara dərsə "qayıtmalı" olduqlarını bildirir. Şagirdə müəllim olmaq məsuliyyətini vermək. Bu zaman şagird həm müəllim obrazı ilə yaxından tanış olur və həm də müəllimin dərs zamanı çəkdiyi çətinlikləri (özü kimi dərsi pozan şagirdlərlə ünsiyyətdə olur və dərsi idarə etməkdə çətinlik çəkir) əyani sürətdə görmüş və dərk etmiş olur.

Yapışqanlar;

Xarakteri: Diqqətin daima onların üzərində olmasını istəyirlər. Müəllimi hər çağırdıqlarında dərhal onlara yaxınlaşmasını istəyirlər və yaxınlaşmayana kimi rahatlanmırlar. Adətən bu tip uşaqlar ya yaxşı oxuyanlardır ki, bir şeyi anlamayanda təşvişə düşürlər, ya da, diqqəti sevən, müəllimə özünü isbat etməyə çalışan (mən hər zaman çalışıram, sual verirəmsə, demək dərsə marağım var, qulaq asıram), suala cavab üçün sıra gözləmək istəməyən şagirdlər olurlar. Bu tip şagirdlərə eyni zamanda öz sinif yoldaşları ilə yola gedə bilməyənləri də göstərmək olar. Ən adi problemini belə müəllimin həll etməsini istəyən bu şagirdlər parta yoldaşının ən adi hərəkətində belə müəllimə şikayət etməyə can atırlar. Suala cavab vermək istədikdə əllərini partanın üzərinə deyil havaya qaldırır, bəzən az qala partadan kənara çıxmağa meyilli olurlar. Bu hərəkət müəllim onu seçənədək davam edir.

Davranış strategiyası: Eşitməzlikdən gəlin və səbirli olun. İstədiyinizi əldə edəcəksiniz. Şüurlu etinasızlıq, məhəl qoymamaq və şagirdlərin diqqətini dərsin gedişində saxlamaq istəyən müəllimlərin bu tip şagirdlərlə davranışının əsas strategiyasıdır. Qısa müddətdə "qaydalara əməl edən, əl qaldıran və gözləyən" şagirdlərin müəllimlər tərəfindən seçildiyini görən "yapışqanlar" necə davranmalı olduqlarını anlayıb, qaydalara əməl etməli olacaqlar. Bəzən sözlərimizi əl işarələrimizlə (əlimizlə bir dəqiqə işarəsini göstərmək) dəstəkləmək daha çox kömək olur. Onlara sizə sual verməzdən əvvəl yanınızda və yaxınınızda olan sinif yoldaşları ilə fikir mübadiləsi aparmalarını, nəticə almadıqda sizə müraciət etmələrini tövsiyyə edin.

Vecsizlər:

Xarakteri: Dərsi bildikləri halda cavab vermək istəməyənlər, dərs öyrənmək istəməyənlər, dərslə bağlı hər şeyə etinasız və maraqsız yanaşanlar bu tipin daşıyıcılarıdırlar. Təəssüf ki, müəllimin onları qiymətlə qorxutmaqları belə kara gəlmir.

Davranış strategiyası: Şagirdlərə bu cür davranışlarından yaranacaq fəsadların nəticəsinin onların məsuliyyəti olduğunu başa salın. Verilən tapşırığı yerinə yetirməsini bir də təklif edin. Əsla təkid etməyin. Bu onların inadlaşmasına gətirib çıxaracaq. Sakitcə bildirin ki, əvvəl-axır o bu tapşırığı yerinə yetirməlidir. Ona vaxt verin. Diqqətinizin onda olmadığına inandırın və yalnız o fəaliyyətə başladıqdan bir müddət sonra yaxınlaşıb davranışını müsbət qiymətləndiridiyinizi söz, mimika və ya əl hərəkəti ilə bildirin. Əmin olun ki, bu tip şagirdlərlə yenidən ünsiyyət qurmaq və ya ünsiyyəti yaxşılaşdırmağa çalışmaq sizin "qalibiyyətiniz"lə nəticələnəcəkdir.

Mübahisə edənlər:

Xarakteri: Bu tipə adətən yeniyetmələr arasında çox rast gəlinir. İdarə olunmaları həqiqətən çətindir. Hər şeyə yalan və bəhanə uydura bilirlər. Dərsə heç maraqları yoxdur. Məktəbdəki əsas məqsədləri özlərini müəllim və şagirdlərə isbat etmək, müəllimlərə sataşaraq və ya saymazyana davranaraq necə "kuul" olduqlarını göstərmək istəyirlər.

Davranış strategiyası: Şagirdin məktəbi bitirməsi üçün qiymət almağı lazımdır. Bəs qiymətləndirməni kim aparır? Təbii ki, müəllim. Ona görə də şagird istər-istəməz müəllimdən asılıdır. Bunun üçün səbirli və dəqiq addımlar atan müəllim bu tip şagirdləri dərs prosesinə tədricən cəlb edə bilirlər. Amma bu elə də asan məsələ deyil. Müəllimdən güclü müşahidə qabiliyyəti tələb olunur. O, qarşısındakını diqqətlə müşahidə etməli, şagirdə qarşı humanist, qayğıkeş, yoxsa sərt davranmalı olduğunu yəqin etməlidir. Müəllim şagird psixologiyasını yaxşı bilməli, onun başqa davranışlara əl atmasına imkan verməməlidir. Dərsdən sonra şagirdlə söhbət aparmaq da müsbət nəticə əldə etməyə kömək edə bilər.

Qaşqabaqlılar

Xarakteri: Dərs oxumaqla bağlı problemləri olmur ancaq sinifdə öz istədikləri kimi davranmaq (istədiklərində gəzmək, icazəsiz durub başqa şagirddən nəsə götürmək və s.) arzularının qarşısı alındıqda qaşqabaq tökürlər. Hətta adi məzəmmət belə onların küsməyinə və dərs prosesindən uzaqlaşmasına, soyumasına gətirib çıxara bilir. Adətən mən nə etdim ki? Sadəcə nəsə götürürdüm və s. tipli cümlələr qururlar.

Davranış strategiyası; Adətən şagirdlər etdikləri davranışların dərsi pozduğundan xəbərsiz olurlar. Ona görə də müəllimin tənqidi xoşlarına gəlmir. Bunun üçün dərsdən sonra problem yaradan şagirdlə danışıb

davranışının müəllimə və dərsə nə kimi zərər verdiyini başa salın. Səs tonunuz mülayim, əmin olsun və şagirdə məsuliyyət yükləyin. Günahkar olduğunu doğru tərzdə başa salın.

Ədəbiyyat

1. Əlizadə Ə. "Müasir Azərbaycan məktəbinin psixoloji problemləri" Bakı - 2004
2. İsmixanov M., Bəxtiyarova R. "Məktəbin idarə edilməsi" Bakkı – 2012
3. Meşeci F. Öğretmenin sosyalleştirici rolü ve istenmeyen davranişlarla başa çikma. Hamıı Ali Yücel Eğittin Fakültesi Dergisi Sayı 1 (2008), 115-125
4. Yumuşak G., Balcı Ö. "Öğretmenlerin istenmeyen öğrenci davranişlari ile başa çikma yöntemleri ve bu yöntemlerin etkililiğine ilişkin görüşleri" Balıkesir University The Journal of Social Sciences Institute Volume: 21 - Issue: 40, December 2018

РЕЗЮМЕ
СТРАТЕГИЯ ПОВЕДЕНИЯ УЧИТЕЛЯ В ОТНОШЕНИЯХ С ТРУДНЫМИ УЧАЩИМИСЯ

Мамедзаде Г.Г.
Азербайджанский государственный университет культуры и искусств

В статье представлена информация о трудноуправляемых студентах и правилах поведения с ними. Он предоставляет информацию о нескольких типах трудноуправляемых учащихся, раскрывает их характер и определяет стратегии работы с ними. Эта стратегия подчеркивает важность выбора правильного языка тела и стиля учителя.

Ключевые слова: *трудные ученики, тип ученика, болтливый, ленивый, липкий, сварливый, хмурый*

SUMMARY
TEACHER RELATIONSHIP STRATEGY IN RELATIONSHIPS WITH DIFFICULT STUDENTS

Mammadzade G.H.
Azerbaijan State University of Culture and Arts

The article provides information about students who are difficult to manage and the rules of behavior with them. It provides information on several types of difficult-to-manage students, reveals their character, and identifies strategies for dealing with them. This strategy emphasizes the importance of choosing the right body language and teacher's style.

Keywords: *difficult students, student type, talkative, nonsense, stickies, argumentatives, glumies.*

PROBLEM OF TEACHER-STUDENT INTERACTION IN FOREIGN LANGUAGE CLASSES

Khalilova Saadet İxtiyar
Sumgait State University, Sumqait, Azerbaijan
seadet.kh@gmail.com

Keywords*: problem, interaction, communication, cooperation, mutual understanding, efficiency, educational process*

In our time, scientists, teachers, psychologists repeatedly turn to the problem of the teacher, adding a new meaning to this concept, for example, "competence", "professional qualities" of the teacher. This issue remains relevant, since over time the state and society change. It means that the requirements of the state and society to the teacher also change.

Some qualities of a teacher (or "competence") should not depend on time. And what qualities should be necessary for the teacher-educator in connection with the demand of the "new" time.

Drawing a portrait of a modern teacher, first of all, he should love children on the simple basis that they are children. The teacher should not be an unfair, unkind, cruel person, because most of all it hurts the child.

A real teacher is interested in the process. He is not concerned with intermediate results. The changes in the student are interesting, and the teacher is surprised and happy about these changes. The learner trust that he is really interesting to the teacher. Every teacher must follow the basic rules of pedagogy. A good teacher should be a model of upbringing and culture of behavior; rudeness, screaming, bullying is not allowed. It is also difficult to imagine a teacher who has a poor command of the culture of speech, who is not able to correctly express his thoughts. [2]

The teacher must keep up with the times: use innovations in his work, various methods, must be fluent in the material taught. Today, the teacher should be not only a source of knowledge, but also an active participant in the educational process. To involve each student in the learning process, to be able to listen to him, to make him his assistant, to look through the eyes of the student at the problem that worries him - this is the task of the teacher.

The profession of a teacher obliges to be young, active and restless. To accustom his students to research work, to educate in them respect for the experience accumulated by mankind, love for the world and life around them.

You can't go far with old "luggage"! Continuing to teach without changing because "That's The Way We've Always Done It Around Here (TTWWADIAH syndrome)" is no longer a pedagogical option. [4,46].

The main features of innovative pedagogical activity are: personal approach (focus on the personality of the student, humane relations, individualization), creative research – experimental nature of the work, persistent motivation to search for something new in the organization of the educational process.

The communicative competence becomes the core of the professionalism of the teacher. The structure of pedagogical competence includes a system of scientific knowledge and practical skills.

The most effective solution of pedagogical problems allows the democratic style of the individual. The authority of a teacher is based on a high level of development of the following pedagogical components: pedagogical observation, respect for students, and stimulation of their activity. The specificity of the modern professional activity of a university teacher lies in the realization of the true meaning of teaching, educating and developing the personality of a student: conducting, support, accompaniment.

Tolerance of the teacher is manifested by opinions, statements, peculiarities in tolerance towards another person. Developed tolerance allows equally respectful attitude to each student with his inherent individual traits, attitudes, claims.

Important qualities of a psychologically developed teacher are observation and attentiveness. Observation helps to strengthen the pedagogical impact, change the technology of teaching, increase the interest of students while reducing their attention. [2]

The problem of interaction between teachers and students is relevant at all times. It is very difficult to solve the problem, because there is no universal recipe.

As a foreign language teacher I think the effectiveness of the educational process is highly determined by the ability of the teacher to organize pedagogical communication with the student.

The success of teaching a foreign language also depends on mutual understanding between the teacher and the student. Mutual understanding is the psychological basis for cooperation in the classroom. Lack of understanding can lead to serious problems in the study of the subject itself. Therefore, even if the teacher has good professional training, owns the methodology of teaching the subject, the effect of learning can be minimal due to the relationship with student that does not work out.

Teachers who support students in learning can positively impact critical long-term success in life. On the other hand, the consequences of non-constructive teacher-student relationships on academic success are also significant and long lasting. [1]

The pedagogical skill of the teacher is to establish the originality of each student, to be attentive to everything that happens in the classroom, to respond in a timely and correct manner to the behavior of students.

An analysis of pedagogical activity shows that the effectiveness of teaching any subject, and above all a foreign language, fully depends on how coordinated the actions of the teacher and student in each specific lesson. Some students do not want to do what they should, and some cannot, because they are not used to working hard from school, they do not know how to analyze. The mismatch in activity, and, therefore, there is a problem of interaction between the teacher and the student.

But it would be wrong if we blamed everything only on students, forgetting about ourselves. Sometimes we, teachers without realizing it, ourselves are the cause of such a mismatch. To avoid such a

disagreement, we should figure out ourselves what should do in class and what we should not. In order to promote interaction with students we should go through some stages in foreign language teaching:

Stage 1 (organizational) – create atmosphere of foreign language communication.

1. Creating a situation in which students begin to feel and realize the need to acquire new knowledge, skills and abilities.

2. The use of material related to the personal experience of the students' activities, necessary for the lesson, motivating the activities of students.

3. Orientation to the transfer of one's positive emotional state expressed by intonation, facial expressions, gestures elicit positive responses from students.

Stage II(training)- familiarization with the training material and actions for its implementation.

1. Creating students' understanding of the situations in which the material being mastered is used

2. Ensuring students' understanding of educational material based on various visual aids.

3. Availability in presentation, optimal dosage of educational material.

4. Carrying out an interesting form of control of understanding what was heard or read after each learning impact.

Stage III(controlling) – summing up the results of the lesson.

1. The development of correct and objective criteria for evaluating their activities in the process of debriefing.

2. Acquaintance of students with the requirements for their knowledge, skills and abilities with evaluation criteria.

3. Regularity of control.

4. Motivation of any assessment.

5. The use of variety of verbal assessments. For example:" You make me happy today."

Teachers should avoid in each stage: 1. Orientation towards putting things in order(discipline) in the classroom at the beginning of the lesson, clarifying the relationship.

2. The standard start of classes (carrying out a standard speech exercise, which is repeated at each lesson)

3.The use of techniques that are not adequate activities (for example learning texts by heart)

3. Setting tasks that do not have educational value.

4. Actions that do not encourage students to express their attitude to what they heard, read, seen. 5. Lack of initiative and independence of students.

In addition, the success of teaching a foreign language depends not only on the joint coordinated activities of the teacher and student.

Both the teacher and the student will benefit if the teacher chooses creative activities based on partnership, which are manifested in the relationship and mutual understanding of the teacher and students [3].

Ədəbiyyat

1. Barile J.P., Donohue, D.K., Anthony E. R., Baker A.,M. Teacher-student relationship climate and school outcomes: Implications for educational policy initiatives. Journal of Youth and Adolescence, 41(3), 256-267.
2. İlyasov M.I. Müəllim peşəkarlığı və pedaqoji sərişləliliyin müasir problemləri. Monoqrafiya. Bakı: "Elm və təhsil", 2018,208 s.
3. Selifonova E.D., Zalipaeva Z.P. Achievement motivation of managers and its link to personality factors. «Humanities and Sciences in Europe: Achievements and Perspectives». Proceeding of the 8th International symposium (September 27, 2015). «East West» Association for Advanced Studies and Higher Education GMbH. Vienna.
4. www.sciedu.ca/ijhe. International Journal of Higher Education.2014. № 4 Vol.3.Published by Sciedu press

XÜLASƏ

XARİCİ DİL DƏRSLƏRİNDƏ MÜƏLLİM-TƏLƏBƏ QARŞILIQLI ƏLAQƏSİ PROBLEMİ

Xəlilova S.İ.

Sumqayıt Dövlət Universiteti

Tədqiqatlar göstərir ki, şəxsi kompetensiyalar adlanan müəllim bacarıqları kateqoriyası müəllimin fəaliyyətinə güclü təsir göstərir. Bu kompetensiyaların ən mühümü müəllim-tələbə münasibətidir. Sübutlar

göstərir ki, müsbət əlaqələr yaradan müəllimlər tələbə nailiyyətlərinə böyük təsir göstərir həm də onlarda daha az nizam-intizam problemləri olur.

Müəllimin şəxsi səriştələrinə ardıcıllıq, empatiya göstərmək, isti münasibət göstərmək, öyrənməyə həvəsləndirmək, hörmət göstərmək və s. daxildir. Vurğulamaq lazımdır ki, tələbələrə sadəcə qayğı göstərmək kifayət deyil. Effektiv müəllim-tələbə münasibətinin qurulması bu kompetensiyaların balanslı olmasını tələb edir.

Məqalədə xarici dilin tədrisində də müəllim tələbə qarşılıqlı anlaşmasının mühümlüyündən bəhs edilir. Xarici dilin tədrisində dərsin hər mərhələsində müəllimin tələbə ilə qarşılıqlı anlaşmada nələri diqqətə alması araşdırılır.

Açar sözlər: *problem, qarşılıqlı əlaqə, ünsiyyət, birgə fəaliyyət, qarşılıqlı anlaşma, səmərəlilik, tədris prosesi*

РЕЗЮМЕ
ПРОБЛЕМА ВЗАИМОДЕЙСТВИЯ ПРЕПОДАВАТЕЛЕЙ И СТУДЕНТОВ НА ЗАНЯТИЯХ ИНОСТРАННОГО ЯЗЫКА

Халилова С.И.
Сумгаитский государственный университет

Исследования показывают, что категория навыков учителя, называемая личными компетенциями, оказывает сильное влияние на эффективность учителя. Важнейшей из этих компетенций являются отношения учителя и студента. Учителя, которые создают позитивные отношения, оказывают большое влияние на повышение успеваемости учащихся: у них также меньше проблем с поведением.

Качества личных компетенций учителя включают в себя последовательность, обеспечение структуры, проявление эмпатии, проявление теплоты, проявление уважения к ученикам. Важно понимать, что просто заботы об учениках недостаточно. Установление эффективных отношений между учителем и студентом требует баланса этих компетенций.

В статье также рассматривается важность этих отношений на уроках иностранных языков. Исследуются этапы взаимоотношений учителя со студентами.

Ключевые слова: *проблема, взаимодействие, общение, совместная деятельность, взаимопонимание, эффективность, учебный процесс*

AZƏRBAYCAN DİLİ MÜƏLLİMİ VƏ AZƏRBAYCAN DİLİ DƏRSLİYİ

Əliyev Elşad Taleh oğlu
Sumqayıt Dövlət Universiteti,Sumqayıt, Azərbaycan
eliyevelsad668@gmail.com

Açar sözlər: *dil, mətn, məna, metodika, frazeologiya, tədris, fonetika*

İnsan nəyi isə öyrənərkən başlıca olaraq sözdən istifadə etdiyi üçün dil özünü təlim, tərbiyə və inkişafın mühüm vasitəsi kimi göstərir. Dil fikirləri başqalarına çatdırmaqla, əhval-ruhiyyəni, emosional durumu ifadə etməklə insanlar arasında ən mühüm ünsiyyət vasitəsidir.

Dilə yiyələnmə prosesi ailədən başlasa da, burada ümumtəhsil məktəblərinin- müəllimin rolu böyükdür. Lakin sinif dərsliklərini təhlil etdikdə və şagirdlərlə apardığımız sorğuları araşdırdıqda aydın oldu ki, bəzi dil qaydalarının öyrədilməsində sistemli yanaşma labüddür.

Sinif dərslikləri, DİM-in imtahan nəticələri və Təhsil Nazirliyinin monitorinq nəticələri təhlil etdikdə şagirdlərin səhv elədikləri mövzular aşağıdakı kimi qruplaşdırılmışdır:

1.Kontekst və kontekstdən kənar mənanın tapılmasındakı çətinliklər. Bu tipli mövzular şagirdlərin dinləyib-anlama və danışma məzmun xətləri əsasında formalaşdırılmalı olan bacarıqlarını yoxlamaq məqsədi güdür. Bəs bu bacarıqları necə formalaşdırmalıyıq? Mövcud ədəbiyyatlarda mövzunun tədrisi üçün:

a)sözün yazılışına görə mənaların verilməsi: Xeyir (fayda, gəlir) - xeyr (bəli sözünün əksi), mətin (iradəli) – mətn (yazının bir hissəsi), səhv (doğru olmayan) –səf (sıra, cərgə) və s.;

b)sintaktik və morfoloji vəziyyətinə görə sözün tapılması: açıq qapı –açıq danışmaq, düz söz- düzmək- düz danışmaq- Mil düzü- düz mən deyən oldu və s.;

c)həqiqi və məcazi mənadan bir-birinə keçirməklə: Şirin çay –şirin xasiyyət, soyuq su – soyuq münasibət və s.

2.Frazeoloji birləşmələr və həqiqi mənalı birləşmələrin fərqləndirilməsi. Dilimizdə elə frazeoloji birləşmələr var ki, onlar həm həqiqi mənalı sərbəst söz birləşməsi kimi, həm də sabit birləşmə kimi işlənir. Həmin sözləri fərqli situasiyalarda işlədilməsi yolu ilə öyrətmək lazımdır, məsələn: Qələmin əlindən yola düşməsi (həqiqi mənalı), Qonaqların yola düşməsi (sabit birləşmə) və s.;

3.Uzanma ilə vurğunun eyniləşdirilməsi. Bu məsələdə problemlər aşağıdakı səbəblərdən yarana bilir:

a) Şagirdlər termini tam başa düşmürlər. Afad Qurbanov yazır: "Sözdəki hecalardan və cümlədəki sözlərdən birinin başqalarına nisbətən ucadan (qüvvətli) deyilməsi vurğu adlanır". [1, s.104],

b) Alınma sözlərin tələffüz formasını dəqiq bilmirlər;

c)Ətrafdakı insanların səhv tələffüzü onun nitqinə də təsir edir;

d) Bir hecadakı saitin həm uzanması, həm də vurğulu tələffüz olunması halı ilə (bəzi, bəzən, yəni, sonra və s.) digər sözlərin eyniləşdirilməsi və s.

Düşünürük ki, burada sinif dərsliklərində şagirdlərin çətinlik çəkdiyi vurğu mövzusuna cəmi 5 çalışmanın ayrıldığı halda, heca mövzusuna 48 çalışma ayırmaqla da dərslik müəllifləri metodik səhvlərə yol verirlər. Təklif edirik ki, dərsliklərdə heca mövsuna aid çalışmaları azaldıb, əvəzinə vurğuya aid çalışmaları artırmaqla problemi həll etmək olar.

4."O" saitini [a] kimi tələffüz edib-etməmək. Bu mövzu 5-ci sinif Azərbaycan dili dərsliyində dilimizə başqa dillərdən keçmə dil faktı kimi izah edilsə də, səbəbi açıqlanmır. [2, s.26], Lakin "o" saitinin vurğusuz hecada [a] kimi tələffüz olunması izah olunarsa, düşünürük ki, şagirdlərdə səhv anlaşılmanın qarşısını alacaq. Y.Kərimov bu tipli materialların öyrədilməsi üçün yazır: "...bu çətinliyin aradan qaldırılması üçün "Belə yazılır, belə deyilir" başlığı ilə orfoqrafik-orfoepik cədvəllərdən istifadə edilməsi də məsləhət görülür" [3, s.315]

Ədəbiyyat

1. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. 2 cilddə: I cild. Bakı: Elm və təhsil, 2010, 452 s.
2. İsmayılov R., Cəfərova D., Xudiyeva G., Qasımova X. Azərbaycan dili 5. Bakı: Altun kitab, 2016, 199 s.
3. Kərimov Y. Ana dilinin tədrisi metodikası. Bakı: Kövsər, 2011, 564 s.

РЕЗЮМЕ

ПРЕПОДАВАТЕЛЬ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА И УЧЕБНИК АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

Алиев Э.Т.

Сумгаитский государственный университет

В данной работе рассматриваются существующие проблемы предмета азербайджанского языка в учебнике для средних школ. Таким образом, области, которые учащиеся считают более сложными, можно определить в основном в четырех частях грамматики. К ним относятся: а) трудности с поиском смысла в контексте и вне его; б) Выяснение основных отличий фразовых глаголов от фиксированных глаголов; в) приравнивается к процессу выделения и удлинения;

г) Произносится ли гласная «О» как «а» или нет. Кроме того, в данной статье представлены некоторые методические предложения по устранению указанных проблем. Все предложенные подходы проверены на практике и дают положительные результаты.
Ключевые слова: *язык, текст, значение, методика, фразеология, обучение, фонетика.*

SUMMARY

AZERBAIJANI LANGUAGE TEACHER AND AZERBAIJANI LANGUAGE TEXTBOOK

Aliev E.T.
Sumqayit State University

This thesis examines the existing problems of the subject of Azerbaijani in secondary schools textbook. Thus, the areas that students find more challenging can mainly determine in four parts of the grammar. They are: a) Difficulties with to find meaning in and out of context; b) Finding out the main differences between the phrasal verbs and fixed verbs; c) To be equated with the process of emphasizing and elongation; d) Whether the vowel "O" is pronounced as "a" or not. Furthermore, this article provides some methodological suggestions for eliminating the mentioned issues. All proposed approaches have been tested in practice and yield beneficial results.
Keywords: *language, text, meaning, methodology, phraseology, teaching, phonetics.*

CÜMLƏNİN QURULMASINDA AKTUAL ÜZVLƏNMƏNİN ROLU

Quliyeva Dilarə Rüstəm qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt,Azərbaycan
dilarerustam@gmail.com

Açar sözlər: *cümlə, tema, rema, aktual üzvlənmə, söz sırası, intonasiya.*

Müasir sintaksisin ən mühüm problemlərindən biri cümlənin aktual üzvlənməsi məsələsidir. Aktual üzvlənmə başlıca olaraq funksional-kommunikativ aspektlə bağlı nitq prosesində cümlənin mövqeyini müəyyənləşdirir.

İntonasiya və söz sırası aktual üzvlənmə ifadəsinin formal vasitəsi kimi sıx şəkildə bir-birilə əlaqədardır. Həm intonasiya, həm də söz sırası qarşılıqlı şəkildə fəaliyyət göstərir və bir-birini tamamlayır.

Mətndə cümlənin aktual üzvlənməsi sözlərin ardıcıllığı ilə bağlıdır. Aktual üzvlənmə birbaşa mətnin strukturu ilə bağlı məsələdir. Bu üzvlənmə qrammatik-formal üzvlənmədən fərqli olaraq kommunikasiyanın bütün aspektlərini özündə birləşdirir, odur ki, bu prosesin mexanizmi kimi özünü göstərir.

Dilçilərin aktual üzvlənmənin tarixi və təbiəti haqqında baxışları ziddiyyətlidir. Aktual üzvlənməyə sözlərin ardıcıllıq qanunauyğunluğu bazasında baxılmışdır. Bir vaxtlar aktual üzvlənməyə psixoloji baxımdan yanaşılmışdır. Aktual üzvlənmə ideyaları şərti səciyyə kəsb edərək tema və rema anlayışları ilə birgə işlədilirdi [15, s.98].

Sonrakı dövrlərdə dilçilər aktual üzvlənmənin tərkib hissələrinin müəyyənləşdirilməsindən ötrü “əsas (ilkin) punkt” və “nüvə” terminoloji vahidlərindən istifadə edirdilər [13, s.240**].**

V.O.Matezius o üzvü aktual hesab edir ki, həmin üzv nitqdən və ya hər hansı gerçək situasiyada işlənən cümlədən asılı olsun. Bu cəhətdən aktual üzvlənmə sözlərin ardıcıllığı ilə bağlıdır ki, onlar fikrin başlıca təzahür vasitəsidir. Bununla yanaşı dilin qurulmasında sözlərin ardıcıllığı ilə yanaşı, sözlərin intonasiya vasitəsi kimi çıxış etməsi də göstərilir.

Sonrakı araşdırmalarda aktual üzvlənmə nəzəriyyəsinin digər bir tərəfində qrammatik üzvlənmə ilə aktual üzvlənmə qarşılaşdırılır, müqayisə edilir, həmin hadisənin təbiəti açılır, predikativliklə əlaqəsi müəyyənləşir [14, s.59**]** .

Kommunikasiya zamanı aktual üzvlənmənin önəmli rolu sintaktik üzvlənmə ilə yanaşı qoyulur. Burada struktur-sintaktik paradiqma nəzərə alınır. Funksional-fikri paradiqmaya görə cümlənin aktual üzvlənməsi ünsiyyətə uyğunluğuna və anlaşılmasına görə fərqlənir. Semiotik yanaşmaya görə aktual üzvlənmə nitqin fenomenal işarəsi və ya açarı kimi qəbul edilir. Nitq deyərkən mətn başa düşülməlidir. Mətnin cümləsi işarə olaraq bütünlükdə nominativ və predikativ funksiyaların imkanlarına əsaslanan işarə kimi qəbul edilir [11, s.3-4].

Azərbaycan dilçiliyində aktual üzvlənmə probemi ilə son illər Ə.Cavadov [3], K.Abdullayev [2], Q.Kazımov [6], F.Əlizadə [5], N.Novruzova [7], Ə.Abdullayev [1] və b. məşğul olmuşlar.

K.Abdulla cümlə strukturunda iki səviyyəni və iki növ üzvlənməni ayırır:

1) sintaktik; 2) məntiqi-psixoloji.

İkinci növ üzvlənmə funksional-kommunikativ imkanları ortaya çıxarır ki, onlar məntiqi-sintaktik üzvlənmə ilə birbaşa bağlıdır. Digər sözlə, bu, elə aktual üzvlənmənin özü deməkdir [2, s.90-91] .

Aktual üzvlənmə cümlənin qrammatik üzvlənməsinin subyekt-predikat (mübtəda-xəbər) üzvlənməsinə uyğunsuzluğundan yaranır. L.S.Barxudarov aktual üzvlənmənin aşağıdakı komponentlərini göstərir: tema, predikat, nüvə, rema, leksik predikat və s [10, s.189].

Aktual üzvlənmənin, ümumiyyətlə hər bir cümlədə iki komponenti mövcuddur. O, əvvəlki məlum olan ifadəni, temanı və bəlli informasiyanı inteqrasiya edir (birləşdirir), bu isə vəziyyət və şəraitdən, yəni temanın ünsiyyət məqsədindən asılı olur, bu vaxt eşidənə ona bəlli olmayan yeni məlumat verilir.

İ.Kovtunova tema və remanın üzvlənməsini aktual-vacib fikir hesab edir, belə ki, danışan və ya yazanın konkret mətn və situasiyada iştirak etməsinə görə çox mühüm xarakter daşıyır [12, s.7] .

Bütün dillərdə cümlənin vacib fikrini müəyyənləşdirməkdən ötrü bir sıra vasitələrdən istifadə olunur. Söz sırası, intonasiya, artikllar, ədatlar və s.-dən. Vacib fikirin müəyyən edilməsini hər bir dilin qrammatik quruluşunda axtarmaq olar. Buna baxmayaraq, bu və ya başqa dilin sintaktik tipi nəzərə alınmalıdır. Odur ki, hər bir dil üçün mətndəki vacib fikrin tapılması spesifik hadisə kimi qeyd olunur. Bu cür fərqliliyə bu və ya başqa dilin leksik vahidlərinin ardıcıllığı, nitqi təşkil edən yardımçı hissələrin çoxluğu, cümlələr arasındakı tabesizlik və tabelilik münasibətlərinin artıq olması və s. təsir göstərir [8, s.65].

Cümlənin aktual üzvlənmə vahidləri tema və remadır. Onlar məntiqi vurğu, söz sırası, artikl və prosodik vasitələrlə ifadə olunur. "Məntiqi hökmün quruluşu ilə cümlənin məna əsasının strukturu qurulur ki, o da öz növbəsində aktual üzvlənmə üçün əlverişli bir şərait yaradır" [2, s.95;181].

Qeyd edək ki, tema-rema təsnifatı cümlənin ünsiyyət quruluşunu təzahür etdirir (ifadə edir). Bu o deməkdir ki, dilin təzahüründə cümlə üzvlərinin hamısı informasiyanı yerinə yetirə bilmirlər və cümlənin bir sıra üzvləri başqalarından fərqli olaraq ən çox məlumat ötürə bilirlər. Tema, əlbəttə, cümlənin ən az məlumat olan hissəsinə aiddir, ən çox informasiya dəyərinə malik olan hissə remadır. "Rema dinləyici üçün yenidir və özünün qavranılması üçün həmsöhbətdən müəyyən diqqət tələb edir. Ona görə də bu kommunikativ hissə cümlənin sonuna yerləşdiriir və yavaş templə müşayiət olunur" [9, s. 54].

E.Hentşelin nöqteyi-nəzərincə, cümlənin hansı hissəsinin daha çox, həmçinin daha az informasiya dəyərinə malik olması fikrin, düşüncənin informasiya strukturunun eşidən, dinləyən yaxud danışanın perspektivi cəhətindən nəzərdən keçirilməsindən asılı vəziyyətdir. Dinləyəndən ötrü başqa informasiyalar danışan şəxsdən fərqli şəkildə daha relevantdır. [16, s.364]

"Fikrin informasiya strukturunun hansı perspektivdən təhlil edilməsindən asılı olaraq, tema və rema aşağıdakı şəkildə təyin olunur. Dinləyici perspektivindən tema və remanın fərqləndirilməsi bir qayda olaraq köhnə, məlum, ilkin olaraq yada salınmış və ya nəzərdə tutulmuş və öncəki fikirdən irəli gələn informasiyanın yeni, naməlum, xatırladılmayan və məlum olmayan informasiyaya qarşı qoyulmasına müvafiq gəlir" [16, s.365] Hentshel

Məs.: *Çayı kim dəmləyib?*

-Sənubər (Sənubər dəmləyib).

Dialoqun cavab cümləsində boş buraxılan hissə dinləyicidən ötrü bəlli olan məlumat temanı formalaşdırır. Cavabda məcbur şəkildə verilən və dinləyici üçün yeni olan rema sayılır. Tema-rema üzvlənməsinin əsası kimi məlum olan və məlum olmayan informasiyanın fərqləndirilməsi problem yaradır. Ona görə ki, təkcə yada salınmış mətnin özünün və ya bəlli olmasının təyini üçün çərçivə qismində olan nitq xarici biliyin cəlb edilməsi qeyri-məlumdur.

Sadə quruluşlu cümlələrdən təşkil olunmuş mətnlərdə hər sonrakı cümlə əvvəlki cümlənin mənasını açmağa, onu aydınlaşdırmağa xidmət edir. Məs: *Həsənxan qayıdıb yenə onun yanında, çarpayıda əyləşdi, bir qədər düşünüb-daşındı. Kiminsə qulaq falına gələcəyindən ehtiyat edirmiş tək alçaqdan pıçıldadı.* [4, s.255]

Mürəkkəb cümlələrin növündən asılı olaraq tema və rema əvəzlənməsi özünü müxtəlif şəkildə biruzə verir. Qoşulma əlaqəli tabesiz mürəkkəb cümlələrdən ibarət olan aşağıdakı mikro mətndə hər bir cümlənin birinci hissəsi tema, ikinci hissə isə birincinin reması rolunda çıxış edir. Eyni zamanda ardıcıl gələn cümlələr özündən əvvəlki cümlələrin mənasını açmağa, yəni yeni məlumat verməyə xidmət edir.

Gəlib keçirdilər, Laçını tanıyan da olurdu, seçməyən də. Arada iki qız da ötdü, xəstəxananın işçilərindəndir. Laçını tanıyıb gizləndilər, ona belə göründü. [4, s. 258]

Tabeli mürəkkəb cümlələrdə bu baxımdan vəziyyət nisbətən fərqlidir. Belə ki, baş cümlə tabeli mürəkkəb cümlənin temasıdır, baş cümlədə buraxılmış üzvün yerində çıxış edən budaq cümlə isə fikrin əsasını təşkil edir, yəni cümlənin remasıdır.

O vaxt qurtarır ki, onda hər şey bitir və yaşamağın da sonu çatır. [4, s.259] – *Hər şeyin bitib və yaşamağın da sonu çatdığı vaxt qurtarır.* Zaman budaq cümləsinin birinci tipində baş cümlə tema funksiyasını daşıyır, baş cümlədə buraxılmış, bərpasına ehtiyac olan budaq cümlə isə rema funksiyasının daşıyıcısıdır.

Hüsən işarə vurdu ki, qardaşım hərbi qulluqdan məzuniyyətə gəlib. [4, s.276] – *Hüsən qardaşının hərbi qulluqdan məzuniyyətə gəldiyinə işarə vurdu.* Tamamlıq budaq cümləsində də eynilə baş cümlədə buraxılmış tamamlıq, budaq cümlədə rema, yəni yeni məlumat, fikrin əsası kimi özünü göstərir. Bu demək olar ki, budaq cümlənin bütün növləri üçün xarakterikdir.

Ədəbiyyat

Azərbaycan dilində

1. Abdullayev, Ə. Aktual üzvlənmə, mətn və diskurs / Ə.Abdullayev. – Bakı: Zərdabi LTD MMC, - 2011. - 190 s.
2. Abdulla, K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri / K.Abdulla. – Bakı: - 2016. - 327 s.
3. Cavadov, Ə.M. Müasir Azərbaycan ədəbi dilində sintaktik vahidlərin sırası / Ə.M.Cavadov. - Bakı: "Elm" nəşriyyatı", - 1977. - 463 s.
4. Əhmədov, S. Seçilmiş əsərləri [2 cilddə] / S.Əhmədov. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, - c. 2. – 1990. – 352 s.
5. Əlizadə, F. Cümlənin aktual üzvlənməsi / F.Əlizadə. - Bakı: Bakı Universiteti nəşriyyatı, - 1998. - 112 s.
6. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Sintaksis / Q.Ş.Kazımov. – Bakı: Elm və təhsil, - 2010. - 500 s.
7. Novruzova, N. Mətn sintaksisi / N.Novruzova. – Bakı: Təhsil nəşriyyatı, - 2002. - 184 s.
8. Şahvələdova, A. Aktual üzvlənmənin əsas əlamətləri // – Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi jurnal, - 2019, 2 (110). - s.66-68.

Rus dilində

9. Абдурахманова, К. Актуализация компонентов высказывания в тексте: / Автореф. дис.докт. филол. наук. / - Баку: - 2018. – 77 с.
10. Бархударов, Л.С. Структура простого предложения современного английского / Л.С.Бархударов. – М.: Издательство "Высшая школа", - 1966. - 200 с.
11. Иванов, Н.В. Актуальное членение предложения: на пути к новым парадигме теории // Проблемы и перспективы развития лингвистики, межкультурной коммуникации и лингводидактики. Вып. 3. Сборник научных статей по материалам Международной конференции "История и теория языка. Принципы преподавания иностранных языков", - М.: Резонанс, - 2009. - с.25-28.
12. Ковтунова, И.И. Современный русский язык. Порядок слов и актуальное членение предложений / И.И.Ковтунова. – М.: Просвещение, - 1976. - 238 с.
13. Матезиус, В. О так называемом актуальном членении предложения // М.: Пражский лингвистический кружок. Сборник статей, - 1967. - с.239-245.
14. Распопов, И.П. Актуалное членение предложения: на материале простого повествования преимущественно в монологической речи (2-й из-во) / И.П.Распопов. – URSS: - 2009. - 168 с.
15. Саттарова, А.Ф. Изучение актуального членения предложения в русском языке: в сопоставлении с башкирским и французским: / Дис. канд.пед.наук. / - М., 2002. - 191 с.

İngilis dilində

16. Hentschel, E. Deutsche Grammatik / E.Hentschel. - De Gruyter Lexikon: - 2010, 412p.

РЕЗЮМЕ
РОЛЬ АКТУАЛЬНОГО ЧЛЕНЕНИЯ В ПОСТРОЕНИИ ПРЕДЛОЖЕНИЯ

Кулиева Д. Р.

Сумгаитский государственный университет

Таким образом, деление на тему-рема помогает говорящему не только структурировать информацию в синтаксических конструкциях, но и формировать информационную структуру всего текста. При анализе текстов на основе деления тема-рема проявляются её последовательности тема-рема, которые частично оцениваются как развитие темы. Одной из быстродействующих структур

является структура рифмы ранее употребленного предложения, которое принято считать подлежащим ответвления предложения. Это линейное и простое развитие.

Эта характеристика доказывает, что структура тема-рема может служить основой для построения текста, образованного связями, распространяющимися в круге предложений, или путем повторного восприятия уже заученной информации.

Ключевые слова: *предложения, тема, рема, актуальное членение, порядок слов, интонация.*

SUMMARY

THE ROLE OF THE ACTUAL MEMBER IN THE CONSTRUCTION OF A SENTENCE

Kuliyeva D.R.

Sumqayit State University

Thus, the division into theme-rheme helps the speaker not only structure information in syntactic constructions, but also form the information structure of the entire text. When analyzing texts based on the theme-rheme division, theme-rheme sequences appear, which are partially evaluated as the development of the theme. One of the fast structures is the rhyme structure of a previously used sentence, which is considered to be subject to a branch of the sentence. This is a linear and simple development.

This characteristic proves that the theme-rheme structures can serve as the basis for constructing a text formed by connections, spreading in a circle of sentences, or by re-perceiving already memorized information.

Keywords*: sentences, theme, rheme, actual member, word order, intonation*

İNGİLİS DİLİNDƏ ETİKET SUALLAR VƏ ETİKET CAVABLARIN TƏDRİSİ PROSESİNDƏKİ VACİB MƏQAMLAR

İsgəndərova Könül Yaşar qızı

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

konul.kenan1981@mail.ru

Açar sözlər*: vasitəsiz nitq, etiket suallar, köməkçi feil, vurğu, intonasiya*

Etiket suallara biz demək olar ki, bütün dillərdə rast gəlirik. Xüsusuilə, şifahi nitqdə daha çox işlənən bu forma daha sadə və rahat danışığa dəlalət edir. Lakin müxtəlif dillərdə fərqli formalarda təqdim edilir. Məsələn ispan dilində bütün cümlə deyil, yalnız sual mötərizəsi daxilindəki hissə etiket hesab edilə bilər: Estás cansado, ¿verdad? [3] Aədətən cümləni daha vurğulu etmək üçün, nəzakət və ya kinayə və s. göstərmək xarakteri daşıyır.

Etiket sual o sualdır ki, burada cümlə verilir və özündən sonra fikri təsdiq edəcək qısa sual tələb edir- (you drink water, don't you?). Əgər cümlə inkardadırsa, etiket sual təsdiqdə olur və ya əksinə. Etiket sual hər zaman köməkçi fel vasitəsilə düzəlir: You don't eat apple, do you? Cümlədə köməkçi fel varsa etiket sual həmin köməkçi fel vasitəsilə düzəlir: You are not coming, are you? You haven't congratulated him, have you? You hadn't congratulated him, had you? Emfatik sadə formada: You don't run, do you? Modal fellərlə: You can't come, can you? You will not go, will you?

To have feli Britaniya ingilis dilində -You have a car, haven't you? You have got a flat, haven't you? Amerika variantında isə -You have a car, don't you? kimi işlənir. Öyrəncilər adətən "have" ilə olan cümlələri qarışıq salır və tapşırıqları əminliklə yerinə yetirmirlər. Məsələn: You have a brother, have you? və ya You have a brother don't you? kimi cümlələrə tez-tez rastlaşırıq. Lakin qeyd etdiyimiz kimi Amerika və Britaniya ingilis işlənmə qaydalarında olan fərqliliklər belə mübahisəli problemlərə gətirib çıxarır. Etiket suallar hər iki dövlətin dilində geniş istifadə olunaraq əsrin 2-ci yarısında öz işlənmə qaydalarında bəzi dəyişikliklər etmişdir [1, p.306]. Bu baxımdan etiket suallar üçün biz ən vacib qeydləri aşağıdakı kimi təqdim edə bilərik:

1.Etiket sualların əsas forması aşağıda göstərildiyi kimidir. O, cümləni iki hissəyə bölür. Cümlənin birinci hissəsində danışanın inamı hiss olunduğu halda, ikinci hissədə, sualla təsdiq etmək istəyir. You eat eggplant, don't you? Yes, I do eat fish.

2.Etiket sualların hər iki tərəfi təsdiqdə ola bilər: You're Selma, are you? You have watched it before, have you? Qeyd olunan halda danışan sürətli bir zamanda nəticəyə gəlir və sonra təəccübünü göstərir. Bu forma intonasiya və vurğudan tamamilə asılı olaraq yaranır.

3.Hər iki tərəfin inkarda olması nəzəri cəhətdən mümkün olsa da, belə cümlələr çox nadir hallarda işlənir. Digərinin inkar etdiyi bir şeyi rəqib kimi təkrarlayarkən: You do not like it, don't you?

4.Etiket suallar adətən qısa cavab tələb edirlər: You're not Ahmed, are you? (I don't think you're Ahmed. Are you Ahmed?) No (I am not Ahmed), Yes (I am Ahmed).

5.Etiket suallar bəzən there sözü ilə düzəlirlər: There is nothing wrong, is there? Inkarlıq bildirən sözlərlə də işlədilir: Nobody really knows the truth, do they?

6.Bütün etiket suallar mənasına görə vurğu və intonasiyadan asılıdır. O, bütün zaman formalarında və modal fellərlə işlənə bilir. Beləki, danışan dediyinin təsdiqini, düz olub olmadığını tapmaq üçün cümləni düşən tonla, təəccüb və zəriflik ifadə edərkən qalxan tonla nitqini yerinə yetirir.

✓ Təsdiq etmək istərkən: You have met Ali, haven't you? You don't like horror films, do you? They don't allow cats into the park, do they? Nice day, isn't it?

✓ Gümanlıq axtararkən: I didn't say anything of the kind, did I? – to third party. I didn't say anything of the kind, did I- to listener directly.

✓ Şübhə ifadə edərkən: You are buying it, aren't you? You don't think she overhead, do you?

✓ Təəccüb bildirərkən: Bahar isn't 60 years old, is she? You don't drink, do you?

✓ Situasiya və qarşıdurma: You weren't telling the truth, were you? You haven't prepared your work, have you?

✓ Xahiş və dəvət anlamında: You can't help me with this furniture, can you? You haven't got the time, have you? You wouldn't like to go to the restaurant, would you?

✓ Etiket suallar əmr bildirən sözlərlə də işlənir: sit down, won't you? Let's run, shall we? Give me a hand, will you? Run, can't you? Don't make a noise, will you?

✓ Hər iki tərəf təsdiqdə olduqda: Oh you're going to İtaly, are you? You have invited Sarah, have you? So, you think you're healthy, do you? It's you that makes all that noise, is it? You do eat cake, do you?

✓ Etiket suallar həqiqi məlumatı təsdiq edən suallar kimi işlənir: You're cousins, are you? This is the right queue, is it? You haven't seen my silver necklace, have you?

Əlavə olaraq qeyd edək ki, etiket sual kimi "*innit"* – danışıqda ingilis dilində geniş işlənir və *isn't it* ifadəsini əvəz edir. [2, p.108] Bundan başqa, bədii ədəbiyyatda etiket suallarda əlavələr geniş işlənir, onlar köməkçi felləri əvəz edir. Ən geniş işlənən əlavə kimi "now" sözünü göstərə bilərik. Məsələn, *I've gotta bring a cup of tea in for you, have I now?*[2, p.110]

Etiket sual mövzusunu xüsusi qayda kimi kontekst şəklində təqdim etmək çətin olardı. Ona görə də biz düşünürük ki, etiket suallar - tapşırıq, dinləmə və nitq prosesinə yönəldilməlidir. Həmçinin etiket sualları tələbələrə təqdim edərək onların bunu müxtəlif intonasiya və vurğu ilə ifadə etmələrinə, dinləmə prosesindən istifadə etməklə müxtəlif tapşırıqlar yerinə yetirmələrinə şərait yaradılmalıdır.

Bəzən öyrəncilər etiket sualları digər suallardan ayıra bilmirlər, ona görə də aşağıdakı kimi səhvlər edirlər: Beləki, Do you eat mushroom? ilə You eat mushroom, don't you? tamamilə fərqli suallardır.

- Öyrəncilər isn't it? – etiketini bütün etiket suallara tətbiq edirlər: He will come, isn't it? You are John, isn't it? It isn't here, isn't it?
- Bəzi hallarda köməkçi feli düzgün seçsələrdə, inkarlıq və ya təsdiq variantını düz verə bilmirlər: I am not cold, aren't I?
- Etiket sualı hansı köməkçi fellə ifadə edəcəklərini bilmirlər: he shouldn't have come, has he? He shouldn't have come, should have he? He shouldn't have come, should he have?
- Sözləri etiket sual kimi təqdim edirlər: I may as well as may, welln't I?
- Mənanı düzgün anlamadıqlarından cavabı səhv verirlər: You aren't coming, are you? – Yes (no is appropriate).
- İntonasiya və vurğuya görə mənanı anlamaqda bəzi çətinliklərlə rastlaşırlar.

Bəs etiket cavablar hansılardır? Tələbələrin etiket cavablarla hansı problemləri ola bilər?

Etiket suallarda olduğu kimi etiket cavablar da eynilə köməkçi fellər vasitəsilə düzəlir. Qısa cavabları mənalandırmaq üçün işlənir. Beləki: Yes, I do/am/have/might/shall, No, I am not/don't/haven't/mightn't/won't - o zaman işlədirik ki:

- Həvəs və istək ifadə edərkən: Do you like chocolate? Yes I do.
- Əminlik: I am not sure that you like chocolate. Yes, I do.
- Təsdiq: You won't like this cake. You don't like chocolate. Yes, I do.

- Ehtimal: You don't like chocolate, do you? Yes, I do.
- Təsdiq və ya ehtimalla razılaşmaq: You like chocolate, don't you? Yes, I do (but not much). Rəsmi cavablandırmada **yes** və ya **no** işlənməyə də bilər: Do you like Minsk? I do (very formal, may appear unfriendly). Do you like London? I do, I find it very crowded (conversational).
- Etiket cavablar yes və no olmadan işlənirlər, lakin bu zaman onlar cavab kimi yox, hərəkət və ya hadisəyə komment olaraq işlənir. Britaniya ingilis dilində bu çox ümumişlək hesab edilir, xüsusilə də təşəkkür və məmnunluq bildirərkən. Mənanı düzgün çatdırmaq baxımından intonasiya və vurğu əhəmiyyətli rol oynayır və qrammatik mənanın tam əksini ifadə edə bilir: I bought you a present. You didn't (meaning: you did. How very kind of you). I bought you a present. You shouldn't have (meaning: I am absolutely delighted). Etiket cavablar da bəzən dil öyrənənlərdə aşağıda qeyd olunan problemləri yarada bilər:

✓ Tam cavab vermək gərəkirkən öyrəncilər yes və no ilə kifayətlənirlər: you don't like chocolate, do you? Yes.

✓ Etiket cavabda həddindən çox söz istifadə edirlər: Are you going to wash your hair? Yes, I'm going to.

✓ Cavabı düzgün vermirlər: you aren't going, are you? Yes, I'm not.

✓ Məzəmmət mənasında işlənən cavabı düzgün dərk etmirlər: you shouldn't have (əslində inanır)

✓ Mənanı vurğu və intonasiyanı kənara atmaqla dərk etməyə çalışırlar. Beləki you should not have- məzəmmət və təşəkkür kimi işləndiyi halda, onlar qrammatik mənanı anlamağa çalışırlar.

Yuxarıda qeyd olunanlara əlavə olaraq demək lazımdır ki, etiket sual və cavablar həm danışıqda, həm də bədii ədəbiyyatda geniş istifadə olunur. Onlar müəyyən zaman ərzində dəyişikliklərə uğramışdır, hətta qrammatik quruluşundakı fərqlilikləri, bədii ədəbiyyatla danışıq dilini müqayisə etdikdə aydın şəkildə görmək olur.

Ədəbiyyat

1. D. J. Allerton, One language, two grammars? *Differences between British and American English,* Cambridge University Press, 2009, 486 p.
2. Karel Axelsson, Tag questions in fiction dialogue, University of Gothenburg 2011, 265 p.
3. https://en.wikipedia.org/wiki/Tag_question
4. https://dictionary.cambridge.org/grammar/british-grammar/tags

РЕЗЮМЕ
ВАЖНЫЕ МОМЕНТЫ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ ЭТИКЕТУ НА АНГЛИЙСКОМ ЯЗЫКЕ: ВОПРОСЫ И ОТВЕТЫ

Искендерова К.Я.
Сумгаитский государственный университет

Вопрос-тег — это особая конструкция в английской грамматике. Мы знаем, что он обычно состоит из 2-х частей, за которыми следует мини-вопрос. Мы используем вопросы-теги, чтобы получить подтверждение нашей мысли. Вопросы-теги привлекли большое внимание ученых. Они рассматриваются во многих учебниках, особенно в справочниках по грамматике и практических пособиях, и обычно вводятся в материалы среднего уровня. Учащиеся часто находят тему проблематичной с точки зрения ее грамматической структуры.

Ключевые слова*: прямая речь, вопросы тег, вспомогательный глагол, стресс, интонация*

SUMMARY
IMPORTANT POINTS IN THE PROCESS OF LEARNING ETIQUETTE IN ENGLISH: QUESTIONS AND ANSWERS

Isgandarova K.Y.
Sumqayit State University

A tag question is a special construction in English grammar. We know that it is typically made up of 2 parts, followed by a mini question. We use tag questions to ask for confirmation of our thought. Tag questions have attracted a lot of attention among scholars. They are covered in many coursebooks, especially grammar reference and practice books, and are typically introduced in intermediate level materials. Learners often find the topic problematic, in term of its grammatical structure.

Keywords*: direct speech, tag questions, auxiliary verb, stress, intonation*

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ DƏRSDƏNKƏNAR İDMAN MƏŞĞƏLƏLƏRİNİN SƏMƏRƏLİ TƏŞKİLİNİN TƏDQİQİ

Eyvazzadə Mənsur Vasif oğlu
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Bakı, Azərbaycan
mansur.eyvazzada2020@sport.edu.az

Açar sözlər: *dərsdənkənar, idman, məşğələ, şagird, məktəb, idman növləri, məşqçi.*

Ümumtəhsil məktəblərinin qabaqcıl iş təcrübəsi, aparılan bir sıra elmi tədqiqat işləri, eksperimentlər və onların nəticələri elmi şəkildə sübuta yetirir ki, dərsdənkənar idman məşğələlərində məşğul olmağa başlayan məktəblilərin bir çoxunun həyatında böyük dəyişikliklər baş verir. Belə ki, hələ məktəbdə dərsdənkənar tədbirlər prosesində arzularına uyğun idman növləri ilə məşğul olarkən onların həyat rejimi dəyişir, insanlara qarşı müsbət münasibətlər yaranır, əqli, iradi, xüsusi fiziki və zehni keyfiyyətləri formalaşır.

İdman bölmə məşğələlərinin qarşısında duran məsələlər məktəbin bədən tərbiyəsi və idman üzrə kollektiv şurası tərəfindən həll edilir. Kollektiv şura nəinki proqramına görə tədris idman növlərindən olan gimnastika, yüngül atletika, voleybol, basketbol, güləşmə, futbol, badminton, əl topu, stolüstü tennis və`s. üzrə bölmə məşəğələləri təşkil etməli, eyni zamanda bu məşğələlərin müntəzəm davam etməsinə həmişə nəzarət etməli və işin gedişini istiqamətləndirməlidir. Yeri gəldikcə "idman bölmə məşğələlərinin qarşısında (əsasnamə hazırlanarkən) məqsəd və vəzifələr qoyulmalıdır":

– məşğul olanların sağlamlığını və fiziki hazırlığının hərtərəfliliyini artırmaq;

– şagirdlərin mənəvi-iradi, əxlaqi və əqli cəhətdən inkişaf etmiş fəal qurucular kimi tərbiyə olunmasında məktəbin uşaq-gənclər təşkilatına lazımi kömək göstərmək;

– məşğul olanalarda dostluq, kollektivçilik, birlik, həmrəylik, gigiyenik vərdişlərlə yanaşı, normal həyat tərzi tərbiyə etmək;

– şagirdlərin məşğul olduqları idman növü üzrə qazandıqları bilik, bacarıq və vərdişləri genişləndirmək və təkmilləşdirmək;

– məktəbdə kütləvi bədən tərbiyəsi və idman tədbirləri təşkil etmək üçün məşğul olanların tərkibindən müəllimə köməkçilər hazırlamaq;

– məktəbin idman şərəfini qoruyub saxlamaq, bacarıqlı idmançılar hazırlamaq, yetişdirməkdir.

Cəmiyyətin hazırkı mərhələsində gənc nəslin inkişafı üçün ölkəmizin tarixində ən əlverişli obyektiv şərait yaradılmışdır. Belə ki, indi ölkəmizdə iqtisadi, sosial-siyasi, ideoloji vəzifələr müvəffəqiyyətlə həyata keçirilir, xalqın mədəni səviyyəsi, maddi rifah halı yüksəlir, uşaq və gənclərin inkişafına təsir göstərən ailənin imkan və şəraiti genişlənir. Belə bir şəraitdə bədən tərbiyəsi və idman, fiziki vasitələr insanların sağlamlıq keşiyində durmağı, onları zərərli vərdişlərdən uzaqlaşdırmağı, fiziki inkişaf etdirməyi və s. aktual məsələlərdən biri olub araşdırılmasına ehtiyac duyulur. Aparılan pedaqoji müşahidələr zamanı müəyyən olunub ki, dərsdənkənar idman məşğələlərinin səmərəli təşkili və keçirilməsində problemlər var. Demək olarki, bütün inkişaf etmiş ölkələrdə dərsdənkənar idman məşğələləri keçirilir və bu məşğələlər sayəsində yüksək nəticələr əldə olunur. Amma bizim ölkəmizdə dərsdənkənar idman məşğələləri çox az keçirilir. Belə fərz edirik ki, bu problemi aradan qaldırmaq üçün dərsdənkənar idman məşğələlərinin təşkili və keçirilməsinə idman növləri üzrə ixtisaslı mütəxəssisləri dəvət etməklə həll etmək olar. Bu vəziyyəti və şəraiti nəzərə alaraq dərsdənkənar idman məşğələlərinin təlmilləşdirilməsi ən vacib məsələlərdən biridir.

Məlum olduğu kimi məktəbdə fiziki tərbiyənin əsas forması fiziki tərbiyə dərsləri hesab olunur. Lakin təcrübələr göstərir ki, proqram üzrə həftədə iki saat keçirilən fiziki tərbiyə dərsləri müasir dövrün tələblərinə cavab vermir. Aparılan pedaqoji müşahidələr zamanı müəyyən olunub ki, dərsdənkənar idman məşğələlərinin səmərəli təşkili və keçirilməsində problemlər var.

Elmi-texniki tərəqqi nəticəsində yeniyetmə və gənclərin hərəkət fəallığı xeyli azalmışdır. Məktəblilərin böyük bir hissəsi fiziki tərbiyə üzrə proqram normativlərini yerinə yetirə bilmirlər. Aparılan çoxsaylı tədqiqatların nəticələri göstərir ki, bu problemin aradan qaldırılması üçün dərsdənkənar idman məşğələlərini təkmilləşdirmək üçün bu sahədə müvafik islahatlar aparılmalıdır.

Bu problemi aradan qaldırmaq üçün dərsdənkənar idman məşğələlərinin təşkili və keçirilməsinə idman növləri üzrə ixtisaslı mütəxəssisləri dəvət etməklə həll etmək olar. Bu vəziyyəti və şəraiti nəzərə alaraq dərsdənkənar idman məşğələlərinin təkmilləşdirilməsi ən vacib məsələlərdən biridir.

Dərsdənkənar məşğələlərə ixtisaslaşdırılmış məşqçilər dəvət olunmur. Müəllimlər məşqçilərlə əlaqəni saxlamırlar. Bəzi məktəblərdə idman zalları, idman qurğuları, alətləri yoxdur və ya azlıq təşkil edir. Məktəblərdə elə ixtisaslı məşqçi müəllimlər vardır ki, ixtisasına uyğun şərait olmadığından dərsdənkənar idman məşğələlərini təşkil edə bilmirlər. Buna görə də, dərsdənkənar məşğələlər zəif keçirilir, məşğələləri müəllimlər özləri keçir.

Son zamanlar ölkəmizdə təhsil sahəsində kütləvi sürətdə islahat işləri aparılır. Bu proses fiziki tərbiyəni də əhatə edir. Belə ki, hal-hazırda fiziki tərbiyə üzrə müvafiq tədris proqramı tərtib edilmişdir. Kurikulum adlanan bu proqram beynəlxalq standartlara cavab verməklə yanaşı fiziki tərbiyə prosesinin daha səmərəli həyata keçirilməsi üçün geniş imkanlara malikdir. Məktəbdə fiziki tərbiyə prosesi ilə təşkil edilməlidir ki, şagirdlər onu tam mənimsəsin və gələcək həyat fəaliyyətlərində fiziki tərbiyə vasitələrindən müstəqil qaydada istifadə edə bilsinlər. Ümumi fiziki hazırlıq bazasının əsasında vacib fəaliyyət növləri üçün xüsusi hazırlıq həyata keçirilir. Bu məsələlər dərs və dərsdənkənar məşğələlər zamanı vəhdət şəkilində həll edilir. Fiziki tərbiyə prosesində şagirdlər əməyə, hərbi qulluğa və digər fəaliyyət növlərinə hazırlaşa bilirlər. Ümumi tərbiyənin məqsədlərinə müvafiq olaraq fiziki tərbiyə prosesində əqli, əmək, estetik və əxlaq tərbiyələri də həyata keçirilir.

Fiziki tərbiyə dərslərinin əsas məzmunu hərəki fəallıqdan ibarətdir. Müasir fiziki tərbiyə sisteminin əsas vəzifəsi yetişməkdə olan nəslin hərtərəfli və ahəngdar inkişafını təmin etməkdən ibarətdir. Bu prosesin daha intensiv getməsi məhz məktəb illərini əhatə edir. Orta ümumtəhsil məktəblərində təlim - tərbiyə işlərinin ən vacib sahəsindən biri də fiziki tərbiyə hesab olunur.

Dərsdənkənar idman məşğələləri, sinifdə aparılan tədris – tərbiyə işləri ilə sıx əlaqədə olmasına baxmayaraq, öz təşkili forması və məzmununa görə sinif dərsindən fərqlənir. Dərsdənkənar idman məşğələlərinin düzgün təşkili, hər bir şagirdin bilik səviyyəsinin artmasına kömək edir, proqram materialını yüksək texniki və iradi – mənəvi keyfiyyətdə mənimsədir, eyni zamanda, şagirdləri əməyə və vətənin müdafiəsinə, fiziki tərbiyə kompleksinin dərəcələri üzrə norma və tələbləri yerinə yetirməyə hazırlayır.

Məktəbdə dərsdən sonra müxtəlif formalarda həyata keçirilən sağlamlıq bədən tərbiyəsi və idman işlərinin təşkili şagirdlərin fiziki tərbiyə dərslərində aldıqları bilik, bacarıq və vərdişləri möhkəmləndirir, proqram üzrə nəzərdə tutulan biliklərə daha dərindən yiyələnməyə kömək edir. Bu tədbirlər şagirdlərin əqli, əxlaqi, estetik tərbiyəsinin, ümumi və xüsusi fiziki hazırlıq səviyyəsinin inkişaf etməsinə imkan yaradır.

Dərsdənkənar işlər şagirdlərin əmək qabiliyyətini, işgüzarlığını, təşkilatçılıq bacarığını artırır, habelə seçib məşğul olduqları idman növü üzrə onların texniki və taktiki fəaliyyətini təkmilləşdirir. Dərsdənkənar fiziki tərbiyə və idman işləri şagirdlərin çevik, sürətli, davamlı olmasına və onlarda iradi – mənəvi keyfiyyətlərin inkişafına səbəb olur, şagirdlərin özfəaliyyət bacarığını artırır. Fiziki tərbiyə və idmanda müntəzəm məşğul olan, ona məhəbbətlə yanaşan şagirdlərdə sinif yoldaşlarını idmanla məşğul olmağa təbliğ edir etmək bacarığını tərbiyə etmək mühüm amil hesab olunur.

Dərsdənkənar fiziki tərbiyə və idman işlərinin daha bir mühüm vəzifəsi şagirdlərdən ictimai bədən tərbiyəsi təşkilatçıları, müxtəlif idman növləri üzrə hakimlər və dərəcəli idmançılar hazırlmaqdır. Könüllü olan bu tədbirlər özfəaliyyət xarakteri daşıyır, şagirdlərin seçib məşğul olduqları idman növü üzrə hərəkətverici vərdiş, bacarıq və keyfiyyətlərin aşılanması üçün onlarda yaradıcılıq imkanlarını artırır. Həmin tədbirlər yalnız bir sinif şagirdlərini deyil, paralel və yanaşı sinif şagirdlərinin də özündə birləşdirir. Burada yaş, cins və fiziki hazırlıq səviyyəsi nəzərə alınır, o daha geniş və rəngarəng olaraq təşkil edildikdə şagirdlərdə idmana fəal marağın formalaşması imkanı yüksəlir.

Dərsdənkənar idman məşğələlərinin geniş yayıldığı bir çox xarici ölkələrin məktəblərində, şagirdlərin istədikləri idman növü üzrə məşğul olması üçün hər bir şərait yaradılıb. Dərsdənkənar idman məşğələləri ixtisaslı məşqçilər tərəfindən aparılır. Məktəblərdə yüksək səviyyəli yarışlar keçirilir. Yüksək nəticə göstərmiş idmançılar məktəblərarası yarışlarda iştirak edirlər və burada da yüksək nəticə göstərən idmançılar milli komandanın tərkibinə dəvət olunurlar. Bununlada uşaq idmanı inkişaf etmiş olur və yüksək nəticələr əldə olunur. Bir çox xarici idmançılarının beynəlxalq yarışlarda qazandığı nəticələr bütün bunların bariz nümunəsidir.

Ümumtəhsil məktəblərində hələ kiçik yaşdan başlayaraq, şagirdlərin idmana meyl edib dərsdənkənar bədən tərbiyəsi və idman işlərinə fəal maraq bəsləməsinin bəhrəsini biz ən görkəmli Azərbaycan idmançıları N.Hüseynov, N.Abdullayev, F.Mansurov, N.Paşayev, E.Məmmədli və başqa yoldaşların idman tərcümeyi halından görürük.

Bunlar hələ məktəbdə təhsil alan müddətdə idman ustaları normasını yerinə yetirmiş, bir qismi isə hətta, dünya əhəmiyyətinə malik idman nəticələri göstərmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbulu zamanı söylədiyi bir hissə nitqi nəzərinizə çatdırmaq istəyirəm!

"Onu da nəzərə almalıyıq ki, son Olimpiya Oyunlarında medallar qazanmış idmançılarımız bizim təcrübəli idmançılardır. Demək olar ki, veteran idmançılardır. Onların arasında gənc nəslin nümayəndələri yoxdur və bu, çox ciddi təhlil edilməlidir. Necə ola bilər ki, nəsillər arasında artıq belə bir ara, elə bil ki, məsafə yaranır. Son illərdə bütün bölgələrdə idman obyektlərinin tikintisi geniş vüsət almışdır, təkcə bölgələrdə 50-yə yaxın idman-olimpiya kompleksimiz fəaliyyət göstərir. Onların fəaliyyəti ciddi təftiş edilməlidir, orada məşq prosesi nə səviyyədədir, uşaqlar, yeniyetmələr idman bölmələrinə gəlirmi, gəlmirmi, idmanla məşğul olmaq üçün şərait nə dərəcədədir? Çünki biz, bu infrastrukturu, bu kompleksləri o məqsədlə yaratmışıq ki, həm idmanın kütləviliyi artsın, eyni zamanda, peşəkar idmançılar yetişsin. Nəzərə alsaq ki, Tokio Olimpiya Oyunlarında gənc idmançılar medallar qazana bilmədilər, bu, çox ciddi təftiş edilməlidir. Klublardakı vəziyyətlə bağlı təhlil aparılmalıdır. Yəni, biz nəticə çıxarmalıyıq. Biz, əlbəttə, qələbələrlə fəxr edə bilərik. Ancaq çatışmazlıqlar da var və onlar aradan qaldırılmalıdır. Bu sahədə şəffaflıq tam təmin edilməlidir və bütün xoşagəlməz hallara qarşı ciddi mübarizə aparılmalıdır." [7]

Beləliklə, belə bir qənaətə gəlmək olar ki, ümumtəhsil məktəblərində dərsdənkənar idman məşğələlərinin səmərəli təşkilinin böyük praktiki əhəmiyyəti əhəmiyyəti vardır. Buna görə də bu məsələyə daha çox diqqət yetirilməli, bu sahədə qabaqcıl iş təcrübələri öyrənilib ümumiləşdirilməli, təbliğ edilməli, mövcud nöqsanlar aradan qaldırılmalıdır. Yalnız belə olan təqdirdə respublikanın yeniyetmə və gəncləri arasından görkəmli idmançıların çıxmasına ümid bəsləmək olar.

Ədəbiyyat

1. V – IX sinif şagirdlərinin dərsdənkənar işlər prosesində fiziki tərbiyə və idman tədbirlərinin təşkili yolları. Metodik vəsait, 2 – ci hissə, Bakı – 2008
2. Məcidov N. Bədən tərbiyəsinin nəzəriyyəsi və metodikası, 2 – ci hissə. Müəllim nəşriyyatı, Bakı – 2020
3. Nəsrullayev M., Quliyev D., Babanlı Y. Şagirdlərdə fiziki tərbiyə işlərinin təşkili, Bakı – 2013
4. Butte, N.F. Development of an international grouth standart for pre – adolescent children / N/F/Butte, C.Garza // Ford Nutr.Bull. – 2018. - №7. – p.169 – 326/
5. Butte, N.F. Evaluation of the feasibility of international qrowt standards for school – aged children and adolescents / N.F.Butte, C.Garza, M.de Onis // J.Nutr. – 2020. – vol.137. – p.153 – 157.
6. https://muallim.edu.az/news.php?id=351
7. https://president.az/articles/52993

РЕЗЮМЕ

ИССЛЕДОВАНИЕ ЭФФЕКТИВНОЙ ОРГАНИЗАЦИИ ВНЕКЛАССНЫХ СПОРТИВНЫХ ЗАНЯТИЙ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

Эйваззада М.В.

Азербайджанская государственная академия физической культуры и спорта

Для развития подрастающего поколения на современном этапе развития общества созданы наиболее благоприятные объективные условия в истории нашей страны. Так, сейчас в нашей стране успешно реализуются экономические, социально-политические, идеологические задачи, повышается культурный уровень народа, материальное благосостояние, расширяются возможности и условия семьи, влияющие на развитие детей и молодежи. В таких условиях физическая культура и спорт, физические средства позволяют стоять на страже здоровья людей, отгоняют их от вредных привычек, способствуют физическому развитию и т.д один из актуальных вопросов, который необходимо изучить.

Ключевые слова: *внеклассная, спорт, тренировка, ученик(ученица), школа,виды спорта, тренер.*

SUMMARY

RESEARCH OF EFFECTİVE ORGANİZATİON OF EXTRACURRİCULAR SPORTS LESSONS İN SECONDARY SCHOOLS

Eyvazzada M.V.

Azerbaijan State Academy of Physical Culture and Sports

At the current stage of society, the most favorable objective conditions for the development of the young generation in the history of our country have been created. Thus, economic, socio-political and

ideological tasks are being successfully implemented in our country, the cultural level and material well-being of the people are rising, and the opportunities and conditions of the family that affect the development of children and youth are expanding. In such a situation, physical education and sports, physical means help people to take care of their health, keep them away from harmful habits, physical development and so on. is one of the urgent issues and needs to be investigated.

Keywords: *extracurricular, sports, training, student, school, sports types, coach.*

BİOLOGİYA DƏRSLƏRİNİN DİDAKTİK ƏSASLAR ÜZƏRİNDƏ QURULMASI

İsmayılova Səbinə Ataməli
ADPU Cəlilabad filialı, Cəlilabad , Azərbaycan
ismayilova08@gmail.com

Açar sözlər: *didaktika, pedaqoji texnologiyalar, müəllim, şəxsiyyət, pedaqoji sərişta, təlim və tərbiyə prosesi, müəllim – şagird əməkdaşlığı*

Tarixilik baxımından gənc nəslin – təhsilalanların təlim prosesində fəallaşması məsələsi hələ XVIII – XIX əsrlərdə alimlərin böyük marağına səbəb olmuşdur. Görkəmli ensiklopedik alim Əbu Turxanın fikrincə insanlar təhsil üçün yox, təhsil insanlar üçündür və o, insanların konkret ehtiyaclarına uyğunlaşdırılmalıdır.

Müasir dövrün əsas tələbi özünütəhsil bacarıqlarının formalaşmasına güclü təsir göstərən şəxsiyyətyönümlü innovativ pedaqoji texnologiyalardan istifadədir. Məhz fəal təlim sayəsində didaktik nöqteyi – nəzərdən idrak fəaliyyətinin, dünyagörüşünün genişlənməsi, yaradıcılıq, müstəqillik və peşəkarlıq kimi keyfiyyətlərin qazanılması mümkün olur.

Ümumtəhsil müəssisələrinin VIII-IX siniflərində biologiya dərslərində yeni texnologiyalardan istifadənin didaktik əsasları müəllimə bir sıra mühim imkanlar yaradır. Bunlardan təlim-tərbiyə prosesinin gedişində şagirdlərin şüurlu fəaliyyətinin təşkil edilməsi, qısa vaxt ərzində mikro və makro aləmdə baş verən hadisə və prosesi ardıcıllıqla izləmək imkanlarının yaradılmasını misal göstərmək olar. VIII – IX siniflərin biologiya dərslərində təlim texnologiyalarından və İKT vasitələrindən istifadə edərkən dərsin mərhələləri əvvəlcədən aydınlaşdırılmalıdır. Məhz biologiya elminin hesabına təhsil sayəsində hələ yeniyetməlik yaşlarından şagirdlərdə nəinki özünə, ümumiyyətlə, bütün canlılara qarşı diqqətli və ehtiyatlı yanaşma, təbiətə doğma məhəbbət hissi formalaşır.

Ümumtəhsil məktəblərinin VIII-IX siniflərində biologiyanın tədrisində təlim texnologiyalarından istifadənin didaktik əsaslarını dərsin məqsədyönlü şəkildə planlaşdırılması təşkil edir. İlk olaraq fənn müəllimi nəzərə almalıdır ki, təlimin əsas təşkil forması olan dərs şagirdlərin bir şəxsiyyət kimi formalaşmasında mühim rola malikdir. Biologiya müəllimi dərsi elə təşkil etməlidir ki, o, şagirdlərdə müəyyən bioloji bilik, bacarıq, sərişta, elmi düşüncə tərzi, dərketmə bacarığı və s. formalaşdıra bilsin. Biologiya dərsləri belə didaktik əsaslar üzərində təşkil olunduqda şagirdlərdə həm bilik, bacarıq və vərdişlər formalaşır, həm də onların şəxsiyyətinin inkişafına müsbət təsir göstərmək funksiyası reallaşır.

Ümumtəhsil məktəblərinin VIII-IX siniflərində biologiyanın tədrisində təlim texnologiyalarından istifadənin didaktik əsaslarını təşkil edən ünsürlərdən biri də müəllim – şagird əməkdaşlığıdır. VIII-IX siniflərdə biologiyanın tədrisi prosesində müəllim və şagirdlər arasında olan münasibətin, psixoloji mühitin dəyişdirilməsi təlim texnologiyalarının tətbiq edilməsinin əsas didaktik şərtidir. Müəllim – şagird əməkdaşlığı pedaqoji prosesdə təlimin səmərəliliyini şərtləndirən amillərdəndir. Ümumtəhsil məktəblərinin VIII-IX siniflərində biologiyanın tədrisində təlim texnologiyalarını tətbiq etməklə müəllim – şagird münasibətlərini əməkdaşlıq pedaqogikası əsasında qurmaq olar. Belə olduqda şagirdlərin biologiya dərslərinə marağı və həvəsi artır. Müəllim–şagird münasibətlərini yaxşılaşdırmaq üçün təhsilin özünü humanistləşdirmək lazımdır. Müəllim – şagird münasibətləri humanist yolla, uşaq hüquqları haqqında qanuna riayət etmək yolu ilə qiymətləndirilməlidir.Çünki gənc nəslin təlim – tərbiyəsində, onların bir şəxsiyyət kimi formalaşmasında humanizm tərbiyəsinin rolu böyükdür. Müəllim şagirdlərin hüquqlarını qorumalı, onlara qayğıkeş münasibət bəsləməlidir. Belə olmasa şagirdlərlə aparılan tərbiyə işi birtərəfli olar.

Ümumtəhsil məktəblərinin VIII-IX siniflərində biologiyanın tədrisində təlim texnologiyalarından istifadə etməklə müəlllim – şagird münasibətlərinin əməkdaşlıq pedaqogikası əsasında qurulması müəllim – şagird, müəllim – valideyin, müəllim – rəhbərlik, şagird – şagird münasibətlərinin yaxşılaşmasına səbəb olur.

VIII-IX siniflərin biologiya dərslərində müəllim şagirdlərin sosiallaşma prosesində müxtəlif fəallıqda olduğunu nəzərə alaraq onlarla düzgün münasibət qurmağı bacarmalıdır. VIII-IX siniflərin biologiya

dərslərində müəllim – şagird əməkdaşlığının formalaşmasında başlıca amillərdən biri də şagird şəxsiyyətinin sosiallaşmasıdır. Bu prosesdə isə ilk olaraq müəllim biologiya dərslərində əlverişli mühit yaratmalıdır. Belə ki, şagird şəxsiyyətinə hörmətlə yanaşmalı, onların bilik və bacarıqlarını obyektiv şəkildə qiymətləndirməlidir. Bu isə təhsilin şəxsiyyətyönümlü olmasını bir daha sübut edir. Bir sözlə, müəllim – şagird əməkdaşlığının yaranması üçün biologiya müəllimi əvvəlcə şagirdlərinin potensial imkanlarından xəbərdar olmalı, biologiya fənninin ayrı – ayrı mövzularının tədrisini elə təşkil etməlidir ki, şagirdlərin mənəvi tələbatları təmin edilsin.

Ümumtəhsil məktəblərinin VIII-IX siniflərində biologiyanın tədrisində multimediya texnologiyalarından istifadənin didaktik əsaslarını təlim prosesinin müasir standartlar çərçivəsində təmin edilməsi təşkil edir. Biologiya dərslərində təlimin müasir texniki vasitələrindən istifadə pedaqoji prosesin məqsədindən, məzmunundan, eləcə də təhsilalanların hazırlıq və yaş səviyyələrindən asılıdır. Ümumtəhsil məktəblərinin VIII-IX siniflərində biologiyanın tədrisində təlim texnologiyalarından istifadənin didaktik əsaslarını pedaqoji prosesdə dərslərin proqram ardıcıllığına uyğun və müxtəlif situasiyalarla inteqrasiyalı tədrisi təşkil edir. Hər bir biologiya müəllimi özünün yüksək səriştə və peşəkarlığı ilə fərqlənməlidir. Fənn müəllimi şagirdlərə bioloji informasiyaları mənimsətməklə yanaşı, onlara öyrənməyin yollarını öyrətməli, müxtəlif situasiyaları həll etmək üçün onları axtarışa, tədqiqata cəlb etməlidir. Təbii ki, bu proses müəllim tərəfindən əvvəlcədən planlaşdırılmalı və yeni bioloji informasiyalar keçmiş biliklərlə inteqrasiyalı şəkildə tədris edilməlidir. Belə olduqda şagirdlər alternativ yollardan daha əlverişlisini seçə bilirlər. Beləliklə, müəllimin səriştəli mövqeyi nəticəsində şagirdlər həm seçim, həm də inkişaf imkanı əldə etmiş olurlar.

Rus tədqiqatçılarından İ.S.Yakimanskaya pedaqoji proseslə əlaqədar apardığı araşdırmalarında məktəbdə təlim mühiti nə qədər rəngarəng, müxtəlif olarsa, o qədər də şagirdlərin maraqlarını, meyllərini və fərdi imkanlarını nəzərə alaraq təlim prosesinin effektivliyini təmin edəcəyi qənaətinə gəlmişdir. [1, səh 66]

Yan Amos Komenskiyə görə, " müəllimin birinci qayğısı şagirdləri müsbət nümunə ilə cəlb etməkdən ibarətdir. " Şagirdlərin mənəvi inkişafının valideynləri olan" müəllimlər çox şeyi bilməli və bacarmalıdırlar. Təlim və tərbiyə sənətinə yiyələnməyi; nə vaxt və hansı şəraitdə tələbkarlıq göstərməyi; uşaqlarda biliklərə və təhsilə qızğın maraq oyatmaq və s. – bütün bunlar isə, yanlız müəllimin şagirdləri öz atalıq qayğısı, hərəkətləri və sözləri ilə cəlb etdiyi zaman ola bilər. Həm də müəllim namuslu və əməksevər olmalıdır.

Ümummilli liderimiz Heydər Əliyevin təbirincə desək, cəmiyyətin gələcək tərəqqisi indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılıdır.

Ümumtəhsil müəssisələrinin VIII – IX siniflərində biologiya dərslərində təlim texnologiyalarından istifadənin didaktik əsasları müəllimin bir sıra didaktik vəzifələri ilə əlaqədardır.

Hər bir biologiya müəllimi bilməlidir:

- Dövlətimizin təhsil haqqında hüquqi normativ sənədlərini
- Biologiya elminin müasir nailiyyətlərini
- Şagirdlərin yaş və fərdi - psixoloji xüsusiyyətlərini;
- Pedaqogika və psixologiya elmini
- Müasir pedaqoji texnologiyalardan istifadə qaydalarını
- Fəndaxili, fənlərarası və fənlərüstü inteqrasiyanı

Hər bir biologiya müəllimi bacarmalıdır:

- Şagird şəxsiyyətinə hörmətlə yanaşmağı
- Təlimin öyrədici, tərbiyələndirici və inkişafetdirici funksiyalarından ustalıqla istifadə etməyi
- Öz sənətini sevməyi
- Şagirdlərinin maraq və meyillərini inkişaf etdirməyi

Hər bir biologiya müəlliminin pedaqoji fəaliyyətində aşağıdakı vəzifələr cəmləşməlidir:

- Konstruktiv
- Kommunikativ
- Təşkilatçılıq
- Diaqnostik
- Qnostik
- Kreativ
- Yeni pedaqoji texnologiya və pedaqoji yaradıcılıq qabiliyyəti

İnteraktiv təlimlə həyata keçirilən biologiya dərslərində əsas öhdəlik müəllimin üzərinə düşür. Müəllim hər şeydən əvvəl öz kreativliyi ilə seçilməlidir. Xalqımızın xoşbəxt gələcəyini təmin edən, ən əsası da, XXI əsrin standartlarına cavab verən, layiqli şəxsiyyətlərin yetişdirilməsi üçün yaradıcı, müasir

tələblərə cavab verən, rəqabətədavamlı pedaqoji kadrların olması zəruri şərtlərdən biridir. Çünki müasir təlimin düzgün və səmərəli təşkili nəticəsində şagirdlərdə özünü inkişaf qabiliyyətləri formalaşır.

Ədəbiyyat

1. Abbasov Ə.M., Cavadov İ.A., İbadova B.O., Quliyeva K.R., Sultanova İ.H., Cavadova S.E. Kurikulum bələdçisi (İzahlar və tətbiqlər). Bakı: Elm və təhsil, – 2019. 332 s.
2. Məmmədova N.İ. Ümumtəhsil məktəblərində tədris resurslarından istifadənin elmi – pedaqoji əsasları, Ped.elm.dok. dis. Bakı, 2017, s. 325

РЕЗЮМЕ

ПОСТРОЕНИЕ УРОКОВ БИОЛОГИИ НА ДИДАКТИЧЕСКОЙ ОСНОВЕ

Исмаилова С. А.

Азербайджанский государственный педагогический университет, Джлилабадский филиал, г. Джалилабад, Азербайджан

Учителям биологии очень важно знать содержание, сущность и вопросы дидактики. Потому что с помощью дидактического отдела учитель понимает суть сложных вопросов обучения при использовании технологий обучения на уроках биологии в VIII-IX классах общеобразовательной школы и организует педагогический процесс на необходимом уровне. Задачи, предстоящие на уроках биологии, не могут быть решены без обращения к дидактической основе. Потому что не только учитель биологии, но и любой учитель, независимо от предмета, который он преподает, может предсказать эффективность любого принципа, метода, методического подхода, технологии обучения в современное время, то есть как наблюдатель, как прогноз.

Ключевые слова: *дидактика, педагогические технологии, учитель, личность, педагогическая компетентность, учебно-воспитательный процесс, педагогическое сотрудничество*

SUMMARY

BUILDING BIOLOGY COURSES ON DIDACTIC BASIS

Ismayilova S.A.

Azerbaijan State Pedagogical University, Jalilabad Branch, Jalilabad, Azerbaijan

It is very important for biology teachers to know the content, essence and issues of didactics. Because with the help of the didactic department, the teacher understands the essence of the complex issues of learning when using learning technologies in biology lessons in VIII-IX grades of secondary schools and organizes the pedagogical process at the required level. The tasks ahead in biology lessons cannot be solved without reference to the didactic basis. Because not only a biology teacher, but also any teacher, regardless of the subject he teaches, can predict the effectiveness of any principle, method, methodical approach, teaching technology in modern times, that is, as an observer, as a forecast.

Keywords: *didactics, pedagogical technologies, teacher, personality, pedagogical competence, training and education process, teacher-student cooperation*

UŞAQ ŞEİRLƏRİNİN TƏDRİSİNDƏ MÜƏLLİMİN BƏDİİ TƏSVİR VƏ İFADƏ VASİTƏLƏRİNDƏN İSTİFADƏ İMKANLARI

İsgəndərov Balakişi Atakişi oğlu

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

babaxanli64@mail.ru

Açar sözlər: *müəllim, metafora, poeziya, şəxsiyyət, folklor*

Ədəbiyyatda obrazlı düşünərək, bədii fikrin və ya hər hansı bir ifadənin müxtəlif məna çalarlarını üzə çıxarmaq, dəqiqləşdirmək mühüm şərtlərdən hesab edilir. Odur ki, bu işdə yazıçı və şairlərimizin köməyinə gələn ədəbi dilimizdə mövcud olan üslubi- poetik vasitələrdir. İlk növbədə hər bir sənətkar

bilməlidir ki, obrazlı fikrin əsas qaynağı mənsub olduğu xalqın dilidir. Bu baxımdan digər yazarlarımız kimi Məmməd Aslan da öz yaradıcılığında xalq danışıq dilinə və ağız ədəbiyyatına müraciət edərək obrazlı bədii dilin təsvir və ifadə vasitələrindən bacarıqla istifadə etmişdir. ...”obrazlılıq şeir dilinin ilkin əlamətidir. Bu, şeirdə özünü göstərən obrazlı dil vasitələrindən ibarətdir, başqa sözlə desək, həmin vasitələr şeir dilini obrazlı şəklə salır.”[2, s.28] Xalq ədəbiyyatından bəhrələnərək qurduğu söz “hanasına” çeşidli “ilmələr” vuran Məmməd Aslanın bənzərsiz poeziya nümunələri hər zaman olduğu kimi, bu gün də müasirdir. Digər yazarlarımız kimi Məmməd Aslan da yaradıcılığı boyu ədəbi dilimizdə mövcud olan məcazlar sistemindən bacarıqla bəhrələnərək, özünün yüksək bədii- emosional təsir gücünə malik olan əsərlərini yaratmışdır. Məmməd Aslan poeziyasının dil zənginliyi imkan verir ki, şeirlərində işlətdiyi poetik fiqurlara üslubi- poetik vasitələrin köməkliyi ilə yeni məna çalarları əlavə etsin. Çünki bədii əsərləri məcazsız təsəvvür etmək mümkün deyil. Odur ki, obrazlılıqdan kənar mükəmməl bədii əsər ola bilməz. Əks halda yazılan dırnaqarası əsər bədiilikdən uzaq olar və öz oxucusunun zövqünü oxşaya bilməz. Şairin yalnız böyüklər üçün deyil, həm də gələcəyimiz olan uşaqlara həsr etdiyi şeirlərinin dilində də bədii təsvir və ifadə vasitələrinin sənətkarlıq baxımından mükəmməl örnəkləri ilə tanış oluruq. Qeyd edək ki, uşaqlar üçün yaradılmış məcaz və sintaktik füqurlar məxsusi səciyyəyə malik olmalı, uşaqların dərkinə, zövq və marağına uyğun gəlməlidir. Unutmaq olmaz ki, uşaq şeirləri dil və üslub baxımından da fərqli xüsusiyyətlərə malikdir. Uşaq yazarları uşaqlar üçün şeir yaradarkən xüsusi bir tərzdə, digər şeirlərdən fərqli bir şəkildə yazmağı bacarmalıdırlar. Məhz bu fərdi- üslubi keyfiyyəti biz Məmməd Aslan yaradıcılığına aid edə bilərik. Bu fərdi yaradıcılıq manerası şairin uşaq şeirlərində işlətdiyi bədii təsvir və ifadə vasitələrində özünü əyani şəkildə sübut edir. Uşaq ədəbiyyatının istedadlı nümayəndəsi kimi, Məmməd Aslan çox yaxşı dərk edirdi ki, sözün məcazi mənası uşağın hiss və duyğularına qüvvətli təsir göstərərək, onun əqli inkişafına güclü təkan verir. Məhz bu səbəbdən söz sənətkarının uşaqlar üçün qələmə aldığı şeirlərində müraciət etdiyi bədii üsullardan biri də *peyzajdır.* Peyzaj bədii ədəbiyyatda əsasən iki şəkildə özünü göstərir. A) təbiət lövhəsi ədəbi qəhrəmanların daxili aləmi ilə əlaqələndirilmədən, müstəqil şəkidə təqdim olunur: b) təbiət lövhəsi ədəbi qəhrəmanların qavrayışında təqdim olunur və onların daxili aləmini açmağın vasitəsinə çevrilir.

Şairin uşaq şeirləri arasında təbiət gözəlliklərinin tərənnümünə həsr etdiyi “Bahar” şeiri belə başlanır:

Yenə bahar yetişdi,
Gül bağladı çəmənlər.
Yamacların üzünə
Tül bağladı çəmənlər.
Düzlər çiçək- çiçəkdi,
Təpə sanki dibçəkdi.[1, s. 84]

Şeirdə deyildiyi kimi baharın gəlişi ilə torpaq oyanıb. Ana təbiət xoş ətirli çiçəklərdən özünə təzə don biçib. Düzlər başdan- başa göz oxşayıb, könül açan çiçəklərə bürünüb. Yaşıl yamaclarınsa üzünə sanki gül-çiçəklə bəzənmiş tül örtüklər sərilib. Ətraf- aləm gül-çiçəyə qərq olub. Əlvan rəngli çiçəklərlə bəzənmiş təpələrsə, gül qoyulmuş dibçəkləri xatırladır. Göründüyü kimi, təbiət gözəlliklərini təsvir və tərənnüm edən bu poetik nümunədə Məmməd Aslan bahar fəslinin bir anını ədəbi qəhrəmanın daxili aləmi ilə əlaqələndirmədən, müstəqil şəkiildə öz oxucusuna təqdim edir. Uşaq poeziyasının digər yazarlarından biri kimi, Məmməd Aslan da yaradıcılığında bədii dildə geniş istifadə edilən təşbehə müəyyən qədər yer vermişdir. Təşbeh obrazlı təfəkkürün çox işlənən sadə növlərindən biridir. O həm şifahi, həm də yazılı ədəbiyyatda özünün işləkliyi ilə seçilir. Şair bədiilik vasitəsi olan təşbehdən həm tərənnüm, həm də təsvir məqamında istifadə etmişdir. “Yamacda sürü” şeirində olduğu kimi;

Döşdə sürü
Ağarışır.
Yaşıla ağ
Çox yaraşır.
Sanki dəniz
Ləpələnir.
Ağ ləpələr. [1, s.77]

Bu şeir nümunəsində müəllif təşbehdən məharətlə istifadə edərək, dağ döşündəki qoyun sürüsünün yaratmış olduğu ağ rənglə, təbiətin yaşıl rənginin qovuşuğundan yaranan politranı dalğalanan dənizə bənzətmişdir.

Yaxud;
Durna kimi süzməyi var,

Nazlı balam şuxlucadır.
Və ya
Bir söyüd budağıtək
Əsdirər onu külək.[1, s.15]

Verilən poetik nümunələr təsdiq edir ki, Məmməd Aslan təşbeh yaradarkən şeirlərində daha çox *kimi, tək, sanki, eləbil ki, oxşayır, bənzəyir* və s. Qoşma və sözlərdən istifadə etməyə çalışıb. Bəzən də olur ki, şair şeirdə sözə qənaət etmək məqsədi ilə özü qəsdən tərəflər arasında bənzətmə qoşmasını işlətmir. Eyni ilə verilən mümunədə olduğu kimi;

Dəvə söykənib dağa:
Başı- dağ,
Hürkücü-dağ,
Boya bax,
Gövdəyə bax!
Dodağına quş qonub,
Ağzında kövşək donub. [1, s. 67]

Məmməd Aslanın uşaq şeirlərində müşahidə etdiyimiz məcaz növlərindən biri də *metaforadır.* Onun vasitəsi ilə bir əşya üzərinə müxtəlif əlamət və keyfiyyət köçürmək mümkündür. Məcazın bu növü eyni zamanda bədii əsərin emosional gücünün artmasında və sənətkarın yaratdığı obrazın fərdi xüsusiyyətlərininifadə olunmasında böyük əhəmiyyət daşıyır. Kiçik yaşlı oxucuları üçün gözəl şeirlər yazan peşəkar bir şair kimi, Məmməd Aslan çox yaxşı anlayırdı ki, uşaq şeirlərində işlədilən metaforik ifadələr uşaqları düşünməyə və sözün sirlərinə bələd olmağa səsləyir.

Birdən göylər tutuldu:
Yumub-tökdü buludlar.
Tir- tir əsdi göy otlar,
Bələndim gül ətrinə.
Bir göbələk çətrinə
Sığınaraq dayandım,
Yağışdan daldalandım.[1, s.18]

Şeirdə təsvir olunduğu kimi təbiətdə baş verən yaz yağışının yağması hadisəsini Məmməd Aslan kiçik yaşlı oxucusunun anlayacağı sadə bir dildə təsvir etmişdir. Təsvir zamanı şair çalışıb ki, sadə, məntiqli, dərki asan olan metaforalar işlədərək, şeirin hiss və emosional təsir gücünü artırsın. Məmməd Aslan uşaq şeirlərində metaforanın uğurlu poetik nümunələrini yaratmağa müvəffəq olmuşdur. Bu metaforalar morfoloji tərkibinə görə, əsasən, feillərdən və isimlərdən ibarətdir. *Feillərdən düzələn metaforalar;*

Uğuldadı qazança,
İstədi qazan uça. [1, s. 44]

Üzə güldü budaqlar,
Vaxtsız çiçək açmadı. [1, s. 20]

İsimlərdən düzələn metaforalar;

-Ay mənim göyçək balam,
Yanağı çiçək balam.
Yupyumuru daş, idi,
Ağ daşa yoldaş idi.
Bir qəribə iş oldu,
Daş çevrilib quş oldu. [1, s. 19]

Nümunələrdən göründüyü kimi, Məmməd Aslanın uşaq şeirləri öz tamlığı ilə yüksək obrazlılığa köklənmiş poetik nümunələrdən ibarətdir. Onun şeirlərindəki yüksək bədii obrazlılıq fərdi- situativ məcazların köməyi ilə yaradılıb.

Ədəbiyyat

1. Aslan M Səhəri kim açır. Şeirlər və poemalar. Bakı: Gənclik, 1975, 141 s.
2. Hüseynov M. Dil və poeziya. Bakı: Elm, 2008, 434 s.

РЕЗЮМЕ
ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ УЧИТЕЛЕМ ХУДОЖЕСТВЕННОГО ОПИСАНИЯ И СРЕДСТВ ВЫРАЖЕНИЯ ПРИ ОБУЧЕНИИ ДЕТСКИМ СТИХОТВОРЕНИЯМ
Искандеров Б.А.
Сумгаитский государственный университет

В статье исследуются формы и приемы использования средств художественного описания, разработанных в языке детских стихов Мамеда Аслана. Детские стихи поэта состоят из полных поэтических примеров с высоким уровнем образности. В то же время обращение поэта к просторечию и устной литературе в его творчестве, умелое использование им средств описания и выражения образного литературного языка представлены прекрасными образцами поэзии
Ключевые слова: *преподаватель, метафора, поэзия, личность, фольклор*

SUMMARY
POSSIBILITIES OF USE BY A TEACHER OF ARTISTIC DESCRIPTION AND MEANS OF EXPRESSION WHEN TEACHING CHILDREN'S POEM
Isgandarov B.A.
Sumqayit State University

The forms and methods of using the means of artistic description developed in the language of Mammad Aslan's children's poems are studyied in this article. The poet's children's poems consist of full of poetic examples with a high level of imagery. Beside this, , the poet's appeal to the vernacular and folk in his work, his skillful use of the means of description and expression of the figurative literary language, are presented with beautiful examples of poetry.
Keywords: *учитель, метафора, поэзия, личность, фольклор*

ABBASQULU AĞA BAKIXANOVUN "TƏHZİBÜL-ƏXLAQ" ƏSƏRİNDƏ ƏXLAQ MƏSƏLƏLƏRİNIN PEDAQOJİ TƏHLİLİ

Vəliyeva İlahə Xaləddin qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
ilahe_veliyeva07@mail.ru

Açar sözləri: *Bakıxanov, "Təhzübül-əxlaq", maarifçilik, əsər, pedaqoji görüşlər*

Azərbaycan ədəbiyyatında maarifçilik poeziyası Nizamidən başlasa da Nəsimi yaradıcılığı ilə inkişaf etmiş, Xətayinin əsərlərində formalaşmış, Düzulinin söz sənətində isə ən yükək zirvəyə çatmışdır. XIX əsrdə isə Abbasqulu ağa Bakıxanov, Mirzə Şəfi Vazeh kimi ədiblərin yaradıcılığı realist marifçiliyin inkişafında əsas yer tutur. Ədəbiyyatşünas alim professor Abbas Səmədov bu dövrdə maarifçiliyi üç inkişaf mərhələsinə bölür: Birincisi ilk təşəkkül dövrü, ikincisi kamal dövrü, üçüncüsü süqut dövrü (5.105).

Birinci mərhələ A.A Bakıxanov, İ. Qurtqaşınlı, M.Ş.Vazeh kimi az-çox realizmə meyl göstərən şair və yazıçıların simasında meydana çıxır. Abbasqulu ağa Bakıxanov çair , nasir olmaqla yanaşı həm də böyük alim idi. Onun "Qanuni-Qüdsi", "Əsrarül-mələkut", "Təhzübül-əxlaq", "Eynül-mizan", "Gülüstani-İrəm" əsərləri elmin müxtəlif sahələrinə həsr edilib.

Bakıxanovun elmi əsərləri içərisində 1831-ci ildə yazdığı "Təhzibül-əxlaq" əsəri pedaqogika və psixoogiyaya aid elmi və nəzəri məsələləri əhatə edən fəlsəfi əsəridir. Əsər etik-fəlsəfi mahiyyətdə olub, insanları pis əməllərdən çəkindirməklə onlarda nəcib və gözəl əxlaqi xüsusiyyətləri tərbiyələndirməyə xidmət edir. Ədalət, mənəvi saflıq, doğruçuluq, humanizm, vətənpərvərlik, və.s belə insani keyfiyyətlər əsərdə təbliğ olunan başlıca əxlaqi ideyalardır. Əsər fars dilində yazılmış müqəddimə və xatimədən, on iki fəsil və nəticədən ibarətdir. Müqəddimədən sonra gələn "E`tidala riayət", "Yaxşı işlərin fəziləti", "Can sağlığının qazanılması", "Şöhrətin bəyanı" fəsilləri əxlaq nəzəriyyəsi onun insanlığa, vətənə və xalqa olan məhəbbəti, maarifi və demokratik dünyagörüşü ilə bağlıdır.

Bakıxanova görə həqiqi yaxşılıq odur ki, onda ümumin mənfəəti var. Yaxşılıq edən insanın qazancı rahatlıqdır. Rahatlıq isə var-dövlətdə, rütbədə deyil haldadır. "... Adam gərək elə etməsin ki, öztayları ona

qibtə etsin, eyni zamanda özünü o yerə yetirməsin ki, onların nəzərində xar olsun. Hər bir böyük və kiçik iş üçün orta bir həd vardır ki, bütün hallarda bəyənilən və rahatlıq axtaranlar üçün zəruridir". (2.s. 29).

"Təhzibül-əxlaq" əsərində A.A. Bakıxanov nəzəriyyə ilə təcrübənin qarşılıqlı əlaqə və münasibətini təyin etməyə çalışır. Əslində elmlə əməlin bir-birindən asılı olduğunu müqayisə edərkən, üstünlüyü elmə görür. Əsərin "Xatimə" hissəsində kainat və ilahiyyat məsələlərini aydınlaşdıran müəllif "Onun özündən başqa hər şey məhv olacaqdır" və "Onun tərəfinə qayıdacaqdır" ayələrini misal gətirərək bütün varlıqların Allah tərəfindən yaradıldığını və gec-tez Ona qovuşacağını bildirir. Ədibin fikrincə "Hisslər və üzvlər ürəyə tabedir, onun əmrindən çıxa bilməz. Ürək nəfsani pisliklərdən təmizlənsə, Allahın nurlarını əks etdirər və öz cinslərinin hamısını əhatə etdiyi üçün öz hökmlərini əhalinin aşağı və yuxarı təbəqələrinə icra etdirən bir müstəqil hakim kimi feyz verər" (2, s.67).

"Təhzibül-əxlaq" əsərində təvazökarlığın qaydaları, insaf, qəamət və qənaətcilliyin şərtləri, təvəkkülün xeyri haqqında gözəl əxlaqi-tərbiyyəvi fikirlər vardır. Bakıxanov təvazökarlığı insan vücudunun yaraşığı" (2, s.53), "zahiri və mənəvi mənfəətlərin mənbəyi" (2, s.54), "insafi "pakizə xasiyyət", "insan təbiətinin bəzəyi" (2, s.55), hesab edir. Bildirir ki, "O, səlamətliyə və işin gözəl nəticə verməsinə səbəb olar. İnsanın bütün pisliklərinin mənbəyi olan zülümdən saqındırar" (2, s.55).

Eyni zamanda əsərdə paxıllıq, tamahkarlıq, acgözlük, xəsislik, israfçılıq kimi xüsusiyyətlər pislənir. Belə xüsusiyyətləri A. Bakıxanov "batini çirkinlik" hesab edir. Onun fikrincə yer üzündə "paxıllıq odundan yandırıcı od hələ ki, görünməmişdir. Paxıl adam heç bir zaman sakit yaşaya bilməz. Özünün qəmi və başqalarının şadlığı onun küdurətinə səbəb olar" (2. s.57).

Beləliklə, A.A.Bakıxanov insan əxlaqının təmizlənməsi barədə düşüncələrini də irfan baxımından izag etməyə çalışır. Yazıçı kainatın maddiliyini, əşya və maddələrin bir haldan başqa hala keçdiyini bildirsə də, bunların hamısının vahid olan Allahın iradəsi ilə baş verdiyini də təsdiq edir.

Ədəbiyyat

1.Bakıxanov. A. Bədii əsərləri. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1973. s 390
2.Bakıxanov. A. Seçilmiş əsərləri. Bakı, Yazıçı, 1984. s 487
3.Əhmədov. Ə. Böyük Azərbaycan mütəfəkkiri. Bakı, 1962, s 40
4.Əsgərli. Z. Bakıxanov-Qüdsi. Bakı, Elm, 2015. s 173
5.Səmədov A. Mirzə Şəfi Vazeh-220, Gəncə, GDU, 2014 s.143

РЕЗЮМЕ

ПЕДАГОГИЧЕСКИЙ АНАЛИЗ НРАВСТВЕННОЙ ПРОБЛЕМЫ В ПРОИЗВЕДЕНИИ АББАСГУЛУ АГА БАКИХАНОВА "ТАХЗИБУЛ-МОРАЛЬ"

Велиева И.Х.
Сумгаитский государственный университет

Аббасгулу ага Бакиханов был выдающимся поэтом и прозаиком в истории азербайджанской культуры, а также крупным ученым и автором ценных трудов в различных областях науки. Помимо его художественного творчество, такие как стихи, рассказы его научные работы также являются ценными жемчужинами азербайджанской науки. Возникновение нового просветительско-реалистического литературного направления в 1-й половине 19 в. в какой-то мере связано с его именем. Он сыграл важную роль в утверждении идей просвещения, которые привели к коренным изменениям в жизни народа. Нравственная теория Аббасгулу Аги Бакиханова основана на его любви к человечеству, Родине и народу, а также его просвещенном и демократическом мировоззрении.

Ключевые слова: *Бакиханов, «Тахзубул-ахлак», просветительство, произведения, педагогические встречи*

SUMMARY

PEDAGOGICAL ANALYSIS OF MORAL ISSUES IN ABBASGULU AGA BAKIKHANOV'S WORK "TAHZIBUL-MORAL"

Veliyeva I.K.
Sumqayit State University

Abbasgulu aga Bakikhanov is a talented poet and publisher in the history of Azerbaijani culture, as well as a great scientist and author of valuable works in various fields of science. His creativity included: his

scientific works such as poems, stories and advice are also valuable pearls of Azerbaijani science. The development of enlightenment realism in literature in the first half of 19th century is mostly related with his name. He had an important role in the establishment of enlightenment ideas that have led to fundamental changes in the lives of the people. Abbasgulu Aga Bakikhanov's moral theory is based on his love for humanity, homeland and people, his enlightened and democratic outlook.

Keywords: *Bakikhanov, "Tahzubul-akhlaq", enlightenment, works, pedagogical meetings*

PEDAQOJİ PROSESDƏ MÜƏLLİMİN PEDAQOJİ MƏRİFƏTİ

Rəhimova Mənzilə Ağarəhim qızı
ADPU-nun Cəlilabad filialı,Cəlilabad, Azərbaycan
menzileraqimova@mail.ru

Açar sözlər: *Müəllim, şagird, pedaqoji mərifət, pedaqoji proses, qabiliyyət.*

Pedaqoji prosesdə müəllimitn pedaqoji mərifəti daha çox müəllim-şagird münasibətlərində özünü göstərir. Pedaqoji prosesdə müəllim-şagird münasibətlərində müəllimin pedaqoji mərifəti təim tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsi üçün mühüm stimul və əhəmiyyət kəsb edir. Müəllimin pedaqoji mərifəti onun pedaqoji ustalığının əsasını təşkil edir ki, müəllim-şagird münasibətlərinin uğuru bir çox cəhətdən bu münasibətlərdən asılıdır.

Müşahidəçilik müəllim- şagird münasibətlərində və pedaqoji mərifətdə xüsusi əhəmiyyət kəsb edir. Müşahidəçilik - sadəcə olaraq baxmaq deyildir. Bu şagirdin daxili aləmini öyrənmək, onu başa düşmək, onun daxili əhval-ruhiyyəsini düzgün müəyyənləşdirmək, fərdi xüsusiyyətlərini ayırmaq və bu əsasda ona yanaşmaq deməkdir. Müşahidəçi müəllim çox asanlıqla bilir ki, kim nə dərəcədə dərsə hazırdır, kim hazır deyil, kim ev tapşırığını yerinə yetirimiş, kim etməmişdir. Kim dərsə qulaq asır, kim də müəllimin üzünə baxsa da fikri uzaqlardadır.

Diqqətlilik müəllim-şagird münasibətlərinin ayrılmaz hissəsidir. Şagirdlər sevimli müəllimlərindən diqqət, ehtiram gözləyirlər. Bunu görməyəndə, duymayanda şagirdlərdə müəllimə qarşı inam, sevgi, hörmət uzaqlaşmağa başlayır. Şagirdə göstərilən diqqətsizlik, biganəlilik və ya dərs danışarkən ona diqqət verməmək şagirdin dərsə qarşı inam, sevgisini azaldır və şagirdin dərsə qarşı inam və həvəsini öldürür. Bəzən də elə olur ki, şagird müəllimdən diqqət və ehtiram görməyəndə şuluqluq, intizamsızlıq edir ki, müəllimin diqqətini özünə cəlb etsin.

İnam pedaqoji mərifətdə, müəllim-şagird münasibətlərində mühüm əhəmiyyət kəsb edir. Müəllim hər bir şagirdin gücünə, qüvvəsinə inanmalıdır. Müəllim hətta risk etməli olsa belə şagirdə inam göstərməlidir. İnam şagirdi inkişaf etdirir və təkmilləşdirir. Ona yeni güc, qüvvə gətirir. İnam nəticəsində hətta çətin işlər belə asanlaşır. Uşaqlar hələ öz imkan və güclərini düzgün qiymətləndirə bilmirlər. Öz imkanları haqqında onlar böyüklərin, xüsusilə müəllimlərin fikrini yüksək qiymətləndirirlər. Buna görə də müəllimlər şagirdlərin bu imkan və qabiliyyətlərinə ehtiyatla yanaşmalı, onlarda öz qabiliyyətlərini ifadə etməyə inam yaratmalıdır.

Ədalətlilik – "Müəllimdə hansı keyfiyyətlərə üstünlük verirsən" – sualına şagirdlərin əksəriyyəti "ədalətliliyə" – deyə cavab verirlər.

Ədalətli müəllim üstəlik taktlıdırsa, ünsiyyətlidirsə onun hörmət və nüfuzu məktəbdə yüksək olacaqdır. Amma şagirdlərin biliklərini qiymətləndirərkən və yaxud müəyyən bir münaqişəni aradan qaldırarkən ədalətlə hərəkət etməlidir. Müəllim hamı ilə bərabər səviyyədə davranmalı, birini digərindən üstün tutmamalıdır. Uşaqlar elə hesab etməlidir ki, müəllmm hamıdan çox onu sevir. Keçmişdə demişlər ki, ciddi olmaq yaxşıdır, amma xoş təbiətli müəllim olmaq daha yaxşıdır. Əbalətli olmaq isə hər ikisindən daha yaxşıdır.

Səbrlilik müəllim-şagird münasibətində mühüm keyfiyyətdir. Səbrsiz adam müəllim ola bilməz. Uşaqların hər hansı bir səhv davranışında, qaba hərəkətində və yaxud asta danışığında, suala gec cavab verməsində səbrsizliklə yanaşmaq, tələsik qərarlar çıxarmaq və ya əsəbiləşmək müəllim xarakterindən uzaq olmalıdır. Uşaqlar elə bu nöqsanlara yol verməmək üçün məktəbə gəlmişlər.

Təmkin müəllim-şagird münasibətlərində iradi keyfiyyətdir və mühüm əhəmiyyət kəsb edir. Əlbəttə səbr və təmkin o demək deyildir ki, müəllim həmişə sakit olmalıdır. Yeri gələrsə o acıqlana, hirslənə də bilər.

Müəllim-şagird münasibətləri üçün göstərilən bütün bu keyfiyyətlər hələ hamısı deyildir. Ən insani, humanist keyfiyyətlər müəllimə xas olmalı və müəllim-şagird münasibətlərində öz ifadəsini tapmalıdır. Müəllimin pedaqoji mərifəti və pedaqoji qabiliyyətləri haqqında, xüsusilə Ulu Öndər Heydər Əliyevin müəllim səriştəliliyi və peşəkarlığı haqqında çox qiymətli fikirləri prof.Rüfət Hüseynzadə və digər müəlliflərlə birgə hazırlanmış "Pedaqogika"(1)dərsliyində ətraflı və geniş məlumat verilmişdir ki, o materiallardan xeyli faydalanmaq və bəhrələnmək olur.

Ədəbiyyat

1. Hüseynzadə R.L. Pedaqogika. Dərslik. Bakı: Mütərcim, 2021, 488 s.

РЕЗЮМЕ

ПЕДАГОГИЧЕСКИЙ ТАКТ УЧИТЕЛЯ В ПЕДАГОГИЧЕСКОМ ПРОЦЕССЕ

Рагимова М.А.

Азербайджанский государственный педагогический университет, Джлилабадский филиал, г. Джалилабад, Азербайджан

В педагогическом процессе педагогические такты и способности учителя больше проявляются во взаимоотношениях учитель-ученик. В отношениях учитель-ученик в педагогическом процессе педагогический такт учителя являются важным стимулом и значением для повышения качества образовательного процесса. Педагогические способности и такты составляют основу педагогического мастерства. Успех отношений между учителем и учеником во многом зависит от этих отношений. Правильно налаженные отношения учитель-ученик повышают качество образования.

Ключевые слова: *учитель, ученик, педагогические знания, педагогический процесс, умение*

SUMMARY

PEDAGOGICAL TACT OF THE TEACHER IN THE PEDAGOGICAL PROCESS

Ragimova M.A.

Azerbaijan State Pedagogical University, Jalilabad Branch, Jalilabad, Azerbaijan

In the pedagogical process, the pedagogical tacts and abilities of the teacher are more manifested in the teacher-student relationship. In the teacher-student relationship in the pedagogical process, the pedagogical tact of the teacher is an important incentive and value for improving the quality of the educational process. Pedagogical abilities and tact form the basis of pedagogical skill. The success of the teacher-student relationship largely depends on these relationships. Properly established teacher-student relations improve the quality of education.

Keywords: *Teacher, student, pedagogical knowledge, pedagogical process, ability.*

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN MÜSTƏQİLLİK VƏ FƏALLIĞININ İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

Həsənova Zəhra Rəşid qızı

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan

hasanovazahra@gmail.Com

Açar sözlər: *məktəbəqədər təhsil, bacarıqlar, qabiliyyətlər, müstəqillik, fəallıq.*

Respublikamızın bütün sahələrində olduğu kimi, təhsil sahəsində də böyük islahat proqramı həyata keçirilir və cəmiyyətdə baş verən köklü dəyişikliklər milli təhsil sistemimizə, o cümlədən məktəbəqədər təhsil prosesinə öz mühüm təsirini göstərir. Azərbaycan xalqının ümummilli lideri, Ulu Öndər Heydər Əliyevin 15 iyun 1999-cu il tarixli *"Azərbaycan Respublikası Təhsil sisteminin İslahat proqramı" haqqında fərmanı (1)* ilə başlanan təhsil islahatı, mərhələli olaraq, bu gün də öz yeni mərhələsində davam edərək öz bəhrəsini verir. Təhsil islahatları təhsilimzin bütün sahələrini – o cümlədən məktəbəqədər təhsil

sahəsini də əhatə edir.*"Azərbaycan Respublikasında təhsilin inkişafə üzrə Dövlət Strategiaysı"(24 oktyabr, 2013 cü il)* təhsilimizn inkişafında yeni bir səhifəni açmış və bu səhifədə məktəbəqədər təhsilə böyük əhəmiyyət verilərək deyilir: *"Təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərindən əldə edildiyinə görə uşaqların zehninin erkən yaş dövründən inkişaf etdirilməsi vacibdir. Bu səbəbdən məktəbəqədər təhsilin inkişafı dövlət siyasətində əhəmiyyətli yer tutur"(2)*. Bəli, təməl bacarıqlar erkən uşaqlıq dövründən başladığından bü mühüm pedaqoji prosesə "kiçik dövlət" hesab edilən ailədən başlanmalı, daha sonra isə məktəbəqədər təhsil müəssisələrində sistemli və ardıcıl şəkildə davam etdirilməlidir.

Məktəbəqədər təhsilin əsas məqsədi uşaqların fiziki, psixi, emosional, etik və estetik, sosial və idraki inkişafı üçün əlverişli şərait və imkanlar yaratmaq, onların sadə əmək bacarıq və vərdişlərə yiyələnməsini təmin etmək, məntiqi və yaradıcı təfəkkürünü, bacarıq və qabiliyyətlərini, istedadlarını üzə çıxarıb onları daha da inkişaf etdirməkdir.

Kiçik yaşlı uşaqların təməl bacarıqlarının inkişaf etdirilməsi onların ilk növbədə müstəqilliyinin və fəallığının təmin edilməsindən başlayır. Valideyn və uşaq bağçasının tərbiyəçiləri uşaqların müstəqil fəaliyyət göstərmələri üçün onlara hər cür əlverişli şərait və imkanlar yaratmalıdırlar. Bu zaman uşaqların fəaliyyətinə istiqamət verilməli, düzgün yol göstərilməlidir. Onlar çətinliyə düşdüyü zaman böyüklər bu çətinliyi tələəsik aradan qaldırmaqdansa, uşaqlara çətinliyi aradan qaldırma yollarını göstərrmək lazımdır.

Sadə əmək bacarıqları özünəxidmət əməyindən başlayır. Bacarıqların ilkini özünəxidmət bacarıqlarıdır. Bu uşağın öz şəxsi ehtiyaclarını ödəmək bacarığı, soyunub - geyinmək, şəxsi gigiyena qaydalarına əməl etmək, oyuncaqlardan düzgün istifadə etmək, insanlarla ünsiyyət və münasibətdə olmaq, əşyalardan düzgün istifadə etmək, süfrə ədəb bacarıqları və s. daxil ola bilir. Bütün bu bacarıqların yerinə yetirilməsi və inkişaf etdirilməsi ilk növbədə valideynin öhdəsinə düşsə də, daha sonra isə məktəbəqədər təhsil müəssisələrində bu bacarıqlar daha da inkişaf etdirilir və təkmilləşdirilir.

Özünəxidmət əməyi üzrə əsas bacarıq və qabiliyyətlərin müstəqil və şüurlu olaraq yerinə yetirilməsi uşaq şəxsiyyətinin formalaşmasının əsas təməlini yaradır.

Uşaq məhz özünəxidmət bacarıq və qabiliyyətlərini müstəqil yerinə yetirmək sayəsində fiziki və əqli qabiliyyətləri, intellektual səviyyəsi və mənəvi, əxlaqi keyfiyyətləri inkişaf edir, sağlamlıqları, müstəqillikləri və fəallıqları təmin edilmiş olur.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramının təsdiq edilməsi haqqındaAzərbaycan Respublikasi Prezidentinin sərəncamı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev. Bakı şəhəri, 15 iyun 1999-cu il. Bakı: Çaşıoğlu, 1999.
2. "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı/ "Xalq", 25 oktyabr 2013-cü il.

РЕЗЮМЕ

ПУТИ РАЗВИТИЯ САМОСТОЯТЕЛЬНОСТИ И АКТИВНОСТИ ДОШКОЛЬНИКОВ

Гасанова З.Р.

Азербайджанский государственный педагогический университет, Баку, Азербайджан

Основной целью дошкольного образования является создание благоприятных условий и возможностей для физического, умственного, эмоционального, этико-эстетического, социального и познавательного развития детей, обеспечение приобретения ими простых трудовых навыков и привычек, раскрытие их логического и творческого мышления, умений и навыков и способности. Развитие основных навыков детей раннего возраста начинается с развития их самостоятельности и активности.

Ключевые слова: *дошкольное образование, навыки, умения, самостоятельность, активность*

SUMMARY

WAYS TO DEVELOP INDEPENDENCE AND ACTIVITY OF PRESCHOOL CHILDREN

Hasanova Z.R.

Azerbaijan State Pedagogical University, Baku, Azerbaijan

The main purpose of preschool education is to create favorable conditions and opportunities for children's physical, mental, emotional, ethical and aesthetic, social and cognitive development, to ensure their acquisition of simple work skills and habits, to reveal their logical and creative thinking, skills and

abilities. The development of basic skills of young children begins with the development of their independence and activity.

Keywords: *preschool education, skills, abilities, independence, activity.*

ALİ TƏHSİL MÜƏSSİSƏSİNDƏ MÜƏLLİMİN PEDAQOJİ USTALIĞININ FORMALAŞMASI PROBLEMİ

Metin Kübra Hasan
kübrametiinn@gmail.com

Açar sözlər*: pedaqoji ustalıq, fəaliyyət, ünsiyyət tərzi, bacarıq.*

Müəllimin fəaliyyətinin müsbət-nəzəri, praktik-əməli, təşkilati, eləcə də biliklərin mənimsənilməsinin nəticəsi kimi çıxış edən bacarıqları kimi tərkib hissələrinə baxılmışdır. Bundan başqa, müəllimin şəxsiyyətinə xas olan ünsiyyət üslubları da diqqəti cəlb edir.

Pedaqoji məharət müəllimin peşəkar fəaliyyətinin yüksək səviyyəsidir. O, zahirən özünü müxtəlif pedaqoji vəzifələrin müvəffəqiyyətlə yaradıcılıq yolu ilə həllində, təlim-tərbiyə işinin üsul və məqsədlərinə səmərəli şəkildə nail olunmasında göstərir. Pedaqoji ustalığa aşağıdakılar daxildir: yüksək ümumi mədəniyyət, tədris olunan elm sahəsində geniş və dərin biliklər, ümumi və yaş pedaqogikası bilikləri, onlardan praktikada istifadə etmək bacarığı. Müəllim pedaqoji məqsədin fəal və şüurlu daşıyıcısıdır. Məqsədin qoyuluşu pedaqoji fəaliyyət şəraitinin tədqiqinə yönəlmiş müəllimin analitik-sintetik fəaliyyətinin genişlənməsinə, onun predmetinin ayrılmasına, xüsusiyyətlərinin açıqlanmasına, fəaliyyət alətlərinin cəlb edilməsinə səbəb olur.

Pedaqoji məqsədlər tez-tez materialın dərindən ümumiləşdirilməsinə və sistemləşdirilməsinə, əsas ideya və nəticələrin daha dəqiq ifadə olunmasına, dəqiqləşdirici məsələlərin qoyuluşuna və hətta hipotezlərin yaranmasına səbəb olur. Əgər pedaqoji fəaliyyət elmi işlə təmin olunmursa, peşəkar pedaqoji ustalığı tez bir zamanda sönür. Pedaqoji vəziyyətlərin təhlili və onların optimal həlli yollarını tapmaq əsasında pedaqoji vəzifələri görmək və formalaşdırmaq bacarığında peşəkarlıq ifadə olunur.

Müəllimlərin pedaqoji fəaliyyəti və ustalığı probleminin həllinə böyük töhfə vermiş, tədqiqat işləri aparılmış, pedaqoji fəaliyyətin bir sıra qanunauyğunluqlarını müəyyən etməyə, müəllimin fəaliyyətinin səmərəlilik meyarlarını müəyyənləşdirməyə, pedaqoji fəaliyyətin nəzəri modelini dəqiqləşdirməyə və sınaqdan keçirməyə imkan verən N. V. Kuzminanın rəhbərliyi altında yerinə yetirilmişdir. Belə bir model kimi müəllimin fəaliyyətinin psixoloji strukturu çıxış edir, bu, onun pedaqoji vəzifələrin həlli yolu ilə qarşıya qoyulmuş məqsədlərə nail olmağa yönəlmiş hərəkətlərinin qarşılıqlı əlaqəsini, sistemini və ardıcıllığını təşkil edir. Bu strukturda pedaqoji sistemin məqsədlərinin həyata keçirilməsi prosesində qarşıya çıxan, beş funksional komponentə uyğun gələn pedaqoji məsələlərin həlli üçün lazım olan bütün bacarıqlar öz əksini tapır: gnostik, pedaqoji sistemin qanunauyğunluqları və fəaliyyət mexanizmləri haqqında yeni biliklərin əldə edilməsi və toplanması vəzifəsini həll edən; kursun tədrisi məqsədlərinin və onlara nail olma yollarının layihələşdirilməsi ilə bağlı; planlaşdırılmış tədbirlərin həyata keçirilməsinin təşkilati, həlledici vəzifələrinə; pedaqoji prosesin subyektləri arasında pedaqoji məqsədyönlü qarşılıqlı münasibətlərin qurulması ilə bağlı hərəkətləri özündə cəmləşdirən kommunikativ; pedaqoji prosesin məzmununun, dərslərin keçirilməsinin forma və metodlarının seçilməsi və kompozisiya quruluşu üzrə hərəkətləri daxil edən konstruktiv.

Müəllimin gnostik fəaliyyəti, ilk növbədə, onun öz işində tədris metodikasından istifadə etmək bacarığı ilə bağlıdır. Əsas metodoloji prinsiplərin və üsulların başa düşülməsi əsasdır. Bu prinsiplərə aid edilə bilər:

- nitq yönümünün prinsipi (bütün biliklər, müəllim və tələbələrin hərəkətləri öyrənənlərin nitqinin inkişafına yönəlib);
- nitq fəaliyyətinin müxtəlif növlərinin xüsusiyyətlərinin uçotu;
- müxtəlif nitq fəaliyyət növlərinin kompleks öyrənilməsinin, paralel və qarşılıqlı surətdə əlaqəli öyrənilməsinin zəruriliyi;
- tədris bacarıq və vərdişlərin formalaşdırılması;
- öyrənmə aydınlıq prinsipi;
- öyrənmə fəaliyyəti prinsipi.

Mühüm gnostik bacarıq - keçirilən məşğələləri təhlil etmək. Pedaqoji təhlil pedaqoji təfəkkürün təzahür və təkmilləşməsinin forması olmaqla üç əsas funksiyanı əhatə edir:

* müsbət-nəzəri fəaliyyət-pedaqoqun fəaliyyətinin pedaqoji nəzəriyyənin tələbləri ilə əlaqələndirilməsi, pedaqoji prosesin uğurlu keçməsini təmin edən şəraitin aydınlaşdırılması; müsbət nəticə əldə etməyə mane olan çətinlik və uğursuzluqların səbəblərinin tənqidi dərk edilməsidir;

* praktiki olaraq-təsirli fəaliyyət müsbət nümunələrin qurulması və təkmilləşdirilməsindən, həmçinin konkret şərtlərə uyğun olaraq qəbul və hərəkətlərin yenidən qurulmasından ibarətdir;

* təşkilatçılıq fəaliyyəti tələbələri dərslərdə səmərəli təşkil etmək, hamını materialın mənimsənilməsi işinə cəlb etmək bacarığından ibarətdir [2].

Müstəqil fəaliyyət prosesində müəllimin inkişafının əsas mərhələləri aşağıdakılardır: peşənin mənimsənilməsi, onun təkmilləşdirilməsi, iş sisteminin təsdiq edilməsi və yoxlanılması, təcrübənin ümumiləşdirilməsi və ötürülməsi, yekunların verilməsi.

Müəllimin bacarığının funksional meyarları kimi müəllimin silahlandırdığı və optimal nəticələr əldə etmək üçün istifadə etdiyi vəsaitlərin arsenalı çıxış edir. Müəllimin pedaqoji ustalığının səviyyəsi onun müxtəlif biliklərə yiyələnməsinin nəticəsi kimi çıxış edən bacarıqların formalaşmasının səviyyəsi ilə bağlıdır. Pedaqoji vəzifələri səmərəli həll edən müəllimin məhz bu bacarıq kompleksi müəllimlərin çalışmalı olduqları özünəməxsus etalon olacaqdır. Müəllimin pedaqoji ustalığının formalaşmasında lazım olan bacarıqların bəzi növlərini nəzərdən keçirək.

Müəllimin layihələndirmə bacarıqları perspektiv planlaşdırma ilə bağlıdır, pedaqoji fəaliyyətin məqsədlərini formalaşdırmaq bacarığı. Müəllim hər bir fəaliyyət növü üzrə tələbələrdə zəruri olan bacarıq və vərdişlər kompleksini tam tədris müddətinə müəyyən etməyi bacarmalıdır. Təqvim planlarının tərtib edilməsi dərs mövzusunun psixolo-pedaqoji təhlili aparmaq bacarığını tələb edir. Təlimin son məqsədlərini itirmədən yaxın məşğələdə materialların öyrənilməsi planını bütün Təqvim Planı ilə əlaqələndirmək lazımdır.

Konstruktiv bacarıqlar pedaqoji prosesin gedişini və nəticələrini qabaqcadan bilmək qabiliyyətidir. Bunun üçün inkişaf etmiş pedaqoji təxəyyül və Hipotetik düşüncəyə malik olmaq lazımdır. Konstruktiv bacarıqlar işin qarşıdakı məşğələdə planlaşdırılması ilə bağlıdır. Bu bacarıqlar iş planlarında öz əksini tapır. Müəllim hər bir dərsə daim və diqqətlə hazırlaşmalıdır, bu, pedaqoji vəziyyətlərin müxtəlifliyi, müxtəlif hazırlıq səviyyəsi və tələbələrin fərdi xüsusiyyətləri ilə seçilən məşğələlərin Praktik xarakteri ilə diktə olunur. Müəllim qarşıdan gələn məşğələlərin məqsədlərini dəqiq qoymalı və dəqiq ifadə etməlidir. Konstruktiv bacarıqların mənimsənilməsinin əsas yolu - pedaqoji təxəyyülün inkişafı üçün tapşırıqlar, pedaqoji prosesin əqli modelləşdirməsinin təcrübəsinin və onun nəticələrinin toplanmasıdır. Belə bir təsəvvürü öyrənmək və onu asanlıqla və sərbəst, ekspromtla həyata keçirmək - pedaqoji proses qurmaq bacarığına yiyələnmək deməkdir.

Dərslərin praktiki xarakterini nəzərə alaraq, müəllim üçün onun təşkilatçılıq bacarığı böyük əhəmiyyət kəsb edir. Təşkilatçılıq bacarığına iş qurmaq, Verilənlərin icrasının gedişinə nəzarət etmək, fəaliyyətin nəticələrini qiymətləndirmək, ona düzəlişlər etmək, tələbələrə müstəqil iş vərdişləri aşılamaq bacarığı, tədris materialının təşkili ilə bağlı əyaniliyi tətbiq etmək, tələbələri müxtəlif ictimai faydalı fəaliyyət növlərinə cəlb etmək, kollektiv yaratmaq və onun vasitəsilə müvafiq şəxsiyyət strukturu formalaşdırılan alət etmək bacarığı daxildir. Dəqiqlik, dəqiqlik, nizam - intizam, İşə məsuliyyətli münasibət, yığıncaq-təşkilatçılıq qabiliyyətlərinin nəticəsi olan şəxsiyyətin keyfiyyətləridir.

Kommunikativ bacarıqlar ümumbəşəri, pedaqoq üçün isə şəxsiyyətin peşəkar keyfiyyətidir. Müəllimin kommunikativ keyfiyyətləri - səsin qoyulması, mimika, emosiyaların, əhval-ruhiyyənin idarə edilməsi. Bura isə yumor hissi, ümumilik, tələbələrə qarşı xeyirxahlıq kimi baxılmalıdır. Müəllim emosional və sərbəst mühit yaratmağı bacarmalıdır. Əlverişli atmosferin saxlanılması bütövlükdə qrupun və hər bir tələbənin vəziyyətinə ayrı-ayrılıqda reaksiya vermək qabiliyyəti ilə bağlıdır.

Konstruktiv bacarıqların formalaşdırılması üçün xüsusi elmlər üzrə hazırlıq, gnostik, layihələndirmə və xüsusilə kommunikativ və təşkilatçılıq bacarıqları üçün ictimai-siyasi, psixo-pedaqoji fənlər üzrə hazırlıq və ictimai-siyasi və əmək fəaliyyətində iştirak həlledici amil kimi çıxış edir .

Pedaqoji yaradıcılığın yüksək səviyyəsi pedaqoji işdə ünsiyyətin yüksək səviyyəsi ilə uzlaşır. Ünsiyyət həmişə insanların qarşılıqlı əlaqəsidir, o, müstəqil fəaliyyət kimi və peşəkar fəaliyyətin tərkib hissəsi kimi çıxış edə bilər. Çünki insanlar arasında münasibətlərdə şəxsiyyətin həyat dəyərləri, dünyagörüşü və etik prinsipləri həyata keçirilir.

Bu şəxs üçün nisbətən sabit və konkret metodların və kommunikativ məsələlərin həllinə yönəlmiş ünsiyyətin təşkilinin metodlarının məcmusunu biz ünsiyyət üslubu adlandırırıq. İfraz demokratik, avtoritar və liberal üslub.

Demokratik stil ünsiyyətdə bərabərhüquqlu tərəfdaşlıq xarakteri daşıyır, qarşılıqlı münasibətlər şəxsiyyətin hörməti əsasında qurulur. Pedaqoji şagirdləri qərar qəbul etməyə cəlb edir, onların rəyi ilə hesab olunur, mülahizələrin sərbəstliyini təşviq edir, xahiş, Şura, göstəriş formasında rəhbər tutur. Şəxsi keyfiyyətlər bütövlük, özünə və digər insanlara qarşı tələbkarlıq, düzlük, nəzakətliliyi ilə səciyyələnir, o, öz peşəsindən həmişə məmnundur.

Bu şəxs üçün nisbətən sabit və konkret metodların və kommunikativ məsələlərin həllinə yönəlmiş ünsiyyətin təşkilinin metodlarının məcmusunu biz ünsiyyət üslubu adlandırırıq. İfraz demokratik, avtoritar və liberal üslub.

Demokratik stil ünsiyyətdə bərabərhüquqlu tərəfdaşlıq xarakteri daşıyır, qarşılıqlı münasibətlər şəxsiyyətin hörməti əsasında qurulur. Pedaqoji şagirdləri qərar qəbul etməyə cəlb edir, onların rəyi ilə hesab olunur, mülahizələrin sərbəstliyini təşviq edir, xahiş, Şura, göstəriş formasında rəhbər tutur. Şəxsi keyfiyyətlər bütövlük, özünə və digər insanlara qarşı tələbkarlıq, düzlük, nəzakətliliyi ilə səciyyələnir, o, öz peşəsindən həmişə məmnundur.

Avtoritar üslub üçün müstəqilliyin və təşəbbüsün qarşısının alınması xarakterikdir. Pedaqoji vəziyyətləri və şagirdlərin fikirlərini nəzərə almadan, onun tələblərinin yerinə yetirilməsinə sərt nəzarət edir, tapşırıq və tapşırıqlarının sərbəst müzakirəsinə praktiki olaraq yol vermir, kollektivin rəyinə zəif qulaq asır. Tez-tez pedaqoqla məşğul olanlar arasında münaqişəli vəziyyətlər yaranır. Şagirdlər təcavüzkarlıq göstərir, aşağı heysiyyət göstərir və öyrənmə fəaliyyətini itirirlər. Bütün qüvvələr psixoloji özünü müdafiə etməkdir. Qiymətləndirmə üsulları arasında, bəzi istehza ilə qeyri-müəyyənliklər üstünlük təşkil edir, qeydlər taktikliyi ilə fərqlənmir. Təsir üsulları əmr, təlimat və ya sərəncamdır.

Liberal üslub aşağıdakılardan ibarətdir: müəllim təmsil etməyə çalışır

şagirdlərə maksimum müstəqillik tez - tez onlarda olur, şəxsiyyətlərarası münasibətlərə zəif istiqamətlənir, müstəqil qərar qəbul etməkdən uzaqlaşır, təşəbbüsləri həmkarlarına, məşğələlərdə isə şagirdlərə verir. Belə müəllimin hərəkətlərində qətiyyətsizlik, tez-tez tərəddüdlər özünü göstərir. Kollektivdə sabit olmayan mikroiqlim hökm sürür, gizli münaqişələr müşahidə olunur.

Pedaqoq şəxsiyyətinin psixoloji strukturunda ümumvətəndaş, əxlaqi-psixoloji keyfiyyətlər, praktik bacarıq və vərdişlər: ümumtəhsil (informasiya, Səfərbərlik, inkişaf, oriyentasiya), ümumtəhsil (konstruktiv, təşkilati, tədqiqat), kommunikativ (müxtəlif yaş kateqoriyalarına aid insanlarla ünsiyyət), özünütəhsil (biliklərin sistemləşdirilməsi və ümumiləşdirilməsi, pedaqoji məsələlərin həlli və yeni informasiyanın əldə edilməsi zamanı onların tətbiqi).

Peşəkar yönümün yüksək səviyyəsi-maraqların birliyini ifadə edən şəxsiyyət motivlərinin strukturunun xüsusiyyətidir. Peşə istiqamətinin inkişafı üçün müəllimin fəaliyyətinin elə bir təşkili lazımdır ki, bu da üstünlük verilən fəaliyyətin tələbləri ilə onun şəxsi mənası arasındakı ziddiyyətləri aktuallaşdırsın.

Beləliklə, ali məktəb müəlliminin peşə qabiliyyətləri kompleksini özündə hansı komponentlərin daxil olduğunu müəyyən etməyə cəhd edilmişdir. Müəllimin pedaqoji Məharəti uğurun yüksək səviyyəsində saysız-hesabsız məsələlərin həllinin yeni metod və formalarının axtarışı kimi müəyyən edilə bilər. Peşəkar qabiliyyətlər tədricən formalaşır, fəaliyyətdə inkişaf edir, ümumi və xüsusi xarakter daşıyır, bu qabiliyyətlərin cəminə yiyələnmək yüksək məharət səviyyəsinə çatmağa və tələbənin şəxsiyyətinin, onun özünü reallaşdırmağa imkan verən qabiliyyətlərinin formalaşmasına səmərəli təsir göstərməyə kömək edir.

Ədəbiyyat

1. Зазюна И. А. Основы педагогического мастерства. Киев, 1987. 205 с.
2. Смирнов С. Д. Педагогика и психология высшего образования: от деятельности к личности. М. : Аспект Пресс, 1995. 271 с.
3. Есарева З. Ф. Особенности деятельности преподавателя высшей школы. Л. : Изд-во Ле-нингр. ун-та, 1974. 112 с.
4. Кузьмина Н. В. Профессионализм личности преподавателя и мастера производственного обучения. М. : Высшая школа, 1990. 119 с.
5. Митина Л. М. Учитель как личность и профессионал. М. : Дело, 1994. 216 с.

РЕЗЮМЕ
ПРОБЛЕМА ФОРМИРОВАНИЯ ПЕДАГОГИЧЕСКОГО МАСТЕРСТВА ПРЕПОДАВАТЕЛЯ В ВУЗЕ
Метин Кюбра Хасан

Рассмотрены такие составляющие деятельности учителя, как позитивно-теоретические, практико-практические, организаторские, а также умения и навыки, которые выступают как результат усвоения знаний. Кроме того, привлекают внимание стили общения, присущие личности педагога.

***Ключевые слова**: педагогическое мастерство, активность, стиль общения, умение.*

SUMMARY
TEACHER'S PEDAGOGICAL SKILLS IN HIGHER EDUCATIONAL INSTITUTION THE PROBLEM OF FORMATION
Metin Kubra Hasan

The constituent parts of the teacher's activity, such as positive-theoretical, practical-practical, organizational, as well as his skills, which act as a result of the assimilation of knowledge, are considered. In addition, the styles of communication inherent in the personality of my teacher also attract attention.

***Key words:** pedagogical mastery, activity, communication style, skill.*

UŞAQ FOLKLORUNDA ANA İLK MÜƏLLİM KİMİ

Rahtari Mahirə Famil qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
arifmeryem@mail.ru

Məqalədə uşaq folklorunda ana amili, onun uşağın böyüməsində rolu təsvir edilmişdir. Göstərilir ki, ana uşağını yalnız böyüdən, saxlayan, yedizdirib-içizdirən, ona lazım olanlarla təmin edən müqəddəs bir varlıq deyil, o həmçinin, bir müəllimdir. Övladına düzgün yolu göstərən, gələcəyinə işıq tutan, övladının yanlış addım atacağından narahatlıq hissi keçirən, uğurlarına sevinən, stimullaşdıran, bacarığına güvənən, onu bir şəxsiyyət kimi sağlam yetişdirib, cəmiyyətə buraxan bir müəllimdir. Ananın bir müəllim kimi övladına təlim-tərbiyə verməsi, düzgün yol göstərməsi müxtəlif folklor nümunələri ilə təqdim olunmuşdur.

***Açar sözlər:** Azərbaycan, uşaq, folklor, ana, müəllim, ədəbiyyat*

Uşaq folkloru Azərbaycan şifahi xalq ədəbiyyatının mühüm qollarından biri olub, zənginliyi, rəngarəngliyi, orijinallığı ilə seçilir. Uşaq folkloru uşaqları ən müxtəlif aləmlərə səyahətə aparır, onların istək, arzu, istirahət, əyləncə və məşğuliyyətlərini özündə əks etdirir. Bu folklor nümunələri mövzu, ideya, məzmun, forma, üslub və s. baxımdan uşaqların yaş səviyyələrinə, psixologiyasına uyğun olmalıdır.

Uşaq folklorunun görkəmli tədqiqatçısı, folklorşünas R.Qafarlı uşaqların həyatında folklor nümunələrinin necə bir rola malik olduğunu belə təhlil etmişdir: “Göründüyü kimi, uşaq dünyaya göz açan gündən folklor nümunələri ilə qarşılaşır, nənələrin, bibilərin, xalaların şirin mahnısı ilə əzizlənir, anaların laylası ilə uyuyur, məzəli oyunlarla, əyləndirmələrlə əl-qol açır, duzlu oxşamalarla gülür, yanıltmaclarla dil açır və beləcə həyatda mənəvi nemətlərdən ilk payını alır. Xalq poeziyası inciləri qız-gəlinlərin dodaqlarında misra-misra nəğməyə dönüb yırğalanan naxışlı beşiklərin tıqqıltısına qarışır, bələkdəki südəmər körpələrin yuxusunu şirinləşdirir. Ümmanlara sığmayan arzulamalar ilk addım atanda, dil açıb danışanda, çimizdiriləndə, yeyib-içəndə, geyinib-kecinəndə, oynayanda, nəhayət, əli qələm tutanda, kitab-dəftərini qoltuğuna vurub oxumağa yollananda uşaqları müşayiət edir, onların hər bir qədəmini pis nəzərlərdən, yad təsirlərdən qoruyur, hər uşağın həyat yollarına şam tutur.” [3, s.7]

Ümumiyyətlə, uşaq folklor nümunələri 2 istiqamət üzrə zənginləşir:

1) Uşaqların yaradıcılığı hesabına

2) Böyüklərin yaradıcılığı hesabına

Uşaqların yaradıcılığı hesabına zənginləşən folklor nümunələri dedikdə, uşaq nəğmələri, dolamalar, öcəşmələr, sanamalar, acıtmalar və s. nəzərdə tutulur. Böyüklərin yaradıcılığı ilə zənginləşən əsas folklor

nümunələrinə isə bunlar daxildir: laylalar, oxşamalar, nazlamalar, bayatılar, tapmacalar, nağıllar, əfsanələr, əsatirlər və s.

Uşaqlara bütün bu folklor nümunələrini səbr və təmkinlə evdə onlarla yaşayan ailə üzvləri (ana, ata, nənə, baba və b.), uşaq məktəbə gedəndən sonra isə müəllimlər öyrədirlər. Ancaq bu ailə üzvləri içində uşaqla daha çox məşğul olan, ona geniş vaxt ayıran, səbr, dözüm, təmkin göstərən əsas varlıq, təbii ki, anadır. Bu mənada ananı uşaq folklorunun ilk müəllimi hesab etsək, fikrimizcə, yanılmarıq.

Anaların folklor nümunələrinə üz tutmaqda əsas məqsədləri övladlarını əsrlərin, illərin sınaqlarından keçmiş xalq ruhunda tərbiyə vermək, övladını cəmiyyətə sağlam vətəndaş kimi yetişdirmək arzusudur.

Bu arzuları ilk olaraq analar laylalarında dilə gətirirlər. Laylalar anaların müqəddəs nəğmələri, onlarla körpələri arasında sirli bir əlaqəsidir. Ana laylası həzin, poetik və melodik mətndir. Körpə ana südü və ana laylası ilə həyata bağlanır. Uşaqlar öz anasına, ailəsinə, doğmalarına, ana dilinə, Vətəninə, mühitinə laylalarla uyğunlaşırlar. Laylalar vasitəsilə analar həm də ürəklərindəki arzuları dilə gətirilər. Körpəsinin şirin yuxuya getməsi üçün ananın dilə gətirdiyi nəğməsi sanki onları sakitləşdirir, rahatlaşdırır. Körpələr tez-tez qorxduqları üçün onların bu nəğmələri eşidərək sakitləşməsi, sevgi dolu ana qucağında, əmin əllərdə olmasını bilmək onlar üçün əsas amillərdir. Sanki analar, nənələr bu nəğmələrlə körpələrinə arxayınlıq, əminlik verirlər. Buna görə də yatmayan körpə ananın səsi ilə arxayınlaşır ki, anası yanındadır, sonra yatır. Ana isə elə hey gecə-gündüz oxuyur:

Evində-eşiyində,
Yat quzum, beşiyində.
Dan ulduzu, birdə mən,
Durmuşuq keşiyində. [4, s.8]

Analar, nənələr uşaqları yuxudan duran zaman onlara əzizləyərək nəğmələr oxuyarlar. Belə folklor nümunələrinə oxşamalar, nazlamalar deyirlər. Elə bu səbəbdən də bu nümunələrə ana nəğmələri deyirlər. Bu nümunələrdə də ananın istək-arzuları yer alır:

Yol üstə bulaq ollam,
Axaram, bulaq ollam.
Sən mənim öz balamsan,
Özüm göz-qulaq ollam. [4, s.22]

Mənim gül butam, oğul,
Ətrinə batam, oğul.
Bir arzum var ürəkdə,
Sənə toy tutam, oğul. [4, s.5]

Bəzən analar folklor nümunələri ilə övladlarına tərbiyə də verirlər. Bir müəllim kimi analar da uşaqları rəğbətləndirərək, tərifləyərək tərbiyə verirlər. Belə folklor nümunəsindən birinə nəzər salaq:

Oğlumun adı Əziz,
Üstü-başı tərtəmiz.
Oğlum hər kəsi görər,
Baş əyib salam verər.
Oğlum küçədə qaçmaz,
Heç kəs ilə savaşmaz.
Oğlum itə daş atmaz,
Atıb-günaha batmaz.
Quşlara etməz azar,
Quşların da canı var.
Pişikləri heç vurmaz,
Sərçələrə toz qurmaz.
Ay afərin, gül oğlum,
Gül oğlum, bülbül oğlum. [4, s.55]

Analar, nənələr yuxarıda verilmiş düzgülərlə, yəni, oyun nəğmələri ilə övladına sanki belə tərbiyə verir: "Ay oğul, üstünü təmiz saxla, kimi görsən baş əy, salam ver, küçədə qaçma, heç kəs ilə dalaşma, heyvanlara daş atma, vurma və s.". Bütün bu didaktik məsələlər sadə, canlı, şirin, oynaq bir dillə səsləndirilir.

Folklor janrı içərisində elə nümunələr də vardır ki, analar bu növ nümunələri uşaqlarına deməklə, onların həyatda düzgün yol ilə getmələrini, halalı haramdan fərqləndirməyi, Allaha sadiq qul olmalarını,

bütün arzu-istəklərini yalnız Allahdan istəmələrini dua edir. Belə dualara misal olaraq aşağıdakıları misal göstərmək olar:

- Duruluq halaldandır, bulanıq haramdan. Bir halalın verdiyini min haram verməz. Halalı gələn gördüm, haramı gedən.

- Ey böyüklər böyüyü Allahım! Bizi bir-birimizə sevdir, düşmənlərimizi rüsvay et, Allahım. [4, s.79-80]

Analar, nənələr bəzən də uşaqlarına bu fikirləri alqış formasında edərək məsləhətlər edir, xeyir-dua verirlər.

-Hörmət sahibi olasan.

-Xata-baladan uzaq olasan.

-Vətən gözündə ucalasan.

-Duz-çörək sənə halal olsun.

-Azar-bezar görməyəsən. [4, s.77]

Müxtəlif folklor nümunələrində ananın dilində işlənən epitetləri, təşbehləri sistemləşdirərkən müəyyənləşdirmək olur ki, laylalarda uşaqlar bitkilərdən gülə, sünbülə, laləyə, bənövşəyə, heyvan və quşlardan şirə, quzuya, bülbülə, göy cisimlərindən aya, ay parçasına, ulduza, günə, insana gündəlik lazım olan maddi nemətlərdən duza, çörəyə, bala, məişət əşyalarından güzgüyə, bəzək şeylərindən sədəfə, dürdanəyə, eləcə də, yarağa, alınmaz qalaya, gözünün qarasına, ürəyinin başına, qardaşına, atasına oxşadılır. Nəhayət, ananın gərəyinə, arzusuna, əməyinə, ümidinə çevrilir" [3, s.176]

Beləliklə, nümunələrdən də aydın olduğu kimi, ana uşaq folklorunda qoruyucu bir mələk, etibarlı bir sığınacaq, tapınacaq bir məbəd olmaqla yanaşı, uşağa düzgün yol göstərən, onu şəxsiyyət kimi yetişdirib cəmiyyətə buraxan bir müəllimdir.

Ədəbiyyat

1. Azərbaycan folkloru antologiyası. XVI kitab (Ağdaş folkloru). Bakı, "Səda" nəşriyyatı, 2006, 496 s.
2. Azərbaycan uşaq folkloru (toplayanı və tərtib edəni R.Qafarlı). Bakı, "Ağrıdağ" nəşriyyatı, 2011, 468 s.
3. Qafarlı R. Uşaq folklorunun janr sistemi və poetikası. Bakı: Elm və təhsil, 2013, 540 s.
4. Uşaq folkloru (nəşrə hazırlayan R.İsmayılov). Bakı, "Altun kitab" nəşriyyatı, 2007, 96 s.

РЕЗЮМЕ

МАТЬ КАК ПЕРВЫЙ УЧИТЕЛЬ В ДЕТСКОМ ФОЛЬКЛОРЕ

Рахтари М.Ф.

Сумгаитский государственный университет

В статье описан материнский фактор в детском фольклоре, его роль в росте ребенка. Показано, что мать-это не только священное существо, которое воспитывает, поддерживает, кормит ребенка, обеспечивает его всем необходимым, но и учитель. Это учитель, который показывает своему ребенку правильный путь, проливает свет на его будущее, переживает, что его ребенок сделает неправильный шаг, радуется его успехам, стимулирует, доверяет его способностям, воспитывает его здоровым как личность и оставляет его в обществе. В различных фольклорных примерах показано, мать, как учитель, обучает и воспитывает своего ребенка.

Ключевые слова: *Азербайджан, ребенок, фольклор, мать, учитель, литература*

SUMMARY

MOTHER AS THE FIRST TEACHER IN CHILDREN'S FOLKLORE

Rahtari M.F.

Sumqayit State University

The article describes the maternal factor in children's folklore, its role in the growth of the child. It is shown that the mother is not only a sacred being who educates, supports, feeds the child, provides him with everything necessary, but also a teacher. This is a teacher who shows his child the right way, sheds light on his future, worries that his child will take the wrong step, rejoices in his success, stimulates, trusts his abilities, brings him up healthy as a person and leaves him in society. In various folklore examples, it is shown that a mother, as a teacher, teaches and educates her child.

Keywords: *Azerbaijan, child, folklore, mother, teacher, literature*

V BÖLMƏ

MÜƏLLİM ŞƏXSİYYƏTİ VƏ İNKLÜZİV TƏHSİL

İNKLÜZİV BAĞÇALARDA SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQLARIN AİLƏLƏRİ İLƏ GÖRÜLƏN İŞİN ƏSAS İSTİQAMƏTLƏRİ

Cəfərova Səbinə Namiq qızı
Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
sabina_16_86@mail.ru

Açar sözləri: *Azərbaycan, inklüziv təhsil, məktəbəqədər tərbiyə, uşaq, təlim*

Azərbaycan Respublikasında inklüziv təhsilin tətbiqi ilə bağlı 2004-cü ildən başlayaraq təşəbbüslər olmuşdur [3]. Azərbaycan təhsil sisteminə inklüziv təhsil anlayışı daxil edilmiş, bu da əlilliyi və sağlamlıq imkanları məhdud uşaqların sağlam uşaqlarla birgə siniflərdə, təhsil almasına şərait yaratmışdır. İngilis dilindən tərcümədə "inclusive" termini "daxil edilmiş, cəlb edilmiş" mənasını ifadə edir. 2015-ci ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə BMT-nin Uşaq Fondunun (UNICEF) birgə əməkdaşlığı çərçivəsində inklüziv təhsil ilə bağlı görülmüş işlər və bu sahədə beynəlxalq təcrübə təhlil edilmişdir [3]. Sağlamlıq imkanları məhdud uşaqların digər sağlam uşaqlarla birgə təhsilə - inklüziv təhsilə cəlb edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilmişdir.

İnklüziv təhsil sağlamlıq imkanları məhdud uşaqları cəmiyyətə cəlb etmək, bununla yanaşı onların inkişafını, tərbiyə prosesini həyata keçirməkdən ibarətdir. İnklüzivlik bütün uşaqların SİM (sağlamlıq imkanları məhdud və sağlam uşaqların) həm sosial, həm də akademik baxımdan daha çox imkanlar əldə etdiyini düşünən yanaşma və fəlsəfədir. İnklüziv təhsil sağlamlıq imkanları məhdud olan hər bir uşağın müxtəlifliyini nəzərə alan, təlim prosesində onların maraq və qabiliyyətlərinə, ehtiyaclarına uyğunlaşdırılan bir yanaşmadır ki, bu prosesdə hər bir SİM uşaq ona fərdi yanaşıldığını və cəmiyyətin dəyərli üzvü olduğunu hiss etməlidir. Sosial statusundan, fiziki və əqli qabiliyyətlərindən asılı olmayaraq, inklüziv təhsil hər bir uşağa təhsil ehtiyaclarını ödəmək və müasir dövrün inkişaf səviyyəsinə uyğun təhsil almaq üçün bərabər hüquqlu olmasını təmin etməlidir.

Tədqiqatlara nəzərən qeyd etmək lazımdır ki, inklüziv qruplarda və siniflərdə adi uşaqlarla sağlamlıq imkanları məhdud uşaqlar arasında möhkəm və davamlı dostluq əlaqələri daha da güclənir və formalaşır. Uşaqlar özlərindən fərqli uşaqlarla ünsiyyət qurmaqdan çəkinmirlər. Onlar sağlamlıq imkanları məhdud həmyaşıdları ilə fərqli səviyyədə ünsiyyət qururlar.

Bu prosesdə tərbiyəçilərin rolu böyükdür. Tərbiyəçilərin SİM uşaqlara fərdi yanaşması, təlim metodları və üsullarının doğru seçilməsi bu uşaqların bilik və bacarıqlarla silahlandırılmasına müsbət təsir göstərir. Məktəbəqədər tərbiyə müəssisələrində çalışan tərbiyəçilər Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu) və dövlət təhsil standartının tələblərinə dərindən bələd olmalı, təlim zamanı məktəbəqədər təhsil üçün nəzərdə tutulmuş təhsil proqramını rəhbər tutmalı, həm də fərdi təhsil planını nəzərə almaqla istifadə edilən müasir pedaqoji texnologiyalardan xəbərdar olmalıdırlar.

İnklüziv məktəbəqədər tərbiyə müəssisələrinin fəaliyyətin təşkilində ən mühüm məqamlardan biri sağlamlıq imkanları məhdud uşaqların valideynləri ilə qarşılıqlı əlaqə, onlarla əməkdaşlıq və qarşılıqlı anlaşma münasibətlərinin qurulmasıdır. Məktəbəqədər tərbiyə müəssisələrində tərbiyəçilərin işindəki uğur, əsasən, uşağın ailəsi ilə münasibətlərdə müəyyən edilir. Tədris və təlim prosesində tərbiyəçilərin əsas tərəfdaşı valideynlərdir. Qeyd etmək lazımdır ki, sağlamlıq imkanları məhdud uşaqların ailələrində ailə üzvlərinin pedaqoqların, loqopedin, psixoloqun diqqətini hiss etməsinə, işin müsbət nəticələrinə maraq göstərməsinə, təlim-tərbiyə məsələlərində onlara kömək etmək və şərait yaratmaq lazımdır. Bundan əlavə vurğulamaq yerinə düşər ki, sağlamlıq imkanları məhdud uşaqların valideynləri övladlarının sosial cəmiyyətə daxil edilməsində xüsusən maraqlıdırlar. Çünki xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyyətə adaptasiyası və inteqrasiyası onların sosial mühitə uyğunlaşmasına köməklik göstərəcək, bu da onlarda kollektivlə iş, kollektivə alışmaq kimi müsbət keyfiyyətlər formalaşdıracaqdır. SİM uşaqlar xüsusi təhsil

müəssisələrinə nisbətən inklüziv siniflərə və ya qruplara daha yaxşı uyğunlaşırlar. Bu, xüsusilə sosial təcrübənin mənimsənilməsində daha çox nəzərə çarpır. Sağlam uşaqlarda isə tolerantlıq, humanistlik kimi mənəvi keyfiyyətlər formalaşır.

Təlim prosesində tərbiyəçinin SİM uşaqlara düzgün yanaşması eyni zamanda onların valideynlərinə qarşı da həssas davranmaq tələb edir. Bundan əlavə, təlimin təşkili tərbiyəçidən metodik cəhətdən doğru xarakter daşıyan yeni bilik və səriştələr tələb edilir. Eyni zamanda, bu səriştələr təlim zamanı və təlimdən kənar prosesdə valideynlərlə birbaşa iş zamanı formalaşa bilər.

Məktəbəqədər təhsil müəssisəsində valideynlərlə iş bir neçə istiqamətdə aparıla bilər:

- tədris-praktiki ("Bizim Uşaqlarımız" ailə klubu, məsləhət saatları, söhbətlər, açıq dərslər);
- məlumatverici və pedaqoji (valideyn görüşləri, uşaq işlərinin sərgiləri, məlumat vərəqələri, məlumat-loqopedik guşə, sorğular, anketlər);
- maarifləndirici və əyləncəli (birgə dərslər, əyləncə, oxu müsabiqəsi).

İşin ilkin mərhələsində məktəbəqədər tərbiyə müəssisələrində çalışan müəllimlər, o cümlədən korreksiyaedici inkişaf sahəsində işləyən loqopedlər sağlamlıq imkanları məhdud uşaqların səviyyəsini və onları daha çox maraqlandıran məsələləri müəyyən etmək üçün valideynlər arasında sorğu keçirirlər. Bu iş növü cari tədris ili üçün valideynlərlə birgə fəaliyyət planı hazırlamağa imkan verir.

Bu sahədə görülən işlər sağlamlıq imkanları məhdud uşağın tərbiyəsinə və təhsilinə köməklik göstərir. Valideynlərlə iş qrup şəklində tematik mühazirələrdə, seminarlarda və s. həyata keçirilir. Sağlamlıq imkanları məhdud uşaqların valideynləri üçün məsləhət saatları onların müraciəti əsasında fərdi qaydada aparıla bilər.

Uşaqlarla ilkin görüş və lazımi məlumat aldıqdan sonra tərbiyəçilər uşağın valideynlərini əldə edilmiş nəticələr ilə tanış edir və onlara cari tədris ili üçün hazırlanmış fərdi iş planını təqdim edirlər. Bu mərhələdə vacib məqam valideynləri uşaqlarla görüləcək işlərlə tanış etməkdən ibarətdir. Sağlamlıq imkanları məhdud olan uşaqların kollektivə daha yaxşı uyğunlaşması üçün valideynlər uşaqları ilə birlikdə dərslərə dəvət olunurlar. Lazım gələrsə, valideynlər pedaqoqa sual verə, dərsin məzmunu ilə bağlı məlumatları dəqiqləşdirə, tövsiyə ala bilər.

Məktəbəqədər təhsil müəssisəsinin mütəxəssisləri sağlamlıq imkanları məhdud uşaqların rahatlığı, onlarla korreksiya və inkişafedici işlərin effektivliyinin maksimum dərəcəyə çatdırmaq üçün ailə üzvlərinin bağçaya baş çəkmə cədvəli müəyyən edir. Sağlamlıq imkanları məhdud uşaqların ailəsinə fərdi yanaşma onları qrupun digər valideynlərindən təcrid olunmaqlarını nəzərdə tutmur. Belə bağçalarda valideyn iclaslarında müxtəlif təlimlər keçirilməli, burada tərbiyəçi-müəllimlər məktəbəqədər təhsil müəssisəsində inklüziv tədrisin inkişafının xüsusiyyətləri haqqında məlumat verməli, müəyyən məsələlərə istiqamət verib, onlar üçün əhəmiyyətli olan məqamları müzakirə etməyə şərait yaratmalıdırlar.

Bundan başqa tərbiyəçinin vəzifələrindən biridə qrupun valideynləri arasında dostluq münasibətlərin qurulmasına kömək etməkdən ibarətdir. Bu problemin həllində ailələrlə tanışlığın müsbət rolu var. Bu istiqamətdə ailədə inklüziv uşağın mühiti ilə bağlı müxtəlif mövzularda görüşlər təşkil edib, aşağıda göstərilən məsələlər üzrə iş aparılmalıdır:

- təlimlər;
- dəyirmi masa;
- praktik vəziyyətlərin modelləşdirilməsi və həlli;
- ailədə tərbiyə təcrübəsinin mübadiləsi;
- məktəbəqədər təhsil müəssisələrində uşaqların həyatının təşkilinə dair video nümayişlər;
- valideynlərin və uşaqların birgə fəaliyyəti.

Valideynlərin xahişi ilə qonaq qismində növbəti təhsil pilləsinin nümayəndəsi kimi ibtidai sinif müəllimi, psixoloqlar bağçaya dəvət oluna bilər. Bu uşaqların həmin müəllimlərlə gələcək ünsiyyətinə müsbət təsir göstərə bilər. Məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçiləri, bu cür görüşləri maraqlı, emosional baxımdan pozitiv etməyə çalışmalıdır. İnklüziv məktəblərdə gələcək şagirdlərin uğurları və nailiyyətləri məhz inklüziv bağçalarda təşkil olunmuş düzgün mühitdən asılıdır.

İnklüziv bağçalarda sosial sima olan valideynlərin maarifləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Ailənin maraqlarını və ehtiyaclarını nəzərə almadan tərbiyəçilərin valideynlər arasında qarşılıqlı əlaqə yaratmaq mümkün deyil. Uşaq bağçasının əsas vəzifəsi sağlamlıq imkanları məhdud uşaqların ailələrinə pedaqoji yardım göstərmək, uşaq tərbiyəsində vahid yanaşmalar, məsləhətlər verməkdən ibarətdir.

Bu cəhətdən inklüziv bağçalarda tərbiyəçilər valideynlərlə qarşılıqlı əlaqə yaratmalıdır. Bu əlaqə isə aşağıdakı məsələlərə əsaslanaraq həyata keçməlidir:

1. Tərbiyəçi və valideynlər arasında mehriban ünsiyyət tərzi:

Ünsiyyətdə müsbət münasibət tərbiyəçilərlə valideynlər arasında görülən işlərin möhkəm təməli hesab edilir. Tərbiyəçinin valideynlərlə ünsiyyətində qəti, tələbkar ton yolverilməzdir. Tərbiyəçi hər gün valideynlərlə ünsiyyət qurur. Sağlamlıq imkanı məhdud uşaqların uşaq bağçasına münasibəti də düzgün ünsiyyət və mühitdən asılıdır.

2. Fərdi yanaşma:

Fərdi yanaşma təkcə uşaqlarla deyil, həm də valideynlərlə işləyərkən lazımdır. Valideynlərlə ünsiyyət quran tərbiyəçi valideynlərin əhvalını hiss etməlidir. Ünsiyyət zamanı tərbiyəçinin şəxsi və pedaqoji qabiliyyətləri valideynlərlə davranışında özünü biruzə verir. Tərbiyəçi-valideyn arasında qarşılıqlı hörmət SİM uşağın sağlamlığı ilə bağlı müəyyən addımlar atmaqdan və qərarlar verməkdən ibarətdir.

3. Əməkdaşlıq:

Müasir valideynlər, əsasən, savadlı, bilikli və təbii ki, sağlam uşaqlarını necə tərbiyə etməli olduqlarını yaxşı bilən insanlardır. Ona görə də bu gün pedaqoji biliklərin artırılması və valideynlər arasında maaripləndirmə öz müsbət nəticəsini verməkdədir. Lakin xüsusi qayğıya ehtiyacı olan uşaqların təlim və tərbiyəsində valideynlərin çoxu səhvlərə, nöqsanlara yol verir, belə bir mühüm vəzifənin öhdəsindən gələ bilmirlər. Buna da səbəb xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işin xüsusiyyətləri barədə ədəbiyyatın, materialların az olması, valideynlərin belə uşaqlarla hansı işlər görə biləcəyi barədə məlumatlandırılmaması, onların pedaqoji biliyinin azlığıdır. Bu səbəbdən inklüziv bağçalarda sağlamlıq imkanları məhdud uşaqların ailələrin qarşılaşdıqları çətin pedaqoji vəziyyətlərdə ailələrə yardım və qarşılıqlı dəstək mühiti yaratmaq, uşaq bağçası tərbiyəçilərinin ailənin problemlərini anlamaqda və köməklik etmələri üçün səmimi dəstək nümayiş etdirməsi daha məqsədəuyğun olacaqdır.

SİM uşaqların ailələləri ilə işləməyin əsas məqsədi ailədə ailə üzvləri ilə doğru ünsiyyət qurmasına, onların cəmiyyətə uğurlu inteqrasiyasını həyata keçirməyə şərait yaratmaqdır. Odur ki, bu kateqoriyadan olan uşaqların cəmiyyətə yadlaşmasını aradan qaldırmaq, onlar arasında qarşılıqlı yardımı inkişaf etdirmək üçün valideynlərin sosial-psixoloji söhbətlər aparmaq, onları maaripləndirmək, bağça ilə əməkdaşlığa cəlb etmək lazımdır.

Beləliklə qeyd etmək lazımdır ki, inklüziv bağçalara inam, əməkdaşlıq etmək istəyi, müəssisənin kollektivi, eləcə də sağlam uşaqların valideynləri ilə qarşılıqlı əlaqə, qrupun və bütövlükdə qurumun fəaliyyətində iştirak edən müəllimlərin, valideynlərin düzgün rəftarından asılıdır. Bütün bunlar inkülziv bağçaların əsas vəzifələrindən biri olaraq təhsilin inkişafını, effektivliyini əhəmiyyətli dərəcədə artıracaqdır.

Ədəbiyyat

1. Hüseynov Q., Şərəfxanova L., Məmmədova S., Mikayılova Ü. İnklüziv təhsil. Bakı 2010, 181 s.
2. Qasımov S., Kərimova E.və b. İnkluziv təhsil: müəllimlər, tərbiyəçilər, tibb işçiləri və psixoloqlar üçün vəsait. Bakı: OKA Ofset, 2006, 168 s.
3. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000568190

РЕЗЮМЕ

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РАБОТЫ С СЕМЬЯМИ ДЕТЕЙ С ОГРАНИЧЕННЫМИ ВОЗМОЖНОСТЯМИ ЗДОРОВЬЯ В ИНКЛЮЗИВНЫ ДЕТСКИХ САДАХ

Джафарова С.Н.

Бакинский славянский университет

В статье расказывается, стремление педагогов к сотрудничеству с семьёй в условиях инклюзивного обучения. Также доверие к детскому оздоровительному учреждению, желание сотрудничать, взаимодействовать с коллективом учреждения, а также родителями других детей, принимать участия в мероприятиях повышает результативность развивающего обучения, что и является одной из основных задач дошкольного образовательного учреждения. Поэтому для устранения подобных проблем необходимо проводить социально-психологические беседы с родителями и привлекать их к сотрудничеству с детским садом.

Ключевые слова: *Азербайджан, инклюзивное образование, дошкольное воспитание, дети, обучение*

SUMMARY
MAIN AREAS OF WORK WITH FAMILIES OF CHILDREN WITH DISABILITIES IN INCLUSIVE KINDERGARTENS
Jafarova S.N.
Baku Slavic University

The article describes the desire of teachers to cooperate with the family in terms of inclusive education. Also, trust in the preschool educational institution, the desire to cooperate, interact with the staff of the institution, as well as the parents of other children, take part in events increases the effectiveness of developmental education, which is one of the main tasks of a preschool educational institution. Therefore, in order to eliminate similar problems, it is necessary to conduct socio-psychological conversations with parents and attract them to cooperation with the kindergarten.
Keywords: *Azerbaijan, inclusive education, preschool education, children, learning*

MÜƏLLİM ŞƏXSİYYƏTİ VƏ İNKLUZİV TƏHSİL

Şərifova Səbinə Sabir
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
sebine.meherrrmova.403@gmail.com

Açar sözlər*: müəllim, müəllim şəxsiyyəti, təhsil, şagird, inklüziv təhsil*

Müəllimlik peşəsi çox qədim tarixə malikdir. Belə ki, ta ibtidai icma dövründən böyüklər kiçiklərə bəzi işlərdə kömək olmuş, onlara yol, istiqamət göstərmişdir. Müəllim sözü zamanla sonrakı dövrlər ərzində uşaqlara bilik və bacarığın öyrədilməsi üçün fəaliyyət sahəsi kimi qəbul edilmiş və meydana çıxmışdır. [1, s.23] Müəllimlik bir incəsənət sahəsi kimi mürəkkəb quruluşa malikdir. Bu quruluşda metodlar, dəyərlər, tələblər, qayda və prinsiplər özünü göstərir. Bu göstəricilərin hər birinə aid biliklərə tələbəlik illərində gənc müəllimlər yiyələnirlər. Lakin artıq pedaqoji fəaliyyət zamanı bu biliklər daha da dərinləşir və vacib xarakter alır. [1, s. 21] Müəllimin pedaqoji fəaliyyətini ümumtəhsil məktəblərində, peşə-ixtisas təhsilli müəssisələrdə , yardımçı məktəblərdə və.s həyata keçirir. Müəllim şəxsiyyətinin məqsədi şagirdlərin, gənc nəslin lazımi bilik, bacarıq, dəyərlərə yiyələndirmək və onları sağlam vətəndaş kimi yetişdirməkdən ibarətdir. [1, s.22]

Müəllim elə bir şəxsiyyətdir ki, onda tapılan hər hansısa bir qüsur onun üçün qınaq obyektinə çevrilir. Buna görə də bu peşə çətin olmasına baxmayaraq müəllim səxsiyyətinə hər zaman tələbkarlıq olmuş , tələb edilmişdir. Çünki ,müəllim həm öyrədici , həm tərbiyəedici , həm təbliğatçı, həm də nümunəvidir. Bu xüsusiyyətlərin də hər biri müəllim şəxsiyyəti ilə onun fəaliyyətini əlaqələndirir. Müəllim şəxsiyyəti ilə bağlı bu xüsusiyyətləri nəzərdən keçirək: [1,s.63]

1. Müəllim öyrədici olmalıdır – bu vəzifə müəllim fəaliyyətinin əsasını təşkil edir. Belə ki, müəllim öyrətməklə bərabər, öyrədə-öyrədə özü də öyrənir. Şagirdlər müəllimin biliyinə və öyrətmə tərzinə xüsusi diqqətlə yanaşdığı üçün, müəllimdə hər hansısa bir qüsur tapdıqları zaman bu səhvə qarşı reaksiya verirlər. Ona görə də pedaqoji fəaliyyətə başlayan hər bir gənc müəllim buna diqqət yetirməlidirlər. Müəllim özünün tədris etdiyi fənni yaxşı bilməlidir, əks halda dərs zamanı istifadə edilən hər hansısa metod və üsul onun üçün yararlı və əlverişli şərait yaratmayacaqdır. Müəllimin öyrətmə qabiliyyəti onun didaktik qabiliyyətidir. Müasir dövrdə şagirdlər çoxlu məlumata, biliklərə malik olduğu üçün müəllim çalışmalıdır ki, bu məlumatları daha yaxşı şəkildə şagirdlərə çatdıra bilsin. [1, s.64]

2. Müəllim tərbiyəedici olmalıdır – müəllim tərbiyə verəndir. Bu özünü təlim zamanı ibtidai siniflərdə təhsil alan şagirdlərin müəllim tərbiyəsini daha çox qəbul etdiyinə nümunə ola bilər. Dərs prosesinin özü də tərbiyə ünsürləri ilə zəngindir və təlim zamanı özünü biruzə verir. [1,s 65] Dərs özü bir tərbiyə prosesi olduğundan, şagird-müəllim münasibəti, dərsdə şagird və müəllimin davranışı, dərsin təşkili və aparılması, nizam-intizama diqqətlə riayət olunması dərsin nümunəvi olmasına gətirib çıxardır. [1, s.66]

3. Müəllim həm də sosial pedaqoqdur. Belə ki, müəllim təkcə məktəbdə deyil, həmçinin ,cəmiyyət içərisində də müəllimdir, daim fikirlərinə hörmətlə yanaşılır, dinlənilir. [1, s.67]

Müəllimin öz sahəsi üzrə davamlılığı o vaxt güclənir ki, o müəllim şəxsiyyətinin inkişaf etməsinə imkan verən özünü dərketmə və hər yerdə bu şəxsiyyətin cəmiyyət üçün necə lazımlı olduğunu göstərən özunuəksetdirmə proseslərində iştirak edir. [4, s.1]

Bəzi araşdırmalar göstərir ki, müəllimlik mürəkkəb sahədir. Və bəzən elə olur ki, bəzi müəllimlər - gənc kadrlar öz seçimləri olmayaraqdan bu sahəyə üz tutmuşlar. Lakin buna baxmayaraq araşdırmalar göstərir ki, gənc müəllimlər üzərlərinə öhdəlik götürür və bu sahədə böyük fədakarlıq göstərirler. [4 , s.2]

Şübhə yoxdur ki, müəllim şəxsiyyəti haqqında onun inkişafı ilə bağlı olan akademik nəşrlər son 20 il ərzində daha da artmışdır və bu akademik nəşrlərdə müəllim şəxsiyyətinin tədqiqinin müxtəlif aspektlərinin inkişafına mühüm töhfələr verir. İnanırıq ki, bu tədqiqatlar müəllim şəxsiyyətinin tədqiqat sahəsindəki praktiklər və alimlər üçün dəyərli bir vasitədir. Muellim şəxsiyyəti ilə maraqlanan ilk tədqiqatçılar üçün tədqiqatlarına başlamaq üçün lazımi vasitə kimi qəbul oluna bilər .

İnklüziv təhsil – fransızca "inclusif" – özünə daxil edən, latınca "include"- daxil edirəm deməkdir. Bu təhsil forması sağlamlıq imkanı məhdud şəxslərin təhsilə cəlb olunmasını təmin edir, ümumi təhsilin hamı üçün əlçatan olmasını nəzərdə tutur. İnklüziv təhsil hər bir uşağın ayrıca, müstəqil bir fərd olduğunu və buna görə də onların hər birinin ehtiyacları olduğunu bilərəkdən inkişaf prosesinin yaxşılaşdırılmasına yönəlmişdir. İnklüziv təhsil sosial bərabərliyin qorunmasını təmin edir belə ki, istər sağlam, istərsə də əlilliyi olan uşaqların bərabər təhsil almasına təmin edir, əlil uşaqların həm başqa ehtiyaclarının, həm də təhsil ehtiyaclarının qarşılanmasına şərait yaradır. Beynəlxalq praktikaya görə, bir sinifdə təhsil alan xüsusi qayğıya ehtiyacı olan şagirdlərin sayı 5-10% olmalıdır. [3, s.1]

Əlilliyi olan uşaqlarla normal uşaqların bir yerdə təhsil alması müsbət nəticə verir, sosial faydaları olur. İnklüziv təhsil seçim deyildir – bu, BMT-nin Uşaq hüquqları və Əlillərin hüquqları haqqında Konvensiyalarda təsbit olunmuş və hazırda Azərbaycanda prezident fərmanında təsbit edilmiş uşaq hüququdur. [5, s.1]

BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" konvensiyanın 24-cu maddəsinə əsasən əlilliyi olan şəxslərin təhsil hüquqları tanınır və dövlətin üzərinə inklüziv təhsil tətbiq etmək öhdəliyi qoyulur. Bu öhdəliklərə :

1. Əlilliyi olan uşaqların ümumtəhsil məktəblərindən kənarlaşdırılmaması
2. Yaşadıqları ərazidə digərləri ilə bərabər hüquqlar şəraitində yaşamaq
3. Sosial mühitdə fərdi ehtiyacların qarşılanması

Bu konvensiyanı imzalayanlardan biri də Azərbaycan olmuşdur. Azərbaycan Respublikası da inklüziv təhsilin həyata keçirilməsi və yaranan hər hansısa bir boşluğun aradan qaldırılması istiqamətində bəzi addımlar atmışdır. 2017-ci ildə əlilliyi olan şəxslərin bərabər hüquqlar çərçivəsində təhsil alması məqsədi ilə "2018-2024-cu illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" qəbul edilmişdir. Azərbaycanda əlilliyi olan şəxslər üçün inklüziv təhsilin həyata keçirilməsi o qədər də mümkün deyildir. Aparılmış statistikaya görə əlilliyi olan uşaqlar ya təhsilə cəlb edilmir, ya da uşaqların hansıların bu tip təhsilə ehtiyacı olduğu məlum deyildir. Səbəbi isə düzgün statistik göstəricinin olmamasıdır. [2, s.4]

Təhsilə cəlb olunanların əksər hissəsi isə internat məktəblərində təhsil alır ki , bu da onların belə təhsil almasında qüsurlar yaradır. Bu da sonradan həmin uşaqların həyatında çətinlik yaradaraq digər uşaqlarla ünsiyyətə girmək de çətinlik yaradır və bir növ özlərini pis hiss edirlər. Hətta elə olur ki, normal imkanlar şəraitində təhsil alan şagirdlər bu tipli uşaqlara rast gəldikdə başqa cür yanaşır , onlara gülürlər . Çünki bunun əsas səbəbi onların arasında əməkdaşlığın qarşılıqlı fəaliyyətin olmamasıdır. [3, s.2].

Bu sistemdə irəliləyiş yavaş-yavaş özünü göstərir. İnklüziv sistemlər cəmiyyətin bütün səviyyələrində dəyişiklik tələb edirlər . Bunun üçün müəllimlər hazırlanmalı, binalar təmir edilməli, şagirdlər üçün əlçatan tədris materialları verilməlidir. Hökumət qanun və siyasətləri "Əlillərin Hüquqları" haqqında konvensiyaya uyğunlaşdırılmalı və uşaqların effektiv xidmətlərlə təmin olunmasını təmin etmək üçün məlumatları müntəzəm şəkildə toplamalı və təhlil etməlidirlər. [5, s.2-3]

Bəzi ölkələrdə inklüziv təhsillə bağlı müəyyən konvensiyalar qəbul edilmişdir. Həm beynəlxalq səviyyədə , həm də Azərbaycana aid inklüziv təhsillə bağlı bəzi hüquqi sənədlər qəbul edilmişdir.

1. İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə , 1948
2. BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası 2006
3. Azərbaycan Respublikası Konstitusiyasi 1995
4. "Təhsil Haqqında" Azərbaycan Respublikasının qanunu 2009
5. "2018-2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üçün Dövlət Proqramı".

Ədəbiyyat

1. İlyasov M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı, 2018 , 203 s.

2. “İnkluziv sinifdə təlimin təşkili” mövzusunda ixtisasartirma proqramının oxubmateriali
3. Wikipedia.org İnklüziv təhsil
4. Teacher identity research gate
5. İnclusive education

РЕЗЮМЕ
ЛИЧНОСТЬ ПРЕПОДАВАТЕЛЯ И ИНКЛЮЗИВНОЕ ОБРАЗОВАНИЕ
Шарифова С.С.
Сумгаитский государственный университет

В тезисе рассматриваются значение личности педагога с древнейших времен до наших дней, ее роль в развитии знаний, навыков и умений учащихся в области преподавания и обучения, будущей деятельности детей, помощь им в их проектах, здоровый дух у учащихся, а также их роль как здоровых граждан. Также рассматривается роль инклюзивного образования в современное время, создание необходимых условий для данной системы образования, воспитание учащихся на равных условиях.

Ключевые слова: *преподаватель, личность преподавателя, образование, учащиеся, инклюзивное образование*

SUMMARY
TEACHER PERSONALITY AND INCLUSIVE EDUCATION
Sharifova S.S.
Sumgayit State University

In order to continue the old education of the teacher's personality, in accordance with the current modern requirements, it is necessary to develop him and his teachings, develop activities, skills that can always help them in projects, a healthy spirit in education, as well as a healthy citizen. role is discussed. It also discusses the role of inclusive education in modern times, the creation of the necessary conditions for this education system, the education of its capabilities.

Keywords: *teacher, teacher identity, education, education, inclusive education*

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNDƏ ƏLİL TƏLƏBƏLƏRİN İNKLÜZİV TƏHSİLİ ÜÇÜN ŞƏRAİTİN YARADILMASI

[1]Quliyeva Təranə Ələsgər qızı, [2]Abbasova Natəvan Bəkir qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
tarana_65@inbox.ru

“Məktəblər bütün uşaqları onların fiziki, intellektual, sosial, emosional, dil və digər xüsusiyyətlərindən asılı olmayaraq qəbul etməlidirlər. Bunlara əqli və fiziki qüsurları olan və istedadlı uşaqlar, sahibsiz və işləyən uşaqlar aiddir ...!
(Salaman bəyannaməsi, 1995-ci il)

Açar sözlər*: inklüziv təhsil, əlil tələbələr, Sumqayıt Dövlət Universiteti, beynəlxalq layihələr*

Artıq bir çox illərdir ki, fiziki məhdudiyyətli şəxslər təhsil alma sahəsində bir sıra maneələrlə qarşılaşırlar. Buna səbəb kimi müvafiq infrastrukturun və bu şəxslərin xüsusi tələbatlarına kurrikulum və təhsil sisteminin cavab verməməsini göstərmək olar. Belə uşaqların ixtisaslaşdırılmış təhsil məktəblərində oxumaqlarına baxmayaraq, bu sistemin nöqsanı bu şəxslərin sonralar cəmiyyətə inteqrasiya ola bilməməsində idi.

Əlbəttə ki, fiziki məhdudiyyətli uşaqların ali təhsildən məhrum edilməsi onların işə düzəlmələri perspektivini çətinləşdirir. Nəticədə, bu uşaqlar şəxsi inkişaf imkanlarından məhrum olurlar, cəmiyyət isə potensial insan kapitalını itirmiş olur. Ancaq, axır zamanlarda bütün dünyada bu sahədə ciddi müsbət

irəliləyişlər baş vermişdir. Xüsusi təhsil məktəblərinin genişləndirilməsi, adekvat kurrikulumun hazırlanması nəticəsində fiziki imkanları məhdud olan uşaqlar daha rahat və əlverişli şəraitdə təhsil ala bilirlər. Digər müsbət yenilik də ondadır ki, inklüziv təhsil anlayışı bütün dünyada geniş yayılmışdır. Belə ki, "hamı üçün təhsil" strategiyasının davamı olaraq və bu fəlsəfəyə müvafiq müxtəlif xüsusiyyətli və tələbatlı uşaqlar təhsili sağlamlığında problem olmayan uşaqlarla birlikdə bir məktəbdə almalıdırlar. Belə bir əminlik vardır ki, belə şəraitdə məhdud imkanlı uşaqlar cəmiyyətə daha asan inteqrasiya olurlar. Qeyd etmək lazımdır ki, fiziki imkanları məhdud olan uşaqların tədrisi yalnız məktəblə məhdudlaşmamalıdır, və bu tədris ali təhsil almağa da yönəldilməlidir.

Fiziki imkanları məhdud uşaqlar üçün təhsil müəssisələrinin açılması istiqamətində atılan müsbət addım, qanunvericilikdə nəzərdə tutulan qaydada müəllim və təhsil işçilərinin əmək haqları və vəzifə ödənişlərinə edilən əlavələrdir [1]. Azərbaycan universitetləri bu istiqamətdə öz işlərini 2013-cü ildən davam etdirir. Məhz davam etdirirlər, başlamışlar deyil, cünki hələ 2011-ci ildən layihənin yaradılması və ona tərəfdaşların cəlb edilməsi mərhələsi başlamışdır.

Nəhayət, maliyyələşdirilməsi üçün Avropa İttifaqına müraciət edilən beynəlxalq TEMPUS ESFİDİP layihəsi 2013-cü ildə qrant almaq üçün seçilmişdir. Layihə 3 il müddətində fəaliyyət göstərməli idi.

Layihənin əsas məqsədi əlilliyi olan tələbələr üçün Mərkəzlərin yaradılması və onların fəaliyyətinin gücləndirilməsi idi. "Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyası üçün əsasların yaradılması" (ESFIDIP) TEMPUS layihəsi fiziki imkanları məhdud şəxslərin Azərbaycanın ali məktəblərinə inteqrasiyasına və bu sahədə Avropa ölkələrinin təcrübəsinin tətbiqinə hesablanıb.

Azərbaycan tərəfindən layihə tərəfdaşları:

1. Xəzər Universiteti (koordinator - əlaqələndirici)
2. Gəncə Dövlət Universiteti
3. Naxçıvan Dövlət Universiteti
4. Sumqayıt Dövlət Universiteti
5. Lənkəran Dövlət Universiteti
6. Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
7. Əlillik Təşkilatları Birliyi (ƏTB)
8. Azərbaycan Respublikası Təhsil Nazirliyi
9. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

Avropa tərəfindən layihə tərəfdaşları:

1. Human European Consultancy (Niderland)
2. Lodz Universiteti (Polşa)
3. Makedoniya Universiteti (Yunanıstan)
4. Qrats Universiteti (Avstriya)

"Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyası üçün əsasların yaradılması" (ESFİDİP) layihəsi çərçivəsində Qrats Universiteti, Makedoniya Universiteti, Lodz Universitetində treninqlər keçirilmişdir. Treninqlərdə Azərbaycandan olan layihə əməkdaşları və eləcə də Sumqayıt Dövlət Universitetinin müəllim-texniki heyətin nümayəndələri iştirak etmişdir. Qeyd edək ki, SDU əməkdaşları üçün Avropa tərəfdaşları moderatorlarının rəhbərliyi altında treninqlər keçirilmişdir [2].

Hazırda SDU-da əlilliyi olan 4 tələbə təhsil alır. Əlil tələbələrə yardım etmək məqsədi ilə Mərkəzin və universitetin Psixologiya kafedrasının əməkdaşları Bakı şəhərində təşkil edilən seminarlar, treninqlər və beynəlxalq konfranslarda iştirak edərək bu istiqamətdə özlərinin bilik və bacarıqlarını artıraraq təcrübə toplayırlar [3].

Sumqayıt Dövlət Universiteti inklüziv təhsil sahəsində yalnız Avropa Komissiyasının TEMPUS proqramı ilə deyil, Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi ilə xarici təşkilatlarla öz əməkdaşlıq əlaqələrini genişləndirir. Buna misal olaraq SDU-nun mövcud layihəyə üzrə British Council [4] və UNƏCEF-lə [5] əməkdaşlığını göstərmək olar.

SDU-nun müəllim-texniki heyəti inklüziv fəaliyyət həyata keçirən Sumqayıt şəhər məktəblərində görüşlər və məlumat günləri keçirirlər ki, əhali universitetdə mövcud olan potensial haqqında xəbərdar olaraq gələcəkdə burada təhsil almaq imkanından istifadə edə bilsin. Ali təhsil müəssisəsinin iki əlillər təşkilatı ilə müqavilələri mövcuddur. Bu təşkilatlardan biri ilə, daha dəqiq desək, Əlil Sahibkarlar Təşkilatının İctimai Birliyi ilə [6] beynəlxalq layihə çərçivəsində birgə əməkdaşlıq və əlil tələbələrin təhsil alması eləcə də onların işlə təmin olunması məsələlərini də həll etməyə imkan edir.

Beləliklə, SDU inklüziv təhsilə dəstək verir və fiziki imkanları məhdud olan insanların ali təhsil məktəblərinə inteqrasiyasını həyata keçirilir. Bunun üçün əlverişli baza vardır və uğurlu perspektivlər nəzərdə tutulur.

Литература

1. Закон Азербайджанской Республики об образовании – 2009.

Интернет ресурсы

2. https://sdu.edu.az/az/news/235 Universitetimiz "Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasisı"na dəstək verir.
3. https://sdu.edu.az/az/news/790 Əməkdaşlarımız İnklüziv təhsilə həsr edilmiş Beynəlxalq konfransda
4. https://sdu.edu.az/az/news/985 BRITISH COUNSIL Azərbaycan və Azərbaycan Respublikası mədəniyyət nazirliyinin dəstəyi ilə SDU əməkdaşları inklüziv təhsil mövzusunda təlimdə.
5. https://xeberfaktşaz/tehsil/13960-thsil-nazirliyinin-v-unicef-in-nmaymdlri-sdu-da-oldular.html
6. https://sdu.edu.az/az/news/970 SDU ilə "Əlil Sahibkarlar Təşkilatları" İctimai Birliyi arasında əməkdaşlıq müqaviləsi imzalandı.

РЕЗЮМЕ
СОЗДАНИЕ УСЛОВИЙ ДЛЯ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ СТУДЕНТОВ-ИНВАЛИДОВ В СУМГАИТСКОМ ГОСУДАРСТВЕННОМ УНИВЕРСИТЕТЕ

Кулиева Т.А., Аббасова Н.Б.
Сумгаитский Государственный Университет

В статье рассматриваются вопросы инклюзивного образования студентов-инвалидов в Сумгаитском государственном университете. Отмечается, что, дети с ограниченными физическими возможностями получали образование в специализированных учебных заведениях, но не могли интегрироваться в общество в связи с тем, что часто не могли получить высшего образования. В настоящее время в этой области произошли положительные изменения во всем мире.

В статье исследуется роль TEMPUS проекта «Создание основ для интеграции лиц с инвалидностью в высшие учебные заведения Азербайджана». Также в статье говорится обо всех мероприятиях, проводимых в Азербайджане для развития инклюзивного образования.

В Азербайджане проделана большая работа по интеграции лиц с ограниченными физическими возможностями в вузы страны. Для этого имеется база и намечаются большие перспективы и в СГУ.

Ключевые слова: *инклюзивное образование, студенты-инвалиды, Сумгаитский государственный университет, международные проекты.*

SUMMARY
CREATING CONDITIONS FOR INCLUSIVE EDUCATION OF STUDENTS WITH DISABILITIES AT SUMGAIT STATE UNIVERSITY

Kuliyeva T.A., Abbasova N.B.
Sumgayit State University

The issues of inclusive education of disabled students at Sumgayit State University are reviewed in the article. It is noted that children with disabilities received education in specialized educational institutions, but could not integrate into society due to the fact that they often could not get higher education. Currently there have been positive changes in this area around the world.

The role of TEMPUS project "Establishment of a foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan" (ESFIDIP) was researched in the article. All the events held in Azerbaijan for the development of inclusive education are also stated in the article.

A lot of work has been done in Azerbaijan for integrating persons with disabilities into the country's universities. There is a base for this and great prospects are envisaged in Sumgayit State University.

Keywords*: inclusive education, disabled students, Sumgait State University, international projects.*

İNKLÜZİV TƏHSİL ŞƏRAİTİNDƏ MÜƏLLİM VƏ PSİXOLOQUN ROLU

Əliyeva Lalə Məmməd qızı
Sumqayıt Dövlət Universiteti, Sumqayit, Azərbaycan
lala-aliyeva63@mail.ru

Açar sözlər: *inklüziv təhsil, sağlamlıq imkanları məhdud uşaqlar, psixofiziki, əlillik, pedaqoji-psixoloji dəstək, inklüziya, təlim, tərbiyə.*

Xüsusi qayğıya ehtiyacı olan uşaqların təlim və tərbiyəsi, onların sosiallaşması, ictimai həyata hazırlanması və əmək fəaliyyətinə cəlb edilməsi çox mürəkkəb sosial, psixoloji-pedaqoji problemlərdən biridir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlara münasibət dünya tarixində uzun evolüsiyaya məruz qalıb. . Bu inkişaf aşağıdakı mərhələlərdən keçmişdir. Birinci mərhələ diskriminasiya mərhələsi olmaqla, əlilliyi olan uşaqların ümumiyyətlə təhsildən kənarda qalması idi. İkinci mərhələ seqreqasiya mərhələsi idi. Burada əlilliyi olan uşaqlar ya xüsusi məktəblərdə oxuyur, ya da evdə təhsilə cəlb olunurdular. Üçüncü mərhələ inteqrasiya olmaqla əlilliyi olan uşaqların ümumtəhsil məktəblərində tipik uşaqlarla birlikdə, lakin ayrı siniflərdə xüsusi proqram əsasında oxumasını nəzərdə tuturdu. Dördüncü mərhələ isə inklüziyadır, hansı ki əlilliyi olan uşaqların ümumtəhsil müəssisələrində tipik uşaqlarla eyni siniflərdə təhsil alması və onları cəmiyyətə adaptasiya etməsini özündə əks etdirir .

Hazırda əlilliyi olan uşaqlara münasibətdə sosial perspektiv yanaşma əhəmiyyətli dərəcədə dəyişir. Bu işin ən mühüm sahəsi inklüziv təhsildir - adi və qeyri-standart uşaqların birgə təhsili prosesi, onların sosial-məişət şəraitinə bərabər şəkildə daxil edilməsi. İnkişaf qüsurlu uşaqların normal inkişaf edən həmyaşıdları mühitinə cəlb edilməsinin zəruriliyi haqqında L. S. Vıgotski qeyd edirdi ki, qeyri-standart uşaqları xüsusi qruplara bağlamamaq psixoloji baxımdan son dərəcə vacibdir.

Xüsusi bir uşağın təhsil müəssisəsinin mühitinə daxil edilməsinin səmərəli həyata keçirilməsi həm bütövlükdə inklüziv prosesin, həm də onun ayrı-ayrı struktur komponentlərinin xüsusi psixoloji və pedaqoji dəstəyi olmadan praktiki olaraq qeyri-mümkün görünür.Bu baxımdan inklüziv komponentli məktəblərdə müəllim və psixoloq heyyətinin dəstəyi və müşayiəti çox vacibdir. Dəstəyin məqsədi sağlamlıq imkanları məhdud uşağın optimal inkişafını, ümumi təhsil müəssisəsində uşaqların keyfiyyətli təhsil almasını təmin etməkdir. Təhsil müəssisəsinə daxil olma psixologiyasının əsas prinsiplərinin həyata keçirilməsi təhsil münasibətlərinin bütün iştirakçılarının psixoloji və pedaqoji dəstəyində əsas fiqur kimi müəllim-psixoloqun iştirakı olmadan mümkün deyil. Eyni zamanda, təhsil sistemində psixoloqun fəaliyyəti təhsil prosesinin sistemli fənlərarası dəstəyi üzrə ümumi işin bir hissəsi kimi nəzərdən keçirilməlidir ki, bu da daxilolma prosesinin effektivliyi və keyfiyyətindən çox asılıdır.

İnklüziv komponentli ümumtəhsil məktəblərində psixoloqların rolunu nəzərdən keçirək. İnklüziv təhsil komponenetli məktəblərdə psixoloqun əsas rolu şagirdlərdə aşağıdakı keyfiyyətlərin inkişaf etdirilməsinə ciddi fikir verməkdir: koqnitiv sahənin inkişafı, emosional sahənin inkişafı, stressə qarşı dözümlülüyün inkişafı, özünə inamın inkişafı, gerçək aləmə pozitiv münasibətin və başqalarını qəbul etmənin inkişafı, müstəqilliyin inkişafı, özünə həvəsləndirmənin inkişafı.

Bu işlərin məktəb təcrübəsində praktik şəkildə uğurla həyata keçirilməsi üçün psixoloqun işinin qurulmasında aşağıdakı aspektlərə xüsusi diqqətlə yanaşılması vacibdir:

1. Təlim prosesinin səmərəli olmasına yardımçı olmaq, şagirdin konkret psixoloji xüsusiyyətlərini nəzərə alaraq fərdi yanaşma vasitələrini seçmək.
2. Şagird şəxsiyyətinin formalaşdırılmasının vı psixi inkişafının xüsusiyyətlərini üzə çıxarmaq.
3. Müəllim və şagirdlərin psixoloji-pedaqoji ünsiyyətinin xüsusiyyətlərini öyrənmək.
4. Şagirdlərin psixi inkişafında və davranışında olan qüsurların korreksiyasını təşkil etmək.
5. Şagirdlərin və valideynlərin sosial-psixoloji və pedaqoji reabilitasiyasına yardım etmək.
6. Fövqəladə hallarda şagirdlərə kömək etmək.
7. Müəssisə rəhbərlərinə, müəllim və valideynlərə psixoloji məsləhət vermək.

Psixoloq bu işlərin öhdəsindən layiqincə gəlmək üçün elmin son nailiyyətlərindən xəbərdar olmalı, öz işində müasir elmi metodlardan istifadə etməli və bu işlərin yerinə yetirilməsi üçün əlverişli şəraitlə təmin olunmalıdır.

İnklüziv komponentli ümumtəhsil məktəblərində müəllimin düzgün qurulmuş fəaliyyəti də çox vacibdir. Müəllimlik ən çətin, lakin şərəfli bir peşədir, hələ qədimdə "peyğəmbərlik peşəsi" adlandırılmışdır. Müəllim əməyinin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Onların səyi ilə cəmiyyət daha da irəliləyir, daha böyük nailiyyətlər əldə edilir. Müəllim cəmiyyətin hər bir üzvünü sağlam, ya sağlamlıq imkanı məhdud, fərqi yoxdur, eyni məsuliyyət və qayğı ilə həyata hazırlayır.

Pedaqoji prosesin əsas subyekti olan müəllimin rolu inklüziv təhsildə, daha doğrusu sağlamlıq imkanları məhdud uşaqların təlim-tərbiyəsində daha önəmlidir. Uşaq üçün ən yaxşı nümunə onun müəllimidir. Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün müəllim pedaqoji işçidən, tərbiyəçidən daha çox dost, həmdəm, arxa olmalıdır. Əgər sağlam uşaqlarla işləyən müəllimdən, təlim, təhsil, tərbiyə və formalaşma proseslərini idarə etmək tələb olunursa, inklüziv təhsildə bunlara xüsusi səriştəlilik də əlavə olunur. Müəllim bu zaman yalnız təlim-tərbiyənin təşkili və idarə edilməsinə, zəruri anlayış və biliklərin öyrədilməsinə deyil, uşağın bir şəxsiyyət kimi formalaşmasına və özünü təcrid olunmuş deyil, tamhüquqlu şəxsiyyət kimi hiss etməsinə şərait yaratmalıdır. Müəllim təkcə öz biliyini verməklə kifayətlənməməli, əqli və ya fiziki çatışmamazlıqlarından asılı olmayaraq, bütün uşaqlara sevgi və diqqət aşılamalı, onlara həyatı sevdirməli, onun gözəlliklərindən zövq almaqla yanaşı, özlərinin də bir gözəlik yaratmağa qadir olduqlarını hiss etdirməli, mənəvi-əxlaqi keyfiyyətləri, ictimai dəyərləri qəbul edərək hörmət ilə yanaşmalıdır.

Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla effektiv ünsiyyət mədəniyyətinin formalaşdırılması üçün müəllim bir sıra problem xarakterli məsələləri həllini həyata keçirməyə çalışmalıdır fikir və tövsiyələrinin dərk edilməsi üçün uşaqlara geniş imkanlar yaratmalıdır, verbal və qeyri-verbal nitq inkişaf etdirilməlidir, məlumatları aydın qavranılması üçün münbit şərait yaradılmalıdır, uşaqların bacarıqları inkişaf etdirilməlidir.

İnklüziv təhsildə müəllim pedaqoji prosesi elə təşkil etməlidir ki, uşaqlar özlərinin qüsurluluğunu hiss etməsinlər, onlarda aqressivlik, küskünlük, təcridolunma, ünsiyyətdənqaçma halları yaranmasın. Müəllim belə uşaqların ailələri ilə qarşılıqlı əlaqə qurmalı, valideynləri övladlarının təliminə həvəsləndirməli, emosional-mənəvi dəstək olmalı, informasiya mübadiləsi yaratmalıdırlar. Təlimdə uşağın uyğun proqram materialını mənimsəmə səviyyəsi, davranışında müşahidə olunan irəliləyişləri, uşağın ünsiyyət vərdişlərinin inkişafı valideyndən çox müəllimin diqqətində olur.

Müəllim qüsurlu uşağın daxili aləminə, emosional vəziyyətinə, psixikasına yaxından bələd olmalı, özü də hər cür situasiya ilə qarşılaşmağa hazır olmalıdır. Sağlamlıq imkanları məhdud uşağa müəllim ana kimi münasibət bəsləməli, onun hər şıltaqlığına dözməli, həssaslıqla yanaşı, eyni zamanda ciddi və tələbkar olmalı, onların cəmiyyətində insani münasibətlərin formalaşmasına stimul yaratmalıdır. Hansı uşaqla işləməsindən asılı olmayaraq, müəllimdən insanlığa şərəf gətirə bilən humanizm, xeyirxahlıq, həssaslıq xüsusiyyətləri ilə yanaşı tolerantlıq tələb olunur. Çünki hər bir əlil uşaqda yalnız özünün bildiyi bir fitri istedad olur, bir fəaliyyət sahəsi inkişaf edir, lakin qüsuru ona çəkinghənlik gətirir, istedadının üzə çıxmasına maneə olur. Müəllim bilməlidir ki, hər bir kor uşağın özünün rənglər dünyası, kar uşağın səsli-küylü bir aləmi, psixi inkişafı ləng gedən uşağın nə isə çızmaq, qurub-yaratmaq arzusu, istəyi var.Bütün bunları aşkarlayan müəllim inklüziv təhsildə təlim proqramında nəzərdə tutulanları öyrətməklə yanaşı, ilk növbədə sağlamlıq imkanları məhdud uşaqların şəxsiyyət kimi formalaşmasına, özlərini cəmiyyətin layiqli bir üzvü kimi hiss etmələrinə və cəmiyyətin onları bərabərhüquqlu üzv kimi qəbul etdiyinə inandırmalıdır.

Ədəbiyyat

1. Hüseynova N.T. İntellektual inkişafı ləngiyən uşaqların pedaqogikası (dərs vəsaiti). Bakı-2017.
2. Попова, Е.В. Педагогика и психология инклюзивного образования : учебно-практическое пособие / Челябинск: 2016. – 149 с.

РЕЗЮМЕ

РОЛЬ УЧИТЕЛЯ И ПСИХОЛОГА В УСЛОВИЯХ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ

Алиева Л.М.

Сумгаитский государственный университет

В статье, говоря об инклюзивном образовании, следует отметить, что это не только создание технических условий для беспрепятственного доступа детей ОВЗ в общеобразовательные учреждения, но и специфика учебно-воспитательного процесса, который должен строиться с учетом психофизических возможностей ребенка с ограниченными возможностями здоровья. В образовательных учреждениях должно быть организовано качественное психолого-педагогическое

сопровождение ребенка-инвалида, а также создан особый морально-психологический климат в педагогическом и ученическом коллективах, основанный на понимании проблем, нужд ребенка-инвалида и на желании ему помочь.

Ключевые слова: *инклюзивное образование, дети с ОВЗ, психофизический, инвалидность, педагогико-психологическое сопровождение, инклюзия, обучение, воспитание.*

SUMMARY

THE ROLE OF THE TEACHER AND PSYCHOLOGIST IN THE CONDITIONS OF INCLUSIVE EDUCATION

Aliyeva L.M.

Sumgait State University

In the article speaking about inclusive education, it should be noted that this is not only the creation of technical conditions for the unhindered access of disabled children to general educational institutions, but also the specifics of the educational process, which should be built taking into account the psychophysical capabilities of a child with disabilities. High-quality psychological and pedagogical support for a disabled child should be organized in educational institutions, as well as a special moral and psychological climate should be created in the teaching and student teams, based on an understanding of the problems, needs of a disabled child and on the desire to help him.

Keywords: *inclusive education, children with disabilities, psychophysical, disability, pedagogical and psychological support, inclusion, education, upbringing*

İNKLÜZİV SİNİFLƏRDƏ MÜƏLLİMİN ŞƏXSİ QABİLİYYƏTLƏRİ

Ağasiyeva Yaqut Tahir

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan

ququ-85@mail.ru

Açar sözlər: *Dövlət Proqramı, inklüziv təhsil, peşə səriştələri, şəxsi keyfiyyətlər*

İnklüziv təhsil bugün ümumi təhsilin inkişafında yeni bir mərhələdir. İnklüziv təhsil təhsilin müxtəlif ehtiyaclarının ödənilməsi baxımından hamı üçün əlyetənliyi prinsipinə əsaslanır. Bu, əlilliyi olan (xüsusi qayğıya ehtiyacı olan) uşaqların da ümumtəhsil məktəblərində əlilliyi olmayan uşaqlarla birgə təhsil almasını təmin edir. İnklüziv təhsilin təlim metodikası uşaqlara qarşı hər hansı formada ayrı-seçkilik edilməsinin qarşısını almaq, müxtəlif nevroloji və ya psixi xəstəlikləri olanlara belə mükəmməl şəkildə təhsil alma şəraiti yaradaraq uğur qazanmaq imkanı verir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların daha keyfiyyətli təhsilə yiyələnməsi, cəmiyyətə daha tez adaptasiyası üçün öz yaşıdları ilə bir yerdə olması daha məqsədəuyğundur. Onun inkişafı yalnız bu halda adekvat ola bilər.

Son illərdə çox tez-tez işlətdiyimiz inklüziv təhsil anlayışı insan hüquqları prinsipini ehtiva edir. İnsan Hüquqları Konvensiyasına görə, elə bir təhsil sistemi qurulmalıdır ki, təhsilalma hüququ hər bir uşağı əhatə etsin. Respublikamız da İnsan Hüquqları Konvensiyasına 1992-ci ildə qoşulmuş və hər bir uşağın təhsil alma hüququnu qorumağı öz üzərinə öhdəlik kimi götürmüşdür.

Uzun illərdir ki, inklüziv təhsil təcrübəsi Amerika, İngiltərə, İşveçrə kimi dünyanın bir çox ölkələrində tətbiq edilir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar öz yaşıdları ilə birlikdə ümumtəhsil məktəblərində təhsil alırlar. İnklüziv təhsil artıq dövlətlərin təhsil siyasətinin əsas hissəsinə çevrilmişdir. İnklüziv təhsilin inkişafı dünyanın bir çox ölkələrinin təhsil siyasətinin əsas prioritetlərindəndir. Və bununla da hər bir dövlət öz təhsil siyasətini beynəlxalq standartlara uyğunlaşdırmağa çalışır.

Qeyd etmək istərdik ki, inklüziv təhsilin Azərbaycanda tətbiqinin genişləndirilməsi məqsədilə hələ 2013-cü ildə Azərbaycan respublikası Təhsil Nazirliyi və keçmiş Azərbaycan Müəllimlər İnstitutunun birgə layihəsi olan "İnklüziv təhsil" üzrə 2015-2016-cı tədris ilindən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların ümumi təhsil müəssisəsində digər uşaqlarla birgə təhsilə cəlb olunması məqsədilə Azərbaycan Respublikasında "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsinin icrasına başlanılmışdır. İnklüziv təhsil sahəsində yeni yanaşmaların tətbiqi ilə bağlı tədbirlər dörd eksperimental məktəbdə uğurla sınaqdan keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nın 1.4-cü bəndində sağlamlıq imkanları məhdud şəxslərin inkişafı və inklüziv təhsili üzrə dövlət proqramının hazırlanması, təsdiqi və həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla birgə təhsilə (inklüziv təhsilə) cəlb olunması üçün "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi dövlətimiz tərəfindən təsdiq edilmişdir.

"2018-2024 –cü illərdə Azərbaycan Respublikasında ssağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nda ictimai maarifləndirmə əsas vəzifə kimi qarşıya qoyulmuşdur. Əsas məsələ inklüzivliyə cəmiyyətin özünün nə qədər hazırlıqlı olub-olmamasıdır. Müşahidələr bu qənaətə gəlməyə əsas verir ki, ən böyük problem məhz cəmiyyətin özündə, daha dəqiq desək, inklüziv təhsili konkret siniflərdə tətbiq edəcək olan müəllimlərdə və uşaqları valideynlərindədir. Heç bir əlilliyi olmayan uşaqların valideynləri öz uşaqlarının inklüziv sinifdə əlilliyi olan uşaqlarla birgə təhsil almasını istəmirlər. Bunu təlim-tərbiyə prosesinə bir əngəl kimi görürlər. Sosial çarxların çəkilməsi, telemüzakirələrin təşkili, müxtəlif məktəblərdə görüşlərin keçirilməsi kimi tədbirlərlə bu fikrin dəyişdirilmısi zəruridir.

Bu baxımdan inklüziv siniflərdə müəlliminin müəyyən səriştələrə sahib lazımlıdır:

– inklüziv təhsilin fəlsəfəsini anlamaq. İş ondadır ki, tam olaraq inklüziv təhsilin mahiyyətini anlamayan, dərk etməyən müəllimlər bunun tətbiqinin zəruriliyini qəbul etmirlər.

– şagirdlərin şəxsi və yaş inkişafının qanunauyğunluqlarını, psixoloji xüsusiyyətlərini bilmək. Hər bir yaşda hansı potensial imkanların olmasını, inkişaf xüsusiyyətlərini bilmədən və psixoloji təhlil aparmadan müəllimin uğurlu təlim həyata keçirməsi alınmır.

– inklüziv təlimin təşkilinin optimal üsullarını seçmək, inklüziv sinifdə təlim prosesini layihələndirmək. Bu, universal təlim dizaynının təşkil olunmasını əhatə edir.

– pedaqoji ünsiyyətin bütün subyektləri arasında xüsusi qayğıya ehtiyacı olan (XQE) uşaqlara münasibətdə dəyərlərə əsaslanmış müxtəlif üsulların tətbiqi;

– inklüziv təlimin əhatə dairəsində korreksiyaedici-inkişafetdirici mühitin yaradılması və resurslardan bütün uşaqların inkişafı üçün istifadə etmək;

– inklüziv təhsillə bağlı peşəkar özünütəkmilləşdirməsini təmin etmək. Bu məqsədlə də müəllimlərin mütəmadi olaraq təlimlərə cəlb edilməsi reallaşmalıdır.

XQE olan uşaqların valideynləri ilə işlərkən müəllimlərə lazım olan şəxsi keyfiyyətlərə aid etmək olar:

- Şəfqət və empatiya. Bu, həmin valideynlərin problemlərini başa düşməkdə müəllimə yardımçı olan bir keyfiyyətdir. Müəllim özünü onun yerinə qoymalı, onun hisslərini anlamalıdır.
- Səmimiyyət. Müəllimin sevgisi və qayğısı nə qədər səmimi olarsa, valideynlər daha rahat şəkildə öz uşaqlarını müəllimə əmanət edə bilirlər. Məhz o müəllimin onların uşaqlarının inkişafında vacib rol oynayacaqlarına inamları artır.
- Dinləmək bacarığı. Hansı peşə sahibi olmasından asılı olmayaq dinləmə bacarığını hətta bir mədəniyyət kimi də qəbul etmək olar. Dinləmədən anlamaq da mümkün deyil.

Problemlərin həllində mütəhərrik olmaq bacarığı. Hətta bütün eyni əlilliyi olan uşaqlara qarşı da eyni bir metod işləməyə bilər. Bu zaman müəllim daha mütəhərrik olmalı, çevik alternativlər tapmağı bacarmalıdır.

Bəs uşaqlara münasibətdə müəllim hansı keyfiyyətlərə malik olmalıdır?

Müəllim xeyirxah olmalıdır. Xeyirxahlıq insani keyfiyyətdir. Və bu keyfiyyətə sahib olmayan müəllimin uşaqlara qarşı sevgisi də olmaz.

Müəllim uşaqlara qarşı tolerant, səbrli olmalıdır. Psixoloji dözümlülüyü olmayan müəllim uşaqların normadan kənar davranışlarını, dərsdə səs-küy yarandığını gördükdə səbrsizlik edir, özlərindən çıxırlar. Bu mənada onlarda həm də yüksək özünü idarəetmə və özünütənzimləmə bacarığı olmalıdır.

Müəllimdə pedaqoji nikbinlik olmalıdır. O, uşaqlardakı potensiala, onlardakı xəstəliyin mövcudluğuna deyil, fərqliliyinə diqqət çəkir, inanır. Belə müəllimlər uşaqların nəyi bacarmadıqlarına deyil, nəyi bacardıqlarına fokuslanırlar. Uşaqların gələcəyinə inamlı yanaşırlar.

Müəllimdə peşəkar keyfiyyət kimi, müşahidə etmək bacarığı olmalıdır. Lakin müəllim təkcə müşahidə etməklə qalmamalı, müşahidəni ümumiləşdirmək, pedaqoji işin optimallaşması naminə uşaq haqqında informasiyanı istifadə etmək bacarığına malik olmalıdır.

İnklüziv təhsilə münasibətdə fikirlərini öyrənmək üçün 22 ibtidai sinif müəlliminə kiçik sorğu ünvanladıq. Sorğu aşağıdakı sualları əhatə edirdi:

1. Sinfinizin inklüziv olmasını istərdinizmi?
2. İnklüziv sinifdə işləmək sizə çətinlik yaradırmı?
3. İnklüziv sinifdə səmərəli işləməkdə sizə nə mane olur?
4. İnklüziv sinifdə işləmək üçün hansı şəxsi keyfiyyətinizi inkişaf etdirmək istərdiniz?
5. İnklüziv sinfin valideynləri ilə səmərəli ünsiyyət qura bilirsinizmi?
6. Sizcə inklüziv sinifdə işləmək üçün bilik-bacarıqlar önəmlidir, yoxsa şəxsi keyfiyyətlər?

16 müəllim (73%) inklüziv sinifdə işləmək istəmədiklərini, yalnız 4 müəllim (27 %) bəli cavabını qeyd etmişdir. Bəli cavabı verən müəllimlərdən biri sinfinin sırf əlilliyi olan uşaqlardan ibarət olmasını istədiyini qeyd etmişdir. Əsaslandırarkən isə qeyd etmişdir ki, sinifdə əlilliyi olmayan uşaqlar XQE olan uşaqlarla işləyən zaman geri qalırlar. Qeyd edək ki, bəli cavabı verən müəllimlər 40-65 yaş qrupun aid olan müəllimlərdir.

14 müəllim (64%) inklüziv sinifdə işləməyin onlara çətinlik yaratdığını qeyd etmişlər. 6 (36 %) müəllim isə xeyr cavabı vermişlər.

İnklüziv sinifdə səmərəli işlərkən mane olan amillərdən valideynlərdə anlayışın olmaması, yersiz tələbkarlıq (4 müəllim-18%), vaxt azlığı (5 müəllim-23 %), vəsaitlərin çatışmazlığı (2 müəllim-9%), müəllimin özünün səhhəti və yaşı (6 müəllim-27%), uşaqlarda dərketmə imkanlarının aşağı olması (5 müəllim-23%) kimi amillər qeydə alınmışdır.

İnklüziv sinifdə işləmək üçün 14 müəllim səbrliliyini (64%), 4 müəllim fərqli yanaşma tərzini (18%), 4 müəllim isə aradıcılıq qabiliyyətini inkişaf etdirmək arzusunda olduqlarını qeyd etmişlər.

16 müəllim (73%) inklüziv sinfin valideynləri ilə səmərəli ünsiyyət qura bildiklərini, valideynlərin mədəni olduqlarını, uşaqlarını xəstə kimi deyil, fərqliliyi olan uşaq kimi qəbul etdiklərini qeyd etmişlər. 6 müəllim (27%) isə valideynlərlə ünsiyyətdə çətinlik yaşadıqlarını, təlim nəticələri zəif olduqda (bu çox təbii qəbul olunmalıdır) müəllimlərə qarşı bir aqressiya nümayiş etdirdiklərini, valideynlərin onları anlamadığını, dərketmə səviyyələrinin aşağı olmalarını söyləmişlər.

Müəllimlərlə sorğu zamanı müəyyən olunmuşdur ki, xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işlərkən peşəkar bilik-bacarıqlardan daha çox, şəxsi keyfiyyətlərin fayda verməsi barədə fikirlər söylənilmişdir. Bu, onu göstərir ki, şagirdlərə müəllimin yalnız biliyi deyil, onun şəxsiyyəti, ruhunun keyfiyyəti də böyük təsir göstərir. Və müəllimlərin inklüziv siniflərdə uğurlu təlim-tədris fəaliyyəti həyata keçirməsi üçün özünüinkişafla bağlı treninqlərdən keçmələri zəruridir.

Ədəbiyyat

1. Rüstəmova S.Azərbaycanda inklüziv təhsil: xüsusi təhsil ehtiyacları olan şagirdlərin inklüziv təhsil müəssisələrindəki təcrübələri. Azərbaycan məktəbi, № 3 (696),2021, səh.29-40
2. Xudaverdiyeva T. İnklüziv təhsildə təlimin təşkili prinsipləri: perspektivlər və nəticələr. Azərbaycan məktəbi, № 3 (696),2021, səh.49-58
3. Общая психология: Учебник / Под общ. ред. проф. 0-28 Л.В. Карпова . — М.: Гардарики, 2005. — 232 с.
4. Яковлева И.М. Профессионально-личностная готовность педагога к работе с детьми с ограниченными возможностями здоровья. Вестник № 4, 2005
5. http://www.e-qanun.az
6. http://www.tipii.edu.az/

РЕЗЮМЕ

ЛИЧНОСТНЫЕ СПОСОБНОСТИ УЧИТЕЛЯ В ИНКЛЮЗИВНЫХ КЛАССАХ

Агасиева Я.Т.

Азербайджанский государственный педагогический университет

Инклюзивное образование – это новый этап в развитии общего образования сегодня. Инклюзивное образование основано на принципе доступности для всех с точки зрения удовлетворения различных образовательных потребностей. Это гарантирует, что дети-инвалиды (которые нуждаются в особом уходе) получают образование в средних школах вместе с детьми без инвалидности. Акцент статьи на роли личностных качеств педагога в инклюзивном образовании обусловлен нашими наблюдениями и опросами. В ходе опроса педагогов было установлено, что при работе с детьми с особыми потребностями высказывались мнения о пользе личностных качеств, а не

профессиональных знаний и умений. Это показывает, что на учеников большое влияние оказывают не только знания учителя, но и его личность и качество его духа.

Ключевые слова: *Государственная программа, инклюзивное образование, профессиональные навыки, личностные качества*

SUMMARY

TEACHER'S PERSONAL ABILITIES IN INCLUSIVE CLASSES

Agasiyeva Y.T.

Azerbaijan State Pedagogical University

Inclusive education today is a new stage in the development of general education. Inclusive education is based on the principle of accessibility for all in terms of meeting the different needs of education. This ensures that children with disabilities (who need special care) are educated in secondary schools together with children without disabilities. The article's focus on the role of the teacher's personal qualities in inclusive education stems from our observations and surveys. During the survey of teachers, it was found that when working with children with special needs, opinions were expressed about the benefits of personal qualities rather than professional knowledge and skills. This shows that students are greatly influenced not only by the teacher's knowledge, but also by his personality and the quality of his spirit.

Keywords: *State Program, inclusive education, professional skills, personal qualities*

İNKLÜZİV TƏHSİL

Əliyeva Leyla Elxan qızı

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

leyla_848484@list.ru

Açar sözlər: *inkluziv təhsil, tədris, öyrənmə ehtiyacları, təhsil almaq, xüsusi qayğıya ehtiyacı olan uşaqlar*

Müasir təhsil sistemi yalnız onun spesifik tələblərinə cavab verənləri, standart imkanları olan, hamı üçün ümumi proqram üzrə təhsil ala bilən və hamı üçün normal olan akademik nəticələr göstərən uşaqları tam şəkildə qəbul edir. Nəticədə, xüsusi təhsilə ehtiyacı olan uşaqların ümumi təhsil prosesindən kənarda qalması tez-tez ortaya çıxır, çünki ümumtəhsil müəssisələrinin müəllim heyəti onlarla işləmək üçün korreksiya və xüsusi pedaqogika sahəsində lazımi biliyə malik deyildir. Müasir məktəbdə bu və bir çox digər problemlər inklüziv təhsillə həll olunmağa hesablanıb.

Bəs inklüziv təhsil nədir? İnklüziv təhsil (fransızca “inclusif” – daxil olmaqla; latın sözündən “daxil etmək” – bağlamaq, daxil etmək) – hər kəs, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsilin mövcudluğunu nəzərdə tutan ümumi təhsilin inkişafı prosesidir. İnklüziv təhsil uşaqlara qarşı hər hansı ayrı-seçkiliyi istisna edən və bütün insanların bərabər rəftar edilməsini təmin edən, eyni zamanda xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün lazımi şərait yaradan ideologiyaya əsaslanır.

İnklüziv təhsil son məqsədə nail olmaq, cinsindən, yaşından, etnik mənsubiyyətindən, qabiliyyətlərindən, inkişaf qüsurlarının və HİV infeksiyasının olub-olmamasından asılı olmayaraq bütün uşaq və böyüklərin cəmiyyətdə iştirakına imkan yaradan inklüziv cəmiyyətin yaradılması istiqamətində atılan addımdır. Belə bir cəmiyyətdə fərqliliklərə hörmət və qiymət verilir, siyasətdə və institutların gündəlik həyatında ayrı-seçkilik və qərəzli münasibətlə fəal mübarizə aparılır. [4]

Dövrümüzdə inklüziv təhsil reallığa çevrilərək, durmadan bütün dünya ölkələrini özünə “cəlb edir” və “çəkir”. Bununla yanaşı, intensiv şəkildə praktikaya daxil olan inklüziv təhsil təhsil sistemi qarşısında çoxlu sayda mürəkkəb problemlər və yeni vəzifələr qoyur. İnklüziyanın zəngin təcrübəyə və qanunvericilikdə konsolidasiyaya malik olduğu xarici təhsil sistemindən fərqli olaraq, bizim daxili inklüzivlik yenicə formalaşmağa və inkişaf etməyə başlayır. Hazırda Azərbaycan respublikasında da yaşayan uşaqların 4,5%-i əlillər kateqoriyasına aiddir və onların xüsusi təhsil ehtiyaclarına cavab verən xüsusi (korreksiya) təhsilə ehtiyacı var. Amma təəssüf ki, hazırda ölkəmizdə sağlamlıq imkanları məhdud uşaqlar üçün təhsil xidmətləri bazarı son dərəcə dardır, kiçik şəhər və kəndlərdə əlilliyi olan uşaqlar çox vaxt sırf iqtisadi səbəblərdən təhsil sistemindən kənarda qalırlar.

Xüsusi (islah) təhsil müəssisələri sağlamlıq imkanları məhdud uşaqlar üçün ənənəvi təhsil forması olaraq qalır. Sağlamlıq imkanları məhdud uşaqların tədrisi və tərbiyəsindəki çətinliklərin əhəmiyyətli bir hissəsi ixtisaslı kadrların kəskin çatışmazlığı ilə bağlıdır: müəllim-defektoloqlar, psixoloqlar, pedaqoqlar və sosial müəllimlər və onların qeyri-kafi hazırlıq səviyyəsi. Axı inklüziv məktəb həyatının dərin sosial aspektlərini əhatə edir: hər hansı bir uşağın təhsil ehtiyaclarına uyğunlaşdırılmış mənəvi, maddi, pedaqoji mühit yaradılır ki, bu da yalnız valideynlərlə sıx əməkdaşlıqda, şagirdlərin sıx kollektiv qarşılıqlı fəaliyyətində təmin edilə bilər. Burada uşaqla və uşaq naminə dəyişməyə hazır olan və təkcə "xüsusi" deyil, həm də ən adi olan insanlar işləməlidir.

İnklüziv təhsil müasir cəmiyyətdə böyük perspektivlərə malik olan mütərəqqi təlim üsuludur və bu ümid verir ki, sağlamlıq imkanları məhdud hər bir uşaq öz qabiliyyət və ehtiyaclarına uyğunlaşdırılmış keyfiyyətli təhsil almaq hüququnu reallaşdıra, həyatda öz yerini tapa və həyat şansını və potensialını dərk etsin.

Müasir cəmiyyət vəziyyəti dəyişdirmək, inklüzivlik mədəniyyətini inkişaf etdirmək və etik cəhətdən ardıcıl və səlahiyyətli terminologiyanı aşılamaq üçün xüsusi səylər göstərməlidir. Bunun üçün təkcə xüsusi tərbiyə işi deyil, həm də məktəb mədəniyyətində, sosial münasibətlərdə dəyişiklik lazımdır. Düzgün dil insanın müsbət imicini formalaşdırmağa kömək edir. [1] Bu və ya digər əlilliyi olan insanlarla ünsiyyət qurarkən nəzərə alınması arzu olunan tövsiyələrə qulaq asmaq bizim üçün artıq olmaz.

Hüquqları bu və ya digər şəkildə əksəriyyət tərəfindən pozulan digər sosial azlıqlar kimi, əlillər də onların vəziyyətini bildirən sözlərə həssas yanaşırlar. Bunu dəyişdirmək üçün ictimai hərəkatın aktiv olduğu ölkələrdə əlilliyi olan insanlar alçaldıcılıq, mərhəmət hissi və mənfi assosiasiyalar doğurmayan öz tərif və anlayışlarını təbliğ edirlər.

Üstəlik, əlillərə münasibətdə rus "tolerant" terminologiyası hələ də oturuşmayıb, hətta əlillər arasında müəyyən terminlərin istifadəsinin qanuniliyinə dair müxtəlif fikirlər var.

Aydındır ki, bir insana "əqli" və ya "qüsurlu" demək onu incidir. "Əlil" sözü müxtəlif hisslər doğurur, lakin ümumiyyətlə, müsahibədə iştirak edən əlillərin əksəriyyəti bunu məqbul hesab edir, çünki bu, rəsmi sözdür, ən çox işlənir və mücərrədləşib. Çox vaxt müəllimlər, psixoloqlar arasında "sağlam, normal şagirdlər", "xəstə uşaqlar" sözləri eşidilir, bununla da artıq tələbələrin ayrılması baş verir və inteqrasiya əvəzinə bölgü alınır.

Bundan əlavə, yadda saxlamalıyıq ki, dəqiqlik və düzgünlük üçün səy göstərərək ümumiləşdirmələrdən və fərziyyələrdən qaçmaq daha yaxşıdır.

Xülasə, inkluziv təhsil bütün uşaqların müxtəlif öyrənmə ehtiyacları olan fərdlər olduğunu qəbul edən uşaq mərkəzli metodologiyanı inkişaf etdirməyə çalışır. İnklüziv təhsil müxtəlif təlim ehtiyaclarını ödəmək üçün daha çevik olan tədris və öyrənmə yanaşmasını inkişaf etdirməyə çalışır. Əgər inklüziv təhsilin tətbiq etdiyi dəyişikliklər nəticəsində tədris və öyrənmə daha effektiv olarsa, o zaman təkcə xüsusi qayğıya ehtiyacı olan uşaqlar deyil, bütün uşaqlar bundan faydalanacaqlar.

Və onu da əlavə etmək olar ki, bu gün inkluziv əlçatan məktəblərdə və təhsil müəssisələrində hər kəs üçün son dərəcə əlçatan təhsilin inkişafı prosesi, bütün tələbələr üçün adekvat məqsədlərin qoyulması ilə təlim proseslərinin formalaşdırılması, ən böyük təhsil üçün müxtəlif maneələrin aradan qaldırılması prosesidir.

Ədəbiyyat

1. Дементьева И.Ф. Инклюзивное образование: проблемы и перспективы / И.Ф. Дементьева, С.А. Копыряева // Народное образование. — 2013. — №4. — С. 182-185 (Технология и практика образования). Об опыте обучения детей с ограниченными возможностями.
2. «Конвенция о правах инвалидов». Принята 13 декабря 2002 года в Нью-Йорке в резолюции 61/106 на 76-м пленарном заседании 61-й сессии Генеральной Ассамблеи Организации Объединенных Наций.
3. Морозов Н.И. Правовое пространство инклюзивного образования / Н.И. Морозов // Образовательный мир — образование в мире. — 2013. — №1 (45). — С. 122-130. — (Педагогический поиск: проблемы и суждения).
4. Нечепоренко А.Р. Правовые особенности различных форм обучения детей с ограниченными возможностями здоровья / А.Р. Нечепоренко // Исправительная педагогика. — 2012. — №5. — С. 15-19.

РЕЗЮМЕ
ИНКЛЮЗИВНОЕ ОБРАЗОВАНИЕ
Алиева Л.Э.
Сумгаитский государственный университет

Инклюзивное образование – это процесс развития общего образования, направленный на то, чтобы сделать образование доступным для всех, с учетом различных потребностей всех детей, а также обеспечить доступ к образованию для детей с особыми потребностями.

Инклюзивное образование направлено на разработку методологии, ориентированной на ребенка, которая признает, что все дети являются личностями с разными потребностями в обучении. Инклюзивное образование направлено на разработку более гибкого подхода к преподаванию и обучению для удовлетворения различных потребностей в обучении. Если преподавание и обучение станут более эффективными благодаря изменениям, вызванным инклюзивным образованием, от этого выиграют все дети (а не только дети с особыми потребностями).

Обучение в инклюзивных школах позволяет детям узнать о правах человека (даже если им не учат), и это приводит к меньшей дискриминации, поскольку дети учатся общаться друг с другом, а также распознавать и принимать различия.

Ключевые слова: *инклюзивное образование, обучение, учебные потребности, образование, дети с особыми потребностями.*

SUMMARY
INCLUSIVE EDUCATION
Aliyeva L.E.
Sumgait State University

Inclusive education is a process of general education development aimed at making education accessible to all, taking into account the different needs of all children, and providing access to education for children with special needs.

Inclusive education aims to develop a child-centered methodology that recognizes that all children are individuals with different learning needs. Inclusive education aims to develop a more flexible teaching and learning approach to meet different learning needs. If teaching and learning become more effective through changes brought about by inclusive education, all children (not just children with special needs) will benefit.

Education in inclusive schools allows children to learn about human rights (even if they are not taught), and this results in less discrimination as children learn to communicate with each other and to recognize and accept differences.

Keywords: *inclusive education, teaching, learning needs, education, children with special needs*

İNKLÜZİV TƏHSİLDƏ PSİXOLOJİ YANAŞMA PRİNSİPLƏRİNİN ƏSASLARI

Quliyeva Aytən Adil qızı
Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Bakı, Azərbaycan
Aytan.Guliyeva@fhn.gov.az

Təhsil – hər bir insanın böyük əhəmiyyətə və potensiala malik haqqıdır.
Azadlıq, demokratiya və dayanıqlı inkişaf prinsipləri təhsil əsasında qurulur...
"Hamı üçün təhsil"dən daha vacib digər bir vəzifə yoxdur.
Kofi Annan

Açar sözlər: *inklüziv, prinsiplər, sağlamlıq imkanları məhdud, müəllim, dəstək, bərabərhüquqlu.*

Təhsil islahatı təkcə struktur dəyişiklərini deyil, eləcə də təlim prosesinin yeni qabaqcıl biliklərlə, bacarıq və vərdişlərlə zənginləşdirilməsini nəzərdə tutur. Bu mənada"İnklüziv təhsil" sahəsində biliklərin genişləndirilməsi fəaliyyət prosesində insanın davranışının qavranılmasına, dərk edilməsinə və şərhinə yeni

yanaşmanın formalaşmasında mühüm rol oynayır. Bu gün təhsil sahəsində dövriyyədə olan anlayışlardan biri "inklüziya" terminidir. İnklüziya ("inclusion – daxiletmə") – bütün vətəndaşların, ilk növbədə, əlilliyi olan bütün insanların cəmiyyətdə iştirak səviyyəsinin artırılması prosesidir.

İnklüziv təhsil isə ümumi təhsilin elə bir inkişaf mərhələsidir ki, burada cəmiyyətin bütün fərdlərinin, ilk növbədə, sağlamlıq imkanları məhdud şəxslərin təhsilə ehtiyacı təmin edilir.

Söhbət bütün vətəndaşların, o cümlədən müəyyən səbəblərdən fiziki və əqli inkişafında çətinlikləri olan şəxslərin ictimai həyatda aktiv iştiraka qatılmağından gedir. Təhsil sahəsi istisnasız olaraq bütün uşaqların və böyüklərin akademik və ictimai həyatda bərabərhüquqlu iştirakını təmin etməldir [3].

Beynəlxalq ictimaiyyət "inklüziya" terminini ictimai həyata aktiv qatılma kimi izah edir. Təhsil mühitinə inklüziv yanaşma zamanı ümumilikdə məktəbin şagirdləri və onların valideynləri sağlamlıq imkanları məhdud uşaqları cəmiyyətin üzvü kimi qəbul etməyə başlayırlar. Sağlamlıq imkanları məhdud insanların baxışları da ətraf mühit üçün əhəmiyyət kəsb etməyə başlayır, hər şeydən öncə isə onlar artıq korreksiyaedici xüsusi məktəblərdə olduğu kimi, evdən təcrid olunaraq yaşamırlar. İnklüziya həm də insan hüquqlarının qorunması mexanizminin elementi, hamının təhsilinin təmin olunması prosesi və hamı üçün məktəbin təşkili kimi nəzərdən keçirilir. İnklüziv təhsil xüsusi məktəblərdən imtinaya və ya onların sayının azalmasına gətirib çıxaracaqdır. Müasir cəmiyyətdə Sağlamlıq imkanları məhdud olan insanlara dəstək, ictimai səviyyədə maarifləndirici, məlumatlandırıcı işlərin görülməsini də tələb edir. Çünki ictimai şüurun formalaşdırılması inklüziv təhsil sahəsində siyasətin dəstəklənməsində böyük əhəmiyyət daşıyır. Yalnız əlilliyi olanlara münasibətdə ictimai fikir dəyişdiyi, həmçinin əlverişli və təhlükəsiz mühit yaradıldığı zaman uşaqların və böyüklərin iştirakına imkan yaranacaqdır.

İnklüziya sahəsində araşdırmalar qeyd edir ki, cəmiyyət əlilliyi olan uşaqların assimilyasiyasına neytral və ya passiv-mərhəmət mövqeyi nümayiş etdirir: belə uşaqların problemi ətrafdakılar tərəfindən mühitin öhdəliyi kimi deyil, uşaqların öz çətinlikləri kimi qəbul edilir. Cəmiyyətdə Sağlamlıq inkanları məhdud uşaqları əhatə edən əksəriyyət onlara qarşı passiv tolerantlıq göstərir [4.].

Sağlamlıq inkanları məhdud uşaqların ümumtəhsil məktəblərində təhsili bir çox ölkələrin, eləcə də Azərbaycanın cəlb olunduğu inklüziv təhsil sisteminin qanunauyğun inkişaf mərhələsidir. Bu inkişaf sxematik olaraq aşağıdakı mərhələlərdən keçmişdir:

I mərhələ–diskriminasiya (SİM uşaqlar ümumiyyətlə təhsildən kənarda qalır);

II mərhələ–seqreqasiya (SİM uşaqlar ya xüsusi məktəblərdə oxuyur, ya da evdə təhsilə cəlb olunur);

III mərhələ–inteqrasiya (SİM uşaqlar ümumtəhsil məktəblərində tipik uşaqlarla birlikdə, lakin ayrı siniflərdə xüsusi proqram əsasında oxuyur);

IV mərhələ–inklüziya (SİM uşaqlar ümumtəhsil müəssisələrində tipik uşaqlarla eyni siniflərdə təhsil alır).

YUNESKO-nun sorğusu əsasında (1989) ölkələrin 3/4-nün (sorğuda iştirak etmiş 58 ölkədən 43-ü) sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsilini qəbul etdiyi müəyyənləşdirilmişdir.

İnklüziv təhsilin ideologiyasının əsasını aşağıdakı nüanslar təşkil edir.

- Bütün insanlara eyni münasibəti təmin edərək hər cür diskriminasiyadan uzaq durmaq;
- Xüsusi təlim ehtiyacları olan uşaqlar üçün ümumtəhsil müəssisələrində şərait yaratmaq.

İnklüziv təhsilin əsas prinsipləri:

1. İnsanın dəyəri onun qabiliyyət və nailiyyətlərindən asılı deyildir;
2. Hər bir kəs hiss etmək və düşünmək qabiliyyətinə malikdir;
3. Hər kəs ünsiyyət hüququna malikdir və o dinlənilməlidir;
4. Bütün insanlar bir-birinə lazımdır;
5. Həqiqi təhsil yalnız real münasibətlərin kontekstində mövcud ola bilər;
6. Bütün insanlara öz həmyaşıdlarının dəstək və dostluğu lazımdır;
7. Bütün şagirdlərin inkişafı onların bilik və bacarıqlarından asılıdır;
8. İnsanların müxtəlifliyi həyatın bütün sahələrini inkişaf etdirir.

İnklüziv təhsil məktəbəqədər, orta, peşə və ali təhsil mərhələlərini ehtiva edir. Bununla o, sağlmalıq imkanları məhdud insanların davamlı təhsilinin və inkişafının təmin olunmasına xidmət edir. İstisnasız olaraq bütün uşaqların hamı üçün bərabər səviyyədə əlçatan təhsilə inklüziyası uğrunda xoşməramlı mübarizə tibbi və sosial model arasındakı fərqi anlamadan və qəbul etmədən nəticə verməyəcək [5.8].

2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramına əsasən psixi inkişafa təsir edən amillərə bioloji amil, mühit amili, tərbiyə və şəxsi fəallıq aiddir.

Eyni zamanda Sağlmalıq imkanları məhdud uşaqların xarakteristikası və təhsil ehtiyacları da proqramda öz əksini tapmışdır.

- ✓ Əqli gerilik
- ✓ Psixi inkişafın ləngiməsi
- ✓ Daun sindromu
- ✓ Autizm sindromu
- ✓ Hiperaktivlik və diqqət əksikliyi sindromu
- ✓ Serebral iflic
- ✓ Nitq inkişafının ləngiməsi

İnklüziv sinifdə dərs deyəcək müəllimin inklüziv səriştələliliyi aşağıdakıları əhatə edir:

– inklüziv təhsilin fəlsəfəsini anlamaq, sağlmalıq imkanları məhdud şagirdlərin şəxsi və yaş inkişafının qanunauyğunluqlarını, xüsusiyyətlərini bilmək;

– inklüziv təlimin təşkilinin optimal üsullarını seçmək, inklüziv sinifdə təlim prosesini layihələndirmək;

– pedaqoji ünsiyyətin bütün subyektləri arasında sağlmalıq imkanları məhdud uşaqlara münasibətdə dəyərlərə əsaslanmış müxtəlif üsulların tətbiqi;

– inklüziv təlimin əhatə dairəsində korreksiyaedici-inkişafetdirici mühitin yaradılması və resurslardan bütün uşaqların inkişafı üçün istifadə etmək;

– inklüziv təhsillə bağlı peşəkar özünütəkmilləşdirməsini təmin etmək.

Müəllimin səriştəliliyi onun xarakterində özünü göstərir.

Müəllimin motivasiyaedici xarakterini inklüziv təlim çərçivəsində pedaqoji fəaliyyətini reallaşdırmağa şəxsi maraqları formalaşdırır. Motivləri sosial, idraki, peşə, şəxsi inkişaf, özünütəsdiq, şəxsi mənfəət və s. ola bilər.

Müəllim sinifdə adaptiv təlim mühitinin (hər bir uşaq üçün tələbatı ödəyəcək) yaradılmasına; normal təhsil almağa mane ola biləcək fiziki və ya əqli çatışmazlıqlara (disleksiya, disqrafiya, deviant davranış və s.) fikir yönəltməyən şəraitin yaradılmasına; sağlmalıq imkanları məhdud uşağın tipik dərs prosesinə qoşulması üçün rasional izah formalarından istifadə etməklə, fəal dərs prosesinə qoşulmasına şərait yaratmağa məsuldur. [6].

İnklüziv sinifdə müəllimin vəzifələrinə aşağdakıları qeyd etmək olar:

1. *İnklüziv təhsilə bağlı nəzəri və praktik biliklərə malik olmaq;*
2. *Sağlmalıq imkanları məhdud olan şağirdlər bərabərhüquqlu şəxs kimi təqdim etmək;*
3. *İnklüziv təhsilə cəlb olunmuş şağirdin fərdi xüsusiyyətlərini bilmək;*
4. *Sağlamlıq imkanları məhdud olan şagirdlərin Fərdi tədris planının hazırlanmasında iştirak etmək;*
5. *Defirinsial təlimin təşkil etmək;*
6. *Sağlamlıq imkanları məhdud olan şagirdlərin daha çox maraq göstərdiyi fənlərlə əlaqəsini təmin etmək;*
7. *Müassisədə təhsil alan hər bir şagirdin uğurları ilə bağlı müşahidələr aparmaq;*
8. *Sağlamlıq imkanları məhdud olan şagirdlərinin diaqnostik, formativ və summativ qiymətləndirməsini aparmaq;*
9. *Hər yarımilin sonunda məktəb rəhbərliyi qarşısında hesabat vermək;*
10. *İnklüziv təhsilə cəlb olunan şagird haqqında bütün məlumatların məxfiliyini qorumaq;*
11. *Sağlamlıq imkanları məhdud olan şagirdin fərdi və qrup fəaliyyətlərinə cəlb olunmasına kömək etmək;*
12. *Sağlamlıq imkanları məhdud olan uşaqların portfoliolarını hazırlamaq;*
13. *Məktəb psixoloqu ilə əməkdaşlıq etmək;*
14. *Valideyinləri Sağlamlıq imkanları məhdud şagirdin inkişaf dinamikası barədə müntəzəm məlumatlandırmaq.*

Nəticə olaraq onu qeyd etmək olar ki, inklüziv siniflərin əsasını heç kəsin kənarlaşdırılmadığı və hər kəsin fərdi qabiliyyət və ehtiyacları ilə birgə qəbul edildiyi kollektivə olan münasibət təşkil etməlidir. Qabiliyyət və ehtiyaclardan asılı olmayaraq, şagirdlərin hamısı eyni qaydada sinif kollektivinin üzvü sayılır. Sağlamlıq imkanları məhdud uşaqların qüsurlarına görə deyil onların bilik və bacarıqlarına görə qəbul edilməsi olduqca vacibdir. Müəllim şagirdlər üçün əsas davranış nümunəsidir. Məhz o, öz hərəkətləri ilə digər şagirdlərə sağlamlıq imkanları məhdud şagirdlərin, sinfin və cəmiyyətin vacib üzvlərindən biri olduğunu göstərməli, şagirdlər arasında pozitiv münasibətlərin yaranmasına çalışmalıdır. Bu çox çətin və

müsuliyyətli işdir. Ümid edirik və inanırıq ki, bunu etmək bir mütəxəssiz üçün çətin olmamalıdır. Müəllimin dünyagörüşü, səriştəliliyi, səbri, işinə sevgi ilə yanaşması ortaya çıxacaq məsələrin həllinə köməklik göstərəcəkdir.

Ədəbiyyat

1. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2013 – ci il 24 oktyabr tarixli, 13 nömrəli Sərəncamı
2. Sağlamlıq imkanları məhdud olan məktəbə qədər yaşlı uşaqların təhsilinin dövlət standartları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 fevral 2018 – ci il tarixli, 62 nömrəli Qərarı
3. "İnteqrasiya təlimi təhsil müəssisələrində təhsilin təşkili Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 may 2002 – ci il tarixli, 87 nömrəli Qərarı
4. "Psixoloji – tibbi – pedaqoji komissiya barədə Əsasnamənin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 aprel 2002 – ci il tarixli, 74 nömrəli Qərarı
5. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının 19 may 1998 – ci il tarixli, 499 – IQ nömrəli Qanunu
6. "Təhsil haqqında" Azərbaycan Respublikasının 2009 – cu il 19 iyun tarixli, 833 – IIIQ nömrəli Qanunu
7. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) Haqqında" Azərbaycan Respublikasının 5 iyun 2001 – ci il tarixli, 136 – IIQ nömrəli Qanunu
8. Corbett, J. (2001) Teaching approaches which support inclusive education: a connective pedagogy. British Journal of Special Education, Volume 28, no. 2, pp.55-59
9. " Əlilliyi olan insanların hüquqlarını və cəmiyyətdə tam iştirakının dəstəklanməsi: 2006 – 2015 – ci illər ərzində əlilliyi olan şəxslərin həyat səviyyəsinin yaxşılaşdırılması üzrə Avropa Şurasının tədbirlər planı" , 5 aprel 2016 12. "2030 – cu ilədək dayanıqlı inkişaf sahəsində gündəlik", BMT, 25 Sentyabr 2015 13. BMT – nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" 13 dekabr 2006 – ci il tarixli Konvensiyası
10. "2018 – 2024 – cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 14 dekabr 2017 – ci il tarixli, 3498 nömrəli Sərəncamı
11. "Əlilliyi olan şəxslərin hüquqları haqqında " Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli, 1153 – VQ nömrəli Qanunu

РЕЗЮМЕ
ОСНОВЫ ПРИНЦИПОВ ПСИХОЛОГИЧЕСКОГО ПОДХОДА В ИНКЛЮЗИВНОМ ОБРАЗОВАНИИ

Гулиева А.А.

Академия МЧС Азербайджанской Республики

В статье обозначены основные подходы к инклюзивному образованию, исследована важность инклюзивного образования и изложены принципы профессионального подхода учителя к образованию. Подчеркнута роль и значение интеграции людей с инвалидностью в общество, особенно в образовательный процесс. Инклюзия также рассматривается как элемент механизма защиты прав человека, процесса предоставления образования для всех и организации школы для всех. Инклюзивное образование приведет к отказу от частных школ или их сокращению. В современном обществе поддержка людей с инвалидностью требует информационно-просветительских мероприятий на общественном уровне. Потому что большое значение в поддержке политики в сфере инклюзивного образования имеет формирование общественного сознания.

Ключевые слова: *инклюзивность, принципы, ограниченные возможности здоровья, педагог, поддержка, равноправие.*

SUMMARY
PSYCHOLOGICAL APPROACH TO INCLUSIVE EDUCATION FUNDAMENTALS OF PRINCIPLES
Guliyeva A.A.
Academy of the Ministry of Emergency Situations of the Republic of Azerbaijan

The article outlines the main approaches to inclusive education. The importance of inclusive education has been explored, and principles for a teacher's professional approach to education have been outlined. The role and importance of the integration of people with disabilities into society, especially in the educational process, was emphasized. Inclusion is also seen as an element of the human rights protection mechanism, the process of providing education for all and the organization of a school for all. Inclusive education will lead to the abandonment or reduction of private schools. In modern society, support for people with disabilities requires awareness-raising and awareness-raising activities at the public level. Because the formation of public consciousness is of great importance in supporting policy in the field of inclusive education.

Keywords: *inclusive, principles, limited health opportunities, teacher, support, equal rights.*

MÜNDƏRİCAT

PLENAR İCLAS

1. ***Rüstəmov F.A.*** Azərbaycanlı müəllim kadrları hazırlığında İrəvan Müəllimlər Seminariyasının rolu 4
2. ***Əlizadə H.Ə.*** Müəllimin portret cizgilərinin iki səhifəsi 6
3. ***Şəfiyeva E.İ.*** Məktəb mühitindəki bullinqin yeniyetmə şəxsiyyətinin formalaşmasına təsiri 9
4. ***Məmmədova A.T.*** İnklüziv təhsildə müəllim peşəkarlığı 11

I BÖLMƏ
QLOBALLAŞMA ŞƏRAİTİNDƏ ŞƏXSİYYƏTİN FORMALAŞMASININ AKTUAL PROBLEMLƏRİ

5. ***Cəbrayılov İ.H.*** Təhsil prosesində şəxsiyyətin formalaşdırılması imkanları *(ARTİ)* 14
6. ***Qaliboğlu E.*** Müəllim şəxsiyyətinin formalaşmasında özünütanımanın əhəmiyyəti *(AMEA)* 16
7. ***Eminli B.İ.*** Dil konfliktləri sosiolinqvistik problem kimi *(SDU)* 19
8. ***Novruzova A.İ., Hüseynova K.Y.*** Müəllim şəxsiyyətinin formalaşmasında etik-pedaqoji ideyaların və mənəvi əqidənin rolu *(NDU)* 22
9. ***Hasanov E.L.*** İnnovative study of subjects integration as the part of formation of personality *(AMEA)* 25
10. ***Zeynallı G.F.*** Rəşad Nuri Güntəkinin romanlarında müəllim obrazları *(SDU)* 28
11. ***Qasımova S.Q.*** Texnogen faktorların insan həyatına təsiri *(AMEA)* 31
12. ***Məhərrəmova M.H.*** Gənc tələbələr üçün peşəkar strategiyaların formaları *(SDU)* 33
13. ***Cümənov D.A.*** Rəsul Rza ədəbi şəxsiyyətinin müəllimlik-ustadlıq cizgisi *(SDU)* 36
14. ***Hüseynov E.A.*** Müasir dövrdə pedaqoji fəaliyyət prosesində müəllim şəxsiyyətinin formalaşması və fərdi inkişafın xüsusiyyətləri *(ADPU)* 39
15. ***Babayeva A.N.*** Mənəvi-əxlaqi dəyərlərin Mustafa Çəmənli yaradıcılığında inikası (“Dəhliz” və “İstək” hekayələri əsasında) *(SDU)* 42
16. ***Səfərova Ü.S.*** Teodor Drayzer romanlarında mənəvi-əxlaqi məsələlər (“Kerri bacı” və “Cenni Herhardt” romanları əsasında) *(SDTK)* 44
17. ***Əliyeva Ş.M.*** Qloballaşma şəraitində şəxsiyyətin formalaşmasının aktual problemləri *(SDU)* 46
18. ***Əkbərova S.Ş.*** Sistem tənzimləmə yanaşması ilə qloballaşma şəraitində şəxsiyyətin formalaşmasının aktual problemləri *(SDU)* 49
19. ***Cəbrayılova R.N.*** Qloballaşma şəraitində yeniyetmə şəxsiyyətinin formalaşmasında idrak tələbatlarının inkişaf səviyyəsi *(ADPU)* 50
20. ***Məmmədova N.M.*** Yeniyetməlik yaş dövründə psixoloji çətinliklər *(ADPU)* 53
21. ***Məmmədova Y.K., Uqurluyeva A.V.*** Müəllim şəxsiyyətinin formalaşması *(SDU)* 55
22. ***Hüseynova V.V.*** Müəllim şəxsiyyətinin formalaşmasında müəllim və şagird münasibətinin yeri və rolu *(NDU)* 58
23. ***Eyvazlı A.R.*** Azərbaycan multikulturalizminin inteqrativ xarakteri *(ADMİU)* 62
24. ***İsmayılova M.C.*** Gənclərin sosiallaşmasını istiqamətləndirən komponentlər *(ADPU)* 64
25. ***Heydərova S.N.*** Müasir dövrdə müəllim şəxsiyyətinin aktual məsələləri *(ADPU)* 67
26. ***İsmayılova L.M.*** Tofiq Mahmudun povest və hekayələrində müəllim obrazı *(SDU)* 70
27. ***Hümmətova Ç.B., Qasımova F.B.*** Məktəblilərin şəxsiyyət kimi formalaşmasında ailənin iştirakı *(ADPU)* 72
28. ***Şirinova N.M.*** Qloballaşma şəraitində şəxsiyyətin formalaşmasının aktual problemləri *(ADPU)* 74
29. ***Əliyeva H.S.*** Ailə münaqişələri və onların aradan qaldırılması *(ADPU)* 77
30. ***Kərimova A.F.*** Ümummili Lider Heydər Əliyevin fəaliyyəti və əsərlərinin öyrədilməsi üzrə işin təkmilləşdirilməsi yolları *(GDU)* 79

II BÖLMƏ
MÜASİR DÖVRDƏ MÜƏLLİM HAZIRLIĞININ AKTUAL MƏSƏLƏLƏRİ

31. ***Aslanova Ü.S.*** Müəllimin pedaqoji etikası *(Bakı, 170 saylı məktəb)*.....82
32. ***Məmmədov N.R.*** Azərbaycanda müəllim hazırlığının inkişafında əlavə təhsilin rolu *(BSU)*.....85
33. ***Qasımova T.Ə., Adıgözəlova Ş.Ə.*** Tələbələrin müəllim peşə fəaliyyətinə hazırlığı *(SDU)*.....88
34. ***Əfəndiyeva F.E.*** Gələcək ibtidai sinif müəllimlərinin hazırlığında yeni təhsil proqramlarının rolu (müqayisəli təhlil) *(BSU)*.....90
35. ***Dadaşzadə Ə.İ.,Cəfərov P.T.*** Qloballaşma Azərbaycan təhsil sistemini modernləşməsinin mühüm amili kimi *(SDU)*.....93
36. ***Quliyeva A.P.*** Müəllimin nitq mədəniyyəti *(SDU)*.....96
37. ***Hüseynzadə R.L.*** İrəvan maarifçilik mühiti və İrəvan müəllimlər seminariyası *(ADPU)*.....98
38. ***Talıbova X.A.*** Dünya təcrübəsində müəllim hazırlığı *(ADPU)*.....99
39. ***Пашаева С.В.*** Значение и место патриотического воспитания в профессиональной деятельности преподавателя *(SDU)*.....103
40. ***Ибрагимова Н.А.*** Актуальные проблемы подготовки учителей русского языка в период современной глобализации *(BSU)*.....107
41. ***Гасанова Х.С., Байрамова Н.С.*** Актуальные вопросы научно-методической подготовки преподавателей математики в вузе *(SDU)*.....111
42. ***Məmmədova M.İ.*** Müəllim peşəsinə hazırlığın inkişaf səviyyələri *(ADPU)*.....114
43. ***Şərifova Ə.T.*** Müəllim mənəvi dünyanın memarı olmalıdır *(GDU)*.....116
44. ***Байрамова З.В., Кулиев А.И.*** Роль личности Гейдара Алиева в становлении педагогических кадров Азербайджана *(GDU)*.....118
45. ***Rzayeva N.T.*** Müəllim hazırlığında pedaqoji təcrübənin rolu *(ADPU)*.....121
46. ***Bəşirov V.P., Mahmudov A.K.*** Məktəbəqədər təhsilin inkişaf perspektivləri *(LDU)*.....123
47. ***Yunusova Ş.Ə.*** Səriştəli müəllim hazırlığı və təhsil sahəsində mövcud olan problemlərin aradan qaldırılması *(SDU)*.....125
48. ***Quliyeva S.M.*** Gələcək müəllimin peşəkar hazırlığına səriştə əsaslı yanaşma *(MDU)*.....127
49. ***Əliyev A.X.*** Azərbaycanda pedaqojı kadr hazırlığı strategiyasının həyata keçirilməsi milli-mənəvi və bəşəri dəyərlər kontekstində *(LDU)*.....130
50. ***Almasova A.F.*** Optimal idarətmənin əsas prinsiplərinin səciyyəsi *(LDU)*.....134
51. ***Vəliyeva S.V.*** Heydər Əliyevin müəllim səriştəsi və peşəkarlığı haqqında fikirləri *(SDU)*.....136
52. ***Nəsibova S.N.*** Qloballaşma dövründə Azərbaycan təhsilində Heydər Əliyev fenomeni *(GDU)*.....138
53. ***Nağıyeva Ü.F.*** Yaponiya, ABŞ və Azərbaycanda ibtidai sinif müəllimlərinin peşə hazırlığının və pedaqoji praktikasının standartlaşdırılmasının müqayisəli təhlili *(NDU)*.....141
54. ***Hüseynova A.H***. Müasir müəllim peşəsinə verilən pedaqoji tələblər *(SDU)*.....143
55. ***Novruzova G.S.*** XXI əsr məktəbləri üçün müəllim hazırlığının aktual məsələləri *(GDU)*.....146
56. ***Hüseynov Ş.Ə., Əhmədov Q.H.*** H.Əliyev ideyalarında müəllim şəxsiyyəti *(SDU)*.....150

III BÖLMƏ
MÜASİR DÖVRDƏ MÜƏLLİM ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASININ PSİXOLOJİ ASPEKTLƏRİ

57. ***Salamova K.B.*** Müəllimin şəxsi xüsusiyyətlərinin yaratdığı ünsiyyət çətinlikləri *(SDU)*.....154
58. ***Rzayeva S.B.*** Şagird şəxsiyyətinin formalaşmasında şəxsi nümunə *(SDU)*.....157
59. ***İsayeva Z.M.*** Müəllimin fəaliyyətində yaradıcılığın rolu *(SDU)*.....158
60. ***Məmmədov C.H***. Ali məktəb müəllimi və onun "rollar çələngi" *(SDU)*.....161
61. ***Mirzəyev R.N.*** Təlim prosesində tələbələrin əqli fəaliyyətinin psixoloji xüsusiyyətləri *(ADPU)*.....164
62. ***Musayeva İ.İ.*** Tələbələrlə ünsiyyətdə profaylinq üsulunun tətbiqi *(SDU)*.....167
63. ***Quliyeva Ş.M.*** Təlim prosesində müəllim və şagird münasibətlərinin psixoloji əsasları *(SDU)*.....169
64. ***Mirzəyeva S.S.*** Pedaqoji imicin formalaşmasının psixoloji aspektləri *(SDU)*.....171

65. ***Quliyeva A.E.*** 3-4 yaşlı uşaqların riyazi biliklərinin psixomotor fəaliyyətlə mənimsənilməsi *(BQU)* 174
66. ***Hacıyeva A.Ş.*** Müəllimin öyrətmə üslubunun gənclərin özünüaktuallaşdırmasına təsiri *(SDU)* 176
67. ***Məmmədova T.K.*** Müasir nəsrdə şəxsiyyət psixologiyası və özünüdərk *(SDU)* 180
68. ***Bayramov A.Ə.*** Deportasiya, yurd həsrəti və şəhidlik mövzularının bayatılarımızda psixoloji layı *(SDU)* 184
69. ***Xudu-zadə K.A.*** Müəllim şəxsiyyətinə verilən tələblər pedaqojı peşəyə hazırlığın əsas psixoloji aspekti kimi *(ADPU)* 187
70. ***Əliyeva V.R***. Qloballaşma şəraitində müəllim-tələbə münasibətlərinin formalaşmasının psixoloji aspektləri *(ADİU)* 189
71. ***Şəfiyeva E.İ., Allahyarova S.A., Səməndərova* A.F.** Məktəb mühitindəki bullinqin yeniyetmə şəxsiyyətinin formalaşmasına təsiri *(BDU)* 191
72. ***Səlimova Z.İ.*** Müasir dərsdə müəllim-şagird münasibətlərinin formalaşma səviyyəsinin psixoloji təhlili *(ADPU)* 194
73. ***Rəhimova Q.V.*** Müəllim şəxsiyyətinin formalaşdırılmasının psixoloji aspektləri *(ADPU)* 196
74. ***İsgəndərov E.A.***Yeniyetmələrin beyin quruluşundakı inkişaf və dəyişikliklərin onların tərbiyəsində nəzərə alınmasının psixoloji məsələləri *(ARTİ)* 199
75. ***Mehtiyeva K.N.*** Müasir dövrdə müəllim şəxsiyyəti və onun istiqaməti məsələləri *(ADPU)* 203
76. ***Karimova D.A.*** Psychological requirements in a teacher's personality development *(SDU)* 205
77. ***Rzayeva N.T.*** Panik atak və onun psixoloji xüsusiyyətləri *(ADPU)* 207
78. ***Əfəndiyeva Ü.A.*** Müasir dövrdə müəllim şəxsiyyətinə verilən psixoloji tələblər *(ADPU)* 210
79. ***Dadaşov İ.M.*** Texnologiya fənninin tədrisində müəllimin psixolojı hazırlığı *(SDU)* 213
80. ***Bunyatova A.B.*** İlkin süni bilinqvizmin psixolinqvistik əsasları *(SDU)* 215
81. ***Məmmədova S.Ə.*** Kiçik yaşlı məktəblilərin ünsiyyətdə emosional sferanın rolu *(BDU)* 219
82. ***Salmanova S.F.*** Adaptasiya probleminin tətqiqinə dair *(BDU)* 221
83. ***Bəylərov E.B.*** Müəllimin psixoloji portreti *(ARDGA)* 223
84. ***Ramilova N.İ.*** Depressiya fonunda yaranan koqnitiv pozuntular *(BDU)* 227

IV BÖLMƏ
MÜASİR DÖVRDƏ MÜƏLLİM ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASININ PEDAQOJİ ASPEKTLƏRİ

85. ***Müsəvi S.E.*** Mətn praqmatikasında fon biliyi problemi *(ADU)* 231
86. ***Allahverdiyeva L.N.*** Nitq mədəniyyəti uğurlu pedaqoji fəaliyyətin əsası kimi *(SDU)* 233
87. ***Əbiyev Q.Ş., Muxtarlı E.A.*** Müasir dövrdə müəllim şəxsiyyətinin formalaşdırılmasının pedaqoji aspektləri *(ADBTİA)* 236
88. ***Kərimova S.A.*** Müəllim-tələbə münasibətlərinin səmərəliliyinin müəyyən edilməsi *(SDU)* 239
89. ***Xudayarova G.H.*** İngilis dilinin tədrisi zamanı tələbələrdə motivasiyanın formalaşdırılmasında müəllimin rolu *(ADU)* 241
90. ***Namazova A.Y., Balakişiyeva M.Ə.*** Məsafədən təhsildə xarici dillərin (ingilis dilinin) tədrisi *(SDTK)* 243
91. ***Tağıyeva T.Ə.*** Müasir dövrdə ibtidai sinif müəlliminin şəxsiyyətinin formalaşdırılmasının pedaqojı aspektləri *(ADPU)* 247
92. ***Məmmədova A.C.*** Universitet müəlliminin pedaqojı ustalığının formalaşması problemi *(SDU)* 250
93. ***Əhmədova E.H.*** Morfologiyanın tədrisində fəal/interaktiv təlimin rolu *(SDU)* 252
94. ***Bayramova N.İ.*** Birgə tədris müəllimlərdə mültikultural dəyərlər aşılayır *(ADPU)* 256
95. ***Mürsəliyeva X.M.*** Dil və müəllim şəxsiyyəti *(SDU)* 259
96. ***Quliyeva G.N.*** Kimya təhsilinin humanitstləşdirilməsinin təlimin keyfiyyətinə təsiri *(SDU)* 261
97. ***Əlixanova G.H.*** Müəllim şəxsiyyəti gənc nəslin tərbiyəsində ən mühüm amil kimi *(ADPU)* 263
98. ***Рзазаде В.А.*** Роль и основные функции изучения иностранного языка как составной части педагогического процесса по подготовке кадров *(FHNA)* 267
99. ***Məmmədova A.Ə.*** Müasir dərslərdə inteqrasiyanın təmin olunması *(SDU)* 270
100. ***Məhərrəmova E.X.*** Müasir təlim prosesində müəllim – şagird əməkdaşlığı *(SDU)* 273

101. ***Rəfiyeva A.İ., Murtuzayeva G.M.*** Marağalı Əhvədinin "Cami-cəm" poemasında mənəvi tərbiyə *(SDU)*.....276
102. ***Jafarzada N.Kh.*** The role of pedagogy in the formation of teacher personality *(ADBTİA)* 278
103. ***Müzəffərov R.R.*** Müasir dövrdə müəllim şəxsiyyətinin formalaşdırılmasının pedaqoji aspektləri *(ARDİNPA)*.....282
104. ***Səfərova M.Q.*** İngilis dilinin Britaniya və Amerika variantlarında qrammatik f ərqlər (Aİİ) 284
105. ***Həbibullayeva V.M.*** Qloballaşma şəraitində təlim-tərbiyə prosesinin təşkili *(SDU)*.....288
106. ***Cəfərova N.B.*** Şagirdlərin oxu problemlərinin həllində müəllimin rolu *(ADPU)*.....290
107. ***Мамедова С.***М. Индивидуальность студента как основа индивидуализации учебного процесса 294
108. ***Mehrəliyev Ş.B.*** Kiçik məktəblilərin sosial pedaqoji korreksiya işinin inkişafetdirici və tərbiyəedici xüsusiyyətləri *(LDU)*.....297
109. ***Əliyeva S.Q.*** Müəllim-şagird münasibətləri stimullaşdırma və motivasiya vasitəsi kimi *(general-leytenant K.A.Kərimov adına 8 nömrəli tam orta məktəb)* 300
110. ***Baxşiyeva N.A.*** Yeni təlim texnologiyalarının ənənəvi təlim metodlarından fərqli cəhətləri *(LDU)*.....302
111. ***Səmədova G.F.*** Təhsil sistemində monitorinq və qiymətləndirmə ideyalarının elmi-nəzəri əsasları *(LDU)*.....305
112. ***Rzayeva A.F.*** Pedaqoji prosesdə həyata keçirilən təlim straregiyalarının tərbiyəedici əhəmiyyəti *(LDU)*.....307
113. ***Məmmədzadə G.H.*** Müəllimin çətin şagirdlərlə münasibətdə davranış strategiyaları *(ADMİU)* 309
114. ***Khalilova S.İ.*** Problem of teacher-student interaction in foreign language classes *(SDU)*.....311
115. ***Əliyev E.T***. Azərbaycan dili müəllimi və azərbaycan dili dərsliyi *(SDU)* 314
116. ***Quliyeva D.R.*** Cümlənin qurulmasında aktual üzvlənmənin rolu *(SDU)* 316
117. ***İsgəndərova K.Y.*** İngilis dilində etiket suallar və etiket cavabların tədrisi prosesindəki vacib məqamlar *(SDU)*.....319
118. ***Eyvazzadə M.V.*** Ümumtəhsil məktəblərində dərsdənkənar idman məşğələlərinin səmərəli təşkilinin tədqiqi *(ADBTİA)*.....322
119. ***İsmayılova S.A.*** Biologiya dərslərinin didaktik əsaslar üzərində qurulması *(ADPU)* 325
120. ***Isgəndəriyev B.A.*** Uşaq şeirlərinin tədrisində müəllimin bədii təsvir və ifadə vasitələrindən istifadə imkanları *(SDU)*.....327
121. ***Vəliyeva İ.X.*** Abbasqulu Ağa Bakixanovun "Təhzibül-əxlaq" əsərində əxlaq məsələlərinin pedaqoji təhlili *(SDU)*.....330
122. ***Rəhimova M.A.*** Pedaqoji prosesdə müəllimin pedaqoji mərifəti *(ADPU)* 332
123. ***Həsənova Z.R.*** Məktəbəqədər uşaqların müstəqillik və fəallığının inkişaf etdirilməsi yolları *(ADPU)* 333
124. ***Kübra M.H.*** Ali təhsil müəssisəsində müəllimin pedaqoji ustalığının formalaşması problemi *(SDU)* 335
125. ***Rahtari M.F.*** Uşaq folklorunda ana ilk müəllim kimi 338

V BÖLMƏ
MÜƏLLİM ŞƏXSİYYƏTİ VƏ İNKLÜZİV TƏHSİL

126. ***Cəfərova S.N.*** İnklüziv bağçalarda sağlamlıq imkanları məhdud uşaqların ailələri ilə görülən işin əsas istiqamətləri *(BSU)*.....341
127. ***Şərifova S.S.*** Müəllim şəxsiyyəti və inkluziv təhsil *(SDU)* 344
128. ***Quliyeva T.Ə., Abbasova N.B.*** Sumqayıt Dövlət Universitetində əlil tələbələrin inklüziv təhsili üçün şəraitin yaradılması *(SDU)*.....346
129. ***Əliyeva L.M***. İnklüziv təhsil şəraitində müəllim və psixoloqun rolu *(SDU)*.....349
130. ***Ağasiyeva Y.T.*** İnklüziv siniflərdə müəllimin şəxsi qabiliyyətləri *(ADPU)* 351
131. ***Əliyeva L.E.*** İnklüziv təhsil *(SDU)*.....354
132. ***Quliyeva A.A.*** İnklüziv təhsildə psixoloji yanaşma prinsiplərinin əsasları *(FHNA)*.....356

İXTİSARLAR

ADPU	*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
ADU	Azərbaycan Dillər Universiteti
AMEA	*Azərbaycan Milli Elmlər Akademiyası*
ADİU	*Azərbaycan Dövlət İqtisad Universiteti*
ADMİU	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənətUniversiteti
Aİİ	*Azərbaycan İlahiyyat İnstitutu*
ARTİ	Azərbaycan Respublikasının Təhsil İnstitutu
ARDİNPA	Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası
ADBTİA	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
ARDGA	Azərbaycan Respublikası Dövlət Gömrük Akademiyası
BDU	Bakı Dövlət Universiteti
BSU	Bakı Slavyan Universiteti
BQU	Bakı Qızlar Universiteti
FHNA	Fövqalədə Hallar Nazirliyinin Akademiyası
GDU	Gəncə Dövlət Universiteti
LDU	Lənkəran Dövlət Universiteti
MDU	Mingəçevir Dövlət Universiteti
NDU	Naxçıvan Dövlət Universiteti
SDU	Sumqayıt Dövlət Universiteti
SDTK	Sumqayıt Dövlət Texniki Kolleci

KONFRANS MATERİALLARI

2022 № 4

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ
SDU
Redaksiya və nəşr işləri şöbəsi